AZƏRBAYCAN KP MK yanında PARTİYA TARİXİ İNSTİTUTU
Sov.İKP MK yanında MARKSİZM-LENİNİZM İNSTİTUTUNUN FİLİALI

K.MARKS və F.ENGELS, Seçilmiş əsərləri, üç cilddə. Cild.1

MÜNDƏRİCAT

Müqəddimə
K.Marks. Feyerbax haqqında tezislər
K.Marks və F.Engels. Feyerbax materialist baxışı ilə idealist baxışın əksliyi («Alman ideologiyasının» I fəsli)
I
[1. Ümumiyyətlə ideologiya, xüsusən alman ideologiyası]
[2. Tarixin materialistcəsinə anlaşılmasının əsas tutduğu müqəddəm şərtlər]
[3. İstehsal və ünsiyyət. Əmək bölgüsu və mülkiyyət formaları: tayfa mülkiyyəti, antik mülkiyyət, feodal mülkiyyəti]
[4. Tarixin materialistcəsinə anlaşılmasının mahiyyəti. İctimai varlıq və ictimai şüur]
[II]
[1. İnsanları həqiqətdə azad etməyin şərtləri]
[2. Feyerbax materializminin seyrçiliyi və ardıcılsızlığının tənqidi]
[3. İlkin tarixi münasibətlər və ya ictimai fəaliyyətin əsas cəhətləri: həyat vasitələrinin istehsalı, yeni tələbatın törənməsi, insanlar istehsalı (ailə), ünsiyyat, şüur]
[4. İctimai əmək bölgüsü və onun nəticələri: xususn mülkiyyət, dövlət, ictimai fəaliyyətin «özgələşməsi»]
[5. Məhsuldar quvvəaərin inkişaf etdirilməsi kommunizmin maddi muqəddəm şərtidir]
[6. Tarixin materialist anlayışının nəticələri: tarixi prosesin varisliyi, tarixin ümumdünya tarixinə çevrilməsi, kommunist inqilabının zəruriliyi]
[7. Tarixin materiallistcəsinə anlaşılmasının xülasəsi]
[8. Tarixi idealistcəsinə anlayan butun əvvəlki fəlsəfənin, xüsusilə Hegeldən sonrakı alman fəlsəfəsinin əsassızlığı]
[9. Feyerbaxın əlavə tənqidi, onun tarixi idealistcəsinə anlamasının tənqidi]
[III]
[1 Hakim sinif və hakim şüur. Tarixdə ruhun hökmranlığı haqqında Hegelin təsəvvürü necə əmələ gəlmişdir]
[IV]
[1. İstehsal alətləri və mulkiyyət formaları]
[2. Maddi və mə`nəvi əməyin bölgüsu. Şəhərin kənddən ayrılması. Sex quruluşu]

[3. Sonrakı əmək bölgüsü. Ticarətin sənayedən ayrılması. Müxtəlif şəhərlər arasında əmək bölgüsü. Manufaktura]
[4. Ən geniş əmək bölgüsü. İri sənaye]
[5. Məhsuldar quvvələr ilə ünsiyyət forması arasındakı ziddiyyət ictimai inqilabın əsasıdır]
[6. Fərdlərin rəqabəti və siniflərin formalaşması. Fərdlər ilə onların həyat fəaliyyətinin şəraiti arasındakı əksliyin inkişafı. Burjua cəmiyyəti şəraitində fərdlərin saxta kollektivliyi və kommunizm şəraitində fərdlərin həqiqi birləşməsi. Cəmiyyətin həyat fəaliyyəti şəraitinin birləşmiş fərdlər hakimiyyətinə tabe edilməsi]
[7. Fərdlərlə onların həyat fəaliyyətinin şəraiti arasındakı ziddiyyət məhsuldar quvvələrlə ünsiyyət forması arasındakı ziddiyyətdir. Məhsuldar qüvvələrin inkişafı və ünsiyyət formalarının bir-birini əvəz etməsi]
[8. Tarixdə zorakılığın (istilanın) rolu]
[9. İri sənaye və azad rəqabət şəraitində məhsuldar qüvvələr ilə ünsiyyət forması arasındakı ziddiyyətin inkişafı. Əməklə kapital arasındakı əkslik]
[10. Xüsusi mulkiyyətin ləğv edilməsinin zəruriliyi, şərait və nəticələri]
[11. Dövlətin və hüququn mulkiyyətə münasibəti]
[12. İctimai şüur formaları]
F.Engels. Kommunizmin prinsipləri
K.Marks və F.Engels. Kommunist Partiyasının Manifesti
1872-ci il almanca nəşrinə müqəddimə
1882-ci il rusca ikinci nəşrinə müqəddimə
1883-cü il almanca nəşrinə F.Engelsin müqəddiməsi
1890-cı il almanca nəşrinə F.Engelsin müqəddiməsindən
1892-ci il polyakca nəşrinə F.Engelsin müqəddiməsi
1893-cü il italyanca nəşrinə F.Engelsin müqəddiməsi
Kommunist Partiyasının manifesti
I. Burjualar və proletarlar
II. Proletarlar və kommunistlər
III. Sosialist və kommunist ədəbiyyatı
1. Mürtəce sosializm
a) Feodal sosializmi
b) Xırda burzkua sosializmi
c) Alman sosializmi, yaxud «həqiqi» sosializm
2. Mühafizəkar, yaxud burjua sosializmi

3. Tənqidi-utopik sosializm və kommunizm
IV. Müxtəlif müxalifətçi partiyalara kommunistlərin münasibəti
K.MARKS, BURJUAZİYA VƏ ƏKSİNQİLAB, İkinci məqalə
K.MARKS, MUZDLU ƏMƏK VƏ KAPİTAL
1891-ci il nəşrinə F.Engelsin giriş məqaləsi
Muzdlu əmək və kapital
K.MARKS və F.ENGELS, MƏRKƏZİ KOMİTƏNİN KOMMUNİSTLƏR İTTİFAQINA MÜRACİƏTİ. Mart 1850-ci il
K.MARKS. 1848-ci İLDƏN 1850-ci İLƏDƏK FRANSADA SİNFİ MUBARİZƏ
1895-ci il nəşrinə F.Engelsin müqəddiməsi
1848-ci ildən1850-ci ilədək Fransada sinfi mübarizə
I. 1848-ci il iyun məğlubiyyəti
II. 13 iyun 1849-cu il
III. 1849-cu il 13 iyunun nəticələri
IV. 1850-ci ildə ümumi seçki hüququnun ləğv edilməsi
F.ENGELS. ALMANİYADA İNQİLAB VƏ ƏKSİNQİLAB
I. Almaniya inqilab ərəfəsində
II. Prussiya dövləti
III. Digər alman dövlətləri
IV. Avstriya
V. Vyanada usyan
VI. Berlində üsyan
VII. Frankfurt Milli məclisi
VIII. Polyaklar, çexlər və almanlar
IX. Panslavizm. Şlezviq-Holşteyn muharibəsi
X. Paris usyanı. Frankfurt məclisi
XI. Vyana usyanı
XII. Vyanaya hücum. Vyanaya edilən xəyanət
XIII. Prussiya Müəssislər məclisi. Milli məclis
XIV. Qayda-qanunun bərpa edilməsi. Reyxstaq və palata
XV. Prussiyanın qələbəsi
XVI. Milli məclis və hökumətlər
XVII. Üsyan
XVIII. Xırda burjuaziya
XIX. Üsyanın sonu

F.Engels. Bu yaxınlarda Kölndə olmuş mühakimə
K.Marks. Lui Bonapartın on səkkiz brümeri
1869-cu ildəki ikinci nəşrinə K.Marksın muqəddiməsi
1885-ci ildəki almanca üçüncü nəşrinə F.Engelsin müqəddiməsi
Lui Bonapartın on səkkiz brümeri
I
II
III
IV
V
VI
VII
K.Marks. Hindistanda Britaniya hökmranlığı
K.Marks. Hindistanda Britaniya hökmranlığının gələcək nəticələri
K.Marks. «The people`s paper»in yubileyində nitq, 1856-cı il aprelin 14-də londonda söylənmişdir
K.Marks. Siyasi iqtisadın tənqidinə dair müqəddimə
F.Engels. K.Marks. «siyasi iqtisadın tənqidinə dair
I
II
K.Marks. Məktublar
Marks–Pavel Vasilyeviç Annenkova, 28 dekabr [1846-cı il]
Marks–İosif Veydemeyerə, 5 mart 1852-ci il
Marks–Engelsə, 16 aprel [1856-cı il]
Marks–Engelsə, 25 sentyabr 1857-ci il
Qeydlər
Adlar göstəricisi
Ədəbi və mifoloji personajlar

MÜQƏDDİMƏ

K.Marks və F.Engelsin «Seçilmiş əsərləri»nin bu üçcildliyi onların əsərləri külliyyatının ikinci nəşrinə əsaslanır ki, bu da marksizm klassiklərinin ədəbi irsinin dəqiqləşdirilmiş yeni tərcüməsinin ən mükəmməl elmi nəşridir.

«Seçilmiş əsərləri»n üçcildliyində Marks və Engelsin böyük inqilabi tə`liminin üç tərkib hissəsinin hər üçünü marksizm fəlsəfəsini, siyasi iqtisadı və elmi kommunizm nəzəriyyəsini şərh edən çox mühüm əsərlər verilmişdir. Bə`zi əsaslı əsərlərin, əlbəttə, yalnız ayrı-ayrı bölmə və fəsilləri üçcildliyə daxil edilə bilərdi. Məsələn, K.Marksın «Kapital»ından birinci cildin XXIV fəsli, bu əsərin almanca birinci nəşrinə Marksın yazdığı müqəddimə ilə almanca ikinci nəşrinə yazdığı sözardı və ikinci cildə Engelsin yazdığı müqəddimədən bir parça verilir. F.Engelsin «Təbiətin dialektikası» əsərindən «Giriş», ««[Anti]-Dürinq»in köhnə müqəddiməsi, «Dialektika haqqında», «Meymunun insana çevrilməsi prosesində əməyin rolu» daxil edilmişdir; Engelsin «Sosializmin utopiyadan elmə doğru inkişafı» kitabçası bütövlüklə nəşr edilir ki, bu da onun «Anti-Dürinq» kitabının təkrar işlənmiş üç fəslindən ibarətdir.

K.Marks və F.Engelsin İnstitut tərəfindən 1948–1955-ci illərdə buraxılmış ikicildlik «Seçilmiş əsərləri»ndə dərc olunan bütün əsərlər üçcildliyə daxildir. Lakin üçcildlik ikicildliyə nisbətən xeyli genişləndirilmişdir. Marks və Engelsin «Alman ideologiyası»nın birinci fəsli–«Feyerbax. Materializm və idealizm baxışlarının əksliyi» fəsli üçcildliyə əlavə olaraq, daxil edilmişdir, bu fəsildə tarixin materialist anlayışının müfəssəl şərhi verilmişdir. Bir sıra başqa əsərlər, o cümlədən Marksın «Müvəqqəti Mərkəzi Şura nümayəndələrinə ayrı-ayrı məsələlər barəsində tə`limat», «Məxfi mə`lumat», «Haaqa konqresi haqqında», «Torpağın milliləşdirilməsi» əsərləri, V.İ.Zasuliçin məktubuna Marksın cavabının ilk qarası, habelə Engelsin: «Kommunizmin prinsipləri», «Almaniyada inqilab və əksinqilab» əsərləri, ««Rusiyada ictimai məsələ haqqında» əsərinə sözardı», «Tarixdə zorakılığın rolu», «1891-ci il sosial-demokrat proqramı layihəsinin tənqidinə dair» əsərləri üçcildliyə yeni daxil edilmişdir. Habelə Marks və Engelsin birlikdə yazdıqları «İnternasionalda qondarma təfriqələr» adlı əsər üçcildlikdə verilmişdir. Marks və Engelsin məktubları bölməsi də zənginləşdirilmişdir.

Üçcildlikdə material, əsasən, xronoloji qaydada düzülmüşdür. Müəlliflərin yazdığı müqəddimələr və sözardılar istisna təşkil edir; bunlar yazıldığı vaxtdan asılı olmayaraq, aid olduğu əsərlə birlikdə dərc edilir. Marks və Engelsin məktubları hər cildin sonunda, həmin cildin əhatə etdiyi dövrə uyğun olaraq çap edilir.
Üçcildliyin mə`lumat aparatı vardır. Hər cildin sonunda qeydlər, adlar göstəricisi və mövzu göstəricisi verilmişdir.
Üçcildliyi N.U.Belousova və K.İ.Konnova çapa hazırlamışlar, mövzu göstəricilərini L.R.Miskeviç hazırlamışdır.
Sov.İKP MK yanında Marksizm-Leninizm İnstitutu
K.MARKS
FEYERBAX HAQQINDA TEZİSLƏR1
1
Bütün bundan əvvəlki materializmin–Feyerbax materializminin də–başlıca nöqsanı ondan ibarətdir ki, predmet, gerçəklik, hissiyyat yalnız obyekt formasında və ya seyr formasında götürülərək, insanın hissi fəaliyyəti, təcrübəsi kimi götürülmür, subyektiv şəkildə götürülmür. Buna görə də belə olmuşdu ki, fəaliyyət cəhəti materializmin əksinə olaraq, idealizm tərəfindən, həm də ancaq abstrakt şəkildə inkişaf etdirilmişdi, zira aydındır ki, idealizm, hissi, gerçək fəaliyyəti olduğu kimi bilmir. Feyerbax, fikri obyektlərdən həqiqətən fərqli olan hissi obyektlərlə məşğul olmaq istəyir, lakin o, insan fəaliyyətinin özünü predmet fəaliyyəti kimi götürmür. Buna görə də «Xristianlığın mahiyyəti»ndə Feyerbax, ancaq nəzəri fəaliyyəti həqiqi insan fəaliyyəti hesab edir, halbuki təcrübə ancaq, onun çirkin-çərçi təzahür formasında götürülüb qeyd olunur. Buna görə də Feyerbax, «inqilabi» fəaliyyətin, «əməli-tənqidi» fəaliyyətin əhəmiyyətini başa düşmür.
2
İnsan təfəkkürünün predmet həqiqiliyinə malik olub-olmadığı məsələsi heç də nəzəriyyə məsələsi olmayıb əməli məsələdir. İnsan öz təfəkkürünün həqiqiliyini, yə`ni gerçəkliyini və qüdrətini, bu dünyaya məxsus olduğunu təcrübədə sübut etməlidir. Təcrübədən təcrid olunan təfəkkürün gerçək olub-olmadığı haqqındakı mübahisə, xalis sxolastik məsələdir.
3
İnsanların şərait və tərbiyənin məhsulu olduğu və deməli, dəyişilmiş insanların başqa şərait və dəyişmiş tərbiyənin məhsulu olduğu haqqındakı

materialist nəzəriyyə,–bu nəzəriyyə yaddan çıxarır ki, şəraiti dəyişdirən məhz insanlardır və tərbiyə verənin özünə də tərbiyə vermək lazımdır. Buna görə həmin nəzəriyyə labüd olaraq belə bir nəticəyə gəlir ki, cəmiyyəti iki hissəyə bölür və bu hissələrdən biri cəmiyyətin üstündə durur (məsələn, Robert Ouen etdiyi kimi).
Şəraitin dəyişilməsi ilə insan fəaliyyəti arasındakı mütabiqlik ancaq inqilabi təcrübə olaraq qavranılıb ağıllı başa düşülə bilər.
4
Feyerbax dinin özünü özündən kənar etməsi faktını, dünyanı ikiləyib xəyala gətirilən dini dünya ilə gerçək dünyaya ayırmağı əsas tutur. Buna görə də o, dini dünyanı onun yer üzündəki əsasına müncər etməklə məşğul olur. O görmür ki, bu iş yerinə yetirildikdən sonra əsas iş hələ görülməmiş qalır, yə`ni yer üzündəki əsasın özünü özündən ayırması və buludlar arasında özü üçün müstəqil bir aləm yaratması ancaq, həmin yer üzündəki əsasın özünün parçalanmış olması ilə və öz ziddiyyəti ilə izah edilə bilər. Deməli, yer üzündəki əsas, əvvələn, öz ziddiyyəti daxilində dərk edilməli, sonra da, bu ziddiyyəti aradan qaldırmaq yolu ilə əməli surətdə inqilabiləşdirilməlidir. Deməli, misal üçün, müqəddəs ailənin sirri yer üzündəki ailədə açıldıqdan sonra, yer üzündəki ailənin özü nəzəri tənqiddən keçirilməli və əməli inqilabi surətdə dəyişdirilməlidir.
5
Abstrakt təfəkkürdən razı qalmayan Feyerbax hissi seyri irəli sürür lakin o, hissiyyata əməli, insan-hissi fəaliyyəti kimi baxmır.
6
Feyerbax dinin mahiyyətini insan mahiyyətinə müncər edir. Lakin insanın mahiyyəti, ayrıca bir fərdə xas olan abstrakt bir şey deyildir. İnsan mahiyyəti öz gerçəkliyində ictimai münasibətlərin məcmusudur. Feyerbax bu gerçək mahiyyətin tənqidi ilə məşğul olmur, buna görə də məcbur olub:
1) tarixin gedişini nəzərə almır, dini hissi [Gemüt] ayrılıqda götürərək tədqiq edir və abstrakt–təcrid olunmuş–insan fərdi olduğunu fərz edir;
2) buna görə Feyerbaxda insan mahiyyəti ancaq «nəsil» kimi, bir çox fərdləri bir-birinə ancaq təbii bağlarla bağlayan daxili, sezilməz bir ümumilik kimi anlaşıla bilər.
7

Buna görə Feyerbax görmür ki, «dini hissin» özü ictimai məhsuldur və onun təhlil etdiyi abstrakt fərd həqiqətdə müəyyən bir ictimai formaya mənsubdur.

8

İctimai həyat, mahiyyət e`tibarı ilə əməli həyatdır. Nəzəriyyəni mistisizmə aparıb çıxaran bütün dini ayinlər öz rasional həllini bəşər praktikasında və bu praktikanın anlaşılmasında tapır.

9

Seyrçi materializmin, yə`ni hissiyyatı əməli fəaliyyət kimi dərk etməyən materializmin nail ola bildiyi ən böyük şey–«vətəndaş cəmiyyətində» ayrı-ayrı fərdləri onun seyr etməsidir.

10

Köhnə materializmin nöqteyi-nəzəri «vətəndaş» cəmiyyətidir yeni materializmin nöqteyi-nəzəri–insan cəmiyyətidir və ya ictimailəşmiş bəşəriyyətdir.

11

Filosoflar dünyanı ancaq müxtəlif şəkildə izah etmişlər, mətləb isə onu dəyişdirməkdən ibarətdir.

K.Marks tərəfindən 1845-ci ilin yazında yazılmışdır. İlk dəfə 1888-ci ildə F.Engelsin «Lüdviq Feyerbax və klassik alman fəlsəfəsinin sonu» əsərinin ayrıca nəşrinə əlavədə çap edilmişdir.

K.MARKS və F.ENGELS

FEYERBAX. MATERİALİST BAXIŞI İLƏ İDEALİST BAXIŞIN ƏKSLİYİ

(«ALMAN İDEOLOGİYASI»NIN I FƏSLİ)2

I

[v.1] Alman ideoloqlarının xəbər verdiklərinə görə, son illərdə Almaniyada misilsiz çevriliş əmələ gəlmişdir. Hegel sisteminin Ştrausdan başlanan dağılması prosesi3, bütün «keçmiş qüvvələrini» əhatə edən cahanşümul həyəcana çevrilmişdir. Ümumi qarmağarışıqlıq içində güclü dövlətlər əmələ gəlib dərhal yenidən yox olmuş, bir an üçün meydana çıxan qəhrəmanları daha cəsarətli və daha güclü rəqiblər yıxıb yenə də zülmətə göndərmişlər. Bu, elə bir inqilab idi ki, Fransa inqilabı bunun yanında ancaq uşaq oyunu idi; bu, elə cahanşümul bir mübarizə idi ki, onun yanında diadoxların4 mübarizəsi adama heç bir şey kimi görünür. Bə`zi prinsiplər başqa prinsipləri misli görünməmiş sür`ətlə sıxışdırıb aradan qaldırırdı,

bə`zi fikir qəhrəmanları başqalarını yıxıb devirirdi odur ki, üç il ərzində– 1842-dən 1845-dək Almaniyada keçirilən təmizləmə ondan əvvəl üç əsrdə keçirilmiş təmizləmədən daha əsaslı oldu.
Bunların hamısı da xalis fikir sahəsində baş veribmiş.
Hər halda qarşımızda maraqlı bir hadisə mütləq ruhun pozulub dağılması prosesi durur. Mütləq ruhda son həyat qığılcımı sönüb gedəndə bu «caput mortuum»un (Hərfən cansız baş, buradakı mə`nası cansız qalıqlar. Red.) müxtəlif tərkib hissələri dağıldı, yeni birləşmələrə daxil olub yeni maddələr əmələ gətirdi. Fəlsəfə ilə məşğul olub o vaxtadək mütləq ruhdan istifadə etməklə yaşayanlar, indi bu yeni birləşmələrin üstünə düşdülər. Onlardan hər biri özünə düşən payı çox böyük sə`ylə satmaqla məşğul olmağa başladı. İş rəqabətsiz keçə bilməzdi. Əvvəlcə rəqabət çox abırlı, bürgercəsinə ədəbli xarakter daşıyırdı. Lakin alman satış bazarı ağzınadək dolandan, dünya bazarında isə edilən bütün sə`ylərə baxmayaraq, əmtəə tələb edilməyəndən sonra bütün iş adi almansayağı gedib, fabriklərdə istehsalın şişirdilməsi, keyfiyyətin pisləşməsi, xammalın və etiketin saxtalaşdırılması, yalançı alışlar, veksel kələkbazlığı və həqiqi zəmini olmayan kredit sistemi üzündən korlandı. Rəqabət dönüb şiddətli mübarizəyə çevrildi indi bu mübarizəni tə`rifləyib bütün dünyada tarixi əhəmiyyəti olan bir çevriliş kimi, çox böyük nəticə və nailiyyətlər verən bir amil kimi təsvir edirlər.
Hətta hörmətli alman bürgerinin qəlbində onun üçün çox xoş milli hisslər oyadan bütün bu fəlsəfə fırıldaqçılığını layiqincə qiymətləndirmək üçün, bütün bu gənc hegelçilər hərəkatının xırdaçılığını, əyalət məhdudluğunu əyani şəkildə göstərmək üçün, xüsusən isə bu qəhrəmanların həqiqi əməlləri ilə bu əməllərin doğurduğu xəyallar arasındakı faciəli komik ziddiyyəti aşkara çıxarmaq üçün bütün bu hay-küyə Almaniyadan xaricdə olan bir mövqedən nəzər salmaq lazımdır.
(Üzü ağardılmış əlyazmasının birinci variantında daha sonra üstündən qələm çəkilib pozulmuş belə bir parça gəlirdi
«[s.2] Buna görə də biz bu hərəkatın ayrı-ayrı nümayəndələrinin xüsusi tənqidindən əvvəl bə`zi ümumi qeydləri giriş şəklində veririk, zira bu qeydlər onların hamısı üçün ümumi olan ideoloji müqəddəm şərtləri aydınlaşdırır. Bu qeydlər, tənqidimizin nöqteyi-nəzərini xarakterizə etmək, həm də sonrakı ayrı-ayrı tənqidi oçerkləri başa düşmək və əsaslandırmaq üçün kifayət edəcəkdir. Biz bu qeydləri [s.3] məhz Feyerbaxa qarşı

yönəldirik, çüiki o yeganə adamdır ki, irəliyə doğru, heç olmasa, bə`zi addımlar atmışdır və əsərləri «de bonne foi» [ciddi surətdə] təhlil edilə bilər.

1. Ümumiyyətlə ideologiya, xususilə alman fəlsəfəsi.

A. Bizim bildiyimiz yeganə bir elm, tarix elmidir. Tarix iki cəhətdən nəzərdən keçirilə bilər, onu təbiət tarixi ilə insanlar tarixinə bölmək olar. Lakin bu iki cəhət bir-biri ilə qırılmaz şəkildə bağlıdır nə qədər ki, insanlar mövcuddur, təbiət tarixi ilə insanlar tarixibir-birindən qarşılıqlı şəkildə asılıdır. Təbiətşünaslıq adlanan təbiət tarixinin burada bizə dəxli yoxdur, biz insanların tarixi ilə məşğul olacağıq, çünki, demək olar, bütün ideologiya ya bu tarixi yanlış başa düşməkdən, ya da ondan tamamilə ayrılıb təcrid olunmaqdan ibarətdir. ideologiyanın özü bu tarixin ancaq bir cəhətidir».

Üzü ağardılmış əlyazmasının birinci variantında daha sonra tarixin materialistcəsinə anlaşılmasının müqəddəm şərtləri haqqında üstündən qələm çəkilməmiş bir parça gəlir. Həmin nəşrdə bu parça aşağıda üzü ağardılmış əlyazmasının əsas (ikinci) variantının mətnində § 2 şəklində verilmişdir (bax: səh. 7–8). Red.)

[1.] Ümumiyyətlə ideologiya, xüsusən alman ideologiyası

[l. 2] Alman tənqidi özünün son gücənməsinədək fəlsəfə zəminindən ayrılmırdı. Özünün ümumfəlsəfi müqəddəm şərtlərini tədqiq etməkdən çox uzaq olan bu tənqidin bütün problemləri müəyyən fəlsəfə sistemi zəminində, məhz Hegel sistemi zəminində əmələ gəlib böyümüşdür. Bu sistemin yalnız cavablarında deyil, suallarının özündə də uydurma var idi. Meydana təzəcə çıxmış bu tənqidçilərdən hər biri Hegel fəlsəfəsindən kənara çıxdığını iddia etsə də, bunlardan heç biri Hegel sistemini hərtərəfli tənqidə girişməyə, hətta təşəbbüs də etməmişdir, bunun da səbəbi Hegeldən bu cür asılı olmaqdır. Onların Hegelə qarşı və bir-birinə qarşı mübahisəsi bununla məhdudlaşır ki, onlardan hər biri Hegel sisteminin bircə cəhətindən yapışıb onu həm bütövlükdə götürülən sistemə qarşı, həm də başqalarının tutub yapışdığı cəhətlərə qarşı yönəldir. Əvvəlcə onlar Hegel kateqormyalarından, məsələn, «substansiya» və «mənlik şüuru» (F.Ştrausun və B.Bauerin əsas kateqoriyaları. Red.) kateqoriyalarından xalis şəkildə, əslində olduğu kimi yapışırdılar; sonra bu kateqoriyaları camaata daha yaxın adla, məsələn, «cins», «vahid», «insan» (L.Feyerbaxın və M.Ştirnerin əsas kateqoriyaları. Red.) və i.a. adlandırıb təhrif etdilər.

Ştrausdan Ştirnerədək bütün alman fəlsəfi tənqidi dini təsəvvürlərin tənqidi ilə məhdudlaşır (Əlyazmasında daha sonra aşağıdakı parçanın üstündən qələm çəkilib pozulmuşdur «Bu tənqid dünyanı hər cür bəladan xilas edən mütləq xilaskar rolunu oynadığını iddia edirdi. Həmişə din bu filosofların xoşuna gəlməyən münasibətlərin son səbəbi kimi, başlıca düşmən kimi gözdən keçirilir və təfsir edilirdi». Red). Həqiqi din və sözün əsil mə`nasında ilahiyyat burada çıxış nöqtəsi vəzifəsini görürdü. Dini şüur və dini təsəvvürün nə demək olduğuna sonralar müxtəlif şəkildə tə`rif verilirdi. Bütün tərəqqi ondan ibarət idi ki, zahirən hakim olan metafizik, siyasi, hüquqi, əxlaqi və başqa təsəvvürlər də dini təsəvvürlər və ya ilahiyyat təsəvvürləri sahəsinə gətirilib çıxardılırdı, bir də ondan ibarət idi ki, siyasi, hüquqi və əxlaqi şüur dini şüur və ya ilahiyyat şüuru e`lan edilirdi, müəyyən siyasi, hüquqi, əxlaqi keyfiyyətlərə malik insan isə–nəticə e`tibarı ilə «ümumiyyətlə insan»–dindar insan kimi qələmə verilirdi. Dinin hökmranlığı əvvəlcədən fərz edilirdi. Hökmran olan hər bir münasibət yavaş-yavaş dini münasibət kimi e`lan edilməyə başlanır və pərəstişə çevrilirdi,–hüquqa pərəstiş, dövlətə pərəstiş və i.a. şəklini alırdı. Hər yerdə yalnız ehkam və ehkama inam var idi. Dünya getdikcə daha böyük həcmdə dini qanunlara tabe edilirdi, o qədər ki, nəhayət, çox möhtərəm müqəddəs Maks (Maks Ştirner. Red.) onu «en bIos» (Tamamilə, başdan ayağa. Red.) müqəddəs e`lan edə bildi və beləliklə, onun işini həmişəlik bitirmiş oldu.

Köhnə hegelçilər belə hesab edirdilər ki, onlar hər şeyi Hegelin bu və ya başqa bir məntiqi kateqoriyasına gətirib çıxarmışlarsa, başa düşmüşlər. Gənc hegelçilər hər şeyi tənqid edərək, hər yerə dini təsəvvür gətirir və ya hər şeyi ilahi e`lan edirdilər. Gənc hegelçilər köhnə hegelçilərin belə bir inamına şərikdirlər ki, mövcud dünyada din, anlayışlar, ən ümumi olan şey hökmrandır. Lakin bə`ziləri bu hökmranlığı qəsbkarlıq sayıb ona qarşı üsyan edirlər, başqaları isə bu hökmranlığı qanuni bir şey kimi mədh edib tə`rifləyirlər.

Bu gənc hegelçilərin nəzərində təsəvvürlər, fikirlər və anlayışlar, onların müstəqil bir şeyə çevirdikləri ümumiyyətlə şüur məhsulları insanların əsil buxovu hesab olunduğuna görə,–eyni ilə köhnə hegelçilərdə olduğu kimi bunlar insan cəmiyyətinin həqiqi bəndləri e`lan edildiyinə görə,–aydındır ki, gənc hegelçilər ancaq şüurun bu illüziyalarına qarşı mübarizə etməlidirlər. Gənc hegelçilərin fantaziyasına görə insanların münasibətləri,

bütün hərəkətləri və bütün rəftarı, onların buxov və hədləri öz şüurlarının məhsulu olduğuna görə, gənc hegelçilər tam ardıcıllıqla insanların qarşısına belə bir mə`nəvi tələb qoyurlar ki, indiki şüurlarını insani, tənqidi və ya eqoist şüurla (L.Feyerbax, B.Bauer və M.Ştirner nəzərdə tutulur. Red) əvəz etsinlər və beləliklə, onları sıxışdıran hədləri aradan qaldırsınlar. Şüuru dəyişdirmək haqqında irəli sürülən bu tələb, mövcud şeyi başqa cür təfsir etmək tələbindən ibarətdir ki, bu da mövcud olanı təsdit edib başqa şəkildə təfsir etmək deməkdir. Gənc hegelçi ideoloqlar, onların guya «dünyanı sarsıdan» ibarələrinə5 əks olaraq, çox böyük mühafizəkardırlar. Gənc hegelçilərin ən gəncləri öz fəaliyyətləri üçün ən dəqiq bir ifadə tapıb bildirmişlər ki, onllr ancaq «ibarələrə» qarşı mübarizə edirlər. Ancaq onlar unudurlar ki, özləri bu ibarələrin qarşısına ibarədən başqa bir şey qoymurlar və mövcud olan həqiqi dünyanın yalnız ibarələrinə qarşı mübarizə edirlərsə, heç də bu dünyaya qarşı mübarizə etmirlər. Bu fəlsəfi tənqidin əldə edə bildiyi yeganə nəticə xristianlıq haqqında bir neçə izahatdan, özü də dinin tarixi haqqında birtərəfli izahatdan ibarətdir; onların bütün başqa iddiaları isə, bu əhəmiyyətsiz izahatla guya dünya miqyasında tarixi əhəmiyyətli kəşflər etdikləri haqqındakı iddialara verilən bəzək-düzəkdən başqa bir şey deyildir.

Bu filosoflardan heç birinin ağlına belə gəlməmişdir ki, alman fəlsəfəsinin həqiqi alman gerçəkliyi ilə əlaqəsi olduğuna, onların tənqidi fikirləri ilə öz yaşadıqları maddi mühit arasında əlaqə olduğuna dair özlərinə bir sual versin (Əlyazmasının üzü ağardılmış əsas variantında sonra səhnfənin qalan hissəsində mətn yoxdur. Sonra yeni səhifədən başlayan mətn indiki nəşrdə § 3 şəklində verilir. Red.).

[2. Tarixin materialistcəsinə anlaşılmasının əsas tutduğu müqəddəm şərtlər]

(Həmin paraqrafın mətni üzü ağardılmış əlyazmasının birini variantından götürülmüşdür. Red.)

[s. 3] O müqəddəm şərtlər ki, biz onlardan başlayırıq əsassız deyildir, onlar ehkam deyildir, elə həqiqi müqəddəm şərtlərdir ki, bunlardan ancaq xəyalən sərf-nəzər etmək olar. Bunlar–həqiqi fərdlərdir, onların fəaliyyətidir, onların həyatının həm hazır şəkildə tapıb əldə etdikləri, həm də öz fəaliyyətləri ilə yaratdıqları maddi şəraitidir. Beləliklə, bu müqəddəm şərtlər xalis empirik yolla müəyyən edilə bilər [s. 4].

Hər bir bəşər tarixinin birinci müqəddəm şərti, əlbəttə, canlı insan fərdlərinin mövcud olmasıdır (Əlyazmasında daha sonra üstündən qələm

çəkilib pozulan belə bir parça gəlir: «Bu fərdləri heyvanlardan fərqləndirən birinci tarixi iş ondan ibarət deyildir ki, fərdlər düşünürlər, ondan ibarətdir ki, fərdlər özləri üçün zəruri olan həyat vasitələrini istehsal etməyə başlayırlar». Red.). Buna görə də müəyyən şəkildə təsdiq edilməsi lazım gələn birinci konkret fakt bu fərdlərin bədən quruluşu və bundan asılı olaraq, yerdə qalan təbiətə fərdlərin münasibətidir. Aydındır ki, biz burada nə insanların özünün cismani xassələrini öyrənməkdə, nə də onların rast gəldikləri təbii şəraiti, yə`ni geoloji, oroqrafik-hidroqrafik münasibətləri, iqlim münasibətlərini və başqa münasibətləri öyrənməkdə dərinliklərə əl ata bilmərik (Əlyazmasında daha sonra ustündən qələm çəkilmiş belə bir parça gəlir: «Lakin bu münasibətlər insanların yalnız təbii surətdə əmələ gələn ilk bədən quruluşu və xüsusən onların arasındakı irq fərqləri üçün şərt olmaq deyil, bu günədək davam edən bütün sonrakı inkişaf və ya inkişafın yoxluğu üçün də şərt olmuşdur». Red.). Hər bir tarixşünaslıq bu təbii əsasları və tarixin gedişində insanların fəaliyyəti nəticəsində bu əsasların uğradığı dəyişiklikləri rəhbər tutmalıdır.

İnsanları heyvanlardan şüura görə, dinə görə–ümumiyyətlə istənilən hər şeyə görə ,–fərqləndirmək olar. Onların özləri bədənlərinin quruluşundan asılı olan addımı ataraq, özləri üçün zəruri həyat vasitələrini istehsal etməyə başlayan kimi özlərini heyvanlardan fərqləndirməyə başlamış olurlar. İnsanlar özləri üçün zəruri olan həyat vasitələrini istehsal etməklə öz maddi həyatlarının özünü də dolayı yolla istehsal edirlər.

İnsanlar özləri üçün zəruri olan həyat vasitələrini istehsal edirkən işlətdikləri üsul hər şeydən əvvəl onların hazır şəkildə tapdıqları və yenidən hasil edilməsi lazım gələn həyat vasitələrinin özünün xassələrindən asılıdır. [s. 5] Bu istehsal üsulunu onun, yalnız fərdlərin cismani mövcudluğunun təkrar istehsalı olması cəhətdən təhlil etmək olmaz. Bu istehsal üsulu daha artıq dərəcədə həmin fərdlərin müəyyən fəaliyyət üsuludur, onların həyat fəaliyyətinin müəyyən növüdür, onların müəyyən həyat tərzidir. Fərdlərin həyat fəaliyyəti necədirsə, onların özləri də elədir. Deməli, onlar nədirlərsə, bu onların istehsalına uyğundur, həm onların nə istehsal etdiklərinə, həm də necə istehsal etdiklərinə uyğuidur. Deməli, fərdlərin nə olduqları onların istehsalının maddi şəraitindən asılıdır.

Bu istehsal ilk dəfə əhalinin artması ilə başlanır. Bunun özü yenə də fərdlərin öz aralarında ünsiyyət [Verkehr] olmasını tələb edir6. Bu ünsiyyət forması da istehsaldan asılıdır (Üzü ağardılmış əlyazmasının birinci

variantı burada qurtarır. İndiki nəşrdə daha sonra yenə də uzü ağardılmış əlyazmasının əsas variantının mətni gəlir. Red).
[3. İstehsal və ünsiyyət. Əmək bölgüsü və mülkiyyət formaları: tayfa mülkiyyəti, antik mülkiyyət, feodal mülkiyyəti]
[v. 3] Müxtəlif millətlər arasındakı qarşılıqlı münasibətlər bunlardan hər birinin öz məhsuldar qüvvələrini, əmək bölgüsünü və daxildəki ünsiyyətini nə dərəcədə inkişaf etdirmiş olmasından asılıdır. Bu müddəa ümumiyyətlə qəbul olunmuş müddəadır. Lakin bir millətin başqa millətlərlə yalnız əlaqəsi deyil, millətin özünün daxili quruluşu da onun istehsalının, daxili və xarici əlaqələrinin inkişafı dərəcəsindən asılıdır. Millətin məhsuldar qüvvələrinin inkişaf səviyyəsi bu millətdə əmək bölgüsünün nə dərəcədə inkişaf etdiyində aydın aşkara çıxır. Hər bir yeni məhsuldar qüvvə,–o vaxtadək mə`lum olan məhsuldar qüvvələrin sadəcə kəmiyyət cəhətdən genişlənməsindən ibarət olmadığı üçün (məsələn, yeni torpaqların əkilib becərilməsi),–əmək bölgüsünün daha da inkişaf etməsinə səbəb olur.
Bu və ya başqa bir millət daxilində əmək bölgüsü hər şeydən əvvəl sənaye və ticarət əməyinin əkinçilik əməyindən ayrılması ilə nəticələnir, beləliklə də şəhərin kənddən ayrılmasına və bunların mənafeyinin bir-birinə əks olmasına gətirib çıxarır. Əmək bölgüsünün daha da inkişaf etməsi ticarət əməyinin sənaye əməyindən ayrılıb xüsusiləşməsi ilə nəticələnir. Eyni zamanda bu müxtəlif sahələr daxilində əmək bölgüsü nəticəsində bu və ya başqa bir əmək sahəsində əməkdaşlıq edən fərdlərin müxtəlif bölmələri də, öz növbəsində inkişaf edir. Bu müxtəlif bölmələrin bir-birinə nisbətlə vəziyyəti əkinçilik, sənaye və ticarət əməyinin tətbiq olunması üsulundan (patriarxallıq, kölələk, silklər, siniflər) asılıdır. Ünsiyyət daha çox inkişaf edəndə həmin münasibətlər müxtəlif millətlər arasındakı qarşılıqlı münasibətlərdə də aşkara çıxır
Əmək bölgüsünün müxtəlif inkişaf pillələri eyni zamanda müxtəlif mülkiyyət formalarıdır, yə`ni əmək bölgüsünün hər pilləsi fərdlərin materiala, alətlərə və əmək məhsullarına münasibətlərinə uyğun olaraq, onların bir-biri ilə münasibətlərini də müəyyən edir.
Birinci mülkiyyət forması tayfa mülkiyyətidir7. Bu mülkiyyət istehsalın inkişaf etməmiş mərhələsinə uyğundur, bu zaman insanlar ovçuluq və balıqçılıqla, maldarlıqla və ya, ən çoxu, əkinçiliklə məşğul olub yaşayırlar. Son halda, insanlar əkinçiliklə məşğul olanda mülkiyyət forması tələb edir ki, hələ mənimsənilməmiş torpaqlar xeyli çox olsun. Bu mərhələdə əmək

bölgüsü hələ çox zəif inkişaf etmişdir və ailədə təbii şəkildə əmələ gələrək mövcud olan əmək bölgüsünün daha da genişlənməsi ilə məhdudlaşır. Buna görə də ictimai quruluş ailənin yalnız genişlənməsi ilə məhdud olur: tayfanın patriarxal başçısı, ona tabe edilən tayfa üzvləri, nəhayət, qullar. Ailədə gizli şəkildə mövcud olan köləlik ancaq tədriclə, əhalinin və tələbatın artması və xariclə ünsiyyətin–həm müharibələr şəklində, həm də mübadilə ticarəti şəklində–genişlənməsi ilə birlikdə inkişaf edir.
İkinci mülkiyyət forması antik icma və dövlət mülkiyyətidir ki, başlıca olaraq, bir neçə tayfanın müqavilə bağlamaq və ya istilaçılıq yolu ilə bir şəhərdə birləşməsi nəticəsində meydana gəlir və burada köləlik mühafizə olunub qalır. İcma mülkiyyəti ilə yanaşı daşınan, sonralar isə habelə daşınmayan xüsusi mülkiyyət də inkişaf edir, lakin bu xüsusi mülkiyyət forması normadan kənara çıxıb icma mülkiyyətinə tabe vəziyyətdə olur. Dövlətin vətəndaşları özlərinin işləyən qullarına yalnız birlikdə sahiblik edirlər və buna görə də icma mülkiyyəti forması ilə əlaqədardırlar. Bu, dövlətin fəal vətəndaşlarının birgə xüsusi mülkiyyətidir və bu vətəndaşlar təbii şəkildə əmələ gəlmiş bu birlik formasını qulların qarşısında mühafizə edib saxlamağa məcburdurlar. Buna görə də cəmiyyətin həmin bünövrəyə əsaslanan bütün quruluşu və onunla birlikdə xalq hakimiyyəti tənəzzül edir, həm də xüsusi mülkiyyət, xüsusilə də daşınmayan xüsusi mülkiyyət nə dərəcədə inkişaf edirsə, bu da eyni dərəcədə tənəzzül edir. Əmək bölgüsü daha artıq inkişaf etmiş xarakterdə olur. Biz artıq şəhər ilə kənd arasında, sonralar isə dövlətlər arasında əksliklərə təsadüf edirik, bu dövlətlərdən bə`ziləri şəhərlərin, bə`ziləri də kəndlərin mənafeyini təmsil edir şəhərlərin daxilində isə əkslik sənaye ilə dəniz ticarəti arasında olur. Vətəndaşlar ilə qullar arasında sinfi münasibətlər artıq özünün tam inkişaf etmiş dərəcəsinə çatmışdır.
Burada xüsusi mülkiyyət inkişaf edəndən sonra ilk dəfə elə münasibətlər meydana gəlir ki, biz bu münasibətlərə–ancaq daha iri miqyasda–müasir xüsusi mülkiyyəti gözdən keçirəndə yenə də təsadüf edəcəyik. Bir tərəfdən, Romada xüsusi mülkiyyətin çox tez başlanan təmərküzüdür (Litsininin aqrar qanunu8 bunun sübutudur), bu, vətəndaş müharibələri zamanından e`tibarən və xüsusilə imperatorlar zamanında çox sür`ətlə inkişaf etmişdi; digər tərəfdən isə, bununla əlaqədar olaraq, plebey xırda kəndlilər proletariata çevrilmişdi; lakin bu proletariat varlı vətəndaşlar ilə qullar arasında orta vəziyyətdə olduğuna görə müstəqil surətdə inkişaf etmədi.

Üçüncü forma, feodal və ya silk mülkiyyəti formasıdır. Antik dövr üçün şəhər və onun kiçik ətrafı çıxış nöqtəsi vəzifəsini görmüşdüsə, orta əsrlər üçün kənd çıxış nöqtəsi vəzifəsini gördü. Çıxış nöqtəsində əmələ gələn bu dəyişiklik ilk əhalinin seyrəkliyindən və geniş sahədə yayılmış olmasından asılı idi və istilaçıların axını əhalinin sayını o qədər də artırmırdı. Buna görə də Yunadıstan və Romaya əks olaraq, feodalizmin inkişafı, Roma istilalarının və bunlarla əlaqədar olaraq, əvvəlcə əkinçiliyin yayılmasının hazırladığı daha geniş ərazidə başlandı. Tənəzzül edən Roma imperiyasının son əsrləri və Romanın barbarlar tərəfindən istila edilməsi külli miqdarda məhsuldar qüvvələri dağıtdı əkinçilik tənəzzül etdi, sənaye satışın getməməsi üzundən zəiflədi, ticarət ölgün hala düşdü və ya zorakılıqla dayandırıldı, kənd və şəhər əhalisi azaldı. İstilaçıların qarşılaşdığı bütün bu şərait və bu şəraitdən asılı olaraq, həyata keçirilən istila üsulu germanların hərbi quruluşunun tə`siri ilə feodal mülkiyyətini inkişaf etdirdi. Tayfa və icma mülkiyyətləri kimi feodal mülkiyyəti də müəyyən cəmliyə [Geminwesen] əsaslanır, lakin bilavasitə istehsal edən sinif olmaq e`tibarı ilə həmin cəmliyə əks olaraq antik dünyadakı kimi qullar deyil, xırda təhkimli kəndlilərdir. Feodalizmin tam inkişafı ilə birlikdə şəhərlərə qarşı antaqonizm də meydana çıxır. Torpaq sahibliyinin pilləli tabelik (iyerarxiya) quruluşu və bununla əlaqədar olan silahlı drujinalar sistemi zadəganlara təhkimlilər üzərində ağalıq etmək imkanı verirdi. Antik icma mülkiyyəti kimi bu feodalizm quruluşu da qul halına salınmış istehsal edən sinfə qarşı yönəldilən birlik idi; yalnız birlik formaları və bilavasitə istehsalçılara qarşı münasibət bir-birindən fərqli idi, çünki müxtəlif istehsal şəraiti mövcud idi.

Torpaq sahibliyinin bu feodalizm quruluşuna şəhərlərdə korporasiya mülkiyyəti, sənətin feodal təşkili uyğun idi. Burada mülkiyyət başlıca olaraq hər bir ayrıca fərdin əməyindən ibarət idi [v. 4]. Birləşmiş quldur zadəganlara qarşı birləşmək zərurəti, sənayeçi eyni zamanda tacir olduğu dövrdə bazar binalarına hiss edilən ehtiyac, o zaman çiçəklənib tərəqqi edən şəhərlərə axınla gələn qaçqın təhkimlilər rəqabətinin artması, bütün ölkənin feodalizm quruluşu–bütün bunlar sexləri törətdi əhali artdığı halda sayı heç dəyişməyib olduğu kimi qalan sənətkarlar içərisində ayrı-ayrı şəxslərin qənaət edib yavaş-yavaş kiçik kapital yığmaları nəticəsində usta köməkçiləri və şagirdləri sistemi inkişaf etdi və bu sistem kəndlərdə olan pilləli tabelik kimi şəhərlərdə də pilləli tabelik yaratdı,

Beləliklə, feodalizm dövründə başlıca mülkiyyət forması, bir tərəfdən torpaq mülkiyyətinə zəncirlənib bağlanan təhkimlilərin əməyi ilə birlikdə bu mülkiyyətin özü, digər tərəfdən isə usta köməkçilərinin əməyi üzərində hakim olan xırda kapitalın mövcud olması ilə sənətkarın öz əməyi idi. Bu iki mülkiyyət növünün quruluşu istehsalın məhdud münasibətlərindən– torpağın zəif və ibtidai şəkildə əkilib becərilməsindən və sənayenin sənət tipində olmasından asılı idi. Feodalizmin çiçəklənib inkişaf etdiyi dövrdə əmək bölgüsü az idi. Hər ölkədə şəhər ilə kənd arasında əkslik var idi; silk quruluşu, həqiqətən kəskin ifadə olunmuş xarakterdə idi, lakin kəndlərdə knyazlar, zadəganlar, ruhanilər və kəndlilər bölgüsündən, şəhərlərdə isə ustalar, usta köməkçiləri və şagirdlər, bir az sonra habelə günəmuzdçu plebeylər bölgüsündən başqa az-çox əhəmiyyətli əmək bölgüsü yox idi. Əkinçilikdə torpağın parsel şəklində becərilməsi bu bölgünü çətinləşdirirdi, bununla yanaşı kəndlilərin özünün ev sənayesi meydana gəlmişdi sənayedə isə ayrı-ayrı sənətlər daxilində əmək bölgüsü əsla yox idi, ayrı-ayrı sənətlər arasında isə əmək bölgüsü çox az idi. Daha köhnə şəhərlərdə sənaye ilə ticarət arasında əmək bölgüsü daha əvvəldən var idi yeni şəhərlərdə bu bölgü ancaq daha sonralar, yə`ni şəhərlər bir-biri ilə qarşılıqlı münasibətə girişdiyi zaman inkişaf etmişdi.

Daha geniş ərazilərin feodal krallıqlarında birləşməsi həm torpaq zadəganları, həm də şəhərlər üçün bir tələbat idi. Buna görə də hakim sinif olan zadəganların təşkilatına hər yerdə hökmdar başçılıq edirdi (Əlyazmasında bundan sonra səhifənin qalan hissəsində mətn yazılmamışdır. Daha sonra yeni səhifədən tarixin materialistcəsinə anlaşılmasının mahiyyəti haqqındakı xülasə başlanır. Mülkiyyətin dördüncü, burjua forması aşağıda, fəslin IV hissəsində gözdən keçirilir, §§ 2–4. Red.).

[4. Tarixin materialistcəsinə anlaşılmasının mahiyyəti. İctimai varlıq və ictimai şüur]

[v. 5] Beləliklə, iş bu vəziyyətdədir müəyyən tərzdə istehsal fəaliyyəti ilə məşğul olan müəyyən fərdlər (İlk variantı:: «müəyyən fərdlər müəyyən istehsal münasibətlərində». Red.), müəyyən ictimai və siyasi münasibətlərə girirlər. Empirik müşahidə ictimai və siyasi quruluşun istehsal ilə əlaqəsini ayrılıqda götürülən hər bir halda təcrübədə və heç bir kələkbazlığa və spekulyasiyaya yol vermədən aşkara çıxarmalıdır. İctimai quruluş və dövlət daim müəyyən fərdlərin həyat prosesindən meydana gəlir,–həm də

öz təsəvvüründə və ya özgəsinin təsəvvüründə belə görünə biləcək fərdlərin deyil, həqiqətdə olduğu kimi götürülən fərdlərin, yə`ni necə hərəkət edirlərsə, maddi istehsal ilə məşğul olurlarsa və deməli, onların özbaşınalığından asılı olmayan müəyyən maddi hədlərin, müqəddəm şərtlərin və şəraitin mövcudluğunda özlərini tə`sirli şəkildə necə büruzə verirlərsə, o şəkildə götürülən fərdlərin həyat prosesindən meydana gəlir (Əlyazmasında daha sonra üstündən qələm çəkilən belə bir parça gəlir «Bu fərdlərin özləri üçün yaratdığı təsəvvürlər ya onların təbiətə münasibətləri haqqındakı təsəvvürlərdir, yaxud öz aralarındakı münasibətlər haqqIIdakı təsəvvürlər, ya da onların özünün nə olduqları haqqındakı təsəvvürlərdir. Aydındır ki, bütün bu hallarda həmin təsəvvürlər onların həqiqi münasibətləri və fəaliyyətlərinin, onların istehsallarının, onların ünsiyyətlərinin, onların ictimai və siyasi təşkilatlarının–həqiqi və ya xəyali–şüurlu ifadəsidir. Bunun əksi olan ehtimal yalnız o halda mümkün sayıla bilər ki, maddi cəhətdən şərtləşdirilmiş həqiqi fərdlərin ruhundan başqa nə isə xüsusi bir ruhun da mövcud olduğu güman edilsin. Əgər bu fərdlərin həqiqi münasibətlərinin şüurlu ifadəsi xəyalidirsə, əgər onlar öz gerçəkliyini öz təsəvvürlərində başayaq qoyurlarsa, bu yenə də onların maddi fəaliyyətinin məhdud üsulda olmasının nəticəsidir və onların buradan irəli gələn məhdud ictimai münasibətlərinin nəticəsidir». Red.). İdeyaların, təsəvvürlərin və şüurun hasil edilməsi əvvəlcə bilavasitə insanların maddi fəaliyyətinə və maddi ünsiyyətinə, real həyat dilinə bağlıdır. Təsəvvürlərin əmələ gəlməsi, təfəkkür, insanların mə`nəvi ünsiyyəti burada onların maddi fəaliyyətinin hələ bilavasitə məhsuludur. Eyni hal, bu və ya başqa xalqın siyasəti, qanunları, əxlaqı, dini metafizikası və i.a. dilində təzahür edən mə`nəvi istehsala da aiddir. İnsanlar öz təsəvvürlərini, ideyalarını və sairəni özləri hasil edirlər, lakin burada hərəkətdə olan elə hqqiqi insanlardan bəhs edilir ki, onların istehsal qüvvələrinin müəyyən inkişaf dərəcəsində olması və ünsiyyətinin ən uzaq keçmişdəki formaları da daxil olmaqla buna uyğun şəkildə inkişaf etməsi şərt qoyulur (İlk variantı: «İnsanlar öz təsəvvürlərini, ideyalarını və i.a. özləri hasil edirlər və məhz o insanlar ki, öz maddi həyatlarının, öz maddi ünsiyyətlərinin istehsal üsulundan, ictimai və siyasi quruluşda onun sonrakı inkişafından asılıdırlar». Red.). Şüur [das Bewubtesein] heç vaxt dərk edilmiş varlıqdan [das bewubte Sein] başqa bir şey ola bilməz, insanların varlığı isə onların həyatının real prosesidir. Bütün ideologiyada insanlar və

onların münasibətləri qaranlıq kamerada olduğu kimi başayaq qoyulmuş olurlarsa, bu hadisə də eyni ilə onların həyatının tarixi prosesindən irəli gəlir necə ki, gözün tor qişasında şeylərin tərs şəkli onların həyatının bilavasitə fiziki prosesindən irəli gəlməkdədir.
Göydən yerə enən alman fəlsəfəsinin tamam əksinə olaraq, burada biz yerdən göyə qalxırıq, yə`ni insanların dediklərini, xəyal etdiklərini, təsəvvür etdiklərini əsas tutmuruq,–həmçinin biz yalnız sözdə mövcud olan, düşünülən, xəyal olunan, təsəvvür edilən insanları əsas tutmuruq ki, onlardan həqiqi insanlara keçək; bizim əsas tutduğumuz çıxış nöqtəsi fəaliyyət göstərən həqiqi insanlardır, habelə biz insanların həqiqi həyat prosesinin ideoloji in`ikaslarının və əks-sədalarının inkişafını da bu həyat prosesindən bir nəticə kimi çıxardırıq. Hətta insanların beynində əmələ gələn dumanlı törəmələr də onların maddi həyat prosesinin zəruri məhsuludur, bir növ buxarıdır ki, maddi müqəddəm şərtlərlə əlaqədar olan bu proses empirik şəkildə müəyyən edilə bilər. Beləliklə, əxlaq, din, metafizika və ideologiyanın başqa növləri və bunlara uyğun olan şüur formaları zahiri müstəqilliyini itirir. Onların tarixi yoxdur, onların inkişafı yoxdur: öz maddi istehsallarını və öz maddi ünsiyyətini inkişaf etdirən insanlar özlərinin bu gerçəkliyi ilə birlikdə öz təfəkkürlərini və öz təfəkkür məhsullarını da dəyişdirirlər. Şüur həyatı müəyyən etmir, həyat şüuru müəyyən edir. Birinci baxış üsulunda canlı bir fərd olmaq şərti ilə şüuru əsas tuturlar; gerçək həyata uyğun olan ikinci baxış tərzində isə həqiqi canlı fərdlərin özünü əsas tuturlar və şüura ancaq bu fərdlərin şüuru kimi baxırlar.
Bu baxış üsulu müqəddəm şərtlərdən məhrum deyildir. Bu üsul həqiqi müqəddəm şərtləri əsas tutur, bir an belə bunlardan ayrılmır. Bu üsulun müqəddəm şərtləri xəyali qapalılıq və mücərrədlik halında götürülmüş insanlar deyil, müəyyən şəraitdə cərəyan edib həqiqətdə, empirik şəkildə müşahidə olunan inkişaf prosesində götürülmüş insanlardır. Bu canlı həyat prosesi təsvir ediləndə tarix, özləri hələ abstrakt olan empiriklərdə olduğu kimi, cansız faktlar yığını olmaq vəziyyətindən, yaxud da idealistlərdə olduğu kimi, xəyali subyektlərin xəyali fəaliyyəti olmaq vəziyyətindən xilas edilir.
Həqiqi həyat qarşısında spekulyativ təfəkkürün qurtardığı yerdə, məhz burada həqiqi müsbət elm başlanır, insanların əməli fəaliyyəti, əməli inkişaf prosesi təsvir edilməyə başlanır. Şüur haqqında ibarələrin arası

kəsilir, zira bunların yerini həqiqi bilik tutmalıdır. Gerçəkliyin təsviri müstəqil fəlsəfəni öz həyati mühitindən məhrum edir. Ən yaxşı halda bu mühiti insanların tarixi inkişafının tədqiq olunmasından təcrid edilən ən ümumi nəticələrin bir yerə toplanması əvəz edə bilər. Həqiqi tarixdən qoparılıb ayrılan və özlüyündə götürülən bu mücərrədliklərin heç bir qiyməti yoxdur. Bunlar yalnız tarixi materialın qaydaya salınmasını asanlaşdırmaq üçün, onun ayrı-ayrıy təbəqələrinin ardıcıllığını nəzərdə tutmaq üçün yaraya bilər. Lakin fəlsəfədən fərqli olaraq bu mücərrədliklər heç də elə resept və ya sxemlər vermir ki, tarixi dövrləri bunlara uyğunlaşdırmaq mümkün olsun. Əksinə, çətinlik ancaq o zaman başlanır ki, insanlar ya keçmiş dövrlərdən birinə, ya da müasir dövrə aid materialı tədqiq edib qaydaya salmağa, onu həqiqi şəkildə təsvir etməyə girişirlər. Bu çətinliklərin aradan qaldırılması elə müqəddəm şərtlərdən asılıdır ki, bunlar burada əsla verilə bilməz, çünki bu müqəddəm şərtlər ancaq ayrılıqda götürülən hər dövrdəki fərdlərin həqiqi həyat prosesinin və fəaliyyətinin tədqiqinin gedişində yaranır. Biz ideologiyaya əks olaraq istifadə etdiyimiz bu mücərrədliklərdən bə`zilərini burada ayırıb tarixi misallar gətirməklə izah edəcəyik (Üzü ağardılmış əlyazmasının əsas (ikinci) variantı burada qurtarır. İndiki nəşrdə daha sonra ilk əlyazmasının üç hissəsi gəlir. Red.).

[II]

[1. İnsanları həqiqətdə azad etməyin şərtləri]

[1] Əlbəttə, biz özümüzü zəhmətə salıb müdrik filosoflarımıza öyrətməyəcəyik ki, əgər onlar fəlsəfəni, ilahiyyatı, substansiyanı və bütün başqa zir-zibili «mənlik şüurunda» əridib həll etmişlərsə, əgər onlar «insanı» heç bir zaman qulu olmadığı bu ibarələrin hökmranlığından azad etmişlərsə, «insanın» «azad edilmzsi» hələ bir addım da irəliləməmişdir (Marksın kənarda belə bir qeydi var: «Fəlsəfi və həqiqi azadlıq». «Ümumiyyətlə insan. Tək. Fərd». «Geoloji, hidroqrafik və i.a. şərait. İnsan bədəni. Tələbat və əmak». Red); həqiqi azadlığı ancaq həqiqi dünyada və həqiqi vasitələrlə həyata keçirmək mümkündür və başqa cür mümkün deyildir; buxar maşını və mül-cenni olmadan köləliyi aradan qaldırmaq olmaz və əkinçilik yaxşılaşdırılmadan təhkimçilik ləğv edilə bilməz; ümumiyyətlə nə qədər ki, insanlar özlərini yemək, içmək, mənzil və geyim cəhətdən keyfiyyət və kəmiyyətcə tamamilə tə`min edə bilmirlər, onları azad etmək olmaz. «Azadlıq» fikir işi deyil, tarixi işdir və tarixi

münasibətlər, sənayenin, ticarətin, əkinçiliyin, ünsiyyətin vəziyyəti onunla nəticələnəcəkdir... (Əlyazması korlanmışdır: vərəqin aşağı kənarı cırılmışdır və mətnin bir sətri yoxdur. Red.) [2] sonra, habelə onların müxtəlif inkişaf pillələrinə uyğun olaraq, substansiya, subyekt, mənlik şüuru və xalis tənqid cəfəngiyatını, eyni ilə də din və ilahiyyat cəfəngiyatını, bundan sonra isə onlar öz inkişafında kifayət qədər irəli getmiş olsalar, onu təkrar aradan qaldırarlar (Marksın kənarda belə bir qeydi var: «İbarələr və həqiqi hərəkət. İbarənin Almaniya üçün əhəmiyyəti». Red.). Əlbəttə, tarixi inkişafın ən acınacaqlı şəkildə əmələ gəldiyi Almaniya kimi bir ölkədə xalis fikir sahəsindəki bu hərəkətlər, köylərə qaldırılan bu hərəkətsiz yoxsulluq tarixi hərəkətlərin çatışmazlığının yerini doldurur, kök atır, odur ki, buna qarşı mübarizə etmək lazımdır. Lakin bu mübarizə yerli əhəmiyyəti olan mübarizədir (Marksın kənarda belə bir qeydi var: «Dil gerçəkliyin dilidir». Red.).
[2. Feyerbax materializminin seyrçiliyi və ardıcılsızlığının tənqidi]
...(Burada əlyazmasının beş səhifəsi çatışmır. Red.) [8] doğrudan da əməli materialist üçün, yə`ni kommunist üçün də bütün məsələ mövcud dünyanı inqilabiləşdirməkdən, mövcud vəziyyətə qarşı əməli surətdə çıxış etməkdən və bu vəziyyəti dəyişdirməkdən ibarətdir. Feyerbaxda buna bənzər baxışlara arabir təsadüf edilirsə də, bu baxışlar heç vaxt dağınıq gümanlar çərçivəsindən kənara çıxmır və onun ümumi dünyabaxışına çox cüz`i tə`sir göstərir, həm də o qədər cüz`i tə`sir göstərir ki, bu baxışlarda ancaq inkişaf edə biləcək rüşeymlərdən başqa bir şey görmək mümkün deyildir. Feyerbaxın hiss olunan dünyanı «anlaması» bir tərəfdən bu dünyanı yalnız seyr etməklə, digər tərəfdən isə ancaq duyğu ilə məhduddur. Feyerbax «həqiqi, tarixi insandan» deyil, «insan olmaq e`tibarı ilə insandan» bəhs edir. «İnsan olmaq e`tibarı ilə insan» əslində «almandır». Feyerbax birinci halda, hiss olunan dünyanı seyr edəndə labüddən elə şeylərə rast gəlir ki, bunlar onun şüuruna və hissinə ziddir, hiss olunan dünyanın bütün hissələri üçün onun güman etdiyi ahəngi, xüsusilə də insan ilə təbiətin ahəngini pozur (NB. Feyerbaxın səhvi onda deyildir ki, o, burnunun ucunda yerləşən hissi zahiriliyi hissi faktların daha dəqiq surətdə tədqiqi yolu ilə müəyyən edilmiş hissi gerçəkliyə tabe edir, ondadır ki, nəticədə Feyerbax hissiyyatın öhdəsindən gələ bilmir, ona yalnız «gözləri» ilə, yə`ni filosofun «çeşməyi» ilə baxmalı olur.). Feyerbax bu əngəli aradan qaldırmaq üçün məcbur olur ki, xilas yolunu yalnız

«burnunun ucunda olanı» görən adi seyretmə ilə şeylərin «həqiqi mahiyyətini» sezib görən daha yüksək fəlsəfi seyretmə arasında orta vəziyyətdə olan bir növ ikili seyretmədə axtarsın. Feyerbax görə bilmir ki, onu əhatə edən hissi dünya heç də bilavasitə əzəldən verilən və həmişə özünə bərabər olan bir şey deyildir, sənayenin və ictimai vəziyyətin məhsuludur, həm də o mə`nada ki, tarixi məhsuldur, tam bir sıra nəsillərin göstərdiyi fəaliyyətin nəticəsidir və bu nəsillərdən hər biri özündən əvvəlki nəslin çiyinlərində durub onun sənayesini və onun ünsiyyət üsulunu inkişaf etdirməyi davam etdirmişdir və onun ictimai quruluşunu, dəyişmiş tələbata uyğun olaraq dəyişdirmişdir. Hətta ən sadə «hissi yəqinlik» şeyləri ona yalnız ictimai inkişaf nəticəsində, sənaye və ticarət əlaqələri sayəsində çatıb mə`lum olmuşdur. Mə`lum olduğu üzrə, demək olar, bütün meyvə ağacları kimi albalı ağacı da bizim qurşaqda ancaq bir neçə əsr bundan əvvəl ticarət sayəsində meydana gəlmiş və beləliklə, Feyerbaxın «hissi yəqinliyinə» yalnız [9] müəyyən cəmiyyətin müəyyən zamandakı bu hərəkəti sayəsində çatıb mə`lum olmuşdur.

Burasını da qeyd edək ki, şeylər bu cür başa düşüləndə, yə`ni həqiqətdə olduğu və meydana gəldiyi kimi götürüləndə hər bir dərin mə`nalı fəlsəfi problem sadəcə bir növ empirik faktdan ibarət olur ki, irəlidə bu fikir daha aydın göstəriləcəkdir. Məsələn, insanın təbiətə münasibəti kimi mühüm məsələ (və ya hətta Bruno demişkən (səh. 110)9 «təbiət ilə tarixin əksilikləri» məsələsi, sanki bunlar bir-birindən ayrılmış iki «şeydir», sanki insan tarixin təbiətini və təbiətin tarixini həmişə öz qarşısında tutmur)– «substansiya» və «mənlik şüuru» haqqında «hədsiz dərəcədə böyük yaradıcılıq məhsulu» (Göte. «Faust», «Göylərdə proloq». Red.) törədən bu məsələ–belədir. «İnsanın təbiətlə birliyinin», pis cəhətdən şöhrət qazanmış bu birliyin həmişə sənayedə mövcud olub hər bir dövrdə sənayenin çox və ya az inkişaf etməsindən asılı olaraq dəyişdiyi, eyni ilə də insanın təbiətlə «mübarizəsi» və bu mübarizənin müvafiq əsas üzərində onun məhsuldar qüvvələrinin inkişafı ilə nəticələndiyi nəzərə alınarsa, bu məsələ özlüyündə ortadan qalxıb yox olur. Sənaye və ticarət, həyat üçün zəruri olan vasitələrin istehsalı və mübadiləsi öz tərəfindən müxtəlif ictimai siniflərin ayrılıb bölünməsi, aralarına həddqoyulması üçün şərt olur və öz növbəsində öz hərəkəti formalarında ondan asılı olur. Belə çıxır ki, Feyerbax, məsələn, Mançesterdə yalnız fabrik və maşınlar görür, halbuki yüz il bundan əvvəl orada ancaq ayaq cəhrəsi və əllə işlədilən toxuma

dəzgahları görmək olardı yaxud da Roma Kampanyesində ancaq otlaq və bataqlıqlar görür, halbuki Avqustun zamanında orada yalnız başdan-başa üzümlüklər və Roma kapitalistlərinin köşklərini görə bilərdi. Feyerbax xüsusilə təbiətşünaslığın təbiəti seyr etdiyindən bəhs edir, fizikşünas və kimyagərin ancaq gözunə görünən sirləri qeyd edir, lakin sənaye və ticarəq olmasaydı, təbiətşünaslıq nə ola bilərdi? Hətta bu «xalis» təbiətşünaslıq öz məqsədini, həmçinin öz materialını yalnız ticarət və sənaye sayəsində, insanların hiss olunan fəaliyyəti nəticəsində əldə edir. Bu fəaliyyət, bu arası kəsilmədən hiss olunan əmək və yaradıcılıq, bu istehsal, indi mövcud olub hiss olunan dünyanın o qədər dərin əsasını təşkil edir ki, heç olmazsa bir illiyə bu istehsalın arası kəsilmiş olarsa, Feyerbax nəinki təkcə təbiət aləmində çox böyük dəyişikliklər görərdi, hətta çox tez bir zamanda bütün bəşəbr dünyası olmazdı, Feyerbaxın özünün seyretmə qabiliyyəti və hətta onun öz varlığı olmazdı. Əlbəttə, bu şəraitdə xarici təbiət birinciliyini mühafizə edir və bütün bunlar «geneoatio aequivoca» (özbaşına törəmə. Red.) yolu ilə meydana gələn ilkin insanlara, əlbəttə, tətbiq edilə bilməz. Lakin bu fərqləndirmənin ancaq o dərəcədə mə`nası vardır ki, insana təbiətdən fərqli bir şey kimi baxılır. Burası da vardır ki, bəşər tarixindən daha əvvəl mövcud olan təbiət Feyerbaxın yaşayıb gördüyü təbiətin eyni deyildir; Avstraliyanın ən yeni mənşə`li ayrı-ayrı mərcan adaları, bəlkə də, müstəsna olmaqla, bu təbiət, indi daha heç bir yerdə mövcud deyildir, deməli, Feyerbax üçün də mövcud deyildir.

Doğrudur, «xalis» materialistlər qarşısında Feyerbaxın [10] çox böyük üstünlüyü ondan ibarətdir ki, Feyerbax inisanı da «hissi predmet» kimi qəbul edir; lakin Feyerbaxın insana «hissi fəaliyyət» kimi deyil, yalnız «hissi predmet» kimi baxması hələ bir tərəfə dursun,–çünki o, burada da nəzəriyyə dairəsində qalıb insanlara müəyyən ictimai əlaqələrində və onları əhatə edən həyat şəraitində, həqiqətdə nədirlərsə, onları o hala salan həyat şəraitində baxmır,–bu hələ bir tərəfə dursun, Feyerbax real şəkildə mövcud olan canlı insanlara heç vaxt əl çatdırmayıb abstrakt «insan» üzərində ilişib qalır və yalnız bununla kifayətlənir ki, «həqiqi, fərdi, cismani insanı» hiss sahəsində qəbul edir, yə`ni məhəbbət və dostluqdan, həm də idealizə edilmiş məhəbbət və dostluqdan başqa heç bir «bəşəri münasibət», «insanın insana münasibətini» tanımır. Feyerbax indiki həyat münasibətlərinin tənqidini vermir. Beləliklə, Feyerbax hissi dünyanın, onu təşkil edən fərdlərin məcmusu, canlı və hissi fəaliyyəti olduğunu başa

düşmək dərəcəsinə çatmır və buna görə də məsələn, sağlam adamlar əvəzinə sıraca xəstəliyinə tutulmuş, işləyib üzülmüş adamları və vərəmli yoxsulları görəndə məcbur olur ki, «daha yüksək seyrə» və ideal «nəsil bərabərləşməsinə» əl atsın, yə`ni məhz kommunist materialistin həm sənayeni, həm də ictimai quruluşu kögündən dəyişdirməyin zərurət və şəraitini gördüyü yerdə yenidən idealizmə yuvarlansın.
Nə qədər ki, Feyerbax materialietdir, tarix onun görüş dairəsindən kənarda qalır, elə ki, o, tarixi gözdən keçirib tədqiq edir, heç də materialist deyildir. Feyerbaxda materializm və tarix bir-birindən tamamilə ayrılmışdır ki, bu da yuxarıda deyilənlərdən aydındır (Əlyazmasında daha sonra üqtündən qələm çəkilib pozulan belə bir parça var:: «Buna baxmayaraq, biz burada tarix üzərində daha ətraflı dayanırıqsa, bu ancaq ona görədir ki, almanlar «tarix» və «tarixi» sözlərini `eşidəndə ancaq gerçəkliyi deyil, istədiyiniz hər şeyi təsəvvur etməyə adət etmişlər «şirindilli riyakar yaltaq» müqəddəs Bruno bunun parlaq misalıdır». Red.).
[3. İlkin tarixi münasibətlər və ya ictimai fəaliyyətin əsas cəhətləri: həyat vasitələrinin istehsalı, yeni tələbatın törənməsi, insanlar istehsalı (ailə), ünsiyyət, şüur]
[11] (Kənarda Marksın belə bir qeydi var: «Tarix». Red.) İşimiz, hər cür müqəddəm şərtdən azad olan almanlarla olduğuna görə, hər şeydən əvvəl, hər cür insan mövcudluğunun, deməli, hər bir tarixin ilkin müqəddəm şərtini müəyyənləşdirib qeyd etməliyik; məhz o müqəddəm şərti qeyd etməliyik ki, insanlar «tarixi yaratmaq» (Bax, həmin cild, səh. 38. Red.) qabiliyyətində olmaq üçün onların yaşamağa imkanı olmalıdır. Lakin həyat üçün hər şeydən əvvəl yemək, içmək, məskən, paltar və bə`zi başqa şeylər lazımdır (Kənarda Marksın belə qeydi var: «Hegel10. Geoloji, hidroqrafik və i.a. şərait. İnsanların bədəni. Tələbat, əmək». Red.). Beləliklə, birinci tarixi iş, bu tələbatı ödəmək üçün lazım olan vasitələrin istehsalıdır, maddi həyatın özünün istehsalıdır. Həm də bu, elə tarixi bir işdir, hər bir tarixin elə əsas şərtidir ki, insanların ancaq yaşaya bilməsi üçün (minlərcə il bundan əvvəl olduğu kimi indi də) hər gün, hər saat yerinə yetirilməlidir. hətta hissiyyat, müqəddəs Brunoda olduğu kimi, dəyənək11 kimi minimumdan ibarətdirsə, bu dəyənəyin istehsalına yönəldilən fəaliyyətin göstərilməsini tələb edir. Buna görə də hər bir tarixi gerçəklik aydınlaşdırılanda ən əvvəl bu əsas faktı bütün əhəmiyyəti və həcmində nəzərə almaq və layiq olduğu yeri ona vermək lazımdır. Mə`lum olduğu

kimi, almanlar heç vaxt bunu etməmişlər, buna görə də onların tarix üçün heç vaxt dünyəvi əsası olmamışdır, bu səbəblə də heç vaxt heç bir tarixçiləri olmamışdır. Fransız və ingilislər bu faktın tarix deyilən şeylə əlaqəsini son dərəcə birtərəfli anlamış olsalar da,–xüsusilə siyasi ideologiyanın əsiri olsalar da,–tarixşünaslığı maddi əsas üzərinə keçirməyə ilk təşəbbüs göstərmiş, vətəndaş cəmiyyətinin, ticarət və sənayenin tarixini birinci dəfə yazmışlar.

İkinci fakt ondan ibarətdir ki, [12] ödənilmiş ilk tələbatın özü, ödəmə fəaliyyəti və əldə edilən ödəmə aləti tələbatın əmələ gəlməsinə səbəb olur və bu yeni tələbatın törəməsi birinci tarixi işdir. Buradan dərhal aydın olur ki, almanlar müsbət materialın özlərinə çatışmadığı ilahiyyat cəfəngiyatından, siyasi və ya ədəbi cəfəngiyatdan bəhs edilmədiyi yerdə heç bir tarixin olmadığını, yalnız «tarixdən əvvəlki zamanın» olduğunu zənn edirlərsə, onların bu böyük tarixi müdrikliyi kimin mə`nəvi törəməsidir; həm də bu mə`nasız «tarixdən əvvəlki zamandan» əsil tarixə keçidin necə əmələ gəldiyi haqqında bizə heç bir izanat verilmir. Burası da qeyd edilməlidir ki, digər tərəfdən olacaqların tarixi spekulyasiyası bu «tarixdən əvvəlki zamana» xüsusi həvəslə hücum edir, çünki onlar burada özlərini «kobud faktın» soxulmasından tə`min olunmuş hesab edirlər və bununla birlikdə özlərinin spekulyativ həvəslərinə tam sərbəstlik verib minlərlə fərziyyə yaradır və dağıdırlar.

Tarixi inkişafın gedişinə ən əvvəldən qoşulan üçüncü münasibət ondan ibarətdir ki, öz həyatlarını hər gün yenidən istehsal edən insanlar başqa insanları da istehsal etməyə başlayıb çoxalırlar bu münasibət ər ilə arvad arasındakı, ata-ana ilə uşaqlar arasındakı münasibətlərdir, ailədir. Başlanğıcda yeganə ictimai münasibət olan bu ailə, sonralar çoxalmış tələbat yeni ictimai münasibətlər törətdiyi, çoxalmış əhali isə yeni tələbat əmələ gətirdiyi zaman (Almaniya müstəsna olmaqla) tabe edilmiş münasibət olur və onda adətən Almaniyada edildiyi kimi «ailə anlayışı» əsasında deyil, mövcud empirik mə`lumat əsasında gözdən keçirilib tədqiq edilməlidir.

Burası da qeyd edilməlidir ki, ictimai fəaliyyətin bu üç cəhətini üç müxtəlif pillə kimi deyil, məhz yalnız üç cəhət kimi və ya–almanlar üçün aydın olmaqdan ötrü–tarixin lap başlanğıcından, ilk insanlar zamanından birlikdə mövcud olub tarixdə indi də qüvvədə olan üç «an» kimi gözdən keçirmək lazımdır.

İnsanın həm öz həyatını əmək vasitəsi ilə, həm də başqasının həyatını uşaq törətmək vasitəsi ilə istehsal etməsi özünü birdən ikitərəfli [13] münasibət kimi göstərir bir tərəfdən təbii münasibət kimi, digər tərəfdən isə ictimai münasibət kimi aşkara çıxır; həm də o mə`nada ictimai münasibət ki, burada bir çox fərdlərin hansı şəraitdə, necə və hansı məqsədlə olursa-olsun, heç fərqi yoxdur, birlikdə göstərdiyi fəaliyyət nəzərdə tutulur. Buradan belə bir nəticə çıxır ki, müəyyən istehsal üsulu və ya müəyyən sənaye pilləsi həmişə müəyyən birgə fəaliyyət üsulu ilə, müəyyən ictimai pillə ilə möhkəm əlaqədardır, bu birgə fəaliyyət üsulunun özü «məhsuldar qüvvədir», insanların əl çatdırdığı məhsuldar qüvvələrin məcmusu ictimai vəziyyətin şərtidir və deməli, «bəşəriyyətin tarixini» həmişə sənaye və mübadilə tarixi ilə əlaqədar şəkildə tədqiq və təhlil etmək lazımdır. Lakin bu cəhət də aydındır ki, belə bir tarix Almaniyada yazıla bilməz, çünki bunun üçün almanların nəinki anlamaq qabiliyyəti və materialı, həmçinin «hissi yəqinliyi» çatışmır; Reyn çayının o tayında isə bu barədə heç bir təcrübə əldə etmək olmaz, çünki orada daha heç bir tarix olmur. Beləliklə, insanlar arasında lap başlanğıcdan maddi əlaqələr aşkar olur, bu əlaqə tələbat və istehsal üsulundan asılıdır və insanların özü qədər köhnədir,–bu əlaqə daim yeni formalara girir və deməli, «tarixdən» ibarət olaraq, insanları bundan əlavə birləşdirə biləcək hər hansı bir siyasi və ya dini cəfəngiyatın mövcud olmasına heç də möhtac deyildir.

Yalnız indi, biz ilkin tarixi münasibətlərin dörd cəhətini, dörd tərəfini gözdən keçirəndən sonra görürük ki, insanın «şüuru» da vardır (Kənarda Marksın belə qeydi var: «İnsanların tarixi var, ona görə ki, onlar öz həyatlarını istehsal etməlidirlər, həm də müəyyən şəkildə istehsal etməlidirlər. İnsanların şüuru kimi bu da onların cismani quruluşundan asılıdır». Red.). Lakin bu şüur da lap əvvəldən «xalis» şuur olmamışdır. «Ruhun» üzərində ta əzəldən [14] lə`nət–materiyanın «ağır yük» etdiyi lə`nət durur, burada materiya havanın hərəkət təbəqələri şəklində, səslər şəklində,–bir sözlə dil şəklində meydana çıxır. Şüur kimi dil də qədimdir; dil başqa insanlar üçün də mövcud olan və yalnız bununla mənim özüm üçün də mövcud olan əməli, həqiqi şüurdur və şüur kimi dil də ancaq tələbatdan, digər insanlarla ünsiyyət saxlamaq kimi dönməz zərurətdən əmələ gəlir (Əlyazmasında daha sonra üstündən qələm çəkilib pozulan belə bir cümlə var: «Mənim muhitimə mənim münasibətim mənim şüurumdur». Red.). O yerdə ki, bir münasibət mövcuddur, o mənim üçün mövcuddur.

Heyvanın heç bir şeyə «münasibəti» yoxdur və ümumiyyətlə «münasibət göstərmir», heyvan üçün onun başqalarına münasibəti münasibət kimi mövcud deyildir. Deməli, şüur lap əvvəldən ictimai məhsuldur və ümumiyyətlə insanlar mövcud olduqca ictimai məhsul olaraq qalır. Əlbəttə, şüur əvvəlcə yalnız hiss ilə qavranılan ən yaxın mühitin dərk edilməsidir və özünü dərk etməyə başlayan fərddən kənarda qalan digər şəxs və şeylərlə məhdud əlaqənin dərk edilməsidir; eyni zamanda şüur təbiətin dərk edilməsidir ki, əvvəlcə tamamilə yabançı, hər şeyə qadir və əl çatmaz bir qüvvə kimi insanların qarşısında duran bu təbiətə onlar tamamilə heyvan kimi münasibət bəsləyir və onun hökmünə yenə də heyvan kimi tabe olurlar; deməli, bu–təbiətin sırf heyvancasına dərk edilməsidir (təbiətin ilahiləşdirilməsidir).

Burada dərhal görünür ki, təbiətin bu ilahiləşdirilmzsi və ya təbiətə göstərilən bu müəyyən münasibət cəmiyyətin formasından asılıdır və tərsinə. hər yerdə olduğu kimi burada da təbiət ilə insanın eyniliyi bununla da aşkara çıxır ki, insanların təbiətə məhdud münasibəti onların bir-birinə məhdud münasibəti üçün şərt olur, onların bir-birinə məhdud münasibəti isə təbiətə məhdud münasibətidir və məhz ona görə ki, təbiət tarixin gedişi ilə, hələ demək olar, dəyişdirilməmişdir; lakin digər tərəfdən insanın öz ətrafındakı fərdlərlə münasibətə girişmək zərurətini dərk etməsi insanın ümumiyyətlə cəmiyyətdə yaşadığını dərk etməsinin başlanğıcıdır. Bu pillədə ictimai həyatın özü kimi həmin başlanğıc da eyni dərəcədə heyvani xarakterdədir; bu–xalis sürü şüurudur və burada insan qoyundan yalnız onunla fərqlənir ki, onda heyvanın instinktini şüur əvəz edir və ya onun instinkti dərk edilmiş instinktdir. Bu qoyun və ya tayfa şüuru məhsuldarlığın artması, tələbatın artması və bunların hər ikisinin əsasında [15] əhalinin artması nəticəsində daha da inkişaf edir. Eyni zamanda əvvəlcə yalnız cinsi əlaqədəki əmək bölgüsündən ibarət olan, sonra isə özlüyündə baş verən və ya insanların təbii təmayülü (məsələn, fiziki qüvvəsi), tələbat, təsadüf və i.a. nəticəsində «təbii surətdə meydana gələn» əmək bölgüsü də inkişaf edir. Əmək bölgüsü yalnız o zamandan həqiqi bölgü olur ki, maddi və mə`nəvi əmək bölünüb bir-birindən ayrılır (Kənarda Marksın belə bir qeydi var: «İdeoloqların birinci forması, ruhanilər buna uyğundur». Red.). Bu andan e`tibarən şüur həqiqətən xəyala gətirə bilər ki, o, mövcud olan praktikanı dərk etməkdən nə isə başqa bir şeydir, həqiqi olan bir şeyi təmsil etmədən nə isə başqa bir şeyi həqiqətən

təmsil edə bilər,–bu andan e`tibarən şüur dünyadan azad olub «xalis» nəzəriyyə, ilahiyyat, fəlsəfə, əxlaq və i.a. əmələ gətirmək halına keçə bilər. Lakin bu nəzəriyyə, ilahiyyat, fəlsəfə, əxlaq və i.a. hətta mövcud münasibətlərlə zidd gəldikdə belə, bu yalnız onun nəticəsində ola bilər ki, mövcud ictimai münasibətlər mövcud məhsuldar qüvvələrə zidd gəlmiş olsun. Burası da qeyd edilməli ki, müəyyən millətin münasibətləri daxilində bu yalnız onun nəticəsində ola bilər ki, ziddiyyət mə`lum milli çərçivədə deyil, mə`lum milli şüur ilə digər millətlərin praktikası arasında (Kənarda Marksın belə bir qeydi var: «Din. Almanlar və ideologiya olmaq e`tibarı ilə ideologiya». Red.), yə`ni bu və ya başqa millətin milli şüuru və ümumi şüuru arasında aşkara çıxsın (necə ki, indi Almaniyada vəziyyət belədir); bu ziddiyyət alnız milli şüur daxilində mövcud olan ziddiyyət kimi göründüyünə görə, bu millətə belə gəlir ki, mübarizə də bu milli zirzibillə məhduddur.

[16] Burası da qeyd edilməli ki, şüurun özlüyündə nə təşəbbüs göstərəcəyinin heç fərqi yoxdur; bütün bu zirzibildən biz yalnız bir nəticə, məhz bu nəticəni əldə edirik ki, bu üç cəhət–məhsuldar qüvvə, ictimai vəziyyət və şüur–bir-birinə zidd gələ bilər və gəlməlidir, çünki əmək bölgüsü nəticəsində mümkün olan–bundan əlavə: gerçək olan hal bundan ibarətdir ki, mə`nəvi və maddi fəaliyyət (Kənarda Marksın üstünə qələm çəkib pozduğu belə bir qeyd var: «fəaliyyət və təfəkkür, yə`ni fikirdən məhrum olan fəaliyyət və fəaliyİ9 təfəkkür». Red.), zövq və əmək, istehsal və istehlak müxtəlif fərdlərin payına düşür, bunların bir-biri ilə zidd vəziyyət almamasına ancaq əmək bölgüsünü yox etmək yolu ilə nail olmaq olar. Özlüyündə aydındır ki, «kabuslar», «əlaqə bağları», «ali vücud», «anlayış», «şübhə» yalnız xəyalən təcrid olunmuş fərdin idealist, mə`nəvi ifadəsidir, onun təsəvvürüdür, çox empirik buxov və hədlər haqqında, bunların daxilində hərəkət edən həyatın istehsal üsulu və onunla əlaqədar olan ünsiyyət forması haqqındakı təsəvvürdür.

[4. İctimai əmək bölgüsü və onun nəticələri: xüsusi mülkiyyət, dövlət, ictimai fəaliyyətin «özgələşməsi»]

Göstərilən ziddiyyətlərin hamısını özündə birləşdirib, öz növbəsində ailədə təbii şəkildə meydana gəlmiş əmək bölgüsünə və cəmiyyətin bir-birinə qarşı duran ayrı-ayrı ailələrə parçalanmasına arxalanan əmək bölgüsü,–bu əmək bölgüsü ilə birlikdə bölüşdürmə də mövcuddur ki, bu da həm kəmiyyət, həm də keyfiyyət cəhətdən əməyin və onun məhsullarının

bərabər olmayan şəkildə bölüşdürülməsidir deməli, mülkiyyət də [17] mövcuddur, mülkiyyətin rüşeymi və ilkin forması ailədə vardır, zira ailədə arvad və uşaqlar kişinin quludurlar. Ailədə köləlik–doğrudur, hələ çox ibtidai və gizli şəkildə olan köləlik–ilk mülkiyyətdir hələ ilk formasında olan bu mülkiyyət müasir iqtisadçıların verdiyi tə`rifə tamamilə uyğundur; həmin tə`rifə görə mülkiyyət özgəsinin iş qüvvəsini öz sərəncamında saxlamaqdır. Burasını da qeyd etməlidir ki, əmək bölgüsü və xüsusi mülkiyyət bir-birinin eyni olan ifadələrdir bir halda fəaliyyət barəsində nə deyilirsə, başqa bir halda eyni şey fəaliyyətin məhsulu barəsində deyilir. Daha sonra, əmək bölgüsü ilə birlikdə ayrı-ayrı fərdin və ya ayrıca ailənin mənafeyi ilə, bir-biri ilə əlaqədə olan bütün fərdlərin ümumi mənafeyi arasında ziddiyyət də mövcuddur; həm də bu ümumi mənafe nəinki təkcə təsəvvürdə «ən ümumi» bir şey kimi, habelə hər şeydən əvvəl real gerçəklikdə, əmək bölgüsü tətbiq edən fərdlərin bir-birindən qarşılıqlı asılı olması şəklində də mövcuddur.

Məhz xüsusi mənafe ilə ümumi mənafe arasındakı bu ziddiyyət nəticəsində ümumi mənafe dövlət şəklində müstəqil forma alır və bu forma həqiqi mənafedən–həm ayrıca, həm də birgə–mənafedən qoparılıb ayrılmış olur; eyni zamanda bu ümumi mənafe xəyali ümumilik formasına girir. Lakin bu hal həmişə nəslə və qana görə, dilə görə, əmək bölgüsünə görə və daha geniş miqyasda digər mənafeyə görə hər bir ailə və ya tayfada mövcud əlaqələr yığını əsasında baş verir və xüsusilə–irəlidə göstərəcəyimiz kimi–siniflərin mənafeyi əsasında olur ki, bunlar da əmək bölgüsündən asılı olaraq, hər bir belə insan məcmusunda bir-birindən ayrılıb xüsusiləşir və bunlardan biri bütün başqaları üzərində hökmranlıq edir. Buradan belə bir nəticə çıxır ki, dövlət daxilində hər bir mübarizə–demokratiya, aristokratiya və monarxiya arasında mübarizə, seçki hüququ uğrunda mübarizə və i.a. və sairə–müxtəlif siniflərin bir-biri ilə etdiyi həqiqi mübarizənin xəyali formalarından başqa bir şey deyildir («Deutsch-Fqanzö-sische Jahrbücher»12-də və «Müqəddəs ailə»də (bax: K.Marks və F.Engels. Əsərləri, 2-ci nəşri, 2-ci cild, səh 3–230. Red.) alman nəzəriyyəçilərinə bu barədə kifayət qədər aydın mə`lumat verildiyinə baxmayaraq, onlar bunu zərrə qədər də olsun başa düşmürlər). Buradan belə bir nəticə çıxır ki, hökmran olmağa cəhd edən hər bir sinif,–hətta onun hökmranlığı, məsələn, proletariatın hökmranlığında olduğu kimi, bütün köhnə ictimai quruluşun və ümumiyyətlə hökmranlığın yox edilməsini

şərtləndirsə də,–hər şeydən əvvəl siyasi hakimiyyəti ələ almalıdır ki, bu sinif öz mənafeyini ümumi mənafe kimi göstərə bilsin və ilk anda nə etməyə məcbur olduğunu bilsin. Fərdlər məhz ancaq öz xüsusi mənafelərini güddüklərinə və onlar üçün bu mənafe fərdlərin ümumi mənafeyinə müvafiq olmadığına görə, ən ümumi isə bütövlükdə ümumiliyin xəyali forması olduğuna görə–bu ən ümumi olan şey onlara «yabançı» [18], onlardan «asılı olmayan», yə`ni yenə də əlahiddə və orijinal «ən ümumi» mənafe kimi meydana çıxır, yaxud da onların özü demokratiyada olduğu kimi bu ayrılıq şəraitində hərəkət etməyə məcbur olurlar. Digər tərəfdən isə həqiqətən həmişə ümumi və xəyalən ümumi mənafeyə qarşı çıxan bu əlahiddə mənafelərin əməli mübarizəsi əməli müdaxiləni və əlahiddə mənafeyin dövlət şəklində hərəkət edən xəyalən «ən ümumi» mənafe vasitəsi ilə cilovlanmasını zəruri edir (Bu iki abzas kənarda Engelsin əli ilə yazılmışdır. Red.).

[17] Nəhayət, əmək bölgüsü dərhal bizə elə bir vəziyyətin birinci misalını verir ki, insanlar özbaşına əmələ gəlmiş cəmiyyətdə olduqca, deməli, xüsusi mənafe ilə ümumi mənafe arasında uyğunsuzluq mövcud olduqca, deməli, fəaliyyət bölgüsü könüllü surətdə deyil, kortəbii şəkildə əmələ gəldikcə,–insanın öz əməli onun üçün yabançı olur, onun qarşısında elə bir qüvvə olur ki, insan bu qüvvəyə hakim olmaq əvəzinə həmin qüvvə onu sıxıb əzir. İş burasındadır ki, əmək bölgüsü başlanan kimi hər bir insanda ona zorla qəbul etdirilən elə müəyyən və müstəsna fəaliyyət dairəsi meydana gəlir ki, insan bu dairənin içindən çıxa bilmir o–istər ovçu, balıqçı və ya çoban olsun, istərsə də tənqidi tənqidçi olsun, əgər həyat vasitələrindən məhrum olmaq istəmirsə öz vəziyyətində olduğu kimi qalmalıdır,–halbuki kommunizm cəmiyyətində heç kəs heç bir müstəsna fəaliyyət dairəsi ilə məhdud edilmədiyinə və hər kəs istədiyi sahədə təkmilləşə biləcəyinə görə, cəmiyyət bütün istehsalı nizama salır və məhz buna görə də mənə imkan verir bu gün bir iş görüm, sabah isə başqa bir iş, səhər ovçuluq edim, günortadan sonra balıq tutum, axşam maldarlıqla, şamdan sonra tənqidlə məşğul olum,–ürəyim istədiyini edim,–buna görə də məni nə ovçu edir, nə də balıqçı, çoban və ya tənqidçi.

[18] İctimai fəaliyyətin bu cür möhkəmlənməsi və öz əməyimizin məhsulunun bizim üzərimizdə hakim olan, nəzarətimiz altından çıxan, umub gözlədiyimizin əksinə gedən və hesablarımızı vurub heçə çıxardan şey şəklindəki qüvvədə birləşdirilməsi bütün bundan əvvəlki tarixi

inkişafın başlıca cəhətlərindən biridir. İctimai qüvvə, yə`ni müxtəlif fərdlərin birgə fəaliyyətindən asılı olan əmək bölgüsü nəticəsində əmələ gələn çoxaldılmış məhsuldar qüvvə,–bu ictimai qüvvə, birgə fəaliyyətin özü könüllü şəkildə deyil, kortəbii şəkildə meydana gəldiyi üçün həmin fərdlərə onların özlərinin birləşmiş qüvvəsi kimi görünmək deyil, nə isə yabançı və onlardan kənarda duran bir hakimiyyət kimi görünür ki, onlar da bu hakimiyyətin mənşəyi və inkişaf meyli haqqında heç bir şey bilmirlər deməli, onlar bu qüvvə üzərində hökmranlıq edə bilmirlər,–əksinə, bu qüvvə indi bir sıra özünə məxsus inkişaf mərhələsi və pillələrindən keçir ki, bunlar da insanların iradə və rəftarından nəinki asılı deyildir, hətta, tərsinə, bu iradə və rəftara istiqamət verir(Əlyazmasının bu yerinə Marksın kənarda yazdığı mətn həmin nəşrdə bilavasitə bu abzasdan sonra gələn paraqrafın ilk iki abzası şokdvndə verilir. Red.). Əks halda necə ola bilərdi ki, məsələn, mülkiyyətin ümumiyyətlə özünə məxsus tarixi olsun və mülkiyyət müxtəlif formalara girsin necə ola bilərdi ki, məsələn, torpaq mülkiyyəti ortada mövcud olan müxtəlif müqəddəm şərtlərdən asılı olaraq, Fransada parsel formasından bir neçə fərdin əlində mərkəzləşməyə doğru, İngiltərədə isə–bir neçə fərdin əlində mərkəzləşməkdən hazırda olduğu kimi parsel formasına doğru inkişaf etsin? Yaxud da, necə olur ki, müxtəlif fərd və ölkələr arasında məhsul mübadiləsindən başqa bir şey olmayan ticarət bütün dünyada tələb və təklif münasibəti nəticəsində hökmranlıq edir; həm də o tələb və təklif münasibəti ki, bir ingilis iqtisadçısı demişkən qədim fələk kimi yer üzündə uçaraq, gözə görünməz əli ilə insanlara xoşbəxtlik və bədbəxtlik paylayır, padşahlıqlar [19] yaradıb bunları dağıdır, xalqları yaşadır və yox olmağa məcbur edir,–halbuki bazis, xüsusi mülkiyyət yox ediləndən sonra, istehsal kommunistcəsinə nizama salındıqda insanlarda öz əməyi məhsullarından özgələşmək münasibəti aradan qaldırılandan sonra,–tələb və təklif münasibətlərinin hökmranlığı da yox olur və insanlar mübadiləni, istehsalı, özlərinin qarşılıqlı münasibətləri üsulunu yenə də öz hakimiyyətlərinə tabe edirlər?

[5. Məhsuldar qüvvələrin inkişaf etdirilməsi kommunizmin maddi müqəddəm şərtidir]

[18] Bu «özgələşmə», filosoflar üçün anlaşılan dildə desək, əlbəttə, ancaq iki əməli müqəddəm şərt mövcud olanda yox edilə bilər. Bu özgələşmənin «dözülməz» bir qüvvə, yə`ni inqilaba səbəb olan bir qüvvə olması üçün lazımdır ki, bu özgələşmə bəşəriyyətin əsas kütləsini tamamilə

«mülkiyyətdən məhrum edilən» və eyni zamanda mövcud sərvət və maarif dünyasına qarşı duran insanlar halına salsın, bu hər iki şərt isə məhsuldar qüvvənin çox artmasını və yüksək inkişaf səviyyəsinə çatmasını tələb edir. Digər tərəfdən məhsuldar qüvvələrin bu inkişafı (bu inkişafla birlikdə insanların dar məhəlli çərçivədə deyil, ümumdünya-tarixi varlığının empirik şəkildə həyata keçirilməsi verilir) bir də ona görə mütləq zəruri əməli müqəddəm şərtdir ki, bunsuz yalnız yoxsulluq ümumi şəkildə yayılmış olur; son dərəcə ehtiyac şəraitində isə zəruri şeylər uğrunda mübarizə də yenidən başlamalı və deməli, bütün köhnə iyrənclik yenidən törəməli olardı. Daha sonra, məhsuldar qüvvələrin bu inkişafı ona görə zəruri müqəddəm şərtdir ki, insanların universal əlaqələri yalnız məhsuldar qüvvələrin universal inkişafı ilə birlikdə əmələ gəlir və bunun nəticəsində, bir tərəfdən «mülkiyyətdən məhrum edilən» kütlənin mövcud olması faktı eyni zamanda bütün xalqlarda özünü aşkara çıxardır (ümumi rəqabət),–bu xalqlardan hər biri digər xalqlardakı çevrilişlərdən asılı olur,–və nəhayət, məhəlli-məhdud fərdləri ümumdünya-tarixi mahiyydtli fərdlər, empirik şəkildə universal fərdlər əvəz edir. Bunsuz 1) kommunizm ancaq məhəlli bir şey kimi mövcud ola bilərdi, 2) ünsiyyət qüvvələrinin özü universal qüvvə kimi, buna görə də dözülməz qüvvə kimi inkişaf edə bilməzdi bu qüvvələr ev «şəraiti» və mövhumatla əhatə olunmuş «şərait» mərhələsində qalardı və 3) ünsiyyətlərin hər bir şəkildə genişlənməsi məhəlli kommunizmi ləğv edərdi. Kommunizm empirik cəhətdən yalnız hakim xalqların «birdən», eyni zamanda13 edilən hərəkəti kimi mümkündür ki, bu da məhsuldar qüvvələrin və bununla əlaqədar olaraq dünya ünsiyyətlərinin universal şəkildə inkişaf etdirilməsini tələb edir (Əlyazmasının bundan sonrakı səhifəsində başlayan bu mətnin davamı üzərində Marksın belə bir qeydi var: «Kommunizm». Red.).

[19] Qeyd etmək lazımdır ki, ancaq öz əməyi ilə yaşayıb dolanan insan kütləsinin–kapitaldan və ya öz tələbatını, heç olmazsa, məhdud ölçüdə ödəmək imkanından məhrum olan və buna görə də tə`min edilmiş həyat mənbəyi olmaq e`tibarı ilə öz işini nəinki müvəqqəti itirən, hətta ümumiyyətlə vəziyyəti heç də möhkəm olmayan işçi qüvvəsi kütləsinin mövcud olması rəqabət üzündən dünya bazarının mövcud olmasını tələb edir. Deməli, proletariatın əməli olan kommunizm ümumiyyətlə yalnız «ümumdünya-tarixi» mövcudluq mə`nasında mümkü olduğu kimi, proletariat da ancaq ümumdünya-tarixi mə`nada mövcud ola bilər; fərdlərin

ümumdünya-tarixi mövcudluğu isə onların elə mövcudluğudur ki, bilavasitə ümumdünya tarixi ilə əlaqədardır.
[18] Kommunizm bizim üçün elə bir hal deyildir ki, tə`sis olunmalıdır, elə bir ideal deyildir ki, gerçəklik ona uyğunlaşdırılmalıdır. Biz indiki halı məhv edən gerçək hərəkəti kommunizm adlandırırıq. Bu hərəkətin şəraitini indi mövcud olan müqəddəm şərt törətmişdir (Əlyazmasında Marks bu abzası həmin paraqrafın birinci abzasının üstündə yazmışdır. Red.).
[19] İndiyədək mövcud olan tarixi pillələrin hamısında ünsiyyət forması məhsuldar qüvvələrlə şərtlənən və öz növbəsində bu qüvvələri şərtləndirən ünsiyyət forması vətəndaş cəmiyyətidir və burayadək deyilənlərdən belə çıxır ki, bu cəmiyyətin müqəddəm şərtini və əsasını adi ailə və tayfa quruluşu adlanan mürəkkəb ailə təşkil etmişdir; vətəndaş cəmiyyətinin daha ətraflı tə`rifi yuxarıda deyilənlərdə verilmişdir. Burada görünür ki, bu vətəndaş cəmiyyəti bütün tarixin əsil ocağı və əsil meydanıdır, görünür ki, tarixi anlamaqda həqiqi münasibətlərə e`tina etməyən əvvəlki anlayış mə`nasız idi, zira gurultulu və dəbdəbəli əməlləri gözdən keçirməklə kifayətlənirdi.
İndiyədək biz insan fəaliyyətinin başlıca olaraq bir tərəfini–insanların təbiəti işləyib düzəltməsini gözdən keçirirdik. Bu fəaliyyətin digər tərəfi–insanların insanları işləyib düzəltməsidir...(Kənarda Marksın belə bir qeydi var: «Ünsiyyət və məhsuldar qüvvə». Red.)
Dövlətin mənşəyi və dövlətin vətəndaş cəmiyyətinə münasibəti (Əlyazmasında bu səhifənin sonu boş qalmışdır. Sonra yeni səhifədən başlayan mətndə tarixin materialistcəsinə anlaşılmasından çıxan nəticələr şərh edilir. Red.).
[6. Tarixin materialist anlayışının nəticələri: tarixi prosesin varisliyi, tarixin ümumdünya tarixinə çevrilməsi, kommunist inqilabının zəruriliyi]
[20] Tarix ayrı-ayrı nəsillərin bir-birini ardıcıl surətdə əvəz etməsindən başqa bir şey deyildir, bu nəsillərdən hər biri əvvəlki bütün nəsillərin qoyub getdiyi materialdan, kapital və məhsuldar qüvvələrdən istifadə edir; buna görə də müəyyən bir nəsil, bir tərəfdən, irs aldığı fəaliyyəti tamamilə dəyişilmiş şəraitdə davam etdirir, digər tərəfdən isə köhnə şəraiti tamamilə dəyişilmiş fəaliyyət vasitəsi ilə dəyişdirir. Lakin təhrif edilmiş spekulyativ təsəvvürdə işə elə bir şəkil verilir ki, guya sonrakı tarix əvvəlki tarixin məqsədi imiş, məsələn, Amerikanın kəşf edilməsinin əsas məqsədi guya Fransa inqilabının baş verməsinə kömək etmək imiş.. Bunun nəticəsində

tarix özü üçün xüsusi məqsədlər əldə edir və «digər şəxsiyyətlərlə yanaşı» dönüb bir növ «şəxsiyyət» olur (məsələn: «Mənlik şüuru», «Tənqid», «Yeganə» və i.a.). Həqiqətdə isə əvvəlki tarixin «vəzifəsi», «məqsədi», «rüşeymi», «ideyası» sözləri ilə ifadə edilən şey sonrakı tarixdən sərf-nəzər etməkdən, əvvəlki tarixin sonrakı tarixə fəal tə`sirindən sərf-nəzər etməkdən başqa bir şey deyildir.

Bir-birinə tə`sir göstərən dairələr bu inkişafın gedişində genişləndikcə, təkmilləşdirilmiş istehsal üsulu və inkişaf edən ünsiyyət nəticəsində, həmçinin buna görə müxtəlif millətlər arasında kortəbii surətdə əmələ gələn əmək bölgüsü nəticəsində ayrı-ayrı millətlərin ilk qapalılığı get-gedə yox olduqca, tarix daha böyük ölçüdə dönüb ümumdünya tarixi olur. Məsələn, İngiltərədə ixtira edilən bir maşın Hindistan və Çində saysız-hesabsız fəhləni bir tikə çörəkdən məhrum edib bu dövlətlərin bütün yaşayış formasında çevriliş əmələ gətirirsə, bu ixtira ümumdünya miqyasında tarixi bir fakt olur; eyni ilə XIX əsrdə şəkər və qəhvə özünün ümumdünya-tarixi-əhəmiyyətini onunla aşkara çıxartdı ki, Napoleonun kontinental sirteminin14 səbəb olduğu şəkər və qəhvə qıtlığı almanları [21] Napoleona qarşı üsyana sövq etdi və beləliklə, 1813-cü ildəki şanlı azadlıq müharibələrinin real əsası oldu. Buradan belə çıxır ki, tarixin dönüb ümumdünya tarixinə çevrilməsi «mənlik şüurunun», cahanşümul ruhun və ya başqa bir metafizik kabusun bir növ abstrakt əməli deyildir, tamamilə maddi, empirik şəkildə müəyyən olunan işdir, elə bir işdir ki, hər bir fərd, həyatda necə vardırsa, necə yeyir, içir və geyinirsə, olduğu kimi götürülən hər bir fərd bunun sübutudur.

Bundan əvvəlki tarixdə empirik olan bir fakt da, şübhəsiz, budur ki, ayrı-ayrı fərdlərin fəaliyyəti genişlənərək ümumdünya-tarixi fəaliyyət dərəcəsinə çatdıqca, özlərinə yabançı olan qüvvənin hakimiyyəti altına getdikcə daha çox düşürdülər (onlar dünya ruhu deyilən qüvvənin fitnə-fəsadını bu hakimiyyətin zülmündə görürdülər),–elə bir qüvvənin ki, getdikcə daha çox kütləvi olur və ən nəhayət, dünya bazarı şəklində təzahür edir. Lakin eyni dərəcədə empirik şəkildə əsaslandırılmışdır ki, alman nəzəriyyəçiləri üçün bu qədər əsrarəngiz olan bu qüvvə kommunist inqilabının mövcud ictimai quruluşu devirməsi nəticəsində (bu barədə aşağıda bəhs ediləcək), həmçinin bu inqilabın eyni olaraq, xüsusi mülkiyyətin məhv edilməsi nəticəsində yox olacaqdır; həm də tarix nə dərəcədə dönüb tamamilə ümumdünya tarixinə çevriləcəksə, ayrıca hər bir

fərd də eyni dərəcədə azadlığa çatacaqdır (Kənarda Marksın belə bir qeydi var: «Şüurun istehsalı haqqında». Red.). Yuxarıda deyiləndən aydındır ki, fərdin həqiqi mə`nəvi sərvəti tamamilə onun həqiqi münasibətlərinin sərvətindən asılıdır. Ancaq buna görə ayrı-ayrı fərdlər müxtəlif milli və məhəlli çərçivələrdən azad olub bütün dünya istehsalı (habelə mə`nəvi istehsalı) ilə əməli əlaqəyə girişirlər və bütün yer üzünün bu hərtərəfli istehsalından (insanların yaratdığı hər şeydən) istifadə etmək qabiliyyətini əldə etmək vəziyyətində olurlar. Hərtərəfli asılılıq, fərdlərin ümumdünya miqyasında tarixi birgə fəaliyyətinin kortəbii əmələ gələn bu forması kommunist inqilabı nəticəsində [22] dönüb o qüvvələr üzərində nəzarət və şüurlu hökmranlığa çevrilir ki, bunlar indiyədək insanların bir-birinə tə`sir göstərməsindən törəyib onlara tamamilə yabançı qüvvə kimi görünürdü və belə bir qüvvə olmaq e`tibarı ilə insanlar üzərində hökmranlıq edirdi. Bu baxışı yenə də spekulyativ-idealistcəsinə, yə`ni fantastik şəkildə, «nəslin özünü törətməsi» kimi («cəmiyyəti subyekt kimi») təfsir etmək, bir-birinin ardınca gəlib bir-biri ilə əlaqədar olan bütün fərdlər sırasını özü-özünü törətmək kimi əsrarəngiz mərasimi icra edən yeganə bir fərd kimi təsəvvür etmək olar. Burada aşkar olur ki, fərdlər həm fiziki, həm də mə`nəvi cəhətdən bir-birlərini yaradırlarsa da, lakin özlərini nə müqəddəs Brunonun cəfəngiyatı ruhunda, nə də «yaradılmış» «Yeganə» insan mə`nasında yaratmırlar.

Nəhayət, biz tarixi anlamaq barəsində inkişaf etdirdiyimiz, fikirdən aşağıdakı nəticələri də əldə edirik: 1) məhsuldar qüvvələr öz inkişafında elə bir pilləyə çatır ki, burada meydana gələn məhsuldar qüvvələr və ünsiyyət vasitələri mövcud münasibətlər şəraitində özü ilə birlikdə ancaq fəlakət gətirir və daha məhsuldar deyil, dağıdıcı qüvvə (maşınlar və pul) olur; bununla birlikdə elə bir sinif meydana gəlir ki, cəmiyyətin ne`mətlərindən istifadə etmədiyi halda onun bütün ağır yügünü öz üzərində daşımağa məcbur olur, cəmiyyətdən sıxışdırılıb çıxarıldığına görə bütün digər siniflərlə [23] labüddən ən qəti ziddiyyət halına gəlir; bu sinif bütün cəmiyyət üzvlərinin əksəriyyətini təşkil edir və əsaslı inqilabın zəruri olduğu şüuru, kommunist şüuru bu sinifdə əmələ gəlir, bu şüur, əlbəttə, həmin sinfin vəziyyətini başa düşmək nəticəsində başqa siniflərdə də əmələ gələ bilər; 2) müəyyən məhsuldar qüvvələrin tətbiq edilə biləcəyi şərait, cəmiyyətin müəyyən sinfinin hökmranlığının şəraitidir və bu sinfin əmlak vəziyyətindən irəli gələn ictimai hakimiyyəti hər dəfə öz əməli-idealist

ifadəsini müvafiq dövlət formasında tapır və buna görə də hər bir inqilabi mübarizə o vaxtadək hökmranlıq etmiş sinfə qarşı yönəldilir (Kənarda Marksın belə bir qeydi var: «Bu insanların mənafeyi tələb edir ki, istehsalın indiki halı mühafizə edilib qalsın». Red.); 3) bütün keçmiş inqilablarda fəaliyyətin xarakteri həmişə toxunulmamış halda qalırdı,–həmişə mətləb ancaq bu fəaliyyəti başqa şəkildə bölüşdürməkdən, əməyi başqa şəxslər arasında yeni şəkildə bölüşdürməkdən ibarət olurdu, halbuki kommunist inqilabı fəaliyyətin indiyədək mövcud olan xarakterinə qarşı çıxır, əməyi aradan qaldırır (Əlyazmasında daha sonra üstünə qələm çəkilib pozulan belə bir parça var: «fəaliyyətin o formasını ki, bu forma şəraitində hökmranlıq...». red.) və hər hansı bir sinfin hökmranlığını bu siniflərin özləri ilə birlikdə yox edir, çünki bu inqilabı edən sinif elə bir sinifdir ki, cəmiyyətdə daha sinif sayılmır, sinif kimi qəbul edilmir və indiki cəmiyyətdə bütün siniflərin, millətlərin və i.a. pozulub dağılmasının artıq bir növ ifadəsi olur; və 4) həm bu kommunist şüurunu kütləvi surətdə yaratmaq üçün, həm də məqsədin özünə çatmaq üçün insanları kütləvi surətdə dəyişdirmək lazımdır ki, bu da ancaq əməli hərəkətdə, inqilabda mümkündür; deməli, inqilabın zəruri olması yalnız onun üçün deyildir ki, hakim sinfi heç bir başqa yolla devirmək mümkün deyildir; inqilab ona görə də zəruridir ki, devirən sinif bütün kohnə iyrəncliyi yalnız inqilab etməklə öz üzərindən ata bilər və cəmiyyətin yeni əsasını yaratmağa qadir ola bilər (Əlyazmasında sonra üstünə qələm çəkilib pozulan belə bir parça vardır: «Halbuki inqilabın zəruriliyi barəsində həm Fransada, həm də İngiltərə və Almaniyada bütün kommunistlər arasında çoxdan razılıq olduğu halda müqəddəs Bruno sakit-sakit xəyala dalmaqdadır və belə güman edir ki, «real humanizm», yə`ni kommunizm yalnız pərəstiş obyekti olmaq üçün «spiritualizmin yerinə» («spiritualizm» isə heç bir yer tutmur) qoyulur. O, xəyala dalmaqda davam edərək deyir ki, onda «nəhayət, nicat gələcək, yer göy, göy isə yer». (İlahiyyatçı göy məsələsini heç unuda bilmir). «Onda sevinc və bəxtəvərlik göy ahəngi ilə əsrdən-əsrə səslənəcək» (səh. 140)9. Müqəddəs kilsə başçısı heç gözləmədiyi halda qiyamət günü gəlib çatanda, od tutub yanan şəhərlərin alovları sübh şəfəqi kimi qızaran gündə, bu «göy ahəngləri» arasında «Marselyeza» və «Karmanyola» melodiyaları və bu hallarda labüd olan top gurultusu qopanda, gilyotin isə bu gurultunun vəznini tutanda, alçaq «kütlə» ça iqa, ça iqa deyə bağıranda və «mənlik şüurunu» fənər dirəyi15 ilə ləğv edəndə

xeyli heyrət edəcək. «Əsrdən-əsrə davam edən sevinc və bəxtəvərlik» kimi təsəlliverici bir mənzərə təsvir etmək üçün müqəddəs Brunonun əlində heç bir əsas yoxdur. Biz müqəddəs Brunonun qiyamət günündə özünü necə aparacağını aprior şəkildə təsvir etmək zövqünü almaqdan çəkinirik. Həmçinin inqilab edən proletarları «substansiya» kimi, tənqidi devirmək istəyən «kütlə» kimi və ya Bauerin fikirlərini həzm etmək üçün lazım olan konsistensiyası hələ çatışmayan ruhun şüalanması kimi başa düşməyin lazım gəlib-gəlmədiyini həll etmək də çətindir». Red.)

[7. Tarixin materialistcəsinə anlaşılmasının xülasəsi|

[24] Beləliklə, tarixin bu cür anlaşılması ondan ibarətdir ki, bilavasitə həyatın məhz maddi istehsalı əsas tutularaq, həqiqi istehsal prosesi gözdən keçirilsin və müəyyən istehsal üsulu ilə əlaqədar olaraq onun doğurduğu ünsiyyət forması–yə`ni müxtəlif pillələrə malik olan vətəndaş cəmiyyəti–bütün tarixin əsası kimi başa düşülsün sonra vətəndaş cəmiyyətinin dövlət həyatı sahəsindəki fəaliyyətini təsvir etmək, həmçinin bunun əsasında şüurua bütün müxtəlif nəzəri törəmələri və formalarını, dini, fəlsəfəni, əxlaqı və i.a. və sairəni izah etmək və bu əsas üzərində onların meydana gəlməsi prosesini izləmək lazımdır, bütövlükdə götürülən bütün proses (buna görə də həmçinin onun müxtəlif cəhətləri arasındakı qarşılıqlı tə`sir), əlbəttə, bunun sayəsində təsvir edilə bilər. Tarixin bu cür anlaşılması onun idealistcəsinə anlaşılmasından fərqli olaraq hər bir dövrdə bu və ya başqa bir kateqoriya axtarmayıb həmişə həqiqi tarix zəmini üzərində qalır, praktikanı ideyalar zəminində izah etmək deyil, ideya quruluşlarını maddi praktika zəminində izah edir və buna görə yenə də o nəticəyə gəlir ki, şüurun bütün forma və məhsulları mə`nəvi tənqidlə, bunları «mənlik şüurunda» əridib həll etməklə və ya «xəyala», «kabusa», «qəribəliyə»16 və i.a. çevirməklə yox edilə bilməz, yalnız bütün bu idealist cəfəngiyatını törədib əmələ gətirən real ictimai münasibətləri əməli şəkildə devirməklə yox edilə bilər,–o nəticəyə gəlir ki, tarixin, həmçinin dinin, fəlsəfənin və digər nəzəriyyənin hərəkətverici qüvvəsi tənqid deyil, inqilabdır. Bu konsepsiya göstərir ki, tarix «ruhu ruhdan» (B.Bauerin ifadəsidir. Red.) doğuran «mənlik şüurunda» əriyib həll olmur, lakin hər bir pilləsi müəyyən maddi nəticəni, müəyyən miqdarda məhsuldar qüvvəni, insanların təbiətə və bir-birinə tarixən əmələ gəlmiş münasibətini mövcud halda görüb tapır, əvvəlki nəslin özündən sonrakı hər nəslə verdiyi külli miqdarda məhsuldar qüvvəni, kapital və şəraiti görüb tapır və yeni nəsil bunları, bir tərəfdən

dəyişdirmiş olsa da, digər tərəfdən, bunlar yeni nəslin özünün həyat şəraitini ona göstərib, ona müəyyən inkişaf və xüsusi xarakter verir. Deməli, bu konsepsiya göstərir ki, insanlar şəraiti nə dərəcədə yaradırlarsa, şərait də insanları eyni dərəcədə [25] yaradır.
Hər bir fərdin və hər bir nəslin mövcud bir şey kimi görüb tapdığı məhsuldar qüvvələrin, kapitalın və ictimai ünsiyyət formalarının məcmusu, filosofların «substansiya» və «insanın mahiyyəti» şəklində təsəvvür etdikləri, ilahiləşdirdikləri və ona qarşı mübarizə etdikləri şeyin real əsasıdır,–elə real əsasıdır ki, bu filosoflar «mənlik şüuru» və «Yeganələr» ilə bu əsasın əleyhinə çıxsalar da, bu hal insanların inkişafına onun tə`sir göstərməsinə heç də mane olmur. Müxtəlif nəsillərin mövcud halda görüb tapdığı həyat şəraiti bu məsələni də həll edir ki, tarix boyu vaxtaşırı təkrarlanan inqilabi sarsıntılar mövcud olan hər şeyin əsasını devirib yıxmaq üçün kifayət qədər güclü ya yox; əgər ümumi çevrilişin bu maddi ünsürləri mövcud deyilsə, yə`ni: bir tərəfdən, müəyyən məhsuldar qüvvələr, digər tərəfdən isə, əvvəlki cəmiyyətin yalnız ayrı-ayrı şəraitinə qarşı deyil, eyni zamanda əvvəlki «həyat istehsalının» özünə qarşı, bu cəmiyyətin əsaslandığı «birgə fəaliyyətə» qarşı üsyan edən inqilabi kütlənin təşəkkülü–bütün bu maddi ünsürlər mövcud deyilsə, onda kommunizm tarixi sübut edir ki, bu çevriliş ideyasının yüz dəfələrlə irəli sürülməsinin əməli inkişaf üçün heç bir əhəmiyyəti yoxdur.
[8. Tarixi idealistcəsinə anlayan bütün əvvəlki fəlsəfənin, xüsusilə Hegeldən sonrakı alman fəlsəfəsinin əsassızlığı]
Tarixin anlaşılmasının bütün əvvəlki tə`limləri ya tarixin bu həqiqi əsasını nəzərə almayıb ona e`tinasızlıq göstərirdi, ya da bu əsası tarixi proseslə hər hansı bir əlaqədən məhrum olan yalnız kənar bir amil kimi gözdən keçirirdi. Məsələyə bu cür yanaşılanda tarix həmişə ondan kənarda qalan bir miqyas əsas tutularaq yazılmalı idi; həqiqi həyat istehsalının nə isə tarixdən əvvəlki bir şey kimi, tarixi istehsal isə nə isə adi həyatdan qopardılıb ayrılmış, dünyadan kənarda və onun üstündə duran bir şey kimi təsəvvür edilirdi. Bununla, insanların təbiətə münasibəti tarixdən kənar edilir və bunun nəticəsində təbiət ilə tarix arasında əkslik yaradılır. Buna görə də bu konsepsiya tarixdə ancaq gurultulu siyasi əməllər və dini, ümumiyyətlə nəzəri mübarizə görə bilirdi və hər dəfə bu və ya başqa bir dövrü təsvir edəndə bu dövrün xəyallarına şərik olmağa məcbur olurdu. Məsələn, hər hansı bir dövr xalis «siyasi» və ya «dini» səbəblərlə müəyyən

olunduğunu güman edirsə,–hərçənd ki, «din» və «siyasət» onun həqiqi səbəblərinin yalnız formasıdır,–bu dövrün tarixçisi həmin fikri mənimsəyir. Bu müəyyən insanların öz həqiqi praktikaları haqqındakı bu «xəyal» və «təsəvvürləri» yeganə müəyyənedici və fəal qüvvəyə çevrilir və bu qüvvə həmin insanların praktikaları üzərində hakim olub onu tə`yin edir. Əgər hindularda və misirlilərdə mövcud olan əmək bölgüsünün ibtidai şəkli dövlətdə və həmin xalqların dinində silk quruluşu doğurursa, onda tarixçi belə güman edir ki, silk quruluşu [26] bu ibtidai ictimai formanı doğuran qüvvənin özüdür.

Fransızlar və ingilislər həqiqətə hər halda ən yaxın olan, heç olmazsa, siyasi xəyal üzərində dayandıqları halda, almanlar «xalis ruh» dairəsində dövr edir və dini xəyalı tarixin hərəkətverici qüvvəsi dərəcəsinə qaldırırlar. Hegelin tarix fəlsəfəsi bütün bu alman tarixşünaslığının son və özünün «ən xalis ifadəsi» şəklinə yüksəlmiş səmərəsidir bu tarixşünaslıq baxımından bütün mətləb həqiqi və hətta siyasi mənafedə deyil, xalis fikirdədir. Bu tarix fəlsəfəsi sonra bir zərurət olaraq, müqəddəs Brunoya da bir sıra «fikirlər» şəklində görünür və bu sırada bir fikir başqa bir fikri udub yeyir və nəhayət, «mənlik şüurunda» itib gedir (Kənarda Marksın belə bir qeydi var: «Obyektiv adlanan tarixşünaslıq məhz tarixi münasibətləri fəaliyyətdən qopardıb ayrılmış halda gözdən keçirməkdən ibarət idi. Mürtəce xarakter». Red.). Müqəddəs Maks Ştirner daha ardıcıldır o, həqiqi tarix haqqında qətiyyən bir şey bilməyib tarixi prosesə ancaq «cəngavərlərin», quldurların və kabusların tarixi nəzəri ilə baxır və belə güman edir ki, özünü bu tarixin xəyallarından, əlbəttə, ancaq «allahsızlıqla» xilas edə bilər. Bu konsepsiya həqiqətdə dinidir: zira dindar adamı bütün tarixin əsasını təşkil edən ilkin insan kimi ehtimal edir, həyat vasitələrinin və həyatın özünün həqiqi istehsalını isə öz xəyalında dini xəyallar istehsalı ilə əvəz edir.

Tarixin bütün bu cür anlaşılması, onun dağılıb ayrılması və buradan doğan şübhə və tərəddüdləri ilə birlikdə,–almanların milli işindən başqa bir şey deyildir və Almaniya üçün bunun ancaq məhəlli marağı vardır; məsələn, son zamanlarda dəfələrlə müzakirə edilən mühüm bir məsələ budur; bu məsələ isə əslində belə bir sualdan ibarətdir ki, «allahın evindən insanlar aləminə» necə gəlib çıxmaq olar? sanki «allahın evi» nə zaman isə xəyal aləmindən başqa bir yerdə, harada isə varmış, çox alim simalar isə–özləri də bundan xəbərdar olmadıqları halda–indi yolunu axtarıb tapmaq

istədikləri «insanlar aləmində» daim yaşamayıblarmış; sanki göylərin üstündəki bu nəzəri aləmlərin əmələ gəlməsinin əcayibliyini izah etmək məqsədini güdən elmi əyləncənin vəzifəsi–çünki bu, əyləncədən başqa bir şey deyildir,–əksinə, məhz həmin aləmlərin yer üzündəki həqiqi münasibətlərdən əmələ gəldiyini göstərməkdən ibarət deyilmiş.
Ümumiyyətlə bu almanlar həmişə onun fikrini çəkmişlər ki, artıq mövcud olan hər cür cəfəngiyatı [27] başqa bir cəfəngiyata müncər etsinlər, yə`ni onlar belə güman edirlər ki, bütün bu cəfəngiyatın, nə isə, xüsusi bir mə`nası vardır və bu mə`nanı açmaq lazımdır, halbuki bütün mətləb ancaq bu nəzəri ibarələri mövcud həqiqi münasibətlər əsasında izah etməkdən ibarətdir. Yuxarıda deyildiyi kimi, bu ibarələr həqiqətdə nəzəri deduksiyalarla deyil, şəraiti dəyişdirməklə əməli şəkildə yox edilə bilər, bu təsəvvürlər də insanların şüurundan yenə də eyni yolla silinib atıla bilər. İnsanların əsas kütləsində, yə`ni proletariatda bu nəzəri təsəvvürlər yoxdur və deməli, həmin kütlədə bu təsəvvürləri məhv etmək də lazım deyildir, əgər bir zamanlar bu kütlənin, bə`zn nəzəri təsəvvürü, məsələn, dini olmuşsa, şərait bu təsəvvürləri çoxdan yox etmişdir.
Qeyd edilən məsələlərin və bunların həllinin xalis milli xarakteri bir də onda aşkara çıxır ki, bu nəzəriyyəçilər tamamilə ciddi şəkildə belə düşünürlər ki, guya «ilahi insan», «İnsan» və i.a. kimi müxtəlif uydurmalar tarixin ayrı-ayrı dövrlərinə rəhbərlik etmişlər; müqəddəs Bruno o qədər uzaqlara gedib çıxır ki, hətta yalnız «tənqid və tənqidçilərin tarixi yaratdığını»17 iddia edir. Bu «nəzəriyyəçilərin özləri tarixi quruluşlara əl atdıqları zaman isə çox tələsib bütün keçmişin üstündən tullanır və birdən «monqolluqdan»18 əsil «mə`nalı» tarixə, məhz «Hallische Jahrbücher» və «Deutsche Jahrbücher»19 tarixinə və Hegel məktəbinin pozulub ümumi dolaşıqlıq şəklini aldığının tarixinə keçirlər. Bütün başqa millətlər və bütün həqiqi hadisələr unudulur, «theatrum mndi» (dünya meydanı. Red.) Leypsiq kitab yarmarkası ilə və «Tənqidin», «İnsanın» və «Yeganənin» (yə`ni B.Bauerin, L.Feyerbaxın və M.Ştirnerin. Red.) qarşılıqlı höcətləşməsi ilə məhdudlaşır. Bizim nəzəriyyəçilər günlərin birində həqiqətən tarixi mövzuya, məsələn, XVIII əsrin tarixinə əl atdıqda belə, yalnız təsəvvürlərin tarixini, həm də təsəvvürlərin əsasını təşkil edən faktlardan və əməli proseslərdən qoparılıb ayrılmış fikirlərin tarixini təsvir edirlər, bu tarixin özünü də ancaq o məqsədlə izah edirlər ki, gözdən keçirdikləri dövrü mükəmməl olmayan ibtidai bir pillə kimi, həqiqətən

tarixi olan dövrün, yə`ni 1840–1844-cü illərdəki alman fəlsəfi mübarizə dövrünün hələ məhdud bir sələfi kimi göstərsinlər. Onlar öz qarşılarına qoyduqları məqsədə–tarixi olmayan bir şəxsiyyətin şərəfini və onun xəyallarını xüsusilə parlaq şəkildə göstərmək üçün keçmişin tarixini yazmaq məqsədinə müvafiq olaraq, həqiqətən tarixi hadisələrdən, hətta tarixin gedişinə siyasətin həqiqətən tarixi müdaxiləsi hallarından heç bəhs etmirlər, bunun əvəzində isə tədqiqata əsaslanmayıb özbaşına edilən mühakiməyə və ədəbi dedi-qoduya əsaslanan rəvayətlərdən danışırlar, necə ki, müqəddəs Bruno indi özünün unudulmuş XVIII əsr tarixində20 belə etmişdir. Bu təmtəraqlı və lovğa fikir alverçiləri hər cür milli təəssübdən sonsuz dərəcə yüksəkdə olduqlarını güman etdikləri halda həqiqətdə Almaniyanı birləşdirmək xəyalı ilə pivəxanalarda vaxt keçirən filisterlərdən daha çox milli məhdudiyyətə malikdirlər. Onlar digər xalqların gördüyü işin tarixi iş olduğunu qəbul etmirlər. Onlar Almaniyada, Almaniya ilə [28] və Almaniya üçün yaşayırlar. Onlar Reyn mahnısını21 mə`nəvi kantataya çevirib Elzas və Lotaringiyanı istila edirlər, fransız dövlətini deyil, fransız fəlsəfəsini oğurlayırlar, fransız əyalətlərini deyil, fransız fikirlərini almanlaşdırırlar. C-b Venedey nəzəriyyənin cahanşümul hökmranlığı bayrağı altında Almaniyanın cahanşümul hökmranlığından xəbər verən müqəddəs Brunoya və Maksa nisbətən kosmopolitdir.

[9. Feyerbaxın əlavə tənqidi, onun tarixi idealistcəsinə anlamasının tənqidi]

Bütün bu təhlildən həmçinin görünür ki, Feyerbax «ictimai insan» tə`rifinin köməyi ilə özünü kommunist e`lan etməklə22 («Wigand`s Vierteljahrsschrift», 1845, c. 2), bu tə`rifi «İnsanın» predikatına çevirməklə və beləliklə, mövcud dunyada müəyyən inqilabi partiyanın ardıcılı mə`nasında olan «kommunist» sözünü yenə də çılpaq kateqoriyaya çevirməyi mümkün hesab etməklə nə dərəcədə səhv edir. İnsanların bir-birinə münasibəti məsələsində Feyerbaxın bütün deduksiyasından məqsəd insanların həmişə bir-birinə möhtac olduqlarını və bu ehtiyacın indi də duyulduğunu sübut etməkdir. Feyerbax bu faktın dərk edilməsini möhkəmləndirmək istəyir, deməli, başqa nəzəriyyəçilər kimi o da istəyir ki, bə`zi mövcud faktın ancaq düzgün dərk edilməsinə nail olsun, halbuki həqiqi kommunistin vəzifəsi bu mövcud olanı devirməkdir. Biz tamamilə qəbul edirik ki, Feyerbax məhz bu faktın dərk edilməsinə nail olmağa çalışarkən o qədər uzaqlara gedib çıxır ki, ümumiyyətlə bu qədər uzaqlara bir nəzəriyyəçi və filosof olmaqda davam edən nəzəriyyəçi gedə bilər.

Lakin xarakterik cəhət burasıdır ki, müqəddəs Bruno və Maks kommunist haqqında Feyerbaxın təsəvvürünü dərhal həqiqi kommunistin yerinə qoyurlar, bu isə qismən ona görə edilir ki, onlar kommunizmlə də «ruhdan ruhla» mübarizə etdikləri kimi mübarizə edə bilsinlər, fəlsəfi kateqoriya və bərabər əleyhdar kimi mübarizə edə bilsinlər, müqəddəs Bruno isə bunu bir də praqmatizm mənafeyini nəzərdə tutaraq edir.
Mövcud olanın qəbul edildiyini və eyni zamanda anlaşılmadığını,–bu qəbul etmək və anlamamaq məsələsində isə Feyerbax hələ yenə də bizim əleyhdarlarımızın fikrinə şərikdir,–nümayiş etdirən bir misal olaraq, «Gələcəyin fəlsəfəsindən» o yeri xatırladaq ki, orada Feyerbax sübut edir ki, hər hansı bir şeyin və ya hər hansı bir insanın varlığı eyni zamanda onun mahiyyətidir23, hər hansı bir heyvanın və ya insan fərdinin mövcud olmasının müəyyən şəraiti, həyat tərzi və fəaliyyəti onun «mahiyyətinə» məmnunluq hissi verən şeydir. Burada hər bir istisna müəyyən şəkildə bədbəxt bir hadisə kimi dəyişdirilməsi mümkün olmayan qeyri-normal bir şey hesab edilir. Deməli, milyonlarla proletar özünün həyat şəraitindən heç də razı deyilsə, onların «varlığı» [29] onların «mahiyyətinə» hətta ən uzaq dərəcədə müvafiq deyilsə, onda,–yuxarıda göstərilən yerdə yazıldığına görə ,–bu hal labüd bədbəxtlikdir və buna guya sakit-sakit dözmək lazımdır. Lakin bu milyonlarla proletar və ya kommunistlər tamamilə başqa cür düşünürlər və vaxtı gələndə, öz «varlıqlarını» öz «mahiyyətlərinə» əməli surətdə, inqilab yolu ilə müvafiq şəklə salanda bunu sübut edəcəklər. Buna görə də bu kimi hallarda Feyerbax heç vaxt insan aləmindən bəhs etmir, lakin hər dəfə xarici təbiət sahəsinə qaçmaqla özünu xilas edir, həm də elə xarici təbiət sahəsinə qaçır ki, hələ o, insanların hökmranlığına tabe edilməmişdir. Lakin hər bir yeni ixtira, səiayenin irəliyə atdığı hər bir yeni addım bu sahənin yeni bir parçasının üstünü açır, odur ki, Feyerbaxın bu kimi müddəalarına aid misalların cücərib bitdiyi zəmin getdikcə azalır. Bir müddəa ilə kifayətlənək balığın «mahiyyəti» onun «varlığıdır», sudur. Çay balığının «mahiyyəti» çayın suyudur. Lakin elə ki, bu çay sənayeyə tabe edildi, boyaq maddələri və başqa tullantı çayı zibilləyib suyunu korladı, çayda gəmilər işləməyə başladı, çayın suyu kanalla axıdıldı, çayda daha su qalmadı və beləliklə, balıq öz varlığı üçün zəruri olan mühitdən məhrum edildi,–bu su daha balığın «mahiyyəti» olmur, çünki onun varlığı üçün əlverişli mühit olmaqdan çıxır. Bu kimi ziddiyyətlərin hamısını labüd qeyri-normallıq

deyə e`lan etmək mahiyyət e`tibarı ilə müqəddəs Maks Ştirnerin narazı olanlara verdiyi təsəllidən fərqlənmir, zira müqəddəs Maks narazı olanlara deyir ki, bu ziddiyyət onların öz ziddiyyətidir, bu pis vəziyyət onların özlərinin pis vəziyyətidir, onlar ya buna dözüb narahat olmamalıdırlar, ya öz narazılıqlarını özlərində saxlamalıdırlar, ya da bu vəziyyətə qarşı xəyalən qiyam etməlidirlər. Feyerbaxın bu konsepsiyası müqəddəs Brunonun bir tə`nəsindən də eyni dərəcədə az fərqlənir: Brunonun dediyinə görə, bu bədbəxtliklərin səbəbi guya bu imiş ki, bədbəxtliyə düçar olanlar «substansiyalar»ın çirkabına ilişib qalmışlar, «mütləq mənlik şüuruna» gəlib çatmamışlar və bu pis münasibətləri öz ruhundan ruh kimi dərk etməmişlər.

[III]

[1. Hakim sinif və hakim şüur. Tarixdə ruhun hökmranlığı haqqında Hegelin təsəvvürü necə əmələ gəlmişdir]

[30] Hakim sinfin fikirləri hər bir dövrdə hakim fikirlərdir. Bu o deməkdir ki, cəmiyyətin hakim maddi qüvvəsini təmsil edən sinif, eyni zamanda cəmiyyətin hakim mə`nəvi qüvvəsidir. Maddi istehsal vasitələrini öz ixtiyarında saxlayan sinif eyni zamanda mə`nəvi istehsal vasitələrini də öz ixtiyarında saxlayır, buna görə də mə`nəvi istehsal üçün vəsaiti olmayanların fikirləri ümumiyyətlə hakim sinfə tabe vəziyyətdə olur. Hakim fikirlər hakim maddi münasibətlərin ən mükəmməl ifadəsindən, fikir şəklində ifadə edilmiş hakim maddi münasibətlərdən başqa bir şey deyildir; deməli, bu fikirlər məhz tək bu sinfi hakim edən münasibətlərin ifadəsidir; deməli, bu fikirlər həmin sinfin hakimiyyət fikirləridir. Yeri gəlmişkən deyək ki, hakim sinfi təşkil edən fərdlərin də şüuru vardır və deməli, onlar da düşünürlər; onlar məhz bir sinif kimi hökmran olub müəyyən tarixi dövrü bütün həcmində tə`yin etdiklərinə görə, özlüyündə aydındır ki, onlar həmin dövrün bütün sahələrində belə edirlər, deməli, düşünən insanlar kimi, fikir istehsalçıları kimi də hökmranlıq edirlər; onlar öz zəmanələrində fikirlərin istehsalı və bölüşdürülməsini nizama salırlar; bu isə o deməkdir ki, onların fikirləri dövrün hakim fikirləridir. Məsələn, hazırda kral hakimiyyəti ilə aristokratiya və burjuaziyanın hökmranlıq üstündə mübarizə etdikləri bir ölkədə, deməli, hakimiyyətin bölüşdürülmüş olduğu bir ölkədə hakim fikir hakimiyyətin bölünməsi nəzəriyyəsidir ki, bu da «əbədi qanun» e`lan edilir.

Biz yuxarıda (səh. [15–18]) (bax: həmin cild, səh. 24–29. Red.) tanmışdıq ki, əmək bölgüsü bundan əvvəlki tarixin başlıca qüvvələrindən biridir; indi bu əmək bölgüsü hakim sinif sıralarında da özünü mə`nəvi və [31] maddi əmək bölgüsü şəklində büruzə verir, belə ki, bu sinif daxilində onun bir hissəsi bütün sinfin mütəfəkkirləri kimi fəaliyyət göstərir (bunlar həmin sinfin ümumiləşdirmə qabiliyyəti olan fəal ideoloqlarıdır, onların bahlıca ruzi mənbəyi bu sinfin özü haqqındakı xəyallarını hazırlamaqdır), halbuki digərləri bu fikir və xəyallara daha passiv yanaşır və bunları qavrayıb mənimsəməyə hazırdırlar, çünki həqiqətdə mövcud sinfin bu nümayəndələri məhz onun fəal üzvləridir və özləri haqqında fikir yeritmək və xəyala dalmaq üçün onların daha az vaxtı var. Bu sinif daxilində həmin parçalanma artıb sinfin hər iki hissəsi arasında hətta müəyyən əkslik və düşmənçilik dərəcəsinə çata bilər, lakin hər bir əməli toqquşma şəraitində, sinfin öz qarşısında təhlükə duranda, guya hakim fikirlərin hakim sinfin fikri olmadığının və əllərindəki hakimiyyətin həmin sinfin hakimiyyətindən fərqli olduğunun hətta zahiri görünüşü itib gedəndə bu düşmənçilik öz-özlüyündə yox olur. Müəyyən dövrdə inqilabi fikirlərin mövcud olması inqilabi sinfin mövcud olmasını tələb edir ki, bunun müqəddəm şərtləri haqqında lazım olan şey yuxarıda deyilmişdir (səh. [18–19, 22–23]) (bax: həmin cild, səh. 29–30, 33–34. Red.).

Lakin tarixin gedişi gözdən keçirilərkən hakim sinfin fikirləri bu sinfin özündən ayrılanda, bu fikirlərə müstəqillik veriləndə, nə bu fikirlərin istehsal şəraiti və nə də bunların istehsalçılarının istehsal şəraiti nəzərə alınmayıb müəyyən bir dövrdə filan və filan fikirlərin hökmran olduğu iddia edilərək, yalnız bununla kifayətlənildikdə, deməli, bu fikirlərin əsasını təşkil edən fərdlər və tarixi şərait tamamilə bir tərəfdə buraxılanda,–məsələn, demək olar ki, aristokratiyanın hökmranlığı dövründə «namus», «sədaqət» və i.a. anlayışları, burjuaziyanın hökmranlığı dövründə isə «azadlıq», «bərabərlik» və i.a. anlayışları hökmran idi. Ümumiyyətlə, hakim sinfin özü bu kimi xəyalları özü üçün yaradır. Tarixin bu cür anlaşılması,–başlıca olaraq, XVIII əsrdən e`tibarən bütün tarixçilərə xas olan bu anlama belə bir zərurətlə üz-üzə gəlir [32] ki, getdikcə daha abstrakt fikirlər, yə`ni get-gedə daha artıq ən ümumi şəklə girən fikirlər hakim fikir olur. İş burasındadır ki, hər bir yeni sinif özündən əvvəl hökmran olan sinfin yerinə keçəndə, öz məqsədinə çata bilmək üçün öz mənafeyini bütün cəmiyyət üzvlərinin ümumi mənafeyi kimi göstərməyə,

yə`ni abstrakt şəkildə desək, öz fikirlərinə ən ümumilik forması verməyə, bunları yeganə ağlabatan və hamı üçün əhəmiyyətli olan fikirlər kimi təsvir etməyə məcburdur. İnqilab edən sinif təkcə başqa bir sinfin qarşısında durduğu üçün işin əvvəlindən bir sinif kimi deyil, bütün cəmiyyətin nümayəndəsi kimi hərəkət edir; bu sinif yeganə hökmran sinfə əks olaraq, cəmiyyətin bütün kütləsi şəklində mövcud olur (Kənarda Marksın belə bir qeydi var: «(Ən ümumilik müvafiqdir 1) silkə contra (əks olan) sinfə, 2) rəqabətə, dunya əlaqələrinə və i.a., 3) hökmran sinfin çox sayına, 4) ümumi mənafe barəsindəki xəyala, əvvəlcə bu xəyal doğrudur, 5) ideoloqların özlərini aldatmasına və əmək bölgüsünə)». Red.). Bu ona görə belə olur ki, ilk vaxtlar bu sinfin mənafeyi hakim olmayan bütün başqa siniflərin ümumi mənafeyi ilə həqitətən az-çox əlaqədar olur, o vaxtadək mövcud olan münasibətlərin təzyiqi altında qalıb xüsusi sinfin xüsusi mənafeyi şəklində inkişaf etməyə hələ macal tapmır. Buna görə də bu sinfin qələbə qazanması hakimiyyətə çatmayan digər siniflərə mənsub bir çox fərdlər üçün də faydalı olur, lakin yalnız o cəhətdən ki, bu qələbə həmin fərdlərə hakim sinif sıralarına yüksəlmək imkanı verir. Fransa inqilabı aristokratiyanın hökmranlığını devirdiyi zaman bir çox proletar bunun nəticəsində proletariatın fövqünə qalxa, bildi, lakin bu ancaq həmin proletarların dönüb burjua olması nəticəsində mümkün oldu. Beləliklə, hər bir yeni sinfin öz hökmranlığını qurarkən istifadə etdiyi əsas, bu sinifdən əvvəlki sinfin hakim olanda arxalandığı əsasdan daha genişdir; bunun müqabilində sonralar, hökmran olmayan sinif ilə hökmranlığa çatmış sinif arasındakı, əkslik daha kəskin və daha dərindən inkişaf edir. Bu hər iki şərait onunla nəticələnir ki, hökmran olmayan sinfin yeni hakim sinfə qarşı aparmalı olduğu mübarizə, öz növbəsində, özündən əvvəlki ictimai quruluşun daha qəti, daha əsaslı şəkildə inkar edilməsinə doğru yönəldilir və hakimiyyətə çatmış bütün əvvəlki siniflərin bu yoldakı mübarizəsindən daha [33] şiddətli olur.

Siniflərin hökmranlığı ümumiyyətlə ictimai quruluşun forması olmaqdan çıxar-çıxmaz, deməli, xüsusi mənafeyi ən ümumi mənafe kimi və ya «ən ümumini» hakim olan kimi təmsil etmək zərurəti yox olub itər-itməz, müəyyən sinfin hökmranlığı guya yalnız müəyyən fikirlərin hökmranlığı imiş şəklində ifadə edilən bütün bu zahiri görünüş də, əlbəttə, özlüyündə yox olub itəcəkdir.

Hakim fikirlər hakim fərdlərdən, başlıcası isə, istehsal üsulunun mövcud pilləsinin doğurduğu münasibətlərdən ayrılandan və beləliklə, tarixdə həmişə fikirlərin, hakim olduğu nəticəsi çıxarılandan sonra,–bundan sonra bu müxtəlif fikirlərdən «ümumi fikir», ideya və s. kimi abstraksiyalar yaratmaq, eləcə də tarixdə onun hökmranlığını güman etmək və bununla da bütün ayrı-ayrı fikir və anlayışları tarixdə inkişaf edən Anlayışın «özünü tə`yin etməsi» kimi təsəvvür etmək çox asandır. Bu halda, tamamilə təbiidir ki, insanların bütün münasibətləri insan anlayışından, xəyali insandan, insanın mahiyyətindən, «İnsandan» bir nəticə kimi çıxarıla bilər. Spekulyativ fəlsəfə də elə bu cür edirdi. Hegelin özü «Tarix fəlsəfəsi»nin sonunda e`tiraf edir ki, o, «yalnız anlayışın yüksələn hərəkətini tədqiq etmiş» və tarixdə «həqiqi teodiseya». (səh. 446) olduğunu təsvir etmişdir. Bax bundan sonra «anlayış» istehsalçıları, nəzəriyyəçilər, ideoloqlar və filosoflar üzərinə yenə də qayıdıb belə bir nəticə çıxarmaq olar ki, filosof və mütəfəkkir olmaq e`tibarı ilə filosoflar və mütəfəkkirlər tarixdə lap əzəldən hökmran olublarmış,–biz yuxarıda gördük ki, bu nəticə Hegel24 tərəfindən ifadə edilmişdir.

Beləliklə, ruhun ali hökmranlığını (Ştirnerdə iyerarxiyanı) tarixi material əsasında sübut etmək üçün işə salınan bütün hoqqabazlıq aşağıdakı üç üsula müncər ednlir

[34] № 1. Hökmranlıq edən fərdlərin,–empirik səbəblər nəticəsində, empirik şəraitdə və maddi fərdlər olmaq e`tibarı ilə hökmranlıq edən fərdlərin,–fikirlərini hökmranlıq edən bu fərdlərin özlərindən ayırmaq və beləliklə, tarixdə fikirlərin və ya xəyalların hökmranlığını qəbul etmək lazımdır.

№ 2. Fikirlərin bu hökmranlığını bir növ qaydaya salmaq lazımdır, bir-birinin ardınca gəlib hökmranlıq edən fikirlər arasında bir növ mistik əlaqə olduğunu sübut etmək lazımdır. Buna nail olmaq üçün həmin fikirlər «anlayışın özü-özünü tə`yin etməsi» kimi nəzərdən keçirilir (bu ona görə mümkündür ki, bu fikirlər öz empirik əsası vasitəsi ilə bir-birinə həqiqətən bağlıdır, bir də ona görə ki, bu fikirlər ancaq bir fikir kimi götürüləndə təfəkkürün etdiyi öz-özünü fərqləndirmə və fərqlər olur).

№ 3. «Özü-özünü tə`yin edən anlayışın» mistik şəklini ortadan qaldırmaq üçün onu çevirib bir növ şəxsiyyət–«Mənlik şüuru»–şəklinə salırlar, yaxud da özlərini əsil materialist kimi göstərmək üçün onu döndərib tarixdə «anlayışın» nümayəndəsi olan bir sıra şəxs: «düşünənlər», «filosoflar» və

ideoloqlar şəklinə salıb bunları da, öz sırası ilə tarixin yaradıcıları, «keşikçiləri şurası» və hökmranlıq edənlər kimi tə`yin edirlər (Kənarda Marksın belə bir qeydi var: «İnsan olmaq e`tibarı ilə insan=«duşünən insan ruhuna»». Red.). Beləliklə, bütun materializm ünsürləri tarixdən çıxarılıb atılır, odur ki, indi cilovu arxayın buraxmaq və özünün spekulyativ atına sərbəstlik vermək olar.

Almaniyada hökmranlıq etmiş bu tarixi metodu, həmçinin həmin metodun nə üçün əsasən orada hökmranlıq etməsi səbəbini izah etmək üçün onun ümumiyyətlə ideoloqların xəyalları ilə,–məsələn, hüquqçuların, siyasətçilərin (əməli dövlət xadimləri də daxil olmaqla) xəyalları ilə əlaqəsini əsas tutmaq,–bu subyektlərin ehkamçı xülyalarını və təhrif olunmuş təsəvvürlərini əsas tutmaq lazımdır. Bu xəyallar, xülyalar və təhrif olunmuş təsəvvürlər isə onların həyatdakı əməli vəziyyətləri, onların sənətləri və mövcud əmək bölgüsü ilə çox sadə izah edilir.

[35] Adi həyatda hər bir shopkeeper (dükançı. Red.) bu və ya başqa adamın özünü necə bir insan kimi göstərmək istədiyi ilə həqiqətdə nə olduğu arasındakı fərqi seçməyi çox yaxşı bacardığı halda, bizim tarixşünaslıq hələ bu bayağı idrak səviyyəsinə çatmamışdır. Hər bir dövr özü haqqında nə deyirsə desin, nə xəyal edirsə etsin, bizim tarixşünaslıq ancaq bu quru sözə inanır.

[IV]

[1. İstehsal alətləri və mülkiyyət formaları]

...(Burada əlyazmasının dörd səhifəsi çatışmır. Red.) [40] İnkişaf etmiş əmək bölgüsünün və geniş ticarətin müqəddəm şərti–birincisindən, məhəlli məhdudiyyət isə ikincisindən irəli gəlir. Birinci halda fərdlər bir yerə yığılmalıdırlar, ikinci halda–onların özləri mövcud istehsal alətləri ilə yanaşı istehsal alətləri vəziyyətində olurlar.

Beləliklə, təbii şəkildə meydana gəlmiş istehsal alətləri ilə mədəniyyətin yaratdığı istehsal alətləri arasındakı fərq burada özünü göstərmiş olur. Əkin yerinə (suya və i.a.) təbii şəkildə meydana gəlmiş istehsal aləti kimi baxıla bilər. Birinci halda, yə`ni təbii şəkildə meydana gəlmiş istehsal alətləri şəraitində fərdlər təbiətə tabe olurlar; ikinci halda isə onlar bə`zi əmək məhsuluna tabedirlər. Buna görə də birinci halda mülkiyyət də (torpaq mülkiyyəti) təbii şəkildə meydana gəlmiş bilavasitə hökmranlıq kimi, ikinci halda isə əməyin, xüsusən toplanmış əməyin, kapitalın hökmranlığı kimi özünü göstərir. Birinci halda tələb olunur ki, fərdlər öz aralarında bir

əlaqə ilə–ailə əlaqəsi, tayfa əlaqəsi və ya, heç olmazsa, ərazi əlaqəsi və i.a. ilə–birləşdirilmiş olsunlar ikinci halda tələb olunur ki, fərdlər müstəqil olub bir-biri ilə yalnız mübadilə vasitəsi ilə əlaqədar olsunlar. Birinci halda mübadilə başlıca olaraq, insan ilə təbiət arasında mübadilədir, çünki burada insanın əməyi təbiət məhsulları ilə mübadilə olunur; ikinci halda mübadilə isə əsas e`tibarı ilə insanların öz arasındakı mübadilədir. Birinci halda adi sağlam düşüncə kifayətdir, fiziki və əqli fəaliyyət hələ bir-birindən qətiyyən ayrılmamışdır; ikinci halda isə fiziki və əqli əmək arasında əməli surətdə bölgü əmələ gəlməlidir. Birinci halda mülkiyyətçinin mülkiyyətçi olmayanlar üzərindəki hökmranlığı şəxsi münasibətlərə, bu və ya başqa növ birliyə [Gemeinwesen] arxalana bilər; ikinci halda isə bu hökmranlıq bir şey formasını alaraq, üçüncü şeydə, pulda ifadə olunmalıdır. Birinci halda xırda sənaye mövcuddur, lakin təbii surətdə meydana gəlmiş istehsal alətindən istifadə etməyə tabe olduğuna görə burada müxtəlif fərdlər arasında əmək bölgüsü yoxdur; ikinci halda isə sənaye əmək bölgüsünə əsaslanır və yalnız bu bölgü sayəsində mövcud olur.

[41] İndiyədək biz istehsal alətlərini əsas tuturduq və burada aşkar oldu ki, sənaye inkişafının müəyyən pillələrində xüsusi mülkiyyət zəruridir. «İndustrie extractive»də (hasilat mə`dənləri. Red.) xüsusi mülkiyyət əməyə hələ tamamilə müvafiqdir; xırda sənayedə və hələ indiyədək əkinçilikdə hər yerdə mülkiyyət mövcud istehsal alətlərinin zəruri nəticəsidir; iri sənayedə istehsal aləti ilə xüsusi mülkiyyət arasındakı ziddiyyət ilk dəfə olaraq, bu sənayenin öz məhsulu kimi ortaya çıxır ki, iri sənaye bu məhsulu törətmək üçün yüksək inkişaf pilləsinə çatmış olmalıdır. Beləliklə, xüsusi mülkiyyətin yox edilməsi ancaq iri sənaye inkişaf etdikdən sonra mümkün olur.

[2. Maddi və mə`nəvi əməyin bölgüsü. Şəhərin kənddən ayrılması. Sex quruluşu]

Ən böyük maddi və mə`nəvi əmək bölgüsü şəhərin kənddən ayrılmasıdır. Şəhər ilə kənd arasındakı əkslik barbarlıqdan mədəniyyətə, tayfa quruluşundan dövlətə, məhəlli məhdudluqdan millətə keçməklə birlikdə başlanıb yaşadığımız zamanadək bütün mədəniyyət tarixindən keçir (Taxıl qanunları əleyhinə cəmiyyət25).

Şəhərlə birlikdə idarə, polis, vergi və i.a.–bir sözlə icma siyasi quruluşu [des Gemeindewesens] zərurəti və beləliklə, ümumiyyətlə siyasət zərurəti ortaya çıxır. Burada ilk dəfə aşkar oldu ki, əhali iki böyük sinfə

bölünmüşdür və bu bölgü bilavasitə əmək bölgüsünə və istehsal alətlərinə əsaslanır. Şəhər əhalinin, istehsal alətlərinin, kapitalın, zövqlərin və tələbatın bir yerə toplanması faktını ifadə etdiyi halda, kənddə bunun tam əksi olan əlaqəsizlik və ayrılıq faktı müşahidə olunur. Şəhər ilə kənd arasında əkslik ancaq xüsusi mülkiyyət çərçivəsində mövcud ola bilər. Bu əkslik fərdin əmək bölgüsünə və ona zorla qəbul etdirilmiş müəyyən fəaliyyətə tabe olduğunu ən kəskin şəkildə ifadə edir; bu tabelik isə bə`zilərini məhdud şəhər heyvanı, bə`zilərini də məhdud kənd heyvanı halına salır və bunların mənafeləri arasında hər gün yenidən əkslik doğurur. Burada əmək yenə də ən başlıca amildir, fərdlərin üstündə duran qüvvədir; nə qədər ki, bu qüvvə mövcuddur, xüsusi mülkiyyət də mövcud olmalıdır. Şəhər ilə kənd arasındakı əksliyin yox edilməsi ictimai birliyin ilk şərtdərindən [42] biridir, bu, bir çox maddi müqəddəm şərtlərdən asılı olan elə bir şərtdir ki, ilk baxışdan göründüyü kimi təkcə iradə ilə həyata keçirilə bilməz. (Bu şərtlər hələ ətraflı öyrənilməlidir.) Şəhərin kənddən ayrılmasına kapitalın torpaq mülkiyyətindən ayrılması kimi, kapitalın torpaq mülkiyyətindən asılı olmadan, yə`ni yalnız əməyə və mübadiləyə əsaslanan mülkiyyət şəklində mövcud olmağa və inkişaf etməyə başlaması kimi baxmaq olar.

Orta əsrlərin keçmiş tarixdən hazır şəkildə əldə etmədiyi və azad olmuş təhkimlilərin yenidən saldıqları şəhərlərdə,–bu şəhərlərdə hər bir fərdin yeganə mülkiyyəti, onun özü ilə gətirdiyi və, demək olar ki, hamısı ən zəruri sənət alətlərindən ibarət olan kiçik kapital nəzərə alınmasa, həmin fərdin əməyinin xüsusi növü idi. Daim şəhərə gələn qaçqın təhkimlilərin rəqabəti; kəndin şəhərlərə qarşı fasiləsiz müharibəsi, deməli, şəhər hərbi qüvvəsini təşkil etmək zərurəti, müəyyən ixtisas üzərində ümumi mülkiyyət əlaqələri; öz malını satmaq üçün ümumi binaların zərurəti–o zaman sənətkarlar eyni zamanda alverçi idilər–və bununla əlaqədar olaraq, kənar adamların bu binalara buraxılmaması; ayrı-ayrı sənətlərin mənafeyi arasındakı əkslik; çox böyük çətinliklə öyrənilmiş sənəti qorumaq zərurəti; bütün ölkənin feodalcasına təşkili–bütün bunlar ayrıca hər bir sənət işçilərinin sexlərdə birləşməsinin səbəbləri idi. Sonrakı tarixi inkişaf nəticəsində sex quruluşunda əmələ gəlmiş bir çox dəyişikliklər üzərində burada ətraflı dayanmağımıza ehtiyac yoxdur. Bütün orta əsrlər ərzində təhkimlilərin şəhərlərə qaçması fasiləsiz davam etmişdir. Kəndlərdə öz ağaları tərəfindən tə`qib olunan bu təhkimlilər tək-tək gəldikləri şəhərlərdə

mütəşəkkil icma ilə üz-üzə gəlirdilər və bunların qabağında aciz olduqlarına görə bu icma çərçivəsində onların əməyinə olan tələbatla və onların şəhərlərdəki mütəşəkkil rəqiblərinin mənafeyi ilə müəyyən olunan vəziyyətə itaət etməyə məcbur olurdular. Şəhərə tək-tək gələn bu işçilər heç vaxt bir qüvvə ola bilməmişdilər, çünki onların əməyi sex xarakteri daşıyıb işin öyrənilməsini tələb etdiyi hallarda sex ustaları həmin işçiləri özlərinə tabe edir, özlərinin xüsusi mənafelərinə uyğun şəkildə təşkil edirdilər; bu əmək işin öyrənilməsini tələb etməyəndə və buna görə də sex xarakteri daşımayıb gündəlik xarakterdə olanda isə, işçilər təşkil oluna bilmirdilər və həmişəlik qeyriymütəşəkkil plebey halında qalırdılar. Şəhərlərin gündəlik işə olan ehtiyacı plebeyləri yaratdı.

Bu şəhərlər əsil «ittifaqlar»26 idi və bu ittifaqları bilavasitə [43] tələbat, mülkiyyəti qorumaq qayğısı və ayrı-ayrı üzvlərin ixtiyarında olan istehsal vasitələrini və müdafiə vasitələrini çoxaltmaq cəhdi doğurmuşdu. Bu şəhərlərdəki plebeylər tamamilə aciz idi, çünki bir-birinə yad olub şəhərə tək-tək gələn fərdlərdən ibarət idi və bu qeyri-mütəşəkkil fərdlər hərbi qaydada silahlanıb plebeyləri çox sə`ylə güdən mütəşəkkil qüvvə ilə qarşı-qarşıya dururdular. Usta köməkçiləri və şagirdlər hər bir sənətdə elə təşkil olunmuşdular ki, bu təşkilat ustaların mənafeyinə ən çox uyğun idi; bunlar ilə ustalar arasındakı patriarxal münasibətlər ustaların qüvvəsini iki qat artırırdı: birincisi, ona görə ki, ustalar öz köməkçilərinin bütün həyatına bilavasitə tə`sir göstərirdilər, ikincisi isə ona görə ki, usta köməkçilərinin eyni bir ustanın yanında işləməsi, onları digər ustaların köməkçilərinə qarşı birləşdirən və onlardan ayıran həqiqi əlaqə idi; nəhayət, usta köməkçilərinin özləri usta olmaqda maraqlı olduqlarına görə mövcud quruluşa möhkəm bağlanmışdılar. Buna görə də plebeylər bütün bu şəhər quruluşuna qarşı hərdənbir qiyam qaldırsalar da,–yeri gəlmişkən demək lazımdır ki, bu qiyamlar plebeylərin acizliyi üzündən heç bir nəticə vermirdi,–usta köməkçiləri ayrı-ayrı sexlər çərçivəsində sex quruluşunun varlığı ilə qırılmaz surətdə əlaqədar olan xırda toqquşmalardan daha uzağa getmirdilər. Orta əsrlərdəki bütün iri üsyanlar kəndlərdə baş verirdi, lakin bunlar da dağınıq şəkildə olduğu üçün və kəndlilərin son dərəcə geridə qalmış olmaları üzündən tamamilə nəticəsiz qalırdı.–

Bu şəhərlərdəki kapital təbii surətdə meydana gəlmiş kapital idi; bu kapital mənzillərdən, sənət alətlərindən və təbii surətdə meydana gəlmiş irsi müştərilərdən ibarət idi; əlaqələr inkişaf etmədiyinə və tədavül çatışmazlıq

göstərdiyinə görə kapital reallaşmaq imkanından məhrum olub irsən atadan oğula keçirdi. Müasir kapitaldan fərqli olaraq, bu kapitalın qiyməti pulla ifadə edilmirdi,–bu qiymət pulla ifadə ediləndə isə kapitalın məhz hansı şeydən ibarət olduğu fərqsizdir,–öz sahibinin tamamilə müəyyən əməyi ilə bilavasitə əlaqədar olub bu növ əməkdən qətiyyən ayrılmaz olduğuna görə bu mə`nada silk kapitalı idi.–

Şəhərlərdə ayrı-ayrı sexlər arasında əmək bölgüsü [44] hələ [tamamilə primitiv] (Əlyazması zədələnib korlanmışdır. Red.) idi, sexlərin öz daxilində ayrı-ayrı işçilər arasında isə heç tətbiq edilmirdi. Hər bir işçi tam bir sıra iş bilməli idi, öz alətləri ilə görülə biləcək hər işi bacarmalı idi; əlaqələrin məhdud olması və ayrı-ayrı şəhərlər arasında rabitənin zəifliyi, əhalinin azlığı və tələbatın məhdudluğu əmək bölgüsünün daha da genişlənməsinə mane olurdu, buna görə də usta olmaq istəyən hər bir adam öz sənətinə tam ölçüdə sahib olmalı idi. Elə buna görədir ki, orta əsr sənətkarlarında öz xüsusi işinə və onu bacarıqla yerinə yetirməyə hələ maraq vardı və bu maraq bir növ məhdud bədii zövq dərəcəsinə yüksələ bilirdi. Lakin yenə də eyni səbəbə görə hər bir orta əsr sənətkarının başı bütünlüklə öz işinə qarışmış olurdu, sənətkar öz işinə qul kimi sədaqət gözü ilə baxırdı və öz işinə e`tinasız yanaşan müasir fəhləyə nisbətən öz işinə daha çox tabe idi.–

[3. Sonrakı əmək bölgüsü. Ticarətin sənayedən ayrılması. Müxtəlif şəhərlər arasında əmək bölgüsü. Manufaktura]

Əmək bölgüsünün sonrakı genişlənməsi ondan ibarət oldu ki, ünsiyyət istehsaldan ayrıldı və xüsusi tacir sinfi əmələ gəldi,–bu ayrılma tarixi keçmişdən saxlanıb qalan şəhərlərdə (əzcümlə yəhudi əhalisi olan şəhərlərdə) irsən həyata keçdi və çox keçmədən yeni salınmış şəhərlərdə də əmələ gəldi. Beləliklə, ən yaxın mahal hüdudundan xaricə çıxan ticarət əlaqələri düzəltmək imkanı yaranırdı,–bu imkanın həyata keçirilməsi isə mövcud ünsiyyət vasitələrindən, yollarda ictimai təhlükəsizliyin siyasi münasibətlərlə əlaqədar olan vəziyyətindən (mə`lum olduğu kimi bütün orta əsrlərdə tacirlər silahlı karvanla səfərə çıxıb hərəkət edirdilər) və ünsiyyətin şamil olduğu ərazinin tələbatının müvafiq mədəniyyət dərəcəsi ilə əlatədar olaraq daha çox və ya daha az inkişaf etmiş olmasından asılı idi.

Ünsiyyətin xüsusi bir sinfin əlində toplanması ilə və ticarətin–tacirlər sayəsində–şəhərlərin ən yaxın ətrafından kənara çıxıb genişlənməsi ilə

birlikdə istehsal və ünsiyyət arasında dərhal qarşılıqlı tə`sir əmələ gəlir. Şəhərlər bir-biri ilə əlaqəyə girir, bir şəhərdən başqasına yeni əmək alətləri gətirilir, istehsal ilə ünsiyyət arasındakı bölgü isə çox keçmədən istehsalın ayrı-ayrı şəhərlər arasında [45] yeni bölgüsünə səbəb olur və az sonra bu şəhərlərdən hər birində xüsusi bir sənaye sahəsi üstün olmağa başlayır. Əvvəlki məhəlli məhdudiyyət yavaş-yavaş yox olmağa başlayır.–
Bu və ya başqa bir yerdə yaradılmış məhsuldar qüvvələrin, xüsusən ixtiraların sonrakı inkişaf üçün itib-itməməsi ancaq ünsiyyətin genişlənməsindən asılıdır. Nə qədər ki, ünsiyyət bilavasitə qonşuluqla məhdudlaşır, hər bir ixtiranı ayrıca hər bir yerdə yenidən yaratmaq lazım gəlir məhsuldar qüvvələri və tələbatı inkişaf etmiş hər hansı bir ölkəni hər şeyə yenidən başlamaq zərurəti nöqtəsinə çatdırmaq üçün barbar xalqların hücumu və ya hətta adi müharibələr kimi sadə təsadüfi hadisələrin baş verməsi kifayət idi. Tarixi inkişafın ilk pillələrində hər bir ixtiranı hər gün yenidən, həm də hər bir yerdə başqa yerlərdən asılı olmadan yaratmaq lazım gəlirdi. İnkişaf etmiş məhsuldar qüvvələrin hətta nisbətən çox geniş ticarət şəraitində də tamamilə məhv olmaqdan nə qədər az tə`min edilmiş olduğunu finikiyalıların (Kənarda Marksın belə qeydi var: «Həmçinin orta əsrlərdə şüşə üzərində rəssamlıq». Red.) timsalı göstərir, çünki onların etdikləri ixtiraların çoxu bu millətin ticarətdən sıxışdırılıb çıxarılması, İsgəndərin istilası və bundan irəli gələn tənəzzül nəticəsində uzun zaman üçün itib getmişdi. Bir başqa misal da orta əsrlərdə şüşə üzərində rəssamlığın taleyidir. Yaradılmış məhsuldar qüvvələrin saxlanıb mühafizə edilməsi yalnız o zaman tə`min edilir ki, ünsiyyət cahanşümul xarakter alıb iri sənayeyə arxalanır və bütün millətlər rəqabət mübarizəsinə cəlb edilmiş olurlar.
Müxtəlif şəhərlər arasında əmək bölgüsünün ən yaxın nəticəsi bu oldu ki, manufakturalar, sex quruluşu hüdudundan kənara çıxan istehsal sahələri meydana gəldi. Manufakturaların ilk tərəqqi və çiçəklənməsinin–İtaliyada, sonra isə Flandriyada–tarixi müqəddəm şərti xarici millətlərlə ünsiyyət oldu. Digər ölkələrdə,–məsələn, İngiltərə və Fransada–manufakturalar əvvəlcə daxili bazarla kifayətlənirdi. Manufakturaların meydana gəlməsi yuxarıda göstərilən müqəddəm şərtlərdən başqa əhalinin, xüsusilə kənd əhalisinin, həmçinin ayrı-ayrı əllərdə–sex qanunları xilafına olaraq, qismən sexlərin, qismən də tacirlərin əllərində–toplaşmağa başlayan kapitalın artan təmərküzləşməsindən asılı idi.

[46] Ən ibtidai maşın olsa da, lap əvvəldən maşınla əlaqədar olan əmək növü aradan çox keçmədən aşkar etdi ki, bu növ əməyin inkişaf etmək qabiliyyəti ən çoxdur. O zamanadək kəndlilərin özlərinə lazım olan paltarı hazırlamaq üçün kəndlərdə ötəri məşğul olduqları toxuculuq, ünsiyyətin genişlənməsi sayəsində daha da inkişaf etməyə təkan alan ilk əmək növü idi. Toxuculuq manufakturaların birincisi olub başlıca manufaktura kimi qalırdı. Əhalinin artması ilə birlikdə artan paltarlıq parça tələbatı; təbii surətdə meydana gəlmiş kapitalın tədavüldəki sür`ətlənmə nəticəsində bir yerə yığışıb səfərbər halına gəlməyə başlaması bu vəziyyətin doğurduğu və ümumiyyətlə ünsiyyətin tədricən genişlənməsi ilə şirnikib artan bəzək şeylərinə tələbat, bütün bunlar toxuculuğun kəmiyyət və keyfiyyətcə inkişafına təkan verdi, onu əvvəlki istehsal forması çərçivəsindən çıxardı. Öz tələbatını ödəmək üçün toxuculuqla, məşğul olan və indiyədək məşğul olmaqda davam edən kəndlilərlə yanaşı şəhərlərdə elə yeni toxucular sinfi əmələ gəldi ki, bunların parçası bütün daxili bazara, həmçinin çox hissəsi xarici bazarlara çıxarılmaq üçün toxunurdu.

Əksəriyyətlə böyük məharət tələb etməyən və tezliklə parçalanıb saysız-hesabsız sahələrə bölünən toxuculuq elə əmək növüdür ki, özünün daxili təbiətinə görə sex buxovlarına qarşı çıxırdı. Buna görə də toxuculuqla ən çox sex təşkilatı çərçivəsindən kənarda, kənd və qəsəbələrdə məşğul olurdular; bu kənd və qəsəbələr isə tədricən şəhərlərə çevrilmiş, həm də çox keçmədən hər bir ölkənin ən çox tərəqqi edib çiçəklənən şəhərləri olmuşdur.

Sex buxovlarından azad olan manufaktura meydana gələndən sonra mülkiyyət münasibətləri də dərhal dəyişdi. Təbii surətdə meydana gəlmiş silk kapitalından irəliyə doğru atılan ilk addım tacirlərin meydana gəlməsindən asılı idi, zira tacirlərin kapitalı lap əvvəldən daşınar kapital idi, yə`ni sözün müasir mə`nasında, o zamankı münasibətlərə tətbiq edilə biləcək mə`nasında kapital idi. İrəliyə doğru atılan ikinci addım manufakturanın meydana gəlməsindən ibarət oldu ki, bu da, öz növbəsində, təbii surətdə meydana gəlmiş kapitalın kütləsini səfərbər hala gətirdi və ümumiyyətlə daşınar kapitalın miqdarını təbii surətdə meydana gəlmiş kapitalın miqdarına nisbətən artırdı.

Əvvəllərdə sex şəhərləri kəndlilərin [onları sıxışdıran zadəganlardan] (Əlyazması zədələnib korlanmışdır. Red.) qorunduğu sığınaq [47] olduğu

kimi, manufaktura da kəndlilərin onları öz sıralarına qəbul etməyən yaxud da onlara pis haqq verən sexlərdən qorunduğu sığınaq oldu.–
Manufakturaların meydana gəlməsi ilə eyni zamanda səfillik dövrü də başlandı ki, bunun da səbəbi feodal silahlı dəstələrinin, habelə hər cür tör-töküntüdən əmələ gətirilib vassallara qarşı mübarizədə krallara qulluq edən qoşunların dağıdılması, əkinçiliyin yaxşılaşması və çox böyük əkin yerlərinin otlaqlara çevrilməsi idi. Elə buradan aydındır ki, səfillik feodalizmin pozulub dağılması ilə əlaqədar idi. Hələ XIII əsrdə bu kimi səfilliyin ayrı-ayrı dövrləri olmuşdu, lakin səfillik ancaq XV əsrin sonunda və XVI əsrin əvvəllərində ümumi və uzun çəkən bir hadisə oldu. Bu səfillər o qədər çox idi ki, təkcə İngiltərənin VIII Henrixi onlardan 72000 nəfərinin asılmasını əmr etmişdi, onları son dərəcə böyük çətinliklə işlətmək olurdu; onlar hətta ən son ehtiyac nöqtəsinə çatdırıldıqda belə ən şiddətli müqavimət göstərirdilər. Sür`ətlə tərəqqi edib çiçəklənən manufakturalar, xüsusən İngiltərədə səffilləri tədricən özünə cəlb edib uddu.
Manufaktura meydana gələndən sonra müxtəlif millətlər öz aralarında rəqabətə başlayır, ticarət mübarizəsinə girişirlər, bu mübarizə müharibə, himayəçilik gmrüyü və qadağan sistemləri vasitəsi ilə aparılır, halbuki əvvəllər xalqlar bir-birləri ilə münasibətlərə girdikdə öz aralarında dinc mübadilə edirdilər. Ticarət bundan sonra siyasi əhəmiyyət kəsb edir.
Manufaktura meydana gələndən sonra fəhlənin iş verən sahibkara münasibəti də dəyişildi. Sexlərdə usta köməkçiləri ilə usta arasında patriarxal münasibətlər vardı manufakturada isə bu münasibətləri fəhlə ilə kapitalist arasındakı pul münasibətləri əvəz etdi; kəndlərdə və kiçik şəhərlərdə bu münasibətdə patriarxallıq çaları davam etmiş olsa da, iri manufaktura şəhərlərində bu çalardan hələ ilk dövrdə, demək olar ki, heç iz də qalmamışdı.
Amerikanın və Ost-hində gedən dəniz yolunun kəşfi sayəsində ünsiyyətlərin genişlənməsi manufakturanı və ümumiyyətlə istehsalın bütün inkişafını çox yüksək səviyyəyə qaldırdı. Oradan gətirilən yeni məhsuldar və xüsusən tədavülə daxil olub siniflərin qarşılıqlı münasibətlərini kökündən dəyişdirən və feodal torpaq mülkiyyətinə və zəhmətkeşlərə ağır zərbə vuran külli miqdarda qızıl və gümüş, macəralı hərbi səfərlər, müstəmləkəçilik və hər şeydən əvvəl bazarların indi mümkün olan genişlənməsi, gündən-günə daha çox genişlənib dünya bazarı səviyyəsinə

çatması,–bütün bunlar tarixi inkişafın yeni mərhələsini [48] doğurmuşdur ki, bu mərhələnin ümumi xarakteristikası üzərində daha artıq dayanmağımıza burada ehtiyac yoxdur. Yeni kəşf edilən torpaqların müstəmləkələşdirilməsi nəticəsində millətlərin ticarət mübarizəsi üçün yeni şərait yarandı və bu mübarizə daha geniş miqyas və daha şiddətli xarakter aldı.

Ticarətin və manufakturanın genişlənməsi daşınar kapitalın yığımını sür`ətləndirdi, halbuki istehsalı genişləndirmək üçün heç bir şirnikdirici təkan olmayan sexlərdə təbii surətdə meydana gəlmiş kapital olduğu kimi qalıb dəyişmirdi və ya hətta azalırdı. Ticarət və manufaktura iri burjuaziyanı yaratdı, sexlərdə isə xırda burjuaziya bir yerə toplanırdı; bu xırda burjuaziya əvvəlkindən fərqli olaraq, indi şəhərlərdə hökmranlıq etmirdi və iri tacirlər ilə manufaktura sahiblərinin (Kənarda Marksın belə qeydi var:. «Xırda burjuaziya, orta silk, iri burjuaziya». Red.) hökmranlığı qarşısında boyun əyməyə məcbur olmuşdu. Buna görədir ki, sexlər manufaktura ilə təmas edib qarşı-qarşıya gələn kimi tənəzzül etdi.

Bəhs etdiyimiz dövrdə millətlərin əlaqələrində onların arasında əmələ gələn münasibətlər iki müxtəlif forma alır. Əvvəlcə tədavüldə olan qızıl və gümüşün cüz`i miqdarda olması bu metalları xaricə çıxarmağın qadağan edilməsinə səbəb oldu; digər tərəfdən, artan şəhər əhalisinə bir məşğuliyyət vermək üçün lazım olub çox hissəsi xaricdən idxal edilən sənaye imtiyazsız keçinə bilməzdi və bu imtiyazlar, əlbəttə, yalnız daxili rəqabətə qarşı de|il, başlıca olaraq, xarici rəqabətə qarşı yönəldilərdi. Məhəlli sex imtiyazları bu ilk qadağanlar vasitəsi ilə bütün millətə şamil edildi. Gömrük feodalların torpaqlarından gəlib keçən tacirlərin qarət olunmaqdan yaxa qurtarmaq üçün feodallara verdiyi töycüdən əmələ gəlmişdir,–sonralar şəhərlər də töycü almağa başlamışdılar, beləliklə, müasir dövlətlər meydana gələndə töycü onların xəzinəsi üçün çox münasib nul mənbəyi oldu.

Amerika qızıl və gümüşünün Avropa bazarlarında meydana çıxması, sənayenin tədricən inkişaf etməsi, ticarətin sür`ətlə yüksəlməsi və bunun nəticəsində sexdən kənar burjuaziyanın tərəqqi edib çiçəklənməsi və pulun yayılması–bütün bunlar yuxarıda göstərilən tədbirlərə başqa bir əhəmiyyət qazandırdı. Gündən-günə pula ehtiyacı artan dövlət, xəzinə mülahizələrini nəzərdə tutaraq, qızıl və gümüşün xaricə çıxarılmasının qadağan edilməsini indi də qüvvədə saxlayırdı; indicə bazara çıxarılan pul kütləsinə başlıca ehtikar obyekti nəzəri ilə baxan burjualar bundan tamamilə razı idilər;

əvvəlki imtiyazlar hökumət üçün gəlir mənbəyi olduğuna görə pula satılırdı; gömrük qanunvericiliyində ixracat rüsumatı meydana gəldi, bu rüsumat isə sənayenin inkişafına [49] yalnız mane olurdu və xalis xəzinə məqsədi daşıyırdı.–

İkinci dövr XVII əsrin ortasından başlayıb XVIII əsrin, demək olar, sonunadək davam etdi. Ticarət və gəmiçilik ikinci dərəcəli rol oynayan manufakturaya nisbətən daha sür`ətlə genişlənirdi; müstəmləkələr böyük istehlakçı əhəmiyyətini qazanmağa başladı; ayrı-ayrı millətlər kəşf olunan dünya bazarını öz aralarında uzun vuruşmalarda bölüşdürürdülər. Bu dövr gəmiçilik qanunları və müstəmləkə inhisarları ilə başlanır. Millətlər arasındakı rəqabət, mümkün olduqca, tariflər, qadağanlar və müqavilələr vasitəsi ilə aradan qaldırılırdı ən axırda rəqiblərin mübarizəsi müharibələrin (xüsusən dəniz müharibələrinin) köməyi ilə aparılır və həll olunurdu. Ən qüdrətli dəniz dövləti olan İngiltərə ticarət və manufakturada üstünlük əldə etdi. Artıq burada ticarət və manufaktura bir ölkədə təmərküzləşdirilmişdi. Manufaktura daim hər vasitə ilə qorunurdu–daxili bazarda himayəçilik rüsumatı ilə, müstəmləkə bazarında inhisarlarla və xarici bazarda diferensial rüsumatla qorunurdu. Müəyyən ölkədə istehsal edilən xammalın (İngiltərədə yun və kətanın, Fransada ipəyin) işlənib e`mal olunması həvəsləndirilirdi, ölkədə istehsal olunmuş xammalın (İngiltərədə yunun) xaricə çıxarılması qadağan edilirdi və xaricdən idxal edilən xammalın (İngiltərədə pambığın) ölkədən çıxarılması e`tinasız buraxılır və bə`zən bunun tamamilə qabağı alınırdı. Dəniz ticarətində hökmranlıq edib ən böyük müstəmləkə qüdrətinə malik olan millət, əlbəttə, özündə manufakturanın həm kəmiyyət, həm də keyfiyyət cəhətdən ən yüksək inkişafını tə`min edirdi. Manufaktura, ümumiyyətlə desək, müdafiəsiz ötüşə bilməzdi, çünki onun öz bazarından məhrum olması və dağılması üçün digər ölkələrdə ən cüz`i dəyişikliyin əmələ gəlməsi kifayət idi; manufaktura az-çox əlverişli şəraitdə bu və ya başqa bir ölkədə asanlıqla tətbiq oluna bilərdi, lakin məhz bunun üçün onu dağıtmaq da asan idi. Bununla birlikdə onun xüsusilə XVIII əsrdə kəndlərdə keçirilməsi metodları nəticəsində manufaktura çox böyük insan kütləsinin həyat tərzi ilə elə qovuşur ki, heç bir ölkə cür`ət edib azad rəqabətə icazə verməklə manufakturanın varlığını təhlükə altına almır. Buna görə də manufaktura öz məhsulunu xaricə çıxarda bildiyi dərəcədə ticarətin genişlənməsindən və ya məhdudlaşmasından asılı olub, öz tərəfindən ticarətə nisbətən cüz`i əks

tə`sir göstərir. Onun ikinci dərəcəli əhəmiyyəti, həmçinin XVIII əsrdə tacirlərin nüfuzu bundan asılıdır. [50] Məhz tacirlər və xüsusən gəmi sahibləri dövlətin müdafiəsi və inhisarlar üzərində hamıdan çox tə`kid edirdilər; doğrudur, manufaktura sahibləri də müdafiə tələb edir və buna nail olmağa sə`y göstərirdilər, lakin siyasi əhəmiyyət mə`nasında onlar tacirlərdən həmişə geri qllırdılar. Ticarət şəhərləri, xüsusən dəniz sahillərindəki şəhərlər bə`zi mədəniyyətə nail olmuş və iri burjua xarakteri almışdılar, halbuki fabrik şəhərlərində xırda burjua stixiyası hökm sürməkdə davam edirdi. Müqayisə et: Eykin və i.a.27 XVIII əsr ticarət əsri idi. Pinto bu barədə tamamilə müəyyən şəkildə bəhs edir: «Ticarət əsrimizin dilinin əzbəridir», başqa bir yerdə: «bir müddət var ki, ancaq ticarətdən, dənizçilikdən, donanmadan danışırlar»28.–
Klpitalın hərəkəti xeyli sür`ətlənmiş olsa da, hələ yenə də nisbətən yavaş idi. Dünya bazarının ayrı-ayrı hissələrə parçalanaraq, bu hissələrdən hər birinin ayrıca millət tərəfindən istismar olunması, millətlər arasında rəqabətin aradan qaldırılması, istehsalın özünün ağır hərəkət etməsi və hələ ilk inkişaf pillələrindən keçən pul sisteminin inkişaf etmiş olmaması,– bütün bunlar tədavülə çox əngəl olurdu. Bunun nəticəsində xırda və çirkin çərçilik ruhu törəmişdi ki, bu da o zamankı tacirlərin və bütün ticarət metodlarının hamısına xas olmuşdu. Onlar manufaktura sahiblərinə, xüsusən sənətkarlara nisbətən, əlbəttə, iri bürker–burjua olduqları halda, sonrakı dövrün tacirləri və sənayeçilərinə nisbətən xırda bürker olaraq qalırdılar. Müqayisə et: A.Smit29.–
Bu dövr xaricə qızıl və gümüş çıxarmaq qadağanının ləğv edilməsi ilə, pul ticarətinin, bankların, dövlət borclarının, kağız pulun meydana gəlməsi ilə, səhmlər və qiymətli dövlət kağızları ehtikarının və bütün şeylərə şamil olan birja oyununun əmələ gəlməsi ilə də səciyyələnir; bu dövr ümumiyyətlə pul sisteminin inkişaf etməsi ilə səciyyələnir. Kapital özünə hələ bir dərəcədə xas olan ilkin natural xarakterinin xeyli hissəsini yenə də itirmişdi.
[4. Ən geniş əmək bölgüsu. İri sənaye]
XVII əsrdə ticarət və manufakturanın bir ölkədə–İngiltərədə durmadan inkişaf edib təmərküzləşməsi yavaş-yavaş bu ölkə üçün nisbi dünya bazarı yaratdı və bununla da həmin ölkənin manufaktura məhsullarına elə tələb əmələ gətirdi ki, bu tələb sənayenin əvvəlki məhsuldar qüvvələri ilə tə`min edilə bilməzdi. Məhsuldar qüvvələri aşıb keçən bu tələb məhz elə hərəkətverici qüvvə oldu ki, orta əsrlərdən başlayaraq, xüsusi mülkiyyətin

inkişafında üçüncü dövrü [51] əmələ gətirdi, iri sənaye doğurdu–təbiət qüvvələrindən sənaye üçün istifadə edən, maşın istehsalı və ən geniş əmək bölgüsü tətbiq edən iri sənaye törətdi. Bu yeni mərhələnin qalan şəraiti–ölkə çərçivəsi daxilində rəqabət azadlığı, nəzəri mexanikanın yaradılması (Nyutonun təkmilləşdirib başa çatdırdığı mexanika, ümumiyyətlə XVIII əsrdə Fransa və İngiltərədə ən çox yayılmış elm idi) və i.a.–İngiltərədə mövcud idi. (Ölkə daxilində rəqabət azadlığını hər yerdə inqilab vasitəsi ilə–İngiltərədə 1640 və 1688-ci illər və Fransada 1789-cu il inqilabları vasitəsi ilə–əldə etmək lazım gəlirdi.)

Aradan çox keçmədən rəqabət öz tarixi rolunu itirmək istəməyən hər bir ölkəni məcbur etdi ki, öz manufakturalarını qorumaq üçün yeni gömrük tədbirlərinə əl atsın (iri sənaye ilə mübarizə üçün əvvəlki gömrük rüsumatı daha yaramırdı) və bundan sonra himayəçilik rüsumatları ilə qorunan iri sənaye tətbiq etsin. Bu qorunma tədbirlərinə baxmayaraq, iri sənaye rəqabəti universal etdi (rəqabət əməli ticarət azadlığıdır; rəqabətdə himayəçilik rüsumatı yarım tədbirdən, ticarət azadlığı çərçivəsi daxilində qorunma silahından başqa bir şey deyildir), əlaqə vasitələri və müasir dünya bazarını yaratdı, ticarəti özünə tabe etdi, bütün kapitalı sənaye kapitalına çevirdi və bununla kapitalın sür`ətli tədavülü (inkişaf etmiş pul sistemi) və mərkəzləşməsini törətdi. İri sənaye universal rəqabət vasitəsi ilə bütün fərdləri var qüvvəsini son dərəcə gərginləşdirmək zrurəti qarşısında qoydu. İri sənaye bacardığı hər yerdə ideologiyanı, dini, əxlaqı və sairəni yox etdi, bacarmadığı yerlərdə isə bunları aşkar yalana çevirdi. İri sənaye ilk dəfə ümumdünya tarixini yaratdı, çünki hər bir mədəni ölkənin və hər bir fərdin tələbatının tə`min olunmasını bütün dünyadan asılı etdi və ayrı-ayrı ölkələrin təbii surətdə əmələ gəlmiş keçmiş əlahiddəliyini yox etdi. İri sənaye təbiətşünaslığı kapitala tabe etdi və əmək bölgüsünü onun təbii xarakterinin son izlərindən məhrum etdi. İri sənaye ümumiyyətlə təbii surətdə əmələ gəlmiş münasibətlərin hamısını yox etdi–əmək çərçivəsi daxilində mümkün olduğu dərəcədə–və bunları pul münasibətlərinə çevirdi. İri sənaye təbii surətdə əmələ gəlmiş əvvəlki şəhərlərin əvəzində ildırım sür`əti ilə artıb böyüyən müasir iri sənaye şəhərləri yaratdı. İri sənaye soxulduğu hər yerdə sənəti və ümumiyyətlə sənayenin bütün əvvəlki pillələrini dağıdırdı. İri sənaye ticarət şəhərinin kənd üzərində qələbəsini başa çatdırdı. Onun [fərqləndirici əlaməti] avtomatik sistemdir. [Onun inkişafı] (Əlyazması zədələnib korlanmışdır. Red.) külli miqdarda

məhsuldar qüvvə törətdi; sex quruluşu manufaktura üçün, xırda kənd sənayesi isə inkişaf edən sənət üçün buxov olduğu kimi [52] xususi mülkiyyət də bu məhsuldar qüvvələr üçün buxov oldu. Xüsusi mülkiyyətin hökm sürdüyü şəraitdə bu məhsuldar qüvvələr yalnız birtərəfli inkişaf edərək, insanların əksəriyyəti üçün dağıdıcı qüvvə olur, külli miqdarda məhsuldar qüvvə isə xüsusi mülkiyyət şəraitində heç tətbiq oluna bilmir. İri sənaye hər yerdə cəmiyyətin sinifləri arasında ümumiyyətlə bir-birinin eyni olan münasibətlər yaratmaqla ayrı-ayrı millətlərin xüsusiyyətlərini yox etdi. Nəhayət, hər bir millətin burjuaziyası öz xüsusi milli mənafeyini hələ mühafizə etdiyi halda, iri sənaye elə bir sinif yaratmışdır ki, bütün millətlərə mənsub olan bu sinfin eyni mənafeyi vardır və milli əlahiddəliyi yox edilmişdir,–bütün bu köhnə dünyadan həqiqətən qopub ayrılan bu sinif eyni zamanda həmin köhnə dünyaya qarşı durur. İri sənaye fəhlənin yalnız kapitalistə münasibətini deyil, əməyin özünü də fəhlə üçün dözülməz edir. Aydındır ki, iri sənaye müəyyən bir ölkənin hər yerində eyni inkişaf səviyyəsinə çatmır. Lakin bu vəziyyət proletariatın sinfi hərəkatını ləngitmir iri sənayenin törətdiyi proletarlar təbəqəsi bu hərəkatın başına keçir və bütün yerdə qalan kütləni öz dalınca aparır, iri sənayeyə cəlb olunmayan fəhlələr isə bu sənayenin təqsiri üzündən, həmin sənayenin özündə məşğul olan fəhlələrdən daha pis həyat vəziyyətinə düşürlər. Eynilə iri sənayesi inkişaf etmiş ölkələr sənayesi olmayan ölkələrə «plus on moins» (az-çox. Red.) tə`sir göstərir, çünki sənayesi olmayan ölkələr dünya ticarəti nəticəsində ümumi rəqabət mübarizəsinə cəlb edilmiş olur.

Bu müxtəlif [istehsal] formaları, həmçinin əməyin təşkili formalarıdır, bununla da mülkiyyət formalarıdır. Hər bir dövrdə mövcud məhsuldar qüvvələr bu və ya başqa şəkildə birləşdirilmiş olurdu, çünki bu birləşməni ehtiyac zəruri edirdi.

[5. Məhsuldar qüvvələr ilə ünsiyyət forması arasındakı ziddiyyət ictimai inqilabın əsasıdır]

Yuxarıda gördüyümüz kimi, bundan əvvəlki tarixdə məhsuldar qüvvələr ilə ünsiyyət forması arasında dəfələrlə baş vermiş ziddiyyət onun əsaslarını təhdid etmədən hər dəfə inqilab şəklində pırtlayıb aşkara çıxmalı idi, bununla belə həmin ziddiyyət ikinci dərəcəli müxtəlif şəkillər alırdı,–bütün toqquşmaların məcmusu, müxtəlif siniflər arasındakı toqquşmalar, şüur ziddiyyətləri, ideya mübarizəsi, siyasi mübarizə və i.a. şəklində olurdu. Məhdud bir nöqteyi-nəzər üzərində dursaq, bu ikinci dərəcəli formalardan

birini oradan qopardıb bu inqilabların bazisi kimi qiymətləndirə bilərik; bunu etmək xüsusilə ona görə asandır ki, bu inqilabları hərəkətə gətirən fərdlər özlərinin mədəni səviyyələrindən və tarixi inkişaf pilləsindən asılı olaraq, öz fəaliyyətləri barəsində hər cür xəyala qapılırdılar.
Beləliklə, bizim anladığımıza görə, bütün tarixi toqquşmaların kökü məhsuldar qüvvələr ilə ünsiyyət [53] forması arasındakı ziddiyyətdədir. Demək lazımdır ki, hər hansı bir ölkədə toqquşmalar baş verməsi üçün heç də vacib deyildir ki, bu ziddiyyət məhz həmin ölkədə son həddinə çatdırılmış olsun. Sənaye cəhətdən daha çox inkişaf etmiş ölkələrlə beynəlxalq əlaqələrin genişlənməsi nəticəsində əmələ gələn rəqabət, daha az inkişaf etmiş sənayesi olan ölkələrdə də buna bənzər ziddiyyət törətmək üçün kifayət edəcək səbəb ola bilər (məsələn, ingilis sənayesinin rəqabəti Almaniyada gizli proletariat olduğunu aşkara çıxarmışdı).
[6. Fərdlərin rəqabəti və siniflərin formalaşması. Fərdlər ilə onların həyat fəaliyyətinin şəraiti arasındakı əksliyin inkişafı. Burjua cəmiyyəti şəraitində fərdlərin saxta kollektivliyi və kommunizm şəraitində fərdlərin həqiqi birləşməsi. Cəmiyyətin həyat fəaliyyəti şəraitinin birləşmiş fərdlər hakimiyyətinə tabe edilməsi]
Rəqabət fərdləri bir-birindən ayırıb təcrid edir, o, fərdləri bir yerə yığmasına baxmayaraq, yalnız burjuaları deyil, onlardan daha çox proletarları da bir-birindən təcrid edir. Buna görə də həmin fərdlər birləşə bilənədək aradan az vaxt keçmir; burada biz hələ onu demirik ki, bu birləşmə üçün–əgər bu birləşmənin yalnız məhəlli birləşmə olaraq qalması qabaqcadan tə`yin olunmuş deyilsə,–əvvəlcə iri sənaye zəruri vasitələri yaratmalı, yə`ni iri sənaye şəhərləri salmalı, ucuz və sür`ətli əlaqə vasitələri düzəltməlidir. Buna görə də bu təcrid olunmuş fərdlərin qarşısında duran hər cür mütəşəkkil qüvvəyə yalnız uzun mübarizədən sonra qalib gəlmək olar, zira həmin fərdlər bu ayrılığı hər gün yenidən meydana gətirən şəraitdə yaşayırlar. Bunun əksini tələb etmək o demək olar ki, bu müəyyən tarixi dövrdə rəqabətin olmaması tələb edilsin və ya fərdlərdən tələb olunsun ki, onlar təcrid edilmiş vəziyyətdə olduqlarına görə heç bir nəzarət altına ala bilmədikləri münasibətləri öz başlarından çıxardıb atsınlar.
Mənzil inşaatı. Özluyündə aydındır ki, vəhşilərdə hər bir ailənin mağarası və ya komaası olduğu kimi, köçərilərdə də hər ailənin ayrı çadırı vardır. Bir-birindən ayrı olan bu ev təsərrüfatı xüsusi mülkiyyətin inkişafı nəticəsində zəruriliyini daha da artırır. Əkinlə məşğul olan xalqlarda ümumi əkinçilik

mümkün olmadığı kimi, ümumi ev təsərrüfatı da mümkün deyildir. Şəhərlər tikilməsi irəliyə doğru böyük addım oldu. Lakin bütün əvvəlki dövrdə ayrı-ayrı təsərrüfatın yox edilməsi xüsusi mülkiyyətin ləğv edilməsindən ayrılmaz olduğu üçün mümkün deyildi, çünki bunun üçün lazımi maddi şərait hələ yox idi. Ümumi ev təsərrüfatının təşkil olunması müxtəlif maşınların inkişaf etməsini, təbiət qüvvələrindən və bir çox digər məhsuldar qüvvələrdən, məsələn, su kəmərindən, [54] qaz işığından, buxarla qızdırma vasitələrindən və sairədən istifadə edilməsini, şəhər ilə kənd [arasındakı əksliyin] aradan qaldırılmasını tələb edir. Bu şərait olmasa, ümumi təsərrüfat özlüyündə yeni məhsuldar qüvvə olmaz, hər cür maddi bazisdən məhrum olar, xalis nəzəri əsasa əsaslanar, yə`ni sadəcə bir əcayib olar və yalnız monastır təsərrüfatına gətirib çıxarar.–Hələlik mümkün olan şey müxtəlif məqsədlər üçün lazım olan ümumi binaların (həbsxanalar, qışlalar və i.a.) şəhərlərdə tikilib təmərküzləşməsidir. Özlüyündə aydındır ki, ayrıca təsərrüfatın ləğv edilməsi ailənin ləğv edilməsindən [Aufhebung] ayrılmazdır.
(Müqəddəs Maksda tez-tez təsadüf edilən bir müddəaya görə, hər kəs nə isə, dövlətin sayəsində bütünlüklə yenə o olur,–bu müddəa əslində eynilə ona bərabərdir ki, deyəsən burjua öz cinsinin yalnız bir nümunəsidir; burada belə zənn edilir ki, burjuaziya sinfi onu təşkil edən fərdlərdən əvvəl mövcud idi (Kənarda Marksın belə bir qeydi var: «filosoflarda sinfin əvvəlcədən mövcudiyyəti». Red.).)
Orta əsrlərdə hər bir şəhərin əhalisi öz həyatını müdafiə etmək üçün kənd zadəganlarına qarşı birləşməyə məcbur olurdu; ticarətin genişlənməsi və nəqliyyat yollarının yaradılması ayrı-ayrı şəhərlərə imkan verdi ki, eyni düşmənə qarşı mübarizədə eyni mənafeyi müdafiə edən digər şəhərlərdən xəbər tutsun. Ayrı-ayrı şəhərlərin əhalisinin bir çox məhəlli birləşməsindən ancaq çox böyük tədriclə şəhərlilər sinfi meydana gəldi. Ayrı-ayrı şəhərlilərin həyat şəraiti, onların mövcud münasibətlərə əksliyi və bununla şərtlənən əmək üsulu üzündən onların hamısı üçün ümumi şəraitə, ayrılıqda heç birindən asılı olmayan şəraitə çevrildi. Şəhərlilər bu şəraiti yaratdılar, çünki onlar feodal əlaqələri sistemindən xilas olmuşdular və öz növbəsində bu şəraitdən yaranmışdılar, çünki şəhərlilər özlərinin əksliyindən, yə`ni mövcud feodalizmdən asılı idilər. Ayrı-ayrı şəhərlər arasında əlaqə əmələ gələndən sonra onların hamısı üçün ümumi olan bu şərait inkişaf edib sinfi şəraitə çevrildi. Eyni şərait, eyni əkslik, eyni mənafe ümumiyyətlə hər

yerdə eyni xasiyyət də yaratmalı idi. Burjuaziyanın özü öz varlığının şəraiti ilə birlikdə yalnız tədricən inkişaf edir və öz növbəsində əmək bölgüsündən asılı olaraq, müxtəlif qruplara parçalanır və ən nəhayət, özündən əvvəl mövcud olmuş varlı siniflərin hamısını, bütün mövcud mülkiyyətin sənaye və ya ticarət kapitalına çevrilməsi gedişindən və səviyyəsindəa asılı olaraq, özünə tabe edib udur (Kənarda Marksın belə qeydi var: «Burjuaziya əvvəlcə bilavasitə dövlətə məxsus olan əmək sahələrini, sonra isə–bütün ± [az-çox] ideoloji silkləri özünə tabe edərək udur». Red.) (eyni zamanda burjuaziya o vaxtadək mövcud olan yoxsul siniflərin çoxunu və əvvəllər varlı olan siniflərin bir hissəsini yeni sinfə–proletariata çevirir).

Ayrı-ayrı fərdlər yalnız ona görə [55] sinif təşkil edirlər ki, onlar başqa bir sinfə qarşı ümumi mübarizə etməli olurlar; başqa cəhətlərdə isə onlar özləri bir-birləri ilə rəqabət aparan düşmən kimi qarşı-qarşıya dururlar. Digər tərəfdən, sinif də öz növbəsində fərdlərə qarşı münasibət cəhətdən bir növ müstəqil olur, belə ki, fərdlər öz həyat şəraitini əvvəlcədən müəyyən edilmiş şəkildə tapırlar: sinif fərdlərin həyatdakı vəziyyətini və bununla birlikdə onların şəxsi taleyini müəyyən edib onları özünə tabe edir. Bu hadisə də ayrı-ayrı fərdlərin əmək bölgüsünə tabe olması qəbilindən bir hadisədir və yalnız xüsusi mulkiyyəti və əməyin özünü yox etməklə (Burada «əməyin ləğv edilməsi» (Aufhebung der Arbeit) ifadəsinin nə demək olduğu haqqında bax: həmin cild, səh. 33–34, 64–65. Red.) aradan qaldırıla bilər. Fərdlərin sinfə tabe olmasının necə inkişaf edib hər növ təsəvvürlərə və i.a. tabe olmaq şəklini aldığından biz dəfələrlə bəhs etmişik.

Fərdlərin bu inkişafını, tarixən bir-birinin ardınca gələn silk və siniflərin mövcudiyyətinin ümumi şəraiti çərçivəsində, həmçinin onlara qəbul etdirilib beyinlərinə yeridilmiş ümumi təsəvvürlər çərçivəsində əmələ gələn bu inkişafı fəlsəfi cəhətdən gözdən keçirsək, asanlıqla təsəvvürə gətirmək olar ki, bu fərdlərin varlığında Nəsil və ya Bəşər inkişaf etmişdir, ya da onlar Bəşəri inkişaf etdirmişlər, yə`ni elə bir şey təsəvvürə gətirilə bilər ki, bu da tarixə qarşı bir növ istehza olar. Bundan sonra müxtəlif silk və siniflər ümumi ifadənin dəqiq müəyyən edilməsi kimi, Nəslin yarım növləri kimi, Bəşərin inkişaf mərhələləri kimi gözdən keçirilə bilər.

Nə qədər ki, özünün xüsusi sinfi mənafeyini hakim bir sinif qarşısında daha müdafiə etməli olmayan sinif əmələ gəlməmişdir, fərdlərin müəyyən siniflər sırasına keçirilməsi ləğv edilə bilməz.

Şəxsi qüvvələrin (münasibətlərin) əmək bölgüsü nəticəsində maddi qüvvəyə çevrildiyi haqqındakı ümumi təsəvvürü insanların beyinlərindən çıxarıb atmaları ilə bu çevrilmə ləğv edilə bilməz, ancaq o zaman ləğv edilə bilər ki, fərdlər bu maddi qüvvələri yenidən özlərinə tabe etsinlər və əmək bölgüsünü yox etsinlər (Kənarda Engelsin belə qeydi var: «(Feyerbax: Varlıq və mahiyyət)». Müqayisə et: həmin cild, səh. 39–41. Red.). Bu isə kollektivlik olmadan həyata keçirilə bilməz. Öz iste`dadını hərtərəfli inkişaf etdirmək imkanını hər bir fərdə verən [56] vasitələr ancaq kollektivdə mövcuddur, deməli, şəxsi azadlıq ancaq kollektivdə mümkündür. İndiyədək mövcud olmuş saxta kollektivlərdə–dövlətdə və i.a.–şəxsi azadlıq yalnız hakim sinif çərçivəsi daxilində inkişaf etmiş fərdlər üçün və yalnız onlar həmin sinfin fərdləri olduqlarına görə mövcud olmuşdur. İndiyədək fərdləri birləşdirən bu saxta kollektivlik həmişə müstəqil bir şey kimi özünü onlara qarşı qoymuşdur; lakin bu kollektivlik bir sinfin başqa bir sinfə qarşı birləşməsindən ibarət olduğuna görə tabe sinif üçün yalnız tamamilə xəyali kollektivlik olmaq deyil, habelə yeni buxov olmuşdur. Həqiqi kollektivlik şəraitində isə fərdlər birləşərək bu birlik vasitəsi ilə eyni zamanda azadlıq da əldə edirlər.

Fərdlər üçün əsas çıxış nöqtəsi həmişə onların özü olmuşdur,–əlbəttə, ideoloqların başa düşdükləri kimi «xalis» fərd deyil, müəyyən tarixi şərait və münasibətlər çərçivəsində götürülən fərdlər olmuşdur. Lakin tarixi inkişafın gedişində,–və məhz əmək bölgüsü şəraitində ictimai münasibətlər labuddən bir növ müstəqil bir şeyə çevrildiyinə görə–hər bir fərdin həyatında, onun şəxsi həyatı ilə bu və ya başqa əmək sahəsinə və onunla əlaqədar olan şəraitə tabe edilən həyatı arasında fərq əmələ gəlir. (Bunu o mə`nada başa düşmək lazım deyil ki, məsələn, guya rantye, kapitalist və i.a. daha şəxsiyyət olmurlar, o mə`nada başa düşmək lazımdır ki, onların şəxsiyyəti tamamilə konkret sinfi münasibətlərlə şərtlənmiş və müəyyən olunmuşdyur və yuxarıda göstərilən fərq yalnız onların digər sinfə qarşı əksliyində özünü göstərir, onların özləri üçün isə ancaq iflas etdikləri zaman aşkara çıxır.) Bu vəziyyət silkdə (daha çox tayfada) hələ örtülü haldadır məsələn, zadəgan həmişə zadəganlığında qaldığı kimi, raznoçin [roturier] də raznoçinliyində qalır və onların həyatının başqa şəraitindən asılı olmadan bu hal onların fərdliyindən ayrılmaz bir keyfiyyətdir. Bir şəxsiyyət olan fərdin sinfi fərddən fərqi, fərdin həyat şəraitinin onun üçün təsadüfi xarakterdə olması özünü yalnız o zaman göstərir ki, burjuaziyanın

məhsulu olan sinif də onunla birlikdə meydana çıxır. Ancaq fərdlərin bir-biri ilə rəqabət və mübarizəsi bu təsadüfi xarakteri olduğu kimi törədib inkişaf [57] etdirir. Buna görə də burjuaziyanın hökmranlığı şəraitində fərdlər əvvəlkindən daha azad kimi görünürlər, çünki onların həyat şəraiti onlar üçün təsadüfidir həqiqətdə isə onlar, əlbəttə, daha az azaddırlar, çünki maddi qüvvəyə daha çox tabedirlər. Silkdən olan fərq burjuaziyanın proletariata əksliyində xüsusilə aydın şəkildə aşkara çıxır. Şəhərlilər silki, korporasiyalar və i.a. mülkədar zadəganlara qarşı ayağa qalxanda onların yaşayış şəraiti–hələ onlar feodalizm sistemindən qopub ayrılmazdan əvvəl gizli şəkildə mövcud olan daşınan əmlak və sənət əməyi,–bir növ müsbət bir şey kimi feodal torpaq mülkiyyətinə qarşı qoyulurdu, buna görə də ilk zamanlar, öz sırasında, bir növ feodal forması almışdı. Əlbəttə, qaçqın təhkimlilər özlərinin əvvəlki təhkimli hallarına öz şəxsiyyətləri üçün bir növ təsadüfi şey kimi baxırdılar. Lakin bu cəhətdən onlar öz buxovlarından azad olan hər bir sinif kimi hərəkət edirdilər, bundan başqa onlar bir sinif kimi deyil, tək-tək azad olurdular. Daha sonra, onlar silk quruluşu çərçivəsindən kənara çıxmadılar, ancaq yeni bir silk təşkil etdilər, özlərinin əvvəlki əmək üsulunu yeni şəraitdə mühafizə edib saxladılar və onu, əvvəlki buxovlarından, onların çatmış olduqları inkişaf pmlləsinə daha uyğun gəlməyən buxovlardan qurtarıb daha da inkişaf etdirdilər. Əksinə, proletarların öz xüsusi həyat şəraiti, onların əməyi və bununla birlikdə bütün indiki cəmiyyətin mövcud olması şəraiti onlar üçün bir növ təsadüfi olmuşdur, ayrı-ayrı proletarların bunun üzərində heç bir nəzarəti yoxdur və heç bir ictimai təşkilat bu nəzarəti onlara verə bilməz. Ayrıca bir proletarın şəxsiyyəti ilə onun əməyi, ona zorla qəbul etdirilən bu həyat şəraiti arasındakı ziddiyyət indi onun özü üçün də aydın olur,–xüsusilə ona görə ki, bu proletar hələ erkən yaşlarından qurban verilmişdir və öz sinfi daxilində onun elə bir ümid yeri yoxdur ki, başqa bir sinfə çevrilməsinə imkan verən şəraiti özü üçün yaratmağa nail olsun.–

[58] NB. Unutmamaq lazımdır ki, təhkimliləri yaşatmaq zərurəti və «allotments»in (xırda torpaq sahələri. Red.) təhkimlilər arasında bölüşdürülməsi ilə nəticələnəcək iri təsərrüfat düzəltməyin mümkün olmaması aradan çox keçmədən təhkimlilərin feodallar qarşısındakı mükəlləfiyyətlərini töycü və biyarın elə orta səviyyəsinə gətirib çıxartdı ki, bu səviyyə təhkimlinin daşınan əmlak yığmasına imkan verirdi; bu vəziyyət isə təhkimlinin öz sahibinin yanından qaçıb getməsini

asanlaşdırırdı və ona şəhərli olub öz işini düzəltmək imkanı verirdi, həmçinin təhkimlilər arasında təbəqələşmə əmələ gətirirdi; beləliklə, qaçqın təhkimlilər artıq yarım burjua idilər. Bir cəhət də aydındır ki, bir sənət sahibi olan təhkimli kəndlinin özü üçün daşınan əmlak əldə etmək umidi daha çox idi.–

Beləliklə, qaçqın təhkimlilər özlərinin mövcud yaşayış şəraitini ancaq azad inkişaf etdirməyə və möhkəmləndirməyə cəhd etdikləri və buna görə də nəticə e`tibarı ilə ancaq azad əməyə nail olduqları halda, proletarlar özlərini bir şəxsiyyət kimi qoruya bilmək üçün öz varlıqlarının indiyədək mövcud olan şəraitini yox etməlidirlər ki, bu şərait də eyni zamanda bütün bundan əvvəlki cəmiyyətin varlığının şəraitidir, yə`ni onlar əməyi ləğv etməlidirlər. Məhz buna görədir ki, onlar cəmiyyəti təşkil edən fərdlərin indiyədək özlərini bir növ bütöv kimi ifadə etdikləri formaya, yə`ni dövlətə qarşı doğrudan-doğruya əks vəziyyətdədirlər və özlərini bir şəxsiyyət kimi bərqərar etmək üçün dövləti devirib yıxmalıdırlar.

Yuxarıda şərh edilənlərin hamısından belə çıxır ki, hər hansı bir sinfin fərdlərinin girişdiyi və onların başqa bir sinfə qarşı ümumi mənafelərindən asılı olan ictimai münasibətlər həmişə elə kollektivlik təşkil edirdi ki, bu fərdlər həmin kollektivliyə ancaq orta fərdlər kimi mənsub olurdular və yalnız o dərəcədə ki, öz siniflərinin mövcudluğu şəraitində yaşayırdılar onlar bir fərd kimi deyil, bir sinif üzvü kimi bu ictimai münasibətlərdə olurdular. Həm öz mövcudluğunun şəraitini [59], həm də bütün cəmiyyət üzvlərinin mövcudluğu şəraitini öz nəzarəti altına alan inqilabi proletarların kollektivliyində isə bunun tamamilə əksi olur: fərdlər bu kollektivlikdə bir fərd kimi iştirak edirlər. Bu kollektivlik fərdlərin elə birləşməsidir ki, (aydındır ki, o zamanadək inkişaf etmiş məhsuldar qüvvələr əsasında qurulan birləşmə) fərdlərin azad inkişafı və hərəkəti şəraitini onların nəzarəti altına qoyur; halbuki indiyədək bu şərait təsadüfün hökmü altında olub bir növ müstəqil bir şey kimi ayrı-ayrı fərdlərə qarşı dururdu, məhz ona görə ki, fərdlər bir fərd kimi bir-birindən ayrılmış vəziyyətdə olurdular, həmçinin ona görə ki, əmək bölgüsündən asılı olub fərdlərin ayrılığı nəticəsində onlar üçün yabançı rabitə olan birləşmələri labüd idi. Əvvəlki birləşmə yalnız elə şərait barəsində saziş (heç də, məsələn, «İctimai müqavilə»də30 təsvir olunduğu kimi özbaşına deyil, zəruri saziş) idi ki, (məsələn, Şimali Amerika dövləti və Cənubi Amerika resnublikalarının təşkil olunmasını müqayisə et) fərdlər bu şərait çərçivəsində sonralar

təsadüfdən öz mənafeyi xeyrinə istifadə etmək imkanı əldə edirdilər. Bu hüquq, müəyyən çərçivə daxilində təsadüfdən maneəsiz istifadə etmək hüququ, indiyədək şəxsi azadlıq adlanırdı.–Əlbəttə, yalnız mövcud olan məhsuldar qüvvələr və ünsiyyət formaları bu kimi mövcudluq şəraitidir. Kommunizm bütün əvvəlki hərəkatlardan onunla fərqlənir ki, bütün əvvəlki istehsal münasibətlərinin və ünsiyyətin lap əsasında çevriliş əmələ gətirir və kortəbii surətdə meydana gəlmiş müqəddəm şərtlərin hamısını əvvəlki nəsillərin yaratdığı şərait olmaq e`tibarı ilə ilk dəfə şüurlu surətdə nəzərdən keçirir, bu müqəddəm şərtləri kortəbiilikdən məhrum edib birləşmiş fərdlərin hakimiyyətinə tabe edir. Buna görə də kommunizmin qurulması əslində iqtisadi xarakter daşıyır; bu həmin birləşmənin maddi şəraitini yaratmaqdan ibarətdir; bu, mövcud şəraiti çevirib birləşmə şəraiti edir. Kommunizmin yaratdığı quruluş məhz elə həqiqi bir bazisdir ki, fərdlərdən asılı olmadan mövcud olan hər şeyi qeyri-mümkün edir, çünki bütün bunlar fərdlərin özləri arasında indiyədək mövcud olmuş ünsiyyətin məhsulundan başqa bir şey deyildir. Beləliklə, kommunistlər əvvəlki istehsal və ünsiyyətin doğurduğu şəraitlə əməli surətdə bir növ qeyri-üzvi bir şey kimi rəftar edirlər, lakin onlar heç də belə güman etmirlər ki, guya keçmiş nəsillərin niyyəti və ya vəzifəsi kommunistlər üçün material vermək imiş və belə hesab etmirlər ki, həmin şərait onu yaradan fərdlər üçün bir növ qeyri-üzvi bir şey idi.
[7. Fərdlərlə onların həyat fəaliyyətinin şəraiti arasındakı ziddiyyət məhsuldar qüvvələrlə ünsnyyət forması arasındakı ziddiyyətdir. Məhsuldar qüvvələrin inkişafı və ünsiyyət formalarının bir-birini əvəz etməsi]
[60] Şəxsiyyət olan fərd ilə təsadüfi fərd arasındakı fərq sadəcə məntiqi fərq olmayıb tarixi faktdır. Bu fərqin müxtəlif zamanlarda müxtəlif mə`nası olur məsələn, silk, həmçinin «plus on moins» (az-çox. Red.) ailə də XVIII əsrdə fərd üçün bir növ təsadüfi bir şeydir. Bu elə bir fərqləndirmədir ki, bunu hər bir dövrə biz tətbiq etməməliyik, bu fərqləndirməni hər bir dövr hazır şəkildə tapdığı müxtəlif ünsürlər üzərində özü edir, həm də maddi həyat toqquşmaları anlayışına görə deyil, bu toqquşmaların təzyiqi altında edir.
Əvvəlki dövrün əksinə olaraq, daha sonrakı dövrə təsadüfi görünən şey,–deməli, bu dövrün keçmiş dövrdən irs aldığı ünsürlər arasında təsadüfi olan şey,–məhsuldar qüvvələrin müəyyən inkişaf pilləsinə uyğun olan ünsiyyət formasıdır. Məhsuldar qüvvələr ilə ünsiyyət forması arasındakı münasibət,

ünsiyyət forması ilə fərdlərin hərəkətləri və ya fəaliyyəti arasındakı münasibətdir. (Bu fəaliyyətin əsas forması–əlbəttə, maddi fəaliyyətdir və bütün başqa fəaliyyət formaları: əqli, siyasi, dini və i.a. fəaliyyət maddi fəaliyyətdən asılıdır. Maddi həyatın bu və ya başqa şəkildə təşkili, əlbəttə, hər dəfə inkişaf etmiş tələbatdan asılıdır, bu tələbatın törəməsi, həmçinin tə`min olunması özlüyündə elə tarixi prosesdir ki, bu, qoyunlarda və ya itlərdə yoxdur (Ştirnerin «adverus homnem» (insan əleyhinə. Red.) tə`kidlə irəli sürdüyü başlıca dəlil31), hərçənd qoyunlar da, itlər də, indiki şəklində, doğrudur, «magre eux»(onların iradəsindən kənarda. Red.), şübhəsiz tarixi prossesin məhsuludur.) Fərdlərin ünsiyyət tapdıqları şərait–orada [bu şərait ilə fərdlər arasında] hələ ziddiyyət əmələ gəlməmişdir–onların fərdiyyətinə aid şəraitdir və onlar üçün nə isə xarici bir şey deyildir; bu elə şəraitdir ki, müəyyən münasibətdə mövcud olan bu müəyyən fərdlər öz maddi həyatlarını və onunla əlaqədar olan şeyləri ancaq həmin şəraitdə istehsal edə bilərlər; deməli, bu şərait həmin fərdlərin öz fəaliyyətlərinin şəraitidir və onların bu özfəaliyyəti ilə yaradılır (Kənarda Marksın belə qeydi var: «Ünsiyyətin öz formasının istehsalı». Red.). Beləliklə, insanların istehsal ilə məşğul olduqları müəyyən şərait,–nə qədər ki [61] hələ [göstərilən] ziddiyyət meydana gəlməmişdir,–onların həqiqətən asılı olmalarına, onların birtərəfli varlığına müvafiqdir; bu varlığın birtərəfli olması isə yalnız ziddiyyət əmələ gələndə aşkara çıxır və deməli, ancaq sonrakı nəsillər üçün mövcud olur. Bu şərait o zaman təsadüfi buxov kimi görünür, buna görə də həmin şəraitə buxov nəzəri ilə baxılması keçmiş zamana da isnad verilir.

Əvvəlcə özfəaliyyətin şəraiti olub sonralar onun buxovu halına gələn bu müxtəlif şərait bütün tarixi inkişaf ərzində rabitəli ünsiyyət formaları sırasını təşkil edir bu formalar sırasının rabitəsi ondan ibarətdir ki, daha çox inkişaf etmiş məhsuldar qüvvələrə, deməli, fərdlərin özfəaliyyətinin daha mütərəqqi şəklinə müvafiq olan yeni ünsiyyət forması buxov halına gəlmiş əvvəlki ünsiyyət formasının yerini tutur və bu forma da «a son tour» (öz növbəsində. Red.) çevrilib buxov olur və başqa bir forma onu əvəz edir. Hər bir tarixi inkişaf pilləsində bu şərait məhsuldar qüvvələrin eyni zamandakı inkişafına müvafiq olduğuna görə, bu şəraitin tarixi eyni zamanda inkişaf edən və hər bir yeni nəslin əxz edib mənimsədiyi məhsuldar qüvvələrin tarixidir, beləliklə, həmçinin fərdlərin öz qüvvəsinin inkişafı tarixidir.

Bu inkişaf kortəbii olduğuna görə, yə`ni azad surətdə birləşmiş fərdlərin ümumi planına tabe olmadığına görə müxtəlif yerlərdə, tayfalarda, millətlərdə, əmək sahələrində və i.a. baş verir ki, bunlardan hər biri əvvəlcə digərlərindən asılı olmadan inkişaf edir və onlarla yalnız yavaş-yavaş rabitəyə girir. Daha sonra, bu inkişaf yalnız çox yavaş olur müxtəlif pillə və mənafelər heç vaxt tamamilə aradan qaldırılmır, yalnız qalib gələn mənafeyə tabe olub əsrlər boyu onunla yanaşı sürünməkdə davam edir. Buradan belə çıxır ki, hətta eyni bir millət çərçivəsində fərdlər,–əgər biz hətta onların əmlak münasibətlərindən sərf-nəzər etsək də,–tamamilə müxtəlif şəkildə inkişaf edirlər və daha əvvəlki mənafe, özünə müvafiq gələn ünsiyyət forması daha sonrakı mənafeyə müvafiq gələn ünsiyyət forması tərəfindən sıxışdırılıb aradan çıxarıldığı zaman, fərdlərdən ayrılıb xüsusiləşmiş xəyali ümumiliyin (dövlət, hüquq) şəxsində hələ uzun müddət ən`ənə şəklində hökm sürməkdə davam edir, bu hakimiyyət isə ən nəhayət, ancaq inqilab vasitəsi ilə yıxıla bilər. Daha ümumiləşdirilmiş şəkildə ifadə olunmağa yol verən bə`zi məsələlərdə [62] şüurun öz müasiri olan empirik münasibətləri bə`zən ötüb keçmiş olması da bununla izah edilir, belə ki, sonrakı hər hansı bir dövrün vuruşmalarında keçmişdəki nəzəriyyəçilərin avtoritetinə arxalanmaq olar.

Əksinə, öz inkişafını Şimali Amerika kimi artıq inkişaf etmiş tarixi dövrdə başlamış ölkələrdə bu inkişaf çox sür`ətli olur. Bu ölkələrin orada məskən salan və öz tələbatı ilə köhnə ölkələrdə mövcud ünsiyyət formaları arasındakı uyğunsuzluq üzündən məskən salmağa məcbur olan fərdlərdən başqa kortəbii surətdə meydana gəlmiş heç bir müqəddəm şərti yoxdur. Buna görə də həmin ölkələr inkişafa, köhnə ölkələrdəki ən mütərəqqi fərdlərə və deməli, bu fərdlərə uyğun olan ən çox inkişaf etmiş ünsiyyət formasına malik olaraq başlayırlar, həm də bu ünsiyyət forması köhnə ölkələrdə hələ möhkəmlənib bərqərar olmadan başlayırlar. Bu hal, bütün müstəmləkələrə aiddir, bir halda ki, onlar yalnız hərbi və ya ticarət gəmiləri dayanacağı deyildir. Karfagen, yunan müstəmləkələri və XI, XII əsrlərdə İslandiya buna misal ola bilər. Bu proses istila hadisəsi baş verəndə də müşahidə edilir, bu şərtlə ki, başqa bir zəmində inkişaf etmiş ünsiyyət forması istila olunan ölkəyə hazır şəkildə gətirilsin. Bu ünsiyyət forması öz vətənində hələ keçmiş dövrlərdən irs olaraq alınmış mənafe və münasibətlər yükü altında qaldığı halda, yeni yerdə, heç olmazsa, istilaçılara uzun müddətli hökmranlıq tə`min etmək üçün tamamilə və

maneəsiz bərqərar ola bilər və olmalıdır. (İngiltərə və Neapol normanlar tərəfindən istila ediləndən32 sonra burada feodal təşkilatı ən mükəmməl forma kəsb etdi.)

[8. Tarixdə zorakılığın (istilanın) rolu]

Tarixin bütün bu cür anlaşılmasına istila faktı sanki zidd gəlir. İndiyədək zorakılıq, müharibə, qarət, quldurluq və i.a. tarixin hərəkətverici qüvvəsi e`lan edilirdi. Biz burada yalnız başlıca cəhətlər üzərində dayana bilərik, buna görə də ən aşkar misal seçirik ki, bu da barbar bir xalqın köhnə mədəniyyəti dağıtması və bunun ardınca cəmiyyətin başqa quruluşunun yenidən təşkil olunmasıdır (Roma və barbarlar, feodalizm və Qalliya, Şərqi Roma imperiyası və türklər33).

[63] Yuxarıda qeyd edildiyi kimi istilaçı barbar xalq üçün müharibənin özü müntəzəm ünsiyyət formasıdır və əhalinin ən`ənəvi və özü üçün yeganə mümkün olan ibtidai istehsal üsulunda əhalinin artması yeni istehsal vasitələrinə tələbat yaratdıqca bu ünsiyyət formasından getdikcə daha genşi istifadə edilir. İtaliyada, əksinə, torpaq mülkiyyətinin təmərküzləşməsi (bunun səbəbi yalnız torpağın satın alınması və borc deyil, həmçinin varislik əsasında birindən başqasına keçməsidir, zira o zaman hökm sürən əxlaqsızlıq və evlənmələrin çox az olması üzündən qədim nəsillər tədricən tükənib gedirdi və onların əmlakı sayca az adamların ixtiyarına keçirdi) nəticəsində, habelə əkin yerlərinin otlaqlara çevrilməsi nəticəsində (bu vəziyyət yalnız indiyədək qüvvədə olan adi iqtisadi səbəblərdən deyil, həmçinin qarət edilən və xərac kimi ələ keçirilən taxılın ölkəyə gətirilməsindən və bununla əlaqədar olaraq İtaliya taxılı üçün istehlakçıların çatışmazlığından irəli gəlirdi),–bütün bunların nəticəsində azad əhali, demək olar, yoxa çıxmışdı; hətta qullar da arası kəsilmədən qırılıb tükənirdi və buna görə onları daim yeniləri ilə əvəz etmək lazım gəlirdi. Köləlik bütün istehsalın əsası olaraq qalırdı. Azadlar ilə qullar arasında yer tutan plebeylər heç vaxt lümpen-proletariat səviyyəsindən yuxarı qalxmırdılar. Ümumiyyətlə Roma həmişə yalnız bir şəhər olaraq qalırdı və onun əyalətlərlə əlaqəsi, demək olar, yalnız siyasi əlaqə idi, buna görə də, əlbəttə, siyasi hadisələr nəticəsində pozula bilərdi.

İndiyədək tarixdə guya hər şeyin işğalçılıqdan ibarət olduğu təsəvvüründən daha adi bir təsəvvür yoxdur. Barbarlar Roma imperiyasını işğal etmişdilər, odur ki, antik dünyadan feodalizmə keçilməsi bir qayda olaraq bu işğalçılıq faktı ilə izah edilir. Lakin barbarlar tərəfindən işğal ediləndə hər şey

bundan asılıdır ki, istila olunan xalq o vaxtadək sənaye məhsuldar qüvvələrini, müasir xalqlarda olduğu kimi, inkişaf etdirmişdimi, yoxsa onun məhsuldar qüvvələri başlıca olaraq yalnız onun birləşməsinə və mövcud ümumi birliyə [Gemeinwesen] əsaslanır. Daha sonra, işğalçılığın xarakteri işğalçılıq obyektindən asılıdır. əgər işğalçı işğal olunan ölkədəki istehsal və ünsiyyət şəraitinə tabe olmazsa, bir bankirin qiymətli kağızlardan ibarət olan sərvəti qətiyyən qəsb edilə bilməz. Bu vəziyyət, müasir bir sənaye ölkəsinin bütün sənaye kapitalına da aiddir. Nəhayət, işğalçılığın hər yerdə tez bir zamanda sonu gəlib çatır və işğalçılıq üçün daha heç bir şey qalmayanda istehsala başlamaq lazım gəlir. Çox tez gəlib çatan bu istehsal zərurətindən belə çıxır ki, [64] yerləşib məskən salan istilaçıların qəbul etdiyi ümumi birlik [Gemeinwesen] forması, onların gəlib gördükləri məhsuldar qüvvələrin inkişaf pilləsinə uyğun olmalıdır, bu uyğunluq əvvəlcə yoxdursa, onda bu birlik forması mövcud məhsuldar qüvvələrə müvafiq şəkildə dəyişilməlidir. Xalqların məskən dəyişməsindən sonrakı dövrdə hər yerdə qeyd olunan fakt, yə`ni qulun ağa olması və çox keçmədən istilaçıların istila etdikləri xalqların dilini, təhsilini və adətlərini qəbul etdikləri faktı da bununla izah edilir. Feodalizm Almaniyadan heç də hazır şəkildə gətirilmədi feodalizmin kökü istila zamanı istilaçılarda hərbi işin təşkilinə arxalanır və bu təşkilat işi yalnız istiladan sonra istila olunmuş ölkələrdə mövcud məhsuldar qüvvələrin tə`siri sayəsində inkişaf edib əsil feodalizm olmuşdur. Bu formanın məhsuldar qüvvələrdən nə qədər asılı olduğunu, Qədim Roma qalıqlarına əsaslanan digər formalar qurmaq təşəbbüslərinin muvəffəqiyyətsizliyi (Böyük Karl və i.a.) göstərir. Davam etdirməli.

[9. İri sənaye və azad rəqabət şəraitində məhsuldar qüvvələr ilə ünsiyyət forması arasındakı ziddiyyətin inkişafı. Əməklə kapital arasındakı əkslik]

İri sənayedə və rəqabətdə fərdlərin bütün mövcudluq şəraiti, bütün asılılıqları, bütün birtərəflilikləri iki çox sadə formada–xüsusi mülkiyyət və əməkdə birləşmişdir. Pul hər bir ünsiyyət formasını və ünsiyyətin özünü fərdlər üçün bir növ təsadüfi bir şey edir. Beləliklə, indiyədək heç bir ünsiyyət fərd olmaq e`tibarı ilə fərdlərin ünsiyyəti deyil, yalnız müəyyən şəraitdə fərdlərin ünsiyyəti olmuşsa, bu hadisənin kökü gedib pula dayanır. Bu şərait iki şeydən ibarətdir: yığılmış əməkdən və ya xüsusi mülkiyyətdən və həqiqi əməkdən. Bunlardan biri daha mövcud olmadıqda, ünsiyyət də dayanmış olur. Müasir iqtisadçılar,–məsələn, Sismondi, Şerbülye və i.a.

özləri «assioctation des individus» ilə «association des sapitaix»u (fərdlərin birliyi ilə kapitalların birliyini. Red.) qarşı-qarşıya qoyurlar. Digər tərəfdən fərdlərin özləri tamamilə əmək bölgüsünə tabe edilmişlər, buna görə də bir-birindən tamamilə asılı vəziyyətə qoyulmuşlar. Xüsusi mülkiyyət, əmək çərçivəsi daxilində əməyə qarşı durduğu üçün, yığım zərurətindən inkişaf edir. Əvvəlcə bu mülkiyyət ümumilik [Gemeinwesen] formasını əksəriyyətlə hələ mühafizə edir, sonrakı inkişafında isə xüsusi mülkiyyətin müasir formasına getdikcə daha çox yaxınlaşır. Əmək bölgüsü lap əvvəldən əmək şəraiti–əmək alətləri və materialı–bölgüsünü, bununla yığılmış kapitalın müxtəlif mülkiyyətçilər arasında xırdalanmasını və deməli, kapital ilə əmək arasında parçalanmasını, həmçinin mülkiyyətin özünün müxtəlif formalarını əhatə edir. Əmək bölgüsü daha çox inkişaf etdikcə [65] və yığım daha çox artdıqca bu parçalanma da bir o qədər güclənir. Əməyin özü yalnız bu parçalanma şərti ilə mövcud ola bilər. (Ayrı-ayrı millətlərə mənsub fərdlərin şəxsi enerjisi–almanlar və amerikanlar–artıq irqlərin çarpazlaşmasının nəticəsi olan enerjidir, buna görə də almanlar bir növ kretindirlər; Fransada, İngiltərədə və i.a. yadellilər artıq inkişaf etmiş zəmində, Amerikada tamamilə yeni torpaqda məskən salmışdılar, Almaniyada isə əvvəlki əhali yerindən tərpənməmişdir.) Beləliklə, burada iki fakt aşkara çıxır (Kənarda Engelsin belə qeydi var: «Sismondi». Red.). Birincisi, məhsuldar qüvvələr bir növ tamamilə müstəqil və fərdlərdən ayrılmış bir şey kimi, fərdlərlə yanaşı xüsusi bir aləm kimi özünü göstərir; bunun səbəbi odur ki, bu qüvvələri özündə saxlayan fərdlər parçalanmış olub bir-birinə qarşı dururlar, halbuki həmin qüvvələr öz tərəfindən, yalnız həmin fərdlərin ünsiyyətində və qarşılıqlı əlaqəsində həqiqi qüvvə olur. Beləliklə, bir tərəfdə məhsuldar qüvvələrin məcmusu durur ki, bunlar da sanki şey formasına girib fərdlərin özləri üçün daha onların qüvvəsi deyil, xüsusi mülkiyyətin qüvvəsidir, deməli, yalnız fərdlər xüsusi mülkiyyətçiləri təmsil etdikləri dərəcədə fərdlərin qüvvəsidir. Əvvəlki dövrlərin heç birində məhsuldar qüvvələr fərdlərin bir fərd olaraq ünsiyyətinə laqeyd olan bu formaya girməmişdi, çünki onların ünsiyyətinin özü hələ məhdud idi. Digər tərəfdə isə bu məhsuldar qüvvələrə qarşı duran fərdlərin əksəriyyəti olur ki, bu qüvvələr onlardan qoparılıb ayrılmışdır, nəticədə hər cür həqiqi həyat məzmunundan məhrum edilən bu fərdlər abstrakt fərdlər olmuşdur, lakin yalnız buna görə onlar indi bir-birləri ilə bir fərd kimi əlaqə yaratmaq imkanı əldə edirlər.

Onları hələ məhsuldar qüvvələrə və özlərinin mövcudluğuna bağlayan yeganə əlaqə əməkdir ki, bu da onlarda hər cür özfəaliyyət şəklini itirmişdir və onların [66] həyatını yalnız şikəst etməklə saxlayır. Əvvəlki dövrlərdə özfəaliyyət və maddi həyat istehsalı müxtəlif şəxslərin qisməti olduğu üçün bir-birindən ayrıldığı və fərdlərin özlərinin məhdud görüşlü olmaları üzündən hələ özfəaliyyətin ikinci dərəcəli növü hesab edildiyi halda, indi onlar bir-birindən o qədər ayrılmışdır ki, ümumiyyətlə maddi həyat bir məqsəd kimi, həmin maddi həyatın istehsalı olan əmək isə (indi əmək öz fəaliyyətin yeganə mümkün olan formasıdır, lakin gördüyumüz kimi mənfi formasıdır) vasitə kimi, araya çıxır.

[10. Xüsusi mülkiyyətin ləğv edilməsinin zəruriliyi, şəraiti və nəticələri]

Beləliklə, indi iş gəlib o yerə çatıbdır ki, fərdlər yalnız özfəaliyyətə nail olmaq üçün deyil, ümumiyyətlə öz varlığını tə`min etmək üçün də mövcud məhsuldar qüvvələr məcmusunu mənimsəməlidirlər.

Bu mənimsəmə hər şeydən əvvəl mənimsəniləsi obyektdən, müəyyən məcmu şəklində inkişaf edib yalnız universal ünsiyyət çərçivəsində mövcud olan məhsuldar qüvvələrdən asılıdır. Elə təkcə buna görə həmin mənimsəmə məhsuldar qüvvələrə və ünsiyyətə uyğun olan universal xarakter daşımalıdır. Bu qüvvələrin mənimsənilməsinin özü maddi istehsal alətlərinə uyğun fərdi qabiliyyətlərin inkişafından başqa bir şey deyildir. Təkcə buna görə müəyyən istehsal alətləri məcmusunun mənimsənilməsi, fərdlərin özündə müəyyən qabiliyyət məcmusunun inkişafına bərabərdir. Daha sonra bu mənimsəmə mənimsəyən fərdlərdən asılıdır. Ancaq hər cür özfəaliyyətdən məhrum olan müasir proletarlar, özləri üçün artıq məhdud deyil, tam özfəaliyyətə nail olmaq iqtidarındadır ki, bu tam öz fəaliyyət də bütün məhsuldar qüvvələr məcmusunun mənimsənilməsindən və buradan çıxan bir nəticə olaraq, bütün qabiliyyətlər məcmusunun inkişafından ibarətdir. Bütün əvvəlki inqilabi mənimsəmələr məhdud olmuşdur: özfəaliyyəti məhdud istehsal aləti və məhdud ünsiyyətlə buxovlanan fərdlər bu məhdud istehsal alətini [67] mənimsədiklərinə görə ancaq yeni bir məhdudiyyətə gəlib çıxırdılar. Onların istehsal aləti onların mülkiyyəti olurdu, lakin onların özləri əmək bölgüsünə və öz istehsal alətlərinə tabe vəziyyətdə qalırdılar. Bütün əvvəlki mənimsəmələrdə fərdlər kütləsi hər hansı bir yeganə istehsal alətinə tabe vəziyyətdə qalırdı; proletar mənimsəməsində istehsal alətləri kütləsi hər bir fərdə, mülkiyyət isə bütün

fərdlərə tabe edilməlidir. Müasir universal ünsiyyət fərdlərə ancaq onların hamısına birlikdə tabe edilə bilər, başqa heç cür tabe edilə bilməz.
Daha sonra, mənimsəmə həyata keçirilməli olduğu üsuldan da asılıdır. Mənimsəmə ancaq elə bir birləşmə vasitəsi ilə həyata keçirilə bilər ki, proletariatın özünə xas olan xassələrə görə yenə də ancaq universal ola bilər; elə bir inqilab vasitəsi ilə həyata keçirilə bilər ki, bu inqilabda, bir tərəfdən, əvvəlki istehsal üsulu və ünsiyyətin, həmçinin əvvəlki cəmiyyət quruluşunun hakimiyyəti devrilir, digər tərəfdən isə, proletariatın universal xarakteri və bu mənimsəməni həyata keçirmək üçün ona lazım olan enerji inkişaf etdirilir, həm də proletariat özünün əvvəlki ictimai vəziyyətindən nə qalmışsa, hamısını öz üzərindən silkib atır.
Ancaq bu pillədə özfəaliyyət maddi həyata uyğun gəlir ki, bu da fərdlərin bütöv fərd kimi inkişafına və hər cür qeyri-mütəşəkkilliyin aradan qaldırılmasına müvafiqdir. Eynilə əməyin özfəaliyyətə çevrilməsi, həmçinin əvvəlki məhdud ünsiyyətin fərdlərin bir fərd kimi iştirak etdikləri ünsiyyətə çevrilməsi bir-birinə müvafiqdir. Birləşmiş fərdlərin məhsuldar qüvvələr məcmusunu mənimsəməsi xüsusi mülkiyyəti ləğv edir. İndiyədək tarixdə bu və ya başqa bir xüsusi şərt həmişə təsadüfi bir şey kimi araya çıxdığı halda, indi fərdlərin ayrılması özü, bu və ya başqa bir fərdin ayrıca, xususi sənəti təsadüfi olur.
Filosoflar artıq əmək bölgüsünə tabe edilməyən [68] fərdlərdə bir ideal görüb ona «İnsan» adı vermişdilər və təsvir etdiyimiz bütün inkişaf prosesini «İnsan»ın inkişafı prosesi kimi təsəvvür edirdilər, həm də indiyədək hər bir tarixi dövrdə mövcud olan fərdlərin yerinə bu «İnsan»ı qoyub onu tarixin hərəkətverici qüvvəsi kimi təsvir edirdilər. Beləliklə, bütün tarixi prosesə «İnsan»ın özünün özgələşməsi (Kənarda Marksın belə qeydi var: «Özünu özgələşdirmə». Red.) kimi baxılırdı əslində bu hal onunla izah edilir ki, onlar sonrakı pillədəki orta fərdi həmişə keçmiş pillədəki fərdin yerinə qoyur və əvvəlki fərdlərə sonrakı şüuru verirdilər. Bu çevirmə və həqiqi şəraitdən bilə-bilə sərf-nəzər etmək nəticəsində butün tarixi, şüurun inkişafı prosesinə çevirmək mümkün olmuşdur.
Vətəndaş cəmiyyəti məhsuldar qüvvələrin müəyyən inkişaf pilləsi çərçivəsində fərdlərin bütün maddi üisiyyətini əhatə edir. Bu cəmiyyət müəyyən pillənin bütün ticarət və sənaye həyatını əhatə edir və buna görə də dövlət və millət çərçivəsindən kənara çıxır, hərçənd digər tərəfdən, kənarda yenə də millət şəklində araya çıxmalı və daxildə dövlət şəklində

qurulmalıdır. «Vətəndaş cəmiyyəti» («Bürgerlüche Gesellschaft» termini «vətəndaş cəmiyyəti», həm də «burjua cəmiyyəti» deməkdir. Red.) ifadəsi XVIII əsrdə, mülkiyyət münasibətləri antik və orta əsr ümumiliyindən [Gemeinwesen] azad olub qurtulduğu zaman əmələ gəlmişdir. Vətəndaş cəmiyyəti belə bir cəmiyyət olaraq, ancaq burjuaziya ilə birlikdə inkişaf edir lakin bilavasitə istehsaldan və ünsiyyətdən inkişaf edən və bütün zamanlarda dövlətin və sair idealist (yə`ni ideal, ideoloji. Red.) üstqurumun bazisini təşkil edən ictimai təşkilat da həmişə eyni adla göstərilmişdir.

[11.] Dövlətin və hüququn mülkiyyətə münasibəti

Həm antik dünyada, həm də orta əsrlərdə mülkiyyətin birinci forması tayfa mülkiyyətindən ibarətdir ki, romalılarda başlıca olaraq, müharibədən, germanlarda [69] maldarlıqdan asılı idi. Antik xalqlarda, bir neçə tayfa bir şəhərdə birlikdə yaşadığına görə tayfa mülkiyyəti dövlət mülkiyyəti formasında idi, ayrı-ayrı fərdlərin bu mülkiyyətlə əlaqədar olan hüququ adi sahibliklə [possessio] məhdud idi, lakin ümumiyyətlə tayfa mülkiyyəti kimi bu sahiblik də yalnız torpaq mülkiyyətinə şamil idi. Sözün əsil mə`nasında xüsusi mülkiyyət müasir xalqlarda olduğu kimi qədim xalqlarda da yalnız daşınar əmlakla birlikdə əmələ gəlir. (Köləlik və ümumilik [Gemeinwesen]) (dominium ex jure Quiritum (Roma vətəndaşlarının hüququ əsasında sahib olmaq. Red.)).–Mənşəyi orta əsrlərdən başlanan xalqlarda tayfa mülkiyyəti yalnız bir sıra müxtəlif pillələrdən–feodal torpaq mülkiyyətindən, daşınar korporativ mülkiyyətindən, manufaktura kapitalından,–keçəndən sonra dönüb iri sənayenin və ümumi rəqabətin doğurduğu kapitala çevrilir, hər cür ümumilik [Gemeinwesen] əlamətini bir tərəfə atan və mulkiyyətin inkişafı üzərində dövlətin hər cür tə`sirini aradan qaldıran xalis xüsusi mülkiyyət olur. Bu müasir xüsusi mülkiyyətə müasir dövlət uyğundur ki, xüxusi mülkiyyətçilər bu dövləti vergi vasitəsi ilə tədricən iltizama götürdülər və dövlət borcları sayəsində tamamilə öz hakimiyyətləri altına aldılar; bu dövlətin mövcudluğunun özü dövlətin qiymətli kağızları məzənnəsinin birjada qalxması və aşağı düşməsi ilə nizama salınaraq, bütünlüklə xüsusi mülkiyyətçilərin, burjuaların ona verdiyi ticarət kreditindən asılıdır. Burjuaziya daha silk olmayıb, sinif olduğuna görə yerli miqyasda deyil, milli miqyasda təşkil olunmalı və özünün adi mənafeyinə ümumi forma verməlidir. Xususi mülkiyyətin ümumilikdən [Gemeinwesen] azad olub ayrılması nəticəsində vətəndaş cəmiyyəti ilə yanaşı olaraq və onun

xaricində dövlət müstəqil mövcudluq kəsb etdi; həqiqətdə dövlət ancaq elə bir təşkilat formasıdır ki, burjualar–istər ölkənin xaricində, istərsə də daxilində–öz mülkiyyəti və mənafeyini qarşılıqlı olaraq, tə`minat altına almaq üçün bu formanı labüddən qəbul etməlidirlər. Bizim zamanımızda dövlətin müstəqilliyi yalnız o ölkələrdə mövcuddur ki, orada silklər hələlik axıradək inkişaf edib sinif səviyyəsinə çatmamışdır, qabaqcıl ölkələrdə artıq ləğv edilmiş silklər burada hələ müəyyən rol oynamaqda davam edib bir növ qarışıq təşkil edir, buna görə də əhalinin heç bir hissəsi onun digər hissələri üzərində hökmranlığa nail ola bilmir. Xüxusən Almaniyada vəziyyət belədir. Müasir dövlətin ən mükəmməl timsalı Şimali [70] Amerikadır. Ən yeni fransız, ingilis və Amerika müəllifləri yekdilliklə bu fikri irəli sürürlər ki, dövlət ancaq xüsusi mülkiyyət xatirinə mövcuddur, belə ki, bu fikir adi şüura da keçmişdir.

Dövlət, hakim sinfə mənsub olan fərdlərin öz ümumi mənafelərini həyata keçirdikləri və müəyyən dövrdəki bütün vətəndaş cəmiyyətinin cəmləşmiş ifadəsini verən bir forma olduğuna görə, buradan belə çıxır ki, ümumi tə`sisatın hamısı dövlət vasitəsi ilə ifadə olunur, siyasi forma alır. Guya qanunun iradəyə, həm də öz real əsasından qopardılıb ayrılmış azad iradəyə əsaslanması xəyalı da buradan əmələ gəlir. Eynilə hüquq da, öz növbəsində, sonradan qanuna müncər edilir.

Xüsusi hüquq xüsusi mülkiyyətlə eyni zamanda təbii surətdə əmələ gəlmiş ümumilik [Gemeinwesen] formasının parçalanıb dağılmasından inkişaf edir. Romalılarda xüsusi mülkiyyətin və xüsusi hüququn inkişafı daha sonrakı sənaye və ticarət nəticələrinə gətirib çıxarmamışdı, çünki onların bütün istehsal üsulu dəyişməz (Kənarda Engelsin belə qeydi var: «(Sələmçilik!)». Red.) qalırdı. Müasir xalqlarda sənaye və ticarət feodal ümumilik [Gemeinwesen] formasını parçalayıb dağıtdığına görə, xüsusi mülkiyyət və xüsusi hüquq meydana gələndən sonra daha da inkişaf etməyə qadir olan yeni mərhələ başlandı. Orta əsrlərdə geniş dəniz ticarətini inkişaf etdirən ilk şəhər Amalfi şəhəridir ki, dəniz hüququnu tərtib etmişdir34. Sənaye və ticarət xüsusi mülkiyyəti–əvvəlcə İtaliyada, sonra isə digər ölkələrdə də–daha da inkişaf etdirən kimi diqqətlə tərtib edilmiş Roma xüsusi hüququ yenidən qəbul olundu və e`tibar qazandı. Sonralar burjuaziya o dərəcədə gücləndi ki, padşahlar, feodal əsilzadələri burjuaziyanın köməyi ilə yıxmaq üçün burjuaziyanın mənafeyini müdafiə etməyə başladılar, onda bütün ölkələrdə–Fransada XVI əsrdə–hüququn əsil

inkişafı başlandı və bu inkişaf, İngiltərə müstəsna olmaqla, hər yerdə [71] Roma məcəlləsi əsasında olurdu. Lakin İngiltərədə də xüsusi hüququ daha da işləyib hazırlamaq üçün (xüsusən onun daşınar əmlaka aid hissəsini) Roma hüququ prinsiplərinə müraciət etmək lazım gəldi. (Unutmamalıdır ki, din kimi hüququn da öz xüsusi tarixi yoxdur.)
Xüsusi hüquqda mövcud mülkiyyət münasibətləri ümumi iradənin nəticəsi kimi ifadə edilir. Təkcə «jus utendi et abutendi» (istifadə və sui-istifadə hüququ, yə`ni şeydən istənilən kimi istifadə etmək hüququ. Red.), bir tərəfdən göstərir ki, xüsusi mülkiyyət ümumiliyə [Gemeinwesen] nisbətən tamamilə müstəqil olmuşdur, digər tərəfdən də göstərir ki, bu xüsusi mülkiyyətin özünün guya ancaq xüsusi iradəyə, şeyin iradəyə tabeliyinə əsaslanması xəyaldır. Təcrübədə xüsusi mülkiyyətçi öz mülkiyyətinin, deməli, ondan «jas abutendi»nin (sui-istifadə hüququ. Red.) başqa bir ələ keçməsini istəmirsə, «ağuti» (sui-istifadə etmək. Red.) anlayışının onun üçün çox müəyyən iqtisadi həddi vardır; zira ümumiyyətlə yalnız xüsusi mülkiyyətçiyə münasibət cəhətdən gözdən keçirilən şey, heç də şey deyildir; o yalnız ünsiyyət prosesində və hüquqdan asılı olmadan (münasibət o şeydir ki, filosoflar onu ideya adlandırırlar (Kənarda Marksın belə bir qeydi var: «Filosoflar üçün münasibət ideya ilə eyni mə`nadadır. Onlar yalnız «İnsan»ın özünün-özünə münasibətini bilirlər, buna görə də bütün real münasibətlər onların nəzərində ideya olur». Red.)) şey olur. Hüququ xalis iradəyə müncər edən bu yuridik xəyal labüddən gətirib o yerə çıxarır ki,–mülkiyyət münasibətləri daha da inkişaf edəndə–bu və ya başqa bir şəxs bir şeyə fe`lən sahib olmadan ona sahib olmaq hüququna malik ola bilər. Məsələn, hər hansı bir torpaq sahəsi rəqabət nəticəsində daha renta vermirsə, bu sahənin mülkiyyətçisi «jus utendi et abutendi» ilə birlikdə həmin sahələrə malik olmaq hüququnu yuridik surətdə davam etdirir. Lakin sahənin mülkiyyətçisi bu hüququ ilə bir şey edə bilməz çünki o bundan əlavə öz torpağını becərmək üçün kifayət qədər kapital sahibi deyildirsə, deməli, torpaq sahibi kimi bir şeyi yoxdur. Fərdlərin bir-biri ilə münasibətə girişdikləri, məsələn, müqavilə bağladıqları hüquqçular üçün və hər hansı bir kodeks üçün, ümumiyyətlə adi bir təsadüfdür ki, bu da hüquqçuların eyni xəyalı ilə izah edilir; onlara görə bu münasibətlər elə münasibətlərdir ki, fərdlərin arzusuna görə bu münasibətlərə girişmək də olar, girişməmək də [72] və bunların məzmunu müqavilə bağlayan tərəflərin tamamilə fərdi iradəsindən asılıdır.

Hər bir sənaye və ticarətin inkişafı yeni ünsiyyət formaları, məsələn sığorta şirkətləri və i.a. yaradanda hüquq bunları mülkiyyətin yeni nailiyyət növləri kimi təsdiq etməyə məcbur olurdu (Əlyazmasının axırında sonra Marksın yenə də işlənmək üçün öz əli ilə yazdığı qeydlər gəlir. Red.).
[12. İctimai şüur formaları]
Əmək bölgüsünün elmə tə`siri.
Dövlətdə, hüquqda, əxlaqda və i.a. cəza tədbirlərinin rolu.
Qanunda burjualar özlərinin ümumi ifadəsini verməlidirlər, məhz ona görə ki, bir sinif olaraq hökmranlıq edirlər.
Təbiətşünaslıq və tarix.
Siyasət, hüquq, elm və i.a. tarixi, incəsənət, din və sairətarixi mövcud deyildir (Kənarda Marksın belə bir qeydi var: ««Antik dövlətdə, feodalizm quruluşunda, mütləq monarxiyada özünü büruzə verdiyi şəkildəki «Ümumiliyə» [dem «Geweinwesen]–bu əlaqəyə xüsusilə dini təsəvvürlər uyğundur». Red.).
Nə üçün ideoloqlar hər şeyi çevirib başı üstündə qoyurlar.
Din təbliğçiləri, hüquqçular, siyasətçilər.
Hüquqçular, siyasətçilər (ümumiyyətlə dövlət xadimləri), əxlaqçılar, din təbliğçiləri.
Bir sinif daxilində bu ideoloji bölgü barəsində: 1) Əmək bölgüsü üzündən peşələrin bir-birindən ayrılması. Bunlardan hər biri öz peşəsini həqiqi peşə hesab edir. Onlar öz peşələrinin gerçəkliklə əlaqəsi barəsində labüddən belə xəyal edirlər ki, bu həmin peşənin təbiətindən asılıdır. Münasibətlər hüquqşünaslıqda, siyasətdə və i.a.–şüurda–anlayış olur; çünki onlar bu münasibətlərdən yuxarı qalxmadıqlarına görə bu münasibətlər haqqındakı anlayışlar da onların başında dönüb donmuş anlayışlar olur; məsələn, hakim məcəlləni tətbiq edir, buna görə də belə hesab edir ki, qanunlar həqiqi fəal mühərrikdir. Öz əmtəəsinə hörmət–çünki, onların peşəsi ən ümumi ilə əlaqədardır. Hüquq ideyası. Dövlət ideyası. Adi şüurda iş tərsinə çevrilib başı üstündə qoyulmuşdur.
Lap əvvəldən din həqiqi asılılıqdan meydana gəlmiş transsendentlik şüurudur.
Bunu daha populyar şəkildə ifadə etməli.
Ən`ənə–hüquq, din və i.a. sahəsində.
[73] (Əlyazmasında bu son səhifə nömrələnməmişdir. Bu səhifədə tarixin materialistcəsinə anlaşılması ilə əlaqədar izahatın başlanğıcına aid qeydlər

var. Burada nəzərdə tutulan fikirlər sonra fəslin birinci hissəsindəki § 3-də inkişaf etdirilmişdir. Red.) Fərdlər həmişə özlərini əsas tutmuşlar, həmişə özlərini əsas tuturlar. Onların münasibətləri öz həyatlarının həqiqi prosesinin münasibətləridir. Səbəb nədir ki, onların münasibətləri onlara qarşı duran müstəqil mövcudluq kəsb edir? səbəb nədir ki, onların öz həyat qüvvələri olara hakim bir qüvvə olur?
Bir sözlə cavab versək: əmək bölgüsü, bunun da dərəcəsi hazırda əldə edilmiş məhsuldar quvvənin inkişafından asılıdır.
Torpaq mülkiyyəti. İcma mülkiyyəti. Feodal mülkiyyəti. Müasir mülkiyyət. Silk mülkiyyəti. Manufaktura mülkiyyəti. Sənaye kapitalı.
K.Marks və F.Engels tərəfindən 1845-ci ilin noyabr ayı ilə 1846-cı ilin avqust ayı arasında Brüsseldə yazılmışdır. Rus dilində ilk dəfə «K.Marks və F.Engelsin arxivi»ndə nəşr edilmişdir: 1-ci kitab, 1924-cü il.
Aşağıdakı ayrıca kitabçanın mətnindən çap olunur: K.Marks və F.Engels. «Feyerbax. Materialist və idealist baxışların əksliyi» («Alman ideologiyası»nın birinci fəslinin yeni nəşri). M., 1966
F.ENGELS
KOMMUNİZMİN PRİNSİPLƏRİ35
1-ci sual: Kommunizm nədir?
Cavab: Kommunizm proletariatın azadlığa çıxması şərtləri haqqında nəzəriyyədir.
2-ci sual: Proletariat nədir?
Cavab: Proletariat o ictimai sinfə deyilir ki, həyat vasitələrini ancaq öz əməyini satmaq yolu ilə əldə edir, müəyyən bir kapitaldan mənfəət götürmək hesabına yaşamır; o elə bir sinifdir ki, onun xoşbəxtlik və bədbəxtliyi, həyatı və ölumü, bütün varlığı əməyə olan tələbdən, yə`ni işlərin yaxşı və ya pis getməsindən, qarşısı heç bir şeylə alınmayan rəqabətin artıb-azalmasından asılıdır. Bir sözlə, proletariat, yaxud proletarlar sinfi XIX əsrin zəhmətkeş sinfidir.
3-cü sual: Deməli, proletarlar həmişə olmamışdır?
Cavab: Yox, həmişə olmamışdır. Yoxsul və zəhmətkeş siniflər həmişə olmuşdur, özü də zəhmətkeş siniflər adətən yoxsul yaşamışdır. Lakin rəqabət həmişə tam azad və qeyri-məhdud olmadığı kimi, indicə göstərdiyimiz şəraitdə yaşayan yoxsullar, bu şəraitdə yaşayan fəhlələr, yə`ni proletarlar da həmişə mövcud olmamışdır.
4-cü sual: Proletariat necə meydana gəlmişdir?

Cavab: Proletariat, keçən əsrin ikinci yarısında İngiltərədə baş verib sonra dünyanın bütün mədəni ölkələrində təkrar edilən sənaye inqilabı nəticəsində meydana gəlmişdir. Bu sənaye inqilabına buxar maşınının, müxtəlif əyirmə maşınlarının, mexaniki toxuculuq dəzgahının və bir sıra başqa mexaniki qurğuların ixtira edilməsi səbəb olmuşdu. Çox baha olduğu üçün yjlnız iri kapitalistlərin ala bildiyi bu maşınlar o vaxtadək mövcud olan bütün istehsal üsulunu dəyişdirdi və əvvəlki fəhlələri sıxışdırıb aradan çıxartdı, çünki maşınla hazırlanan mallar fəhlələrin öz qeyri-mükəmməl cəhrələrində və toxuculuq dəzgahlarında hazırlaya bildiyi mallardan daha ucuz və daha yaxşı olurdu. Belə bir yolla bu maşınlar sənayeni bütünlüklə iri kapitalistlərin ixtiyarına verdi və fəhlələrə məxsus olan cüz`i mülkiyyəti (alətləri, toxucu dəzgahlarını və i.a.) tamamilə qiymətdən saldı, belə ki, kapitalistlər tezliklə hər şeyi öz əllərinə keçirtdilər, fəhlələrin isə heç nəyi qalmadı. Beləliklə, parça toxumaq sahəsində fabrik sistemi tətbiq edildi.– Maşınların və fabrik sisteminin tətbiqinə təkan verilən kimi, fabrik sistemi sənayenin bütün başqa sahələrində, xüsusən parçaya naxış vurmaq sahəsində, kitab çapında, dulusçuluqda və metal mə`mulat istehsalında da sür`ətlə yayıldı. Ayrı-ayrı fəhlələr arasında əmək getdikcə daha artıq bölünməyə başladı, belə ki, əvvəllər bütöv bir işi tamamilə görən fəhlə indi həmin işin ancaq bir qismini görməli olurdu. Bu əmək bölgüsü məhsulları daha tez, buna görə də daha ucuz hazırlamağa imkan verdi. Əmək bölgüsü nəticəsində hər bir fəhlənin fəaliyyəti çox sadə, daim təkrar edilən təkcə bir mexaniki əməliyyatdan ibarət oldu, elə bir əməliyyatdan ki, onu maşın eyni müvəffəqiyyətlə, bəlkə də xeyli yaxşı icra edə bilərdi. Belə bir yolla bütün bu sənaye sahələri də bir-birinin ardınca eyni ilə əyiricilik və toxuculuq istehsalında olduğu kimi buxarın, maşınların və fabrik sisteminin hakimiyyəti altına düşdü. Lakin beləliklə onlar tamamilə iri kapitalistlərin əlinə keçirdi və fəhlələr burada da özlərinin olan-qalan müstəqilliyindən məhrum olurdular. Fabrik sistemi tədricən öz hökmranlığını nəinki sözün əsil mə`nasında manufakturaya şamil etdi, habelə get-gedə sənətə də hakim olmağa başladı, çunki bu sahədə də iri kapitalistlər böyük e`malatxanalar düzəldərək, xırda ustaları getdikcə sıxışdırıb aradan çıxarırdılar, çünkm həmin e`malatxanalarda qənaət edib bir çox xərci azaltmaq, habelə hərtərəfli əmək bölgüsü tətbiq etmək mümkün idi. Nəticədə, biz indi ona gəlib çatmışıq ki, mədəni ölkələrdə az qala bütün əmək sahələrində fabrik istehsalı bərqərar olmuş və bu sahələrin az qala hamısında iri sənaye sənət

və manufakturanı sıxışdırıb aradan çıxartmışİIr.–Bunun nəticəsindədir ki, əvvəlki orta silk, xüsusilə xırda sənətkarlar getdikcə var-yoxdan çıxırlar, işçinin əvvəlki vəziyyəti tamamilə dəyişilir və bütün başqa sinifləri tədricən öz içərisində əridən iki yeni sinif, yə`ni məhz aşağıdakı siniflər yaranır:

I. Artıq indi mədəni ölkələrin hamısında bütün həyat vasitələrinin, habelə bunları istehsal etmək üçün lazım olan xammalın və alətlərin (maşınların, fabriklərin və i.a.) az qala yeganə sahibi olan iri kapitalistlər sinfi. Bu sinif burjualar sinfi və ya burjuaziyadır.

II. Tamamilə yoxsul olduqlarına görə öz əməklərini burjualara satıb bunun əvəzində yaşamaq üçün lazımi həyat vasitələri almağa məcbur olanlar sinfi. Bu sinif proletarlar sinfi və ya proletariat adlanır.

5-ci sual: Proletarlar öz əməyini burjualara hansı şəraitdə satırlar?

Cavab: Hər cür başqa əmtəə kimi əmək də əmtəədir, buna görə onun qiyməti də hər cür başqa əmtəənin qiymətini müəyyən edən eyni qanunlarla müəyyən olunur. İri sənayenin və ya azad rəqabətin,–biz irəlidə görəcəyik ki, bunların hər ikisi eyni şeydir,–hökmranlığı şəraitində əmtəənin qiyməti orta hesabla həmişə onun istehsal xərcinə bərabərdir. Deməli, əməyin də qiyməti onun istehsal xərcinə bərabərdir, əməyin istehsal xərci isə fəhlənin öz əmək qabiliyyətini saxlaya bilməsi üçün və fəhlə sinfinin ölüb getməməsi üçün lazım olduğu qədər həyat vasitələrindən ibarətdir. Fəhlə öz əməyi müqabilində, bu məqsəd üçün lazım olduğundan çox almayacaqdır; deməli, əməyin qiyməti və ya əmək haqqı ən aşağı, həyatı davam etdirmək üçün zəruri olan bir minimum təşkil edəcəkdir. Lakin iş gah yaxşı, gah pis getdiyinə görə fabrikçinin öz əmtəəsi müqabilində aldığı gah çox, gah az olduğu kimi, fəhlənin aldığı da gah çox, gah az. Lakin həm yaxşı, həm pis vaxtları götürsək, son nəticədə fabrikçi öz əmtəəsi müqabilində, orta hesabla, istehsal xərcindən nə çox, nə də az almadığı kimi, fəhlə də, orta hesabla, bu minimumdan nə çox almayacaq, nə də az. İri sənaye bütün əmək sahələrinə nə qədər çox hakim olarsa, əmək haqqının bu iqtisadi qanunu bir o qədər ciddi şəkildə həyata keçəcəkdir.

6- cı sual: Sənaye inqilabından əvvəl hansı zəhmətkeş siniflər olmuşdur?

Cavab: Zəhmətkeş siniflər ictimai inkişafın müxtəlif pillələrindən asılı olaraq, müxtəlif şəraitdə yaşamış, varlı və hökmran siniflərlə müxtəlif münasibətdə olmuşlar. Qədim zamanlarda zəhmətkeşlər öz ağalarının qulu

idilər, necə ki, geri qalmış bir çox ölkədə və hətta Birləşmiş Ştatların cənub hissəsində onlar indi də qul vəziyyətindədirlər. Zəhmətkeşlər orta əsrlərdə zadəgan torpaq sahiblərinin təhkimlisi idilər və Macarıstanda, Polşada, Rusiyada hələ bu günədək təhkimli olaraq qalırlar. Bundan əlavə, orta əsrlərdə, ta sənaye inqilabınadək şəhərlərdə xırda burjua ustaların yanında işləyən usta köməkçiləri var idi, manufaktura inkişaf etdikdə isə tədriclə manufaktura fəhlələri meydana gəlməyə başladı bu fəhlələri daha iri kapitalistlər işə götürürdülər.

7-ci sual: Proletarın quldan fərqi nədədir?

Cavab: Qul həmişəlik satılmışdır, proletar özü-özünü hər gün, hər saat satmalıdır. Ayrılıqda hər bir qul müəyyən bir ağanın mülkiyyətidir və ağanın mənafeyi tələb etdiyinə görə, qulun yaşaması, nə qədər acınacaqlı olsa da, tə`min edilmişdir. Ayrılıqda hər bir proletar isə, necə deyərlər, bütün burjuaziya sinfinin mülkiyyətidir. Proletarın əməyi ancaq kiminsə buna ehtiyaşı olanda satın alınır, buna görə də proletarın yaşaması tə`min olunmamışdır. Ancaq bütünlükdə proletarlar sinfinin yaşaması tə`min olunmuşdur. Qul rəqabət xaricindədir, proletar isə rəqabət şəraiti daxilindədir və bu rəqabətdə baş verən bütün dəyişmələri öz üzərində duyur. Qul vətəndaşlar cəmiyyətinin üzvü hesab olunmaq deyil, şey hesab olunur. Proletar şəxsiyyət, vətəndaşlar cəmiyyətinin üzvü hesab edilir. Deməli, qul proletardan babat yaşaya bilər, lakin proletar daha yüksək inkişaf pilləsində duran cəmiyyətə mənsubdur və özü quldan yüksək pillədə durur. Qul özünü bununla azad edir ki, bütün xüsusi mülkiyyət münasibətlərindən ancaq bir münasibəti, köləlik münasibətini məhv edir və bunun sayəsində ancaq o zaman dönüb proletar olur; proletar isə ancaq xüsusi mülkiyyəti yerli-dibli məhv etməklə özünü azad edə bilər.

8-ci sual: Proletarın təhkimlidən fərqi nədədir?

Cavab: Təhkimlinin ixtiyarında və istifadəsində istehmal aləti, bir parça torpaq vardır və bunun müqabilində o öz gəlirinin bir hissəsini verir, yaxud bir sıra iş görür. Proletar isə başqasına məxsus olan istehsal alətləri ilə işləyir və bu başqasının xeyrinə iş görərək əvəzində gəlirdən bir hissə alır. Təhkimlidən alır, proletara isə verirlər. Təhkimlinin yaşaması tə`min olunmuşdur, proletarın yaşaması tə`min olunmamışdır. Təhkimli rəqabət xaricindədir, proletar isə rəqabət şəraiti daxilindədir. Təhkimli özünü bununla azad edir ki, ya şəhərə qaçıb orada sənətkar olur, ya öz mülkədarına iş, yaxud məhsul əvəzinə pul verib azad icarədar olur, ya da

öz feodalını qovub mülkiyyətçi olur. Bir sözlə, o özünü bununla azad edir ki, hər necə olursa-olsun, mülkiyyət sahibi olan sinfin sıralarına daxil olur və rəqabət dairəsinə girir. Proletar isə özünü onunla azad edir ki, rəqabəti, xüsusi mülkiyyəti və bütün sinfi fərqləri məhv edir.
9-cu sual: Proletarın sənətkardan fərqi nədədir? (Bundan sonra Engels əlyazmasında 9-cu sual:ın Cavabı üçün boş yer qoymuşdur. Red.)
10-cu sual: Proletarın manufaktura fəhləsindən fərqi nədədir?
Cavab: XVI–XVIII əsrlərdə az qala hər yerdə manufaktura fəhləsinin hələ öz istehsal alətləri: öz toxucu dəzgahı, öz ailə cəhrəsi və kiçik torpaq sahəsi var idi ki, bu sahəni do işdən asudə olduğu saatlarda becərirdi. Proletarda bunların heç biri yoxdur. Manufaktura fəhləsi demək olar həmişə kənddə yaşayır və öz mülkədarı, yaxud iş verəni ilə az-çox patriarxal münasibətdə olur. Proletar əksərən böyük şəhərlərdə yaşayır və iş verənlə onun münasibətləri xalis pul münasibətləridir. İri sənaye manufaktura fəhləsini onun patriarxal şəraitindən qoparır; manufaktura fəhləsi hələ malik olduğu axırıncı əmlakını itirir və yalnız o zaman bunun nəticəsində dönüb proletar olur.
11-ci sual: Sənaye inqilabı və cəmiyyətin burjualarla proletarlara bölünməsi bilavasitə nə kimi nəticələr vermişdir?
Cavab: Birincisi, maşın əməyi sənaye mə`mulatının qiymətini getdikcə aşağı saldığına görə dünyanın hər yerində əvvəlki manufaktura sistemi və ya əl əməyinə əsaslanan sənaye sistemi tamamilə pozulmuşdu. İndiyədək tarixi inkişafdan az-çox kənarda qalan və sənayesi manufakturaya əsaslanan bütün yarımbarbar ölkələr beləliklə öz qapalı vəziyyətindən zorla çıxarıldı. Onlar ingilislərdən daha ucuz əmtəə almağa başladılar və öz manufaktura fəhlələrini məhv olmağa məhkum etdilər. Beləliklə, min illər boyu tərəqqidən xəbəri olmayan ölkələr, məsələn, Hindistan tam inqilaba mə`ruz qaldı, odur ki, indi hətta Çinin özü də inqilaba doğru gedir. İş o məqama çatmışdır ki, bu gün İngiltərədə ixtira edilən yeni maşın bir ildə Çinin milyonlarla fəhləsini çörəksiz qoyur. Beləliklə, iri sənaye bütün yer üzünün xalqlarını bir-biri ilə əlaqələndirmiş, kiçik məhəlli bazarların hamısını birləşdirib ümumdünya bazarı yaratmış, hər yerdə mədəniyyət və tərəqqi üçün zəmin hazırlamış və ona gətirib çıxartmışdır ki, mədəni ölkələrdə nə olursa hamısı bütün digər ölkələrə tə`sir göstərməlidir; belə ki, əgər indi İngiltərə və ya Fransada fəhlələr özlərini azad etsələr, bu bütün

başqa ölkələrdə də inqilablar doğurmalı və həmin inqilablar orada da gec-tez fəhlələrin azad olması ilə nəticələnməlidir.
İkincisi, iri sənayenin manufakturanı əvəz etdiyi hər yerdə sənaye inqilabı burjuaziyanın sərvət və qüdrətini son dərəcə artırıb bnu ölkədə birinci sinfə çevirmişdir. Bunun nəticəsi ondan ibarət olmuşdur ki, belə bir prosesin baş verdiyi hər yerdə burjuaziya siyasi hakimiyyəti öz əlinə alaraq, əvvəlki hökmran sinifləri–aristokratiyanı, sex bürkerlərini və bunların hər ikisinin nümayəndəsi olan mütləq monarxiyanı sıxışdırıb aradan çıxartmışdır. Burjuaziya mayoratları və ya torpaq malikanələrinin özgəninkiləşdirilməzliyini, bütün zadəgan imtiyazlarını ləğv edib aristokratiyanı, zadəganları qüdrətdən salmışdır. Burjuaziya bütün sənətkar sexlərini və sənətkarların bütün imtiyazlarını ləğv edərək, sex bürkerlərinin qüdrətini sarsıtmışdır. Burjuaziya bunların hər ikisinin yerinə azad rəqabəti qoymuşdur, yə`ni cəmiyyətin elə bir vəziyyətini qoymuşdur ki, bu vəziyyətdə hər kəs sənaye fəaliyyətinin istədiyi sahəsi ilə məşğul olmaq hüququna malikdir və bunun üçün lazımi kapitalın yoxluğundan başqa heç nə bu işdə ona maneçilik törədə bilməz. Beləliklə, azad rəqabətə keçmək açıq-aşkar bildirmək deməkdir ki, bundan sonra cəmiyyət üzvləri ancaq öz kapitalları bərabər olmadığı dərəcədə bərabər deyildirlər, kapital həlledici qüvvəyə çevrilir, beləliklə, kapitalistlər, burjualar cəmiyyətdə birinci sinif olurlar. Lakin iri sənayenin ilk inkişaf dövrü üçün, azad rəqabət zəruridir, çünki azad rəqabət cəmiyyətin elə bir vəziyyətidir ki, iri sənaye yalnız belə bir vəziyyət meydanda olduqda yaranıb böyüyə bilər.–Burjuaziya bu yolla zadəganların və sex bürkerlərinin ictimai qüdrətini aradan qaldıraraq onların siyasi hakimiyyətini də yox etmişdir. Burjuaziya cəmiyyətdə birinci sinif olandan sonra özünü siyasi həyatda da birinci sinif e`lan etmişdir. Burjuaziya bunu, qanun qarşısında burjuasayağı bərabərliyə, azad rəqabətin qanunla rəsmiləşdirilməsinə əsaslanan nümayəndəli sistem tətbiq etmək yolu ilə etmişdir. Avropa ölkələrində bu sistem konstitusiyalı monarxiya şəklində tətbiq olunmuşdur. Konstitusiyalı monarxiyalarda ancaq müəyyən kapitalı olanların, yə`ni ancaq burjuaların seçmək hüququ vardır. Həmin burjua seçiciləri deputatlar seçirlər, həmin burjua deputatları isə vergiləri rədd etmək hüququndan istifadə edərək, burjua hökumətini seçirlər.
Üçüncüsü, sənaye inqilabı hər yerdə burjuaziyanın inkişafına yardım göstərdiyi dərəcədə proletariatın da inkişafına yardım göstərmişdir.

Burjuaziya varlandıqca proletarların sayı çoxalırdı. Proletarlara işi yalnız kapital verə bildiyinə görə,–kapital isə yalnız əmək tətbiq etdiyi zaman artır,–proletariatın artması kapitalın artmasına tamamilə uyğun gəlir. Eyni zamanda sənaye inqilabı burjua və proletarları iri şəhərlərə toplayır, çünki iri şəhərlər sənayeni inkişaf etdirmək üçün hər şeydən sərfəlidir; beləliklə, sənaye inqilabı çoxlu kütləni bir yerə yığmaqla proletarların qüvvəsini onlara dərk etdirir. Sonra, sənaye inqilabı inkişaf etdikcə, əl əməyini sıxışdırıb aradan çıxaran yeni maşınlar ixtira olunduqca, iri sənaye əmək haqqına daha artıq təzyiq göstərir və onu, yuxarıda dediyimiz kimi, minimuma endirir və bunun nəticəsində proletariatın vəziyyəti getdikcə daha dözülməz olur. Beləliklə, proletariatın bir tərəfdən narazılığının, digər tərəfdən isə gücünün artması nəticəsində sənaye inqilabı ictimai inqilab hazırlayır ki, bunu da proletariat edəcəkdir.

12-ci sual: Sənaye inqilabının sonrakı nəticələri nə idi?

Cavab: İri sənaye, buxar maşını və digər maşınlar yaradaraq sənaye istehsalını qısa müddətdə və cüz`i xərclə sonsuz dərəcədə artırmağa imkan verən vasitələr meydana gətirdi. İstehsalın bu cür asanlıqla genişlənməsi nəticəsindədir ki, həmin iri sənayenin zəruri nəticəsi olan azad rəqabət tezliklə son dərəcə kəskin xarakter aldı; çoxlu kapitalist sənayeyə axışdı və aradan çox keçmədən istehsal edilən məhsul istehlak oluna biləcəyindən xeyli artıq oldu. Bunun nəticəsindədir ki, istehsal edilmiş malları satmaq mümkün olmadı və ticarət böhranı deyilən böhran başlandı. Fabriklər dayanmalı oldu, fabrikçilər iflasa uğradılar və fəhlələr çörəksiz qaldılar. Hər yerdə dəhşətli yoxsulluq başlandı. Aradan bir müddət keçəndən sonra artıq məhsul satıldı, fabriklər yenidən işə başladı, əmək haqqı yüksəldi və işlər tədricən yoluna düşüb hər zamankından yaxşı getdi. Lakin bu hal uzun sürmədi, zira çox keçmədən yenidən həddən artıq mal istehsal edildi və eynən əvvəlki böhran kimi cərəyan edən yeni bir böhran başlandı. Beləliklə, bu əsrin əvvəlindən sənayenin vəziyyətində tərəqqi dövrləri ilə böhran dövrləri daim bir-birini əvəz edirdi və az qala müntəzəm olaraq hər beş-yeddi ildən sonra bu cür böhran başlanırdı, özü də hər dəfə bu böhran fəhlələr arasında çox böyük fəlakətlər doğurub, ümumi inqilabi oyanışa səbəb olur və bütün mövcud quruluş üçün çox böyük təhlükə törədirdi.

13-cü sual: Müntəzəm olaraq baş verən bu ticarət böhranlarından nə nəticə çıxır?

Cavab: Birincisi, o nəticə çıxır ki, iri sənaye öz inkişafının ilk dövründə azad rəqabəti özü yaratmış olsa da, indi, azad rəqabət çərçivəsinə sığmır; rəqabət və ümumiyyətlə sənaye istehsalını ayrı-ayrı şəxslərin idarə etməsi iri sənaye üçün buxova çevrilmişdir, iri sənaye həmin buxovları qırmalıdır və qıracaqdır; nə qədər ki, iri sənaye indiki qayda ilə idarə olunur, yeddi ildən yeddi ilə təkrar edilən ümumi pozğunluq törətmədən mövcud ola bilməz, Hər dəfə bütün mədəniyyət üçün təhlükə yaradan bu pozğunluq isə yalnız proletariatı yoxsulluq girdabına atmaq deyil, habelə bir çox burjuanı da var-yoxdan çıxarır; deməli, ya iri sənayedən əl çəkmək lazımdır,–bu isə əsla mümküi deyildir,–ya da e`tiraf etmək gərəkdir ki, iri sənaye cəmiyyətin tamamilə yeni qaydada təşkil, olunmasını sözsüz zəruri edir; cəmiyyətin bu yeni qaydada təşkili şəraitində sənaye istehsalına heç də bir-biri ilə rəqabət edən ayrı-ayrı fabrikçilər deyil, sabit plan əsasında və bütün cəmiyyət üzvlərinin tələbatına uyğun olaraq bütün cəmiyyət rəhbərlik edir. İkincisi, iri sənaye və onunla əlaqədar olaraq istehsalı sonsuz dərəcədə genişləndirmək imkanı elə bir ictimai quruluş yaratmağa yol verir ki, orada həyat üçün zəruri olan bütün şeylər çox–bol istehsal ediləcəyinə görə cəmiyyətin hər bir üzvü öz qüvvə və qabiliyyətini tamamilə sərbəst inkişaf etdirib tətbiq edə biləcəkdir. Deməli, iri sənayenin müasir cəmiyyətdə məhz bütün yoxsulluğu və ticarət böhranlarını doğurmaq xassəsi cəmiyyətin başqa cür təşkili şəraitində məhz elə bir xassəyə çevriləcəkdir ki, həmin yoxsulluğu və fəlakətlər doğuran sarsıntıları məhv edəcəkdir. Beləliklə, tam inandırıcı şəkildə sübut edilmişdir ki:

1) hazırda bütün bu fəlakətlərin yeganə səbəbi daha zamanın şəraitinə uyğun gəlməyən ictimai quruluşdur;

2) yeni ictimai quruluş yaratmaq yolu ilə bu fəlakətləri aradan qaldırmaq üçün lazımi vasitələr indidən vardır.

14-cü sual: Bu yeni ictimai quruluş necə quruluş olmaIIdır?

Cavab: Hər şeydən əvvəl, sənayenin və ümumiyyətlə bütün istehsal sahələrinin idarə olunması bir-biri ilə rəqabət edən ayrı-ayrı fərdlərin əlindən alınacaqdır. Bunun əvəzinə bütün istehsal sahələri bütün cəmiyyətin ixtiyarında, yə`ni ictimai mənafe nöqteyi-nəzərindən, ictimai plan əsasında və bütün cəmiyyət üzvlərinin iştirakı ilə idarə ediləcəkdir. Beləliklə, bu yeni ictimai quruluş rəqabəti aradan qaldırıb onun yerinə birlik gətirəcəkdir. Sənayenin ayrı-ayrı şəxslər tərəfindən idarə edilməsinin zəruri nəticəsi xüsusi mülkiyyət olduğu üçün və rəqabət sənayenin ayrı-

ayrı xüsusi mülkiyyətçilər tərəfindən idarə edilməsi üsulundan başqa bir şey olmadığı üçün, xüsusi mülkiyyət sənayenin fərdi şəkildə idarə olunmasından, rəqabətdən ayrılmazdır. Deməli, xüsusi mülkiyyət də ləğv edilməlidir, onun yerini isə bütün istehsal alətlərindən hamının elliklə istifadə etməsi və məhsulların ümumi sazişlz bölüşdürülməsi əsası, yaxud necə deyərlər, şərikli əmlak tutacaqdır. Xüsusi mülkiyyətin məhv edilməsi sənayenin inkişafı nəticəsində bütün ictimai quruluşu dəyişdirmək lüzumunun hətta ən qısa və ən ümumiləşdirilmiş ifadəsidir. Buna görə də kommunistlər xüsusi mülkiyyətin məhv edilməsini tamamilə düzgün olaraq, özlərinin başlıca tələbi kimi irəli sürürlər.

15-ci sual: Deməli, əvvəllər xüsusi mülkiyyəti məhv etmək mümkün deyildi?

Cavab: Yox, mümkün deyildi. İctimai quruluşda baş verən hər bir dəyişiklik, mülkiyyət münasibətlərində əmələ gələn hər bir çevriliş köhnə mülkiyyət münasibətlərinə daha uyğun gəlməyən yeni məhsuldar qüvvələr yaradılmasının zəruri nəticəsi idi. Xüsusi mülkiyyət özü də belə meydana gəlmişdir. İş burasındadır ki, xüsusi mülkiyyət həmişə olmamışdır; orta əsrlərin sonunda, o zamankı feodal və sex mülkiyyəti çərçivəsinə sığmayan yeni istehsal üsulu manufaktura şəklində meydana gələndə köhnə mülkiyyət münasibətlərindən yüksəkdə duran bu manufaktura özü üçün yeni mülkiyyət forması–xüsusi mülkiyyət yaratdı. Manufaktura üçün və iri sənayenin ilk inkişaf mərhələsi üçün xüsusi mülkiyyətdən başqa heç bir mülkiyyət forması, xüsusi mülkiyyətə əsaslanan quruluşdan başqa heç bir ictimai quruluş mümkün deyildi. Nə qədər ki, yalnız hamıya çatacaq miqdarda deyil, habelə ictimai kapitalı çoxaltmaq və məhsuldar qüvvələri daha da inkişaf etdirmək üçün artıq qalacaq miqdarda məhsul istehsal etmək mümkün deyildir, cəmiyyətin məhsuldar qüvvələrini idarə edən hökmran sinif də həmişə qalmalıdır, yoxsul və məzlum sinif də. Bu siniflərin hansı siniflər olduğu istehsalın inkişaf pilləsindən asılıdır. Əkinçilikdən asılı olan orta əsrlərdə biz mülkədara və təhkimliyə rast gəlirik; orta əsrlərin axırlarına məxsus şəhərlərdə sex ustasına, usta köməkçisinə və günəmuzdçuya rast gəlirik; XVII əsrdə manufaktura sahibinə və manufaktura fəhləsinə rast gəlirik; XIX əsrdə iri fabrikçiyə və proletara rast gəlirik. Tamamilə aydın olduğu kimi, məhsuldar qüvvələr hələ o dərəcədə inkişaf etməmişdi ki, hamı üçün kifayət qədər məhsul istehsal etmək mümkün olsun və xüsusi mülkiyyət bu məhsuldar

qüvvələrin inkişafı üçün buxova, maneəyə çevrilsin. Lakin indi iri sənayenin inkişafı sayəsində, birincisi, keçmişdə misli görünməmiş miqdarda kapital və məhsuldar qüvvələr yaradılmışdır və qısa müddət ərzində bu məhsuldar qüvvələri sonsuz dərəcədə artırmaq vasitələri vardır. İkincisi, bu məhsuldar qüvvələr sayca çox olmayan burjuaların əlində toplanmışdır, halbuki geniş xalq kütlələri getdikcə daha artıq dərəcədə proletarlara çevrilirlər, həm də burjuaların sərvəti artdıqca, bu kütlələr daha da yoxsullaşırlar və onların vəziyyəti daha da dözülməz olur. Üçüncüsü, asanlıqla artırıla bilən bu güclü məhsuldar qüvvələr xüsusi mülkiyyətdən və burjualardan o dərəcədə yüksəyə qalxmışdır ki, ictimai quruluşda daim çox güclü sarsıntılar əmələ gətirir. Buna görə dir ki, xüsusi mülkiyyəti məhv etmək yalnız indi nəinki mümkün, hətta tamamilə zəruri olmuşdur.

16-cı sual: Xüsusi mülkiyyəti dinc yolla məhv etmək mümkündürmü?

Cavab: Arzu etmək olardı ki, bu belə olaydı və buna e`tiraz edən olsaydı, kommunistlər, əlbəttə, axırıncı olardılar. Kommunistlər çox yaxşı bilirlər ki, hər cür qəsd nəinki faydasız, hətta zərərlidir. Onlar çox yaxşı bilirlər ki, qəsdən və özbaşına inqilab etmək olmaz və həmişə, hər yerdə inqilablar ayrı-ayrı partiyaların və bütöv siniflərin iradəsi və rəhbərliyindən qətiyyən asılı olmayan şəraitin zəruri nəticəsi olmuşdur. Lakin bununla bərabər onlar görurlər ki, proletariatın inkişafı demək olar bütün mədəni ölkələrdə zorakılıq yolu ilə yatırılır və bununla da kommunistlərin əleyhdarları var qüvvə ilə inqilabın xeyrinə işləyirlər. Əgər bunların hamısı, ən nəhayət, məzlum proletariatı inqilaba sövq edərsə, biz kommunistlər proletariatın işini indi sözlə necə müdafiə ediriksə, o zaman işlə də bundan pis müdafiə etməyəcəyik.

17-ci sual: Xüsusi mülkiyyəti birdən-birə məhv etmək mümkündürmü?

Cavab: Yox, mövcud məhsuldar qüvvələri birdən-birə artırıb ictimai təsərrüfat yaradılması üçün zəruri olan həddə çatdırmaq mümkün olmadığı kimi, xüsusi mülkiyyəti birdən-birə məhv etmək də mümkün deyildir. Buna görə də, proletariatın, bütün əlamətlərdən göründüyü kimi, yaxınlaşmaqda olan inqilabı hazırkı cəmiyyəti yalnız tədriclə dəyişdirə biləcək və xüsusi mülkiyyəti yalnız o zaman məhv edəcəkdir ki, bunun üçün zəruri olan istehsal vasitələri kütləsi yaradılmış olsun.

18-ci sual: Bu inqilabın gedişi necə olacaqdır?

Cavab: Bu inqilab, hər şeydən əvvəl, demokratik quruluş və bununla da bilavasitə və ya dolayı yolla proletariatın siyasi hökmranlığını

yaradacaqdır. İngiltərədə bilavasitə yaradacaqdır, çünki elə indidən orada proletarlar xalqın əksəriyyətini təşkil edirlər; Fransada və Almaniyada dolayı yolla yaradacaqdır, çünki orada xalqın əksərnyyəti nəinki proletarlardan, habelə xırda kəndlilərdən və şəhər xırda burjualarından ibarətdir, bunlar isə hələ ancaq proletariata keçid mərhələsindədirlər, özlərinin bütün siyasi mənafelərini həyata keçirməkdə proletariatdan getdikcə daha çox asılı olurlar və buna görə də tezliklə proletariatın tələblərinə qoşulmalı olacaqlar. Bunun üçün bəlkə də hələ yeni mübarizə lazım ggələcəkdir, lakin bu mübarizə hökmən proletariatın qələbəsi ilə qurtaracaqdır.

Əgər xüsusi mülkiyyətə bilavasitə qəsd edən və proletariatın yaşamasını tə`min edən geniş tədbirlər görmək üçün demokratiyadan dərhal bir vasitə kimi istifadə edilməzsə, bu demokratiya proletariat üçün tamamilə faydasız olardı. İndiki mövcud şəraitdən zəruri surətdə irəli gələn həmin başlıca tədbirlər bunlardır:

1) Xüsusi mülkiyyəti məhdud etmək mütərəqqi vergi, irslərə yüksək vergi qoymaq, yan xətlər vərəsəliyini (qardaşların, qardaş oğlanlarının və i.a. vərəsəliyini) ləğv etmək, icbari istiqrazlar və i.a.

2) Qismən dövlət sənayesinin rəqabəti yolu ilə, qismən də kağız pulla bilavasitə satın almaq yolu ilə torpaq mülkiyyətçilərini, fabrikçiləri, dəmiryol sahiblərini və gəmi sahiblərini tədriclə əmlakdan məhrum etmək.

3) Bütün mühacirlərin əmlakını və xalqın əksəriyyətinə qarşı üsyan edən qiyamçıların əmlakını müsadirə etmək.

4) Milli malikanələrdə, fabriklərdə və e`malatxanalarda əməyi təşkil etmək və ya proletarlara iş vermək; bunun sayəsində fəhlələrin öz arasındakı rəqabət aradan qaldırılacaq və fabrikçilər hələ qalacaqlarına görə onlar da dövlət kimi yüksək əmək haqqı verməyə məcbur olacaqlar.

5) Xüsusi mülkiyyət tamamilə məhv edilənədək əmək cəmiyyətin bütün üzvləri üçün eyni dərəcədə məcburi olmalıdır. Xüsusilə kənd təsərrüfatı üçün sənaye orduları yaratmaq.

6) Dövlət kapitalına malik olan milli bank vasitəsi ilə kredit sistemini və pul al-verini dövlətin əlində mərkəzləşdirmək. Hər cür xüsusi bankları və bankir kontorlarını bağlamaq.

7) Millətin sərəncamında olan kapitalın artmasına və fəhlələrin sayının çoxalmasına uyğun olaraq, milli fabriklərin, e`malatxanaların, dəmiryolların, gəmilərin sayını artırmaq, əkin üçün istifadə olunmayıb

qalan bütün torpaqları becərmək və əkin üçün istifadə edilən torpaqların becərilməsini yaxşılaşdırmaq.
8) Anaları baxmadan keçinə biləcəkləri zamandan bütün uşaqları dövlət müəssisələrində və dövlət hesabına tərbiyələndirmək. Tərbiyəni fabrik əməyi ilə birləşdirmək.
9) Sənaye ilə, kənd təsərrüfatı ilə məşğul vətəndaş kommunaları üçün ümumi mənzillər yaratmaq məqsədi ilə milli malikanələrdə böyük saraylar tikdirmək, şəhər və kənd həyat tərzinin birtərəfliliyindən və nöqsanlarından əziyyət çəkməmək üçün bunların üstünlüklərini birləşdirmək.
10) Şəhərlərdə sağlamlıq üçün yaramayan və pis tikilmiş bütün mənzil və məhəllələri sökmək.
11) Nigahlı və nigahsız doğulan uşaqlar üçün eyni vərəsəlik hüququ vermək.
12) Bütün nəqliyyat işini millətin əlində təmərküzləşdirmək.
Əlbəttə, bütün bu tədbirləri birdən həyata keçirmək olmaz, lakin bunların biri öz ardınca o birini çəkib gətirəcəkdir. Xüsusi mülkiyyət üzərinə ilk qəti həmlə edilən kimi proletariat daha da irəli getməyə, bütün kapitalı, bütün kənd təsərrüfatını, bütün sənayeni, bütün nəqliyyatı və bütün mübadiləni dövlətin əlində daha artıq təmərküzləşdirməyə məcbur olacaqdır. Sadalanan tədbirlərin hamısı buna doğru aparır. Ölkənin məhsuldar qüvvələri proletariatın əməyi ilə nə dərəcədə artacaqsa, bu tədbirləri həyata keçirmək imkanı və onların doğurduğu mərkəzləşmə də tamamilə eyni dərəcədə artacaqdır. Nəhayət, bütün kapital, bütün istehsal, bütün mübadilə dövlətin əlində toplaşanda, xüsusi mülkiyyət öz-özünə aradan qalxacaq, pul gərəksiz və istehsal o dərəcədə artacaq, adamlar isə o qədər dəyişiləcəklər ki, köhnə cəmiyyətin son münasibət formaları da aradan qalxa biləcəkdir.
19-cu sual: Bu inqilab ayrılıqda hər hansı bir ölkədə baş verə bilərmi?
Cavab: Yox. İri sənaye dünya bazarını yaratmış olmaqla yer kürəsinin bütün xalqlarını, xüsusilə mədəni xalqları ibir-birinə elə bağlamışdır ki, bunlardan hər biri digərinin həyatında nələr baş verdiyindən asılıdır. Sonra iri sənaye bütün mədəni ölkələrdə ictimai inkişafı elə tənləşdirmişdir ki, hər yerdə burjuaziya və proletariat cəmiyyətin iki həlledici sinfi, onların arasındakı mübarizə isə zəmanəmizin başlıca mübarizəsi olmuşdur. Buna görə də kommunist inqilabı yalnız milli inqilab olmayacaqdır, mədəni ölkələrin hamısında, yə`ni, heç olmasa, İngiltərə, Amerika, Fransa və Almaniyada bir vaxtda baş verəcəkdir13. Bu ölkələrdən hansında sənaye

daha çox inkişaf etmişsə, daha çox sərvət toplanmışsa və daha çox məhsuldar qüvvələr varsa, bundan asılı olaraq onların hər birində kommunist inqilabı daha sür`ətlə, yaxud daha yavaş inkişaf edəcəkdir. Buna görə də kommunist inqilabı Almaniyada daha yavaş və daha çətin, İngiltərədə daha sür`ətlə və daha asan olacaqdır. Bu inqilab dünyanın qalan ölkələrinə də xeyli tə`sir göstərəcək, onların inkişafının əvvəlki gedişini tamamilə dəyişdirib son dərəcə sür`ətləndirəcəkdir. Kommunist inqilabı dünya inqilabıdır, buna görə də onun meydanı dünya olacaqdır.

20-ci sual: Xüsusi mülkiyyətin tamamilə aradan qaldırılması nə kimi nəticələr verəcəkdir?

Cavab: Cəmiyyət bütün məhsuldar qüvvələrdən və ünsiyyət vasitələrindən istifadə olunmasını, habelə məhsul mübadiləsi və bölgüsünü xüsusi kapitalistlərin əlindən alacaq, bütün bunları bütöv cəmiyyətin mövcud ehtiyatları və tələbatından irəli gələn plan əsasında idarə edəcəkdir, bununla, hər şeydən əvvəl, iri sənayenin hazırkı idarəetmə sistemi ilə əlaqədar olan bütün fəlakətli nəticələr aradan qaldırılacaqdır. Böhranlar kəsiləcək, geniş istehsal mövcud ictimai quruluş şəraitində ifrat istehsal dbğurduğu və yoxsulluğun çox güclü səbəbi olduğu halda, o zaman əsla kifayət etməyəcək və indikindən xeyli geniş bir miqyas almalı olacaqdır. Cəmiyyətin bilavasitə tələbatından artıq məhsul istehsal edilməsi yoxsulluq doğurmaq əvəzinə, bütün cəmiyyət üzvlərinin tələbatını ödəməyi tə`min edəcək, yeni tələbat doğuracaq və eyni zamanda bu tələbatın ödənilməsi üçün vasitələr yaradacaqdır. Bu artıq istehsal gələcək tərəqqi üçün şərt və stimul, həmin tərəqqini həyata keçirəcək, ancaq bütün ictimai qaydanın, əvvəllər olduğu kimi, vaxtaşırı pozulmasına səbəb olmayacaqdır. Xüsusi mülkiyyət buxovlarından azad olmuş iri sənaye elə bir ölçüdə inkişaf edəcəkdir ki, dövrümüzün iri sənayesi ilə müqayisədə manufaktura bizə necə çox cüz`i görünürsə, o zamankı iri sənaye ilə müqayisədə indiki iri sənaye də eyni ilə o cür çox cüz`i görünəcəkdir. Sənayenin bu inkişafı cəmiyyətə bütün öz üzvlərinin tələbatını ödəmək üçün kifayət qədər məhsul verəcəkdir. Eyni ilə əkinçilik də xüsusi mülkiyyətin təzyiqi və torpaq sahələrinin xırdalanmış olması üzündən mövcud yenilikləri və elmin nailiyyətlərini çətinliklə tətbiq etdiyi halda, sənaye kimi tamamilə yeni tərəqqi dövrünə qədəm qoyacaq və cəmiyyətin sərəncamına kifayət qədər məhsul verəcəkdir. Beləliklə, cəmiyyət bütün öz üzvlərinin tələbatını ödəməyi nəzərdə tutan bir bölgü təşkil etmək üçün kifayət qədər məhsul

istehsal edəcəkdir. Bununla da cəmiyyətin bir-birinə düşmən olan müxtəlif siniflərə bölünməsi lüzumsuz olacaqdır. Bu bölünmə nəinki lüzumsuz, hətta yeni ictimai quruluşla bir araya sığa bilməyəcəkdir. Siniflərin mövcud olması əmək bölgüsündən irəli gəlmişdir, indiki şəkildə əmək bölgüsü isə tamamilə yox olub gedəcəkdir, çünki sənaye və kənd təsərrüfatı istehsalını yüksəldib göstərilən səviyyəyə qaldırmaq üçün təkcə mexaniki və kimyəvi yardımçı vasitələr kifayət deyildir. Bu vasitələri hərəkətə gətirən adamların qabiliyyətini də müvafiq surətdə inkişaf etdirmək lazımdır. Keçən əsrdə kəndlilər və manufaktura fəhlələri iri sənayeyə cəlb ediləndən sonra özlərinin bütün həyat tərzini dəyişdirdikləri və özləri də dönüb tamamilə başqa bir adam olduqları kimi, istehsalın birlikdə bütün cəmiyyətin qüvvəsi ilə idarə edilməsi və buradan irəli gələn yeni inkişafı da tamamilə yeni adamlara möhtac və onları yaradacaqdır. İndiki kimi adamlar istehsalı ictimai qaydada idarə edə bilməzlər, çünki indiki adamların hər biri istehsalın müəyyən bir sahəsinə tabedir, buna bağlıdır, bunun tərəfindən istismar olunur, öz qabiliyyətinin bütün başqa cəhətləri hesabına ancaq bir cəhətini inkişaf etdirir və bütün istehsalın ancaq bir sahəsini və ya hər hansı bir sahəsinin ancaq bir hissəsini bilir. Elə indiki sənaye bu cür adamlardan getdikcə daha az istifadə edə bilir. Bütün cəmiyyətin birlikdə və planauyğun idarə etdiyi sənaye isə, hərtərəfli inkişaf etmiş qabiliyyətə malik adamlar, bütün istehsal sisteminə bələd olan qabil adamlar olmasını xüsusilə çox tələb edir. Deməli, maşının artıq indi sarsıtmış olduğu əmək bölgüsü, birisini döndərib kəndli, başqasını çəkməçi, üçüncüsünü fabrik fəhləsi, dördüncüsünü birja möhtəkiri edən bu əmək bölgüsü tamamilə yox olub gedəcəkdir. Tərbiyə gənclərə imkan verəcəkdir ki, onlar bütün istehsal sistemini əməli surətdə tez öyrəisinlər, cəmiyyətin tələbatından və ya öz həvəslərindən asılı olaraq növbə ilə bir istehsal sahəsindən digərinə keçsinlər. Deməli, tərbiyə onları müasir əmək bölgüsünün ayrılıqda hər bir adamı düçar etdiyi birtərəfli olmaqdan azad edəcəkdir. Beləliklə, kommunizm əsasları üzərində təşkil olunan cəmiyyət öz üzvlərinə imkan verəcəkdir ki, onlar hərtərəfli inkişaf etmiş qabiliyyətlərini hərtərəfli tətbiq etsinlər. Lakin bununla birlikdə müxtəlif siniflər də hökmən yox olub gedəcəkdir. Deməli, bir tərəfdən, kommunizm əsasları üzərində təşkil edilən cəmiyyət siniflərin mövcud olub qalması ilə bir araya sığmır, digər tərəfdən isə belə bir cəmiyyət qurulmasının özü sinfi fərqləri məhv etmək üçün vasitələr verir. Buradan o nəticə çıxır ki, şəhərlə kənd arasında əkslik

də yox olub gedəcəkdir. Əkinçiliklə və sənaye əməyi ilə `o heç də iki müxtəlif sinif deyil, eyni adamlar məşğul olacaqlar. Kommunizm birliyi üçün bunun zəruri şərt olmasının tamamilə maddi səbəbləri də vardır. Sənaye əhalisi böyük şəhərlərə yığışdığı halda əkinçiliklə məşğul olan əhalinin kəndlərə səpələnməsi yalnız əkinçilik və sənayenin hələ kifayət qədər yüksək səviyyədə inkişaf etmiş olmadığına uyğundur, hər cür gələcək inkişafa maneədir ki, bu da indi özünü çox güclü hiss etdirir. Məhsuldar qüvvələrdən birlikdə və planauyğun şəkildə istifadə etmək məqsədi ilə cəmiyyətin bütün üzvlərinin ümumi birliyinin yaranması; istehsalın inkişaf edib hamının tələbatını ödəyəcək səviyyəyə çatması; adamların bir qismi hesabına digər qisminin tələbatını ödəmək kimi bir vəziyyətə son qoyulması; siniflərin və siniflər arasındakı əksliklərin tamamilə məhv edilməsi; əvvəlki əmək bölgüsünü aradan qaldırmaq yolu ilə, istehsal tərbiyəsi, fəaliyyət növlərini dəyişdirmək, hamılıqla istehsal olunan ne`mətlərdən hamılıqla istifadə etmək yolu ilə, nəhayət, şəhəri kəndlə birləşdirmək yolu ilə bütün cəmiyyət üzvlərinin qabiliyyətinin hərtərəfli inkişaf etdirilməsi–xüsusi mülkiyyəti ləğv etməyin ən əsas nəticələri bunlardır.

21-ci sual: Kommunizm ictimai quruluşu ailəyə necə tə`sir edəcəkdir?

Cavab: Cinslərin münasibətləri ancaq şəxsi iş olacaq; bu işin yalnız aid olduğu şəxslərə dəxli olacağına görə cəmiyyətin ona qarışması lazım gəlməyəcəkdir. Bu isə xüsusi mülkiyyətin aradan qaldırılması və uşaqların ictimai tərbiyəsi sayəsində mümkündür, çünki bunun nəticəsində müasir nigahın xüsusi mülkiyyətlə əlaqədar olan hər iki əsası, yə`ni arvadın ərdən və uşaqların ataanadan asılı olmaları aradan qalxır. Kommunizmdə arvadların şərikli olacağı barəsində yüksək əxlaqlı meşşanların fəryadlarına cavab da məhz bundan ibarətdir. Arvadların şərikli olması bütünlüklə burjua cəmiyyətinə aid bir haldır və indi bu hal fahişəlik şəklində tam mövcuddur. Lakin fahişəlik xüsusi mülkiyyətə əsaslanır və onunla birlikdə yox olub gedəcəkdir. Deməli, kommunizm təşkilatı arvadları şərikli etmək deyil, onların şərikli olmasını aradan qaldıracaqdır.

22-ci sual: Kommunizm təşkilatının mövcud millətlərə münasibəti necə olacaqdır?

Qalır36

23-cü sual: Onun mövcud dinlərə münasibəti necə olacaqdır?

Qalır.

24-cü sual: Kommunistlərin sosialistlərdən fərqi nədir?
Cavab: Sosialist adlananlar üç kateqoriyaya bölünürlər.
Blrinci kateqoriya feodal və patriarxal cəmiyyətin tərəfdarlarından ibarətdir, yə`ni o cəmiyyətin ki, iri sənaye, dünya ticarəti və bunların yaratdığı burjua cəmiyyəti həmin cəmiyyəti gündən-günə məhv edirdi və edir. Bu kateqoriya müasir cəmiyyətin fəlakətlərindən belə bir nəticə çıxarır ki, feodal və patriarxal cəmiyyəti bərpa etmək lazımdır, çünki feodal və patriarxal cəmiyyətdə bu fəlakətlər yox idi. Həmin kateqoriyanın bütün təklifləri bilavasitə və ya dolayı yolla bu məqsədə doğru yönəldilmişdir. Bu mürtəce sosialistlər kateqoriyası proletariatın yoxsulluğuna zahirən canıyananlıq göstərsə də və bu münasibətlə acı göz yaşları axıtsa da, kommunistlər onunla həmişə qəti mübarizə edəcəklər. Zira bu sosialistlər:
1) əsla mümkün olmayan bir şeyə can atırlar;
2) aristokratiyanın, sex ustalarının, manufaktura sahiblərinin və onlarla birlikdə mütləq monarxların və ya feodal monarxların, mə`murların, əsgərlərin və keşişlərin hökmranlığını bərpa etməyə çalışırlar; onların bərpa etmək istədiyi cəmiyyət, doğrudur, müasir cəmiyyətin qüsurlarından azad olardı, amma bunun əvəzində özü ilə ən azı eyni miqdarda başqa fəlakətlər gətirərdi, həm də kommunist təşkilatının vasitəsi ilə məzlum fəhlələri azadlığa çıxarmaq üçün heç bir perspektiv açmazdı;
3) onlar həmişə əsil niyyətlərini proletariat dönüb inqilabçı və kommunist proletariat olduğu zaman büruzə verirlər. Bu hallarda onlar dərhal burjuaziya ilə birləşib proletarların əleyhinə çıxırlar.
İkinci kateqoriya indiki cəmiyyətin tərəfdarlarından ibarətdir və bu cəmiyyətin labüd surətdə törətdiyi fəlakətlər onları həmin cəmiyyətin varlığı üçün təşvişə düşməyə vadar edir. Deməli, onlar indiki cəmiyyəti hifz edib saxlamağa, lakin onunla əlaqədar olan fəlakətləri aradan qaldırmağa çalışırlar. Bundan ötrü bə`ziləri adi xeyriyyəçilik tədbirləri, başqadarı isə çox böyük islahat planları təklif edirlər; bu islahatlardan məqsəd cəmiyyəti yeni şəkildə qurmaq bəhanəsi ilə indiki cəmiyyətin dayaqlarını, beləliklə də bu cəmiyyətin özünü hifz edib saxlamaqdır. Kommunistlər həmin burjua sosialistləri ilə də yorulmadan mübarizə etməli olacaqlar, çünki onların fəaliyyəti kommunistlərin düşmənləri üçün xeyirlidir və onlar kommunistlərin dağıtmaq istədiyi ictimai quruluşu müdafiə edirlər.

Nəhayət, üçüncü kateqoriya demokratik sosialistlərdən ibarətdir. Onlar kommunistlərin getdiyi yol ilə gedərək,. sualda (Əlyazmasında boş yer qoyulmuşdur 18-ci sual: nəzərdə tutulur. Red.) göstərilən tədbirlərin bir hissəsinin həyata keçirilməsini istəyirlər, lakin bunların kommunizmə keçid tədbirləri kimi deyil, yoxsulluğu və indiki cəmiyyətin fəlakətlərini aradan qaldırmaq üçün kifayət edən tədbirlər kimi həyata keçirilməsini istəyirlər. Bu demokratik sosialistlər ya öz sinfinin azadlığa çıxması şərtlərini hələ lazımınca başa düşməmiş proletarlardır, ya da xırda burjuaziyanın, yə`ni ta demokratiya əldə edilib ondan irəli gələn sosialist tədbirləri həyata keçirilənədək proletarlarla bir çox cəhətdən həmmənafe olan bir sinfin nümayəndələridir. Buna görə də əgər bu sosialistlər hökmran burjuaziyaya qulluq göstərməsələr və kommunistlər üzərinə hücum etməyə başlamasalar, kommunistlər hərəkətə keçmək məqamlarında həmin sosialistlərlə saziş bağlayacaqlar və ümumiyyətlə bu müddət üçün mümkün qədər onlarla ümumi siyasət yeritməlidirlər. Əlbəttə, birlikdə hərəkət etmək demokratik sosialistlərlə kommunistlər arasındakı fikir ayrılıqlarının müzakirə olunmasını rədd etmir.

25-ci sual: Zəmanəmizin digər siyasi partiyalarına kommunistlərin münasibəti necədir?

Cavab: Bu münasibət müxtəlif ölkələrdə müxtəlif şəkildədir.– Burjuaziyanın hökmran olduğu İngiltərə, Fransa və Belçikada müxtəlif demokratik partiyalarla kommunistlərin hələlik ümumi mənafeyi vardır, həm də demokratlar indi hər yerdə müdafiə etdikləri sosialist tədbirlərində kommunistlərin məqsədlərinə nə qədər çox yaxınlaşırlarsa, yə`ni proletariatın mənafeyini nə qədər aydın və qəti müdafiə edirlərsə, proletariata nə qədər çox arxalanırlarsa, bu mənafe ümumiliyi bir o qədər çox olur. Məsələn, İngiltərədə fəhlələrdən ibarət olan çartistlər kommunistlərə demokratik xırda burjualardan və ya radikal adlananlardan qat-qat yaxındırlar.

Demokratik konstitusiya tətbiq edilən Amerikada kommunistlər bu konstitusiyanı burjuaziyanın əleyhinə çevirmək və ondan proletariatın xeyri üçün istifadə etmək istəyən partiyanı, yə`ni milli aqrar islahatı tərəfdarları partiyasını müdafiə etməli olacaqlar.

İsveçrədə radikallar hələ tərkibcə çox qarışıq bir partiya olsalar da, kommunistlər yalnız onlarla sazişə girə bilirlər, bu radikallar arasında isə ən mütərəqqi olanları hər halda Vaadt və Cenevrə radikallarıdır.

Nəhayət, Almaniyada burjuaziya ilə mütləq monarxiya arasında qəti mübarizə hələ irəlidədir. Lakin kommunistlər ümid edə bilməzlər ki, burjuaziya hökmranlıq əldə etməmiş onunla qəti döyüşə girməli olacaqlar; buna görə də burjuaziyanın mümkün qədər tez hökmranlığa çatmasına kömək etmək kommunistlərin xeyrinədir, çünki onda burjuaziyanı da öz növbəsində mümkün qədər tez devirmək olar. Beləliklə, liberal burjuaziyanın hökumətlərə qarşı mübarizəsində kommunistlər həmişə liberal burjuaziyanın tərəfində olmalı, lakin ehtiyatlı hərəkət edib burjuaziya kimi öz-özlərini aldatmamalı və burjuaziyanın qələbəsinin proletariat üçün guya xeyirli nəticələr verəcəyi haqqında onun şirin və`dlərinə inanmamalıdırlar. Burjuaziyanın qələbə çalmasının kommunistlərə verəcəyi üstünlüklər ancaq bundan ibarət ola bilər: 1) müxtəlif güzəştlər ki, bunlar da kommunistlər üçün öz prinsiplərini müdafiə və müzakirə etməyi, yaymağı asanlaşdıracaq və beləliklə proletariatın sıx birləşmiş, mübarizəyə hazır və mütəşəkkil bir sinfə çevrilməsini asanlaşdıracaqdır 2) möhkəm inam ki, mütləqiyyətçi hökumətlər süqut edəcəyi gündən e`tibarən burjualarla proletarlar arasında mübarizə növbəsi çatacaqdır. Bu gündən e`tibarən kommunistlərin partiya siyasəti, burjuaziyanın hökmran olduğu ölkələrdə necədirsə, burada da o cür olacaqdır.

F.Engels 1847-ci il oktyabrın axırında–noyabrda yazmışdır. İlk döfə 1914-cü ildə ayrıca kitabça şəklində nəşr edilmişdir.

K.MARKS və F.ENGELS

KOMMUNİST PARTİYASININ MANİFESTİ37

1872-ci il ALMANCA NƏŞRİNƏ MÜQƏDDİMƏ

Kommunistlər ittifaqı38, o zamankı şəraitdə, əlbəttə, ancaq gizli bir təşkilat ola bilən bu beynəlxalq fəhlə təşkilatı 1847-ci ilin noyabrında Londonda keçirilən konqresdə aşağıda imza edənlərə partiyanın müfəssəl nəzəri və əməli proqramını e`lan olunmaq üçün hazırlamağı tapşırmışdı. Aşağıdakı «Manifest» belə meydana gəlmiş və onun əlyazması çap olunmaq üçün fevral inqilabından39 bir neçə həftə əvvəl Londona göndərilmişdi. İlk dəfə almanca nəşr edilən «Manifest»in bu dildə Almaniya, İngiltərə və Amerikada azı on iki müxtəlif nəşri çıxmışdır. İngilis dilində ilk dəfə 1850-ci ildə Londonda miss Elen Makfarlin tərəfindən tərcümə edilib «Red Republkan»da40 dərc edilmiş, sonra, 1871-ci ildə Amerikada azı üç müxtəlif tərcüməsi çıxmışdır. Fransız dilində «Manifest» ilk dəfə 1848-ci il

iyun üsyanından41 bir qədər əvvəl Parisdə və bu yaxınlarda Nyu-Yorkda «Socialiste»də42 çıxmışdır. İndi onun yeni tərcüməsi hazırlanmaqdadır. «Manifest» almanca birinci nəşrindən az sonra Londonda polyak dilində çıxmışdır. Rus dilində altmışıncı illərdə Cenevrədə çıxmışdır43. Nəşr ediləndən az sonra Danimarka dilinə də tərcümə edilmişdir.

Son iyirmi beş il ərzində şərait nə qədər çox dəyişilmiş olsa da, bu «Manifest»də inkişaf etdirilən ümumi əsas müddəalar bütövlükdə indi də tamamilə düzgün olaraq qalmaqdadır. Onun ayrı-ayrı yerlərində bə`zi düzəlişlər etmək lazım gələrdi. «Manifest»in özündə deyildiyi kimi, bu əsas müddəaların əməli tətbiqi hər yerdə və həmişə mövcud tarixi şəraitdən asılı olacaqdır, buna görə də II bölmənin axırında təklif edilən inqilabi tədbirlərin heç də müstəqil əhəmiyyəti olması iddia edilmir. Bu yer indi yazılsaydı, bir çox cəhətdən başqa şəkildə olardı. Son iyirmi beş il ərzində iri sənayenin olduqca inkişaf etdiyi və bununla yanaşı olaraq, fəhlə sinfinin partiya təşkilatının inkişaf etdiyi; əvvəlcə fevral inqilabının əməli təcrübəsi, sonra da siyasi hakimiyyətin ilk dəfə iki ay ərzində proletariatın əlində olduğu Paris Kommunasının verdiyi daha böyük əməli təcrübə nəzərə alınarsa, indi bu proqramın bə`zi yerləri köhnəlmişdir. Xüsusən Kommuna sübut etdi ki, «fəhlə sinfi hazır dövlət maşınına sadəcə yiyələnib, onu öz məqsədləri üçün işə sala bilməz» (bax: «Fransada vətəndaş müharibəsi. Beynəlxalq Fəhlə Birliyv Baş Şurasının müraciəti», almanca nəşri, səh.19, orada bu fikir daha dolğun şərh edilmişdir. Sonra özlüyündə aydındır ki, sosialist ədəbiyyatının tənqidi hazırkı zaman üçün natamamdır, çünki o yalnız 1847-ci ilə qədər olan dövrü əhatə edir; habelə aydındır ki, müxtəlif müxalifətçi partiyalara kommunistlərin münasibəti haqqındakı qeydlər (IV bölmə), hərçənd bu gün üçün də əsasən düzgündür, hər halda əməli surətdə tətbiq edilmək cəhətdən köhnəlmişdir, çünki siyasi vəziyyət tamamilə dəyişilmiş və orada göstərilən partiyaların çoxunu tarixi inkişaf yer üzündən silib» atmışdır.

Lakin «Manifest» tarixi sənəddir və biz onu dəyişdirməyə daha özümüzü haqlı bilmirik. Bəlkə də gələcək nəşrinə 1847-ci ildən bu günlərə qədərki dövrü əhatə edən bir giriş vermək mümkün oldu; bu nəşr əsla gözləmədiyimiz halda buraxıldığına görə, belə bir iş üçün macalımız olmadı.

Karl Marks, Fridrix Engels

London, 24 iyun 1872-ci il

Bu kitabçada çap edilmişdir: «Das Kommunistische Manifest. Neue Ausgabe mit einet Vorwort der Verfasser».
Leipziq, 1872.

1882-ci il RUSCA İKİNCİ NƏŞRİNƏ MÜQƏDDİMƏ

«Kommunist Partiyasının manifesti»nin Bakunin tərəfindən tərcümə edilmiş rusca birinci nəşri 60-cı illərin əvvəllərində çıxmışdır43; bu nəşr «Kolokol»44 mətbəəsində çap edilmişdi. O zaman «Manifest»in rusca nəşr edilməsi Qərbdə ən çoxu qəribə bir ədəbi hadisə kimi görünə bilərdi. İndi belə bir baxış artıq mümkün olmazdı.

Proletariat hərəkatının o zaman (1847-ci ilin dekabrı) nə qədər məhdud bir sahəyə yayılmış olduğunu «Manifest»in son fəsli: müxtəlif ölkələrdəki «Müxtəlif müxalifətçi partiyalara kommunistlərin münasibəti» fəsli ən yaxşı göstərir. Həmin fəsildə məhz Rusiya və Birləşmiş Ştatlar yoxdur. O zaman Rusiya bütün Avropa irticasının son böyük ehtiyat qüvvəsi idi və Birləşmiş Ştatlara mühacirət Avropa proletariatının artıq qalan qüvvələrini çəkib aparırdı. Bu ölkələrin ikisi də o zaman Avropanı xammalla təchiz edirdi və habelə onun sənaye mə`mulatı üçün satış bazarı idi. Deməli, o zaman bu ölkələrin ikisi də Avropada mövcud olan qaydalar üçün hər halda dayaq idi.

İndi bu vəziyyət nə qədər də dəyişilmişdir! Məhz Avropadan mühacirət sayəsində Şimali Amerikada əkinçilik istehsalının çox böyük dərəcədə inkişafı mümkün olmuşdur və bu da öz rəqabəti ilə Avropanın torpaq mülkiyyətini–həm iri, həm də xırda torpaq mülkiyyətini–lap təməlindən sarsıdır. Bundan əlavə, həmin mühacirət Birləşmiş Ştatlara sənayenin inkişafı üçün öz zəngin mənbələrini elə bir ölçüdə və elə bir sə`ylə istismar etməyə girişmək imkanı verdi ki, bu, qısa müddətdə Qərbi Avropanın və xüsusilə İngiltərənin sənaye inhisarına son qoymalıdır. Bu amillərin hər ikisi öz növbəsində Amerikaya da inqilabi tə`sir göstərir. Nəhəng fermaların rəqabəti fermerlərin xırda və orta torpaq mülkiyyətinə, Amerikanın bütün siyasi quruluşunun əsasını təşkil edən bu mülkiyyətə yavaş-yavaş qalib gəlir eyni zamanda sənaye mahallarında ilk dəfə olaraq çoxlu proletariat meydana gəlir və kapitallar ağlagəlməz dərəcədə təmərküzləşir.

Rusiyaya keçək! 1848–1849-cu illər inqilabı zamanı təkcə Avropa monarxları deyil, habelə Avropa burjuaları da rus müdaxiləsini yenicə oyanmağa başlayan proletariata qarşı yeganə nicat yolu hesab edirdilər.

Çarı Avropa irticasının başçısı e`lan etmişdilər. İndi çar inqilabın Qatçinada saxlanan hərbi əsiridir45; Rusiya isə Avropada inqilabi hərəkatın qabaqcıl dəstəsidir.
«Kommunist manifesti»nin vəzifəsi müasir burjua mülkiyyətinin gələcəkdə labüd surətdə məhv olacağını e`lan etmək idi. Lakin biz Rusiyada sür`ətlə inkişaf edən kapitalist coşğunluğu ilə və ancaq indi meydana gələn burjua torpaq mülkiyyəti ilə yanaşı olaraq, torpağın yarıdan çoxunun kəndli icma sahibliyində olduğunu görürük. İndi sual olunur: rus icması (orijinalda rus sözü «obşina» latın hərfləri ilə yazılmışdır, Red.)–ibtidai ümumi torpaq sahibliyinin, doğrudur, indi xeyli pozulmuş olan bu forması–bilavasitə ümumi sahibliyin ən yüksək, kommunist formasına keçə bilərmi? Yoxsa, əksinə, bu icma əvvəlcə Qərbin tarixi inkişafına xas olan eyni dağılma prosesindən keçməlidir?
Hazırda bu suala verilə biləcək yeganə cavab aşağıdakından ibarətdir. Əgər rus inqilabı Qərbdə proletar inqilabı üçün siqnal olarsa və bunların hər ikisi bir-birini tamamlayarsa, onda müasir rus icma torpaq mülkiyyəti kommunizmə doğru inkişafın başlanğıc nöqtəsi ola bilər.
Karl Marks və Fridrix Engels
London, 21 yanvar 1882-ci il
Bu kitabda çap edilmişdir: K.Marks və F.Engels. «Kommunist Partiyasının Manifesti».Cenevrə, 1882.
1883-cü il ALMANCA NƏŞRİNƏ F.ENGELSİN MÜQƏDDİMƏSİ
Təəssüf olsun ki, bu nəşrin müqəddiməsini mən tək imzalamalı oluram. Bütün Avropa və Amerika fəhlə sinfinin hamıdan çox borclu olduğu Marks Hayget qəbiristanında dəfn edilmiş və indi onun qəbri üstündə ilk otlar bitmişdir. Onun vəfatından sonra «Manifesti» dəyişdirmək və ya tamamlamaq haqqında heç bir söz ola bilməz. Xüsusilə buna görə mən burada aşağıdakı sözləri bir daha tamamilə aydın söyləməyi lazım bilirəm.
Bütün «Manifest»in ana xətti belə bir əsas fikirdən ibarətdir ki, hər bir tarixi dövrün iqtisadi istehsalı və bunun labüd nəticəsi olan cəmiyyət quruluşu həmin dövrün siyasi və əqli tarixinin əsasını təşkil edir; buna uyğun olaraq (ibtidai icma torpaq sahibliyi dağıldığı zamandan e`tibarən) bütün tarix sinfi mübarizə tarixi olmuşdur, ictimai inkişafın müxtəlif pillələrində istismar olunan siniflərlə istismarçı siniflər arasında, tabe siniflərlə hakim siniflər arasında mübarizə tarixi olmuşdur və indi bu mübarizə elə bir pilləyə gəlib çatmışdır ki, istismar edilən və məzlum sinif

(proletariat) eyni zamanda bütün cəmiyyəti istismardan, zülm və sinfi mübarizədən həmişəlik azad etmədən, onu istismar edən və ona zülm edən sinifdən (burjuaziyadan) azad ola bilməz,–bu əsas fikir bütünlüklə və yalnız Marksa məxsusdur (Mən əsərin ingiliscə tərcüməsinin müqəddiməsində yazmışdım [bax K.Marks və F.Engels. Əsərləri, 2-ci nəşri, 21-ci cild, səh. 367–368. Red.]: «Biologiya üçün Darvin nəzəriyyəsinin nə kimi əhəmiyyəti olmuşsa, tarix üçün də, zənnimcə, eyni əhəmiyyəti bu fikrə biz hər ikimiz hələ 1845-ci ildən bir neçə il əvvəl tədricən yaxınlaşırdıq. Bu istiqamətdə mənim müstəqil surətdə nə qədər irəliləyə bildiyimi «İngiltərədə fəhlə sinfinin vəziyyəti» adlı əsərim göstərir. |K.Marks və F.Engels. Əsərləri, 2-ci nəşri, 2-ci cild, səh. 231–517]. 1845-ci ilin yazında mən Brüsseldə Marksla yenidən görüşdükdə isə, o, artıq həmin fikri hazırlamışdı və, demək olar, tamamilə burada təkrar vtdiyim kimi, aydın ifadələrlə mənə şərh etdi». (1890-cı il almanca nəşrinə Engelsin qeydi.)).

Mən bunu artıq dəfələrlə söyləmişəm, lakin məhz indi bu sözləri «Manifest»in öz müqəddiməsində də vermək lazımdır.

F.Engels

London, 28 iyun 1883-cü il.

Bu kitabda çap edilmişdir: «Das Kommunistische Manifest», Hottingen–Zürich, 1883.

1890-cı il ALMANCA NƏŞRİNƏ F.ENGELSİN MÜQƏDDİMƏSİNDƏN

«Manifest»in öz taleyi olmuşdur. O, meydana çıxarkən elmi sosializmin o zaman hələ sayca az olan avanqardı tərəfindən ruh yüksəkliyi ilə qarşılanmışdı (bunu birinci müqəddimədə göstərilən tərcümələr sübut edir, lakin 1848-ci ilin iyununda Paris fəhlələrinin məğlubiyyətindən41 sonra başlanan irtica onu arxa sıraya sıxışdırmışdı və, nəhayət, 1852-ci ilin noyabrında Köln kommunistləri məhkum edildikdə46 «qanuni əsasla» qanundan kənar e`lan edilmişdi. Fevral inqilabı ilə əlaqədar olan fəhlə hərəkatı ictimai səhnədən çıxmış, onunla bərabər «Manifest» də arxa sıraya keçmişdi.

Avropa fəhlə sinfi ağalıq edən siniflərin hakimiyyəti üzərinə yenidən hücuma keçmək üçün yenə də lazımınca möhkəmləndikdə Beynəlxalq Fəhlə Birliyi meydana gəldi. Onun məqsədi Avropa və Amerikanın mübarizə edən bütün fəhlə sinfini bir böyük ordu halında birləşdirmək idi. Buna görə də həmin Birlik bilavasitə «Manifest»də şərh edilən

prinsiplərdən başlaya bilməzdi. Onun elə bir proqramı olmalı idi ki, ingilis tred-yunionlarının, Fransa, Belçika, İtaliya və İspaniya prudonçularının və alman lassalçılarının (Lassal özü həmişə bizi inandırırdı ki, o, Marksın «şagirdidir» və buna görə də, aydındır ki, «Manifest» zəminində durur. Lassalın ardıcılları sırasında onun dövlət krediti buraxılan istehsal şirkətləri haqqındakı tələbindən irəli getməyən və bütün fəhlə sinfini dövlət yardımı tərəfdarları ilə özünəyardım tərəfdarlarına bölənlərin məsələsi isə başqa idi. (Engelsin qeydi.)) üzünə qapıları bağlamasın. İnternasionalın Nizamnaməsinə giriş hissəsi olan bu proqramı Marks elə bir məharətlə yazmışdı ki, bunu hətta Bakunin və anarxistlər də qəbul etməli olmuşdular. «Manifest»də irəli sürülən prinsiplərin qəti qələbəsinə gəldikdə, burada Marks tamamilə fəhlə sinfinin zehni inkişafına ümid bağlayırdı, bu inkişaf isə birgə fəaliyyətin və fikir mübadiləsinin labüd məhsulu olmalı idi. Kapitala qarşı mübarizədəki hadisələr və keşməkeşlər–həm də qələbələrdən daha çox məğlubiyyətlər–hər şeyə əlac sayılıb, mübarizə edənlərin o vaxta qədər ümid bəslədikləri vasitələrin tam yararsızlığını onlara göstərməyə bilməzdi və onların beynini fəhlələrin azadlığa çıxması üçün lazım olan gerçək şəraiti əsaslı surətdə başa düşməyə daha çox qabil etməyə bilməzdi. Doğrudan da Marks haqlı idi. 1874-cü ildə İnternasional öz fəaliyyətini dayandırdığı zaman fəhlə sinfi İnternasionalın tə`sis edildiyi 1864-cü ildəkinə nisbətən artıq tamamilə dəyişilmişdi. Roman ölkələrində prudonizm və Almaniyada spesifik lassalçılıq can çəkişirdi və hətta o zamankı ifrat mühafizəkar ingilis tred-yunionları da tədricən gəlib elə bir həddə çatmışdılar ki, 1887-ci ildə onların Suonsidəki konqresinin sədri (U.Biven. Red.) bu zaman onların adından belə deyə bilmişdi: «Kontinent sosializmi daha bizim üçün təhlükəli deyildir». Lakin 1887-ci ildə kontinent sosializmi, demək olar, ancaq «Manifest»də şərh edilən nəzəriyyə idi. Beləliklə, «Manifest»in tarixi müəyyən dərəcədə müasir fəhlə hərəkatının 1848-ci ildən bəri davam edən tarixini əks etdirir. Hazırda «Manifest» şübhəsiz, bütün sosialist ədəbiyyatının ən çox yayılmış, ən çox beynəlxalq əhəmiyyət almış bir əsəridir, Sibirdən Kaliforniyaya qədər bütün ölkələrin milyonlarla fəhlələrinin ümumi proqramıdır.

Bununla belə «Manifest» meydana çıxdığı zaman biz onu sosialist manifesti adlandıra bilməzdik. 1847-ci ildə sosialist deyərkən iki qisim adamları nəzərdə tuturdular. Bir tərəfdən, müxtəlif utopik sistemlərin tərəfdarlarını, xüsusilə İngiltərədə ouençiləri və Fransada furyeçiləri

nəzərdə tuturdular, həm də bunların hər ikisi o zaman artıq pozulmuş və tədricən ölüb gedən xalis təriqət halı almışdı. Digər tərəfdən, müxtəlif ictimai türkəçarəçiləri nəzərdə tuturdular ki, bunlar da kapitala və mənfəətə azacıq da zərər vurmadan, hər şeyə əlac sayılan müxtəlif vasitələrin və hər cür yamaqların köməyi ilə ictimai bəlaları aradan qaldırmaq niyyətində idilər. Hər iki halda bunlar fəhlə hərəkatından kənarda duran və daha çox «elmli» siniflərdən kömək gözləyən adamlar idi. Fəhlələrin xalis siyasi çevrilişlərin kifayət olmadığını yəqin edən və cəmiyyəti əsaslı surətdə yenidən qurmağı tələb edən hissəsi isə, əksinə, o zaman özünü kommunist adlandırırdı. Bu, hələ pis cilalanmış, bir çox cəhətdən kobud olan yalnız instinktiv bir kommunizm idi; lakin bu kommunizm o qədər güclü oldu ki, iki utopik kommunizm sistemi Fransada Kabenin «İkariya» kommunizmini, Almaniyada Veytlinq kommunizmini yaratdı. 1847-ci ildə sosializm burjua hərəkatı, kommunizm isə fəhlə hərəkatı demək idi. Sosializm, hər halda kontinentdə, tamamilə məqbul sayılırdı, kommunizm isə məhz əksinə. Biz artıq o zaman tam qətiyyətlə bu fikirdə idik ki, «fəhlə sinfini yalnız fəhlə sinfi özü azad edə bilər»47, buna görə də bizim bu iki addan hansını seçməli olduğumuz barəsində bircə dəqiqə də şübhəmiz ola bilməzdi. Bu addan əl çəkmək sonralar da heç zaman fikrimizə gəlməmişdir.

«Bütün ölkələrin proletarları, birləşin!»–Qırx iki il bundan qabaq, proletariatın öz tələbləri ilə çıxış etdiyi birinci inqilab olan Paris inqilabı ərəfəsində biz bu şüarla dünyaya müraciət etdiyimiz zaman buna çox az adam səs verdi. Lakin 1864-cü il sentyabrın 28-də Qərbi Avropa ölkələrinin çoxunun proletarları hörmətlə yad edilən beynəlxalq Fəhlə Birliyində birləşdilər. Doğrudur, İnternasional özü cəmi doqquz il yaşadı. Lakin bütün ölkələrin proletarları arasında onun yaratdığı əbədi ittifaqın hələdə yaşadığını və hətta həmişəkindən daha güclü olduğunu bugünkü gün ən gözəl sübut edir. Zira bu gün48, mən bu sətirləri yazarkən, Avropa və Amerika proletariatı öz mübariz qüvvələrinə baxış keçirir, bu qüvvələr ilk dəfə olaraq bir ordu halında, bir bayraq altında, ən yaxın bir məqsəd uğrunda səfərbərliyə alınmışdır ki, bu məqsəd də hələ 1866-cı ildə İnternasionalın Cenevrə konqresi tərəfindən və ikinci dəfə–1889-cu ildə Paris fəhlə konqresi tərəfindən e`lan edilən səkkiz saatlıq normal iş gününün qanunvericilik yolu ilə həyata keçirilməsinə nail olmaqdan ibarətdir. Bugünkü günün mənzərəsi bütün ölkələrin kapitalistlərinə və

torpaq sahiblərinə göstərir ki, indi bütün ölkələrin proletarları doğrudan da birləşmişlər.
Kaş indi Marks sağ olub mənimlə yan-yana bunu öz gözləri ilə görəydi.
F. Engels
London, 1 may 1890-cı il.
Bu kitabda çap edilmişdir: «Das Kommunistische Manifest», London, 1890.
1892-ci il POLYAKCA NƏŞRİNƏ F.ENGELSİN MÜQƏDDİMƏSİ
«Kommunist manifesti»ni polyak dilində yenidən nəşr etmək zərurətinin meydana gəlməsi tam bir sıra nəticələr çıxarmağa imkan verir.
Hər şeydən əvvəl diqqətəlayiqdir ki, son zamanlar «Manifest» Avropa kontinentində iri sənayenin inkişafının bir növ göstəricisi olmuşdur. Bu və ya digər ölkədə iri sənaye inkişaf etdikcə, həmin ölkənin fəhlələri içərisində fəhlə sinfinin varlı siniflərə qarşı öz mövqeyini aydınlaşdırmaq sə`yi güclənir, fəhlələr arasında sosialist hərəkatı genişlənir və «Manisrest»ə olan tələb artır. Beləliklə, bu və ya digər ölkənin dilində «Manifest»in neçə nüsxə yayılmasına əsasən hər bir ölkədə nəinki fəhlə hərəkatının vəziyyətini, habelə iri sənayenin inkişaf dərəcəsini də kifayət qədər dürüst müəyyən etmək olar.
Buna görə də «Manifest»in polyak dilində yeni nəşri Polşada sənayenin xeyli tərəqqi etdiyini göstərir. «Manifest»in son nəşrinin çıxdığı vaxtdan bəri keçən on il ər zində belə bir tərəqqinin həqiqətən baş verdiyinə isə heç bir şübhə ola bilməz. Polşa çarlığı, konqresli Polşa49 Rusiya imperiyasının iri sənaye rayonu olmuşdur. Rusiya sənayesi müxtəlif yerlərə səpələnmiş olduğu halda–bir hissəsi Fin körfəzi yaxınlığında, bir hissəsi mərkəzdə (Moskva və Vladimir), bir hissəsi də Qara dəniz və Azov dənizi sahillərində yerləşdiyi, qalanı da daha başqa yerlərə səpələndiyi halda–Polşa sənayesi nisbətən kiçik bir sahədə toplanmışdır və belə bir təmərküzləşmənin həm üstünlüklərini, həm də əlverişli olmayan cəhətlərini hiss edir. Rəqabət edən rus fabrikçiləri polyakları ruslaşdırmağı qızğın arzu etdiklərinə baxmayaraq, Polşaya qarşı himayə gömrüyü qoyulmasını tələb edərkən bu üstünlükləri e`tiraf etmiş oldular. Həm Polşa fabrikçiləri, həm də Rusiya hökuməti üçün əlverişli olmayan cəhətlər isə Polşa fəhlələri arasında sosializm ideyalarının sür`ətlə yayılmasında və «Manifest»ə olan tələbin artmasında özünü göstərir.

Lakin rus sənayesini ötüb keçmiş olan Polşa sənayesinin bu sür`ətli inkişafı öz növbəsində polyak xalqının tükənməz həyat qüvvəsinə yeni bir sübut və onun gələcəkdə milli dirçəlişi üçün yeni bir tə`minatdır. Yenidən müstəqil və güclü Polşa yaranması isə təkcə polyaklara deyil, habelə bizim hamımıza aid olan bir məsələdir. Avropa millətlərinin səmimi beynəlxalq əməkdaşlığı yalnız bu şərtlə mümkündür ki, bu millətlərdən hər biri öz evinin tam sahibi olsun. 1848-ci il inqilabında proletariatın bayrağı altında proletar mübarizləri nəticə e`tibarı ilə ancaq, burjuaziyanın görməli olduğu bir işi gördülər və bu inqilab eyni zamanda öz vəsiləri olan Lui Bonapartın və Bismarkın əli ilə İtaliyaya, Almaniyaya, Macarıstana istiqlaliyyət verdi. 1792-ci ildən e`tibarən inqilab üçün birlikdə bütun bu üç ölkənin gördüyü işdən daha çox iş görmüş olan Polşanı isə 1863-cü ildə onun qüvvələrindən on qat artıq olan rus qüvvələrinin təzyiqi altında inlədiyi zaman köməksiz buraxdılar. Şlyaxta Polşanın istiqlaliyyətini nə müdafiə edə bildi, nə də Polşa üçün yenidən istiqlaliyyət qazana bildi, burjuaziya üçün indi bu istiqlaliyyət azı əhəmiyyətsizdir. Avropa millətlərinin ahəngdar əməkdaşlığı üçün isə bu istiqlaliyyət hər halda zəruridir (Polyak dilində nəşrində bu cümlə verilməmişdir. Red.). Bu istiqlaliyyəti ancaq gənc polyak proletariatı əldə edə bilər, həm də onun əlində həmin istiqlaliyyət tamamilə tə`min edilmiş olar. Zira Polşanın istiğlaliyyəti polyak fəhlələrinin özləri üçün zəruri olduğu kimi, bütün qalan Avropanın fəhlələri üçün də zəruridir.

F.Engels

London, 10 fevral 1892-ci il.

Bu jurnalda çap edilmişdir: «Przedwsit» №35, 27 fevral 1892-ci il, habelə bu kitabda çap edilmişdir: K.Marks və F.Engels. «Manifest Kommunistyczny», Londyn, 1892.

1893-cü il İTALYANCA NƏŞRİNƏ F.ENGELSİN MÜQƏDDİMƏSİ

İtalyan oxucusuna

«Kommunist Partiyasının manifesti»nin çap edilməsi 1848-ci il 18 mart günü ilə, Milan və Berlindəki inqilablarla, demək olar, bir vaxta düşdü; bu inqilablar, biri Avropa kontinentinin mərkəzində, digəri isə Aralıq dənizi ölkələrinin mərkəzində yaşayan iki millətin, o zamana qədər dağınıqlıq və daxili çəkişmələr üzündən zəifləşmiş, olan və bunun nəticəsində yadellilərin hökmranlığı altına düşən iki millətin silahlı üsyanı idi. Əgər İtaliya Avstriya imperatoruna tabe edilmişdisə, Almaniya daha dolayı yolla

olsa da, bütün Rusiya çarının bundan az hiss edilməyən zülmü altında idi. 1848-ci il 18 martın nəticəsi İtaliya və Almaniyanın bu rüsvayçılıqdan azad edilməsi oldu; əgər 1848-ci ildən 1871-ci ilə qədər olan müddətdə bu iki böyük millət bərpa edilmiş və onların istiqlaliyyəti bu və ya başqa şəkildə özlərinə qaytarılmışdısa, K.Marksın dediyi kimi, bu ona görə olmuşdu ki, 1848-ci il inqilabını yatırmış olan adamlar özləri öz iradələrinin ziddinə olaraq bu inqilabın vəsiləri olmuşdular.

Bu inqilabı yaradan hər yerdə fəhlə sinfi idi, məhz fəhlə sinfi barrikadalar qurur və öz canından keçirdi. Lakin təkcə Paris fəhlələri–hökuməti yıxarkən burjua quruluşunu da yıxmaq kimi tamamilə müəyyən niyyət güdürdülər. Bununla belə, onlar fəhlə sinfi ilə burjuaziya arasında olan labüd antaqonizmi başa düşürdülərsə də, nə ölkənin iqtisadi inkişafı, nə də Fransa fəhlə kütləsinin mə`nəvi inkişafı hələ elə bir səviyyəyə çatmamışdı ki, ictimai dəyişiklik mümkün olsun. Buna görə də inqilabın bəhrələri nəticə e`tibarı ilə kapitalistlər sinfinə çatdı. Başqa ölkələrdə–İtaliyada, Almaniyada, Avstriyada isə fəhlələr lap əvvəldən ancaq burjuaziyanın hakimiyyət başına keçməsinə kömək etməklə kifayətləndilər. Lakin heç bir ölkədə milli istiqlaliyyət olmadan burjuaziyanın hökmranlığı mümkün deyildir. Buna görə 1848-ci il inqilabı o zamana qədər birlik və istiqlaliyyəti olmayan İtaliya, Almaniya və Macarıstan kimi millətlərə birlik və istiqlaliyyət verməli idi. İndi də növbə Polşanındır.

Beləliklə, 1848-ci il inqilabı sosialist inqilabı olmasa da, sosialist inqilabı üçün yol açdı, zəmin hazırladı. Bütun ölkələrdə iri sənayenin coşqun inkişafı sayəsində burjua quruluşu son qırx beş il ərzində hər yerdə çox saylı, birləşmiş və güclü proletariat yaratmışdır beləliklə, burjua quruluşu, «Manifest»in dili ilə desək, öz qəbirqazanlarını doğurmuşdur. Hər bir ayrıca millətin istiqlaliyyət və birliyi yaradılmadan nə proletariatın beynəlmiləl birliyi, nə də ümumi məqsədlərə çatmaq üçün bu millətlərin dinc və şüurlu əməkdaşlığı mümkün deyildir. 1848-ci ilə qədər mövcud olan siyasi şəraitdə italyan, macar, alman, polyak və rus fəhlələrinin müəyyən bir ümumi beynəlmiləl fəaliyyətini heç təsəvvur etmək olmazdı! Deməli, 1848-ci il döyüşləri əbəs deyildi. Bizi bu inqilabi dövrdən ayıran qırx beş il də hədərə getməmişdir. Onun bəhrələri yetişməyə başlayır və mən ancaq istərdim ki, «Manifest»in əslinin çapdan çıxması beynəlxalq inqilabın müjdəçisi olduğu kimi, bu italyanca tərcüməsinin də çapdan çıxması italyan proletariatının qələbəsinin xoş müjdəçisi olsun.

«Manifest» kapitalizmin keçmişdə oynadığı inqilabi rola tamamilə haqq verir. İlk kapitalist millət İtaliya olmuşdur. Feodal orta əsrlərinin sonunda, müasir kapitalizm dövrünün başlanğıcında nəhəng bir sima meydana gəlmişdi. Bu sima orta əsrlərin son şairi və eyni zamanda yeni dövrün ilk şairi olan italiyalı Dantedir. 1300-cü ildə olduğu kimi, indi də yeni bir tarixi dövr başlanır. İtaliya bizə bu yeni dövrün, proletar dövrünün meydana gəldiyi saatı qələmə ala bilən yeni bir Dante verəcəkmi?

Fridrix Engels

London, 1 fevral 1893-cü il.

Bu kitabda çap edilmişdir: Karlo Marks e Federiko Engels. «İl Manifestodel partito Comunista». Milano, 1893.

KOMMUNİST PARTİYASININ MANİFESTİ37

Avropada bir kabus dolaşmaqdadır–kommunizm kabusu. Köhnə Avropanın bütün qüvvələri: papa və çar, Metternix və Gizo, fransız radikalları və alman polisləri bu kabusa qarşı müqəddəs bir təqib üçün birləşmişlər.

Heç elə bir müxalifətçi partiya varmı ki, hakimiyyət başında duran düşmənləri onu kommunist partiyası adlandırıb bədnam etməsinlər? Heç elə bir müxalifətçi partiya varmı ki, istər müxalifətin nisbətən qabaqcıl nümayəndələrini, istərsə də öz irticaçı düşmənlərini kommunizmdə ittiham edib damğalamasın?

Bu faktdan iki nəticə çıxır.

Artıq bütün Avropa qüvvələri kommunizmi bir qüvvə hesab edir.

Artıq indi kommunistlərin öz baxışlarını, öz məqsədlərini, öz niyyətlərini bütün dünya qarşısında açıq söyləməli olduqları və kommunizm kabusu haqqındakı əfsanələrə qarşı partiyanın öz manifestini irəli sürməli olduqları vaxt gəlib çatmışdır.

Bu məqsədlə ən müxtəlif millətlərin kommunistləri Londonda toplaşıb ingilis, fransız, alman, italyan, flamand və Danimarka dillərində nəşr olunan aşağıdakı «Manifest»i tərtib etdilər.

I. BURJUALAR VƏ PROLETARLAR

(Burjuaziya dedikdə, ictimai istehsal vasitələrinin mülkiyyətçisi olub, muzdlu əməkdən istifadə edən müasir kapitalistlər sinfi nəzərdə tutulur. Proletariat dedikdə, öz istehsal vasitələrindən məhrum odub, yaşamaq üçün öz iş qüvvəsini satmağa məcbur olan müasir muzdlu fəhlələr sinfi nəzərdə tutulur. (1888-ci il ingiliscə nəşrinə Engelsin qeydi)).

İndiyə qədər mövcud olan bütün cəmiyyətlərin tarixi siniflər mübarizəsi tarixi olmuşdur.
(Yə`ni yazılı mə`xəzlər şəklində bizə gəlib çatan bütun tarix. Cəmiyyətin tarixdən əvvəlki dövrü, bütün yazılı tarixdən əvvəlki ictimai quruluş 1847-ci ildə demək olar, hələ əsla mə`lum deyildi. O zamandan bəri keçən müddətdə Haksthauzen Rusiyada torpaq üzərində icma mülknyyəti olduğunu kəşf etmişdir, Maurer sübut etmişdir ki, bu mülkiyyət bütün alman tayfalarının tarixn inkişafının başlanğıc nöqtəsini təşkil edən ictimai təməl olmuşdur və tədricən aydınlaşmışdır ki, torpaq üzərində ümumi sahibliyin mövcüd olduğu kənd icması Hindistandan tutmuş İrlandiyaya qədər hər yerdə ibtidai cəmiyyət formasıdır və ya keçmişdə belə olubdur. Bu ibtidai kommunizm cəmiyyətniin daxili quruluşunu, bu quruluşun tipik formasını Morqan aydınlaşdırmış, nəhayət, qəbilənin həqiqi mahiyyətini və onun tayfa içərisindəki mövqeyini kəşf etməklə bu işi başa çatdırmışdır. Bu ibtidai icma dağılarkən cəmiyyət təbəqələşib xüsusi siniflərə və nəhayət antaqonist siniflərə bölünməyə başlayır. Mən həmin dağılma prosesini aşağıdakı əsərimdə nəzərdən keçirməyə çalışmışam: «Der Ursprunq der Famille des Privat eiqentums and des Staat». 2, Auf., Stuttqart.1886 (F.Engels. Ailənin, xüsusi mülknyyətin və dövlətin mənşəyi. K.Marks və F.Engels. Seçilmiş iki cildlik əsərləri, 2-ci cild). (1888-ci il ingiliscə nəşrinə Engelsin qeydi))50.
Azad insanla qul, patritsi ilə plebey, mülkədarla təhkimli, usta (Sex ustası– sexin tam hüquqlu üzvü, sex daxilində ustadır, sexin başçısı deyildir. (1888-ci il ingiliscə nəşrinə Engelsin qeydi).) ilə şagird, müxtəsər, zalımla məzlum arasında əbədi bir antaqonizm olmuş, onlar gah gizli, gah da açıq şəkildə daim bir-biri ilə mübarizə aparmışlar və bu mübarizə həmişə bütün cəmiyyət binasının inqilabi surətdə yenidən qurulması və ya mübarizə edən siniflərin hamısının məhv olması ilə nəticələnmişdir.
Əvvəlki tarixi dövrlərdə biz, demək olar, hər yerdə cəmiyyətnn tamamilə müxtəlif silklərə parçalandığını–müxtəlif ictimai mövqelərin tam bir pilləkənini görürük. Qədim Romada patritsilərə, atlılara, plebeylərə, qullara; orta əsrlərdə feodal ağalara, vassallara, sex ustalarına, şagirdlərə, təhkimlilərə, həm də bu siniflərin demək olar, hər birində də xüsusi dərəcələrə rast gəlirik.
Dağılmış feodalizm cəmiyyətinin içərisindən meydana çıxan müasir burjua cəmiyyəti sinfi ziddiyyətləri məhv etmədi. Bu cəmiyyət ancaq köhnələrin

əvəzinə yeni sinifləri, yeni zülm şəraitini və yeni mübarizə formalarını meydana gətirdi.
Lakin bizim dövr, burjuaziya dövrü bununla fərqlənir ki, o, sinfi ziddiyyətləri sadələşdirmişdir: cəmiyyət getdikcə daha artıq dərəcədə bir-birinə düşmən olan iki böyük cəbhəyə, bir-birinə qarşı duran iki böyük sinfə–burjuaziya ilə proletariata parçalanır.
Orta əsrlərin təhkimlilərindən ilk şəhərlərin azad əhalisi meydana gəlmiş; həmin şəhərlilər silkindən burjuaziyanın ilk ünsürləri inkişaf etmişdir.
Amerikanın və Afrika ətrafından dəniz yolunun kəşf edilməsi yüksəlməkdə olan burjuaziya üçün yeni fəaliyyət sahəsi yaratdı. Ost-hind və Çin bazarları, Amerikanın məskunlaşdırılması, müstəmləkələrlə mübadilə, mübadilə vasitələrinin və ümumiyyətlə əmtəələrin miqdarının artması ticarətə, dənizçiliyə, sənayeyə o vaxta qədər misli görünməmiş bir təkan verdi və bununla da dağılmaqda olan feodalizm cəmiyyətində inqilabi ünsürün sür`ətlə inkişafına səbəb oldu.
Sənayenin əvvəlki feodal və ya sex quruluşu yeni bazarlarla birlikdə artan tələbi daha ödəyə bilmirdi. Onun yerini manufaktura tutdu. Orta sənaye silki sex ustalarını sıxışdırıb aradan çıxartdı; müxtəlif korporasiyalar arasındakı əmək bölgüsü yox olub öz yerini ayrıca bir e`malatxana daxilində əmək bölgüsünə verdi.
Lakin bazarlar getdikcə böyüyür, tələb getdikcə artırdı. Bunu daha manufaktura da ödəyə bilmədi. Onda buxar və maşın sənayedə inqilab yaratdı. Manufakturanın yerini müasir iri sənaye tutdu, orta sənaye silkinin yerini milyoner sənayeçilər, bütöv sənaye ordularının başçıları, müasir burjualar tutdu.
İri sənaye Amerikanın kəşfi ilə hazır-lanan ümumdünya bazarını yaratdı. Ümumdünya bazarı ticarətin, dənizçiliyin və qurudakı nəqliyyat vasitələrinin nəhənk inkişafına səbəb oldu. Bu isə öz növbəsində, sənayenin genişlənməsinə tə`sir göstərdi və sənaye, ticarət, dənizçilik, dəmir yollar artdığı dərəcədə də burjuaziya inkişaf edirdi, o öz kapitallarını artırır və orta əsrlərdən irs qalmış bütüv sinifləri sıxışdırıb arxa sıraya atırdı.
Beləliklə, biz görürük ki, müasir burjuaziyanın özü uzun müddət davam edən bir inkişaf prosesinin, istehsal və mübadilə üsulunda bir sıra çevrilişlərin məhsuludur.

Burjuaziyanın inkişafındakı bu pillələrin hər birində muvafiq siyasi muvəffəqiyyət qazanılmışdır. Feodalların hökmranlığı dövründə məzlum silk olan burjuaziya kommunada (Fransada meydana gələn şəhərlər, öz feodal hökmdarları və ağalarından yerli özünüidarə ixtiyarı və «üçüncü silkə» məxsus siyasi hüquqlar əldə etmədən əvvəl də «kommuna» adlanırdı. Ümumiyyətlə desək, burada burjuaziyanın iqtisadi inkişafı cəhətdən tipik bir ölkə olaraq İngiltərə, onun siyasi inkişafı cəhətdən tipik bir ölkə olaraq Fransa götürülmüşdür (1888-ci il ingiliscə nəşrinə Engelsin qeydi).
İtaliya və Fransa şəhərləri öz feodal ağalarından ilk özünüidarə hüquqlarını satın aldıqdan və ya zorla əldə etdikdən sonra özlərinin şəhər icmasını kommuna adlandırırdılar. (1890-cı il almanca nəşrinə Engelsin qeydi).) silahlı və öz-özünü idarə edən assosiasiya olmuşdur, bir yerdə müstəqil şəhər respublikası olmuş, başqa bir yerdə monarxiyanın vergi verən üçüncü silki olmuş (Engels tərəfindən redaktə edilmiş1888-ci il ingiliscə nəşrində «müstəqil şəhər respublikası olmuş» sözlərindən sonra «(İtaliyada və Almaniyadakı kimi)» sözləri, «monarxiyanın vergi verən üçüncü silki olmuş» sözlərindən sonra isə «(Fransadakı kimi)» sözləri əlavə edilmişdir. Red.), sonra, manufaktura dövründə isə silkli və ya mütləq monarxiyada zadəganların əksi olmuş və ümumiyyətlə iri monarxiyaların başlıca əsası olmuşdur, nəhayət, iri sənaye və ümumdünya bazarı yarandığı zamandan e`tibarən burjuaziya müasir nümayəndəli dövlətdə özü üçün müstəsna siyasi hökmranlıq qazanmışdır. Müasir dövlət hakimiyyəti–yalnız bütün burjuaziya sinfinin ümumi işlərini idarə edən bir komitədir.
Burjuaziya tarixdə son dərəcə inqilabi rol oynamışdır.
Burjuaziya hakimiyyət başına gəldiyi hər yerdə bütün feodal, patriarxal, idillik münasibətləri dağıtmışdır. O, insanı öz «təbii hökmdarlarına» bağlayan alabəzək feodal buxovlarını amansızlıqla qırmış və insanlar arasında quru bir mənfəətpərəstlik, amansız «nağd pul» əlaqəsindən başqa heç bir əlaqə saxlamamışdır. O, dini vəcd, cəngavər coşqunluğu və meşşan sentimentallığının müqəddəs həyəcanlarını fərdi mənfəətpərəstliyin buzlu sularında qərq etmişdir. O, insanın şəxsi ləyaqətini mübadilə dəyərinə çevirmiş, əta olunan və əldə edilən saysız-hesabsız azadlıqları yeganə vicdansız bir ticarət azadlığı ilə əvəz etmişdir. Bir sözlə, o, dini və siyasi xülyalar pərdəsinə bürünmüş istismarı açıq, həyasız, müstəqim və rəhmsiz bir istismarla əvəz etmişdir.

Burjuaziya o vaxta qədər şərəfli sayılan və ehtiramlı bir həyəcanla baxılan bütün fəaliyyət növlərini müqəddəslik haləsindən məhrum etmişdir. Həkimi, hüquqşünası, keşişi, şairi, elm adamını o özünün pulla tutulan muzdlu işçilərinə döndərmişdir.
Burjuaziya ailə munasibətlərinin incə sentimental pərdəsini atmış və bunları xalis pul münasibətlərindən ibarət etmişdir.
Burjuaziya göstərmişdir ki, orta əsrlərdə işlədilən və irticaçıları bu qədər heyran edən kobud zorakılıqla bərabər təbii olaraq tənbəllik və süstlük də var imiş. O ilk dəfə olaraq göstərmişdir ki, insan fəaliyyəti nələrə nail ola bilər. O heç də Misir ehramlarına, Roma su kəmərlərinə və qotik kilsələrə bənzəməyən incəsənət xarüqələri yaratmışdır; o, heç də xalqların köçməsinə və səlib yürüşlərinə bənzəməyən yürüşlər etmişdir.
Burjuaziya istehsal alətlərində daim çevrilişlər etmədən, deməli, istehsal münasibətlərini, habelə bütün ictimai münasibətlər məcmusunu inqilabiləşdirmədən mövcud ola bilməz. Bütün keçmiş sənaye siniflərinin mövcud olması üçün birinci şərt isə, əksinə, köhnə istehsal üsulunu dəyişməz şəkildə saxlamaq idi. İstehsaldakı aramsız çevrilişlər, bütün ictimai münasibətlərdə fasiləsiz sarsıntılar, daimi inamsızlıq və hərəkət burjua dövrünü bütün başqa dövrlərdən fərqləndirir. Donub qalmış və pas atmış bütün münasibətlər, bunlarla yanaşı olaraq əsrlər boyu müqəddəs sayılan təsəvvür və baxışlar dağılıb gedir, yeni əmələ gələnlərin hamısı hələ bərkişmədən köhnəlmiş olur. Silklərə məxsus və durğun olan hər şey yox olub gedir, müqəddəs sayılan hər şey murdarlanır və insanlar, nəhayət, həyatdakı vəziyyətlərinə və qarşılıqlı münasibətlərinə açıq gözlə baxmalı olurlar.
Məhsul satışını daim artırmaq tələbatı üzündən burjuaziya bütün yer üzünü dolaşır. O hər yerə soxulmalı, hər yerdə kök salmalı, hər yerdə əlaqə düzəltməli olur.
Burjuaziya ümumdünya bazarını istismar etmək yolu ilə bütün ölkələrin istehsal və istehlakını kosmopolitik şəklə salmışdır. İrticaçıların çox böyük təəssüfünə səbəb olsa da, o, sənayeni milli zəmindən məhrum etmişdir. Ən qədim milli sənaye sahələri məhv edilmiş və hər gün məhv edilməkdədir. Bunları yeni sənaye sahələri sıxışdırıb aradan çıxarır, yeni sənaye sahələrinin işə salınması bütün mədəni millətlər üçün ölüm-dirim məsələsi olur və bu sahələr daha yerli xammalı deyil, yer üzünün ən uzaq guşələrindən gətirilən xammalı e`mal edir, təkcə həmin ölkənin öz

daxilində deyil, habelə dünyanın hər yerində işlədilən fabrik məhsulları hazırlayır. Vətən məhsulları ilə ödənilən köhnə tələbat əvəzinə yeni tələbat meydana gəlir və bunu ödəmək üçün ən uzaq ölkələrin və ən müxtəlif iqlimli yerlərin məhsulları tələb olunur. Köhnə yerli və milli qapalılığın və öz istehsal məhsulları hesabına yaşamağın yerini millətlərin hərtərəfli əlaqəsi və onların bir-birindən hərtərəfli asılılığı tutur. Bu eyni dərəcədə həm maddi, həm də mə`nəvi istehsala aiddir. Ayrı-ayrı millətlərin mə`nəvi fəaliyyətinin bəhrələri ümumi mal olur. Milli birtərəflilik və məhdudluq getdikcə daha da qeyri-mümgün olur, bir çox milli və yerli ədəbiyyatdan bir ümumdünya ədəbiyyatı yaranır.

Burjuaziya bütün istehsal alətlərini sür`ətlə təkmilləşdirmək və nəqliyyat vasitələrini sonsuz dərəcədə asanlaşdırmaq yolu ilə bütün millətləri, hətta ən barbar millətləri də mədəniyyətə cəlb edir. Burjuaziyanın əmtəələri ucuz qiymətə olur və bu ağır artilleriyanın köməyi ilə o hər cür Çin səddini yıxıb dağıdır və barbarların xaricilərə qarşı ən qızğın nifrətini təslim olmağa vadar edir. O bütün millətləri məhv olmaqla qorxudaraq burjua istehsal üsulunu qəbul etməyə məcbur edir, öz yerlərində onları mədəniyyət deyilən şeyi tətbiq etməyə, yə`ni burjua olmağa vadar edir. Bir sözlə, o özü üçün özünə bənzər və özü kimi bir aləm yaradır.

Burjuaziya kəndi şəhərin hökmranlığına tabe etmişdir. O, çox böyük şəhərlər yaratmış, kənd əhalisinə nisbətən şəhər əhalisinin sayını son dərəcə artırmış və beləliklə, əhalinin xeyli hissəsini avam kənd həyatından ayırmışdır. O, kəndi şəhərdən asılı etdiyi kimi, barbar və yarım barbar ölkələri də mədəni ölkələrdən, kəndli xalqları burjua xalqlardan, Şərqi Qərbdən asılı etmişdir.

Burjuaziya istehsal vasitələrinin, mülkiyyətin və əhalinin dağınıqlığını getdikcə daha çox məhv edir. O, əhalini sıxlaşdırmış, istehsal vasitələrini mərkəzləşdirmiş, mülkiyyəti az bir miqdar adamın əlində təmərküzləşdirmişdir. Bunun zəruri nəticəsi siyasi mərkəzləşmə olmuşdur. Müxtəlif mənafeyi, qanunları, hökumətləri, gömrük vergiləri olan və bir-biri ilə, demək olar, yalnız ittifaq münasibətləri saxlayan müstəqil əyalətlər bir hökuməti, bir qanunvericiliyi, bir milli sinfi mənafeyi, bir gömrük sərhədi olan bir millət halında birləşmiş oldular.

Burjuaziya yüz ildən az davam edən öz sinfi hökmranlığı zamanı bütün əvvəlki nəsillərin hamısının yaratdığından sayca daha çox və daha əzəmətli məhsuldar qüvvələr yaratmışdır. Təbiət qüvvələri ram edilmiş, maşınlı

istehsal yaradılmış, sənaye və əkinçilikdə kimya tətbiq edilmiş, buxar gəmiləri işə salınmış, dəmir yollar, elektrik teleqrafı çəkilmiş, yer üzünün bütöv qit`ələrindən əkinçilik üçün istifadə edilməyə başlamış, çaylar kəmiçilik üçün yararlı hala salınmış, sanki yer altından böyük əhali kütlələri meydana gəlmişdir,–keçən əsrlərdən hansı güman edə bilərdi ki, ictimai əmək daxilində bu qədər məhsuldar qüvvələr yatıb qalır!
Beləliklə, biz gördük ki, burjuaziyanın əmələ gəlməsi üçün əsas təşkil edən istehsal və mübadilə vasitələri feodalizm cəmiyyətində yaranmışdır. Bu istehsal və mübadilə vasitələri muəyyən inkişaf pilləsinə çatdıqda, feodalizm cəmiyyətindəki istehsal və mübadilə münasibətləri, əkinçilik və sənayenin feodal qaydasında təşkili, bir sözlə, feodal mülkiyyət münasibətləri inkişaf etmiş məhsuldar qüvvələrə daha uyğun gəlmədi. Onlar istehsalı inkişaf etdirmək əvəzinə onu ləngidirdi. Onlar istehsal üçün bir buxov olmuşdu. Bu buxovları qırıb dağıtmaq lazım idi və onlar dağıdıldı.
Onların yerini azad rəqabət tutdu, buna müvafiq ictimai və siyasi quruluş, burjuaziya sinfinin iqtisadi və siyasi hökmranlığı əmələ gəldi.
Bizim gözümüz qarşısında da belə bir hərəkət baş verir. Burjua istehsal və mübadilə münasibətlərinə, burjua mülkiyyət münasibətlərinə malik olan və sanki e`cazkarlıqla bu qədər qüdrətli istehsal və mübadilə vasitələri yaratmış olan müasir burjua cəmiyyəti öz əfsunlarının yer altından çağırdığı qüvvələrin daha öhdəsindən gələ bilməyən bir sehrbaza bənzəyir. Artıq on illərdən bəri sənaye və ticarətin tarixi müasir istehsal münasibətlərinə qarşı, burjuaziyanın və onun hökmranlığının varlığı üçün şərt olan mülkiyyət münasibətlərinə qarşı müasir məhsuldar qüvvələrin yalnız həyəcanı tarixindən ibarətdir. Vaxtaşırı təkrar olunub, bütün burjua cəmiyyətinin varlığını getdikcə daha böyük bir zəhmlə təhlükə altına alan ticarət böhranlarını göstərmək kifayətdir. Ticarət böhranları zamanı hər dəfə nəinki hazırlanmış məhsulların, hətta yaradılmış məhsuldar qüvvələrin də xeyli hissəsi məhv edilir. Böhranlar zamanı, bütün əvvəlki dövrlərə mə`nasız bir şey kimi görünə bilən ictimai epidemiya–ifrat istehsal epidemiyası baş verir. Cəmiyyət birdən-birə geriyə atılır, qəflətən başlanan barbarlıq halına düşür, sanki aclıq, ümumi dağıdıcı bir müharibə cəmiyyəti bütün həyat vasitələrindən məhrum etmişdir elə bil sənaye və ticarət məhv edilmişdir,–həm da nəyə görə? Ona görə ki, cəmiyyət olduqca çox mədaniyyətə malikdir, onun olduqca çox yaşayış vasitələri var, olduqca

böyük sənaye və ticarəti vardır. Onun ixtiyarında olan məhsuldar qüvvələr daha burjua mülkiyyət münasibətlərinin inkişafına xidmət etmir əksinə, bu qüvvələr həmin münasibətlər üçün həddindən çox böyük olmuşdur, burjua münasibətləri bu qüvvələrin inkişafını ləngidir, buna görə də məhsuldar qüvvələr həmin sədləri aşmağa başladıqda, bütün burjua cəmiyyətini sarsıdır, burjua mülkiyyətinin varlığını təhlükə altına alır. Burjua münasibətləri məhsuldar qüvvələrin yaratdığı sərvəti öz içərisinə sığışdırmaqda çox məhdud olmuşdur.–Burjuaziya böhranları na yolla aradan qaldırır? Bir tərəfdən külli miqdar məhsuldar qüvvələri məcburiyyət üzündən məhv etmək yolu ilə, digər tərəfdən, yeni bazarlar tutmaq və köhnə bazarları daha çox istismar etmək yolu ilə. Deməli, nə ilə? Daha geniş, daha sarsıdıcı böhranlar hazırlamaqla və bunlara müqavimət göstərə biləcək vasitələri azaltmaqla.

Feodalizmi yıxarkən burjuaziyanın istifadə etdiyi silah indi burjuaziyanın özünə qarşı yönəldilir.

Lakin burjuaziya nəinki onu məhv edəcək bir silah hazırlamışdır; o, həmçinin bu silahı ona qarşı çevirəcək adamları da–müasir fəhlələri, proletarları da yaratmışdır.

Burjuaziya, yə`ni kapital nə dərəcədə inkişaf edirsə, proletariat, müasnr fəhlələr sinfi də eyni dərəcədə inkişaf edir; bu fəhlələr yalnız o zaman yaşaya bilərlər ki, iş tapa bilsinlər, işi isə yalnız o vaxta qədər tapa bilərlər ki, onların əməyi kapitalı artırsın. Özlərini tək-tək satmağa məcbur olan bu fəhlələr alınıb satıla bilən hər bir başqa şey kimi əmtəədirlər, buna görə də rəqabətdəki bütun təsadüflər, bazardakı bütün dəyişikliklər onlara da eyni dərəcədə tə`sir göstərir.

Maşın tətbiqinin və əmək bölgüsünün artması nəticəsində proletarların əməyi hər cür müstəqil xarakterini, bununla birlikdə isə fəhlə üçün hər cür marağı da itirmişdir. Fəhlə maşının sadəcə bir əlavəsi olur, ondan ən sadə, ən yeknəsəq və ən asanlıqla öyrənilə bilən işlər tələb olunur. Buna görə də fəhləyə çəkilən xərclər, demək olar, ancaq onu yaşatmaq və nəslini davam etdirmək üçün lazım gələn yaşayış vasitələrindən ibarət olur. Lakin hər bir əmtəənin, deməli, habelə əməyin51 də qiyməti onun istehsal xərclərinə bərabərdir. Buna görə də əməyin maraqsız olması nə qədər artırsa, əmək haqqı da bir o qədər azalır. Bundan əlavə: maşın tətbiqi və əmək bölgüsü nə qədər artırsa, istər iş saatlarının sayının artması hesabına, istərsə hər bir müəyyən müddət ərzində tələb olunan əməyin miqdarının artması,

maşınların iş sür`ətinin artması və i. a. hesabına əməyin miqdarı da bir o qədər artır.
Müasir sənaye patriarxal ustanın kiçik e`malatxanasını sənaye kapitalistinin iri fabrikinə çevirmişdir. Fabrikə toplanan fəhlə kütlələri əsgəri qaydada təşkil olunurlar. Onlar sənaye ordusunun sıravi əsgərləri olaraq tam bir iyerarxiya təşkil edən kiçik zabitlərin və zabitlərin nəzarəti altında saxlanırlar. Onlar təkcə burjuaziya sinfinin, burjua dövlətinin qulu olmaqla qalmırlar, maşın, nəzarətçi və ən əvvəl hər bir burjua-fabrikçi özü onları hər gün və hər saat əsarət altında saxlayır. Bu istibdadın güddüyü məqsədin qazanc götürmək olduğu nə qədər açıq bildirilirsə, bu istibdad bir o qədər alçaq və iyrənc olur, bir o qədər çox qəzəb doğurur.
Əl əməyi nə qədər az məharət və qüvvə tələb edirsə, yə`ni müasir sənaye nə qədər çox inkişaf edirsə, kişi əməyini qadın və uşaq əməyi bir o qədər çox sıxışdırıb aradan çıxarır. Fəhlə sinfinə mənsub olanların cins və yaş fərqləri hər bir ictimai əhəmiyyətini itirir. Burada yalnız yaş və cinsindən asılı olaraq müxtəlif xərc tələb edən işlək alətlər mövcuddur.
Fabrikaçı fəhlələri istismar edib qurtardıqda və fəhlə, nəhayət, öz əmək haqqıiı nəqd pulla aldıqda, burjuaziyanın başqa hissələri–ev sahibi, dükançı, sələmçi və s. onun üstünə atılır.
Orta silkin aşağı təbəqələri xırda sənayeçilər, xırda alverçilər və rentaçılar, sənətkarlar və kəndlilər–bütun bu siniflər proletariat sıralarına enirlər, qismən ona görə ki, onların kiçik kapitalı iri sənaye müəssisələri düzəltmək üçün kifayət etmir və bu kapital daha böyük kapitalistlərin rəqabətinə davam gətirmir, qismən də ona görə ki, yeni istehsal metodları tətbiq edilməsi nəticəsində onların peşəkar məharəti qiymətdən düşür. Əhalinin bütün siniflərindən proletariat belə əmələ gəlir.
Proletariat müxtəlif inkişaf pillələrindən keçir. Onun burjuaziyaya qarşı mübarizəsi həyata qədəm qoyduğu gündən başlanır.
Əvvəlcə ayrı-ayrı fəhlələr, sonra bir fabrikin fəhlələri, daha sonra isə muəyyən bir yerdə bir əmək sahəsinin fəhlələri onları bilavasitə istismar edən ayrıca bir burjuaya qarşı mübarizə aparırlar. Fəhlələr öz zərbələrini təkcə burjua istehsal münasibətlərinə qarşı deyil, habelə istehsal alətlərinin özünə qarşı yönəldirlər; onlar rəqabət edən xarici əmtəələri məhv edir, maşınları sındırır, fabrikləri yandırır, orta əsr fəhləsinin əldən çıxmış vəziyyətini zorla bərpa etməyə çalışırlar.

Bu pillədə fəhlələr bütün ölkəyə səpələnmiş və rəqabət üzündən parçalanmış bir kütlə halındadırlar. Fəhlə kütlələrinin birliyi hələ özlərinin birləşməsi nəticəsi deil, yalnız burjuaziyanın birləşməsi nəticəsidir; burjuaziya isə öz siyasi məqsədlərinə çatmaq üçün bütün proletariatı hərəkətə gətirməlidir və hələlik onu hərəkətə gətirə bilər. Deməli, bu pillədə proletarlar öz düşmənlərinə qarşı deyil, düşmənlərinin düşmənlərinə qarşı–mütləq monarxiya qalıqlarına, torpaq sahiblərinə, sənayeçi olmayan burjualara, xırda burjualara qarşı mübarizə edirlər. Beləliklə, bütün tarixi hərəkat burjuaziyanın əlində cəmlənir belə şəraitdə qazanılan hər bir qələbə burjuaziyanın qələbəsidir.

Lakin sənaye inkişaf etdikcə, proletariat nəinki sayca artır; o, böyük kütlələr halında toplaşır, onun qüvvəsi artır və o həmin qüvvəni getdikcə daha çox hiss edir. Maşınlar ayrı-ayrı əmək növləri arasındakı fərqləri get-gedə daha çox aradan qaldırdıqca və əmək haqqını, demək olar, hər yerdə eyni dərəcədə aşağı səviyyəyə saldıqca, proletariatın mənafeyi və həyat şəraiti də get-gedə daha artıq dərəcədə bərabərləşir. Burjualar arasında artmaqda olan rəqabət və bunun doğurduğu ticarət böhranları nəticəsində fəhlələrin əmək haqqı getdikcə daha az sabit olur; maşınların getdikcə daha sür`ətlə inkişaf edib arası kəsilmədən təkmilləşməsi üzündən proletarların həyat vəziyyəti getdikcə daha az tə’min edilmiş olur; ayrıca bir fəhlə ilə ayrıca bir burjua arasındakı toqquşmalar getdikcə daha artıq dərəcədə iki sinif arasındakı toqquşma xarakteri alır. Fəhlələr başlayıb burjualara qarşı koalisiyalar (1888-ci il ingiliscə nəşrində «koalisiyalar» sözündən sonra «(həmkarlar ittifaqları)» əlavə edilmişdir. Red.) təşkil etməyə başlayırlar; onlar öz əmək haqlarını müdafiə etmək üçün birgə çıxış edirlər. Onlar baş verə biləcək toqquşmalar zamanı özlərini vəsaitlə tə`min etmək üçün hətta daimi assosiasiyalar tə`sis edirlər. Bə`zi yerlərdə mübarizə açıq üsyanlara çevrilir.

Fəhlələr arabir qalib gəlirlər, lakin bu qələbələr yalnız keçici bir qələbədir. Onların apardığı mübarizənin həqiqi nəticəsi bilavasitə müvəffəqiyyət olmayıb, fəhlələrin getdikcə daha geniş miqyasda birləşməsi olur. İri sənayenin yaratdığı və müxtəlif yerlərin fəhlələri arasında əlaqə düzəldən nəqliyyat vasitələrinin daim artması fəhlələrin birləşməsinə kömək edir. Hər yerdə eyni xarakter daşıyan mübarizənin bir çox yerli ocaqlarını mərkəzləşdirib vahid milli, sinfi mübarizə halına salmaq üçün də yalnız bu əlaqə lazımdır. Hər bir sinfi mübarizə isə siyasi mübarizədir. Orta əsrlərdə

kəndarası yollar şəraitində şəhərlilərin birləşməsi üçün yüz illər lazım gəldiyi halda, dəmir yollar sayəsində müasir proletarlar bir neçə il ərzində birləşirlər.
Proletarların bir sinif halında və beləliklə də siyasi partiya halında bu cür təşkil olunmasını fəhlələrin öz arasındakı rəqabət hər dəqiqə yenidən pozur. Lakin proletarlar daim yenidən təşkil olunur və onların təşkili hər dəfə daha güclü, daha möhkəm və daha qüdrətli olur. Proletarların təşkil olunması burjuaziyanın ayrı-ayrı təbəqələri arasındakı çəkişmələrdən istifadə edib, fəhlələrin ayrı-ayrı mənafeyini qanunvericilik yolu ilə qəbul etməyə məcbur edir. Məsələn, İngiltərədə on saatlıq iş günü haqqında qanun. Ümumiyyətlə, köhnə cəmiyyət daxilindəki toqquşmalar proletariatın inkişaf prosesinə bir çox cəhətdən kömək edir. Burjuaziya arası kəsilmədən mübarizə aparır əvvəlcə aristokratiyaya qarşı, sonra da burjuaziyanın özünün o hissələrinə qarşı mübarizə aparır ki, bunların mənafeyi sənayenin tərəqqisinə zidd çıxır, habelə daim bütün xarici ölkələrin burjuaziyasına qarşı mübarizə edir. Bütün bu vuruşmalarda burjuaziya proletariata müraciət etməyə, onu köməyə çağırmağa və beləliklə də onu siyasi hərəkata cəlb etməyə məcburdur. Deməli, burjuaziya özü öz təhsilinin ünsürlərini (1888-ci il ingiliscə nəşrində «öz təhsilinin ünsürləri» sözləri əvəzinə «öz siyasi və ümumi təhsilinin ünsürləri» çap edilmişdir. Red.), yə`ni özünün əleyhinə olan bir silahı proletariata verir.
Sonra, gördüyümüz kimi, sənayenin tərəqqisi hakim sinfin bütöv təbəqələrini proletariatın sıralarına atır, yaxud, ən azı, onların həyat şəraiti üçün təhlükə yaradır. Onlar da proletariata böyük miqdarda təhsil ünsürləri gətirirlər.
Nəhayət, sinfi mübarizə qəti nöqtəyə yaxınlaşdığı dövrlərdə hakim sinif daxilində, bütün köhnə cəmiyyət daxilində pozulma prosesi elə coşqun, elə kəskin bir xarakter alır ki, hakim sinfin kiçik bir hissəsi öz sinfindən üz döndərir və inqilabçı sinfə, gələcəyin sahibi sinfə qoşulur. Buna görə də keçmişdə zadəganların bir hissəsi burjuaziyanın tərəfinə keçdiyi kimi, indi də burjuaziyanın bir hissəsi, yə`ni tarixi hərəkatın butün gedişini nəzəri cəhətdən başa düşmək dərəcəsinə yüksəlmiş olan burjua-ideoloqların bir hissəsi proletariatın tərəfinə keçir. İndi burjuaziyaya qarşı duran bütün siniflərdən yalnız proletariat həqiqətən inqilabçı sinifdir. İri sənaye inkişaf

etdikcə, bütün başqa siniflər pozulub məhv olur, proletariat isə bu sənayenin öz məhsuludur.
Orta silklər: xırda sənayeçi, xırda alverçi, sənətkar və kəndli–bunların hamısı burjuaziya ilə ondan ötrü mübarizə edir ki, orta silk olmaq e`tibarı ilə öz varlığını məhv olmaqdan xilas etsin. Deməli, onlarda inqilabi əhvali-ruhiyyə deyil, mühafizəkar əhvali-ruhiyyə vardır. Hətta daha artıq, onlarda mürtəce əhvali-ruhiyyə vardır. Onlar tarixin çarxını geri döndərməyə çalışırlar. Əgər onlarda inqilabi əhvali-ruhiyyə varsa, bu ancaq o halda olur ki, onlar proletariat sıralarına keçməli olsunlar, onlar öz hazırkı mənafeyini deyil, gələcək mənafeyini müdafiə etsinlər, öz nöqteyi-nəzərlərini tərk edib proletariatın nöqteyi-nəzərinə keçsinlər.
Köhnə cəmiyyətin ən aşağı təbəqələrinin çürüməsinin passiv məhsulu olan lümpen-proletariatı bə`zi yerlərdə proletar inqilabı hərəkata cəlb edir, lakin lümpen-proletariat bütün öz həyat vəziyyətinə görə özünü mürtəce fitnələr üçün satmağa xeyli artıq dərəcədə maildir.
Köhnə cəmiyyətin həyat şəraiti proletariatın həyat şəraitində artıq məhv edilmişdir. Proletariatın mülkiyyəti yoxdur; onun öz arvad-uşağına olan münasibəti daha burjua ailə münasibətlərinə əsla bənzəmir müasir sənaye əməyi, istər İngiltərədə, istərsə Fransada, istər Amerikada, istərsə Almaniyada eyni olan müasir kapital əsarəti proletarın hər cür milli xarakterini silib atmışdır. Qanunlar, əxlaq, din–bunların hamısı onun nəzərində burjuaziyanın mənafeyini pərdələyən burjua mövhumatından başqa bir şey deyildir.
Bütün əvvəlki siniflər, hökmranlığı əllərinə keçirdikdən sonra, həyatda əldə etmiş olduqları mövqeyi möhkəmlətməyə çalışaraq, bütün cəmiyyəti özlərinin mənimsəmə üsulunu tə`min edən şəraitə tabe edirlər. Proletarlar isə yalnız özlərinin indiki mənimsəmə üsulunu, beləliklə də bütövlükdə indiyə qədər mövcud olan bütün mənimsəmə üsulunu məhv etdikdə, ictimai məhsuldar qüvvələri əldə edə bilərlər. Proletarların qorunulmalı olan heç bir şeyi yoxdur, onlar indiyə qədər xüsusi mülkiyyəti qoruyan və tə`min edən hər şeyi dağıtmalıdırlar.
İndiyə qədər baş verən bütün hərəkat azlığın hərəkatı olmuş və ya azlığın mənafeyi üçün baş vermişdir. Proletar hərəkatı böyük çoxluğun mənafeyi üçün çoxluğun müstəqil hərəkatıdır. Rəsmi cəmiyyəti təşkil edən təbəqələrdən ibarət olub proletariat üzərində ucalan bütün üstqurum

darmadağın olmasa, müasir cəmiyyətin ən aşağı təbəqəsi olan proletariat ayağa qalxıb qəddini düzəldə bilməz.
Proletariatın burjuaziyaya qarşı mübarizəsi məzmun e`tibarı ilə olmasa da, forma e`tibarı ilə əvvəlcə milli mübarizə olur. Hər bir ölkənin proletariatı əvvəlcə, əlbəttə, öz burjuaziyasını aradan qaldırmalıdır.
Biz proletariatın inkişafının ən ümumi mərhələlərini təsvir edərkən, mövcud cəmiyyət daxilində az-cox gizli şəkildə olan vətəndaş müharibəsini, onun açıq inqilaba çevrildiyi və proletariatın burjuaziyanı zorla yıxıb öz hökmranlığını qurduğu nöqtəyə qədər nəzərdən keçirdik. Gördüyümüz kimi, indiyə qədər mövcud olan bütün cəmiyyətlər zalım siniflərlə məzlum siniflər arasındakı antaqonizmə əsaslanırdı. Lakin müəyyən bir sinfi zülm altında saxlamağın mümkün olması üçün elə bir şərait tə`min etmək lazımdır ki, zülm edilən sinif, heç olmazsa, bir qul kimi dolana bilsin. Təhkimli vəziyyətində olan kəndli gəlib kommuna üzvü vəziyyətinə çatdığı kimi, feodal mütləqiyyətinin boyunduruğu altında olan xırda burjua da gəlib burjua vəziyyətinə çatmışdır. Müasir fəhlə isə, sənaye tərəqqi etdikcə, əksinə, öz sinfinin həyat şəraitindən yüksəyə qalxmaq deyil, getdikcə daha aşağı enir. Fəhlə pauper olur, pauperizm isə əhalidən və sərvətdən daha sür`ətlə artır. Bu aydın göstərir ki, burjuaziya daha cəmiyyətin hakim sinfi olaraq qalmağa və öz sinfinin həyat şəraitini tənzimedici bir qanun kimi bütün cəmiyyətə qəbul etdirməyə qabil deyildir. O, hökmranlıq etməyə qabil deyildir, çünki öz qulunun hətta qul səviyyəsində yaşamasını da tə`min edə bilmir, çünki öz qulunun elə bir vəziyyətə enməsinə yol vermək məcburiyyətində qalır ki, bu zaman burjuaziya onun hesabına yeyib dolanmaq əvəzinə, özü onu yedizdirib dolandırmalı olur. Cəmiyyət daha burjuaziyanın hakimiyyəti altında yaşaya bilmir, yə`ni burjuaziyanın həyatı daha cəmiyyətə uyğun gəlmir.
Burjuaziya sinfinin varlığı və hökmranlığı üçün əsas şərt sərvətin xüsusi şəxslər əlində toplanması, kapitalın əmələ gəlməsi və artmasıdır. Kapitalın mövcud olması üçün şərt muzdlu əməkdir. Muzdlu əmək yalnız fəhlələrin öz arasındakı rəqabət gücünə davam edir. Sənayenin tərəqqisi–burjuaziya istər-istəməz bunu təmsil edir və buna müqavimət göstərməkdə acizdir, rəqabətin fəhlələri parçalaması əvəzində assosiasiya vasitəsi ilə onların inqilabi birliyini yaradır. Beləliklə, iri sənaye inkişaf etdikcə, burjuaziya məhsul istehsal etmək və mənimsəmək zəmininin özündən məhrum olur. O

hər şeydən əvvəl öz qəbirqazanlarını yaradır. Burjuaziyanın məhv olması və proletariatın qalib gəlməsi eyni dərəcədə labüddür.

II. PROLETARLAR VƏ KOMMUNİSTLƏR

Kommunistlərin ümumiyyətlə proletarlara münasibəti necədir?

Kommunistlər başqa fəhlə partiyalarına qarşı duran xüsusi bir partiya deyildirlər.

Onların bütövlükdə bütün proletariatın mənafeyindən ayrı olan heç bir mənafeyi yoxdur.

Onlar heç bir xüsusi (1888-ci il ingiliscə nəşrində «xüsusi» əvəzinə «təriqətçi» deyilmişdir. Red.) prinsiplər irəli sürüb proletar hərəkatını bu prinsiplərə uyğunlaşdırmaq istəmirlər.

Kommunistlər başqa proletar partiyalarından yalnız bununla fərqlənirlər ki, onlar, bir tərəfdən, müxtəlif millətlərin proletarlarının mübarizəsində bütün proletariatın milliyyətdən asılı olmayan ümumi mənafeyini ayırıb müdafiə edirlər; digər tərəfdən, proletariatın burjuaziyaya qarşı mübarizəsinin keçdiyi muxtəlif inkişaf pillələrində onlar butövlükdə hərəkatın mənafeyini təmsil edirlər.

Deməli, kommunistlər praktikada bütün ölkələrin fəhlə partiyalarının həmişə irəliləməyə sövq edən (1888-ci il ingiliscə nəşrində «həmişə irəliləməyə sövq edən» sözləri əvəzinə «ən qabaqcıl» çap edilmişdir. Red.) ən qətiyyətli hissəsidir, nəzəri cəhətdən isə proletariatın qalan kütləsinə nisbətən onların üstünlüyü proletar hərəkatının şəraitini, gedişini və ümumi nəticələrini başa düşmələrindədir.

Kommunistlərin də ən yaxın məqsədi bütün qalan proletar partiyalarının ən yaxın məqsədinin eynidir proletariatın sinif halında formalaşması, burjuaziya hökmranlığının devrilməsi, siyasi hakimiyyətin proletariat tərəfindən ələ alınması.

Kommunistlərin nəzəri müddəaları heç də dünyanı yeniləşdirmək xəyalına düşən bu və ya başqa bir şəxsin uydurduğu və ya quraşdırdığı ideyalara, prinsiplərə əsaslanmır.

Bu müddəalar davam edən sinfi mübarizədəki gerçək münasibətlərin yalnız ümumi ifadəsidir, gözümüzün qarşısında baş verən tarixi hərəkatın ifadəsidir. Keçmişdə mövcud olmuş mülkiyyət münasibətlərinin məhv edilməsi yalnız kommunizmə məxsus bir şey deyildir.

Bütün mülkiyyət münasibətləri tarix boyu daim bir-birini əvəz etmiş, tarix boyu daim dəyişilmişdir.

Məsələn, Fransa inqilabı feodal mülkiyyətini ləğv edib, onu burjua mülkiyyəti ilə əvəz etmişdir.
Kommunizmin fərqləndirici cəhəti ümumiyyətlə mülkiyyəti ləğv etmək deyil, burjua mülkiyyətini ləğv etməkdir.
Lakin muasir burjua xüsusi mülkiyyəti sinfi antaqonizmlərə, bə`zilərinin başqalarını istismar etməsinə (1888-ci il ingiliscə nəşrində «bə`zilərinin başqalarını istismar etməsinə» sözləri əiəzinə «azlığın çoxluğu istismar etməsinə» çap edilmişdir. Red.) əsaslanan məhsul istehsalı və mənimsənilməsinin son və ən mükəmməl ifadəsidir.
Bu mə`nada kommunistlər özlərinin nəzəriyyəsini bir müddəa ilə ifadə edə bilərlər: xüsusi mülkiyyəti məhv etmək.
Biz kommunistləri ittiham edirdilər ki, biz şəxsən əldə edilən, öz əməyi ilə qazanılan mülkiyyəti, hər cür şəxsi azadlığın, fəaliyyətin və müstəqilliyin əsasını təşkil edən mulkiyyəti məhv etmək istəyirik.
Kəsb edilən, qazanılan, öz əməyi ilə əldə edilən bir mülkiyyət! Bəlkə siz burjua mülkiyyətindən əvvəlki xırda burjua, xırda kəndli mülkiyyətindən bəhs edirsiniz? Bu mülkiyyəti bizim məhv etməyimizə ehtiyac yoxdur, sənayenin inkişafı onu məhv etmiş və hər gün məhv etməkdədir.
Bəlkə də siz müasir burjua xüsusi mülkiyyətindən bəhs edirsiniz?
Məgər muzdlu əmək, proletarın əməyi ona mülkiyyət yaradırmı? Əsla yox. Bu əmək kapital yaradır, yə`ni muzdlu əməyi istismar edən bir mülkiyyət yaradır, həmin mülkiyyət isə yalnız bu şərtlə arta bilər ki, yenidən istismar etmək üçün yeni muzdlu əmək doğursun. Müasir şəkildə olan mülkiyyət kapital ilə muzdlu əmək arasındakı əkslik daxilində hərəkət edir. Bu əksliyin hər iki tərəfini nəzərdən keçirək.
Kalitalist olmaq istehsalda yalnız xalis şəxsi mövqe tutmaq deyil, habelə ictimai bir mövqe tutmaq deməkdir. Kapital kollektiv məhsuldur və ancaq cəmiyyətin bir çox üzvlərinin birgə fəaliyyəti ilə, nəticədə–cəmiyyətin yalnız bütün üzvlərinin birgə fəaliyyəti ilə hərəkətə gətirilə bilər.
Beləliklə, kapital–şəxsi quvvə deyil, ictimai quvvədir.
Deməli, kapital cəmiyyətin butün üzvlərinə məxsus olan kollektiv mülkiyyətə çevrilsə, bu, şəxsi mülkiyyətin ictimai mülkiyyətə çevrilməsi demək olmaz. Mülkiyyətin ancaq ictimai xarakteri dəyişilər. Mülkiyyət öz sinfi xarakterini itirər.
Muzdlu əməyə keçək.

Muzdlu əməyin orta qiyməti əmək haqqı minimumudur, yə`ni fəhləni bir fəhlə olaraq yaşatmaq üçün zəruri olan yaşayış vasitələrinin məcmusudur. Deməli, muzdlu fəhlənin öz fəaliyyəti nəticəsində mənimsədiyi şey onun həyatının təkrar istehsalı üçün güclə kifayət edir. Bilavasitə həyatın təkrar istehsalı üçün olan əmək məhsullarının bu şəxsi mənimsənilməsini, özgə əməyi üzərində hökmranlıq yarada biləcək heç bir artıq şey saxlamayan mənimsənilməsini biz əsla məhv etmək niyyətində deyilik. Biz mənimsəmənin yalnız elə miskin bir xarakterini məhv etmək istəyirik ki, bu zaman fəhlə ancaq kapitalı artırmaq üçün yaşayır və yalnız hakim sinfin mənafeyi tələb etdiyinə görə yaşayır.

Burjua cəmiyyətində canlı əmək ancaq toplanmış əməyi artırmaq vasitəsidir. Kommunizm cəmiyyətində toplanmış əmək ancaq fəhlələrin həyat prosesini genişləndirmək, zənginləşdirmək, yüngülləşdirmək vasitəsidir.

Beləliklə, burjua cəmiyyətində keçmiş hal-hazırın üzərində, kommunizm cəmiyyətində isə hal-hazır keçmişin üzərində hökmranlıq edir. Burjua cəmiyyətində kapital müstəqilliyə və fərdliyə malikdir, halbuki zəhmətkeş fərd müstəqillikdən məhrumdur və simasızlaşdırılmışdır.

Məhz bu münasibətlərin məhv edilməsini burjuaziya şəxsiyyətin və azadlığın ləğv edilməsi adlandırır! Haqqı da var. Doğrudan da, burjua şəxsiyyətini, burjua müstəqilliyini və burjua azadlığını ləğv etməkdən bəhs olunur. İndiki burjua istehsal münasibətləri çərçivəsi daxilində azadlıq dedikdə, ticarət azadlığını, alqı-satqı azadlığını nəzərdə tuturlar.

Lakin alverçilik aradan qalxdıqda, azad alverçilik də aradan qalxacaqdır. Azadlıq haqqında bizim burjuaların bütün başqa dəbdəbəli nitqləri kimi, azad alverçilik haqqındakı danışıqlar da alverçiliyi, burjua istehsal münasibətlərini və burjuaziyanın özünü kommunistcəsinə məhv etməyə aid deyil, ümumiyyətlə ancaq orta əsrlər dövrunün azad olmayan alverçiliyinə, əsarətdə olan şəhərlisinə aid ola bilər.

Bizim xüsusi mülkiyyəti məhv etmək istədiyimiz sizi dəhşətə salır. Lakin sizin indiki cəmiyyətinizdə onun üzvlərinin onda doqquzu üçün xüsusi mülkiyyət məhv edilmişdir bu xüsusi mülkiyyət məhz ona görə mövçuddur ki, çəmiyyət üzvlərinin onda doqquzu üçün xüsusi mulkiyyət mövcud deyildir. Deməli, siz bizi onda ittiham edirsiniz ki, biz cəmiyyətin olduqca böyük çoxluğunun mülkiyyəti olmaması kimi bir zəruri şərtlə bağlı olan mülkiyyəti məhv etmək istəyirik.

Bir sözlə, siz bizi onda ittiham edirsiniz ki, biz sizin mülkiyyətinizi məhv etmək istəyirik. Bəli, biz doğrudan da bunu etmək istəyirik. Siz deyirsiniz ki, əməyin daha kapitala, pula, torpaq rentasına, müxtəsər, inhisar altına alına bilən ictimai qüvvəyə döndərilə bilməyəcəyi zamandan e`tibarən, yə`ni şəxsi mülkiyyətin daha burjuaziya mülkiyyətinə çevrilə bilməyəcəyi zamandan e`tibarən şəxsiyyət məhv edilmiş olur.
Deməli, siz e`tiraf edirsiniz ki, burjuadan, yə`ni burjua mülkiyyətçisindən başqa heç kəsi şəxsiyyət hesab etmirsiniz. Belə bir şəxsiyyət doğrudan da məhv edilməlidir.
Kommunizm ictimai məhsulları mənimsəmək imkanını heç kəsin əlindən almır, kommunizm yalnız bu mənimsəmə vasitəsi ilə özgə əməyini əsarət altına almaq imkanını aradan qaldırır.
E`tiraz edib deyirdilər ki, guya xüsusi mülkiyyət məhv edildikdə, hər cür fəaliyyət dayanar və ümumi bir tənbəllik hökm sürər.
Belə olsaydı, tənbəllik üzündən burjua cəmiyyəti çoxdan məhv olmalı idi, çünki burada zəhmət çəkənlər heç bir şey əldə etmir, əldə edənlər isə zəhmət çəkmirlər. Bütün bu qorxular belə bir tavtologiyadan ibarət olur ki, daha kapital mövcud olmadığına görə, muzdlu əmək də daha yoxdur.
Maddi məhsulların kommunistcəsinə mənimsənilməsi və istehsalı üsuluna qarşı yönəldilən bütün e`tirazlar əqli əmək məhsullarının mənimsənilməsinə və istehsalına da aiddir. Sinfi mülkiyyətin məhv edilməsi burjuanın nəzərində istehsalın özünün məhv edilməsi demək olduğu kimi, sinfi təhsilin məhv edilməsi də onun nəzərində ümumiyyətlə təhsilin məhv edilməsi deməkdir.
Məhv olacağına burjuanın yas tutduğu təhsil böyük çoxluq üçün maşının əlavəsinə çevrilmək deməkdir.
Lakin burjua mülkiyyətinin ləğv edilməsini azadlıq, təhsil, hüquq və i. a. haqqındakı öz burjua təsəvvürləriniz nöqteyi-nəzərindən qiymətləndirib bizimlə mübahisə etməyin. Sizin ideyalarınızın özü burjua istehsal münasibətlərinin və burjua mülkiyyət münasibətlərinin məhsuludur, eynilə də sizin hüququnuz öz sinfinizin ancaq qanun dərəcəsinə yüksəldilmiş iradəsidir, bu iradənin məzmunu isə öz sinfinizin maddi həyat şəraiti ilə müəyyən edilir.
Öz istehsal və mülkiyyət münasibətlərinizi istehsalın inkişafı prosesində keçici olan tarixi münasibətlərdən təbiət və zəkanın əbədi qanunlarına çevirməyə sizi vadar edən qərəzli təsəvvürünüz keçmişdə hökm sürüb

məhv olmuş bütün siniflərin təsəvvürünün eynidir. Antik və ya feodal mülkiyyəti barəsində sizə aydın görünən şeyi burjua mülkiyyətindən bəhs olunarkən siz daha başa düşmək cəsarətində olmursunuz.
Ailənin məhv edilməsi! Ən ifrat radikallar da kommunistlərin bu iyrənc niyyətindən hiddətlənirlər.
Müasir ailə, burjua ailəsi nəyə əsaslanır? Kapitala, xüsusi varlanmaya. Tamamilə inkişaf etmiş şəkildə bu ailə ancaq burjuaziya üçün mövcuddur; lakin onun belə bir əlavəsi də vardır ki, proletarlar məcburiyyət üzündən ailəsiz qalır və açıq fahişəlik baş verir.
Burjua ailəsinin bu əlavəsi aradan qalxdıqda, təbii olaraq, bu ailə də aradan qalxır və kapital yox olduqda, bunların hər ikisi yox olacaqdır.
Bəlkə siz bizi ittiham edirsiniz ki, biz ata-anaların öz uşaqlarını istismar etməsinə son qoymaq istəyirik? Biz bu cinayati e`tiraf edirik.
Lakin siz iddia edirsiniz ki, biz ev tərbiyəsini ictimai tərbiyə ilə əvəz etməklə, insan üçün ən əziz olan münasibətləri məhv etmək istəyirik.
Məgər sizin tərbiyənizi cəmiyyət müəyyən etmirmi? Məgər bu tərbiyəni sizin tərbiyə verdiyiniz şəraitdəki ictimai münasibətlər müəyyən etmirmi, məktəb və i. a. vasitəsi ilə cəmiyyətin bilavasitə və ya dolayı müdaxiləsi müəyyən etmirmi? Kommunistlər tərbiyəyə cəmiyyətin tə`sirini uydurmurlar; onlar yalnız tərbiyənin xarakterini dəyişdirir, onu hakim sinfin tə`siri altından çıxarırlar.
İri sənayenin inkişafı nəticəsində proletariat arasında bütün ailə əlaqələri nə qədər çox pozulursa, uşaqlar nə qədər çox adi alver şeylərinə və iş alətlərinə çevrilirsə, ailə və tərbiyə haqqında, ata-ana ilə uşaqlar arasında mehriban münasibətlər haqqında burjua boşboğazlıqları da bir o qədər çox nifrət oyadır.
Lakin butün burjuaziya bir ağızdan bağırıb bizə deyir ki, siz kommunistlər arvadları ümumiləşdirmək istəyirsiniz.
Burjua öz arvadına adi bir istehsal aləti kimi baxır. O eşidir ki, istehsal alətlərini ümumi istifadəyə vermək nəzərdə tutulur, buna görə, əlbəttə, belə bir fikirdən uzaqlaşa bilmir ki, qadınların da başına bu cür bir iş gələcəkdir. O heç xəyalına da gətirmir ki, burada qadının məhz adi bir istehsal aləti olması vəziyyətini aradan qaldırmaqdan bəhs olunur.
Kommunistlərdə arvadların guya rəsmi ümumiliyi barəsində bizim burjuaların yüksək əxlaq sahibləri kimi dəhşətə gəlmələrindən daha gülünc

bir şey yoxdur. Kommunistlərin arvadları ümumiləşdirmələrinə ehtiyac yoxdur, bu ümumilik, demək olar, hər zaman mövcud olmuşdur.
Bizim burjualar, rəsmi fahişəlik hələ bir yana qalsın, öz fəhlələrinin arvad və qızlarının onların ixtiyarında olması ilə kifayətlənməyərək, bir-birinin arvadlarını ələ keçirməkdən xüsusi bir həzz alırlar.
Burjua kəbini əslində arvadların ümumiliyi deməkdir. Kommunistləri bəlkə də ancağ bunda ittiham etmək olardı ki, guya onlar arvadların riyakarlıqla pərdələnən gizli ümumiliyi əvəzinə rəsmi, açıq ümumiliyini həyata keçirmək istəyirlər. Lakin özlüyündə aydındır ki, indiki istehsal munasibətləri məhv edildikdə, bu münasibətlərdən doğan arvad umumiliyi də, yə`ni rəsmi və qeyri-rəsmi fahişəlik də yox olacaqdır.
Sonra, kommunistləri ittiham edirlər ki, kuya onlar vətəni, milliyyəti ləğv etmək istəyirlər.
Fəhlələrin vətəni yoxdur. Fəhlələrin olmayan bir şeyini onların əlindən almaq da olmaz. Proletariat ən əvvəl siyasi hökmranlığı ələ almalı, milli sinif vəziyyətinə çatmalı (1888-ci il ingiliscə nəşrivdə «milli sinif vəziyyətinə çatmalı» sözləri əvəzinə «millətin qabaqcıl sinfi vəziyyətinə çatmalı» çap edilmişdir. Red.) və bir millət kimi təşəkkül tapmalı olduğundan özü hələ millidir, hərçənd bu millilik heç də burjuaziyanın anladığı mə`nada deyildir.
Burjuaziya inkişaf etdikcə, ticarət azadlığı, ümumdünya bazarı yarandıqca, sənaye istehsalı və buna uyğun olan həyat şəraiti eyniləşdikcə, xalqların milli ayrılığı və əksliklәri getdikcə daha çox aradan qalxır.
Proletariatın hökmranlığı bunların aradan qalxmasını daha çox sür`ətləndirəcəkdir. Qüvvələri birləşdirmək, heç olmazsa, mədəni ölkələrin qüvvələrini birləşdirmək proletariatın azad olması üçün ilk şərtlərdən biridir.
Bir fərdi başqa fərdin istismar etməsi məhv edildiyi dərəcədə, bir milləti başqa millətin istismar etməsi də məhv ediləcəkdir.
Millətlər daxilində siniflərin antaqonizmi ilə birlikdə millətlər arasındakı düşmənçilik münasibətləri də yox olub gedəcəkdir.
Dini, fəlsəfi və ümumiyyətlə ideoloji nöqteyi-nəzərlərdən kommunizmə qarşı irəli sürülən ittihamları ətraflı nəzərdən keçirməyinə dəyməz.
İnsanların həyat şəraiti, onların ictimai münasibətləri, onların ictimai varlığı ilə birlikdə onların təsəvvürlərinin, baxışlarının və anlayışlarının, bir

sözlə, onların şüurunun da dəyişildiyini anlamaq üçün məgər xüsusi bir dərin düşüncəmi lazımdır?
İdeyalar tarixi mə'nəvi istehsalın maddi istehsalla birlikdə dəyişildiyini deyilsə, bəs nəyi sübut edir? hər hansı zəmanənin hakim ideyaları həmişə ancaq hakim sinfin ideyaları olmuşdur.
Bütün cəmiyyəti inqilabiləşdirən ideyalardan bəhs edirlər; bununla da yalnız belə bir faktı ifadə edirlər ki, köhnə cəmiyyət daxilində yeni cəmiyyətin ünsürləri əmələ gəlmişdir, köhnə həyat şəraitinin dağılması ilə yanaşı köhnə ideyalar da dağılır.
Qədim dünya məhv olmağa üz qoyduğu zaman xristian dini qədim dinləri məğlub etdi. XVIII əsrdə maarifçilik ideyalarının zərbələri altında xristianlıq ideyaları məhv olduğu zaman feodalizm cəmiyyəti o vaxt inqilabçı olan burjuaziya ilə ölüm-dirim döyüşünə kirmişdi. Viçdan və din azadlığı ideyaları bilik sahəsində yalnız azad rəqabətin hökmranlığını ifadə edirdi.
Bizə deyə bilərlər: «lakin dini, mə`nəvi, fəlsəfi, siyasi, hüquqi ideyalar və i. a. tarixi inkişaf gedişində, əlbəttə, dəyişilmişdir. Din, əxlaq, fəlsəfə, siyasət, hüquq isə arasıkəsilməyən bu dəyişilmə zamanı daim qalmışdır. Bundan əlavə, ictimai inkişafın bütün mərhələləri üçün ümumi olan azadlıq, ədalət və i. a. kimi əbədi həqiqətlər vardır. Kommunizm isə əbədi həqiqətləri ləğv edir, dini, əxlaqı yeniləşdirmək əvəzinə bunları ləğv edir deməli, kommunizm tarixi inkişafın bütün əvvəlki gedişinə ziddir».
Bu ittiham nədən ibarətdir? İndiyə qədər mövcud olmuş bütün cəmiyyətlərin tarixi müxtəlif dövrlərdə müxtəlif şəkillər alan sinfi əksliklər daxilində hərəkət etmişdir.
Lakin bu əksliklər nə kimi formalarda olsa da, cəmiyyətin bir hissəsini digər hissəsinin istismar etməsi bütün keçmiş əsrlər üçün ümumi olan bir faktdır. Buna görə də təəccüblü deyildir ki, bütün əsrlərdəki ictimai şüur, bütün müxtəlifliyinə və bütün fərqlərinə baxmayaraq, müəyyən ümumi formalarda hərəkət edir, elə şüur formalarında hərəkət edir ki, bunlar yalnız siniflərin əksliyi qəti surətdə yox olacağı zaman tamamilə yox olacaqdır.
Kommunist inqilabı keçmişdən irs qalan mülkiyyət münasibətləri ilə əlaqənin ən qəti surətdə kəsilməsi deməkdir; təəccüblü deyildir ki, öz inkişafı gedişində bu inqilab keçmişdən irs qalan ideyalarla əlaqəni ən qəti surətdə kəsir.
Lakin burjuaziyanın kommunizmə qarşı e`tirazlarını bir kənara qoyaq.

Biz artıq yuxarıda gördük ki, fəhlə inqilabında birinci addım proletariatın hakim sinfə çevrilməsi, demokratiya əldə edilməsidir.
Proletariat öz siyasi hökmranlığından bütün kapitalı addımbaadım burjuaziyanın əlindan almaq, bütün istehsal alətlərini dövlətin, yə`ni hakim sinif halında təşkil olunmuş proletariatın əlində mərkəzləşdirmək və məhsuldar qüvvələr məcmusunu mümkün qədər sür`ətlə artırmaq üçün istifadə edəcəkdir.
Bu, əlbəttə, əvvəlcə mülkiyyət hüququna və burjua istehsal münasibətlərinə ancaq zorakı müdaxilə vasitəsi ilə, yə`ni iqtisadi cəhətdən yarıtmaz və əsassız görünən, lakin hərəkət gedişində böyüyüb öz çərçivəsindən kənara çıxan (1888-ci il ingiliscə nəşrində «böyüyüb öz çərçivəsndən kənara çıxan» sözlərindən sonra «köhnə ictimai quruluş üzərinə yeni həmlələri zəruri edən» sözləri əlavə olunmuşdur. Red.) və bütün istehsal üsulunda çevriliş üçün bir vasitə kimi labüd olan tədbirlər vasitəsi ilə mümkündür. Əlbəttə, müxtəlif ölkələrdə bu tədbirlər müxtəlif olacaqdır.
Lakin ən qabaqcıl ölkələrin, demək olar, hamısında aşağıdakı tədbirlər tətbiq edilə bilər:
1. Torpaq mülkiyyətindən məhrum etmək və torpaq rentasından dövlət xərclərinin ödənilməsi üçün istifadə etmək.
2. Yüksək mütərəqqi vergi.
3. Vərəsəlik hüququnu, ləğv etmək.
4. Bütün mühacirlərin və qiyamçıların əmlakını müsadirə etmək.
5. Dövlət kapitalına və müstəsna inhisara malik milli bank vasitəsi ilə krediti dövlət əlində mərkəzləşdirmək.
6. Bütün nəqliyyatı dövlətin əlində mərkəzləşdirmək.
7. Ümumi plan üzrə dövlət fabriklərinin, istehsal alətlərinin sayını artırmaq, torpaqları əkin üçün təmizləmək və yaxşılaşdırmaq.
8. Əməyin hamı üçün eyni dərəcədə məcburiliyi, sənaye orduları təşkil etmək, xüsusən əkinçilik üçün belə ordular təşkil etmək.
9. Əkinçiliyi sənaye ilə birləşdirmək, şəhərlə kənd arasındakı fərqin (1848-ci il nəşrində «şəhərlə kənd arasındakı əksliyin» yazılmışdır. 1872-ci il nəşrində və almanca sonrakı nəşrlərində «əksliyin» sözü «fərqin» sözü ilə əvəz edilmişdir. 1888-ci il ingiliscə nəşrində «şəhərlə kənd arqsındakı fərqin tədricən aradan qaldırılmasına kömək etmək» sözləri əvəzinə «əhalinin bütün ölkədə daha bərabər surətdə bölüşdürülməsi yolu ilə

şəhərlə kənd arasındakı fərqin tədricən aradan qaldırılması» çap edilmişdir. Red.) tədricən aradan qaldırılmasına kömək etmək.

10. Bütün uşaqlara ictimai və pulsuz tərbiyə vermək. Fabriklərdə müasir formadakı uşaq əməyini aradan qaldırmaq. Tərbiyəni maddi istehsalla birləşdirmək və i. a.

İnkişaf gedişində sinfi fərqlər məhv olacağı və butün istehsal fərdlərin assosiasiyası əlində toplaşacağı zaman ictimai hakimiyyət öz siyasi xarakterini itirəcəkdir. Sözün əsil mə`nasında siyasi hakimiyyət bir sinfi əzmək üçün digər sinfin mütəşəkkil zorakılığıdır. Burjuaziyaya qarşı mübarizədə proletariat hökmən bir sinif halında birləşirsə, inqilab yolu ilə özünü hakim sinfə çevirirsə və hakim sinif olub köhnə istehsal münasibətlərini zorla ləğv edirsə, bu istehsal münasibətləri ilə birlikdə o, sinfi əksliyin mövcud olması şəraitini məhv edir, ümumiyyətlə sinifləri məhv edir, bununla birlikdə bir sinif olmaq e`tibarı ilə öz hökmranlığını da məhv edir.

Siniflərin və sinfi əksliklərin mövcud olduğu köhnə burjua cəmiyyətinin yerini elə bir assosiasiya tutur ki, burada hər kəsin azad inkişafı hamının azad inkişafı üçün şərtdir.

III. SOSİALİST VƏ KOMMUNİST ƏDƏBİYYATI

1. MÜRTƏCE SOSİALİZM

a) Feodal sosializmi

Fransız və ingilis aristokratiyası öz tarixi vəziyyətinə görə, müasir burjua cəmiyyəti əleyhinə həcvlər yazmalı olmuşdur. Fransada 1830-cu il iyul inqilabında və İngiltərədə parlament islahatı uğrundakı hərəkatda52 mənfur bir törəmə bu aristokratiyanı bir daha məğlub etdi. Ciddi siyasi mübarizə barəsində daha danışıq da ola bilməzdi. Aristokratiyaya ancaq ədəbi mübarizə qalırdı. Lakin ədəbiyyat sahəsindədə Restavrasiya (1660–1689-cu illərdə İngiltərədəki Restavrasiya deyil, 1814–1830-cu illərdə Fransadakı Restavrasiya nəzərdə tutulur. (1888-ci il ingiliscə nəşrinə Engelsin qeydi.)) dövründəki köhnə ibarələr artıq mumkün deyildi. Aristokratiya rəğbət qazanmaq üçün özünü elə göstərməli idi ki, guya o daha öz mənafeyinin fikrinə qalmır və ancaq istismar olunan fəhlə sinfinin mənafeyini nəzərə alıb burjuaziyaya qarşı öz ittihamnaməsini tərtib edir. Aristokratiya özünün yeni hökmdarına həcvlər yazmaqdan və onun qulağına gələcək haqqında az-çox pis xəbərlər pıçıldamaqdan həzz alırdı.

Beləliklə, yarı dəfn nəğməsi–yarı həcv, yarı keçmişin sədası–yarı gələcəyin hədəsi olan bir feodal sosializmi əmələ gəldi ki, bu da çox zaman öz acı, kəskin, zəhərli hökmü ilə burjuaziyanın bağrını yarır, lakin müasir tarixin gedişini anlamaqda tam acizliyi ilə həmişə gülünc tə`sir bağışlayırdı. Aristokratiya xalqı öz dalınca aparmaq üçün proletariatın dilənçi torbasını əldə bayraq etmişdi. Lakin hər dəfə xalq aristokratiyanın dalınca getdikdə, onun yançağında köhnə feodal gerblərini görür, ucadan və ehtiramsızlıqla qəhqəhə çəkərək qaçıb dağılırdı.
Fransa legitimistlərinin bir hissəsi53 və «Gənc İngiltərə»54 belə bir komediya oynamaqla məşğul olurdu.
Əgər feodallar öz istismar üsullarınnn burjua istismarından fərqli olduğunu sübut edirlərsə, ancaq bunu unudurlar ki, onlar indi artıq keçib getmiş olan tamamilə başqa bir vəziyyət və şəraitdə istismar edirdilər. Əgər onlar öz hökmranlıqları zamanı müasir proletariatın olmadığını göstərirlərsə, bunu unudurlar ki, məhz muasir burjuaziya onların ictimai quruluşunun zəruri məhsulu idi.
Bir də, onlar öz tənqidlərinin mürtəce xarakterini çox az gizlətdiklərinə görə, onların burjuaziyaya qarşı başlıca ittihamı məhz bundan ibarət olur burjuaziyanın hökmranlığı dövründə elə bir sinif inkişaf edir ki, bu sinif butün köhnə ictimai quruluşu dağıdıb havaya sovuracaqdır.
Onlar burjuaziyanı ümumiyyətlə proletariat doğurmaqdan daha çox, inqilabçı proletariat doğurmaqda töhmətləndirirlər.
Buna görə də onlar siyasi praktikada fəhlə sinfinə qarşı bütün zorakı tədbirlərdə iştirak edirlər, adi həyatda isə, bütun dəbdəbəli ibarələrinin əksinə olaraq, qızıl almaları (1888-ci il ingiliscə nəşrində «qızıl almaları» sözündən əvvəl «sənaye ağacından tökülən» sözləri əlavə edilmişdir. Red.) yığışdırmaq, sədaqət, məhəbbət və namusu qoyun yunu, çuğundur və araq alverindən gələn qazanca dəyişmək fürsətini əldən qaçırmırlar (Bu, başlıca olaraq, Almaniyaya aiddir, burada torpaq aristokratiyası və yunkerlər öz torpaqlarının çox hissəsində təsərrüfatlarını öz iş müdirləri vasitəsi ilə öz hesablarına idarə edirlər və bundan əlavə, böyük şəkər və şərab zavodlarının sahibidirlər. Daha varlı olan ingilis aristokratları hələ bu dərəcəyə çatmamışlar lakin onlar da bilirlər ki, rentanın aşağı düşməsinin əvəzini çıxarmaq üçün öz adlarını az-çox şübhəli səhmdar cəmiyyətləri düzəldənlərə necə vermək olar (1888-ci il ingiliscə nəşrinə Engelsin qeydi)).

Keşiş həmişə feodalla əl-ələ verdiyi kimi, keşiş sosializmi də feodal sosializmi ilə əl-ələ vermişdir.
Xristian asketizminə sosializm rəngi verməkdən asan bir şey yoxdur. Məgər xristianlıq da xüsusi mülkiyyət əleyhinə, nigah əleyhinə, dövlət əleyhinə çıxmırdımı? Məgər o bunların əvəzinə xeyriyyəçiliyi və yoxsulluğu, nigahsızlığı və nəfsi öldürməyi, monastır həyatını və kilsəni təbliğ etmirdimi? Xristian sosializmi ancaq elə bir müqəddəs sudur ki, aristokratın qəzəbi tutanda keşiş bu suyu onun üzünə çiləyir.
b) Xırda burjua sosializmi
Feodal aristokratiyası burjuaziya tərəfindən devrilən və muasir burjua cəmiyyətində həyat şəraiti pisləşib aradan qalxan yeganə sinif deyildir. Orta əsrlərdəki şəhərlilər silki və xırda kəndlilər silki müasir burjuaziyanın sələfi olmuşdur. Sənaye və ticarət cəhətdən daha az inkişaf etmiş ölkələrdə bu sinif inkişaf etməkdə olan burjuaziya ilə yanaşı olaraq hələ indiyə qədər sürünməkdədir.
Müasir mədəniyyətin inkişaf etdiyi ölkələrdə proletariatla burjuaziya arasında tərəddüd edən yeni xırda burjuaziya əmələ gəlmiş və burjua cəmiyyətinin əlavə bir hissəsi olaraq daim yenidən əmələ gəlməkdədir. Lakin rəqabət bu sinfə mənsub olan şəxsləri daim proletariat sıralarına atır və onlar artıq elə bir zamanın yaxınlaşdığını görməyə başlayırlar ki, bu zaman iri sənaye inkişaf etdikdə, həmin şəxslər müasir cəmiyyətin müstəqil bir hissəsi olaraq tamamilə yox və ticarətdə, sənayedə, əkinçilikdə nəzarətçilər və muzdlu qulluqçularla əvəz ediləcəklər.
Bütün əhalinin yarıdan xeyli çoxunun kəndlilərdən ibarət olduğu Fransa kimi ölkələrdə burjuaziyaya qarşı proletariata tərəfdar çıxan və burjua quruluşunu tənqid edərkən xırda burjua və xırda kəndli me`yarına əl atıb, fəhlələrin işini xırda burjua nöqteyi-nəzərindən müdafiə edən yazıçıların meydana gəlməsi təbii idi. Xırda burjua sosializmi belə meydana gəlmişdir. Sismondi təkcə Fransada deyil, İngiltərədə də belə bir ədəbiyyatın başında durur.
Bu sosializm müasir istehsal münasibətlərindəki ziddiyyətləri çox yaxşı görə bilirdi. O, iqtisadçıların riyakar məddahlığını ifşa etmişdi. O, maşınlı istehsalın və əmək bölgüsünün dağıdıcı tə`sirini, kapitalların və torpaq sahibliyinin təmərküzləşdiyini, ifrat istehsalı, böhranları, xırda burjuaların və kəndlilərin labüddən məhv olacağını, proletariatın yoxsulluğunu, istehsal hərc-mərcliyini, sərvət bölgüsündə biabırçı bərabərsizlik olduğunu,

millətlər arasında dağıdıcı sənaye müharibəsi getdiyini, köhnə mə`nəviyyatın, köhnə ailə münasibətlərinin və köhnə milliyyətlərin pozulub dağıldığını qəti sübut etdi.
Lakin bu sosializm öz müsbət məzmunu cəhətdən buna çalışır ki, ya köhnə istehsal və mübadilə vasitələrini, bununla birlikdə isə mülkiyyət münasibətlərini və köhnə cəmiyyəti bərpa etsin, ya da müasir istehsal və mübadilə vasitələrini yenidən zorla köhnə mülkiyyət münasibətləri çərçivəsinə salsın, halbuki həmin münasibətləri müasir istehsal və mübadilə vasitələri artıq dağıtmışdır və mütləq dağıtmalı idi. Hər iki halda bu sosializm eyni zamanda həm mürtəce, həm də utopikdir.
Bu sosializmin ən yüksək məqsədi sex halında qurulmuş sənaye və patriarxal kənd təsərrüfatıdır.
Bu məslək sonrakı inkişafında qorxaq bir donqultuya çevrilmişdir (1888-ci il ingiliscə nəşrində «Bu məslək sonrakı inkişafında qorxaq bir donqultuya çevrilmişdir» sözləri əvəzinə belə çap edilmişdir «Ən nəhayət, qəti tarixi faktlar xülyaların həzz verən tə`sirinin bütün izlərini aradan qalxmağa məcbur etdikdə, sosializmin bu forması qorxaq bir donqultuya çevrilmişdir». Red.).
c) Alman sosializmi, yaxud «həqiqi» sosializm
Hökmran burjuaziyanın zülmü altında meydana gələn və bu hökmranlığa qarşı mübarizənin ədəbi ifadəsi olan Fransa sosialist və kommunist ədəbiyyatı Almaniyaya elə bir zamanda keçirilmişdi ki, bu zaman Almaniyada burjuaziya feodal mütləqiyyətinə qarşı öz mübarizəsini yenicə başlamışdı.
Alman filosofları, yarımfilosofları və gözəl ibarə həvəskarları ehtirasla bu ədəbiyyatdan yapışmışdılar, ancaq unutmuşdular ki, bu əsərlər Fransadan Almaniyaya keçirilirkən, eyni zamanda Fransadakı həyat şəraiti oraya keçirilməmişdi. Almaniya şəraitində fransız ədəbiyyatı özünün bütün bilavasitə əməli əhəmiyyətini itirdi va xalis bir ədəbi cərəyan şəkli aldı. Bu ədəbiyyat insan mahiyyətinin həyata keçirilməsi haqqında mə`nasız əllaməlik xarakteri almalı idi. Məsələn, birinci Fransa inqilabının tələbləri XVIII əsr alman filosofları üçün yalnız ümumiyyətlə «əməli zəkanın» tələbləri olaraq bir əhəmiyyətə malik idi, inqilabçı fransız burjuaziyası iradəsinin təzahürləri isə onların nəzərində xalis iradə qanunları, əslində iradə necə olmalıdırsa, belə bir iradənin, həqiqi insan iradəsinin qanunları əhəmiyyətinə malik idi.

Alman ədəbiyyatçılarının gördüyü bütün iş ancaq ondan ibarət idi ki, yeni fransız ideyalarını öz köhnə fəlsəfi vicdanları ilə barışdırsınlar, yaxud daha doğrusu, fransız ideyalarını öz fəlsəfi nöqteyi-nəzərlarindən mənimsəsinlər. Ümumiyyətlə başqa bir dil nə yolla mənimsənilirsə, bunu da eyni yolla, tərcümə vasitəsi ilə mənimsədilər.

Mə`lumdur ki, qədim bütpərəstlik zamanlarının klassik əsərlərinin əlyazmalarında monaxlar mətnin üstündən katölik müqəddəslərinin mə`nasız tərcümeyi-hallarını yazırdılar. Alman ədəbiyyatçıları küfr edən fransız ədəbiyyatı ilə lap əksinə rəftar etdilər. Fransız orijinalı altından onlar özlərinin fəlsəfi cəfəngiyatını yazdılar. Məsələn, pul münasibətlərinin fransız tənqidi altından onlar «insan mahiyyətinin özgələşməsi», burjua dövlətinin fransız tənqidi altından «Abstrakt-Küllün hökmranlığının ləğv edilməsi» və i. a. yazdılar.

Onlar fransız nəzəriyyələri altından soxuşdurub yazdıqları öz fəlsəfi cümləpərdazlıqlarına «fəaliyyət fəlsəfəsi», «həqiqi soonalizm», «alman sosializm elmi», «sosializmin fəlsəfi cəhətdən əsaslandırılması» və i. a. adını verdilər.

Beləliklə, fransız sosialist-kommunist ədəbiyyatı tamamilə məzmunsuzlaşdırılmış oldu. Həm də almanların əlində bu ədəbiyyat daha bir sinfin başqa sinfə qarşı mübarizəsini ifadə etmədiyinə görə, almanlar bu əqidədə idilər ki, onlar «fransız birtərəfliyindən» yüksəyə qalxmışlar, həqiqi tələbat əvəzinə, həqiqətə olan tələbatı müdafiə edirlər, proletariatın mənafeyi əvəzinə isə insan mahiyyətinin mənafeyini, ümumiyyətlə insanın mənafeyini, heç bir sinfə mənsub olmayıb ümumiyyətlə həyatda deyil, fəlsəfə xülyasının dumanlı fəzalarında mövcud olan insanın mənafeyini müdafiə edirlər.

Öz aciz şagird məşğələlərini bu qədər ciddi və mühüm bir şey hesab edən və bunları bu qədər gurultu ilə tə`rifləyən həmin alman sosializmi get-gedə öz pedant mə`sumluğunu itirdi.

Feodallara və mütləq monarxiyaya qarşı alman burjuaziyasının, xüsusən Prussiya burjuaziyasının mübarizəsi–bir sözlə, liberal hərəkat get-gedə daha çox ciddiləşirdi.

Beləliklə, «həqiqi» sosializmin arzu etdiyi fürsət ələ duşdü və o da siyasi hərəkata sosialist tələblərini qarşı qoyur, liberalizmə, numayəndəli dövlətə, burjua rəqabətinə, burjua mətbuat azadlığına, burjua hüququna, burjua azadlığına və bərabərliyinə bir ən`ənə olaraq lə`nətlər yağdırır və xalq

kütləsinə təbliğ edirdi ki, bu burjua hərəkatında xalq kütləsi heç bir şey qazana bilməz, əksinə, hər şeyi itirə bilər. Fransız tənqidinin miskin əks-sədası olan alman sosializmi çox yerində unudurdu ki, fransız tənqidi meydana gələn zaman muasir burjua cəmiyyəti, buna müvafiq maddi həyat şəraiti və müvafiq siyasi konstitusiya var idi, yə`ni bütün elə müqəddəm şərtlər var idi ki, Almaniyada bunlara nail olmaq haqqında hələ yenicə danışırdılar.

Çoxlu keşişləri, məktəb murəbbiləri, ətalətli yunkerləri və bürokratları olan Almaniya mütləqiyyət hökumətləri üçün bu sosializm hədələyici surətdə hücuma keçən burjuaziyaya qarşı vaxtındaca ələ keçən bir uyuq idi.

Bu sosializm alman fəhlələrinin üsyanlarını yatırarkən həmin hökumətlərin istifadə etdikləri qamçıların və tüfəng güllələrinin acısına qatılmış bir şərbət idi.

Bu yolla «həqiqi» sosializm hökumətlərin əlində alman burjuaziyasına qarşı bir silah olurdusa, həmçinin bilavasitə mürtəce mənafeyi, alman meşşanlarının mənafeyini də ifadə edirdi. Almaniyada mövcud vəziyyətin gerçək ictimai əsasını XVI əsrdən irs qalan və o zamandan e`tibarən bu və ya başqa formada daim yenidən meydana çıxan xırda burjuaziya təşkil edir. Xırda burjuaziyanın saxlanması Almaniyada mövcud vəziyyətin saxlanması deməkdir. Burjuaziyanın sənaye və siyasi hökmranlığı üzündən xırda burjuaziya, bir tərəfdən, kapitalın təmərküzləşməsi nəticəsində, digər tərəfdən, inqilabçı proletariatın artıb böyüməsi nəticəsində mütləq məhv olacağını böyük bir dəhşətlə közləyir. Xırda burjuaziyaya elə gəlirdi ki, «həqiqi» sosializm bir güllə ilə iki ov vurur. Buna görə də «həqiqi» sosializm yoluxucu bir xəstəlik kimi yayılırdı.

Fərziyyə torundan toxunmuş, əlvan bəlağət rəngləri ilə işlənmiş, şit bir heyranlıqdan döğan göz yaşları ilə isladılmış və alman sosialistləri tərəfindən özlərinin bir-iki cılız «əbədi həqiqətini» pərdələmək üçün istifadə edilən bu mistik örtük sayəsində onların mətahı həmin camaat arasında ancaq rəvac tapırdı.

Alman sosializmi özü də get-gedə daha çox başa düşürdü ki, onun vəzifəsi bu meşşanların dəbdəbəli nümayəndəsi olmaqdır.

Bu sosializm alman millətini nümunəvi bir millət, alman meşşanını isə insan nümunəsi e`lan etmişdi. Bu sosializm meşşanın hər bir alçaq hərəkətinə gizli və ülvi bir sosialist mə`nası verirdi, bu da onu özünun tam əksi olan bir şeyə çevirirdi. Axıra qədər ardıcıl olan bu sosializm «kobud

dağıdıcı» cərəyan adlandırdığı kommunizmin açıqca əleyhinə çıxırdı və bildirmişdi ki, əzəmətli qərəzsizliyə malik olan bu sosializm hər cür sinfi mübarizədən yüksəkdə durur. Almaniyada guya sosialist və kommunist əsərləri adı ilə yayılmış olan hər şey, kiçik bir istisna ilə, həmin çirkin və pozucu ədəbiyyat cümləsindəndir (1848-ci ildəki inqilab fırtınası bütun bu iyrənc cərəyanı aradan qaldırdı və onun nümayəndələrini sosializm adı ilə ehtikar etmək həvəsindən saldı. Bu cərəyanın başlıca nümayəndəsi və klassik tipi c-b. Karl Qründür (1890-cı il almanca nəşrinə Engelsin qeydi.)).

2. MÜHAFİZƏKAR SOSİALİZM YAXUD BURJUA SOSİALİZMİ

Burjuaziyanın müəyyən hissəsi burjua cəmiyyətinin varlığını möhkəmlətmək üçün ictimai xəstəlikləri sağaltmaq istəyir.

Buraya iqtisadçılar, filantroplar, insanpərvərlik mudafiəçiləri, zəhmətkeş siniflələrin rifahı üçün çalışanlar, xeyriyyəçilik təşkil edənlər, heyvanları himayə cəmiyyətlərinin üzvləri, əyyaşlıqla mübarizə cəmiyyətlərinin baniləri, ən müxtəlif növlərdən olan vecsiz islahatçılar daxildirlər. Bu burjua sosializmi hətta bütöv sistemlər şəklinə salınırdı.

Misal olaraq Prudonun «Yoxsulluq fəlsəfəsi» əsərini göstərək.

Burjua-sosialistlər müasir cəmiyyətin həyat şəraitini saxlamaq istəyir, lakin bu şəraitdən labüd olaraq doğan mübarizə və təhlükələri istəmirlər. Onlar müasir cəmiyyəti saxlamaq istəyir, lakin onu inqilabiləşdirən və pozan ünsürləri istəmirlər. Onlar proletariatsız burjuaziya olmasını istərdilər. Burjuaziyanın hökm sürdüyü dünya, əlbəttə, ona ən yaxşı bir dünya kimi görünür. Burjua sosializmi təsəlli verən bu təsəvvürü az-cox bütöv bir sistem şəklinə salır. Burjua sosializmi öz sistemini həyata keçirməyə və yeni Yerusəlimə girməyə proletariatı də`vət etməklə, əslində ancaq bunu tələb edir ki, proletariat indiki cəmiyyətdə qalsın, lakin bu cəmiyyətin mənfur bir şey olması təsəvvürunü bir tərəfə atsın.

Bu sosializmin nisbətən az müntəzəm, lakin daha əməli olan başqa bir forması hər cür inqilabi hərəkata qarşı fəhlə sinfində mənfi bir münasibət oyatmağa çalışaraq sübut etmək istəyirdi ki, fəhlə sinfinə bu və ya başqa bir siyasi dəyişiklik deyil, ancaq maddi həyat şəraitinin, iqtisadi münasibətlərin dəyişilməsi faydalı ola bilər. Lakin bu sosializm maddi həyat şəraitini dəyişdirmək dedikdə, yalnız inqilabi yolla məhv edilə bilən burjua istehsal münasibətlərinin heç də məhv edilməsini deyil, həmin istehsal münasibətləri zəminində həyata keçirilən, deməli, kapitalla muzdlu

əmək arasındakı münasibətlərdə heç bir şeyi dəyişdirməyən, olsa-olsa, yalnız burjuaziyanın hökmranlığı xərclərini azaldan və onun dövlət təsərrüfatını sadələşdirən inzibati yaxşılaşdırmaları nəzərdə tutur.
Burjua sosializmi ancaq sadəcə bir natiq cümləpərdazlığına çevrildiyi zaman özünün ən münasib ifadəsini tapır.
Azad ticarət! özü də fəhlə sinfinin xeyrinə; himayə gömrükləri! özü də fəhlə sinfinin xeyrinə; bir adamlıq həbsxanalar! özü də fəhlə sinfinin xeyrinə–burjua sosializminin yeganə ciddi söylədiyi son sözü bax budur.
Burjuaziyanın sosializmi məhz belə bir müddəadan ibarətdir ki, burjualar burjua-dır,–özü də fəhlə sinfinin xeyrinə.

3. TƏNQİDİ-UTOPİK SOSİALİZM VƏ KOMMUNİZM

Biz burada yeni dövrun bütün böyük inqilablarında proletariatın tələblərini ifadə edən ədəbiyyatdan (Baböfun əsərləri və i. a.) bəhs etmirik.
Ümumi həyəcan zamanı, feodalizm cəmiyyətinin devrildiyi dövrdə proletariatın öz sinfi mənafeyini bilavasitə həyata keçirmək yolundakı ilk təşəbbusləri proletariatın özünun inkişaf etməmiş olması üzündən, habelə onun azadlığa çıxması üçün maddi şəraitin olmaması üzündən labüd surətdə boşa çıxırdı, çünki bu şərait yalnız burjua dövrünun məhsuludur.
Proletariatın bu ilk hərəkatları zamanı buraxılan inqilabi ədəbiyyat öz məzmunu cəhətdən labüd surətdə mürtəce ədəbiyyatdır. Bu ədəbiyyat ümumi bir asketizm və qaba bir bərabərçilik təbliğ edir.
Əslində sosialist və kommunist sistemləri, Sen-Simonun, Furyenin, Ouenin sistemləri və i. a. proletariatla burjuaziya arasındakı mübarizənin inkişaf etməmiş olduğu ilk dövründə meydana çıxır; bu dövrü yuxarıda təsvir etmişik (bax: «Burjuaziya və proletariat»).
Bu sistemləri ixtira edənlər, doğrudur, siniflərin əksliyini, habelə hakim cəmiyyətin öz daxilində dağıdıcı ünsürlərin tə`sirini görürlər. Lakin onlar proletariatın özünün heç bir tarixi özfəaliyyətini, ona məxsus heç bir siyasi hərəkatı görmürlər.
Sinfi antaqonizm sənayenin inkişafı ilə əlaqədar olaraq inkişaf etdiyinə görə, onlar da eyni ilə proletariatın azad olması üçün lazım gələn maddi şəraiti hələ tapa bilmirlər və bu şəraiti yaradacaq ictimai elm, ictimai qanunlar axtarırlar.
İctimai fəaliyyətin yerini onların şəxsi ixtiraçılıq fəaliyyəti, azad olmaq üçün lazım gələn tarixi şəraitin yerini xəyali şərait, proletariatın bir sinif halında tədricən təşkil olunmasının yerini onların uydurduqları resept

əsasında cəmiyyətin təşkil edilməsi tutmalı imiş. Onların fikrincə, bütün dünyanın gələcək tarixi onların ictimai planlarını təbliğ etməkdən və əməli surətdə həyata keçirməkdən ibarət olur.
Doğrudur, onlar anlayırlar ki, bu planları ilə başlıca olaraq, ən cəfakeş bir sinif olan fəhlə sinfinin mənafeyini müdafiə edirlər. Onların fikrincə, proletariat ancaq belə bir ən cəfakeş sinif kimi mövcuddur.
Lakin sinfi mübarizənin inkişaf etməmiş forması, habelə həyatda onların öz vəziyyəti üzündən onlar özlərini bu sinfi antaqonizmdən yüksəkdə hesab edirlər. Onlar cəmiyyətin bütün üzvlərinin, hətta ən yaxşı şəraitdə olanlarının da vəziyyətini yaxşılaşdırmaq istəyirlər. Buna görə də onlar, heç bir fərq qoymadan, daim bütün cəmiyyətə, hətta başlıca olaraq hakim sinfə müraciət edirlər. Onların fikrincə, onların sistemini təkcə başa düşmək kifayətdir ki, bu sistem mümkün olan cəmiyyətlərdən ən yaxşısı haqqında düzəldilmiş ən yaxşı bir plan hesab edilsin.
Buna görə də onlar hər cür siyasi fəaliyyəti, xüsusilə hər cür inqilabi fəaliyyəti rədd edirlər; onlar öz məqsədlərinə dinc yolla çatmaq istəyirlər, xırda və əlbəttə, baş tutmayan təcrübələr vasitəsi ilə, nümunə göstərməklə yeni ictimai ehkama yol açmağa çalışırlar.
Gələcək cəmiyyətin bu xəyali təsviri proletariatın hələ çox az inkişaf etmiş olduğu və buna görə də öz vəziyyətini hələ xəyali bir şəkildə təsəvvür etdiyi zaman meydana gəlir, bu xəyali təsvir proletariatın bütün cəmiyyəti dəyişdirmək üçün böyük bir duyğu olan ilk coşqunluğundan irəli gəlir.
Lakin bu sosialist və kommunist əsərlərində tənqidi ünsürlər də vardır. Bu əsərlər mövcud cəmiyyətin bütün əsasları üzərinə hücum edir. Buna görə də həmin əsərlərdə fəhlələrin maariflənməsi üçün son dərəcə qiymətli material verilmişdir. Gələcək cəmiyyət haqqında onların çıxardıqları müsbət nəticələr, məsələn, şəhərlə kənd arasındakı əksliyin məhv edilməsi (1888-ci il ingiliscə nəşrində bu yer belə ifadə edilmişdir «Onların təklif etdikləri əməli tədbirlər, məsələn, şəhərlə kənd arasındakı fərqin məhv edilməsi». Red.), ailənin, xüsusi varlanmanın, muzdlu əməyin məhv edilməsi, ictimai ahənkdarlıq e`lan edilməsi, dövlətin sadəcə istehsalı idarə etməyə çevrilməsi,–bütün bu müddəalar yalnız sinfi əksliyin aradan qaldırılması zərurətini ifadə edir, həmin əkslik isə o zaman yenicə inkişaf etməyə başlamışdı və onlara hələ müəyyən bir şəkil almamış ancaq ilkin halında mə`lum idi. Buna görə də həmin müddəalar da hələ tamamilə utopik xarakter daşıyır.

Tənqidi-utopik sosializmin və kommunizmin əhəmiyyəti tarixi inkişafa əks nisbətdədir. Siniflər mübarizəsi inkişaf edib get-gedə daha muəyyən formalar aldıqca, həmin mübarizədən yüksəklərə qalxmaq üçün göstərilən bu xəyali sə`y, həmin mübarizənin bu xəyali yolla aradan qaldırılması bütün əməli mə`nasını və bütün nəzəri qiymətini itirir. Buna görə də həmin sistemlərin baniləri bir çox cəhətdən inqilabi əhvali-ruhiyyəli olsalar da, onların şagirdləri həmişə mürtəce təriqətlər təşkil edirlər. Bunlar proletariatın sonrakı tarixi inkişafına baxmayaraq, öz müəllimlərinin köhnə baxışlarından bərk-bərk yapışırlar. Buna görə də onlar ardıcıl surətdə sinfi mübarizəni yenidən kütləşdirməyə və əksilikləri barışdırmağa çalışırlar. Onlar hələ də öz ictimai utopiyalarını təcrübələr yolu ilə həyata keçirmək, ayrı-ayrı falansterlər duzəltmək, daxili koloniyalar («Home-colonies») təşkil etmək, yeni Yerusəlimin kiçik nüsxəsi olan balaca İkariya (Furyenin nəzərdə tutduğu sosialist koloniyaları falanster adlanırdı Kabe öz utopik ölkəsini, sonralar isə Amerikadakı öz kommunist koloniyasını İkariya adlandırırdı. (1888 ci il ingiliscə nəşrinə Engelsin qeydi).

Ouen öz nümunəvi kommunist cəmiyyətlərini «Home-colonies (ölkə daxilində koloniyalar) adlandırırdı. Furyenin nəzərdə tutduğu ictimai saraylar falanster adlanırdı. İkariya utopik-xəyali ölkəyə deyilirdi ki, bunun da kammunist müəssisələrini Kabe təsvir etmişdi. (1890-cı il almanca nəşrinə Engelsin qeydi).) qurmaq kimi xəyallar bəsləyirlər,–və butün bu xəyali qəsrləri tikmək üçün burjua qəlblərinin və pul kisələrinin insansevərliyinə müraciət etməyə məcbur olurlar. Tədricən bunlar yuxarıda təsvir olunmuş irticaçı və ya mühafizəkar sosialistlər sırasına düşürlər və onlardan ancaq bununla fərqlənirdilər ki, daha müntəzəm bir pedantlıq göstərir və öz ictimai elmlərinin ecazkar bir qüvvəsi olmasına fanatik e`tiqad bəsləyirlər.

Məhz buna görə də onlar bu qədər qızğınlıqla fəhlələrin hər cür siyasi hərəkatı əleyhinə çıxır və belə düşünürlər ki, bu hərəkat ancaq yeni ehkama kor-korana inanmamaqdan irəli gəlir.

İngiltərədə ouençilər çartistlərə qarşı, Fransada furyeçilər isə reformistlərə55 qarşı çıxırlar.

IV. MÜXTƏLİF MÜXALİFƏTÇİ PARTİYALARA KOMMUNİSTLƏRİN MÜNASİBƏTİ

II bölmədə deyilənlərdən sonra, artıq təşəkkül tapmış fəhlə partiyalarına kommunistlərin münasibəti, yə`ni İngiltərədə çartistlərə və Şimali Amerikada aqrar islahatı tərəfdarlarına onların munasibəti aydındır. Kommunistlər fəhlə sinfinin ən yaxın məqsəd və mənafeyi uğrunda mübarizə edirlər, lakin eyni zamanda bu günkü hərəkatda onlar hərəkatın gələcəyini də müdafiə edirlər. Fransada, mühafizəkar və radikal burjuaziyaya qarşı mübarizədə kommunistlər sosialist-demokrat partiyasına (Bu partiyanı o zaman parlamentdə Ledrü-Rollen, ədəbiyyatda Lui Blan, gündəlik mətbuatda «Reforme»qəzeti təmsil edirdi. Onlar işlətdikləri bu adı sosialist demokrat partiyası adını–demokratik və ya respublikaçı partiyanın az-cox sosialist rənginə boyanmış hissəsinə vermişdilər. (1888-ci il ingiliscə nəşrinə Engelsin qeydi).
Fransada özünü sosialist-demokrat partiyası adlandıran partiyanı siyasi həyatda Ledrü-Rollen, ədəbiyyatda Lui Blan təmsil edirdi; beləliklə, bu partiya müasir alman sosial-demokratiyasından yerlə göy qədər fərqli idi. (1891-ci il almanca nəşrinə Engelsin qeydi).) qoşulurlar, bununla bərabər inqilabi ən`ənədən irəli gələn ibarə və xülyalara tənqidi yanaşmaq hüququndan da əl çəkmirlər.
İsveçrədə onlar radikallara kömək edir, lakin bunu da nəzərdən qaçırmırlar ki, həmin partiya bir-birinə zidd ünsürlərdən, qismən fransızsayağı demokratik sosialistlərdən, qismən də radikal burjualardan ibarətdir.
Polyaklar arasında kommunistlər aqrar inqilabını milli azadlıq üçün şərt qoyan partiyaya, 1846-cı ildə Krakov üsyanını doğuran partiyaya kömək edirlər.
Almaniyada burjuaziya inqilabi çıxış etdiyinə görə, Kommunist Partiyası onunla əlbir olub mütləq monarxiyaya, feodal torpaq mülkiyyətinə və irticaçı meşşanlara qarşı mübarizə edir.
Lakin Kommunist Partiyası burjuaziya ilə proletariat arasında olan düşmən əksliyini fəhlələrin mümkün qədər daha aydın başa düşmələri üçün hər dəqiqə çalışır ki, alman fəhlələri burjuaziya hökmranlığının yaratmalı olduğu ictimai və siyasi şəraitdən onun özünə qarşı dərhal bir silah kimi istifadə edə bilsinlər, Almaniyadakı irticaçı siniflər devrildikdən sonra dərhal burjuaziyanın özunə qarşı mübarizə başlansın.
Kommunistlər başlıca diqqətlərini Almaniyaya verirlər, çünki Almaniya burjua inqilabı ərəfəsindədir, çünki Almaniya bu çevrilişi ümumiyyətlə Avropa mədəniyyətinin daha mütərəqqi şəraitində edəcəkdir, XVII əsrdəki

İngiltərədə və XVIII əsrdəki Fransada olan proletariatdan xeyli artıq inkişaf etmiş bir proletariatla edəcəkdir. Deməli, Almaniya burjua inqilabı proletar inqilabının yalnız bilavasitə müqəddiməsi ola bilər.
Bir sözlə, kommunistlər hər yerdə mövcud ictimai və siyasi quruluşa qarşı yönəldilən hər cür inqilabi hərəkata kömək edirlər.
Bütün bu hərəkatlarda onlar mülkiyyət məsələsini, onun çox və ya az inkişaf etmiş bir forma almasından asılı olmayaraq, hərəkatın əsas məsələsi kimi birinci yerə qoyurlar.
Nəhayət, kommunistlər hər yerdə bütün ölkələrin demokratik partiyalarının birləşməsinə və razılığa gəlməsinə çalışırlar.
Kommunistlər öz baxış və niyyətlərini gizlətməyi mənfur bir şey hesab edirlər. Onlar açıq bildirirlər ki, məqsədləri yalnız bütün mövcud ictimai quruluşu zorakılıqla devirmək yolu ilə əldə edilə bilər. Qoy hakim siniflər Kommunist İnqilabı qarşısında lərzəyə düşsünlər. Proletarlar bu inqilabda öz zəncirlərindən başqa heç bir şey itirməyəcəklər. Qazanacaqları isə bütün dünya olacaqdır.
BÜTÜN ÖLKƏLƏRİN PROLETARLARI, BİRLƏŞİN!
K.Marks və F.Engels tərəfindən 1847-ci ilin dekabrında–1848-ci ilin yanvarında yazılmışdır.
İlk dəfə 1848-ci ilin fevralında Londonda ayrıca kitab şəklində çap edilmişdir.

K.MARKS
BURJUAZİYA VƏ ƏKSİNQİLAB
İKİNCİ MƏQALƏ58

Köln, 11 dekabr. Mart tufanı–«en miniature» (balaça, kiçik. Red.) tufan,– qopub sovuşduqdan sonra Berlin torpağı üzərində hər hansı divlər deyil, inqilab nəhəngləri deyil, köhnə tipli vücudlar, pota burjua fiqurları– «Birləşmiş landtaq»59 liberalları, Prussiyanın şüurlu burjuaziyasının nümayəndələri qaldılar. Burjuaziyası ən çox inkişaf etmiş vilayətlər, Reyn vilayəti və Sileziya yeni nazirliklərə alam verən başlıca mənbə oldu. Onların ardınca Reyn hüquqşünaslarının bütöv bir silsiləsi gəlir. Feodallar burjuaziyanı arxa sıraya sıxışdırdıqca Reyn vilayəti və Sileziya nazirliklərdə yerləri köhnə Prussiya vilayətlərinə verirdilər. Brandenburq nazirliyi hələ Reyn vilayəti ilə bircə Elberfeld torisi vasitəsi ilə əlaqədardır. Hanzeman, və fon der Heydt! Bu iki ad Prussiya burjuaziyası üçün 1848-ci ilin martı və dekabrı arasındakı bütün fərqi təcəssüm etdirir!

Prussiya burjuaziyası dövlət hakimiyyəti zirvəsinə qaldırılmışdı, lakin özünün istədiyi kimi, tax-ttacla dinc saziş yolu ilə deyil, inqilab sayəsində qaldırılmışdı. Prussiya burjuaziyasına xalq hdrəkatı yol açmış olduğuna görə bu burjuaziya öz mənafeyini deyil, xalqın mənafeyini taxt-taca qarşı, yə`ni özü-özünə qarşı müdafiə etməli idi. Lakin taxt-tac onun nəzərində yalnız ilahi bir pərdə olub burjuaziyanın öz dünyəvi mənafeyi bu pərdənin arxasında gizlənməli idi. Həmin burjuaziyanın öz mənafeyinin və bu mənafeyə uyğun olan siyasi formaların toxunulmazlığı, konstitusiya dili ilə dedikdə, tax-ttacın toxunulmazlığını bildirməli idi. Buradan da alman və xüsusən Prussiya burjuaziyasının konstitusiyalı monarxiya xəyalları meydana gəlir. Buna görə də fevral inqilabı, dövlət gəmisi sükanını Prussiya burjuaziyasına verdiyi üçün Almaniyadakı əks-sədaları ilə birlikdə həmin burjuaziyaya faydalı olsa da, eyni zamanda onun ümidlərini dolaşdırdı, çünki indi onun hökmranlığı özünün istəmədiyi və yerinə yetirə bilməyəcəyi şərtlərlə bağlı idi.

Burjuaziya əlini ağdan qaraya vurmadı və xalqa imkan verdi ki, onun üçün çarpışsın. Buna görə də burjuaziyaya verilən hakimiyyət, öz düşməninə qalib gəlmiş bir sərkərdənin hakimiyyəti deyil, qalib gəlmiş xalqın öz mənafeyini qorumağı e`tibar edib tapşırdığı təhlükəsizlik komitəsinin hakimiyyəti idi.

Kamphauzen belə bir vəziyyətin bütün uyğunsuzluğunu hələ hiss edirdi; odur ki, onun hökumətinin bütün zəifliyi bu hissdən və bu hissi doğuran şəraitdən irəli gəlir. Buna görə də onun hökumətinin ən həyasız tədbirləri həya rənginə bənzər bir şeyə boyanmış olur. Açıq həyasızlıq və utanmazlıq Hanzemanın üstünlüyünü təşkil edirdi. Bu iki rəssam arasındakı yeganə fərq qırmızılıq çalarından ibarətdir.

Prussiyadakı mart inqilabını nə 1648-ci ildəki İngiltərə inqilabı ilə, nə də 1789-cu ildəki Fransa inqilabı ilə qarışdırmaq lazım deyildir.

1648-ci ildə burjuaziya yeni zadəganlarla ittifaq bağlayıb monarxiya əleyhinə, feodal zadəganlar əleyhinə və hakim kilsə əleyhinə mübarizə edirdi.

1789-cu ildə burjuaziya xalqla ittifaq bağlayıb monarxiya əleyhinə, zadəganlar və hakim kilsə əleyhinə mübarizə edirdi.

1789-cu il inqilabı üçün ancaq 1648-ci il inqilabı (heç olmazsa Avropada) nümunə idi, 1648-ci il inqilabı üçün isə ancaq niderlandlıların İspaniya əleyhinə üsyanı60 nümunə idi. Bu inqilablardan hər biri öz qarşısındakı

nümunəyə nisbətən yalnız zaman e`tibarı ilə deyil, məzmun e`tibarı ilə də yüz il irəli getmişdi.
Hər iki inqilabda burjuaziya doğrudan da hərəkata başçılıq edən sinif idi. Proletariatın və şəhər əhalisinin Burjuaziyaya mənsub olmayan təbəqələrinin ya hələ burjuaziyanın mənafeyindən ayrı heç bir mənafeyi yox idi, ya da bunlar hələ müstəqil inkişaf etmiş siniflər və ya sinfin hissələri deyildilər. Buna görə də, onlar, məsələn, 1793 və 1794-cü illərdə Fransada olduğu kimi, burjuaaiyanın əleyhinə çıxdıqları yerdə, burjua üsulu ilə olmasa da, ancaq burjuaziyanın mənafeyini həyata keçirmək uğrunda mübarizə edirdilər. Fransadakı bütün terrorçuluq burjuaziyanın düşmənlərinə, mütləqiyyətə, feodalizmə və meşşanlığa plebey üsulu ilə divan tutmaqdan başqa bir şey deyildi.
1648 və 1789-cu illərdəki inqilablar İngiltərə və Fransa inqilabları deyildi; bunlar Avropa miqyasında inqilablar idi. Bunlar cəmiyyətin müəyyən sinfinin köhnə siyasi quruluş üzərində qələbəsi deyildi; bunlar yeni Avropa cəmiyyətinin siyasi quruluşunu e`lan edirdi. Həmin inqilablarda burjuaziya qalib gəldi; lakin o zaman burjuaziyanın qələbəsi yeni ictimai quruluşun qələbəsi demək idi, burjua mülkiyyətinin feodal mülkiyyəti üzərində, millətin vilayətçilik üzərində, rəqabətin sex quruluşu üzərində, mülkiyyəti bölüb xırdalamağın mayorat üzərində, torpaq mülkiyyətçisi hökmranlığının mülkiyyətçini torpağa tabe etmək üzərində, maarifin mövhumat üzərində, ailənin nəsil adı üzərində, təşəbbüskarlığın qəhrəmanlıq tənbəlliyi üzərində, burjua hüququnun orta əsrlərə məxsus imtiyazlar üzərində qələbəsi demək idi. 1648-ci il inqilabı on yeddinci əsrin on altıncı əsrə qarşı inqilabı, 1789-cu il inqilabı isə–on səkkizinci əsrin on yeddinci əsr üzərində qələbəsi idi. Həmin inqilablar dünyada baş verdikləri yerlərin, yə`ni İngiltərə və Fransanın tələbatından daha çox bütün o zamankı dünyanın tələbatını ifadə edirdi.
Prussiyadakı mart inqilabında belə bir şey əsla yox idi.
Fevral inqilabı işdə konstitusiyalı monarxiyanı və ideya cəhətincə burjuaziyanın hakimiyyətini məhv etdi. Prussiyadakı mart inqilabı ideya cəhətincə konstitusiyalı monarxiya və işdə burjuaziyanın hakimiyyətini yaratmalı idi. Avropa inqilabına çevrilməkdən uzaq olan həmin inqilab Avropa inqilabının geri qalmış bir ölkədə zəif əks-sədasından başqa bir şey deyildi. Prussiyadakı mart inqilabı öz əsrini ötüb keçmək əvəzinə, ondan yarım əsrdən də çox geri qalırdı. Həmin inqilab lap əvvəldən təkrar baş

verən bir hadisə idi, təkrar baş verən xəstəliklər isə, mə`lum olduğu kimi, daha çətin müalicə olunur və eyni zamanda orqanizmi ilk dəfə baş verən xəstəlikdən daha çox dağıdır. Məsələ yeni cəmiyyət yaratmaq üzərində deyil, Parisdə ölüb getmiş cəmiyyəti Berlində yenidən dirçəltmək üzərində idi. Prussiyadakı mart inqilabı hətta milli bir inqilab, alman inqilabı deyil, lap əvvəldən vilayət-Prussiya inqilabı idi. Vyana, Kassel, Münxen üsyanları və hər cür vilayət üsyanları Prussiyadakı mart inqilabı ilə yanaşı olaraq davam edir və ona nisbətən birinci yeri tutmağa çalışırdı.
1648 və 1789-cu illərdəki inqilablar yaradıcılıq zirvəsi olduğu ilə hədsiz dərəcədə fəxr etdiyi halda, 1848-ci il Berlin inqilabı anaxronizm olması ilə lovğalanırdı. Onun işığı elə uzaq ulduzların işığına bənzəyirdi ki, bunların işığı bizə, Yer üzündə yaşayanlara, ulduzun özü sönəndən 100 000 il sonra gəlib çatır. Prussiyadakı mart inqilabı ümumiyyətlə hər şeyi kiçik ölçüdə təmsil etdiyi kimi Avropa üçün belə bir ulduzu da kiçik ölçüdə təmsil edirdi. Onun işığı, çoxdan sönüb getmiş cəmiyyətin verdiyi işıq idi.
Alman burjuaziyası elə süst, qorxaq və ləng inkişaf edirdi ki, feodalizm və mütləqiyyətə qarşı düşmən mövqeyində durduğu zaman, o özü proletariata qarşı və şəhər əhalisi içərisində mənafeyi və ideyaları proletariata yaxın olan bütün təbəqələrə qarşı düşmən mövqeyində durmuş oldu. Alman burjuaziyası yalnız öz arxasındakı sinfi deyil, qabağındakı bütün Avropanı da özünə qarşı düşmən mövqeyində gördü. 1789-cu il Fransa burjuaziyasından fərqli olaraq Prussiya burjuaziyası köhnə cəmiyyətin nümayəndələrinə, monarxiyaya və zadəganlara qarşı bütün müasir cəmiyyət adından çıxış edən bir sinif deyildi. Prussiya burjuaziyası həm taxt-tacdan, həm də xalqdan ayrıca duran, onların hər ikisinə qarşı müxalifət əhvali-ruhiyyəsində olan, düşmənlərinin hər ikisini həmişə ya özündən irəlidə, ya da geridə gördüyü üçün, təklikdə onların hər birinə qarşı qətiyyətsiz olan bir silk dərəcəsinə enmişdi; həmin burjuaziya ən əvvəldən xalqa xəyanət etməyə və köhnə cəmiyyətin tacdar nümayəndəsi ilə sazişə gəlməyə mail idi, çünki artıq onun özü köhnə cəmiyyətə mənsub idi o, köhnə cəmiyyətə qarşı yeni cəmiyyətin mənafeyini təmsil etmək deyil, köhnəlmiş cəmiyyət daxilində təzələnmiş mənafeyi təmsil edirdi; onun inqilab sükanı başında durmasına səbəb o deyildi ki, xalq onun arxasında durmuşdu, səbəb o idi ki, xalq onu öz qabağında itələyib aparırdı; o, yeni ictimai dövrün təşəbbüsünü təmsil etdiyinə görə deyil, yalnız köhnə ictimai dövrün narazılığını ifadə etdiyinə görə başda

durmuşdu; bu elə bir köhnə dövlət təbəqəsi idi ki, özü-özünə yol açmamışdı, ancaq zəlzələ gücünə yeni dövlət səthinə atılmışdı; özünə inanmayan, xalqa inanmayan, yuxarı təbəqələrə qarşı donquldanan, aşağı təbəqələrdən qorxan, bunların hər ikisinə qarşı xudbin olub öz xüdbinliyini başa düşən, mühafizəkarlara qarşı inqilabçı və inqilabçılara qarşı mühafizəkar olan Prussiya burjuaziyası öz şüarlarına inanmır, ideyalar əvəzinə ibarələr irəli sürür, dunya fırtınasından qorxub ondan öz xeyrinə istifadə edir; hər cür əzmkarlıqdan məhrumdur və orijinal heç bir şey olmadığına görə başdan-başa plagiatdır, bayağılıqdır; öz bayağılığında orijinal olub özü özü ilə alverə girir, təşəbbüs göstərmir, özünə inanmır, xalqa inamı yoxdur, bütün dünya miqyasında tarixi vəzifəsi olmayan və sanki lə`nətə gəlmiş elə bir kaftardır ki, həyata can atan xalqın ilk gənclik coşqunluğunu korlayıb onu öz qocalıq mənafeyinə tabe etməyə məhkumdur–gözləri görməyən, qulaqları eşitməyən, ağzında dişi olmayan, tamamilə əldən düşmüş bir kaftardır,–mart inqilabından sonra Prussiya dövlətinin sükanı başına keçmiş Prussiya burjuaziyası belə idi.
1848-ci il dekabrın 11-də K.Marks tərəfindən yazılmışdır. 1848-ci il dekabrın 15-də «Neue Rheinische Zeitunq»un 169-cu nömrəsində çap edilmişdir.

K.MARKS

MUZDLU ƏMƏK VƏ KAPİTAL61

1891-Cİ İL NƏŞRİNƏ F.ENGELSİN GİRİŞ MƏQALƏSİ

Bu əsər ilk dəfə 1849-cu ildə aprel ayının 4-dən e`tibarən «Neue Rheinische Zeitunq»un62 bir sıra nömrələrində baş məqalə şəklində dərc olunmuşdur. Bu əsərin əsasını Marksın 1847-ci ildə Brüsseldəki Alman fəhlə cəmiyyətində63 oxuduğu mühazirələr təşkil edir. Qəzetdə əsərin çapı yarımçıq qaldı; 269-cu №-dəki məqalənin axırında «Ardı var» deyə və`d edilmiş olsa da, o zaman baş verən hadisələr–rusların Macarıstana girməsi64, Drezden, İzerlon, Elberfeld, Pfals və Baden üsyanları65 üzündən bu və`d yerinə yetirilməmişdi, çünki bu hadisələr nəticəsində qəzetin özü də (1849-cu il mayın 19-da) qadağan edilmişdi. Bu əsərin ardını təşkil edəcək əlyazması Marksdan qalan ədəbi irs içərisində tapılmamışdır66.
Bir neçə dəfə ayrıca kitabça şəklində çap olunmuş «Muzdlu əmək və kapital» axırıncı dəfə 1884-cü ildə Hottingen-Sürixdə «İsveçrə mətbəə şirkəti» tərəfindən çap edilmişdir. Bu vaxta qədər olan bütün nəşrlərində

orijinalın mətni olduğu kimi verilmişdir. Lakin əsərin bu yeni nəşri təbliğat xarakterli kitabça şəklində və azı 10 000 nüsxə nəşr edilməli olduğundan, mənim qarşıma belə bir məsələ çıxdı ki, bu cür şəraitdə Marks özü əsərin mətnini əsla dəyişdirmədən çap etməyə razılıq verərdimi.
Qırxıncı illərdə Marks siyasi iqtisadın tənqidini hələ başa çatdırmamışdı. Bu iş yalnız əllinci illərin axırına yaxın görülüb qurtardı. Buna görə də Marksın «Siyasi iqtisadın tənqidinə dair» əsərinin birinci nəşrindən (1859-cu ildə) (K.Marks və F.Engels. Əsərləri, 2-ci nəşri, 13-cü cild, səh. 1–167. Red.) əvvəl çıxmış əsərlərinin ayrı-ayrı yerləri 1859-cu ildən sonra yazılmış əsərləri ilə düz gəlmir və bunların içərisində elə ifadə və bütöv cümlələr vardır ki, sonrakı əsərlər nöqteyi-nəzərindən münasib və hətta dürüst deyildir. Özlüyündə aydındır ki, ümumiyyətlə oxucu kütləsi üçün buraxılan adi nəşrlərdə, müəllifin mə`nəvi inkişaf pilləsindən birini təşkil edən bu daha əvvəlki nöqteyi-nəzəri də qalmalıdır və bu daha əvvəlki əsərlərin əsla dəyişdirilməyərək yenidən çap edilməsini tələb etməyə həm müəllifin, həm də oxucuların şübhəsiz ixtiyarı vardır. Bu kimi nəşrlərdə həmin əsərlərin bircə kəlməsini də dəyişdirmək mənim heç xəyalıma belə gəlməzdi.
Yeni nəşrin, demək olar, ancaq fəhlələr arasında təbliğat məqsədi ilə buraxılması nəzərdə tutulanda isə iş başqadır. Bu halda Marks əsərin 1849-cu ildə yazılmış köhnə mətnini özünün sonrakı nöqteyi-nəzərinə hökmən uyğun şəklə salardı. Mən əminəm ki, əsərin bütün mühüm yerlərində belə bir uyğunluq yaratmaq üçün bu nəşrə bə`zi zəruri dəyişiklik və əlavələr etməklə mən tamamilə onun ruhunda hərəkət edirəm. Beləliklə, mən oxucuya bu başdan xəbərdarlıq edirəm: burada həmin kitabça Marksın 1849-cu ildə yazdığı şəkildə deyil, Marks onu 1891-ci ildə nə şəkildə yazardısa, təxminən o şəkildə verilir. Həm də əsərin əsil mətni o qədər çox miqdarda yayılmışdır ki, mən onu dəyişdirməyərəK.Marksın əsərləri külliyyatında yenidən nəşr edə bilənə qədər bu tamamilə kifayətdir.
Mənim elədiyim bütün dəyişikliklər bir məsələyə aiddir. Orijinala görə, fəhlə əmək haqqı müqabilində kapitalistə öz əməyini satır, əsərin indiki mətninə görə isə, öz iş quvvəsini satır. Mən bu dəyişiklik barəsində izahat verməliyəm. Fəhlələrə izahat verməliyəm onlar görsünlər ki, burada məsələ boş xırdaçılıq üzərində deyil, əksinə, bütün siyasi iqtisadın çox muhüm məsələlərindən biri üzərindədir. Burjualara izahat verməliyəm onlar yəqinlik hasil edə bilsinlər ki, ən çətin iqtisadi məsələləri asanlıqla başa

düşə bilən oxumamış fəhlələr belə dolaşıq məsələləri bütün ömürləri boyu anlaya bilməyən «oxumuş» lovğa adamlarımızdan nə qədər üstündürlər. Klassik siyasi iqtisad67 sənaye həyatından fabrikçinin belə bir bayağı təsəvvürünü mənimsəmişdir ki, guya fabrikçi öz fəhlələrinin əməyini satın alır və haqqını da ödəyir. İşləri idarə etmək üçün, hesab saxlamaq və qiymətləri müəyyən etmək üçün fabrikçiyə bu təsəvvür tamamilə kifayət idi. Lakin sadəlövhcəsinə siyasi iqtisad sahəsinə keçirilən bu təsəvvür orada çox qəribə yanlışlıq və dolaşıqlıq əmələ gətirdi.

Siyasi iqtisad belə bir fakt ilə qarşılaşır ki, bütün əmtəələrin qiymətləri, o cümlədən siyasi iqtisadın «əmək» adlandırdığı əmtəənin də qiyməti daim dəyişilir; qiymətlər çox vaxt əmtəənin öz istehsalı ilə heç bir əlaqəsi olmayan olduqca müxtəlif səbəblərin tə`siri altında qalxır və düşür, buna görə də adama elə gəlir ki, guya qiymətlər ümumiyyətlə sırf təsadüf nəticəsində müəyyən olunur. Siyasi iqtisad bir elm olaraq meydana çıxdığı zaman68 onun ilk vəzifələrindən biri, əmtəə qiymətləri üzərində guya hökmran olan bu təsadüfün arxasında gizlənmiş, həqiqətdə isə bu təsadüfün özü üzərində hökmran olan qanunu tapmaq idi. Əmtəə qiymətlərinin daim dəyişməsində, bunların gah qalxıb, gah düşməsində elm elə sabit bir mərkəzi axtarırdı ki, bu hallar onun ətrafında baş verir. Bir sözlə, elm əmtəə qiymətlərini əsas götürürdü ki, bunları tənzim edən bir qanun olaraq, əmtəələrin dəyərini tapsın və buna əsaslanaraq qiymətlərin bütün qalxıb-düşməsi hallarını izah etmək mümkün olsun, bu qaxlıb-düşmə hallarının hamısı nəticə e`tibarı ilə həmin dəyərə müncər oluna bilsin.

Nəhayət, klassik siyasi iqtisad tapdı ki, əmtəənin dəyəri, onda olan və onun istehsalı üçün lazım gələn əməklə müəyyən edilir. Klassik siyasi iqtisad bu izahatla da kifayətləndi. Hələlik biz də burada dayana bilərik. Yalnız anlaşılmazlığa yol verməmək üçün xatırlatmalıyam ki, bu izahat indi əsla kifayət deyildir. İlk dəfə olaraq Marks əməyin dəyər yaratmaq xassəsini əsaslı surətdə tədqiq etmiş və tapmışdır ki, əmtəənin istehsalı üçün zəruri görünən və ya həqiqətən zəruri olan heç də hər cür əmək bütün hallarda bu əmtəəyə o qədər dəyər vermir ki, bu dəyər sərf edilmiş əməyin qədərinə müvafiq olsun. Deməli, əgər indi biz, Rikardo kimi iqtisadçılarla birlikdə sadəcə deyiriksə ki, əmtəənin dəyəri onun istehsalı üçün lazım gələn əməklə müəyyən olunur,–burada biz həmişə Marksın etdiyi qeyd-şərtləri nəzərdə tuturuq. Burada bu qeyd kifayətdir; qalanını Marksın 1859-cu ildə çapdan çıxan «Siyasi iqtisadın tənqidinə dair» əsərində (K.Marks və

F.Engels. Əsərləri, 2-ci nəşri, 13-cü cild, səh. 13–38. Red.) və «Kapital»ın birinci cildində (K.Marks və F.Engels. Əsərləri, 2-ci nəşri, 23-cü cild, səh. 43–80. Red.) tapmaq olar.

Lakin iqtisadçılar dəyəri əməklə müəyyən etmək tə`rifini «əmək» adlanan əmtəəyə tətbiq edər-etməz, bir ziddiyyətdən çıxıb başqa bir ziddiyyətə düşdülər. «Əməyin» dəyəri nə ilə müəyyən edilir? Onda olan zəruri əməklə. Bəs fəhlənin bir gün, bir həftə, bir ay, bir il ərzində sərf etdiyi əməkdə nə qədər əmək vardır? Onda bir günlük, bir həftəlik, bir aylıq, bir illik əmək vardır. Əgər əmək bütün dəyərlərin ölçüsü isə, onda biz «əməyin dəyərini» yalnız əməklə ifadə edə bilərik. Lakin biz ancaq bir saatlıq əmək dəyərinin bir saatlıq əməyə bərabər olduğunu biliriksə, onda bir saatlıq əməyin dəyəri haqqında qətiyyən heç bir şey bilmirik. Biz bununla məqsədimizə heç zərrə qədər də yaxınlaşmamışıq; yenə çıxılmaz vəziyyətdə qalmaqda davam edirik.

Belə olduqda klassik siyasi iqtisad başqa istiqamətə əl atıb dedi: əmtəənin dəyəri onun istehsal xərcinə bərabərdir. Bəs əməyin istehsal xərci nədir? Bu suala cavab vermək üçün, iqtisadçılar məntiqə bir qədər zor gəlməli oldular. Onlar əməyin öz istehsalına çəkilən və müəyyən edilməsi, heyf ki, mümkün olmayan xərc əvəzinə, fəhlənin istehsalına çəkilən xərcin nədən ibarət olduğunu tədqiq edirlər. Bu xərci isə müəyyən etmək mümkündür. Bu xərc zaman və şəraitdən asılı olaraq dəyişilir, lakin cəmiyyətin müəyyən vəziyyətində, müəyyən yerdə, müəyyən istehsal sahəsində bu xərc də müəyyən kəmiyyət təşkil edir, heç olmazsa, xeyli məhdud dairədə müəyyən kəmiyyət təşkil edir. Biz indi kapitalist istehsalının hakim olduğu şəraitdə yaşayırıq; bu şəraitdə isə əhalinin böyük və getdikcə artan sinfi ancaq o şərtlə yaşaya bilər ki, alət, maşın, xammal və yaşayış vasitələrindən ibarət olan istehsal vasitələri sahibləri üçün muzdla işləsin. Bu istehsal üsulu şəraitində fəhlənin istehsalına çəkilən xərc onu əmək qabiliyyətli etmək, onun əmək qabiliyyətini mühafizə etmək və fəhlə: qocalıq, xəstəlik və ya ölüm nəticəsində sıradan çıxdığı zaman onu yeni fəhlə ilə əvəz etmək üçün, yə`ni fəhlə sinfinin mühafizə olunmasını və lazımi qədər artmasını tə`min etmək üçün orta hesabla lazım olan yaşayış vasitələrinin məcmusundan və ya bunların pul qiymətindən ibarətdir. Fərz edək ki, bu yaşayış vasitələrinin pul qiyməti orta hesabla gündə 3 markadır.

Beləliklə, bizim fəhlə onu muzdla tutan kapitalistdən gündə 3 marka əmək haqqı alır. Bunun müqabilində kapitalist fəhləni, deyək ki, gündə 12 saat işlədir. Burada kapitalist təqribən belə haqq-hesab edir

Fərz edək ki, bizim bu fəhlə dəzgah çilingəridir və elə bir maşın hissəsi hazırlamalıdır ki, bunu bir günə qayırır. Tutaq ki, xammalın, yə`ni irəlicədən lazımınca hazırlanmış şəkildə olan dəmir və latunun dəyəri 20 markadır. Tutaq ki, buxar maşınının işlətdiyi kömür, bu buxar maşınının, tokar dəzgahının və bizim fəhlə tərəfindən işlədilən bütün başqa alətlərin aşınma dəyəri bir gün və bir fəhlə hesabı ilə götürüldükdə 1 marka edir. Bizim ehtimalımıza görə, bir günlük əmək haqqı 3 markadır. Bizim maşın hissəsinə cəmi 24 marka sərf olunur. Lakin kapitalist bunu öz alıcılarına orta hesabla 27 markaya, yə`ni çəkdiyi xərcdən 3 marka artığa satmaq fikrindədir. Bəs kapitalistin öz cibinə qoyduğu bu 3 marka haradan meydana gəlir? Klassik siyasi iqtisadın dediyinə görə, əmtəə orta hesabla öz dəyərinə satılır, yə`ni əmtəədə olan zəruri əməyin miqdarına müvafiq qiymətlə satılır. Deməli, bizim maşın hissəsinin orta qiyməti–27 marka–onun dəyərinə, onda olan əməyə bərabər olardı. Lakin bu 27 markanın 21 markası, bizim dəzgah çilingəri işə başlamamışdan əvvəl meydanda olan dəyərdir. Bunun 20 markası xammaldan, 1 markası iş vaxtı yandırılan kömürdən və ya burada işlədildiyi müddətdə yararlığı müvafiq dərəcədə azalmış olan maşın və alətlərdən ibarətdir. Qalan 6 marka isə xammalın dəyərinə əlavə edilmişdir. Lakin bizim iqtisadçıların öz ehtimalına görə, bu 6 marka ancaq bizim fəhlənin xammala əlavə etdiyi əməkdən doğa bilər. Beləliklə, fəhlənin on iki saatlıq əməyi 6 markalıq yeni dəyər yaratmışdır, Deməli, fəhlənin on iki saatlıq əməyinin dəyəri 6 markaya bərabər olmalıdır. Bununla da biz, nəhayət, «əmək dəyərinin» nə olduğunu kəşf etmiş olardıq.

Dur!–deyə bizim dəzgah çilingəri səslənir.–Altı markamı? Mən ki ancaq üç marka almışam! Mənim kapitalistim and-aman edib deyir ki, mənim on iki saatlıq əməyimin dəyəri aicaq üç markaya bərabərdir; odur ki, mən ondan altı marka tələb etsəm, məni lağa qoyar. Bunlar heç bir-biri ilə tuturmu? Biz əvvəldə əməyin dəyərini araşdırırkən çıxılmaz vəziyyətə düşmüşdüksə, indi tamamilə həlledilməz ziddiyyət içərisində lap dolaşıb qalmışıq. Biz əməyin dəyərini axtarırkən, bizə lazım olduğundan artıq şey tapdıq. On iki saatlıq əməyin dəyəri fəhlə üçün 3 marka, kapitalist üçün nsə 6 markadır və kapitalist bunun 3 markasını əmək haqqı şəklində fəhləyə verir, 3

markasını isə öz cibinə qoyur. Beləliklə, əməyin bir dəyəri deyil, iki dəyəri, həm də bir-birindən tamamilə fərqlənən dəyəri olardı!
Əgər biz, pulla ifadə olunan dəyərləri iş vaxtı ilə ifadə etsək, onda ziddiyyət daha mə`nasız bir şəkil alır. 12 saat əmək ərzində 6 markalıq yeni dəyər yaranır. Deməli, 6 saat ərzində 3 marka edir və bu məbləği fəhlə on iki saatlıq əmək üçün alır. Fəhlə on iki saatlıq əmək üçün ekvivalent olaraq 6 saatlıq əməyin məhsulunu alır. Deməli, ya əməyin iki dəyəri vardır və bunlardan biri o birindən iki dəfə artıqdır, ya da 12 bərabərdir 6-ya! Hər iki halda lap mə`nasız bir şey meydana çıxır.
Nə qədər ki, biz əməyin alqı-satqısından və əməyin dəyərindən bəhs edirik, necə vurnuxsaq da bu ziddiyyətdən qurtara bilməyəcəyik. İqtisadçılar da məhz belə bir vəziyyətə düşmüşdülər. Klassik siyasi iqtisadın son nümayəndəsi olan Rikardo məktəbinin dağılmasının mühüm səbəbi məhz bu ziddiyyəti həll edə bilməməsi idi. Klassik siyasi iqtisad çıxılmaz vəziyyətə düşdü. Bu vəziyyətdən çıxış yolu tapan şəxs Karl Marks oldu.
O xərc ki, iqtisadçılar onu «əməyin» istehsalına çəkilən xərc hesab edirdilər, əməyin deyil, canlı fəhlənin özünün istehsalına çəkilən xərcdir. Bu fəhlənin kapitalistə satdığı da fəhlənin əməyi deyildir. Marks deyir: «Fəhlənin əməyi həqiqətən başlanan zaman bu əmək daha fəhləninki olmur və deməli, fəhlə bu əməyi sata bilməz» (K.Marks və F.Engels. Əsərləri, 2-ci nəşri, 23-cü cild, səh. 547). Fəhlə olsa-olsa öz gələcək əməyini sata bilər, yə`ni o, müəyyən vaxtda müəyyən bir iş görmək vəzifəsini öz öhdəsinə götürə bilər. Lakin bununla fəhlə öz əməyini satmaq deyil (bu əmək hələ icra olunmalıdır), öz iş qüvvəsini müəyyən muzdla müəyyən müddətə (günəmuzd işlədikdə) və ya müəyyən iş üçün (işəmuzd işlədikdə) kapitalistin ixtiyarına verir fəhlə öz iş qüvvəsini muzdla özgəsinə verir və ya satır. Lakin bu iş qüvvəsi fəhlənin şəxsiyyəti ilə qovuşuqdur və ondan ayrıla bilməz. Buna görə də iş qüvvəsinin istehsalına çəkilən xərc fəhlənin özünün istehsalına çəkilən xərcin eynidir; o xərc ki, iqtisadçılar onu əməyin istehsalına çəkilən xərc adlandırırdılar, məhz fəhlənin özünün istehsalına çəkilən xərcdir və deməli, iş qüvvəsinin istehsalına çəkilən xərcdir. Beləliklə, biz iş qüvvəsinin istehsalına çəkilən xərcdən iş qüvvəsinin dəyərinə keçə bilərik və müəyyən keyfiyyətli iş qüvvəsinin istehsalı üçün tələb olunan ictimai-zəruri əməyin miqdarını müəyyən edə bilərik,–Marks iş qüvvəsinin alq-ısatqısı bölməsində məhz belə etmişdir («Kapital», 1-ci cild, IV fəsil, 3 bölmə).

Bəs fəhlə öz iş qüvvəsini kapitalistə satandan sonra, yə`ni irəlicədən müəyyən edilən günəmuzd və ya işəmuzd əmək haqqı müqabilində öz iş qüvvəsini kapitalistin ixtiyarına verəndən sonra nə olur? Kapitalist fəhləni öz e`malatxanasına və ya fabrikinə aparır ki, artıq burada iş üçün lazım olan hər şey: xammal, yardımçı materiallar (kömür, boyaq maddələri və i.a.), alətlər və maşınlar vardır. Burada fəhlə işə başlayır. Tutaq ki, onun bir günlük əmək haqqı, yuxarıda fərz etdiyimiz kimi, 3 markadır,–həm də bu əmək haqqını onun işəmuzd və ya günəmuzd şəkildə almasının heç bir fərqi yoxdur. Burada da biz yenə belə fərz edirik ki, fəhlə, sərf olunmuş xammala 12 saat ərzində öz əməyi ilə 6 markalıq yeni dəyər əlavə edir ki, bunu da kapitalist hazır məhsulu satdığı zaman reallaşdırır. Kapitalist bundan fəhlənin 3 markasını ona verir, qalan 3 markanı isə özü üçün götürür. Lakin fəhlə 12 saatda 6 markalıq dəyər istehsal edirsə, 6 saatda 3 markalıq dəyər yaradır. Deməli, fəhlə kapitalist üçün 6 saat işləməklə, əmək haqqında olan 3 markanın ekvivalentini kapitalistə qaytarmış olur. 6 saatlıq əmək qurtarandan sonra onlar başabaş olurlar, heç biri digərinə bircə qəpik də borclu qalmır.

Dur!–deyə, indi də kapitalist çığırır.–Mən fəhləni tam bir günlüyə, on iki saatlığa tutmuşam. Altı saat isə, günün ancaq yarısıdır. Haydı, yenə iş başına, qalan altı saatı da axıra qədər işləməlisən,–biz ancaq onda başabaş olarıq! Doğrudan da, fəhlə «könüllü» bağladığı müqaviləni yerinə yetirməli olur ki, bu müqaviləyə görə fəhlə 6 iş saatı dəyərində olan əmək məhsulu müqabilində tam 12 saat işləməyi öhdəsinə götürmüşdür.

İşəmuzd əmək haqqı şəraitində də belədir. Fərz edək ki, bizim fəhlə 12 saatda 12 dənə əmtəə hazırlayır. Hər əmtəəyə düşən xammal və maşınların aşınan hissəsi 2 markaya tamam olur, əmtəənin hər dənəsi isə 21/2 markaya satılır. Beləliklə, yuxarıda fərz edilən şəraitdə olduğu kimi kapitalist əmtəənin hər dənəsi üçün fəhləyə 25 pfenniq verəcəkdir bu hesabla 12 əmtəə üçün 3 marka edəcəkdir ki, bunuda qazanmaqdan ötrü fəhləyə 12 saat vaxt lazımdır. Kapitalist 12 dənə üçün 30 marka alır xammala və maşının alınmasına sərf olunan 24 markanı çıxanda, 6 marka qalır ki, bunun da 3 markasını kapitalist əmək haqqı olaraq verir, 3 markasını isə öz cibİnə qoyur. Hər şey yuxarıdakı kimi olur. Burada da fəhlə 6 saat özü üçün, yə`ni aldığı əmək haqqını ödəmək üçün (12 saatın hər saatında 1/2 saat), 6 saat da kapitalist üçün işləyir.

Nə qədər ki, ən yaxşı iqtisadçılar «əməyin» dəyərini əsas tuturdular, rast gəldikləri çətinlik onların cəhdlərini heçə vururdu, lakin biz bunun əvəzinə «iş qüvvəsinin» dəyərini əsas götürən kimi, bu çətinlik aradan qalxır. Bizim indiki kapitalizm cəmiyyətində hər cür başqa əmtəə kimi iş qüvvəsi də bir əmtəədir, amma hər halda tamamilə xüsusi bir əmtəədir. İş burasındadır ki, bu əmtəənin ayrıca bir xassəsi–dəyər yaradan qüvvə olmaq, dəyər mənbəyi olmaq, həm də–lazımi surətdə istifadə edildikdə–öz dəyərindən artıq bir dəyər mənbəyi olmaq xassəsi vardır. İstehsalın indiki vəziyyətində insanın iş qüvvəsinin bir gündə istehsal etdiyi dəyər, iş qüvvəsinin özündə olan və ona sərf olunan dəyərdən yalnız artıq olmaqla qalmır; hər bir yeni elmi kəşf, hər bir yeni texniki ixtira iş qüvvəsinə hər gün çəkilən xərcə nisbətən həmin iş qüvvəsinin gündəlik artıq məhsulunu daha da artırır; de`məli, iş günü ərzində fəhlənin öz gündəlik əmək haqqını ödəmək üçün işlədiyi müddət qısalır, o biri tərəfdən isə, heç bir haqq almadan öz əməyini kapitalistə havayı vermək üçün işləməli olduğu müddət uzanır.

Bütün indiki cəmiyyətimizin iqtisadi quruluşu məhz belədir: fəhlə sinfi bütün dəyərləri istehsal edən yeganə sinifdir. Zira dəyər əməyin yalnız başqa bir ifadəsidir, həm də elə ifadəsidir ki, bizim müasir kapitalizm cəmiyyətində müəyyən əmtəədə olan ictimai-zəruri əməyin miqdarı həmin ifadə ilə göstərilir. Lakin fəhlələrin istehsal etdiyi bu dəyərlər fəhlələrin deyildir. Bu dəyərlər xammal, maşın və alət sahiblərinin, habelə onlara fəhlə sinfinin iş qüvvəsini satın almaq imkanı verən avans edilmiş vəsait sahiblərinindir. Deməli, fəhlə sinfi istehsal etdiyi bütün məhsul kütləsinin ancaq bir hissəsini geri alır. Kapitalistlər sinfinin öz əlində saxladığı və uzaq başı ancaq torpaq sahibləri sinfi ilə bölüşdürməli olduğu digər hissəsi, indicə gördüyümüz kimi, hər bir yeni ixtira və kəşf nəticəsində artır, halbuki fəhlə sinfinə (adambaşı, hesabı ilə) çatan hissə ya çox yavaş və cüz`i miqdarda artır, ya da əsla artmır, müəyyən şəraitdə isə hətta azala da bilər.

Lakin bir-birini getdikcə daha sür`ətlə sıxışdırıb aradan çıxaran bu ixtira və kəşflər, bu insan əməyinin indiyədək misli görünməmiş dərəcədə gündən-günə artan məhsuldarlığı ən axırda elə toqquşmaya səbəb olur ki, bunun nəticəsində müasir kapitalizm təsərrüfatı məhv olmalıdır. Bir tərəfdə hədsiz sərvət və alıcıların əldə edə bilmədiyi artıq bol məhsul. Digər tərəfdə isə cəmiyyətin proletarlaşmış, muzdlu fəhlələrə çevrilmiş və məhz buna görə

həmin artıq bol məhsulu ala bilməyən çox böyük hissəsi. Cəmiyyətin kiçik və son dərəcə varlı bir siniflə mülkiyyətdən məhrum edilmiş çox böyük muzdlu fəhlələr sinfinə parçalanması üzündəndir ki, bu cəmiyyət öz bolluğu içərisində boğulduğu halda, onun üzvlərinin olduqca böyük əksəriyyəti ən ağır ehtiyaca qarşı ya çox zəif müdafiə olunmuşdur, ya da əsla müdafiə olunmamışdır. Cəmiyyətin bu vəziyyəti gündən-günə daha mə`nasız və gərəksiz bir şəkil alır. Bu vəziyyət aradan qaldırılmalıdır və qaldırıla bilər. Elə bir yeni ictimai quruluş yaratmaq mümkündür ki, orada müasir sinfi fərqlər yox və,–bəlkə bə`zi məhrumiyyətlərlə əlaqədar olsa da, mə`nəvi cəhətdən çox faydalı qısa bir keçid dövründən sonra–yaşayış vasitələri, həyatın şadlıqlarından istifadə etmək, təhsil almaq vasitələri, habelə insanların bütün fiziki və mə`nəvi qabiliyyətlərini göstərmək vasitələri getdikcə daha geniş ölçüdə və eyni dərəcədə bütün cəmiyyət üzvlərinin ixtiyarına veriləcək, çünki əmək sərf etməyin hamı üçün eyni dərəcədə məcburi olacağı bir şəraitdə cəmiyyətin bütün üzvləri mövcud çox böyük məhsuldar qüvvələrdən planlı şəkildə istifadə edəcək və bu qüvvələri daha da inkişaf etdirəcəklər. Fəhlələrin belə bir yeni ictimai quruluşa nail olmaq qətiyyətinin getdikcə daha çox artdığını isə okeanın hər iki tərəfində sabahkı bir may günü və üç may bazar günü sübut edəcəkdir69.

Fridrix Engels

London, 30 aprel 1891-ci il.

«Yorwarts» qəzetihin 13 may 1891-ci il tarixli 109-cu nömrosinə əlavədə və Karl Marx «Lohnarbeit und Kapital», Berlin. 1891 kitabçasında çap edilmişdir.

MUZDLU ƏMƏK VƏ KAPİTAL61

Bizi müxtəlif tərəflərdən töhmətləndirib deyirdilər ki, biz müasir sinfi və milli mübarizənin maddi əsasını təşkil edən iqtisadi münasibətləri təsvir etməmişik. Biz bu münasibətlərdən ancaq o zaman qəsdən bəhs edirdik ki, siyasi toqquşmalarda bu münasibətlər bilavasitə birinci plana keçirilirdi. Hər şeydən əvvəl indiki tarixin gedişində sinfi mübarizəni izləmək, mövcud olan və hər gün meydana çıxan yeni tarixi material əsasında təcrübədə sübut etmək lazım idi ki, fevral və mart inqilablarını etmiş fəhlə sinfinin məğlubiyyəti ilə birlikdə, onun düşmənləri də–Fransada burjua respublikaçıları, bütün Avropa kontinentində isə feodal mütləqiyyətinə qarşı mübarizə etmiş burjuaziya və kəndli sinifləri də məğlub oldular;

sübut etmək lazım idi ki, Fransada «abırlı respublikanın» qələbəsi, eyni zamanda, fevral inqilabına istiqlaliyyət uğrunda qəhrəmancasına müharibələrlə cavab verən millətlərin məğlubiyyəti idi; nəhayət, sübut etmək lazım idi ki, inqilabçı fəhlələr məğlub olandan sonra Avropa yenidən əvvəlki ikiqat əsarət altına–ingilis-rus əsarəti altına duşmüşdür. Parisdə iyun mübarizəsi, Vyananın süqutu, Berlində 1848-ci il noyabr faciəli komediyası, Polşa, İtaliya və Macarıstan qüvvələrinin son dərəcə gərginləşməsi, İrlandiyanı aclıqla boğmaq cəhdləri–Avropada burjuaziya ilə fəhlə sinfi arasındakı sinfi mübarizəni toplanmış şəkildə ifadə edən başlıca hadisələrdir və biz bu hadisələrə əsaslanıb sübut edirdik ki, inqilabçı fəhlə sinfi qalib gəlməyincə, hər bir inqilabi üsyan, sinfi mübarizədən nə qədər uzaq məqsəd güdsə də, məğlub olmalıdır və proletar inqilabı ilə feodal əksinqilabı dünya müharibəsində əldə silah üz-üzə gəlib öz gücünü sınamadıqca, hər bir ictimai islahat bir xəyal olaraq qalacaqdır. Həqiqətdə olduğu kimi bizim təsvirimizdə də Belçika BƏ İsveçrə böyük tarix lövhəsində faciəli komediya, məzhəkəli məişət şəkilləri idi biri nümunəvi burjua monarxiyası dövləti, digəri–nümunəvi burjua respublikası dövləti idi, bu dövlətlərin hər ikisi belə xəyal edirdi ki, onlar Avropa inqilabından asılı olmadıqları kimi, sinfi mübarizədən də asılı deyildirlər. İndi, oxucularımız, genişlənib möhtəşəm siyasi formalar alan 1848-ci il sinfi mübarizəsini gördükdən sonra, istər burjuaziyanın varlığı və sinfi hökmranlığının, istərsədə fəhlələrin köləliyinin əsasını təşkil edən iqtisadi münasibətlərin özünü yaxından tədqiq etməyin vaxtı çatmışdır.

Biz üç böyük bölmədə aşağıdakıları təsvir edəcəyik: 1) muzdlu əməyin kapitala münasibəti, fəhlənin köləliyi, kapitalistin hökmranlığı; 2) müasir sistem şəraitində orta burjuaziya siniflərinin və bürker silki adlanan silkin labüd məhv olması prosesi; 3) dünya bazarının istibdadçısı olan İngiltərənin müxtəlif Avropa millətlərinə mənsub burjua siniflərini ticarət əsarəti altına alıb istismar etməsi.

Biz bütün bunları, oxucunun hətta ən bəsit siyasi iqtisad anlayışları ilə də tanış olmadığını güman edərək, mümkün qədər sadə və aydın bir dildə izah etməyə çalışacağıq. Biz istəyirik ki, fəhlələr bizi başa düşsünlər. Onsuz da Almaniyanın hər yerində, mövcud qayda-qanunun əsil müdafiəçilərindən tutmuş sosialist şarlatanlarına və tanınmamış siyasi dahilərə qədər–parçalanmış Almaniyada isə bunlar «öz təbəələrinin atalarına» nisbətən

daha çoxdur,–hamı içərisində ən sadə iqtisadi münasibətləri anlamaqda heyrət ediləcək bir cəhalət və fikir dolaşıqlığı hökm sürür.
Deməli, ən əvvəl–birinci məsələ:
Əmək haqqı nədir? O necə müəyyən olunur?
Fəhlələrdən soruşulsa: «Nə qədər əmək haqqı alırsınız?», biri cavab verər: «Mən öz burjuamdan bir iş gününə 1 marka alıram», digəri cavab verər: «Mən 2 marka alıram» və i.a. Onlar hansı əmək sahəsində çalışdıqlarından asılı olaraq, gördükləri müəyyən iş üçün, məsələn, bir arşın kətan hazırlamaq üçün və ya bir çap vərəqi yığmaq üçün müvafiq burjuadan müxtəlif məbləğ aldıqlarını göstərərlər. Onların cavablarının müxtəlif olduğuna baxmayaraq, hamılıqla bu fikirdədirlər ki, əmək haqqı–müəyyən iş vaxtı müqabilində və ya görülən müəyyən iş müqabilində kapitalistin verdiyi müəyyən məbləğ puldur.
Deməli, belə çıxır ki, guya kapitalist fəhlələrin əməyini pula satın alır, fəhlələr isə ona öz əməyini pula satırlar. Lakin bu ancaq zahirdə belədir. Həqiqətdə onlar kalitalistə öz iş qüvvəsini pula satırlar. Kapitalist bu iş qüvvəsini bir günlüyə, bir həftəliyə, bir aylığa və i.a. satın alır. Kapitalist bu iş qüvvəsini satın aldıqdan sonra isə, fəhlələri müəyyən edilmiş müddət ərzində işlətməklə bu iş qüvvəsini istehlak edir. Kapitalist fəhlələrin iş qüvvəsini satın aldığı pula, məsələn, 2 markaya 2 girvənkə qənd və ya müəyyən miqdar başqa bir əmtəə ala bilərdi. Kapitalistin 2 girvənkə qəndə verdiyi 2 marka 2 girvənkə qəndin qiymətini təşkil edir. Kapitalistin 12 saat ərzində istehlak edəcəyi iş qüvvəsinə verdiyi 2 marka, on iki saatlıq əməyin qiymətini təşkil edir. Deməli, iş qüvvəsi əmtəədir, qənddən nə artıq və nə də əskik olub onun kimi bir əmtəədir. Birinci əmtəə saatla, ikincisi isə tərəzi ilə ölçülür.
Fəhlələr öz əmtəəsini, yə`ni iş qüvvəsini kapitalistin əmtəəsinə, yə`ni pula mübadilə edirlər, həm də bu mübadilə müəyyən bir nisbət daxilində icra olunur. İş qüvvəsinin filan müddət istehlak edilməsi üçün filan qədər pul verilir. Toxucunun on iki saatlıq əməyinə 2 marka verilir. Məgər bu 2 marka həmin 2 markaya alına biləcək bütün başqa əmtəələri təmsil etmirmi? Deməli, əslində fəhlə öz əmtəəsini, yə`ni iş qüvvəsini cürbəcür əmtəələrə, həm də müəyyən nisbət daxilində mübadilə etmişdir. Kapitalist ona 2 marka verməklə, onun bir iş günü müqabilində ona filan qədər ət, filan qədər paltar, filan qədər odun, işıq və s. vermişdir. Deməli, bu 2 marka iş qüvvəsinin başqa əmtəələrə mübadilə olunduğu nisbəti ifadə edir,

fəhlənin iş qüvvəsinin mübadilə dəyərini ifadə edir. Əmtəənin pulla ifadə olunan mübadilə dəyəri, məhz əmtəənin qiyməti adlanır. Deməli, əmək haqqı–iş qüvvəsinin qiymətinin ancaq xüsusi adıdır ki, bunu adətən əməyin qiyməti adlandırırlar və bu, insanın canı və qanından başqa heç yerdə mövcud ola bilməyən spesifik əmtəənin qiymətinin adıdır.
İstədiyimiz bir fəhləni, məsələn, toxucunu götürək. Kapitalist ona toxucu dəzgahı və iplik verir. Toxucu işə başlayır və iplik dönüb kətan olur. Kapitalist bu kətanı götürüb, məsələn, 20 markaya satır. Toxucunun əmək haqqı kətanın bir hissəsidirmi, 20 markanın bir hissəsidirmi, onun əmək məhsulunun bir hissəsidirmi? Əsla. Çünki toxucu öz əmək haqqını hələ kətan satılandan çox əvvəl, bəlkə də kətan toxunandan çox əvvəl almışdır. Deməli, kapitalist bu əmək haqqını, kətanın satılmasından hasil edəcəyi puldan deyil, öz ehtiyat pulundan verir. Burjuanın toxucuya verdiyi toxucu dəzgahı və iplik həmin toxucunun məhsulu deyildir, eyni ilə toxucunun öz əmtəəsi, yə`ni iş qüvvəsi müqabilində aldığı əmtəələr də onun məhsulu deyildir. Ola bilər ki, burjua öz kətanını satmaq üçün heç alıcı tapmasın. Ola bilər ki, kətanı satanda burjuanın hasil edəcəyi pul əmək haqqına verdiyi məbləği ödəməsin. Ola bilər ki, burjua kətanı, toxucuya verdiyi əmək haqqına nisbətən çox yaxşı qiymətə satsın. Bütün bunların toxucuya qətiyyən dəxli yoxdur. Kapitalist öz nağd varının, öz kapitalının bir hissəsinə xammal, yə`ni iplik, habelə əmək aləti, yə`ni toxucu dəzgahı aldığı kimi, digər hissəsinə də toxucunun iş qüvvəsini alır. Kapitalist bunları, o cümlədən kətanın istehsalı üçün lazım olan iş qüvvəsini alandan sonra istehsala başlayır, həm də xammal və əmək alətləri ancaq onun özünündür. Aydındır ki, bizim mehriban toxucu da buraya daxildir və toxucu dəzgahı kimi, onun da məhsulda və ya məhsulun qiymətində payı yoxdur.
Deməli, əmək haqqı, fəhlənin istehsal etdiyi əmtəədə onun payı deyildir. Əmək haqqı mövcud əmtəənin bir hissəsidir və kapitalist buna özü üçün müəyyən miqdar məhsuldar iş qüvvəsi alır.
Beləliklə, iş qüvvəsi bir əmtəədir və onun sahibi olan muzdlu fəhlə onu kapitala satır. Muzdlu fəhlə bunu nə üçün satır? Yaşamaq üçün.
Lakin iş qüvvəsinin hərəkət halındakı təzahürü, yə`ni əmək–fəhlənin öz həyat fəaliyyətidir, onun öz həyatının təzahürudur. Fəhlə məhz bu həyat fəaliyyətini başqasına satır ki, özünü zəruri yaşayış vəsaiti ilə tə`min etsin. Deməli, fəhlənin həyat fəaliyyəti fəhlə üçün ancaq elə bir vasitədir ki, ona

yaşamaq imkanı verir. O, yaşamaq üçün işləyir. O hətta əməyi öz həyatının bir hissəsi hesab etmir əksinə, işləmək onun üçün öz həyatını qurban vermək deməkdir. Əmək–onun başqasına satdığı əmtəədir. Buna görə onun fəaliyyətinin məhsulu da onun fəaliyyətinin məqsədi deyildir. Fəhlə toxuduğu ipəyi, mə`dəndən çıxardığı qızılı, tikdiyi sarayı heç də özü üçün istehsal etmir. O özü üçün əmək haqqı istehsal edir, ipək, qızıl, saray isə onun üçün müəyyən miqdar yaşayış vasitələrinə, ola bilər, bir çit köynəyə, mis pula, bir zirzəmidə mənzilə çevrşqar. Gündə 12 saat ərzində toxuyan, əyirən, deşik açan, yonan, tikən, qazıyan, daş qıran, yük daşıyan və başqa işlər görən fəhlə on iki saat ərzindəki bu toxuculuğu, əyiriçiliyi, deşik açmağı, yonmanı, tikinti işini, qazmaçılığı, daş qırmağı öz həyatının təzahürü, özünün həyatı hesab edə bilərmi? Əksinə. Onun nəzərində həyat bu fəaliyyət qurtarandan sonra–süfrə başında, meyxanada, yataqda başlanır. Onun nəzərində on iki saatlıq əməyin mə`nası toxumaqda, əyirməkdə, deşik açmaqda və sairədə deyil, qazanmaq vasitəsi olub ona yemək, meyxanaya getmək, yatmaq imkanı verməsindədir. Əgər ipəkqurdu, özünü bir qurd kimi yaşatmaq üçün ipək əyirsəydi, əsil muzdlu fəhlə olardı. İş qüvvəsi hər zaman əmtəə olmamışdır. Əmək hər zaman muzdlu əmək, yə`ni azad əmək olmamışdır. Kəl öz gördüyü işi kəndliyə satmadığı kimi, qul da öz iş qüvvəsini quldara satmır. Qul öz iş qüvvəsi ilə birlikdə həmişəlik öz ağasına satılmışdır. O elə bir əmtəədir ki, bir mülkiyyətçinin əlindən başqa bir mülkiyyətçinin əlinə keçə bilər. Qul özü əmtəədir, iş qüvvəsi isə onun əmtəəsi deyildir. Təhkimli öz iş qüvvəsinin ancaq bir hissəsini satır. O, torpaq mülkiyyətçisindən haqq almır; əksinə, torpaq mülkiyyətçisi ondan bac alır.

Təhkimli torpağa məxsusdur və torpaq mülkiyyətçisinə bar verir. Azad fəhlə isə, əksinə, özü özünü satır, həm də hissə-hissə satır. O, hər gün açıq müzaidə ilə öz həyatının 8, 10, 12, 15 saatını satır, həm də kim artıq verirsə, ona–xammal, əmək alətləri və yaşayış vasitələri sahibinə, yə`ni kapitalistə satır. Fəhlə nə mülkiyyətçiyə, nə də torpağa məxsusdur, lakin onun gündəlik həyatının 8, 10, 12, 15 saatı bunu satın alana məxsusdur. Fəhlə muzdla işlədiyi kapitalistin yanından istədiyi vaxt çıxıb gedir, kapitalist də kefi istədiyi vaxt fəhləni işdən çıxarır, fəhlə ona fayda verməyəndə və ya kapitalistin nəzərdə tutduğu qədər fayda verməyəndə dərhal onu işdən çıxarır. Lakin yeganə qazanmaq mənbəyi iş qüvvəsini satmaqdan ibarət olan fəhlə bütün alıcılar sinfindən, yə`ni kapitalistlər

sinfindən əl üzə bilməz, yoxsa bununla özünü acından ölməyə məhkum edər. Fəhlə bu və ya başqa bir kapitalistə məxsus deyildir, bütün kapitalistlər sinfinə məxsusdur; kapitalistlər sinfi içərisində özünə sahib tapmaq, yə`ni özünə alıcı axtarıb tapmaq isə onun öz işidir.
İndi kapitalla muzdlu əmək arasındakı münasibətlərdən ətraflı bəhs etməzdən əvvəl, əmək haqqının müəyyən edilməsində rol oynayan ən ümumi şərtləri qısaca şərh edək.
Gördüyümüz kimi, əmək haqqı müəyyən əmtəənin, yə`ni iş qüvvəsinin qiymətidir. Deməli, əmək haqqı da hər bir başqa əmtəənin qiymətini müəyyən edən qanunlarla müəyyən edilir.
İndi, sual olunur: əmtəənin qiyməti necə müəyyən edilir?
Əmtəənin qiyməti nə ilə müəyyən edilir?
Alıcılarla satıcılar arasındakı rəqabətlə, tələblə təklif arasında və təkliflə tələb arasındakı nisbətlə. Əmtəənin qiymətini muəyyən edən rəqabət üç tərəflidir.
Eyni bir əmtəə müxtəlif satıcılar tərəfindən təklif edilir. Kim eyni keyfiyyətli bir əmtəəni hamıdan ucuz satırsa, bütün başqa satıcılara hökmən üstün gələcək və özünün ən çox əmtəə satmasını tə`min edəcəkdir. Beləliklə, satıcılar satış üstündə, bazar üstündə bir-biri ilə mübarizə edirlər. Onların hər biri satmaq, mümkün qədər çox satmaq istəyir, yerdə qalan satıcıları sıxışdırıb, mümkün qədər tək satmaq istəyir. Buna görə də biri digərindən ucuz satır. Deməli, satıcılar arasında rəqabət gedir və bu rəqabət, onların təklif etdiyi əmtəələrin qiymətini aşağı salır.
Lakin alıcılar arasında da rəqabət gedir və bu rəqabət təklif olunan əmtəələrin qiymətini qaldırır.
Nəhayət, alıcılarla satıcılar arasında da rəqabət vardır; bunlardan biri mümkün qədər ucuz almaq, digəri isə, mümkün qədər baha satmaq istəyir. Alıcılarla satıcılar arasındakı bu rəqabətin nəticəsi, yuxarıda göstərilən hər iki rəqib tərəfin nisbətindən asılıdır, yə`ni rəqabətin harada–alıcılar sırasındamı, yoxsa satıcılar sırasında daha güclu olmasından asılıdır.
Sənaye döyüş meydanına, bir-birinə qarşı duran iki ordu çıxarır, həm də bu ordulardan hər birinİn öz sıralarında daxili mübarizə gedir. Hansı ordu sıralarında çəkişmə azdırsa, həmin ordu düşmənə qalib gəlir.
Fərz edək ki, bazarda 100 tay pambıq var, alıcılara isə 1000 tay pambıq lazımdır. Deməli, bu halda tələb təklifdən on qat artıqdır. Buna görə də, alıcılar arasındakı rəqabət çox güclü olacaqdır; bunların hər biri heç

olmazsa bir tay pambıq qoparmağa, mümkün olsa, hətta 100 tayın hamısını ələ keçirməyə çalışacaqdır. Bu misal boş bir fərziyyə deyildir. Ticarət tarixində biz elə pambıq qıtlığı dövrlərini görmüşük ki, bir neçə kapitalist ittifaq bağlayıb yüz tay pambıq deyil, yer üzündə olan bütün pambıq ehtiyatını almağa cəhd etmişdir. Deməli, misal gətirdiyimiz halda hər alıcı digərini aradan çıxarmağa çalışaraq, pambığın hər tayına başqalarının təklif etdiyinə nisbətən artıq qiymət təklif edəcəkdir. Düşmən qoşunu sıralarında qızğın daxili mübarizə getdiyini görən və 100 tayın hamısının satılacağına tamamilə əmin olan pambıq satıcıları bir-biri ilə savaşmaqdan çəkinəcəklər ki, düşmənləri pambığın qiymətini qaldırmaqda bir-biri ilə rəqabət etdikləri bir zamanda öz əmtəələrinin qiymətini aşağı salmasınlar. Beləliklə, satıcıların cəbhəsində birdən-birə sülh əmələ gəlir. Onlar filosof kimi əllərini qoynuna qoyub alıcıların qarşısına bir nəfər kimi çıxırlar və əgər ən inadkar alıcıların təkliflərinin çox müəyyən həddi olmasaydı, bu satıcı iddialarının həddi olmazdı.

Deməli, əgər bir əmtəənin təklifi həmin əmtəəyə olan tələbdən azdırsa, bu əmtəənin satıcıları arasında rəqabət çox zəif olur və ya hətta qətiyyən olmur. Satıcılar arasında rəqabət nə qədər zəifləyirsə, alıcılar arasında bir o qədər artır. Nəticədə əmtəələrin qiyməti az-çox əhəmiyyətli dərəcədə artır. Mə`lum olduğu kimi, çox zaman bunun əksi olan hadisə baş verir və əks nəticələr doğurur təklif tələbdən xeyli artıq olur, satıcılar arasında qızğın rəqabət gedir, alıcı çatışmır, əmtəələr dəyər-dəyməzinə satılır.

Bəs qiymətlərin qalxıb-düşməsi nədir, yüksək və aşağı qiymət nədir? Bir qum dənəsinə mikroskopla baxılsa, çox yüksək görünür, qüllə isə dağa nisbətən alçaqdır. Əgər qiymət tələblə təklif arasındakı nisbətlə müəyyən edilirsə, onda bəs tələblə təklif arasındakı nisbət nə ilə müəyyən edilir? Rastımıza gələn ilk burjuaya müraciət edək. O bircə dəqiqə də fikirləşmədən, yeni zühur etmiş Makedəniyalı İsgəndər kimi, dərhal bu metafizik düyünü vurma cədvəli vasitəsi ilə açıb ortaya qoyacaqdır. O bizə deyəcəkdir ki, əgər satdığım əmtəənin istehsalı mənə 100 markaya tamam olmuşsa və mən bunu satarkən 110 marka əldə edirəmsə,–əlbəttə, bir il keçəndən sonra,–bu, halal, qanuni və yaxşı bir mənfəət olar. Yox, əgər mən mübadilə zamanı 120, 130 marka əldə edirəmsə, bu–yüksək mənfəətdir; nəhayət, əgər tam 200 marka əldə edirəmsə, bu–qeyri-adi və çox böyük mənfəətdir. Beləliklə, burjua üçün mənfəət ölçüsü nədən ibarətdir? Onun əmtəəsinin istehsal xərcindən. Əgər o öz əmtəəsinin müqabilində, bu

əmtəədən az qiymətə başa gələn müəyyən miqdarda başqa əmtəə alırsa, onda zərər çəkir. Əgər o öz əmtəəsinin müqabilində, bu əmtəədən artıq qiymətə başa gələn müəyyən miqdarda əmtəə alırsa, xeyir görmüş olur. O öz mənfəətinin aşağı düşməsini və ya yuxarı qalxmasını öz əmtəəsinin mübadilə dəyərinin sıfırdan, yə`ni istehsal xərcindən neçə dərəcə aşağı və yuxarı olması ilə ölçür.

Beləliklə, biz gördük ki, tələblə təklif arasındakı nisbətin dəyişməsi qiymətlərin gah qalxmasına, gah da düşməsinə səbəb olur, gah yüksək qiymətlər, gah da aşağı qiymətlər doğurur. Əgər təklifin kifayət qədər olmaması və ya tələbin son dərəcə artması üzündən bir əmtəənin qiyməti xeyli qalxırsa, onda başqa əmtəənin qiyməti buna müvafiq dərəcədə mütləq aşağı düşür, çünki əmtəənin qiyməti, bu əmtəənin başqa əmtəələrə ancaq nə nisbətdə mübadilə olunduğunu pulla ifadə edir. Məsələn, bir arşın ipək parçanın qiyməti 5 markadan 6 markaya qalxırsa, gümüşün qiyməti ipək parçaya nisbətən aşağı düşür, qiymətləri sabit qalan bütün başqa əmtəələrin qiyməti də eyni surətdə ipək parçaya nisbətən aşağı düşür. İndi, mübadilə yolu ilə əvvəlki qədər ipək parça əldə etmək üçün, əvvəlkindən çox əmtəə vermək lazımdır. Əmtəə qiymətinin qalxması nə kimi nəticələr doğuracaqdır? Çoxlu kapital axıb tərəqqi edən sənaye sahəsinə gələcək və daha faydalı olan sənaye sahəsinə bu kapital axını həmin sahədə mənfəət adi səviyyəyə düşüncəyə qədər və ya daha doğrusu, ifrat istehsal nəticəsində bu sahə məhsullarının qiyməti istehsal xərcindən aşağı düşüncəyə qədər davam edəcəkdir.

Əksinə. Əgər bir əmtəənin qiyməti onun istehsal xərcindən aşağı düşərsə, kapital bu əmtəənin istehsalından axıb gedəcəkdir. Müəyyən sənaye sahəsi zamanın tələblərinə daha uyğun gəlmədiyi və buna görə də aradan qalxmalı olduğu hal istisna olmaqla, müəyyən əmtəənin istehsalı, yə`ni onun təklifi, kapitalın belə axıb getməsi üzündən azalacaqdır, həm də bu azalma təklif tələblə uyğunlaşıncaya qədər, deməli, əmtəənin qiyməti qalxıb yenidən onun istehsal xərci səviyyəsinə çatıncaya qədər və ya daha doğrusu, təklif tələbdən aşağı düşüncəyə qədər, y`əni əmtəənin qiyməti yenidən onun istehsal xərcindən yuxarı qalxıncaya qədər davam edəcəkdir, çünki əmtəənin cari qiyməti onun istehsal xərcindən həmişə yuxarı və ya aşağı olur.

Biz görürük ki, kapital daim bir istehsal sahəsindən başqa istehsal sahəsinə axıb gedir və axıb gəlir. Yüksək qiymət kapitalın çox güclü axıb gəlməsinə, aşağı qiymət isə çox güclü axıb getməsinə səbəb olur. Məsələyə başqa bir nöqteyi-nəzərdən yanaşmaqla biz göstərə bilərdik ki, yalnız təklif deyil, habelə tələb də istehsal xərci ilə müəyyən olunur. Lakin bu bizi mövzumuzdan çox uzaqlaşdırardı.

Biz indicə gördük ki, tələb və təklifdəki dəyişikliklər hər dəfə əmtəənin qiymətini istehsal xərci səviyyəsinə gətirib çıxarır. Doğrudur, əmtəənin həqiqi qiyməti həmişə istehsal xərcindən yuxarı və ya aşağı olur; lakin qiymətlərin qalxması və düşməsi bir-birini tarazlayır, belə ki, sənayedə kapitalın axıb gəlməsi və axıb getməsini onun ümumi yekunu ilə götürərsək, müəyyən vaxt ərzində əmtəələr istehsal xərcinə uyğun olaraq mübadilə olunur, deməli, onların qiyməti istehsal xərci ilə müəyyən olunur.

Qiymətin istehsal xərci ilə bu cür müəyyən olunmasını iqtisadçıların anladığı mə`nada anlamamalı. İqtisadçılar deyirlər ki, əmtəələrin orta qiyməti istehsal xərcinə bərabərdir onların fikrincə, bu bir qanundur. Qiymətin qalxmasını onun düşməsi ilə və düşməsini onun qalxması ilə tarazlaşdıran hərc-mərclik hərəkətini iqtisadçılar təsadüfi bir şey hesab edirlər. Bu doğru olsaydı, onda,–bə`zi iqtisadçıların etdiyi kimi,–haqlı olaraq, qiymətlərin dəyişməsini bir qanun, qiymətlərin istehsal xərci ilə müəyyən olunmasını isə təsadüfi bir şey hesab etmək olardı. Həqiqətdə isə, ancaq bu dəyişikliklərin gedişində,–daha yaxından tədqiq etdikdə mə`lum olduğu kimi, ən dəhşətli fəlakətlərə səbəb olan və burjua cəmiyyətini bir zəlzələ kimi kökündən sarsıdan yalnız bu dəyişmələrin gedişində qiymətlər məhz istehsal xərci ilə müəyyən olunur. Bu qaydasız hərəkətin məcmusu onun qaydasıdır. Bu sənaye hərc-mərcliyinin gedişində, bu dövranda rəqabət, necə deyərlər, bir ifratçılığı digəri ilə tarazlayır.

Beləliklə, gördüyümüz kimi, əmtəənin qiyməti istehsal xərci ilə belə müəyyən olunur ki, bir əmtəənin qiyməti onun istehsal xərcindən yuxarı olduğu dövrləri, bu qiymət onun istehsal xərcindən aşağı düşdüyü dövrlərlə tarazlayır və əksinə. Əlbəttə, bu hər bir ayrıca sənaye məhsuluna deyil, yalnız bütöv sənaye sahəsinə aiddir. Deməli, bu hal ayrıca bir sənayeçiyə deyil, yalnız bütöv sənayeçilər sinfinə aiddir.

Qiymətin istehsal xərci ilə müəyyən olunması, qiymətin, əmtəə istehsalı üçün lazım olan iş vaxtı ilə müəyyən olunması deməkdir, çünki ietehsal xərci aşağıdakılardan ibarətdir: 1) xammaldan və əmək alətlərinin

aşınmasından, yə`ni müəyyən miqdar iş günü bahasına başa gələn və, deməli, müəyyən miqdar iş vaxtını təmsil edən sənaye məhsullarından və 2) yenə də vaxtla ölçülən bilavasitə əməkdən.
Ümumiyyətlə, əmtəələrin qiymətini nizama salan ümumi qanunlar, əlbəttə, əmək haqqını, əməyin qiymətini də nizama salır.
Əmək haqqı, tələblə təklif arasındakı nisbətdən asılı olaraq, iş qüvvəsini alanlarla, yə`ni kapitalistlərlə iş qüvvəsini satanlar, yə`ni fəhlələr arasında rəqabətin nə şəkil alacağından asılı olaraq gah qalxacaq, gah düşəcəkdir.
Əmək haqqının qalxıb-düşməsi ümumiyyətlə, əmtəə qiymətlərinin qalxıb-düşməsinə uyğun olur. Lakin bu dəyişmələr çərçivəsi daxilində əməyin qiyməti istehsal xərci ilə, bu əmtəəni, yə`ni iş qüvvəsini yaratmaq üçün tələb olunan iş vaxtı ilə müəyyən olunur.
Bəs iş qüvvəsinin istehsal xərci hansı xərcdir?
Bu xərc–fəhləni bir fəhlə kimi saxlamaq və ondan fəhlə hazırlamaq üçün tələb olunan xərcdir.
Buna görə də fəhləni bir əməyə öyrətmək üçün nə qədər az vaxt tələb olunursa, fəhlənin istehsal xərci bir o qədər az olur, onun əməyinin qiyməti, onun əmək haqqı bir o qədər aşağı olur. O sənaye sahələrində ki, fəhləni öyrətməyə, demək olar vaxt heç tələb olunmur və fəhlənin ancaq cismən mövcud olması kifayət edir, orada fəhləni yaratmaq üçün tələb olunan istehsal xərci demək olar, ancaq onu yaşatmaq va əmək qabiliyyətini mühafizə etməkdən ötrü lazım gələn əmtəələrdən ibarətdir. Buna görə də onun əməyinin qiyməti zəruri yaşayış vasitələrinin qiyməti ilə müəyyən olunur.
Lakin burada bir cəhəti də nəzərə almaq lazımdır.
Fabrikçi öz istehsal xərcini və bu xərcə görə də məhsulların qiymətini hesablayarkən, əmək alətlərinin aşınmasını da hesaba daxil edir. Məsələn, əgər maşın ona 1000 markaya tamam olmuşsa və on ilə aşınırsa, fabrikçi hər il əmtəənin qiymətinə 100 marka əlavə edir ki, on il keçəndən sonra aşınmış maşının yerinə təzəsini ala bilsin. Habelə adi iş qüvvəsi istehsalının xərci tərkibinə nəsli davam etdirmək xərci də daxil olmalıdır, çünki bu xərc fəhlə sinfinə törəmək və əmək qabiliyyətini itirən fəhlələri yeniləri ilə əvəz etmək imkanı verir. Deməli, maşının aşınması hesaba alındığı kimi, fəhlənin aşınması da hesaba alınır.
Beləliklə, adi iş qüvvəsinin istehsal xərci, fəhlənin mövcud olması və nəslinin davam etdirilməsi xərcindən ibarət olur. Bu mövcud olmaq və

nəsli davam etdirmək xərcinin qiyməti əmək haqqını təşkil edir. Bu yolla müəyyən edilən əmək haqqı minimum əmək haqqı adlanır. Ümumiyyətlə əmtəələrin qiymətini istehsal xərci ilə müəyyən etmək kimi, bu minimum əmək haqqı da ayrıca fərdə deyil, bütöv növə aiddir. Ayrı-ayrı fəhlələr, milyonlarla fəhlələr mövcud olmağa və öz nəsillərini davam etdirməyə imkan verəcək qədər əmək haqqı almırlar; lakin bütün fəhlə sinfinin əmək haqqı, qalxıb-düşdüyü çərçivə daxilində bu minimuma görə tarazlaşır.
İndi biz əmək haqqını, habelə hər bir başqa əmtəənin tiymətini nizama salan ən ümumi qanunları aydınlaşdırıb razılaşdıqdan sonra, mövzumuzla daha yaxından məşğul ola bilərik.
Kapital–xammaldan, əmək alətlərindən və yeni xammal, yeni əmək alətləri, yeni yaşayış vasitələri istehsalına sərf olunan müxtəlif yaşayış vasitələrindən ibarətdir. Kapitalın bütün bu tərkib hissələri əməyin yaratdığı şeylərdir, əmək məhsullarıdır, toplanmış əməkdir. Yeni istehsal üçün bir vasitə olan toplanmış əmək–kapitaldır.
İqtisadçılar belə deyirlər.
Zənci qul nədir? Qara irqə mənsub adamdır. Bu izahatın hər ikisi bir-birinin tayıdır.
Zənci–zəncidir. O yalnız müəyyən münasibətlər daxilində qul olur. Pambıq əyirən maşın–pambıq əyirmək maşınıdır. Yalnız müəyyən münasibətlər daxilində bu maşın kapital olur. Qızıl özlüyündə pul olmadığı kimi, yaxud qənd özlüyündə qəndin qiyməti olmadığı kimi, bu maşın da haman münasibətlərdən xaricdə kapital deyildir.
İstehsalda insanlar yalnız təbiətə deyil, bir-birinə də tə`sir göstərirlər. Onlar birgə fəaliyyət üçün və öz fəaliyyətini qarşılıqlı mübadilə etmək üçün müəyyən surətdə birləşmədən istehsal edə bilməzlər. İstehsal etmək üçün insanlar müəyyən əlaqə və münasibətlərə girirlər və yalnız bu ictimai əlaqə və münasibətlər vasitəsi ilə onların təbiətə tə`siri mövcud olur, istehsal mümkün olur.
İstehsalçıların bir-birinə olan bu ictimai münasibətləri, onların öz fəaliyyətlərini mübadilə və birgə istehsalda iştirak etmələri şəraiti, istehsal vasitələrinin xarakterindən asılı olaraq, əlbəttə, müxtəlif olacaqdır. Yeni müharibə aləti, yə`ni atəş açan silah ixtira ediləndən sonra ordunun bütün daxili quruluşu da labüddən dəyişildi, ayrı-ayrı fərdlərin bir ordu halında təşkil olunması və bir ordu kimi hərəkət edə bilməsi üçün zəmin təşkil edən

münasibətlər də başqa şəkil aldı, habelə müxtəlif orduların bir-birinə münasibəti dəyişildi.
Deməli, maddi istehsal vasitələri, məhsuldar qüvvələr dəyişib inkişaf etdikcə fərdlərin məhsul istehsal etməsinin ictimai münasibətləri, ictimai istehsal münasibətlər də dəyişir, başqa şəkil alır. İstehsal münasibətlərinin məcmusu ictimai münasibətləri, cəmiyyət adlandırılan şeyi təşkil edir, həm də müəyyən tarixi inkişaf pilləsində olan cəmiyyəti, özünün ayrıca fərqləndirici xarakteri olan cəmiyyəti təşkil edir. Antik cəmiyyət, feodalizm cəmiyyəti, burjua cəmiyyəti istehsal münasibətlərinin elə məcmularından ibarətdir ki, bunlardan hər biri eyni zamanda bəşəriyyətin tarixi inkişafında ayrıca bir pillə deməkdir.
Kapital da ictimai istehsal münasibətidir. Kapital–burjua istehsal münasibətidir, burjua cəmiyyətinin istehsal münasibətidir. Məgər kapitalı təşkil edən yaşayış vasitələri, əmək alətləri, xammal–bütün bunlar müəyyən ictimai şəraitdə, müəyyən ictimai münasibətlər şəraitində istehsal edilib toplanmamışdırmı? Məgər bunlar yeni istehsal məqsədi ilə müəyyən ictimai şəraitdə, müəyyən ictimai münasibətlər çərçivəsi daxilində tətbiq edilmirmi? Məgər yeni istehsal üçün ayrılmış məhsulları kapitala çevirən məhz bu müəyyən ictimai xarakter deyilmi?
Kapital təkcə yaşayış vasitələrindən, əmək alətləri və xammaldan, təkcə maddi məhsullardan ibarət deyildir kapital eyni zamanda mübadilə dəyərlərindən də ibarətdir. Kapitalı təşkil edən bütün məhsullar əmtəədir. Deməli, kapital təkcə maddi məhsulların məcmusu deyil, habelə əmtəələrin, mübadilə dəyərlərinin, ictimai kəmiyyətlərin məcmusudur . Biz yun əvəzinə pambıq, taxıl əvəzinə düyü, dəmiryol əvəzinə paroxod götürmüş olsaq da, kapital yenə eyni kapitallığında qalacaqdır, bu şərtlə ki, kapitalın cismi olan pambıq, düyü, paroxod əvvəllərdə kapitalı təcəssüm etdirmiş yunun, taxılın, dəmir yolunun malik olduğu eyni mübadilə dəyərinə, eyni qiymətə malik olsun. Kapitalın cismi kapitalın azacıq da olsa dəyişməsinə səbəb olmadan daim dəyişə bilər.
Lakin hər bir kapital əmtəələrin məcmusu, yə`ni mübadilə dəyərlərinin məcmusu isə, əmtəələrin, yə`ni mübadilə dəyərlərinin heç də hər məcmusu kapital deyildir.
Mübadilə dəyərlərinin hər məcmusu bir tək mübadilə dəyəridir. Hər ayrıca mübadilə dəyəri mübadilə dəyərlərinin məcmusudur. Məsələn, 1000 marka

qiymətində bir ev 1000 markalıq mübadilə dəyəridir. 1 pfenniq qiymətində bir vərəq kağız 100\100 pfenniqlik mübadilə dəyərlərinin məcmusudur. Başqa məhsullara mübadilə oluna bilən məhsullar əmtəədir. Əmtəələr nə nisbətdə mübadilə edilirsə, həmin müəyyən nisbət onların mübadilə dəyəridir, yaxud bu nisbət pulla ifadə olunmuşsa, onların qiymətidir. Bu məhsulların miqdarı onların əmtəə olmaq, yaxud mübadilə dəyərini təmsil etmək, yaxud müəyyən qiymətə malik olmaq vəzifəsini zərrə qədər dəyişdirə bilməz. Ağaç böyüklüyü və ya kiçikliyindən asılı olmayaraq ağaclığında qalır. Biz dəmiri başqa məhsullara lotla deyil, sentnerlə mübadilə etsək, məgər onun əmtəə olmaq, mübadilə dəyəri olmaq xarakteri dəyişər? Öz miqdarından asılı olaraq, dəmir çox və ya az dəyəri, yüksək və ya aşağı qiyməti olan bir əmtəədir.

Bəs necə olur ki, əmtəələr məcmusu, mübadilə dəyərləri məcmusu dönüb kapital olur?

Əmtəələr məcmusunun dönüb kapital olmasına səbəb budur ki, əmtəələr məcmusu müstəqil ictimai qüvvə, yə`ni cəmiyyətin bir hissəsinə məxsus bir qüvvə olmaq e`tibarı ilə bilavasitə canlı iş qüvvəsinə mübadilə edilmək yolu ilə mühafizə edilir və artır. Əmək qabiliyyətindən başqa heç bir şeyi olmayan bir sinfin varlığı kapitalın mövcud olması üçün ilk zəruri şərtdir. Yalnız toplanmış əməyin, keçmiş əməyin, maddiləşmiş əməyin bilavasitə, canlı əmək üzərindəki hökmranlığı toplanmış əməyi kapitala çevirir. Kapitalın mahiyyəti onda deyildir ki, toplanmış əmək yeni istehsaldan ötrü canlı əməyə xidmət edən bir vasitədir. Kalitalın mahiyyəti ondadır ki, canlı əmək toplanmış əməyin mübadilə dəyərinin mühafizə olunması və artması üçün vasitədir.

Mübadilə zamanı kapitalistlə muzdlu fəhlə arasında nə olur?

Fəhlə öz iş qüvvəsini mübadilə etməklə yaşayış vasitələri əldə edir, kapitalist isə öz ixtiyarında olan yaşayış vasitələrini mübadilə etməklə fəhlənin əməyini, məhsuldar fəaliyyətini, yə`ni elə yaradıcı qüvvə əldə edir ki, fəhlə istehlak etdiyi şeylərin əvəzini bu qüvvə vasitəsi ilə nəinki ödəyir, habelə toplanmış əməyə onun əvvəl malik olduğundan daha artıq dəyər əlavə edir. Fəhlə kapitalistdən, mövcud yaşayış vasitələrinin bir hissəsini alır. Bu yaşayış vasitələri ona nə üçün lazımdır? Bilavasitə istehlak etmək üçün. Lakin bir halda ki, mən bu yaşayış vasitələrini istehlak etmişəm, əgər bu yaşayış vasitələri məni yaşatdığı müddətdən istifadə edib yeni yaşayış vasitələri istehsal etməmişəmsə və istehlak nəticəsində yox olmuş

dəyərlərin əvəzini çıxarmaq üçün həmin istehlak müddətində öz əməyimin köməyi ilə yeni dəyər yaratmamışamsa, onda istehlak etdiyim bu yaşayış vasitələrini həmişəlik itirmiş oluram. Məsələ də bundadır ki, fəhlə özünün məhz bu nəcib təkrar istehsal qüvvəsini yaşayış vasitələri müqabilində kapitala verir. Deməli, o özü bu qüvvəni itirmiş olur.

Belə bir misal götürək. Fermer öz günəmuzdçu fəhləsinə gündə 5 zilberqroş verir. Günəmuzdçu bu 5 zilberqroşun müqabilində bütün günü fermerin tarlasında işləyir və beləliklə də fermer üçün 10 zilberqroşluq gəlir tə`min edir. Fermer günəmuzdçuya verdiyi dəyərin əvəzini almaqdan əlavə, bunu ikiqat artırır. Deməli, fermer günəmuzdçuya verdiyi 5 zilberqroşu səmərəli, məhsuldar şəkildə tətbiq, istehlak etmiş olur. Fermer həmin 5 zilberqroşa günəmuzdçunun məhz o əməyi və qüvvəsini satın almışdır ki, bunlar ikiqat artıq dəyəri olan əkinçilik məhsulu istehsal edir və 5 zilberqroşu 10 zilberqroşa çevirir. Öz məhsuldar qüvvəsinin məhz fəaliyyətini fermerə satan günəmuzdçu isə, bu qüvvənin əvəzində 5 zilberqroş alır və bunu yaşayış vasitələrinə mübadilə edir ki, bunları da tez, yaxud yavaş-yavaş istehlak edir. Deməli, bu 5 zilberqroş iki cür istehlak edilmiş olur: kapital üçün məhsuldar şəkildə istehlak edilmiş olur, çünki kapital bunu 10 zilberqroş hasil edən iş qüvvəsinə (Burada «iş qüvvəsi» terminini əsərə Engels daxil etməmişdir, əsərin Marks tərəfindən «Neue Rheinische Zeitunq»da dərc olunan mətnində vardır. Red.) mübadilə etmişdir; fəhlə üçün isə qeyri-məhsuldar şəkildə istehlak edilmiş olur, çünki fəhlə bunu yaşayış vasitələrinə mübadilə etmiş və bu yaşayış vasitələri həmişəlik yox olmuşdur və fəhlə bu yaşayış vasitələrinin dəyərini fermerlə həmin mübadiləni yalnız təkrar etmək şərti ilə yenidən ala bilər. Beləliklə, kapitalın mövcud olması üçün muzdlu əməyin olması şərtdir, muzdlu əmdyin mövcud olması üçün də kapitalın olması şərtdir. Bunlar bir-biri üçün şərtdir; bunlar bir-birini doğurur.

Fəhlə pambıq parça fabrikində yalnız pambıq parçamı istehsal edir? Yox, o, kapital istehsal edir. Fəhlə, yenidən onun əməyi üzərində hakim olmaq və bu əmək vasitəsi ilə yeni dəyər yaratmaq vəzifəsini görən dəyər istehsal edir.

Kapital yalnız iş qüvvəsinə mübadilə olunmaqla, yalnız muzdlu əməyi fəaliyyətə gətirməklə arta bilər. Muzdlu fəhlənin iş qüvvəsi yalnız kapitalı artırmaq, özunü əsarət altına alan hakimiyyəti qüvvətləndirmək şərti ilə

kapitala mübadilə oluna bilər. Buna görə də kapitalın artması proletariatın, yə`ni fəhlə sinfinin artması deməkdir.
Deməli, kapitalistlə fəhlənin mənafeyi eynidir,–deyə burjualar və onların iqtisadçıları iddia edirlər. Doğrudan da! Fəhlə kapitaldan iş ala bilmirsə, məhv olur. Kapital iş qüvvəsini istismar etmirsə, məhv olur, iş qüvvəsini istismar etmək üçün isə, kapital onu satın almalıdır. İstehsal üçün ayrılan kapital, məhsuldar kapital nə qədər sür`ətlə artırsa, deməli, sənaye nə qədər çox tərəqqi edirsə, burjuaziya nə qədər çox varlanırsa, işlər nə qədər yaxşı gedirsə,–kapitalistə bir o qədər çox fəhlə lazım olur, fəhlə özünü bir o qədər baha satır.
Belə çıxır ki, fəhlənin az-çox babat vəziyyətdə olması üçün məhsuldar kapitalın mümkün qədər sür`ətlə artması zəruri şərtdir.
Lakin məhsuldar kapitalın artması nə deməkdir? Bu–toplanmış əməyin canlı əmək üzərində hakimiyyətinin artması deməkdir, Burjuaziyanın fəhlə sinfi üzərində hökmranlığının artması deməkdir. əgər muzdlu əmək öz üzərində hökmranlıq edən özgə sərvətini, özünə düşmən olan qüvvəni, kapitalı istehsal edirsə, kapitaldan işlə məşğul olmaq vasitələri [Beschaftigungsmittel], yə`ni yaşayış vasitələri alır, həm də o şərtlə alır ki, muzdlu əmək yenidən kapitalın bir hissəsi, kapitalı yenidən sür`ətlə hərəkətə gətirən bir vasitə olacaqdır.
Kapitalın mənafeyi ilə fəhlələrin mənafeyinin eyni olduğu iddiası işdə ancaq o deməkdir ki, kapitalla muzdlu əmək eyni nisbətin iki tərəfidir. Sələmçi ilə bədxərc bir-biri üçün şərt olduğu kimi, kapitalla muzdlu əmək də biri o biri üçün şərtdir.
Nə qədər ki, muzdlu fəhlə muzdlu fəhləliyində qalır, onun müqəddəratı kapitaldan asılıdır. Fəhlə ilə kapitalistin mənafeyinin uğursuz ümumiliyi də məhz bundan ibarətdir.
Əgər kapital artırsa, muzdlu əmək kütləsi artır, muzdlu fəhlələrin sayı artır, bir sözlə, kapital daha çox adamı öz hökmranlığı altına alır. Belə bir ən əlverişli hal fərz edək məhsuldar kapital artmaqla əməyə tələb artır, deməli, əməyin qiyməti, əmək haqqı da artır.
Bir ev nə qədər kiçik olursa-olsun, nə qədər ki, onun ətrafındakı evlər də belə kiçikdir, mənzilə olan bütün ictimai tələbləri ödəyir. Lakin bu kiçik evin yanında bir saray tikilərsə, onda bu ev kiçilib acınacaqlı bir daxmaya dönür. İndi evin kiçikliyi onu göstərir ki, bu evin sahibi əsla tələbkar deyildir və ya çox az tələbkardır; mədəniyyət tərəqqi etdikcə kiçik ev nə

qədər böyüsə də, qonşuluqdakı saray eyni dərəcədə və ya daha artıq dərəcədə böyüyərsə, nisbətən kiçik evin sakini öz evinin dörd divarı içərisində özünü getdikcə daha narahat, getdikcə daha narazı və alçalmış hiss edəcəkdir.

Əmək haqqının az-çox nəzərə çarpacaq dərəcədə artması üçün məhsuldar kapitalın sür`ətlə artması şərtdir. Məhsuldar kapitalın sür`ətlə artması sərvətin, zinətin, ictimai tələbatın və ictimai zövqlərin də eyni dərəcə sür`ətlə artmasına səbəb olur. Beləliklə, fəhləyə müyəssər olan zövqlər artsa da, bunların ictimai tələbatı ödəməsi dərəcəsi, kapitalistin fəhlələrə müyəssər olmayan artmış zövqlərinə və ümumiyyətlə cəmiyyətin inkişaf səviyyəsinə nisbətən aşağı düşür. Bizim tələbat və zövqlərimiz cəmiyyətdən doğur; buna görə də biz bu tələbat və zövqləri ölçərkən, onları ödəməli olan şeylərlə deyil, ictimai ölçü ilə ölçürük. Bizim tələbat və zövqlərimiz ictimai xarakter daşıdığı üçün nisbidir.

Ümumiyyətlə əmək haqqı, onun müqabilində mübadilə yolu ilə ala biləcəyim əmtəələrin təkcə miqdarı ilə müəyyən olunmur. Əmək haqqında müxtəlif münasibətlər vardır.

Hər şeydən əvvəl fəhlə öz iş qüvvəsi üçün müəyyən məbləğdə pul alır. Əmək haqqı ancaq bu pul qiymətiləmi müəyyən olunur?

XVI əsrdə Amerikada daha zəngin və asanlıqla çıxarıla bilən qızıl və gümüş mə`dənlərinin kəşf edilməsi nəticəsində Avropada tədavüldə olan qızıl və gümüşün miqdarı artmışdı. Buna görə də qızıl və gümüşün dəyəri başqa əmtəələrə nisbətən aşağı düşmüşdü. Fəhlələr isə özlərinin iş qüvvəsi müqabilində əvvəlki qədər gümüş sikkə alırdılar. Onların əməyinin pul qiyməti olduğu kimi qalmışdı, amma buna baxmayaraq, onların əmək haqqı aşağı düşmüşdü, çünki onlar eyni miqdar gümüşü mübadilə edirkən başqa əmtəələri əvvəlkindən az alırdılar. XVI əsrdə kapitalın artmasına, burjuaziyanın yüksəlməsinə səbəb olan amillərdən biri də bu idi.

Başqa bir misal götürək. 1847-ci ilin qışında məhsul qıtlığı üzündən çörək, ət, yağ, pendir və sair bu kimi ən zəruri yaşayış vasitələrinin qiyməti xeyli artmışdı. Tutaq ki, fəhlələr özlərinin iş qüvvəsi müqabilində əvvəlki qədər pul alırdılar. Məgər onların əmək haqqı aşağı düşməmişdi? Əlbəttə, düşmüşdü. Onlar mübadilə nəticəsində eyni pula əvvəlkindən az çörək, ət və i.a. almağa başlamışdılar. Onların əmək haqqının düşməsinə səbəb gümüşün dəyərinin azalması deyil, yaşayış vasitələri dəyərinin artması idi.

Nəhayət, fərz edək ki, yeni maşınların tətbiq edilməsi, mövsümün daha əlverişli olması və i.a. nəticəsində bütün əkinçilik və sənaye əmtəələrinin qiyməti aşağı düşdüyü halda, əməyin pulla qiyməti sabit qalır. İndi fəhlələr eyni pula müxtəlif əmtəəni daha çox ala bilərlər. Deməli, onların əmək haqqı məhz ona görə artmışdır ki, əmək haqqının pulla dəyəri sabit qalmışdır.

Beləliklə, əməyin pulla qiyməti, yə`ni nominal əmək haqqı real əmək haqqına, yə`ni əmək haqqı müqabilində həqiqətən verilən əmtəələrin miqdarına uyğun gəlmir. Buna görə də əmək haqqının qalxması və ya düşməsindən danışarkən, biz əməyin təkcə pulla qiymətini, təkcə nominal əmək haqqını nəzərdə tutmamalıyıq.

Lakin nə nominal əmək haqqı, yə`ni fəhlənin özünü kapitalistə satarkən aldığı pul məbləği, nə də real əmək haqqı, yə`ni onun bu pula ala biləcəyi əmtəənin miqdarı əmək haqqında olan nisbətlərin heç də hamısını əhatə etmir.

Bundan başqa, əmək haqqı birinci növbədə, kapitalistin götürdüyü qazanca, mənfəətə olan nisbəti ilə müəyyən olunur bu–müqayisəli, nisbi əmək haqqıdır.

Real əmək haqqı başqa əmtəələrin qiymətinə nisbətən əməyin qiymətini ifadə edir, nisbi əmək haqqı isə əməyin yeni yaratmış olduğu dəyərdən toplanmış əməyin, yə`ni kapitalın payına düşən hissəyə nisbətən bu dəyərin bilavasitə əməyə çatan hissəsini ifadə edir.

Biz yuxarıda, 14-cü səhifədə (bax: bu cdd. Red.) demişdik «Əmək haqqı fəhlənin istehsal etdiyi əmtəədə fəhlənin payı deyildir. Əmək haqqı mövcud əmtəənin bir hissəsidir və kapitalist buna özü üçün müəyyən miqdar məhsuldar iş qüvvəsi alır». Lakin kapitalist fəhlənin yaratdığı məhsulu satmaqla əldə etdiyi məbləğ hesabına yenidən bu əmək haqqının yerini doldurmalıdır; həm də bu əmək haqqının yerini elə doldurmalıdır ki, bir qayda olaraq, ona öz istehsal xərcindən əlavə hələ artıq bir şey, yə`ni mənfəət də qalsın. Fəhlənin istehsal etdiyi əmtəənin satış qiyməti kapitalistin nəzərində üç hissəyə ayrılır birincisi, avans etdiyi xammal qiymətinin yerini doldurmaq, habelə avans etdiyi alətlər, maşınlar və başqa əmək vasitələrinin aşınmasının yerini doldurmaq ikincisi, kapitalistin avans etdiyi əmək haqqının yerini doldurmaq və üçüncüsü, bundan əlavə olaraq, kapitalist üçün mənfəət götürmək. Birinci hissə ancaq hələ əvvəldən mövcud olan dəyərlərin yerini doldurduğu halda, aydındır ki, istər yeri

doldurulan əmək haqqı, istərsə kapitalistin mənfəətini təşkil edən əlavə, tamamilə fəhlə əməyinin yaratdığı və xammalın dəyərinə əlavə edilmiş yeni dəyərdən götürülür. Həmin mə`nada bunları bir-biri ilə muqayisə etmək üçün, biz həm əmək haqqını, həm də mənfəəti fəhlənin istehsal etdiyi məhsulun hissələri hesab edə bilərik.

Real əmək haqqı sabit qala bilər, hətta yüksələ də bilər, lakin buna baxmayaraq, nisbi əmək haqqı aşağı düşə bilər. Məsələn, fərz edək ki, bütün yaşayış vasitələrinin qiyməti 2/3, gündəlik əmək haqqı isə yalnız 1/3 aşağı düşmüşdür, məsələn, 3 markadan 2 markaya enmişdir. Fəhlə indi bu 2 markaya, əvvəllər 3 markaya aldığına nisbətən daha çox əmtəə ala bilsə də, kapitalistin mənfəətinə nisbətən onun əmək haqqı aşağı düşmüşdür. Kapitalistin (məsələn, fabrikçinin) mənfəəti 1 marka artmışdır, başqa sözlə, kapitalistin fəhləyə verdiyi daha az miqdar mübadilə dəyəri müqabilində fəhlə indi əvvəlkindən çox mübadilə dəyəri istehsal etməlidir. Əməyin payına nisbətən kapitalın payı artmış olur. İctimai sərvətin kapitalla əmək arasında bölüşdürülməsindəki bərabərsizlik daha çox artmış olur. Kapitalist yenə eyni kapital vasitəsi ilə daha çox əmək üzərində hökmranlıq edir. Kapitalistlər sinfinin fəhlə sinfi üzərində hakimiyyəti artmışdır, fəhlənin ictimai vəziyyəti pisləşmiş, kapitalistin vəziyyətinə nisbətən bir pillə daha aşağı düşmüşdür.

Bəs, əmək haqqı ilə mənfəətin bir-birinə nisbətən düşməsi və qalxmasını müəyyən edən ümumi qanun nədən ibarətdir?

Əmək haqqı ilə mənfəət bir-birinə tərs nisbətdddir. Əməyin payı, gündəlik əmək haqqı nə nisbətdə düşürsə, kapitalın payı, mənfəət də eyni nisbətdə yüksəlir və əksinə. Əmək haqqı nə qədər aşağı düşürsə, mənfəət də o qədər yüksəlir, əmək haqqı nə qədər yüksəlirsə, mənfət də o qədər aşağı düşür, Ola bilər, buna e`tiraz edib desinlər ki, kapitalist öz məhsullarını başqa kapitalistlərlə əlverişli şəkildə mübadilə etmək sayəsində qazana bilər, ya yeni bazarlar açılması, yaxud köhnə bazarlarda tələbatın qəfildən artması nəticəsində onun əmtəəsinə tələbin yüksəlməsi və i.a. sayəsində qazana bilər; deməli, əmək haqqının, iş qüvvəsinin mübadilə dəyərinin qalxıb-düşməsindən asılı olmayaraq, bir kapitalistin mənfəəti başqa kapitalistlərin hesabına arta bilər; yaxud kapitalistin mənfəəti əmək alətlərinin yaxşılaşdırılması, təbiət qüvvələrinin yeni üsulla tətbiq edilməsi sayəsində arta bilər və i.a.

Hər şeydən əvvəl e`tiraf etmək lazımdır ki, bu nəticə əks yolla əldə edilmiş olsa da, əvvəlkinin eynidir. Doğrudur, mənfəətin artmasına səbəb əmək haqqının aşağı düşməsi deyildi, lakin əmək haqqının aşağı düşməsinə səbəb mənfəətin artması idi. Kapitalist eyni miqdar özgə əməyinə daha çox mübadilə dəyəri almış və eyni zamanda əməyə əvvəlkindən artıq haqq verməmişdi; bu o deməkdir ki, əməyin kapitalistə verdiyi xalis gəlirə nisbətən əməyə az haqq verilir.

Bunu da yada salmalıyıq ki, əmtəə qiymətlərinin qalxıb-düşməsinə baxmayaraq, hər bir əmtəənin orta qiyməti, bu əmtəənin başqa əmtəələrə mübadilə edildiyi nisbət onun istehsal xərci ilə müəyyən olunur. Buna görə də kapitalistlərin bir-birini hesabda aldatması bütün kapitalistlər sinfi daxilində labüd surətdə tənləşir. Maşınların təkmilləşdirilməsi, təbiət qüvvələrinin istehsalda yeni üsullarla tətbiq olunması müəyyən iş vaxtı ərzində eyni miqdar əmək və kapitalla daha çox məhsul yaratmağa imkan verir, lakin heç bir halda daha çox mübadilə dəyəri yaratmağa imkan vermir. Əgər mən əyirici maşın tətbiq edərək, bu maşın ixtira ediləndən əvvəlkinə nisbətən ikiqat artıq, məsələn, saatda əlli girvənkə əvəzinə yüz girvənkə iplik istehsal edə bilirəmsə, az və ya çox davam edən bir müddət ərzində mən bu yüz girvənkə müqabilində orta hesabla, əvvəllər 50 girvənkə ipliyə aldığımdan artıq əmtəə almayacağam, ona görə ki, istehsal xərci yarıbayarı aşağı düşmüşdür, ya da ona görə ki, həmin xərclə mən ikiqat artıq məhsul istehsal edə bilərəm.

Nəhayət, istər bir ölkənin, istərsə bütün dünya bazarının kapitalistlər sinfi, burjuaziyası istehsalın xalis gəlirini öz arasında hansı nisbətdə bölüşdürürsə bölüşdürsün, hər halda bu xalis gəlirin ümumi məbləği ancaq, bilavasitə əməyin bütövlükdə toplanmış əməyə artırdığı məbləğdən ibarətdir. Deməli, əmək kapitalı nə nisbətdə artırırsa, yə`ni əmək haqqına nisbətən mənfəət nə nisbətdə yüksəlirsə, bu ümumi məbləğ də həmin nisbətdə artır.

Beləliklə, biz görürük ki, hətta kapitalla muzdlu əmək arasındakı nisbətlər dairəsindən kənara çıxmayanda da, kapitalın mənafeyi ilə muzdlu əməyin mənafeyi bir-birinə daban-dabana ziddir.

Kapitalın sür`ətlə artması mənfəətin sür`ətlə artması deməkdir. Mənfəət isə yalnız o zaman sür`ətlə arta bilər ki, əməyin qiyməti, nisbi əmək haqqı da eyni sür`ətlə azalsın. Nisbi əmək haqqı hətta o zaman da aşağı düşə bilər ki, nominal əmək haqqı ilə birlikdə, əməyin pul dəyəri ilə birlikdə real

əmək haqqı da artır, ancaq bu şərtlə ki, real əmək haqqı mənfəətin artdığı dərəcədə artmasın. Məsələn, işlər yaxşı getdiyi dövrlərdə əmək haqqı 5%, mənfəət isə 30% artırsa, müqayisəli, nisbi əmək haqqı artmaq deyil, azalır. Beləliklə, kapital sür`ətlə artarkən fəhlənin gəliri artırsa da, eyni zamanda fəhləni kapitalistdən ayıran ictimai uçurum da böyüyür və bununla birlikdə əmək üzərində kapitalın hakimiyyəti, əməyin kapitaldan asılılığı da artır. Fəhlənin mənafeyi kapitalın sür`ətlə artmasını tələb edir,–deyə irəli sürülən iddia əslində yalnız o deməkdir ki, fəhlə özgə sərvətini nə qədər sür`ətlə artırırsa, ona bir o qədər daha yağlı tikə verirlər, bir o qədər çox fəhlə iş alıb yaşaya bilir, kapitaldan asılı olan qulların sayı bir o qədər arta bilir. Beləliklə, biz aşağıdakını gördük:

Fəhlə sinfi üçün hətta ən əlverişli şərait, kapitalın mümkün qədər sür`ətlə artması şəraiti fəhlənin maddi yaşayışını nə qədər yaxşılaşdırsa da, fəhlənin mənafeyi ilə burjuaların mənafeyi, kapitalistlərin mənafeyi arasındakı əksliyi məhv etmir. Mənfəətlə əmək haqqı əvvəlki kimi bir-birinə tərs nisbətdə qalır.

Əgər kapital sür`ətlə artırsa, əmək haqqı yüksələ bilər lakin kapitalistin mənfəəti bundan müqayisə edilməyəcək dərəcədə sür`ətlə artır. Fəhlənin maddi vəziyyəti yaxşılaşırsa, ancaq onun ictimai vəziyyəti hesabına yaxşılaşmış olur. Onu kapitalistdən ayıran ictimai uçurum genişlənmişdir.

Nəhayət

Məhsuldar kapitalın mümkün qədər sür`ətlə artması muzdlu əmək üçün ən əlverişli şərtdir,–deyə irəli sürülən iddia əslində yalnız o deməkdir ki, fəhlə sinfi özünə düşmən olan qüvvəni, öz üzərində hökmranlıq edən özgə sərvətini nə qədər sür`ətlə artırıb çoxaldırsa, burjua sərvətini artırmaq yolunda, kapitalın hakimiyyətini qüvvətləndirmək yolunda yenidən işləmək üçün fəhlə sinfinə verilən şərait bir o qədər əlverişli olur, həm də fəhlə sinfinin belə işləyib ələ keçirdiyi və onunla kifayətləndiyi ancaq bu olur ki, burjuaziyanın öz ardınca çəkib apardığı fəhlə sinfinin boynuna bağladığı qızıl zənciri fəhlə sinfi özü hazırlayır.

Lakin doğrudanmı məhsuldar kapitalın artması, burjua iqtisadçılarının iddia etdiyi kimi, əmək haqqının yüksəlməsi ilə qırılmaz şəkildə əlaqədardır? Biz onların sözünə inanmamalıyıq. Biz onların hətta bu sözünə də inana bilmərik ki, kapital nə qədər çox şişib piylənirsə, onun qulunun güzəranı da bir o qədər yaxşı olur. Burjuaziya o qədər çox bilmiş və öz haqq-hesabını o qədər yaxşı biləndir ki, nökər-naiblərinin təmtəraqı

ilə öyünən feodalın yanlış fikirlərinə şərik olmaz. Burjuaziyanın yaşaması şəraiti onu öz haqq-hesabını yaxşı bilməyə məcbur edir. Buna görə də biz belə bir məsələni yaxından tədqiq etməliyik

Məhsuldar kapitalın artması əmək haqqına necə tə`sir edir?

Əgər burjua cəmiyyətinin məhsuldar kapitalı ümumiyyətlə və bütünlüklə artırsa, onda əmək daha çoxtərəfli surətdə toplanmış olur. Kapitalistlərin sayı və onların kapitalının həcmi artır. Kapitalın artması kapitalistlər arasında rəqabəti şiddətləndirir. Kapitalın həcminin böyüməsi, daha böyük mübarizə alətləri ilə silahlanmış daha qüdrətli fəhlə ordularını sənaye mübarizəsi meydanına çıxarmaq imkanı verir.

Bir kapitalist yalnız daha ucuz satanda başqasını döyüş meydanından sıxışdırıb çıxararaq onun kapitalına sahib ola bilər. İflas etmədən daha ucuz sata bilmək üçün kapitalist daha ucuz istehsal etməli, yə`ni əməyin məhsuldar qüvvəsini mümkün qədər çox artırmalıdır. Əməyin məhsuldar qüvvəsi isə, hər şeydən əvvəl, daha geniş əmək bölgüsü yolu ilə, maşınları hərtərəfli tətbiq etmək və daim təkmilləşdirməklə artırılır. İçərisində əmək bölgüsü olan fəhlə ordusu nə qədər böyükdürsə, maşın nə qədər böyük miqyasda tətbiq edilirsə, istehsal xərci nisbətən bir o qədər sür`ətlə azalır, əmək bir o qədər məhsuldar olur. Buna görə də kapitalistlər arasında hərtərəfli rəqabət əmələ gəlir–onlar əmək bölgüsünü genişləndirməyə, maşınların miqdarını artırmağa və bunlardan mümkün qədər daha böyük miqyasda istifadə etməyə çalışırlar.

Bir kapitalist daha geniş əmək bölgüsü, yeni maşınlar tətbiq etmək və bunları təkmilləşdirmək sayəsində, təbiət qüvvələrindən daha faydalı və daha geniş istifadə etmək sayəsində eyni miqdar əməklə və ya toplanmış əməklə öz rəqiblərindən daha çox məhsul, əmtəə istehsal etmək imkanı əldə edərsə, məsələn, öz rəqiblərinin yarım arşın kətan toxuduğu iş vaxtı ərzində tam bir arşın kətan istehsal edə bilərsə, onda necə hərəkət edər? O, yarım arşın kətanı yenə də köhnə bazar qiymətinə sata bilərdi, lakin onda öz rəqiblərini döyüş meydanından sıxışdırıb çıxara bilməz və özü daha artıq əmtəə sata bilməzdi. Halbuki onun istehsalı nə dərəcədə artmışsa, satışa olan ehtiyacı da o dərəcədə artmışdır. Doğrudur, onun işə saldığı daha güclü və daha bahalı istehsal vasitələri ona əmtəəni daha ucuz satmaq imkanı verir, lakin eyni zamanda bunlar onu daha çox əmtəə satmağa, öz əmtəələri üçün müqayisə edilməyəcək dərəcədə geniş bazar

əldə etməyə məcbur edir; buna görə də bizim kapitalist yarım arşın kətanı öz rəqiblərindən ucuz satacaqdır.
Lakin bir arşın kətanın istehsalı bu kapitalistə başqalarının yarım arşın kətan istehsalından baha tamam olmursa da, o, bir arşın kətanı öz rəqiblərinin yarım arşını satdıqları qiymətə satmayacaqdır. Əks halda o heç bir əlavə xeyir götürməz və mübadilə yolu ilə yalnız öz istehsal xərcini özünə qaytarmış olardı. Bununla belə onun gəliri artmış olsaydı da, bunun səbəbi heç də bu olmazdı ki, onun kapitalı öz dəyərini başqalarının kapitallarından daha çox dərəcədə artırmış olardı, bunun səbəbi yalnız o olardı ki, kapitalist daha çox kapital işə salmış olardı. Bundan başqa, kapitalist öz əmtəəsinə rəqiblərinin qoyduğu qiymətdən yalnız bir neçə faiz aşağı qiymət qoymaqla istədiyi məqsədə çatır. O, qiymətləri aşağı salmaqla, öz rəqiblərini sıxışdırıb bazardan çıxarır və ya, heç olmasa, onların satışının bir hissəsini əllərindən alır. Nəhayət, xatırlatmalıyıq ki, müəyyən əmtəənin sənaye üçün əlverişli və ya əlverişsiz mövsümdə satılmasından asılı olaraq, cari qiymət həmişə istehsal xərcindən yuxarı və ya aşağı olur. Yeni və daha səmərəli istehsal vasitələri tətbiq etmiş kapitalistin öz həqiqi istehsal xərcindən əlavə əldə edəcəyi faiz dərəcəsi, bir arşın kətanın bazar qiymətinin o vaxta qədərki adi istehsal xərcindən yuxarı və ya aşağı olmasından asılı olaraq dəyişiləcəkdir.
Lakin bizim kapitalistin üstünlüyü uzun sürməyəcək onunla rəqabət edən başqa kapitalistlər də bu cür maşınlar, bu cür əmək bölgüsü tətbiq edəcəklər, bunları eyni miqyasda və ya daha böyük miqyasda tətbiq edəcəklər və bu yeniliklər o qədər geniş yayılacaqdır ki, kətanın qiyməti nəinki əvvəlki istehsal xərcindən, habelə yeni istehsal xərcindən də aşağı düşəcəkdir.
Beləliklə, kapitalistlər yeni istehsal vasitələri tətbiq etməzdən əvvəl bir-birinə nisbətən nə vəziyyətdə idilərsə, yenə həmin vəziyyətdə olacaqlar, həm də bu istehsal vasitələri sayəsində onlar əvvəlki qiymətə ikiqat artıq məhsul çıxara bilirdilərsə, indi ikiqat artıq məhsulu əvvəlkindən aşağı qiymətə satmağa məcburdurlar. Bu yeni istehsal xərcinin yeni səviyyəsində həmin oyun təzədən başlanır. Yenidən daha geniş əmək bölgüsü tətbiq edilir, yenidən maşınların miqdarı artırılır, bu əmək bölgüsündən və bu maşınlardan daha böyük miqyasda istifadə olunur. Rəqabət isə bu nəticəyə yenə əks-tə`sir göstərir.

Biz görürük ki, istehsal üsulu, istehsal vasitələri necə arası kəsilmədən yeniləşir, inqilabiləşir, əmək bölgüsü labüd surətdə daha geniş əmək bölgüsünə, maşın tətbiqi–maşınların daha geniş tətbiqinə, böyük miqyasda istehsal–daha böyük miqyasda istehsala səbəb olur.

Bu elə bir qanundur ki, daim burjua istehsalını əvvəlki cığırından çıxarır və kapitalı əməyin məhsuldar qüvvələrini gərginləşdirməyə məcbur edir, çünki kapital əvvəl də bu qüvvələri gərginləşdirirdi; bu elə bir qanundur ki, kapitalı bircə dəqiqə də rahat buraxmır və ona daim pıçıldayıb deyir İrəli! İrəli!

Bu qanun məhz o qanundur ki, ticarətin vaxtaşırı güclənib-zəifləməsi şəraitində əmtəənin qiymətini labüd surətdə onun istehsal xərci ilə tarazlaşdırır.

Kapitalist nə qədər güclü istehsal vasitələrini işə salsa da, rəqabət bunların hamı tərəfindən tətbiq edilməsinə səbəb olur və hamı bu istehsal vasitələrini tətbiq etməyə başladığı zamandan e`tibarən, onun kapitalının daha artıq məhsuldar olmasının yeganə nəticəsi ancaq bundan ibarət olacaqdır ki, indi əvvəlki qiymətə keçmişdəkindən 10, 20, 100 qat artıq məhsul çıxarmalıdır. Lakin kapitalist satdığı məhsulun miqdarını artırmaqla satış qiymətinin aşağı düşməsinin yerini doldurmaq üçün indi, ola bilər, 1000 qat artıq məhsul satmalı olduğuna görə, indi kapitalist nəinki daha artıq mənfəət götürmək üçün, habelə istehsal xərcinin yerini doldurmaq üçün də,–zira, gördüyümüz kimi, istehsal alətləri özü də getdikcə bahalaşır,–daha artıq əmtəə satmalı olduğuna görə, indi çox əmtəə satmaq təkcə onun özü üçün deyil, habelə onun rəqibləri üçün də ölüm-dirim məsələsi olduğuna görə, ixtira edilmiş istehsal vasitələri nə qədər çox məhsuldar isə, əvvəlki mübarizə də bir o qədər çox qızğın şəkil alır. Deməli, əmək bölgüsü və maşın tətbiqi müqayisə edilməyəcək dərəcədə böyük miqyasda yenidən daha artıq inkişaf edəcəkdir.

Tətbiq edilən istehsal vasitələri nə qədər güclü olsa da, rəqabət əmtəənin qiymətini istehsal xərci dərəcəsinə endirməklə bu gücün qızıl bəhrələrini kapitalın əlindən almağa cəhd edir; deməli, daha ucuz istehsal etmək, yə`ni eyni miqdar əməklə daha çox məhsul istehsal etmək imkanı meydana gəldiyi dərəcədə rəqabət istehsalın ucuzlaşmasını, əvvəlki qiymət məbləğinə getdikçə daha çox məhsul buraxılmasını sarsılmaz bir qanun edir. Beləliklə, kapitalist göstərdiyi sə`y nəticəsində əvvəlki iş vaxtında daha çox əmtəə istehsal etmək vəzifəsini öz üzərinə götürməkdən, bir

sözlə, öz kapitalının dəyərini artıran şəraiti pisləşdirməkdən başqa heç bir şey qazanmazdı. Buna görə də rəqabət öz istehsal xərci qanunu ilə kapitalisti daim tə`qib etdiyi, kapitalistin öz rəqiblərinə qarşı hazırladığı hər bir silahı onun özünə qarşı çevirdiyi bir zamanda, kapitalist rəqabətə daim hiylə ilə üstün gəlməyə çalışaraq köhnə maşın və köhnə əmək bölgüsü əvəzinə daim yeni, daha baha, lakin istehsalı ucuzlaşdıran maşın və yeni əmək bölgüsü tətbiq edir və rəqabət nəticəsində bu yeniliklərin köhnəlməsini gözləmir.

İndi belə təsəvvür edək ki, bu qızğın coşğunluq eyni zamanda bütün dünya bazarını əhatə etmişdir,–onda başa düşərik ki, kapitalın artması, toplanması və təmərküzü, necə arası kəsilməyən, özü özünü ötüb keçən və getdikcə daha böyük miqyasda tətbiq olunan əmək bölgüsünə, yeni maşın tətbiqinə və köhnələrinin təkmilləşdirilməsinə səbəb olur.

Məhsuldar kapitalın artması ilə ayrılmaz surətdə əlaqədar olan bu cəhətlər əmək haqqının müəyyən olunmasına neçə tə`sir göstərir?

Daha artıq əmək bölgüsü bir fəhləyə 5, 10, 20 adamın işini görmək imkanı verir; deməli, əmək bölgüsü fəhlələr arasında rəqabəti 5, 10, 20 dəfə artırır. Fəhlələr arasında rəqabət yalnız bir fəhlənin özünü başqalarından ucuz satmasından ibarət deyildir, habelə ondan ibarətdir ki, bir fəhlə 5, 10, 20 adamın işini görür, fəhlələri bu cür rəqabətə məcbur edən isə, kapitalın tətbiq etdiyi və daim genişləndirdiyi əmək bölgüsüdür.

Sonra. Əmək bölgüsü nə qədər artırsa, əmək də bir o qədər sadələşir. Fəhlənin xüsusi məharəti hər cür qiymətini itirir. Fəhlə elə sadə, yekrəng bir məhsuldar qüvvəyə çevrilir ki, bundan xüsusi bir fiziki və ya zehni bacarıq və vərdiş tələb olunmur. Onun əməyi hamının bacara biləcəyi əməyə çevrilir. Buna görə də fəhləyə hər tərəfdən rəqiblər təzyiq göstərirlər; bunu da xatırladaq ki, bir iş nə qədər sadə isə, onu öyrənmək nə qədər asan isə, bu işi öyrənmək üçün nə qədər az istehsal xərci tələb olunursa, əmək haqqı da bir o qədər aşağı düşür, çünki hər bir əmtəənin qiyməti kimi, əmək haqqı da istehsal xərci ilə müəyyən olunur.

Beləliklə, əmək nə qədər az tə`min etməyə başlayırsa və get-gedə insanda nə qədər çox nifrət oyadırsa,–rəqabət eyni dərəcədə güclənir, əmək haqqı isə azalır. Fəhlə öz əmək haqqının ümumi məbləğini mühafizə etməyə çalışaraq artıq işləyir saat hesabı ilə daha çox işləyir və ya bir saat ərzində daha çox şey hazırlayır. Ehtiyac içində olan fəhlə, beləliklə, əmək bölgüsünün fəlakətli nəticələrini daha da qüvvətləndirir. Nəticədə belə

olur: fəhlə nə qədər çox işləyirsə, bir o qədər az haqq alır; bunun da səbəbi ancaq odur ki, o nə qədər çox işləyirsə, öz iş yoldaşlarına qarşı bir o qədər güclü rəqabət törədir və buna görə də öz yoldaşlarını özünün rəqibi edir və bunlar da onun özü kimi pis şərtlərlə işləməyə razı olurlar; deməli, səbəb ancaq budur ki, fəhlə nəticədə özünə qarşı, fəhlə sinfinin bir üzvü olmaq e`tibarı ilə özünə qarşı rəqabət doğurur.

Maşın da eyni tə`siri göstərir, lakin bundan xeyli böyük miqyasda göstərir, ona görə ki, maşın mahir fəhlələri naşı fəhlələrlə, kişiləri qadınlarla, yaşlıları uşaqlarla əvəz edir, ona görə ki, maşın ilk dəfə tətbiq olunduğu yerdə əl əməyi fəhlələrini yığın-yığın küçəyə atır, təkmilləşdirildiyi, yaxşılaşdırıldığı və daha məhsuldar maşınla əvəz olunduğu yerdə isə ayrı-ayrı fəhlə qruplarını sıxışdırıb aradan çıxarır. Kapitalistlər arasındakı sənaye müharibəsini yuxarıda ötəri təsvir etmişdik. Bu müharibənin belə bir xüsusiyyəti vardır ki, buradakı vuruşmalarda qələbə fəhlə ordusunu artırmaqdan daha çox onu azaltmaq yolu ilə qazanılır. Sərkərdə olan kapitalistlər sayca daha çox sənaye əsgərini işdən çıxarmaq yolunda bir-biri ilə yarışırlar.

Doğrudur, iqtisadçılar bizə deyirlər ki, maşınların tətbiq edilməsi üzündən gərəksiz olan fəhlələr guya yeni sənaye sahələrində iş tapırlar.

Onlar cəsarət edib deyə bilmirlər ki, yeni əmək sahələrində özlərinə yer tapanlar məhz işdən çıxarılan fəhlələrdir. Faktlar belə bir yalanın tamamilə ziddinədir. Onlar əslində ancaq bunu təsdiq edirlər ki, yeni iş imkanları fəhlə sinfinin başqa tərkib hissələri üçün, məsələn, gənc fəhlə nəslinin aradan çıxmış sənaye sahəsinə girməyə hazır olan hissəsi üçün meydana çıxır. Bu, hər şeydən əli üzülmüş fəhlələr üçün, əlbəttə, çox böyük bir təsəllidir. Cənab kapitalistlər istismar üçün yararlı olan əzələ və qan cəhətdən korluq çəkməyəcəklər, buna görə də onlar ölülərə öz ölülərini basdırmaq imkanı verirlər. Bu da burjuaların fəhlələrdən artıq özləri üçün tapdıqları təsəllidir. Axı maşınlar bütün muzdlu fəhlə sinfini məhv etsəydi, onda kapitalın qara günü çatmış olardı, çünki muzdlu əmək olmadan, kapital da olmur!

Lakin fərz edək ki, istər maşının bilavasitə sıxışdırıb aradan çıxardığı fəhlələr, istərsə də gənc nəslin müəyyən bir sahədə iş tapmaq ümidində olan bütün hissəsi özlərinə yeni iş tapırlar. İnanmaq olarmı ki, bu yeni iş üçün də əldən çıxmış işdə olduğu qədər yüksək haqq veriləcəkdir? Bu,

bütün iqtisadi qanunlara zidd olardı. Biz gördük ki, müasir sənaye daim mürəkkəb və yüksək işi sadə və aşağı işlə əvəz edir.
Belə bir halda necə ola bilər ki, maşının bir sənaye sahəsindən sıxışdırıb çıxartdığı çoxlu fəhlə, başqa bir sahədə daha aşağı, daha pis əmək haqqı almaq şərti ilə deyil, başqa bir şərtlə özünə yer tapa bilsin?
Bir istisna olaraq, maşının özünün istehsalında çalışan fəhlələri göstərirdilər. Deyirdilər ki, sənayedə getdikcə daha çox maşın tələb olunduğuna və tətbiq edildiyinə görə, maşınların sayı mütləq artmalıdır, deməli, maşın istehsalı da artmalı, bununla birlikdə həmin istehsalda çalışan fəhlələrin sayı da artmalıdır axı bu sənaye sahəsində çalışan fəhlələr ixtisaslı və hətta təhsil görmüş fəhlələrdir.
Hələ əvvəllər ancaq yarısı doğru olan bu iddia 1840-cı ildən e`tibarən əsla doğru deyildir, çünki maşın istehsalı üçün də, nə artıq və nə də əskik, pambıq iplik istehsalında olduğu dərəcədə getdikcə daha geniş miqyasda maşın tətbiq olunur və maşın istehsalında çalışan fəhlələr çox mükəmməl maşına nisbətən ancaq mükəmməl olmayan maşın rolu oynaya bilərlər. Lakin maşının sıxışdırıb çıxartdığı bir kişi əvəzində fabrik, ola bilər, üç uşağa və bir qadına iş verir! Məgər bir kişinin əmək haqqı onun üç uşağını və arvadını bəsləməyə çatacaq qədər olmamalı idi? Məgər minimum əmək haqqı nəsli yaşadıb törətməyə kifayət edəcək qədər olmamalı idi? Bəs bu halda burjuaziyanın çox sevdiyi bu ibarələr nəyi sübut edir? Ancaq onu sübut edir ki, indi bir fəhlə ailəsinin yaşamasını tə`min etmək üçün əvvəlkindən dörd qat artıq fəhlə həyatı istehlak olunur.
Xülasə edirik Məhsuldar kapital nə qədər çox artırsa, əmək bölgüsü və maşın tətbiqi də bir o qədər genişlənir. Əmək bölgüsü və maşın tətbiqi nə qədər çox genişlənirsə fəhlələr arasındakı rəqabət bir o qədər qüvvətlənir, onların əmək haqqı bir o qədər azalır.
Bundan əlavə, fəhlə sinfi cəmiyyətin daha yüksək təbəqələri hesabına da artır; bir çox xırda sənayeçilər və xırda rentaçılar proletariat sırasına düşür, çünki onların tezliklə fəhlə əlləri ilə yanaşı olaraq öz əllərini yuxarı qaldırmaqdan başqa çarələri qalmır. Beləliklə, iş axtarmaq üçün yuxarı qaldırılan əllər getdikcə çoxalır, əllərin özü isə getdikcə daha çox cılızlaşır. Özlüyündə aydındır ki, xırda sənayeçi, ilk şərtlərindən biri daim daha geniş miqyasda istehsal etməkdən, yə`ni əsla xırda sənayeçi deyil, məhz iri sənayeçi olmaq zərurətindən ibarət olan bu cür mübarizəyə davam gətirə bilmir.

Əlbəttə, bu cəhəti də izah etməyə daha ehtiyac yoxdur ki, kapital nə dərəcədə artırsa, onun kütləsi və sayı nə dərəcədə artırsa, kapitaldan gələn faiz o dərəcədə azalır; buna görə də xırda rentaçı öz rentası ilə yaşamaq imkanından məhrum olur və sənayeyə can atmalı, yə`ni xırda sənayeçilərin sıralarına keçməli və beləliklə də proletarlığa namizəd olanların sayını artırmalıdır.

Nəhayət, yuxarıda təsvir edilən inkişaf prosesi kapitalistləri, artıq mövcud olan nəhəng istehsal vasitələrini getdikcə daha böyük miqyasda istismar etməyə və bu məqsədlə də bütün kredit vasitələrini işə salmağa məcbur etdikcə,–sənaye zəlzələləri tez-tez baş verir və bu zəlzələlərdə ticarət aləmi yalnız ona görə salamat qalır ki, sərvətin, məhsulların və hətta məhsuldar qüvvələrin bir hissəsini yeraltı allahlarına qurban verir,–bir sözlə, böhranlar güclənir. Bu böhranların tez-tez baş verməsinə və getdikcə daha da kəskinləşməsinə səbəb odur ki, məhsulun miqdarı artdıqca və, deməli, bazarları genişləndirmək ehtiyacı artdıqca, ümumdünya bazarı daha çox kiçilir, istismar üçün getdikcə daha az yeni bazar qalır, çüiki hər bir əvvəlki böhran yeni bazarları və ya o vaxta qədər ümumdünya ticarətinin yalnız səthi surətdə istismar etdiyi bazarları ümumdünya ticarətinə cəlb edirdi. Lakin kapital təkcə əmək hesabına yaşamaqla qalmır. Kapital, adlı-sanlı bir barbar-quldar kimi, öz qullarının meyitlərini–böhranlar zamanı məhv olan yığın-yığın fəhlələri özü ilə qəbirə aparır. Beləliklə, biz görürük: kapital sür`ətlə artırsa, fəhlələr arasında rəqabət bundan müqayisə edilməyəcək dərəcədə sür`ətlə artır, yə`ni kapital nə qədər sür`ətlə artırsa, fəhlə sinfinin işlə məşğul olmaq və yaşayış vasitələri də nisbətən bir o qədər sür`ətlə azalır; lakin buna baxmayaraq, kapitalın sür`ətlə artması muzdlu əmək üçün ən əlverişli şərtdir70.

K.Marks 1847-ci il dekabrın ikinci yarısında oxuduğu mühazirələr əsasında yazmışdır.

İlk dəfə 1849-cu il aprelin 5–8-də və 11-də «Neue Rheinische Zeitunq» qəzetinin 264–267 və 269-cu nömrələrində və ayrıca kitabça şəklində 1891-ci ildə, Berlində F.Engelsin müqəddiməsi və redaktəsi ilə çap edilmişdir.

K.MARKS və F.ENGELS

MƏRKƏZİ KOMİTƏNİN KOMMUNİSTLƏR İTTİFAQINA MÜRACİƏTİ

MART 1850

MƏRKƏZİ KOMİTƏ–İTTİFAQA38

Qardaşlar!

Hər iki inqilabi il, 1848–1849-cu illər ərzində Kommunistlər ittifaqı ikiqat sınaqdan çıxdı: əvvələn, bu sınaq ondan ibarət oldu ki, İttifaqın üzvləri hər yerdə hərəkatda qızğın iştirak edirdilər, mətbuatda da, barrikadalarda da, vuruşma meydanlarında da yeganə qəti inqilabçı sinfin, proletariatın ilk sıralarında dururdular. Sonra, İttifaq o mə`nada da sınaqdan çıxdı ki, hərəkat haqqında onun konqreslərinin, habelə Mərkəzi komitənin 1847-ci ildəki tə`mim məktublarında və «Kommunist manifestində» izah olunan baxışları yeganə düzgün baxış oldu, həmin sənədlərdə ifadə olunan ümidlər tamamilə doğru çıxdı və əvvəllər İttifaqın ancaq gizli təbliğ etdiyi müasir ictimai vəziyyət anlayışı isə, indi hamının dilində əzbərdir və meydanlarda camaat qarşısında təbliğ edilir. Eyni zamanda İttifaqın keçmişdəki möhkəm təşkilatı xeyli zəifləmişdir. İnqilab hərəkatında bilavasitə iştirak etmiş üzvlərin çox hissəsi bu fikirdə idi ki, gizli cəmiyyətlərin vaxtı keçmişdir və təkcə açıq fəaliyyət kifayətdir. Ayrı-ayrı mahal və icmalar Mərkəzi komitə ilə əlaqələrini zəiflətməyə başlayaraq, yavaş-yavaş büsbütün kəsdi. Beləliklə, Almaniyada demokratik partiya, xırda burjuaziya partiyası getdikcə daha mütəşəkkil olduğu halda, fəhlə partiyası öz yeganə möhkəm dayağını itirdi, olsa-olsa ayrı-ayrı yerlərdə yerli məqsədlər üçün mütəşəkkil halda qaldı və bu səbəbdən də ümumi hərəkat içərisində büsbütün xırda burjua demokratiyasının hökmranlığı və rəhbərliyi altına düşdü. Belə bir vəziyyətə son qoymaq lazımdır: fəhlələrin müstəqilliyi bərpa edilməlidir. Mərkəzi komitə bu zərurəti başa düşmüş və buna görə də hələ 1848–1849-cu illərin qışında emissar İosif Mollu Almaniyaya göndərmişdi ki, İttifaqı yenidən təşkil etsin. Lakin Mollun işi möhkəm tə`sir göstərmədi, qismən ona görə ki, alman fəhlələrinin o zaman hələ kifayət qədər təcrübəsi yox idi, qismən də ona görə ki, həmin iş keçən ilin mayındakı üsyan üzündən65 yarımçıq qaldı. Moll özü silah götürüb Baden-Pfals ordusuna daxil oldu və iyunun 29-da (1885-ci il nəşrində səhv olaraq, iyulun 19-da yazılmışdır. Red.) Murq yaxınlığındakı vuruşmada həlak oldu. İttifaq onun şəxsində özünün ən köhnə, ən fəal və ən e`tibarlı üzvlərindən birini, bütün konqreslərdə və Mərkəzi komitədə iştirak edən və hələ əvvəllər müəyyən tapşırıqlarla bir sıra çox müvəffəqiyyətli səfərlər etmiş bir adamı itirdi. Almaniya və Fransanın inqilabi partiyaları 1849-cu ilin iyulunda məğlubiyyətə uğrayandan sonra Mərkəzi komitənin, demək olar, bütün

üzvləri yenə Londonda toplandılar və öz sıralarına yeni inqilabçı qüvvələr cəlb edərək, yeni bir əzmlə İttifaqı yenidən təşkil etməyə girişdilər. İttifaq ancaq emissar vasitəsi ilə yenidən təşkil edilə bilər, buna görə də Mərkəzi komitə emissarın məhz indi yola düşməsini son dərəcə mühüm hesab edir, zira indi qarşıda yeni inqilab durur, deməli, əgər fəhlə partiyası 1848-ci ildəki kimi yenə də burjuaziya tərəfindən istismar edilmək və onun quyruğunda sürünmək istəmirsə, indi mümkük qədər daha mütəşəkkil, mümkün qədər daha yekdil və mümkün qədər daha müstəqil çıxış etməlidir.

Qardaşlar, biz hələ 1848-ci ildə sizə demişdik ki, alman liberal burjuaları tezliklə hakimiyyət başına gələcək və təzəcə əldə etdikləri hakimiyyətdən dərhal fəhlələrə qarşı istifadə edəcəklər. Siz gördünüz ki, bu necə doğru çıxdı. Həqiqətən, 1848-ci il mart hərəkatından sonra məhz burjualar dövlət hakimiyyətini dərhal ələ aldılar və mübarizədə öz müttəfiqləri olan fəhlələri əvvəlki məzlum vəziyyətlərinə qayıtmağa məcbur etmək üçün bu hakimiyyətdən dərhal istifadə etdilər. Əgər burjuaziya,–mart ayında aradan qaldırılmış feodal partiyası ilə ittifaqa girmədən, hətta ən nəhayət, hakimiyyəti yenə də həmin mütləqiyyətçi feodal partiyasına güzəşt etmədən buna nail ola bilmədisə də, hər halda özü üçün elə şərait tə`min etdi ki, həmin şərait hökumətin maliyyə çətinlikləri üzündən hökmranlığı bir müddət sonra ona verə bilərdi və əgər inqilabi hərəkatın elə indi, necə deyərlər, dinc inkişaf yoluna girməsi mümkün olsaydı, burjuaziyanın mənafeyini tə`min etmiş olardı. Burjuaziya öz hökmranlığını tə`min etmək üçün özünə qarşı xalqı qəzəbləndirə biləcək zorakılıq tədbirləri də görməli olmazdı, çünki bütün bu zorakılıq tədbirlərini feodal əksinqilabı artıq həyata keçirmişdi. Lakin inkişaf bu dinc yolla getməyəcəkdir. Əksinə, inqilab yaxındır və bu inkişafı sür`ətləndirəcəkdir həm də fərqi yoxdur, bu inqilaba istər fransız proletariatının müstəqil üsyanı səbəb olsun, istərsə də Müqəddəs ittifaqın72 inqilabçı Babilə73 soxulması.

Alman liberal burjualarının 1848-ci ildə xalqa qarşı oynadığı rolu, qarşıdakı inqilabda bu çox xəyanətkar rolu, liberal burjuaların 1848-ci ilədək tutduğu mövqeyin eynini indi müxalifətdə tutan demokratik xırda burjualar öz üzərlərinə götürəcəklər. Bu partiya, fəhlələr üçün keçmişdəki liberallardan çox-çox təhlükəli olan bu demokratik partiya üç növ ünsürlərdən ibarətdir

I. İri burjuaziyanın, feodalizmi və mütləqiyyəti dərhal və tamamilə yıxmaq məqsədini qarşısına qoyan ən mütərəqqi hissələrindən. Bu fraksiya, vergi verməkdən imtina etməyi təklif edən keçmiş Berlin sazişçiləri tərəfindən təmsil edilmişdir.
II. Konstitusiyaçı-demokratik xırda burjualardan keçən hərəkatda bunların başlıca məqsədi öz nümayəndələrinin, Frankfurt məclisi sollarının, sonralar isə Ştutqart parlamentinin və imperiya konstitusiyası uğrundakı kampaniyada onların özlərinin əldə etməyə çalışdıqları şəkildə az-çox demokratik federativ dövlət yaratmaqdan ibarət idi74.
III. Respublikaçı xırda burjualardan, bunların idealı İsveçrə respublikasına bənzər alman federativ respublikasından ibarətdir; bunlar iri kapitalın xırda kapitala, iri burjuanın xırda burjuaya zülmünü məhv etmək kimi xoş bir niyyət bəslədiklərinə görə indi özlərini «qırmızı» və «ictimai-demokrat» adlandırırlar. Bu fraksiyanın nümayəndələri demokratik konqres və komitələrin üzvlərindən, demokratik ittifaqların rəhbərlərindən, demokratik qəzet redaktorlarından ibarət idi.
Fransada respublikaçı xırda burjualar indi özlərini sosialist adlandırdıqları kimi, bütün bu fraksiyalar da indi, məğlub olandan sonra, özlərini «respublikaçı» və ya «qırmızı» adlandırırlar. Onlar, Vürtemberqdə, Bavariyada və i.a. olduğu kimi, öz məqsədlərini konstitusiya yolu ilə qorumağa hələ imkan tapdıqları yerdə fürsətdən istifadə edib öz köhnə ibarələrini mühafizə etməyə və əsla dəyişilmədiklərini işdə sübut etməyə çalışırdılar. Aydındır ki, bu partiyanın adının dəyişdirilməsi onun fəhlələrə münasibətini əsla dəyişdirmir; ancaq onu sübut edir ki, indi həmin partiya mütləqiyyətlə birləşmiş olan burjuaziyanın əleyhinə çıxmağa və proletariata istinad etməyə məcburdur.
Almaniyada xırda burjua-demokratik partiyası çox güclüdür. Bu partiya nəinki yalnız şəhərlərin bürker əhalisinin böyük çoxluğunu, xırda ticarət-sənaye adamlarını və sənət ustalarını əhatə edir: kəndlilər də, şəhərlərin müstəqil proletariatı içərisində özünə hələ dayaq tapmamış kənd proletariatı da onun ardınca gedir.
İnqilabçı fəhlə partiyasının xırda burjua demokratiyasına münasibəti belədir: fəhlə partiyası, yıxmağa çalışdığı fraksiyaya qarşı xırda burjua demokratiyası ilə birlikdə gedir; xırda burjua demokratiyası öz mənafeyi xatirinə öz mövqeyini möhkəmləndirmək istədiyi bütün hallarda inqilabçı fəhlə partiyası onun əleyhinə çıxır.

İnqilabçı proletarların mənafeyi xatirinə bütün cəmiyyətdə çevriliş əmələ gətirmək fikrindən uzaq olan demokratik xırda burjualar ictimai qaydaları elə dəyişdirməyə çalışırlar ki, bu dəyişiklik mövcud cəmiyyəti onlar üçün mümkün qədər məqbul və münasib şəklə salsın. Buna görə də onlar hər şeydən əvvəl, bürokratiyanı məhdudlaşdırmaq və əsas vergiləri iri torpaq sahibləri və burjualar üzərinə qoymaq yolu ilə dövlət xərclərini azaltmağı tələb edirlər. Sonra, onlar iri kapitalın xırda kapitala təzyiqini aradan qaldırmağı tələb edərək, dövlət kredit idarələri yaradılmasına və sələmçiliyə qarşı qanunlar verilməsinə çalışırlar ki, beləliklə onlar və kəndlilər kapitalistlərdən deyil, dövlətdən, həm də əlverişli şərtlərlə borc ala bilsinlər; yenə onlar feodalizmi tamamilə aradan qaldırmaq yolu ilə kənddə burjua mülkiyyət münasibətləri yaratmağa çalışırlar. Bütün bunları həyata keçirmək üçün onlara, istər konstitusiyaçı olsun, istərsə də respublikaçı olsun, elə demokratik dövlət quruluşu lazımdır ki, onlara və onların müttəfiqləri olan kəndlilərə əksəriyyət qazandırsın; həmçinin onlara demokratik yerli özünüidarə lazımdır ki, icma mülkiyyəti üzərində bilavasitə nəzarəti və hazırda bürokratların yerinə yetirdiyi bir sıra vəzifələri onlara versin.

Sonra, onların fikrincə, qismən vərəsəlik hüququnu məhdudlaşdırmaqla, qismən də mümkün qədər daha çox işi dövlətin ixtiyarına verməklə kapitalın hökmranlığına və sür`ətlə artmasına müqavimət göstərmək lazımdır. Fəhlələrə gəlincə, hər şeydən əvvəl şübhəsizdir ki, onlar yenə əvvəlki kimi muzdlu fəhlə olaraq qalmalıdırlar, lakin bununla bərabər demokratik xırda burjualar istəyirlər ki fəhlələr əvvəlkindən yaxşı qazansınlar və onların yaşayışı əvvəlkindən artıq tə`min edilmiş olsun; onlar buna qismən dövlət tərəfindən iş vermək yolu ilə, qismən də xeyriyyəçilik tədbirləri vasitəsi ilə nail olmaq ümidindədirlər,–bir sözlə, onlar az-çox üstüörtülü sədəqə verməklə fəhlələri aldadıb ələ almaq və onların vəziyyətini müvəqqəti yaxşılaşdırmaqla onların inqilabi qüvvəsini qırmaq ümidindədirlər. Xırda burjua demokratiyası fraksiyalarının heç də hamısı onun burada göstərilən bütün tələblərini müdafiə etmir, xırda burjua demokratlarından ancaq az bir hissəsi həmin tələblərin hamısının yerinə yetirilməsinə nail olmağı özünə vəzifə bilir. Xırda burjua demokratiyasından olan ayrı-ayrı şəxslər və ya fraksiyalar nə qədər irəli gedirlərsə, bu tələblərdən bir o qədər çoxunu özlərininki edirlər, yuxarıda göstərilənləri özləri üçün proqram hesab edən bə`ziləri isə ola bilər güman

etsin ki, bu, inqilabdan ümumiyyətlə gözlənə biləcək maksimumdur. Lakin bu tələblər proletariat partiyasını heç bir halda qane edə bilməz. Demokratik xırda burjualar olsa-olsa yuxarıdakı tələblərin həyata keçirilməsinə nail olmaqla, inqilabı mümkün qədər tezliklə qurtarmaq istədikləri halda, bizim mənafe və vəzifələrimiz ondan ibarətdir ki, az-çox varlı siniflərin hamısı hökmranlıqdan kənar edilənədək, proletariat dövlət hakimiyyətini ələ alanadək, yalnız bir ölkədə deyil, dünyanın bütün hökmran ölkələrində də proletarların birliyi, həmin ölkələrin proletarları arasında rəqabətə son qoymaq dərəcədə və heç olmazsa həlledici məhsuldar qüvvələr proletarların əlində toplanacağı dərəcədə inkişaf edənədək inqilabı fasiləsiz inqilab edək. Bizim üçün mətləb xüsusi mülkiyyəti dəyişdirməkdə deyil, onu məhv etməkdədir, sinfi ziddiyyətləri pərdələməkdə deyil, sinifləri məhv etməkdədir, mövcud cəmiyyəti yaxşılaşdırmaqda deyil, yeni cəmiyyət tə`sis etməkdədir. İnqilabın daha da inkişafı ərzində Almaniyada xırda burjua demokratiyasının müəyyən müddət üstün tə`sirə malik olacağına heç bir şübhə yoxdur. Buna görə də sual olunur ki, proletariatın və xüsusən İttifaqın xırda burjua demokratiyasına qarşı mövqeyi necə olacaqdır:

1. xırda burjua demokratlarının da məhkum vəziyyətdə olduğu indiki münasibətlər davam etdikcə;
2. xırda burjua demokratlarına üstünlük verəcək ən yaxın inqilabi mübarizədə;
3. Bu mübarizə qurtarandan sonra, xırda burjua demokratlarının devrilmiş siniflər və proletariat üzərində üstunluk əldə edəcəkləri müddətdə.

1. Demokratik xırda burjuaların hər yerdə məhkum vəziyyətdə olduqları indiki zamanda onlar proletariata ümumiyyətlə birlik və barışıq təbliğ edirlər, proletariata əl uzadırlar və demokratik partiyada bütün çalarları əhatə edəcək bir böyük müxalifət partiyası yaratmağa çalışırlar, yə`ni fəhlələri elə bir partiya təşkilatına cəlb etməyə çalışırlar ki, orada ümumi ictimai-demokratik ibarələr hökm sürür və bu ibarələr arxasında onların öz xüsusi mənafeyi gizlənir və orada, proletariatın öz xüsusi tələbləri çox arzu olunan sülh xatirinə irəli sürülməməlidir. Bu cür birləşmə proletariata şübhəsiz zərər vurardı və yalnız demokratik xırda burjualara faydalı olardı. Proletariat, bu qədər çətinliklə əldə edilmiş müstəqil mövqeyini tamamilə itirərdi və yenə rəsmi burjua demokratiyasının əlavəsi rolunu oynamaq dərəcəsinə enmiş olardı. Deməli, bu cür birləşmədən qəti surətdə imtina

etmək lazımdır. Bir daha burjua demokratlarını alqışlayıb əl çalan bir xor rolu oynamaq dərəcəsinə enmək əvəzinə, fəhlələr və ən əvvəl İttifaq ona nail olmağa çalışmalıdırlar ki, rəsmi demokratlarla yanaşı olaraq fəhlə partiyasının müstəqil gizli və açıq təşkilatını yaratsınlar və özlərinin hər bir icmasını fəhlə ittifaqlarının elə mərkəzinə və özəyinə çevirsinlər ki, burada proletariatın mövqe və mənafeyi burjua tə`sirlərindən asılı olmadan müzakirə edilə bilsin. Proletarlarla belə bir ittifaqa, yə`ni proletarlarla burjua demokratlarının bərabər qüvvəyə və bərabər hüquqa malik olacaqları ittifaqa burjua demokratlarının nə qədər ciddi yanaşmadıqları Breslavl demokratlarının timsalından görünür: onlar öz orqanları olan «Neue Oder-Zeitunq»75-da sosialist adlandırdıqları müstəqil təşkil olunmuş fəhlələri şiddətlə tə`qib edirlər. Ümumi düşmən əleyhinə mübarizə üçün heç bir xüsusi birləşmə lazım deyildir. Belə bir düşmən əleyhinə açıq mübarizə etmək lazım gəldikdə hər iki partiyanın mənafeyi bir müddət bir-birinə uyğun gəlir və indiyə qədər olduğu kimi, gələcəkdə də yalnız müəyyən bir zaman üçün nəzərdə tutulan belə bir ittifaq özlüyündə meydana gəlir. Aydındır ki, bütün keçmişdəkilər kimi, qarşıdakı qanlı toqquşmalarda da başlıca olaraq fəhlələr öz mərdlik və qətiyyətləri ilə, fədakarlığa hazır olmaları ilə qələbə qazanmalı olacaqlar. Keçmişdə olduğu kimi, bu mübarizədə də xırda burjua kütləsi mümkün qədər uzun zaman ləng hərəkət edəcək və qətiyyətsizlik, passivlik göstərəcəkdir ki, sonra, qələbə qazanılanda ondan özü üçün istifadə etsin, fəhlələri sakitləşməyə və öz iş-gücünə qayıtmağa çağırsın, münaqişə adlandırılan şeylərin qarşısını alsın və proletariatı qələbənin bəhrələrindən məhrum etsin. Bu işdə xırda burjua demokratlarına mane olmağa fəhlələrin gücü çatmaz, lakin xırda burjua demokratlarının silahlı proletariatdan irəli keçmələrini çətinləşdirməyə və onlara elə şərtlər qəbul etdirməyə fəhlələrin gücü çatar ki, bunların sayəsində burjua demokratlarının hökmranlığını məhv edəcək toxum bu hökmranlığın içində ən əvvəldən mövcud olar və sonra proletariat hökmranlığının burjua demokratları hökmranlığını sıxışdırıb aradan qaldırması xeyli asanlaşar. Toqquşma zamanı və mübarizə qurtaran kimi fəhlələr hər şeydən əvvəl burjuaziyanın sakitləşdirmək cəhdlərinə mümkün qədər müqavimət göstərməli və demokratları özlərinin indiki terrorçu ibarələrini həyata keçirməyə məcbur etməlidirlər. Fəhlələr elə hərəkət etməlidirlər ki, bilavasitə inqilabi coşqunluq qələbədən sonra dərhal yenə yatırılmasın. Əksinə, fəhlələr bu

coşqunluğu mümkün qədər davam etdirməlidirlər. Onlar münaqişə adlandırılan hadisələrin əleyhinə, mənfur şəxslərdən və ya ancaq mənfur xatirələrlə əlaqədar rəsmi binalardan xalqın intiqam alması halları əleyhinə nəinki çıxış etməməlidirlər, bu çıxışlara nəinki yol verib dözməlidirlər, hətta bunlara rəhbərliyi öz öhdələrinə götürməlidirlər. Mübarizə zamanı və mübarizədən sonra fəhlələr bütün hallarda burjua demokratlarının tələbləri ilə yanaşı öz xüsusi tələblərini də irəli sürməlidirlər. Demokratik burjualar hakimiyyəti əllərinə almağa hazırlaşan kimi fəhlələr özləri üçün tə`minat tələb etməlidirlər. Əgər lazım gələrsə, fəhlələr bu tə`minatı qüvvə ilə əldə etməli və ümumiyyətlə çalışmalıdırlar ki, yeni hakimlər hər cür güzəştlərə getməyi və və`dlər verməyi öhdələrinə götürməyə məcbur olsunlar; bu– onları nüfuzdan salmaq üçün ən doğru vasitədir. Fəhlələr ümumiyyətlə hər vasitə ilə çalışıb qələbədən məst olmağın və hər bir qalibiyyətli küçə mübarizəsindən sonra əmələ gəlmiş vəziyyətin doğurduğu heyranlığın mümkün qədər qarşısını almalı, bunun əvəzində hadisələri sakit və soyuqqanlılıqla başa düşməli və yeni hökumətə açıq-aşkar e`timadsızlıq göstərməlidirlər. Yeni rəsmi hökumətlərlə yanaşı olaraq, fəhlələr ya yerli özünüidarə orqanları, bələdiyyə şuraları şəklində, ya da fəhlə klubları, yaxud fəhlə komitələri vasitəsi ilə dərhal özlərinə məxsus inqilabi fəhlə hökumətlərini tə`sis etməlidirlər ki, burjua demokratik hökumətləri fəhlələr içərisində öz dayaqlarını nəinki dərhal itirmiş olsunlar, habelə lap əvvəldən görsünlər ki, bütün fəhlə kütləsinə arxalanan hakimiyyət orqanlarının nəzarəti və təhlükəsi altındadırlar. Bir sözlə, qələbənin lap ilk çağından e`timadsızlığı daha məğlub edilmiş irticaçı partiyaya qarşı deyil, öz əvvəlki müttəfiqlərinə, ümumi qələbədən yalnız özü üçün istifadə etmək istəyən partiyaya qarşı yönəltmək lazımdır.

2. Lakin fəhlələr, qələbənin lap ilk saatından e`tibarən onlara xəyanət etməyə başlayacaq bu partiya əleyhinə qəti və zəhmli hərəkət etmək üçün silahlanmalı və təşkil olunmalıdırlar. Bütün proletariat dərhal tüfəng, karabin, top və döyüş sursatı ilə silahlandırılmalıdırlar fəhlələrə qarşı yönəldilən köhnə mülki qoşunun yenidən canlandırılmasına müqavimət göstərmək lazımdır. Bunu həyata keçirmək mümkün olmayan yerlərdə isə fəhlələr özlərinin seçdiyi komandirləri və öz baş ştabı olan müstəqil proletar qvardiyası halında təşkil olunmağa və dövlət hakimiyyətinin sərəncamına deyil, fəhlələrin yaratdığı inqilabi icma şuralarının sərəncamına keçməyə çalışmalıdırlar. Fəhlələr dövlət müəssisələrində

işlədikləri yerlərdə, özlərinin seçdiyi dəstə komandirləri olan ayrıca dəstə halında, yaxud proletar qvardiyasının bir hissəsi halında hökmən təşkil olunmalı və silahlanmalıdırlar. Onlar silahı və döyüş sursatını heç bir halda təhvil verməməlidirlər fəhlələri tərksilah etmək yolundakı hər cür cəhd, lazım gəldikdə, silahlı qüvvə ilə dəf edilməlidir. Burjua demokratlarının fəhlələrə tə`sirini yox etmək, dərhal fəhlələrin müstəqil və silahlı təşkilatını yaratmaq və burjua demokratiyasının labüd olan müvəqqəti hökmranlığı üçün mümkün qədər ağır və onu nüfuzdan salan şərait yaratmaq,–qarşıdakı üsyan zamanı və bu üsyandan sonra proletariat və onunla da birlikdə İttifaq başlıca olaraq məhz bunları etməyi nəzərdə tutmalıdırlar.

3. Yeni hökumətlər müəyyən dərəcə möhkəmlənən kimi onların fəhlələrə qarşı mübarizəsi dərhal başlanacaqdır. Demokratik xırda burjualara qarşı bir qüvvə kimi çıxış edə bilmək üçün, hər şeydən əvvəl gərək fəhlələr öz klubları vasitəsi ilə müstəqil təşkil olunub mərkəzləşdirilsinlər. Mövcud hökumətlər devriləndən sonra Mərkəzi komitə, imkan olan kimi, dərhal Almaniyaya gedəcək, tə`cili konqres çağıracaq və fəhlə klublarını hərəkatın əsas mərkəzində olan orqanın rəhbərliyi altında mərkəzləşdirməyə dair lazımi təklifləri konqresin müzakirəsinə verəcəkdir. Fəhlə klublarının heç olmazsa vilayət birləşmələrinin tezliklə təşkil olunması, fəhlə partiyasını qüvvətləndirmək və inkişaf etdirmək üçün ən mühüm tədbirlərdən biridir. Mövcud hökumətləri devirməyin ən yaxın nəticəsi milli nümayəndəlik məclisi seçməkdən ibarət olacaqdır. Burada proletariat aşağıdakıların qayğısına qalmalı olacaqdır:

I. Yerli hökumət orqanları və ya hökumət komissarlarının hər hansı bir öcəşməsi üzündən, nə qədər olursa-olsun, fəhlə seçkilərdən uzaqlaşdırılmasın.

II. Burjua-demokratik namizədləri ilə yanaşı olaraq hər yerdə, mümkün qədər İttifaq üzvlərindən fəhlə namizədləri irəli sürülsün və onların seçilməsi üçün bütün mümkün vasitələrdən istifadə edilsin. Hətta onların seçiləcəyinə heç bir ümid olmayan yerlərdə də fəhlələr öz namizədlərini irəli sürməlidirlər ki, öz müstəqilliklərini mühafizə etsinlər, öz qüvvələrini hesablasınlar, öz inqilabi mövqelərini və öz partiya nöqteyi-nəzərlərini hamıya açıqca bildirsinlər. Eyni zamanda fəhlələr demokratların, məsələn, belə ibarələrinə aldanmamalıdırlar ki, guya bu hərəkət demokratik partiyanı parçalayır və irticaya qələbə imkanı verir. Bütün bu ibarələrdən son məqsəd proletariatı aldatmaqdır. Bu cür müstəqil hərəkət etməklə

proletar partiyasının qazanmalı olduğu müvəffəqiyyətlər, bir neçə irticaçının nümayəndəli məclisdə iştirakından dəyə biləcək zərərdən ölçülməz dərəcədə mühümdür. Əgər demokratiya irtica əleyhinə lap əvvəldən qətiyyətlə və terror yolu ilə çıxış edərsə, seçkilərdə irticanın tə`siri qabaqcadan puç edilmiş olar.

Burjua demokratları ilə fəhlələr arasında münaqişə baş verməsinə səbəb birinci məsələ–feodalizmi məhv etmək məsələsi olacaqdır. Birinci Fransa inqilabında olduğu kimi, xırda burjualar feodal malikanələrini sərbəst mülkiyyət olaraq kəndlilərə verəcəklər, yə`ni kənd proletariatını saxlamaq və xırda burjua kəndli sinfi yaratmaq istəyəcəklər ki, bu sinif də indi fransız kəndlisinin düşdüyü yoxsulluq və getdikcə daha çox artan borc girdabına düşməli olacaqdır.

Fəhlələr kənd proletariatının mənafeyi və özlərinin mənafeyi üçün bu plana qarşı maneəçilik göstərməlidirlər. Onlar tələb etməlidirlər ki, müsadirə edilən feodal mülkiyyəti dövlət malı olsun və iri əkinçiliyin bütün üstünlüklərindən istifadə edəcək birləşmiş kənd proletariatının becərdiyi fəhlə koloniyalarına çevrilsin. Bununla da, burjua mülkiyyət münasibətlərinin sarsımaqda olduğu bir şəraitdə ümumi mülkiyyət prinsipi dərhal möhkəm zəmin üzərinə keçər. Demokratlar kəndlilərlə birləşdikləri kimi, fəhlələr də kənd proletariatı ilə birləşməlidirlər76. Sonra, demokratlar ya bilavasitə federativ respublika yaratmağa çalışacaqlar, ya da əgər vahid və bölünməz respublika yaratmaqdan yaxa qurtarmağa müvəffəq ola bilməsələr, onda heç olmazsa, icmalara (İcma termini (Gemeinde) burada geniş mə`nada, həm şəhər bələdiyyələri, həm də kənd icmaları haqqında işlədilir. Red.) və vilayətlərə mümkün qədər daha artıq müstəqillik nə sərbəstlik verməklə mərkəzi hökumətin əl-qolunu bağlamağa çalışacaqlar. Bu planın əksinə olaraq, fəhlələr nəinki vahid və bölünməz Almaniya respublikasını müdafiə etməlidirlər, həmçinin çalışmalıdırlar ki, bu respublikada bütün qüvvələr dövlət hakimiyyəti əlində ən qəti bir surətdə mərkəzləşdirilmiş olsun. Onlar icma azadlığı haqqında, özünüidarə və i. a. haqqında demokratların boşboğazlığına aldanmamalıdırlar. Almaniya kimi bir ölkədə hələ bu qədər orta əsr qalıqlarını aradan qaldırmaq, hələ bir çox yerli və vilayət özbaşınalığını yox etmək lazım gəldiyi halda, heç bir vəchlə dözmək olmaz ki, hər kənd, hər şəhər və hər vilayət, yalnız mərkəzləşmə şəraitində bütün gücünü göstərə biləcək inqilabi fəaliyyətə yeni bir manea törətsin.–Yol vermək olmaz ki, indiki vəziyyət yenidən

canlandırılsın, zira bu vəziyyət üzündən almanlar irəliyə eyni bir addımı atmaq uğrunda hər şəhərdə və hər vilayətdə ayrıca mübarizə etməli olurlar. Habelə heç yol vermək olmaz ki, azad yerli özünüidarə adlanan idarə vasitəsi ilə icma mülkiyyəti, yə`ni hələ müasir xüsusi mülkiyyətdən geridə duran və pozularaq hər yerdə labüd surətdə xüsusi mülkiyyətə çevrilən mülkiyyət forması əbədiləşdirilsin, bununla da birlikdə, yoxsul icmalarla varlı icmalar arasında həmin icma mülkiyyətindən doğan çəkişmələr, habelə ümumdövlət vətəndaşlıq hüququ ilə yanaşı mövcud olan icma vətəndaşlıq hüququ və onun fəhlələrə qarşı fitnələri əbədiləşdirilsin. 1793-cü ildə Fransada olduğu kimi, indi də Almaniyada ən ciddi mərkəzləşdirmə keçirmək həqiqi inqilabi partiyanın vəzifəsidir (İndi qeyd etmək lazımdır ki, bu parça anlaşılmazlıq nəticəsidir. Tarixi saxtalaşdıran bonapartist və liberal saxtakarlar üzündən o zaman müəyyən edilmiş hesab olunurdu ki, Fransanın mərkəzləşdirilmiş idarə maşınını böyük inqilab tətbiq etmişdi və Konvent bu idarə maşınından royalist və federalist irtica üzərində, habelə xarici düşmən üzərində qələbə üçün zəruri və həlledici bir silah kimi istifadə edirdi. Lakin indi hamıya mə`lum bir faktdır ki, bütün departamentlər, dairələr və icmalar idarəsi, 18 brümerədək bütün inqilab ərzində, idarə olunanların özləri tərəfindən seçilən və ümumdövlət qanunları çərçivəsi daxilində tamamilə sərbəst olan orqanlardan ibarət idi; Amerikadakına bənzər bu vilayət və yerli özünüidarə, inqilab üçün o qədər güclü bir vasitə oldu ki, Napoleon bilavasitə 18 brümer dövlət çevrilişindən sonra bu özünüidarəni tezliklə prefektlərin ağalığı ilə əvəz etdi beləliklə prefektlərin hələ indiyə qədər qalan bu ağalığı ən əvvəldən xalis irtica aləti olmuşdur. Lakin yerli və vilayət özünüidarəsi siyasi və milli mərkəzləşməyə zidd olmadığı kimi, onun İsveçrədə belə iyrənc bir şəkildə qarşımıza çıxan və cənubi alman federativ respublikaçılarının 1849-cu ildə Almaniyada tətbiq etmək istədikləri məhdud kanton və ya kommunal xudpəsəndliyi ilə əlaqədar olması da məcburi deyildir. (1885-ci il nəşrinə Engelsin qeydi.)).

Biz gördük ki, demokratlar ən yaxın hərəkatda hakimiyyət başına necə gələcək və az-çox sosialist tədbirləri irəli sürməyə necə məcbur olacaqlar. Belə bir sual ortaya çıxır ki, bunun müqabilində fəhlələr nə kimi tədbirlər təklif etməli olacaqlar? Əlbəttə, fəhlələr hərəkatın lap əvvəlində xalis kommunist tədbirləri təklif edə bilməzlər. Lakin onlar:

1. Demokratları məcbur edə bilərlər ki, mövcud ictimai quruluşun mümkün qədər daha çox sahələrinə müdaxilə etsinlər, onun normal gedişini pozsunlar, özlərini nüfuzdan salsınlar, habelə mümkün qədər çox məhsuldar qüvvələri, nəqliyyat vasitələrini, fabrikləri, dəmir yolları və sairəni dövlətin əlində toplasınlar.
2. Onlar, əlbəttə, inqilabi surətdə deyil, yalnız reformistcəsinə çıxış edəcək demokratların təkliflərini son həddə çatdırmalıdırlar; onlar həmin tələbləri xüsusi mülkiyyət üzərinə açıq hücuma çevirməlidirlər. Məsələn, əgər xırda burjualar dəmir yolları və fabrikləri pulla almağı təklif edirlərsə, fəhlələr tələb etməlidirlər ki, irticaçıların mülkiyyəti olan bu dəmir yollar və fabrikləri dövlət bunların əvəzində heç bir şey vermədən sadəcə müsadirə etsin. Əgər demokratlar mütənasib vergi tələb edirlərsə, fəhlələr mütərəqqi vergi tələb etməlidirlər əgər demokratların özləri mö`tədil-mütərəqqi vergi təklif edirlərsə, fəhlələr iri kapitalı məhv edəcək sür`ətlə artan vergi qoyulması üzərində tə`kid etməlidirlər; əgər demokratlar dövlət borclarının qaydaya salınmasını tələb edirlərsə, fəhlələr tələb etməlidirlər ki, dövlət iflas etmiş e`lan olunsun. Deməli, fəhlələrin tələbləri hər yerdə demokratların güzəştləri və tədbirlərinə görə müəyyən edilməlidir.
Əgər alman fəhlələri daha uzun inqilabi inkişaf yolunu tamamilə keçmədən hökmranlığa və öz sinfi mənafelərinin həyata keçirilməsinə nail ola bilməsələr də, bu dəfə onlar, heç olmazsa, əmindirlər ki, yaxınlaşan bu inqilabi dramın birinci pərdəsi onların öz sinfinin Fransada açıq qələbəsi ilə bir vaxta düşəcək və bununla da çox sür`ətlənmiş olacaqdır.
Lakin onlar özlərinin son qələbələri üçün bununla daha çox iş görmüş olarlar ki, öz sinfi mənafelərini özləri üçün aydınlaşdırsınlar, özlərinin müstəqil partiya mövqeyini mümkün qədər tezliklə tutsunlar və bir anlığa da olsa, yol verməsinlər ki, demokratik xırda burjualar öz ikiüzlü ibarələri ilə onları aldadıb proletariat partiyasının müstəqil təşkilatı yolundan döndərə bilsinlər. Onların mübariz şüarı: «Fasiləsiz inqilab» olmalıdır.
London, mart 1850-ci il.
1850-ci ildə vərəqə şəklində çoxaldılmışdır.
F. Engels tərəfindən aşağıdakı kitaba əlavələrdə dərc edilmişdir
K. Marx. „Enthüllungen über den Kommunisten–Prozeb zu Köln".
Hottingen–Zürich, 1885.
K. MARKS

1848-ci İLDƏN 1850-ci İLƏ QƏDƏR FRANSADA SİNFİ MÜBARİZƏ77

1895-ci il NƏŞRİNƏ F.ENGELSİN GİRİŞ MƏQALƏSİ73

Yenidən nəşr edilən bu əsər Marksın mə`lum iqtisadi vəziyyəti əsas götürərək, tarixin müəyyən dövrünü öz materialist anlayışı əsasında izah etmək yolunda ilk təşəbbüsü idi. «Kommunist Manifesti»ndə bu nəzəriyyə ümumi şəkildə bütün yeni tarixə tətbiq edilmişdi; «Neue Rheinische Zeitunq»62dakı məqalələrdə Marks və mən cari siyasi hadisələri izah etmək üçün daim bu nəzəriyyədən istifadə edirdik. Bu əsərdə isə məsələ, bütün Avropa üçün böhranlı və eyni zamanda tipik olub uzun illər boyu davam edən tarixi inkişaf dövründə baş verən siyasi hadisələr arasındakı daxili səbəbiyyət əlaqəsini aşkara çıxarmaqdan və, deməli, bu siyasi hadisələri, müəllifin nəzəriyyəsinə görə əsas e`tibarı ilə iqtisadi səbəblərin tə`siri ilə izah etməkdən ibarət idi.

Cari tarixin hadisələri və hadisələr silsiləsi haqqında mühakimə yeridirkən əsas iqtisadi səbəbləri aşkara çıxarmaq heç vaxt mümkün olmur. Hətta indi, müvafiq xüsusi mətbuat orqanlarının bu qədər çox mə`lumat verdiyi bir zamanda, hətta İngiltərədə belə, sənayenin və dünya bazarında ticarətin inkişafının gedişini və istehsal metodlarında əmələ gələn dəyişiklikləri izləmək mümkün deyildir, həm də günbəgün elə izləmək ki, bu çox mürəkkəb və daim dəyişən amillərə hər bir zaman üçün ümumi yekun vurmaq mümkün olsun, zira bu amillərdən ən mühümləri əksər hallarda birdən-birə böyük bir qüvvə ilə pırtlayıb aşkara çıxmazdan əvvəl uzun müddət gizli şəkildə tə`sir göstərir. Hər bir dövrün iqtisadi tarixinin aydın mənzərəsini heç vaxt hadisələrlə eyni bir zamanda təsvir etmək olmaz, bu mənzərə ancaq sonralar, mə`lumat toplandıqdan və yoxlandıqdan sonra təsvir edilə bilər. Burada vacib yardımçı vasitə statistikadır ki, o da həmişə gecikir. Buna görə də cari hadisələri nəzərdən keçirərkən həlledici əhəmiyyəti olan bu amili çox zaman daimi bir amil hesab etmək, nəzərdən keçirilən dövrun əvvəllərində əmələ gəlmiş iqtisadi vəziyyəti həmin dövrün hamısına aid mə`lum və dəyişməz bir vəziyyət kimi qəbul etmək, yaxud bu iqtisadi vəziyyətdə əmələ gələn yalnız elə dəyişiklikləri hesaba almaq lazım gəlir ki, bunlar özlüyündə mövcud aşkar hadisələrdən doğduğuna görə bunlar da tamamilə aşkardır. Buna görə də materialist metodu burada çox zaman siyasi münaqişələri, iqtisadi inkişafın yaratdığı mövcud ictimai siniflərin və sinfi təbəqələrin mənafeyi arasındakı mübarizəyə müncər

etməklə, ayrı-ayrı siyasi partiyaları isə bu siniflərin və sinfi təbəqələrin az-çox mütabiq siyasi ifadəsi hesab etməklə kifayətlənməli olur.
Özlüyündə aydındır ki, tədqiq edilən bütün proseslərin həqiqi əsasını təşkil edən iqtisadi vəziyyətdə eyni zamanda əmələ gələn dəyişikliklərə labüd olaraq bu cür e`tina etməmək səhvlərin mənbəyini təşkil etməlidir. Lakin cari tarixi ümumiləşdirilmiş şəkildə şərh etməyin bütun şəraiti labüddən əmələ gələn səhvlər mənbəyidir, ancaq buna baxmayaraq həmin cəhət heç kəsi cari hadisələrin tarixini yazmaqdan imtina etməyə məcbur etmir. Marks bu əsəri yazmağa başlarkən, yuxarıda qeyd edilən səhvlər mənbəyi daha artıq dərəcədə labüd idi. 1848–1849-cu illərdəki inqilabla bir zamanda əmələ gələn iqtisadi dəyişiklikləri izləmək və ya hətta nəzərdən qaçırmamaq əsla mümkün deyildi. Habelə bu iş, Marks Londonda sürgündə yaşadığı birinci aylarda, 1849–1850-ci illərin payız və qışında da mümkün deyildi. Halbuki Marks öz əsərini məhz o zaman yazmağa başlamışdı. Bütün bu əlverişsiz cəhətlərə baxmayaraq, Marks həm Fransanın fevral inqilabı ərəfəsindəki iqtisadi vəziyyətinə, həm də bu ölkənin fevral inqilabından sonrakı siyasi tarixinə son dərəcə ətraflı bələd olduğuna görə, hadisələri elə şərh edə bilmişdir ki, bu, hadisələr arasındakı daxili əlaqəni indiyədək misli görünməmiş mükəmməl şəkildə aşkara çıxarır sonralar Marksın özü bu şərhin düzgünlüyünü iki dəfə yoxlayıb sınaqdan çıxarmış və parlaq surətdə təsdiq etmişdir.
Birinci sınaq bununla əlaqədar idi ki, 1850-ci ilin yazında Marks iqtisadi məsələlərlə məşğul olmağa yenə vaxt tapmış və bu işə birinci növbədə son on ilin iqtisadi tarixini öyrənməkdən başlamışdı. Bunun nəticəsində faktların özündən Marksa tamamilə aydın oldu ki, onun heç də tam olmayan materiala əsaslanaraq indiyədək əvvəlcədən yarı apriori şəkildə çıxardığı nəticə düzgün olub bundan ibarətdir ki, fevral və mart inqilablarını məhz 1847-ci ildəki dünya ticarət böhranı doğurmuşdu və 1848-ci ilin ortalarından sənayenin yenə yavaş-yavaş başlayıb 1849 və 1850-ci illərdə ən yüksək səviyyəyə çatan tərəqqisi, yenidən möhkəmlənmiş Avropa irticasının hərəkətverici qüvvəsi idi. Bunun həlledici əhəmiyyəti var idi. Əgər birinci üç məqalədə («Neue Rheinische Zeitunq. Politische-ökonomische Revue»79 jurnalı, Hamburq, 1850-ci il, yanvar, fevral və mart nömrələrində çıxan məqalələrdə) inqilabi enerjinin yaxın zamanda yenidən yüksələcəyinin hələ umulub gözlənildiyi hiss olunursa, jurnalın 1850-ci ilin payızında çıxan son qoşa nömrəsi üçün

Marks ilə birlikdə yazdığımız tarixi icmalda (may–oktyabr) bu xəyallara həmişəlik nəhayət verilir «Yeni inqilab yalnız yeni böhranın ardınca mümkündür. Lakin yeni böhranın baş verəcəyi labüd olduğu kimi, inqilabın da baş verəcəyi labüddür». Etməli olduğumuz yeganə əhəmiyyətli dəyişiklik də bundan ibarət idi. Həmin icmalda 1850-ci il martın 10-dan payızadək baş vermiş hadisələrə verilən izahın ardından göründüyü kimi, bundan əvvəlki məqalələrdə hadisələrə verilən izahda və orada müəyyən edilən səbəbiyyət əlaqələrində dəyişdiriləsi əsla heç bir şey yox idi. Buna görə də mən həmin izahın ardını əsərin indiki nəşrinə dördüncü məqalə kimi daxil etdim.

İkinci sınaq daha ciddi oldu. 1851-ci il dekabrın 2-də Lui Bonapartın etdiyi dövlət çevrilişindən dərhal sonra, Marks Fransanın 1848-ci il fevralından başlamış inqilabi dövrü müvəqqəti olaraq başa çatdıran bu hadisəyə qədər davam edən tarixini yenidən tədqiq etdi («Lui Bonapartın on səkkiz brümeri», üçüncü nəşri, Hamburq, Meysner, 1885-ci il. Yenidən nəşr etdiyimiz bu əsərdə tədqiq edilən dövr həmin kitabçada, daha qısa şəkildə olsa da, yenidən təhlil edilir. Aradan bir ildən artıq keçdikdən sonra baş verən həlledici hadisə nəzərdə tutularaq yazılan bu ikinci şərhi birinci şərh ilə müqayisə etsəniz, yəqin edərsiniz ki, müəllif çox az şey dəyişdirməli olmuşdur.

Bu əsərə tamamilə xüsusi əhəmiyyət qazandıran cəhət ondan ibarətdir ki, burada birinci dəfə olaraq verilən formulda bütün dünya ölkələrinin fəhlə partiyaları öz iqtisadi islahat tələblərini yekdilliklə belə bir qısa şəkildə ifadə edirlər: istehsal vasitələri cəmiyyət tərəfindən mənimsənilməlidir. İkinci fəsildə, «proletariatın inqilabi tələblərini qısaca ifadə edən birinci biçimsiz formul» adlandırılan «əmək hüququ» barəsində belə deyilir: «Lakin əmək hüququnun dalında kapital üzərində hökmranlıq, kapital üzərində hökmranlığın dalında isə istehsal vasitələrinin mənimsənilməsi, onların birləşmiş fəhlə sinfinə tabe edilməsi, deməli, muzdlu əməyin, kapitalın və bunların qarşılıqlı münasibətinin ləğv edilməsi gizlənir» (Bax, həmin cild, səh. 250–251. Red.). Beləliklə, müasir fəhlə sosializmini istər bütün feodal, burjua, xırda burjua sosializmi və sair sosializm növlərindən, istərsə də utopik və kortəbii fəhlə kommunizminin irəli sürdüyü dumanlı «əmlak ümumiliyindən» kəskin surətdə fərqləndirən müddəa burada birinci dəfə ifadə edilmişdir. Sonralar Marks bu formulu mübadilə vasitələrinin mənimsənilməsinə də aid etmişdisə, bunun səbəbi o idi ki, formulun

«Kommunist Manifesti»ndən özlüyündə doğan belə bir şəkildə genişləndirilməsi, yalnız əsas müddəadan çıxarılan bir nəticə idi. Bu yaxınlarda İngiltərədə bə`zi əllamələr ona bunu da əlavə etmişlər ki, «bölgü vasitələri» də cəmiyyətə verilməlidir. Bu cənablar, istehsal vasitələrindən və mübadilə vasitələrindən fərqli olan bu iqtisadi bölgü vasitələrinin nə demək olduğunu, çətin ki, söyləyə bilsinlər; yoxsa onlar bölgünün siyasi vasitələrini: vergiləri, yoxsullara köməyi, o cümlədən Saksenvald dotasiyaları80 ilə başqa dotasiyaları nəzərdə tuturlar? Axı, əvvələn, bu bölgü vasitələri elə indi də cəmiyyətin malıdır, dövlət və ya icmanın əlindədir, ikincisi də, biz, elə məhz bunları aradan qaldırmaq istəyirik.

Fevral inqilabı başlandığı zaman, inqilabi hərəkatların şəraiti və gedişi haqqında hamımızın təsəvvürü keçmiş tarixi təcrübənin, başlıca olaraq Fransa təcrübəsinin tə`siri altında idi. Axı 1789-cu ildən e`tibarən bütün Avropa tarixində başlıca rolu məhz Fransa oynayırdı və indi də ümumi çevriliş etmək siqnalını yenidən məhz Fransa vermişdi. Buna görə də tamamilə təbii və labüd idi ki, 1848-ci ilin fevralında Parisdə e`lan edilən «ictimai» inqilabın, proletariat inqilabının xarakteri və gedişi haqqındakı təsəvvürlərimiz 1789–1830-cu illərin örnəklərinə aid parlaq xatirələrlə bəzənmişdi. Paris üsyanı Vyana, Milan və Berlində qalibiyyətli üsyanlar şəklində əks-səda oyadanda; Rusiya sərhədinə qədər bütün Avropa hərəkata cəlb ediləndə; sonra iyun ayında Parisdə proletariatla burjuaziya arasında hökmranlıq uğrunda birinci böyük vuruşma baş verəndə; hətta burjua sinfinin qələbəsi bütün ölkələrdə burjuaziyanı çox lərzəyə saldığına görə burjuaziya təzəcə devrilmiş monarxist-feodal irticasının yenidən qucağına atılanda,–artıq o zamankı şəraitdə bizim üçün heç bir şübhə ola bilməzdi ki, böyük qəti vuruşma başlanmışdır, bu vuruşma böyük dəyişikliklərə uğrayacaq uzun bir inqilabi dövrdə axıra çatdırılmalıdır və bu vuruşma ancaq proletariatın qəti qələbəsi ilə başa çata bilər.

1849-cu il məğlubiyyətlərindən sonra biz «partibus»81-da gələcək müvəqqəti hökumətlər ətrafında birləşən vulqar demokratiyanın xam xəyallarına heç də şərik deyildik. Vulqar demokratiya «xalqın» «müstəbidlər» üzərində tez bir zamanda və qəti qələbə çalacağına bel bağlayırdı, biz isə «müstəbidlər» aradan qaldırılandan sonra məhz bu «xalqın» içərisində gizlənib qalan bir-birinə əks ünsürlər arasında uzun bir mübarizə gedəcəyini zənn edirdik. Vulqar demokratiya ən yaxın günlərdən

birində yeni bir inqilabi partlayış olacağını gözləyirdi; biz isə hələ 1850-ci ilin payızında demişdik ki, inqilabi dövrün birinci mərhələsi hər halda qurtarmışdır və yeni dünya iqtisadi böhranı başlananadək heç bir şey gözləmək olmaz. Buna görə də sonralar Bismark tərəfindən layiq görüldükləri üçün onunla sülh bağlayan adamların, demək olar, hamısı bizi inqilab xaini adlandırdı.

Lakin tarix göstərdi ki, biz də haqlı deyilmişik və o zaman əsas tutduğumuz fikir xəyal imiş. Tarix daha irəli getdi: tarix nəinki bizim o zamankı səhvimizi aradan qaldırdı, hətta proletariatın mübarizə şəraitini də tamamilə dəyişdirdi. 1848-ci ildə tətbiq edilən mübarizə üsulu indi hər cəhətdən köhnəlmişdir və bu məsələ hazırda daha müfəssəl nəzərdən keçirilməyə layiqdir.

Bütün keçmiş inqilablar müəyyən bir sinfin hökmranlığını başqa bir sinfin hökmranlığı ilə əvəz etməkdən ibarət olmuşdur; lakin indiyədək hökmranlıq etmiş siniflərin hamısı, hakimiyyət altında olan xalq kütləsinə nisbətən yalnız cüz`i azlıq təşkil etmişdir. Beləliklə, bir hakim azlıq devrilib başqa bir azlıq onun əvəzinə dövlət hakimiyyəti başına keçir və dövlət qaydalarını öz mənafeyinə uyğun şəkildə yenidən qururdu. Hər dəfə bu azlıq iqtisadi inkişafın müəyyən mərhələsində hökmranlıq etməyə qadir və layiq bir qrup olurdu, məhz buna görə–və ancaq buna görə–çevriliş zamanı, hakimiyyət altında olan çoxluq ya çevrilişdə həmin qrupun xeyrinə iştirak edirdi, ya da çevrilişlə sakitcə razılaşırdı. Lakin ayrı-ayrı hər bir halda inqilabın konkret məzmununu bir kənara qoysaq, görərik ki, bütün bu inqilabların ümumi cəhəti azlıq tərəfindən edilən inqilablardan ibarət olmasındadır. Çoxluq bu inqilablarda iştirak etmişsə də,–şüurlu və ya şüursuz surətdə–yalnız azlığın xeyrinə hərəkət etmişdir; məhz bu cəhət və ya hətta çoxluğun sadəcə passiv hərəkəti, heç bir müqavimət göstərməməsi zahirən elə bir təsəvvür oyadırdı ki, guya bu azlıq bütün xalqın nümayəndəsidir.

İlk böyük müvəffəqiyyətdən sonra qalib azlıq adətən parçalanırdı: azlığın bir hissəsi əldə edilən nailiyyətlə kifayətlənirdi, digər hissəsi isə daha irəli getmək istəyərək, geniş xalq kütlələrinin həqiqi və ya xəyali mənafeyinə heç olmazsa qismən uyğun gələn yeni tələblər irəli sürürdü. Ayrı-ayrı hallarda bu daha radikal tələblər həqiqətən həyata keçirilsə də, əksər hallarda yalnız çox qısa müddətə həyata keçirilirdi: daha mö`tədil partiya yenə üstün gələrək əldə edilən son nailiyyətləri ya bütünlüklə, ya da

qismən heçə vururdu; onda məğlublar ya xəyanətkarlıqdan dəm vurub çığır-bağır salmağa başlayırdılar, ya da öz məğlubiyyətlərini təsadüf nəticəsi kimi izah edirdilər. Həqiqətdə isə iş çox zaman belə olurdu; ilk qələbə nəticəsində əldə edilən nailiyyətlər yalnız daha radikal partiyanın ikinci qələbəsi sayəsində möhkəm olurdu; bu vəziyyət əldə edilən kimi və beləliklə, müəyyən mərhələdə lazım olan şey yerinə yetirilən kimi, radikallar və onların nailiyyətləri yenə meydandan çıxırdı.
XVII əsrdəki böyük ingilis inqilabından başlayaraq yeni dövrün bütün inqilablarında bu cəhətlər özünu göstərmiş və hər bir inqilabi mübarizənin ayrılmaz cəhətləri sayılmışdır. Belə zənn edilirdi ki, bu cəhətlər proletariatın öz azadlığı uğrundakı mübarizəsinə də xasdır xüsusən ona görə ki, məhz 1848-ci ildə bu azadlığı hansı istiqamətdə axtarmaq lazım gəldiyini az-çox başa düşən adamlar barmaqla sayıla bilərdi. Parisdə proletar kütlələri hətta qalib gələndən sonra da hansı yolla getmək lazım gəldiyi onların özlərinə əsla aydın deyildi. Buna baxmayaraq instinktiv, kortəbii və qarşısıalınmaz bir hərəkat var idi. Məgər bu vəziyyət, məhz elə bir vəziyyət deyildimi ki, azlığın rəhbərliyi altında olsa da, bu dəfə azlığın mənafeyi üçün deyil, çoxluğun ən həqiqi mənafeyi üçün edilən inqilab müvəffəqiyyətlə başa çatmalı idi? Geniş xalq kütlələri az-çox uzun müddət davam edən inqilabi dövrlərin hamısında irəliyə can atan azlıq qruplarının boş və yalançı və`dlərinə asanlıqla uyurdularsa, onların iqtisadi vəziyyətini daha dürüst əks etdirən ideyalar, hələ başa düşmədikləri, lakin tutqun şəkildə artıq hiss etdikləri tələblərinin aydın, ağlasığan ifadəsindən başqa bir şey olmayan ideyalar onlara daha azmı tə`sir edə bilərdi? Doğrudur, xəyallar boşa çıxıb mə`yusluq başlayan kimi, kütlələrin bu inqilabi əhvali-ruhiyyəsi, demək olar, həmişə və əksər hallarda çox tez dəyişirdi və bunun yerini yorğunluq və ya hətta əks səmtə dönüş tuturdu. Burada isə mətləb yalançı və`dlər deyil, böyük çoxluğun ən həqiqi mənafeyini həyata keçirmək məsələsi üstündə idi; doğrudur o zaman bu mənafe həmin böyük çoxluğa hələ heç də aydın deyildi, lakin tezliklə əməli surətdə həyata keçirildikcə, inandırıcı şəkildə aşkar olduğuna görə ona kifayət qədər aydın olmalı idi. Həm də, Marksın üçüncü məqaləsində sübut etdiyi kimi, 1848-ci il «ictimai» inqilabından doğan burjua respublikasının inkişafı 1850-ci ilin yazında bununla nəticələnmişdi ki, həqiqi hökmranlıq, əlavə olaraq monarxist əhvali-ruhiyyədə olan iri burjuaziyanın əlində toplanmışdı, bütün qalan ictimai siniflər, kəndlilər və xırda burjualar isə, əksinə,

proletariatın ətrafında birləşmişdilər, belə ki, ümumi qələbə zamanı və qələbədən sonra həlledici amil bu siniflər deyil, təcrübə nəticəsində kamil olmuş proletariat olmalı idi. Məgər bu şəraitdə azlıq inqilabının dönüb çoxluq inqilabına çevriləcəyini tam əsasla güman etmək olmazdı?
Tarix göstərdi ki, həm biz, həm də bütün bizim kimi düşünənlər haqlı deyildik. Tarix aydın göstərdi ki, o zaman Avropa kontinentinin iqtisadi inkişafının vəziyyəti, kapitalist istehsal üsulunu aradan qaldıra bilmək üçün hələ kifayət qədər yetkin deyildi; tarix bunu 1848-ci ildən e`tibarən bütün kontinenti bürüyən və əslində birinci dəfə olaraq Fransa, Avstriya, Macarıstan və Polşada, bu yaxınlarda Rusiyada iri sənayenin yerini möhkəmləndirən, Almaniyanı isə lap birinci dərəcəli sənaye ölkəsinə çevirən iqtisadi inqilabla sübut etdi;–həm də bütün bunlar kapitalizm əsası üzərində olmuşdu və, deməli, bu əsasın 1848-ci ildə genişlənməyə hələ böyük qabiliyyəti var idi. Lakin məhz bu sənaye inqilabı hər yerdə sinfi münasibətləri aydınlaşdırdı; sənaye inqilabı manufaktura dövründən, Şərqi Avropada isə hətta sex sənətkarlığından qalan bir çox ara kateqoriyaları aradan qaldırdı, əsil burjuaziya ilə əsil iri sənaye proletariatını yaratdı və bunları ictimai inkişafın ön sahəsinə çıxartdı. Bunun nəticəsində isə 1848-ci ildə İngiltərədən başqa təkcə Parisdə, bir də bə`zi iri sənaye mərkəzlərində bu iki böyük sinif arasında gedən mübarizə indi bütün Avropanı bürümüş və elə şiddətlənmişdir ki, bu, 1848-ci ildə hələ ağlasığmaz idi. O zaman–müxtəlif təriqətlərin bir çox tutqun incilləri və hər bir dərdin davası olan əlacları var idi, indi isə–Marksın hamı tərəfindən qəbul edilən son dərəcə aydın təkcə bir nəzəriyyəsi vardır ki, bu da mübarizənin son məqsədlərini dürüst ifadə edir; o zaman–yalnız ümumi iztirab hissi ilə birləşən, inkişaf etməmiş və acizliklə coşqunluqdan mə`yusluğa düşən, yerli və milli xüsusiyyətlər nəticəsində parçalanmış və bir-birindən ayrılmış kütlələr var idi, indi isə–durmadan irəliləyən, sayı, mütəşəkkilliyi, intizamı, şüuru və qələbəyə inamı gündən-günə artan vahid böyük beynəlmiləl sosialistlər ordusu vardır. Əgər proletariatın hətta bu qüdrətli ordusu belə hələ öz məqsədinə çatmamışsa, əgər bu ordu bir qəti zərbə ilə qalib gələ bilməyib bunun əvəzinə özünə yavaş-yavaş yol açmağa, şiddətli və inadlı mübarizədə bir-bir mövqe ələ keçirməyə məcbur olmuşsa, bu, 1848-ci ildə qəflətən edilən adi bir hücumla ictimai islahata nail olmağın nə qədər imkansız olduğunu qəti sübut edir.

Burjuaziya sülalə tərəfdarı olan iki monarxist hissəyə parçalanmış olsa da82, hər şeydən əvvəl asayiş və öz pul işlərinin təhlükəsizliyini tələb edirdi; onun qarşısında, məğlub edilmiş olsa da, hələ zəhmli proletariat dururdu və xırda burjualarla kəndlilər proletariatın ətrafında getdikcə daha artıq birləşirdilər; zorakı partlayış qorxusu daim olsa da, bununla belə məsələni qəti həll etmək üçün heç bir ümid vermirdi,–taxt-tac iddiasında olan üçüncü, yalançı demokrat Lui Bonapartın dövlət çevrilişi üçün sanki qəsdən yaradılmış vəziyyət belə idi. 1851-ci il dekabrın 2-də ordunun köməyi ilə gərgin vəziyyətə son qoyan Lui Bonapart Avropanın daxili asayişini tə`min etdisə də, bunun əvəzində onu yeni müharibələr dövrünə atmaqla ağ günə çıxartdı83. Aşağıdan edilən inqilablar dövrü müvəqqəti olaraq qurtardı yuxarıdan edilən inqilablar dövrü başlandı.

1851-ci ildə yenidən imperiya qurulması proletariatın o zamankı cəhdlərinin hələ yetkin olmadığına yeni bir sübut idi. Lakin imperiyanın özü bu cəhdləri yetkinləşdirən şəraiti yaratmalı idi. Daxili asayiş sənayenin yeni yüksəlişi üçün geniş meydan tə`min etdi; ordunu işsiz qoymayıb məşğul etmək və inqilabi cərəyanları xarici siyasətə tərəf yönəltmək zərurəti müharibələr doğurdu; Bonapart «millətlər prinsipini»84 müdafiə etmək bəhanəsi ilə bu müharibələrdən istifadə edib hər cür hiylə ilə yeni-yeni torpaqları Fransaya qatmağa çalışırdı. Onu təqlid edən Bismark da eyni siyasəti Prussiyada yeridirdi; o, 1866-cı ildə özünün dövlət çevrilişini düzəltdi, Almaniya ittifaqına85 və Avstriyaya qarşı, habelə hökumətlə münaqişəyə girişən Prussiya palatasına qarşı özünün yuxarıdan edilən inqilabını düzəltdi. Lakin Avropa iki Bonapart üçün çox dar idi və tarix işi elə qəribə gətirdi ki, Bismark Bonapartı yıxdı və Prussiya kralı Vilhelm nəinki kiçik Almaniya imperiyasını86, hətta Fransa respublikasını yaratdı. Ümumi nəticə isə bundan ibarət oldu ki, təkcə Polşa müstəsna olmaqla, böyük Avropa millətlərinin istiqlaliyyəti və daxili birliyi bir həqiqət oldu; doğrudur, bu, nisbətən kiçik sərhədlər daxilində oldu, lakin hər halda bu sərhədlər fəhlə sinfinin inkişaf prosesini daha milli ixtilaflarla ləngitməyəcək qədər geniş idi. 1848-ci il inqilabına qəbir qazanlar onun qəyyumu oldular. Bunlarla yanaşı 1848-ci ilin varisi olan proletariat İnternasionalın şəxsində zəhmlə baş qaldırırdı.

1870–1871-ci illərdəki müharibədən sonra Bonapart meydandan çəkilir, Bismarkın vəzifəsi isə yerinə yetirilmiş olur; belə ki, o yenə də adi bir yunker ola bilərdi. Lakin bu dövrü Paris Kommunası başa çatdırdı. Paris

milli qvardiyasının87 artilleriyasını oğurlamaq istəyən Tyerin bu xəyanətkarlıq cəhdi qalibiyyətli üsyana səbəb oldu. Parisdə proletar inqilabından başqa heç bir inqilab ola bilməyəcəyi yenə aşkara çıxdı. Qələbədən sonra hökmranlıq özlüyündə, heç bir mübahisə doğurmadan fəhlə sinfinin əlinə keçdi. Yenə də aşkar oldu ki, hətta o zaman, həmin kitabçada nəzərdən keçirilən dövrdən iyirmi il keçdikdən sonra belə, fəhlə sinfinin bu hökmranlığı hələ mümkün deyildi. Bir tərəfdən, Fransa Parisi başlı-başına buraxıb Mak-Mahonun top güllələri altında qanının sel kimi axdığını laqeydliklə müşahidə edirdi; digər tərəfdən, Kommuna bölündüyü iki partiya arasındakı səmərəsiz mübarizə nəticəsində zəifləyirdi: blankistlərdən (çoxluq) və prudonistlərdən (azlıq) ibarət bu iki partiyadan heç biri nə etmək lazım gəldiyini bilmirdi. 1848-ci ildə qəflətən edilən hücum kimi, 1871-ci ildə asanlıqla əldə edilən qələbə də səmərəsiz oldu. Mübarizə edən proletariatı da Paris Kommunası ilə birlikdə qəti dəfn etmək ümidində idilər. Ancaq iş əksinə oldu, proletariatın ən güclü yüksəlişi Kommuna dövründən və Fransa-Prussiya müharibəsindən başlanır. Silah götürə bilən bütün əhalinin artıq milyonlarla əsgəri olan ordu sıralarına daxil edilməsi, güllə atan silah, top gülləsi və hələ misli görünməmiş dərəcədə güclü partlayıcı maddələr işlədilməsi,–bütün bunlar hərbi işdə tam bir çevriliş əmələ gətirdi; bu çevriliş, bir tərəfdən, Bonapart müharibələri dövrünə qəti son qoydu və sənayenin dinc inkişafını tə`min edərək, nəticəsi qabaqcadan əsla nəzərə alına bilməyən misilsiz dərəcə amansız dünya müharibəsindən başqa hər bir müharibəni imkansız etdi. Digər tərəfdən, hərbi xərclərin həndəsi proqressiya ilə artmasına səbəb olan bu çevriliş vergilərin labüddən ağlasığmaz dərəcədə artırılması ilə nəticələndi və bununla da əhalinin yoxsul siniflərini sosializmin qucağına atdı. Elzas-Lotaringiyanın ilhaqı, qızğın silahlanmanın səbəbi olub fransız və alman burjuaziyasının bir-birinə qarşı şovinizmini qızışdıra bilərdi, lakin hər iki ölkənin fəhlələri üçün bu ilhaq onları yalnız bir-birinə bağlayan yeni bir vasitə oldu. Paris Kommunasının ildönümü günü isə bütün proletariat üçün birinci ümumi bayram günü oldu.

1870–1871-ci illərdəki müharibə və Kommunanın məğlubiyyəti, Marksın qabaqcadan xəbər verdiyi kimi, Avropa fəhlə hərəkatının ağırlıq mərkəzini müvəqqəti olaraq Fransadan Almaniyaya keçirdi. Fransada 1871-ci ilin may ayında axıdılan qandan sonra fəhlə hərəkatının özünü düzəldə bilməsi üçün, əlbəttə, illərlə vaxt lazım gəldi. Almaniyada isə, əksinə, xüsusən

bərəkətli fransız milyardları88 sayəsində çox gözəl şərait əldə edən sənaye getdikcə daha böyük sür`ətlə inkişaf edir, sosial-demokratiya daha böyük sür`ətlə və dönmədən artıb böyuyurdü. Alman fəhlələrinin 1866-cı ildə tətbiq edilən ümumi seçki hüququndan bacarıqla istifadə etmələri nəticəsində partiyanın heyrətləndirici dərəcədə artdığını aşağıdakı şəksiz rəqəmlər bütün dünyaya aydın göstərdi 1871-ci ildə sosial-demokratlara 102000 səs, 1874-cü ildə 352000, 1877-ci ildə 493000 səs verildi. Bu müvəffəqiyyətlər, sonra sosialistlərə qarşı verilən qanunla89 yuxarıdan təsdiq edilmiş oldu partiya müvəqqəti olaraq məğlubiyyətə uğradıldı, ona verilən səslərin sayı 1881-ci ildə 312000-ə düşdü. Lakin partiya tezliklə özünə gəldi və müstəsna qanunun təzyiqi altında, mətbuatı və leqal təşkilatı olmadığı, ittifaqlar düzəltmək və yığıncaqlar keçirmək hüququ olmadığı halda həqiqətən böyük bir sür`ətlə artmağa başladı: 1884-cü ildə ona 550000, 1887-ci ildə 763000, 1890-cı ildə 1427000 səs verildi. Burada dövlətin əlləri yanına düşdü. Sosialistlərə qarşı qanun aradan qalxdı, sosialistlərə verilən səslərin sayı 1787000-ə çatdı ki, bu da verilən bütün səslərin dörddə birindən artıq idi. Hökumət və hakim siniflər bütün vasitələrdən istifadə etdilər, lakin faydasız, mə`nasız, nəticəsiz oldu. Gecə keşikçisindən başlamış reyxskanslerə qədər bütün hökumət adamları bununla razılaşmalı oldular ki, onların xor baxdıqları fəhlələr bu hökumət adamlarının acizliyini sübut etdilər, həm də çox tə`sirli şəkildə və milyonlarla sübut etdilər. Dövlət çıxılmaz vəziyyətə düşmüşdü, fəhlələr isə yenicə öz yolları ilə getməyə başlayırdılar.

Alman fəhlələri ən güclü, ən intizamlı və çox böyük sür`ətlə artan sosialist partiyası olmaq e`tibarı ilə yalnız öz varlıqları ilə fəhlə sinfi işinə göstərdikləri bu birinci xidmətlə yanaşı olaraq, ona ikinci bir böyük xidadət də göstərmiş oldular. Onlar ümumi seçki hüququndan necə istifadə etmək lazım gəldiyini göstərməklə, ən kəskin silahlardan biri olan bu yeni silahı bütün ölkələrdəki yoldaşlarına verdilər.

Fransada ümumi seçki hüququ çoxdan var idi, lakin bonapartist hökumət bu hüquqdan sui-istifadə etdiyinə görə orada bu hüquq pis şöhrət qazanmışdı. Kommunadan sonra bu hüquqdan istifadə edə biləcək fəhlə partiyası yox idi. Ümumi seçki hüququ İspaniyada da respublika dövründən qoyulmuşdu, lakin İspaniyada seçkidə iştirak etməkdən çəkinmək bütün ciddi müxalifət partiyaları üçün çoxdan bəri ümumi bir qayda olmuşdu. İsveçrədə ümumi seçki hüququ sahəsindəki təcrübə

nəticələri də fəhlə partiyasını çox az ruhlandıra bilərdi. Roman ölkələrinin inqilabçı fəhlələri, seçki hüququnu bir tələ, hökumətin işlətdiyi aldatma silahı saymağa adət etmişdilər. Almaniyada isə vəziyyət başqa idi. Hələ «Kommunist Manifesti»ndə e`lan edilmişdi ki, ümumi seçki hüququ əldə etmək, demokratiya əldə etmək mübarizə edən proletariatın birinci və ən mühüm vəzifələrindən biridir. Lassal da bu tələbi yenidən irəli sürmüşdü. Bismark, xalq kütlələri arasında öz planlarına qarşı maraq oyandırmaq üçün yeganə bir vasitə olaraq ümumi seçki hüququnu həyata keçirməyə məcbur olanda90 bizim fəhlələr dərhal işə ciddi yanaşdılar və Avqust Bebeli birinci müəssislər reyxstaqına deputat göndərdilər. O zamandan alman fəhlələri seçki hüqutundan elə istifadə etdilər ki, bu, onların özlərinə çox böyük fayda verdi və bütün ölkələrin fəhlələri üçün bir nümunə oldu. Onlar seçki hüququnu, fransız marksist proqramındakı sözlərlə desək, «transforme de moyen de duperie qu`il a ete jusqu`ici en instrument d`emancipation»–indiyədək başaldatma vasitəsi olduğu halda, azadlıq alətinə çevirdilər91. Əgər ümumi seçki hüququ hər üç ildən bir öz qüvvələrimizi hesablamağa imkan verməkdən; qazandığımız səslərin gözlənilməz dərəcədə artdığını müntəzəm surətdə qeyd etmək nəticəsində həm fəhlələrin qələbəyə inamını, həm də düşmənlərin ürəyinə düşən vahiməni artırmaqla əlimizdə ən yaxşı təbliğat vasitəsi olmaqdan; öz qüvvələrimiz və bütün düşmən partiyaların qüvvələri haqqında dürüst mə`lumat verməklə hərəkətlərimizi hesablamaq üçün misilsiz bir ölçü olmaqdan və bizi həm yersiz cəsarətsizlikdən, həm də yersiz və düşüncəsiz cəsarətdən qorumaqdan başqa bizə heç bir fayda verməsəydi,–əgər seçki hüququ bizə hətta yalnız bu yeganə faydanı vermiş olsaydı, bu da kifayət etdiyindən daha artıq olardı. Lakin seçki hüququ bundan daha çox şey vermiş oldu. Seçki hüququ, xalq kütlələrinin bizdən hələ uzaq olduğu yerlərdə seçkiqabağı təşviqat əsnasında bu kütlələrlə əlaqəyə girişmək, bütün partiyaları öz baxış və hərəkətlərini bütün xalq qarşısında hücumlarımızdan qorumağa məcbur etmək üçün bizə çox yaxşı bir vasitə verdi bundan başqa, seçki hüququ reyxstaqda nümayəndələrimizə elə bir tribuna verdi ki, onlar bu tribunadan istifadə edərək istər parlamentdəki əleyhdarlarına, istərsə də parlament xaricindəki kütlələrə mətbuatda və yığıncaqlarda olduğundan daha artıq nüfuzla və daha sərbəst şəkildə müraciət edə bilirdilər. Bir halda ki, seçkiqabağı təşviqatı və reyxstaqdakı

sosialist nitqləri hökumət və burjuaziyanın sosialistlər əleyhinə qanununu daim pozurdu, bu qanunun onlar üçün daha nə əhəmiyyəti ola bilərdi? Ümumi seçki hüququndan bu cür müvəffəqiyyətlə istifadə etməklə birlikdə, proletariatın tamamilə yeni bir mübarizə üsulu işə salındı və sür`ətlə daha da inkişaf etdirildi. Mə`lum oldu ki, burjuaziyanın öz hökmranlığını təşkil etmək üçün istifadə etdiyi dövlət idarələrində fəhlə sinfinin bu idarələrə qarşı mübarizə etməsi üçün istifadə edə biləcəyi başqa imkanlar da var. Fəhlələr ayrı-ayrı dövlətlərin landtaqlarına, bələdiyyə şuralarına, sənət məhkəmələrinə seçkilərdə iştirak etməyə və seçki ilə olan hər bir vəzifəli adamın yerinə başqası seçilərkən səsvermədə kifayət qədər fəhlə iştirak edəndə, bu vəzifəni burjuaziyanın əlindən almaq üçün çalışmağa başladılar. Nəticədə belə oldu ki, burjuaziya və hökumət fəhlə partiyasının gizli fəaliyyətinə nisbətən leqal fəaliyyətindən və üsyandakı müvəffəqiyyətlərinə nisbətən seçkilərdəki müvəffəqiyyətlərindən daha çox qorxmağa başladılar.

Zira burada da mübarizə şəraiti mühüm dərəcədə dəyişilmişdi. Köhnə tipli üsyan, 1848-ci ilədək hər yerdə həlledici rol oynayan barrikadalı küçə mübarizəsi xeyli köhnəlmişdi.

Bu barədə xəyala qapılmayaq küçə mübarizəsində üsyanın qoşun üzərində həqiqi qələbə çalması, yə`ni iki ordu arasındakı vuruşmada əldə edilən qələbə kimi bir qələbə çox nadir hallarda mümkün ola bilər. Lakin üsyançılar da çox nadir hallarda bu cür qələbə qazanacaqlarına ümid bağlayırdılar. Onların bütün məqsədi mə`nəvi tə`sirlə qoşunun ruhunu sarsıtmaqdan ibarət olurdu ki, bu tə`sir müharibə edən iki ölkə orduları arasındakı mübarizədə heç bir rol oynamır və ya hər halda xeyli az rol oynayır. Bu iş baş tutanda, qoşun atəş açmaqdan çəkinir, yaxud komandirlər başlarını itirirlər və üsyan qalib gəlir. Bu iş baş tutmayanda isə, qoşun, hətta sayca az olsa da, yaxşı silahlanmış və tə`limdən keçmiş olması, vahid komandanlığı döyüş qüvvələrini planla tətbiq etməsi və intizamı nəticəsində üstünlük qazanmış olur. Üsyanın xalis taktiki mə`nada əldə edə biləcəyi ən böyük nailiyyət ayrıca bir barrikadanı düzgün qurmaq və müdafiə etməkdən ibarət ola bilər. Bütöv böyük bir şəhərin müdafiəsi hələ bir yana dursun, hətta şəhərin hər hansı bir rayonunu müdafiə edə bilmək üçün ehtiyat qüvvələrinin bir-birinə kömək etməsinə, yerləşdirilməsinə və işə salınmasına,–bir sözlə, ayrı-ayrı dəstələrin əməliyyatını bir-biri ilə uyğunlaşdırmağa, bir-birinə tabe etməyə yalnız çox

zəif dərəcədə nail olmaq mümkündür, əksər hallarda isə tamamilə mümkün deyildir döyüşən qüvvələri həlledici bir nöqtədə cəmləşdirmək isə burada özlüyündə mə`nasını itirir. Buna görə də başlıca mübarizə forması passiv müdafiədən ibarətdir; bə`zi yerlərdə hücum edilirsə də, bu yalnız istisna təşkil edərək, təsadüfi çıxış və cinahdan həmlə etmək məqsədini güdür bir qayda olaraq hücum, geri çəkilən qoşunun tərk etdiyi mövqeləri yalnız tutmaqdan ibarət olur. Bundan başqa, qoşunun artilleriyası və yaxşı təchiz olunmuş, yaxşı tə`lim görmüş mühəndis hissələri olur, üsyançıların isə bu mübarizə vasitələri, demək olar, heç bir zaman olmur. Buna görə də təəccüblü deyildir ki, hətta ən böyük qəhrəmanlıq göstərilən barrikada vuruşmalarında,–1848-ci ilin iyununda Parisdə, 1848-ci ilin oktyabrında Vyanada və 1849-cu ilin mayında Drezdendəki vuruşmalarda,–hücum edən qoşun rəhbərləri hər cür siyasi mülahizəni bir yana atıb xalis hərbi nöqteyi-nəzərə əsasən hərəkət etməyə başlayanda və öz əsgərlərinə arxalana biləndə üsyan məğlubiyyətlə nəticələnmişdir.

1848-ci ilədək üsyançıların əldə etdikləri çoxlu müvəffəqiyyətlərin çox müxtəlif səbəbləri vardır. 1830-cu ilin iyulunda və 1848-ci ilin fevralında Parisdə, habelə İspaniyadakı küçə vuruşmalarının çoxunda üsyançılarla qoşun arasında duran milli qvardiya ya açıqca üsyançılar tərəfinə keçirdi, ya da süst və cəsarətsiz hərəkət etməklə qoşun içərisində də tərəddüdə səbəb olur və bundan başqa üsyançılara silah verirdi. Bu milli qvardiya lap əvvəldən üsyan əleyhinə hərəkət etdiyi yerlərdə, məsələn, 1848-ci ilin iyununda Parisdə olduğu kimi, üsyan məğlubiyyətə uğrayırdı. 1848-ci ildə Berlində xalq qismən ona görə qalib gəlmişdi ki, martın 19-da gecə və səhər bir çox yeni döyüş qüvvələri xalqa qoşulmuşdu; qismən ona görə ki, qoşun yorulmuş və pis təchiz edilmişdi; nəhayət, qismən ona görə ki, qoşunun əməliyyatını tamamilə pozub heçə çıxardan əmrlər verilirdi. Bütün hallarda üsyançılar ona görə üstün gəlirdilər ki, qoşun atəş açmaqdan imtina edirdi, komandirlər qətiyyətlərini itirirdilər və ya onların əl-qolu bağlanmış olurdu.

Deməli, küçə vuruşmalarının hətta klassik dövründə, barrikada maddi tə`sirdən çox mə`nəvi tə`sir göstərmişdir. Barrikada qoşunun mətanətini qırmaq üçün bir vasitə idi. Barrikada bu məqsəd əldə edilənə qədər davam gətirib qalanda qələbə qazanılırdı; davam gətirə bilməyəndə isə, mübarizə məğlubiyyətlə nəticələnirdi. Gələcəkdə küçə vuruşmalarının baş tuta biləcəyi ehtimalları tədqiq ediləndə nəzərdə tutulması lazım gələn başlıca

cəhət bundan ibarətdir («Die Neue Zeit» jurnalında çap edilən mətnində və «Fransada sinfi mübarizə»nin 1895-ci ildəki ayrıca nəşrində bu cümlə atılmışdaır. Red.).
1849-cu ildə bu ehtimallar çox az idi. Burjuaziya hər yerdə hökumətlərə tərəf keçmişdi «maarif və mülkiyyət» nümayəndələri üsyanları yatırtmaq üçün vuruşan qoşunları alqışlayır, qonaq edirdilər. Barrikada əvvəlki cazibəsini ltirmişdi: əsgərlər barrikada dalında duranları daha «xalq» hesab etmir, araqarışdıran, qiyamçı, soyğunçu, qənimətçi, cəmiyyətin tör-töküntüsü sayırdı; zaman keçdikcə zabitlər də küçə vuruşması taktikasını öyrənmişdilər: daha onlar əldəqayırma səngərin düz üstünə getməyib özlərini qoruyur, bağ, həyət və evlərdən addayaraq, sənkərin dalına keçirdilər. İndi bu iş bir qədər cəldlik göstəriləndə on haldan doqquzunda baş tuturdu.
Lakin o zamandan bəri bir çox başqa dəyişikliklər də əmələ gəlmiş və bunların hamısı qoşunun xeyrinə olmuşdur. Böyük şəhərlər xeyli genişlənmişsə, qoşunun sayı daha çox artmışdır. 1848-ci ildən bəri Paris və Berlinin əhalisi dörd dəfə artmadığı halda, bu şəhərlərin qarnizonları dörd dəfədən çox artmışdır. Dəmiryollar sayəsində bu qarnizonların sayı 24 saatda iki dəfədən çox artırıla bilər, 48 saatda isə böyük ordular dərəcəsinə çatdırıla bilər. Son dərəcə qüvvətləndirilən bu ordu müqayisəedilməz dərəcədə yaxşı silahlanmışdır. 1848-ci ildə ağzından doldurulan hamar lüləli tüfəng işlədilirdi indi isə güllə sandığından doldurulan xırda çaplı, sandıqlı tüfəng işlədilir ki, bu da köhnə tüfəngə nisbətəv dörd qat artıq uzağı vurur, on qat artıq sərrast və on qat artıq sür`ətlə güllə atır. Əvvəllər topdan o qədər də tə`siri olmayan qumbara və iri saçmalı mərmi atılırdı; indi isə o qədər tə`sirli partlayıcı qumbara atılır ki, ən yaxşı barrikadanı dağıtmaq üçün biri kifayət edir. Əvvəllər qalın yanğın divarını yıxmaq üçün istehkamçı külüngü işlədilirdi; indi isə dinamitli patron işlədilir. Üsyançılar üçün, əksinə, bütün şərait pisləşmişdir. Bütün xalq təbəqələrinin rəğbət bəsləyəcəyi üsyan, çox çətin ki, bir də baş verə bilsin; belə güman etmək lazımdır ki, sinfi mübarizədə orta təbəqələr, istisna olmadan hamılıqla proletariat ətrafında heç vaxt elə birləşməyəcəklər ki, burjuaziya ətrafında toplaşmış mürtəce partiya, demək olar, itib getsin. Beləliklə «xalq» həmişə parçalanmış halda hərəkət edəcək və, deməli, 1848-ci ildə çox böyük tə`sir göstərən qüvvətli amil daha olmayacaq. Üsyançıların tərəfində hərbi xidmətdən keçmiş əsgərlərin sayı çox olsa da, bunları

silahlandırmaq daha çətin . Tüfəng mağazalarında satılan ov tüfəngləri ilə bəzək vurulmuş bahalı tüfənglərin çaxmaqlarının bu və ya digər hissəsi polisin əmri ilə qabaqcadan çıxarılıb yaramaz hala salınmış olmasa da, bu tüfənglər hətta yaxın məsafədə atışmaq üçün sandıqlı əsgər tüfəngi ilə heç müqayisə edilə bilməz. 1848-ci ilədək hər kəs özü barıt və qurğuşundan lazımi güllə qayıra bilirdi, indi isə hər bir tüfəng üçün xüsusi patron tələb olunur və bu patronlar bir-birinə ancaq o cəhətdən bənzəyir ki, hamısı iri sənayenin mürəkkəb məhsuludur, deməli, dərhal hazırlana bilməz, beləliklə, müxtəlif tüfəng üçün münasib döyüş patronu olmazsa, onların çox hissəsi istifadəsiz qalar. Nəhayət, 1848-ci ildən sonra böyük şəhərlərin yeni salınmış məhəllələrində uzun, düz, enli küçələr, elə bil qəsdən yeni top və tüfənglə əməliyyat keçirmək üçün uyğunlaşdırılmışdır. Berlinin şimal və şərq hissələrindəki yeni fəhlə məhəllələrini barrikada mübarizəsi üçün seçən bir inqilabçı dəli hesab edilə bilərdi.

Lakin bu o deməkdirmi ki, gələcəkdə küçə mübarizəsi daha heç bir rol oynamayacaqdır? Əsla yox. Bu yalnız o deməkdir ki, 1848-ci ildən bəri şərait mülki əhalidən olan döyüşçülər üçün daha az əlverişli, qoşun üçün daha çox əlverişli olmuşdur. Beləliklə, gələcək küçə mübarizəsi yalnız o zaman qələbə ilə nəticələnə bilər ki, əlverişli olmayan bu nisbət başqa cəhətlərlə müvazinətə gətirilsin. Buna görə küçə mübarizəsi böyük inqilabın əvvəlində, sonrakı gedişinə nisbətən daha az və küçə mübarizəsinə daha böyük qüvvə ilə girişmək lazım gələcəkdir. Bu qüvvələr isə, belə güman etmək lazım gəlir ki, bütün böyük Fransa inqilabı ərzində, həmçinin 1870-ci il sentyabrın 4-də və oktyabrın 31-də Parisdə olduğu kimi92 açıq hücumu passiv barrikada taktikasından üstün tutacaqlar («Die Neue Zeit» mətnində və «Fransada sinfi mübarizə»nin 1895-ci ildəki ayrıca nəşrində bütün bu abzas atılmışdır. Red.).

İndi oxucuya aydındırmı ki, nə üçün hakim siniflər bizi aldadıb hökmən güllə tutan və qılınc işləyən yerlərə çəkmək istəyirlər? Nə üçün indi bizi, küçəyə çıxsaq məğlub olacağımızı qabaqcadan bildiyimizə və sağa-sola baxmadan dərhal küçəyə çıxmaq istəmədiyimizə görə qorxaqlıqda təqsirləndirirlər? Nəhayət, nə üçün bizi bu qədər tə`kidlə dilə tuturlar ki, biz qırğına göndərilənlər rolunu oynamağa razılıq verək?

Bu cənablar tamamilə əbəs yerə bu qədər xahiş edib bizə meydan oxuyurlar. Biz o qədər də axmaq deyilik. Onlar ən yaxın müharibədə öz düşmənindən də eyni müvəffəqiyyətlə tələb edə bilərdilər ki, düşmən öz

qoşunlarını qoca Fritsin (II Fridrixin. Red.) vaxtında olduğu kimi düz xətt şəklində, yaxud Vaqram və Vaterloo93 vuruşmaları zamanında olduğu kimi bütöv diviziyaları dəstə-dəstə sıraya düzsün və əllərinə çaxmaq daşlı tüfəng versin. Xalqlar arasındakı müharibə şəraiti dəyişilmişsə, sinfi mübarizə şəraiti də az dəyişilməmişdir. Qəflətən edilən hücumlar dövrü, şüursuz kütlələrin başında duran şüurlu azlıq tərəfindən edilən inqilablar dövrü artıq keçmişdir. İctimai quruluşu tamamilə dəyişdirmək məsələsindən bəhs edildiyi yerdə kütlələrin özü bunda iştirak etməli, nəyin uğrunda mübarizə etdiyini, nəyin uğrunda qanlarını axıdıb canlarından keçdiyini («Die Neue Zeit» mətnində və «Fransada sinfi mübarizə»nin 1895-ci ildəki ayrıca nəşrində «nəyin uğrunda qanlarını axıdıb canlarından keçdiyini» sözlərinin əvəzinə: «nəyin uğrunda çıxış etməlidirlər» çap edilmişdir. Red.) özü başa düşməlidir. Bunu bizə son əlli ilin tarixi öyrətmişdir. Lakin kütlələrin nə etmək lazım gəldiyini başa düşməsi üçün uzun müddət tə`kidlə işləmək lazımdır, biz də indi məhz bu işi görürük və elə bir müvəffəqiyyətlə görürük ki, düşmənlərimiz başlarını itirib bilmirlər nə etsinlər.

Roman ölkələrində də getdikcə daha çox başa düşməyə başlayırlar ki, köhnə taktikanı yenidən nəzərdən keçirmək lazımdır. Seçki hüququndan istifadə etmək və əldə edilməsi mümkün olan bütün mövqeləri ələ keçirmək üçün almanların verdiyi nümunə hər yerdə təqlid edilir; hazırlıqsız həmlələr hər yerdə arxa sıraya keçmişdir («Die Neue Zeit» mətnində və «Fransada sinfi mübarizə»nin 1895-ci ildəki ayrıca nəşrində «hazırlıqsız həmlələr hər yerdə arxa sıraya keçmişdir» sözləri atılmışdır. Red.). Yüz ildən artıq bir müddətdə bir sıra inqilablar nəticəsində zəminin, necə olsa da, şumlanıb yumşaldılmış olduğu və bütün partiyaların gizli qəsd, üsyan və hər cür başqa inqilabi hərəkətlərdə az-çox iştirak etdiyi Fransada bunun nəticəsində hökumətin orduya əsla bel bağlaya bilmədiyi və qəfildən üsyan etmək şəraitinin Almaniyaya nisbətən ümumiyyətlə daha əlverişli olduğu Fransada, hətta Fransada da sosialistlər getdikcə daha çox yəqin edirlər ki, onlar yalnız əvvəlcə geniş xalq kütləsini, yə`ni hazırkı halda kəndliləri öz tərəflərinə cəlb etdikdə möhkəm qələbə qazana bilərlər. Səbirli təbliğat işi və parlament fəaliyyəti orada da partiyanın ən yaxın vəzifəsi hesab edilmişdir. Nəticədə qazanılan müvəffəqiyyətləri çox gözləmək lazım gəlmədi. Nəinki tam bir sıra bələdiyyə idarələri sosialistlərin əlindədir, bundan başqa, palatalarda 50 sosialist iştirak edir və

bunlar artıq üç nazirlər kabinetini və bir respublika prezidentini devirmişlər. Belçikada fəhlələr keçən il seçki hüququ qazanmış və seçki dairələrinin dörddə birində qələbə çalmışlar. İsveçrə, İtaliya və Danimarkada, hətta Bolqarıstan və Rumıniyada da sosialistlərin parlamentdə nümayəndələri vardır. Avstriyada partiyaların hamısı yekdilliklə belə bir nəticəyə gəlmişdir ki, reyxsratın qapılarını bizim üzümüzə bağlamaq daha mümkün deyildir. Biz oraya, yəqin, girəcəyik, ancaq mübahisə hansı qapıdan girəcəyimiz üstündədir. Hətta Rusiya barəsində biz inamla ümid edə bilərik ki, orada məşhur Zemstvo məclisi (Orijinalında rusca «Zemskiy sobor» ifadəsi latın hərfləri ilə yazılmışdır. Red.), yə`ni o milli məclis ki, onun çağırılmasına gənc Nikolay əbəs yerə müqavimət göstərir,–toplaşacağı zaman orada da bizim nümayəndələrimiz olacaqdır.

Özlüyündə aydındır ki, bu səbəbdən xaricdəki yoldaşlarımız inqilab etmək hüququndan heç bir halda əl çəkmirlər. Axı inqilab etmək hüququ yeganə həqiqətən «tarixi hüquqdur»,–elə bir yeganə hüquqdur ki, istisnasız olaraq bütün müasir dövlətlər, o cümlədən Meklenburq da bu hüquqa əsaslanır, çünki Meklenburqdakı zadəganlar inqilabı 1755-ci ildə «varislik müqaviləsinin» bağlanması ilə, feodalizmin hələ indiyə qədər qüvvədə olan bu məşhur sənədinin hazırlanması ilə nəticələnmişdi94. İnqilab etmək hüququ hamının şüurunda o qədər dərin kök salmışdır ki, hətta general fon Boquslavski öz imperatorunun dövlət çevrilişi düzəltmək hüququnu da ancaq xalqın bu hüququ ilə əsaslandırır.

Lakin digər ölkələrdə nə olursa-olsun, alman sosial-demokratiyası xüsusi vəziyyətdədir, deməli, heç olmazsa, ən yaxın zamanda onun qarşısında xüsusi bir vəzifə də durur. Onun seçki qutuları yanına göndərdiyi iki milyon seçici, habelə bu iki milyon seçicinin dalında durub seçici olmayan gənclər və qadınlar sayca ən çox və ən yığcam bir kütlə olub beynəlmiləl proletar ordusunun həlledici «zərbə dəstəsini» təşkil edir. Bu kütlə elə indidən bütün verilən səslərin dörddə bir hissəsindən çoxunu təşkil edir və reyxstaqa keçirilən əlavə seçkilər, ayrı-ayrı dövlətlərin landtaqlarına, bələdiyyə idarələrinə və sənət məhkəmələrinə keçirilən seçkilər sübut edir ki, bu kütlə getdikcə artır. Təbiətdə baş verən hər bir proses kimi bu kütlə də eləcə öz başına, eləcə arası kəsilmədən, eləcə qarşısıalınmaz surətdə və eyni zamanda eləcə sakit bir halda artır. Hökumətin buna mane olmaq üçün göstərdiyi bütün cəhdlər boşa çıxmışdır. Biz indidən 21/4 milyon seçiciyə

bel bağlaya bilərik. Belə davam edərsə, biz indiki əsrin axırlarında cəmiyyətin orta təbəqələrinin böyük qismini, xırda burjuaziyanı və xırda kəndliləri öz tərəfimizə cəlb etmiş olarıq və artıb ölkədə elə bir həlledici qüvvəyə çevrilərik ki, bütün başqa qüvvələr bunun qarşısında istər-istəməz baş əyməyə məcbur olarlar. Hakim hökumət sisteminin başından aşanadək bu qüvvənin öz-özünə artmasına durmadan kömək etmək, gündən-günə möhkəmlənən bu zərbə dəstəsini avanqard vuruşmalarda məhv etməyib həlledici günədək salamat saxlamaq («Die Neue Zeit» mətnində və «Fransada sinfi mübarizə»nin 1895-ci ildəki ayrıca nəşrində «gündən-günə möhkəmlənən bu zərbə dəstəsini avanqard vuruşmalarda məhv etməyib həlledici günədək salamat saxlamaq» sözləri atılmışdır. Red.) bizim başlıca vəzifəmizdir. Yalnız bir şey qoşunla böyük toqquşma, 1871-ci ildə Parisdə olduğu kimi, qanlı qırğın Almaniyada sosialistlərin döyüş qüvvələrinin arası kəsilmədən artmasını müvəqqəti olaraq ləngidə bilər və hətta müəyyən bir zaman üçün geri ata bilər. Gələcəkdə biz buna da üstün gələ bilərik. Milyonlardan ibarət olan partiyanı yer üzündən silmək olmaz, bunun üçün Avropa və Amerikanın bütün sandıqlı tüfəngləri çatmaz. Lakin bu, normal inkişafın gedişini ləngidərdi, böhranlı anda bizim zərbə dəstəmiz, bəlkə də, olmazdı, həlledici vuruşma («Die Neue Zeit» mətnində və «Fransada sinfi mübarizə»nin 1895-ci ildəki ayrıca nəşrində «böhranlı anda bizim zərbə dəstəmiz, bəlkə də, olmazdı» sözləri atılmış və «həlledici vuruşma» sözlərinin əvəzinə «məsələnin həlli» çap edilmişdir. Red.) tə`xirə salınıb uzağa düşər və daha ağır qurbanlar bahasına başa gələ bilərdi. Ümumdünya tarixi işi elə qəribə gətirir ki, hər şey başayaq olur. Biz «inqilabçılar», biz «devirıcilər» gizli vasitələrin və ya çevrilişin köməyi ilə əldə etdiyimiz müvəffəqiyyətə nisbətən leqal vasitələrin köməyi ilə daha çox müvəffəqiyyət qazanırıq. Özlərini qayda-qanun partiyası adlandıran partiyalar öz əlləri ilə yaratdıqları leqal vəziyyət nəticəsində məhv olurlar. Onlar naəlac qalaraq, Odilon Barro ilə birlikdə bağırıb deyirlər: «la legalite nous tue», qanunilik bizim üçün ölümdür, halbuki bu qanunilik şəraitində bizim əzələlərimiz bərkiyir, yanaqlarımız qıpqırmızı yanır və biz əbədi həyat kimi çiçəklənirik. Əgər biz düşüncəsizlik etməyib aldanmasaq və bu partiyaların xeyrinə küçə mübarizəsinə atılmasaq, onda həmin partiyaların, nəhayət, bircə çarəsi qalar bu mənhus qanuniliyi özləri pozmalı olarlar. Hələlik onlar çevriliş əleyhinə yeni qanunlar tərtib edirlər. Yenə də hər şey başayaq olmuşdur. Məgər çevrilişin bugünkü qəddar düşmənlərinin özləri

dünən devirici olmamışdılar? Məgər 1866-cı ildəki vətəndaş müharibəsinə biz səbəb olmuşduq? Məgər Hannover kralını, Hessen kurfürstünü, Nassau hersoqunu öz dədə-babadan qalma qanuni, irsi torpaqlarından biz qovub bu torpaqları zəbt etmişdik? Bir baxın, Almaniya ittifaqında çevriliş edən, allahın mərhəməti ilə üç hökmdarın taxtını uçuran bu adamlar indi çevrilişdən şikayət edirlər! «Quis tulerit Gracchos de seditione querents» (Qrakxlar qiyamdan şikayət edəndə, buna dözmək olarmı? (Yuvenal, ikinci satira). Red.) Kim Bismarkın pərəstişkarlarına icazə verər ki, onlar çevrilişi pisləsinlər?

Lakin qoy onlar çevriliş əleyhinə öz qanun layihələrini keçirsinlər, qoy bu layihələri daha şiddətli etsinlər, qoy bütün cəza məcəlləsini kauçuk kimi elastik etsinlər,–bununla onlar yalnız öz acizliklərini bir daha sübut etmiş olarlar. Sosial-demokratiyanı ciddi surətdə sıxışdıra bilmək üçün onlar tamamilə başqa tədbirlərə də əl atmalı olacaqlar. Hazırda qanunlara məhz riayət etmək sosial-demokrat çevrilişinin xeyrinə olduğu bir zamanda onlar bu çevrilişə qarşı yalnız qayda-qanun partiyalarının çevrilişini işə sala bilərlər ki, bu da qanunlar pozulmadan baş verə bilməz. Prussiya bürokratı c. Rösler və Prussiya generalı c. fon Boquslavski küçə mübarizəsinə cəlb olunmaq istəməyən fəhlələrə qarşı, bəlkə də, tətbiq edilə biləcək yeganə üsulu onlara göstərmişlər. Bu üsul isə konstitusiyanı pozmaq, diktatura qurmaq, mütləqiyyətə qayıtmaq üsuludur, «regis voluntas suprema lex» (monarxın iradəsi ən ali qanundur! Red.) Cənablar, cür`ətli olun, daha boş-boş danışmaq yeri deyil, hərəkət etmək lazımdır!

Lakin unutmayın ki, Almaniya imperiyası, habelə bütün xırda dövlətlər və ümumiyyətlə bütün müasir dövlətlər müqavilə məhsuludur: əvvələn, hökmdarlar arasında bağlanan müqavilə və ikincisi, hökmdarlarla xalq arasında bağlanan müqavilə məhsuludur. Əgər tərəflərdən biri müqaviləni pozursa, müqavilə bütünlüklə öz qüvvəsini itirir və digər tərəf də öz təəhhüdlərindən azad olur. Bunu Bismark bizə 1866-cı ildə çox gözəl nümayiş etdirdi. Deməli, əgər siz imperiya konstitusiyasını pozsanız, onda sosial-demokratiya da öz təəhhüdlərindən azad olar və sizə qarşı lazım bildiyi kimi hərəkət edə bilər. Lakin onun məhz nə edəcəyi sirdir və çox çətin ki, bu sirri indi sizə açsın («Die Neue Zeit» mətnində və «Fransada sinfi mübarizə»nin 1895-ci ildəki ayrıca nəşrində bu abzasın son üç cümləsi atılmışdır. Red.).

Təqribən 1600 il bundan əvvəl Roma imperiyasında da təhlükəli çevriliş partiyası fəaliyyət göstərirdi. Bu partiya dini və dövlətin bütün bünövrəsini sarsıdır və imperatorun iradəsinin ən ali qanun olduğunu açıqdan-açığa inkar edirdi bu partiyanın vətəni yox idi, beynəlmiləl bir partiya idi bu partiya Qalliyadan başlamış Asiyaya qədər imperiyanın bütün əyalətlərinə yayılmış və hətta ondan xaricə də çıxmışdı. Bu partiya uzun zaman gizli, xəlvəti işləyirdi, lakin uzun müddət özünü açıq fəaliyyət göstərmək üçün kifayət qədər güclü hiss edirdi. Xristianlar adı ilə məşhur olan bu çevriliş partiyasının qoşun içərisində də çoxlu tərəfdarı var idi; xristianlardan ibarət bütöv legionlar var idi. Bu legionlar hakim bütpərəst dini mərasimlərində iştirak edib əsgəri ehtiram göstərməyə göndəriləndə, çevriliş partiyasına mənsub olan əsgərlər protest əlaməti olaraq cür`ət edib öz dəmir papaqlarına xüsusi xaç nişanı taxırdılar. Hətta qışlalarda rəislərin işlətdiyi adi təzyiq tədbirləri belə nəticəsiz qalırdı. İmperator Diokletian öz qoşununda qayda, itaətkarlıq və intizamın sarsıldığına daha sakit baxa bilmədi. Hələ fürsət var ikən ciddi tədbirlər gördü. O, sosialistlər əleyhinə,–yox, dilim çaşdı,–xristianlar əleyhinə bir qanun verdi. Çevriliş tərəfdarlarının yığıncaqları qadağan edildi, yığıncaq yerləri bağladıldı və ya hətta dağıdıldı, Saksoniyada qırmızı cib yaylıqları qadağan edildiyi kimi, orada da xristian nişanı olan xaç və s. qadağan edildi. Xristianları dövlət vəzifəsində olmaq hüququndan məhrum etdilər, onlar hətta yefreytor da ola bilməzdilər. «Üzgörənliyə» lazımınca adət etdirilmiş hakimlər, c. fon Göllerin çevriliş əleyhinə irəli sürdüyü qanun layihəsində95 nəzərdə tutduğu hakimlər o zaman hələ olmadığına görə, özlərini müdafiə etmək üçün məhkəməyə müraciət etmək xristianlara sadəcə qadağan edilmişdi. Lakin bu müstəsna qanun da nəticəsiz qaldı. Xristianlar lağa qoyduqları bu qanunun mətnini divarlardan qoparırdılar və hətta deyirlər ki, Nikomediyada imperatorun o zaman olduğu saraya od vurmuşdular. Onda imperator xristianlardan intiqam almaq üçün onları eramızın 303-cü ilində kütləvi surətdə tə`qib etməyə başladı. Bu, xristianlara qarşı edilən tə`qiblərin axırıncısı idi. Həm də bu tədbir o qədər qüvvətli tə`sir göstərdi ki, 17 il sonra ordunun böyük əksəriyyəti xristianlardan ibarət oldu və bütün Roma imperiyasının sonrakı hökmdarı, keşişlər tərəfindən böyük hökmdar adlandırılan Konstantin xristianlığı dövlət dini e`lan etdi.

London, 6 mart 1895-ci il F. Engels

«Die Neue Zeit» jurnalında, 1894–1895-ci illər, Bd 2, №№ 27 və 28 və Karl Marx.
«Die Klassenkampfe in Frankreich 1848 ğis 1850», Berlin, 1895 kitabında (ixtisarla) çap edilmişdir

1848-ci İLDƏN 1850-ci İLƏ QƏDƏR FRANSADA SİNFİ MÜBARİZƏ77

1848-ci ildən 1849-cu ilə qədər olan inqilab salnaməsinin, yalnız bir neçə fəsli müstəsna olmaqla, az-çox əhəmiyyətli hər bir bölməsinin sərlövhəsi belədir: inqilabın məğlubiyyəti!

Lakin bu məğlubiyyətlərdə inqilab məhv olmurdu. İnqilabdan əvvəlki ən`ənələrin qalıqları, hələ kəskin sinfi əksliklər dərəcəsinə qədər kəskinləşməmiş ictimai münasibətlərin nəticələri məhv olurdu, inqilabi partiyanın fevral inqilabınadək hələ tə`sirindən azad olmadığı adamlar, xam xəyallar, təsəvvürlər, layihələr məhv olurdu ki, partiyanı bunlardan fevral qələbəsi deyil, yalnız bir sıra məğlubiyyətlər azad edə bilərdi.

Bir sözlə, inqilab bilavasitə əldə etdiyi həm faciəli, həm də gülməli nailiyyətləri ilə deyil, əksinə, birləşmiş və möhkəm əksinqilab yaratmaqla, düşmən yaratmaqla irəliləyib özünə yol açırdı və çevriliş partiyası bu düşmənlə mübarizədə yalnız böyüyüb əsil inqilabi bir partiya olurdu.

Təqdim olunan məqalələrdən məqsəd də bunu sübut etməkdir.

I 1848-ci İL İYUN MƏĞLUBİYYƏTİ

İyul inqilabından sonra liberal bankir Laffit öz «compere»si (Bu sözdə cinas var: «compere»nin bir mə`nası «kirvə», bir mə`nası da «fitnəkarlıqda iştirak edən» deməkdir. Red.) Orlean hersoqunu96 təntənə ilə bələdiyyə idarəsinə gedəndə yola salırkən ağzından bu sözləri qaçırmışdı; «Bundan sonra bankirlər hökmranlıq edəcəklər». Bununla Laffit inqilabın sirrini açmışdı.

Lui-Filipp zamanı bütün fransız burjuaziyası deyil, onun yalnız bir fraksiyası: bankirlər, birja və dəmiryol kralları, kömür və dəmir mə`dənlərinin sahibləri, meşə sahibləri, iri torpaq sahiblərinin onlarla əlaqədar olan hissəsi, yə`ni maliyyə aristokratiyası adlananlar hökmranlıq edirdi. Maliyyə aristokratiyası taxtda əyləşmişdi, palatada qanunlar qəbul etdirirdi, nazir mənsəbindən başlamış dövlət tütün dükanlarına qədər bütün gəlirli dövlət vəzifələrini paylaşdırırdı.

Əsl sənaye burjuaziyası rəsmi müxalifətin bir hissəsini təşkil edirdi, yə`ni palatalarda yalnız azlıqda qalmışdı. Maliyyə aristokratiyasının mütləqiyyəti

öz inkişafında daha saf şəkil aldıqca və maliyyə aristokratiyası özü qan dəryasında boğulan 1832, 1834 və 1839-cu il97 üsyanlarından sonra fəhlə sinfi üzərindəki hökmranlığının möhkəmləndiyini daha çox güman etdikcə, sənaye burjuaziyasının müxalifəti daha qəti olurdu. Burjua irticasının milli Müəssislər məclisi ilə milli Qanunverici məclisindəki ən qatı tərəfdarı olan Ruan fabrikçisi Qranden deputatlar palatasında Gizonun ən qızğın əleyhdarı idi. Sonralar fransız əksinqilabının Gizosu roluna qədər yüksəlmək üçün əbəs yerə cidd-cəhd etməklə tanınmış Leon Foşe, Lui-Filippin padşahlığı dövrünün axırlarında ehtikara və onun nökərçiliyini edən hökumətə qarşı sənayeni müdafiə etmək üçün qələmlə mübarizə edirdi. Bastia, hakim sistem əleyhinə Bordo və bütün fransız şərabçıları adından təşviqat aparırdı.

Xırda burjuaziyanın bütün təbəqələri, habelə kəndlilər siyasi hakimiyyətdə iştirak etməkdən tamamilə kənar edilmişdilər. Nəhayət, yuxarıda adları çəkilən siniflərin ideoloji nümayəndələri və müdafiəçiləri, onların alimləri, vəkilləri, həkimləri və başqaları,–sözün qısası, onların «iste`dad sahibi» adlanan adamları rəsmi müxalifət sıralarında və ya «pays leqal»dan (seçki hüququna malik şəxslər dairəsindən. Red.) tamamilə kənarda dururdular. Maliyyə ehtiyacı lap əvvəldən İyul monarxiyasını98 burjuaziyanın yuxarı təbəqəsindən asılı etmişdi, burjuaziyanın yuxarı təbəqəsindən onun asılı olması isə, öz növbəsində, getdikcə artan maliyyə ehtiyacının tükənməz mənbəyi olmuşdu. Büdcədə müvazinət, dövlət mədaxili ilə məxarici arasında müvazinət bərpa edilməyincə dövlət idarəsini milli istehsalın mənafeyinə tabe etmək olmaz. Lakin dövlət məxaricini azaltmadan, yə`ni hakim üsul-idarə dayaqlarının mənafeyinə toxunmadan və vergi sistemini dəyişdirmədən, yə`ni vergi ağırlığının xeyli hissəsini burjuaziyanın yuxarı təbəqələrinin belinə yükləmədən bu müvazinət necə bərpa edilə bilər? Bundan əlavə, dövlətin borclu olması burjuaziyanın hökmranlıq edən və palatalar vasitəsi ilə qanunlar verən fraksiyasının bilavasitə xeyrinə idi. Dövlət kəsiri bu fraksiyanın məhz başlıca ehtikar vasitəsi və çox mühüm varlanma mənbəyi idi. Hər il qurtardıqca yeni kəsir əmələ gəlirdi. Hər dörd və ya beş ildən sonra yeni borc alınırdı. Hər yeni borc isə maliyyə aristokratiyasına, sün`i surətdə iflasa yaxın bir vəziyyətdə saxlanılan dəvləti soymaq üçün əlverişli fürsət verirdi,–dövlət bankirlərdən ən əlverişsiz şərtlərlə borc almalı olurdu. Bundan başqa, alınan hər yeni borc, öz kapitalını verib faizli dövlət kağızları alan camaatı birja əməliyyatı

vasitəsi ilə soymaq üçün yeni bir fürsət verirdi və bu birja əməliyyatının sirri yalnız hökumətə və parlament əksəriyyətinə aşkar idi. Ümumiyyətlə, dövlət kreditinin sabit olmaması və dövlət sirlərini bilmək nəticəsindədir ki, bankirlər və onların palatalardakı və taxtdakı əlbirləri qiymətli dövlət kağızlarının məzənnəsində birdən-birə fövqəl`adə dəyişiklik əmələ gətirə bilirdilər və bu dəyişikliklər hər dəfə labüd olaraq bir çox xırda kapitalistin var-yoxdan çıxmasına və iri birja oyunçularının ağlagəlməz sür`ətlə varlanmasına səbəb olurdu. Lui-Filippin padşahlığı dövrünün son illərindəki fövqəl`adə dövlət məxaricinin Napoleon dövründəki fövqəl`adə dövlət məxaricindən iki dəfədən də artıq olmasına səbəb budur ki, dövlət kəsiri burjuaziyanın hakim fraksiyasının bilavasitə xeyrinə idi; bu məxaric hər il təxminən 400 milyon frank tələb edirdi, halbuki Fransanın bütün ixracı ildə orta hesabla nadir hallarda 750 milyon franka çatırdı. Beləliklə, dövlətin əlindən gəlib keçən çox böyük məbləğlər, bundan əlavə, hər cür fırıldaqçı podratlar, rüşvət, oğurluq və hiylə üçün əlverişli şərait yaradırdı. Dövlətə borc verməklə onu böyük ölçüdə soyurdularsa, dövlət tapşırıqları podratlar üsulu ilə görüldükdə, bu soyğunçuluq xırda ölçüdə təkrar edilirdi. Palata ilə hökumət arasındakı münasibətlərdə baş verən hallar, ayrı-ayrı idarələrlə ayrı-ayrı sahibkarlar arasındakı münasibətlərdə dəfələrlə təkrar olunurdu.

Hakim sinif ümumiyyətlə dövlət məxaricindən və dövlətə erilən borclardan öz xeyrinə istifadə etdiyi kimi, dəmir yollar çəkmək işindən də öz xeyrinə istifadə ednrdi. Palatalar xərcin əsas ağırlığını dövlətin belinə yükləyir, ehtikarla məşğul olan maliyyə aristokratiyasının isə qızıl bəhrə əldə etməsini tə`min edirdilər. Əksəriyyətə mənsub bütün deputatların, o cümlədən nazirlərin bir hissəsinin, sonralar qanunvericilər sifəti ilə dövlət hesabına çəkdirdikləri dəmiryol inşaatında bir səhmdar kimi mənfəətləri olduğu təsadüfən aşkara çıxanda deputatlar palatasında baş verən qalmağallar hamının yadındadır.

Ən xırda maliyyə islahatı isə, əksinə, bankirlərin müqavimətinə rast gələrək, boşa çıxırdı. Məsələn, poçta islahatı. Rotşild protest etmişdi. Məgər dövlət, getdikcə artan borclarının faizini ödəmək üçün istifadə etməli olduğu öz mədaxil mənbələrini azaltmağa cür`ət edə bilərdi?

İyul monarxiyası, Fransanın milli sərvətindən öz xeyrinə istifadə etmək üçün qurulan səhmdarlar kompaniyasından başqa bir şey deyildi; bu kompaniyanın dividendləri nazirlər, palatalar, 240000 seçici və bunların

quyruqları arasında bölünürdü. Lui-Filipp bu kompaniyanın direktoru,– taxta çıxmış Rober Maker idi. Bu sistem daim təhlükələr törədir, ticarətə, sənayeyə, əkinçiliyə, gəmiçiliyə və iyul günlərində öz bayrağında «gouvernement a bon marche»–ucuz hökumət sözlərini yazan sənaye burjuaziyasının mənafeyinə zərər vururdu.

Maliyyə aristokratiyası qanunlar verdiyinə, dövləti idarə etdiyinə, bütün mütəşəkkil ictimai hakimiyyəti öz ixtiyarında saxladığına görə öz hökmranlığı ilə, habelə mətbuat vasitəsi ilə ictimai fikri öz əlində saxladığına görə kral sarayından başlamış «cafe borgne»yədək (ən alçaq meyxanalara. Red.) bütün təbəqələrdə eyni əxlaqsızlıq, eyni həyasız yalan, eyni varlanma hərisliyi–istehsal yolu ilə deyil, özgələrin mövcud sərvətini mahiranə bir kələk qurub cibə salmaq yolu ilə varlanmaq hərisliyi hökm sürürdü. Məhz burjua cəmiyyətinin yuxarı təbəqələri içərisində, hətta burjua qanunları ilə addımbaşı toqquşan azğın, alçaq ehtiraslar özünü cilovlanmamış şəkildə göstərir, ehtikarla qazanılan sərvət öz təbiətinə uyğun şəkildə zövq almaq yolunu axtardığına görə zövq dönüb əxlaqsızlıq şəklini alırdı, pul, murdarçılıq və qan bir-birinə qarışırdı. Maliyyə aristokratiyası həm özünün varlanma üsuluna, həm də öz zövqünün xarakterinə görə burjua cəmiyyətinin yuxarı təbəqələrində lümpen-proletariatın canlanmasından başqa bir şey deyildir.

Fransız burjuaziyasının hakimiyyətdə iştirak etməyən fraksiyaları «Bu satqınlıqdır!» deyə bağırırdı. Lümpen-proletariatı adətən alçaq meyxanalara, xeyriyyə evlərinə, dəlixanalara sürükləyən, müttəhimlər skamyasına oturdan, katorqaya göndərən və dar ağacı kürsüsünə gətirib çıxaran oyunlar 1847-ci ildə burjua cəmiyyətinin ən yüksək səhnələrində camaatın gözü qarşısında oynanırkən xalq: «A bas les grandsvoleurs! A bas les assassints» («Rədd olsun iri oğrular! Rədd olsun qatillər!» Red.)–deyə bağırırdı. Sənaye burjuaziyası öz mənafeyinin təhlükə qarşısında qaldığını gördü, xırda burjuaziyanı mə`nəvi qəzəb bürümüşdü, xalq hiddətlənmişdi. Paris, maliyyə aristokratiyasının hökmranlığını çox və ya az məzhəkəli şəkildə ifşa və məsxərə edən «La dynastie Rothschild» («Rotşildlər sülaləsi». Red.), «Les juifs rois de I`epoqu» («Sələmçilər zəmanəmizin krallarıdır». Red.) və sair sərlövhəli həcvlərlə dolmuşdu.

«Rein pour la gloire!» (Şöhrət üçün bir qəpik də verməməli! Red.) Şöhrət heç bir mənfəət gətirmir! «La paix partout et toujours!» (Necə olursa-olsun sülh bərqərar edilməli! Red.) Müharibə üç və dörd faizli kağızların

məzənnəsini aşağı salır!–birja işbazları Fransası öz bayrağında bu sözləri yazmışdı. Buna görə də onun yeritdiyi xarici siyasət fransızların milli heysiyyətini dəfələrlə alçaltmışdı. Krakovun Avstriyaya qatılması57 və bununla da Polşanı talan etmək işinin başa çatdırılması, həmçinin İsveçrədə Zonderbund müharibəsində Gizonun fəal surətdə Müqəddəs ittifaq72 tərəfinə keçməsi fransız milli heysiyyətini xüsusilə tapdalamışdı. İsveçrə liberallarının bu kiçik müharibədəki qələbəsi Fransadakı burjua müxalifətinin şəxsi heysiyyət hissini gücləndirmiş, Palermodakı qanlı xalq üsyanı isə iflic halına salınan xalq kütləsinə elektrik cərəyanı kimi tə`sir göstərib onda böyük inqilabi xatirələr və ehtiraslar oyatmışdı (Rusiya və Prussiyanın razılığı ilə Krakov 1846-cı il noyabrın 11-də Avstriyaya qatılmışdır.–İsveçrədə Zonderbund müharibəsi 1847-ci il noyabrın 4-dən 28-dək davam etmişdir.–Palermo üsyanı 1848-ci il yanvarın 12-də başlanmışdır; yanvarın axırlarında neapollular şəhəri doqquz gün topa tutmuşdular. (1895-ci il nəşrinə Engelsin qeydi).).

Nəhayət, dünya miqyasında əhəmiyyətə malik iki iqtisadi hadisə ümumi narazılığın partlamasını sür`ətləndirdi və gizli şikayətlər artıb üsyan şəklini aldı.

1845 və 1846-cı illərdəki kartof xəstəliyi və qıtlıq xalq içərisində ümumi həyəcanı qüvvətləndirdi. 1847-ci ildə bahalıq Fransada, habelə bütün kontinentdə qanlı toqquşmalara səbəb oldu. Bir yanda maliyyə aristokratiyası həyasızcasına kef məclisləri düzəldir, o biri yanda isə xalq ən vacib yaşayış vasitələri üçün mübarizə edirdi! Büzansda aclıq qiyamlarının100 iştirakçıları e`dam olunur, Parisdə isə kral ailəsi toxluğundan yırtılan dələduzları məhkəmənin əlindən xilas edirdi!

İnqilab partlayışını sür`ətləndirən ikinci böyük iqtisadi hadisə İngiltərədəki ümumi ticarət və sənaye böhranı idi. Yaxınlaşdığını hələ 1845-ci ilin payızında dəmiryol səhmləri möhtəkirlərinin kütləvi surətdə iflas etməsi ilə xəbər verən bu böhranı 1846-cı ildə, taxıl gömrüyünün ləğv ediləcəyi kimi bir sıra təsadüfi səbəblər tə`xirə salmışdı; nəhayət, 1847-ci ilin payızında bu böhran Londonda müstəmləkə malları alıb satan iri alverçilərin iflası şəklində başlandı və bu iflasdan sonra dərhal torpaq bankları sınıq çıxdı, İngiltərənin sənaye dairələrində fabriklər bağlandı. Bu böhranın bütün nəticələri kontinentdə öz tə`sirini hələ tamam göstərməmişdi ki, fevral inqilabı başlandı.

Ticarət və sənayedə baş verən iqtisadi xəstəlik maliyyə aristokratiyasının mütləqiyyətini daha da dözülməz etdi. Müxalif burjuaziya, palatalarda özünə əksəriyyət qazandıracaq və birja hökumətini yıxacaq seçki islahatı xeyrinə bütün Fransada ziyafətlər kampaniyasına başladı. Sənaye böhranı Parisdə ayrıca bir nəticə də verdi: əmələ gəlmiş şəraitdə daha xarici bazarda iş görə bilməyən bir çox fabrikçi və iri alverçiləri daxili bazara atılmağa məcbur etdi. Onların tə`sis etdiyi iri firmaların rəqabəti xırda baqqal və dükançıları dəstə-dəstə var-yoxdan çıxarırdı. Bu səbəbə görədir ki, Paris burjuaziyasının bu hissəsi içərisində iflas edənlərin sayı çox oldu və burjuaziyanın bu hissəsi fevral günlərində inqilabi surətdə hərəkət etdi. Mə`lumdur ki, Gizo və palatalar islahatlar keçirmək təkliflərinə aydın şəkildə meydan oxudular, artıq iş-işdən keçmişkən Lui-Filipp Barro hökumətini tə`yin etmək qərarına gəldi, iş xalqla ordu arasında toqquşmaya gəlib çatdı, milli qvardiyanın87 passiv hərəkəti nəticəsində ordu tərksilah edildi, İyul monarxiyası isə öz yerini müvəqqəti hökumətə verməli oldu. Fevral barrikadalarında yaranan müvəqqəti hökumət öz tərkibinə görə, qələbə bəhrəsini öz aralarında bölüşdürən müxtəlif partiyaları labüd olaraq əks etdirirdi. Bu hökumət, İyul monarxiyasını birlikdə yıxan, lakin mənafeləri bir-birinə düşmən olan müxtəlif siniflər arasında qarşılıqlı güzəştə əsaslanan uzlaşmadan başqa bir şey ola bilməzdi. Bu hökumətin böyük əksəriyyəti burjuaziya nümayəndələrindən ibarət idi. Ledrü-Rollen və Flokon respublikaçı xırda burjuaziyanın nümayəndələri idi, respublikaçı burjuaziyanı «National»dan101 olan adamlar, sülalə müxalifətini–Kremyö, Düpon de l`Er və başqaları təmsil edirdilər. Fəhlə sinfinin yalnız iki nümayəndəsi var idi: Lui Blan və Alber. Nəhayət, müvəqqəti hökumətdəki Lamartin əslində müəyyən bir real mənafeyi, müəyyən bir sinfi ifadə etməyib, fevral inqilabının özünü, bütün xam xəyalları, poeziyası, xəyali məzmunu və ibarələri ilə birlikdə ümumi üsyanı təcəssüm etdirirdi. Lakin fevral inqilabının bu nümayəndəsi öz mövqeyi və baxışlarına görə burjuaziyaya mənsub idi.

Paris siyasi mərkəzləşmə sayəsində Fransa üzərində hökmrandırsa, fəhlələr də inqilabi sarsıntılar vaxtında Paris üzərində hökmran olurlar. Müvəqqəti hökumətin birinci tədbiri, qələbədən məst olmuş Parisin əlindən ayıq Fransaya şikayət etmək yolu ilə bu böyük tə`sirdən xilas olmaq cəhdindən ibarət idi. Lamartin, barrikada döyüşçülərinin respublika e`lan etmək hüququnu danırdı. O deyirdi ki, bunu ancaq fransız millətinin əksəriyyəti

edə bilər, onun səs verməsini gözləmək lazımdır, Paris proletariatı hakimiyyəti qəsb etməklə öz qələbəsini ləkələməməlidir. Burjuaziya proletariata təkcə bir qəsbkarlıq etməyə, mübarizə qəsbkarlığına icazə verir.

Fevralın 25-də günorta çağı respublika hələ e`lan edilməmişdi, ancaq bütün nazirlik yerləri müvəqqəti hökumətin burjua ünsürləri və «National» ətrafında birləşən generallar, bankirlər və vəkillər arasında artıq bölüşdürülmüşdü. Lakin fəhlələr bu dəfə belə bir qərara gəlmişdilər ki, 1830-cu ilin iyulunda olduğu kimi başaldatmaya yol verməsinlər. Onlar yenidən mübarizəyə başlamağa və silah gücü ilə respublikaya nail olmağa hazır idilər. Bunu bildirmək üçün Raspayl bələdiyyə idarəsinə yollandı. O, respublika e`lan etməyi Paris proletariatı adından müvəqqəti hökumətə əmr etdi; xalqın bu hökmü iki saat ərzində yerinə yetirilməzsə, 200000 nəfərin başında durub yenə buraya qayıdacağını bildirdi. Həlak olan mübarizlərin meyitləri hələ soyumamışdı, barrikadalar hələ yığışdırılmamışdı, fəhlələr hələ tərksilah edilməmişdilər və onlara qarşı qoyula biləcək yeganə qüvvə milli qvardiya idi. Belə bir şəraitdə müvəqqəti hökumətin dövlət müdrikliyi mülahizələri və hüquq məsələlərindəki vasvasılığı birdən-birə yox oldu. İki saatlıq möhlət hələ qurtarmamışdı ki, Parisin bütün divarlarında iri hərflərlə aşağıdakı tarixi sözlər yazılmışdı:

Republique française! Liberte, Egalite, Fraternite!

Ümumi seçki hüququ əsasında respublika e`lan ediləndən sonra, burjuaziyanı fevral inqilabına sövq edən məhdud məqsəd və səbəblərin hətta xatirəsi də yox oldu. Burjuaziyanın bir neçə ayrı-ayrı fraksiyası əvəzinə fransız cəmiyyətinin bütün sinifləri birdən-birə siyasi hakimiyyətdə iştirak etməyə yol tapdılar, lojaları, parteri və qalereyanı buraxıb tamaşada iştirak edən şəxslər sifəti ilə inqilab səhnəsinə çıxmalı oldular! Özünü burjua cəmiyyətinə qarşı qoyan dövlətin zahiri müstəqilliyi də konstitusiyalı monarxiya ilə birlikdə aradan qalxdı, bundan sonra isə həmin saxtalığın doğurduğu bir sıra əlavə toqquşmalar da yox oldu! Proletariat respublikanı müvəqqəti hökumətə və onun vasitəsi ilə bütün Fransaya qəbul etdirən kimi dərhal müstəqil bir partiya kimi birinci sıraya çıxdı, lakin eyni zamanda bütün burjua Fransasını özünə qarşı mübarizəyə qaldırmış oldu. Proletariat öz inqilabi azadlığı uğrunda mübarizə üçün yalnız zəmin əldə etmiş, lakin heç də bu azadlığın özünü qazanmamışdı.

Əksinə, fevral respublikası hər şeydən əvvəl burjuaziyanın hökmranlığını daha tam şəklə salmalı idi bu respublika sayəsində, maliyyə aristokratiyası ilə yanaşı bütün varlı siniflər siyasi hakimiyyətə yol tapdılar. Respublika, İyul monarxiyasının siyasi cəhətdən miskin vəziyyətə məhkum etdiyi iri torpaq sahiblərinin, legitimistlərin53 əksəriyyətini bu vəziyyətdən çıxartdı. Əbəs deyildi ki, «Gazette de France»102 müxalifətin qəzetləri ilə birlikdə təşviqat aparırdı, əbəs deyildi ki, olacaqlaroşjaklen fevralın 24-də deputatlar palatasının iclasında özünü inqilab tərəfdarı e`lan etdi. Ümumi seçki hüququ Fransanın taleyini fransız xalqının çox böyük əksəriyyətini təşkil edən nominal mülkiyyətçilərə, yə`ni kəndlilərə tapşırmış oldu. Nəhayət, fevral respublikası, kapitalı öz arxasında gizləyən taxt-tacı darmadağın etdi və, beləliklə, burjuaziyanın hökmranlığı artıq açıq bir şəklə girdi.

Fəhlələr iyul günlərində burjua monarxiyası əldə etdikləri kimi, fevral günlərində də burjua respiblikası əldə etdilər. İyul monarxiyası özünü, ətrafına respublika tə`sisatı toplayan bir monarxiya e`lan etmək məcburiyyətində qaldığı kimi, fevral respublikası da özünü ətrafına ictimai tə`sisatlar toplayan respublika e`lan etməyə məcbur idi. Paris proletariatı bu güzəşti də zorla əldə etmişdi.

Yenicə təşkil edilmiş müvəqqəti hökumət fəhlələrə öz əmək ləri ilə dolanmaq imkanı tə`min edəcəyini, bütün vətəndaşlara iş verəcəyini və i.a. öz öhdəsinə götürdüyünü bildirən bir dekret verib fəhlələrə əmr etdi ki, hərə öz işinə getsin. Lakin müvəqqəti hökumət bir neçə gündən sonra öz və`dlərini unutduğu və sanki proletariatı tamamilə nəzərdən qaçırdığı zaman, 20000 nəfərdən ibarət fəhlə dəstəsi bələdiyyə idarəsinin qabağına gəlib ucadan bağırdı: Əmək təşkil edilməli! Xüsusi əmək nazirliyi yaradılmalı! Müvəqqəti hökumət, uzun-uzadı mübahisədən sonra, öz iradəsi əksinə olaraq, xüsusi bir daimi komissiya tə`yin, etdi və zəhmətkeş siniflərin vəziyyətini yaxşılaşdırmaq üçün vəsait axtarıb tapmağı ona tapşırdı. Bu komissiya Lui Blan və Alberin sədrliyi ilə Paris sənətkar cəmiyyətləri nümayəndələrindən ibarət idi. Lüksemburq sarayı həmin komissiyanın iclasları üçün ayrıldı. Bu yolla fəhlə sinfinin nümayəndələri müvəqqəti hökumətin iclas binasından qovuldular və bu hökumətin burjua hissəsi həqiqi dövlət hakimiyyətini və idarə ixtiyarını təkcə öz əlində saxladı. Maliyyə, ticarət və ictimai işlər nazirlikləri ilə bir sırada, bank və birja ilə bir sırada sosialist sinaqoqu tə`sis olundu ki, bunun baş kahinləri

olan Lui Blan və Alberin vəzifəsi həsrəti çəkilən və`d olunmuş torpağı kəşf etmək, yeni incil gəldiyini xəbər vermək və Paris proletariatına iş vermək idi. Hər bir digər mülki dövlət hakimiyyəti orqanından fərqli olaraq bunların nə büdcəsi var idi, nə də icra ixtiyarı. Onlar burjua quruluşunun əsaslarını öz alınları ilə dağıtmalı idilər. Lüksemburq sarayında olanlar tilsimli kimyagər iksiri axtarmaqla məşğul ikən, bələdiyyə idarəsində işlənən sikkə kəsirdilər.

Lakin demək lazımdır ki, Paris proletariatının tələbləri burjua respublikası çərçivəsindən kənara çıxdı? ğına görə, həqiqətdə də, Lüksemburq komissiyasının dumanlı formasından başqa bir şəkildə həyata keçirilə bilməzdi.

Fəhlələr fevral inqilabını burjuaziya ilə birlikdə etmişdilər indi onlar özlərinin mənafeyini burjuaziya ilə bir sırada müdafiə etməyə çalışırdılar,– axı onlar müvəqqəti hökumətin özündə burjua əksəriyyəti ilə yan-yana bir fəhlə oturtmuşdular. Əmək təşkil edilməli! Halbuki muzdlu əmək–əməyin artıq mövcud olan burjuasayağı təşkilinin özüdür. Bunsuz nə kapital ola bilər, nə burjuaziya, nə də burjua cəmiyyəti. Xüsusi əmək nazirliyi yaradılmalı! Lakin maliyyə, ticarət və ictimai işlər nazirlikləri, burjua əmək nazirlikləri deyildirmi? Bu nazirliklərlə yan-yana proletar əmək nazirliyi ancaq acizlik nazirliyi, xoş arzular nazirliyi, Lüksemburq komissiyası ola bilərdi. Burjuaziya ilə yan-yana azadlığa çıxa biləcəklərinə inanan fəhlələr, Fransanın milli sərhədləri daxilində öz proletar inqilablarını da başqa burjua millətləri ilə yan-yana edə biləcəkləri ümidində idilər. Halbuki Fransanın istehsal münasibətləri onun xarici ticarətindən, dünya bazarındakı mövqeyindən və bu bazarın qanunlarından asılıdır. Fransa Avropada inqilabi müharibə doğurmadan bunları poza bilərdimi və bu müharibə dünya bazarının müstəbidi olan İngiltərəyə güclü tə`sir göstərməzdimi?

Cəmiyyətin inqilabi mənafeyini özündə cəmləşdirən bir sinif üsyan edirsə, öz inqilabi fəaliyyəti üçün məzmun və materialı bilavasitə öz vəziyyətində tapır: düşmənləri məhv edir, mübarizənin tələb etdiyi tədbirləri görür, öz işlərinin nəticələri isə onu daha irəliyə sövq edir. O öz vəzifələrinin nəzəri tədqiqatı ilə məşğul olmur. Fransız fəhlə sinfi isə belə bir vəziyyətdə deyildi, o öz inqilabını etməyə hələ qadir deyildi.

Ümumiyyətlə sənaye proletariatının inkişafı sənaye burjuaziyasının inkişafından asılıdır. Yalnız sənaye burjuaziyasının hökmranlığı şəraitində

sənaye proletariatı öz inqilabını milli inqilab səviyyəsinə qaldıra biləcək geniş milli varlıq olmaq imkanını əldə edir, yalnız sənaye burjuaziyasının hökmranlığı şəraitində müasir istehsal vasitələri yaradır və bu vasitələr eyni zamanda səiaye proletariatının inqilabi azadlıq vasitələri olur. Yalnız sənaye burjuaziyasının hökmranlığı feodalizm cəmiyyətinin maddi köklərini qırıb atır və zəmini hamarlayır ki, proletar inqilabı da ancaq belə bir zəmin üzərində baş verə bilər. Fransız sənayesi bütün kontinentdə ən çox inkişaf etmiş sənaye, fransız burjuaziyası isə ən inqilabçı burjuaziyadır. Lakin fevral inqilabı bilavasitə maliyyə aristokratiyası əleyhinə çevrilməmişdimi? Bu fakt göstərdi ki, sənaye burjuaziyası Fransada hökmran deyildi. Sənaye burjuaziyası yalnız orada hökmran ola bilər ki, müasir sənaye bütün mülkiyyət münasibətlərini özünə məxsus şəkildə yenidən qurmuş olsun; bu iqtidar dərəcəsinə isə, sənaye yalnız o zaman çata bilər ki, dünya bazarını ələ almış olsun, çünki milli sərhədlər onun inkişafı üçün kafi deyildir. Fransız sənayesi isə hətta daxili bazarı da, xeyli dərəcədə, yalnız az-çox dəyişdirilmiş şəkildə olan qoruyucu qadağan rüsumları sistemi sayəsində öz əlində saxlaya bilir. Buna görə də fransız proletariatı inqilab zamanı Parisdə həqiqi qüvvə və nüfuza malik olursa və bunlar proletariatı öz vasitələrinə uyğun olduğundan daha irəli sövq edirsə, Fransanın qalan hissəsində proletariat yalnız səpələnmiş bir halda ayrı-ayrı sənaye mərkəzlərində toplandığına görə böyük əksəriyyət təşkil edən kəndlilər və xırda burjuaziya içərisində, demək olar, yox dərəcəsinə gəlir. Fransada kapitala qarşı inkişaf etmiş müasir formada, ən yüksək mərhələdə mübarizə, muzdlu sənaye fəhləsinin sənaye burjuasına qarşı mübarizəsi hər yerdə müşahidə olunan fakt deyildir. Fevral günlərindən sonra bu mübarizə inqilabın ümummilli məzmunu ola bilməzdi, xüsusilə ona görə ki, o zaman kapitalist istismarının ikinci dərəcəli üsullarına qarşı mübarizə, yə`ni kəndlinin sələmçiliyə və hipotekə qarşı mübarizəsi, xırda burjuanın iri alverçiyə, bankirə və fabrikçiyə qarşı, bir sözlə, iflasa qarşı mübarizəsi hələ maliyyə aristokratiyasına qarşı ümumi üsyan pərdəsi altında gizlənmişdi. Buna görə də təəccüblü deyildir ki, Paris proletariatı öz mənafeyini, cəmiyyətin öz inqilabi mənafeyi kimi irəli sürmək əvəzinə, burjua mənafeyi ilə yan-yana müdafiə etməyə çalışırdı təəccüblü deyildir ki, Paris proletariatı qırmızı bayrağı üçrəngli bayraq qarşısında əymişdi103. Nə qədər ki, inqilabın gedişi, millətin proletariatla burjuaziya arasında duran kütləsini, yə`ni kəndliləri və xırda burjuaları burjua quruluşuna qarşı,

kapitalın hökmranlığına qarşı qaldırmamış və proletariatı özləri üçün qabaqcıl bir mübariz kimi tanıyıb ona qoşulmağa vadar etməmişdi, fransız fəhlələri bir addım belə irəli gedə bilməz, burjua quruluşunun bir tükünə belə toxuna bilməzdilər. Fəhlələr bu qələbəni yalnız dəhşətli iyun məğlubiyyəti41 bahasına qazana bildilər.

Paris fəhlələrinin yetirməsi olan Lüksemburq komissiyasının Avropa tribunasına qalxıb XIX əsr inqilabının sirrini açmış olması onun xidməti kimi qalacaqdır: bu sirr isə proletariatın qurtuluşudur. O zamanadək sasialistlərin mö`təbər olmayan əsərlərində dəfn edilib yalnız hərdənbir burjuaziyanın qulağına yarıqorxulu, yarıgülməli uzaq əfsanələr şəklində gəlib çatan «dəhşətli sayıqlamaları» rəsmən təbliğ etməli olanda «Moniteur»104 qızarırdı. Heyrətə düşmüş Avropa öz burjua yarımürgüsündən birdən-birə ayıldı. Beləliklə, maliyyə aristokratiyasını ümumiyyətlə burjuaziya ilə qarışdıran proletarların təsəvvüründə; siniflərin hətta varlığını danan və ya olsa-olsa bunları konstitusiyalı monarxiyanın nəticəsi hesab edən sadəlövh respublikaçıların xəyalında; o zamanadək hakimiyyətdən kənar edilən burjua təbəqələrinin riyakar ibarələrində,– respublikanın qurulması ilə bir zamanda burjuaziyanın hökmranlığı ləğv edilmişdi. O zaman bütün royalistlər dönüb respublikaçı, bütün Paris milyonerləri isə fəhlə olmuşdular. Sinfi münasibətlərin bu xəyali yoxluğuna müvafiq ifadə «fraternite»–ümumi qardaşlaşma və qardaşlıq ifadəsi idi. Sinfi ziddiyyətlərə bu cür sakitliklə e`tinasızlıq göstərmək, bir-birinə əks olan, sinfi mənafeləri bu cür ürəyinazikliklə barışdırmaq, sinfi mübarizə üzərində bu cür xəyalpərəstliklə pərvaz etmək, bir sözlə, «fraternite»–fevral inqilabının əsl şüarı idi. Yalnız sadə bir anlaşılmazlıq cəmiyyəti siniflərə parçaladı və fevralın 24-də Lamartin müvəqqəti hökumətə «un gouvernement qui suspende ce malentendu terrible qui existe entre les differentes classes» («müxtəlif siniflər arasında mövcud dəhşətli anlaşılmazlığa son qoymalı olan hökumət». Red.) adını verdi. Paris proletariatı ümumi qardaşlığın bu alicənab coşqunluğu ilə məst olmuşdu. Respublika e`lan etməyə məcbur olan müvəqqəti hökumət də öz növbəsində var qüvvə ilə çalışırdı ki, respublikanı həm burjuaziya, həm də əyalətlər üçün məqbul bir şəklə salsın. Müvəqqəti hökumət, siyasi cinayətlər üçün ölüm cəzasını ləğv edərək birinci Fransa respublikasının qanlı terrorundan əl çəkdi; hər cür baxışları mətbuatda azad surətdə müdafiə etmək olardı; çox az bir istisna ilə ordu, məhkəmə, dövlət idarələri

köhnə ə`yanların əllərində qalmışdı; İyul monarxiyasının iri cinayətkarlarından biri də məs`uliyyətə cəlb edilmədi. «National»dakı burjua respublikaçıları, monarxist adları və donlarını köhnə respublikaçı ad və donları ilə əvəz etməklə əylənirdilər. Onların nəzərində respublika, köhnə burjua cəmiyyəti üçün yalnız yeni bal paltarı idi. Gənc respublika özünün başlıca vəzifəsini heç kəsi qorxutmamaqda və, əksinə, hamıdan qorxub, üzüyola və müqavimətsiz olmaqla öz varlığını qorumaqda və, beləliklə, düşmənlərini sakit etməkdə görürdü. Ölkə daxilində imtiyazlı siniflərə və xaricdə müstəbid dövlətlərə ucadan bildirildi ki, respublika sulhpərvərdir və onun şüarı belə ifadə edilə bilər: yaşa və qoy başqaları yaşasın. Məhz bu zaman, fevral inqilabından dərhal sonra almanlar, polyaklar, avstriyalılar, macarlar, italyanlar–hər bir xalq öz vəziyyətindəki xüsusi şəraitə uyğun olaraq üsyan etdi. Bu hərəkatdan qorxuya düşən Rusiya və bu hərəkata mə`ruz qalan İngiltərə qəfildən yaxalanmış oldular. Beləliklə, respublika öz yolunda heç bir ümummilli düşmənə rast gəlmədi. Deməli, enerjini alovlandıra biləcək, inqilabi prosesi sür`ətləndirəcək, müvəqqəti hökuməti irəli itələyəcək və ya bir kənara atacaq böyük xarici ixtilaflar baş vermədi. Respublikanı öz yetirməsi hesab edən Paris proletariatı, müvəqqəti hökumətin, burjua cəmiyyətində öz mövqeyini möhkəmləndirməyə kömək edən hər bir addımını, aydındır ki, alqışlayır, Parisdə mülkiyyəti qorumaq işində Kossidyerə həvəslə polis xidməti göstərir və əmək haqqı məsələsində fəhlələrlə sahibkarlar arasındakı mübahisələri həll etməyi Lui Blanın öhdəsinə buraxırdı. Paris proletariatı respublikanın burjua şərəfini Avropanın nəzərində ləkələnməmiş halda saxlamağı özü üçün «point d`honneur» hesab edirdi.

Respublika nə xaricdən, nə də daxildən heç bir müqavimətə rast gəlmədi. Bu da onu sakit etdi. Daha onun vəzifəsi dünyanı inqilabi yolla yenidən qurmaq deyil, yalnız özünü burjua cəmiyyəti şəraitinə uyğunlaşdırmaq idi. Müvəqqəti hökumətin bu vəzifəni yerinə yetirməyə nə qədər təəccüblə girişdiyini hər şeydən yaxşı onun maliyyə tədbirləri göstərir.

Dövlət krediti ilə xüsusi kredit, əlbəttə, pozulmuşdu. Dövlət krediti belə bir inam üzərində qurulur ki, dövlət maliyyəçi-sələmçilərə imkan verir özlərinin xeyrinə dövlətdən istifadə etsinlər. Lakin köhnə dövlət yıxılmışdı, inqilab isə hamıdan əvvəl maliyyə aristokratiyasına qarşı çevrilmişdi. Avropadakı son ticarət böhranının sarsıntıları hələ kəsilməmişdi. İflaslar hələ də bir-birinin dalınca baş verirdi.

Beləliklə, hələ fevral inqilabı başlanmazdan əvvəl xüsusi kredit pozulmuş, əmtəə dövriyyəsi çətinləşmiş, istehsal sarsımışdı. İnqilabi böhran ticarət böhranını şiddətləndirmişdi. Xüsusi kredit belə bir inam üzərində turulur ki, bütün burjua istehsal münasibətləri məcmusu, bütün burjua quruluşu toxunulmaz və olduğu kimi qalır, onda burjua istehsalı əsasının özünü, proletariatın iqtisadi köləliyini qorxu altına alan inqilab,–Lüksemburq sfinksini birjaya qarşı qoyan inqilab, xüsusi kreditə necə tə`sir etməli idi? Proletariatın azad edilməsi burjua kreditinin məhv edilməsinə bərabərdir, çünki bu azadlıq burjua istehsalının və burjua quruluşunun məhv olması deməkdir. Dövlət krediti ilə xüsusi kredit, inqilabın intensivliyini göstərən iqtisadi termometrdir. Kredit nə dərəcədə aşağı düşürsə, inqilabın hərarəti də o dərəcədə qalxır və onun yaradıcılıq qüvvəsi o dərəcədə artır.
Müvəqqəti hökumət respublikanın antiburjua qabığını atmaq istəyirdi. Bunun üçün hər şeydən əvvəl yeni dövlət formasının mübadilə dəyərini, birjada onun məzənnəsini tə`min etmək lazım idi. Respublikanın birjada qoyulan məzənnəsi ilə birlikdə xüsusi kredit yenə hökmən yüksəlməli idi. Respublikanın monarxiyadan irs olaraq aldığı təəhhüdləri guya yerinə yetirmək istəmədiyi və ya yerinə yetirə bilmədiyi haqqında hətta doğa biləcək şübhəni belə aradan qaldırmaq, respublikanın burjua düzlüyünə və ödəmə qabiliyyəti olduğuna e`timad yaratmaq üçün müvəqqəti hökumət ləyaqətsiz, həm də uşaqcasına lovğalığa əl atdı, 5, 41/2 və 4 faizli kağızların dövlət kreditorlarına çatası faizi hələ qanuni möhləti gəlib çatmazdan əvvəl ödədi. Kapitalistlər, özlərinin e`timadını satın almaq üçün nə qədər qorxaqcasına və tələsik cidd-cəhd göstərildiyini görən kimi onların bütün burjua təkəbbürü və lovğalığı dərhal özünü təkrar göstərdi. Əlbəttə, müvəqqəti hökumətin pul cəhətdən çəkdiyi çətinliklər onu nağd pul ehtiyatından məhrum edən bu yüngül hərəkəti nəticəsində heç də azalmadı. Pul qıtlığını daha gizlətmək mümkün deyildi və dövlət kreditorlarına edilən bu xoş hədiyyənin əvəzini xırda burjuaziya, ev xidmətçiləri və fəhlələr öz ciblərindən ödəməli oldular.
Hökumət e`lan etdi ki, əmanət kassaları hər kitabçaya daha 100 frankdan artıq nağd pul verməyəcəkdir. Əmanət kassalarına qoyulmuş pul müsadirə edildi və hökumətin dekreti ilə ödənilməyəcək dövlət borcuna çevrildi. Bu isə, onsuz da sıxıntı içində olan xırda burjuaziyanı respublikaya qarşı daha artıq qəzəbləndirdi. Xırda burjuaziya əmanət kitabçaları əvəzinə aldığı dövlət borc iltizamnamələrini birjada satmaq və, beləliklə, birja başçıları

olan sələmçilərin cənginə keçmək məcburiyyətində qaldı, halbuki fevral inqilabı məhz bu sələmçilər əleyhinə yönəldilmişdi.
Bank, İyul monarxiyasında hökm sürən maliyyə aristokratiyasının mə`bədi idi. Birja dövlət kreditini öz əlində saxladığı kimi, bank da ticarət kreditini idarə edir.
Fevral inqilabı bankın yalnız hökmranlığını deyil, hətta varlığını da qorxu altına almışdı; buna görə də bank lap əvvəldən, kredit qabiliyyətsizliyini ümumiləşdirməklə respublikanı e`tibardan salmağa çalışırdı. Bank bankirlərə, fabrikçilərə və tacirlərə kredit buraxmaq işini birdən-birə dayandırdı. Dərhal əksinqilaba səbəb olmayan bu manevr, labüd olaraq bankın özünə zərbə endirdi. Kapitalistlər, bankın zirzəmilərində saxlanılan pullarını geri götürdülər. Banknot sahibləri bunları qızıla və gümüşə dəyişdirmək üçün bank kassasına cumdular.
Müvəqqəti hökumət tamamilə qanuni yolla, işə zorakılıqla müdaxilə etmədən bankı iflas etməyə məcbur edə bilərdi bunun üçün müvəqqəti hökumətə yalnız passiv qalmaq və bankı özbaşına buraxmaq lazım idi. Bankın iflas etmdsi Fransa torpağını bir an içərisində maliyyə aristokratiyasından, İyul monarxiyasının bu qızıl dayağından, respublikanın bu ən güclü və təhlükəli düşmənindən təmizləyəcək bir sel ola bilərdi. Bank iflas edərdisə, hökumətin milli bank yaratmasına və milli krediti millətin nəzarətinə tabe etməsinə burjuaziya özü nicat tapmaq üçün son bir ümidsiz təşəbbüs kimi baxmalı olardı.
Lakin müvəqqəti hökumət bunun əvəzində banknotlar üçün məcburi məzənnə qoydu. Bundan əlavə, hökumət bütün əyalət banklarını Fransa bankının filial şö`bələri şəklinə saldı və, beləliklə, həmin banka bütün Fransanı öz şəbəkəsi ilə bürümək imkanı verdi. Bir qədər sonra hökumət bankdan borc aldı və bunun müqabilində tə`minat olaraq dövlət meşələrini girov qoydu. Beləliklə, fevral inqilabı, yıxmalı olduğu bankokratiyanın özünü bilavasitə möhkəmləndirib genişləndirdi.
Eyni zamanda, müvəqqəti hökumətin beli, getdikcə artan kəsirin ağır yükü altında daha çox bükülürdü. Hökumətin yalvar-yaxara başlayıb vətənpərvərlərdən fədakarlıq istəməsi bir nəticə vermədi. Yalnız fəhlələr ona sədəqə verdilər. Çox cəsarətli bir tədbirə əl atmaq, yə`ni yeni vergi qoymaq lazım gəldi. Lakin bu vergi kimlərin üzərinə qoyulmalı idi? Birja qurdlarının, bank krallarının, dövlət kreditorlarının, rentaçıların və sənayeçilərinmi? Lakin bu yolla burjuaziyanın respublikaya rəğbətini

qazanmaq olmazdı. Bu tədbir dövlət və ticarət kreditinə bu cür təhqiranə qurbanlar verildiyi bir zamanda ona zərbə vurmaq demək olardı. Hər halda kim isə cibini boşaltmalı idi. Bəs burjua kreditinə qurban edilən kim oldu? «Jacques le bonhomme (Sadədil Jak (Fransada zadəganların kəndlilərə istehza ilə verdikləri ləqəbdir). Red.), kəndli.
Müvəqqəti hökumət, dörd müstəqil verginin hamısının hər frankına 45 santim əlavə vergi qoydu. Hökumət mətbuatı Paris proletariatına yalan satıb deyirdi ki, guya bu vergi başlıca olaraq iri torpaq sahiblərinin, Restavrasiya nəticəsində bağışlanan milyardı105 alanların üzərinə düşür. Həqiqətdə isə bu vergi hamıdan əvvəl kəndlilərin, yə`ni fransız xalqının böyük əksəriyyətinin üzərinə düşdü. Kəndlilər fevral inqilabının xərcini çəkməli oldular,–buna görə də onlar əksinqilabın əsas ordusunu təşkil etdilər. 45 santimlik yeni vergi fransız kəndlisi üçün həyati məsələ idi, buna görə də kəndli bu məsələni respublika üçün ölüm-dirim məsələsi etdi. O zamandan e`tibarən 45 santimlik vergi fransız kəndlisinin nəzərində respublikanın təcəssümü oldu, Paris proletariatı isə fransız kəndlisinə, onun hesabına qayğısız dolanan israfçı kimi görünürdü.
1789-cu il inqilabı kəndliləri feodal mükəlləfiyyətləri yükündən azad etməklə işə başladığı halda, 1848-ci il inqilabı, kapitala zərər verməmək və onun dövlət maşınının işləməsini tə`min etmək üçün ilk növbədə kənd əhalisinin belinə yeni vergi yüklədi.
Müvəqqəti hökumət yalnız bir yolla, yə`ni dövlətin iflas etdiyini e`lan etməklə bütün bu çətinlikləri aradan qaldıra bilərdi və dövləti köhnə yolundan çıxarardı. Hamının yadındadır ki, Ledrü-Rollen, birja başçısı olan sələmçi və Fransanın indiki maliyyə naziri Fuldun belə bir təklifini bir xeyirxah qəzəbi ilə rədd etdiyini sonralar Milli məclis qarşısında necə lovğalana-lovğalana söyləmişdi. Halbuki Fuld ona ağıllı bir məsləhət görürdü.
Müvəqqəti hökumət, köhnə burjua cəmiyyətinin dövlət üçün verdiyi vekselləri qəbul etməklə, bu cəmiyyətin hökmranlığı altına düşdü. Müvəqqəti hökumət burjua cəmiyyətinin yanına, köhnə inqilabi borcları tələb edən kreditor kimi zəhmlə gəlmək əvəzinə, bu cəmiyyətin dolaşmış borclusu vəziyyətinə düşdü. Müvəqqəti hökumət, ancaq burjua münasibətləri çərçivəsində yerinə yetirilə biləcək təəhhüdlərin öhdəsindən gələ bilmək üçün laxlamış burjua münasibətlərini möhkəmləndirməli idi. Kredit onun varlığının zəruri bir şərti, proletariata edilən güzəştlər və

verilən və`dlər isə hökmən qırılması lazım gələn bir buxov oldu. Fəhlələrin azad edilməsi–hətta bu barədə təkcə bir söz–yeni respublika üçün dözülməz bir təhlükə oldu, çünki bu tələb, mövcud iqtisadi sinfi münasibətlərin möhkəm və sarsılmaz surətdə qəbul edilməsi üzərində qurulan kreditin bərpa olunmasına qarşı daimi bir protest idi. Buna görə də fəhlələrin öhdəsindən gəlmək lazım idi.

Fevral inqilabı ordunu Parisdən qovub çıxarmışdı. Milli qvardiya, yə`ni müxtəlif burjua təbəqələri yeganə hərbi quvvə idi; lakin bu qüvvə proletariatın öhdəsindən gələ bilmək üçün özünü kifayət qədər möhkəm hiss etmirdi. Bundan başqa, milli qvardiya çox inadlı müqavimətdən və törədilən yüzlərlə əngəllərdən sonra silahlı proletarları yavaş-yavaş və qismən öz sıralarına buraxmağa məcbur olmuşdu. Beləliklə, təkcə bir çarə qalırdı: proletarların bir hissəsini o biri hissəsinə qarşı qoymaq.

Bu məqsədlə müvəqqəti hökumət 24 batalyondan ibarət çevik qvardiya təşkil etdi: 15 yaşından 20 yaşınadək gənclərdən ibarət olan bu qvardiyanın hər batalyonunda min nəfər var idi. Bu adamların çox hissəsi, böyük şəhərlərin hamısında olan və sənaye proletariatından tamamilə fəryqlənən lümpen-proletariatdan ibarət idi. Hər cür oğru və canilər yetişdirən bu təbəqə, ictimai süfrənin artıq-urtuğu ilə yaşayan ünsürlərdən, müəyyən peşəsi olmayan adamlardan, avaralardan–«gens sans feu et sans aveu»-dən ibarətdir; mənsub olduqları millətin mədəni səviyyəsindən asılı olaraq bir-birindən fərqlənən bu adamlar hər yerdə və həmişə lassaronların106 xarakterik xüsusiyyətlərini mühafizə edirlər. Müvəqqəti hökumət tərəfindən əsgərliyə alınanda çox gənc yaşlarında olan bu adamlar son dərəcə səbatsız olub çox böyük qəhrəmanlıq və fədakarlıq göstərməyə qabil idilər və eyni zamanda bunların əlindən ən alçaq quldurluq hərəkətləri və ən çirkin satqınlıq gələ bilirdi. Müvəqqəti hökumət onlara gündə 1 frank 50 santim verirdi, yə`ni onları satın almışdı. Hökumət onlara xüsusi geyim vermişdi, yə`ni onları zahiri cəhətdən də köynəklilərdən ayırmışdı. Onlara verilən komandirlərin bir qismi nizami qoşun zabitlərindən ibarət idi, bir qismini də onlar özləri, vətən yolunda ölmək və respublikaya sadiq olmaq haqqındakı gurultulu sözləri ilə onları məftun edən gənc burjua balaları arasından seçmişdilər.

Beləliklə, Paris proletariatının qarşısında, onun öz içərisindən toplanıb canından keçən 24000 nəfər sağlam gəncdən ibarət bir ordu dururdu. Proletariat çevik qvardiyanı Paris küçələrində gur «ura» səsləri ilə

salamlayırdı. O, bu qvardiyanı barrikadalarda vuruşan öz qabaqcıl mübarizləri hesab edirdi. Proletariat bu qvardiyanı, burjua milli qvardiyasından fərqli olaraq proletar qvardiyası hesab edirdi. Proletariatın bu səhvi bağışlanası bir səhv idi.
Hökumət bu çevik qvardiya ilə yanaşı sənaye fəhlələri ordusunu da öz ətrafına toplamağı qərara almışdı. Nazir Mari, böhran və inqilab nəticəsində küçəyə tökülmüş yüz min fəhləyə milli e`malatxana adlanan yerlərdə iş verdi. Belə gurultulu adla, fəhlələr 23 su əmək haqqı müqabilində ürəksıxan yekrəng və səmərəsiz torpaq işində işlədilirdi. Milli e`malatxanalar İngiltərədə açıq havadakı iş evlərindən107 başqa bir şey deyildi. Müvəqqəti hökumət belə güman edirdi ki, bu e`malatxanalar fəhlələrin özünə qarşı ikinci proletar ordusu olar. Fəhlələr çevik qvardiya məsələsində səhv etdikləri kimi, burjuaziya da bu dəfə milli e`malatxanalar məsələsində səhv etmişdi. Burjuaziya qiyam ordusu yaratmışdı.
Lakin bir məqsəd əldə edilmişdi.
Lui Blanın Lüksemburq sarayında təbliğ etdiyi xalq e`malatxanaları da milli e`malatxana adlanırdı. Marinin e`malatxanaları, Lüksemburq planına tamamilə əks olan bir plan əsasında yaradılmışdı, lakin onlara da eyni ad, verildiyinə görə hiyləgər nökərlərin fırıldaqlarını təsvir edən ispan komediyasına layiq səhvlər intriqasına meydan verirdi. Müvəqqəti hökumətin özü gizlindən şayiə buraxmışdı ki, guya bu milli e`malatxanalar Lui Blanın icadıdır; bu şayiə xüsusilə ona görə həqiqətə oxşayan bir şey kimi görünürdü ki, milli e`malatxanaları təbliğ edən Lui Blan müvəqqəti hökumətin üzvü idi. Həm bir qədər sadədillik nəticəsində, həm də bir qədər də qəsdən bu iki şeyi bir-birinə qarışdıran Paris burjuaziyasının nəzərində, habelə Fransa və Avropanın sün`i surətdə dilə tutulub bişirilən ictimai fikrinin nəzərində bu iş evləri, sosializmi həyata keçirmək yolunda atılan ilk addım kimi görünürdü və bu yolla sosializm bədnam edilirdi.
Milli e`malatxanalar, öz məzmunu e`tibarı ilə olmasa da, öz adına görə burjua sənayesinə, burjua kreditinə və burjua respublikasına qarşı proletariatın mücəssəm protesti idi. Odur ki, burjuaziyanın bütün nifrəti milli e`malatxanalara qarşı çevrildi; burjuaziya kifayət qədər qüvvətlənən kimi, fevral inqilabının xam xəyalları ilə əlaqəni açıqdan-açığa kəsmək üçün vurmaq istədiyi zərbənin ilk hədəfini milli e`malatxanalarda gördü. Xırda burjualar da öz narazılığını, bütün acığını ümumi hədəf olan milli e`malatxanalara qarşı çevirmişdilər. Öz vəziyyətləri gündən-günə daha

dözülməz olduğu halda xırda burjualar, müftəxor fəhlələrə nə qədər pul xərcləndiyini dişlərini qıcırda-qıcırda hesablayırdılar. Onlar öz-özünə donquldanıb deyirdilər: sosializm həqiqətdə bir iş görülmədiyi halda dövlətdən pensiya almaq imiş! Xırda burjualar öz fəlakətli vəziyyətlərinin səbəbini milli e`malatxanalarda, Lüksemburqda söylənilən təmtəraqlı sözlərdə, Paris fəhlələrinin küçə nümayişlərində görürdülər. Kommunistlərin əsli olmayan kələklərinə qarşı mübarizədə heç kəs iflas uçurumu kənarında durub heç bir nicat ümidi olmayan xırda burjua qədər təəssübçülük göstərmirdi.

Beləliklə, burjuaziya ilə proletariat arasında baş verəcək toqquşmada bütün üstünlüklər, bütun mühüm mövqelər və cəmiyyətin bütün orta təbəqələri burjuaziyanın əlində idi. Eyni zamanda isə fevral inqilabının dalğaları kontilent üzərində yüksəklərə qalxırdı, hər bir yeni poçt xəbərləri gah İtaliyadan, gah Almaniyadan, gah Avropanın ucqar cənub-şərq hissəsindən inqilab xəbəri gətirir və xalqı nəş`ələndirib qələbəsini ona yeni dəlillərlə arası kəsilmədən sübut edirdi bu qələbənin səmərəsi isə artıq xalqın əlindən çıxırdı.

17 mart və 16 aprel, burjua respublikası örtüyü altında gizlənən böyük sinfi mübarizənin ilk toqquşma günləri idi.

17 martda proletariatın, heç bir qəti hərəkətə yol verməyən ikimə`nalı vəziyyəti aşkar oldu. Proletariatın nümayiş etməklə güddüyü ilk məqsəd müvəqqəti hökuməti inqilab yoluna qaytarmaq, lazım gəldikdə onu öz sırasındakı burjua üzvlərini çıxarmağa və Milli məclislə milli qvardiyaya seçki gününü tə`xirə salmağa məcbur etmək idi. Lakin milli qvardiyada təmsil olunan burjuaziya martın 16-da müvəqqəti hökumətə qarşı nümayiş düzəltdi. Nümayişçilər «a bas Ledru-Rollin!» () deyə çığıra-çığıra bələdiyyə idarəsinə tərəf yönəldilər. Belə bir vəziyyət xalqı martın 17-də «Yaşasın Ledrü-Rollen! Yaşasın müvəqqəti hökumət!» deyə çığırmağa vadar etdi. Burjuaziyanı dəf etmək üçün xalq, təhlükə qarşısında durduğunu güman etdiyi burjua respublikasına tərəf çıxmalı oldu. Xalq, müvəqqəti hökuməti özünə tabe etmək əvəzinə, onun vəziyyətini möhkəmlətdi. 17 mart günü, melodramatik bir səhnə ilə başa çatdı. Doğrudur, həmin gün Paris proletariatı nəhəng bir qüvvəyə malik olduğunu bir daha göstərdi, lakin bu, proletariatı əzmək qərarına gələn burjuaziyanın vəziyyətini həm müvəqqəti hökumət daxilində, həm də onun xaricində ancaq möhkəmləndirdi.

16 aprel, müvəqqəti hökumətin burjuaziya ilə birlikdə yaratdığı bir anlaşılmazlıq günü idi. Milli qvardiyanın baş qərargahına keçiriləcək seçkini müzakirə etmək üçün Mars meydanına və cıdır meydanına çoxlu fəhlə yığılmışdı. Birdən-birə Parisin hər tərəfinə ildırım sür`əti ilə belə bir şayiə yayıldı ki, guya Lui Blan, Blanki, Kabe və Raspaylın başçılığı ilə Mars meydanında silahlı fəhlə dəstələri toplaşmış və bunların niyyəti bələdiyyə idarəsinə gedib müvəqqəti hökuməti yıxmaq və kommunist hökuməti e`lan etməkdir. Ümumi toplanış işarəsi verildi,–sonralar Ledrü-Rollen, Marrast və Lamartin bu təşəbbüsü göstərmək şərəfini hərə öz ayağına çıxmağa çalışırdı,–bir saatdan sonra 100000 adam silaha sarıldı, milli qvardiya bələdiyyə idarəsinə gedən yolları tutdu, Parisin hər tərəfində: «Rədd olsun kommunistlər! Rədd olsun Lui Blan, Blanki, Raspayl və Kabe!» bağırtıları eşidildi. Vətəni və cəmiyyəti xilas etməyə hazır olan hədsiz-hesabsız nümayəndə hey`ətləri müvəqqəti hökumətin yanına gəlib ona sadiq olduqlarını bildirdilər. Nəhayət, fəhlələr, Mars meydanında vətənpərvərlərdən topladıqları pulu müvəqqəti hökumətə vermək üçün bələdiyyə idarəsinin qarşısına gələndə, çox təəccüblə xəbər tutdular ki, burjua Parisi çox böyük ehtiyatla düzəldilən qondarma mübarizədə fəhlələrin kölgəsi üzərində yenicə qələbə çalmışdır. Aprelin 16-dakı dəhşətli qəsd, ordunun Parisə qayıtması üçün bir bəhanə oldu ki, bütün bu kobud komediyadan məqsəd də əslində bu idi; həmin qəsd əyalətlərdə mürtəce federalist nümayişləri üçün də bir bəhanə oldu. Müstəqim və ümumi seçkilərdən çıxan Milli məclis (Burada Milli məclis deyiləndə, 1848-ci il mayın 4-dən 1849-cu ilin may ayınadək fəaliyyət göstərən Milli müəssislər məclisi (Konstituanta) nəzərdə tutulur. Red.) mayın 4-də toplandı. Ümumi seçki hüququ, köhnə biçimli respublikaçıların ona isnad verdikləri sehrli qüvvəyə malik deyildi. Onlar bütün Fransa əhalisini və ya heç olmazsa fransızların əksəriyyətini mənafeyi bir, baxışları və sairəsi bir olan «citoyens» (vətəndaşlar. Red.) hesab edirdilər. Bu isə onların nəzərində xalqa bir növ pərəstişkarlıq idi. Lakin seçki onların xəyal etdiyi xalq əvəzinə həqiqi xalqı, yə`ni xalqın bölündüyü müxtəlif siniflərin nümayəndələrini göstərdi. Biz artıq bilirik nə üçün seçki zamanı kəndlilər və xırda burjuaziya döyüşkən əhvali-ruhiyyəli burjuaziyanın və restavrasiyaya can atan iri torpaq sahiblərinin ardınca gedirdilər. Ümumi seçki hüququ sadədil respublikaçıların güman etdiyi sehrli çubuq deyildisə də, hər halda onun başqa, nisbətən daha yüksək

məziyyəti var idi: ümumi seçki hüququ sinfi mübarizəyə açıq meydan verirdi, burjua cəmiyyətinin müxtəlif orta təbəqələrini öz xam xəyallarından və mə`yusluqdan tez əl çəkməyə vadar edirdi ümumi seçki hüququ istismarçılar sinfinin bütün fraksiyalarını dərhal dövlət zirvəsinə qaldırmaqla onların yalançı maskalarını yırtırdı, halbuki monarxiya qoyduğu senzlə burjuaziyanın yalnız müəyyən fraksiyalarını hörmətdən salıb başqa fraksiyalarına pərdə dalında gizlənməyə və ümumi müxalifət adı ilə şöhrət tapmağa imkan verirdi.

Mayın 4-də açılan Milli müəssislər məclisində burjua respublikaçıları ilə «National» respublikaçıları üstün idilər. Hətta legitimistlər və orleanistlər82 də əvvəlcə yalnız burjua respublikaçılığı maskası altında hərəkət etməyə cür`ət edirdilər. Proletariata qarşı yalnız respublika naminə mübarizəyə başlamaq olardı.

Respublikanın, yə`ni fransız xalqı tərəfindən tanınmış respublikanın başlanğıcını fevralın 25-dən deyil, mayın 4-dən hesab etmək lazımdır; bu respublika, Paris proletariatının müvəqqəti hökumətə qəbul etdirdiyi respublika deyildi, ictimai müəssisələri olan respublika deyildi, barrikada döyüşçülərinin xəyalən arzuladıqları respublika deyildi. Milli məclisin e`lan etdiyi yeganə qanuni respublika, burjua quruluşuna qarşı bir inqilabi silah deyil, əksinə, bu quruluşu siyasi cəhətdən yenidən quran, burjua cəmiyyətini siyasi cəhətdən yenidən möhkəmləndirən bir respublika idi,– bir sözlə, burjua respublikası idi. Bu iddia Milli məclisin tribunasından bildirildi və bütün respublikaçı və respublika əleyhinə olan burjua mətbuatında əks-səda oyatdı.

Biz gördük ki, fevral respublikası həqiqətdə burjua resnublikasından başqa bir şey deyildi və ola da bilməzdi, lakin proletariatın bilavasitə təzyiqi altında müvəqqəti hökumət onu intimai müəssisələrə malik respublika e`lan etməyə məcbur olmuşdu; Paris proletariatı hələ yalnız öz təsəvvüründə, öz xəyalında burjua respublikası çərçivəsi xaricinə çıxa bilərdi və iş fəaliyyətə keçməyə çatanda hər yerdə respublika xeyrinə fəaliyyət göstərirdi; Paris proletariatına verilən və`dlər yeni respublika üçün dözülməz təhlükə olmuş və müvəqqəti hökumətin bütün varlığı proletariatın tələblərinə qarşı arası kəsilmədən mübarizə etməkdən ibarət olmuşdu.

Milli məclisin şəxsində bütün Fransa Paris proletariatının hakimi oldu. Məclis fevral inqilabının bütün ictimai xam xəyalları ilə dərhal əlaqəni

kəsdi və açıq-açığına burjua respublikası, yalnız burjua respublikası e`lan etdi. Məclis, proletariatın nümayəndələri olan Lui Blan ilə Alberi, özünün seçdiyi İcraiyyə komissiyasından tələsik çıxartdı xüsusi əmək nazirliyi tə`sis etmək təklifini rədd etdi və nazir Trelanın «İndi məsələ ancaq, əməyi əvvəlki şəraitinə qaytarmaq üzərindədir» sözlərini gurultulu alqışlarla qarşıladı.

Lakin bütün bunlar da kifayət etmədi. Fevral respublikasını burjuaziyanın passiv yardımı ilə fəhlələr əldə etmişdilər. Proletarlar özlərini haqlı olaraq fevral mübarizəsində qalib hesab edir və qalibə məxsus yüksək tələblər irəli sürürdülər. Onları küçə mübarizəsində məğlub etmək və göstərmək lazım idi ki, onlar burjuaziya ilə ittifaqda deyil, burjuaziyanın əleyhinə vuruşanda məğlub olmağa məhkumdurlar. Vaxtilə sosializmə güzəştə gedən fevral respublikasını yaratmaq üçün burjuaziya ilə birləşmiş proletariatın monarxiyaya qarşı vuruşması lazım gəlmişdi indi isə respublikanı onun sosializmə etdiyi güzəştlərdən azad etmək üçün, burjua respublikasının hökmranlığını rəsmən bərqərar etmək üçün ikinci vuruşma lazım idi. Burjuaziya, proletariatın tələblərini əldə silahla rədd etməli idi. Burjua respublikasının əsl beşiyi fevral qələbəsi deyil, iyun məğlubiyyəti idi.

Proletariat, mayın 15-də Milli məclisə soxulub əvvəlki inqilabi nüfuzunu qaytarmağa müvəffəqiyyətsiz cəhd etməklə işin başa çatmasını sür`ətləndirdi;–proletariat yalnız buna nail oldu ki, onun bacarıqlı rəhbərləri burjua zindan keşikçiləri əlinə keçdi108. «İl faut en jinir!» Buna son qoyulmalıdır! Bu sözlər proletariatı qəti vuruşmaya məcbur etmək üçün Milli məclisin möhkəm qərarını ifadə etdi. İcraiyyə komissiyası meydan oxuyan bir sıra dekretlər verdi, məsələn, xalq yığıncaqlarını qadağan etdi və s. Milli müəssislər məclisi tribunasından fəhlələrə açıqdan-açığa meydan oxunur, istehza edilir və söyüş yağdırılırdı. Lakin, gördüyümüz kimi, başlıca hücum hədəfi milli e`malatxanalar idi. Müəssislər məclisi bir əmr verib bu e`malatxanaları İcraiyyə komissiyasına nişan verdi; komissiya da elə bunu gözləyirdi ki, Milli məclis komissiyanın öz planını əmr şəklində təsdiq etsin.

İcraiyyə komissiyası işə bununla başladı ki, milli e`malatxanalara daxil olmağı çətinləşdirdi, günəmuzd əmək haqqını işəmuzd əmək haqqı ilə əvəz etdi və Solonda guya torpaq işi görüldüyünü bəhanə edərək əslən parisli olmayan fəhlələrin hamısını oraya göndərdi. Solondan mə`yus qayıdan

fəhlələrin öz yoldaşlarına dediklərinə görə bu torpaq işi həqiqətdə, parisli olmayan fəhlələrin qovulduğunu pərdələmək məqsədini güdən gurultulu sözdən başqa bir şey deyilmiş. Nəhayət, iyunun 21-də «Moniteur»-də çıxan bir dekretdə əmr edildi ki, subay fəhlələrin hamısı milli e`malatxanalardan güclə kənar edilsin, ya da orduya verilsin.
Fəhlələrin başqa əlacı qalmamışdı: onlar ya acından ölməli, ya da mübarizəyə başlamalı idilər. Onlar buna iyunun 22-də çox böyük bir üsyanla, müasir cəmiyyətin parçalandığı iki sinif arasında birinci böyük vuruşma ilə cavab verdilər. Bu mübarizə burjua quruluşunu saxlamaq və ya məhv etmək üstündə gedən mübarizə idi. Respublikanı pərdələyən örtük cırıldı.
Rəhbərləri olmayan, ümumi əməliyyat planı olmayan, vəsaiti və bir çox hallarda silahı olmayan fəhlələrin ordunu, çevik qvardiyanı, Paris milli qvardiyasını və əyalətlərdən gələn milli qvardiyaçıları nə qədər misilsiz qəhrəmanlıq və məharətlə tam beş gün gərgin vəziyyətdə saxladıqları mə`lumdur. Dəhşətli qorxuya düşən burjuaziyanın bunun müqabilində misli görünməmiş rəhmsizliklə qisas aldığı və 3000-dən artıq əsiri qırdığı da mə`lumdur.
Fransız demokratiyasının rəsmi nümayəndələrinə respublika ideologiyasının tə`siri o qədər qüvvətli idi ki, onlar iyun vuruşmasının əhəmiyyətini bu vuruşmadan yalnız bir neçə həftə sonra anlamağa başladılar. Onların xəyali respublikasını puça çıxaran barıt tüstüsü sanki onların gözünü tutmuşdu.
Oxucu bizə izn verər ki, iyun məğlubiyyətinin bizə bağışladığı bilavasitə tə`siri «Neue Rheinische Zeitunq»un62 sözləri ilə ifadə edək
«Fevral inqilabının son rəsmi qalığı olan İcraiyyə komissiyası ciddi hadisələr qarşısında bir kabus kimi dağılıb getdi; Lamartinin atəş balığı Kavenyakın yandırıcı raketlərinə çevrildi. Fraternite,–biri digərini istismar edən və bir-birinə qarşı duran siniflərin qardaşlığı, fevralda e`lan edilən, Parisin alnında, hər həbsxana üzərində, hər qışla üzərində böyük hərflərlə yazılan qardaşlıq bu imiş! Onun saxta olmayan, həqiqi və açıq ifadəsi vətəndaş müharibəsidir, ən dəhşətli vətəndaş müharibəsidir, əməklə kapitalın müharibəsidir. İyunun 25-də axşam, proletar Parisi alışıb yandığı, inildədiyi, qana bulaşdığı, burjua Parisi isə çıraqbanlıq düzəltdiyi bir zamanda bu qardaşlıq Parisin bütün pəncərələri qarşısında yanıb külə

döndü. Bu qardaşlıq burjuaziyanın mənafeyi proletariatın mənafeyinə uyğun gəldiyi zamanadək davam etdi.
1793-cü ilin köhnə inqilabi ən`ənəsini davam etdirən pedantlar; xalq üçün burjuaziyadan sədəqə dilənən və proletar aslanını yuxuya verincəyə qədər uzun və`zlər oxumalarına icazə verilən və beləliklə, özlərini rüsvay edən sosialist ehkamçıları; yalnız tacdar başçı olmamaq şərti ilə bütün köhnə burjua qaydalarının olmasına çalışan respublikaçılar təsadüf nəticəsi olaraq hökumətin dəyişilməsi əvəzinə sülalənin yıxıldığını görən sülalə müxalifətçiləri; nökər paltarını atmayıb, yalnız biçimini dəyişməyə çalışan legitimistlər,–xalq öz fevral inqilabını etdiyi zaman onun müttəfiqləri bütün bunlar idi...
Fevral inqilabı qəşəng bir inqilab idi, hamının rəğbət bəslədiyi bir inqilab idi, çünki bu inqilabda kral hakimiyyətinə qarşı mübarizədə aydın surətdə aşkara çıxan ziddiyyətlər, hələ yan-yana, sakit bir halda, inkişaf etməmiş şəkildə mürgüləyirdi, çünki bu ziddiyyətlərin iç üzünü təşkil edən ictimai mübarizə hələ yalnız xəyali bir varlıq halında, quru söz, ibarə halında yaşayırdı. İyun inqilabı isə, əksinə, nifrət doğuran, iyrənc bir inqilab idi, çünki ibarənin yerini iş tutdu, çünki respublika əjdahanın başını örtüb gizlədən tacı vurub salmaqla onun başını aşkara çıxartdı. Qayda-qanun!–Gizonun mübariz şüarı bu idi. Varşava ruslar tərəfindən tutulduğu zaman Gizoçu Sebastiani də çığırıb: Qayda-qanun! deyirdi. Fransız Milli məclisinin və respublikaçı burjuaziyanın kobud əks-sədası olan Kavenyak da bağırıb: Qayda-qanun!–deyir. Onun top güllələri guruldayıb proletariatın bədənini parçalarkən Qayda-qanun!–deyirdi. 1789-cu ildən başlayaraq, fransız burjuaziyasının etdiyi saysız-hesabsız inqilablardan heç biri Qayda-qanuna qəsd etməmişdi, çünki bu inqilabların hamısı sinfi hökmranlığı, fəhlələrin köləliyini və burjua Qayda-qanununu olduğu kimi mühafizə etmiş, bu hökmranlıq və köləliyin siyasi forması tez-tez dəyişmiş olsa da, onlara toxunmamışdı. İyun isə bu Qayda-qanuna qəsd etdi. Vay İyunun halına!» («Neue Rheinische Zeitunq», 29 iyun 1848-ci il) (K.Marks və F.Engels. Əsərləri, 2-ci nəşri, 5-ci cild, səh. 138-140. Red.).
Avropada ucalan əks-səda da–Vay İyunun halına!–deyir.
Burjuaziya Paris proletariatını iyun üsyanına vadar etdi. Təkcə bu cəhət üsyanı müvəffəqiyyətsizliyə məhkum etmişdi. Burjuaziyanı zorla devirməyə cəhd etmək yoluna proletariatı onun bilavasitə və dərk edilmiş tələbatı sövq etməmişdi; həm də proletariat hələ bu vəzifənin öhdəsindən

gələ bilməzdi. «Moniteur» proletariata rəsmi surətdə bildirməli idi ki, onun xam xəyalları qarşısında respublikanın boyun əyməyi lazım bildiyi zamanlar artıq keçib getmişdir və ancaq proletariatın məğlubiyyəti proletariata bu həqiqəti aydın başa saldı ki, burjua respublikası çərçivəsi daxilində proletariatın vəziyyətini azacıq yaxşılaşdırmaq məsələsi bir utopiya olaraq qalır və bu utopiya onu həyata keçirmək üçün ilk təşəbbüs edilən kimi dönüb bir cinayət olur. Onda, proletariatın fevral respublikasından qoparmaq istədiyi formaca çox geniş, lakin mahiyyət e`tibarı ilə xırda və hətta burjua tələblərinin yerini: Burjuaziyanın dvvrilməsi! Fəhlə sinfinin diktaturası! kimi cəsarətli inqilabi mübariz şüar tutdu.

Proletariat, öz qəbirini burjua respublikasının beşiyinə çevirməklə bu respublikanı məcbur etdi ki, öz iç üzünü aşkara çıxarsın, yə`ni açıq göstərsin ki, hamılıqla qəbul edilən vəzifəsi kapitalın hökmranlığını və əməyin köləliyini əbədiləşdirməkdən ibarət olan bir dövlətdir. Burjuaziyanın, hər yeri çapıq-çapıq olduğu halda barışmaz və məğlubedilməz düşməni,–onun üçün məğlubedilməz düşməni ki, bu düşmənin varlığı burjuaziyanın özünün həyati tələbatıdır,–daim onun gözü qabağında olduğuna görə burjuaziyanın bütün buxovlardan xilas edilən hökmranlığı dərhal burjuaziyanın terrorçuluğuna çevrilməli idi. Proletariat bir müddət üçün səhnədən uzaqlaşdırılandan və burjuaziyanın diktaturası rəsmən təsdiq ediləndən sonra, burjua cəmiyyətinin orta təbəqələri, yə`ni xırda burjuaziya və kəndlilər öz vəziyyətləri xarablaşdıqca və onlarla burjuaziya arasındakı antaqonizm kəskinləşdikcə proletariatla daha sıx birləşməli idilər. Keçmişdə onlar öz fəlakətlərinin səbəbini proletariatın qüvvətlənməsində gördükləri kimi, indi də bunun səbəbini proletariatın məğlubiyyətində görməli idilər.

İyun üsyanı kontinentin hər yerində burjuaziyanı öz vəziyyətini ciddi dərk etməyə və xalqa qarşı feodal monarxiyası ilə açıq bir ittifaqa girməyə sövq etdisə, bəs bu ittifaqın birinci qurbanı kim oldu? Kontinent burjuaziyasının özü. İyun məğlubiyyəti burjuaziyaya öz hökmranlığını möhkəmləndirməyə və xalqı burjua inqilabının ən aşağı pilləsində yarırazı, yarımə`yus bir halda saxlamağa mane oldu.

Nəhayət, iyun məqlubiyyəti bu sirri Avropanın müstəbid dövlətlərinə açdı ki, Fransa öz daxilində vətəndaş müharibəsi edə bilmək üçün öz qonşuları ilə sülhü hökmən mühafizə etməlidir. Bu isə, öz milli istiqlaliyyəti uğrunda

mübarizəyə başlamışxalqları Rusiya, Avstriya və Prussiyanın ixtiyarına verdi, lakin eyni zamanda bu milli inqilabların müqəddəratı proletar inqilabının müqəddəratından asılı oldu, onların zahiri müstəqilliyi və böyük ictimai çevrilişdən asılı olmadığı fikri aradan qalxdı. Nə qədər ki, fəhlə köləlikdə qalır, nə macar, nə polyak, nə də italyan azad olmayacaqdır!

Nəhayət, Müqəddəs ittifaqın qələbələri Avropanın şəklini o qədər dəyişdirmişdir ki, Fransada hər bir yeni proletar üsyanının hökmən dünya müharibəsinə səbəb olacağını güman etməyə əsas verir. Yeni fransız inqilabı dərhal milli çərçivəni aşıb, Avropa meydanını əldə etməli olacaqdır ki, XIX əsrin ictimai inqilabı da yalnız bu meydanda həyata keçirilə bilər.

Deməli, Fransanın Avropa inqilabı təşəbbüsünü öz əlinə ala bilməsi üçün lazım gələn şəraiti yalnız iyun məğlubiyyəti yaratmışdır. Üçrəngli bayraq, yalnız iyun üsyançılarının qanına batdıqdan sonra Avropa inqilabı bayrağına–qırmızı bayrağa çevrilmişdir!

Odur ki, biz ucadan deyirik İnqilab öldü, yaşasın inqilab!

II 13 İYUN 1849-cu İL

1848-ci ilin 25 fevralı Fransaya respublika vermiş, 25 iyunu onun boynuna bir inqilab bağlamışdı. İyundan sonra isə inqilab: burjua cəmiyyətini devirmək demək idi, halbuki fevrala qədər bu inqilab dövlət formasını devirmək demək idi.

İyun mübarizəsinə burjuaziyanın respublikaçı fraksiyası rəhbərlik edirdi, buna görə təbiidir ki, qələbə hakimiyyəti də onun ixtiyarına verdi. Mühasirə vəziyyəti müqavimət göstərməyə iqtidarı olmayan, əl-ayağı bağlı Parisi burjuaziyanın ayağına saldı, əyalətlərdə isə mühasirə vəziyyətinin doğurduğu əhvali-ruhiyyə, qələbəsini təntənə ilə bayram edən burjuaziyanın heybətli və kobud təkəbbürü, kəndlilərin azğın mülkiyyətçilik fanatizmi hökm sürürdü. Deməli, aşağıdan heç bir təhlükə qorxusu yox idi!

Fəhlələrin inqilabi qüdrəti ilə birlikdə demokratik respublikaçıların, yə`ni İcraiyyə komissiyasında Ledru-Rollenin, Milli müəssislər məclisində Dağ partiyasının, mətbuatda isə «Reforme»55nin təmsil etdiyi xırda burjua respublikaçılarının siyasi tə`siri də sarsılmışdı. Aprelin 16-da109 onlar burjua respublikaçıları ilə birlikdə proletariata qarşı qəsd düzəltdilər, iyun günlərində onlarla birlikdə proletariata qarşı vuruşdular. Beləliklə, onlar öz

partiyalarının gücünün əsası olan dayağı özləri sarsıtdılar, çünki xırda burjuaziya yalnız proletariata arxalandıqca burjuaziyaya qarşı öz inqilabi mövqelərini əldə saxlaya bilər. Onlar iste`fa verməli oldular. Burjua resiublikaçıları müvəqqəti hökumət və İcraiyyə komissiyası dövründə istəmədikləri halda, lakin gizli niyyətlə demokratik respublikaçılarla bağladıqları yalançı ittifaqı açıqdan-açığa pozdular. Müttəfiq olmaq e`tibarı ilə həqarətlə rədd edilən demokratik respublikaçılar üçrəngli respublikaçıların mühafizəçisi rolunu oynamaq dərəcəsinə alçaldılar, həm də onlardan heç bir güzəşt ala bilmədilər halbuki onların hökmranlığı və eyni zamanda respublikanın özü burjuaziyanın antirespublika fraksiyaları tərəfindən təhlükə qarşısında qalanda bu hökmranlığı hər dəfə müdafiə etməli olurdular. Nəhayət, bu fraksiyalar, orleanistlər və legitimistlər, ən əvvəldən Milli müəssislər məclisində azlıq təşkil edirdilər. İyun günlərinə qədər onlar ancaq burjua respublikaçılığı maskası altında hərəkət edir və başqa bir şəkildə hərəkət etməyə hətta cəsarət edə bilmirdilər; iyun qələbəsi bütün burjua Fransasını bir an üçün Kavenyakın ətrafında birləşdirdi və burjua Fransası onu öz xilaskarı kimi alqışladı lakin iyun günlərindən az sonra antirespublika partiyası yenidən müstəqil surətdə hərəkət edəndə Parisdəki hərbi diktatura və mühasirə vəziyyəti bu partiyaya öz caynaqlarını yalnız qorxa-qorxa, ehtiyatla uzatmaq imkanı verdi.
1830-cu ildən e`tibarən burjua respublikaçıları fraksiyası öz yazıçıları, natiqləri və «iste`dadlı adamlarının» şəxsində, öz şöhrətpərəstləri, deputatları, generalları, bankirləri və vəkillərinin şəxsində Parisdə çıxan «National» qəzeti ətrafında birləşirdi. Əyalətlərdə «National»ın öz filial qəzetləri var idi. «National» güruhu üçrəngli respublikanın sülaləsi idi. Bu güruh bütün dövlət vəzifələrini–nazirlikləri, polis idarəsini, poçt müdiriyyətini, bələdiyyə rəisi vəzifələrini və orduda boş qalan ali zabit mənsəblərini dərhal öz əlinə aldı. Bu güruhun generalı Kavenyak icraiyyə hakimiyyətinin başında dururdu, onun baş redaktoru Marrast isə Milli müəssislər məclisinin dəyişməz sədri oldu. Bununla bərabər, Marrast qəbul mərasimlərində, baş təşrifatçı kimi hərəkət edib «abırlı» respublika adından qonaqpərəstlik borcunu yerinə yetirirdi.
Hətta inqilabçı fransız yazıçıları, respublika ən`ənəsi qarşısında bir növ pərəstişkarlıq nəticəsi olaraq, belə bir yanlış fikri qüvvətləndirmişdilər ki, guya Milli müəssislər məclisində royalistlər hökmranlıq edirlər. Halbuki əksinə, iyun günlərindən e`tibarən Müəssislər məclisi ancaq burjua

respublikaçılığı nümayəndəsi kimi qalmışdı və Məclis xaricində üçrəngli respublikaçıların nüfuzu aşağı düşdükcə Məclis öz respublikaçılığını daha qəti surətdə göstərirdi. İş burjua respublikası formasını müdafiə etməyə gəlib çatanda, demokratik respublikaçıların səsləri Məclisin ixtiyarında olurdu; iş bu respublikanın məzmununu müdafiə etməyə gəlib çatanda isə, Məclis hətta nitqlərin üslubuna görə burjuaziyanın royalist fraksiyalarından fərqli olmurdu, çünki məhz burjuaziyanın mənafeyi, onun sinfi hökmranlığı və sinfi istismarının maddi şəraiti burjua respublikasının məzmununu təşkil edir.

Deməli, nəticə e`tibarı ilə ölməyən və öldürülməyən, sadəcə çüruyən bu Müəssislər məclisinin həyat və fəaliyyətində royalizm deyil, burjua respublikaçılığı təcəssüm etmişdi.

Müəssislər məclisi hökmranlıq etdiyi bütün dövrdə hörmətli tamaşaçılar üçün səhnə qabağında riyakarcasına tamaşalar verdiyi halda, səhnə dalında fasiləsiz qurbanlar kəsilir, hərbi-səhra məhkəmələri əsir edilən iyun üsyançıları haqtında saysız-hesabsız hökmlər çıxarır, ya da onları məhkəməsiz sürgün edirdi. Müəssislər məclisi nəzakətlə e`tpraf etmişdi ki, iyun üsyançılarının şəxsində caniləri mühakimə etmək deyil, öz düşmənlərini məhv edir.

Milli müəssislər məclisinin birinci işi iyun günlərində və mayın 15-də baş verən hadisələri və sosialist partiyası ilə demokratik partiya rəhbərlərinin bu hadisələrdə iştirakı məsələsini yoxlamaq üçün bir istintaq komissiyası tə`sis etməkdən ibarət oldu. Bu istintaq açıqca Lui Blan, Ledrü-Rollen və Kossidyerə qarşı yönəldilmişdi. Burjua respublikaçıları bu rəqiblərdən xilas olmağı səbirsizliklə gözləyirdilər. Onlar, qisas almaq niyyətini həyata keçirmək üçün sülalə müxalifətinin keçmiş rəhbəri c. Odilon Barrodan daha münasib bir hərif tapa bilmədilər. Liberalizmin təcəssümü olan bu «nullite grave» (təmtəraqlı aciz. Red.), bu heyvərə boşboğaz nəinki təkcə sülalənin intiqamını almaq, hətta baş nazir vəzifəsi əlindən çıxdığı üçün inqilabçıları məs`uliyyətə çəkmək istəyirdi. Onun amansızlığının e`tibarlı tə`minatı bu idi! Məhz həmin Barro istintaq komissiyasının sədri tə`yin edildi və onun fevral inqilabına qarşı düzəltdiyi əsil məhkəmə işinin əsası bunlardan ibarət oldu: martın 17-də nümayiş, aprelin 16-da qəsd hazırlığı, mayın 15-də qəsd, iyunun 23-də vətəndaş müharibəsi! Bəs nə üçün Barro cinayət işləri sahəsindəki elmi tədqiqatını 24 fevrala çatdırmamışdı? «Journal des Debats»110 bunun cavabını vermişdir: 24 fevral günü bir növ

Romanın tə`sisi günüdür. Dövlətlərin mənşəyi əfsanələr aləminə qarışır, bu əfsanələri müzakirə etmək olmaz, bunlara inanmaq lazımdır. Lui Blan və Kossidyer məhkəməyə verildilər. Milli məclis, özünü təmizləmək üçün mayın 15-də başladığı işi başa çatdırdı.
Müəssislər məclisi hipoteklərdən vergi almaq yolu ilə kapitala vergi qoymaq üçün müvəqqəti hökumətin nəzərdə tutduğu və Qudşo tərəfindən yenə irəli sürülən planı rədd etdi iş günü üçün on saatlıq hədd qoyan qanun ləğv edildi borcunu verə bilməyənləri həbs etmək qaydası yenidən qoyuldu Fransa əhalisinin xeyli hissəsini təşkil edən savadsızlar andlı iclasçılar məhkəməsində iştirak etməkdən kənar edildilər. Məgər bunları eyni zamanda seçki hüququndan da məhrum etmək olmazdı? Qəzetlər üçün girov yenidən tətbiq olundu, ittifaqların hüququ məhdud edildi.
Lakin köhnə burjua münasibətlərinin köhnə tə`minatını bərpa etməyə və inqilab dalğalarından qalan bütün izləri silib yox etməyə tələsən burjua respublikaçıları, özlərini gözlənilməz təhlükə qarşısında qoyan müqavimətə rast gəldilər.
İyun günlərində, heç kəs öz mülkiyyətini xilas etmək və krediti bərpa etmək üçün Parisin xırda burjuaziyası–kafe və aşxana sahibləri, «marchands de vin» (şərab anbarı sahibləri. Red.), xırda alverçilər, dükançılar, xırda e`malatxana sahibləri və başqaları qədər təəssüblə mübarizə etməmişdi. Küçədən dükana gediş-gəlişi bərpa etmək üçün dükan təşvişə düşmüş, barrikada üzərinə yerimişdi. Lakin barrikadanın dalındakılar dükançının müştəriləri və borcluları, barrikadanın qabağındakılar isə onun kreditorları idi. Barrikadalar dağıdılandan və fəhlələr əziləndən sonra dükançılar qələbədən məst olub öz dükanlarına tərəf cumanda gördülər ki, mülkiyyət xilaskarı, rəsmi kredit agenti dükanın qapısını kəsib onları əlindəki qəzəbli tələbnamələrlə qarşılayır. Vekselin vaxtı ötmüşdür! Mənzil kirayəsinin vaxtı ötmüşdür! Borc qəbzinin vaxtı ötmüşdür! Dükanın işi bitdi! Dükançının işi bitdi!
Mülkiyyəti xilas etmək! Halbuki yaşadıqları ev onların mülkiyyəti deyildi; içində alver etdikləri dükan onların mülkiyyəti deyildi; satdıqları mal onların mülkiyyəti deyildi. Nə dükan, nə içində xörək yedikləri boşqab, nə də üstündə yatdıqları çarpayı daha onların deyildi. Öz evini kirayə ilə dükançılara verən ev sahibinin, onların vekselini uçota qəbul edən bankirin, onlara nağd borc verən kapitalistin, öz malını satılmaq üçün inanıb onlara verən fabrikçinin və xırda e`malatxana sahiblərinə nisyə

xammal buraxan topdansatış alverçisinin mənafeyi naminə bu mülkiyyəti məhz dükançıların əleyhinə xilas etmək lazım idi. Krediti bərpa etmək! Lakin yenidən möhkəmlənən kredit, özünü canlı və qisas alan bir ilahə kimi hər şeydən əvvəl bunda göstərdi ki, tavanasız borclunu mənzilindən qovub çıxartdı, arvad-uşağı ilə birlikdə bayıra atdı, onun xəyali əmlakını kapitala verdi, özünü isə iyun üsyançılarının meyitləri üzərində yenə heybətlə ucaldılan borclular həbsxanasına saldı.

Xırda burjuaziya dəhşət içində anladı ki, fəhlələri əzməklə özünü, heç bir müqavimət göstərmədən öz kreditorlarının ixtiyarına vermişdir. Onun fevraldan başlayıb arası kəsilmədən davam edən və sanki əhəmiyyət verilməyən iflası indi, iyundan sonra rəsmən e`lan edildi.

Nə qədər ki, xırda burjuaziyanı mülkiyyət naminə mübarizəyə sövq etmək lazım idi, onun nominal mülkiyyətinə toxunmurdular. İndi, proletariata aid böyük haqq-hesab kəsildikdən sonra, dükançı ilə də xırda haqq-hesabı kəsmək olardı. Vaxtı keçmiş veksellərin məbləği Parisdə 21 milyon frankdan, əyalətlərdə isə 11 milyon frankdan artıq idi. Parisdə 7000-dən artıq ticarət müəssisəsinin sahibləri tutduqları binaların kirayəsini fevraldan bəri verməmişdilər.

Milli məclis fevraldan e`tibarən baş verən siyasi cinayətlər haqqında təhqiqat tə`yin etdisə, xırda burjuaziya da öz tərəfindən 24 fevraldan əvvəlki mülki borclar məsələsinin təhqiq olunmasını tələb etdi. Çoxlu xırda burjua birja salonuna yığışaraq öz tələblərini hədə-qorxu ilə bildirdi: ticarətdə ancaq inqilabın əmələ gətirdiyi durğunluq nəticəsində iflas etdiyini və fevralın 24-dək işlərinin yaxşı getdiyini sübut edə bilən hər bir tacir öz borcunu ödəmək üçün ticarət məhkəməsi vasitəsi ilə möhlət almalı, kreditor isə mö`tədil faizlə kifayətlənərək öz şikayətini ləğv etməlidir. Bu məsələ Milli məclisdə «concordats a İ`amiable» («xoşluqla bağlanan samşlər», Red.) qanun layihəsi şəklində müzakirə edildi. Məclis tərəddüd edirdi; birdən Məclisə mə`lum oldu ki, bu zaman minlərlə üsyançı arvad-uşağı Sen-Deni qapılarına yığışıb amnistiya üçün müştərək ərizə hazırlayır. İyunun yenidən canlanan kabusu qarşısında xırda burjuaziya qorxuya düşdü, Məclis isə yenə mərhəmətsiz oldu. Kreditor ilə borclu arasında xoşluqla bağlanan sazişlər qanun layihəsi–«concordats a İ`amiable»-nin ən mühüm maddələri rədd edildi.

Beləliklə, burjuaziyanın Milli məclisdəki respublikaçı nümayəndələri xırda burjuaziyanın demokratik nümayəndələrini özlərindən uzaqlaşdırandan çox

sonra, bu parlament ayrılığı bir burjua mahiyyəti, real iqtisadi bir mahiyyət almış oldu: borclu xırda burjualar kreditor burjuaların pəncəsinə verildi. Bu borcluların xeyli hissəsi tamamilə var-yoxdan çıxdı, yerdə qalanların isə öz işlərini elə şərtlərlə davam etdirmələrinə izin verildi ki, bu şərtlər onları kapitalın şəksiz qulu edirdi. 1848-ci il avqustun 22-də Milli məclis «concordats a İ`amiable»-ni rədd etdi, 1848-ci il sentyabrın 19-da, mühasirə vəziyyətinin ən qızğın zamanı isə prins Lui Bonapart və Vensen məhbusu kommunist Raspayl Parisin nümayəndələri secildilər. Burjuaziya isə yəhudi bankir və orleanist Fuldu seçdi. Beləliklə, birdən-birə hər tərəfdən Milli müəssislər məclisinə, burjua respublikaçılığına və Kavenyaka açıq müharibə e`lan edildi.

Özlüyündə aydındır ki, Paris xırda burjualarının kütləvi surətdə iflas etməsi, yalnız bilavasitə zərər çəkənlərə deyil, daha geniş dairələrə mənsub adamlara da tə`sir göstərməli və burjua əmtəə dövriyyəsini yenidən sarsıtmalı idi həm də iyun üsyanı ilə əlaqədar olan xərc dövlətin kəsirini daha da artırmışdı, dövlətin mədaxili isə istehsaldakı durğunluq, istehlak və idxalın azalması nəticəsində get-gedə azalırdı. Kavenyak və Milli məclis bu vəziyyətdən çıxmaq çarəsini ancaq yeni borcda axtara bilərdilər ki, bu da onların üzərində maliyyə aristokratiyasının boyunduruğunu daha da ağırlaşdırırdı.

İyun qələbəsi nəticəsində xırda burjuaziya ancaq iflas etmiş və var-yoxu müzaidə ilə satılmışdısa, Kavenyakın yeniçəriləri olan çevik qvardiya öz mükafatını əxlaqsız qadınların zərif sinəsində və «abırlı» respublikanın həm qonaqpərvər ev sahibi, həm də mədhiyyəçisi rolunu oynayan Marrastın, bu üçrəngli bayraq cəngavərinin salonlarında «cəmiyyətin gənc xilaskarları» üçün ucalan alqışlarda almışdı. Lakin cəmiyyətin çevik qvardiyaçılara verdiyi bu üstünlük və onlara verilən son dərəcə yüksək maaş ordunu qəzəbləndirirdi; eyni zamanda burjua respublikaçılığının öz «National» qəzeti vasitəsi ilə Lui-Filipp zamanı ordunun və kəndlilərin bir hissəsini öz tərəfinə çəkmək üçün yaya bildiyi milli xülyaların hamısı yox olmuşdu. İngiltərə ilə əlbir olub Şimali İtaliyanı Avstriyaya verərkən Kavenyakın və Milli məclisin oynadığı vasitəçilik rolu,–bu bir günlük hakimiyyət, «National»ın 18 illik müxalifətinin nəticələrini məhv etmiş oldu. Heç bir hökumət «National» hökuməti qədər az milli olmamış, heç bir hökumət İngiltərədən bu dərəcədə asılı olmamışdı, halbuki Lui-Filipp zamanı «National» Katonun «Carthaginem esse delendam» (Karfagen

dağıdılmalıdır. Red.) sözlərini hər gün başqa bir tərzdə ifadə etməklə yaşayırdı; heç bir hökumət Müqəddəs ittifaq qarşısında bu qədər alçaqlıqla sürünməmişdi, halbuki «National» Gizo kimi bir adamdan Vyana müahidələrinin ləğv olunmasını tələb edirdi. Tarix işi elə qəribə gətirdi ki, «National»ın xarici xəbərlər şö`bəsinin keçmiş redaktoru Bastid Fransanın xarici işlər naziri oldu ki, özünün hər bir məqaləsini özünün hər bir teleqramı ilə təkzib edə bilsin.

Ordu və kəndlilər bir an inanırdılar ki, hərbi diktatura xarici müharibə və «şöhrət» məsələsini vacib bir məsələ kimi Fransanın qarşısına qoyar. Lakin Kavenyak burjua cəmiyyəti üzərində qılınc diktaturasını deyil, qılınc gücünə qurulan burjua diktaturasını təcəssüm etdirirdi. Əsgər indi ancaq jandarm rolunu oynamaq üçün lazım idi. Kavenyak öz burjua vəzifəsinin alçaldıcı şərtlərinə bayağı bir şəkildə tabe olduğunu köhnə respublikaçı təvazökarlığı maskası altında gizlədirdi. «L`argent n`a pas de maitre!» Pul öz ağasını tanımır! Kavenyak və Müəssislər məclisi üçüncü silkin bu köhnə şüarını ideallaşdırır və siyasət dilinə çevirib belə deyirdilər: burjuaziya kral tanımır, onun əsil hökmranlıq forması respublikadır.

Milli müəssislər məclisinin «böyük üzvi işi» bu formanı hazırlamaqdan, respublika konstitusiyasını tərtib etməkdən ibarət olmalı idi. Xristian təqviminin adını dəyişdirib respublika təqvimi qoymaq və müqəddəs Varfolomeyin adını dəyişdirib müqəddəs Robespyer qoymaqla hava dəyişməyəcəyi kimi, bu konstitusiya da burjua cəmiyyətini dəyişdirmədi və dəyişdirə bilməzdi. İş gedib libas dəyişməkdən daha uzaqlara çatanda konstitusiya artıq mövcud faktları sadəcə protokola keçirirdi. Beləliklə, konstitusiya respublikanın qurulduğu faktını, ümumi seçki hüququ faktını, hüququ məhdud olan iki konstitusiyalı palata əvəzinə vahid suveren Milli məclisin təşkili faktını təntənəli surətdə qeyd etmiş oldu. Beləliklə, konstitusiya daimi, qeyri-məs`ul və irsi kral hakimiyyətini keçici, məs`ul və seçilən kral hakimiyyəti ilə, yə`ni dörd ilə seçilən prezidentliklə əvəz edərək Kavenyakın diktaturası faktını qeyd etdi və qanun şəklinə saldı. Sonra konstitusiya, 15 may və 25 iyun dəhşətlərindən sonra Milli məclisin öz əmniyyətini nəzərdə tutaraq ehtiyatlı olub Məclis sədrinə verdiyi fövqəl`adə ixtiyarı əsas qanun şəklinə salmaqdan çəkinmədi.

Konstitusiyanın qalan hissəsi terminologiya məsələsindən ibarət idi. Köhnə monarxiya mexanizmi üzərindəki royalist nişanələri qoparılıb atıldı və bunların yerinə respublikaçılıq nişanələri vuruldu. «National»ın keçmiş baş

redaktoru, indi isə konstitusiyanın baş redaktoru Marrast, bu akademik vəzifənin öhdəsindən bacarıqla gəldi.
Müəssislər məclisi həmin Çili mə`murunu xatırladırdı ki, üstündə durduğu torpağı al-tüst edəcək bir vulkan püskürməsinin yaxınlaşdığını xəbər verən yeraltı gurultusu başladığı anda torpaq mülkiyyətini daha dürüst müəyyən etmək üçün torpağa mərz qoymağa hazırlaşırdı. Müəssislər məclisi burjua hökmranlığının respublika şəkli üçün nəzəri cəhətdən dəqiq ifadələr hazırladığı halda, həqiqətdə ancaq hər bir formulu inkar etmək, «sans phrase» (açıq-aşkar. Red.) zorakılıq, mühasirə vəziyyəti sayəsində davam gətirib qalırdı. Müəssislər məclisi konstitusiya hazırlamağa başlamazdan iki gün əvvəl mühasirə vəziyyətinin müddətini uzatdı. Qabaqlarda konstitusiyalar o zaman tərtib edilib qəbul olunurdu ki, ictimai çevriliş prosesində müvazinət əmələ gəlirdi, yeni sinfi münasibətlər sabitləşməyə başlayırdı və hakim sinfin bir-biri ilə mübarizə edən fraksiyaları güzəştli sazişə gəlirdilər və bu saziş onlara öz aralarında gedən mübarizəni davam etdirmək və eyni zamanda taqətdən düşmüş xalq kütləsini bu mübarizədən kənar etmək imkanı verirdi. Bu konstitusiya isə heç bir ictimai inqilabı təsdiq etmirdi; bu konstitusiya köhnə cəmiyyətin inqilab üzərindəki müvəqqəti qələbəsini təsdiq edirdi.
İyun günlərinə qədər tərtib edilən birinci konstitusiya layihəsində111 proletariatın inqilabi tələblərinin ilk biçimsiz ifadəsi olan «droit au travail» formulun, yə`ni əmək hüququnun adı hələ çəkilirdi. İndi isə bu formul dönüb «droit a l`assistance» (kömək almaq hüququ. Red.), ictimai xeyriyyətçilik hüququ şəklinə girmişdi,–lakin hansı bir müasir dövlət öz dilənçilərinə bu və ya başqa şəkildə yemək vermir? Burjua mə`nasında əmək hüququ mə`nasız bir şeydir, mö`minlərə yaraşan miskin bir arzudur, lakin əmək huququnun dalında kapital üzərində hökmranlıq, kapital üzərində hökmranlığın dalında isə istehsal vasitələrinin mənimsənilməsi, bunların birləşmiş fəhlə sinfinə tabe edilməsi, deməli, muzdlu əməyin, kapitalın və onların qarşılıqlı münasibətinin ləğv edilməsi gizlənir. «Əmək hüququnun» dalında iyun üsyanı dururdu. İnqilabçı proletariatı fe`lən «hors la loi», qanun xaricində qoyan Müəssislər məclisi onun formulunu konstitusiyadan, bu qanunlar qanunundan prinsipial surətdə çıxarıb atmalı və «əmək hüququna» lə`nət oxumalı idi. Lakin Müəssislər məclisi bununla kifayətlənmədi. Platon şairləri öz respublikasından qovduğu kimi, Müəssislər məclisi də mütərəqqi gəlir vergisini öz respublikasından

həmişəlik qovdu. Halbuki bu vergi, mövcud istehsal münasibətləri çərçivəsi daxilində böyük və ya kiçik miqyasda həyata keçirilə biləcək tam bir burjua tədbiri olmaqdan başqa, burjua cəmiyyətinin orta təbəqələrini «abırlı» respublikaya bağlamaq, dövlət borcunu azaltmaq və burjuaziyanın respublika əleyhinə olan əksəriyyətini dəf etmək üçün yeganə vasitə idi. Üçrəngli respublikaçılar «concordats a l`amiable» (xoşluqla bağlanan sazişlər. Red.) məsələsində fe`lən xırda burjuaziyanı iri burjuaziyaya qurban vermiş oldular. Onlar, mütərəqqi verginin qadağan edilməsini qanun şəklinə salmaqla bu tək faktı prinsip dərəcəsinə qaldırdılar. Onlar burjua islahatını proletar inqilabı ilə bir bərabərdə qoydular. Bundan sonra hansı sinif onların respublikası üçün dayaq olaraq qalırdı? İri burjuaziya. Lakin bu burjuaziyanın əksəriyyəti respublika əleyhinə idi. İri burjuaziya köhnə iqtisadi həyat şəraitini yenidən möhkəmləndirmək üçün «National» respublikaçılarından istifadə etdisə, digər tərəfdən, köhnə ictimai münasibətlərə uyğun siyasi formaları bərpa etmək üçün bu münasibətlərin möhkəmlənməsindən istifadə etməyə hazırlaşırdı. Artıq oktyabrın əvvəllərində Kavenyak, öz partiyasının beyinsiz puritanlarının qaldırdığı gurultu və hay-küyə baxmayaraq, Lui-Filippin keçmiş nazirlərindən Düfor və Vivyeni respublika nazirləri vəzifəsinə tə`yin etməli oldu.

Xırda burjuaziya ilə hər cür güzəştli sazişi rədd edən və yeni ictimai ünsürlərin heç birini yeni dövlət formasına bağlaya bilməyən üçrəngli konstitusiya, bunun müqabilində, köhnə quruluşun ən qatı və ən təəssübkeş müdafiəçisi olan korporasiyaya ən`ənəvi toxunulmazlıq hüququnu qaytarmağa tələsdi. Vaxtilə müvəqqəti hökumət hakimlərin dəyişilməzliyini ləğv etmək istədiyi halda, üçrəngli konstitusiya bu sistemi əsas qanun şəklinə saldı. Konstitusiyanın devirdiyi bir kral, qanuniliyin bu dəyişilməz inkvizitorları şəxsində min bir adla dirilmiş oldu.

Fransız mətbuatı c. Marrastın konstitusiyasındakı ziddiyyətləri, məsələn, Milli məclis ilə prezident kimi iki, suverenin eyni zamanda mövcud olduğunu və sair ziddiyyətləri hərtərəfli açıb göstərmişdir.

Lakin həmin konstitusiyanın başlıca ziddiyyəti bundan ibarətdir: bu konstitusiya ümumi seçki hüququ vasitəsi ilə məhz o siniflərə, yə`ni proletariata, kəndlilərə və xırda burjuaziyaya siyasi hakimiyyət verir ki, onların ictimai köləliyini əbədiləşdirməlidir. Köhnə ictimai hakimiyyətini təsdiq etdiyi sinfi, yə`ni burjuaziyanı isə bu hakimiyyətin siyasi tə`minatlarından məhrum edir. Konstitusiya burjuaziyanın siyasi

hökmranlığını demokratik çərçivəyə salmışdır ki, bu da addımbaşı burjuaziya əleyhdarlarının qələbəsinə kömək edir və burjua cəmiyyətinin əsaslarını təhlükə qarşısında qoyur. Konstitusiya bə`zilərindən tələb edir ki, onlar siyasi azadlıqdan ictimai azadlığa doğru irəli getməsinlər, digərlərindən isə tələb edir ki, ictimai restavrasiyadan siyasi restavrasiyaya doğru geri qayıtmasınlar.

Bu ziddiyyətlər burjua respublikaçılarını az düşündürürdü. Burjua respublikaçılarına daha ehtiyac olmadığından,–onlara isə yalnız köhnə cəmiyyətin inqilabçı proletariata qarşı mübarizəsində bu cəmiyyətin avanqardı kimi ehtiyac var idi,–öz qələbələrindən bir neçə həftə sonra onlar partiya vəziyyətindən çıxıb güruh halına endilər. Konstitusiya onlar üçün böyük bir intriqa idi. Konstitusiya, hər şeydən əvvəl onların güruhunun hökmranlığını bərqərar etməli idi. Prezident vəzifəsində Kavenyak qalmalı idi. Qanunverici məclis Konstituantanın davamından ibarət olmalı idi. Onlar xalq kütlələrinin siyasi hakimiyyətini əsli olmayan bir şeyə çevirmək ümidində idilər; hətta onlar əsli olmayan bu hakimiyyətlə asanlıqla oyun oynayıb burjuaziyanın əksəriyyətini daim qorxu altında saxlaya biləcəklərini, iyun günlərində olduğu kimi iki yoldan birini seçmək: ya «National» səltənətinə, ya da anarxiya səltənətinə razı olmaq təklifini burjuaziya qarşısında irəli sürə. biləcəklərini güman edirdilər.

Konstitusiya hazırlamaq üçün sentyabrın 4-də başlanan iş oktyabrın 23-də qurtardı. Sentyabrın 2-də Konstituanta, konstitusiyanı tamamlayacaq üzvi qanunlar nəşr olunanadək iclas etməyi qərara aldı. Buna baxmayaraq, Konstituanta öz yetirməsi olan prezidenti hələ dekabrın 10-dan, yə`ni öz ömrü başa çatmazdan xeyli əvvəl meydana çıxartmaq qərarına gəldi. Beləliklə, Konstituanta əmin idi ki, konstitusiyanın doğurduğu sün`i adamın (homunkulun) şəxsində öz anasının oğlunu alqışlayacaqdır. Ehtiyatlı olmaq üçün qərara alınmışdı ki, namizədlərdən heç biri iki milyon səs almazsa, seçki ixtiyarı millətdən Konstituantaya keçəcəkdir.

Bu əbəs ehtiyatkarlıq idi! Konstitusiyanın tətbiq edildiyi birinci gün, Konstituanta hökmranlığının son günü oldu. Onun ölümü haqqında hökm seçki qutusunun dibində idi. O, «öz anasının oğlunu» axtardığı halda, «öz əmisinin qardaşı oğlunu» tapdı. Saul-Kavenyak bir milyon, David-Napoleon isə altı milyon səs aldı. Saul-Kavenyak altı qat əzilmiş oldu112.

1848-ci il 10 dekabr günü kəndli üsyanı günü idi. Fransız kəndliləri üçün fevral yalnız bu gündən e`tibarən başlandı. Onların inqilabi hərəkata qədəm

qoyduqlarını ifadə edən yöndəmsiz və kələkbaz, hiyləgər və sadəlövh, biçimsiz və möhtəşəm simvol, hər hesabını yaxşı bilən mövhumat, gurultulu komediya, dahiyanə dərəcədə axmaq anaxronizm, ümumdünya tarixinin dəcəl zarafatı, mədəni zəka üçün anlaşılmaz bir ieroqlif,–bu simvolun üzərində mədəniyyət içərisində barbarlığın nümayəndəsi olan sinfin nişanələri var idi. Respublika öz varlığını vergi toplayan şəxsin sifətində ona bildirmişdi, o isə öz varlığını respublikaya imperator sifətində bildirdi. Napoleon, 1789-cu ildə yenicə əmələ gələn kəndli sinfinin mənafeyi və xəyallarını tamamilə ifadə edən yeganə bir adam idi. Kəndlilər onun adını respublikanın ön divarında yazmaqla xarici dövlətlərə müharibə və ölkə daxilində öz sinfi mənafeləri uğrunda mübarizə e`lan etdilər. Nanoleon kəndlilər üçün şəxsiyyət deyil, bir proqram idi. Onlar əllərində bayraq və musiqi çala-çala seçki qutularının yanına gedərək ucadan deyirdilər: «Plus d`impots, a bas les riches, a bas la republique vive I`Empereur!»–«Rədd olsun vergilər, rədd olsun varlılar, rədd olsun respublika, yaşasın imperator!». İmperatorun arxasında kəndli müharibəsi gizlənirdi. Onların səs vermədiyi respublika, varlılar respublikası idi.
10 dekabr günü mövcud hökuməti devirən kəndlilər üçün «coup d`etat» (dövlət çevrilişi. Red.) günü idi. Kəndlilər, Fransanın bir hökumətini əlindən alıb ona başqa bir hökumət verdikləri bu gündən e`tibarən gözlərini daim Parisə dikdilər. Onlar bir an üçün inqilabi dramda iştirak edən bir qüvvə kimi hərəkət etdilər və bundan sonra daha onlara passiv və fəaliyyətsiz xor rolunu ifa etdirmək olmazdı.
Qalan siniflər kəndlilərin seçki qələbəsini tamamlamağa yardım etdilər. Napoleonun seçilməsi proletariat üçün Kavenyakın işdən kənar edilməsi, Konstituantanın süqut etməsi, burjua respublikaçılığının sonu və iyun qələbəsinin ləğv edilməsi demək idi. Napoleonun seçilməsi xırda burjuaziya üçün borcluların kreditorlar üzərində qələbəsi demək idi. Napoleonun seçilməsi iri burjuaziyanın əksəriyyəti üçün o fraksiya ilə əlaqəni açıqdan-açığa kəsmək demək idi ki, bu əksəriyyət həmin fraksiyadan inqilab əleyhinə müvəqqəti istifadə etməyə məcbur idi və müvəqqəti xarakterdə olan şeyi konstitusiyada möhkəmləndirmək istəyən kimi ona ağır bir yük olmuşdu. Kavenyakın yerinə Napoleon–iri burjuaziyanın əksəriyyəti üçün respublika əvəzinə monarxiya demək idi, royalist restavrasiyasının başlanğıcı, Orlean hersoquna ehtiyatla meyl göstərmək, bənövşələr arasında gizlədilmiş zanbaq113 demək kdi.

Nəhayət, ordu Napoleonu seçməklə çevik qvardiya əleyhinə, dinclik idilliyası əleyhinə, müharibə lehinə səs vermiş oldu.
Beləliklə, «Neue Rheinische Zeitunq»un dediyi kimi, Fransanın ən dayaz adamı ən çoxtərəfli (Burada cinas var: «einfaltiq»–«dayaz», «veilfaltiq» isə «çoxtərəfli» deməkdir. Red.) əhəmiyyət qazandı114. O, məhz bir heç olduğuna görə, ancaq özündən başqa, hər şey ola bilərdi. Napoleonun adı müxtəlif siniflərin dillərində ən müxtəlif mə`na almışdısa, onların hamısı öz seçki bülletenində bu adla birlikdə aşağıdakı sözləri yazmışdı: «Rədd olsun «National» partiyası, rədd olsun Kavenyak, rədd olsun Konstituanta, rədd olsun burjua respublikası!». Nazir Düfor bunu Müəssislər məclisində açıqdan-açığa dedi «10 dekabr günü ikinci 24 fevral günüdür».
Xırda burjuaziya və proletariat, Kavenyakın əleyhinə səs vermək və bütün səsləri bir namizəd üzərində toplayıb Konstituantanı qəti qərar çıxarmaq imkanından məhrum etmək üçün Napoleonun lehinə «en blok» (hamılıqla. Red.) səs verdilər. Lakin bu siniflərin hər ikisinin qabaqcıl hissəsi öz namizədlərini irəli sürdü. Napoleonun adı burjua respublikasına qarşı birləşən bütün partiyalar üçün ümumi ad idi, Ledrü-Rollen və Raspayl isə xüsusi adlar idi, bunlardan birincisi–demokratik xırda burjuaziyanın, ikincisi isə inqilabçı proletariatın xüsusi adı idi. Proletarlar və bunların sosialist rəhbərləri hamıdan açıq e`lan etdilər ki, Raspaylın lehinə səs vermək yalnız nümayiş xarakteri daşıyırdı; bu səsvermə, ümumiyyətlə hər bir prezidentliyə qarşı, yə`ni konstitusiyanın özünə qarşı kütləvi protest idi; eyni zamanda bu səsvermə Ledrü-Rollen əleyhinə səs vermək demək idi; bu səsvermə proletariatın müstəqil siyasi partiya olaraq demokratik partiyadan ayrıldığını ifadə edən birinci tədbir idi. Demokratik partiya, yə`ni demokratik xırda burjuaziya və onun parlamentdəki nümayəndəsi olan Dağ isə, əksinə, Ledrü-Rollenin namizədliyinə, tam təntənəli ciddiyyətlə, özünü ələ salmağa adət etdiyi bir ciddiyyətlə yanaşdı. Yeri gəlmişkən demək lazımdır ki, onun bu hərəkəti proletariatla yanaşı müstəqil surətdə çıxış etmək üçün göstərilən son cəhd idi. Dekabrın 10-da yalnız respublikaçı burjuaziyanın partiyası deyil, demokratik xırda burjuaziya və onun Dağı da məğlub oldular.
İndi Fransanın Dağla bir sırada Napoleonu da var idi bu isə sübut edirdi ki, həm Dağ, həm də Napoleon, adlarını daşıdıqları böyük tarixi hadisələrin yalnız cansız karikaturaları idi. Dağ öz demaqoq ədaları və 1793-cü ildən əxz etdiyi ibarələri ilə köhnə Dağın gülünc təqlidi olduğu kimi, Lui-

Napoleon da öz imperator qartalı və üçguşəli papağı ilə köhnə Napoleonun miskin təqlidi idi. Beləliklə, həm 1793-cü il barəsindəki ən`ənəvi mövhumata, həm də Napoleon barəsindəkn ən`ənəvi mövhumata eyni zamanda nəhayət verilmiş oldu. İnqilab, ancaq özünə məxsus adı, orijinal adını aldığı zaman öz surətini tapıb inqilab oldu; bu isə ancaq yeni inqilabçı sinif, yə`ni sənaye proletariatı bir hakim kimi inqilabın birinci sırasına keçdiyi zaman mümkün oldu. Demək olar, kobud kəndli zarafatı köhnə inqilabla klassik müqayisəyə istehza ilə son qoyduğuna görədir ki, 10 dekabr günü Dağ partiyası üçün gözlənilməz bir hadisə olub onun fikrini çaşdırdı.

Dekabrın 20-də Kavenyak öz vəzifələrindən əl çəkdi və Müəssislər məclisi Lui-Napoleonu respublikanın prezidenti e`lan etdi. Müəssislər məclisi dekabrın 19-da, təkbaşına hakimiyyət başında durduğunun son günündə iyun üsyançıları üçün amnistiya təklifini rədd etdi. Müəssislər məclisinin 15000 üsyançını mühakiməsiz sürgünə məhkum edən 27 iyun tarixli dekretini ləğv etmək, iyun qırğınından boyun qaçırmaq demək deyildimi? Lui-Filippin son naziri olan Odilon Barro, Lui-Napoleonun birinci naziri oldu. Lui-Napoleon öz hökmranlığının başlanğıcını dekabrın 10-dan deyil, senatın 1804-cü il qərarından e`tibarən hesab etdiyi kimi, öz nazirliyinin başlanğıcını dekabrın 20-dən deyil, kralın 24 fevral tarixli dekretindən e`tibarən hesab edən adamı da özünə birinci nazir etdi. Lui-Filippin qanuni varisi olan Lui-Napoleon, hələ dünyaya gəlmədiyinə görə köhnəlməyə macal tapmayan köhnə nazirliyi saxlamaqla üsul-idarə dəyişikliyini yüngülləşdirdi.

Bu yolu seçməyi ona burjuaziyanın royalist fraksiyalarının rəhbərləri göstərmişdilər. Köhnə sülalə müxalifətinin «National» respublikaçılarına tərəf keçid pilləsi vəzifəsini şüursuz surətdə ifa edən başçısı, burjua respublikasından monarxiyaya doğru keçid pilləsi vəzifəsini tam şüurlu surətdə ifa etmək üçün daha münasib idi.

Odilon Barro, daim nazir vəzifəsini əldə etməyə müvəffəqiyyətsiz can atan və hələ özünü tamamilə rüsvay etməmiş yeganə köhnə müxalifət partiyasının rəhbəri idi. İnqilab, bütün köhnə müxalifət partiyalarını, sanki ona görə bir-birinin ardınca sür`ətlə dövlət zirvəsinə qaldırırdı ki, bu partiyalar öz köhnə ibarələrindən yalnız işdə deyil, sözdə də boyun qaçırmağa, əl çəkməyə məcbur olsunlar və nəhayət, xalq bunların hamısını ürək bulandıran bir horra kimi bir-birinə qatıb tarixin zibilliyinə tullasın.

Burjua liberalizminin təcəssümü olub öz daxili alçaqlığı və boşluğunu tam on səkkiz il zahiri lovğalıq pərdəsi altında gizlədə bilən Barro da xainliyin bütüm pillələrindən keçmişdi. hazırkı vəziyyətin tikanları ilə keçmişin şöhrəti arasındakı çox kəskin ziddiyyət onun özünü bə`zən qorxudurdusa, güzgüyə baxan kimi onun nazir iradəsi və özünə məftunluğu yenə də qayıdıb gəlirdi. Güzgüdə ona, həmişə paxıllığını elədiyi və onu daim məktəbli kimi danlayan Gizonun siması, lakin Odilonun Olimpiya sifətində görünürdü. Lakin o, özündə bircə şeyi–Midasın qulaqlarını115 görmürdü. 24 fevral Barrosu yalnız 20 dekabr Barrosunda özünü göstərdi orleanist və volterçi Barroya din işləri naziri sifəti ilə legitimist və yezuit Fallu qoşuldu. Bir neçə gündən sonra daxili işlər nazirliyi maltusçu Leon Foşeyə tapşırıldı. Hüquq, din, siyasi iqtisad! Barronun hökumətində bunların hamısı var idi və bundan əlavə, hökumət legitimistləri orleanistlərlə birləşdirmişdi. Yalnız bonapartist çatışmırdı. Bonapart hələ Napoleon rolunu oynamaq iddiasında olduğunu gizlədirdi, çünki Suluk hələ Tussen-Luvertür rolunu oynamırdı.

«National» partiyası, ələ keçirə bildiyi bütün ali vəzifələrdən dərhal kənar edildi. Polis idarəsi, poçta müdiriyyəti, baş prokurorluq, Paris bələdiyyə idarəsi–bütün bunlar monarxiyanın köhnə adamlarının əlinə keçdi. Legitimist Şanqarnye Sena departamentindəki milli qvardiya ilə çevik qvardiya və birinci ordu diviziyası nizami qoşunlarının komandanlığını öz əlində birləşdirdi; orleanist Büjo Alp ordusu komandanı tə`yin edildi. Vəzifəli şəxslərin bu cür dəyişdirilməsi Barro hökuməti zamanı arası kəsilmədən davam edirdi. Onun hökumətinin birinci işi köhnə royalist idarələrini bərpa etməkdən ibarət oldu. Bütün rəsmi səhnə–pərdə arxası, geyim, dil, aktyorlar, fiqurantlar, statistlər, suflyorlar, partiyaların mövqeyi, dramın hərəkətverici qüvvələri, toqquşmaların mahiyyəti, bütün şərait bir anda dəyişildi. Yalnız Nuh əyyamından qalma Müəssislər məclisi hələ öz yerində qalırdı. Lakin Milli məclis Bonapartı, Bonapart Barronu, Barro isə Şanqarnyeni vəzifəyə tə`yin etdiyi zamandan e`tibarən Fransa respublika tə`sis etmək dövründən tə`sis edilmiş respublika dövrünə keçdi. Artıq tə`sis edilmiş respublikada bu Müəssislər məclisi nəyə lazım idi? Dünya yaradılandan sonra onu yaradanın qaçıb göyə çəkilməkdən başqa çarəsi qalmamışdı. Müəssislər məclisi isə onun yolu ilə getməməyi qəti qərara almışdı. Milli məclis burjua respublikaçıları partiyasının son sığınacağı idi. Bütün icraiyyə hakimiyyəti vasitələri onun əlindən alınmış olsa da,

müəssislik hakimnyyəti qüdrəti əlində qalmamışdımı? Onun birinci niyyəti, öz hakimlik vəzifəsini nə olursa-olsun əldə saxlamaq və itirdiyi mövqeləri onun köməyi ilə geri almaq idi. Belə güman edilirdi ki, Barro hökumətini yıxıb, «National» hökuməti ilə əvəz edən kimi, royalist mə`murlar dərhal idarə yerlərini təmizləməli, üçrəngli idarə işçiləri isə təntənə ilə geri qayıdacaqlar. Milli məclis hökuməti yıxmaq qərarına gəldi və hökumət özü hücum üçün ona elə bir fürsət verdi ki, Məclis bundan yaxşı fürsəti ağlına belə gətirə bilməzdi.

Yadımıza salaq ki, Lui Bonapart kəndlilər üçün rədd olsun vergilər! demək idi. Bonapart altı gün prezident kürsüsündə oturdu, yeddinci gün, dekabrın 27-də isə onun hökuməti müvəqqəti hökumətin dekreti ilə ləğv edilən duz vergisini saxlamağı təklif etdi. Şərab vergisi ilə birlikdə duz vergisi, xüsusən kənd əhalisinin nəzərində Fransanın köhnə maliyyə sisteminin günahlarını yumaq imtiyazına şərik idi. Barro hökuməti, kəndli nümayəndəsinə öz seçicilərinə deyilmək üçün duz vergisini bərpa etmzk sözlərindən daha acı bir həcviyyə söyləyə bilməzdi. Bonapart duz vergisi ilə öz inqilabi duzunu itirmiş oldu,–kəndli üsyanının Napoleonu dumanlı bir xəyal kimi dağıldı və ondan ancaq royalist-burjua intriqasının sirli siması qaldı. Barro hökuməti xam xəyalları kobud surətdə pozan bu nəzakətsiz tədbiri prezidentin birinci hökumət tədbiri edəndə, bunu qərəzsiz etməmişdi.

Konstituanta da öz tərəfindən, eyni zamanda həm hökuməti yıxmaq, həm də kəndli mənafeyinin müdafiəçisi rolunda kəndli nümayəndəsinə qarşı çıxmaq imkanından sevnnclə yapışdı. Maliyyə nazirinin təklifini rədd edən Konstituanta duz vergisini əvvəlki məbləğinin üçdə birinə endirməklə 560 milyonluq dövlət kəsirini 60 milyon artırdı və bu e`timadsızlıq qərarından sonra hökumətin iste`fasını sakitcə gözləməyə başladı. Bir görün, Konstituanta öz ətrafındakı yeni aləmi və özünün dəyişilmiş vəziyyətini nə qədər az dərk etmişdi! Hökumətin dalında prezident, prezidentin dalında isə altı milyon seçici dururdu ki, bunların da hər biri Konstituantaya e`timadsızlıq qərarını seçki qutusuna salmışdı. Konstituanta bu e`timadsızlıq qərarını millətə qaytardı. Nə gülünc bir mübadilə! Konstituanta unutmuşdu ki, onun bu qərarları icbari məzənnəsini itirmişdir. Konstituanta duz vergisini rədd etməklə, Konstituantanın «işini bitirmək» haqqında Bonapartın və nazirlərinin qərarını ancaq möhkəmləndirmiş oldu. Onun varlığının bütün ikinci yarısında davam edən uzunmüddətli təkbətək

vuruşma başlandı. 29 yanvar, 21 mart və 8 may bu böhranın «journees», qəti günləri idi, 13 iyunun müjdəçisi idi.
Fransızlar,–məsələn, Lui Blan,–belə hesab edirdilər ki, 29 yanvar günü, ümumi seçki hüququnun yaratdığı və dağıdıla bilməz suveren Milli məclis ilə ancaq quru kağızda Məclis qarşısında məs`ul olan, həqiqətdə isə Məclis kimi ümumi səsvermə yolu ilə təsdiq edilən, hətta daha artıq: Milli məclisin ayrı-ayrı üzvləri arasında bölüşdürülən və yüz dəfələrlə xırdalanan bütün səsləri təkcə öz şəxsində birləşdirən prezident arasındakı konstitusiya ziddiyyətinin təzahürüdür; həm də bütün icraiyyə hakimiyyəti prezidentin əlindədir və Milli məclis bu hakimiyyət üzərində ancaq mə`nəvi bir qüvvə kimi durur. 29 yanvar hadisələrinin bu cür təfsiri parlamentdə, mətbuatda, klublarda gedən mübarizənin şifahi ifadəsini onun həqiqi məzmunu ilə qarışdırır. Lui Bonapart və Milli müəssislər məclisi heç də eyni bir konstitusiyalı hakimiyyətin bir-birinə qarşı duran ayrı-ayrı birtərəfli orqanları deyildi. Bonapart qanunverici hakimiyyətə qarşı duran icra hakimiyyəti deyildi. Bonapart özü tə`sis edilmiş burjua respublikası idi, bu respublika onu tə`sis edən alətlərə qarşı dururdu, burjuaziyanın inqilabçı fraksiyasının şöhrətpərəstlik intriqalarına və ideologiya tələblərinə qarşı dururdu; respublikanı tə`sis edən bu fraksiya indi, öz əli ilə qurduğu respublikanın lap bərpa edilmiş monarxiyaya bənzədiyini təəccüblə görürdü və indi tə`sis dövrünü onun xüsusi şərtləri ilə birlikdə, onun xam xəyalları, onun dili və iştirakçıları ilə birlikdə zorla uzatmaq və artıq yetişmiş olan burjua respublikasının tamamilə bitkin və xarakterik şəklində təzahür etməsinə mane olmaq istəyirdi. Milli müəssislər məclisi yenidən onun mühitinə yıxılan Kavenyakı təmsil etdiyi kimi, Bonapart da ondan hələ ayrılmayan Qanunverici milli məclisin, yə`ni artıq tə`sis edilmiş burjua respublikası Milli məclisinin təmsilçisi kimi hərəkət edirdi. Bonapartın seçilməsi yalnız, bir adın yerinə onun çoxmə`nalı ifadələri qoyulandan sonra, bu seçilmə yalnız yeni Milli məclis seçkisində təkrar ediləndən sonra mə`na qazana bilərdi. Köhnənin mandatı dekabrın 10-da ləğv olundu. Beləliklə, yanvarın 29-da eyni bir respublikanın prezidenti və Milli məclisi deyil, bir tərəfdən, qərarlaşmaqda olan respublikanın Milli məclisi, digər tərəfdən isə, artıq qərarlaşmış respublikanın prezidenti, yə`ni respublikanın həyat prosesində iki tamamilə müxtəlif dövrü təcəssüm etdirən iki hakimiyyət toqquşmuşdu. Cəbhələrdən birində respublikaçı burjuaziyanın xırdaca fraksiyası dururdu, ancaq bu fraksiya respublika

e`lan edə bilər, küçə mübarizəsi və terror yolu ilə respublikanı inqilabçı proletariatın əlindən qoparıb ala bilər və bu respublikanın ideal xassələrini konstitusiyada qeyd edə bilərdi ikinci cəbhədə isə burjuaziyanın bütün royalist kütləsi dururdu, ancaq həmin kütlə artıq tə`sis edilmiş bu burjua respublikasında hökmranlıq edə bilər, konstitusiyanın ideoloji bəzəyini atıb proletariatı qul halına salmaq üçün lazım olan şəraiti həqiqətən öz qanunları və idarələrinin köməyi, ilə yarada bilərdi.
Yanvarın 29-da qopan tufan bütün ay ərzində hazırlanmışdı. Konstituanta Barro hökumətinə e`timadsızlıq göstərməklə, onu iste`fa verməyə məcbur etmək istəyirdi. Lakin buna cavab olaraq, Barro hökuməti, öz tərəfindən, Konstituantaya təklif etdi ki, özünə qəti e`timadsızlığını bildirsin, özünü intihara məhkum etsin, özünü dağıtması haqqında dekret versin. Ən əhəmiyyətsiz deputatlardan biri Rato hökumətin təhriki ilə bu təklifi yanvarın 6-da Konstituantaya təqdim etdi; həmin Konstituantaya təqdim etdi, ki, konstitusiyanı tamamlayan bir sıra üzvi qanunlar verməyincə özünü dağıtmayacağını hələ avqust ayında qərara almışdı. Hökumət tərəfdarı Fuld, Konstituantaya açıqca dedi ki, onun dağıdılması «sarsılmış e`tibarı bərpa etmək üçün» zəruridir. Doğrudan da, Konstituanta, müvəqqəti vəziyyəti uzatmaq və Barronun şəxsində Bonapartı, Bonapartın şəxsində isə tə`sis edilmiş respublikanı yenidən şübhə altına almaqla onun e`tibarına balta vurmurdumu? Olimpiyalı Barro, bir dəfə respublikaçıların onu tam bir «desennium», yə`ni on ay gözləməyə məcbur etdiklərini və, nəhayət, ələ keçirdiyi baş nazir vəzifəsindən ikicə həftə də olsa həzz almaq imkanı vermədən bu vəzifəni onun əlindən yenə də almaq istədiklərini düşünürkən qəzəbli Orlandoya dönmüşdü. Odur ki, Barro bu miskin Məclislə rəftarında müstəbidlikdə müstəbidin özünü də ötub keçdi. Onun ən yumşaq sözü bu idi: «Onunla heç bir gələcək qurmaq mümkün deyil». Doğrudan da, Məclis indi ancaq keçmişi təmsil edirdi. Barro istehza ilə əlavə edib deyirdi: «Məclis respublikanı möhkəmləndirmək üçün lazım olan idarələri qurmağa qadir deyildir». Doğrudan da belə idi! Məclisin proletariata qarşı müstəsna antaqonizmi ilə birlikdə onun burjua enerjisi də sarsılmış, royalistlərə qarşı antaqonizmi ilə birlikdə isə onun respublikaçı coşqunluğu yenidən canlanmışdı. Beləliklə, Məclis daha anlamadığı burjua respublikasını müvafiq idarələrlə möhkəmlətməyə iki qat aciz idi.
Ratonun təklifinin köməyi ilə hökumət bütün ölkədə kollektiv ərizələr tufanı qaldırmışdı; hər gün Fransanın hər tərəfindən Konstituantanın başına

taylarla «billets-doux» (eşqnamələr. Red.) yağdırılırdı və bunları yazanlar özünü dağıtmasını və vəsiyyətnaməsini yazmasını az-çox qəti bir şəkildə ondan xahiş edirdilər. Konstituanta da öz tərəfindən buna əks olan ərizələr yazdırmışdı və bunları yazanlar Konstituantanın diri qalmasını ondan tələb edirdilər. Napoleon ilə Kavenyak arasındakı seçki mübarizəsi, Milli məclisi dağıtmaq lehinə və əleyhinə kollektiv ərizələr yazmaq vasitəsi ilə gedən mübarizə şəklində yenidən başlanmışdı. Bu kollektiv ərizələr 10 dekabr gününü əlavə olaraq təfsir etməli idi. Bu təşviqat yanvar ayının axırına qədər davam etdi.

Konstituanta prezidentlə olan münaqişəsində ümumi seçki hüququnun yetirməsi olduğuna istinad edə bilməzdi, çünki əleyhdarları ona qarşı məhz ümumi seçki hüququna istinad edirdilər. Konstituanta heç bir qanuni hakimiyyət orqanına istinad edə bilməzdi, çünki məsələ qanuni hakimiyyətə qarşı mübarizə üstündə idi. Konstituanta hələ yanvarın 6-sı və 26-da etmək istədiyi kimi, hökuməti e`timadsızlıq qərarları ilə devirə bilməzdi, çünki hökumətin heç Konstituantanın e`timadına ehtiyacı yox idi. Onun bircə çarəsi var idi: üsyan etmək. Milli qvardiyanın respublikaçı hissəsi, çevik qvardiya (bax: həmin cild, səh. 233–235. Red.) və inqilabçı proletariatın mərkəzləri olan klublar üsyanın döyüş qüvvəsini təşkil edirdi. İyuna qədər milli e`malatxanalar (bax: həmin cild, səh. 235–236 Red.) nqilabçı proletariatın mütəşəkkil döyüş qüvvəsi olduğu kimi, iyun günlərinin qəhrəmanları olan çevik qvardiyaçılar da dekabrda burjuaziyanın respublikaçı fraksiyasının mütəşəkkil döyüş qüvvəsini təşkil edirdilər. Konstituantanın İcraiyyə komissiyası, proletariatın Konstituanta üçün dözülməz tələblərinə son qoymaq qərarına gəlib milli e`malatxanalara kobudcasına hücum etdiyi kimi, Bonapartın hökuməti də burjuaziyanın respublikaçı fraksiyasının artıq dözülməz olan tələblərinə nəhayət vermək qərarına gəlib çevik qvardiyaya hücum etdi. Hökumət çevik qvardiyanı dağıtmaq qərarını verdi. Qvardiyanın yarısı işdən çıxarılıb küçəyə atıldı, o biri yarısı isə yeni bir təşkilat şəklini, demokratik təşkilat əvəzinə monarxist təşkilat şəklini aldı və maaşı nizami qoşuna verilən adi maaş dərəcəsinə endirildi. Çevik qvardiya iyun üsyançılarının vəziyyətinə düşdü və qəzetlərdə hər gün çevik qvardiyaçıların açıq tövbələri dərc olunmağa başlandı; çevik qvardiyaçılar bu tövbələrində iyundakı təqsirlərini boyunlarına alır və bağışlanmalarını proletariatdan xahiş edirdilər.

Bəs klublar? Müəssislər məclisi Barroya e`timadsızlıq göstərib onun şəxsində prezidentə, prezidentin şəxsində tə`sis edilmiş burjua respublikasına, bu respublikanın şəxsində isə ümumiyyətlə burjua respublikasına e`timadsızlıq göstərdiyi zamandan e`tibarən fevral respublikasının bütün tə`sisçi ünsürləri, mövcud respublikanı yıxıb onu zorla əvvəlki vəziyyətinə qaytarmaq, öz sinfi mənafeyini və prinsiplərini ifadə edəcək bir respublika şəklinə salmaq istəyən bütün partiyalar labüd olaraq Müəssislər məclisi ətrafında birləşdilər. Baş vermiş hadisələr sanki heç baş verməmişdi; inqilabi hərəkat zamanı büllurlaşan şeylər yenə də əriyib bir-birinə qarışdı yenə də srevral günlərinin qeyri-müəyyən respublikası uğrunda mübarizə qızışdı, həm də bu respublikanın çərçivəsini hər bir partiya öz bildiyi kimi müəyyən edirdi. Partiyalar, fevralın xam xəyallarına daha şərik olmadan bir an yenə öz köhnə fevral mövqelərini tutdular. «National»ın üçrəngli respublrkaçıları yenə «Reforme»nin demokratik respublikaçılarına arxalanmağa başladılar, yenə də onları təşəbbüsçü sifəti ilə parlament mübarizəsinin ön səhnəsinə çəkdilər. Demokratik respublikaçılar yenə sosialist respublikaçılara arxalanmağa başlayıb (yanvarın 27-dəki açıq manifest onların barışıb birləşdiyini xəbər verdi) öz silahlı üsyanı üçün klublarda zəmin hazırlayırdılar. Hökumət mətbuatı haqlı olaraq «National»ın üçrənglirespublikaçılarını yenidən dirilmiş iyun üsyançıları hesab etdi. Onlar burjua respublikasının başında qala bilmək üçün burjua respublikasının özünü şüqhə altında qoydular. Yanvarın 26-da nazir Foşe ittifaqların hüququ haqqında bir qanun təqdim etdi bu qanunun birinci paraqrafında deyilirdi: «Klublar qadağan edilir». Foşe bu qanun layihəsini, tə`xirəsalınmaz bir şey kimi dərhal müzakirə etməyə başlamağı təklif etdi. Konstituanta, məsələnin tə`xirəsalınmaz olduğu fikrini rədd etdi, yanvarın 27-də isə Ledrü-Rollen, konstitusiyanı pozduğu üçün hökuməti məhkəməyə vermək haqqında 230 deputatın imzaladığı bir təklif təqdim etdi. Belə bir vaxtda hökuməti məhkəməyə vermək ya hakimin, yə`ni palata əksəriyyətinin acizliyini nəzakətsiz surətdə aşkara çıxarmaq, ya da ittihamçının bu əksəriyyətə qarşı aciz protesti demək idi–bu cür hərəkət, o vaxtdan bəri böhranın hər bir qəti zamanında tör-töküntü Dağın işə saldığı böyük bir inqilabi vasitə olmuşdu. Öz adının ağırlığı altında əzilən yazıq Dağ!

Blanki, Barbes, Raspayl və başqaları mayın 15-də Paris proletariatının başında Müəssislər məclisinin iclas salonuna soxulub onu qovmağa cəhd

etmişdilər. Barro da həmin Məclis üçün 15 may gününün mə`nəvi təkrarını hazırlayaraq, Məclisin öz-özünü dağıtmasını ona əmr etmək və onun iclas salonunu bağlamaq niyyətində idi. Həmin Məclis may hadisələrinin müqəssirlərinə qarşı istintaqa başlamağı vaxtında Barroya tapşırmışdı; indi Barro Məclisə qarşı royalist Blanki rolunu oynamağa və Məclis də Barroya qarşı klublarda, inqilabçı proletariat arasında, Blankinin partiyası içərisində özünə müttəfiqlər axtarmağa başladığı zaman isə amansız Barro may əsirlərini andlı iclasçılar məhkəməsinin ixtiyarından çıxarıb «National» partiyasının icad etdiyi «haute cour»a–ali məhkəməyə verməyi təklif etməklə Məclisə işgəncə verməyə başlamışdı. Çox qəribədir ki, nazirlik vəzifəsini əldən çıxarmaq qorxusu üzündən bizim Barronun beynində Bomarşeyə layiq misilsiz iti fikirlər əmələ gəlmişdi! Uzun tərəddüddən sonra Milli məclis Barronun təklifini qəbul etdi. Məclisin may üsyançıları ilə rəftarı yenə öz normal xarakterini almış oldu.

Konstituanta prezidentə və nazirlərə qarşı mübarizədə üsyan yolunu tutmağa məcbur olurdusa, prezident və nazirlər Konstituantaya qarşı mübarizədə dövlət çevrilişı yolunu tutmağa məcbur olurdular, çünki Konstituantanı dağıtmaq üçün onların əlində heç bir qanuni imkan yox idi. Lakin Konstituanta konstitusiyanın anası, konstitusiya isə prezidentin anası idi. Prezident dövlət çevrilişi yolu ilə konstitusiyanı, bununla birlikdə isə özünün respublikaya məxsus hüquqi əsasını ləğv edirdi. Onda prezidentə təkcə bu çarə qalırdı ki, öz imperator hüquqlarını irəli sürsün lakin imperator hüquqları orleanist hüquqlarının canlanmasına səbəb olurdu, bunların hər ikisi isə legitimist hüquqları qarşısında solğun görünürdü. Qanuni respublikanın süqutu yalnız öz əksinin qələbəsinə, legitim monarxiyasının qələbəsinə səbəb ola bilərdi, çünki o zaman orleanistlər ancaq fevral günlərinin məğlubu idilər, Bonapart isə ancaq 10 dekabr qalibi idi və hər iki partiya respublika qəsbkarlığına yalnız özlərinin monarxiyadan eyni ilə qəsb olunmuş hüquqlarını qarşı qoya bilərdilər. Legitimistlər başa düşürdülər ki, vəziyyət onlar üçün əlverişlidir, budur ki, onlar günün günorta çağında gizli fəaliyyət göstərirdilər. Onlar ümid edə bilərdilər ki, general Şanqarnye onlar üçün bir Monk olacaqdır. Qırmızı respublikanın yaxınlaşdığı proletar klublarında açıqdan-açığa xəbər verildiyi kimi, legitimistlərin klublarında da ağ monarxiyanın yaxınlaşdığı açıqdan-açığa xəbər verilirdi.

Müvəffəqiyyətlə yatırılan üsyan hökuməti bütün çətinliklərdən xilas edə bilərdi. Odilon Barro «Qanunilik bizi öldürür!» demişdi. Üsyan «salut publik» (ictimai nicat. Red.) bəhanəsi ilə Konstituantanı dağıtmağa və konstitusiya xatiri üçün konstitusiyanı pozmağa imkan verərdi. Odilon Barronun Milli məclisdəki kobud çıxışı, klubları bağlamaq təklifi, 50 nəfər üçrəngli bələdiyyə rəisinin iste`fa verməyə məcbur olmasının gurultu qoparması və onların royalistlərlə əvəz edilməsi, çevik qvardiyanın buraxılması, Şanqarnyenin bu qvardiya rəisləri ilə təhqiranə rəftarı, hələ Gizo zamanı dözülməz olan professor Lerminyenin yenə də kafedra başına qaytarılması, legitimistlərin hərəkətlərinə göz yumulması,–bunların hamısından məqsəd üsyana səbəb olmaq idi. Lakin üsyanın hələ səsi gəlmirdi. Üsyan, hökumətdən deyil, Konstituantadan siqnal gözləyirdi. Nəhayət, 29 yanvar günü, Ratonun təklifini sözsüz rədd etmək haqqında Matye de la Dromun irəli sürdüyü təklifin müzakirə ediləcəyi gün gəlib çatdı. Həmin gün legitimistlər, orleanistlər, bonapartistlər, çevik qvardiya, Dağ, klublar–hamı gizli fəaliyyət göstərirdi, öz xəyali düşməninə olduğu qədər öz xəyali müttəfiqinə qarşı da gizli fəaliyyət göstərirdi. Bonapart at belində Razılıq meydanında qoşun hissələrinə baxış keçirirdi. Şanqarnye zahiri tə`sir doğuran strateji manevrlər düzəltməklə artistlik edirdi. Konstituanta öz iclas binasının qoşun tərəfindən mühasirə edildiyini gördü. Bir-biri ilə çarpazlaşan ümidlər, qorxu, intizar, qaynaşma, gərginlik və qəsdlər mərkəzi olan şir kimi cəsarətli Məclis indiyədək görmədiyi dərəcədə ciddi və dünya miqyasında tarixi əhəmiyyəti olan belə bir anda bir dəqiqə də tərəddüd etmədi. Məclis nəinki öz silahını işə salmaqdan qorxan, hətta öz düşməninin silahını salamat saxlamağı özünə borc bilən bir mübariz kimi hərəkət etdi. Məclis ölümdən qorxmayaraq öz ölüm hökmünü imzaladı və Ratonun təklifini sözsüz rədd etməkdən imtina etdi. Mühasirə vəziyyətinə düşən Məclis öz müəssislik fəaliyyətinə həddqoydu ki, Parisin mühasirə vəziyyətində olması da bunun zəruri nəticəsi idi. Onun intiqamı özünə layiq idi: ertəsi gün Məclis yanvarın 29-da hökumətin Məclisi qorxuya salması münasibəti ilə istintaq tə`yin etdi. Bu böyük intriqalar komediyasında Dağ özündən bir carçı kimi lstifadə etmək imkanını «National» partiyasına verməklə inqilabi enerji və siyasi düşüncəsinin çatışmadığını göstərdi. «National» partiyası, respublika yarandığı dövrdə malik olduğu hakimiyyət inhisarını artıq tə`sis edilmiş

burjua respublikasında öz əlində saxlamaq üçün son təşəbbüs göstərdi. Lakin müvəffəqiyyətsizliyə uğradı.
Yanvar böhranında məsələ Konstituantanın varlığı üzərində idisə, 21 mart böhranında konstitusiyanın varlığı məsələsi irəli sürülmüşdü; birinci halda məsələ «National» partiyasının hey`əti üzərində idisə, ikinci halda məsələ onun idealı üzərində idi. Aydındır ki, «abırlı» respublikaçılar göylərdə pərvaz edən ideologiyalarını, yerdəki dövlət hakimiyyətinə malik olmaq haqqında ucuz satdılar.
Martın 21-də Milli məclisin gündəliyində Foşenin ittifaqlar hüququna qarşı olan qanun layihəsi: klubları zorla bağlamaq haqqındakı qanun layihəsi dururdu. Konstitusiyanın 8-ci maddəsi bütün fransızlara ittifaqlar hüququ tə`min edir. Deməli, klubların qadağan edilməsi konstitusiyanı açıqdan-açığa pozurdu və Konstituanta özü müqəddəs saydığı konstitusiyanın təhqir olunmasına icazə verməli idi. Lakin klublar inqilabçı proletariatın yığıncaq yeri, onun gizli fəaliyyət meydanı idi. Milli məclis özü fəhlələrin öz burjualarına qarşı ittifaq düzəltmələrini qadağan etmişdi. Lakin klublar bütün burjua sinfinə qarşı bütün fəhlə sinfinin ittifaqı deyildisə, bəs nə idi, burjua dövlətinə qarşı çevrilmiş xüsusi fəhlə dövləti təşkilatı deyildisə, bəs nə idi? Məgər bunlar hamısı proletariatın müəssis məclisləri və üsyan ordusunun vuruşmaya hazır olan dəstələri deyildi? Konstitusiya birinci növbədə burjuaziyanın hökmranlığını qərarlaşdırmalı idi; deməli, konstitusiya ittifaqlar hüququ dedikdə, görünür, yalnız burjuaziyanın hökmranlığı ilə, yə`ni burjua quruluşu ilə bir yerə sığa biləcək ittifaqların olmasını nəzərdə tuturdu. Konstitusiya nəzəri cəhətdən nəzakət qaydalarına əsaslanaraq ümumi formullarla kifayətlənmişdisə, bunu ayrı-ayrı hallarda şərh və tətbiq edəcək hökumət və Milli məclis yox idimi? Respublikanın ibtidai dövründə klublar mühasirə vəziyyəti nəticəsində fe`lən qadağan edilmişdisə, indi onları tə`sis edilmiş və nizama salınmış respublikada qanuna əsasən qadağan etmək olmazdımı!? Üçrəngli respublikaçılar konstitusiyaya belə bir bayağı mə`na verilməsinə qarşı ancaq konstitusiyanın təmtəraqlı ifadələrini irəli sürə bilərdilər. Onların bir hissəsi, Panyer, Dükler və başqaları hökumət lehinə səs verdilər və, beləliklə, ona çoxluq qazandırdılar. Mələk başçısı Kavenyak və kilsə atası Marrast başda olmaqla onların digər hissəsi isə klubların qadağan edilməsi haqqındakı maddə qəbul ediləndən sonra Ledrü-Rollen və Dağla birlikdə komissiyalardan birinin binasına çəkilib «məsləhətləşdi». Milli məclis

hərəkətdən düşmüşdü, çünki daha Məclisdə qərar qəbul etmək üçün qanunun tələb etdiyi qədər deputat yox idi. Bu zaman komissiya binasında oturan c. Kremye tam vaxtında xatırlatdı ki, buradan yol birbaşa küçəyə çıxır və indi 1848-ci ilin fevralı deyil, 1849-cu ilin martıdır. «National» partiyası birdən-birə ayılıb Milli məclisin iclas salonuna qayıtdı, yenidən ələ salınan Dağ da onun dalınca qayıtdı. İnqilabi gücənmələr Dağa daim əziyyət verirdi, lakin o eyni səbatla daim konstitusiyalı nəticə axtarırdı və inqilabçı proletariatın qabağında getməkdənsə, burjua respublikaçılarının arxasında gedəndə özünü həmişə daha yaxşı hiss edirdi. Bu komediya belə qurtardı. Konstituantanın özü qərar verdi ki, konstitusiyanın mətnini pozmaq, onun mahiyyətinə yeganə doğru mə`na vermək deməkdir.
Bir məsələ də həll olunmamış halda qalmışdı: tə`sis edilmiş respublikanın Avropa inqilabına münasibətini, onun xarici siyasətini müəyyən etmək lazım idi. 1849-cu il mayın 8-də, son günlərini keçirən Müəssislər məclisində qeyri-adi bir həyəcan hökm sürürdü. Gündəlikdə fransız ordusunun Romaya etdiyi basqın, bu ordunun romalılar tərəfindən dəf edilməsi, onun uğradığı siyasi rüsvayçılıq və hərbi müvəffəqiyyətsizliyi, Fransa respublikasının Roma respublikasını xaincəsinə öldürməsi, ikinci Bonapartın birinci İtaliya səfəri məsələsi dururdu. Dağ öz əsas vasitəsini bir daha işə saldı: Ledrü-Rollen konstitusiyanın pozulduğu haqqında hökumətə qarşı düzəldilən və bu dəfə Bonaparta qarşı da yönəldilən həmişəki ittihamnaməni sədrin masası üzərinə qoydu.
8 maydakı səbəb sonralar bir də 13 iyundakı səbəbdə təkrar olundu. Görək, bu Roma hərbi səfəri nə idi.
Kavenyak hələ 1848-ci il noyabrın ortalarında Çivita-Vekkiyaya hərbi donanma göndərmiş və ona papanı müdafiə etmək və gəmiyə mindirib Fransaya gətirmək tapşırığını vermişdi. Papa (IX Piy. Red.) «abırlı» respublikaya xeyir-dua verməli və Kavenyakın prezident seçilməsini tə`min etməli idi. Kavenyak papa ilə birlikdə keşişləri, keşişlərlə birlikdə kəndliləri, kəndlilərlə birlikdə isə prezidentliyi ələ keçirmək istəyirdi. Kavenyakın bu hərbi səfəri güdülən ən yaxın məqsəd e`tibarı ilə seçki reklamı və eyni zamanda Roma inqilabına qarşı protest və hədə idi. Bu hərbi səfərdə papanın xeyrinə Fransanın silahlı müdaxiləsinin rüşeymi var idi.
Avstriya və Neapol ilə ittifaqda papanın xeyrinə və Roma respublikası əleyhinə bu silahlı müdaxilə dekabrın 23-də Bonapartın nazirlər şurasının

birinci iclasında qərara alınmışdı. Fallunun hökumətdə olması papanın Romada, həm də papa Romasında olması demək idi. Bonapart, kəndlilərin prezidenti olmaq üçün daha papaya möhtac deyildi, lakin kəndliləri öz tərəfində saxlaya bilmək üçün papa hakimiyyətini mühafizə etməyə möhtac idi. Kəndlilərin hər şeyə tez inanmaları onu prezident etmişdi. Onlar dinlə birlikdə bu inamı, papa ilə birlikdə isə dinlərini itirirdilər. Bonapartın adı ilə hökmranlıq edən birləşmiş orleanistlərə və legitimistlərə gəldikdə isə, kralı bərpa etməzdən əvvəl, kralları təqdis edən hakimiyyəti bərpa etmək lazım idi. Onların royalizmi hələ bir yana dursun,–papanın dünyəvi hakimiyyətinə tabe edilən köhnə Roma olmazsa, papa da olmaz, papa olmazsa, katolisizm də olmaz, katolisizm olmazsa, fransız dini də olmaz; din olmazsa, bəs köhnə fransız cəmiyyəti nə olardı? Dinin kəndliyə göy ne`mətləri şəklində verdiyi hipotek burjuaların kəndli torpaqları üzərindəki hipoteki üçün bir tə`minatdır. Deməli, iyun inqilabı kimi, Roma inqilabı da mülkiyyətə, burjua qaydalarına eyni dərəcədə dəhşətli bir qəsd idi. Burjuaziyanın Fransada bərpa edilən hökmranlığı, Romada papa hakimiyyətinin bərpa olunmasını tələb edirdi. Nəhayət, Roma inqilabçılarının şəxsində fransız inqilabçılarının müttəfiqlərinə zərbə vurulurdu; tə`sis edilmiş Fransa respublikasında əksinqilabçı siniflərin ittifaqı, Fransa respublikası ilə Müqəddəs ittifaq arasında, Neapol və Avstriya arasında ittifaqla təbii surətdə tamamlanmışdı. Nazirlər şurasının 23 dekabr tarixli qərarı Konstituanta üçün bir sirr deyildi. Hələ yanvarın 8-də Ledrü-Rollen bu barədə hökumətə sorğu vermiş, hökumət bunu danmışdı və Məclis növbəti işlərə keçmişdi. Məclis hökumətin sözünə inanmışdımı? Biz bilirik ki, bütün yanvar ayı Məclisin iş-gücü hökumətə e`timadsızlığını bildirməkdən ibarət olmuşdu. Lakin yalan demək hökumətin roluna daxil idisə, respublikada zahiri nəzakəti gözləmək üçün bu yalana riyakarlıqla inanmaq da Məclisin roluna daxil idi.

Bu zaman Pyemont məğlub edilmiş, Karl-Albert taxtdan əl çəkmişdi, Avstriya ordusu Fransanın qapılarını kəsdirmişdi, Ledrü-Rollen qəti sorğu verdi. Lakin hökumət sübut etdi ki, Şimali İtaliyada yalnız Kavenyakın siyasətini davam etdirirdi, Kavenyak isə öz növbəsində müvəqqəti hökumətin, yə`ni Ledrü-Rollenin siyasətini davam etdirirdi, Bu dəfə hökumət Milli məclisin ona e`timad göstərməsi qərarına da nail oldu və Şimali İtaliyada münasib bir məntəqəni müvəqqəti olaraq tutmağa vəkil edildi, bu iş isə Sardiniya torpaqlarının bölünməzliyi və Roma məsələsi

haqqında Avstriya ilə sülh danışıqlarını möhkəmləndirməli idi. Mə`lumdur ki, İtaliyanın müqəddəratını Şimali İtaliyadakı vuruşmalar həll edir. Buna görə də ya Lombardiya və Pyemontun dalınca Romanın da süqut etməsinə yol verilməli, ya da Avstriyaya, onunla birlikdə isa Avropa əksinqilabına müharibə e`lan edilməli idi. Doğrudanmı, Milli məclis birdən-birə Barro hökumətini köhnə İctimai nicat komitəsi zənn etmişdi? Yaxud özünü Konvent zənn etmişdi? Belə olduqda, bəs fransız qoşunlarının Şimali İtaliyada bir məntəqə tutması nə üçün lazım idi? Roma hərbi səfəri bu nazik pərdə dalında gizlədilirdi.

Aprelin 14-də Udinonun komandası altında 14000 əsgər gəmi ilə Çivita-Vekkiyaya yola düşdü; silahlı müdaxilə üçün nəzərdə tutulmuş fransız eskadrasını Aralıq dənizi sularında üç ay hazır vəziyyətdə saxlamaq üçün aprelin 16-da Milli məclis hökumətə 1200000 frank kredit buraxılmasına səs verdi. Beləliklə, Milli məclis Romaya qarşı silahlı müdaxilə üçün bütün vasitələri hökumətin ixtiyarına vermişdi, ancaq özünü elə göstərirdi ki, guya hökuməti Avstriyaya qarşı hərəkət etməyə vadar edir. Milli məclis hökumətin nə etdiyini görmürdü, onun yalnız dediyinə qulaq asırdı. Belə bir inama heç İsraildə də rast gəlmək olmazdı. Müəssislər məclisi elə bir vəziyyətə düşmüşdü ki, tə`sis edilmiş respublikanın nə etməli olduğunu bilməyə cür`ət də etmirdi.

Nəhayət, mayın 8-də komediyanın son pərdəsi oynandı. Konstituanta İtaliya hərbi səfərini qarşısına qoyulan məqsədə qaytarmaq üçün hökumətdən təcili tədbirlər görülməsini tələb etdi. Bonapart həmin axşam «Moniteur»də bir məktub dərc etdirib Udinoya son dərəcə minnətdar olduğunu bildirdi. Mayın 11 də Milli məclis həmin Bonapartın özünə və onun nazirlərinə qarşı irəli sürülən ittihamnaməni rədd etdi. Dağ isə, bu yalan torunu cırmaq əvəzinə, özü Fukye-Tenvil rolunu oynamaq üçün parlament komediyasını faciəyə çevirdi, lakin Konventdən birovuz aldığı şir dərisi altından özünün xırda burjua dana dərisini göstərmiş oldu!

Konstituantanın ömrünün ikinci yarısı bundan ibarət idi: yanvarın 29-da bununla razılaşdı ki, burjuaziyanın tə`sis etdiyi respublikada onun royalist fraksiyaları təbii ağadırlar; martın 21-də bununla razılaşdı ki, konstitusiyanı pozmaq onu həyata keçirmək deməkdir; mayın 11-də isə bununla razılaşdı ki, Fransa respublikasının öz azadlığı uğrunda mübarizə edən Avropa xalqları ilə təmtəraqla e`lan edilən passiv ittifaqı, onun Avropa əksinqilabı ilə fəal ittifaqı deməkdir.

Bu miskin Məclis, səhnədən çəkilməzdən əvvəl, iyun üsyançıları üçün amnistiya e`lan etmək təklifini öz doğuluşunun ildönümünə ikicə gün qalmış, mayın 4-də rədd etməklə zövq aldı. Bütün ixtiyarını itirən, xalqın sonsuz nifrətini qazanan, burjuaziyanın əlində bir alət olub onun tərəfindən kobudcasına rədd edilən və həqarətlə bir kənara atılan, öz ömrünün ikinci yarısında onun birinci yarısından əl çəkməyə məcbur edilən, öz respublikaçı xam xəyallarından məhrum edilən, keçmişdə böyük xidmətləri və gələcək üçün ümidləri olmayan, diri ikən parça-parça çürüyən Müəssislər məclisi iyun qələbəsinin kabusunu daim gözü qabağına gətirməklə, bu qələbəni təkrar yada salmaqla, məhkum edilmiş olanları təkrar və təkrar məhkum etməklə və bu surətlə öz varlığına yəqinlik hasil etməklə yalnız öz cəsədini canlandıra bilirdi. İyun üsyançılarının qanını soran yırtıcı!
Müəssislər məclisi əvvəlki dövlət kəsirini qoyub getmişdi ki, bu kəsir də iyun günlərinin xərci, duz vergisinin ləğv edilməsi, zəncilərin köləliyini ləğv etmək müqabilində plantasiya sahiblərinə verdiyi pullar, Roma hərbi səfərinə çəkilən xərc və, nəhayət, şərab vergisinin aradan qaldırılması nəticəsində artmışdı; Müəssislər məclisi bu şərab vergisini öz xoşbəxt varisinin boynuna namusu ləkələyən bir borc yükləməklə kam alan qoca kişi kimi öz ölümündən lap bir az qabaq ləğv etmişdi.
Martın ilk günlərində Qanunverici milli məclisə seçki kampaniyası başlandı. Burada iki əsas qrup: Qayda-qanun partiyası116 ilə demokratik-sosialist partiyası, yaxud qırmızı partiya bir-birinə qarşı dururdu; onların arasında isə «konstitusiya dostları» adı altında özlərini xüsusi bir partiya kimi göstərmək istəyən üçrəngli «National» respublikaçıları dururdular. Qayda-qanun partiyası iyun günlərindən dərhal sonra əmələ gəlmişdi, lakin onun varlığının sirri yalnız dekabrın 10-dan sonra, yə`ni bu partiya burjua respublikaçıları olan «National» güruhu ilə əlaqəni kəsdikdən sonra meydana çıxdı və aydın oldu ki, bu partiya orleanistlərlə legitimistlərin bir partiya daxilindəki ittifaqından ibarətdir. Burjuaziya sinfi iki böyük fraksiyaya bölünmüşdü ki, bunlar da növbə ilə iri torpaq sahibləri– Restavrasiya117 dövründə, maliyyə aristokratiyası ilə sənaye burjuaziyası isə İyul monarxiyası dövründə təklikdə hakimiyyət başında durmuşdular. Bu fraksiyalardan birinin mənafe nüfuzu üstünlüyünün krallıq adı Burbon, digər fraksiyanın isə mənafe nüfuzu üstünlüyünün krallıq adı Orlean idi; bu fraksiyaların hər ikisi yalnız bir adsız respublika səltənətində, bərabər

əsaslarla hakimiyyət başında durmaq və eyni zamanda öz rəqabətlərini davam etdirməklə öz ümumi sinfi mənafeyini müdafiə edə bilərdi. Burjua respublikası bütün burjuaziya sinfi hökmranlığının xalis və bitkin formasından başqa bir şey ola bilməzdisə, onda legitimistlərlə tamamlanan orleanistlərin hökmranlığından və orleanistlərlə tamamlanan legitimistlərin hökmranlığından, Restavrasiya ilə İyul monarxiyasının sintezindən başqa nə ola bilərdi? «National»ın burjua respublikaçıları öz sinfinin iqtisadi zəminə əsaslanan iri fraksiyalarından heç birini təmsil etmirdilər. Onların əhəmiyyəti və tarixi vəzifəsi ancaq bundan ibarət idi ki, monarxiya dövründə hərəsinin yalnız öz xüsusi idarə üsulu olan hər iki burjua fraksiyasının əksinə olaraq, onlar burjuaziya sinfinin ümumi bir idarə üsulunu, adsız respublika səltənətini irəli sürüb, onu ideal hesab edir və antik dövrün naxışları ilə bəzəyirdilər, lakin bu səltənətdə hər şeydən əvvəl, əlbəttə, öz güruhlarının hökmranlığını alqışlayırdılar. Əgər «National» partiyası, qurduğu respublikanın başında birləşmiş royalistləri görəndə çaşıb qalmışdısa, royalistlər də özlərinin birgə hökmranlığı faktı barəsində eyni dərəcədə səhv fikirdə idilər. Onlar başa düşmürdülər ki, öz fraksiyalarından hər biri ayrılıqda royalist idisə, bunların kimyəvi birləşməsinin məhsulu hökmən respublikaçı olmalı idi; onlar başa düşmürdülər ki, ağ və mavi monarxiyalar üçrəngli respublikada bitərəf hala düşməli idi. Qayda-qanun partiyasının hər, iki fraksiyasının inqilabçı proletariatla və öz mərkəzi hesab etdiyi proletariata getdikcə daha çox meyl göstərən keçici siniflərlə antaqonizmi, bu fraksiyaları bütün birləşmiş qüvvəsini toplamağa və bu birləşmiş qüvvənin təşkilatını mühafizə etməyə məcbur etmişdi; bu fraksiyalardan hər biri, digərinin restavrasiya və müstəsna meyllərinə qarşı özlərinin birgə hökmranlığını, yə`ni burjuaziya hökmranlığının respublika formasını irəli sürməli idi. Buna görə də biz görürük ki, əvvəllər dərhal restavrasiya edilə biləcəyinə hələ inanan, sonralar isə ağızları köpüklənə-köpüklənə, dillərində lə`nət oxuya-oxuya respublika formasını mühafizə edən bu royalistlər, nəhayət, yalnız respublikada yola gedə biləcəklərini e`tiraf edir və restavrasiyanı qeyri-müəyyən bir vaxta tə`xirə salırlar. Birgə hökmranlıq bu fraksiyaların hər birini qüvvətləndirir və digərinə tabe olmaq, yə`ni monarxiyanı bərpa etmək qabiliyyəti və meylini azaldırdı.

Qayda-qanun partiyası öz seçki proqramında burjua sinfinin hökmranlığını, yə`ni onun hökmranlığının həyati şərtlərini; mülkiyyəti, ailəni, dini, qayda-

qanunu mühafizə edəcəyini açıqdan-açığa e`lan etdi! Əlbəttə, bu partiya burjuaziyanın sinfi hökmranlığını və bu sinfi hökmranlığın şərtlərini mədəniyyətin hökmranlığı kimi və maddi istehsalın, habelə bu maddi istehsaldan doğan ictimai tədavül münasibətlərinin zəruri şərtləri kimi qələmə verirdi. Qayda-qanun partiyasının çoxlu pul vəsaiti var idi, bu partiya bütün Fransada öz şö`bələrini təşkil etmişdi, bütün köhnə quruluş ideoloqlarına maaş verirdi, mövcud dövlət hakimiyyətinin bütün nüfuzundan istifadə edirdi və bütün xırda burjua ilə kəndli kütləsinin şəxsində itaətkar pulsuz qoşuna malik idi ki, bunlar da inqilabi hərəkatdan hələ uzaq durur və mülkiyyət maqnatlarını özlərinin xırda mülkiyyətinin və onun xırda yanlış fikirlərinin təbii müdafiəçiləri hesab edirdilər. Bütün ölkədə hədsiz-hesabsız xırda krallarla təmsil olunan Qayda-qanun partiyası, öz namizədlərini rədd edəcək hər kəsi qiyamçı kimi cəzalandıra bilər, qiyamçı fəhlələri, itaət etməyən muzdurları, ev xidmətçilərini, prikazçikləri, dəmiryol mə`murlarını, mirzələri, mülki həyatda ona tabe olan bütün qulluqçuları işdən çıxara bilərdi. Nəhayət, qayda-qanun partiyası bə`zi yerlərdə belə bir rəvayətin yayılmasına yardım edə bilərdi ki, guya respublikaçı Konstituanta, dekabrın 10-da seçilən Bonapartın öz mö`cüzəli qüvvəsini göstərməsinə mane olubmuş. Biz, qayda-qanun partiyasından danışarkən bonapartistləri nəzərdə tutmamışdıq. Onlar burjuaziya sinfinin ciddi fraksiyasını təşkil etməyib köhnə mövhumatçı əlillərlə e`tiqadsız gənc avantüristlərin qatışığı idilər. Qayda-qanun partiyası seçkidə qalib gəlib Qanunverici məclisdə çox böyük əksəriyyət qazandı.

Xırda burjuaziya və kəndlilərin bütün inqilabçılaşmış ünsürləri əksinqilabçı burjuaziyanın ittifaqı qarşısında, təbiidir ki, inqilabi mənafeyin əsas müdafiəçisi olan inqilabçı proletariatla birləşməli idilər. Biz gördük ki, parlament məğlubiyyətləri xırda burjuaziyanın pərlamentdəki demokratik nümayəndələrini, yə`ni Dağı proletariatın sosialist nümayəndələri ilə ittifaq bağlamağa sövq edirdi və «concordats a l`amiable»nin (xoşluqla bağlanan sazişlər. Red.) rədd edilməsi, burjua mənafeyinin kobudcasına müdafiə olunması və müflislik parlament xaricində əsl xırda burjuaziyanı əsl proletarlarla yaxınlaşmağa sövq edirdi. Yanvarın 27-də Dağ ilə sosialistlər barışmaları münasibəti ilə bayram etdilər; onlar birləşdiklərini 1849-cu ilin fevral ayında düzəldilən böyük ziyafətdə bir daha təsdiq etdilər. Sosial

partiya ilə demokratik partiya, fəhlə partiyası ilə xırda burjua partiyası sosialist-demokrat partiyasında, yə`ni qırmızı partiyada birləşdilər.
İyun günlərindən sonrakı cançəkişmə nəticəsində bir an hərəkətdən düşən Fransa respublikası, mühasirə vəzpyyətinin ləğv edildiyi zamandan, yə`ni oktyabrın 19-dan e`tibarən arasıkəsilməz titrətmələr keçirdi. Əvvəlcə prezidentlik üstündə mübarizə; sonra prezidentin Konstituanta ilə mübarizəsi; klublar üstündə mübarizə; Burj mühakiməsi118 ki, burada prezident, birləşmiş royalistlər, «abırlı» respublikaçılar, demokratik Dağ və proletariatın sosialist ehkamçıları kimi xırda şəxsiyyətlərə nisbətən əsl proletar inqilabçıları ən qədim dövr nəhənglərinə, yalnız Nuh tufanının cəmiyyət səthi üzərində buraxa biləcəyi, yaxud ictimai tufandan qabaq meydana gələ biləcək nəhənglərə bənzəyirdilər; seçkiqabağı təşviqatı; Brea qatillərinin e`damı119, mətbuat işlərinə dair arasıkəsilməz mühakimələr; hökumətin ziyafət məsələlərinə polis kimi zorakılıqla qarışması; royalistlərin həyasız fitnələri; Lui Blanın və Kossidyerin lə`nət dirəyindən asılan şəkilləri; Müəssislər məclisi ilə tə`sis edilmiş respublika arasında fasiləsiz davam edib hər dəfə inqilabı öz başlanğıc nöqtəsinə qaytaran, hər dəfə qalibi məğluba, məğlubu isə qalibə döndərən, partiya və siniflərin vəziyyətini, onların ayrılma və birləşməsini bir göz qırpımında dəyişdirən arasıkəsilməz mübarizə; Avropa əksinqilabının sür`ətli gedişi; macarların şanlı mübarizəsi; alman üsyanları Roma hərbi səfəri; fransız ordusunun Roma qapılarında biabırçı məğlubiyyəti,–bütün bu hərəkət tufanında, tarixin bu əziyyətli qaynaşması içərisində, inqilabi ehtirasların, ümid və mə`yusluqların bu dramatik qabarma və çəkilmələrində fransız cəmiyyətinin müxtəlif sinifləri öz inkişaflarının əvvəllər yarım əsrlərlə hesablanan dövrlərini həftə hesabı ilə ölçməli idilər. Kəndlilərin və əyalətlərin xeyli hissəsi inqilabçılaşmışdı. Onlar Napoleondan təkcə ümidlərini kəsməklə qalmırdılar,–qırmızılar partiyası onlara quru ad əvəzinə məzmun və`d edirdi, vergilərdən xəyali azadlıq əvəzinə–legitimistlərə verilmiş milyardı qaytarmaq, hipotekləri nizama salmaq və sələmçiliyi aradan qaldırmaq və`dini verirdi.
İnqilabi titrətmə hətta orduya da sirayət etmişdi. Ordu Bonaparta səs verəndə qalibiyyət üçün səs vermişdi, Bonapart isə orduya məğlubiyyət gətirdi. Ordu onun şəxsində, dalında inqilabın böyük sərkərdəsi gizlənən kiçik bir onbaşıya səs vermişdi. Bonapart isə, dalında adi bir onbaşı gizlənən təşəxxüslü generalları orduya qaytardı. Şübhəsiz, qırmızı partiya,

yə`ni birləşmiş demokratik partiya, qələbə olmasa da, hər halda böyük müvəffəqiyyətlər qazanmalı idi Paris, ordu, əyalətlərin xeyli hissəsi bu partiyaya səs verməli idi. Dağın rəhbəri Ledrü-Rollen beş departament tərəfindən secildi; qayda-qanun partiyasının heç bir rəhbəri, əsl fəhlə partiyası sıralarından heç kəs bu cür qələbə çalmamışdı. Onun seçilməsi demokratik-sosialist partiyasının sirrini bizə açır. Bir tərəfdən, demokratik xırda burjuaziyanın parlamentdəki avanqardı olan Dağ, proletriatın sosialist doktrinaçıları ilə birləşməyə məcbur idi, iyun ayında dəhşətli maddi məğlubiyyətə uğrayan proletariat isə yeni yüksəliş yollarını zehni qələbələrdə axtarmalı idi qalan siniflərin inkişafı hələ proletariata inqilabi diktaturanı ələ keçirmək imkanı vermədiyinə görə proletariat öz azadlığı doktrinaçılarının, sosialist təriqətləri banilərinin qucağına atılmalı idi. Digər tərəfdən, inqilabçı kəndlilər, ordu, əyalətlər Dağın tərəfinə keçdilər. Beləliklə, birləşmiş inqilabi qüvvələr üzərində komandanlıq Dağın əlinə keçdi, Dağın sosialistlərlə sazişi isə inqilabi cəbhədəki hər bir parçalanmanı aradan qaldırdı. Konstituantanın varlığının ikinci yarısında Dağ onun respublikaçı coşqunluğunu özündə təcəssüm etdirirdi və müvəqqəti hökumət, İcraiyyə komissiyası və iyun günləri dövründəki günahlarını unutmağa vadar etdi. «National» partiyası öz yarımçıq təbiətinə uyğun olaraq royalist hökumət tərəfindən əzilməsinə nə dərəcədə imkan verirdisə, «National» partiyasının qüdrətli olduğu dövrdə səhnədən kənar edilən Dağ partiyası indi eyni dərəcədə yüksəlir və inqilabın parlamentdəki nümayəndəsi əhəmiyyətini qazanırdı. Doqrudan da, «National» partiyası digər royalist fraksiyaların qarşısına şöhrətpərəst şəxsiyyətlərdən və idealist boşboğazlığından başqa heç bir şey qoya bilməzdi. Dağ partiyası isə, əksinə, burjuaziya ilə proletariat arasında tərəddüd edən kütləni təmsil edirdi ki, bu kütlənin də maddi mənafeyi demokratik tə`sisat tələb edirdi. Kavenyak ilə Marrasta qarşı mübarizədə Ledrü-Rollen və Dağ həqiqi inqilab zəmini üzərində dururdular və belə mühüm rol oynadıqlarını dərk etmələri onlara buna görə daha böyük cür`ət verirdi ki, onların inqilabi enerjisi özünü yalnız parlamentdəki çıxışlarda, ittihamnamələr tərtib etməkdə, hədə-qorxu gəlməkdə, səslərini ucaltmaqda, boş danışıqdan uzağa getməyən gurultulu nitqlər söyləməkdə və ifratçılıq etməkdə göstərirdi. Kəndlilər də təqribən xırda burjuaların vəziyyətində idilər, onların da ictimai tələbləri təqribən eyni idi. Buna görə, inqilabi hərəkat cəmiyyətin bütün orta təbəqələrini əhatə etmiş olduğundan, onlar

Ledrü-Rolleni özlərinin qəhrəmanı hesab etməli idilər. Ledrü-Rollen demokratik xırda burjuaziyanın əsas siması idi. Qayda-qanun partiyası ilə mübarizədə bu qayda-qanunun hər şeydən əvvəl yarımühafizəkar, yarıinqilabçı və bütünlüklə utopist islahatçıları birinci sıraya keçməli idilər. «National» partiyası, ««quand meme» (hər necə olsa, hökmən, heç bir şeyə baxmadan. Red.) konstitusiya dostları», «republicains purs et simples» (xalis respublikaçılar. Red.) seçkidə tamamilə məğlub edildilər. Qanunverici palataya onlardan çox az adam keçdi onların ən çox tanınmış rəhbərləri, o cümlədən hətta baş redaktor və «abırlı» respublikanın Orfeyi Marrast da səhnədən çəkildilər.

Mayın 28-də Qanunverici məclis açıldı, mayın 8-dəki toqquşma iyunun 11-də yenidən baş verdi. Ledrü-Rollen prezidenti və hökuməti konstitusiyanı pozmaqda, Romanı topa tutmaqda təqsirləndirən ittihamnaməni Dağın adından təqdim etdi. Mayın 11-də Müəssislər məclisi bu ittihamnaməni rədd etdiyi kimi, Qanunverici məclis də iyunun 12-də onu rədd etdi, lakin bu dəfə proletariat Dağı, doğrudur, küçə mübarizəsi üçün deyil, yalnız küçə nümayişi üçün küçəyə çıxmağa məcbur etdi. Bu hərəkatın yatırıldığını və 1849-cu il iyununun eyni dərəcədə gülünc və 1848-ci il iyununun eyni dərəcədə acınacaqlı təqlidi olduğunu bilməkdən ötrü bu hərəkatın başında Dağın durduğunu söyləmək kifayət edər. İyunun 13-dəki böyük geri çəkilmə qayda-qanun partiyasının böyük adamlar sırasına çıxardığı Şanqarnyenin vuruşma haqqında təqdim etdiyi daha böyük hesabatı olsa-olsa ancaq kölgədə buraxmışdı. Hər bir ictimai dövrün özünə məxsus böyük adamlara ehtiyacı vardır və belə adamlar olmayanda, Helvetsinin dediyi kimi, dövr özü bu adamları icad edir.

Dekabrın 20-də, tə`sis edilmiş burjua respublikasının yalnız birinci yarısı, yə`ni prezident var idi, mayın 28-də isə bu, ikinci yarısı ilə, yə`ni Qanunverici məclislə tamamlandı. Tə`sis edilməkdə olan burjua respublikası tarixin metrika dəftərində 1848-ci ilin iyununda proletariata ğarşı misilsiz vuruşma ilə qeyd edilmişdi; 1849-cu ilin iyununda isə tə`sis edilmiş burjua respublikası həmin dəftərdə xırda burjuaziya ilə oynadığı təsvirəgəlməz komediya ilə qeyd olundu. 1849-cu ilin iyunu 1848-ci ilin iyunu üçün qisas alan Nemezida idi. 1849-cu ilin iyununda məğlub olanlar fəhlələr deyildi; fəhlələrlə inqilab arasında duran xırda burjualar əzildilər. 1849-cu ilin iyunu muzdlu əməklə kapital arasında oynanılan qanlı faciə deyil, borclu ilə kreditor tərəfindən oynanılıb dustaqxana ilə nəticələnən

miskin bir pyes idi. Qayda-qanun partiyası qalib gəlib qüdrətli oldu,–indi bu partiya öz mahiyyətini köstərməli idi.

III 1849-cu İL 13 İYUNUN NƏTİCƏLƏRİ

Dekabrın 20-də konstitusiyalı respublikanın Yanus başı özünün yalnız bir üzünü, icraiyyə üzünü, Lui Bonapartın yayğın yastı üzünü göstərmişdi. 1849-cu il mayın 28-də isə o biri üzünü, Restavrasiya və İyul monarxiyası eyş-işrətlərindən qalma çapıqlarla dolu qanunverici üzünü göstərdi. Qanunverici milli məclis konstitusiyalı respublika yaratmaq, yə`ni dövlətin respublika formasını yaratmaq işinin başa çatdırılması demək idi, zira dövlətin bu forması burjua sinfinin hökmranlığını, deməli, fransız burjuaziyasını təşkil edən hər iki böyük royalist fraksiyanın, birləşmiş legitimistlər ilə orleanistlərin birgə hökmranlığını, qayda-qanun partiyasının hökmranlığını qərarlaşdırdı. Beləliklə, Fransa respublikası royalist partiyalar ittifaqının mülkiyyətinə çevrildiyi bir zamanda, əksinqilabçı dövlətlərin Avropa ittifaqı mart inqilablarının son sığınacaqlarına qarşı ümumi səlib müharibəsinə başladı. Rusiya Macarıstana soxuldu, Prussiya qoşunları imperiya konstitusiyası uğrunda vuruşan ordu üzərinə yeridi, Udino isə Romanı topa tutdu. Avropa böhranı açıqdan-açığa qəti dönüş nöqtəsinə yaxınlaşırdı, bütün Avropanın nəzəri Parisə, bütün Parisin nəzəri isə Qanunverici məclisə çevrilmişdi.

İyunun 11-də Ledrü-Rollen Qanunverici məclisin tribunasına qalxdı. O, nitq söyləmədi, ancaq nazirlərə qarşı irəli sürdüyü sadə, bəzəksiz, faktlara əsaslanan qısa və ağır ittihamı ifadə etdi.

Romaya hücum etmək konstitusiyaya hücum etmək deməkdir, Roma respublikasına hücum etmək Fransa respublikasına hücum etmək deməkdir. Konstitusiyanın V maddəsində deyilir «Fransa respublikası öz hərbi qüvvələrindən heç bir zaman hər hansı bir xalqın azadlığına qarşı istifadə etmir», halbuki prezident Fransa qoşunundan Romanın azadlığına qarşı istifadə edir. Konstitusiyanın 54-cü maddəsi, Milli məclisin (Burada və əsərin sonunadək hər yerdə Milli məclis deyiləndo 1849-cu il mayın 28-dən 1851-ci ilin dekabr ayınadək fəaliyyət göstərən Qanunverici milli məclis (Legislativa) nəzərdə tutulur. Red.) razılığı olmadan hər cür müharibə e`lan etməyi icraiyyə hakimiyyətinə qadağan edir. Konstituantanın 8 may tarixli qərarı Roma hərbi səfərini mümkün qədər tez bir zamanda ilk məqsədinə qaytarmağı nazirlərə qəti şəkildə əmr edir, deməli, bu qərar da Romaya qarşı müharibəni eyni qətiyyətlə qadağan

edir,–halbuki Udino Romanı topa tutur. Beləliklə, Ledrü-Rollen, konstitusiyanın özünü Bonaparta və onun nazirlərinə qarşı ittiham üçün şahid çəkdi. Konstitusiya tribunu Ledrü-Rollen Milli məclisin royalist əksəriyyətinə zəhmlə dedi: «Respublikaçılar hər vasitə ilə, hətta silah gücünə hamını məcbur edə bilərlər ki, konstitusiyaya hörmət edilsin!»– «Silah gücünə!»–sözünü Dağ yüz ağızdan təkrar etdi. Əksəriyyət buna böyük hay-küylə cavab verdi; Milli məclisin sədri Ledrü-Rolleni intizama də`vət etdi; Ledrü-Rollen özünün meydan oxuyan bəyanatını təkrar edib axırda Bonapartı və onun nazirlərini məhkəməyə vermək təklifini sədrin masası üzərinə qoydu. Milli məclis, Romanın topa tutulması məsələsində öz rə`yini 203 səsə qarşı 361 səs çoxluğu ilə bildirib sadəcə növbəti məsələlərə keçdi.

Doğrudandamı Ledrü-Rollen konstitusiyanın köməyi ilə Milli məclisə, Milli məclisin köməyi ilə isə prezidentə qalib gəlmək ümidində idi? Konstitusiya özgə xalqların azadlığına hər cür hücumu, əlbəttə, qadağan edirdi, lakin hökumətin dediyinə baxsan, fransız ordusu Romada «azadlığa» deyil, «anarxiya istibdadına» hücum edirmiş. Məgər Dağ, Müəssislər məclisində əldə etdiyi bütün təcrübəsinə baxmayaraq, hələ başa düşmürdümü ki, konstitusiyanı təfsir etmək, onu tərtib edənlərə deyil, yalnız onu qəbul edənlərə aid bir işdir? Məgər anlamamışdımı ki, konstitusiyanın mətninə onun yaşamaq qabiliyyəti nöqteyi-nəzərindən mə`na vermək lazımdır və konstitusiyanın burjua mə`nası yaşamaq qabiliyyəti nöqteyi-nəzərindən onun yeganə mə`nasıdır? Məgər anlamamışdımı ki, keşiş tövratın, hakim isə qanunun əsl təfsirçisi olduqları kimi, Bonapart və Milli məclisin royalist əksəriyyəti də konstitusiyanın əsl təfsirçisidirlər? Ümumi seçki qoynundan yenicə çıxan Milli məclis doğrudandamı belə hesab etməli idi ki, Odilon Barro kimi bir adam Konstituantanın hələ sağlığında onun iradəsini pozduğu halda, Milli məclis ölü Konstituantanın vəsiyyətinə əməl etməlidir? Məgər Ledrü-Rollen Konstituantanın 8 may tarixli qərarına əsaslanarkən unutmuşdumu ki, onun Bonapartı və nazirləri məhkəməyə vermək haqqındakı birinci təklifini məhz həmin Konstituanta mayın 11-də rədd etmiş, prezidenti və nazirləri təmizə çıxarmış, beləliklə də, Romanın topa tutulmasını «konstitusiyaya uyğun» bir tədbir kimi təsdiq etmişdi məgər unutmuşdumu ki, əslində o, yalnız çıxarılmış olan hökmdən şikayət edirdi, həm də respublikaçı Konstituantadan royalist Legislativaya şikayət edirdi? Konstitusiyanın özü

xüsusi bir maddədə hər bir vətəndaşı konstitusiyanı müdafiə etməyə çağırmaqla, üsyanı köməyə də`vət edir. Ledrü-Rollen bu maddəyə əsaslanırdı. Digər tərəfdən isə, Məgər dövlət orqanları konstitusiyanı müdafiə etmək üçün tə`sis edilməmişdi, Məgər konstitusiyanın pozulması ancaq konstitusiya əsasında yaradılan dövlət orqanlarından birinin digərinə qarşı üsyan etdiyi zamandan başlamır? halbuki respublikanın prezidenti, respublikanın nazirləri, respublikanın Milli məclisi öz aralarında ahəngdar razılıq içində idilər.
İyunun 11-də Dağın düzəltmək istədiyi şey «xalis zəka çərçivəsində olan üsyan» idi, yə`ni xalis parlament üsyanı idi. Dağ belə güman edirdi ki, Məclisin əksəriyyəti xalq kütlələrinin silahlı üsyana qalxa biləcəyindən qorxuya düşdüyündən Bonapartın və onun nazirlərinin şəxsində öz hakimiyyətini və özünün seçilməsinin əhəmiyyətini məhv edər. Məgər Konstituanta, Barro–Fallu hökumətinin iste`faya çıxmasında inadla israr etməklə, Bonapartın seçilməsini yenə də həmin yolla ləğv etməyə cəhd etməmişdi?
Məgər parlament üsyanları nəticəsində çoxluqla azlıq arasındakı müpasibotlərdə birdən-birə əsaslı çevriliş əmələ gəldiyini göstərən Konvent dövründən qalma misallar yox idi,–köhnə Dağın müvəffəq olduğu şeyə indi gənc Dağ nə üçün müvəffəq olmasın?–zamanın şəraiti də belə bir cəhd üçün əlverişsiz deyildi. Parisdə xalq içərisindəki həyəcan o dərəcəyə çatmışdı ki, qorxu törətməyə başlamışdı; seçkilərdəki səsvermə nəticələrindən görünürdü ki, ordu hökumətə rəğbət bəsləmirdi, Qanunverici məclisdəki əksəriyyət isə təşkil olunmaq üçün hələ çox cavan idi, həm də köhnə adamlardan ibarət idi. əgər Dağ parlament üsyanına müvəffəq olsaydı, dövlətin idarə sükanı bilavasitə onun əlinə keçərdi. Demokratik xırda burjuaziya isə, həmişə olduğu kimi, hər şeydən çox arzu edirdi ki, mübarizə onların başı üstündə, buludlar içərisində, parlament üzvlərinin kölgələri arasında getsin. Nəhayət, həm demokratik xırda burjuaziya, həm də onun nümayəndəsi olan Dağ, parlament üsyanı yolu ilə öz böyük məqsədinə çata bilərdi, yə`ni proletariatın əl-qolunu açmadan və proletariatı ancaq uzaqdan göstərməklə burjuaziyanın qüdrətini qıra bilərdilər; proletariatdan təhlükə doğurmadan istifadə oluna bilərdi.
İyunun 11-də məsələ Milli məclisdə səsə qoyulduqdan sonra Dağın bir neçə üzvü gizli fəhlə cəmiyyətlərinin nümayəndələri ilə görüşdü. Fəhlə nümayəndələri elə o axşam üsyana başlamaq üzərində israr edirdilər. Dağ

bu planı qəti surətdə rədd etdi. Dağ hərəkata rəhbərliyi heç cür əlindən buraxmaq istəmirdi, öz düşmənlərinə olduğu qədər öz müttəfiqlərinə də şübhə ilə yanaşırdı və haqlı idi. 1848-ci ilin iyun xatirələri Paris proletariatının sıralarını heç vaxt bu qədər coşqun həyəcana gətirməmişdi. Bununla belə, Paris proletariatı Dağla ittifaqda idi. Dağ parlamentdə departamentlərin əksəriyyətini təmsil edirdi, orduda öz nüfuzunu artırırdı, milli qvardiyanın demokratik hissəsi onun ixtiyarında idi, nəhayət, dükançıların mə`nəvi köməyi onun tərəfində idi. Bu zaman Dağın iradəsi əksinə olaraq üsyana başlamaq, proletariat üçün 1848-ci ilin iyun günlərini faydasız şəkildə təkrar etmək demək olardı, xüsusilə ona görə ki, 1848-ci ilin iyun günlərində proletariatı qızğın mübarizəyə sövq edən şərait daha yox idi və proletariatın sıraları vəba xəstəliyi üzündən, habelə onun xeyli qismini Parisdən qaçmağa məcbur edən işsizlik nəticəsində seyrəlmişdi. Buna görə fəhlə nümayəndələri ağlabatan yeganə bir iş gördülər. Onlar Dağı məcbur etdilər ki, özünü hörmətdən salsın, yə`ni Dağın ittihamnaməsi Məclis tərəfindən rədd edilərsə, parlament mübarizəsi çərçivəsindən kənara çıxsın. İyunun 13-də bütün günü proletariat eyni ehtiyatlı müşahidəçi mövqeyini tutdu və demokratik milli qvardiya ilə ordu arasında ciddi, qəti bir çarpışmanın başlamasını gözlədi ki, bu çarpışma zamanı mübarizəyə atılıb inqilabı, ona zorla qəbul etdirilən xırda burjua məqsədindən irəli aparsın. Qalibiyyət ehtimalı nəzərdə tutularaq, rəsmi hökumətlə yan-yana hərəkət edəcək proletar kommunası da təşkil edilmişdi. 1848-ci ilin qanlı iyun məktəbi Paris fəhlələrinə ibrət dərsi vermişdi.

İyunun 12-də nazir Lakrosun özü dərhal ittihamnamənin müzakirəsinə keçməyi Qanunverici məclisə təklif etdi. Həmin gecə hökumət müdafiə və hücum üçün lazım olan bütün tədbirləri görmüşdü; Milli məclisin əksəriyyəti qiyamçı azlığı küçəyə çıxmağa məcbur etmək qərarına gəlmişdi, azlıq isə daha geri çəkilə bilməzdi, püşk atılmışdı; 8 səsə qarşı 377 səs ittihamnaməni rədd etdi; səsvermədə iştirak etməyən Dağ çox hirsli halda «sülhsevər demokratiyanın» təbliğat salonlarına «Democratie pacifique»120 qəzeti redaksiyasına cumdu.

Nəhəng Antey öz anası torpaqdan ayrılanda qüvvədən düşdüyü kimi, Dağ da parlament binasından kənara çıxan kimi qüvvədən düşdü. Qanunverici məclisin divarları içərisində Samson kimi hərəkət edən montanyarlar (Dağın tərəfdarları («dağ» mə`nasında işlədilən «montagne» sözündəndir). Red.) «sülhsevər demokratiya» salonlarında adi filister oldular. Uzun sürən

gurultulu və boş müzakirələr başlandı. Dağ hamını hər bir vasitə ilə konstitusiyanın hörmətini saxlamağa məcbur etmək qətiyyətində idi, «ancaq silah gücünə deyil». Onun bu qərarını «konstitusiya dostlarının» manifesti121 və nümayəndələr hey`əti müdafiə etdilər. «National» güruhunun, yə`ni burjua respublikaçıları partiyasının qalıqları özlərini «konstitusiya dostları» adlandırırdılar. Bu güruhun salamat qalan nümayəndələrindən altısı parlamentdə ittihamnamənin rədd edilməsi əleyhinə, qalan nümayəndələrinin hamısı isə rədd edilməsi lehinə səs verdiyi və Kavenyak öz qılıncını qayda-qanun partiyasının ixtiyarına verdiyi bir zamanda, bu güruhun parlament xaricində olan daha çox hissəsi siyasi səfil vəziyyətindən çıxmaq və demokratik partiya sıralarına soxulmaq üçün ələ keçən fürsətdən hərisliklə yapışdı. Doğrudan da, məgər bu adamlar onların qalxanı dalında, onların prinsipi dalında, konstitusiya dalında gizlənən bu partiyanın təbii silahdaşıyanları deyildilər!

«Dağ» səhərə qədər doğum ağrısı çəkdi. Onun doğduğu «xalqa intibahnamə» oldu ki, bu da iyunun 13-də səhər iki sosialist qəzetinin gözə çarpmayan bir guşəsində dərc olundu122. Bu intibahnamə prezidenti, nazirləri və Qanunverici məclisin əksəriyyətini «konstitusiyadan kənar» (hors la Constitution) e`lan edir və milli qvardiyanı, ordunu, axırda isə xalqı da «ayağa qalxmağa» çağırırdı. Onun şüarı «Yaşasın konstitusiya!» idi ki, bu da «rədd olsun inqilab!»dan başqa bir şey deyildi.

İyunun 13-də xırda burjuaların düzəltdiyi dinc nümayiş Dağın konstitusiya intibahnaməsinə uyğun idi. Bu nümayiş Şato-d`O-dan başlayaraq bulvarlara axışan küçə yürüşü idi; çoxu silahsız milli qvardiyaçılardan ibarət olub gizli fəhlə bölmələri üzvlərinə qarışan 30000 adam bulvarlardan keçərək ucadan: «Yaşasın konstitusiya!» deyirdi. Nümayişçilərin özləri bu şüarı mexaniki surətdə, çox soyuq, ürəksiz deyirdilər, buna görə də bu şüar gurultulu əks-səda oyatmaq əvəzinə, səkilərə toplaşan camaat tərəfindən istehzalı sözlərlə qarşılanırdı. Bu mahnını çox səslə oxuyanlar içərisində ürəkdən gələn səs yox idi. Nümayişçilər «konstitusiya dostlarının» iclas binası qabağına gəlib çatdıqları zaman konstitusiyanın muzdlu carçısı binanın frontonuna çıxıb öz məddah papağını əlində oynada-oynada və boğazını yırta-yırta: «yaşasın konstitusiya!» deyə bağıranda və bu bağırtılarını binanın qabağına gələn camaatın başına dolu kimi yağdıranda, adama elə gəlirdi ki, nümayişdə iştirak edənlərin özləri də gülünc vəziyyətdə olduqlarını bir an hiss etmişdilər. Mə`lumdur ki, nümayişçilər

de la Pe küçəsi ilə bulvarların tininə çatanda Şanqarnyenin süvari və piyada əsgərləri nümayişçiləri heç də parlament üsuluna bənzəməyən şəkildə qarşıladılar, nümayişdə iştirak edənlər bir anda qaçıb hər tərəfə səpələndilər və yalnız qaçarkən, parlamentin 11 iyun tarixli üsyan çağırışını yerinə yetirmək üçün «silah başına!» deyən tək-tük səslər eşidildi.

Dinc nümayişçilərin zorla dağıdılması, bulvarlarda silahsız vətəndaşların öldürüldüyü haqqında qarışıq şayiələr, küçələrdə get-gedə artan həyəcan,– bütün bunlar sanki üsyanın yaxınlaşdığını xəbər verdiyi bir anda Dağın Azar küçəsində toplaşan üzvlərinin çoxu qaçıb dağılışdı. Deputatlardan ibarət kiçik bir dəstəyə başçılıq edən Ledrü-Rollen Dağın şərəfini xilas etdi. Onlar, Pale-Nasionalı tutmuş Paris artilleriyasının himayəsi altında İncəsənət və peşə muzeyinə getdilər. Milli qvardiyanın 5-ci və 6-cı legionları buraya gəlməli idi. Lakin montanyarlar 5-ci və 6-cı legionları əbəs yerə gözləyirdilər; bu ehtiyatlı qvardiyaçılar öz nümayəndələrini tək qoydular, Paris artilleriyası özü əhalinin barrikadalar qurmasına mane oldu, hərc-mərclik və çaxnaşma heç bir qərara gəlməyə imkan vermədi, nizami qoşun süngülü tüfənglər əllərdə irəlilədi, deputatların bir hissəsi həbs edildi, bir hissəsi də qaçıb gizləndi. 13 iyun günü bu cür qurtardı.

1848-ci ilin 23 iyun günü inqilabçı proletariatın üsyan günü idisə, 1849-cu ilin 13 iyun günü demokratik xırda burjuaların üsyan günü idi; bu üsyanların hər biri, onu qaldıran sinfin xalis klassik ifadəsi idi.

Təkcə Lionda iş gəlib inadlı, qanlı toqquşmaya çatdı. Burada sənaye burjuaziyası ilə sənaye proletariatı bilavasitə üz-üzə dururlar, burada fəhlə hərəkatı heç də Parisdə olduğu kimi ümumi hərəkat çərçivəsinə salınmamışdır və bu ümumi hərəkatla müəyyən edilmir; buna görə də burada 13 iyun gününün in`ikası öz əvvəlki xarakterini itirmiş oldu. Əyalətin qalan yerlərində 13 iyun gününün oyatdığı əks-səda heç bir yanğın əmələ gətirə bilmədi, çünki bu, soyuq ildırım idi.

1849-cu il mayın 28-də Qanunverici məclisin açılması ilə öz normal varlığına başlayan konstitusiyalı respublika öz həyatının birinci dövrünü iyunun 13-də başa çatdırdı. Bütün bu ilk dövr qayda-qanun partiyası ilə Dağ arasında, burjuaziya ilə xırda burjuaziya arasında gurultulu mübarizə ilə doludur; xırda burjuaziya burjua respublikasının qurulmasına əbəs yerə müqavimət göstərirdi, çünki özü müvəqqəti hökumətdə və İcraiyyə komissiyasında bu respublikanın xeyrinə arası kəsilmədən gizli çalışmışdı,

iyun günlərində məhz özü bu respublika yolunda proletariata qarşı qızğın vuruşmuşdu. 13 iyun günü xırda burjuaziyanın müqavimətini qırdı və birləşmiş royalistlərin qanunverici diktaturasını həqiqətə çevirdi. Bu andan e`tibarən Milli məclis yalnız qayda-qanun partiyasının ictimai nicat komitəsi olur.

Paris prezidenti, nazirləri və Milli məclisin əksəriyyətini «müttəhimlər vəziyyətində» qoymuşdu; bunlar isə Parisi «mühasirə vəziyyətində» e`lan etdilər. Dağ Qanunverici məclisin əksəriyyətini «konstitusiyadan kənar» e`lan etmişdi bu əksəriyyət isə Dağı konstitusiyanı pozduğuna görə ali məhkəməyə verdi və bu partiyada həyati qüvvəsini hələ mühafizə edən nə varsa, hamısını qanundan kənar e`lan etdi. Dağın başsız və ürəksiz bircə gövdəsi qaldı. Azlıq parlament üsyanı düzəltməyə cəhd etdi, əksəriyyət isə parlament istibdadını qanun şəklinə saldı. Əksəriyyətin müəyyən etdiyi yeni parlament reqlamenti tribuna azadlığını aradan qaldırdı və Milli məclisin sədrinə ixtiyar verdi ki, intizamı pozmaq üstündə deputatları cəzalandırıb onlara töhmət versin, pulla cərimə etsin, maaşlarını kəssin, müvəqqəti olaraq iclasdan çıxarsın, həbs etdirsin. Əksəriyyət, Dağın gövdəsi üzərində qılınc əvəzinə şallaq asdı. Heysiyyət hissi Dağın salamat qalan deputatlarından tələb edirdi ki, öz vəkalətlərindən nümayişkaranə şəkildə əl çəksinlər. Belə bir hərəkət qayda-qanun partiyasının parçalanmasını sür`ətləndirərdi. Müqavimət kölgəsi belə öz birləşdirici tə`sirini itirəcəyi bir zamanda bu partiya öz əvvəlki tərkib hissələrinə parçalanmalı idi.

Demokratik xırda burjuaziyanın parlament qüvvəsi ilə bir zamanda onun silahlı qüvvəsi də əlindən alınmış oldu; Paris artilleriyası və milli qvardiyanın 8-ci, 9-cu və 12-ci legionları dağıdıldı. İyunun 13-də Bule və Ru mətbəələrinə hücum edib mətbəə dəzgahlarını sındıran, respublika qəzetlərinin redaksiyalarını darmadağın edən və redaktorlarını, mürəttiblərini, çapçılarını, ekspeditorlarını, kuryerlərini qanunsuz həbs edən maliyyə aristokratiyası legionu isə, əksinə, Milli məclisin tribunasından tə`rifləndi. Respublikaçı olduqları güman edilən milli qvardiyaçıların buraxılması bütün Fransada təkrar olundu.

Mətbuat haqqında yeni qanun, ittifaqlar haqqında yeni qanun, mühasirə vəziyyəti haqqında yeni qanun, Paris həbsxanalarının ağzına qədər doldurulması, siyasi mühacirlərin qovulub ölkədən çıxarılması, «National»dan irəli gedən bütün qəzetlərin daha nəşr edilməməsi, Lionun

və beş qonşu departamentin kobud soldat istibdadına tabe edilməsi, özünü hər yerə soxan prokuror nəzarəti, dəfələrlə təmizlənən mə`murlar ordusunun yenidən təmizlənməsi,–bütün bunlar qalib gələn irticanın labüd və daim təkrar edilən basmaqəlib tədbirləri idi; iyun qırğını və iyun sürgünlərindən sonra bunlar ancaq ona görə xatırladılmalıdır ki, bu dəfə həmin tədbirlər nəinki təkcə Parisə qarşı, hətta departamentlərə qarşı, nəinki təkcə proletariata qarşı, hətta ilk növbədə orta siniflərə qarşı çevrilmişdi.

Milli məclisin iyun, iyul və avqust aylarındakı bütün qanunvericilik fəaliyyəti, hökumətə mühasirə vəziyyəti e`lan etmək ixtiyarı verən, mətbuatın ağzını daha artıq yuman və ittifaqlar hüququnu yox edən çoxlu cəza qanunu çıxarmaqdan ibarət oldu.

Lakin bu dövr üçün xarakter olan cəhət,–qələbədən fe`lən deyil, prinsip e`tibarı ilə istifadə etməkdən, Milli məclisin qərarları deyil, bu qərarlar üçün gətirilən əsaslardan, iş deyil, quru sözdən və hətta quru söz deyil, onu canlandıran işvə və ədalardan ibarətdir. Royalist əqidələrini azğıncasına, həyasızlıqla nümayiş etdirmək, respublikaya aristokrat nifrəti ilə təhqirlər yağdırmaq, restavratorluq məqsədlərini işvəbazlıq və yüngüllüklə ağızdan qaçırmaq, bir sözlə, respublikaçılıq nəzakətini lovğalıqla pozmaq–bu dövrə xüsusi rəng verən və iz buraxan cəhət idi. «Yaşasın konstitusiya!» şüarı iyunun 13-də məğlub olanların mübariz şüarı idi. Bu, qalibləri konstitusiya dili ilə, yə`ni respublika dili ilə danışmaq riyakarlığından xilas etdi. Əksinqilab Macarıstan, İtaliya və Almaniyanı məğlub etmişdi və onlar restavrasiyanın artıq Fransa qapılarına gəlib çatdığını görürdülər. Qayda-qanun fraksiyalarının rəhbərləri arasında əsl rəqabət başlanmışdı; onlar özlərinin royalizmini «Moniteur» vasitəsi ilə sənədlər əsasında sübut etməyə çalışır, monarxiya zamanı etdikləri bə`zi liberallıq günahlarını boyunlarına alıb tövbə edir, bu günahların bağışlanması üçün allaha və insanlara yalvarırdılar. Elə bir gün olmurdu ki, Milli məclisin tribunasına qalxıb fevral inqilabının bir ictimai fəlakət olduğunu e`lan etməsinlər; elə bir gün olmurdu ki, uzaq vilayətlərdən birində legitimist mülkədarlardan biri çıxıb heç bir zaman respublikaya tərəfdar olmadığını təntənə ilə bəyan etməsin; elə bir gün olmurdu ki, İyul monarxiyasının qorxaq fərari və xainlərindən biri çıxıb özünün qoçaqlığından gecikmiş halda dəm vurmasın və bu qoçaqlığın göstərilməsinə ancaq Lui-Filippin insanpərvərliyinin və ya başqa bir anlaşılmazlığın mane olduğunu söyləməsin. Belə çıxırdı ki,

fevral hadisələrində heyrət doğuran şey qalib xalqın alicənablığı deyil, özlərini məğlub etməyə xalqa imkan verən royalistlərin fədakarlığı və mö`tədilliyi imiş. Xalq nümayəndələrindən biri təklif etdi ki, fevral günlərində yaralananlara yardım üçün ayrılan pulun bir hissəsi həmin günlərdə vətənə yeganə xidmət göstərən bələdiyyə qvardiyaçılarına verilsin. Başqa bir nümayəndə Karusel meydanında Orlean hersoqunun atlı heykəlini qoymağı təklif edirdi. Tyer, konstitusiyanı murdar kağız parçası adlandırdı. Orleanistlər legitim monarxiyaya qarşı törətdikləri fəsadlarından tövbə etdiklərini bildirmək üçün, legitimistlər isə legitim olmayan monarxiyaya qarşı müqavimət göstərməklə ümumiyyətlə monarxiyanın süqutunu sür`ətləndirdiklərinə görə özlərini məzəmmət etmək üçün bir-bir tribunaya qalxırdılar; Tyer Moleyə qarşı, Mole Gizoya qarşı, Barro isə onların hər üçünə qarşı intriqa işlətdiyindən tövbə edirdi. «Yaşasın sosialist-demokratik respublika!» şüarı konstitusiyaya zidd şüar e`lan edildi; «Yaşasın respublika!» şüarı sosialist-demokratik şüar sayılaraq tə`qib olunurdu. Vaterloo vuruşmasının93 ildönümü günü deputatlardan biri dedi: «İnqilabçı mühacirlərin Fransaya girməsi məni, prussiyalıların Fransaya soxulmasından daha çox qorxudur». Lionda və qonşu departamentlərdə təşkil olunmuş terrordan edilən şikayətlərə Barage d`İlye belə cavab vermişdi: «Mən ağ terroru qırmızı terrordan üstün tuturam» («J`aime mieux la terreur bIanche que la terreur rouge»). Məclis də, öz natiqlərinin ağzından respublikaya qarşı, inqilaba və konstitusiyaya qarşı həcviyyə, monarxiya və Müqəddəs ittifaq lehinə isə mədhiyyələr çıxanda hər dəfə onları qızğın alqışlayırdı. Respublikanın ən cüz`i rəsmiyyət qaydalarının pozulması, məsələn, deputatlara «Citoyens» (Vətəndaşlar». Red.) deyə müraciət etmək qaydasının pozulması, hər dəfə qayda-qanun cəngavərlərini son dərəcə sevindirirdi.

Mühasirə vəziyyətinin təzyiqi altında və proletariatın xeyli hissəsinin səsvermədə iştirak etməməsi şəraitində iyulun 8-də Parisdə keçirilən əlavə seçki, fransız ordusunun Romanı işğal etməsi, qırmızı ləbbadəli keşiş cənablarının123 və onların əlləri altındakı rahiblərin inkvizisiyası və terrorunun Romaya girməsi,–bunların hamısı, iyun qələbəsinə yeni-yeni qələbələr əlavə edir, qayda-qanun partiyasının məstliyini daha da artırırdı. Nəhayət, royalistlər avqustun ortalarında qismən yenicə toplanmış departament şuralarının iclaslarında iştirak etmək üçün, qismən isə öz royalizmlərinin aylardan bəri davam edən azğınlığından sonra

yorulduqlarına görə Milli məclisin iclaslarına iki aylıq fasilə verildiyini dekretlə e`lan etdilər. Onlar legitimist və orleanist partiyalarının Mole, Şanqarnye və başqaları kimi ən çox gözə çarpan iyirmi beş deputatından ibarət bir komissiyanı, gizlədilməyən bir istehza ilə Milli məclisi əvəz edənlər vəziyyətində, respublikanın keşikçiləri vəziyyətində saxladılar. Bu istehza onların zənn etdiyindən daha acı idi. Sevdikləri monarxiyanın süqutuna yardım etməyə tarixən məhkum olunan bu adamlara indi tarix, nifrət etdikləri respublikanı qorumaq vəzifəsi tapşırmışdı.
Qanunverici məclisin iclaslarına fasilə verildikdən sonra konstitusiyalı respublikanın həyatında ikinci dövr, onun royalist qəzəbi dövrü qurtardı. Parisdə mühasirə vəziyyəti yenə ləğv edildi, mətbuat yenə çıxmağa başladı. Sosialist-demokrat qəzetləri dayandırıldığı zaman, cəza tədbirləri və royalistlərin azğınlığı dövründə, əvvəllər monarxist-konstitusiyaçı xırda burjuaziyanın köhnə ədəbi nümayəndəsi olan «Siecle»124 respublikaçılığa doğru üz çevirdi; burjua islahatçılarının köhnə orqanı «Presse»125 demokratizmə doğru, burjua respublikaçılarının köhnə klassik orqanı olan «National» isə sosializmə doğru döndü.
Açıq klublar nə qədər qeyri-mümkün olurdusa, gizli cəmiyyətlər bir o qədər çox yayılıb qüvvətlənirdi. Xalis ticarət şirkətləri kimi yol verilən və heç bir iqtisadi əhəmiyyəti olmayan istehsal fəhlə şirkətləri siyasi cəhətdən proletariat üçün əlaqə vasitələri rolu oynadı. 13 iyun günü, müxtəlif yarıminqilabi partiyaların rəsmi ust təbəqəsini süpürüb atmışdı, bunun müqabilində isə salamat qalan kütlələrin çiyinləri üzərində öz başı əmələ gəlib şüurlandı. Qayda-qanun cəngavərləri camaatı qırmızı respublika dəhşətləri ilə qorxudurlar, lakin Macarıstanda, Badendə, Romada qalib gələn əksinqilabın alçaq vəhşilik və ən amansız dəhşətləri «qırmızı respublikanı» yuyub ağartdı. Buna görə də Fransa cəmiyyətinin narazı olan ara sinifləri ğırmızı respublikanın problematik dəhşətləri ilə birlikdə verdiyi və`dləri, bir həqiqət olan ümidsizliyi ilə birlikdə qırmızı monarxiyanın dəhşətlərindən üstün tutmağa başladılar. Fransada heç bir sosialist, inqilabi təbliğat üçün Haynau qədər iş görməmişdir! «A chaque capacite selon ses oeuvres!» (hər iste`dad sahibinə öz işinə görə qiymət verilməlidir! (Marks burada Sen-Simonun məşhur formulundan istifadə edir). Red.).
Bu arada Lui Bonapart əyalətə şahanə bir səyahət etmək üçün Milli məclisin tə`tilindən istifadə etdi, ən hərarətli legitimistlər müqəddəs

Lüdovikin nəslindən olanları126 ziyarət etmək üçün Emsə getdilər, qayda-qanun partiyasından olan bir çox deputat isə yenicə toplanmış departament şuralarında intriqa ilə məşğul oldu. Bu şuraları vadar etmək lazım idi ki, onlar Milli məclis əksəriyyətinin söyləməyə hələ cəsarət etmədiyi şeyi söyləsin, yə`ni konstitusiyanın dərhal yenidən nəzərdən keçirilməsini tələb etsinlər. Konstitusiyaya görə onu yalnız 1852-ci ildə, bu məqsəd üçün xüsusi olaraq çağırılmış Milli məclisdə nəzərdən keçirmək olardı. Lakin departament şuralarının çoxu konstitusiyanı yenidən nəzərdən keçirməyə rə`y versəydi, məgər Fransanın səsi Milli məclisi konstitusiyanın bakirəliyini qurban verməyə vadar edə bilməzdi? Volterin «Henriada»sında rahibələrin pandurlardan umduqlarını Milli məclis də bu əyalət məclislərindən umurdu. Lakin, az bir istisna ilə, Milli məclisin Pentefrilərinin əyalətdə rast gəldiyi Yusiflərin sayı heç də onlardan az olmadı. Çoxları zəhlə tökən inandırmaları anlamaq istəmirdi. Konstitusiyanın nəzərdən keçirilməsinə onu canlandırmalı olan alət, yə`ni departament şuralarındakı səsvermə mane oldu. Fransa, həm də burjua Fransası öz fikrini bildirdi və konstitusiyanın yenidən nəzərdən keçirilməsi əleyhinə rə`y verdi.

Oktyabrın əvvəllərində Qanunverici milli məclis yenə iclas etməyə başladı–«tantum mutatus ab illo!» (lakin o nə qədər dəyişilmişdi! (Vergili, «Eneida»). Red.). Onun siması tamamilə dəyişilmişdi. Konstitusiyanı yenidən nəzərdən keçirmək fikrinin departament şuraları tərəfindən gözlənilmədən rədd edilməsi, Qanunverici məclisi konstitusiya çərçivəsi daxilinə qaytardı və Məclisin varlığı çərçivəsini ona xatırlatdı. Legitimistlərin Emsi ziyarət etmələri orleanistlərdə şübhə doğurmağa, orleanistlərin Londonla əlaqə saxlamaları127 isə legitimistləri təşvişə salmağa başladı; hər iki fraksiyanın qəzetləri atəşi körükləyir və taxt-tac iddiasında olan öz nümayəndələrinin qarşılıqlı tələblərini ölçüb-biçirdi. Bonapartistlərin fırıldaqları legitimistlərlə birlikdə orleanistləri hiddətləndirirdi; bu fırıldaqlar prezidentin şahanə səyahətlərində, başındakı konstitusiya noxtasını qırıb atmağa az-çox açıq cəhd etməsində, bonapartist qəzetlərin lovğa dilində özünü göstərirdi; Lui Bonapart da öz tərəfindən, ancaq legitimist və orleanistlərə gizli fəaliyyət haqqı verən Milli məclisə və daim bu Məclisin xeyrinə olaraq ona xəyanət edən hökumətə hiddətlənirdi. Nəhayət, Roma siyasəti ilə və nazir Passi tərəfindən təklif edilib

mühafizəkarların sosialist vergisi adlandırdığı gəlir vergisi ilə əlaqədar olaraq hökumətdə təfriqə əmələ gəldi.
Yeni toplanmış Qanunverici məclisdə Barro hökumətinin irəli sürdüyü ilk təkliflərdən biri Orlean hersoginyasına dulluq pensiyası vermək üçün 300000 franklıq kredit buraxmaq tələbindən ibarət idi. Milli məclis buna razılıq verdi, bununla da fransız millətinin borcları siyahısına yeddi milyon frank əlavə etdi. Eyni zamanda Lui-Filipp müvəffəqiyyətlə «pauvre honteux»–utancaq dilənçi rolunu oynamaqda davam edirdi, hökumət Bonapartın maaşını artırmağı Məclisə təklif etməyə cür`ət etmirdi, Məclis isə bu artırmaya icazə vermək meylində deyildi buna görə də Lui Bonapart, həmişə olduğu kimi, yenə də iki yoldan birini seçmək qarşısında durmuşdu «Aut Caesar, aut Clichu!» (Ya Sezar, ya da Klişi! (Klişi–Parisdə borc həbsxanasının adıdır). (Məşhur «Aut Caesar, aut nihil»–Ya Sezar, ya da heç bir şey» kəlamının başqa cür ifadə edilmiş şəklidir). Red.).
Roma hərbi səfərinin xərcini ödəmək üçün 9 milyon franklıq kredit buraxmaq haqqında hökumətin ikinci tələbi, bir tərəfdən, Bonapart, digər tərəfdən isə, nazirlər və Milli məclis arasındakı gərgin münasibəti daha da kəskinləşdirdi. Lui Bonapart, öz yavəri Edqar Neyə yazdığı məktubu «Moniteur»də dərc etdirib hamıya bildirdi; bu məktubda o, papa hökumətini konstitusiya tə`minatları ilə məhdud edirdi. Papa da öz tərəfindən «motu proprio»128 müraciət nəşr etdirərək, bərpa edilmiş hakimiyyətini nə şəkildə olursa-olsun məhdudlaşdırmaq fikrini rədd edirdi. Bonapartın bu məktubu, Bonapartı camaatın nəzərində xeyirxah, lakin hətta öz evində də tanınmamış və əli-qolu bağlı bir dahi kimi göstərmək üçün onun kabineti üzərindəki pərdəni qəsdən və utanmadan bir qədər qaldırırdı. Bonapartın öz «azad ruhunun qanadlarını xəlvətcə çalıb» (Herveq G. «Dağlardan». Red.) işvə satdığı birinci dəfə deyildi. Komissiyanın mə`ruzəçisi Tyer, Bonapartın qanad çalmasına əsla e`tina etməyib papanın müraciətini fransız dilinə tərcümə etməklə kifayətləndi. Hökumət deyil, Viktor Hüqo, Napoleonun məktubunu bəyənməyi Milli məclisə təklif etməklə prezidenti düşdüyü dardan qurtarmaq təşəbbüsünü göstərdi. Əksəriyyət Hüqonun təklifini «Allons dons! Allons dons!» («Bəsdir canım! Bəsdir canım!». Red.)–deyə hörmətsiz və yüngül sözlərlə dəfn etdi. Prezidentin siyasətimi? Prezidentin məktubumu? Prezidentin özümü? «Allons dons! Allons dons!» Kim c. Bonaparta ciddi bir münasibət

bəsləyir? C-b Viktor Hüqo, Siz elə zənn edirsiniz ki, prezidentə guya inandığınıza biz inanırıq? «Allons dons! Allons dons!»
Nəhayət, Orleanları və Burbonları ölkəyə qaytarmaq layihəsi ətrafında gedən mübahisələr Bonapartla Milli məclis arasındakı ixtilafı sür`ətləndirdi. Hökumət ortada olmadığına görə prezidentin əmisi oğlu və keçmiş Vestfaliya kralının oğlu (Jerom Bonapartın oğlu Napoleon Jozef Bonapart. Red.) bu təklifi palataya vermişdi və bundan məqsəd yalnız taxt-tac iddiasında olan legitimist və orleanist namizədlərini bonapartistlərin namizədi ilə bir sıraya, yaxud daha doğrusu, bonapartistlərin namizədindən aşağı sıraya qoymaq idi, çünki bonapartistlərin namizədi heç olmazsa fe`lən dövlət hakimiyyəti başında dururdu.
Napoleon Bonapart lazımi qədər hörmətli deyildi ki, qovulmuş kral ailələrinin qaytarılmasını və iyun üsyançılarının bağışlanmasını bir təklifdə birləşdirə bilsin. Budur ki, məclis əksəriyyətinin qəzəblənməsi onu, müqəddəs ilə məl`unu, yə`ni kral cinsi ilə proletar nəslini, cəmiyyətin hərəkətsiz ulduzları ilə zəif bataqlıq işıltılarını mürtədcəsinə qarışdıran təklifləri dərhal geri götürməyə və bu iki təklifin hər birinə lazımi yer verməyə məcbur etdi. Məclis əksəriyyəti kral ailələrini ölkəyə geri çağırmaq layihəsini qəti surətdə rədd etdi və legitimistlərin Demosfeni olan Berye bu qərarın əhəmiyyəti haqqında heç bir şübhə yeri qoymadı. O dedi ki, məqsəd taxt-tac iddiasında olanları adi vətəndaş halına salmaqdır! Onları öz müqəddəslik nişanəsindən, salamat qalan son əzəmət nişanəsindən, ölkədən qovulmaq əzəmətindən məhrum etmək istəyirlər! Berye dedi ki, öz yüksək əsil-nəcabətini unudub Fransaya qayıdacaq və burada adi bir qeyri-rəsmi adam kimi yaşayacaq taxt-tac iddiaçıları haqqında insanlar nə fikirdə ola bilərlər? Bonaparta bundan daha aydın söyləmək olmazdı ki, o, ölkədə qalmaqla heç bir şey qazanmamışdır və əgər o, birləşmiş royalistlərə burada, prezident vəzifəsində, bitərəf bir şəxsiyyət kimi lazım idisə, həqiqi taxt-tac iddiasında olanlar məsələdən xəbəri olmayanların nəzərindən gizlənmək üçün ölkədən qovulmaq pərdəsi dalında qalmalı idilər.
Noyabrın 1-də Lui Bonapart Qanunverici məclisə bir məktubla cavab verib Barro hökumətinin iste`faya çıxdığını və yeni hökumətin təşkil edildiyini xeyli kəskin ifadələrlə bildirdi. Barro–Fallu hökuməti royalistlər ittifaqının hökuməti olduğu halda, Opul hökuməti Bonapartın hökuməti idi, Qanunverici məclisə qarşı prezidentin aləti idi, prikazçiklər hökuməti idi.

Daha Bonapart yalnız 1848-ci il dekabrın 10-dakı bitərəf şəxsiyyət deyildi. O, icraiyyə hakimiyyətinin başçısı olmaq e`tibarı ilə müəyyən mənafelərin mərkəzi olmuşdu; anarxiya ilə mübarizə qayda-qanun partiyasının özünü məcbur etmişdi ki, onun nüfuzunu artırsın və əgər onun daha nüfuzu yox idisə, qayda-qanun partiyası tamamilə nüfuzsuz idi. Məgər o ümid edə bilməzdimi ki, bir tərəfdən, orleanistlərlə legitimistlər arasındakı rəqabət, digər tərəfdən isə, hər hansı bir monarxiyanı bərpa etmək zərurəti hər iki fraksiyanı bitərəf bir taxt-tac iddiaçısını tanımağa məcbur edəcəkdir? 1849-cu il noyabrın 1-dən e`tibarən konstitusiyalı respublikanın həyatında 1850-ci il martın 10-da qurtaran üçüncü dövr başlanır. Konstitusiya idarələri arasında gedib Gizonun çox xoşuna gələn normal oyun, yə`ni icraiyyə hakimiyyəti ilə qanunverici hakimiyyət arasında çəkişmə başlanır. Lakin bu hələ hamısı deyildi. Bonapart, birləşmiş orleanistlərlə legitimistlərin restavrasiya istəklərinə qarşı özünün fe`lən mövcud hakimiyyətinin yuridik əsasını təşkil edən respublikanı müdafiə edir; qayda-qanun partiyası da Bonapartın restavrasiya istəklərinə qarşı öz birgə hökmranlığının yuridik əsasını təşkil edən respublikanı müdafiə edir; legitimistlər orleanistlərə qarşı, orleanistlər isə legitimistlərə qarşı «status quo»nu (mövcud vəziyyət, mövcud qayda-qanun. Red.), yə`ni respublikanı müdafiə edirlər. Qayda-qanun partiyasının bütün bu fraksiyalarından hər biri öz kralını və öz restavrasiyasını «in petto» (könlündə, ürəyində. Red.) tutduğu halda, öz rəqibinin qəsbkarlıq və qiyamçılıq istəklərinə qarşı qoyduğu forma burjuaziyanın ümumi hökmranlığıdır ki, onların hər birinin ayrı-ayrı tələblərini qarşılıqlı surətdə bitərəfləşdirən və qoruyub saxlayan bu forma respublikadır.

Kantın yeganə səmərəli dövlət forması hesab etdiyi respublika heç bir zaman həyata keçirilməyən, lakin həyata keçirilməsi daim bizim üçün bir məqsəd, bir məram olması lazım gələn əməli zəkanın postulatı olduğu kimi, bu royalistlərin postulatı da monarxiyadır.

Beləliklə, burjua respublikaçılarının əlindən boş ideoloji formul kimi çıxan konstitusiyalı respublika, birləşmiş royalistlərin əlində dolğun məzmuna malik canlı forma oldu. Tyer: «Biz royalistlər, konstitusiyalı respublikanın həqiqi dayağıyıq» deyəndə bu sözlərinin nə qədər doğru olduğunu heç özü də güman etmirdi.

Koalisiya hökumətinin süqut etməsinin və prikazçiklər hökumətinin meydana çıxmasının başqa bir əhəmiyyəti də var idi. Yeni hökumətdə

maliyyə nazirinin adı Fuld idi. Fuldun maliyyə naziri tə`yin olunması Fransanın milli sərvətini rəsmən birjanın ixtiyarına vermək, dövlətin varını birja vasitəsi ilə və birjanın xeyrinə idarə etmək demək idi. Fuldun tə`yin edilməsi ilə bir zamanda maliyyə aristokratiyası özünün bərpa olunduğunu «Moteur»də e`lan etdi. Bu bərpa bütün qalan bərpaları zəruri surətdə tamamlayırdı və onlarla birlikdə konstitusiyalı respublika silsiləsində bir halqa təşkil edirdi.

Lui-Filipp, bir dəfə olsa da cəsarət edib əsl «lour-cervier» (birja qurdunu. Red.) maliyyə naziri tə`yin etməmişdi. Onun monarxiyası burjuaziyanın yuxarı təbəqəsinin hökmranlığı üçün ən gözəl bir ad olduğu kimi, onun nazirliklərində imtiyazlı mənafe də, heç bir şəxsi mənfəət olmadığını göstərən ideoloji adlar daşımalı idi. Müxtəlif monarxiyaların, legitimist və orleanist monarxiyaların pərdə dalında gizlətdiyi şey burjua respublikasında hər yerdə ön səhnəyə çıxdı. Onların göylərə qaldırdığı şeyi burjua respublikası yerə endirdi. Burjua respublikası, müqəddəs adamların adlarını hakim sinfi mənafeyin burjua xüsusi adları ilə əvəz etdi.

Bütün bu şərhimiz, respublikanın necə öz varlığının ilk günündən e`tibarən maliyyə aristokratiyasının hökmranlığını nəinki məhv etməmiş, hətta, əksinə, daha da möhkəmləndirmiş olduğunu göstərdi. Lakin respublika maliyyə aristokratiyası qarşısında, öz iradəsi əleyhinə, taleyə tabe olaraq güzəştə gedirdi. Fuldla birlikdə isə hökumət təşəbbüsü maliyyə aristokratiyasının əlinə qayıtmış oldu.

Sual edə bilərlər, bəs necə oldu ki, burjua koalisiyası Lui-Filipp zamanı burjuaziyanın qalan təbəqələrini hakimiyyətdən kənar və ya özünə tabe edən maliyyə aristokratiyasının hökmranlığına dözüb razı oldu?

Bu sualın cavabı çox sadədir.

Hər şeydən əvvəl, maliyyə aristokratiyası özü royalist koalisiyası daxilində mühüm rəhbər bir qrupdur ki, bu koalisiyanın da ümumi hökumət orqanları respublika adlanır. Məgər orleanistlərin natiq və «iste`dad sahibləri» maliyyə aristokratiyasının köhnə müttəfiq və ortaqları deyildilər? Məgər maliyyə aristokratiyasının özü orleanistlərin qızıl dəstəsi deyildir? Legitimistlərə gəldikdə, onlar hələ Lui-Filipp zamanında bütün birja, mə`dən və dəmiryol ehtikarları azğınlıqlarında əməli surətdə iştirak edirdilər. Ümumiyyətlə, iri torpaq sahibliyi ilə maliyyə aristokratiyasının ittifaqı normal hadisədir. İngiltərə buna bir sübutdur, hətta Avstriya da buna bir sübutdur.

Fransa kimi bir ölkədə, milli istehsalı dövlət borcunun məbləğinə nisbətən qeyri-mütənasib surətdə aşağı pillədə duran, dövlət rentası ehtikar üçün ən mühüm bir vasitə olan, birjası isə məhsuldar olmayan şəkildə artmaq istəyən kapitalın tətbiqi üçün başlıca bazar təşkil edən belə bir ölkədə, bütün burjua və yarıburjua siniflərinə mənsub saysız-hesabsız adamlar hökmən dövlət borcunda, birja oyununda, maliyyədə maraqlı olmalıdır. Məgər birja oyununun bütün bu ikinci dərəcəli iştirakçıları, eyni mənafeyi çox geniş miqyasda, olduqca mükəmməl və bütöv bir şəkildə təmsil edən fraksiyanı özlərinə təbii bir dayaq və başçı hesab etmirlər?
Dövlət varının maliyyə aristokratiyası əlinə keçməsinin səbəbi nədir? Dövlətin getdikcə artan borcu. Bəs dövlətin bu borcuna səbəb nədir? Dövlətin məxaricinin mədaxilindən daim çox olmasıdır ki, bunun da özü dövlətnn borc almaq sisteminin həm nəticəsi, həm də səbəbidir.
Dövlətin borclu olmasına yol verməmək üçün dövlət öz məxaricini azaltmalı, yə`ni hökumət orqanizmini sadələşdirməli, ixtisar etməli, idarələri mümkün qədər azaltmalı, mümkün qədər az mə`mur saxlamalı, mülki cəmiyyətin işlərinə mümkün qədər az qarışmalıdır. Qayda-qanun partiyası isə bu yolla gedə bilməzdi; onun hökmranlığını və sinfinin varlıq şəraitini hər tərəfdən qorxu altına alan təhlükələr artdıqca, bu partiya öz cəza tədbirlərini, dövlət adından etdiyi rəsmi müdaxiləni getdikcə daha da qüvvətləndirməli, dövlət orqanları şəxsində hər şeyə qarışmalı idi. Şəxsiyyətə və mülkiyyətə qarşı cinayətlər çoxaldığı bir zamanda jandarmeriya hey`ətini azaltmaq olmaz.
Ya da dövlət borcsuz keçinməyə çalışmalı, əhalinin ən varlı sinifləri üzərinə fövqəl`adə vergilər yükləməklə büdcədə, heç olmazsa müəyyən zaman üçün tez keçən müvazinət yaratmalıdır. Lakin qayda-qanun partiyası milli sərvəti birjanın istismarından xilas etmək üçün öz sərvətini vətən yolunda qurbanmı etməlidir? «Pas si bete!» (O bu qədər də axmaq deyildir! Red.).
Sözün qısası, Fransa dövlətində əsaslı çevriliş edilmədən Fransanın dövlət maliyyəsində çevriliş edilə bilməz. Bu dövlət maliyyəsi isə zəruri olaraq dövlətin borclu olması ilə əlaqədardır, dövlətin borclu olması da dövlət borcları ehtikarının ağalığı ilə, dövlət kreditorlarının, bankirlərin, pul alverçilərinin, birja qurdlarının ağalığı ilə əlaqədardır. Qayda-qanun partiyasının təkcə bir fraksiyası maliyyə aristokratiyasının yıxılmasında açıqca maraqlı idi ki, bu da fabrikçilərdi. Biz orta və xırda sənayeçilərdən

deyil, Lui-Filipp zamanı sülalə müxalifətinin geniş bazisi olan sənaye maqnatlarından danışırıq. Onların mənafeyi, şübhəsiz, istehsal xərcinin azalmasını və, deməli, istehsal xərcinə daxil olan vergilərin azalmasını, faizləri bu vergilərə daxil olan dövlət borclarının azalmasını tələb edirdi,– başqa sözlə desək, onların mənafeyi maliyyə aristokratiyasının yıxılmasını tələb edirdi.

İngiltərədə biz doğrudan da fabrikçiləri, Kobden və ya Brayt kimi adamları banka qarşı və birja aristokratiyası əleyhinə səlib müharibəsinin başında görürük, ən iri fransız fabrikçiləri isə öz ingilis rəqiblərinə nisbətən xırda burjuadırlar. Bəs nəyə görə Fransada belə deyildir? Ona görə ki, İngiltərədə sənaye, Fransada isə əkinçilik üstün yer tutur. İngiltərədə sənaye «free trade»yə (ticarət azadlığına, Red.) möhtac olduğu halda, Fransada himayəçilik gömrüklərinə, başqa inhisarlarla bir sırada milli inhisara möhtacdır. Fransa sənayesi Fransada istehsal üzərində hökmran deyildir, buna görə də fransız fabrikçiləri fransız burjuası üzərində hökmran deyildirlər. Fransız fabrikçiləri özlərinin mənafelərini burjuaziyanın başqa fraksiyalarından müdafiə etmək üçün ingilislər kimi hərəkatın başında durub bununla da özlərinin sinfi mənafeyini birinci sıraya qoya bilmirlər onlar inqilabın quyruğunda getməli və öz siniflərinin ümumi mənafeyinə əks olan mənafelərə xidmət etməlidirlər. Fevralda onlar öz vəziyyətlərini anlamamışdılar, lakin fevral onların ağlını başına gətirdi. Fəhlələrin doğurduğu təhlükə iş sahibindən, sənaye kapitalistindən başqa kimlər üçün daha çox qorxulu ola bilər? Odur ki, Fransada fabrikçi labüd olaraq qayda-qanun partiyasının ən qatı tərəfdarlarına qoşuldu. Doğrudur, maliyyə kralları onun mənfəətini kəsirlər, lakin proletariatın həmin mənfəəti tamamilə məhv edəcəyinə nisbətən bu nədir ki?

Fransada xırda burjua, sənaye burjuaziyası üçün adi ola biləcək işi görür; fəhlələr isə xırda burjualar üçün adi olan vəzifəni yerinə yetirirlər; bəs fəhlənin vəzifəsini kim yerinə yetirir? Heç kəs. Bu vəzifə heç də Fransada yerinə yetirilmir, burada ancaq e`lan edilir. Bu vəzifə heç bir yerdə milli sərhədlər daxilində yerinə yetirilə bilməz13, fransız cəmiyyəti daxilindəki siniflər müharibəsi millətlər arasındakı dünya müharibəsinə çevriləcəkdir. Bu vəzifə yalnız o zaman yerinə yetirilməyə başlanacaqdır ki, dünya müharibəsi, proletariatı dünya bazarları üzərində ağalıq edən xalqın başına, İngiltərənin başına gətirib qoyacaq. Lakin burada öz sonunu deyil, öz mütəşəkkil başlanğıcını tapan inqilab qısamüddətli inqilab olmayacaq.

İndiki nəsil Musanın səhradan keçirdiyi yəhudiləri xatırladır. Bu nəsil yeni dünyanı nəinki fəth etməli, habelə öz yerini, yeni dünyanı qurmaq üçün yetkinləşən insanlara verməkdən ötrü səhnədən çəkilməli olacaqdır.
Fulda qayıdaq.
1849-cu il noyabrın 14-də Fuld Milli məclisin tribunasına qalxıb öz maliyyə sistemini izah etdi köhnə vergi sistemini mədh etmək! Şərab vergisini saxlamaq! Passinin gəlir vergisindən əl çəkmək!
Passi də inqilabçı deyildi, o, Lui-Filippin köhnə naziri idi. O, Düfor tipli puritanlardan və İyul monarxiyasının qapazaltısı Testin ən məhrəm dostlarından idi! (1847-ci il iyulun 8-də Parisdə perlər palatasında, duz konsessiyası almaq məqsədi ilə mə`murlara rüşvət verməkdə ittiham edilən Parmantye ilə general Kübyerə, habelə onlardan rüşvət almaqda ittiham edilən o zamankı ictimai işlər naziri Testə qarşı mühakimə başlanmışdı. Test, mühakimə zamanı özünü öldürmək istəyirdi. Müttəhimlərin hamısı çox ağır cərimə verməyə, Test isə, bundan əlavə, üç il həbsə məhkum edilmişdi. (1895-ci il nəşrinə Engelsin qeydi).). Passi də köhnə vergi sistemini tə`rifləyirdi, o da şərab vergisini saxlamağı təklif edirdi, lakin eyni zamanda dövlət kəsiri üzərindəki pərdəni açmışdı. O demişdi ki, dövlətin iflas etməsinin qarşısını yalnız yeni bir gəlir vergisinin köməyi ilə almaq olar. Vaxtilə Ledrü-Rollenə dövlət iflasını təklif edən Fuld, indi Qanunverici məclisə dövlət kəsirini təklif etdi. O, sirri sonralar aşkar olan yığım və`d etdi: məsələn, xərc 60 milyon azaldı, cari borc isə 200 milyon artdı,–rəqəmlər qruplaşdırılıb hesab çəkilərkən edilən bu şübhəli hoqqabazlıqlar, nəhayət, yeni-yeni borc alınmasına səbəb olurdu.
Fuld dövründə burjuaziyanın rəqabət edən digər fraksiyaları ilə bir sıraya qoyulan maliyyə aristokratiyası öz tamahkarlığını, əlbəttə, Lui-Filipp dövründə olduğu qədər həyasızlıqla açıb göstərmirdi. Lakin sistem eynilə qalmışdı dövlət borcları yenə də daim artır, üstüörtülü kəsir davam edirdi. Aradan bir müddət keçəndən sonra köhnə birja fırıldaqları daha aydın ortaya çıxdı. Budur bunun sübutları: Avinyon dəmir yolu haqqındakı qanun, bir zaman bütün Parisdə günün ən maraqlı məsələsi olub dövlət kağızları qiymətinin əsrarəngiz surətdə düşüb-qalxması və, nəhayət, 10 mart seçkilərində Fuld ilə Bonapartın baş tutmayan ehtikarı.
Maliyyə aristokratiyasının rəsmi bərpası ilə fransız xalqı tezliklə yenidən 24 fevral qarşısında durmalı idi.

Konstituanta, öz varisinə qızğın nifrət bəslədiyindən 1850-ci ilin şərab vergisini ləğv etmişdi. Köhnə vergilər ləqv edildiyinə görə, yeni borcları ödəmək üçün vəsait yox idi. Qayda-qanun partiyası axmaqlarından biri olan Kreton, Qanunverici məclis öz iclaslarına hələ fasilə verməmiş, təklif etdi ki, şərab vergisi saxlanılsın. Fuld bu təklifi bonapartist hökuməti adından qəbul etdi və 1849-cu il dekabrın 20-də, Bonapartın prezident e`lan edilməsinin ildönümü günü Milli məclis şərab vergisinin yenidən qoyulduğu haqqında bir dekret verdi.

Bu verginin yenidən qoyulmasını müdafiə edən adam maliyyəçi deyil, yezuitlərin rəhbəri Montalamber idi. Onun gətirdiyi dəlillər heyrət ediləcək dərəcədə sadə idi. Vergi–hökumətə süd verən ana döşüdür; hökumət isə–təzyiq alətidir, nüfuz orqanlarıdır, ordudur, polisdir, mə`murlardır, hakimlərdir, nazirlərdir, keşişlərdir. Vergiyə qəsd etmək,–burjua cəmiyyətinin maddi və mə`nəvi istehsalını proletar vəhşilərinin qəsdindən qoruyan qayda-qanun keşikçilərinə anarxistlərin qəsd etməsi deməkdir. Vergi,–mülkiyyət, ailə, qayda-qanun və dinlə bir sırada beşinci allahdır. Şərab vergisi isə şəksiz bir vergidir, həm də adi bir vergi deyil, monarxizm qoxusu verən köhnə, hörmətli bir vergidir. «Vive l`impot des boissons! Three cheers and one more» (Yaşasın şərab vergisi! Üç qat ura və yenə də ura! Red.).

Fransız kəndlisi şeytanı öz təsəvvürünə gətirmək istədiyi zaman onu vergi yığan sifətində görür. Montalamber vergini allah e`lan etdiyi zamandan bəri kəndli allahsız, ateist oldu və şeytanın–sosializmin qucağına atıldı. Qayda-qanun dini düşüncəsizlik üzündən kəndlini itirdi, yezuitlər düşüncəsizlik üzündən kəndlini itirdilər, Bonapart düşüicəsizlik üzündən kəndlini itirdi. 1849-cu ilin 20 dekabrı 1848-ci ilin 20 dekabrını həmişəlik e`tibardan saldı. «Öz əmisinin qardaşı oğlu» öz ailəsində birinci adam deyildi ki, şərab vergisi, Montalamber demişkən, inqilab tufanı qoxusu verən bu vergi onu məhv etmişdi. Əsl, böyük Napoleon Müqəddəs Yelena adasında demişdi ki, şərab vergisinin yenidən qoyulması onun süqutuna hər şeydən artıq səbəb olmuşdu, çünki bu vergi Cənubi Fransa kəndlilərini ondan uzaqlaşdırmışdı. Hələ XIV Lüdovik zamanında bu vergi xalqın nifrətinin başlıca səbəbi olmuşdu (Buagilber və Vobanın əsərlərinə baxın). Birinci inqilab bu vergini ləğv etmişdi, Napoleon isə 1808-ci ildə onu bir qədər dəyişdirilmiş şəkildə yenidən qoydu. Restavrasiya Fransaya daxil olan zaman nəinki at çapan kazaklar, habelə şərab vergisini ləğv etmək

və`dləri də ona yol açırdı. Əlbəttə, «gentilhommerie» (zadəganlar. Red.) «gens taillable a merci et misericorde» (hüquqsuz aşağı silkə. Red.) verilən və`di yerinə yetirməyə məcbur deyildilər. 1830-cu il şərab vergisinin ləğv ediləcəyini və`d etdi. Deyilən şeyi etmək və edilən şeyi demək bu ilin ruhuna uyğun deyildi. 1848-ci il, hər şeyi və`d etdiyi kimi, şərab vergisini ləğv edəcəyini də və`d etdi. Nəhayət, heç bir şey və`d etməyən Konstituanta, yuxarıda dediyimiz kimi öz vəsiyyətnaməsində şərab vergisinin 1850-ci il yanvarın 1-dən e`tibarən ləğv edilməsi haqqında binagüzarlıq verdi. Lakin 1850-ci il yanvarın 1-nə onca gün qalmış Qanunverici məclis bu vergini yenidən qoydu. Beləliklə, fransız xalqı əbəs yerə bu vergini qovmağa çalışırdı; fransız xalqı bu vergini qapıdan qovub çıxaranda, o yenidən pəncərədən içəri girirdi.

Xalqın şərab vergisinə nifrəti əbəs deyildi; fransız vergi sisteminin nifrət doğuran bütün iyrənc cəhətləri bu vergidə birləşmişdi. Bu vergini almaq üsulu nifrət doğurur, onu bölmək üsulu aristokratcasınadır, çünki qoyulan verginin faiz dərəcəsi həm ən adi şərablar, həm də ən bahalı şərablar üçün bərabərdir deməli, istehlakçıların əmlakı azaldıqca bu vergi həndəsi proqreslə artır; bu vergi tərsinə olan mütərəqqi vergidir. Bu vergi saxta və sün`i şərab qayırmaq üçün verilən mükafatdır və beləliklə də zəhmətkeş siniflərin daim zəhərlənməsinə səbəb olur. Bu vergi əhalisi 4000 nəfərdən artıq olan hər bir şəhərin qapısında aksiz qaravulxanası quraraq və hər bir belə şəhəri himayə gömrüyü ilə fransız şərabından qoruyan yad bir ölkə halına salaraq istehlakı azaldır. İri şərab alverçiləri və daha artıq dərəcədə xırda «marchands de vin»lərin, yə`ni gəliri ancaq şərab istehlakından asılı olan meyxanaçıların hamısı şərab vergisinin qatı düşmənidir Nəhayət, şərab vergisi istehlakı azaltmaqla məhsulun satış bazarını da daraldır. Bu vergi şəhər fəhlələrini şərab almaq imkanından məhrum etməklə, şərab istehsal edən kəndliləri də şərab satmaq imkanından məhrum edir. Fransada isə təqribən 12 milyon şərab istehsalçısı vardır. Buna görə də bütün xalqın şərab vergisinə nifrət bəsləməsinin səbəbi və xüsusən kəndlilərin şərab vergisinə qarşı son dərəcə qəzəblənmələrinin səbəbi aydındır. Həm də onlar şərab vergisinin yenidən qoyulmasını az-çox təsadüfi olan tək bir hadisə hesab etmirdilər. Kəndlilərin atadan oğula keçən öz xüsusi tarixi ən`ənələri vardır və bu tarixi məktəbdə belə bir əqidə hasil olmuşdur ki, hər bir hökumət kəndliləri aldatmaq istəyəndə şərab vergisini ləğv edəcəyini onlara və`d edir və onları aldadan kimi vergini

yenə öz gücündə saxlayır və ya yenidən qoyur. Kəndli hökumətin şirin dilini, onun meylini şərab vergisi ilə sınaqdan çıxarır. Dekabrın 20-də şərab vergisinin yenidən qoyulması bu demək idi ki, Lui Bonapart da başqaları kimidir. Lakin o, başqaları kimi deyildi; o, kəndlilərin icadı idi və kəndlilər milyonlarla adamın vergi əleyhinə yazıb imzaladığı kollektiv ərizələrlə, bir il əvvəl «öz əmisinin qardaşı oğluna» verdikləri səsləri geri almış oldular. Bütün Fransa əhalisinin üçdə iki hissəsindən çoxunu təşkil edən kənd əhalisi başlıca olaraq azad torpaq sahibləri adını daşıyanlardan ibarətdir. Bunların 1789-cu il inqilabı nəticəsində feodal mükəlləfiyyətindən pulsuz azad edilən birinci nəsli öz torpağının müqabilində heç bir şey ödəməmişdi. Lakin sonrakı nəsillər, vaxtı ilə özlərinin yarıtəhkimli ata-babalarının renta, onda bir vergisi, biyar və sairə şəklində verdiyini, torpağın qiyməti şəklində verməli olmuşdular. Bir tərəfdən, əhalinin sayı artdıqca, digər tərəfdən isə, torpaqlar daha çox xırdalandıqca, xırda torpaq parçasının qiyməti də bahalanırdı, çünki bu parsellər xırdalandıqca, onlara tələb də artırdı. Lakin kəndlinin parsel müqabilində ödədiyi qiymət artdıqca kəndlinin borcu, yə`ni hipotek də hökmən artırdı və kəndlinin bu parseli ya bilavasitə satın almasının, yaxud parselin ona həmvarisləri tərəfindən kapital olaraq verilmiş olmasının fərqi yox idi. Məhz torpaqla əlaqədar olan borc hipotek, yə`ni torpaq girovu adlanır. Orta əsrlərdəki torpaq sahələri ətrafında imtiyazlar yığışıb çoxaldığı kimi, müasir parsellər ətrafında da hipoteklər yığışıb çoxalır.–Digər tərəfdən, parsel sistemində torpaq kəndli üçün adi istehsal alətidir. Lakin torpaq nə dərəcədə xırdalanırsa, onun məhsuldarlığı da o dərəcədə azalır. Torpağı becərmək üçün maşın işlətmək, əmək bölgüsü, böyük meliorasiya tədbirləri, məsələn; qurutma və suvarma kanalları çəkmək və i.a. get-gedə daha az mümkün olur, torpağı becərmək üçün edilən səmərəsiz xərc isə artır, həm də bu istehsal alətinin özü nə nisbətdə xırdalanırsa, həmin xərc də eyni nisbətdə artır. Bütün bunlar parsel sahibinin kapitalı olub-olmadığından asılı olmayaraq baş verir. Lakin torpağın parçalanma prosesi davam etdikcə ən acınacaqlı avadanlığa malik torpaq parçası xırdaca təsərrüfatın yeganə kapitalı şəklini alır, torpağa kapital qoymaq imkanı daha da azalır, ən yoxsul kəndli [Kotsass] aqronomiyanın müvəffəqiyyətlərindən istifadə edə bilmək üçün lazım olan torpağın, pulun və təhsilinin çatışmadığını daha artıq hiss edir, torpağı becərmək işi daha artıq tənəzzül edir. Nəhayət, ümumi istehlak nə nisbətdə artırsa və kəndlinin bütün ailəsinin yaşamasını

tə`min etməyən mülkiyyəti, bu ailənin başqa bir işlə məşğul olmasına nə nisbətdə mane olursa, təsərrüfatın xalis mədaxili də o nisbətdə azalır. Deməli, əhali nə dərəcədə artırsa və torpaq nə dərəcədə xırdalanırsa, istehsal aləti, torpaq da o dərəcədə bahalanır, torpağın məhsuldarlığı azalır, əkinçilik o dərəcədə tənəzzül edir və kəndlinin borcu artır. Vaxtilə nəticə olan şey, indi dönüb onun səbəbi olur. Hər bir nəsil özündən sonrakı nəslə daha çox borc qoyub gedir, hər bir yeni nəsil daha ağır və əlverişsiz şəraitdə həyat sürməyə başlayır, hipotek borcu yeni-yeni hipotek borcuna səbəb olur və kəndli yeni borc almaq üçün bir parça torpağını yenidən girov qoya bilməyəndə, yə`ni torpağının üzərinə yeni hipoteklər qoydura bilməyəndə, bilavasitə sələmçinin pəncəsinə düşür və bununla da sələm faizi olduqca artır.

Beləliklə, fransız kəndlisi torpağın hipotek faizi şəklində və sələmçidən hipotek xaricində aldığı borcun faizi şəklində kapitalistlərə nəinki torpaq rentası, nəinki sənaye mənfəəti verir, bir sözlə,–nəinki bütün xalis mədaxilini, hətta öz əmək haqqının bir hissəsini də onlara verir; beləliklə, fransız kəndlisi İrlandiya icarədarı səviyyəsinə alçalmışdır və bunların hamısı xüsusi mülkiyyətçi adı ilə olmuşdur.

Fransada get-gedə artan vergilərin ağırlığı və məhkəmə xərci bu prosesi sür`ətləndirmişdi; məhkəmə xərci isə qismən bilavasitə fransız qanunlarının torpaq mülkiyyəti üçün törətdiyi rəsmiyyətdən, qismən hər yerdə bir-biri ilə təmas edən və çarpazlaşan parsel sahibləri arasındakı saysız-hesabsız münaqişələrdən, qismən də bütün mülkiyyət zövqünü öz xəyali mülkiyyətini, mülkiyyət hüququnu təəssübkeşliklə müdafiə etməkdən alan kəndlilərə məxsus çəkişmə həvəsindən irəli gəlirdi.

1840-cı ilin statistika mə`lumatına görə Fransa əkinçiliyinin ümumi məhsulu 5237178000 franklıq idi. Torpağı becərmək xərcinə, o cümlədən əkinçilərin istehlakına sərf olunan 3552 milyon frank bu məbləğdən çıxılmalıdır. 1685178000 franklıq xalis məhsul qalır ki, bundan 550 milyon frank hipotek faizi üçün, 100 milyonu məhkəmə mə`murları üçün, 350 milyonu vergi üçün və 107 milyonu notarius haqqı, gerb rüsumu, hipotek rüsumu və s. üçün ayrılmalıdır. Beləliklə, xalis məhsulun üçdə bir hissəsi– 538000000 qalır; əhali arasında adambaşına 25 frank xalis gəlir də düşmür129. Nə hipotek xaricindəki sələmçilik, nə də vəkil xərci və s. bu hesablamada, əlbəttə, nəzərə alınmamışdır.

Kəndlilərin köhnə məşəqqətlərinə respublikanın yeni məşəqqətlər əlavə etdiyi nəzərə alınarsa, indi fransız kəndlilərinin vəziyyəti tamamilə aydın olar. Aydındır ki, kəndlilərin istismar olunması ilə sənaye proletariatının istismar olunması arasında yalnız forma e`tibarı ilə fərq vardır. Bunların hər ikisinin istismarçısı yenə də kapitalın özüdür. Ayrı-ayrı kapitalistlər ayrı-ayrı kəndliləri hipotek və sələmçilik vasitəsi ilə istismar edirlər kapitalistlər sinfi kəndlilər sinfini dövlət vergiləri vasitəsi ilə istismar edir. Kəndli mülkiyyəti hüququ, bu vaxtadək kəndliləri kapitalın ixtiyarına verən bir tilsimdir, bir bəhanədir ki, kapital bundan istifadə edərək, kəndliləri sənaye proletariatına qarşı qaldırırdı. Yalnız kapitalın süqutu kəndlini yüksəldə bilər, yalnız antikapitalist proletar hökuməti kəndlinin iqtisadi yoxsulluğuna və ictimai tənəzzülünə son qoya bilər. Konstitusiyalı respublika kəndlinin birləşmiş istismarçılarının diktaturasıdır, sosialist-demokratik respublika, qırmızı respublika kəndlinin müttəfiqlərinin diktaturasıdır. Kəndlinin seçki qutusuna saldığı səslərdən asılı olaraq tərəzinin gözü ya enir, ya da qalxır. Kəndli öz müqəddəratını özü həll etməlidir.–Sosialistlər həcvlərdə, almanaxlarda, təqvimlərdə, hər cür vərəqələrdə belə deyirdilər. Qayda-qanun partiyasının mübahisə mahiyyətli əsərləri sayəsində bu ideyalar kəndli üçün daha aydın olmuşdur; bu partiya da, kəndliyə müraciət edir və özünün kobud mübaliğələri ilə, sosialist ideya və sə`ylərini vicdansızcasına təhrif etməklə lap kəndlinin ürəyindən xəbər verir və kəndlinin haram meyvəyə ehtirasını daha da artırırdı. Lakin seçki hüququndan istifadə edərkən kəndli sinfinin əldə etdiyi təcrübənin özü və inqilabın sür`ətli inkişafında kəndlinin dalbadal düçar olduğu mə`yusluq ona daha aydın tə`sir göstərirdi. İnqilablar tarixin lokomotivləridir. Kəndlilərin əhvali-ruhiyyəsində tədricən əmələ gələn dəyişiklik müxtəlif əlamətlərlə özünü göstərdi. Bu dəyişiklik Qanunverici məclisə seçkilərdə özünü göstərmişdi, Lion ətrafındakı beş departamentdə e`lan edilən mühasirə vəziyyətində özünü göstərmişdi, 13 iyun günündən bir neçə ay sonra Jironda departamentində «misilsiz palatanın» [chambre introuvağle] (1815-ci ildə, Napoleon ikinci dəfə taxtdan əl çəkəndən bilavasitə sonra seçilən son dərəcə royalist və mürtəce palata, tarixdə bu adla tanımmışdır. (1895-ci il nəşrinə Engelsin qeydi.)) keçmiş sədri əvəzinə montanyarın seçilməsində özünü göstərmişdi, 1849-cu il dekabrın 20-də Qar departamentinin vəfat etmiş legitimist deputatı yerinə qırmızı bir deputatın seçilməsində130 özünü göstərmişdi, halbuki bu vilayət legitimistlərin ana

yurdu hesab edilirdi, 1794 və 1795-ci illərdə respublikaçılara tutulan dəhşətli divanın meydanı olmuşdu, 1815-ci ildəki «terruer blanche»nin (ağ terrorun. Red.) mərkəzi idi və orada liberallarla protestantları açıqdan-açığa öldürürdülər. Ən hərəkətsiz sinfin bu cür inqilabçılaşması şərab vergisi yenidən qoyulandan sonra özünü daha aydın göstərdi. 1850-ci ilin yanvar və fevralında hökumətin gördüyü tədbirlər və verdiyi qanunlar, demək olar, yalnız departamentlərə və kəndlilərə qarşı yönəldilmişdi ki, bu da kəndlilərin oyandığına ən inandırıcı sübutdur.

Jandarmı prefektə, suprefektə və hamıdan əvvəl merə qarşı inkvizitor vəziyyətinə qoyan, ən ucqar kəndlərin kənar guşələrinə qədər hər yerdə casusluq sistemi təşkil edən Opul tə`mimnaməsi; kəndli sinfinin ideoloqları, müdafiəçisi, tərbiyəçisi və məşvərətçisi olan məktəb müəllimləri əleyhinə yönəldilib onları bütünlüklə prefektin özbaşınalığına tabe edən, alimlər sinfinin proletarları olan bu müəllimləri tə`qib edilən şikar kimi bir kənddən başqa bir kəndə qovan qanun; merlər əleyhinə hazırlanıb iste`fa təhlükəsini Damokl qılıncı kimi onların başı üstündə asan və hər an onları, kəndli icmalarının bu prezidentlərini respublika prezidentinə və qayda-qanun partiyasına qarşı qoyan qanun layihəsi; Fransanın 17 hərbi dairəsini dörd paşalığa131 çevirib qışla və açıq ordugahı fransızların milli salonu halına salan fərman; qayda-qanun partiyasının ümumi seçki hüququ üsulu şəraitində Fransanın cəhalətini və zorla kütləşməsini öz varlığı üçün zəruri şərt e`lan edərək, bu barədə verdiyi təhsil qanunu,–bütün bu qanun və tədbirlər nə demək idi? Bütün bunlar departamentləri və departamentlərin kəndlilərini yenidən qayda-qanun partiyasına tabe etmək üçün edilən ümidsiz cəhdlər idi.

Cəza tədbirləri olmaq e`tibarı ilə bütün bunlar hədəfə dəyməyən miskin vasitələr idi. Şərab vergisinin və 45 santimlik verginin saxlanılması, kəndlilərin milyardı qaytarmaq haqqındakı kollektiv ərizələrinin istehza ilə rədd edilməsi və sair bu kimi böyük tədbirlər,–bütün bu qanunvericilik şimşək və ildırımları kəndli sinfnnə ancaq birdən, elliklə, mərkəzdən dəyirdi. Yuxarıda sayılan qanun və tədbirlər isə hücuma və müqavimətə ümumi xarakter verir, bunları hər komada söhbət mövzusu edir, inqilabı hər kəndə aşılayır, inqilabı yerlərə yayır və kəndliləşdirirdi.

Digər tərəfdən, Bonapartın bu layihələri və bunların Milli məclis tərəfindən qəbul edilməsi, anarxiyanı boğmaq, yə`ni burjuaziyanın diktaturasına qarşı üsyan edən bütün sinifləri əzmək məsələsi qarşıda durduğu zaman

konstitusiyalı respublikanın hər iki hakimiyyət orqanının razılığa gəldiyini sübut etmirmi? Məgər Suluk özünün kobud məktubundan132 dərhal sonra, Lui Bonapartın özü Napoleonun bayağı karikaturası olduğu kimi, Fuşenin çirkin və bayağı karikaturası olan Karlyenin bundan bilavasitə sonrakı məktubunda qayda-qanun işinə sadiq olduğu haqqında Qanunverici məclisə tə`minat verməmişdi?

Təhsil qanunu bizə gənc katoliklərlə qoca volterçilərin ittifaqını göstərir. Birləşmiş burjuaziyanın hökmranlığı,–yezuitlərə dost olan Restavrasiyanın və özünü azad fikir tərəfdarı kimi göstərən İyul monarxiyasının birləşmiş istibdadından başqa bir şey ola bilərdimi? Bir halda ki, xalq burjua fraksiyalarının birləşmiş diktaturasına qarşı qalxmışdı, Məgər həmin fraksiyalar vaxtilə ali hakimiyyət uğrunda öz aralarında mübarizə edərkən bu fraksiyalardan hər birinin digərlərinə qarşı xalqa verdiyi silahları indi onlar xalqın əlindən dartıb geri almalı deyildilərmi? Heç bir şey, hətta «concordats a l`amiable» (xoşluqla bağlanan sazişlər. Red.) haqqındakı qanunun rədd edilməsi də Paris dükançısını, yezuitizmlə bu işvəbazlıq qədər hiddətləndirməmişdi.

Eyni zamanda qayda-qanun partiyasının müxtəlif fraksiyaları arasında, habelə Milli məclislə Bonapart arasında toqquşmalar öz qaydasınca davam edirdi. Milli məclisin xoşuna gəlməmişdi ki, Bonapart öz «coup d`etat»dan bilavasitə sonra, öz bonapartist hökumətini tə`yin edəndən sonra, monarxiyanın yenidən prefekt tə`yin edilən əlillərini öz yanına çağırmış və konstitusiyada qadağan edildiyinə baxmayaraq, özünün ikinci dəfə prezident seçilməsi xeyrinə təşviqatla məşğul olmalarını onların xidmətdə qalmaları üçün bir şərt olaraq irəli sürmüşdü; Məclisin xoşuna gəlməmişdi ki, Karlye tə`yni edilən kimi legitimistlərin bir klubunu bağlatdırmışdı; Məclisin xoşuna gəlməmişdi ki, Bonapart «Napoleon»134 adlı öz xüsusi qəzetini tə`sis etmişdi və həmin qəzet prezidentin gizli diləklərini camaata bildirirdi, nazirlər isə Qanunverici məclisin tribunasında danışanda prezidentin bu diləklərini danmalıydılar; Məclisin xoşuna gəlməmişdi ki, bütün e`timadsızlıq qərarlarına baxmayaraq, Bonapart inad edib öz nazirlərini işdən çıxartmırdı; Məclisin xoşuna gəlməmişdi ki, kiçik zabitlərin gündəlik maaşına dörd su artırmaqla onların hüsn-rəğbətini və Ejen Sünün «Paris sirlərindən» ədəbiyyat oğurluğu yolu ilə götürülmüş «borc verən şərəf bankı» tə`sis etməklə proletariatın hüsn-rəğbətini qazanmağa cəhd edilmişdi; nəhayət, Məclisin xoşuna gəlməmişdi ki,

prezident ayrı-ayrı adamları bağışlamaqla özünə «en detail» (xırda-xırda. Red.) şöhrət qazandırdığı halda, Qanunverici məclisi «en gros» (topdan, birdibli. Red.) hörmətdən salmaq üçün salamat qalan iyun üsyançılarını Əlcəzairə sürgün etmək Bonapartın nazirləri vasitəsi ilə həyasızcasına təklif edilmişdi. Tyer «coups d`etat» və «coups de tete» (Burda cinas var: «coups d`etat»–«dövlət çevrilişi», «coups de tete» isə–«düşüncəsiz hərəkətlər» deməkdir. Red.) haqqında hədələynci sözlər söylədi, Qanunverici məclis isə Bonapartdan bununla qisas alırdı ki, Bonapartın öz mənafeyi üçün Məclisə təqdim etdiyi hər qanun layihəsini rədd edirdi və ümumi mənafe üçün təqdim etdiyi hər qanun layihəsini Bonapartın icraiyyə hakimiyyətini qüvvətləndirmək bəhanəsi ilə öz şəxsi hökmranlığını artırmağa cəhd edib-etmədiyi cəhətdən gurultulu şübhə ilə yoxlayırdı. Bir sözlə, Məclis nifrət qəsdi ilə qisas alırdı.

Legitimistlər partiyasını da acıqlandıran bu idi ki, daha zirək tərpənən orleanistlər, demək olar, bütün dövlət vəzifələrini yenə öz əllərinə alırlar və mərkəzləşmə qüvvətlənir, halbuki legitimistlər öz işlərinin müvəffəqiyyətini pərakəndələşmədə görürdülər. Doğrudan da, əksinqilab zorakılıqla mərkəzləşdirmə tdtbiq edirdi, yə`ni inqilab mexanizmini hazırlayırdı. Əksinqilab bank biletləri üçün məcburi məzənnə qoymaqla Fransanın hətta qızıl və gümüşünü də Paris bankında mərkəzləşdirmiş və beləliklə inqilabın hazır hərbi xəzinəsini yaratmışdı.

Nəhayət, orleanistləri acıqlandıran bu idi ki, onların əlavə sülalə prinsipinə yenidən pırtlayıb meydana çıxan legitimizm prinsipi qarşı qoyulurdu və zadəgan burjua ailəsindən çıxmış arvadına xor baxdığı kimi, onların özlərinin də daim ağzından vurur və onlara xor baxırdılar.

Biz kəndlilərin, xırda burjuaların, ümumiyyətlə cəmiyyətin orta təbəqələrinin necə proletariat tərəfinə keçdiklərini, rəsmi respublikaya qarşı necə açıqdan-açığa antaqonizm halına gəldiklərini, respublikanın onlara necə bir düşmən kimi xor baxdığını addım-addım izlədik. Burjuaziyanın diktaturasına qarşı qəzəb, cəmiyyətin yenidən qurulmasına olan ehtiyac, demokratik respublika müəssisələrini bu yenidən qurmanın alətləri kimi mühafizə etmək, həlledici inqilabi qüvvə olan proletariatın ətrafında birləşmək,–sosialist-demokratiya partiyası adlanan partiyanı, qırmızı respublika partiyasını xarakterizə edən ümumi cəhətlərdir. Öz düşmənləri tərəfindən «anarxiya partiyası» adlandırılan bu partiya da qayda-qanun partiyası kimi müxtəlif mənafeyin birləşməsidir. Köhnə ictimai

qaydasızlığın ən cüz`i islahatından tutmuş köhnə ictimai qaydanın devrilməsinə qədər, burjua liberalizmindən tutmuş inqilabi terrorizmə qədər–«anarxiya partiyasının» çıxış və son nöqtəsini təşkil edən ən kənar nöqtələr bir-birindən bu qədər uzaqdır!
Himayə gömrüklərini ləğv etmək–sosializmdir! çünki bu, qayda-qanun partiyasının sənaye fraksiyasının inhisarına qəsd edir. Dövlət təsərrüfatını qaydaya salmaq–sosializmdir! çünki bu, qayda-qanun partiyasının maliyyə fraksiyasının inhisarına toxunur. Xaricdən sərbəst surətdə taxıl və ət gətirmək–sosializmdir! çünki bu, qayda-qanun partiyasının üçüncü fraksiyasının, iri torpaq sahibliyinin inhisarını pozur. Fritrederlərin, yə`ni ingilis burjuaziyasının bu ən mütərəqqi partiyasının tələbləri Fransada bütünlüklə sosialist tələbləri hesab edilir. Volterçilik–sosializmdir! çünki bu, qayda-qanun partiyasının dördüncü fraksiyasına, katoliklər fraksiyasına hücum edir. Mətbuat azadlığı, ittifaqlar azadlığı, ümumi xalq təhsili–sosializmdir, sosializmdir! Axı bunların hamısı qayda-qanun partiyasının ümumi inhisarına qəsddir!
İnqilabın gedişində vəziyyət o qədər sür`ətlə yetkinləşdi ki, bütün çalarlardan olan islahat dostları, ən çüz`i tələblər irəli sürən orta siniflər ifratçı çevriliş partiyasının bayrağı ətrafında, qırmızı bayraq ətrafında birləşməyə məcbur oldular.
Lakin «anarxiya partiyasının» başlıca tərkib ünsürlərinin sosializmi, iqtisadi şəraitdən və buna əsasən bu və ya digər bir sinfin, yaxud sinif fraksiyasının ümumi inqilabi tələbatından asılı olaraq, nə qədər fərqli olsa da, bir nöqtədə eyni bir şey idi: bu sosializm özünü proletariatı azad etmək vasitəsi e`lan edir və onu azad etməyi özünün məqsədi e`lan edirdi.
Bə`ziləri qəsdən başqalarını, digərləri də özlərini aldadıb bu əqidədə idilər ki, onların tələbatına uyğun olaraq yenidən qurulan dünya hamı üçün ən yaxşı dünyadır və bu dünya bütün inqilabi tələbləri həyata keçirir və bütün inqilabi münaqişələri aradan qaldırır.
«Anarxiya partiyasının» bir-birinə az-çox bənzəyən ümumi sosialist cümlələri arxasında, əvvələn, «National», «Presse», «Siecle» qəzetlərinin sosializmi gizlənir ki, bu sosializm də maliyyə aristokratiyasının hökmranlığını devirməyə, sənaye və ticarəti köhnə buxovlardan xilas etməyə az-çox ardıcıl surətdə çalışır. Bu sosializm–sənaye, ticarət və əkinçilik sosializmidir ki, bunların da qayda-qanun partiyasına daxil olan başçıları onların mənafeyini qurban verirlər, çünki bu mənafe onların

xüsusi inhisarlarına daha uyğun gəlmir. Sosializmin hər bir başqa növü kimi fəhlələrin və xırda burjuaların müəyyən hissəsini özünə cəlb edən bu burjua sosializmindən fərqli olan xüsusi sosializm, xırda burjua sosializmidir, «par excellence» (əksəriyyətlə, sözün əsl mə`nasında. Red.) sosializmdir. Kapital bu sinfi başlıca olaraq kreditor sifəti ilə tə`qib edir, buna görə də həmin sinif kredit müəssisələri tələb edir; kapital bu sinfi öz rəqabəti ilə əzib boğur, buna görə də o, dövlət tərəfindən müdafiə edilən birliklər yaradılmasını tələb edir; kapital onu təmərküzlə məğlub edir, buna görə də o, mütərəqqi vergilər qoyulmasını, varislik hüququnun məhdudlaşdırılmasını böyük işlərin dövlət tərəfindən görülməsini və kapitalın artmasına zorla mane olan başqa tədbirlərin həyata keçirilməsini tələb edir. Bu sinif,–çox da uzun çəkməyəcək ikinci bir fevral inqilabına, bəlkə də, yol verərək–öz sosializmini dinc yolla həyata keçirmək xəyalında olduğuna görə, təbiidir ki, gələcək tarixi prosesi, ictimai nəzəriyyəçilərin istər birlikdə, istərsə də təklikdə uydurmaqda və ya artıq uydurmuş olduqları sistemlərin həyata keçirilməsi şəklində təsəvvür edir. Beləliklə, həmin sosialistlər eklektik olurlar, yaxud mövcud sosializm sistemlərinin tərəfdarı olurlar, proletariat öz sərbəst tarixi hərəkatına qədəm qoymaq üçün yalnız hələ yetkinləşmədiyi zamanadək onun nəzəri ifadəsi olan doktrinaçı sosializmin tərəfdarı olurlar.

Bütövlükdə bütün hərəkatı onun dövrlərindən birinə tabe edən, birgə, ictimai istehsalı ayrıca bir pedant beyninin fəaliyyəti ilə əvəz edən və başlıca olaraq, xırda hoqqabazlıqlar və böyük sentimentallıq vasitəsi ilə siniflərin inqilabi mübarizəsini və bu mübarizənin bütün zəruri təzahürlərini öz xəyalında aradan qaldıran bu utopiya, bu doktrinaçı sosializm müasir cəmiyyəti əslində yalnız ideal bir cəmiyyət hesab edir, onun kölgəli tərəflərindən məhrum olan mənzərəsini verir və bu cəmiyyətin həqiqi vəziyyətinə zidd olaraq öz idealını həyata keçirməyə çalışır. Odur ki, proletariat bu sosializmi xırda burjuaziyaya bağışladığı, müxtəlif sosialist rəhbərləri arasında gedən mübarizə isə, sistemlər deyilən şeylərdən hər birinin, ictimai çevrilişin keçid dövrlərindən birini digərlərinə əks olaraq iddialı şəkildə qeyd etməkdən ibarət olduğunu aşkara çıxardığı bir zamanda, proletariat getdikcə inqilabı sosializm ətrafında, burjuaziyanın özü Blankinin adı ilə adlandırdığı kommunizm ətrafında daha artıq birləşir. Bu sosializm fasiləsiz inqilabın e`lan edilməsi, proletariatın sinfi diktaturası deməkdir ki, bu da ümumiyyətlə sinfi fərqləri

yox etmək, bu fərqlərin əsasını təşkil edən bütün istehsal münasibətlərini yox etmək, bu istehsal münasibətlərinə müvafiq olan bütün ictimai münasibətləri yox etmək və bu ictimai münasibətlərdən doğan bütün ideyalarda çevriliş əmələ gətirmək üçün zəruri keçid pilləsidir. Şərhimizin çərçivəsi bizə bu məsələ üzərində müfəssəl dayanmağa imkan vermir.

Biz gördük ki, qayda-qanun partiyasının başında labüd olaraq maliyyə aristokratiyası durduğu kimi, «anarxiya partiyasının» başında da proletariat durdu. İnqilabi cəmiyyətdə birləşən müxtəlif siniflər proletariatın ətrafında toplaşdığı bir zamanda, departamentlər daha az e`tibarlı olmağa başladığı və Qanunverici məclisin özü fransız Sulukunun (III Napoleonun. Red.) iddialarını donquldana-donquldana qarşıladığı bir zamanda, iyunun 13-də qovulmuş montanyarların yerinə yeni nümayəndələr seçmək üçün uzun müddətdən bəri tə`xirə salınıb ləngidilən əlavə seçkilər yaxınlaşdı. Düşmənləri tərəfindən nifrətlə qarşılanan, yalançı dostları tərəfindən addımbaşı təhqir edilib alçaldılan hökumət, bu dözülməz və mütərəddid vəziyyətdən çıxmağın bircə çarəsini qiyamda görürdü. Parisdə bir qiyam Paris və departamentlərdə mühasirə vəziyyəti e`lan etmək, bununla da seçkiləri idarə etmək üçün bəhanə ola bilərdi. Digər tərəfdən, qayda-qanun dostları anarxist rolunu oynamaq istəmirdilərsə, anarxiya üzərində qələbə çalan hökumətə güzəştə getməli olardılar.

Hökumət işə girişdi. 1850-ci il fevralın əvvəllərində həkumət azadlıq ağaclarını135 kəsərək xalq arasına fitnə saldı. Əbəs yerə! Azadlıq ağacları öz yerini itirdisə, hökumət özü də başını itirdi və saldığı fitnə qarşısında qorxuya düşüb geri çəkildi. Milli məclis xilas olmaq üçün Bonapartın etdiyi bu biçimsiz hərəkəti çox soyuq e`timadsızlıqla qarşıladı. Solmaz çiçək əklillərinin iyul sütunundan136 götürülüb atılması da böyük bir müvəffəqpyyət olmadı. Bu hərəkət ordunun bir hissəsində inqilabi nümayişlərə səbəb oldu və Milli məclisə bəhanə verdi ki, hökumətə az-çox gizli şəkildə e`timadsızlıq göstərsin. Hökumətin mətbuatı əbəs yerə hədələyirdi ki, ümumi seçki hüququ ləğv ediləcək və kazaklar buraya soxulacaqlar. Opul əbəs yerə Qanunverici məclisin sol üzvlərinə açıqdan-açığa meydan oxuyub əbəs yerə onları küçəyə çağırır və deyirdi ki, hökumət onları lazımınca qarşılamağa hazırlaşmışdır. Opul ancaq buna nail oldu ki, sədr onu intizamlı olmağa çağırdı və qayda-qanun partiyası, Bonapartın qəsbkarlıq istəyini lağa qoymaq imkanını sol deputatlardan

birisinə verməklə bundan dinməzcə kam alırdı. Nəhayət, hökumətin 24 fevralda inqilab olacağını qabaqcadan xəbər verməsi də əbəs idi. Hökumət yalnız buna nail oldu ki, xalq 24 fevral gününü əsla qeyd etmədi. Proletariat qiyam etmək fitnəsinə uymadı, çünki inqilab etmək niyyətində idi.

Hökumətin fitnəkarlığı ancaq mövcud quruluşdan ümumi narazılığı qüvvətləndirib, bütünlüklə fəhlələrin tə`siri altında olan seçki komitəsinin Paris üçün üç nəfəri: Deflot, Vidal və Karnonu namizəd göstərməsinə mane olmadı. Deflot iyunda sürgün olunmuş və Bonapartın şöhrət qazanmaq üçün atdığı addımlardan biri nəticəsində əfv edilmişdi; o, Blankinin dostu idi və 15 may çıxışında iştirak etmişdi. Vidal, bir kommunist yazıçı kimi, «Sərvətin bölüşdürülməsi haqqında» kitabın müəllifi kimi məşhurdur; o, Lüksemburq komissiyasında Lui Blanın katibi olmuşdu. Karno, Konventin qələbəni təşkil edən üzvünün oğlu, «National» partiyasının ən az e`tibardan düşmüş üzvü idi, müvəqqəti hökumətdə və icraiyyə komissiyasında maarif naziri olmuşdu, təhsil haqqında öz demokratik qanun layihəsi sayəsində yezuitlərin təhsil qanununa qarşı canlı bir protest idi. Bu üç namizəd, öz aralarında ittifaq bağlamış üç sinfi təmsil edirdi: başda iyun üsyançısı, inqilabçı proletariatın nümayəndəsi dururdu; onunla bir sırada sosialist xırda burjuaziyanın nümayəndəsi olan doktrinaçı-sosialist dururdu; nəhayət, üçüncü namizəd–burjua respublikaçıları partiyasının nümayəndəsi idi ki, bu partiyanın demokratnk formulları qayda-qanun partiyası ilə toqquşmalarda sosialist mə`nası qazanmış və özünün əsl mə`nasını çoxdan itirmişdi. Bu, fevralda olduğu kimi, yenə burjuaziyaya və hökumətə qarşı ümumi bir koalisiya idi. Lakin bu dəfə inqilabi birliyin başında proletariat dururdu.

Düşmənlərin bütün cəhdlərinə baxmayaraq, sosialist namizədlər qalib gəldilər. Hətta ordu iyun üsyançısı lehinə və öz hərbi naziri Lant əleyhinə səs verdi. Qayda-qanun partiyası ildırım vurmuş kimi qalmışdı. Departament seçkiləri ona təskinlik vermədi bu seçkilərdə əksəriyyəti montanyarlar qazandı.

1850-ci ilin 10 mart seçkiləri! Bu, 1848-ci il iyununun ləğv edilməsi id:i iyun üsyançılarını sürgün edən və öldürənlər Milli məclisə qayıtdılar, lakin belləri bükülmüş bir halda, sürgün edilmişlərlə birlikdə, dillərində onların prinsipləri ilə qayıtdılar. Bu, 1849-cu il 13 iyunun ləqv edilməsi idi: Milli məclisin qovduğu Dağ Milli məclisə qayıtdı, lakin inqilabın komandiri

kimi deyil, onun qabaqda gedən şeypurçusu kimi qayıtdı. Bu, 10 dekabrın ləğv edilməsi idi: Napoleon, öz naziri Lantin şəxsində müvəffəqiyyətsizliyə uğradı. Fransanın parlament tarixində buna bənzər yalnız bir hadisə olmuşdu: X Karlın naziri Osse 1830-cu ildə müvəffəqiyyətsizliyə uğramışdı. Nəhayət, 1850-ci ilin 10 mart seçkiləri qayda-qanun partiyasının əksəriyyət qazandığı 13 may seçkilərinin ləğv edilməsi idi. 10 mart seçkiləri 13 may əksəriyyətinə qarşı bir protest oldu. 10 mart inqilab idi. Seçki bülletenlərinin dalında küçə daşı gizlənirdi. Qayda-qanun partiyasının ən ifratçı üzvlərindən Segür d`Akesso demişdi: «10 mart səsverməsi–müharibədir».

1850-ci il martın 10-dan e`tibarən konstitusiyalı respublika yeni mərhələyə, özünün dağılma mərhələsinə qədəm qoyur. Əksəriyyətin müxtəlif fraksiyaları yenə bir-biri ilə və Bonapartla birləşdilər; onlar yenə qayda-qanunu xilas edirlər; Bonapart yenə onların bitərəf şəxsiyyəti olur. Əgər onlar özlərinin royalizmini xatırlayırlarsa, bunu ancaq burjua respublikasının mümkün olacağına ümidlərini itirdiklərinə görə xatırlayırlar; əgər o, taxt-tac iddiasında olduğunu xatırlayırsa, bunu ancaq prezident qalmaq imkanına ümidini itirdiyinə görə xatırlayır.

Bonapart iyun üsyançısı Deflotun seçilməsinə Baroşu, vaxtilə Blanki və Barbesin, Ledrü-Rollen və Kinarın ittihamçısı olan Baroşu qayda-qanun partiyasının buyuruğu ilə daxili işlər naziri vəzifəsinə tə`yin etməklə cavab verdi. Qanunverici məclis Karnonun seçilməsinə təhsil qanununu qəbul etməklə, Vidalın seçilməsinə isə sosialist mətbuatının səsini boğmaqla canab verdi. Qayda-qanun partiyası öz mətbuatının hay-küyü ilə qəlbindəki vahiməni boğmağa çalışır. Onun orqanlarından biri «qılınc müqəddəsdir» deyir. Başqa bir orqanı da deyir ki, «Qayda-qanun müdafiəçiləri qırmızılar partiyasına qarşı hücuma başlamalıdırlar». Qayda-qanunun üçüncü xoruzu banlayıb deyir «Sosializmlə cəmiyyət arasında ölüm-dirim mübarizəsi, arası kəsilməyən amansız bir müharibə gedir; bu şiddətli müharibədə ikisindən biri məhv olmalıdır; cəmiyyət sosializmi məhv etməzsə, sosializm cəmiyyəti məhv edəcəkdir». Qayda-qanun barrikadaları, din barrikadaları, ailə barrikadaları qurun! 127000 parisli seçicinin137 işini bitirmək lazımdır! Sosialistlər üçün Varfolomey gecəsi düzəldilməlidir! Qayda-qanun partiyası da qələbəsinin tə`min edildiyinə bir an, doğrudan da, inanır.

Onun orqanları hamıdan çox «Paris dükançılarına» qəzəblə hücum edir. Paris dükançıları iyun üsyançısını öz nümayəndələri seçmişlər! Bu o deməkdir ki, ikinci dəfə 1848-ci il iyunu mümkün deyildir; bu o deməkdir ki, ikinci dəfə 1849-cu il 13 iyunu mümkün deyildir; bu o deməkdir ki, kapitalın mə`nəvi nüfuzu qırılmışdır, burjua Məclisi ancaq burjuaziyanı təmsil edir; bu o deməkdir ki, iri mülkiyyət məhv olmuşdur, çünki ondan asılı olan xırda mülkiyyət, özü üçün nicat yolunu mülkiyyətdən məhrum olanlar cəbhəsində axtarır.

Aydındır ki, qayda-qanun partiyası labüd olan öz basma-qəlib üsuluna əl atır: «Daha artıq cəza tədbirləri görməli!», «Cəza tədbirlərini on qat artırmalı!»–deyə bağırır. Lakin onun cəza qüvvəsi on qat azalmış, müqavimət isə yüz qat artmışdı. Məgər başlıca cəza aləti olan ordunun özünə qarşı cəza tədbirləri görülməli deyildi? Odur ki, qayda-qanun partiyası öz son sözünü deyir: «Bizi boğan leqallığın dəmir halqasını qırmaq lazımdır. Konstitusiyalı respublika mümkün olan şey deyildir, biz öz həqiqi silahımızla mübarizə etməliyik; 1848-ci ilin fevralından e`tibarən biz inqilaba qarşı onun öz silahı ilə və onun öz zəmini üzərində mübarizə edirdik, onun tə`sisatlarını qəbul etdik; konstitusiya mühasirədə olanları deyil, mühasirə edənləri qoruyan qaladır! Troya atının qarnında biz müqəddəs İliona soxulduq, lakin babalarımız yunanlardan (Cinasdır: «grecs» həm «yunanlar» deməkdir, həm də «fırıldaqçılar». (1895-ci il nəşrinə Engelsin qeydi.).) fərqli olaraq, biz düşmən şəhərini tutmadıq, əksinə, özümüz əsir düşdük».

Kopstitusiyanın əsasını ümumi seçki hüququ təşkil edir. Ümumi seçki hüququnu ləqv etmək,–budur qayda-qanun partiyasının son sözü, burjua diktaturasının son sözü.

Ümumi seçki hüququ burjuaziyanın bu diktaturaya hüququnu 1848-ci il mayın 4-də, 1848-ci il dekabrın 20-də, 1849-cu il mayın 13-də, 1849-cu il iyulun 8-də təsdiq etmişdi. Ümumi seçki hüququ 1850-ci il martın 10-da öz-özünü məhkum etdi. Ümumi seçki hüququnun bəhrə və nəticəsi, xalqın suveren iradəsinin qəti hərəkəti olmaq e`tibarı ilə burjuaziyanın hökmranlığı,–məhz burjua konstitusiyasının mə`nasıdır. Lakin bu seçki hüququnun, xalqın bu suveren iradəsinin məzmunu, daha burjuaziya hökmranlığı demək olmadığı andan e`tibarən konstitusiyanın nə mə`nası vardır? Məgər seçki hüququnu, ağıllı bir şey istəyəcək, yə`ni burjuaziyanın hökmranlığını istəyəcək şəkildə nizama salmaq burjuaziyanın bilavasitə

vəzifəsi deyildir? Məgər ümumi seçki hüququ hər dəfə mövcud dövlət hakimiyyətini məhv etməklə və hər dəfə onu yenə özündən yaratmaqla hər cür sabitliyi məhvetmirmi, bütün mövcud hakimiyyətləri hər dəqiqə təhlükə qarşısında qoymurmu, nüfuzu qırmırmı, anarxiyanın özünü nüfuz sahibi etmək qorxusu törətmirmi? 1850-ci il martın 10-dan sonra buna daha kim şübhə edə bilər?

Burjuaziya, bu vaxtadək ümumi seçki hüququnu bir bəzək kimi geydiyi və qüdrətini ondan aldığı halda indi, onu rədd edərək, açıqcasına e`tiraf edir ki: «Bizim diktaturamız bu vaxtadək xalqın iradəsi ilə yaşayırdı, bundan sonra isə xalqın iradəsi ziddinə möhkəmləndiriləcəkdir». Odur ki, burjuaziya tamamilə ardıcıl hərəkət edərək, indi özü üçün dayağı Fransada deyil, onun xaricində, xarici ölkələrdə, basqında axtarır.

Fransanın özünü, özü üçün iqamətgah seçən bu ikinci Koblens138 basqına çağırmaqla birlikdə bütün milli ehtirasları öz əleyhinə qaldırır. O, ümumi seçki hüququna hücum etməklə yeni inqilab üçün ümumi bir bəhanə verir, inqilaba isə məhz belə bir bəhanə lazımdır. Hər bir xüsusi bəhanə inqilabi birlik fraksiyalarını ayırıb aralarındakı fərqləri hökmən zahirə çıxarardı. Ümumi bəhanə isə yarıinqilabçı sinifləri gicəlləndirir, qarşıdakı inqilabın müəyyən xarakteri və öz hərəkətlərinin nəticələri barəsində bu siniflərin özünü aldatmasına səbəb olur. Hər bir inqilab ziyafət məsələsinə möhtacdır. Ümumi seçki hüququ da yeni inqilabın ziyafət məsələsidir. Lakin birləşmiş burjua fraksiyaları öz birləşmiş hakimiyyətinin yeganə mümkün formasından, öz sinfi hökmranlığının ən qüdrətli və ən dolğun formasından, konstitusiyalı respublikadan əl çəkməklə və geri çəkilib aşağı, natamam və daha zəif formaya, monarxiyaya doğru atılmaqla özləri haqqında hökm çıxarmış oldular. Onlar elə qocaya bənzəyirlər ki, gənclik təravətini qaytarmaq arzusu ilə öz uşaqlıq paltarını götürüb qartımış bədəninə taxmağa cəhd edirlər. Onların respublikasının xidməti yalnız bunda idi ki, bu respublika inqilabın şitilliyi idi.

1850-ci il 10 mart günü üzərində yazılan budur:

«Apres moi le deluge!» (Məndən sonra istər lap tufan qopsun. (XV Lüdovikə isnad edilən sözlər.) Red.)

IV

1850-ci İLDƏ ÜMUMİ SEÇKİ HÜQUQUNUN LƏĞV EDİLMƏSİ

(Bundan əvvəlki üç fəslin ardı «Neue Rheinische Zeitunq. Politisch-ökonomische Revue»79 jurnalının son, qoşa, 5-6-cı nömrəsində dərc edilən

«İcmal»dan götürülmüşdür. Orada əvvəlcə 1847-ci ildə İngiltərədə baş verən böyük ticarət böhranı təsvir olunur; Avropa kontinentində siyasi ixtilafların kəskinləşməsi və 1848-ci il fevral və mart inqilablarına çevrilməsi bu böhranın Avropa kontinentinə tə`siri ilə izah olunur, sonra isə göstərilir ki, ticarət və sənayenin 1848-ci ildə başlanıb 1849-cu ildə daha da qüvvətlənən tərəqqisi, inqilabi yüksəlişin zəifləməsinə səbəb olmuş və eyni zamanda irticanın qələbələrini mümkün etmişdi. Sonra xüsusi olaraq Fransa haqqında aşağıdakılar deyilir:) (Bu ilk abzası Engels 1895-ci il nəşri üçün yazmışdır. Red.).

Fransada eyni əlamətlər 1849-cu ildən, xüsusən 1850-ci ilin əvvəllərindən görünməyə başladı. İngiltərədə olduğu kimi, burada da xammalın bahalığı əngəl təşkil edirdisə də, Paris sənayesi var gücü ilə, Ruan və Mülhauzen pambıq parça fabrikləri də olduqca yaxşı işləyirdi. Həm də Fransada bu tərəqqinin inkişafına, İspaniyada keçirilən geniş gömrük islahatı və Meksikada müxtəlisr zinət şeyləri üçün qoyulan gömrüyün aşağı salınması xüsusilə kömək etmişdi. Bu bazarların hər ikisinə fransız əmtəə ixracı olduqca artmışdı. Fransada kapitalın artması tam bir sıra ehtikarla nəticələnmişdi ki, Kaliforniya qızıl mə`dənlərinin geniş miqyasda işlədilməsi bu ehtikarlar üçün bir bəhanə olmuşdu. Kiçik səhmləri və sosialist rənginə boyanmış e`lanları ilə bilavasitə xırda burjua və fəhlələrin pul kisəsinə müraciət edən, lakin ümumiyyətlə ancaq fransızlara və çinlilərə məxsus xalis fırıldaqçılıqla məşğul olan bir çox şirkətlər meydana çıxmışdı. Bu şirkətlərdən biri hətta bilavasitə hökumətin himayəsindədir. Fransada idxal gömrükləri 1848-ci ilin birinci doqquz ayı ərzində 63 milyon frank, 1849-cu ilin doqquz ayı ərzində 65 milyon frank, 1850-ci ilin doqquz ayı ərzində isə 93 milyon frank olmuşdu. Həm də 1850-ci ilin sentyabrında bu gömrük 1849-cu ilin həmin ayına nisbətən yenə bir milyondan da çox artmışdı. İxracat da 1849-cu ildə artmış və 1850-ci ildə daha yüksək olmuşdu.

1850-ci il 6 avqust tarixli qanuna əsasən Fransa bankının yenidən nağd tə`diyələr üsuluna keçməsi, yenidən tərəqqi başlandığına ən inandırıcı sübutdur. 1848-ci il martın 15-də bank nağd tə`diyələri dayandırmaq ixtiyarı almışdı. Əyalət bankları da daxil olmaqla, tədavüldə olan banknotların məbləği o zaman 373 milyon frank (14920000 funt sterlinq) idi. 1849-cu il noyabrın 2-də tədavüldə 482 milyon frank və ya 19280000 f.st. var idi ki, bu da tədavüldə olan pulun 4360000 f.st. qədər artmış

olduğu demək idi, 1850-ci il sentyabrın 2-də isə 496 milyon frank və ya 19840000 f.st. var idi, yə`ni təqribən 5 milyon funt sterlinq artmışdı. Buna baxmayaraq banknotların qiymətdən düşməsi müşahidə olunmurdu əksinə, banknotların tədavülü artdıqca, bankın anbarlarına yığışan qızıl və gümüş də get-gedə artırdı, belə ki, 1850-ci ilin yayında metal ehtiyatı Fransada misli görünməmiş məbləğə çatıb təqribən 14 milyon f.st. olmuşdu. Beləliklə, bankın öz biletlərinin tədavulünü və eyni zamanda öz fəal kapitalını 123 milyon frank və ya 5 milyon f.st. artıra bilməsi jurnalın bundan qabaqkı nömrələrindən birində irəli sürdüyümüz iddianın nə qədər düzgün olduğunu parlaq surətdə sübut edib göstərir ki (bax: həmin cild, səh. 288–293. Red.), maliyyə aristokratiyası inqilab nəticəsində nəinki zəifləməmiş, hətta, əksinə, daha da möhkəmlənmişdi. Son illər ərzində Fransanın banklar haqqındakı qanunlarına dair aşağıdakı xülasədən bu nəticə daha aydın görünür. 1847-ci il iyunun 10-da bank 200 franklıq bilet buraxmaq ixtiyarı almışdı. O zamanadək ən aşağı qiymətli banknot 50O franklıq idi. 1848-ci il 15 mart tarixli dekretlə Fransa bankının bileti qanuni tə`diyə vasitəsi e`lan olundu və bank bunları sikkə pula dəyişmək vəzifəsindən azad edildi. Ona ən çoxu 350 milyon frank məbləğində bilet buraxmaq ixtiyarı verildi. Eyni zamanda bank 100 franklıq biletlər buraxmaq ixtiyarı aldı. 27 aprel tarixli dekretlə departament banklarının Fransa bankı ilə birləşdirilməsi əmr olundu; 1848-ci il 2 may tarixli başqa bir dekretlə banka 442 milyon franka qədər bilet buraxmaq ixtiyarı verildi. 1849-cu il 22 dekabr tarixli dekretlə ən çoxu 525 milyon frank məbləğində banknot buraxıla bilərdi. Nəhayət, 1850-ci il 6 avqust qanunu banknotun sikkə pula dəyişdirilməsi ixtiyarını yenidən bərpa etdi. Bu faktlar, yə`ni banknot tədavülünün arası kəsilmədən artması, bütün fransız kreditinin bank əlində mərkəzləşməsi və Fransanın bütün qızıl və gümüşünün bank anbarlarında toplanması c. Prudonu belə bir nəticəyə gətirib çıxartdı ki, indi bank öz köhnə ilan qabığını atmalı və Prudonun xalq bankına çevrilməlidir. Həqiqətdə isə, Prudonun, burjua cəmiyyəti tarixində eşitmədiyi bu faktın Fransada ancaq indi, birinci dəfə başlanan son dərəcə normal burjua hadisəsindən başqa bir şey olmadığını görə bilməsi üçün 1797-ci ildən 1819-cu ilə qədər İngiltərədə bankların restriksiyası tarixi ilə139 hətta tanış olması belə lazım deyildi, kanalın o biri tərəfinə təkcə nəzər salması kifayət edərdi. Biz görürük ki, müvəqqəti hökumətin ardınca Parisdə hökmü keçən yalançı inqilabçı nəzəriyyəçilər də görülən bu

tədbirlərin xarakteri və nəticələri məsələsində müvəqqəti hökumətə mənsub olan cənabların özləri qədər nadan idilər.
İndi Fransada sənaye və ticarətdə başlanmış tərəqqiyə baxmayaraq, əhalinin çoxu, 25 milyon kəndli şiddətli depressiya üzündən zərər çəkir. Son illərdə məhsulun yaxşı olması nəticəsində Fransada taxılın qiyməti İngiltərədəkindən daha aşağı enmişdir, buna görə də borca düşüb sələmçilər tərəfindən üzülən və vergi ağırlığı altında əzilən kəndlilərin vəziyyəti heç də parlaq hesab oluna bilməz. Lakin, son üç ilin tarixi kifayət qədər aydın göstərdi ki, əhalinin bu sinfi inqilabi təşəbbüsə qətiyyən qadir deyildir.
Kontinentdə həm böhran dövrü, həm də tərəqqi dövrü İngiltərədən gec başlanır. İlk proses daim İngiltərədə baş verir; İngiltərə burjua aləminin yaradıcısıdır. Burjua cəmiyyətinin daim yenidən keçirdiyi tsiklin müxtəlif fazaları kontinentdə ikinci və üçüncü formada təzahür edir. Əvvələn, kontinent İngiltərəyə, hər hansı başqa bir ölkəyə ixrac etdiyindən xeyli artıq ixrac edir. Lakin İngiltərəyə edilən ixracatda, İngiltərənin vəziyyətindən, xüsusən okeanın o tayındakı bazarlarda onun vəziyyətindən asılıdır. Sonra, İngiltərə okeanın o tayındakı ölkələrə bütün kontinentin ixrac etdiyindən xeyli artıq ixrac edir, belə ki, okeanın o tayındakı ölkələrə kontinentin etdiyi ixracatın miqdarı həmişə İngiltərənin həmin ölkələrə etdiyi ixracatın miqdarından asılıdır. Buna görə də, böhranlar ən əvvəl kontinentdə inqilablar doğurursa, bunun səbəbi həmişə yenə də İngiltərədədir. Təbiidir ki, zorakı sarsıntılar burjua orqanizminin ürəyinə nisbətən ətraf üzvlərində daha tez-tez baş verməlidir, çünki ürəkdə bunun qarşısını alan imkanlar çoxdur. Digər tərəfdən, kontinentdəki inqilabların İngiltərəyə tə`sir dərəcəsi eyni zamanda elə bir barometrdir ki, bu inqilabların, burjua quruluşunun varlığı şərtlərini həqiqətən nə dərəcədə təhlükə altına aldığını və bu quruluşun ancaq siyasi törəmələrinə nə dərəcədə toxunduğunu göstərir.
Belə bir ümumi tərəqqi şəraitində, burjua cəmiyyətinin məhsuldar qüvvələri ümumiyyətlə burjua münasibətləri çərçivəsi daxilində mümkün olduğu dərəcədə coşqun inkişaf etdiyi şəraitdə həqiqi inqilabdan danışıq belə ola bilməz. Belə bir inqilab yalnız o dövrlərdə ola bilər ki, bu amillərin hər ikisi, yə`ni müasir məhsuldar qüvvələr və burjua istehsal formaları bir-birinə zidd gəlsinlər. İndi kontinentdəki qayda-qanun partiyasının ayrı-ayrı fraksiya nümayəndələrinin bir-birini ləkələyərək,

sonsuz çəkişmələri heç də yeni inqilablara səbəb olmur əksinə, bu çəkişmələr yalnız ona görə mümkündür ki, hazırda ictimai münasibətlərin əsası çox möhkəmdir–irtica bunu bilmir–və burjua xarakterindədir. Demokratların bütün mə`nəvi qeyzi və alovlu intibahnamələrinin bu əsasa toxunub parça-parça olacağı nə dərəcədə şübhəsizdirsə, bu burjua inkişafını ləngitmək üçün edilən bütün irticaçı cəhdlərin də həmin əsasa toxunub parça-parça olacağı eyni dərəcədə şübhəsizdir. Yeni inqilab ancaq yeni böhranın ardınca mümkündür. Lakin yeni inqilabın başlanacağı da yeni böhranın başlanacağı qədər labüddür.

İndi Fransaya keçək.

Aprelin 28-də yeni seçkilər keçirməyə məcbur etməklə xalq özü, xırda burjuaziya ilə ittifaqda 10 mart seçkilərində qazandığı qələbəni heçə vurdu. Vidal yalnız Parisdə deyil, hətta Aşağı Reyndə də secildi. Tərkibində Dağın və xırda burjuaziyanın nümayəndələri çox olan Paris komitəsi Vidalı Aşağı Reyn mandatını qəbul etməyə vadar etdi. 10 mart qələbəsi öz həlledici əhəmiyyətini itirdi; qəti qərar yenidən tə`xirə salındı, xalqın gərginliyi zəifləşirdi, xalq inqilabi qələbələr əvəzinə, leqal qələbələrə adət edirdi. Nəhayət, sentimental-meşşan xülyaçısı sosialist Ejen Sünün namizəd göstərilməsi 10 martın inqilabi mə`nasını, iyun üsyanının bəraətini tamamilə məhv etdi; proletariat, bunu, olsa-olsa əxlaqca yüngül qızların xoşuna gəlmək üçün edilən bir zarafat saya bilərdi. Öz əleyhdarlarının qəti hərəkət etmədiyini görüb cəsarətlənən qayda-qanun partiyası, bu rəsmən yaxşı niyyətli namizədə qarşı, iyui qələbəsini təcəssüm etdirəcək bir namizəd irəli sürdü. Bu gülünc namizəd sərt təbiətli ailə başçısı Lekler idi, lakin mətbuat onun qəhrəmanlıq geyimini parça-parça edib qopartdı və o, seçkilərdə çox ağır məğlubiyyətə uğradı. 28 aprel seçkilərindəki yeni qələbə Dağı və xırda burjuaziyanı qanadlandırdı. Dağ ürəkdən sevinib belə güman edirdi ki, proletariatı yenə də ön səhnəyə çıxara biləcək yeni inqilaba səbəb olmadan xalis leqal yolla öz məqsədinə çata biləcəkdir; Dağ əmin idi ki, 1852-ci ildəki yeni seçki zamanı ümumi seçki hüququnun köməyi ilə c. Ledrü-Rolleni prezident kürsüsünə əyləşdirəcək və Məclisdə Dağın əksəriyyət təşkil etməsini tə`min edəcəkdir. Yeni seçki, Sünün namizəd göstərilməsi, Dağın və xırda burjuaziyanın əhvali-ruhiyyəsi qayda-qanun partiyasında belə bir qənaət əmələ gətirmişdi ki, Dağ və xırda burjuaziya hər bir şəraitdə sakit oturmaq

qərarına gəlmişlər, buna görə də qayda-qanun partiyası hər iki seçki qələbəsinə ümumi seçki hüququnu ləğv edən seçki qanunu ilə cavab verdi. Hökumət o qədər ehtiyatlı idi ki, bu qanun layihəsinin məs`uliyyətini öz üzərinə götürmədi və əksəriyyətə guya güzəştə gedərək, bu layihənin hazırlanmasını əksəriyyətin başçılarına, on yeddi burqqrafa140 tapşırdı. Beləliklə, ümumi seçki hüququnu ləğv etməyi Milli məclisə hökumət deyil, Məclis əksəriyyətinin özü özünə təklif etmiş oldu.

Mayın 8-də layihə palataya verildi. Bütün sosialist-demokrat mətbuatı, bir ağızdan xalqı inandırmağa başladı ki, xalq özünü ləyaqətlə aparmalı, «calme majestueux»a (əzəmətli sakitliyə. Red.) əməl etməli, passiv qalmalı və öz nümayəndələrinə e`timad etməlidir. Bu qəzetlərin hər məqaləsində e`tiraf edilirdi ki, inqilab ən əvvəl inqilabçı adlanan mətbuatı məhv edəcək və deməli, indi mətləb bu mətbuatın özünü mühafizə etməsindədir. Yalançı inqilabçı mətbuat öz sirrini açdı, öz ölüm hökmünü imzalamış oldu.

Mayın 21-də Dağ məsələni ilk müzakirəyə qoydu və bütün qanun layihəsinin rədd edilməsini tələb etdi, çünki bu layihə konstitusiyanı pozurdu. Qayda-qanun partiyası buna cavab olaraq bildirdi ki, lazım gəldiyi zaman konstitusiya pozulacaqdır, indi isə buna ehtiyac yoxdur, çünki konstitusiyaya istənilən şəkildə mə`na verilə bilər və hansı mə`nanın düzgün olduğunu tə`yin etməyə yalnız əksəriyyətin səlahiyyəti vardır. Dağ, Tyerlə Montalamberin azğın və vəhşi hücumlarını nəzakətli və mədəni insanpərvərliklə qarşıladı. Dağ hüquq zəminə istinad edirdi; qayda-qanun partiyası Dağa bu hüquq üçün əsas olan zəmini, burjua mülkiyyətini nişan verdi. Dağ yalvar-yaxara başladı: doğrudanmı nə olursa-olsun inqilab əmələ gətirmək istəyirlər? Qayda-qanun partiyası cavab verib dedi: inqilab bizi qəflətən yaxalaya bilməyəcəkdir.

Mayın 22-də məsələnin ilk müzakirəsi 227 səsə qarşı 462 səs çoxluğu ilə bitdi. Milli məclis və ayrılıqda hər bir deputat, onlara vəkalət verən xalqı hüquqdan məhrum edən kimi öz vəkalətlərindən də məhrum olduqlarını bu qədər təntənəli, bu qədər əsaslı surətdə sübut etməyə çalışan həmin adamlar, öz yerlərində sakit oturmaqda davam edirdilər və özləri hərəkət etmək əvəzinə birdən-birə ölkəyə, məhz kollektiv ərizələr yazmaq yolu ilə,hərəkət etməyi təklif etməyə başladılar; bu adamlar qanunun özü mayın 31-də parlaq şəkildə keçirildiyi zaman da hərəkətə gəlmədilər. Onlar protest etməklə qisas almaq istədilər və konstitusiyaya qarşı zorakılıqda

onların əli olmadığını bu protestdə qeyd etdilərsə də, protestin özünü də açıqdan-açığa hamıya bildirməyib xəlvətcə sədrin cibinə soxdular. Parisdəki yüz əlli min nəfərlik ordu, qəti qərarın sonsuz olaraq tə`xirə salınması, mətbuatın adamları sakit olmağa çağırması, Dağın və yeni seçilən deputatların qorxaqlığı, xırda burjuaziyanın əzəmətli sakitliyi, ən mühümü isə ticarət və sənayenin yüksəlişi proletariatın hər cür inqilabi cəhdlər göstərməsinə mane olurdu.

Ümumi seçki hüququ öz vəzifəsini yerinə yetirmişdi. Xalqın əksəriyyəti bu hüququn öyrədici məktəbindən keçmişdi; ümumi seçki hüququ inqilab dövründə ancaq bu məktəb rolunu oynaya bilərdi. Onu ya inqilab, ya da irtica aradan qaldırmalı idi.

Az sonra baş verən hadisə zamanı Dağ daha artıq fəaliyyət göstərdi. Hərbi nazir Opul Məclisin tribunasında çıxıb danışanda fevral inqilabını mənhus bir fəlakət adlandırmışdı. Sədr Düpon, həmişəki kimi öz mə`nəvi qeyzini böyük gurultu ilə göstərən Dağ natiqlərinə söz vermədi. Jirarden Dağa tam hey`əti ilə dərhal salondan çıxmağı təklif etdi. Nəticə belə oldu ki, Dağ öz yerində qaldı, Jirarden isə ləyaqətsiz bir şəxs kimi Dağın sırasından kənar edildi.

Seçki qanununun daha bir əlavəyə, mətbuat haqqında yeni bir qanuna ehtiyacı var idi. Bunu çox gözləmək lazım gəlmədi. Hökumətin təqdim etdiyi və qayda-qanun partiyasının təshihləri nəticəsində bir çox bəndləri daha da sərtləşən qanun layihəsi qoyulan girov məbləğini artırır, qəzetlərdə çap olunan romanlar üçün xüsusi damğa rüsumu alınmasını nəzərdə tutur (Ejen Sünün seçilməsinə cavab olaraq), həftəlik və aylıq nəşriyyat şəklində çıxan bütün əsərlərə müəyyən miqdar vərəqə hesabından vergi qoyur və nəhayət, müəyyən edirdi ki, hər qəzet məqaləsinin altında müəllifinin imzası olmalıdır. Girovlar haqqındakı qərarlar inqilabçı adlanan mətbuatı öldürdü xalq onun həlak olmasını ümumi seçki hüququnun ləğvi üçün qisas hesab edirdi. Lakin yeni qanunun meyli və tə`siri mətbuatın təkcə bu hissəsi ilə məhdud deyildi. Nə qədər ki, mətbuat imzasız məqalələrlə çıxırdı, bu mətbuat geniş və adsız ictimai fikrin orqanı idi; dövlət içərisində üçüncü hakimiyyət idi. Hər bir məqalənin altına imza qoyulması, qəzeti az-çox məşhur adamların ədəbi əsərlərinin sadəcə məcmuəsi halına salırdı. Hər bir məqalə qəzet e`lanı dərəcəsinə endi. İndiyədək qəzetlər ictimai fikrin kağız pulu kimi tədavül edilirdi, indi isə dönüb az-çox şübhəli solo-veksel şəklini almışdı ki, bu veksellərin də mö`təbərliyi və rəvacı nəinki

təkcə veksel verən adamın, habelə onu başqasına həvalə edən adamın da mö'təbərliyindən asılı idi. Qayda-qanun partiyasının mətbuatı nəinki ümumi seçki hüququnu ləğv etmək lehinə, hətta «pis» mətbuata qarşı ən ifrat tədbirlər görmək lehinə qızışdırıcı yazılar verirdi. Lakin hətta «yaxşı» mətbuat da özünün mənhus imzasız məqalələri ilə qayda-qanun partiyasının, xüsusən onun ayrı-ayrı əyalət nümayəndələrinin xoşuna gəlmirdi. Qayda-qanun partiyası ancaq yazısına pul alan yazıçıları tanımaq, onların adını, yaşadıqları yeri və əlamətlərini bilmək istəyirdi. Əbəs yerə «yaxşı» mətbuat göstərdiyi xidmətlər əvəzində gördüyü naşükürlükdən göz yaşı axıdırdı. Qanun keçdi və imza qoymaq tələbi ən əvvəl bu mətbuatın özünə zərbə vurdu. Respublikaçı publisistlərin adları kifayət qədər məşhur idi, lakin dövlət müdrikliyi geniş surətdə tə`riflənən «Journal des Debats», «Assemblee nationale»141, «Constitutionnel»142 və sair bu kimi hörmətli firmalar çox axmaq vəziyyətdə qaldılar, çünki birdən-birə mə`lum oldu ki, bütün bu əsrarəngiz dəstə nağd pula hər şeyi müdafiə etməyə hazır olan Qranye de Kassanyak kimi satqın və təcrübəli «pennu-a-liners»lərdən (uzun yazanlar. Red.) və ya özlərini dövlət adamı adlandıran Kapfiq kimi köhnə əski parçalarından, yaxud da «Debats»da işləyən c. Lemuan kimi işvəbaz çərənçilərdən ibarətdir.

Mətbuat qanunu müzakirə edilərkən Dağ elə bir mə`nəvi düşgünlük dərəcəsinə enmişdi ki, ancaq məşhur köhnə lui-filipçi c. Viktor Hüqonun parlaq nitqlərini alqışlamaqla kifayətlənməyə məcbur olmuşdu.

Seçki qanunu ilə mətbuat qanunu qəbul ediləndən sonra inqilabi və demokratik partiya rəsmi səhnədən çəkildi. Sessiya qurtarandan az sonra, deputatlar dağılışıb evlərinə getməzdən əvvəl Dağın hər iki fraksiyası– sosialist demokratlar və demokrat sosialistlər–iki manifest, iki «testimonia paupertatis» (yoxsulluq şəhadətnamələri. Red.) buraxıb sübut edirdilər ki, qüvvə və müvəffəqiyyət heç vaxt onların tərəfində olmamışdırsa, onlar həmişə əbədi hüquqa və bütün başqa əbədi həqiqətlərə tərəfdar olmuşlar.

İndi də qayda-qanun partiyasından danışaq. «Neue Rheinische Zeitunq» jurnalı 3-cü №-sində, 16-cı səhifədə yazmışdır: «Bonapart birləşmiş orleanist və legitimistlərin restavrasiya istəklərinə qarşı özünün fe`lən mövcud hakimiyyətinin yuridik əsasını təşkil edən respublikanı müdafiə edir; qayda-qanun partiyası Bonapartın restavrasiya istəklərinə qarşı öz birgə hökmranlığının yuridik əsasını təşkil edən resiublikanı müdafiə edir; legitimistlər orleanistlərə qarşı, orleanistlər isə legitimistlərə qarşı «status

quo»nu, yə`ni respublikanı müdafiə edirlər. Qayda-qanun partiyasının bütün bu fraksiyalarından hər biri öz kralını və öz restavrasiyasını «in petto» tutduğu halda, öz rəqibinin qəsbkarlıq və qiyamçılıq istəklərinə qarşı qoyduğu forma burjuaziyanın ümumi hökmranlığıdır ki, onların hər birinin ayrı-ayrı tələblərini qarşılıqlı surətdə bitərəfləşdirən və qoruyub saxlayan bu forma respublikadır... Tyer: «Biz, royalistlər konstitusiyalı respublikanın həqiqi dayağıyıq» deyəndə bu sözlərin nə qədər doğru olduğunu heç özü də güman etmirdi (bax: həmin cild, səh. 289. Red.). «Re`puğlicains malge eux»ların (istər-istəməz respublikaçı olanların. (Molyerin «Zorən təbib» komediyasına işarədir). Red.) oynadığı bu komediya, «status quo»ya (mövcud vəziyyətə, qayda-qanuna. Red.) qarşı müqavimət komediyası və onun daim möhkəmlənməsi; Bonapartın Milli məclislə daimi toqquşmaları; qayda-qanun partiyasının öz tərkib hissələrinə parçalanmaq təhlükəsinin daim yenidən meydana çıxması və bu partiya fraksiyalarının daim yenidən birləşməsi; bu fraksiyalardan hər birinin, ümumi düşmən üzərində çalınan hər bir qələbəni öz müvəqqəti müttəfiqlərinin məğlubiyyətinə döndərmək cəhdləri; qarşılıqlı həsəd, bir-birinə kələk gəlmək və bir-birini gözümçıxdıya salmaq, daim bir-birinin üstünə qılınc çəkmək, nəticədə isə daim «baiser Lamourette»143 bütün bu çirkin səhvlər komediyası, heç bir zaman son altı ayda olduğu qədər klassik şəkildə inkişaf etməmişdi.

Qayda-qanun partiyası seçki qanununu eyni zamanda Bonapart üzərində çalınan bir qələbə hesab edirdi. Məgər Bonapart hökuməti öz qanun layihəsinin redaktə edilməsini və bunun məs`uliyyətini On yeddilər komissiyasına verməklə hakimiyyətdən əl çəkməmişdi? Məgər Bonapartın Məclisə qarşı mübarizədə başlıca istinadgahı özünün altı milyon nəfər tərəfindən seçilmiş olmasından ibarət deyildi?–Bonapart da seçki qanununu, Məclisə edilən elə bir güzəşt hesab edirdi ki, bunun vasitəsi ilə o, icraiyyə və qanunvericilik hakimiyyətləri arasındakı ahəngi satın almışdı. Alçaq avantürist bunun müqabilində mükafat olaraq öz xərci üçün buraxılan pulun üç milyon artırılmasını tələb etmişdi. Milli məclis, fransız xalqının böyük əksəriyyətini qanundan kənar e`lan etdiyi bir zamanda icraiyyə hakimiyyəti ilə münaqişəyə girə bilərdimi? Məclis qəzəbləndi; adama elə gəlirdi ki, Məclis ən ifrat tədbirlərə əl atmağı qət etmişdi; Məclis komissiyası təklifi rədd etdi; bonapartist mətbuat da, öz növbəsində, soyulmuş və seçki hüququndan məhrum edilmiş xalqı qəzəbli bir əda ilə

göstərdi. Sazişə gəlmək üçün bir çox gurultulu cəhdlər edildi; nəhayət, Məclis əslində güzəştə getdi, lakin eyni zamanda prinsip e`tibarı ilə intiqam aldı. Məclis Bonapartın öz xərci üçün buraxılan pulu prinsip e`tibarı ilə həmişəlik olaraq ildə üç milyon artırmaq əvəzinə, ona yalnız 2160000 frank məbləğində birdəfəlik yardım göstərməyi qərara aldı. Məclis bununla da kifayətlənməyib ancaq qayda-qanun partiyasının generalı və Bonapartın çağırılmamış hamisi Şanqarnye həmin təklifə rə`y verdiyi zaman bu güzəştə getdi. Beləliklə, həmin 2 milyon üçün verilən rə`y əslində Bonaparta deyil, Şanqarnyeyə verilmişdi.
Bonapart, qabağına «de mauvaise grace» (həvəssiz. Red.) atılan bu sədəqəni tamamilə hədiyyəçi kimi qəbul etdi. Bonapartist mətbuat yenidən Milli məclisə hücumlar etməyə başladı; mətbuat qanunu müzakirə ediləndə, hər şeydən əvvəl Bonapartın xüsusi mənafelərini təmsil edən ikinci dərəcəli qəzetlər əleyhinə çevrilən bir düzəliş irəli sürülmüşdü; məqalə müəlliflərinin adını göstərməklə əlaqədar olan bu düzəliş verildiyi zaman, bonapartistlərin baş orqanı «Pouvoir»144 böyük bir qəzəblə Milli məclisə hücum etdi. Nazirlər Məclis qarşısında bu qəzetdən üz döndərməli oldular; «Pouvoir»in məs`ul redaktoru Milli məclis hüzurunda cavab verməyə çağırıldı və 5000 frank məbləğində ən yüksək cərimə verməyə məhkum edildi. Ertəsi gün «Pouvoir» Məclisə qarşı daha kəskin bir məqalə dərc etdi, hökumət isə intiqam almaq üçün, konstitusiyanı pozduqlarına görə bir neçə legitimist qəzetini məhkəmə vasitəsi ilə tə`qib etməyə başladı.
Nəhayət, palatanın iclaslarını tə`xirə salmaq məsələsi qoyuldu. İclasların tə`xirə salınması Bonaparta, Məclis tərəfindən heç bir maneəyə rast gəlmədən iş görə bilmək üçün lazım idi. Qayda-qanun partiyasına isə bu tədbir, qismən fraksiyaçılıq intriqaları, qismən də ayrı-ayrı deputatların şəxsi mənafeyi üçün lazım idi. Bu tədbir onların hər ikisinə əyalətdə irticanın qələbələrini möhkəmləndirmək və genişləndirmək üçün lazım idi. Buna görə də Məclic öz iclaslarını avqustun 11-dən noyabrın 11-dək tə`xirə saldı. Lakin Bonapart Məclisin ağır nəzarətindən xilas olmağa cəhd etdiyini heç də gizlətmədiyinə görə, Məclis özünün e`timad qərarına prezidentə e`timadsızlıq xarakteri verdi. Bu tə`til zamanı respublika xeyirxahlığı keşiyində duran iyirmi səkkiz nəfərdən ibarət daimi komissiyaya bir nəfər də bonapartist daxil olmadı145. Əksəriyyətin konstitusiyalı respublikaya sadiq olduğunu prezidentə sübut etmək üçün

komissiyaya bonapartistlərin əvəzinə, hətta «Siecle» və «National»dan bir neçə respublikaçı secildi.
Palata iclaslarını tə`xirə salmazdan az əvvəl, xüsusən bundan dərhal sonra adama belə gəlirdi ki, qayda-qanun partiyasının hər iki böyük fraksiyası, yə`ni orleanistlər və legitimistlər, bayraqları altında mübarizə etdikləri hər iki kral familiyasını birləşdirmək zəmini üzərində barışmağa hazırdırlar. Qəzetlər, Sent-Leonardsda xəstə Lui-Filippin yatağı başında müzakirə edilən barışıq layihələri ilə dolu idi; lakin Lui-Filippin ölməsi vəziyyəti birdən-birə bəsitləşdirdi. Lui-Filipp qəsbkar idi və V Henrixi talamışdı, qraf Parisli isə V Henrix sonsuz olduğuna görə onun qanuni varisi olmuşdu. Hər iki sülalənin mənafeyini birləşdirməyə qarşı e`tirazlar üçün hər cür bəhanə indi daha aradan qalxmışdı. Lakin məhz indi burjuaziyanın hər iki fraksiyası, nəhayət, başa düşdü ki, onları bir-birindən ayıran cəhət, bu və ya digər kral familiyasına olan hissi bağlılıq deyildir, əksinə, onların muxtəlif sinfi mənafeyi hər iki sülaləni bir-birindən ayırırdı. V Henrixə tə`zim etmək üçün Visbadenə gedən legitimistlər, habelə onların Sent-Leonardsa gedən orleanist rəqibləri orada Lui-Filippin ölüm xəbərini aldılar. Onlar dərhal «in partibus infidelium»81 hökuməti146 təşkil etdilər ki, bu hökumətə əsas e`tibarı ilə yuxarıda göstərilən respublika xeyirxahlığı keşikçiləri komissiyasının üzvləri daxil oldular; bu hökumət partiyada əmələ gələn ixtilaf münasibəti ilə allahın mərhəmət etdiyi hüquq barəsində dərhal ən açıq bir intibahnamə nəşr etdi. Orleanistlər, bu manifestin147 mətbuatda əmələ gətirdiyi rüsvayçı qalmaqal münasibəti ilə sevinir və legitimistlərə qarşı açıq düşmənçiliklərini heç də gizlətmirdilər.
Milli məclisin tə`tili zamanı departamentlərin nümayəndələr məclisləri öz iclaslarını açdılar. Onların əksəriyyəti konstitusiyanı az və ya çox qeyd-şərtlərlə məhdud bir şəkildə nəzərdən keçirmək lehinə, yə`ni daha dürüst tə`rif verməyərək monarxiyanı bərpa etmək lehinə, «məsələnin həlli» lehinə rə`y verdi və eyni zamanda məsələnin həlli yolunu tapmaq üçün son dərəcə səlahiyyətsiz və son dərəcə qorxaq olduğunu e`tiraf etmiş oldu. Bonapartistlər fraksiyası konstitusiyanı nəzərdən keçirmək arzusuna dərhal Bonapartın prezidentlik səlahiyyətini uzatmaq arzusu kimi mə`na verdi. Hakim sinif məsələnin konstitusiya yolu ilə qanuni şəkildə həll edilməsinə, yə`ni 1852-ci ilin mayında Bonapartın iste`fa verməsinə, eyni zamanda ölkənin bütün seçicilərinin yeni prezident seçmələrinə və yeni prezidentliyin birinci ayları ərzində konstitusiyanın xüsusi olaraq seçiləcək

palata tərəfindən nəzərdən keçirilməsinə heç bir vəchlə yol verə bilməzdi. Yeni prezidentin seçiləcəyi gün, bütün düşmən partiyaların legitimistlərin, orleanistlərin, burjua respublikaçılarının, inqilabçıların üz-üzə gələcəkləri gün olardı. Nəticədə bütün fraksiyalar hökmən zorakılığa əl atıb toqquşmalı olardılar. Əgər qayda-qanun partiyası, sülalə familiyalarından kənarda duran bir bitərəf namizəd göstərmək məsələsində hətta razılaşıb birləşməyə müvəffəq olsaydı belə, Bonapart bu namizədin əleyhinə çıxacaq idi. Qayda-qanun partiyası xalqa qarşı mübarizəsində icraiyyə hakimiyyətinin gücünü daim artırmaq məcburiyyətindədir. İcraiyyə hakimiyyətinin hər cür gücləndirilməsi isə, bu hakimiyyətin əsas nümayəndəsi olan Bonapartı gücləndirir. Buna görə də qayda-qanun partiyasının öz ümumi qüdrətini artırmaq üçün atdığı hər bir addım, sülalə iddiasında olan Bonapartın döyüş vasitələrini qüvvətləndirir, onun qəti bir vaxtda məsələnin konstitusiya yolu ilə həllinə güclə mane olmaq imkanlarını artırır. Qayda-qanun partiyası, xalqa qarşı mübarizəsində ümumi seçki hüququnu ləğv etməklə konstitusiya əsaslarından birini pozmaqdan çəkinmədiyi kimi, Bonapart da, qayda-qanun partiyasına qarşı mübarizəsində konstitusiyanın başqa bir əsasını pozmaqdan çəkinməyəcəkdir. Ehtimal ki, Bonapart ümumi seçki hüququndan yapışıb hətta Məclis əleyhinə şikayət edə bilərdi. Bir sözlə, konstitusiya yolu bütün siyasi «status quo»nu təhlükə qarşısında qoyur, «status quo»nun dəyişməsi arxasında isə burjuaziyanın gözünə qarma-qarışıqlıq, hərc-mərclik, vətəndaş müharibəsi görünür. Onun gözünə elə görünür ki, 1852-ci il mayın birinci bazar günündən e`tibarən onun bütün alqı-satqısı, vekselləri, nigah kağızları, notarius kağızları, hipotekləri, torpaq rentası, mənzil kirayəsi, mənfəəti, onun bütun müahidələri və mədaxil mənbələri təhlükə qarşısında qalacaqdır,–burjua isə özünü belə bir təhlükə qarşısında qoya bilməz. Siyasi «status quo»nun dəyişməsi arxasında bütün burjua cəmiyyətinin iflası təhlükəsi gizlənir. Burjuaziya üçün mümkün olan yeganə nəticə belə bir nəticəni tə`xirə salmaqdan ibarətdir. Burjuaziya konstitusiyalı respublikanı ancaq konstitusiyanı pozmaq yolu ilə, prezidentin hakimiyyətini uzatmaq yolu ilə xilas edə bilər. Baş şuraların sessiyası qurtaranda qayda-qanun partiyasının məşğul olduğu «məsələnin həlli» ətrafında gedən bütün dərin mə`nalı və uzun-uzadı mübahisələrdən sonra bu partiya mətbuatının dediyi son söz də budur. Beləliklə, qüdrətli qayda-qanun partiyası, özü üçün ayıb olsa da, görür ki, nifrət etdiyi saxta

Bonapartın gülünc, bayağı və mənfur şəxsiyyəti ilə ciddi surətdə hesablaşmağa məcburdur.
Bu murdar şəxs də məhz nə səbəbə görə lazımlı adam rolunun onun üzərinə getdikcə daha artıq düşdüyünün əsl səbəbləri haqqında səhv edirdi. Onun partiyası, Bonapartın getdikcə artan əhəmiyyətini əmələ gəlmiş vəziyyətin nəticəsi hesab etmək üçün kafi qədər fərasətli olduğu halda, özü inanırdı ki, bütün bu vəziyyət ancaq öz adının sehrli tə`sirinin və özünü yorulmadan Napoleona bənzətməsinin nəticəsidir. Onun təşəbbüskarlığı gündən-günə artırdı. Visbadenə və Sent-Leonardsa edilən ziyarətlərə cavab olaraq, Bonapart Fransada dövrə səyahətinə çıxdı. Bonapartistlər onun şəxsiyyətinin sehrli tə`sirinə o qədər az bel bağlayırdılar ki, muzdla tutulmuş əl çalanları Paris lümpen-proletariatının təşkilatı olan 10 dekabr cəmiyyətinin (Bax, həmin cild, səh. 483–487. Red.) üzvlərini dəmiryol qatarlarına və poçt dilicanlarına doldurub Bonapartın ardınca hər yerə göndərirdilər. Onlar, əllərində bir oyuncaq etdikləri bu şəxsə müxtəlif nitqlər söylədirdilər və prezidentin bu və ya digər şəhərdə necə qarşılandığından asılı olaraq bu nitqlərdə gah respublikaçı itaətkarlığı, gah da mətanət və əzmkarlıq prezident siyasətinin şüarı e`lan edilirdi. Bütün manevrlərə baxmayaraq Bonapartın bu səyahətləri heç də zəfər yürüşünə oxşamırdı.
Bu yolla xalqı ruhlandırdığına əmin olan Bonapart ordu arasında təşviqata başladı. O, Versal yanındakı Satori duzündə qoşunun iştirak etdiyi böyük paradlar düzəldib əsgərləri sarımsaqlı kolbas, şampan şərabı və siqarla ələ almağa çalışdı. Əgər əsl Napoleon öz istilaçı səfərlərinin ağırlığından yorulan əsgərləri birdən-birə patriarxal mehribanlıq təzahürü ilə ruhlandıra bilirdisə, saxta Napoleon güman edirdi ki, əsgərlər «Vive Naroleon, vive le saucisson!» («Yaşasın Napoleon, yaşasın kolbas!» Red.), yə`ni «Yaşasın kolbas, yaşasın təlxək!» (Cinasdır: «Wurst»–«kolbas», «Nanswurst»–«təlxək» deməkdir. Red.) bağırtıları ilə ona təşəkkür edirlər.
Bu paradlar onunla nəticələndi ki, bir tərəfdən, Bonapart və onun hərbi naziri Opul, digər tərəfdən isə Şanqarnye arasında mövcud olub çoxdan gizli saxlanan ixtilafı aşkara çıxartdı. Qayda-qanun partiyası özünün həqiqətən bitərəf adamını Şanqarnyenin şəxsində tapmışdı, çünki bu adamda sülalə iddiaları olduğu haqqında heç danışıq da ola bilməzdi. Qayda-qanun partiyası onu Bonapartın xələfi kimi nəzərdə tutmuşdu. Həm də Şanqarnye 1849-cu il yanvarın 29-da və iyunun 13-dəki hərəkətləri

sayəsində qayda-qanun partiyasının böyük sərkərdəsi olmuşdu və qorxaq burjuanın fikrincə, özünün kobud müdaxiləsi ilə inqilabın Qordi düyümünü açan yeni bir İsgəndər idi. Əslində miskinlikdə Bonapartdan geri qalmayan Şanqarnye son dərəcə asan yolla qüvvət sahibi olmuş və prezidentə göz yetirmək üçün Milli məclis tərəfindən irəli çəkilmişdi. Şanqarnye işvəbazlıq edir, məsələn, prezidentin maaşı haqqındakı mübahisələrdə özünü Bonapartın hamisi kimi göstərir, Bonapartın və nazirlərin yanında özünü daha artıq təkəbbürlə tuturdu. Yeni seçki qanunu ilə əlaqədar olaraq üsyan gözlənilərdə, Şanqarnye hərbi nazirdən və ya prezidentdən hər cür əmr qəbul etməyi öz zabitlərinə qadağan etmişdi. Mətbuat da Şanqarnyenin şəxsiyyətini əzəmətli göstərməyə kömək edirdi. Qayda-qanun partiyasının az-çox görkəmli şəxsiyyətləri olmadığından bu partiya özünün bütün sinfində olmayan qüvvəti bir adama verməli və beləliklə, onu şişirdib bir nəhəngə döndərməli idi. Beləliklə, Şanqarnye haqqında belə bir əfsanə meydana çıxdı ki, guya o, «cəmiyyətin dayağıdır». Şanqarnyenin bütün aləmi dolayaraq göstərdiyi həyasız fitnəkarlıq və anlaşılmaz ədabazlıq Satoridəki parad hadisəsi və bundan sonrakı hadisələrlə son dərəcə gülünc bir təzad təşkil edirdi. Bu hadisələr qəti sübut etdi ki, burjua vahiməsinin xəyali törətməsi olan bu nəhəng Şanqarnyeni adi bir insan vəziyyətinə endirmək və cəmiyyəti xilas edən bu qəhrəmanı iste`faya çıxıb pensiya alan bir general halına salmaq üçün, son dərəcə kiçik bir adamın, Bonapartın bir qələm işlətməsi kifayət idi.

Bonapart bir dəfə öz hərbi nazirini qızışdıraraq, öz namünasib hamisi ilə nazirin intizam üstündə toqquşmasına səbəb olmaqla Şanqarnyedən intiqam almışdı. Satori düzündəki son parad, nəhayət, köhnə düşmənçiliyi uenə qızışdırıb aşkara çıxardı. Süvari polkları konstitusiyaya zidd olan «Vive l`emperur!» («yaşasın imperator!». Red.) bağırtıları ilə Bonapartın qabağından keçərkən Şanqarnyenin konstitusiyaçı qəzəbi həddini aşdı. Bonapart bu bağırtılarla əlaqədar olaraq palatanın qarşıdakı sessiyasında xoşa gəlməyən mübahisələrə yol verməmək üçün hərbi nazir Opulu Əlcəzairə qubernator tə`yin etməklə onu işdən uzaqlaşdırdı. Bonapart imperiya zamanından qalma tamamilə inanılmış və kobudluqda Şanqarnyedən əsla geri qalmayan qoca bir generalı Opulun yerinə qoydu. Lakin Opulun istefası Şanqarnyeyə bir güzəşt kimi görünməsin deyə, Bonapart, eyni zamanda, cəmiyyətin bu böyük xilaskarının sağ əli olan general Neymeyeri Parisdən Nanta keçirdi. Neymeyerin təqsiri bunda idi

ki, son parad zamanı piyada qoşun Napoleonun xələfi qarşısından soyuq bir sükut içində keçmişdi. Neymeyerin başqa yerə köçürülməsindən şəxsən inciyən Şanqarnye protest etməyə və hədələməyə başladı. Əbəs yerə! İki günlük danışıqlardan sonra Neymeyerin Nanta köçürülməsi haqqındakı dekret «Moniteur»də çıxdı və qayda-qanun qəhrəmanının ya intizama tabe olmaq, ya da iste`fa verməkdən başqa heç bir çarəsi qalmadı.
Bonapartın Şanqarnye ilə mübarizəsi, onun qayda-qanun partiyası ilə mübarizəsinin davamıdır. Buna görə də Milli məclisin yeni sessiyası noyabrın 11-də uğursuz əlamətlərlə açılır. Lakin bu, bir stəkan sudakı fırtınaya bənzəyəcəkdir. Ümumiyyətlə, köhnə oyun təkrar olunacaqdır. Qayda-qanun partiyasının əksəriyyəti, onun müxtəlif fraksiyalarında prinsip güdənlərin fəryadına baxmayaraq, prezidentin səlahiyyət müddətini uzatmağa məcbur olacağdır. Təkcə pulun azlığı nəticəsində sakitləşən Bonapart da əvvəlki e`tirazlarına baxmayaraq, öz hakimiyyət müddətinin uzadılmasını Milli məclisin əlindən adi bir vəkalət klmi qəbul edəcəkdir. Beləliklə, məsələnin həlli tə`xirə salınır, «status quo» saxlanılır; qayda-qanun partiyası fraksiyalarından hər biri digərini rüsvay edir, zəiflədir və imkansız edir; ümumi düşmənə, millət kütləsinə qarşı təzyiq getdikcə artır və nəticə e`tibarı ilə tükənir; nəhayət, iqtisadi münasibətlərin özü inkişaf edərək elə bir pilləyə çatacaqdır ki, bir-biri ilə dalaşan bütün bu partiyalar və onların konstitusiyalı respublikası yeni bir partlayış nəticəsində havaya sovrulacaqdır.
Burjualara təskinlik vermək üçün bunu da əlavə etmək dazımdır ki, Bonapartla qayda-qanun partiyası arasındakı mübarizə nəticəsində birjada bir çox xırda kapitalistlər var-yoxdan çıxmış və onların kapitalları iri birja qurdlarının cibinə axmışdır.
1850-ci ilin yanvarında–noyabrin 1-də K.Marks tərəfindən yazılmışdır. «Neue Rheinische Zeitunq. Politisch-oro nomisch Revue» jurnalının 1850-ci il tavixli 1, 2, 3 və 5–6-cı №-lərində çap edilmişdir.
İmza: Karl Marks
F.ENGELS
ALMANİYADA İNQİLAB VƏ ƏKSİNQİLAB148
I
ALMANİYA İNQİLAB ƏRƏFƏSİNDƏ
Avropa qit`əsində inqilabi dramın birinci pərdəsi qurtardı. 1848-ci il fırtınasına qədər mövcud olan «keçmiş hakimiyyət orqanları» yenidən

«indi mövcud olan hakimiyyət orqanları» oldu, az-çox tanınmış bir saatlıq hökmdarlar, müvəqqəti hakimlər, triumvirlər, diktatorlar ilə onların ardınca quyruq kimi sürünən deputatlarla, mülki komissarlar, hərbi komissarlar, prefektlər, məhkəmə hakimləri, generallar, zabitlər və əsgərlərlə birlikdə yad sahilə qovuldular, «dənizin o tayına», İngiltərəyə və ya Amerikaya «sürgün edildilər». Onlar burada «in partibus infidelium»81 yeni hökumətlər, Avropa komitələri, mərkəzi komitələr, milli komitələr düzəltməyə və gəlib çıxdıqlarını elə bəyannamələrdə xəbər verməyə başladılar ki, bunların təmtəraqı özlərindən daha az xəyali hakimiyyət sahiblərinin bəyannamələrindəki təmtəraqdan az deyil idi.

Qit`ənin inqilabçı partiyası və ya, daha doğrusu, inqilabçı partiyaları döyüş xəttinin bütün nöqtələrində elə böyük məğlubiyyətə uğradı ki, bundan daha böyük məğlubiyyət təsəvvür etmək çətindir. Amma nə eybi var? Öz ictimai və siyasi hökmranlığı uğrunda ingilis burjuaziyasının mübarizəsi qırx səkkiz il, fransız burjuaziyasının mübarizəsi isə qırx il misilsiz döyüşlər tələb etməmişdimi? Həm də bərpa edilmiş monarxiya öz mövqeyini məhz həmişəkindən möhkəm hesab etdiyi bir zamanda burjuaziya öz qələbəsinə daha çox yaxınlaşmamışdımı? İnqilabın bir dəstə təşviqatçının bəd niyyətindən əmələ gəldiyini güman edən mövhumi baxışın hökm sürdüyü vaxtlar çoxdan keçib getmişdir. İndi hər kəs bilir ki, inqilabi sarsıntı harada baş verirsə versin, onun arxasında həmişə müəyyən ictimai tələbat gizlənir, dövrü keçmiş tə`sisatlar bu tələbatın ödənilməsinə maneçilik törədir. Ola bilər ki, bu tələbat hələ bilavasitə müvəffəqiyyət qazanmağı tə`min edəcək dərəcədə güclü deyildir və hamılıqla hiss olunmur; lakin həmin tələbatı zorla boğmaq üçün göstərilən hər cür cəhd onu ancaq vadar edir ki, getdikcə daha böyük qüvvə ilə meydana çıxsın və ən nəhayət, öz buxovlarını qırıb dağıtsın. Buna görədir ki, biz əzilmiş olsaq da, işə əvvəldən başlamaqdan savayı heç bir çarəmiz qalmır. Hərəkatın birinci pərdəsinin axırı ilə ikinci pərdəsinin başlanğıcı arasında bizə verilən və ehtimal, çox az sürəcək tənəffüsdə isə, xoşbəxtlikdən, vaxtımız olacaqdır ki, son dərəcə vacib bir iş görək: istər bu yaxınlarda baş verən inqilabi partlayışın, istərsə də inqilabın uğradığı məğlubiyyətin labüd səbəblərini tədqiq edək bu səbəbləri ayrı-ayrı başçıların təsadüfi arzularında, məziyyətlərində, qüsurlarında, səhvlərində və ya xain hərəkətlərində deyil, ümumi ictimai quruluşda və sarsıntı keçirmiş millətlərdən hər birinin həyat şəraitində axtarmaq lazımdır. İndi hamı təsdiq edir ki, 1848-ci ilin fevralı

və martında qəfildən başlanmış hərəkat heç də ayrı-ayrı şəxsiyyətlərin işi deyildi, xalqların ehtiyac və tələbatının,–az-çox aydın başa düşülən, lakin hər bir ölkədə müxtəlif siniflər tərəfindən tamamilə aydın duyulan tələbatın,–qarşısıalınmaz kortəbii ifadəsi idi. Amma elə ki, başlayırsan əksinqilabın müvəffəqiyyətinin səbəblərini aydınlaşdırmağa, hər yerdə belə bir hazır cavaba rast gəlirsən ki, guya günah xalqa «xəyanət» edən cənab A-da və ya vətəndaş B-də imiş. Bu cavab, şəraitə görə, düz ola da bilər, olmaya da, lakin o heç bir şəraitdə heç nə izah etmir və heç onu da göstərmir ki, «xalq» özünə xəyanət edilməsinə necə yol vermişdir? Həm də bir siyasi partiyanın ki, bütün kapitalı yalnız filan vətəndaşın e`timada layiq olmadığı faktını bilməkdən ibarət ola, o partiyanın gələcəyi nə qədər də acınacaqlıdır.

Bundan əlavə, istər inqilabi sarsıntının səbəblərini, istərsə inqilabın yatırılmasının səbəblərini tədqiq və şərh etmək tarix nöqteyi-nəzərindən də müstəsna dərəcədə əhəmiyyətlidir. Bütün bu xırda-para şəxsi çəkişmələr və qarşılıqlı ittihamlar, guya məhz Marrast, yaxud Ledrü-Rollen, yaxud Lui-Blan, yaxud da müvəqqəti hökumətin hər hansı başqa bir üzvü və ya onların hamısı birlikdə inqilabı sualtı qayalara tərəf yönəldib qəzaya uğradan sükançı olmuşlar deyə irəli sürülən bütün bu bir-birinə zidd iddialar nə maraq oyandıra bilər, bütün bu hərəkatları hədsiz dərəcədə uzaq məsafədən müşahidə etdiyinə görə hadisələrin təfərruatını seçə bilməyən amerikalıya və ya ingilisə nə izah edə bilər? Sağlam düşüncəli adamlardan heç biri heç vaxt inanmaz ki, əllərindən nə yaxşılıq, nə də pislik gələn tamamilə miyana şəxsiyyətlərin əksəriyyət təşkil etdiyi cəmi on bir adam (Fransa müvəqqəti hökumətinin üzvləri. Red.) otuz altı milyonluq bir milləti,–əgər bu otuz altı milyon hansı tərəfə getmək məsələsində eyni ilə bu on bir nəfər kimi naşı olmasaydı,–üç ayda güdaza verə bilərdi. Elə məsələ də məhz burasındadır: necə ola bilmişdi ki, müəyyən dərəcədə sanki qaranlıqda dolaşan bu otuz altı milyon nəfər öz yolunu birdən-birə müstəqil müəyyən etməyə çağırılmışdı necə olmuşdu ki, sonra onlar yolu tamamilə azmışdılar və onların köhnə hökmdarları bir müddət öz rəhbər mövqelərini geri ala bilmişdilər?

Beləliklə, əgər biz 1848-ci il Almaniya inqilabını nəinki zəruri edən, habelə 1849-cu və 1850-ci illərdə onun eyni bir labüdlüklə müvəqqətən yatırılmasına gətirib çıxaran səbəbləri «Tribune»149 oxucularına izah etməyə təşəbbüs göstəririksə, bizdən Almaniyada baş vermiş hadisələrin

tam tarixi təsvirini gözləmək lazım deyildir. Bundan sonrakı hadisələr və gələcək nəsillərin hökmü bir şeyi qət etməyə imkan verəcəkdir ki, təsadüfi, bir-biri ilə əlaqəsiz və ziddiyyətli görünən bir yığın hərc-mərc faktlar içərisindən məhz nələr dünya tarixinə onun tərkib hissəsi kimi daxil olmalıdır. Bu məsələni həll etmək vaxtı hələ gəlib çatmamışdır. Biz imkan dairəsində hərəkət etməliyik və əgər şəksiz faktlardan irəli gəlib, çox mühüm hadisələri, hərəkatın əsas dönüş nöqtələrini izah edən və ən yaxın, bəlkə də o qədər uzaq olmayacaq partlayışın alman xalqını hansı tərəfə yönəldəcəyini müəyyən etmək üçün bizə açar verən ağlauyğun səbəbləri açıb göstərə bilsək, özümüzü məmnun hesab edəcəyik.

Beləliklə, ən əvvəl, inqilabi partlayış ərəfəsində Almaniyada vəziyyət necə idi?

Xalq içərisində hər cür siyasi təşkilat üçün əsas olan müxtəlif siniflərin birləşmə əlaqələri Almaniyada hər bir başqa ölkədəkindən daha mürəkkəb idi. İngiltərədə və Fransada iri şəhərlərdə və xüsusilə paytaxtda cəm olmuş qüdrətli və varlı burjuaziya feodalizmi tamamilə məhv etdiyi və ya İngiltərədə olduğu kimi, onu heç olmazsa, məhdudlaşdırıb cüz`i bir qalıq dərəcəsinə endirdiyi halda, Almaniyada feodal zadəganlar öz qədim imtiyazlarının xeyli hissəsini saxlamışdılar. Feodal torpaq sahibliyi sistemi az qala hər yerdə hökmran sistem olaraq qalırdı. Torpaq sahiblərinin əlində hətta asılı kəndliləri mühakimə etmək hüququ da qalmışdı. Torpaq sahibləri öz siyasi imtiyazlarından–hökmdarlara nəzarət hüququndan–məhrum edilminv olsalar da, öz malikanələrində öz kəndliləri üzərində orta əsrlərdən qalma hakimiyyəti, eləcə də vergilərdən azad olmağı, demək olar, tamamilə toxunulmaz şəkildə saxlamışdılar. Bə`zi yerlərdə feodalizm başqa yerlərdəkindən güclü idi, lakin Reyn çayının sol sahilindən başqa, heç yerdə tamamilə məhv edilməmişdi. O zaman sayca son dərəcə çox olub qismən də xeyli varlı olan bu feodal zadəganlar ölkədə rəsmən birinci «silk» hesab edilirdilər. Ali hökumət mə`murlarını onlar verirdilər, ordunu zabit hey`əti ilə, demək olar, təkcə onlar tə`min edirdilər.

Almaniyada burjuaziya heç də Fransada və ya İngiltərədə olduğu kimi varlı deyildi, heç də Fransada və İngiltərədə olduğu kimi sıx birləşməmişdi. Buxarın tətbiq edilməsi və ingilis sənayesinin üstünlüyünün sür`ətlə yayılması qədim alman sənaye sahələrini dağıtmışdı. Ölkənin başqa yerlərində yaradılıb Napoleonun kontinental sistemi14 zamanında inkişaf etməyə başlayan daha müasir sənaye sahələri aradan çıxmış qədim

sahələrin yerini verə bilmədi və sənayeyə kifayət qədər möhkəm nüfuz qazandıra bilmədi ki, hökumətlər məcbur olub sənayenin tələbatı ilə hesablaşaydılar, xüsusilə ona görə ki, hökumətlər zadəgan olmayanların sərvət və qüvvəsinin az da olsa artmasına paxıllıq edirdilər. Fransa öz ipək sənayesini əlli il ərzində bütün inqilab və müharibə sınaqlarından qalibiyyətlə keçirdiyi halda, Almaniya elə həmin dövrdə öz qədim kətan sənayesini demək olar tamamilə itirmişdi. Bundan əlavə, sənaye rayonları az və bir-birindən uzaq idi. Ölkənin içərilərində yerləşən bu sənaye rayonları ixrac və idxal üçün əsasən xarici limanlardan–Hollandiya və ya Belçika limanlarından–istifadə edirdilər, belə ki, Şimal dənizi və Baltik dənizi sahilində yerləşən iri liman şəhərləri ilə onların ümumi mənafeyi az idi, ya da heç yox idi ən başlıcası isə bu idi ki, onlar Paris və Lion, London və Mançester kimi iri sənaye və ticarət mərkəzləri yaratmağa qadir deyildilər. Almaniya sənayesinin bu geriliyinin səbəbi çox idi, lakin həmin geriliyi izah etmək ücün bu səbəblərin ikisini göstərmək kifayətdir: ölkənin coğrafi mövqeyinin əlverişli olmaması, onun böyük bir dünya ticarəti yoluna çevrilmiş Atlantik okeanından uzaqda yerləşməsi və Almaniyanın cəlb edildiyi, XVI əsrdən lap son zamanlaradək onun ərazisində gedən fasiləsiz müharibələr. Alman burjuaziyasının say cəhətdən zəifliyi və xüsusən əsla toplu halda olmaması–bax bunlar onun, ingilis burjuaziyasının hələ 1688-ci ildən malik olduğu, fransız burjuaziyasının isə 1789-cu ildə qazandığı siyasi hökmranlıq kimi bir hökmranlıq əldə etməsinə mane oldu. Bununla belə, 1815-ci ildən Almaniyada burjuaziyanın sərvəti, sərvətlə birlikdə isə siyasi nüfuzu hey artırdı. Hökumətlər öz istəyinin ziddinə olsa da, hər halda burjuaziyanın heç olmazsa ən mühüm maddi mənafeyi ilə hesablaşmağa məcbur idilər. Hətta açıqca iddia etmək olar ki, kiçik dövlətlərin konstitusiyalarında burjuaziyaya əta edilib sonra, siyasi irtica dövrləri olan 1815–1830-cu və 1832–1840-cı illərdə geri alınan siyasi nüfuzun hər bir zərrəsi müqabilində, burjuaziyanın itirdiyi siyasi nüfuzun hər bir belə zərrəsi müqabilində mükafat olaraq ona başqa, daha mühüm əməli fayda verilirdi. Burjuaziyanın hər bir siyasi məğlubiyyəti ticarət qanunvericiliyi sahəsində qələbə ilə nəticələnirdi. Həm də aydındır ki, Prussiyanın 1818-ci il himayəçilik tarifi150 və Gömrük ittifaqının151 təşkili Almaniyanın tacir və sənayeçiləri üçün hər hansı kiçik bir hersoqluğun palatasında nazirlərə e`timadsızlıq göstərmək kimi mə`nasız bir hüquqdan xeyli dərəcədə daha

qiymətli idi, çünki nazirlər onların bu qərarlarına yalnız rişxənd edirdilər. Beləliklə, sərvətin artması və ticarətin genişlənməsi nəticəsində burjuaziya tez bir zamanda elə bir səviyyəyə çatıb yəqin etməyə başladı ki, onun getdikcə artan ən vacib tələbatının ödənməsinə ölkənin siyasi quruluşu mane olur, yə`ni arzu və qəribəlikləri bir-birinə zidd gələn otuz altı hökmdar arasında ölkənin mə`nasız yerə parçalanmış olması, kənd təsərrüfatını və onunla əlaqədar olan ticarəti buxovlayan feodal zülmü burjuaziyanın hər bir sövdəsi üzərində nadan və təkəbbürlü bürokratiyanın zəhlətökən nəzarəti mane olur. Eyni zamanda Gömrük ittifaqının genişlənməsi və möhkəmlənməsi, buxarla işləyən nəqliyyatın hər yerdə tətbiq edilməsi, daxili bazarda rəqabətin artması–bütün bunlar müxtəlif dövlət və əyalətlərin ticarət-sənaye siniflərinin bir-birinə yaxınlaşmasına səbəb olurdu, onların mənafeyini eyniləşdirir, qüvvələrini mərkəzləşdirirdi. Bunun təbii nəticəsi o oldu ki, bütün ticarət-sənaye sinifləri kütləsi liberal müxalifət cəbhəsinə keçdi və alman burjuaziyası siyasi hakimiyyət uğrunda ilk ciddi vuruşmada qalib gəldi. 1840-cı ili bu dönüşün başlanğıcı hesab etmək olar, o zamandan e`tibarən alman burjuaziyasının hərəkatına Prussiya burjuaziyası rəhbərlik etməyə başladı. Biz 1840–1847-ci illərin bu liberal müxalifət hərəkatı üzərinə irəlidə yenə qayıdacağıq.

Millətin nə zadəganlara, nə də burjuaziyaya mənsub olmayan əsas kütləsi şəhərlərdə xırda sənətkarlar və tacirlər sinfindən, fəhlələrdən, kəndlərdə isə kəndlilərdən ibarət idi.

Almaniyada iri kapitalist və sənayeçilər sinfinin zəif inkişaf etməsi üzündən bu ölkədə xırda sənətkarlar və tacirlər sinfi sayca son dərəcə çoxdur. Bu sinif iri şəhərlərdə əhalinin, demək olar, əksəriyyətini təşkil edir, xırda şəhərlərdə isə bu sinif, onun nüfuzunu qəbul etməyən daha varlı rəqiblər olmadığına görə tamamilə üstündür. Bütün müasir dövlətlər və müasir inqilablarda olduqca mühüm rol oynayan bu sinif Almaniyada xüsusilə mühümdür və bu yaxınlardakı mübarizə zamanı orada adətən həlledici rol oynamışdır. Onun xarakteri daha iri kapitalist olan tacir və sənayeçilər sinfi ilə, sözün həqiqi mə`nasında burjuaziya ilə proletariat və ya sənaye fəhlələri sinfi arasında orta bir mövqe tutması ilə müəyyən olunur. Bu sinif özündən yuxarıda olan birinci sinif mövqeyinə keçməyə can atır, lakin taleyin ən kiçik əlverişsiz dönüşü bu sinfin nümayəndələrini özündən aşağıda olan axırıncı sinfin sıralarına yuvarladır. Monarxiya və feodal ölkələrində xırda sənətkarlar və tacirlər sinfi yaşamaq üçün sarayın

və aristokratiyanın sifarişlərinə möhtacdır; bu sifarişçilərin əldən çıxması həmin sinfin çox hissəsini var-yoxdan çıxara bilər. Daha kiçik şəhərlərdə bu sinfin dolanacağının əsasını çox vaxt hərbi qarnizon, yerli idarələr, məhkəmə palatası və onun əlaltıları təşkil edirlər bütün bunları ortadan götürsəniz, xırda dükançıların, dərzilərin, çəkməçilərin, xarratların işi bitər. Beləliklə, xırda sənətkarlar və tacirlər sinfi daim tərəddüd içərisində yaşayaraq, bir tərəfdən, ümid edir ki, yüksəlib daha varlı sinfin sıralarına keçəcəkdir, digər tərəfdən qorxur ki, proletarlar və ya hətta dilənçilər mövqeyinə düşəcəkdir, bir tərəfdən ümid edir ki, ictimai işlərə rəhbərlikdə iştirak etməkdə özünə bir pay qazanmaqla öz mənafeyini tə`min edəcəkdir, digər tərəfdən ehtiyat edir ki, yersiz müxalifətlə hökuməti qəzəbləndirəcəkdir, ona görə ki, onun varlığı hökumətdən asılıdır, çünki ən yaxşı sifarişçilərdən onu məhrum etmək hökumətin ixtiyarındadır. Xırda sənətkarlar və tacirlər sinfinin vəsaiti olduqca azdır və bu vəsaitə sahib olmağın davamsızlığı onun miqdarına tərs proporsionaldır. Bütün bunlara görə həmin sinfin baxışları son dərəcə dəyişkəndir. Güclü feodal və ya monarxiya hökuməti qarşısında sakit və lakey kimi itaətkar olan bu sinif burjuaziyanın yüksəlişi zamanı liberalizm tərəfinə keçir; burjuaziya öz hökmranlığını tə`min edən kimi həmin sinif hədsiz bir demokratizmə qapılır, lakin ondan aşağıda duran sinif, yə`ni proletariat müstəqil hərəkət etməyə təşəbbüs göstərən kimi ona ən miskin qorxaqlıq üz verir. Biz bu sinfin Almaniyada həmin vəziyyətlərin birindən digərinə necə keçdiyini şərhimizin gedişində görəcəyik. Alman burjuaziyası İngiltərə və Fransa burjuaziyasından geri qaldığı dərəcədə alman fəhlə sinfi də bu ölkələrin fəhlə sinfindən ictimai və siyasi inkişaf cəhətdən geri qalmışdır. Ağa necədirsə, nökər də elədir. Sayca çox olan güclü, sıx birləşmiş və şüurlu proletariatın yaşaması üçün zəruri olan şəraitin inkişafı, sayca çox olan varlı, sıx birləşmiş və qüdrətli burjuaziyanın yaşaması şəraitinin inkişafı ilə birgə davam edir. Nə qədər ki, burjuaziyanın bütün müxtəlif fraksiyaları və xüsusilə onun ən mütərəqqi hissəsi olan iri sənayeçilər siyasi hakimiyyət əldə etməmişlər və dövləti özlərinin tələbatına uyğun surətdə dəyişdirməmişlər, fəhlə sinfinin hərəkatı heç bir zaman müstəqil olmur və xalis proletar xarakteri almır. Lakin iş gəlib bu yerə çatan kimi, sahibkarla muzdlu fəhlə arasında labüd toqquşma günün məsələsi olur və bunu daha tə`xirə salmaq mümkün deyildir; bundan sonra fəhlələri daha heç bir boş ümidlə və heç vaxt yerinə yetirilməyən və`dlərlə tovlamaq olmaz; bu

zaman XIX əsrin böyük problemi–proletariatı ləğv etmək problemi, nəhayət, bütün dolğunluğu və aydınlığı ilə meydana çıxır. Almaniyada muzdlu fəhlələrin çox hissəsi işi Böyük Britaniyada çox gözəl nümunələri olan müasir tipli sənaye maqnatlarından deyil, bütün istehsal sistemi orta əsrlərin adi qalığı olan xırda sənətkarlardan alırdı. İri pambıq parça lordu ilə xırda sahibkar çəkməçi, yaxud dərzi arasında çox böyük fərq olduğu kimi, müasir sənaye Babillərinin düşüncəli, zirək fabrik fəhləsi də kiçik əyalət şəhərciyində işləyən fağır dərzi köməkçisindən və ya mebelçi xarrat şagirdindən tamamilə fərqlənir, çünki kiçik əyalət şəhərciyində bu qisim adamların həyat şəraiti, onların əməyinin xarakteri bundan beş əsr əvvəldəkinə nisbətən lap az dəyişilmişdir. Aydındır ki, müasir həyat şəraitinin, müasir sənaye istehsal növlərinin bu ümumi yoxluğu az qala hər yerdə müasir ideyaların da yoxluğuna səbəb olurdu; buna görə qətiyyən təəccüblü deyildir ki, inqilabın başlanğıcında fəhlələrin xeyli hissəsi sexləri və orta əsrlərin imtiyazlı sənət korporasiyalarını dərhal bərpa etmək tələbini irəli sürmüşdü. Lakin bununla belə, müasir istehsal üsulunun üstün olduğu sənaye mahallarının tə`siri sayəsində, bir çox fəhlələrin sərsəri həyat tərzinin köməyi ilə düzələn əlaqə asanlığı və əqli inkişaf sayəsində fəhlələr arasında güclü bir özək yarandı; öz sinfini azad etmək haqqında bu özəyin ideyaları müqayisə edilməyəcək dərəcədə daha aydın idi, mövcud faktlara, tarixi tələbata daha çox uyğun gəlirdi. Lakin bu fəhlələr yalnız azlıq təşkil edirdilər. Burjuaziyanın fəal hərəkatının tarixini 1840-cı ildən hesablamaq olarsa, fəhlə sinfinin hərəkatı Sileziya və Bohemiya (Çexiya. Red.) fəhlələrinin 1844-cü il üsyanından152 başlanır. Tezliklə bizim bu hərəkatın müxtəlif mərhələlərinin xülasəsini verməyə imkanımız olacaqdır. Nəhayət, öz əlavəsi olan kənd təsərrüfatı fəhlələri ilə birlikdə bütün millətin böyük əksəriyyətini təşkil edən xırda kənd təsərrüfatı sahiblərindən, kəndlilərdən ibarət çox böyük bir sinif var idi. Lakin bu sinfin özü də müxtəlif qruplara bölünür. Biz burada, əvvələn, varlı kəndliləri, Almaniyada «Gross» və «Mittelbauern» (iri və orta kəndlilər. Red.) adlananları görürük; bunların hər biri az-çox geniş torpaq sahəsinə malikdir və bir neçə nəfər kənd təsərrüfatı fəhləsinin əməyindən istifadə edir. Vergidən azad iri feodal torpaq sahibləri ilə xırda kəndlilər və kənd təsərrüfatı fəhlələri arasında duran bu sinif üçün ən təbii siyasət, tamamilə aydın səbəblərə görə, feodalizmə zidd olan şəhər burjuaziyası ilə ittifaq bağlamaq idi. İkincisi, xırda azad kəndliləri görürük bunlar böyük Fransa

inqilabının güclü zərbələri altında feodalizmin süqut etdiyi Reyn vilayətində üstünlük təşkil edirdilər. Asılı olmayan bu cür xırda kəndlilərə başqa vilayətlərin də bə`zi yerlərində təsadüf edilirdi bu yerlərdə onlar torpaq pulu verib, öz torpaq sahələri üzərinə əvvəllər qoyulmuş feodal mükəlləfiyyətlərindən azad ola bilmişdilər. Lakin bu sinif yalnız sözdə azad mülkiyyətçilər sinfi idi, onun mülkiyyəti adətən o dərəcədə, həm də elə ağır şərtlərlə girov qoyulmuşdu ki, torpağın həqiqi mülkiyyətçisi kəndli deyil, borc pul verən sələmçi idi. Üçüncüsü, feodaldan asılı kəndlilərə rast gəlirik, bu kəndliləri öz torpaq sahələrindən qovmaq asan deyildi, amma onlar mülkədara daim renta verməli və ya daim onun üçün müəyyən bir iş görməli idilər. Nəhayət, kənd təsərrüfatı fəhlələri var idi və bir çox iri təsərrüfatlarda onların vəziyyəti tamamilə İngiltərə kənd təsərrüfatı fəhlələrinin vəziyyəti kimi idi, onlar daim ac-yalavac dolanıb öz ağalarının qulu kimi qalır, yoxsulluq içində yaşayıb, yoxsulluq içində ölürdülər. Kənd əhalisinin bu üç axırıncı sinfi–xırda azad kəndlilər, feodaldan asılı kəndlilər və kənd təsərrüfatı fəhlələri–inqilabdan əvvəl heç bir zaman siyasət üzərində o qədər də baş sındırmırdılar; lakin tamamilə aydındır ki, inqilab onlar üçün ən parlaq perspektivlərlə zəngin olan yeni bir meydan açmalı idi. İnqilab onların hər birinə fayda və`d edirdi, buna görə də gözləmək olardı ki, hərəkat tamamilə genişlənən kimi, bütün bu siniflər bir-birinin ardınca inqilaba qoşulacaqlar. Lakin burası da eyni dərəcədə aydındır və bütün müasir ölkələrin tarixi ilə eyni dərəcədə təsdiq edilmişdir ki, kənd əhalisi böyük sahədə səpələndiyinə və özünün az-çox mühüm bir hissəsi içərisində razılığa gəlmək onun üçün çətin olduğuna görə bu əhali heç bir zaman müvəffəqiyyətli müstəqil hərəkata başlaya bilməz. Kəndlilər şəhərlərin daha sıx birləşmiş, daha bilikli və daha mütəhərrik əhalisinin təşəbbüskarlıq tə`siri göstərməsinə möhtacdırlar. Bu yaxınlarda başlanmış hərəkat ərəfəsində birlikdə alman millətini təşkil edən ən mühüm siniflərin burada verilən qısa xarakteristikası həmin hərəkatda üstün yer tutan bütün məntiqsizliklərin, uyğunsuzluqların və açıq-aşkar ziddiyyətlərin böyük bir qismini izah etmək üçün kifayətdir. Əgər bunca müxtəlif, bunca ziddiyyətli olub bir-biri ilə qəribə şəkildə çarpazlaşan mənafelər arasında şiddətli toqquşma baş verdisə, əgər bir-biri ilə mübarizə edən bu mənafelər müxtəlif mahallarda, müxtəlif əyalətlərdə bir-birinə müxtəlif nisbətlərdə qarışmışsa və xüsusilə bu cəhət əhəmiyyətlidir ki, ölkədə öz mö`təbər qərarları ilə eyni bir mübahisəni hər bir əlahiddə yer, hər dəfə mübarizə

vasitəsi ilə yenidən həll etmək zərurətindən xalqı xilas edə biləcək bir iri mərkəz, nə bir London, nə bir Paris yoxdursa,–onda belə bir şəraitdə mübarizənin çoxlu qan axıdılan, çoxlu qüvvə və kapital sərf edilən və bütün bunlara baxmayaraq heç bir qəti nəticə verməyən saysız-hesabsız pərakəndə toqquşmalara parçalanacağını gözləməyib başqa nə gözləmək olardı?

Almaniyanın siyasi cəhətdən parçalanıb üç düjün az-çox böyük dövlətə bölünməsi də, eyni ilə bunun kimi, alman millətini təşkil edən və ölkənin ayrıca hər bir hissəsində özunə məxsus xarakter daşıyan ünsürlərin məhz bu hərc-mərc mürəkkəbliyi ilə izah edilir. Mənafe ümumiliyi olmayan yerdə, fəaliyyət birliyi hələ bir yana dursun, heç məqsəd birliyi də ola bilməz. Doğrudur, Almaniya ittifaqını85 heç bir zaman pozulmayacaq bir ittifaq e`lan etmişdilər, amma buna baxmayaraq İttifaq və onun orqanı olan İttifaq seymi153 heç bir zaman Almaniyanın birliyini təmsil etməmişdi. Almaniyanı mərkəzləşdirməkdə o zamanadək əldə edilən ən yüksək pillə Gömrük ittifaqının yaradılması olmuşdu. Gömrük ittifaqının yaradılması Şimal dənizi boyunda yerləşən dövlətləri də məcbur etdi ki, birləşib xüsusi gömrük təşkilatı154 düzəltsinlər, Avstriya isə özünün qadağanedici xüsusi gömrük tarifi ilə özünü kənarda tutmaqda davam edirdi. Beləliklə, Almaniya buna qane oldu ki, özünün bütün əməli vəzifələri üçün otuz altı dövlət əvəzinə indi cəmi üç müstəqil dövlət arasında bölünmüşdü. Aydındır ki, rus çarının (I Aleksandrın. Red.) 1814-cü ildə bərqərar olmuş başçılığı bunun nəticəsində heç bir dəyişikliyə uğramadı.

Biz öz mühakimələrimizdən bu ilkin nəticələri çıxartdıqdan sonra növbəti məqaləmizdə alman xalqının yuxarıda bəhs edilən müxtəlif siniflərinin bir-birinin ardınca hərəkata necə cəlb edildiyini və 1848-ci il Fransa inqilabı başlandıqdan sonra bu hərəkatın nə xarakter aldığını görəcəyik.

London, sentyabr 1851-ci il.

II

PRUSSİYA DÖVLƏTİ

Almaniyada orta sinfin və ya burjuaziyanın siyasi hərəkatının başlanğıcı 1840-cı ilə aid edilə bilər. Bu hərəkat başlanmazdan əvvəl müəyyən əlamətlər göstərirdi ki, həmin ölkədə kapital və sənaye sahibi olan sinif o dərəcədə yetişmişdir ki, yarımfeodal, yarımbürokrat monarxiyaların zülmü altında daha laqeyd və itaətkar vəziyyətdə qala bilməz. Almaniyanın kiçik hökmdarları bir-birinin ardınca öz təbəələrinə az-çox liberal xarakterli

konstitusiyalar əta edirdilər–qismən ona görə edirdilər ki, Avstriya və Prussiyanın hegemonluğuna qarşı, yaxud öz dövlətlərindəki zadəganların nüfuzuna qarşı özləri üçün daha artıq müstəqillik tə`min etsinlər, qismən də ona görə edirdilər ki, bir-biri ilə əlaqəsi olmayıb Vyana konqresinin155 qərarı ilə onların hakimiyyəti altında birləşdirilən vilayətləri bir tam halında toplasınlar. Onlar bunu özləri üçün heç bir təhlükə törətmədən edə bilərdilər, zira onlara məlum idi ki, əgər Avstriya və Prussiyanın əlində oyuncaq olan İttifaq seymi onların suveren hökmdar kimi malik olduqları müstəqilliyə qəsd etmək istəsəydi, ictimai fikir və palatalar İttifaq seyminin əmrlərinə müqavimət göstərməkdə onlara kömək edərdi, əksinə, əgər palatalar həddən artıq güclü çıxsaydı, onda İttifaq seyminin hakimiyyətindən istifadə edib hər cür müxalifəti asanlıqla qırmaq olardı. Belə bir şəraitdə Bavariya, Vürtemberq, Baden və ya Hannover konstitusiya tə`sisatı siyasi hakimiyyət uğrunda ciddi mübarizəyə təkan verə bilməzdi. Buna görə də alman burjuaziyasının əsas kütləsi kiçik dövlətlərin qanunverici məclislərində baş verən xırda çəkişmələrdən ümumiyyətlə kənarda durub çox gözəl başa düşürdü ki, Almaniyanın iki iri dövlətinin siyasətində və dövlət quruluşunda əsaslı dəyişiklik edilməsə, bütün ikinci dərəcəli sə`y və qələbələrdən heç bir nəticə hasil olmaz. Eyni zamanda bu kiçik məclislərdə liberal hüquqçulardan, peşəkar müxalifət nümayəndələrindən ibarət bütöv bir dəstə–Rotteklər, Velkerlər, Römerlər, Yordanlar, Ştüvelər, Eyzemanlar meydana gəldi ki, bu böyük «xalq xadimləri» (Volksmanner) iyirmi il sürən az-çox gurultulu, lakin daim səmərəsiz müxalifətdən sonra 1848-ci ilin inqilabi axını ilə tamamilə hakimiyyət zirvəsinə ucaldılar, sonra isə tamamilə qabiliyyətsiz və vecsiz olduqlarını büruzə verib bir anda devrildilər. Onlar Almaniya zəminində ilk peşəkar siyasətçi və müxalifətçi nümunələri idilər onlar öz nitqləri və yazıları ilə almanların qulağını konstitusionalizm dilinə alışdırırdılar və özlərinin mövcud olması faktı ilə elə bir vaxtın yaxınlaşdığını xəbər verirdilər ki, o zaman burjuaziya bu boşboğaz vəkillərin və professorların adət edib işlətdikləri, amma nə demək olduğunu o qədər də başa düşmədikləri siyasi ibarələrin əsil mə`nasını mənimsəyəcək və bu ibarələrə onların əsil mə`nasını verəcəkdir.

1830-cu il hadisələri sayəsində bütün Avropanı bürümüş siyasi həyəcan156 alman ədəbiyyatına da tə`sir etdi. O zamanın az qala bütün yazıçıları yarımçıq konstitusionalizm və ya daha artıq dərəcədə yarımçıq

respublikaçılıq təbliğ edirdilər. Öz əsərlərində iste`dadın çatışmadığını oxucuların nəzərini cəlb edəcək siyasi eyhamlarla örtüb doldurmaq adəti yazıçılar arasında, xüsusən xırda ədiblər arasında getdikcə daha çox yayılırdı. Şe`rlər, romanlar, resenziyalar, dramlar, bir sözlə bütün ədəbi yaradıcılıq növləri «tendensiya» deyilən şeylə, yəni hökumətə zidd əhval-ruhiyyənin az-çox ürkək ifadələri ilə dolu idi. Almaniyada 1830-cu ildən sonra hökm sürmüş ideya dolaşıqlığını tamamlayıb başa çatdırmaq üçün, həmin siyasi müxalifət ünsürlərinə alman fəlsəfəsi haqqında pis qavranılmış universitet xatirələri və fransız sosializminin, xüsusən Sen-Simonizmin səhv başa düşülmüş qırıntıları qarışdırılırdı. Bu müxtəlif ideyalar qarışığını yayan yazıçılar güruhu özünü lovğalıqla «Gənc Almaniya» və ya «Müasir məktəb»157 adlandırmışdı. Sonralar onlar öz gənclik günahlarını boyunlarına alıb peşman oldular, amma ədəbi üslublarını zərrə qədər də təkmilləşdirmədilər.

Nəhayət, alman fikrindəki inkişafın ən mürəkkəb, eyni zamanda ən düzgün ifadəsi olan alman fəlsəfəsi də burjuaziyanın tərəfinə keçdi və bu zaman Hegel özünün «Hüquq fəlsəfəsi» əsərində konstitusiyalı monarxiyanı ən yüksək, ən mükəmməl idarə forması e`lan etdi. Başqa sözlə desək, Hegel xəbər verdi ki, vətən burjuaziyası yaxın vaxtlarda hakimiyyət başına gələcəkdir. Hegelin vəfatından sonra onun məktəbi bu nöqtədə dayanıb durmadı. Hegel ardıcıllarının daha radikal cinahı bir tərəfdən hər cür dini e`tiqadı şiddətli tənqid atəşinə tutmaqla qədim xristianlıq binasını lap təməlinə qədər sarsıtdı, digər tərəfdən isə alman qulağının o vaxtadək eşidə bildiyi siyasi prinsiplərdən daha cəsarətli prinsiplər irəli sürdü və birinci Fransa inqilabı qəhrəmanlarının şanlı xatirəsini əziz tutmağa təşəbbüs etdi. Doqrudur, bu ideyaların ifadə edildiyi anlaşılmaz fəlsəfi dil istər müəllifin, istərsə də oxucunun fikrini çaşdırırdı, lakin eyni zamanda senzorun da gözündən pərdə asırdı, buna görə də «gənc hegelçi» yazıçılar ədəbiyyatın heç bir başqa sahəsinin istifadə etmədiyi dərəcədə mətbuat azadlığına malik idilər.

Beləliklə, aydın idi ki, Almaniyanın ictimai rə`yində böyük bir dəyişiklik əmələ gəlirdi. O siniflər ki, onlarIn təhsili və ya güzəranı hətta mütləq monarxiya şəraitində müəyyən siyasi bilik əldə etməyə və özlərinə az-çox müstəqil siyasi əqidə aşılamağa imkan verirdi, belə siniflərin çox böyük əksəriyyəti tədricən birləşib mövcud idarə üsuluna qarşı güclü müxalifət falanqası yaratdı. Almaniyada siyasi inkişafın ləngliyi haqqında mühakimə

yeridərkən heç kəs aşağıdakı cəhəti nəzərdən qaçırmamalıdır: bir ölkədə ki bütün bilik mənbələri hökumətə tabe edilmişdi, bir ölkədə ki əvvəlcədən rəsmi icazə alınmadan yoxsul məktəbləri ilə bazargünü məktəblərindən ta qəzetlərə və universitetlərədək heç bir sahədə heç bir söz demək, tədris etmək, çap və e`lan etmək mümkün deyildi, belə bir ölkədə hər bir məsələ barəsində düzgün təsəvvür əldə etmək nə qədər çətin idi. Məsələn, Vyananı götürək. Vyanalılar əmək qabiliyyəti və sənaye istehsalına qadir olmaq cəhətdən Almaniyada bəlkə də heç kəsdən geri qalmadıqları, zirəklik, mərdlik və inqilabi əzmkarlıq cəhətdən isə hamıdan çox-çox yüksəkdə durduqları halda, öz həqiqi mənafelərini anlamaqda başqalarına nisbətən daha çox avamlıq göstərdilər və inqilab zamanı daha çox səhv buraxdılar. Bunun səbəbi çox böyük bir dərəcədə ondan ibarət idi ki, Metternix hökuməti ən adi siyasi məsələlərdə əhalini demək olar tamamilə avam bir vəziyyətdə saxlaya bilirdi.

Daha izah etməyə ehtiyac yoxdur ki, nə üçün belə bir idarə üsulu şəraitində siyasi biliklər cəmiyyətin az qala yalnız o siniflərinin inhisarında idi ki, onlar həmin biliklərin ölkəyə xəlvəti gətirilməsinin haqqını ödəyə bilirdilər, xüsusilə o siniflərin ki, mövcud qaydalar onların mənafeyinə daha çox toxunurdu, yə`ni sənayeçi və tacir siniflərinin inhisarında idi. Buna görə də birinci olaraq onlar az-çox üstüörtülü mütləqiyyətin saxlanmasına qarşı birlikdə çıxış etdilər odur ki, onların müxalifət sıralarına qoşulduqları vaxt Almaniyada həqiqi inqilabi hərəkatın başlanğıcı sayılmalıdır.

Belə hesab etmək olar ki, alman burjuaziyasının müxalifət çevrilişi 1840-cı ildən, yə`ni 1815-ci il Müqəddəs ittifaqının72 sağ qalmış banilərindən axırıncısı olan keçmiş Prussiya kralının (III Fridrix Vilhelmin. Red.) vəfatı ilindən başlanır. Yeni kral haqqında bunu bilirdilər ki, o, atasının əsasən bürokratik və militarist xarakter daşıyan monarxiya sisteminə tərəfdar deyildir. Fransız burjuaziyası bir vaxt XVI Lüdovikin taxta çıxması ilə nəyə nail olacağını güman edirdisə, onu alman burjuaziyası müəyyən dərəcədə prussiyalı IV Fridrix-Vilhelmdən almaq ümidində idi. Hamı razılaşırdı ki, köhnə sistem çürümüş və iflasa uğramışdır, ona son qoymaq lazımdır; köhnə kral zamanında dinməz-söyləməz dözdükləri hər şeyi indi gur səslə dözülməz e`lan edirdilər.

Lakin «İstəkli Lüdovik» adlanan XVI Lüdovik öz fərsizliyini qismən dərk edən adi, iddiasız və sadəlövh bir şəxs, müəyyən ideyası olmayan, tərbiyəsi

zamanı kəsb etdiyi adətləri daha çox rəhbər tutan bir adam idisə, «İstəkli Fridrix-Vilhelm» tamam başqa təbiətli idi. İradəsiz olması cəhətdən o öz fransız orijinalını, şübhəsiz, ötüb keçmişdi, lakin onun öz iddiaları, öz əqidəsi də var idi. O, əksər elmlərin əlifbası ilə bir həvəskar kimi səthi tanış olmuşdu, buna görə də özündən çox müştəbeh olub belə hesab edirdi ki, hər hansı bir məsələ barəsində son sözü demək üçün kifayət qədər biliyi var. O yəqin etmişdi ki, məharətli bir natiqdir və Berlində, şübhəsiz, heç elə bir kommivoyajor yox idi ki, bol-bol bayağı atmacalar söyləməkdə və aşıb-daşan bəlağətdə onu ötüb keçə biləydi. Ən əhəmiyyətli cəhət isə bu idi ki, onun öz əqidəsi var idi. O, Prussiya monarxiyasının bürokratik ünsürünə xor baxır və nifrət edirdi, yalnız ona görə ki, rəğbəti bütünlüklə feodal ünsürünə tərəf idi. «Berliner politisches Wochenblatt!»158ın, tarixi məktəb159 adlanan məktəbin (bu məktəb Bonaldın, De Mestrin və ilk fransız legitimistləri53 nəslindən olan digər yazıçıların ideyalarından qida alırdı) baniləri və əsas xadimlərindən biri olan IV Fridrix-Vilhelm cəmiyyətdə zadəganların hökmran mövqeyini mümkün qədər tam bir şəkildə bərpa etməyə çalışırdı. Kral öz krallığında birinci zadəgandır; onu, hər şeydən əvvəl, dəbdəbəli saray adamları–güclü vassallar, knyazlar, hersoqlar və qraflar, sonra isə sayca çox olan varlı aşağı zadəganlar əhatə edirlər. Kral, ictimai zümrə və ya silklərin bitkin rütbələr silsiləsinin başçısı olaraq öz sədaqətli şəhərli və kəndlilərinə öz bildiyi kimi hökmranlıq edir; bu rütbə və ya zümrələrdən hər birinin öz xüsusi imtiyazları vardır və onların hər biri yerdə qalan rütbə və zümrələrdən az qala keçilməz bir sədlə–mənşə səddi, yaxud möhkəm və sabit bir şəkildə qərarlaşmış ictimai mövqe səddi ilə ayrılmalıdır; həm də bütün bu zümrələr və ya «krallıq silkləri» öz quvvə və nüfuzları ilə bir-birini elə dəqiq tarazlaşdırmalıdırlar ki, kralın tam sərbəst hərəkət etmək imkanı olsun. IV Fridrix-Vilhelm həyata keçirməyə girişdiyi və indi yenə də həyata keçirməyə çalışdığı «beau ideal» (gözəl ideal. Red.) məhz belə idi.

Nəzəri məsələlərdə o qədər də səriştəsi olmayan Prussiya burjuaziyası kralın bu niyyətlərinin əsl xarakterini başa düşüb aşkara çıxardanadək aradan müəyyən qədər vaxt keçməli oldu. Lakin burjuaziya öz arzusuna tamamilə zidd şeylərə kralın rəğbət bəslədiyini çox tez gördü. Atasının ölümündən sonra «dili açılan» yeni kral öz niyyətlərindən saysız-hesabsız nitqlərində danışmağa başladı. Həm də kralın hər bir nitqi, hər bir hərəkəti burjuaziyanın ona rəğbətini azaldırdı. Əgər kralı şairanə xəyallardan ayıran

bir neçə amansız, təhlükəli fakt olmasaydı, bu hal onu narahat etməzdi. heyhat, romantika hesabda çox zəifdir və hələ Don-Kixot zamanından bəri feodalizm hesabda həmişə yanılmışdır! Pula laqeydlik səlibçilər nəslinin əzəldən ən nəcib irsi xüsusiyyəti idi və IV Fridrix-Vilhelm bu xüsusiyyəti son dərəcə yaxşı mənimsəmişdi. O, taxta çıxanda xəsisliklə təşkil edilmiş olsa da, bahalı hökumət sistemi və az-çox dolu dövlət xəzinəsi onun ixtiyarına keçmişdi. Nə qədər artıq sərvət var idisə, hamısı sarayda düzəldilən rəqs gecələrinə, şah səyahətlərinə, ən`amlara, əli aşağı düşmüş, üst-başı tökülmüş və acgöz zadəganlar üçün müavinətlərə və i.a. sərf edildi və iki ildən sonra bu sərvətdən heç bir əsər qalmadı. Adi vergilər artıq nə sarayın tələbatını ödəməyə çatırdı, nə də hökumətin. Buna görə də tezliklə bir tərəfdən açıq-aşkar kəsir, digər tərəfdən isə «gələcək xalq nümayəndəliyinin» razılığını almadan yeni istiqraz buraxmağı və vergiləri artırmağı qanunsuz e`lan edən 1820-ci il qanunu ə`lahəzrəti məngənə kimi sıxmağa başladı. Belə bir xalq nümayəndəliyi yox idi; yeni kralın xalq nümayəndəliyi yaratmağa hətta atasından da az meyli vardı. Yeni kral buna hətta meyl etsəydi də, bilməmiş deyildi ki, taxta çıxdığı vaxtdan bəri ictimai fikir heyrət ediləcək dərəcədə dəyişilmişdi.

Yeni kralın dərhal konstitusiya əta edəcəyinə, mətbuat azadlığı verəcəyinə, andlı iclasçı məhkəmələri və i.a. yaradacağına, bir sözlə, siyasi hakimiyyət əldə etmək üçün burjuaziyaya lazım olan dinc inqilaba başçılıq edəcəyinə qismən ümid bəsləyən burjuaziya həqiqətən öz səhvini anlayıb qəzəblə kralın üstünə düşdü. Reyn əyalətində, habelə az-çox dərəcədə bütün Prussiyada burjuaziyanın hiddəti elə coşdu ki, onu mətbuatda təmsil edə biləcək adamları öz içərisində kifayət qədər olmadığına görə yuxarıda bəhs etdiyimiz ifrat fəlsəfi cərəyanla hətta ittifaqa girdi. Bu ittifaqın bəhrəsi Kölndə nəşr edilən «Rheinische Zeitunq»160 oldu. Bu qəzet tə`sis edildikdən on beş ay sonra bağlandısa da, belə hesab etmək olar ki, Almaniyada müasir vaxtaşırı mətbuatın əsasını qoymuşdur. Bu, 1842-ci ildə olmuşdu.

Yazıq kral, pul cəhətdən çəkdiyi çətinliklər onun orta əsrlərə xas olan meyllərinə ən acı bir satira idi; odur ki, kral lap tezliklə gördü ki, əgər çoxdan unudulmuş 1813-cü il və 1815-ci il və`dlərinin son qalığı olaraq 1820-ci il qanununda adı çəkilən «xalq nümayəndəliyi» haqqında ümumi tələbi yerinə yetirmək üçün bə`zi xırda güzəştlərə getməsə, daha padşahlıq edə bilməyəcəkdir. Kral belə hesab edirdi ki, bu namünasib qanunun

göstərişini həyata keçirmək üçün ən az bəd olan üsul əyalət landtaqları nümayəndələrindən ibarət daimi komissiyanı çağırmaqdır. Əyalət landtaqları 1823-cü ildə tə`sis edilmişdi. Krallığın səkkiz əyalətindən hər birində landtaqlar aşağıdakı şəxslərdən ibarət olurdu: 1) ali zadəganlardan, Almaniya imperiyasının bir zamanlar suveren olmuş sülalələrindən, bu sülalələrin başçıları silk məclisinin anadangəlmə üzvləri idilər; 2) cəngavərlərin və ya aşağı zadəganların nümayəndələrindən; 3) şəhərlərin nümayəndələrindən; 4) kəndlilərin və ya xırda kənd təsərrüfatçıları sinfinin deputatlarından. Hər şey elə qurulmuşdu ki, hər bir əyalətin landtaqında çoxluq həmişə zadəganların hər iki kateqoriyasına məxsus olurdu. Bu səkkiz əyalət landtaqının hər biri komissiya seçirdi; indi məhz həmin səkkiz komissiya bunca arzu olunan istiqraza səs verəsi nümayəndəli məclisi təşkil etmək üçün Berlinə çağırılırdı. Bildirildi ki, dövlət xəzinəsi doludur və istiqraz cari tələbatı ödəmək üçün deyil, dövlət dəmir yolu çəkmək üçün lazımdır. Lakin birləşmiş komissiyalar161 xalq nümayəndəliyi kimi hərəkət etmək üçün səlahiyyəti olmadığını bildirərək, krala qəti rədd cavabı verdi və ə`lahəzrətdən tələb etdi ki, kral, Napoleon əleyhinə mübarizədə xalqın köməyinə möhtac olduğu zaman öz atasının nümayəndəli quruluş yaratmaq haqqında verdiyi və`di yerinə yetirsin. Birləşmiş komissiyaların sessiyası göstərdi ki, müxalifət ruhu yalnız burjuaziyaya sirayət etməklə qalmamışdır. Kəndlilərin bir qismi burjuaziyaya qoşulmuşdur; malikanələrində öz iri təsərrüfatlarını özləri idarə edən, taxıl, yun, spirt və kətan satan, buna görə də mütləqiyyətə qarşı, bürokratiyaya qarşı, feodalizmin bərpasına qarşı tə`minat verilməsinə burjuaziya qədər ehtiyacı olan bir çox zadəganlar da hökumətin əleyhinə çıxdılar və nümayəndəli quruluş yaratmaq tələbinə qoşuldular. Kralın planı tamamilə al-tüst oldu. Kral bir quruş da pul əldə etmədi və müxalifətin qüvvəsini artırdı. Əyalət landtaqlarının bunun ardınca çağırılan sessiyaları kral üçün daha da əlverişsiz şəraitdə keçdi. Bütün landtaqlar islahat keçirməyi 1813-cü il və 1815-ci il və`dlərini yerinə yetirməyi, konstitusiya qəbul etməyi və mətbuat azadlığı verməyi tələb etdilər; bə`zi landtaqların müvafiq qətnamələri xeyli kəskin ifadələrlə yazılmışdı; özündən çıxmış kralın əsəbi cavabları vəziyyəti daha da pisləşdirdi.

Eyni zamanda hökumətin maliyyə çətinlikləri getdikcə artırdı. Müxtəlif dövlət idarələri üçün ayrılan vəsaiti azaltmaqla, həmçinin dövlət hesabına və onun adından ehtikar və ticarət edib çoxdan dövlətin maliyyə dəllalı

kimi fəaliyyət göstərən «Seehandlunq»162 ticarət müəssisəsi ilə fırıldaqçı əməliyyatlar keçirməklə, dövlətin tə`diyə qabiliyyətini zahirən bir müddət qoruyub saxlamaq mümkün oldu. Çoxlu dövlət kredit biletləri buraxılması bir qədər köməyə çatdı və ümumiyyətlə desək, maliyyə vəziyyətinin sirri çox bərk saxlanılırdı. Lakin bütün bu hiylələr üçün əldə olan imkanlar çox tez tükəndi. Onda başqa bir yolu sınamağa, yə`ni elə bir bank yaratmağa cəhd etdilər ki, onun kapitalı qismən dövlət vəsaitindən, qismən də xüsusi səhmdarların verdiyi paydan ibarət olmalı idi; baş idarə dövlətin əlində olmalı idi, yə`ni elə təşkil edilməli idi ki, hökumət bu bankın fondlarından çoxlu pul götürə biləydi və beləliklə, «Seehandlunq» ilə daha edə bilmədiyi fırıldaqçı əməliyyatları indi bu bankla təkrar edə biləydi. Lakin aydındır ki, belə şərtlərlə pul vermək istəyən bir kapitalist də tapılmadı. Hətta bir səhm belə alınmadan bankın nizamnaməsini dəyişdirmək və səhmdar mülkiyyətinin xəzinənin qəsdlərindən qorunacağı barədə tə`minat vermək lazım gəldi. Beləliklə, bu plan da al-tüst olduqda borc almağa cəhd etməkdən savayı heç bir çarə qalmadı, əlbəttə, borc almaq da o halda mümkün olardı ki, bu əsrarəngiz «gələcək xalq nümayəndəliyinin» razılığını və tə`minatını tələb etmədən borc pul verən kapitalistlər tapılaydı. Rotşildə ağız açdılar, lakin o dedi ki, əgər bu «xalq nümayəndəliyi» tə`minat verərsə, bir göz qırpımında borc pul düzəldər; yox əgər belə bir tə`minat verilməzsə, bu işə ümumiyyətlə baş qoşmaq istəmir. Beləliklə, pul əldə etmək ümidi tamamilə puç oldu və nəhs «xalq nümayəndəliyi» olmadan keçinmək üçün heç bir imkan qalmadı. Rotşildin rədd cavabı verdiyi 1846-cı ilin payızında mə`lum oldu, sonrakı ilin fevralında isə kral səkkiz əyalət landtaqından vahid «Birləşmiş landtaq»163 təşkil etmək üçün onların hamısını Berlinə çağırdı. Bu landtaqın vəzifəsi 1820-ci il qanununun verdiyi göstərişi ehtiyac olduğu halda yerinə yetirməkdən, yə`ni borc almaq və yeni vergi qoymaq lehinə səs verməkdən ibarət idi, lakin onun bundan savayı heç bir hüququ olmamalı idi. Ümumi qanunvericilik məsələlərində onun səsi xalis məşvərətçi səs olmalı idi bu landtaq müəyyən müddətlərdə deyil, kralın mülahizəsinə görə çağırılmalı idi və yalnız hökumətin, onun müzakirəsinə verməyi lazım bildiyi məsələləri müzakirə edə bilərdi. Aydındır ki, landtaq deputatları üçün ayrılmış rol onları dedikcə az qane etdi. Landtaq deputatları əyalat sessiyalarında bildirdikləri arzularını təkrar etdilər, çox keçmədən hökumətlə onların arasındakı münasibətlər son dərəcə

kəskinləşdi; landtaq deputatlarından tələb ediləndə ki, yenə də guya dəmiryol çəkilməsi üçün borc almağa razılıq versinlər, onlar razılıq verməkdən yenə də boyun qaçırtdılar.
Bu səsvermə landtaq sessiyasının çox tezlikdə bağlanmasına səbəb oldu. Kral getdikcə əsəbiləşərək landtaqı buraxdı, deputatlara narazılığını bildirdi, lakin buna baxmayaraq pulsuz qaldı. Doğrudan da, öz vəziyyəti üçün təşvişə düşməyə kralın tam haqqı var idi, çünki o görürdü ki. burjuaziyanın başçılıq etdiyi liberal partiya, aşağı zadəganların xeyli hissəsini, aşağı silklərin müxtəlif təbəqələrində toplaşmış müxtəlif narazı ünsürləri əhatə edən bu partiya can atdığı məqsədə nail olmaq əzmindədir. Kral, Birləşmiş landtaqın açılışında söylədiyi nitqində əbəs yerə inandırmağa çalışırdı ki, heç bir zaman sözün müasir mə`nasında konstitusiya əta etməyəcəkdir. Liberal partiya məhz müasir, antifeodal, nümayəndəli bir konstitusiya quruluşu yaradılmasında və bunun nəticəsi olaraq mətbuat azadlığı verilməsində, andlı iclasçı məhkəmələri və i. a. tətbiq olunmasında tə`kid edirdi və hiss etdirirdi ki, bunu əldə etməyincə bir quruş da borc almağa razılıq verməyəcəkdir. Bir şey aydın idi: belə bir vəziyyət uzun sürə bilməzdi, ya tərəflərdən biri güzəştə getməli idi, ya iş böyüyüb əlaqənin kəsilməsi dərəcəsinə, qanlı mübarizə dərəcəsinə çatacaqdı. Burjuaziya inqilab astanasında olduğunu bilir və buna görə də inqilaba hazırlaşırdı. Burjuaziya bütün mümkün vasitvlərlə özü üçün şəhərlərdə fəhlə sinfinin və kənd mahallarında kəndlilərin köməyini tə`min etməyə çalışırdı. Yaxşı mə`lumdur ki, 1847-ci ilin axırlarında burjuaziya içərisində, proletariatın rəğbətini qazanmaq üçün özünü «sosialist» deyə qələmə verməyən bir nırər do olsa görkəmli siyasi sima tapmaq çətin idi. Biz bu «sosialistləri» tezliklə iş başında görəcəyik.
Öz hərəkatına zahirən olsa da sosializm görkəmi verməyə qabaqcıl burjuaziyanın bu cür canfəşanlıqla çalışması Almaniyanın fəhlə sinfi içərisində baş verən çox böyük dəyişiklikdən irəli gəlmişdi. Fransanı və İsveçrəni görmüş alman fəhlələrinin bir qismi o zaman fransız fəhlələri arasIIda yayılmış yetkin olmayan sosialist və ya kommunist baxışlarını 1840-cı ildən e`tibarən az-çox qavramağa başlayır. 1840-cı ildən Fransada bu cür ideyalara marağın artması nəticəsində Almaniyada da sosializm və kommunizm dəb düşdü və 1843-cü ildən bütün qəzetlərin səhifələrində ictimai məsələlər mütəmadiyən müzakirə edilməyə başlandı. Çox keçmədən Almaniyada sosializm məktəbi meydana gəldi ki, onun da

ideyaları yeni olmaqdan daha çox dumanlı idi. Sosializm məktəbinin başlıca fəaliyyəti Furye, Sen-Simon nəzəriyyələrini və başqa nəzəriyyələri fransız dilindən anlaşılmaz alman fəlsəfəsi dilinə çevirmək idi164. Təxminən elə bu vaxtlarda, həmin təriqətdən əsaslı surətdə fərqlənən alman kommunizm məktəbi də yarandı.

1844-cü ildə Sileziya toxucularının üsyanları oldu, bunun ardınca Praqanın çitə naxış vuran fabriklərinin fəhlələri üsyan qaldırdılar. Amansızlıqla yatırılan bu üsyanlar, hökumətə qarşı deyil, sahibkarlara qarşı çevrilmiş fəhlə üsyanları olub dərin tə`sir bağışladı, fəhlələr arasında sosialist və kommunist təbliğatına yeni təkan verdi. Aclıq ili olan 1847-ci ildə qaldırılan taxıl qiyamları da eyni ilə bu cür tə`sir göstərdi. Sözün qısası, varlı siniflərin əsas kütləsi (iri feodal torpaq sahiblərindən başqa) konstitusiya müxalifəti bayrağı altında birləşdiyi kimi, böyük şəhərlərin fəhlə sinfi də özünün azadlığa çıxmaq vasitəsini sosializm və kommunizm tə`limlərində görürdü, hərçənd mətbuat haqqında o zamankı qanunlar şəraitində sosializm və kommunizm tə`limləri ilə fəhlə sinfini yalnız ötəri tanış etmək mümkün idi. Əlbəttə, ümid etmək olmazdı ki, fəhlələr öz tələbatları haqqında çox aydın təsəvvürə malik olsunlar fəhlələr yalnız bunu bilirdilər ki, konstitusiyaçı burjuaziyanın proqramında onlara lazım olan şeylərin heç də hamısı yoxdur və onların arzuları konstitusiyaçı ideyaları çərçivəsinə əsla sığışmır.

Almaniyada o zaman xüsusi respublikaçılar partiyası yox idi. Almanlar ya konstitusiyaçı monarxist idilər, ya da öz mövqeyini az-çox aydın müəyyənləşdirmiş sosialist və kommunist.

Belə ünsürlərin mövcud olduğu bir şəraitdə kiçicik bir toqquşma ciddi inqilaba gətirib çıxara bilərdi. Ali zadəganlar, ali mə`murlar və zabitlər mövcud sistemin yeganə e`tibarlı dayağı olaraq qaldıqları bir zamanda aşağı zadəganlar, ticarət-sənaye burjuaziyası, universitetlər, bütün rütbələrdən olan məktəb müəllimləri, hətta aşağı dərəcələrdən olan bürokratiyanın və zabitlərin bir hissəsi–bunların hamısı hökumət əleyhinə birləşdiyi bir zamanda onların arxasında kəndlilərdən və iri şəhərlərin proletariatından ibarət narazı kütlələrin dayandığı və bu kütlələr hələ liberal müxalifət tərəfdarı olduqları, lakin işləri öz əllərinə almaq niyyətləri haqqında qeyri-adi bir tərzdə danışdıqları bir zamanda burjuaziya hökuməti devirməyə, proletariat isə bunun ardınca burjuaziyanı devirməyə hazır olduğu bir zamanda hökumət inadcıllıq edib elə bir yolla gedirdi ki, bu,

hökmən toqquşmaya səbəb olmalı idi. 1848-ci ilin əvvəlində Almaniya inqilabın astanasında idi və hətta Fransadakı fevral inqilabı Almaniya inqilabının baş verməsini sür`ətləndirməsəydi də, bu inqilab, şübhəsiz, baş verəcəkdi.
Biz bu Paris inqilabının Almaniyaya necə tə`sir etdiyini növbəti məqaləmizdə görəcəyik.
London, sentyabr 1851-ci il.

III

DİGƏR ALMAN DÖVLƏTLƏRİ

Son məqaləmizdə biz, demək olar, yalnız bir dövlətlə, 1840-cı ildən 1848-ci ilin axırınadək Almaniya hərəkatında sözsüz çox mühüm rol oynamış Prussiya ilə kifayətləndik. Lakin biz eyni dövrdə Almaniyanın başqa dövlətlərinə də ötəri nəzər salmalıyıq.
Kiçik dövlətlərə gəlincə, 1830-cu il inqilabi hərəkatları zamanından e`tibarən onlar tamamilə İttifaq seymi diktaturasının, yə`ni Avstriya ilə Prussiyanın tabeliyinə keçmişdilər. İri dövlətlərin zorakılığından qorunmaq üçün bir vasitə kimi, həmçinin öz tacdar müəlliflərini şöhrətləndirmək və Vyana konqresinin heç bir rəhbər prinsip olmadan yaratdığı cürbəcür əyalət konqlomeratlarını birləşdirmək üçün qəbul edilən müxtəlif konstitusiyalar nə qədər baştutmaz olsa da, hər halda fırtınalı 1830–1831-ci illər dövründə kiçik monarxların hakimiyyəti üçün təhlükə törətdi. Bunlar demək olar tamamilə ləğv edildi. Lütf edilib bunlardan nə saxlanılmışdısa, bunu hətta kölgə də adlandırmaq çətin idi, odur ki, yalnız bütün bu Velkerlər, Rotteklər və Dalmanlar kimi açıq-aşkar xudpəsənd adamlar belə güman edə bilərdilər ki, onlara həmin kiçik dövlətlərin zəif palatalarında müsaidə edilən acizanə müxalifətin ləyaqətsiz yaltaqlıqla qarışığından guya nə isə bir nəticə əldə etmək olar.
1840-cı ildən az sonra bu kiçik dövlətlərdəki burjuaziyanın daha diribaş hissəsi Avstriya və Prussiyanın həmin əlavələrində parlamentli idarə formasının inkişaf edəcəyinə əvvəllərdə bəslədiyi bütün ümidlərdən tamamilə əl çəkdi. Prussiya burjuaziyası ona qoşulan siniflərlə birlikdə Prussiyada parlamentli idarə üsulu uğrunda ciddi mübarizə etmək əzmində olduğunu büruzə verəndə, Avstriya istisna edilməklə bütün Almaniyada konstitusiya hərəkatının rəhbər rolu ona tapşırıldı. İndi heç bir şübhə ola bilməz ki, Mərkəzi Almannya konstitusiyaçılarının sonralar Frankfurt Milli məclisindən çıxan və özlərinin ayrılıqda çağırdıqları yığıncaqların olduğu

yerin adına görə Qota partiyası165 adlandırılan hissəsinin özəyi, bu konstitusiyaçıların cüz`i dəyişikliklərlə 1849-cu ildə bütün Almaniya nümayəndələrinə təklif etdiyi planı 1848-ci ildən hələ xeyli əvvəl müzakirə etmişdi. Onlar Avstriyanı Almaniya ittifaqından tamamilə xaric etməyə, Prussiyanın himayəsi altında, yeni konstitusiyası və ittifaq parlamenti olan yeni ittifaq tə`sis etməyə, kiçik dövlətləri daha böyük dövlətlərə qatmağa çalışırdılar. Bütün bunlar Prussiyanın konstitusiyalı monarxiyalar sırasına daxil olacağı, mətbuat azadlığı verəcəyi, Rusiya və Avstriyadan asılı olmayan bir siyasət yeritməyə başlayacağı, beləliklə, kiçik dövlətlərin konstitusiyaçıları üçün öz hökumətlərinə həqiqətən nəzarət etmək imkanı yaradacağı andan həyata keçirilməli idi. Bu planı Heydelberqli (Baden) professor Gervinus icad etmişdi. Beləliklə, Prussiya burjuaziyasının azad edilməsi ümumiyyətlə Almaniyada burjuaziyanın azad edilməsi üçün, istər Rusiyaya, istərsə Avstriyaya qarşı hücum və müdafiə ittifaqının yaradılması üçün işarə olmalı idi, çünki indi görəcəyimiz kimi, Avstriyanı tamamilə barbar ölkə sayır və onun haqqında olduqca az şey bilirdilər, həm də bu az şeyin özü Avstriya əhalisinin o qədər də xeyrinə deyildi. Buna görə Avstriya Almannyanın əhəmiyyətli bir tərkib hissəsi hesab edilmirdi. Kiçik dövlətlərdə cəmiyyətin başqa siniflərinə gəldikdə, onlar az-çox sür`ətlə Prussiyadakı qardaşlarının izi ilə getdilər. Xırda burjualar arasında öz hökumətlərinə, vergilərin artırılmasına, öz xəyali siyasi hüquqlarının məhdudlaşdırılmasına qarşı narazılıq getdikcə artırdı, çünki onlar özlərini Avstriya və Prussiyadakı «istibdad kölələri» ilə müqayisə edəndə bu hüquqları ilə çox öyünürdülər. Lakin xırda burjuaların müxalifətində onları iri burjuaziyanın konstitusiya partiyasından fərqli olan müstəqil partiya kimi ayıra biləcək kifayət dərəcədə aydın xüsusiyyətlər hələ nəzərə çarpmırdı. Kəndlilər arasında da narazılıq artırdı, lakin yaxşı mə`lumdur ki, əhaliyə ümumi seçki hüququ verildiyi ölkələrdən başqa heç bir yerdə xalqın bu qismi sakitlik və əminamanlıq dövrlərində heç bir zaman öz mənafeyini irəli sürmür və müstəqil sinif rolunu oynamaq iddiasında olmur. Şəhər sənaye müəssisələrinin fəhlələrinə sosializm və kommunizm «zəhəri» sirayət etməyə başlamışdı. Lakin Prussiyanın hüdudları xaricində əhəmiyyəti böyük olan şəhərlər az və sənaye mahalları ondan da az olduğuna görə kiçik dövlətlərdə bu sinfin hərəkatı, fəaliyyət və təbliğat mərkəzlərinin yoxluğu üzündən son dərəcə yavaş inkişaf edirdi.

Siyasi müxalifətin hər bir təzahürünün yolu üzərində dayanan maneələr həm Prussiyada, həm də kiçik dövlətlərdə spesifik dini müxalifət doğurmuşdu və bu müxalifət özünü alman katolisizmi ilə Azad icmaların166 paralel hərəkatlarında büruzə verirdi. Bir çox tarixi misallar bizə göstərir ki, dövlət kilsəsinin himayəsi altında ne`mətlərdən feyzyab olan və siyasi məsələlərin müzakirəsini ifrat dərəcədə çətinləşdirən ölkələrdə dünyəvi hakimiyyətə qarşı təhlükəli dünyəvi müxalifət ruhani istibdada qarşı edilib dünyəvi mənafedən zahirən daha uzaq olan və daha mö`min bir mübarizə arxasında gizlənir. Heç bir hərəkətinin müzakirə edilməsinə dözməyən bir çox hökumətlər din yolunda canını fəda edənlər yaratmaqdan və kütlələrin dini fanatizmini qızışdırmaqdan çəkinəcəklər. 1845-ci il Almaniyasının hər bir dövlətində ya Roma katolik dini, ya protestant dini, ya da eyni zamanda bunların hər ikisi dövlət quruluşunun ayrılmaz tərkib hissəsi hesab edilirdi. Həm də dövlətlərin hər birində bu məzhəblərdən ya birinin, ya da hər ikisinin ruhaniləri bürokrat hökumət sisteminin mühüm unsürü idi. Buna görə də katolik və ya protestant ortodoksiyasına, ruhanilərə hücum etmək üstüörtülü şəkildə hökumətin özünə hücum etməyə bərabər idi. Alman katoliklərinə gəlincə, onlarınp mövcud olması faktının özü Almaniyanın, xüsusilə Avstrpya və Bavariyanın katolik hökumətlərinə hücum demək idi. Müvafiq hökumətlər buna məhz belə də mə`na verdilər. Azad icmaların üzvləri, İngiltərə və Amerika unitarilərinə167 bir qədər bənzəyən təfriqəçi protestantlar Prussiya kralının və onun sevimlisi, ayin və maarif naziri c-b Eyxhornun klerikal və sırf ortodoksal cərəyapına müxalifətdə olduqlarını açıqca bildirirdilər. Birnncisi vaxtı ilə katolik dövlətlərində, ikincisi isə protestant dövlətlərində, sür`ətlə yayılan bu iki yeni təriqət arasında yalnız mənşə fərqi var idi. Bu təriqətlərin tə`limlərinə gəlincə, onlar qərarlaşmış ehkamların hamısının əsassız olması kimi son dərəcə mühüm bir nöqtədə bir-biri ilə tamamilə düz gəlirdi. Onların əsil mahiyyəti heç bir müəyyənliyin olmamasında idi. Özlərinin dediyinə görə, onlar elə böyük bir mə`bəd tikirdilər ki, bütün almanlar bu mə`bədin tağları altında birləşə bilərdilər. Deməli, onlar günün ikinci vacib siyasi ideyası olan Almaniyanın birliyi ideyasını dini formada ifadə edirdilər. Halbuki onlar özləri öz içərilərində heç cür razılığa gələ bilmirdilər.

Yuxarıda adları çəkilən təriqətlər çalışırdı ki, bütün almanlar üçün yararlı olub, onların tələbatı, adətləri və meyllərinə qəsdən uyğunlaşdırılmış

ümumi bir din icad edərək, Almaniyanın birliyi ideyasını heç olmazsa dini zəmin üzərində həyata keçirsinlər bu ideya, xüsusən kiçik dövlətlərdə, doğrudan da, çox geniş yayıldı. Napoleon Almaniya imperiyasını məhv etdikdən sonra168, Almaniyanın bütün «disjecta membra»nı (səpələnmiş üzvlər. Red.) bütöv bir vahid halında yenidən birləşdirmək çağırışı mövcud qaydalara qarşı və hər şeydən əvvəl, kiçik dövlətlərdə mövcud qaydalara qarşı narazılığın ən ümumi ifadəsinə çevrildi, çünki kiçik dövlətlərdə saray, idarə və ordu üçün çəkilən olduqca çox xərc–bir sözlə, bütün lüzumsuz vergi yükü dövlətin kiçikliyinə və zəifliyinə düz proporsional şəkildə artırdı. Lakin Almaniyanın birliyi həyata keçirilərsə, bunun necə birlik olacağı məsələsində partiyaların rə`yi müxtəlif idi. Ciddi inqilabi sarsıntılar olmasını istəməyən burjuaziya «əməli surətdə həyata keçirilməsini mümkün» hesab etdiyi və yuxarıda tanış olduğumuz tələblə, yə`ni Prussiyanın konstitusiya hökumətinin başçılığı ilə, Avstriyadan savayı, bütün Almaniyanı əhatə edən bir ittifaq yaratmaq tələbi ilə kifayətlənirdi. Şübhə yoxdur ki, o zaman təhlükəli fırtınalar törətmədən bundan artıq heç bir şey etmək olmazdı. Xırda burjualar və kəndlilər,–əgər kəndlilər ümumiyyətlə bu cür məsələlərlə məşğul olurdularsa,–sonralar hay-küy salıb tələb etdikləri Almaniya birliyinə heç vaxt bir tə`rif verə bilmirdilər bə`zi xəyalpərəstlər, başlıca olaraq feodal irticaçıları Almaniya imperiyasının bərpa olunacağına ümid bəsləyirdilər. İsveçrənin idarələri ilə əməli surətdə tanış olmağa o zaman hələ macal tapmadığına görə bu idarələrə pərəstiş edən, sonralar isə tanış olub onlardan çox gülünc bir şəkildə əlini üzən bir ovuc nadan «soi-disant» (adlananlar. Red.) radikal federativ respublikaya tərəfdar idi. O zaman yalnız ən ifratçı partiya vahid və bölünməz Almaniya respublikasına169 tərəfdar çıxmağa cür`ət edirdi. Beləliklə, Almaniyanın birliyi məsələsinin özü ixtilaflar, çəkişmələr və müəyyən şəraitdə hətta vətəndaş müharibəsi də doğura bilərdi.

Yekun vuraq. 1847-ci ilin axırlarında Prussiyada və Almaniyanın kiçik dövlətlərində vəziyyət belə idi. Burjuaziya öz qüvvəsini hiss edirdi və qərara almışdı ki, özünün ticarət işlərini, sənaye fəaliyyətini, bir sinif kimi əlbir hərəkətlərini buxovlayan feodal və bürokrat istibdadı zəncirlərinə daha dözməsin; kənd zadəganlarının bir hissəsi yalnız bazar üçün məhsul istehsal edən istehsalçıya o dərəcədə çevrilmişdi ki, mənafeyi burjuaziyanın mənafeyi ilə eyni olduğuna görə burjuaziyaya qoşulmuşdu; xırda sənətkarlar və tacirlər sinfi narazı idi, vergilərdən, qəsdən törədilib

onun işlərini çətinləşdirən əngəllərdən şikayətlənirdi, lakin cəmiyyətdə va dövlətdə onun mövqeyini tə`min edə biləcək islahatlara dair müəyyən bir proqramı yox idi; kəndlilər bə`zi yerlərdə feodal vergilərinin ağırlığı altında əzilirdilər, başqa yerlərdə isə borc verənlər, sələmçilər və hüquqçular onlara zülm edirdilər şəhər fəhlələri ümumiyyətlə narazı idilər, hökumətə də, iri sənaye kapitalistlərinə də eyni dərəcədə nifrət bəsləyirdilər, sirayətedici sosializm və kommunizm ideyalarını qavrayırdılar. Bir sözlə, rəngarəng müxalifətçi üisürlər kütləsi mövcud idi bu ünsürlərin mənafeyi müxtəlif olsa da, onlara ümumən burjuaziya rəhbərlik edirdi, burjuaziyanın isə ön sıralarında öz növbəsində Prussiya burjuaziyası, xüsusən Reyn əyalətinin burjuaziyası gedirdi. O biri tərəfdə hökumətləri görürük; bir çox məsələlərdə onların arasında ixtilaf var idi, onlar bir-birinə, hər şeydən əvvəl, Prussiya hökumətinə e`tibar etmirdilər, hərçənd ki, onun himayəsinə bel bağlamalı olurdular. Prussiyada elə bir hökumət görürük ki, ictimai rə`y ondan üz döndərmiş, hətta zadəganların bir hissəsi onu tərk etmişdi; bu hökumət elə bir ordu və bürokratiyaya arxalanırdı ki, müxalifətçi burjuaziyanın ideyaları onlara gündən-günə daha çox sirayət edirdi və onlar həmin burjuaziyanın tə`siri altına gündən-günə daha çox düşürdülər; bütün bunlardan əlavə, bu hökumətin cibində sözün həqiqi mə`nasında bir quruş da pul yoxdur və burjua müxalifətinin mərhəmətinə sığınmadan bu hökumət getdikcə artan kəsiri ödəmək üçün bir sikkə də tapa bilməmişdir. Başqa ölkələrin burjuaziyası mövcud hökumətə qarşı, hakimiyyət uğrunda mübarizə edərkən onun heç bundan daha gözəl bir mövqeyi olmuşdumu?

London, sentyabr 1851-ci il.

IV

AVSTRİYA

İndi biz Avstriya ilə tanış olmalıyıq; İngiltərə ilə son müharibəyə170 qədər xaricilərin gözündən uzaq olan Çin kimi, Avstriya da 1848-ci ilin martına qədər xaricilərin gözündən, demək olar, uzaq idi.

Aydındır ki, biz burada Avstriyanın yalnız alman qismini nəzərdən keçirə biləcəyik. Avstriyanın polyak, macar və italyan əhalisinin işləri mövzumuza daxil deyildir, onların 1848-ci ildən e`tibarən Avstriya almanlarının müqəddəratına nə dərəcədə tə`sir göstərdiyi haqqında isə sonra, yeri gəldikcə danışmalı olacağıq.

Knyaz Metternixin hökuməti iki prinsipi rəhbər tuturdu; əvvələn, Avstriyanın hökmranlığına tabe edilmiş müxtəlif millətlərin hər birini eyni ilə onun vəziyyətində olan bütün başqa millətlərin köməyi ilə cilovda saxlamaq ikincisi,–ümumiyyətlə bütün mütləq monarxiyaların əsas prinsipi belədir,–iki sinfə feodal torpaq sahiblərinə və çoxlu pul sahiblərinə arxalanmaq, eyni zamanda da hökumət tam sərbəst hərəkət edə bilsin deyə bu siniflərdən hər birinin nüfuzu və qüvvəsini o biri sinfin nüfuzu və qüvvəsi ilə tarazlaşdırmaq. Öz mədaxilinin hamısını müxtəlif feodal vergilərindən əldə edən zadəgan torpaq sahibləri hökumətə tərəfdar olmaya bilməzdilər, çünki məzlum təhkimli kəndlilər sinfini qarət etmək hesabına yaşayan zadəgan torpaq sahibləri üçün hökumət təhkimli kəndlilər sinfinə qarşı mübarizədə yeganə arxa idi. Bu zadəganların nisbətən aztavanalı hissəsi 1846-cı ildə Qalisiyada olduğu kimi hökumət əleyhinə müxalifət mövqeyinə keçməyə cəsarət edəndə isə, Metternix məhz bu təhkimliləri dərhal onların üzərinə göndərirdi və təhkimlilər var qüvvə ilə çalışırdılar ki, fürsətdən istifadə edib özlərinin bilavasitə zülmkarlarından amansız intiqam alsınlar171. Digər tərəfdən, birjaçı iri kapitalistlərin dövlət kağızına sərf etdikləri çox böyük məbləğdə pul onları Metternix hökumətinə möhkəm bağlamışdı. 1815-ci ildə tam qüvvəsi ilə bərpa edilən, 1820-ci ildən İtaliyada mütləq monarxiyanı dirçəldib müdafiə edən və 1810-cu il iflası nəticəsində borclarının bir qismindən canı qurtaran Avstriya sülh bağlandıqdan azacıq sonra Avropanın iri pul bazarlarında öz e`tibarını bərpa etmişdi və bu e`tibar artdıqca ondan daha geniş istifadə edirdi. Buna görə də Avropanın bütün maliyyə maqnatları öz kapitallarının xeyli hissəsini verib Avstriya dövlət kağızları almışdılar. Bu ölkənin e`tibarının qorunmasında Avropa maliyyə maqnatlarının hamısının marağı var idi, Avstriyanın dövlət e`tibarını qorumaq isə daim yeni istiqrazlar tələb etdiyinə görə bu maqnatlar əvvəlcə verdikləri pul müqabilində aldıqları borc iltizamlarını e`tibardan salmamaq üçün ara-sıra yeni kapital borc verməli olurdular. 1815-ci ildən sonra başlanan uzunmüddətli sülh və Avstriya monarxiyası kimi minillik bir monarxiyanın süqutunun qeyri-mümkün görünməsi Metternix hökumətinin e`tibarını son dərəcə artırırdı, onu hətta Vyana bankirləri və birja möhtəkirlərindən asılı olmaqdan qurtardı: zira nə qədər ki, Metternix Frankfurtdan və Amsterdamdan kifayət qədər pul ala bilirdi, əlbəttə, Avstriya kapitalistlərini öz ayaqlarına döşənmiş görüb bundan kam almaq imkanına malik idi. Yeri gəlmişkən

deyək ki, Avstriya kapitalistləri bütün başqa cəhətlərdən də tamamilə onun hakimiyyəti altında idilər. Bankirlər, birja möhtəkirləri və dövlət tədarükçüləri mütləq monarxiyadan daim çoxlu qazanc qopartmağı bacarırdılarsa da, bunun müqabilində onların şəxsiyyəti və əmlakı hökumətin az qala hədsiz hakimiyyəti altında idi. Buna görə də onlardan azacıq da olsa müxalifət gözləmək olmazdı. Beləliklə, Metternix imperiyanın iki ən qüdrətli və ən nüfuzlu sinfinin köməyinə arxayın ola bilərdi, bundan başqa onun ixtiyarında mütləqiyyətin məqsədləri üçün çox yaxşı təşkil edilmiş ordu və bürokratiya da var idi. Avstriyada xidmətdə olan mülki mə`murlar və zabitlər xüsusi növ adamlardır; onların ataları imperatora xidmət etmişdilər, oğulları da ona xidmət edəcəklər. Onlar ikibaşlı qartalın qanadları altında birləşdirilmiş çoxlu millətin heç birinə mənsub deyillər. Onları daim imperiyanın bir yerindən başqa yerinə– Polşadan İtaliyaya, alman vilayətlərindən Transilvaniyaya köçürmüşlər və köçürürlər; onlar macar, polyak, alman, rumın, italyan, xorvat və başqalarına–üzərində «imperator-kral» vəzifəsinin möhürü olmayan, öz xüsusi milli xarakterini büruzə verən hər bir şəxsə eyni dərəcədə nifrət edirlər. Onların öz milliyyəti yoxdur, yaxud daha doğrusu, təkcə məhz onlar əsil Avstriya millətini təşkil edirlər. Aydındır ki, belə bir mülki və hərbi rütbələr silsiləsi ağıllı və diribaş hökmdarın əlində müti və eyni zamanda güclü bir alət olmalı idi.

Əhalinin başqa siniflərinə gəlincə, Metternix tamamilə «ancien regime» (köhnə qaydalı. Red.) dövlət xadimi ruhunda hərəkət edərək onların köməyi ilə az maraqlanırdı. Metternix onların barəsində ancaq bir siyasət bilirdi: vergi şəklində onlardan mümkün qədər çox vəsait qopartmaq və eyni zamanda onların arasında sakitliyi qoruyub saxlamaq. Avstriyada sənaye və ticarət burjuaziyası çox yavaş inkişaf edirdi. Dunay çayı vasitəsi ilə ticarət nisbətən cüz`i idi; ölkədə yalnız bir port var idi ki, o da Triyest idi bu portun ticarət dövriyyəsi də olduqca məhdud idi. Sənayeçilərə gəlincə, onlar geniş miqyasda həyata keçirilən himayəçilik sistemindən istifadə edirdilər və əksər hallarda bu sistem hətta hər cür xarici rəqabəti tamamilə aradan qaldırmaq dərəcəsinə çatırdı. Lakin bu üstünlük sənayeçilərə, başlıca olaraq, vergi ödəyənlər olmaq e`tibarı ilə onların tə`diyə qabiliyyətini yüksəltmək üçün verilirdi və sənayenin daxili məhdudiyyətləri, sexlərin və başqa feodal korporasiyalarının imtiyazları üzündən xeyli dərəcədə əhəmiyyətini itirirdi; sənayenin daxili

məhdudiyyətləri, sexlərin və digər feodal korporasiyalarının imtiyazları isə hökumətin məqsəd və niyyətlərini həyata keçirmək yolunda maneə olanadək böyük diqqətlə hifz edilib saxlanırdı. Xırda sənətkarlar bu orta əsr sexlərinin dar çərçivəsinə salınmışdılar, sexlər isə ayrı-ayrı sənətlər arasında imtiyaz üstündə gedən sonsuz müharibəni kəsilməyə qoymurdu, eyni zamanda bu məcburi birləşmələrin tərkibinə bir növ daimi irsi xarakter verməklə fəhlə sinfinin nümayəndələrini ictimai cəhətdən bir pillə yuxarı qalxmaq imkanından az qala tamamilə məhrum edirdi. Nəhayət, kəndliyə və fəhləyə sadəcə vergi alınan obyekt kimi baxırdılar kəndli və fəhlə haqqında layiq görülən yeganə qayğı onları o zaman özlərinin və daha əvvəl atalarının yaşadığı həyat şəraitində mümkün qədər saxlamaqdan ibarət idi. Bu məqsədlə hər bir qədim, möhkəm qərarlaşmış irsi hakimiyyət də dövlət hakimiyyətinin qorunduğu dərəcədə qorunurdu. Hökumət mülkədardan feodal asılılığında olan xırda kəndlilər üzərində, fabrikçinin fabrik fəhlələri üzərində, sənətkar ustanın usta əlaltıları və şagirdlər üzərində, atanın oğul üzərində hakimiyyətini hər yerdə ciddi surətdə qoruyurdu və hər hansı bir itaətsizlik təzahürünə qanunun pozulması nəzəri ilə baxılaraq, Avstriya ədliyyəsinin universal aləti olan kötəklə cəzalandırılırdı.

Nəhayət, sün`i sabitlik yaratmaq yolunda göstərilən bütün bu cəhdləri ümumi bir sistem halında birləşdirmək üçün, xalqa müsaidə edilən mə`nəvi qida son dərəcə ehtiyatla seçilir və ifrat simicliklə buraxılırdı. Hər yerdə tərbiyə katolik ruhanilərinin əlində idi və iri feodal torpaq sahibləri kimi katolik ruhanilərin yuxarı təbəqəsinin də mövcud sistemi qoruyub saxlamaqda çox böyük marağı var idi. Universitetlər elə təşkil edilmişdi ki, ən yaxşı halda yalnız ən müxtəlif xüsusi bilik sahələrində az-çox müvəffəqiyyət qazanmağa qabil mütəxəssislər buraxa bilirdi, digər universitetlərin yəqin ki, verə bildiyi universal və azad təhsili əsla vermirdi. Macarıstandan savayı heç yerdə vaxtaşırı mətbuat yox idi, lakin monarxiyanın bütün başqa yerlərində macar qəzetləri qadağan olunmuşdu. Ümumi məzmunlu ədəbiyyata gəlincə, yüz il ərzində onun dairəsi qətiyyən genişlənməmişdi; II İosifin ölümündən sonra bu ədəbiyyatın dairəsi hətta yenidən daralmışdı. Avstriya vilayətlərini hər hansı bir mədəni ölkədən ayıran bütün sərhədlərdə gömrükxana mə`murlarının nəzarətindən əlavə ədəbi senzorların nəzarəti də qoyulmuşdu və bu senzorlar kitab və qəzetlərin məzmununu iki-üç dəfə ətraflı yoxlayıb bunların zamanın zərərli

ruhunun tə`sirindən tamamilə azad olduğunu yəqin etməmiş xaricdən Avstriyaya heç bir kitab, heç bir qəzet buraxmırdılar.
1815-ci ildən e`tibarən təqribən otuz il ərzində bu sistem heyrət doğuran müvəffəqiyyətlə öz tə`sirini göstərirdi. Avropanı Avstriyada demək olar heç tanımadıqları kimi, Avstriyanı da Avropada demək olar qətiyyən tanımırdılar. Nə əhalinin ayrı-ayrı siniflərinin ictimai vəziyyətində, nə də ümumən bütün xalqın vəziyyətində sanki zərrə qədər dəyişiklik olmamışdı. Ayrı-ayrı siniflər arasında düşmənçilik nə qədər güclü olsa da,–belə bir düşmənçiliyin olması isə Metternix hökmranlığının başlıca şərti idi, Metternix hökumətin bütün zorakılıqlarında yuxarı sinifləri özünə alət etməklə, xalqda onlara qarşı nifrət oyatmaqla bu düşmənçiliyi hətta qızışdırırdı,–xalq aşağı rütbəli dövlət mə`murlarına nə qədər nifrət etsə də, mərkəzi hökumətə qarşı narazılıq ümumiyyətlə ya yox dərəcəsində idi, ya da heç yox idi. İmperatoru həddindən artıq sevirdilər və faktlar bir dəfə mövcud sistemin möhkəmliyinə şəkk gətirib laqeydcəsinə «hər halda mənim ömrümə və Metternixin ömrünə çatar»–deyə əlavə edən qoca I Fransın bu sözlərinin doğruluğunu sanki təsdiq edirdi.
Bununla belə ölkədə zahirən sezilməyən tədrici bir hərəkat baş verirdi və bu hərəkat Metternixin bütün sə`ylərini heçə çıxarırdı. Sənaye və ticarət burjuaziyasının sərvəti və nüfuzu artırdı. Sənayedə maşın və buxarın tətbiq olunması hər yerdə olduğu kimi, Avstriyada da cəmiyyətin bütöv siniflərinin bütün əvvəlki münasibətlərində və həyat şəraitində çevriliş etdi; bu yenilik təhkimliləri azad adamlara, xırda əkinçiləri isə sənaye fəhlələrinə çevirdi; bu yenilik qədim feodal sənət korporasiyalarını sarsıtdı və onlardan bir çoxunun yaşayış vasitələrini məhv etdi. Yeni ticarət və sənaye əhalisi hər yerdə köhnə feodal tə`sisatları ilə toqquşurdu. Öz işlərinə görə getdikcə daha tez-tez xaricə səfər etməyə məcbur olan burjualar oradan imperiya gömrükxanalarının o tayındakı mədəni ölkələr haqqında nağılabənzər bə`zi xəbərlər gətirirdilər nəhayət, dəmiryollar çəkilməsi ölkənin istər sənaye, istərsə də mə`nəvi inkişafını sür`ətləndirdi. Buna üstəlik, Avstriya dövlət binasının təhlükəli bir tərkib hissəsi var idi ki, bu da parlament müzakirələrinə, zadəganların yoxsullaşmış, müxalifətçi kütləsinin hökumətlə və onun müttəfiqləri olan maqnatlarla mübarizəsinə yol verən macar feodal konstitusiyasından ibarət idi. Seymin iqamətgahı Presburq (Slovakca adı: Bratislava. Red.) lap Vyananın darvazası ağzında idi. Bütün bu ünsürlər şəhər burjuaziyası içərisində sözün müstəqim

mə`nasında müxalifət əhvali-ruhiyyəsinin yaranmasına kömək etməsə də,–zira müxalifət hələ də mümkün deyildi,–hər halda narazılıq əhvali-ruhiyyəsi, islahatlara, həm də konstitusiya xarakterli islahatlardan daha çox inzibati islahatlara ümumi meyl yaranmasına kömək edirdi. Prussiyada olduğu kimi burada da bürokratiyanın bir hissəsi burjuaziyaya qoşulmuşdu. Mə`murların bu irsi zümrəsi içərisində II İosifin ən`ənələri unudulmamışdı. Mümkün islahatlar barəsində bə`zən özləri də xəyala dalan daha münəvvər hökumət mə`murları bu imperatorun mütərəqqi və münəvvər istibdadını Metternixin «atalıq» istibdadından qəti surətdə üstün tuturdular. Daha yoxsul zadəganların da bir hissəsi burjuaziyanın tərəfinə keçmişdi, yuxarı siniflərdən, bəlkə bilavasitə hökumətdən narazı qalmaq üçün əhalinin aşağı siniflərinin əlində həmişə kifayət qədər əsas var idi; odur ki, bunlar əksər hallarda burjuaziyanın islahatçılıq cəhdlərinə qoşulmaya bilməzdilər. Təxminən elə bu vaxtlarda, ya 1843, ya da 1844-cü ildə Almaniyada bu dəyişikliklərin əks-sədası olan xüsusi növ ədəbiyyatın təməli qoyuldu. Tamamilə orta iste`dada, lakin yəhudi irqi üçün xarakterik olan zirəklik kimi xüsusi qabiliyyətə malik bir neçə nəfər Avstriya yazıçısı–belletrist, ədəbi tənqidçi və pis şair Avstriyanın hüdudları xaricində yerləşən Leypsiqdə və başqa alman şəhərlərində oturub Metternixin əli çatmayan bu yerlərdə Avstriya işləri haqqında bir sıra kitab və kitabça buraxdı. Həm onlar özləri, həm də onların naşirləri bu əmtəə ilə «qızğın ticarətə» başladılar. Bütün Almaniya, Avropadakı Çinin yeritdiyi siyasətin sirlərinə bələd olmaq həsrətində idi. Avstriyalılar özləri daha böyük maraq göstərir və bu nəşrləri kütləvi qaçaqçılıq yolu ilə Bohemiya* sərhəddində alırdılar. Əlbəttə, bu nəşrlərdə faş edilən sirlərin böyük əhəmiyyəti yox idi, onların xoşniyyət müəlliflərinin oturub meydana çıxartdıqları islahat planlarında isə siyasi bakirəliyə yaxın bir mə`sumluğun nişanələri var idi. Burada konstitusiyaya və mətbuat azadlığına Avstriya üçün mümkün olmayan bir şey kimi baxılırdı. Bu mərhəmətli avstriyalılar özlərinin sadiq təbəələrə xas olan kiçik arzularında inzibati islahatlar keçirməkdən, əyalət silk məclislərinin hüquqlarını genişləndirməkdən, xaricdən kitab və qəzet gətirməyə icazə verməkdən və senzuranı yumşaltmaqdan o yana getmirdilər.

Necə olsa da, Almaniyanın qalan yerləri ilə, həmçinin Almaniya vasitəsi ilə bütün dünya ilə Avstriyanın ədəbi əlaqəsinə maneçilik törətmək getdikcə qeyri-mümkün olurdu və bu hal hökumətə zidd ictimai rə`yin inkişafına az

kömək etmirdi; bunun sayəsində Avstriya əhalisinin bir hissəsi az da olsa siyasi mə`lumat əldə etdi. Buna görə dir ki, o zaman bütün Almaniyada yayılan siyasi və siyasi-dini təşviqat 1847-ci ilin axırlarında, doğrudur, nisbətən zəif dərəcədə, Avstriyanı da bürümüş oldu. Avstriyada bu təşviqpt daha az müvəffəqiyyət qazansa da, hər halda onun tə`siri altına düşən ipqilabi ünsürlər kifayət qədər idi. Bunlar aşağıdakılar idi: mülkədar və hökumət vergiləri altında əzilən təhkimli və ya feodaldan asılı kəndli, sonra fabrikçinin istədiyi bütün şərtlərlə işləməyə polis dəyənəyi gücünə məcbur edilən fabrik fəhləsi daha sonra öz sahəsində müstəqil mövqeyə çatmaq ümidlərini sex qanunlarının büsbütün puç etdiyi sənətkar usta köməkçisi öz işi ilə məşğul olarkən addımbaşı mə`nasız məhdudiyyətlərə rast gələn tacir öz imtiyazlarını canfəşanlıqla qoruyan sənət sexləri ilə, həmçinin acgöz, sırtıq mə`murlarla daimi münaqişədə olan fabrikçi nəhayət, nadan və həyasız ruhanilərlə, yaxud kütbeyin və axmaq rəislə əbəs yerə mübarizə edən məktəb müəllimi, alim və daha bilikli mə`mur. Xülasə, heç bir sinif razı deyildi, ona görə ki, hökumət bə`zən etməyə məcbur olduğu xırda güzəştləri öz hesabına etmirdi,–buna dövlət xəzinəsi davam gətirə bilməzdi,–ali zadəganlar və ruhanilər hesabına edirdi. Nəhayət, iri bankirlərə və dövlət kağızlarının sahiblərinə gəldikdə isə İtaliyada baş vermiş son hadisələr, Macarıstan seyminin güclənməkdə olan müxalifəti, qeyri-adi bir narazılıq əhvali-ruhiyyəsi və bütün imperiyada eşidilən islahat tələbləri Avstriya monarxiyasının möhkəmliyinə və tə`diyə qabiliyyətinə onların inamını çətin ki möhkəmləndirə biləydi.

Beləliklə, Avstriya yavaş-yavaş, lakin doğrudan-doğruya böyük dəyişikliklərə yaxınlaşırdı, lakin bu zaman Fransada birdən-birə elə hadisələr başlandı ki, bunlar gözlənməkdə olan fırtınanı dərhal qopdurdu və qoca Fransın bu iddiasını təkzib etdi ki, guya bina həm onun, həm də Metternixin ömrünün axırınadək davam gətirib dayanacaqdır.

London, sentyabr 1851-ci il.

V

VYANADA ÜSYAN

1848-ci il fevralın 24-də Lui-Filipp Parisdən qovuldu və Fransa respublikası e`lan olundu. Sonra martın 13-də vyanalılar knyaz Metternixin hakimiyyətini devirib onu ölkədən rüsvayçılıqla qaçmağa məcbur etdilər. Martın 18-də berlinlilər silahlı üsyan qaldırdılar və 18 saat inadlı mübarizədən sonra kralın xalqa təslim olduğunu məmnuniyyətlə müşahidə

edə bildilər. Eyni zamanda Almaniyanın daha kiçik dövlətlərinin paytaxtlarında da az-çox güclü partlayışlar oldu və bunların hamısı eyni dərəcədə müvəffəqiyyətlə qurtardı. Alman xalqı özünün birinci inqilabını axıra çatdırmasa da, hər halda açıq şəkildə inqilab yoluna qədəm qoydu. Müxtəlif üsyanların necə olduğunu burada müfəssəl gözdən keçirə bilməyəcəyik; biz bu üsyanların ancaq xarakterini və əhalinin müxtəlif siniflərinin bunlara münasibətlərini aydınlaşdırmaq niyyətindəyik. Vyanada əhali demək olar yekdilliklə inqilab etdi. Bankirlərdən və birja möhtəkirlərindən başqa bütün burjuaziya, habelə xırda sənətkarlar və tacirlər, fəhlələr hamının nifrətini qazanmış hökumətə qarşı hamılıqla, bir nəfər kimi üsyan qaldırdılar; hökumət özünə qarşı hamıda elə bir nifrət oyatmışdı ki, ona tərəfdar olan bir ovuc zadəganlar və pul sahibləri də hökumətə ilk hücum edilən kimi dərhal əkilib gözdən itməyə çalışdılar. Metternix burjuaziyanı elə siyasi cəhalətdə saxlayırdı ki, burjuaziya anarxiyanın, sosializmin və terrorun hökm sürdüyü haqqında, kapitalist sinfi ilə fəhlə sinfi arasında qarşıdakı mübarizə haqqında Parisdən gələn xəbərləri əsla başa düşmürdü. Burjuaziya öz siyasi sadəlövhlüyü üzündən ya bu xəbərlərə heç bir əhəmiyyət vermir, ya da ona elə gəlirdi ki, Metternix burjuaziyanı qorxudub yenidən itaətə gətirmək üçün bunları qəsdən uydurmuşdur. Bundan əlavə, burjuaziya hələ heç görməmişdi ki, fəhlələr bir sinif kimi fəaliyyət göstərsinlər, yaxud öz mənafeləri, xüsusi sinfi mənafeləri uğrunda çıxış etsinlər. Burjuaziya öz keçmiş təcrübəsinə görə təsəvvürünə gətirə bilmirdi ki, hamının nifrətini qazanmış hökuməti tə`sirli yekdilliklə təzəcə devirən siniflər arasında birdən-birə hər hansı ziddiyyət aşkara çıxa bilər. Burjuaziya görürdü ki, bütün məsələlərdə konstitusiya məsələsində, andlı iclasçı məhkəmələri, mətbuat azadlığı və i.a. məsələlərdə fəhlələr onunla razıdırlar. Buna görə də burjuaziya hərəkata hər halda 1848-ci ilin martında can-başla qoşuldu digər tərəfdən hərəkat lap əvvəldən burjuaziyanı dövlətdə hökmran sinfə (heç olmazsa nəzəriyyədə) çevirdi.

Lakin bütün inqilabların aqibəti belədir ki, müxtəlif siniflərin birliyi həmişə hər bir inqilabın müəyyən dərəcəyədək zəruri müqəddəm şərti olsa da, bu birlik uzun müddət davam edə bilmir. Ümumi düşmən üzərində qələbə çalınar-çalınmaz qaliblər bir-birindən ayrılaraq müxtəlif cəbhələr təşkil edir və silahı bir-birinə qarşı çevirirlər. Köhnə və mürəkkəb ictimai orqanizmlərdə sinfi antaqonizmin məhz bu sür`ətli və coşqun inkişafı

nəticəsində inqilab ictimai və siyasi tərəqqinin belə qüdrətli hərəkətverici qüvvəsi olur hakimiyyət başında bir-birini əvəz edən yeni partiyaların məhz belə fasiləsiz surətdə meydana gəlməsi və sür`ətlə artması milləti bu cür zorakı sarsıntılar dövrünün cəmi beş ili ərzində elə bir yol keçməyə vadar edir ki, millət bu yolu adi şəraitdə heç yüz ilə də qət edə bilməzdi. Vyana inqilabı nəzəri cəhətdən burjuaziyanı hökmran sinfə çevirdi. Bu, o deməkdir ki, əgər hökumətdən qoparılmış güzəştlər əməli surətdə həyata keçirilib müəyyən bir müddət ərzində qüvvədə qalsaydı, bunlar burjuaziyanın hökmranlığını labüd olaraq tə`min edərdi. Lakin bu sinfin hökmranlığı fe`lən hələ heç də bərqərar deyildi. Doğrudur, milli qvardiyanın tə`sis edilməsi, bununla da burjuaziyanın və xırda burjuaların əlinə silah keçməsi sayəsində burjuaziya qüvvət və nüfuz kəsb etmişdi; doğrudur, kimsənin qarşısında məs`uliyyət daşımayıb əsasən burjuaziyadan ibarət olan bir növ inqilabi hökumətin–«Təhlükəsizlik komitəsi»nin yaradılması nəticəsində burjuaziya hakimiyyət zirvələrinə yüksəlmişdi. Lakin eyni zamanda fəhlələrin də bir hissəsi silah əldə etmişdi; hər dəfə mübarizə məqamı gəlib çatanda fəhlə və tələbələr mübarizənin bütün ağırlığını öz çiyinlərində daşıyırdılar; inqilabi ordunun özəyini, əsil qüvvəsini yaxşı silahlanıb milli qvardiyadan da intizamlı olan 4000 nəfərə qədər tələbə təşkil edirdi; həm də onlar əsla Təhlükəsizlik komitəsinin əlində sadəcə bir alət olmaq istəmirdilər. Tələbələr Təhlükəsizlik komitəsi ilə hesablaşıb, hətta onun ən qızğın müdafiəçiləri olsalar da, bir növ müstəqil və xeyli narahat bir təşkilat yaratmışdılar, Akt zalında öz yığıncaqlarını düzəldirdilər, burjuaziya ilə fəhlələr arasında orta bir məvqe tuturdular, hər şeyin qayıdıb köhnə, gündəlik məcraya düşməsinə öz daimi həyəcanları ilə mane olurdular, tez-tez öz qərarlarını Təhlükəsizlik komitəsinə qəbul etdirirdilər. Digər tərəfdən, az qala hamısının qazancı əlindən çıxmış fəhlələrə dövlət hesabına görülən ictimai işlərdə iş vermək lazım gəldi, bunun üçün tələb olunan pulu isə, əlbəttə, vergi verənlərin cibindən, yaxud Vyana şəhər kassasından götürmək lazım gəlirdi. Bütün bunlardan Vyana tacirlərinin və sənətkarlarının qanı qaralmaya bilməzdi. Geniş ölkənin varlı və aristokrat ailələrinin tələbatı üçün işləyən Vyana sənaye müəssisələri inqilab üzündən, aristokratiyanın və saray əhlinin baş götürüb qaçması nəticəsində işi, əlbəttə, tamamilə dayandırmışdı; ticarət kəsilmişdi, tələbə və fəhlələrin fasiləsiz həyəcan və iğtişaşları isə, o zaman deyildiyi kimi desək, «e`timadın bərpa olunmasına», əlbəttə, kömək edə

bilməzdi. Buna görə də çox tez bir zamanda burjuaziya ilə narahat tələbə və fəhlələrin arası bir qədər soyudu, həm də uzun bir müddət ərzində bu soyuqluq artıb açıq düşmənçiliyə çevrilmədisə, buna səbəb o idi ki, nazirlik və xüsusən saray köhnə qaydaları bərpa etməyə səbirsizliklə çalışaraq, daha inqilabçı partiyaların təlaş keçirməsi və hay-küylü fəaliyyət göstərməsi üçün onların əlinə daim qanuni bəhanələr verirdi, köhnə Metternix istibdadı kabusunu hətta burjuaziyanın da gözü qarşısında təkrar-təkrar canlandırırdı. Hökumət yenicə əldə edilən azadlıqların bə`zisini məhdudlaşdırmağa, yaxud da tamamilə məhv etməyə cəhd göstərdiyi üçün mayın 15-də, sonra isə mayın 26-da Vyanada bütün siniflərin yeni üsyanları oldu. Hər iki halda milli qvardiyanın, yaxud silahlı burjuaziyanın tələbə və fəhlələrlə ittifaqı müvəqqəti olaraq yenidən möhkəmləndi. Əhalinin başqa siniflərinə gəlincə, aristokratiya və pul maqnatları gözdən itmişdilər, kəndlilər isə hər yerdə feodalizmi son qalıqlarınadək qətiyyətlə məhv edirdilər. İtaliyada gedən müharibə172, habelə sarayın başının Vyanaya və Macarıstana qarışması nəticəsində kəndlilərə tam hərəkət sərbəstliyi verilmişdi və azadlığa çıxmaq işində onlar Almaniyanın hər hansı başqa bir hissəsindəkinə nisbətən Avstriyada daha çox müvəffəqiyyət qazanmışdılar. Bundan az sonra Avstriya reyxstaqı əslində kəndlilərin həyata keçirmiş olduğu tədbirləri ancaq rəsmiləşdirməli oldu və knyaz Şvartsenberqin hökuməti indi orada nəyi bərpa edə bilsə də, kəndlilər üzərində feodal əsarətini heç bir zaman bərpa edə bilməyəcəkdir. Əgər Avstriya hazırda yenə də nisbətən sakitdirsə və hətta güclüdürsə, bunun başlıca səbəbi odur ki, xalqın olduqca böyük əksəriyyətini təşkil edən kəndlilər inqilabdan əsl fayda görmüşlər, habelə səbəb budur ki, bərpa edilmiş hökumət başqa hansı sahələrə qəsd edirsə etsin, kəndlilərin əldə etdikləri hiss olunan bu maddi fayda hələ indi də toxunulmamış qalır.
London, oktyabr 1851-ci il.

VI
BERLİNDƏ ÜSYAN

İnqilabi hərəkatın ikinci mərkəzi Berlin idi. Bundan əvvəlki məqalələrdə deyilənlərdən başa düşmək asandır ki, nə üçün inqilabi hərəkat Vyanada əhalinin demək olar bütün sinifləri tərəfindən yekdilliklə müdafiə edildiyi halda, Berlində heç də bu cür müdafiə olunmadı. Prussiyada burjuaziya hökumətə qarşı mübarizəyə artıq əməlli-başlı qoşulmuşdu. «Birləşmiş landtaq»ın sessiyası nəticəsində onların arası dəymişdi. Burjua inqilabı

yaxınlaşmaqda idi və bu inqilab da, əgər bundan əvvəl Parisdə fevral inqilabı baş verməsə idi, öz ilk partlayışında Vyana inqilabı kimi yekdil bir inqilab ola bilərdi. Fevral inqilabı hər şeyi son dərəcə sür`ətləndirdi eyni zamanda bu hadisə elə bir bayraq altında baş verdi ki, Prussiya burjuaziyasının öz hökuməti üzərinə yürüşə gedərkən qaldırmağa hazırlaşdığı bayraqdan büsbütün fərqli idi. Fevral inqilabı məhz Prussiya burjuaziyasının öz ölkəsində tə`sis etmək niyyətində olduğu idarə formasını Fransada alt-üst etdi. Fevral inqilabı özünü fəhlə sinfinin burjuaziyaya qarşı inqilabı kimi büruzə verdi bu inqilab burjua hökumətinin devrildiyini və fəhlələrin azad olunduğunu e`lan etdi. Halbuki bir az əvvəl Prussiya burjuaziyasının öz ölkəsində fəhlə sinfinin iğtişaşları onun başına az bəla açmamışdı. Sileziya üsyanından doğan ilk qorxu hissi sovuşan kimi, Prussiya burjuaziyası bu iğtişaşlardan öz xeyrinə istifadə etməyə hətta cəhd də göstərmişdi. Lakin inqilabi sosializm və kommunizm qarşısında qorxu hissi onun canında həmişəlik qalmışdı. Buna görə də Prussiya burjuaziyası mütləqiyyətə, asayişə, dinə, ailəyə və müasir burjuaların müqəddəs saydıqları başqa şeylərə çox təhlükəli düşmən nəzəri ilə baxdığı adamları Paris hökumətinin başında görüncə dərhal hiss etdi ki, özünün inqilabi coşqunluğu əməlli-başlı soyumuşdur. Prussiya burjuaziyası fürsətdən istifadə etmək lazım olduğunu, fəhlə kütlələrindən kömək görməsə, məğlub ediləcəyini bilirdi, lakin bununla belə onun cür`əti çatmadı. Odur ki, əyalətlərdə ilk əlahiddə çıxışlar başlayar-başlamaz Prussiya burjuaziyası hökumətin tərəfinə keçdi və beş gün kral sarayının qabağına toplaşıb yenilikləri müzakirə və hökumətin dəyişdirilməsini tələb edən Berlin camaatını sakit saxlamağa çalışdı. Nəhayət, Metternixin süqut etdiyi xəbəri gəlib çatanda və kral (IV Fridrix-Vilhelm. Red.) bə`zi xırda güzəştlərə getdikdə burjuaziya inqilabı başa çatmış hesab etdi və ə`lahəzrətə öz xalqının bütün arzularını yerinə yetirdiyi üçün təşəkkür etməyə tələsdi. Lakin bunun ardınca qoşunun izdihama basqını oldu, barrikadalar quruldu, mübarizə başlandı və monarxiya məğlubiyyətə uğradı. Bundan sonra hər şey dəyişildi. Burjuaziyanın arxa sırada saxlamağa çalışdığı fəhlə sinfi ön sıraya keçdi. Fəhlələr vuruşdular, qələbə çaldılar və öz qüvvələrini birdən-birə dərk etdilər. Seçki hüququnun, mətbuat azadlığının, andlı iclasçı olmaq hüququnun, yığıncaq hüququnun məhdudlaşdırılması ancaq burjuaziyadan aşağıda duran siniflərə toxunacağına görə burjuaziyanın lap ürəyindən olardı, lakin bu

məhdudlaşdırmalar artıq mümkün deyildi. Belə bir təhlükə var idi ki, Parisdəki «anarxiya» səhnələri burada da təkrar edilə bilər. Bu təhlükə ilə əlaqədar olaraq bütün əvvəlki çəkişmələr dayandı. Qalib gəlmiş fəhlə hələ öz mənafeyi üçün heç bir xüsusi tələb irəli sürməmiş olsa da, köhnə dost və düşmənlər onun əleyhinə birləşdilər və burjuaziya ilə devrilmiş sistemin tərəfdarları arasında bu ittifaq artıq Berlin barrikadalarında bağlandı. Zəruri, güzəştlər etmək lazım gəlirdi, amma yalnız elə güzəştlər ki, onları etməmək olmazdı, Birləşmiş landtaqda olan müxalifətin başçılarından ibarət nazirlər hey`əti təşkil etmək lazım gəldi, taxt-tacı xilas etmək işindəki xidmətlərinin əvəzində isə ona köhnə idarə üsulunun bütün sütunlarının feodal aristokratiyasının, bürokratiyanın, ordunun tərəfdarlığı tə`min edilirdi. C-b Kamphauzen və c. Hanzeman kabinet təşkil etməyi bu şərtlə öhdələrinə götürdülər.

Yeni nazirlər ayağa qalxmış kütlələr qarşısında o qədər qorxuya düşmüşdülər ki, hakimiyyətin laxlamış dayaqlarını möhkəmlətməyə səbəb olan hər vasitəyə yaxşı bir vasitə kimi baxırdılar. Bu mənfur adamlar yanılaraq belə hesab edirdilər ki, köhnə sistemin bərpa olunması təhlükəsi tamamilə sovuşub getmişdir, buna görə də onlar yenidən «qayda» yaratmaq üçün bütün köhnə dövlət maşınından istifadə etməyə başladılar. Nə bir mə`mur işdən çıxarıldı, nə də bir zabit. Köhnə bürokratik dövlət idarə sistemində azacıq da olsa dəyişiklik edilmədi. Bu nümunəvi konstitusiyaçı və məs`ul nazirlər hətta o mə`murları da öz keçmiş yerlərinə qaytardılar ki, xalq ilk inqilabi həyəcan zamanı onları bürokratik özbaşınalıq meydanında əvvəlki igidliklərinə görə qovmuşdu. Prussiyada yalnız nazir vəzifələrini tutan şəxslər dəyişildi, bundan başqa heç bir şey dəyişilmədi. Müxtəlif idarələrin qulluqçu hey`ətinə hətta əl də vurulmadı, təzə meydana çıxmış hökmdarların başına yığışıb hakimiyyətdən öz payını almaq və rütbəyə çatmaq ümidində olan bütün konstitusiyaçı mənsəbpərəstlərə başa salındı ki, sabit vəziyyət bərpa edilib mə`murların şəxsi hey`ətini dəyişdirməyə imkan yaranıncayadək onlar gözləməli olacaqlar, indi isə mə`murların şəxsi hey`ətini dəyişdirmək təhlükəsiz olmaz.

18 mart üsyanından sonra lap ruhdan düşən kral çox tezliklə gördü ki, bu «liberal» nazirlər ona nə dərəcədə lazımdırlarsa, o da onlara eyni dərəcədə lazımdır. Üsyan taxt-taca toxunmadı; taxt-tac «anarxiyanın» yayılması yolunda son maneə idi; buna görə də liberal burjuaziyanın və indi onun gedib nazirlər hey`ətinə çıxmış başçılarının əlində taxt-tacla ən yaxşı

münasibətdə olmaq üçün bütün əsaslar var idi. Kral və onun dövrəsində olan mürtəce güruh çox tezliklə bunu başa düşdü və nazirlər hey`ətinin ara-sıra keçirmək niyyətində olduğu hətta cüz`i islahatlara belə mane olmaq üçün bu vəziyyətdən istifadə etdi.

Nazirlər hey`ətinin ilk qayğısı yaxınlarda zorakılıqla edilmiş dəyişikliklərə müəyyən dərəcədə qanun donu geydirməkdən ibarət idi. Xalq kütlələrinin hər cür müqavimətinə baxmayaraq, Birləşmiş landtaq çaqırıldı; bu məqsədlə çağırıldı ki, Birləşmiş landtaq xalqın guya qanuni və konstitusiya orqanı olaraq, yeni konstitusiya haqqında taxt-tacla sazişə gələcək məclis seçkisi üçün yeni seçki qanununu təsdiq etsin. Seçki qeyri-müstəqim olmalı idi, yə`ni seçici kütləsi müəyyən qədər seçkiçi seçməli idi, sonra da seçkiçilər deputatları seçməli olacaqdılar. Hər cür müxalifətə baxmayaraq, həmin igidərəcəli seçki sistemi qəbul edildi. Bundan sonra Birləşmiş landtaqdan xahiş olundu ki, iyirmi beş milyon dollar borc almağa icazə versin; xalq partiyası borc almağın əleyhinə çıxdı, landtaq isə borc almağa da səs verdi.

Nazirlər hey`ətinin bu hərəkətləri indi özünü demokrat partiyası adlandıran xalq partiyasının fövqəl`adə dərəcədə sür`ətli inkişafına kömək edirdi. Xırda sənətkarlar və tacirlər sinfinin başçılıq etdiyi və inqilabın əvvəlində fəhlələrin əksəriyyət təşkil edən hissəsini birləşdirən bu partiya eyni ilə Fransada olduğu kimi, müstəqim və ümumi seçki hüququ verilməsini, birpalatalı qanunvericilik məclisi yaradılmasını, 18 mart inqilabının tamamilə və açıq surətdə yeni idarə sisteminin əsası kimi qəbul olunmasını tələb edirdi. Həmin partiyanın daha mö`tədil cinahı belə bir yolla «demokratikləşdirilmiş» monarxiyaya qane olmağa hazır idi daha mütərəqqi cinah isə, nəticə e`tibarı ilə, respublika yaradılmasını tələb edirdi. Hər iki cinah bunda birləşirdi ki, Frankfurtdakı alman Milli məclisini ölkədə ali hakimiyyət hesab edirdi; halbuki konstitusionalistlər və irticaçılar bu Məclisin suverenliyindən bərk qorxurdular, çünki özlərinin dediyinə görə, onu son dərəcə inqilabçı Məclis hesab edirdilər.

Fəhlə sinfinin müstəqil hərəkatını inqilab müvəqqəti olaraq yarımçıq qoydu. Hərəkatın bilavasitə tələbatı və şəraiti elə idi ki, proletar partiyasının xüsusi tələblərini ön sıraya keçirməyə imkan vermirdi. Doğrudan da, nə qədər ki, fəhlələrin müstəqil hərəkətləri üçün zəmin hazırlanmamışdı, nə qədər ki, müstəqim və ümumi seçki hüququ müəyyən edilməmişdi, nə qədər ki, otuz altı böyük və kiçik dövlət yenə də

Almaniyanı çoxlu hissəyə parçalayırdı, proletar partiyası özü üçün ən böyük əhəmiyyəti olan Paris hərəkatını izləməkdən və ona bilavasitə öz işi uğrunda mübarizə imkanı verməli olan hüquqları əldə etmək üçün xırda burjualarla əl-ələ verib mübarizə etməkdən başqa, ayrı nə edə bilərdi?
O zaman proletar partiyası öz siyasi fəaliyyətində xırda sənətkarlar və tacirlər sinfinin partiyasından, yaxud sözün əsl mə`nasında demokrat partiyası adlanan partiyadan ancaq üç məsələdə ciddi surətdə fərqlənirdi. Birincisi, proletar partiyası Fransa hərəkatını başqa cür qiymətləndirirdi: demokratlar Parisdəki ifratçı partiya üzərinə hücum etdikləri halda, proletar inqilabçıları onu müdafiə edirdilər. İkincisi, proletar partiyası vahid və bölünməz Almaniya respublikasının yaradılmasını zəruri e`lan etdiyi halda, ifratçı demokratların ən ifratçıları ancaq federativ respublikanın həsrətini çəkməyə cür`ət edirdilər. Üçüncüsü, proletar partiyası hər dəfə elə bir inqilabi rəşadət və elə bir fəaliyyət əzmi nümayiş etdirirdi ki, xırda burjuaların başçılıq etdikləri və əsasən xırda burjualardan ibarət olan partiyada belə bir rəşadət, belə bir əzm heç bir zaman olmayacaqdır. Fəhlə kütləsi inqilabın əvvəlində demokratların quyruğunda sürünürdü və proletar partiyası, yə`ni əsl inqilabçı partiya bu kütləni demokratların tə`sirindən xilas etməyə ancaq tədriclə müvəffəq olurdu. Lakin lazımi məqam gəlib çatanda demokrat başçıların qətiyyətsizliyi, süstlüyü və qorxaqlığı işi gətirib axırına çatdırdı; indi demək olar ki, son illərdəki sarsıntıların başlıca nəticələrindən biri ondan ibarətdir ki, fəhlə sinfi az-çox böyük kütlə halında cəmləşdiyi hər yerdə yuxarıda qeyd edilən demokratik tə`sirdən tamamilə xilas olmuşdur; o demokratik tə`sirdən ki, 1848-ci və 1849-cu illərdə fəhlə sinfini saysız-hesabsız səhv və müvəffəqiyyətsizliklərə düçar etmişdi. Lakin qabağa qaçmayaq: bu iki ilin hadisələri cənab demokratları iş başında görməyimizə hələ tam imkan verəcəkdir.
Avstriyada olduğu kimi, Prussiyada da kəndlilər dərhal bütün feodal buxovlarından xilas olmaq üçün inqilabdan istifadə etdilər, lakin burada kəndlilər Avstriyadakına nisbətən az qətiyyətlə hərəkət edirdilər, çünki əslində Prussiyada feodalizm kəndliləri bir o qədər bərk sıxışdırmırdı. Lakin yuxarıda izah edilən səbəblərə görə Prussiya burjuaziyası o saat özünün ən köhnə, ən lazımlı müttəfiqi olan kəndlilərin əleyhinə çıxdı. Xüsusi mülkiyyətə qəsd deyilən qəsdlərdən burjualar qədər qorxan demokratlar da kəndlilərə yardım göstərmədilər odur ki, üç ay davam edən

azadlıq dövrü qurtarandan sonra, xüsusilə Sileziyadakı qanlı toqquşmalardan və hərbi cəza tədbirlərindən sonra, feodalizm dünənə kimi hələ antifeodal olan burjuaziyanın əli ilə bərpa edildi. Burjuaziyaya qarşı bu faktdan daha rüsvayçı bir fakt gətirmək olmaz. Tarixdə hələ heç bir zaman heç bir partiya özünün ən yaxşı müttəfiqlərinə, özü özünə bu cür xəyanət etməmişdir; odur ki, gələcəkdə həmin burjua partiyasını nə kimi həqarət və cəzalar gözləyirsə gözləsin, təkcə buna görə partiya bu həqarət və cəzalara tamamilə layiqdir.

London, oktyabr 1851-ci il.

VII

FRANKFURT MİLLİ MƏCLİSİ

Oxucunun yəqin yadındadır ki, bundan əvvəlki altı məqalədə biz Almaniyada inqilab hərəkatını xalqın iki böyük qələbə əldə etdiyi vaxtadək: Vyanada martın 13-dək və Berlində martın 18-dək izlədik. Gördük ki, həm Avstriyada, həm də Prussiyada konstitusiya hökuməti tə`sis olunmuş, liberalizm prinsipləri və ya burjuaziya prinsipləri bütün gələcək siyasətin rəhbər əsası e`lan edilmişdi; hərəkatın iki böyük mərkəzi arasında nəzərə çarpan yeganə fərq bu idi ki, Prussiyada hakimiyyət sükanını iki varlı tacirin–c. Kamphauzen ilə c. Hanzemanın şəxsində liberal burjuaziya bilavasitə öz əlinə keçirmişdi, burjuaziyanın siyasi cəhətdən Prussiyadakına nisbətən xeyli az inkişaf etdiyi Avstriyada isə hakimiyyət başına liberal bürokratiya gəlmişdi və bu bürokratiya burjuaziyanın vəkaləti ilə hökmranlıq etdiyini açıqca bildirirdi. Sonra gördük ki, o vaxtadək köhnə hökumətə qarşı ümumi müxalifət mövqeyində birləşmiş partiyalar və ictimai siniflər qələbədən sonra və ya hətta mübarizə zamanı bir-birindən ayrılıb başqa-başqa yollarla getdilər və qələbədən təklikdə faydalanan liberal burjuaziya o saat dönüb dünənki müttəfiqlərinin əleyhdarı oldu, daha qabaqcıl siniflərin və partiyaların hamısına qarşı düşmən mövqeyi tutdu, məğlub olmuş feodal və bürokrat ünsürləri ilə ittifaqa girdi. Əslində inqilabi dramın lap əvvəlindən aydın idi ki, məğlub olmuş, lakin məhv edilməmiş feodal və bürokrat partiyalarının qarşısında liberal burjuaziya ancaq daha radikal xalq partiyalarının köməyinə arxalanmaqla davam gətirib dayana bilər; digər tərəfdən isə aydın idi ki, liberal burjuaziya bu daha radikal kütlələrin təzyiqinə qarşı feodal zadəganların və bürokratiyanın köməyinə möhtacdır. Beləliklə, aydın idi ki, Avstriya və Prussiyada burjuaziya hakimiyyəti öz əlində

saxlamaq, dövlət idarələrini öz tələbatı və ideallarına uyğunlaşdırmaq üçün hələ kifayət dərəcədə qüvvətli deyildi. Liberal burjua nazirlər hey`əti yalnız bir keçid pilləsi idi və hadisələrin nə şəkil alacağından asılı olaraq, ölkə buradan ya daha yüksək pilləyə qalxıb vahid respublika əldə etməli idi, ya da yenidən aşağı yuvarlanıb köhnə klerikal-feodal və bürokratik idarə üsuluna qayıtmalı idi. Əsl, qəti mübarizə hər halda hələ irəlidə idi; mart hadisələri vuruşmanın ancaq müqəddiməsi idi.

Avstriya və Prussiya Almaniyada iki rəhbər dövlət olduğuna görə Vyanada, ya da Berlində inqilabın hər bir qəti qələbəsinin bütün Almaniya üçün həlledici əhəmiyyəti olardı. Doğrudan da 1848-ci ilin martında bu iki şəhərdə hadisələrin inkişafı Almaniyada da bütün işlərin gedişini müəyyən etdi. Buna görə də əgər bu kiçik dövlətlərin mövcud olması nəticəsində bir idarə, təkcə özünün varlığı ilə Almaniyada vəziyyətin normal olmadığına və bu yaxınlardakı inqilabın yarı yolda dayandığına ən bariz sübut olan idarə meydana gəlməsəydi, kiçik dövlətlərdə baş vermiş hərəkatlar üzərində dayanmaq artıq olardı və biz doğrudan da təkcə Avstriya və Prussiya işlərini nəzərdən keçirməklə kifayətlənə bilərdik, bu idarə təkcə öz vəziyyətinə görə o dərəcədə eybəcər və mə`nasız, lakin özündən o dərəcədə razı idi ki, yəqin, tarix heç bir zaman ona bənzər bir idarə yaratmayacaqdır. Bu idarə Frankfurt-Mayndakı Almaniya Milli mənlisi deyilən məclis idi.

Vyanada və Berlində xalqın qələbəsindən sonra, təbii olaraq, bütün Almaniya üçün nümayəndəli məclis çağırmaq məsələsi qarşıya çıxdı. Bu Məclis secildi və köhnə İttifaq seymi ilə yanaşı olaraq Frankfurtda açıldı. Xalq gözləyirdi ki, Almaniya Milli məclisi mübahisəli məsələlərin hamısını həll edəcək və bütün Almaniya ittifaqı üçün ali qanunverici hakimiyyət orqanı kimi fəaliyyət göstərəcəkdir. Lakin Məclisi çağıran İttifaq seymi onun səlahiyyətini əsla müəyyən etməmişdi. Bilən yox idi ki, Məclisin qərarları qanun qüvvəsinə malikdir, yoxsa bu qərarları İttifaq seymi yaxud da ayrı-ayrı hökumətlər təsdiq etməlidir. Əgər Məclisin bir damcı da olsa bacarığı olsaydı, belə dolaşıq bir vəziyyətdə gərək Almaniyada ən hörmətsiz korporativ idarə olan İttifaq seymini dərhal buraxılmış e`lan edib onun əvəzinə öz üzvlərindən seçilmiş ittifaq hökuməti təşkil edəydi. Bu Məclis gərək özünü alman xalqının suveren iradəsinin yeganə qanuni ifadəçisi e`lan edəydi və bununla da özünün bütün qərarlarına qanun qüvvəsi verəydi. Hər şeydən əvvəl isə bu məclis

gərək ölkədə özünü hökumətlərin hər cür müqavimətini qıra biləcək mütəşəkkil silahlı qüvvə ilə tə`min edəydi. İnqilabın ilk mərhələsində bütün bunları etmək asan, çox asan idi. Lakin Frankfurt məclisinin buna qabil olacağını güman etmək, əksəriyyətlə liberal vəkillərdən və nəzəriyyəbaz professorlardan ibarət Məclisə həddindən artıq ümid bəsləmək demək olardı, zira Məclis alman fikri və alman elminin ən yaxşı nümayəndələrinin mərkəzi rolunu oynamaq iddiasında olsa da, həqiqətdə ancaq elə bir meydan idi ki, orada vaxtı ötmüş köhnə siyasi simalar özlərinin bütün əsl gülünclüyünü, təfəkkürə və fəaliyyətə əsla qabil olmadıqlarını ortaya qoyub bütün Almaniyaya göstərirdilər. Bu qoca qarılar məclisi öz varlığının lap ilk günündən bütün alman hökumətlərinin hər cür mürtəce qəsdlərindən daha çox ən zəif xalq hərəkatından qorxurdu. Bu məclis öz iclaslarını İttifaq seyminin nəzarəti altında keçirirdi, bu hələ bir yana dursun, öz qərarları üçün İttifaq seymindən az qala yalvar-yaxarla icazə alırdı, ona görə ki, Məclisin ilk qərarları bu mənfur idarə tərəfindən e`lan edilməli idi. Məclis öz suverenliyini bərqərar etməkdənsə, bu çox təhlükəli məsələnin müzakirəsindən yaxasını tamamilə kənara çəkirdi. Məclis xalqın silahlı qüvvəsini öz ətrafına toplamaqdansa, hökumətlərin bütün zorakı hərəkətlərinə göz yumaraq, növbəti işlərə keçirdi. Onun gözü görə-görə Maynsda mühasirə vəziyyəti e`lan etmiş və şəhər sakinlərinin silahlarını əllərindən almışdılar, Milli məclis isə əlini ağdan-qaraya vurmamışdı. Sonralar Məclis Avstriya ershersoqu İohannı Almaniyanın dövlət naibi seçdi və öz qərarlarının hamısını qanun qüvvəsində olan qərarlar e`lan etdi. Lakin ershersoq İohann yeni vəzifəsinə ancaq bütün hökumətlərin razılığı alındıqdan sonra qoyuldu və vəzifəni ona Məclis deyil, İttifaq seymi verdi. Məclisin qərarlarının qanun qüvvəsinə malik olmasına gəlincə, iri dövlətlərin hökumətləri bu maddəni heç qəbul etmədilər, Milli məclis isə öz dediyində israr etmədi, beləliklə həmin məsələ həll edilməmiş halda qaldı. Sözün qısası, gözümüz qarşısında Məclisin qəribə mənzərəsi dururdu, özünü böyük və suveren millətin yeganə qanuni nümayəndəsi kimi qələmə verən Məclisin öz tələblərini qəbul etdirmək üçün heç bir zaman nə iradəsi vardı, nə də qüvvəsi. Bu Məclisdəki müzakirələr heç bir əməli nəticə vermədiyi kimi, hətta nəzəri cəhətdən də heç bir əhəmiyyətə malik deyildi, çünki bu müzakirələrdə köhnəlmiş fəlsəfə və hüquq məktəblərinin ən çox çeynənmiş ümumi müddəaları sadəcə təkrar edilirdi. Bu Məclisdə irəli sürülən, daha doğrusu

mızıltı ilə deyilən hər bir müddəa mətbuatda lap çoxdan, dəfələrlə, həm də müqayisə edilməz dərəcədə daha yaxşı şərh edilmiş olurdu.
Beləliklə, Almaniyada yeni mərkəzi hakimiyyət olmaq iddiasına düşən bu idarə meydana gəldiyi zaman hər şeyi nə şəkildə görmüşdüsə, o şəkildə də saxlamışdı. Almaniyanın çoxdan arzu edilən birliyini həyata keçirməkdən uzaq olan bu idarə Almaniyada hökmranlıq edən monarxlardan heç birini, hətta ən bivecini də kənar etmədi; Almaniyanın pərakəndə əyalətləri arasında əlaqəni möhkəmlətmədi; Hannoveri Prussiyadan və Prussiyanı Avstriyadan ayıran gömrük qarovulxanalarını dağıtmaq üçün sözün əsl mə`nasında əlini ağdan-qaraya vurmadı; Prussiyanın hər yerində çay gəmiçiliyinə mane olan mənfur gömrükləri ləğv etmək üçün hətta zəif də olsa təşəbbüs göstərmədi. Lakin Milli məclis nə qədər az iş görürdüsə, o qədər çox hay-küy salırdı. Milli məclis Almaniya donanması yaratmışdı, lakin kağız üzərində yaratmışdı; Milli məclis Polşanı və Şlezviqi ilhaq etmişdi; Milli məclis alman Avstriyasının İtaliya ilə müharibə etməsinə icazə vermiş, amma Avstriya qoşunları üçün e`tibarlı sığınacaq olan Almaniya ərazisində avstriyalıları tə`qib etməyi italyanlara qadağan etmişdi; Milli məclis tez-tez Fransa respublikasını alqışlayır və macar səfirliklərini qəbul edirdi; bu səfirliklər isə öz ölkələrinə qayıdanda Almaniya haqqında onların təsəvvürü oraya etdikləri səfərdən qabaqkı təsəvvürlərinə nisbətən şübhəsiz, daha dolaşıq olurdu.
Bu Məclis inqilabın başlanğıcında Almaniyanın bütün hökumətləri üçün bir uyuq idi. Məclisin səlahiyyəti məsələsini tamamilə qeyri-müəyyən bir halda saxlamaq lazım bilindiyinə görə hökumətlər ondan çox diktatorcasına və inqilabi hərəkətlər gözləyirdilər. Hökumətlər bu vahiməli idarənin nüfuzunu zəiflətmək üçün son dərəcə geniş fitnə-fəsad toru qurmuşdular. Lakin hökumətlər heç də bəxtlərinin gətirdiyi dərəcədə fərasətli deyildilər, çünki həqiqətdə bu Məclis hökumətlərin işini onların özlərinin görə biləcəklərindən daha yaxşı görürdü. Hökumətlərin fitnə-fəsadında əsas dəstavüz yerli qanunvericilik məclislərinin çağırılması idi, buna müvafiq olaraq nəinki kiçik dövlətlər öz palatalarını çağırdılar, habelə Prussiya da, Avstriya da öz müəssislər məclisini çağırdı. Frankfurt parlamentində olduğu kimi, bu məclislərdə də çoxluq liberal burjuaziyanın və ya onun müttəfiqləri olan liberal vəkil və mə`murların əlində idi, odur ki, bu məclislərin hamısında işlər demək olar, eyni bir şəkil aldı. Yeganə fərq ancaq bu idi ki, Almaniya Milli məclisi nə isə xəyali bir ölkənin

parlamenti idi, çünki bu Milli məclis birləşmiş Almaniya yaratmaqdan, yə`ni öz varlığı üçün məhz ilkin şərt olan bir şeydən imtina etmişdi; bu məclis özünün yaratdığı xəyali hökumətin əsla həyata keçirilə bilməyəcək xəyali tədbirlərini müzakirə edir və kimsəyə dəxli olmayan xəyali qərarlar qəbul edirdi. Avstriya və Prussiyanın müəssislər məclisləri isə əksinə, necə olsa da həqiqi parlamentlər idi; onlar həqiqi nazirləri vəzifədən götürür və həqiqi nazirlər tə`yin edirdilər, öz qərarlarını mübarizə etməli olduqları monarxlara, müvəqqəti də olsa, qəbul etdirirdilər. Onlarda da qorxaqlıq var idi, onlar da inqilabi tədbirləri lazımi qədər geniş mə`nada başa düşmürdülər; onlar da xalqa xəyanət edib hakimiyyəti feodal, bürokratik və hərbi istibdada qaytarmışdılar. Lakin vəziyyət onları məcbur edirdi ki, bilavasitə maraq doğuran əməli məsələləri, heç olmazsa, müzakirə etsinlər və yer üzündə digər allah bəndələri arasında yaşasınlar, Frankfurt boşboğazları isə «xəyallar aləmində», «im Luftreich des Traus» (Heyne. «Almaniya. Qış nağılı», VII fəsil. Red.) pərvaz etməyə müvəffəq olduqları zaman özlərini səadətin zirvəsində sanırdılar. Buna görə də Berlin və Vyana müəssislər məclislərinin müzakirələri Almaniya inqilabı tarixinin mühüm bir hissəsi olduğu halda, tələxəklik edən Frankfurt kollekiyasının natiqlik gücənmələri yalnız qəribə ədəbi əsərlər və əntiqə şeylər toplayan kolleksiyaçını maraqlandıra bilər.

Alman xalqı millətin birgə qüvvəsini parçalayıb heçə vuran mənfur ərazi dağınıqlığına son qoymaq zərurətini dərindən hiss edir və müəyyən bir müddət ərzində umub gözləyirdi ki, Frankfurt Milli məclisi yeni dövrün heç olmazsa təməlini qoyacaqdır. Lakin bu əllamələr dəstəsinin uşaqcasına hərəkətləri tezliklə milli ehtirasları soyutdu. Malmödə barışıq bağlanması (sentyabr 1848-ci il)173 ilə əlaqədar olaraq onların rüsvayçı hərəkətləri Məclisə qarşı xalqın qəzəbini coşdurdu; çünki gözləyirdilər ki, Məclis millətin fəaliyyəti üçün geniş bir meydan açacaqdır, amma bunun əvəzində Məclis misilsiz dərəcədə qorxaqlıq göstərərək, yalnız onu etdi ki, hazırkı əksinqilabi sistemin əsaslandığı dayaqları yenidən möhkəmlətdi.

London, yanvar 1852-ci il.

VIII

POLYAKLAR, ÇEXLƏR VƏ ALMANLAR

Bundan əvvəlki məqalələrdə dediklərimizdən aydındır ki, 1848-ci il mart inqilabından sonra yeni bir inqilab baş vermədiyinə görə Almaniya hökmən bu hadisədən qabaqkı vəziyyətə qayıtmalı idi. Lakin bir qədər

aydınlaşdırmaq istədiyimiz tarixi problem öz xarakteri cəhətdən o qədər mürəkkəbdir ki, Almaniya inqilabının, necə deyərlər, beynəlxalq münasibətlərini nəzərə almadan sonrakı hadisələri lazımınca başa düşmək olmaz. Bu beynəlxalq münasibətlər isə eynən daxili işlər kimi dolaşıq idi. Yaxşı mə`lumdur ki, Elbaya, Zaaleyə və Bohemiya Meşəsinə (Çexiya Meşəsinə. Red.) qədər Almaniyanın bütün şərq yarısı son min il ərzində aparılan mübarizə nəticəsində slavyan mənşəli istilaçıların əlindən geri alınmışdı. Həmin ərazinin çox hissəsi almanlaşdırılmış və bunun nəticəsində orada slavyan milliyyəti və dili bir neçə əsr bundan əvvəl tamamilə yox olub getmişdir. Ümumən yüz min nəfərdən az olub bir-birindən tamamilə təcrid edilmiş qalıqlar (Pomeraeiyada kaşublar, Lujitsedə vendlər və ya sorblar) nəzərə alınmasa, bu yerlərin sakinləri hər cəhətdən almandırlar. Əvvəlki Polşa ilə olan bütün sərhəd boyunca və çex dilində danışan ölkədərdə, Bohemiya və Moraviyada vəziyyət başqa cürdür. Buradakı hər bir mahalda iki milliyyət bir-birinə qarışmışdır şəhərlər ümumiyyətlə az-çox alman şəhərləri olduğu halda, kəndlərdə slavyan ünsürü üstündür, hərçənd ki, alman tə`sirinin arası kəsilmədən artması nəticəsində səndlərdə də slavyan ünsürü tədriclə parçalanır və sıxışdırılıb aradan çıxarılır.

Belə bir vəziyyətin aşağıdakı səbəbi vardır. Böyük Karl zamanından bəri almanlar Avropanın şərqini istila etmək, məskunlaşdırmaq və ya heç olmazsa mədəniləşdirmək yolunda ən inadlı, ən ciddi sə`y göstərdilər. Feodal zadəganlarının Elba ilə Oder arasında etdiyi istilalar və hərbi cəngavər cəmiyyətlərinin Prussiya və Livoniyadakı feodal koloniyaları XV əsrdən başlayaraq Qərbi Avropanın digər ölkələrində olduğu kimi, Almaniyada da ictimai və siyasi əhəmiyyəti artan ticarət və sənaye burjuaziyasının köməyi ilə almanlaşdırmanı müqayisəedilməz dərəcədə daha geniş, daha tə`sirli və müntəzəm şəkildə həyata keçirmək üçün ancaq yol açırdı. Slavyanlar, xüsusən qərb slavyanları, yə`ni polyaklar və çexlər əsasən əkinçidirlər; onlarda ticarətə və sənayeyə heç bir zaman güclü meyl olmamışdır. Bunun nəticəsidir ki, əhali artdıqca və şəhərlər meydana gəldikcə bu ölkələrdə bütün sənaye mallarının istehsalı alman mühacirlərinin əlinə keçmiş, bu malların kənd təsərrüfatı mallarına mubadilə edilməsi isə tamamilə yəhudilərin inhisarında olmuşdur; o yəhudilərin ki, onlar ümumiyyətlə hər hansı bir millətə mənsubdurlarsa, bu ölkələrdə, şübhəsiz, slavyan olmaqdan daha çox almandırlar. Bundan az

dərəcədə olsa da, eyni vəziyyət Avropanın bütün şərqində də olmuşdur. Peterburqda, Peştdə, Yassıda və hətta İstambulda da bu günədək sənətkarlar, xırda tacirlər, xırda fabrikçilər almanlardır; əhalisi seyrək olan bu ölkələrdə çox vacib sima sayılan sələmçilərin, meyxanaçıların, çərçilərin isə, əksinə, az qala hamısı yəhudilərdir ki, bunların da ana dili təhrif edilib tanınmaz şəklə salınmış alman dilidir. Mə`nəvi mədəniyyətin az qala bütün ünsürlərini Almaniyadan idxal etməyin zəruri olduğu aydınlaşanda, sərhəd boyu slavyan vilayətlərində alman ünsürünün şəhərlər, ticarət və sənaye inkişaf etdikcə daim artan əhəmiyyəti daha da gücləndi. Alman taciri və sənətkarının ardınca alman keşişi, alman məktəb müəllimi, alman alimi də slavyan torpaqlarında məskən saldı. Nəhayət, istilaçı orduların dəmir addımları və ya diplomatiyanın ehtiyatlı, diqqətlə ölçülüb biçilmiş işğalçılıq tədbirləri ictimai inkişafın tə`siri altında cərəyan edən tədrici, lakin qəti prosesin–milli simanın itirnlməsi prosesinin təkcə ardınca getməyib çox zaman ondan irəliyə də keçirdi. Məsələn, Polşanın birinci dəfə bölüşdürülməsindən sonra Qərbi Prussiyanın və Poznanın xeyli hissəsi dövlət torpaqlarını alman kolonistlərinə satmaq və bağışlamaq, alman kapitalistlərini bu qonşu vilayətlərdə sənaye müəssisələrinin əsasını qoymağa şirnikləndirmək və i.a. yolu ilə, həmçinin ölkədə yaşayan polyaklara qarşı çox tez-tez ən qəddar tədbirlər görmək yolu ilə almanlaşdırıldı.

Beləliklə, son 70 il ərzində alman milləti ilə polyak milləti arasındakı sərhəd xətti öz yerini tamamilə dəyişdi. 1848-ci il inqilabı dərhal ona səbəb oldu ki, məzlum millətlərin hamısı müstəqil yaşamaq imkanı və öz nşlərini müstəqil surətdə idarə etmək hüququ tələb etdi; buna görə polyaklar tamamilə təbii olaraq o saat tələb etdilər ki, onların ölkəsi köhnə Polşa respublikasının 1772-ci ildən əvvəlki sərhədləri daxilində bərpa olunsun. Doğrudur, alman milləti ilə polyak midləti arasında demarkasiya xətti olmaq e`tibarı ilə bu sərhəd elə o zamanın özündə də köhnəlmişdi və almanlaşdırma prosesi davam etdikcə ildən-ilə daha da köhnəlirdi. Lakin bir halda ki, almanlar Polşanın bərpa edilməsinə belə bir vəcdlə tərəfdar çıxırdılar, gözləməli idilər ki, bu rəğbətlərinin səmimiliyinə ilk sübut olaraq onlardap tələb edəcəklər ki, qarət olunmuş qənimətin özlərinə düşən payından əl çəksinlər. Digər tərəfdən isə, kənd əhalisinin əsarətdə saxlanmasına əsaslanan feodalizm vəziyyətindən çıxmaq iqtidarında olduğunu indiyədək bir dəfə də isbat etməmiş bir xalqa əhalisi əsasən

alman olan bütöv vilayətləri, tamamilə alman şəhəri olan böyük şəhərləri güzəşt etmək doğrudanmı lazım idi? Məsələ çox mürəkkəb idi. Məsələnin yeganə mümkün həlli Rusiyaya qarşı müharibə etməkdən ibarət idi. Belə olsaydı, inqilaba qoşulmuş müxtəlif millətləri bir-birindən sərhədlə ayırmaq məsələsi ümumi düşmən əleyhinə e`tibarlı sərhəd çəkmək kimi əsas məsələyə nisbətən ikinci dərəcəli məsələ olardı. Polyaklar şərqdə geniş ərazi əldə edərək qərbdə daha üzüyola olar və daha mülayim tələblər irəli sürərdilər; onlar üçün Riqa və Mitava (Latışca adı: Yelqava. Red.) da nəticə e`tibarı ilə Dansiq və Elbinq (Polyakca adı: Qdansk və Elblonq. Red.) qədər əhəmiyyətli olardı. Buna görə də Almaniyanın qabaqcıl partiyası Rusiya ilə müharibəni qit`ədəki hərəkata yardım göstərmək üçün zəruri hesab edirdi və Polşanın, heç olmazsa, bir hissəsinin milli istiqlaliyyətini bərna etməyin hökmən bu müharibənin başlanmasına gətirib çıxaracağına əmin olaraq polyakların tərəfnni saxlayırdı. Hakim liberal burjua partiyasına isə, əksinə, aydın idi ki, Rusiyaya qarşı milli müharibə bu partiyanın özünün devrilməsinə səbəb olar, çünki bu müharibə daha fəal və diribaş adamları irəli çəkib hakimiyyət başına qoyar; odur ki, liberal burjua partiyası özünü alman millətinin yayılmasının coşqun tərəfdarı yerinə qoyaraq polyakların inqilabi oyanışının əsas mərkəzi olan Prussiya Polşasını gələcək Almaniya imperiyasının ayrılmaz tərkib hissəsi e`lan etdi. Polyaklara həyəcanın ilk günlərində verilən və`dlər rüsvayçı bir şəkildə pozuldu; hökumətin razılığı ilə təşkil edilmiş polyak silahlı dəstələrini Prussiya artilleriyası pərən-pərən saldı və qırıb çatdı, hələ 1848-ci ilin aprelində, Berlin inqilabından cəmi altı həftə sonra polyak hərəkatı yatırıldı və almanlarla polyaklar arasında köhnə milli düşmənçilik yenidən başlandı. Rusiya hökmdarına bu çox böyük və misilsiz xidməti kommersant olan liberal nazirlər Kamphauzen və Hanzeman göstərdilər. Əlavə edib bunu da demək lazımdır: Polşa müharibəsi ilk vasitə idi ki, onun köməyi ilə Prussiya ordusunu yeni şəkildə təşkil edib təzədən mərd bir orduya çevirdilər; bu ordu sonra liberal partiyasını devirdi və c. Kamphauzen ilə c. Hanzemanın çox əmək sərf edib dünyaya gətirdikləri hərəkatı yatırtdı. «Nə əkərsən, onu biçərsən». Ledrü-Rollendən tutmuş Şanqarnyeyə və Kamphauzendən tutmuş Haynauya qədər 1848-ci və 1849-cu illərin bütün bambılılarının aqibəti ümumiyyətlə belə oldu.

Milli məsələ Bohemiyada da mübarizə üçün bəhanə oldu. Əhalisi iki milyon almandan və çexcə danışan üç milyon slavyandan ibarət olan bu

ölkənin böyük tarixi xatirələri var idi və bunların demək olar hamısı çexlərin keçmiş hakim mövqeyi ilə əlaqədar xatirələr idi. Lakin XV əsrdəki qus müharibələri174 zamanından bəri slavyan xalqları ailəsinin bu şaxəsi gücdən düşmüş, çex dilinin danışıldığı ölkələr parçalanmışdı; bir hissəsi Bohemiya krallığını, başqa bir hissəsi Moraviya knyazlığını əmələ gətirmiş, üçüncü hissəsi, yə`ni slovakların dağlıq Karpat ölkəsi Macarıstanın tərkibinə daxil olmuşdu. O vaxtdan bəri moraviyalılar və slovaklar öz dillərini xeyli dərəcədə qoruyub saxlamış olsalar da, milli şüur və milli həyat qabiliyyətinin bütün əlamətlərini çoxdan itirmişdilər. Bohemiyanı üç tərəfdən xalis alman vilayətləri əhatə edirdi. Bohemiyanın öz ərazisində alman ünsürü böyük müvəffəqiyyətlər qazanmışdı; hətta paytaxtın özündə, yə`ni Praqada hər iki millət sayca bir-birinə az qala bərabər idi, kapital, ticarət, sənaye və mə`nəvi mədəniyyət isə hər yerdə almanların əlində idi. Çex milliyyəti uğrunda əsas mübariz olan professor Palatski başına hava gəlmiş alman alimindən başqa bir şey deyildir; o lap indiyə qədər çex dilində düzgün və xarici ləhcəsiz danışa bilmir. Lakin ölüb getməkdə olan çex milliyyəti,–son dörd əsrin tarixindən mə`lum olan bütün faktlara görə bu milliyyət ölüb getməkdədir,–çox tez-tez olduğu kimi, öz keçmiş həyat qabiliyyətini qaytarmaq üçün 1848-ci ildə son təşəbbüs göstərdi və bu təşəbbüsün boşa çıxması bütün inqilabi mülahizələrdən asılı olmayaraq sübut etməlidir ki, Bohemiya əhalisinin bir qismi hələ bir neçə əsr ərzində alman dilində deyil, başqa dildə danışmaqda davam etsə belə, bundan sonra Bohemiya ancaq Almaniyanın tərkib hissəsi kimi yaşaya bilər175.

London, fevral 1852-ci il.

IX

PANSLAVİZM. ŞLEZVİQ-HOLŞTEYN MÜHARİBƏSİ

Avropa qit`əsində «panslavizm» adlanan şeyin vətəni Bohemiya və Xorvatiya idi (slavyanlar ailəsinin səpələnmiş üzvlərindən biri Xorvatiya idi və Bohemiyaya almanların göstərdiyi tə`siri macarlar Xorvatiyaya göstərmişdilər). Nə Bohemiya, nə də Xorvatiya müstəqil millət kimi yaşamaq üçün kifayət qədər güclü deyildi. Bu millətlərin hər ikisi onları daha diribaş xalqlar tərəfindən labüddən yeyilib udulmağa doğru aparan tarixi səbəblər üzündən tədriclə zəifləyirdi və müəyyən müstəqilliyin bərpa ediləcəyinə ancaq digər slavyan millətləri ilə ittifaq bağlamaq şəraitində ümid bəsləyə bilərdi. 22 milyon polyak, 45 milyon rus, 8 milyon serb və

bolqar vardır; müqəddəs slavyan torpağına soxulan çağırılmamış qonaqları–türkləri, macarları və ən əvvəl, mənfur, lakin buna baxmayaraq zəruri olan «Niemetz»ləri, almanları bu torpaqlardan sıxışdırıb geri oturtmaq və ya məhv etmək məqsədi ilə bütün 80 milyon slavyandan ibarət güclü konfederasiya nə üçün yaradılmasın! Beləliklə, səthi mə`lumatı olan bir neçə slavyan tarixçisinin kabinetində tarixə zidd olan bu cəfəng hərəkat meydana gəldi və öz qarşısına–nə az, nə də çox,–mədəni Qərbi vəhşi Şərqə, şəhəri kəndə, ticarəti, sənayeni, mə`nəvi mədəniyyəti təhkimli slavyanların primitiv əkinçiliyinə tabe etdirmək məqsədini qoydu. Lakin bu cəfəng nəzəriyyənin arxasında Rusiya imperiyasının şəxsində qorxunc bir həqiqət dururdu; elə bir imperiya ki, bütün Avropanı slavyan tayfasının və xüsusən onun yeganə bacarıqlı hissəsi olan rusların malikanəsi hesab etmək iddiası onun hər addımında özünü büruzə verir; elə bir imperiya ki, Peterburq və Moskva kimi iki paytaxtı ola-ola, hər bir rus kəndlisinin öz dini və öz milləti üçün əsil mərkəz saydığı «çar şəhəri» (Konstantinopol, rusca Çarqrad, çar şəhəri) fe`lən rus imperatorunun iqamətgahı olmadıqca yenə öz ağırlıq mərkəzini əldə edə bilmir; elə bir imperiya ki, son 150 ildə bir dəfə də ərazi itirməmiş, əksinə, hər dəfə müharibə etdikcə öz ərazisini daha da genişləndirmişdir. Buna görə də Mərkəzi Avropa, rus siyasətinin məqsədlərinə, ən çox uyğun gəlib yeni peyda olan panslavizm nəzəriyyəsini həmin siyasətin nə kimi fitnə-fəsad vasitəsi ilə müdafiə etdiyinə yaxşı bələddir. Məsələn, çex və xorvat panslavistləri–bə`zisi bilə-bilə, bə`zisi bilməyərəkdan,–doğrudan-doğruya Rusiyanın xeyrinə iş görürdülər; onlar inqilab işinə elə bir millət kabusu xatirinə xəyanət edirdilər ki, bu millətin aqibəti ən yaxşı halda, rus hökmranlığı altında olan polyak millətinin aqibəti kimi olacaqdı. Amma polyaklar üçün şərəfli haldır ki, onlar heç bir zaman çiddi surətdə bu panslavizm toruna düşməmişlər və əgər polyak aristokratlarından bə`ziləri qatı panslavist olmuşdularsa da, bilirdilər ki, rus əsarəti onlara öz təhkimlilərinin üsyanından daha az ziyan vurar.

Çexlər və xorvatlar ümumi slavyan ittifaqını hazırlamaq üçün Praqada Ümumslavyan qurultayı çağırdılar176. Hətta Avstriya qoşunu işə qarışmasaydı da, fərqi yoxdur, bu qurultay müvəffəqiyyətsizliyə uğrayacaqdı. İngilis, alman və İsveç dilləri bir-birindən fərqləndiyi dərəcədə ayrı-ayrı slavyan dilləri də bir-birindən fərqlənir; buna görə də müzakirə başlananda aydın oldu ki, müzakirədə iştirak edənlərin hamısının

başa düşəcəyi ümumi bir slavyan dili yoxdur. İstədilər fransızca danışsınlar, lakin əksəriyyət bu dili də başa düşmürdü; buna görədir ki, yeganə ümumi hissləri almanlara hamılıqla nifrət etməkdən ibarət olan biçarə slavyan fədailəri son nəticədə məcbur oldular ki, öz fikirlərini qurultaya toplaşanların hamısının başa düşdüyü yeganə dildə–mənfur alman dilində izah etsinlər! Lakin məhz elə bu vaxt Praqada başqa növ slavyan qurultayı–Qalisiya ulanları, xorvat və slovak qrenadyorları, çex topçuları və kirasirlərindən ibarət qurultay toplaşmışdı; Vindişqresin komandanlıq etdiyi bu həqiqi, silahlı slavyan qurultayı xəyali slavyan hegemonluğunun banilərini iyirmi dörd saatdan da az bir müddətdə şəhərdən qovdu və pərən-pərən saldı.

Avstriya müəssislər reyxstaqının çex, moraviyalı və dalmasiyalı deputatları, habelə polyak deputatlarının bir qismi (aristokratiya) reyxstaqda alman ünsürünə qarşı müntəzəm surətdə müharibə edirdilər. Bu reyxstaqda almanlar və polyakların bir qismi (var-yoxdan çıxmış zadəganlar) inqilabi tərəqqinin başlıca dayağı idilər. Slavyan deputatlarının əksəriyyəti onlara qarşı müxalifətdə idi və bütövlükdə öz hərəkatının mürtəce meyllərini belə açıq şəkildə büruzə verməklə kifayətlənmirdi; bu deputatlar o dərəcəyə alçaldılar ki, fitnə-fəsad etməyə və Praqada onların yığıncağını qovmuş Avstriya hökuməti ilə gizlicə sövdələşməyə başladılar. Lakin öz biabırçı hərəkətlərinə layiq cəzalarına çatdılar. Slavyan deputatları 1848-ci il oktyabr üsyanı zamanı hökumətə yardım göstərdilər və bu üsyan nəticə e`tibarı ilə Müəssislər reyxstaqında məhz onlara çoxluq qazandırdı; bundan sonra Avstriya əsgərləri Praqa qurultayı kimi bu reyxstaqı–artıq demək olar tamamilə slavyanlardan ibarət olan reyxstaqı da qovdular və panslavistlərə təhdidlə xəbərdarlıq edildi ki, əgər onlar yenidən baş qaldırmaq fikrinə düşsələr, yerləri zindandır. Slavyan deputatları yalnız ona nail oldular ki, Avstriya ətrafında mərkəzləşmə indi hər yerdə slavyan millətini zəiflədir bu nəticə isə onların öz fanatizmi və korluğundan irəli gəlmişdir.

Əgər Macarıstanla Almaniyanın sərhədləri hər hansı bir şübhə doğursaydı, burada da hökmən dava-dalaş başlanardı. Lakin xoşbəxtlikdən buna heç bir səbəb yox idi və mənafeyi bir-biri ilə sıx bağlı olan hər iki millət eyni düşmənlərə qarşı–Avstriya hökumətinə və panslavizm fanatizminə qarşı mübarizə edirdi. Burada mehribanlıq münasibəti bir an da olsa pozulmamışdı. Lakin İtaliya inqilabı nəticəsində hər halda Almaniyanın bir

hissəsi daxili müharibəyə cəlb edilmiş oldu; ictimai şüurun inkişafını Metternix sisteminin ləngitməyə nə dərəcədə müvəffəq olduğunu sübuta yetirmək üçün burada qeyd etmək lazımdır ki, 1848-ci ilin birinci altı ayı ərzində Vyana barrikadalarında çarpışmış adamlar italyan vətənpərvərləri ilə vuruşan orduya can-başla gedirdilər. Lakin bu kədərli yanılma çox sürmədi.

Nəhayət, Şlezviq və Holşteyn üstündə Danimarka ilə hələ müharibə gedirdi. Əhalisinin milliyyəti, dili və rəğbəti cəhətdən, şübhəsiz, alman vilayətləri olan bu vilayətlər Almaniyaya həm də hərbi mülahizələrə, dəniz və ticarət mülahizələrinə görə lazım idi. Son üç ildə bu vilayətlərin sakinləri Danimarkanın müdaxiləsinə qarşı inadlı mübarizə etmişdilər. Bundan əlavə, müqavilələrə əsaslanan hüquq da onların tərəfində idi. Mart inqilabı onları danimarkalılarla açıqca toqquşdurdu və Almaniya onlara yardım göstərdi. Lakin Polşa, İtaliya və Bohemiyada, sonralar isə Macarıstanda hərbi əməliyyat olduqca qətiyyətlə aparıldığı halda, xalqın rəğbətini qazanmış bu yeganə müharibə, qismən də olsa yeganə inqilabi müharibə olan bu müharibədə faydasız marşlar və əksmarşlar sistemi tətbiq edilmiş, hətta xarici diplomatiyanın işə qarışmasına yol verilmişdi, bu isə bütün işin bir çox qəhrəmancasına çarpışmalardan sonra ən acınacaqlı şəkildə qurtarmasına səbəb oldu. Bu müharibədə alman hökumətləri əllərinə fürsət keçdikcə Şlezviq-Holşteyn inqilabi ordusuna xəyanət edir və həmin ordu pərən-pərən düşdüyü, yaxud ayrı-ayrı hissələrə parçalandığı zaman danimarkalıların onu məhv etməsinə qəsdən imkan verirdilər. Almanların könüllü dəstələri ilə də bu cür rəftar edirdilər.

Lakin bu şəraitdə alman adı ümumi nifrətdən başqa heç bir şey qazanmadığı halda konstitusiyaçı və liberal alman hökumətləri yalnız sevinib əllərini ovuşdururdular. Onlar polyakların və çexlərin hərəkatını yatıra bildilər. Onlar almanların, polyakların və italyanların hər hansı bir şəkildə sazişə gəlməsinə və əlbir hərəkət etməsinə indiyədək mane olmuş köhnə milli ədavəti hər yerdə yenidən oyatdılar. Onlar əhalini vətəndaş müharibəsi səhnələrinə və qoşunun cəza tədbirlərinə alışdırdılar. Polşada Prussiya ordusu və Praqada Avstriya ordusu yenidən cəsarətləndi. Həm də hədsiz vətənpərvərlik hissi (Heynenin tə`birincə–«die patriotische Uberkraft (Heyne. «Gecə keşikçisinin Parisə gəlməsi» («Muasir şe`rlər» silsilsindən) Red.)) ilə coşan inqilabçı, lakin uzağı görməyən gənclər düşmən mərmilərinə hədəf olmaq üçün Şlezviqə və Lombardiyaya

göndərildiyi zaman, həm Avstriyanın, həm də Prussiyanın əlində əsl alət olan bu ordulara imkan verildi ki, yadellilər üzərində qələbə çalıb bununla da yenidən camaatın iltifatını qazansınlar. Lakin təkrar edirik: liberalların daha çox radikal olan partiyaya qarşı bir alət kimi istifadə etmək məqsədi ilə gücləndirdiyi bu ordular öz qüvvələrinə inamı və öz intizamlarını müəyyən dərəcəyə qədər bərpa edər-etməz, silahlarını liberalların özünə qarşı çevirdilər və hakimiyyəti köhnə sistemin nümayəndələrinə qaytardılar. Radetski, Adice çayı sahilindəki ordugahında Vyanadan «məs`ul nazirlərin» ilk əmrlərini alanda ucadan demişdi: «Bu nazirlər kimlərdir? Bu hökumət Avstriya hökuməti deyildir! Avstriya indi yalnız mənim ordugahımdadır; Avstriya mənəm və mənim ordumdur; biz italyanları əzəndə imperator üçün imperiyanı geri alacağıq!». Qoca Radetski haqlı idi. Lakin Vyanadakı beyinsiz «məs`ul» nazirlər ona məhəl qoymadılar.

London, fevral 1852-ci il.

X

PARİS ÜSYANI. FRANKFURT MƏCLİSİ

1848-ci il aprelin əvvəllərində bütün Avropa qit`əsində inqilab axını dayandırıldı, zira cəmiyyətin ilk qələbələrdən xeyir görmüş sinifləri məğlublarla dərhal ittifaq bağladılar. Fransada xırda burjuaziya, habelə burjuaziyanın respublikaçılar fraksiyası proletariata qarşı monarxist burjuaziya ilə birləşdi. Almaniya və İtaliyanın qalib gəlmiş burjuaziyası canfəşanlıqla çalışırdı ki, feodal zadəganlar, dövlət bürokratiyası və ordu onu xalq kütlələrinə və xırda burjualara qarşı müdafiə etsinlər. Birləşmiş mühafizəkar və əksinqilabçı partiyalar tez bir zamanda yenidən üstünlüyə nail oldular. İngiltərədə xalqın pis hazırlanmış vaxtsız nümayişi (aprelin 10-da) hərəkat partiyasının tam və qəti məğlubiyyəti ilə qurtardı177. Fransada iki bu cür çıxış da (aprelin 16-da109 və mayın 15-də108) müvəffəqiyyətsizliyə uğradı. Mayın 15-də İtaliyada kral-bomba (II Ferdinand. Red.) bir zərbə ilə öz hakimiyyətini bərpa etdi178. Almaniyada müxtəlif yeni burjua hökumətləri və onların müəssislər məclisləri öz mövqelərini möhkəmlətdilər və hadisələrlə zəngin olan 15 may günü Vyanada xalqın qələbəsi ilə qurtardısa da, hər halda ancaq ikinci dərəcəli əhəmiyyəti olan bu hadisə xalq əzminin axırıncı müvəffəqiyyətli təzahürü hesab edilə bilər. Macarıstanda hərəkat, deyəsən, sakit bir məcraya,

qüsursuz surətdə riayət edilən qanunçuluq məcrasına daxil olurdu, polyakların hərəkatı isə, bundan əvvəlki məqalələrimizdən birində qeyd etdiyimiz kimi, hələ rüşeym halında Prussiya süngüləri ilə yatırılmışdı. Lakin bütün bunlar heç də işlərin, nəticə e`tibarı ilə, nə şəkil alacağını əvvəlcədən müəyyən etmirdi və inqilabçı partiyaların müxtəlif ölkələrdə itirdiyi hər qarış torpaq həmin partiyaları ancaq ona sövq edirdi ki, qəti hərəkətlər üçün öz sıralarını daha sıx birləşdirsinlər.

Bu qəti hərəkətlər yaxınlaşırdı. Bunlar ancaq Fransada başlana bilərdi. Doğrudan da, nə qədər ki, İngiltərə inqilabi mübarizədə iştirak etmirdi, Almaniya isə parçalanmış halda qalırdı, Fransa öz milli istiqlaliyyəti, mədəniyyəti və mərkəzləşmiş olması sayəsində yeganə ölkə iş ki, ətraf ölkələrdə güclü sarsıntılara təkan verə bilərdi. Buna görə də 1848-ci il iyunun 23-də41 Parisdə qanlı mübarizə başlananda, teleqrafla verilən və ya poçtla göndərilən hər yeni xəbər bu mübarizənin fəhlə kütləsi ilə Paris əhalisinin orduya arxalanan bütün başqa sinifləri arasında gedən mübarizə olduğu faktını Avropaya daha aydın şəkildə açıb göstərəndə; döyüşlər müasir vətəndaş müharibələri tarixində misli görünməmiş şiddətlə gedib, iki tərəfin heç birinə nəzərə çarpacaq müvəffəqiyyət qazandırmadan bir neçə gün uzananda, hər kəs başa düşdü ki, bu vuruşma məhz elə böyük və həlledici vuruşmadır ki, üsyan qalib gələcəyi təqdirdə bütün qit`əni yeni inqilablar dalğasının ağuşuna atacaq, üsyan məğlub olacağı təqdirdə isə əksinqilabi idarə üsulunun hər halda müvəqqəti bərpa edilməsi ilə nəticələnəcəkdir.

Paris proletarlarını o dərəcədə əzişdirib taqətdən saldılar ki, zərbədən sonra onlar hələ indi də toxtayıb özlərinə gələ bilməmişlər. Həm də bütün Avropada yeni və köhnə mühafizəkarlar və əksinqilabçılar dərhal elə həyasızlıqla baş qaldırdılar ki, bu həyasızlıq onların vaqe olmuş hadisənin mə`nasını nə dərəcədə yaxşı anladıqlarını göstərdi. Hər yerdə mətbuat tə`qib olunmağa başlandı, yığıncaqlar və ittifaqlar hüququ məhdudlaşdırıldı; hər hansı kiçik əyalət şəhərində vaqe olan hər hansı kiçik hadisəni bəhanə edib xalqı silahsızlaşdırmağa, mühasirə vəziyyəti e`lan etməyə, Kavenyakdan öyrəndikləri yeni manevr və üsulları qoşuna öyrətməyə başladılar. Həm də bundan əlavə, Fevral zamanından bəri ilk dəfə sübut olundu ki, böyük şəhərdə xalq üsyanının yenilməzliyi xam xəyaldır ordu yenidən ad qazandı; az-çox əhəmiyyətli küçə döyüşlərində

indiyədək həmişə məğlubiyyətə uğrayan qoşunlar yenidən inanıb əmin oldular ki, bu növ mübarizəyə də gücləri çatar.
Hətta öz qüvvətli müttəfiqi olan burjuaziyadan da yaxa qurtarmaq və Almaniyada mart hadisələrindən əvvəlki vəziyyəti bərpa etmək yolunda Almaniyanın köhnə feodal-bürokrat partiyasının ilk real addımları və müəyyən planları Paris fəhlələrinin məhz bu məğlubiyyəti zamanından başlanır. Ordu dövlətdə yenidən həlledici qüvvə oldu, həm də ordu burjuaziyanın deyil, məhz bu partiyanın idi. Hətta aşağı rütbəli zabitlərin bir qisminin 1848-ci il ərəfəsində konstitusiya idarə üsuluna güclü rəğbət bəslədiyi Prussiyanın özündə də inqilab nəticəsində orduda başlanan iğtişaş mühakimə yeritməyə meyli olan bu gəncləri öz xidməti borclarına yenidən sədaqətli etdi. Sıravi əsgərlər zabitlərin qarşısında müəyyən bir sərbəstliyə yol verən kimi zabitlər üçün lap aydın oldu ki, intizam və danışıqsız itaət zəruridir. Məğlub olmuş zadəgan və bürokratlar indi anlamağa başladılar ki, nə etmək lazımdır. Həmişəkindən daha sıx birləşmiş olub, xırda üsyanları yatırarkən, habelə xaricdə hərbi əməliyyatlar keçirəndə qazandığı qələbələrdən məst olan və fransız əsgərlərinin yenicə qazandığı şöhrət kimi böyük bir şöhrət qazanmağın həsrətini çəkən ordunu hökmən xalqla xırda münaqişələrə daim cəlb etmək lazım idi, zira bu ordu qəti məqamda güclü zərbə ilə inqilabçıları məhv edib burjua parlament üzvlərinin təşəxxüsünə son qoya bilərdi. Bu qəti zərbə üçün münasib vaxt çox tez gəlib çatdı.
Biz yay aylarında Almaniyanın müxtəlif partiyalarını məşğul edən bə`zən maraqlı, lakin əksər hallarda cansıxıcı parlament müzakirələrini və yerli münaqişələri bir kənara qoyuruq. Bunu demək kifayətdir ki, burjua mənafeyini müdafiə edənlərin əksəriyyəti heç bir əməli nəticə verməmiş saysız-hesabsız parlament qələbələrinə baxmayaraq, ümumən hiss edirdi ki, ifratçı partiyalar arasında onların mövqeyi gündən-günə daha da zəifləyir; buna görə də onlar məcbur oldular ki, bu gün irticaçılarla ittifaqa girməyə can atdıqları halda, sabah daha demokratik partiyalara yaltaqlıq edib həmin partiyaların iltifatını qazanmağa çalışsınlar. Bu daimi tərəddüdlər onları ictimaiyyətin gözündən tamamilə saldı və qazandıqları nifrət işlərin sonrakı gedişinə müvafiq olaraq, indiki məqamda əsasən bürokrat və feodalların xeyrinə oldu.
Payızın əvvəllərinə yaxın müxtəlif partiyalar arasındakı münasibətlər son dərəcədə kəskinləşib elə böhranlı şəkil aldı ki, qəti vuruşma labüd oldu. Orduya qarşı demokratik və inqilabçı kütlələrin bu müharibəsində ilk

çarpışma Frankfurtda oldu. Doğrudur, bu toqquşma ikinci dərəcəli toqquşma idi, lakin qoşun ilk dəfə burada üsyana az-çox üstün gəldi ki, bu da çox böyük mə`nəvi tə`sir göstərdi. Tamamilə aydın səbəblərə görə, Prussiya Frankfurt Milli məclisinin tə`sis etdiyi xəyali hökumətə Danimarka ilə elə bir barışıq bağlamaq imkanı verdi ki, bu barışıq danimarkalıların Şlezviq almanlarına divan tutmalarına nəinki şərait yaratdı, habelə ümumun fikrincə Danimarka müharibəsinin əsasını təşkil edən az-çox inqIabi prinsipləri tamamilə inkar etmiş oldu. Frankfurt məclisi iki və ya üç səs çoxluğu ilə bu barışığı rədd etdi. Bu səsvermənin ardınca nazirlik böhranı komediyası başlandı, bundan üç gün sonra isə məclis öz qərarına yenidən baxdı və əslində onu ləğv edib barışığı qəbul etməyə məcbur oldu. Bu rüsvayçı hərəkət xalqı hiddətləndirdi. Barrikadalar quruldu, lakin Frankfurta kifayət qədər qoşun gətirilmiş olduğuna görə altı saatlıq döyüşdən sonra üsyan yatırıldı. Bu hadisə ilə əlaqədar olaraq Almaniyanın başqa yerlərində də (Badendə, Kölndə) bu cür, amma nisbətən az əhəmiyyətli iğtişaşlar baş verdi, lakin onların hamısı eyni ilə bu cür yatırıldı.

Bu ilk toqquşma əksinqilabçı partiyaya olduqca böyük bir fayda verdi: zahirən olsa da bütünlüklə xalq seçkiləri yolu ilə yaradılan yeganə hökumət, yə`ni Frankfurtdakı imperiya hökuməti, eləcə də Frankfurt Milli məclisi xalq içərisində tamamilə nüfuzdan düşdü. Bu hökumət və bu məclis öz iradəsini ifadə edən xalqın qarşısına əsgər süngüsü ilə çıxmağa məcbur oldu. Onlar gözdən düşdülər və hörmət ummaq üçün o vaxtadək nə qədər hüquq qazanmış olsalar da, öz mənşələrindən bu cür üz döndərməklə, xalqın düşməni olan hökumətlərdən və onların qoşunlarından asılı olmaqla, imperiya regentini, onun nazirlərini və deputatları bundan belə tamamilə yerə vurdular. Biz bu aciz xəyalpərəstlər yığıncağının hər bir sərəncamı, hər bir xahişi və hər bir nümayəndəliyinin sonralar–əvvəlcə Avstriyada, onun ardınca Prussiyada, onun da ardınca kiçik dövlətlərdə də–necə nifrətlə qarşılandığını tezliklə görəcəyik. İndi biz Fransadakı iyun döyüşünün Almaniyada oyatdığı güclü əks-sədaya yaxınlaşırıq, elə bir hadisəyə yaxınlaşırıq ki, Parisdəki proletar mübarizəsinin Fransa üçün həlledici əhəmiyyəti olduğu kimi, onun da Almaniya üçün həlledici əhəmiyyəti var idi. Biz 1848-ci il oktyabr üsyanını və bu üsyandan sonra Vyanaya edilən hücumu nəzərdə tuturuq. Lakin bu mübarizənin əhəmiyyəti o qədər böyükdür və digər tərəfdən, onun nəticəsinə daha yaxından tə`sir

göstərən müxtəlif səbəbləri izah etmək üçün «Tribune» qəzetində o qədər yer lazımdır ki, biz bu mövzunun şərhinə xüsusi bir məqalə həsr etməyə məcburuq.
Loıdon, fevral 1852-ci il.

XI
VYANA ÜSYANI

İndi biz Paris iyun üsyanının Almaniyada inqilabi paraleli olub tərəzinin gözünü bir zərbə ilə əksinqilabçı partiyaya tərəf əyən həlledici hadisəyə: 1848-ci ilin oktyabrında Vyanada olmuş üsyana yaxınlaşırıq.
Biz 13 mart qələbəsindən sonra Vyanadakı müxtəlif siniflərin mövqeyinin necə olduğunu gördük. Onu da gördük ki, alman Avstriyasında gedən hərəkat Avstriyanın alman olmayan əyalətlərində baş verən hadisələrlə necə çulğaşmışdı və bu hadisələr ona əngəl törədirdi. Deməli, indi ancaq o qalır ki, biz alman Avstriyasındakı axırıncı və ən qorxunc üsyanın səbəblərinin qısaca xülasəsini verək.
Metternix idarə üsulunun başlıca qeyri-rəsmi dayağı olmuş ali zadəganlar və maliyyə burjuaziyası hətta mart hldisələrindən sonra da hökumətə özlərinin həlledici tə`sirini qoruyub saxlaya bilmişdilər, bundan ötrü onlar təkcə saray, ordu və bürokratiyadan deyil, habelə daha artıq dərəcədə, burjuaziya arasında sür`ətlə yayılan «anarxiya» vahiməsindən də istifadə edirdilər. Onlar çox tez cür`ətlənib mətbuat qanunu179, qeyri-müəyyən bir aristokratik konstitusiya180 və qədim «silk» bölgüsünə əsaslanan seçki qanupu181 şəklində bir neçə sınaq şarı buraxdılar. Qorxaq və qabiliyyətsiz yarımliberal bürokratlardan ibarət olub konstitusiyaçı nazirlər hey`əti deyilən hey`ət mayın 14-də cəsarət göstərib hətta kütlələrin inqilabi təşkilatlarına açıqca hücum etdi, milli qvardiyanın və Akademik legionun182 nümayəndələrindən təşkil olunan Mərkəzi Komitəni, yə`ni hökumətə nəzarət etmək və lazım gələrsə xalq qüvvələrini ayağa qaldırıb onun üzərinə yeritmək üçün xüsusi olaraq yaradılan bir təşkilatı buraxdı. Lakin bu tədbir yalnız 15 may üsyanına səbəb oldu, bu üsyan isə hökuməti vadar etdi ki, Komitəni tanısın, konstitusiyanı və seçki qanununu ləğv etsin və yeni əsas qanun işləyib hazırlamaq səlahiyyətini ümumi seçki hüququ əsasında seçiləcək müəssislər reyxstaqına versin. Bunların hamısı ertəsi gün e`lan olunan imperator bəyannaməsi ilə təsdiq edildi. Lakin nazirlər hey`ətində öz nümayəndələri olan mürtəce partiya tezliklə özünün «liberal» həmkarlarını xalqın nailiyyətlərinə yeni bir qəsd düzəltməyə təhrik edə

bildi. Akademik legion hərəkat partiyasının dayağı, daimi təşviqatın mərkəzi idi və məhz buna görə daha mö`tədil Vyana bürkerləri ona nifrət etməyə başladılar. Mayın 26-da nazirlər hey`ətinin əmri ilə Akademik legion buraxıldı. Əgər əmri icra etmək yalnız milli qvardiya hissəsinə tapşırılsaydı, bəlkə də zərbə müvəffəqiyyətlə nəticələnərdi; amma hökumət bu qvardiyaya da e`tibar eləmədiyi üçün qoşunu işə saldı; odur ki, milli qvardiya o saat kəskin bir dönüş edib Akademik legionla birləşdi və bununla da nazirlər hey`ətinin planını pozdu.

İmperator (I Ferdinand. Red.) isə hələ mayın 16-da öz sarayı ilə birlikdə Vyananı tərk edib İnsbruka qaçmışdı. Burada əksinqilabçı partiya, Radetskinin yaxınlıqda, İnsbrukdan cəmi top atəşi məsafəsi qədər aralıda yerləşən ordusuna arxalanaraq, Sardiniya-Lombardiya ordusunun Tirola soxulacağı təhlükəsinin tə`siri ilə sadiq təbəəlik hissləri yenidən çoşan fanatik tirollular arasında özünə sığınacaq tapdı və hər cür nəzarət və müşahidədən, hər cür təhlükədən xilas olaraq, özünün pərən-pərən düşmüş qüvvələrini toplaya bilər, ölkənin hər yerində fitnə-fəsad toru qura bilərdi. Radetski, Yelaçiç və Vindişqreslə, həmçinin müxtəlif əyalətlərin inzibati rütbələr silsiləsinə mənsub e`tibarlı adamlarla münasibətlər bərpa edildi, slavyan başçıları ilə fitiəfəsad işə salındı; beləliklə, əksinqilabçı güruhun ixtiyarına real qüvvələr keçdi; Vyanadakı aciz nazirlərin nəsibi isə özlərinin qısamüddətli və cüz`i şöhrətini inqilabçı kütlələrlə daimi toqquşmalarda və Müəssislər reyxstaqının qarşıdakı müzakirələrində itirmək oldu. Beləliklə, paytaxtda hərəkatı bir müddət başlı-başına buraxmaq siyasəti, Fransa kimi mərkəzləşmiş və yekcins bir ölkədə hərəkət partiyasını tam qüdrətli partiyaya çevirə biləcək siyasət burada, qarışıq siyasi ünsürlər konqlomeratı olan Avstriyada mürtəce qüvvələri yenidən təşkil etmək üçün ən doğru vasitələrdən biri oldu.

Vyana burjuaziyası yəqin etmişdi ki, saray dalbadal üç dəfə məğlubiyyətə uğrayandan sonra və ümumi seçki hüququ əsasında yaradılan Müəssislər reyxstaqı mövcud olduğu şəraitdə saray partiyası kimi bir düşməndən ehtiyat etməsinə artıq heç bir ehtiyac yoxdur; buna görə də Vyana burjuaziyası adətən güclü sarsıntılar baş verəndən və bunlar işgüzar həyata pozğunluq salandan sonra burjuaziya sinfinə həmişə üz verən yorğunluq və laqeydlik hisslərinə, həmçinin bu sinfin əbədi arzusu olan qayda və asayiş arzusuna getdikcə daha artıq qapılırdı. Avstriya paytaxtının sənayesi demək olar ki, ancaq zinət şeyləri istehsalından ibarətdir; bunlara tələbat

isə inqilab başlandıqdan və saray adamları qaçıb gedəndən sonra, əlbəttə, çox azalmışdı. Nizamlı idarə sistemini bərpa etmək və sarayı qaytarıb gətirmək çağırışı,–ümid edildiyinə görə, bu tədbirlərin ikisi də ticarətin yenidən tərəqqi etməsinə səbəb olmalı idi,–indi bütün burjuaziyanın çağırışı olmuşdu. İyulda Müəssislər reyxstaqının açılışını inqilabi dövrün qurtarması kimi sevinclə alqışladılar. Radetskinin İtaliyadakı qələbələrindən və Doblhoffun mürtəce nazirlər hey`ətinin hakimiyyət başına gəlməsindən sonra özünü xalqın təzyiqindən qorxmayacaq dərəcədə güclü hiss edən və eyni zamanda reyxstaqın slavyanlardan ibarət əksəriyyəti ilə başlanmış fitnə-fəsadı axıra çatdırmaq üçün Vyanada olmağı lazım bilən sarayın qayıdıb gəlməsini də eyni ilə bu cür alqışladılar. Müəssislər reyxstaqı kəndliləri feodal buxovlarından və zadəganlar üçün məcburi işdən azad etmək haqqında qanunları müzakirə etdiyi zaman saray müvəffəqiyyətlə hiyləgər bir manevr işlətdi. İmperatora təklif edildi ki, avqustun 19-da milli qvardiyaya baxış düzəltsin; imperator ailəsinin üzvləri, saray adamları, generallar dövlətdə camaatın qarşısında açıqdan-açığa həlledici qüvvələrdən biri hesab edildiklərini bildiklərinə görə öyünüb məst olan silahlı bürkerlərin ünvanına tə`rif deyib yaltaqlıq etməkdə bir-biri ilə rəqabət edirdilər. Bundan dərhal sonra, hökumətdə yeganə hörmətli nazir olan c. Şvarserin imzası ilə verilən əmr, işsizləri o vaxta qədər aldıqları dövlət müavinətindən məhrum edirdi. Hiylə baş tutmuşdu. Fəhlələr nümayiş düzəltdilər: burjua milli qvardiyası öz nazirinin əmrinə tərəfdar oldu, milli qvardiyaçılar «anarxistlərə» hücum etdilər onlar avqustun 23-də silahsız, heç bir müqavimət göstərməyən fəhlələrin üstünə pələng kimi atılıb bir çoxunu qırdılar. Bu, yolla inqilabçı döyüş qüvvələrinin birliyi və qüdrəti sarsıdıldı. Burjuaziya ilə proletariat arasında sinfi mübarizə, beləliklə, Vyanada da qanlı çarpışma dərəcəsinə çatdı və əksinqilabçı güruh özünün qəti zərbə endirə biləcəyi günün yaxınlaşdığını artıq görürdü.

Aradan çox keçmədən Macarıstan işləri əksinqilabçı güruhun öz hərəkətlərində rəhbər tutmaq niyyətində olduğu prinsipləri açıq e`lan etmək üçün əsas verdi. Oktyabrın 5-də rəsmi «Wiener Zeitunq» qəzetində dərc edilib altında Macarıstanın məs`ul nazirlərindən heç birinin imzası olmayan imperator fərmanında Macarıstan seyminin buraxıldığı və Macarıstanın qanuni hakimiyyət orqanları ilə açıqca mübarizə etmiş bir adamın, cənubi slavyan irticasının başçısı, Xorvat banı Yelaçiçin

Macarıstana mülki və hərbi vali tə`yin olunduğu e`lan edildi. Eyni zamanda da Vyanada duran qoşun əmr aldı ki, səfərə çıxsın və Yelaçiçin hakimiyyətinə dayaq olası orduya qoşulsun. Lakin bu, bütün qara fikirləri həddən artıq büruzə vermək demək idi; Vyananın hər bir sakini hiss etdi ki, Macarıstan əleyhinə müharibə etmək konstitusiyalı idarə prinsipi əleyhinə müharibəyə bərabərdir. Göstərilən fərmanda həmin prinsip bununla tapdanmışdı ki, imperator məs`ul nazirin imzası ilə təsbit edilməyən öz sərəncamlarına qanun qüvvəsi verməyə cəhd etmişdi. Xalq, Akademik legion və Vyana milli qvardiyası oktyabrın 6-da kütləvi üsyan qaldıraraq, qoşunun göndərilməsinə müqavimət göstərdilər. Qrenadyorların bə`ziləri xalqın tərəfinə keçdilər; xalqın döyüş qüvvələri ilə qoşun arasında qısa bir çarpışma oldu; hərbi nazir Latur xalq tərəfindən öldürüldü və axşamtərəfi xalq qalib gəldi. Persel tərəfindən Ştulveysenburq (Macarca adı: Sekeşfehervar. Red.) yaxınlığında əzişdirilmiş ban Yelaçiç Vyana yaxınlığında Alman-Avstriya ərazisinə qaçdı. Ban Yelaçiçin köməyinə getməli olan Vyana qarnizonu bunun əvəzində ona qarşı özünün açıqca düşmənçiliyini büruzə verdi və müdafiəyə hazırlaşdı; imperator və saray yenidən qaçdı, həm də bu dəfə yarımslavyan ərazisi Olmütsə (Çexcə adı: Olomouts. Red.) qaçdı.

Lakin Olmütsdə saray İnsbrukdakından tamamilə fərqli şəraitdə idi. İndi saray inqilaba qarşı hərbi səfərə bilavasitə başlamaq iqtidarında idi. Onun ətrafında Müəssislər reyxstaqının Olmütsə dəstə-dəstə gələn slavyan deputatları və monarxiyanın bütün hissələrindən gələn slavyan entuziastları toplanmışdılar. Onların təsəvvüründə, hərbi səfər slavyanlığın bərpa edilməsi uğrunda müharibəyə və slavyan ölkəsi hesab etdikləri ölkəyə soxulan gəlmələrin hər ikisinə–almanlara və macarlara qarşı qırğın müharibəsinə çevrilməli idi. Praqanın fatehi, indi isə Vyana ətrafına tonlaşmış ordunun komandanı Vindişqres o saat slavyanlar üçün milli qəhrəmana çevrildi. Onun ordusu hər tərəfdən gəlməkdə olan qüvvələrini böyük bir sür`ətlə cəmləşdirirdi. Yelaçiçin qoşunu və Vyananın əvvəlki qarnizonu ilə birləşmək üçün Bohemiya, Moraviya, Ştiriya, Yuxarı Avstriya və İtaliyadan Vyanaya tərəf dalbadal polklar gəlirdi. Beləliklə, oktyabrın axırlarına yaxın 60 min nəfərdən artıq qüvvə toplaşdı ki, bu qoşunlar çox keçmədən imperiyanın paytaxtını hər tərəfdən müasirə etməyə başladılar və nəhayət, oktyabrın 30-dək o qədər irəlilədilər ki, cür`ət edib qəti hücuma keçmək olardı.

Vyanada isə bu zaman çaşqınlıq və vəlvələ hökm sürürdü. Qələbə əldə edilər-edilməz, «anarxist» fəhlə sinfinə qarşı burjuaziyanın köhnə e`timadsızlığı yenidən baş qaldırdı. Fəhlələr altı həftə əvvəl silahlı burjuaların onlarla necə rəftar etdiklərini yadlarında çox gözəl saxlayaraq, ümumiyyətlə burjuaziyanın tərəddüdlərlə dolu dəyişkən siyasətini xatırlayaraq şəhərin müdafiəsini burjuaziyaya e`tibar etmək istəmirdilər və tələb etdilər ki, fəhlələrə silah verilsin və onların öz hərbi təşkilatı yaradılsın. İmperator istibdadına qarşı mübarizəyə can atan Akademik legion iki sinfin bir-birindən kənarda durmasının əsl səbəbini başa düşməyə əsla qabil deyildi və yaranmış vəziyyətdən irəli gələn tələbləri ümumiyyətlə başa düşə bilmirdi. Xalqın beynində də, rəhbər dairələrdə də dolaşıqlıq hökm sürürdü. Reyxstaqın qalıqları alman deputatları ilə bir neçə slavyan,–bir neçə nəfər inqilabçı polyak deputatı istisna edilməklə bu adamlar olmütslü dostlarına casusluq edirdilər,–arası kəsilmədən iclas etməyə başladılar. Lakin onlar qəti hərəkətlərə keçməkdənsə, bütün vaxtlarını belə bir məsələ ətrafında lüzumsuz müzakirəyə sərf edirdilər; konstitusiya qanunçuluğu çərçivəsindən kənara çıxmadan imperator ordusunu dəf etmək mümkündürmü? Doğrudur, Vyananın az qala bütün demokratik təşkilatlarının nümayəndələrindən yaradılmış Təhlükəsizlik komitəsi müqavimət göstərməyə hazır idi, lakin Komitədə rəhbər rolu bürkerlərdən, xırda sənətkar və tacirlərdən ibarət əksəriyyət oynayırdı ki, onlar da Komitənin qəti, ciddi hərəkətlərə keçməsinə heç vaxt yol verməzdilər. Akademik legion komitəsi çox cəsarətli qətnamələr qəbul edirdi, lakin rəhbərlik etməyə əsla qabil deyildi. Fəhlələr köhnə idarə üsulunun onları saxladığı mə`nəvi köləlikdən yenicə xilas olmağa, özlərinin ictimai mövqeyini və özlərindən ötrü münasib siyasəti hələ dərk etmək deyil, yalnız instinkt ilə duymaq üçün yenicə oyanmağa başladıqlarına görə, onlara e`timad göstərilmədiyinə, silahsız və qeyri-mütəşəkkil olduqlarına görə özlərini ancaq səsliküylü nümayişlərdə göstərə bilərdilər; gözləmək olmazdı ki, onlar o günlərin bütün çətinliklərinin öhdəsindən gələ biləcəklər. Lakin inqilab zamanı Almaniyanın hər yerində olduğu kimi, onlar silah əldə edər-etməz axıra qədər vuruşmağa hazır idilər.

Vyanada vəziyyət bu cür idi. Vyanadan kənarda Radetskinin İtaliyadakı qələbələrindən ürəklənib yenidən təşkil edilmiş Avstriya ordusu, komandanlığın nə kimi qüsurları olsa da, hər halda komandirləri olan yaxşı

silahlandırılmış və yaxşı təşkil edilmiş 60–70 min nəfərlik ordu var idi. Vyananın daxilində–hərc-mərclik, sinfi ziddiyyətlər, pozğunluq hökm sürürdü; milli qvardiyanın bir hissəsi ümumiyyətlə vuruşmamağı qərara almışdı, başqa bir hissəsi isə qətiyyətsizlik edirdi və ancaq bir ovuc adam fəaliyyətə başlamağa hazır idi; proletar kütləsi öz sayına görə güclü olsa da, başçılardan məhrum edilmişdi, heç bir siyasi hazırlığı yox idi, həm çaxnaşmaya uyurdu, həm də az qala səbəbsiz yerə qızışıb coşurdu, hər cür saxta şayiəyə inanıb döyüşə can atırdı, lakin hər halda əvvəllər silahsız idi, nəhayət, döyüşə aparıldığı zaman ancaq pis silahlanmış və bir təhər təşkil edilmişdi aciz reyxstaq hətta olduğu binanın damını alov az qala tamamilə bürüdüyü zaman nəzəri incəliklər haqqında mübahisə ilə məşğul idi. Rəhbər Komitə həvəssiz və bacarıqsız idi. Əksinqilab cəbhəsində tam hərc-mərclik hökm sürdüyü mart və may günlərindən bəri hər şey dəyişilmişdi, o zaman mövcud olan yeganə mütəşəkkil qüvvə isə inqilabın yaratdığı qüvvə idi. Mübarizənin nə ilə qurtaracağına çətin ki, şübhə yeri qalırdı, əgər şübhə vardısa da 30 oktyabr, 31 oktyabr və 1 noyabr hadisələri onu aradan qaldırdı.

London, mart 1852-ci il.

XII

VYANAYA HÜCUM. VYANAYA EDİLƏN XƏYANƏT

Vindişqresin ordusu cəmləşib, nəhayət, Vyana üzərinə hücuma başladığı zaman mə`lum oldu ki, müdafiədən ötrü ayrıla biləcək qüvvələr həmin məqsəd üçün əsla kifayət deyildir. Milli qvardiyanın ancaq bir qismini səngərlərə göndərmək olardı. Doğrudur, nəticə e`tibarı ilə tələsik proletar qvardiyası təşkil edildi, lakin əhalinin sayca ən çox olan bu cəsur və diribaş hissəsindən bu şəkildə istifadə etməyə çox gec təşəbbüs edildiyindən proletar qvardiyası müvəffəqiyyətlə müqavimət göstərmək üçün silah işlətməyə və adi intizam qaydalarına əməl etməyə lazımınca alışa bilməmişdi. Beləliklə, yaxşı tə`lim görmüş, müəyyən dərəcədə intizamlı, cəsurluğu və ruh yüksəkliyi ilə fərqlənən 3–4 min nəfərlik Akademik legion hərbi nöqteyi-nəzərdən yeganə qoşun hissəsi idi ki, öz rolunu müvəffəqiyyətlə yerinə yetirə bilərdi. Lakin milli qvardiyanın e`tibarlı olan az bir qismi və silahlı proletarların nizamsız kütləsi ilə birlikdə Akademik legionun əlindən nə gələrdi, Vindişqresin sayca daha çox olan nizami qoşununun yanında, ələlxüsus Yelaçiçin quldur dəstələrinin,–ev dalınca evi, döngə dalınca döngəni almaq lazım gəldiyi bu cür hərbi əməliyyat

üçün öz həyat vərdişlərinə görə çox faydalı olan bu dəstələrin yanında Akademik legion nə edə bilərdi? Vindişqresin çox həyasızcasına işə saldığı və hər şeylə gözəl təchiz olunmuş çoxlu artilleriyanın qarşısına üsyançılar saz lafeti və yaxşı topçuları olmayan bir neçə köhnə və yararsız topdan savayı nə çıxara bilərdilər?

Təhlükə yaxınlaşdıqca, Vyanada çaxnaşma da artırdı. Reyxstaq, Pertselin paytaxtdan bir neçə mil aralıda duran macar ordusunu köməyə çağırmağa son dəqiqəyədək cur`ət etmirdi. Ziddiyyətli şayiələr axını gücləndikcə və ya zəiflədikcə silahlı xalq kütlələri kimi Təhlükəsizlik komitəsinin də fəallığı artır və ya əksinə azalırdı və buna uyğun olaraq Komitə ziddiyyətli qərarlar qəbul edirdi. Yalnız bir məsələdə–mülkiyyətə hörmət məsələsində–hamı birləşirdi mülkiyyətə hörmət elə bir dərəcəyə çatmışdı ki, mövcud şəraitdə az qala gülünc görünürdü. Müdafiə planını qəti şəkildə hazırlamaq üçün çox az iş görülmüşdü. Əgər o zaman ümumiyyətlə Vyananı xilas edə biləcək yeganə bir adam vardısa, o da Bem idi, lakin əslən slavyan olub az qala heç kimin tanımadığı bu əcnəbi hamının e`timadsızlığı nəticəsində həmin vəzifəni yerinə yetirməkdən imtina etdi. Əgər Bem öz fikrini deyib israr etsəydi, onu xain sayıb daş-qalaq, edə bilərdilər. Üsyançıların qüvvələrinə komandanlıq edib hətta aşağı rütbəli zabit iste`dadından daha çox romannəvis yazıçı iste`dadına malik olan Messenhauzer öz roluna əsla yaramırdı. Buna baxmayaraq inqilabi mübarizənin başlanmasından səkkiz ay keçdiyi halda xalq partiyası nə öz içərisindən daha qabiliyyətli bir sərkərdə yetişdirmiş, nə də kənardan cəlb etmişdi. Belə bir şəraitdə döyüş başlanmışdı. Əgər nəzərə alınsa ki, vyanalıların müdafiə vasitələri əsla kifayət qədər deyildi, onların heç bir hərbi hazırlığı və təşkilatı yox idi,–onlar yüksək dərəcədə qəhrəmailıqla müqavimət göstərdilər. Bemin komandan olarkən verdiyi əmr «son nəfərədək mövqeyi müdafiə etməli» əmri çox yerdə hərfi mə`nada yerinə yetirildi. Lakin qüvvə üstün gəldi. İmperator artilleriyası uzun və enli küçələrdə və şəhərin ətraf rayonlarının əsas yollarında barrikadaları bir-bir süpürüb atırdı; döyüşün ikinci günü axşam üstü xorvatlar Köhnə şəhərin bəndi ilə üzbəüz olan bir sıra evləri ələ keçirtdilər. Macar ordusunun zəif və nizamsız həmləsi tamamilə müvəffəqiyyətsizliyə uğradı. Barışıq müddəti hələ qurtarmamışdı–bu zaman Köhnə şəhərdəki hissələrin bə`ziləri təslim olmuşdu, başqaları tərəddüd edib vahimə yayırdı, Akademik legionun qalıqları isə yeni istehkamlar hazırlayırdı,–ki imperator

qoşunları hücuma keçdilər və ümumi çaxnaşmadan istifadə edib Köhnə şəhəri aldılar. Bu qələbənin ən yaxın nəticələri müharibə dövrünün qanunları əsasında edilən vəhşiliklər və verilən e`dam cəzaları, qızışdırılıb Vyananın üstünə göndərilmiş slavyan qoşunlarının törətdiyi olmazın amansızlıq və rəzalətlər–bunların hamısı çox yaxşı mə`lumdur və burada onları ətraflı təsvir etməyə ehtiyac yoxdur. Qələbənin sonrakı nəticələri–Vyana inqilabının məğlubiyyətə uğraması ilə əlaqədar olaraq Almaniya işlərinin tamamilə yeni şəkil alması–aşağıda işıqlandırılacaqdır. Vyanaya hücumla əlaqədar daha iki məsələni nəzərdən keçirmək qalır. Bu şəhər əhalisinin iki müttəfiqi var idi–macarlar və alman xalqı. Bu sınaq saatında onlar harada idilər? Biz gördük ki, vyanalılar azadlığa yeni çıxmış xalqa xas olan tam alicənablıqla elə bir iş uğrunda üsyan qaldırdılar ki, bu iş, nəticə e`tibarı ilə, onların öz işi olsa da, birinci növbədə və əsasən macarların işi idi. Vyanalılar Avstriya qoşunlarının birinci və ən güclü hücumuna sinə gərməyi bu qoşunların Macarıstan üzərinə yeriməsinə imkan verməkdən daha üstün tutdular. Vyanalılar bu cür nəciblik göstərib müttəfiqlərinə kömək etdikləri bir zamanda macarlar Yelaçiçə qarşı müvəffəqiyyətlə vuruşaraq onu sıxışdırıb Vyanaya tərəf qovdular və bu şəhərə hücum etməli olan qoşunu özlərinin qələbəsi ilə gücləndirdilər. Şübhəsiz ki, belə bir şəraitdə Macarıstan Vyanada iclas edən reyxstaqa deyil, Təhlükəsizlik komitəsinə deyil, Vyananın başqa bir rəsmi orqanına deyil, Vyana inqilabına dərhal və var qüvvəsi ilə yardım göstərməyə borclu idi. Vyananın Macarıstan uğrunda birinci vuruşmaya girişmiş olduğunu Macarıstan hətta unutmuş olsa da, öz təhlükəsizliyi xatirinə gərək unutmayaydı ki, Vyana Macarıstan istiqlaliyyətinin yeganə dayağı idi və əgər Vyana süqut etsəydi, imperator qoşunlarının Macarıstan üzərinə hücumunu daha heç bir şey dayandıra bilməzdi. İndi biz çox yaxşı bilirik ki, Vyana mühasirəyə alındığı və şəhərə hücum edildiyi zaman nəyə görə fəaliyyətsizlik göstərdiklərinə bəraət qazandırmaq üçün macarlar nə kimi dəlillər gətirə bilərdilər və nə kimi dəlillər gətirirdilər; macarlar deyirdilər ki, onların döyüş qüvvələri qənaətbəxş vəziyyətdə deyil idi; deyirdilər ki, reyxstaq və Vyanadakı bütün başqa rəsmi orqanlar onları imdada çağırmaqdan imtina etmişdilər; deyirdilər ki, konstitusiya zəminində qalmaq və Almaniyanın mərkəzi hakimiyyəti ilə münaqişədən çəkinmək zəruri idi. Macarıstan ordusunda vəziyyətin qənaətbəxş olmadığına gəldikdə, məsələ bu şəkildə idi: Vyanada inqilab ediləndən və Yelaçiç

gələndən sonrakı ilk günlərdə nizami qoşun olmadan da keçinmək tamamilə mümkün idi, çünki Avstriyanın nizami ordusu hələ heç də cəmləşdirilməmişdi; Yelaçiç üzərində əldə edilən ilk qələbədən sonra bu müvəffəqiyyəti hətta təkcə Ştulveysenburq yaxışşğında vuruşan xalq qoşununun qüvvəsi ilə qəti surətdə və aramsız olaraq inkişaf etdirmək, vyanalılarla əlaqəyə girmək və Avstriya qoşunlarının hər cür cəmləşdirilməsini altı ay tə`xirə salmaq üçün tamamilə kifayət idi. Müharibədə, xüsusilə inqilabi müharibədə, hər hansı qəti müvəffəqiyyət qazanılıncaya qədər cəld hərəkət etmək əsas qaydadır; biz sırf hərbi mülahizələrə əsaslanıb tərəddüd etmədən deyirik ki, Persel ta vyanalılarla birləşənədək dayanmamalı idi. Bu, əlbəttə, müəyyən dərəcədə təhlükəli idi, lakin sual olunur ki, kim və nə zaman özünü heç bir təhlükəyə atmadan hər hansı bir döyüşdə qələbə çalmışdır? Məgər dörd yüz min vyanalı on iki milyon macarı əsarət altına almaq üçün göndərilən döyüş qüvvələrinə sinə gərdiyi zaman özünü təhlükəyə atmamışdımı? Nə qədər ki, Avstriya qüvvələri birləşməmişdi, macarlar gözləmə mövqeyi tutmuşdular, sonra isə Şvehat yaXVşlığında qətiyyətsiz bir nümayiş düzəltdilər ki, bu da gözlənildiyi kimi, şərəfsiz məğlubiyyətlə qurtardı buraxılan bu hərbi səhv, Yelaçiçin əzişdirilmiş quldur dəstələrinə qarşı Vyana üzərinə cəsarətli hücum etməkdən, şübhəsiz, daha təhlükəli idi.

Lakin deyirlər ki, nə qədər ki, macarların belə bir hücumu hər hansı bir rəsmi orqan tərəfindən bəyənilməmişdi, bu hücum Almaniya ərazisinə qəsd etmək mə`nası alıb Frankfurtdakı mərkəzi hakimiyyətlə münaqişəyə səbəb olardı və hər şeydən əvvəl onu göstərərdi ki, macarlar öz hərəkatını guya gücləndirən leqal siyasətdən və konstitusiya siyasətindən üz döndərirlər. Lakin Vyananın rəsmi orqanları axı heçdən də heç idi! Məgər reyxstaq və ya hər hansı demokratik komitələr Vyananın müdafiəsinə qalxdımı? Məgər Macarıstanın istiqlaliyyəti uğrunda ilk döyüş üçün təkcə Vyana xalqa silaha sarılmadımı? Söhbət Vyananın bu və ya digər rəsmi orqanına yardım göstərmək zərurətindən getmirdi; inqilabın inkişafı gedişində bütün bu orqanlar devrilə bilərdi və doğrudan da çox tezliklə devrilərdi–yox, söhbət ancaq inqilabın özünün yüksəlişindən, Macarıstanı basqından qoruya biləcək yeganə hərəkat olan xalq hərəkatının fasiləsiz inkişafından gedirdi. Nə qədər ki Vyana və ümumiyyətlə alman Avstriyası ümumi düşmənə qarşı macarların müttəfiqi olaraq qalırdı, bu inqilabi hərəkatın gələcəkdə nə kimi formalar ala biləcəyi məsələsi macarlara deyil, vyanalınarın özlərinə

aid bir məsələ idi. Lakin sual olunur: məgər Macarıstan hökumətinin nə isə saxta leqal icazə almağa bu cür inadla can atmasında xeyli şübhəli bir qanuniyyətə istinad etmək iddiasının ilk aydın əlamətini görmək lazım deyilmi; bu iddia, doğrudur, Macarıstanı xilas etmədi, amma daha sonralar İngiltərənin burjua camaatına, hər halda, xoş tə`sir bağışladı?
Sonra, Almaniyanın Frankfurtdakı mərkəzi hakimiyyəti ilə münaqişə ola biləcəyinə istinad etmək də tamamilə əsassızdır. Vyanada əksinqilabın qalib gəlməsi nəticəsində Frankfurt hakimləri fe`lən devrilmişdilər, lakin inqilabın öz düşmənlərini məğlub etməsi üçün Vyanada ona lazımi yardım göstərilsəydi, Frankfurt hakimləri yenə də devriləcəkdi. Nəhayət, Macarıstan qanun və konstitusiya zəminindən kənara çıxmamalı idi deyə irəli sürülən misilsiz dəlil Britaniya fritrederlərinin183, əlbəttə, lap ürəyindən ola bilər, amma tarix heç bir zaman onu qənaətbəxş hesab etməz. Təsəvvür edək ki, vyanalılar martın 13-də və oktyabrın 6-da «qanun və konstitusiya» vasitələrindən istifadə etməyə başlamışdılar. Əgər belə olsaydı, mədəni dünyanın diqqətini Macarıstana ilk dəfə cəlb edən «qanun və konstitusiya» hərəkatının taleyi necə olardı, bütün şanlı döyüşlərin nəticəsi necə olardı? Macarların özlərinin iddia etdiklərinə görə 1848 və 1849-cu illərdə onların dayandığı qanun və konstitusiya zəmini məhz Vyana əhalisinin martın 13-dəki son dərəcə qanunsuz və konstitusiyaya zidd üsyanı ilə onlardan ötrü əldə edilmişdi. Biz burada öz qarşımıza Macarıstan inqilabının tarixini araşdırmaq vəzifəsini qoymuruq, lakin bizim fikrimizcə, qeyd etmək yerinə düşər ki, belə vasvasılığı ələ salan düşmənə qarşı təkcə qanuni müqavimət vasitələrindən istifadə etmək qətiyyən məqsədə uyğun deyildir; qeyd etmək yerinə düşər ki, Görgeyin istifadə edib, Macarıstan hökumətinin özünə qarşı çevirdiyi bu əbədi qanunilik iddiası olmasaydı, Görgey ordusunun öz generalına itaət etməsi və Vilaqoş yaxınlığındakı rüsvayçı fəlakətin184 baş verməsi də mümkün olmazdı. 1848-ci il oktyabr ayının son günlərində macarlar özlərinin şərəfini qorumaq naminə, nəhayət, Leytanı keçəndə, məgər bununla, eynən tə`cili və güclü hücum qədər qanunsuz bir hərəkət etməmişdilərmi?
Mə`lumdur ki, Macarıstanla bizim heç bir düşmənçiliyimiz yoxdur. Mübarizə zamanı biz onu müdafiə edirdik; biz tam ixtiyarla deyə bilərik ki, macarların işinin Almaniyada məşhurlaşmasına hər hansı başqa qəzetdən daha çox bizim «Neue Rheinische Zeitunq»62 qəzetimiz kömək etmişdir; bu qəzet macarlarla slavyanlar arasında gedən mübarizənin xarakterini izah

edirdi, Macarıstan müharibəsinə öz münasibətini bir silsilə məqalə ilə bildirmişdi, bu məqalələrə isə belə bir şərəf nəsib olmuşdu ki, sonralar bu mövzuda yazılan kitabların az qala hər birində, hətta macarların və «şahidlərin» əsərlərində də bu məqalələrdən oğurluqca istifadə edilmişdi. Biz elə indi də bu fikirdəyik ki, Avropa qit`əsində gələcəkdə baş verə biləcək hər bir sarsıntıda Macarıstan Almaniyanın təbii və lazımlı müttəfiqi olacaqdır. Lakin öz həmvətənlərimiz barəsində kifayət qədər sərt olduğumuza görə, qonşularımız barəsində də fikrimizi sərbəst söyləməyə haqqımız var. Bundan əlavə, biz burada faktları tarixçi qərəzsizliyi ilə qeydə almaqla bərabər, deməliyik ki, bu xüsusi halda Vyana əhalisinin alicənablıqla göstərdiyi şücaət Macarıstan hökumətinin cür`ətsiz ehtiyatkarlığına nisbətən müqayisəedilməz dərəcədə daha nəcib, habelə qat-qat daha bəsirətli bir hərəkət idi. Daha sonra, alman olmaq e`tibarı ilə bizə müsaidə edilər deyək ki, bunca böyük işlər görə bilmiş bir ordunu təşkil etmək üçün Macarıstana vaxt qazandıran vyanalı həmvətənlərimizin təcrid edilmiş kortəbii üsyanını və qəhrəmancasına müqavimətini biz Macarıstan müharibəsinin bütün gurultulu qələbələrinə və şanlı döyüşlərinə dəyişməzdik.

Vyananın ikinci müttəfiqi alman xalqı idi. Lakin bu xalq da hər yerdə vyanalıların cəlb edildiyi eyni mübarizəyə cəlb olunmuşdu. Frankfurt, Baden, Köln yenicə məğlub olmuş və silahsızlaşdırılmışdı. Berlində və Breslavlda (Polyakca adı Vrotslavdır. Red.) xalq ilə qoşun bir-biri ilə qanlı-bıçaq idi və hər gün açıq toqquşma gözlənilirdi. Hərəkatın yerli mərkəzlərinin hamısında vəziyyət eyni ilə belə idi. Hər yerdə məsələlər açıq qalmışdı və yalnız silah gücünə həll edilə bilərdi. Almaniyanın köhnə pərakəndəliyini və vahid bir mərkəz yoxluğunu saxlamağın fəlakətli nəticələri özünü ilk dəfə olaraq məhz burada bütün kəskinliyi ilə hiss etdirdi. Ən müxtəlif məsələlər hər bir dövlətdə, hər bir əyalətdə, hər bir şəhərdə mahiyyət e`tibarı ilə bir-birinin eyni idi; lakin hər yerdə bu məsələlər müxtəlif formalarda aşkara çıxırdı, müxtəlif şəraitdə və müxtəlif yerlərdə müxtəlif yetkinlik dərəcəsinə çatırdı. Buna görə də Vyana hadisələrinin həlledici əhəmiyyəti hər yerdə hiss edilsə də vyanalılara kömək etmək üçün az-çox ümidverici bir ciddi zərbə endirməyə, yaxud da vyanalıların xeyrinə bir təxribat düzəltməyə heç yerdə imkan yox idi. Deməli, Frankfurtdakı parlamentdən və mərkəzi hakimiyyətdən başqa, heç

kim bir kömək edə bilməzdi. Onlara hər tərəfdən müraciət olunurdu. Bəs onlar nə etdilər?
Frankfurt parlamenti və onun köhnə İttifaq seymi ilə qanunsuz əlaqəsindən dünyaya gəlmiş mərkəzi hakimiyyət adlanan düdəmə, Vyana hərəkatından özünün tam puçluğunu büruzə vermək üçün istifadə etdi. Yuxarıda gördüyümüz kimi, bu mənfur Məclis öz bakirəliyini çoxdan qurban vermişdi və yaşca cavan olduğuna baxmayaraq, naqqal və saxta diplomatiya fahişəliyinin bütün fəndlərini öyrənməkdə təcrübə qazanıb saç ağartmışdı. Almaniyanın qüdrəti, dirçəlişi və birliyi haqqında məclisin öz varlığının birinci günlərində bəslədiyi bütün arzu və xülyalardan ancaq bir şey qalmışdı ki, o da hər dəfə fürsət düşəndə təkrar edilən gurultulu tevton ibarələri yığınından, bir də ayrılıqda hər bir deputatın öz şəxsiyyətinin böyüklüyünə və camaatın sadəlövhlüyünə möhkəm inanmış olmasından ibarət idi. Əvvəlki sadədillik yox olub getmişdi; alman xalqının nümayəndələri dönüb əməli iş adamları olmuşdular, başqa sözlə desək, onlar bu qənaətə gəlmişdilər ki, nə qədər az iş görüb nə qədər çox boşboğazlıq etsələr, Almaniyanın müqəddəratını həll edən şəxslər olmaq e`tibarı ilə onların mövqeyi bir o qədər möhkəm olar. Bu heç də o demək deyildir ki, onlar öz iclaslarını lüzumsuz bir şey hesab edirdilər, yox, tamamilə əksinə. Lakin onlar kəşf etdilər ki, həqiqətən böyük məsələlərin hamısı onlardan ötrü qadağan olunmuş sahədir və bu sahədən uzaq olmaq daha yaxşıdır. Bax buna görədir ki, Bizans imperiyasının tənəzzül dövrü alimlərinin yığıncağı kimi, onlar da təkəbbürlü bir əda ilə və son nəticədə, özlərinə üz verən aqibətə layiq bir canfəşanlıqla, mədəni dünyanın hər yerində lap çoxdan qərarlaşdırılmış nəzəri ehkamları müzakirə edirdilər, yaxud da elə mikroskopik ölçülü cüz`i əməli məsələləri müzakirə edirdilər ki, belə məsələlər heç bir zaman heç bir əməli nəticə verməmişdi. Beləliklə, Məclis deputatların bir-birinə dərs verdiyi bir növ Lankaster məktəbi185 olduğu üçün onun deputatlardan ötrü çox böyük əhəmiyyəti var idi və buna görə də onlar belə bir əqidədə idilər ki, Məclis alman xalqının ondan ummağa haqlı olduğundan daha çox iş görür; kim üzə durub Məclisin hər hansı bir nəticəyə nail olmasını tələb edirdisə, deputatlar onu vətən xaini hesab edirdilər.
Vyana üsyanı başlandıqda, onunla əlaqədar olaraq çoxlu sorğu, müzakirə, təklif və düzəliş meydana çıxdı və bunlar, aydındır ki, heç bir nəticə vermədi. Mərkəzi hakimiyyət işə qarışmalı idi. Mərkəzi hakimiyyət

Vyanaya iki komissar göndərdi ki, bunlardan biri keçmiş liberal c. Velker, biri də c. Mosle idi. Almaniya birliyinin bu iki sərsəri cəngavərinin qəhrəmancasına rəşadətlərinin və qəribə macəralarının yanında Don-Kixot ilə Sanço Pansanın sərgüzəştləri əsl Odisseyadır. Onlar Vyanaya yola düşməyə cür`ət etmədilər. Onlar Vindişqresdən qulaqburması aldılar, ağıldan kəm olan imperator (I Ferdinand. Red.) onları heyrətlə qarşıladı, nazir Stadion isə onları ən böyük bir həyasızlıqla axmaq yerinə qoydu. Onların göndərdiyi məktub və xəbərlər Frankfurt protokollarının bəlkə də yeganə hissəsidir ki, alman ədəbiyyatında müəyyən yer tutacaqdır: bunlar bütün qaydalara riayət edilərək yazılmış çox gözəl bir satirik romandır, Frankfurt Milli məclisinin və onun hökumətinin əbədi rüsvayçılıq abidəsidir.

Milli məclisin sol cinahı da74 Vyanada öz nüfuzunu qoruyub saxlamaq üçün oraya iki komissar, c. Fröbeli və c. Robert Blümü göndərdi. Təhlükə yaxınlaşanda Blüm tamamilə düzgün olaraq alman inqilabının əsas vuruşmasının burada olacağı hökmünü verdi və tərəddüd göstərmədən öz başını karta qoymağı qərara aldı. Fröbel isə, əksinə, bu fikirdə idi ki, onun borcu Frankfurtda mühüm vəzifələri icra etmək üçün özünü qoruyub saxlamaqdır. Blüm Frankfurt məclisinin ən bəlağətli natiqlərindən biri sayılırdı və şübhəsiz, hamıdan məşhur idi. Blümün natiqlik qabiliyyəti səriştəli bir parlamentin tələblərini ödəyə bilməzdi; Blüm təriqətçi alman mübəlliği sayağı boş deklamasiyalar söyləməyi həddindən çox xoşlayırdı və gətirdiyi dəlillərdə nə incə bir fəlsəfi fikir, nə də işin əməli cəhətinə bələdlik lazımi dərəcədə deyildi. Bir siyasətçi olmaq e`tibarı ilə Blüm «mö`tədil demokratiyaya»–prinsiplərində məhz lazımi dərəcədə müəyyənlik olmadığına görə müvəffəqiyyət qazanan xeyli qeyri-müəyyən bir cərəyana mənsub idi. Lakin bununla belə, Robert Blüm özünə müəyyən dərəcədə sığal vermiş olsa da, əsil plebey təbiətli bir adam idi və həlledici məqamda onun plebey instinkti, plebey əzmi qeyrimüəyyən və buna görə də dəyişkən siyasi əqidələri və baxışlarına üstün gəlirdi. Belə anlarda o öz adi səviyyəsindən xeyli yüksəyə qalxırdı.

Beləliklə, Blüm Vyanada dərhal başa düşdü ki, ölkəsinin müqəddəratı Frankfurtda saxta incə müzakirələrdə deyil, burada, Vyanada həll ediləcəkdir. O dərhal qəti qərara gəldi, geri çəkilmək fikrindən əl çəkdi, inqilabçı orduda öz üzərinə komandir vəzifəsi götürdü, müstəsna soyuqqanlılıq və qətiyyət göstərdi. Məhz o, şəhərin süqut etməsini xeyli

tə`xirə saldı və Dunay çayı üstündəki Tabor körpüsünü yandıraraq şəhərin bir tərəfini həmlədən qorudu. Hamıya mə`lumdur ki, Vyana hücumla alınandan sonra Blümü həbs edib hərbi məhkəməyə verdilər və güllələdilər. O, qəhrəman kimi öldü. Frankfurt məclisi isə dəhşətə gəldisə də, bu qanlı təhqiri hər halda zahiri bir təmkiilə qarşıladı. Frankfurt məclisi elə yumşaq və diplomatik cəhətdən elə ehtiyatlı bir qətnamə çıxartdı ki, bu, Avstriyaya lə`nət oxumaqdan daha çox canını fəda edən qəhrəmanın məzarını təhqir etmək demək idi. Lakin gözləmək olardımı ki, bu mənfur Məclis öz üzvlərindən, xüsusilə sol cinahın başçılarından birinin öldürülməsindən hiddətlənəcəkdir?

London, mart 1852-ci il.

XIII

PRUSSİYA MÜƏSSİSLƏR MƏCLİSİ. MİLLİ MƏCLİS

Noyabrın 1-də Vyana süqut etdi, həmin ayın 9-da Berlində Müəssislər məclisinin buraxılması isə bu hadisənin bütün Almaniyada əksinqilabçı partiyanı nə qədər ruhlandırdığını və gücləndirdiyini göstərdi.

1848-ci ilin yayında Prussiyada baş verən hadisələrdən danışmaq uzun çəkməz. Müəssislər məclisi və ya daha doğrusu, «konstitusiya haqqında taxt-tacla saziş əldə etmək üçün seçilmiş Məclis» və bu Məclisin burjuaziya nümayəndələrindən ibarət olan əksəriyyəti cəmiyyətin nəzərində hörmətini lap çoxdan itirmişdi, çünki bu Məclis əhalinin daha qətiyyətli ünsürlərindən qorxduğuna görə sarayın bütün fitnə-fəsadına yol verirdi. Bu Məclis mənfur feodal imtiyazlarını təsdiq etmiş, daha doğrusu, bərpa etmişdi, bununla da kəndlilərin azadlığı və mənafeyinə xain çıxmışdı. Mə`lum olmuşdu ki, bu məclis nə konstitusiyanı işləyib hazırlamağa qabildir, nə də ümumi qanunvericiliyi, az da olsa, yaxşılaşdırmağa. Bu Məclis, demək olar, yalnız incə nəzəri tə`riflər verməklə, boş rəsmiyyətçiliklə və konstitusiyanın zahiri mərasim məsələləri ilə məşğul idi. Məclis xalqın mənafeyinə azacıq da uyğun gələ biləcək bir tə`sisat olmaqdan daha çox, mahiyyət e`tibarı ilə öz üzvləri üçün parlament «savoir vivre» (həyat hikməti. Red.) məktəbi idi. Bundan əlavə, Məclisdə az-çox sabit bir əksəriyyət yox idi, buna görə də üstünlük, demək olar, həmişə qətiyyətsiz «mərkəzdən» asılı idi ki, bu mərkəz də gah sola, gah da sağa tərəddüd etməklə əvvəlcə Kamphauzen nazirlər hey`ətini, sonra isə Auersvald–Hanzeman nazirlər hey`ətini devirmişdi. Lakin

liberallar fürsəti hər yerdə olduğu kimi burada da əldən verdikləri halda, saray zadəganlardan, kənd əhalisinin ən geridə qalmış hissəsindən, həmçinin ordu və bürokratiyadan ibarət qüvvələrini yenidən təşkil etdi. Hanzeman devrildikdən sonra təşkil edilən nazirlər hey`əti başdan-başa qatı irticaçı bürokratlardan və hərbilərdən ibarət idi, amma özünü elə göstərirdi ki, guya parlamentin tələbləri ilə hesablaşmağa hazırdır. Məclis isə «əhəmiyyətlisi adamlar deyil, tədbirlərdir» deyə irəli sürülən münasib prinsipi əsas tutaraq özünü o dərəcədə axmaq vəziyyətində qoydu ki, bu nazirlər hey`ətini alqışladı; həm də Məclis buna, əlbəttə, qətiyyən fikir vermirdi ki, həmin nazirlər hey`əti əksinqilabçı qüvvələri az qala açıq-aşkar toplayıb təşkil edirdi. Nəhayət, Vyananın süqut etməsi bir işarə oldu və kral (IV Fridrix-Vilhelm. Red.) bu nazirləri vəzifədən götürüb onların yerinə başda indiki nazir-prezident Mantöyfel olmaqla «iş adamlarını» qoydu. Belə olduqda yuxuya getmiş Məclis təhlükə qarşısında birdən oyandı. Məclis kabinetə e`timad göstərmədi və buna cavab olaraq o saat fərman verilib palatanın iclasları Berlindən kiçik əyalət şəhəri Brandenburqa keçirildi, çünki iclaslar Berlində keçirilsəydi, münaqişə baş verəcəyi halda palata kütlələrin köməyinə bel bağlaya bilərdi, Brandenburq isə tamamilə hökumətin ixtiyarında idi. Lakin Məclis bildirdi ki, özünün razılığı olmadan onun iclaslarını nə tə`xirə salmaq, nə başqa yerə keçirmək, nə də ləğv etmək olmaz. Başda general Vrangel olmaqla təqribən qırx min nəfərlik qoşun bu arada Berlinə daxil oldu. Şəhər başçılarının və milli qvardiya zabitlərinin yığıncağı müqavimət göstərməməyi qərara aldı. Müəssislər məclisi və onun dalında duran liberal burjuaziya birləşmiş mürtəce partiyaya bütün mühüm mövqeləri, tutmaq və müdafiə vasitələrinin az qala hamısını öz əlindən qopardıb almaq imkanı verəndən sonra indi böyük bir məzhəkə, «passiv və leqal müqavimət» hoqqabazlığı başlanmışdır ki, bu da həmin hoqqabazlıq təşəbbüsçülərinin fikrincə, Gempden tərəfindən verilən nümunənin və istiqlaliyyət uğrundakı müharibə zamanı amerikalıların ilk əməliyyatının çox gözəl təqlidi olmalı idi186. Berlin mühasirə vəziyyətində e`lan ednldi, lakin buna baxmayaraq Berlin sakit qaldı hökumət milli qvardiyanı buraxdı və milli qvardiya öz silahını çox böyük dəqiqliklə təhvil verdi. Məclisin iclaslarını iki həftə ərzində bir yerdən başqa yerə qovur və hər dəfə qoşunun köməyi ilə dağıdırdılar. Məclis deputatları isə vətəndaşlara yalvarırdılar ki, asayişi pozmasınlar. Nəhayət, hökumət Məclisi buraxılmış e`lan edəndə, Məclis

vergiləri qanunsuz e`lan etməyi qərara aldı və vergi verməkdən boyun qaçırmağı təşkil etmək üçün Məclisin üzvləri ölkəyə səpələndilər. Lakin bəlli oldu ki, vasitə seçməkdə onlar çox böyük səhv etmişlər. Bir neçə qorxulu həftədən sonra hökumət müxalifətə qarşı sərt tədbirlər gördü və hamı hətta özünü müdafiə etməyə belə qeyrəti çatmayıb ömrünü bağışlayan Məclisin arzusunu yerinə yetirmək, yə`ni vergidən boyun qaçırmaq fikrindən vaz keçdi.
Belə bir məsələ, yəqin heç bir zaman həll edilməyəcəkdir ki, 1848-ci il noyabrın əvvəlində silahlı müqavimət göstərmək artıq çox gec idimi, yoxsa, əksinə, ordu ciddi müqavimətə rast gəlsəydi, onun bir hissəsi Məclisin tərəfinə keçib, beləliklə, məsələni Məclisin xeyrinə həll edərdimi? Lakin müharibədə olduğu kimi, inqilabda da həmişə düşməni cəsarətlə, üz-üzə qarşılamaq lazımdır və hücum edən tərəf həmişə daha əlverişli vəziyyətdə olur; müharibədə olduğu kimi, inqilabda da həlledici anda şanslar necə olursa-olsun, hər şeyi karta qoymaq son dərəcə zəruridir. Tarixdə heç bir elə müvəffəqiyyətli inqilab olmamışdır ki, bu aksiomların düzgünlüyünü təsdiq etmiş olmasın. 1848-ci ilin noyabrında Prussiya inqilabı üçün məhz həlledici an gəlib çatmışdı rəsmən bütün inqilabi hərəkatın başında duran Prussiya Müəssislər məclisi düşməni nəinki qətiyyətlə dəf etmədi, hətta, əksinə, hər dəfə düşmən irəlilədikcə o geri çəkildi; Müəssislər məclisi hücuma keçməyə daha az qabil idi, çünki o hətta özünü müdafiə etməməyi üstün tuturdu. Odur ki, həlledici an yetişəndə, Vrangel qırx min əsgərlə gəlib Berlinin qapısını döyəndə nə özünün, nə də zabitlərinin əsla gözləmədikləri halda barrikadalar qurulmuş küçələr və mazqallara çevrilmiş pəncərələr görmədi, açıq qapılar və küçələrdə hərəkətə əngəl törədən yeganə maneə olaraq, dinc Berlin bürkerlərini gördü, həm də elə bir halda ki, ona etdikləri zarafata sevinərək, əl-ayaqları bağlanmış halda özlərini heyrətdən mat qalmış əsgərlərə təslim edirdilər. Doğrudur, Məclis və xalq müqavimət göstərsəydi, onlar bəlkə də darmadağın edilərdi, Berlin bombardman oluna bilərdi, yüzlərlə adam öz həyatını verməli olardı ki, bununla da kral partiyasının, nəticə e`tibarı ilə, qalib gəlməsinin qarşısı alınmazdı. Lakin bu hələ silahı dərhal yerə qoymaq üçün əsas deyildi. İnadlı döyüşdən sonra üz verən məğlubiyyətin inqilabi əhəmiyyəti, asanlıqla qazanılan qələbənin inqilabi əhəmiyyətindən heç də az olmayan bir faktdır. Hər halda 1848-ci, ilin iyununda Parisdəki, oktyabrında isə Vyanadakı məğlubiyyətlər bu iki şəhərdə xalqın zehnini

inqilabiləşdirmək üçün fevral və mart qələbələrinə nisbətən qat-qat artıq iş gördü. Müəssislər məclisinin və Berlin əhalisinin də aqibəti yuxarıda adı çəkilən iki şəhərin aqibəti kimi ola bilərdi, lakin onlar şərəflə süqut edər və sağ qalanların şüurunda intiqam ehtirası yaratmış olardılar intiqam ehtirası isə inqilab zamanlarında qətiyyətli və coşqun fəaliyyətə təkan verən ən güclü amillərdən biridir. Şübhə, yoxdur ki, hər bir mübarizədə kim çağırışı qəbul edirsə, özünü məğlubiyyət təhlükəsi qarşısında qoyur, lakin bu məgər əsas verirmi ki, lap əvvəldən özünü əzilmiş e`lan edəsən və qılıncını siyirmədən zülmə boyun əyəsən?
İnqilabda həlledici mövqe tutan, amma sonra düşməni hücuma keçməyə vadar etməkdənsə öz mövqeyini əlindən verən hər kəsə həmişə xain kimi baxılmalıdır.
Müəssislər məclisini buraxmaq haqqında Prussiya kralının fərmanı Məclis komissiyasının tərtib etdiyi layihəyə əsaslanan yeni konstitusiyanı da e`lan etdi. Lakin bu konstitusiya bə`zi məsələlərdə taxt-tacın səlahiyyətini genişləndirir, bə`zi məsələlərdə isə parlamentin səlahiyyəti şübhə altına alınırdı. Həmin konstitusiyaya əsasən iki palata tə`sis edilirdi ki, bunlar da konstitusiyaya baxmaq və onu təsdiq etmək üçün yaxın vaxtlarda çağırılmalı, idi.
Belə bir sual verməyə çətin ehtiyac olsun ki, bəs Prussiya konstitusionalistləri «leqal və dinc» mübarizə etdikləri zaman Almaniya Milli məclisi harada idi? Milli məclis, adətən Frankfurtda edildiyi kimi, onunla məşğul idi ki, Prussiya hökumətinin hərəkətlərini pisləyən çox yumşaq qətnamələr qəbul edir və «bütöv bir xalqın kobud qüvvəyə, passiv, leqal və yekdil müqavimətinin möhtəşəm mənzərəsinə» öz heyranlığını bildirirdi. Mərkəzi hökumət Berlinə komissarlar göndərmişdi və bu komissarlar nazirlər hey`əti ilə Məclis arasında vasitəçilik etməli idilər. Lakin komissarların da aqibəti onların Olmütsdəki sələflərinin aqibəti kimi oldu: komissarları nəzakətlə qovdular. Milli məclisin sol cinahı, yə`ni radikal partiya deyilən partiya da öz komissarlarını göndərmişdi, lakin bu komissarlar Berlin məclisinin tam acizliyini lazımınca görüb yəqin etdikdən və özlərinin də eyni dərəcədə aciz olduğunu nümayiş etdirdikdən sonra Frankfurta qayıdıb öz müvəffəqiyyətləri haqqında mə`lumat verdilər və berlinlilərin heyranedici dinc davranışını təsdiq etdilər. Bu hələ bir yana dursun, mərkəzi hökumətin komissarlarından biri olan c. Basserman deyəndə ki, Prussiya nazirləri bu yaxınlarda gördükləri sərt tədbirləri haqlı

olaraq görmüşlər, çünki son zamanlar Berlin küçələrində vəhşi görkəmli müxtəlif şəxslər dolaşırmışlar, belə şəxslər isə həmişə anarxizm hərəkatı ərəfəsində peyda olurlar (o vaxtdan bəri bu cür şəxslərə «Basserman şəxsləri» deyilir),–Basserman bu sözləri deyəndə, sol cinahın bu ləyaqətli deputatları və inqilabın bu qətiyyətli müdafiəçiləri o saat yerlərindən qalxıb and içməyə başlamışdılar ki, belə şey qətiyyən olmamışdır! Beləliklə, Frankfurt məclisinin tam acizliyi iki ay ərzində açıq-aşkar sübut edildi. Bu idarənin öz üzərinə qoyulan vəzifənin öhdəsindən qətiyyən gələ bilmədiyinə, bu vəzifənin əslində nədən ibarət olduğu haqqında onun hətta zərrə qədər təsəvvürü olmadığına bundan daha bariz bir sübut düşünüb tapmaq olmazdı. İnqilabın müqəddəratı Vyana və Berlində həll edilmişdi, Frankfurt Məclisi heç yerli-dibli yox imiş kimi, ən mühüm, ən həyati məsələlər bu iki paytaxtda həll olunurdu,–təkcə bu fakt kifayət dərəcədə sübut edir ki, bu Məclis hər şeyə inanan sadəlövh adamlar yığınından ibarət mübahisə klubundan başqa bir şey deyildi. Bu sadəlövh adamlar yol verdilər ki, höxumətlər kiçik dövlətlərdə və kiçik şəhərlərdə dükançı və xırda sənətkarların diqqətini yayındırmağı lazım bildikləri müddətdə bu camaatı əyləndirmək məqsədi ilə onlardan parlament oyuncağı kimi istifadə etsinlər. Biz tezliklə görəcəyik ki, hökumətlər belə etməyi nə vaxta kimi lazım bildilər. Lakin belə bir fakt diqqəti cəlb edir ki, bu Məclisin bütün «görkəmli» adamları içərisində bir nəfər də tapılmadı ki, oynamağa məcbur edildiyi rol haqqında zərrə qədər təsəvvürü olsun; həmçinin bu fakt ki, Frankfurt klubunun keçmiş üzvləri yalnız onlara xas olan tarixi qavrayış orqanlarını bu günün özünədək olduğu kimi mühafizə edib saxlamışlar.
London, mart 1852-ci il.

XIV

QAYDA-QANUNUN BƏRPA EDİLMƏSİ. REYXSTAQ VƏ PALATA

Prussiya və Avstriya hökumətləri 1848-ci ilin oktyabrı və noyabrında qazanılmış müvəffəqiyyətlərin meyvəsini dərmək üçün 1849-cu ilin ilk aylarından istifadə etdilər. Vyana alındığı vaxtdan e`tibarən Avstriya reyxstaqı Moraviyanın kiçik əyalət şəhəri olan Kremzirdə (Çexçə adı: Kromerjij. Red.) yalnız adı kağız üzərində qalaraq, mövcud idi. Slavyan deputatlar özlərini nümayəndə göndərənlərlə birlikdə Avstriya hökumətinin əlində əsas alət idilər, çünki hökumət bu alətin köməyi ilə tam acizlik vəziyyətindən xilas ola bilmişdi; iş belə olduğu halda reyxstaqda onlar Avropa inqilabına xəyanət etmələri üstündə bir növ cəzalandırılmış

oldular. Hökumət öz qüvvəsini bərpa edincə, reyxstaqa və onun slavyan əksəriyyətinə çox böyük nifrət bəsləməyə başladı, imperator silahının ilk müvəffəqiyyətləri Macarıstan müharibəsinin tezliklə qurtaracağı xəbərini verəndə isə, hökumət martın 4-də reyxstaqı buraxdı və hərbi qüvvənin köməyi ilə deputatları qovub dağıtdı. Slavyanlar ələ salındıqlarını, nəhayət, ancaq burada görüb dedilər: «Frankfurta gedək və burada bizim üçün daha mümkün olmayan müxalifət işini orada davam etdirək!». Lakin artıq iş-işdən keçmişdi və onların ya dinc-farağat oturmaq, yada zəif Frankfurt məclisinə qoşulmaqdan başqa bir çarəsi qalmamışdı; təkcə bu fakt onların son dərəcə aciz olduğunu kifayət qədər aydın göstərir.

Almaniya slavyanlarının öz müstəqil milli varlığını bərpa etmək cəhdləri indilikdə və çox ehtimal, həmişəlik olaraq belə qurtarmışdır. Milli xüsusiyyətlərini və siyasi həyat qabiliyyətini lap çoxdan itirən, buna görə də təqribən min il ərzində itaət etdikləri daha güclü millətin ardınca getməyə məcbur olan bir çox millətlərin, məsələn, İngiltərədə vallilər, İspaniyada basklar, Fransada aşağı bretonlular, ən yeni zəmanədə isə Şimali Amerikanın ingilis-amerikan irqi tərəfindən bu yaxınlarda işğal edilmiş hissələrində ispan və fransız kreollarının pərakəndə halda səpələnmiş qalıqları, ölüb getməkdə olan bu millətlər çexlər, karintiyalılar, dalmasiyalılar və başqaları eramızın 800-cü ilində malik olduqları siyasi «status quo»nu bərpa etmək üçün 1848-ci ildəki ümumi qarışıqlıqdan istifadə etməyə çalışdılar. Ötən minilliyin tarixi onlara göstərməli idi ki, bu cür geriyə qayıtma mümkün deyildir; göstərməli idi ki, əgər Elbadan və Zaaledən şərqdəki bütün ərazini vaxtı ilə bir qrup qohum slavyan xalqları doğrudan da tutmuşdularsa, bu fakt ancaq alman millətinin öz qədim şərq qonşularını itaət altına almağa, öz canına çəkib udmağa və assimilyasiya etməyə tarixi meyli və eyni zamanda fiziki və intellektual qabiliyyəti olduğunu sübut edir bu fakt həmçinin onu da sübut edir ki, almanların şərqdəki qonşularını öz canına çəkib udmağa olan bu meyli həmişə Qərbi Avropa mədəniyyətini qit`əmizin şərqində yaymağa kömək edən ən qüdrətli vasitələrdən biri olmuşdur və hələ də bu cür vasitələrdən biridir; bu meyl ancaq o zaman aradan qalxacaqdır ki, almanlaşdırma prosesi sıx birləşib hissələrə parçalanmamış iri millətlərin, müstəqil milli həyat sürməyə qabil millətlərin, məsələn, macarların və müəyyən dərəcədə polyakların sərhədinə çatmış olsun, deməli, ölüb getməkdə olan bu millətlərin təbii və labüd aqibəti həmin pozulma və daha güclü qonşular

tərəfindən udulmaq prosesinin başa çatmasına yol verməkdən ibarətdir. Əlbəttə, bu perspektiv çexlərin və cənub slavyanlarının bir qismini hərəkətə gətirməyə müvəffəq olmuş panslavist xəyalpərəstlərin milli şöhrətpərəstliyi üçün o qədər də ürəyəyatan perspektiv deyildir. Lakin onlar necə ümid edə bilərlər ki, olduqları ərazinin harasında yaşayırlarsa yaşasınlar, hər yerdə almanlara qarışıb almanlarla əhatə edilən, az qala ən qədim vaxtlardan bütün mədəni ehtiyaclar üçün alman dilindən başqa ayrı dili olmayan, milli varlığın çoxluq və bütöv ərazi kimi ilk şərtlərinə malik olmayan bir neçə zəif insan qrupunun arzusuna görə tarix min il geri qayıdacaqdır? Təəccüblü deyildir ki, Almaniya və Macarıstanın bütün slavyan vilayətlərində saysız-hesabsız kiçik millətlərin hamısının istiqlaliyyətini bərpa etmək cəhdlərinin ifadəsi olan panslavizm dalğası hər yerdə Avropanın inqilabi hərəkatları ilə toqquşdu və slavyanlar azadlıq uğrunda çarpışan mübarizlər rolunu oynamaq iddiasında olsalar da, daim (polyakların demokratik hissəsindən başqa) istibdad və irticanın tərəfində dururdular. Almaniyada, Macarıstanda və hətta Türkiyənin bə`zi yerlərində belə idi. Xalq işinə xain çıxan, Avstriya hökumətini müdafiə edən və onun bütün fitnə-fəsadının əsas dayağı olan slavyanlar özləri-özlərini bütün inqilabçı millətlərin nəzərində rədd edilmiş səfillər halına saldılar. Doğrudur, slavyan əhali kütləsi heç bir yerdə panslavizm başçılarının saldığı kiçik milli çəkişmələrdə iştirak etməmişdi,–heç olmazsa ona görə ki, həddən artıq avam idi,–bununla belə heç vaxt bu fakt unudulmayacaqdır ki, yarıbayarı alman şəhəri olan Praqada dəstə-dəstə slavyan fanatikləri başqalarına qoşulub «alman azadlığındansa, rus qamçısı yaxnşdır!» sözlərini coşqunluqla təkrar edirdilər. 1848-ci ildəki ilk müvəffəqiyyətsiz təşəbbüslərindən və Avstriya hökumətindən aldıqları ibrət dərsindən sonra çox az ehtimal var ki, onlar gələcəkdə də yeri düşəndə buna bənzər başqa bir təşəbbüs etsinlər. Lakin onlar bir daha eyni bəhanələrlə əksinqilabçı qüvvələrlə ittifaq bağlamaq fikrinə düşsələr, onda Almaniyanın vəzifəsi tamamilə aydındır. İnqilab vəziyyətində olan və xarici düşmənlə müharibə edən heç bir ölkə öz qəlbində Vandey187 olmasına dözə bilməz. İmperatorun (I Frans-İosif. Red.) reyxstaqa buraxarkən e`lan etdiyi konstitusiya üzərinə qayıtmağınıza ehtiyac yoxdur, çünki bu konstitusiya əslində heç bir zaman qüvvəyə minmədi və indi tamamilə ləğv olunmuşdur. 1849-cu il martın 4-dən e`tibarən Avstriyada mütləqiyyət hər cəhətdən tamamilə bərpa edilmişdi.

Fevral ayında Prussiyada palatalar iclasa toplaşdılar ki, kralın e`lan etdiyi yeni konstitusiya xartiyasını nəzərdən keçirib təsdiq etsinlər. Palatalar demək olar altı həftə iclas etdilər, hökumətin qarşısında özlərini olduqca mülayim və müti apardılar, lakin mə`lum oldu ki, kralın və onun nazirlərinin istədikləri dərəcədə irəliyə getməyə hələ tam hazır deyildilər. Buna görə də fürsət düşən kimi palatalar buraxıldı.

Beləliklə, həm Avstriya, həm Prussiya parlament nəzarəti buxovlarından bir müddət xilas oldu. Hökumətlər indi bütün hakimiyyəti öz əlində toplayıb onu məhz özlərinə lazım olduğu yerdə Avstriya–Macarıstanla İtaliyaya qarşı, Prussiya isə Almaniyaya qarşı tətbiq edə bilərdi. Çünki Prussiya da kiçik dövlətlərdə «qayda-qanunu» bərpa etmək üçün hərbi səfərə hazırlaşırdı.

İndi, Almaniyada hərəkatın iki böyük mərkəzində, Vyana və Berlində əksinqilab üstün gəldiyi bir zamanda ancaq daha kiçik dövlətlər qalırdı ki, orada mübarizənin nəticəsi hələ tamam müəyyənləşməmişdi, lakin bu dövlətlərdə də tərəzinin gözü əksinqilaba tərəf getdikcə daha çox əyilirdi. Bu kiçik dövlətlər, yuxarıda dediyimiz kimi, Frankfurt Milli məclisini özlərinə ümumi mərkəz etmişdilər. Doğrudur, Milli məclis deyilən bu məclisin mürtəce xarakteri artıq çoxdan bəri o dərəcədə aşkar idi ki, Frankfurtda xalq onun əleyhinə hətta silah da qaldırmışdı, lakin Frankfurt Milli məclisinin mənşəyi hər halda az-çox inqilabi mənşə idi. Yanvar ayında bu Məclis özü üçün adi mövqe olmayan inqilabi mövqe tutmuşdu; onun səlahiyyəti heç bir zaman müəyyən olunmamışdı və nəticə e`tibarı ilə məclis qət etmişdi ki, onun qərarları qanun qüvvəsinə malikdir; yeri gəlmişkən deyək ki, daha iri dövlətlər bu qərarı heç bir zaman tanıyıb qəbul etməmişdilər. Belə bir şəraitdə təəccüblü deyildir ki, mütləqiyyətin toxtayıb özünə gəlmiş tərəfdarları konstitusiyalı monarxiya partiyasını vurub mövqelərindən çıxaranda və həmin partiya bunu görəndə, demək olar, bütün Almaniyanın liberal-monarxist burjuaziyası son ümidini bu Məclisin əksəriyyətinə bağladı, demokrat partiyasının özəyi olan xırda burjuaziya nümayəndələri isə getdikcə artan məşəqqətlərin tə`siri altında Məclisdəki azlıq ətrafında birləşdilər, bu azlıq isə doğrudan da demokratiyanın axırıncı əlbir parlament falanqası idi. Digər tərəfdən isə daha iri dövlətlərin hökumətləri, xüsusilə də Prussiya nazirlər hey`əti seçki əsasında yaradılan bu cür qeyri-adi idarənin Almaniyada bərpa edilmiş monarxiya idarə üsulu ilə bir araya sığmadıqğnı getdikcə daha aydın başa

düşürdülər və əgər onlar bu Məclisin dərhal buraxılmasını tələb etmirdilərsə, yalnız ona görə ki, hələ bunun vaxtı yetişməmişdi, bir də ona görə tələb etmirdilər ki, Prussiya əvvəlcə Məclisdən öz şöhrətpərəstlik məqsədləri üçün istifadə etmək istəyirdi.
Eyni zamanda bu miskin Məclis özü getdikcə daha çox çaşıb qalırdı. Onun deputatlar hey`ətini və komissarlarını Vyanada da, Berlində də son dərəcə həqarətlə qarşılayırdılar; onun üzvlərindən biri (Robert Blüm. Red.) öz parlament toxunulmazlığına baxmayaraq Vyanada adi bir qiyamçı kimi e`dam olunmuşdu. Məclisin qərarları ilə heç yerdə hesablaşmırdılar. Daha iri dövlətlər Məclisin qərarlarının adını çəkirdilərsə, ancaq protest notalarında çəkirdilər ki, bu notalarda da Məclisin iri dövlət hökumətləri üçün məcburi qanun və qərarlar qəbul etmək hüququ inkar olunurdu. Məclisin nümayəndəsi olan mərkəzi icraiyyə hakimiyyəti Almaniyanın az qala bütün kabinetləri ilə diplomatik didişməyə cəlb edilmişdi və nə Məclis, nə də mərkəzi hökumət bütün sə`ylərinə baxmayaraq, Avstriyanı və Prussiyanı öz niyyət, plan və tələblərinin, nəticə e`tibarı ilo, nədən ibarət olduğunu açıb deməyə vadar edə bilmirdi. Nəhayət, Məclis heç olmazsa, bunu dərk etməyə başladı ki, hakimiyyəti tamamilə əldən vermişdir, özü bütünlüklə Avstriya və Prussiyanın mərhəmətindən asılıdır və əgər ümumiyyətlə Almaniyaya ümumittifaq konstitusiyası vermək niyyətindədirsə, bu işdən dərhal və tam ciddiyyətlə yapışmalıdır. Tərəddüd edən deputatlardan bir çoxu bunu da aydın gördü ki, hökumətlər onları əməlli-başlı ələ salmışlar. Lakin onlar indiki aciz vəziyyətlərində nə edə bilərdilər? Onları hələ xilas edə biləcək yeganə addım qəti surətdə və tez bir zamanda xalqın tərəfinə keçməkdən ibarət idi; lakin bu addımın özünün də müvəffəqiyyətli olacağı çox şübhəli idi. Ziddiyyətli şayiələrin və diplomatik notaların əbədi hay-küyündən qulaqları tamamilə batıb yeganə təsəlli va toxtaqlığı ölkənin ən yaxşı, ən böyük, ən müdrik adamları olduqları və Almaniyanı ancaq özlərinin xidas edə biləcəkləri iddiasını yorulmadan təkrar etməkdə tapan bu qətiyyətsiz, fərasətsiz, özündən razı aciz məxluqlar kütləsi içərisində məgər əsil insanlar ola bilərdimi? Cəmi bir illik parlament həyatının tamamilə kütləşdirdiyi binəva məxluqlar içərisində Məgər elə adamlar tapmaq olardımı ki, qətiyyətli və ardıcıl hərəkət etmək hələ bir yana dursun, heç olmazsa, təcili və aydın qərarlar qəbul etməyə qabil olaydılar?

Avstriya hökuməti, nəticə e`tibarı ilə maskasını üzündən atdı. Martın 4-dəki konstitusiyasında hökumət Avstriyanı ümumi maliyyəsi, vahid gömrük sistemi və vahid hərbi təşkilatı olan bölünməz monarxiya e`lan etdi, bununla da alman əyalətləri ilə alman olmayan əyalətlər arasında hər cür sərhəd və fərqləri sildi. Bu, Frankfurt məclisinin qətnamələrinə və layihəsi hazırlanan ümumittifaq konstitusiyasının Məclis tərəfindən qəbul edilmiş maddələrinə zidd olaraq e`lan edilmişdi. Avstriya hökuməti bununla məclisə meydan oxuyurdu və biçarə Məclisin onu qəbul etməkdən başqa heç bir çarəsi qalmamışdı. Məclis bunu hədsiz lovğalıqla etdi, öz gücünü və Məclisin tam acizliyini çox gözəl başa düşən Avstriya isə buna sakitcə fikir verməyə bilərdi. Lakin alman xalqının bu çox möhtərəm nümayəndəliyi,–Məclis özünü belə adlandırırdı,–bu təhqirə görə Avstriyadan intiqam almaq üçün öz əl-qolunu bağlayıb Prussiya hökumətinin ayaqlarına düşməkdən daha yaxşı bir şey tapmadı. Nə qədər ağlasığmaz görünə bilsə də, alman xalqının nümayəndəliyi nəticə e`tibarı ilə məhz o nazirlərin qabağında diz çökdü ki, vaxqı ilə özü onları konstitusiyanın və xalqın düşməni adlandırıb damğalamış və iste`faya çıxmaları üzərində əbəs yerə tə`kid etmişdi. Bu rüsvayçı sevdələşmənin və onun ardınca baş verən faciəli komik hadisələrin təfərrüatı bundan sonrakı məqaləmizin mövzusu olacaqdır.

London, aprel 1852-ci il.

XV

PRUSSİYANIN QƏLƏBƏSİ

İndi biz Almaniya inqilabı tarixinin axırıncı fəslinə: Milli məclislə müxtəlif dövlətlərin hökumətləri, xüsusən Prussiya hökuməti arasındakı toqquşmaya, Cənubi və Qərbi Almaniyadakı üsyana və Prussiyanın bu üsyanı qəti surətdə yatırmasına keçirik.

Biz Frankfurt Milli məclisini iş başında gördük. Gördük ki, Avstriya bu məclisi necə təpikləyirdi, Prussiya onu necə təhqir edirdi, kiçik dövlətlər ona tabe olmaqdan necə boyun qaçırırdılar, elə özünün aciz mərkəzi «hökuməti» onu necə ələ salırdı və öz növbəsində ölkənin bütün hökmdarları, onların hər biri mərkəzi «hökuməti» necə ələ salırdı. Axıra yaxın iş bu zəif, mütərəddid, aciz qanunvericilik idarəsi üçün tamamilə təhlükəli şəkil aldı. Bu idarə belə bir nəticə çıxarmağa məcbur oldu ki, «Almaniyanın birliyi ideyası kimi yüksək ideyanın həyata keçməsi təhlükə qarşısındadır»; bu isə nə az, nə də çox, o demək idi ki, Frankfurt məclisi nə

etmişdisə və nə etməyə hazırlaşırdısa, çox ehtimal, bunların hamısı ilə birlikdə tez bir zamanda iz qoymadan yox olub gedəcəkdir. Buna görə də Frankfurt məclisi öz böyük əsəri olan «imperiya konstitusiyası»nı mümkün qədər tez başa çatdırmaq üçün tam ciddiyyətlə işə girişdi.
Lakin burada qarşıya bir çətinlik çıxdı. İcraiyyə hakimiyyəti necə hakimiyyət olmalı idi? Bu hadimiyyət icraiyyə şurasımı olmalı idi? Müdrik Məclis belə mühakimə yeridirdi ki, yox, bu, Almaniyanı döndərib respublika etmək olardı. «Prezidentmi olmalı idi?» Axı bu da, nəticə e`tibarı ilə eyni şeydir. Deməli, köhnə imperator rütbəsini bərpa etmək lazımdır. Aydındır ki, imperator monarxlardan biri olmalıdır, madam ki, belədir onda məhz kim imperator olacaqdır? Görünür, Reys-Qreys-Şleys-Lobenşteyn-Ebersdorf knyazından (LXXII Henrixdən. Red.) Bavariya kralına (II Maksimilian. Red.) qədər «dii minorum gentiuum»lardan (hərfiyyən: kiçik allahlardan; məcazi mə`nada: ikinci dərəcəli simalardan. Red.) heç kim olmayacaqdır–nə Avstriya, nə də Prussiya buna yol verməzdi. Deməli, söhbət ancaq Avstriyadan və ya Prussiyadan gedə bilərdi. Bəs bu ikisindən məhz hansı olmalı idi? Şübhə yoxdur ki, başqa daha əlverişli şəraitdə bu ali Məclis indiyədək iclas edərdi və əgər Avstriya hökuməti Qordi düyününü qırıb beləliklə Məclisi müzakirə əziyyətindən azad etməsəydi, Məclis müəyyən bir qərara gəlmək iqtidarında olmadığından bu mühüm dilemmanı hələ də müzakirə edərdi.
Avstriya çox gözəl başa düşürdü ki, özünün bütün əyalətlərini itaət altına alıb Avropa qarşısında özünü yenidən qüdrətli bir Avropa dövləti kimi göstərə biləcəyi andan e`tibarən siyasi cazibə qanunu Almaniyanın qalan hissəsini özlüyündə onun nüfuz dairəsinə çəkib gətirəcək və Avstriya bilavasitə Frankfurt məclisindən alınan imperator taxt-tacının ona qazandıra biləcəyi nüfuzun köməyi olmadan da keçinəcəkdir. Almaniya imperatorlarının real əhəmiyyətdən məhrum olan tacını atdıqdan sonra Avstriya daha güclü oldu, öz hərəkətlərində özünü daha sərbəst hiss etdi, çünki Almaniya imperatorlarının tacı Almaniyanın daxilində və xaricində Avstriyanın gücünü zərrə qədər artırmırdı və onun müstəqil siyasətinə ancaq əngəl olurdu. Yox, əgər Avstriya İtaliyada və Maçarıstanda öz mövqelərini qoruyub saxlaya bilməsəydi, Almaniyada da tamamilə hörmətdən düşərdi, onun tə`siri heçə çıxardı və öz qüvvəsi tam, inkişaf halında olanda əlindən çıxan tacı barəsində öz iddialarını daha heç bir zaman irəli sürə bilməzdi. Buna görə də Avstriya imperator hakimiyyətini

nə şəkildə olursa-olsun diriltməyin dərhal əleyhinə çıxdı və İttifaq seymini, yə`ni Almaniyanın 1815-ci il tarixli traktatlarda göstərilib qəbul olunan yeganə mərkəzi hökumətini bərpa etməyi açıqca tələb etdi. 1849-cu il martın 4-də isə Avstriya konstitusiya e`lan etdi bu konstitusiya ancaq o demək idi ki, Avstriya bölünməz, mərkəzləşmiş və müstəqil monarxiya e`lan edilirdi, elə monarxiya e`lan edilirdi ki, hətta Frankfurt məclisinin hələ yenidən təşkil etməli olduğu Almaniyadan da tamamilə ayrı idi. Doğrudan da, belə açıqca müharibə e`lan edildikdən sonra Frankfurt əllamələri qarşısında Avstriyanı Almaniyadan xaric etməkdən, ölkənin qalan hissələrindən isə bir növ Şərqi Roma imperiyası33–«kiçik Almaniya» yaratmaqdan başqa heç bir çarə qalmadı; bu Almaniyanın xeyli miskin imperator ləbbadəsi ə`lahəzrət Prussiya kralının çiyninə salınmalı idi. Xatırladaq ki, bu Cənubi Almaniya və Orta Almaniya liberal doktrinaçıları partiyası tərəfindən altı-səkkiz il əvvəl düzəldilmiş köhnə bir layihəni dirçəltmək demək idi; bu doktrinaçılar belə hesab edirdilər ki, onların köhnə şıltağını vətənin xilası üçün «şahmatda ən yeni bir oyun» kimi yenidən ön sıraya keçirən həqarətli şərait yuxarıdan nazil olmuşdur. Buna müvafiq olaraq, 1849-cu ilin fevralında və martında Məclis imieriya konstitusiyasını, habelə hüquq bəyannaməsini və imperiya seçki qanununu müzakirə edib qurtardı; həm də məcburiyyət üzündən lap çox məsələlərdə güzəştə getmək lazım gəldi bu güzəştlər`ən ziddiyyətli xarakter daşıyırdı, ona görə ki, gah mühafizəkar, daha doğrusu, mürtəce partiyaya güzəşt edilirdi, gah da Məclisin daha qabaqcıl fraksiyalarına. Aydın idi Kİ, əvvəllər sağ cinaha və sağ mərkəzə (mühafizəkarlara və irticaçılara) məxsus olan rəhbər rol, yavaş-yavaş olsa da, tədriclə Məclisin sol və ya demokratik hissəsinə keçirdi. Avstriya deputatlarının Məclisdə tamamilə ikimə`nalı mövqe tutması da,–Məclis onların ölkəsini Almaniyanın tərkibindən xaric etmişdi; lakin bundan sonra da onlara Məclisdə qalıb səs vermək təklif olunmuşdu,–Məclisdə müvazinətin pozulmasına səbəb olurdu. Beləliklə, artıq fevralın axırlarında sol mərkəz və sol cinah çox tez-tez avstriyalı səslərinin köməyi ilə əksəriyyət təşkil edirdi, lakin avstriyalıların mühafizəkar fraksiyası arabir əsla gözlənilmədən, dilxoşluq üçün sağ cinah ilə birlikdə səs verir və yenidən tərəzinin gözünü əks tərəfə əyirdi. Avstriyalıların mühafizəkar fraksiyası Məclisə bu cür qəfil sıçrayışlar etdirməklə ona nifrət qazandırmaq istəyirdi, buna isə qətiyyən ehtiyac yox idi, çünki xalq kütlələri lap çoxdan yəqin etmişdilər ki,

Frankfurtda irəli gələn nə varsa, hamısı tamamilə boş və faydasızdır. Bu zaman bir tərəfdən o biri tərəfə bu cür səndələmək şəraitində necə bır konstitusiya tərtib olunduğunu təsəvvür etmək asandır.
Məclisin, özünü inqilabi Almaniyanın yaraşıq və iftixarı sayan sol cinahı Avstriya istibdadının fitvası ilə onun xeyirinə şl görən bir neçə nəfər Avstriya siyasətçisinin xeyirxahlığı, daha doğrusu, bədxahlığı üzündən qazanılmış bir neçə cüzi müvəffəqiyyətdən tamamilə məst idi. Frankfurt məclisi bu demokratların heç də aydın olmayan prinsiplərinə azacıq bənzər prinsipləri ən çüz`i şəkildə bəyənən kimi, onlar səs-küylə xəbər verirdilər ki, vətəni və xalqı xilas etmişlər. Bu bədbəxt, ağıldankəm adamlar ümumən tamamilə yekrəng keçən ömürləri boyunca müvəffəqiyyətə bənzər hər hansı bir şeyə çox az öyrəşmiş olduqlarına görə doğrudan da belə güman edirdilər ki, onların iki və ya üç artıq səslə qəbul edilən kiçik düzəlişləri Avropanın simasını bütünlüklə dəyişdirəcəkdir. Məclisin hər hansı başqa bir hissəsindən daha artıq dərəcədə onlar öz qanunvericilik fəaliyyətlərinin lap əvvəlindən müalicəsi olmayan parlament kretinizmi xəstəliyinə tutulmuşdular; bu mərəzin bədbəxt qurbanlarında belə bir təkəbbürlü qənaət hasil olur ki, guya bütün dünya, onun tarixi və gələcəyi məhz onların üzv olub şərəfləndirdikləri nümayəndəli idarənin səs çoxluğu ilə istiqamətləndirilir və müəyyən edilir. Onlar özlərini inandırmışdılar ki, bu nümayəndəlik binasından kənarda nə olursa-olsun, hər şey müharibələr, inqilablar, dəmiryol çəkilməsi, bütöv-bütöv yeni qit`ələrin məskunlaşdırılması, Kaliforniyada qızıl kəşf edilməsi, Mərkəzi Amerikanın kanalları, rus qoşunları–bir sözlə, bəşəriyyətin müqəddəratına müəyyən tə`sir göstərdiyini azacıq da olsa iddia edə biləcək nə varsa hər şey–onların hörmətli palatasını məhz indi məşğul edən mühüm məsələnin həllindən asılı olub, heç bir şeylə müqayisə edilə bilməyəcək hadisələrin yanında guya heç bir şeydir. Beləliklə, Məclisin demokrat partiyası yalnız öz reseptlərinin bə`zisini «imperiya konstitusiyasına» gizlincə saldırmağa müvəffəq olduğuma görə özünü birinci növbədə ona tərəfdar çıxmağa borclu bildi, hərçənd bu konstitusiyanın hər bir mühüm maddəsi demokrat partiyasının çox tez-tez e`lan olunan prinsiplərinə daban-dabana zidd idi. Bu yarımçıq əsərin əsas müəllifləri, nəhayət, onu taleyin öhdəsinə buraxıb demokrat partiyasına vəsiyyət edəndə isə demokrat partiyası bu mirası qəbul etdi və bu monarxiya konstitusiyasını müdafiə edirdi, hətta o zaman onun öz respublika prinsiplərini e`lan edənlərin əleyhinə çıxırdı. Lakin

e`tiraf etmək lazımdır ki, ziddiyyət bu cəhətdən ancaq zahiri ziddiyyət idi. İmperiya konstitusiyasının qeyri-müəyyən, daxilən ziddiyyətli və yetkin olmayan xarakteri bu demokrat cənabların yetkin olmayan, dolaşıq, bir-birinə zidd siyasi ideyalarının ancaq dəqiq in`ikası idi. Onların nitqləri və yazıları–əgər onların ümumiyyətlə yazmağa qabiliyyəti vardısa,–hətta bunu kifayət dərəcədə təsdiq etməsəydi də, onların işləri buna tamamilə sübut ola bilərdi. Axı sağlam düşüncəli adamlar arasında özlüyündə aydın bir şey hesab edilir ki, hər bir adam haqqında onun dediyinə görə deyil, əməllərinə görə mühakimə yeritmək lazımdır; adamın özünü necə qələmə verdiyinə görə deyil, nə etdiyinə və həqiqətdə nə olduğuna görə fikir yeritmək lazımdır. Alman demokratiyasının bu qəhrəmanlarının işləri isə sonra görəcəyimiz kimi, ikifayət qədər aydın olub heç bir izaha ehtiyac yoxdur. Hər halda imperiya konstitusiyası bütün əlavələri və yamaqları ilə birlikdə qəti qəbul edildi və martın 28-də Prussiya kralı–248 deputat bitərəf qaldığı və 200 deputat iclasda olmadığı halda 290 səslə–Avstriyasız Almaniyanın imperatoru secildi. Tarixin istehzası özünün ən yüksək nöqtəsinə çatdı: 1848-ci il 18 mart inqilabından üç gün sonra IV Fridrix-Vilhelm heyrətlənmiş Berlin küçələrində imperator hoqqabazlığı188 çıxartdığı zaman kral elə bir halda idi ki, bu halına görə bə`zi başqa yerlərdə onun barəsində Men ştatının spirtli içkilər əleyhinə qanunu tətbiq edilə bilərdi,–bu mənfur hoqqabazlıq aradan düz bir il keçəndən sonra bütün Almaniyanın yalançı nümayəndəli məclisi tərəfindən bəyənildi. Alman inqilabının yekunu belə idi!

London, iyul 1852-ci il.

XVI

MİLLİ MƏCLİS VƏ HÖKUMƏTLƏR

Frankfurt Milli məclisi Prussiya kralını Almaniyanın (Avstriyasız) imperatoru seçəndən sonra taxt-tacı Fridrix-Vilhelmə təklif etmək üçün Berlinə deputatlar hey`əti göndərdi, sonra isə öz iclaslarını tə`xirə saldı. Fridrix-Vilhelm aprelin 3-də deputatları qəbul etdi. Fridrix-Vilhelm deputatlara bildirdi ki, xalq nümayəndələrinin səsi ilə özünə verilən hüququ–Almaniyanın bütün başqa monarxları üzərində böyüklük hüququnu qəbul edirsə də, nə qədər ki, onun başçılığını və ona belə hüquq verən imperiya konstitusiyasını digər monarxların qəbul edəcəklərindən əmin deyildir, imperator taxt-tacını qəbul edə bilməz. Almaniya hökumətlərinin işi,–deyə o əlavə etdi,–onu müzakirə etməkdir ki, bu

konstitusiya onların təsdiq edə biləcəyi konstitusiyadırmı? O, axırda dedi ki, hər halda, imperator olub-olmayacağından asılı olmayaraq, xarici və ya daxili düşmənə qarşı qılıncını siyirməyə həmişə hazırdır. Biz görəcəyik ki, o öz və`dini Milli məclisin əsla gözləmədiyi bir tərzdə yerinə yetirdi. Frankfurt əllamələri əsaslı diplomatik təhqiqatdan sonra, nəhayət, bu nəticəyə gəldilər ki, bu cavab taxt-tacı rədd etməyə bərabərdir. Buna görə də (aprelin 12-də) onlar qərara aldılar ki, imperiya konstitusiyası ölkənin qanunudur və onu müdafiə etmək lazımdır, lakin onlar bundan sonra necə hərəkət etməli olduqlarını qətiyyən bilmədiklərinə görə otuz nəfər üzvdən ibarət komissiya seçdilər; həmin komissiya bu konstitusiyanın nə üsulla həyata keçirilə biləcəyi barəsində təkliflər işləyib hazırlamalı idi.
Bu qərar Frankfurt məclisi ilə alman hökumətləri arasında indi başlanmış münaqişə üçün işarə oldu.
Burjuaziya və xüsusilə xırda burjuaziya yeni Frankfurt konstitusiyasına dərhal tərəfdar çıxdı. Onlar «inqilabı başa çatdırmalı» olan anı daha gözləyə bilməzdilər. Avstriya və Prussiyada bu zaman silahlı qüvvənin işə qarışması yolu ilə inqilaba son qoyulmuşdu. Yuxarıda adları çəkilən siniflər bu əməliyyatda daha az zorakılıq işlətməyi üstün tutardılar, lakin onların başqa yolu yox idi. İş görülmüşdü və bununla hesablaşmaq lazım gəlirdi–onlar dərhal bax bu qərarı qəbul etdilər və onu ən böyük fədakarlıqla yerinə yetirirdilər. İşin nisbətən rahat getdiyi kiçik dövlətlərdə çoxdan idi ki, burjuaziya öz ruhuna çox uyğun olan parlament təşviqatı ilə kifayətlənirdi bu təşviqat zahirən tə`sirli görünsə də, tamamilə səmərəsiz idi, çünki onun dalında heç bir qüvvə dayanmamışdı. Beləliklə, ayrılıqda alman dövlətlərinin hər biri sanki yeni və qəti bir forma almışdı və belə güman edirdilər ki, həmin forma onların hamısına bundan belə dinc konstitusiya inkişafı yoluna qədəm qoymaq imkanı verəcəkdir. Bircə məsələ: Almaniya ittifaqının yeni siyasi təşkilatı məsələsi həll edilməyib açıq qalırdı. Həm də hələ təhlükə doğura biləcək bir məsələ kimi görünən bu yeganə məsələni dərhal həll etməyi zəruri hesab edirdilər. Buna görə idi ki, burjuaziya konstitusiyanı mümkün qədər tez işləyib hazırlamağa Frankfurt məclisini vadar etmək üçün ona təzyiq göstərirdi; buna görə idi ki, iri və xırda burjuaziya tə`cili olaraq sabit qayda-qanun yaratmaq üçün bu konstitusiyanı, necəliyindən asılı olmayaraq, qəbul və müdafiə etməyi qərara almışdı. Uzun sözün qısası, imperiya konstitusiyası uğrunda hərəkat

lap əvvəldən mürtəce hisslərdən doğmuşdu və onu inqilabdan çoxdan yorulmuş siniflər başlamışdılar.
Lakin işin bir cəhəti də var idi. Almaniyanın gələcək konstitusiyasının birinci və əsas prinsipləri inqilabın birinci aylarında, 1848-ci ilin yazında və yayında, xalq hərəkatı hələ yüksəlməkdə olduğu zaman qəbul edilmişdi. Onda qəbul olunan qərarlar o zaman üçün tamamilə mürtəce qərarlar olsa da, indi, Avstriya və Prussiya hökumətlərinin zorakı hərəkətlərindən sonra bu qərarlar son dərəcə liberal və hətta demokratik görünürdü. Bunları ölçmək üçün istifadə olunan me`yar dəyişilmişdi. Frankfurt məclisi mə`nəvi cəhətdən intihar etmədən vaxtı ilə özünün qəbul etdiyi bu qərarların üstündən qələm çəkə bilməzdi, Avstriya ilə Prussiyanın qınınc gücünə qəbul etdirdiyi konstitusiyaları nümunə götürüb imperiya konstitusiyasını əsaslı surətdə dəyişdirə bilməzdi. Bundan əlavə, gördüyümüz kimi bu Məclisdə əksəriyyət öz yerini dəyişmişdi, liberallar və demokratlar partiyasının nüfuzu get-gedə artırdı. Beləliklə, imperiya konstitusiyası özünün zahirən müstəsna dərəcədə demokratik olan mənşəyi ilə fərqlənməklə qalmırdı eyni zamanda bu konstitusiya özünün sayca çox olan bütün ziddiyyətlərinə baxmayaraq, hər halda bütün Almaniyada ən liberal konstitusiya idi. Həmin konstitusiyanın ən böyük nöqsanı bundan ibarət idi ki, ancaq quru kağız parçası olub öz müddəalarını həyata keçirmək üçün heç bir qüvvəyə malik deyildi.
Belə bir şəraitdə təbii idi ki, demokrat partiyası adlanan partiya, yə`ni xırda burjuaziyanın əksəriyyəti imperiya konstitusiyasından bərk yapışırdı. Bu sinif həmişə öz tələblərində, konstitusiyalı monarxiya tərəfdarı olan liberal burjuaziyadan uzağa gedirdi; bu sinif böyük bir cəsarətlə çıxış edir, çox tez-tez silahlı müqavimətlə hədələyir, azadlıq uğrunda mübarizədə qanından, canından keçəcəyi haqqında bolluca və`d verirdi; lakin çoxlu dəlillərlə artıq sübut etmişdi ki, təhlükə çağında həmişə meydandan qaçır və qəti məğlubiyyətin ertəsi günü özünü həmişəkindən daha yaxşı hiss edir, yə`ni özünü o zaman yaxşı hiss edir ki, hər şey itirilmiş olsa da, heç olmazsa bundan təsəlli tapa bilir ki, nə olursa-olsun iş artıq görülmüşdür. Odur ki, Frankfurt konstitusiyasına iri bankirlərin, fabrikçilərin və tacirlərin sədaqəti nisbətən təmkinli bir sədaqət olub onun xeyrinə adi bir nümayişə daha çox bənzədiyi halda, onlardan bir pillə aşağıda duran ictimai sinif, bizim cəsur demokratik xırda burjualar böyük bir dəbdəbə ilə irəliyə atılıb həmişə olduğu kimi bildirmişdilər ki, qanlarını son

damcısınadək axıtmağa razı olarlar, amma imperiya konstitusiyasının süqutuna yol verməzlər.
İmperiya konstitusiyasını dərhal tətbiq etmək uğrunda bu iki partiyanın– konstitusiyalı monarxiya tərəfdarı burjuaziyanın və az-çox demokratik xırda burjuaların müdafiə etdiyi hərəkat sür`ətlə genişləndi; bu hərəkat ən güclü ifadəsini ayrı-ayrı dövlətlərin parlamentlərində tapdı. Prussiya, Hannover, Saksoniya, Baden, Vürtemberq palataları bu konstitusiyaya tərəfdar çıxdılar. Hökumətlər ilə Frankfurt məclisi arasında mübarizə təhlükəli bir şəkil alırdı.
Lakin hökumətlər cəld hərəkət edirdilər. Prussiya palataları konstitusiyaya zidd bir üsulla buraxıldı, zira bu palatalar Prussiya konstitusiyasını hələ nəzərdən keçirib təsdiq etməli idi; Berlində hökumət qəsdən iğtişaşlar törətdi, ertəsi gün, aprelin 28-də isə Prussiya nazirlər hey`əti bir tə`mim notası verib imperiya konstitusiyasını son dərəcə anarxist və inqilabi bir sənəd e`lan etdi və göstərdi ki, alman hökumətləri onu nəzərdən keçirib çirkabdan təmizləməlidirlər. Beləliklə, Frankfurt əllamələrinin həmişə öyündükləri, lakin nəticə e`tibarı ilə qurmağa müvəffəq olmadıqları tə`sisedici suveren hakimiyyəti Prussiya çəkinmədən rədd etdi. Artıq qanun e`lan olunmuş konstitusiyanı müzakirə etmək üçün monarxlar konqresi189–yeniləşdirilmiş köhnə İttifaq seymi–çağırıldı. Prussiya eyni zamanda Frankfurtdan üçgünlük yol qədər aralı Kröysnaxa qoşun topladı və kiçik dövlətlərə təklif etdi ki, onlar da belə hərəkət etsinlər və əgər onların palataları Frankfurt məclisinə qoşulmaq fikrinə düşərsə, onlar da dərhal öz palatalarını buraxsınlar. Hannover və Saksoniya dərhal bu cür hərəkət etdi.
Aydın idi ki, mübarizənin müqəddəratı yalnız silah gücünə həll edilə bilər. Hökumətlərin düşmənçiliyi və xalq arasında həyəcan gündən-günə daha bariz şəkildə aşkara çıxırdı. Demokratik əhvali-ruhiyyəli vətəndaşlar hər yerdə qoşunun başını bişirməyə çalışırdılar və Cənubi Almaniyada bunu böyük müvəffəqiyyətlə edirdilər. Hər yerdə geniş kütləvi yığıncaqlar çağırılır və bu yığıncaqlarda imperiya konstitusiyasını və Milli məclisi, əgər lazım gələrsə, silah gücünə müdafiə etmək haqqında qətnamələr çıxarılırdı. Bu məqsədlə Reyn Prussiyasının bütün icma şuraları deputatlarının Kölndə yığıncağı çağırıldı. Pfalsda, Berq mahalında, Fuldada, Nürnberqdə, Odenvaldda kəndlilər çox böyük dəstələrlə yığıncağa toplaşırdılar və aralarında çox böyük ruh yüksəkliyi var idi. Eyni

zamanda Fransada Müəssislər məclisi buraxılmışdı və hər yerdə yeni seçkilərə hazırlıq çox böyük həyəcan şəraitində gedirdi, Almaniyanın şərq sərhəddində isə macarlar bir aydan da az bir müddət ərzində bir sıra parlaq qələbələr çalaraq Avstriya hücumunun axınını Tissadan uzaqlaşdırıb Leytaya tərəf yönəltmişdilər, günbəgün gözlənirdi ki, onlar Vyananı hücumla alacaqlar. Bir sözlə, hər yerdə xalqın təxəyyülü son dərəcə coşduğuna, hökumətlərin meydan oxuyan siyasəti isə gündən-günə daha aydın şəkildə təzahür etdiyinə görə silahlı toqquşma labüd oldu və yalnız ağıldankəm qorxaqlar inana bilərdilər ki, mübarizə dinc yolla qurtaracaqdır. Məhz bu ağıldankəm qorxaqlar Frankfurt məclisində ən geniş surətdə təmsil edilmişlər.

London, iyul 1852-ci il. .

XVII

ÜSYAN

Frankfurt Milli məclisi ilə alman dövlətlərinin hökumətləri arasındakı labüd münaqişə, nəhayət, 1849-cu il mayın birinci günlərində açıq düşmənçilik hərəkətləri şəklində başlandı. Öz hökuməti tərəfindən geri çağırılan Avstriya deputatları–sol partiyanın, yaxud demokratlar partiyasının bir neçə nəfər üzvündən başqa–Məclisi tərk edib öz yerlərinə qayıtmışdılar. Mühafizəkar deputatların əksəriyyəti işin nə şəkil aldığını görərək, hətta öz hökumətləri bunu tələb etməmişdən də əvvəl Məclisdən çıxıb getmişdi. Beləliklə, bundan əvvəlki məqalələrimizdə göstərdiyimiz və sol cinahın nüfuzunu gücləndirən səbəblərdən asılı olmayaraq, təkcə sağ deputatların fərar etməsi, Məclisin əvvəlki azlığının dönüb çoxluq olması üçün kifayət idi. Belə bir xoşbəxtliyi indiyədək heç yuxularında da görməyən yeni çoxluq nümayəndələri əvvəllər müxalifət kürsülərində oturarkən özlərinin bu mövqelərindən istifadə edərək, köhnə çoxluğun və onun imperiya hökumətinin zəifliyi, qətiyyətsizliyi, süstlüyü haqqında lağlağılıq edirdilər. İndi isə birdən-birə onlar özləri bu köhnə çoxluğun yerini tutmalı olmuşdular. İndi onlar göstərməli idilər ki, özlərinin nəyə qabiliyyəti var. Onların fəaliyyəti, əlbəttə, sə`y, qətiyyət və fəallığın təcəssümü olmalıdır. Onlar Almaniyanın gülüdürlər, qocalıb əldən düşmüş imperiya regentini və onun qətiyyətsiz nazirlərini tez hərəkətə gətirə bilərlər, əgər bu mümkün olmasa, xalq suverenliyinin qüvvəsindən istifadə edib–kimin hünəri var buna şübhə etsin!–bu bacarıqsız hökuməti devirər, əvəzində elə bir fəal, yorulmaz icra hakimiyyəti qurarlar ki, Almaniyanın

nicatını tə`min edər. Zavallılar! Onların hakimiyyəti–əgər heç kimin hakimiyyətə tabe olmadığı bir zamanda ümumiyyətlə hakimiyyətdən söhbət açmaq mümkündürsə,–hətta öz sələflərinin hakimiyyətindən də gülünc bir hakimiyyət oldu.

Yeni çoxluq e`lan etdi ki, bütün maneələrə baxmayaraq, imneriya konstitusiyasını həyata keçirmək, özü də dərhal həyata keçirmək lazımdır, e`lan etdi ki, xalq iyulun 15-də yeni nümayəndələr palatasına deputatlar seçməli və həmin palata avqustun 22-də Frankfurtda toplaşmalıdır. Bu, imperiya konstitusiyasını qəbul etməmiş olan hökumətlərə və ən əvvəl bütün Almaniya əhalisinin dörddə üç hissəsindən çoxunun yaşadığı Prussiya, Avstriya və Bavariya hökumətlərinə açıqdan-açığa müharibə e`lan etmək demək idi və həmin hökumətlər e`lan olunan bu müharibəni dərhal qəbul etdilər. Prussiya ilə Bavariya da öz ərazilərindən Frankfurta göndərilən deputatları geri çağırdılar və Milli məclisə qarşı hərbi hazırlıq tədbirlərini sür`ətləndirdilər. Digər tərəfdən, imperiya konstitusiyasının və Milli məclisin xeyrinə demokratlar partiyasının (parlamentdən kənarda) düzəltdiyi nümayişlər getdikcə daha coşqun və ciddi xarakter alır və ifratçı partiya tərəfdarlarının rəhbərliyi ilə fəhlə kütləsi elə bir işin müdafiəsi üçün silahdan yapışmağa hazır olduğunu büruzə verirdi ki, bu iş fəhlələrin öz işi olmasa da, hər halda Almaniyanı köhnə monarxiya buxovlarından azad etməklə fəhlələr üçün öz məqsədlərini həyata keçirməyə bir qədər yaxınlaşmaq imkanı yaradırdı. Beləliklə, bu zəmin üzərində hər yerdə xalqla hökumətlər arasında ən kəskin münaqişə əmələ gəldi; partlayış labüd idi; mina doldurulmuşdu və onun partlaması üçün bircə qığılcım kifayət idi. Saksoniyada palataların buraxılması, Prussiyada landverin (hərbi ehtiyat qüvvələrinin) orduya çağırılması, imperiya konstitusiyasına hökumətlərin açıqca müqavimət göstərməsi belə bir qığılcım oldu; qığılcım yerinə düşdü və ölkənin hər yerini o saat alov bürüdü. Mayın 4-də Drezdendə xalq qalib gəlib şəhəri aldı və kralı (II Fridrix-Avqustu. Red.) qovdu qonşu mahalların hamısı üsyançılara kömək göndərdi. Reyn Prussiyasında və Vestfaliyada landver çıxış etməkdən boyun qaçırtdı, cəbbəxanaları tutdu və imperiya konstitusiyasını müdafiə etmək üçün silahlandı. Pfalsda xalq Bavariya hökumət mə`murlarını həbs etdi, xəzinəni tutdu və Müdafiə komitəsi yaratdı, bu komitə e`lan etdi ki, əyalət Milli məclisin himayəsi altındadır. Vürtemberqdə xalq kralı (I Vilhelmi. Red.) vadar etdi ki, imperiya konstitusiyasını tanısın; Badendə isə ordu xalqla

ittifaqa girib böyük hersoqu (Leopoldu. Red.) qaçmağa məcbur etdi və müvəqqəti hökumət qurdu. Almaniyanın başqa yerlərində xalq silahlı üsyan qaldırmaq və özünü Milli məclisin ixtiyarına vermək üçün məclisdən ancaq qəti bir işarə gözləyirdi.
Milli məclisin şərəfsiz keçmişindən sonra onun vəziyyəti gözlənilə bildiyinə nisbətən xeyli əlverişli idi. Almaniyanın qərb yarısı Məclisi müdafiə etmək üçün silaha sarılmışdı; hər yerdə qoşun tərəddüd edirdi; kiçik dövlətlərdə qoşunun meyli açıq-aşkar hərəkata tərəf idi. Macarların qalibiyyətli hücumu Avstriyanı cana doydurmuşdu, alman hökumətlərinin ehtiyat istinadgahı olan Rusiya isə var qüvvəsini toplayırdı ki, macar qoşunlarına qarşı Avstriyanı müdafiə etsin. Yalnız Prussiyanın öhdəsindən gəlmək qalırdı, bu ölkədə inqilaba rəğbət bəsləndiyi bir şəraitdə isə belə bir məqsədə çatmaq, şübhəsiz mümkün idi. Bir sözlə, hər şey Məclisin özünü necə aparacağından asılı idi.
Eyni ilə müharibə kimi, başqa növ sənətlər kimi, üsyan da sənətdir. Üsyan müəyyən qaydalara tabedir və bu qaydaların unudulması həmin qaydalara riayət etməməkdə müqəssir olan partiyanı məhvə doğru aparır. Bu qaydalar partiyaların mahiyyətindən, belə hallarda qarşıya çıxan şəraitin mahiyyətindən doğan məntiqi nəticə olduğu üçün elə aydın və sadədir ki, 1848-ci ilin müxtəsər təcrübəsi almanları bunlarla kifayət dərəcədə tanış etmişdi. Birincisi, əgər axıra qədər getmək qətiyyəti yoxdursa, heç bir zaman üsyanla oynamaq lazım deyildir. Üsyan son dərəcə qeyri-müəyyən kəmiyyətlər tənliyidir və bu kəmiyyətlərin qiyməti hər gün dəyişilə bilər. Təşkilat, intizam və ən`ənəvi nüfuz üstünlüyü bütünlüklə o döyüş qüvvələrinin tərəfindədir ki, onlara qarşı çıxış etmək lazım gəlir; üsyan edənlər düşmənə qarşı böyük qüvvə toplaya bilməsələr, əzilər və məhv edilərlər. İkincisi, əgər üsyan başlanmışdırsa, ən böyük bir qətiyyətlə hərəkət etmək və hücuma keçmək lazımdır. Müdafiə hər bir silahlı üsyanın ölümüdür; müdafiədə üsyan hələ düşmənlə mübarizədə öz qüvvəsini sınamazdan əvvəl boşa çıxır. Nə qədər ki, düşmənin qoşunu hələ dağınıq haldadır, onu qəfildən yaxalamaq lazımdır; hər gün hətta kiçik də olsa yeni müvəffəqiyyətlər əldə etmək lazımdır; üsyan edənlərin birinci müvəffəqiyyətli hərəkətinin sənə verdiyi mə`nəvi üstünluyü əlində saxlamalısan; həmişə daha güclünün dalınca gedən və həmişə daha e`tibarlı tərəfə keçən mütərəddid ünsürləri öz tərəfinə çəkməlisən; düşmən öz qoşununu sənə qarşı toplamağa macal tapmamış onu geri çəkilməyə

məcbur etməlisən; bir sözlə, bu vaxtadək mə`lum olan inqilabi taktika ustalarının ən böyüyü Dantonun dediyi kimi hərəkət et: «de l`audace, de l`audace, encore de l`audace!» (cəsarət, cəsarət və yenə də cəsarət! Red.). Beləliklə, Frankfurt Milli məclisi özünü gözləyən labüd ölüm təhlükəsindən qaçınmaq üçün nə etməli idi? Məclis, ən əvvəl, vəziyyəti aydın başa düşməli və yəqin etməli idi ki, indi onun ya hökumətə danışıqsız tabe olmaqdan, ya da hər cür tərəddüdləri qətiyyətlə bir kənara qoyub silahlı üsyana qoşulmaqdan başqa bir çarəsi yoxdur. İkiicisi, Məclis baş vermiş üsyanların hamısını açıq surətdə qəbul etməli, xalqı hər yerdə silaha sarılıb milli nümayəndəliyi müdafiə etməyə çağırmalı, monarxların, nazirlərin və öz müvəkkilləri ilə təmsil olunan suveren xalqa zidd getməyə cəsarət edəcək başqa şəxslərin hamısını qanundan xaric e`lan etməli idi. Üçüncüsü, Məclis Almaniyanın imperiya regentini dərhal vəzifəsindən götürməli, güclü, fəal, heç nəyin qarşısında geri çəkilməyən icraiyyə hakimiyyəti yaratmalı, bilavasitə öz müdafiəsi üçün üsyançıların silahlı qüvvələrini Frankfurta çağırıb bununla da eyni zamanda üsyanın yayılması üçün qanuni bəhanə yaratmalı, öz sərəncamında olan döyüş qüvvələrinin hamısını birləşdirib təşkil etməli idi–bir sözlə, öz mövqeyini möhkəmlətmək və düşmənlərin mövqeyini zəiflətmək üçün mümkün vasitələrin hamısından tez və tərəddüdsüz istifadə etməli idi.
Fraikfurt Məclisinin xeyirxah demokratları hər cəhətdən məhz bunun əksinə hərəkət etdilər. Bu hörmətli cənablar işi başlıbaşına buraxmaqla kifayətlənməyib o dərəcəyə çatdırdılar ki, hazırlanan bütün üsyan hərəkatlarını öz müqavimətləri ilə doğrudan-doğruya boğurdular. Məsələn; Nürnberqdə c. Karl Foqt belə etdi. Onlar Saksoniyada, Reyn Prussiyası və Vestfaliyada üsyanların yatırılmasına yol verdilər, həmin üsyanlara onların yeganə köməyi bu oldu ki, üsyanlar puça çıxandan sonra onlar Prussiya hökumətinin kobud amansızlığına qarşı sentimental bir protest etdilər. Onlar Cənubi Almaniya üsyanları ilə gizli diplomatnk əlaqə saxlayırdılar, amma bu üsyanları bir dəfə də olsa açıq surətdə tanımaq yolu ilə müdafiə etmədilər. Onlar bilirdilər ki, imperiya regenti hökumətlərin tərəfindədir, amma bununla belə onu həmin hökumətlərin fitnə-fəsadına müqavimət göstərməyə çağırırdılar, regent isə buna heç məhəl qoymurdu. Köhnə mühafizəkar olan imperiya nazirləri bu aciz Məclisi hər iclasda lağa qoyurdular və Məclis buna dözürdü. Sileziyadan deputat seçilib «Neue Rheinische Zeitunq»un redaktorlarından biri olan Vilhelm Volf imperiya

regentinin (İohannın. Red.) imperiyada birinci və ən böyük xain olduğunu haqlı olaraq göstərib onun qanundan xaric e`lan olunmasını Məclisdən tələb edəndə isə, bu demokrat inqilabçıların xeyirxah hiddətini ifadə edən ümumi bağırtılar Volfun səsini boğub eşidilməz etdi! Sözün qısası, onlar çənə vurmaqda, protest etməkdə, bəyanat verməkdə, hər şeyi təntənə ilə bildirməkdə yenə də davam edirdilər, amma iş görmək üçün heç bir zaman kifayət dərəcədə nə mərd, nə də ağıllı olmamışdılar, halbuki hökumətlərin düşmən qoşunları getdikcə yaxınlaşırdı, onların öz icraiyyə hakimiyyəti olan imperiya regenti isə onlara cidd-cəhdlə quyu qazır, onları tezliklə məhv etməyə alman hökmdarları ilə birlikdə hazırlıq görürdü. Beləliklə, bu mənfur Məclis olar-olmaz nüfuzunu itirdi Məclisin taleyi onun müdafiəsinə qalxışmış üsyan iştirakçılarını daha maraqlandırmırdı, sonra görəcəyimiz kimi, nəhayət, iş rüsvayçılıqla qurtarıb bu Məclisin canı çıxanda, onun şərəfsizcəsinə yox olub getdiyinə heç fikir verən də olmadı.

London, avqust 1852-ci il.

XVIII

XIRDA BURJUAZİYA

Biz axırıncı məqaləmizdə göstərdik ki, alman hökumətləri ilə Frankfurt parlamenti arasındakı mübarizə, nəticə e`tibarı ilə, o dərəcədə şiddətlənmişdi ki, mayın birinci günlərində Almaniyanın böyük bir hissəsində əvvəl Drezdendə, sonra Bavariya Pfalsında, Reyn Prussiyasının bir hissəsində və nəhayət, Badendə açıq üsyanlar başlandı.

Bütün hallarda üsyançıların əsl mübariz qüvvələri şəhər fəhlələrindən ibarət idi ki, onlar da birinci olaraq silaha sarılıb qoşunla döyüşə girirdilər. Kənd əhalisinin çox yoxsul təbəqələrinin bir hissəsi, yə`ni muzdurlarla xırda kəndlilər fəhlələrə, bir qayda olaraq, münaqişə başlandıqdan sonra qoşulurdular. Kapitalistlər sinfindən aşağıda duran bütün siniflərin gənclərinin çoxu, müvəqqəti də olsa, üsyançı ordular sırasında idi, lakin iş daha ciddi şəkil alar-almaz bu olduqca rəngarəng gənclər dəstəsi sür`ətlə seyrəldi. Xüsusən özlərini «intellekt nümayəndələri» adlandırmağı xoşlayan tələbələri, zabit rütbəsi verməklə saxlamaq mümkün olmayanda onlar öz bayraqlarını birinci olaraq qoyub gedirdilər; zabit rütbəsi almaq üçün lazım olan keyfiyyətlər isə onlarda, əlbəttə, ancaq ən nadir hallarda olurdu.

Fəhlə sinfi bu üsyanda iştirak etdi, necə ki, hər bir başqa üsyanda da iştirak edərdi, əgər ümid olsaydı ki, həmin üsyan ya onun siyasi hökmranlığa və

ictimai inqilaba doğru gedən yolu üzərindəki maneələrdən bə`zilərini götürəcək, ya da nüfuzu daha çox, cəsarəti isə daha az olan ictimai sinifləri, heç olmazsa, indiyə qədər yeritdikləri xətdən daha qətiyyətli və daha inqilabi bir xətt yeritməyə vadar edəcəkdir. Fəhlə sinfi silaha sarıldığı zaman tamamilə dərk edirdi ki, bilavasitə məqsədlərinə görə bu mübarizə onun öz mübarizəsi deyildir. Lakin fəhlə sinfi onun üçün yeganə düzgün olan bir taktikaya əməl edirdi: fəhlə sinfi öz çiyinlərində ucalmış (burjuaziyanın 1848-ci ildə etdiyi kimi) heç bir sinfə,–əgər bu sinif, fəhlə sinfinin heç olmazsa öz mənafeyi uğrunda mübarizəsi üçün sərbəst meydan vermirdisə,–öz hökmranlığını möhkəmlətmək imkanı vermək istəmirdi. Hər halda fəhlə sinfi çalışırdı işi elə bir böhran dərəcəsinə çatdırsın ki, bu böhran ya milləti qəti surətdə və dönmədən inqilabi yola çəksin, ya da inqilabdan əvvəlki «status quo»nu mümkün qədər daha tam şəkildə bərpa etməyə gətirib çıxartsın və beləliklə, yeni inqilabı labüd etsin. Fəhlə sinfi hər iki halda bütün millətin düzgün başa düşülmüş əsl mənafeyini təmsil edirdi: o öz qüvvəsi daxilində inqilabın gedişini sür`ətləndirirdi; o inqilabın ki, indi mədəni Avropanın köhnə cəmiyyətləri üçün tarixi bir zərurət olmuşdur və inqilab olmadan bu cəmiyyətlərin heç biri öz qüvvələrini gələcəkdə daha sakit və müntəzəm inkişaf etdirməyi ağlına gətirə bilməz. Üsyana qoşulmuş kənd əhalisinə gəlincə, bu əhali, başlıca olaraq, qismən vergi yükünün hədsiz dərəcədə ağır olması üzündən, qismən də başı üstündən əskik olmayan feodal mükəlləfiyyətləri üzündən inqilabçı partiyanın ağuşuna atılmışdı. Özünün heç bir təşəbbüsü olmayan bu əhali üsyana qoşulan digər siniflərin quyruğunda gedir, fəhlələrlə xırda sənətkarlar və tacirlər sinfi arasında tərəddüd edirdi. Ayrılıqda hər bir şəxsin hansı tərəfə qoşulmasını demək olar ki, həmişə onun şəxsi ictimai mövqeyi həll edirdi. Kənd muzduru adətən şəhər fəhlələrinə qoşulurdu xırda mülkiyyətçi kəndli xırda burjualarla əl-ələ getməyə meyl edirdi. Böyük əhəmiyyətə və nüfuza malik olduğunu dəfələrlə göstərdiyimiz bu xırda burjualar sinfini 1849-cu il may üsyanının rəhbər sinfi hesab etmək olar. Bu dəfə hərəkat mərkəzləri arasında Almaniyanın iri şəhərlərindən heç biri yox idi və buna görə idi ki, orta və kiçik şəhərlərdə həmişə üstünlük təşkil edən xırda burjuaziya hərəkata rəhbərliyi öz əlinə keçirə bilmişdi. Bundan əlavə, biz gördük ki, imperiya konstitusiyası və Almaniya parlamentinin hüquqları uğrunda mübarizədə məhz bu sinfin mənafeyi qurban verilirdi. Üsyan etmiş vilayətlərdə yaradılan müvəqqəti

hökumətlərin hamısında xalqın məhz bu hissəsinin nümayəndələri çoxluq təşkil edirdilər, odur ki, alman xırda burjuaziyasının ümumiyyətlə nəyə qabil olduğu haqqında məhz bu nümayəndələrin fəaliyyətinin miqyasına görə mühakimə yeritmək olar. Görəcəyimiz kimi, alman xırda burjuaziyası öz rəhbərliyini e`tibar edib ona taşnıran hər bir hərəkatı ancaq məhv etməyə qabildir.

Lovğalanmada çox usta olan xırda burjuaziya fəaliyyət göstərməyə əsla qabil deyildir və nəyi olursa-olsun qurban verməkdən qorxaqcasına çəkinir. Xırda burjuaziyanın ticarət sövdələrinin və kredit əməliyyatlarının xırdalığı onun bütün xarakterinə son dərəcə böyük tə`sir göstərib onu qətiyyət və zirəklikdən məhrum etməyə qabildir; buna görə də gözləmək lazım idi ki, xırda burjuaziyanın siyasi fəaliyyəti də eyni ilə bu cür xassələrlə fərqlənəcəkdir. Doğrudan da, xırda burjuaziya təmtəraqlı ibarələrlə və göstərməyə hazırlaşdığı igidlikləri hədsiz dərəcədə tə`rifləməklə üsyanı şirnikdirirdi; üsyan xırda burjuaziyanın arzusuna tamamilə zidd olaraq başlananda bu burjuaziya acgözlüklə hakimiyyəti ələ keçirməyə tələsdi; lakin bu hakimiyyətdən yalnız üsyanın müvəffəqiyyətini heçə çıxartmaq üçün istifadə etdi. Silahlı toqquşmanın ciddi böhran əmələ gətirdiyi hər yerdə xırda burjualar özləri üçün yaranan təhlükə qarşısında bərk qorxuya düşürdülər; silaha sarılmaq haqqında onların lovğa çağırışlarına ciddi yanaşıb hərəkətə gələn xalq qarşısında qorxuya düşurdülər, indi əllərinə keçmiş hakimiyyət qarşısında qorxuya düşürdülər və hər şeydən əvvəl, yeritməyə məcbur olduqları siyasətin verəcəyi nəticələr qarşısında–həm şəxsən özləri üçün, həm də öz ictimai mvvqeləri və öz mülkiyyətləri üçün verəcəyi nəticələr qarşısında qorxuya duşürdülər. Olmaya ümid edilirdi ki, doğrudan da onlar, adətən dedikləri kimi, usyan xatirinə «canlarından və var-yoxlarından» keçəçəklər? Onlar üsyanda rəsmi mövqe tutmağa məcbur olmamışdılarmı, deməli, üsyai məğlub olacağı təqdirdə öz kapitallarını itirə bilməzdilərmi? Qələbə çalınacağı təqdirdə onların perspektivi, öz döyüş qüvvələrinin əsas hissəsini təşkil edən qalibiyyətli proletarların onların vəzifələrindən qovub yeritdikləri siyasəti kökündən dəyişdirəcəklərinə əmin olmaqdan başqa nə ola bilərdi? Beləliklə, xırda burjuaziya özünü hər tərəfdən əhatə edən bir-birinə əks təhlükələr arasında qalmışdı və öz hakimiyyətindən ancaq onun üçün istifadə edə bildi ki, hər şeyi başlı-başına buraxdı, bunun nəticəsində isə muvəffəqiyyət qazanmağa bəslənilə biləcək kiçicik ümidlər, əlbəttə, boşa çıxdı və üsyan həmişəlik süquta

məhkum oldu. Xırda burjuaziyanın taktikası, daha doğrusu, tam taktikasızlığı hər yerdə eyni idi, buna görə Almaniyanın bütün hissələrində 1849-cu il may üsyanları elə bil eyni bir qəlibdən çıxmışdı.
Drezdendə küçə mübarizəsi dörd gün sürdü. Drezdenin xırda burjuaları, bu «şəhər qvardiyası» nəinki mübarizədə iştirak etmirdi, bir çox hallarda hətta qoşunun üsyançılara qarşı əməliyyatına da yardım göstərirdi. Üsyançıların yenə də az qala hamısı ətraf sənaye mahallarının fəhlələrindən ibarət idi. Onlar rus mühaciri Mixail Bakuninin şəxsində özlərinə qabiliyyətli və soyuqqanlı bir komandir tapdılar; Mixail Bakunin sonralar əsir tutuldu və indi Macarıstanda Munkaç (Ukrayna dilində adı: Mukaçevo. Red.) qalasında həbsdədir. Çoxlu Prussiya qoşununun işə qarışması nəticəsində bu üsyan yatırıldı.
Reyn Prussiyasında yalnız kiçik çarpışmalar oldu. Bütün iri şəhərlər bürclü qala olduğu üçün üsyançıların əməliyyatları yalnız ayrı-ayrı toqquşmalarla məhdudlaşmalı idi. Kifayət qədər qoşun gətirilib cəmləşdirilən kimi silahlı müqavimətə son qoyuldu.
Pfalsda və Badendə isə üsyançılar, əksinə, varlı, münbit bir vilayəti, habelə bütöv bir dövləti ələ keçnrtdilər. Burada əl altında hər şey: pul, silah, əsgər, hərbi ehtiyat var idi. Nizami ordunun əsgərləri üsyançılara özləri ğoşulmuşdular; bundan əlavə, onlar Badendə hətta ön sıralarda idilər. Saksoniyada və Reyn Prussiyasında qaldırılan üsyanlar Cənubi Almaniya hərəkatını təşkil etmək üçün vaxt qazandırmaqdan ötrü özünü qurban verdi. Yerli əyalət miqyasında qaldırılan üsyan üçün hələ heç bir zaman bu cür əlverişli şərait olmamışdı. Parisdə inqilab gözlənirdi; macarlar Vyananın darvazası ağzında dayanmışdılar; Mərkəzi Almaniyanın bütün dövlətlərində nəinki xalq, habelə ğoşun da üsyana tərəf qəti meyl edirdi və üsyana qoşulmaq üçün yalnız münasib bir fürsət gözləyirdi. Lakin bununla belə hərəkat xırda burjuaziyanın əlinə keçib lap əvvəl başdan məhvə məhkum oldu. Xırda burjua hökmdarları, xüsusilə Badendəki belə hökmdarlar–və onların başçısı c. Brentano–heç unuda bilmirdilər ki, «qanuni» suveren olan böyük Hersoqun vəzifəsini və imtiyazlarını qəsb etməklə dövlətə xəyanət etmiş olurlar. Onlar ürəklərində özlərini cinayətkar hesab etdikləri halda nazir kürsülərində oturmuşdular. Belə qorxaqlardan nə ummaq olardı? Onlar üsyanı nəinki başlı-başına buraxıb mərkəzsiz, deməli, nəticəsiz bir üsyana çevirmişdilər, həm də hərəkatı qətiyyətdən tamamilə məhrum etmək, zəiflətmək və puça çıxartmaq üçün

əllərindən gələni edirdilər. Həm də onlar buna elə dərin düşüncəli siyasətçilərin, xırda burjuaziyanın elə «demokratik» qəhrəmanlarının köməyi ilə müvəffəq olmuşdular ki, bu siyasətçilər və bu «demokratik» qəhrəmanlar Brentano kimi bir neçə nəfər daha zirək hərifin fe`linə uymaqla «vətənə nicat verdiklərinə» ciddi surətdə qənaət gətirmişdilər.
İşin hərbi tərəfinə gəlincə, hələ heç bir zaman döyuş əməliyyatları Baden baş komandanı, nizami ordunun keçmiş leytenantı Zigelin rəhbərliyi ilə keçirildiyi dərəcədə diqqətsiz və axmaqcasına keçirilməmişdi. Hər şey pozulub nizamsız hala düşmüş, bütün əlverişli fürsətlər əldən qaçırılmış, bütün qiymətli məqamlar möhtəşəm, amma baştutmaz planlar uydurmağa sərf edilmişdi, nəhayət, iste`dadlı polyak Meroslavski komandanlığı öz öhdəsinə götürəndə ordu artıq pozulmuş, darmadağın edilmiş, pis təchiz olunmuş, ruhdan düşmüş və sayca özündən dörd qat artıq bir duşmənlə üz-üzə dayanmışdı. Meroslavskinin çarəsi ancaq ona qaldı ki, Vaqhöyzel yaxınlığında düşmənlə şanlı, lakin axırı müvəffəqiyyətsiz bir vuruşmaya girişdi, məharətlə geri çəkildi, Raştatt yaxınlığında son, ümidsiz döyüşə girdi və komandanlığı öhdəsindən atdı. Qoşunun təcrübəli əsgərlərlə tə`lim görməmiş yeni əsgərlərdən ibarət olduğu hər bir üsyan müharibəsindəki kimi, bu üsyan müharibəsində də inqilab ordusu çoxlu qəhrəmanlıq göstərdi, lakin bununla birlikdə tez-tez heç də əsgərlərə xas olmayan və çox vaxt qətiyyən anlaşılmayan vahiməyə də düşdü. Lakin bu ordu özünün labüddən kamil bir ordu olmadığına baxmayaraq heç olmasa bununla razı qalmağa haqqı vardır ki, onu əzmək üçün sayca dörd qat üstün olmaq düşmənə kafi görünməmişdi və yüz min nəfərlik nizami qoşun əməliyyat zamanı iyirmi min nəfər üsyançının qabağında hərbi cəhətdən elə ehtiramla hərəkət edirdi ki, elə bil qarşısında Napoleonun köhnə qvardiyası dayanmışdı.
May ayında başlanan bu üsyan 1849-cu il iyulun ortalarında tamamilə yatırıldı. Birinci alman inqilabı qurtardı.

XIX ÜSYANIN SONU

Almaniyanın cənub və qərbini açıqca üsyan bürüdüyü və Almaniyada ilk inqilabın bu qığılcımını söndürmək üçün hökumətlərə Drezden hərbi əməliyyatının başlanmasından Raştattın təslim olmasına qədər on həftədən artıq vaxt lazım olduğu bir zamanda Milli məclis siyasi meydandan yox olub getdi, həm də onun necə yox olub getdiyini heç kəs sezmədi.

Biz bu yüksək idarəni Frankfurtda çaşqın bir vəziyyətdə ikən tərk etmişdik; bu idarə onun ləyaqotinə hökumətlər tərəfindən kobudcasına qəsdlər edilməsi, onun özünün yaratdığı mərkəzi hakimiyyətin acizliyi və xaincəsinə fəaliyyətsizlik göstərməsi, onun müdafiəsinə qalxmış xırda burjuaziyanın üsyanları və daha çox inqilabi məqsəd güdən fəhlə sinfinin üsyanları nəticəsində bu vəziyyətə düşmüşdü. Məclisin üzvləri arasında son dərəcə mə`yusluq və ümidsizlik hökm sürürdü; hadisələr birdən-birə elə müəyyən və qəti şəkil aldı ki, qanun verən bu alimlərin əsl gücü və nüfuzu barəsində onların bütün xülyaları bir neçə günün içərisində tamamilə puç olub getdi. Mühafizəkarlar öz hökumətlərinin işarəsi ilə məclisi artıq tərk etmişdilər, odur ki, Məclisin bundan sonra hər nə şəkildə mövcud olması qanuni hakimiyyət orqanlarına ancaq meydan oxumaq ola bilərdi. Tamamilə çaşıb qalmış liberallar belə hesab edirdilər ki, iş həmişəlik uduzulmuşdur; onlar da deputatlıq səlahiyyətini öz üzərlərindən atmışdılar. Möhtərəm cənabların bir neçə yüzü birdən fərar edirdi. Onlar əvvəlcə 800 nəfərdən 900 nəfərə qədər idilər, lakin bu rəqəm elə bir sür`ətlə azalmağa başlamışdı ki, tezliklə yüz əlli deputatın, bir neçə gündən sonra isə hətta yüz deputatın iclasda iştirakı kvorum üçün kifayət hesab edildi. Lakin bütün demokrat partiyası hələ Məclisdə qalmış olsa da, bu kvorumun özünü də toplamaq çətin idi.

Parlamentin qalığının nə etməli olduğu kifayət qədər aydın idi. O, yalnız açıq və qətiyyətlə üsyana qoşulmalı, bununla da üsyana elə bir tam qüvvə verməli idi ki, bu qüvvəni üsyana ancaq qanun verə bilərdi; parlamentin qalığı özünü müdafiə etmək üçün belə bir üsulla dərhal ordu da əldə edərdi. Parlamentin qalığı mərkəzi hakimiyyətdən tələb etməli idi ki, bütün hərbi əməliyyatın dərhal dayandırılmasına nail olsun, yox əgər bu hakimiyyət, irəlicədən görmək mümkün olduğu kimi, belə hərəkət etməyi bacarmasaydı və istəməsəydi, onda parlamentin qalığı onu dərhal kənar etməli və yerinə daha diribaş bir hökumət qoymalı idi. Əgər üsyançı qoşunlarını Frankfurta yeritmək mümkün olmasaydı (əvvəllər nə qədər ki, Almaniyadakı dövlətlərin hökumətləri mübarizəyə kifayət dərəcədə hazır deyildilər və qətiyyətsizlik göstərirdilər, bunu etmək çətin olmazdı), Məclis ləngimədən öz iqamətgahını üsyan etmiş vilayətin lap mərkəzikə köçürə bilərdi. Əgər bütün bunlar ən geci mayın ortalarında və ya axırlarında dərhal və tərəddüd, göstərilmədən edilsəydi, onda həm üsyanın, həm də Milli məclisin müvəffəqiyyəti üçün hələ imkan yarana bilərdi.

Lakin alman meşşanlarının nümayəndələrindən bu cür qətiyyətli hərəkət əsla gözləmək olmazdı. Bu şöhrətpərəst dövlət xadimləri öz xam xəyallarından qətiyyən əl çəkməmişdilər. Parlamentin qüvvəsi və toxunulmazlığına özlərinin kor-koranə inamını itirmiş üzvləri çoxdan əkilib aradan çıxmışdılar, qalan demokratları isə inandırıb öz hakimiyyət və əzəmətləri haqqında tam bir ildən bəri daldıqları xəyallardan əl çəkməyə razı salmaq asan deyildi. Onlar əvvəllərdə qəbul etdikləri xəttə sadiq qalırdılar, müvəffəqiyyət qazanmaq və hətta heç olmazsa şərəflə süqut etmək imkanı ta yox olub gedənə qədər qəti hərəkət etməkdən hər vasitə ilə qaçınırdılar. Onların təmtəraqlı iddiaları ilə birlikdə xalis zahiri və boş-boşuna əlləşmələri tamamilə səmərəsiz olduğu üçün onlara ancaq ürəyi yanmaq və gülmək olardı, onlar isə bu fəaliyyəti genişləndirərək imperiya regentinə və nazirlərə qətnamələr, məktublar və tələblər göndərməkdə davam edirdilər, imperiya regenti bunlara əsla məhəl qoymurdu, nazirlər isə düşmənlə açıqca ittifaqda idilər. Ştriqaudan (Polyakca adı: Stşeqom. Red.) deputat seçilib «Neue Rheinische zeitunq»un redaktorlarından biri və bütün məclisdə yeganə həqiqi inqilabçı olan Vilhelm Volf, nəhayət, deyəndə ki, əgər onlar öz sözlərinə ciddi yanaşırlarsa, boşboğazlığa son qoyub imperiya regentini, ölkənin bu əsas xainini dərhal qanundan xaric e`lan etməlidirlər,–bu parlament üzvləri cənablarının uzun müddət gizlində qalan xeyirxah hiddətləri birdən elə bir qüvvə ilə coşdu ki, imperiya hökuməti onları təhqir üstündən təhqir etdiyi zamanlarda bunun heç əsər-əlaməti də olmamışdı. Belə də olmalı idi, çünki Volfun təklifi müqəddəs Pavel kilsəsinin dörd divarı arasında deyilmiş ilk ağıllı söz idi190; axı Volf nə etmək lazım idisə, məhz onu etməyi tələb edirdi, onun hər şeyi öz adı ilə, yə`ni ağı ağ, qaranı qara adlandırdığı bu cür apaşkar nitqi yalnız o ürəyinazik adamları təhqir edə bilərdi ki, onlar yalnız özlərinin qətiyyətsizliyində qətiyyətli idilər və fəaliyyət göstərmək üçün hədsiz dərəcədə qorxaq olduqlarına görə öz beyinlərinə birdəfəlik yeritmişdilər ki, edilməsi lazım gələn bir şey varsa, o da məhz heç nə etməməkdir. Onların beyinlərini örtüb qəsdən saxlanılan dumanı şimşək kimi işıqlandıran hər bir söz, mümkün qədər çox içində qalmaq istədikləri dolanbacdan onları çıxara bilən hər bir təklif, həqiqi vəziyyətə salınan hər bir aydın nəzər–bunların hamısı, əlbəttə, bu ə`la-həzrət suveren Məclisə təhqir idi.
Bütün qətnamələrə, çağırışlara, sorğulara və bəyannamələrə baxmayaraq, Frankfurtdakı möhtərəm deputat cənablarının mövqelərini müdafiə etmək

daha mümkün olmayandan bir az sonra onlar çıxıb getdilər, lakin üsyan etmiş vilayətlərə getmədilər, çünki oraya getmək həddindən artıq cəsarətli addım olardı. Onlar Vürtemberq hökumətinin bir növ bitərəf intizar mövqeyi tutub gözlədiyi Ştutqarta yollandılar. Onlar burada, nəhayət, imperiya regentini devrilmiş e`lan edib öz içərilərindən beş üzvdən ibarət regentlik seçdilər. Bu regentlik birdən-birə yığma qoşun haqqında qanun qəbul etdi və lazım gələn bütün rəsmiyyətlərə riayət edilərək, bu qanun Almaniyanın bütün hökumətlərinə göndərildi. Onlara, Məclisin bu qatı düşmənlərinə əmr olundu ki, Məclisi müdafiə etmək üçün qüvvə toplasınlar! Beləliklə, Milli məclisi müdafiə etmək üçün, aydındır ki, kağız üzərində ordu yaradılırdı. Diviziyalar, briqadalar, polklar, batareyalar,– bunların hamısı nəzərdə tutulmuş və tə`yin edilmişdi. Hər şey kifayət qədər var idi, yalnız gerçəklik yox idi, çünki bu ordu, əlbəttə, heç bir zaman dünyaya gəlməmişdi.

Milli məclisin qarşısına öz-özünə axırıncı bir plan da çıxırdı. Demokratik əhali ölkənin hər yerindən nümayəndə hey`ətləri göndərirdi ki, onlar özlərini parlamentin sərəncamına versinlər və parlamenti qətiyyətlə hərəkət etməyə vadar etsinlər. Vürtemberq hökumətinin əsil niyyətlərini bilən xalq and verib yalvarırdı ki, Milli məclis bu hökuməti onun qonşularının qaldırdığı üsyanda açıq və fəal iştirak etməyə məcbur etsin. Lakin bu sə`ylər əbəs idi. Ştutqarta köçəndən sonra Milli məclis Vürtemberq hökumətinin mərhəmətinə sığınmışdı. Deputatlar bunu başa düşürdülər və buna görə də xalq içərisində təşviqat aparılmasına müqavimət göstərirdilər. Bu səbəbdən onlar öz nüfuzlarının son qalıqlarını da itirdilər, halbuki nüfuzlarını hələ saxlaya bilərdilər. Onlar özlərinə nifrət oyatdılar, Prussiyanın və imperiya regentinin təhriki ilə Vürtemberq hökuməti demokratiya oyununa son qoydu: Vürtemberq hökuməti 1849-cu il iyunun 18-də parlamentin iclas salonunu bağlayıb regentlik üzvlərinə əmr etdi ki, ölkədən çıxıb getsinlər.

Belə olduqda onlar Badenə, üsyançıların düşərgəsinə yollandılar, lakin orada onlar artıq faydasız idilər. Onlara heç kim məhəl qoymurdu. Buna baxmayaraq, regentlik vətəni xilas etmək yolunda öz sə`ylərini suveren alman xalqı adından davam etdirirdi. Regentlik pasport almaq istəyən hər kəsə pasport verərək özünü xarici dövlətlərə tanıtdırmağa cəhd etdi. Vaxtı ilə, hələ fürsət əldən qaçırılmamışkən, Vürtemberqin bir sıra vilayətlərinin fəal köməyinə e`tinasızlıq göstərən regentlik indi intibahnamələr nəşr edir

və komissarlar göndərirdi ki, həmin vilayətlər də üsyan törətsinlər, lakin bütün bunlar, əlbəttə, heç bir nəticə vermədi. Regentliyin komissarlarından biri odan cənab Röslerin (Elsdən (Polyakca adı: Olesnitsa. Red.) deputat) regentliyə göndərdiyi mə`lumatın əsli indi qarşımızdadır; məzmunu çox xarakterik olan bu mə`lumatda belə bir qeyd var:dır: Ştutqart, 30 iyun 1849-cu il. C-b Rösler pul tapmağa müvəffəqiyyətsiz cəhdlər edən özü kimi altı nəfər komissarın sərgüzəştlərini təsvir edəndən sonra özünün tə`yin olunduğu yerə hələ gəlib çatmamasına haqq qazandırmaq üçün bir sıra dəlillər gətirir, daha sonra Prussiya, Avstriya, Bavariya və Vürtemberq arasında ola biləcək toqquşmalar və bunların verə biləcəyi nəticələr haqqında ən hikmətli mülahizələr söyləməyə başlayır. C-b Rösler bunların hamısını, müfəssəl araşdırdıqdan sonra bununla belə o nəticəyə gəlir ki, hər halda heç bir ümid yeri yoxdur. Sonra o, mə`lumat çatdırmaq üçün mö`təbər adamlardan bir idarə təşkil etməyi, Vürtemberq nazirlər hey`ətinin niyyətini öyrənmək, qoşunun necə öz yerinin dəyişdiyi haqqında mə`lumat ələ keçirmək üçün casusluq sistemi yaratmağı təklif edir. Bu məktub ünvan sahibinə çatmamışdı, ona görə ki, məktub yazıldığı zaman «regentlik» artıq bütünlüklə «xarici işlər idarəsinə», yə`ni İsveçrəyə köçmüşdü. Həm də zavallı cənab Rösler kiçik bir krallığın müdhiş nazirlər hey`ətinin nə kimi planları olduğu üzərində hələ də baş sındırdığı bir zamanda yüz min nəfər Prussiya, Bavariya və Hessen əsgəri Raştatt divarları yaxınlığında gedən son döyüşdə məsələni artıq həll etmişdi. Beləliklə, Almaniya parlamenti və onunla birlikdə alman inqilabının ilk və son törəməsi yox olub getdi. Almaniya parlamentinin çağırılması bu faktın ilk yuridik təsdiqi idi ki, Almaniyada həqiqətən inqilab olmuşdu odur ki, bu parlament ta Almaniyada ilk müasir inqilaba son qoyulana qədər yaşadı. Çox hissəsi feodallığın qəflət yuxusundan yenicə oyanan dağınıq, pərakəndə kənd əhalisi tərəfindən, həm də kapitalistlər sinfinin tə`siri altında seçilən bu parlamentin xidməti ondan ibarət oldu ki, 1820–1848-ci illər dövrünün böyük və məşhur adamlarının hamısını siyasət meydanında bir yerə topladı, sonra da tamamilə məhv etdi. Burjua liberalizminin bütün tanınmış nümayəndələri burada toplaşmışdılar. Burjuaziya mö`cüzə gözləyirdi, qazandığı isə bu oldu ki, həm özünü, həm də öz nümayəndələrini rüsvay etdi. Sənaye və ticarət kapitalistləri sinfi Almaniyada hər hansı başqa bir ölkədəkinə nisbətən daha ağır məğlubiyyətə uğradı. Bu sinif əvvəlcə Almaniyanın bütün əlahiddə

dövlətlərində məğlub edildi, sarsıdıldı, dövlət vəzifələrindən qovuldu, sonra isə Almaniyanın mərkəzi parlamentində darmadağın edildi, biabır olundu, ələ salındı. İstər monarxiya, istərsə respublika dövlət hakimiyyəti formasında burjuaziyanın idarə üsulu olan siyasi liberalizm Almaniyada həmişəlik qeyri-mümkün oldu. Öz varlığının son dövründə Almaniya parlamentinin xidməti bu oldu ki, 1848-ci ilin mart ayından rəsmi müxalifrtə başçılıq edən bir partiyanı–demokratlar partiyasını, xırda sənətkarlar, tacirlər və qismən kəndlilər sinfinin mənafeyini təmsil edənlər partiyasını həmişəlik rüsvay etdi. 1849-cu ilin mayı və iyununda bu sinif özünün Almaniyada sabit hökumət təşkil etmək qabiliyyətini göstərmək imkanı əldə etdi. Biz artıq gördük ki, bu sinif necə müvəffəqiyyətsizliyə uğramışdı, həm də əlverişsiz şərait nəticəsində uğramaqdan daha çox özünün inqilab başlanandan bəri nə qədər həlledici hərəkət olmuşdusa hamısında hökmən təzahür edən açıq-aşkar qorxaqlığı üzündən uğramışdı bu sinif həmin müvəffəqiyyətsizliyə ona görə uğramışdı ki, öz ticarət əməliyyatları üçün xarakterik olan fərasətsizlik, bacarıqsızlıq və qətiyyətsizliyi siyasətdə də göstərmişdi. Belə bir davranışın nəticəsindədir ki, artıq 1849-cu ilin mayında bu sinif bütün Avropa üsyanlarının əsil mübariz qüvvəsi olan fəhlə sinfinin e`timadını itirmişdi. Lakin bununla belə onun müvəffəqiyyət qazanmağa əlverişli imkanları vardı. İrticaçılar və liberallar geri çəkilib getdikləri vaxtdan bəri Almaniya parlamenti bütünlüklə bu sinfin əlində idi. Kənd əhalisi ona tərəf idi. Əgər bu sinif vəziyyəti aydın başa düşməkdən irəli gələn qətiyyət və cəsarətlə hərəkət etməyə başlasaydı, kiçik dövlətlərdəki orduların üçdə iki hissəsi, Prussiya ordusunun üçdə bir hissəsi, Prussiya landverinin böyük bir qismi (ehtiyatda olanlar və ya yığma qoşun) ona qoşulmağa hazır idi. Lakin bu sinfə başçılıq edən siyasətçilərin uzaqgörənliyi onların dalınca gələn xırda burjua kütləsinin uzaqgörənliyindən heç də artıq deyildi. Onlar liberallardan daha çox kor olduqlarını büruzə verdilər, məhz özlərində könüllü olaraq qoruyub saxladıqları xam xəyallardan daha inadla yapışırdılar, daha sadədil idilər, faktlarla ciddi surətdə hesablaşmaq qabiliyyətindən daha artıq dərəcədə məhrum idilər. Onların siyasi əhəmiyyəti də sıfırdan aşağı düşmüşdü. Lakin onlar öz mə`nasız prinsiplərini hələ fe`lən həyata keçirmədiklərinə görə, çox əlverişli şəraitdə qısa müddət üçün yenidən dirçələ bilərdilər, bu şərtlə ki, Lui Bonapartın dövlət çevrilişi onların kolleqaları olan Fransa «xalis demokratları» kimi, onların da bu son ümidini puça çıxartmayaydı.

Almaniyada ilk inqilabın tarixi Cənub-Qərbi Almaniyada üsyanın yatırılması və Almaniya parlamentinin qovulması ilə qurtarır. Bizə bir də bu qalır ki, əksinqilabi ittifaqın qalib gələn üzvlərinə son dəfə nəzər salaq. Biz bunu gələn məqaləmizdə edəcəyik191.

London, 24 sentyabr 1852-ci il.

1851-ci ilin avqustu–1852-ci ilin sentyabrında F.Engels yazmışdır.

1851-ci il oktyabrın 25 və 28-də, noyabrın 6, 7, 12 və 28-də; 1852-ci il fevralın 27-də, martın 5, 15, 18 və 19-da, aprelin 9, 17 və 24-də, iyulun 27-də, avqustun 19-da, sentyabrın 18-də, oktyabrın 2-də və 23-də «New-York Daily Tribune» qəzetində çap edilmişdir.

İmza: Karl Marks

F.ENGELS

BU YAXINLARDA KÖLNDƏ OLMUŞ MÜHAKİMƏ

London, çərşənbə, 1 dekabr 1852-ci il.

Ehtimal ki, Siz Prussiyada kommunistlərə qarşı düzəldilən dəhşətli Köln mühakiməsi46 və onun nəticəsi barəsində Avropa mətbuatı vasitəsi ilə çoxlu hesabat mə`lumatı almışsınız. Lakin bu hesabatların heç biri faktların təxmini də olsa düzgün şərhini vermədiyinə görə və bu faktlar Avropa qit`əsini buxovda saxlamağa kömək edən siyasi vasitələri aşkara çıxardıqına görə mən bu mühakimə üzərinə qayıtmağı lazım bilirəm. İttifaqlar və yığıncaqlar hüququnun ləğv edilməsi nəticəsində digər partiyalar kimi, kommunist və ya proletar partiyası da qit`ədə öz leqal təşkilatını yaratmaq imkanından məhrum olmuşdur. Bundan əlavə, kommunist partiyasının rəhbərləri öz ölkələrindən sürgün edilmişlər. Lakin heç bir siyasi partiya təşkilatsız yaşaya bilməz liberal burjuaziyanın, eləcə də demokratik xırda burjuaziyanın ictimai mövqeyi, maddi üstünlükləri və onun üzvlərinin çoxdan qərarlaşmış gündəlik qarşılıqlı münasibətləri belə bir təşkilatı müəyyən dərəcədə əvəz edə bildiyi halda, proletariat belə bir ictimai mövqedən və pul vəsaitindən məhrum olduğuna görə bu təşkilatı gizli birləşmələrdə axtarmağa məcbur idi. Məhz buna görə həm Fransada, həm də Almaniyada çoxlu gizli cəmiyyət meydana gəlmişdi və polis 1849-cu ildən başlayaraq onları bir-birinin ardınca aşkara çıxarır və qəsdçi təşkilatlar kimi tə`qib edirdi. Bu cəmiyyətlərin çoxu doğrudan da qəsdçi təşkilat idi və həqiqətən mövcud hökuməti devirmək məqsədi ilə yaradılmışdı,–axı kim müəyyən bir şəraitdə qəsdlər təşkil etməkdən çəkinərsə qorxaqdır, eyni ilə də başqa bir şəraitdə qəsdlər təşkil etmək

axmaqlıq olardı. Lakin bundan əlavə, başqa cəmiyyətlər də var idi və onlar öz qarşılarında daha geniş və daha ülvi məqsədlər qoyurdular,–bu cəmiyyətlər bilirdilər ki, mövcud hökuməti devirmək qarşıdakı böyük mübarizədə ancaq keçid mərhələsidir, onlar çalışırdılar ki, özəyini təşkil etdikləri partiyanı öz ətraflarında sıx birləşdirsinlər, onu Avropada təkcə «tiranların», «müstəbidlərin» və «qəsbkarların» hökmranlığını deyil, habelə müqayisəedilməz dərəcədə daha güclü və daha dəhşətli bir hakimiyyəti: kapitalın əmək üzərindəki hakimiyyətini gec-tez həmişəlik məhv edəcək son qəti döyüşə hazırlaşdırsınlar.

Almaniyada qabaqcıl kommunist partiyasının təşkilatı38 belə bir təşkilat idi. Bu partiya öz «Manifest»inin (1848-ci ildə dərc olunmuşdur) prinsiplərinə və «New-York Daily Tribune»149 də «Almaniyada inqilab və əksinqilab» adı ilə çap edilmiş məqalələr silsiləsində irəli sürülən müddəalara uyğun hərəkət edərək heç bir zaman xam xəyala qapılıb belə hesab etməmişdi ki, öz ideyalarını əməli surətdə həyata keçirəcək inqilabı guya kefi istədiyi vaxt və kefi istədiyi kimi edə bilərmiş. Bu partiya 1848-ci il inqilab hərəkatının səbəblərini və bu hərəkatın süqutu səbəblərini öyrənirdi. Bu partiya siniflərin ictimai antaqonizmini hər cür siyasi mübarizənin əsası hesab etdiyinə görə bu cəhəti tədqiq etməyə başlamışdı ki, hansı şəraitdə bir ictimai sinif millətin ümumi mənafeyini təmsil edə bilər və etməlidir, deməli, hansı şəraitdə milləti siyasi cəhətdən idarə edə bilər və etməlidir. Tarix kommunist partiyasına göstərmişdir ki, orta əsrlərdəki torpaq aristokratiyasının ardınca ilk kapitalistlərin pul qüdrəti necə əmələ gəlib artmışdı və sonra bu kapitalistlər hakimiyyəti necə öz əllərinə keçirmişdilər kapitalistlərin bu maliyyə fraksiyasının ictimai nüfuzu və siyasi hökmranlığı sənaye kapitalistlərinin–buxar tətbiq edilməyə başlanandan bəri–artan qüdrəti nəticəsində necə sıxışdırılıb aradan çıxarılmışdı və necə indi daha iki sinif–xırda burjualar sinfi ilə sənaye fəhlələri sinfi hökmran olmaq iddialarını irəli sürürlər. 1848–1849-cu illərin əməli inqilabi təcrübəsi ilə təsdiq edilmiş nəzəri mülahizələrdən bu nəticə çıxır ki, yalnız xırda burjua demokratiyasının növbəsi gəlib çatandan sonra kommunist fəhlə sinfi fasiləsiz mübarizə yolu ilə öz hakimiyyətini yaradacağına və özünü burjuaziyanın zülmü altında saxlayan muzdlu kölelik sistemini məhv edəcəyinə ümid bəsləyə bilər. Deməli, kommunistlərin gizli təşkilatının bilavasitə məqsədi Almaniyada mövcud hökumətləri devirməkdən ibarət ola bilməzdi. Bu təşkilat həmin

hökumətləri deyil, gec-tez onların yerinə gələcək üsyankar hökuməti devirmək üçün yaradılmışdı. Təşkilatın hər bir ayrıca üzvü məqamı gələndə «status quo»ya (mövcud qayda, mövcud vəziyyət. Red.) qarşı inqilabi hərəkata fəal yardım göstərə bilərdi və şübhəsiz, göstərirdi. Lakin bu hərəkatı kommunist ideyalarını kütlələr arasında gizli surətdə yaymaq yolu ilə deyil, başqa üsulla hazırlamaq Kommunistlər ittifaqının vəzifəsinə daxil ola bilməzdi. Bu cəmiyyət üzvlərinin çoxu onun əsasını təşkil edən bu prinsipləri o dərəcədə yaxşı başa düşürdü ki, cəmiyyətin bə`zi üzvlərinin şöhrətpərəstliyi və mənsəbpərəstliyi «ex tempore» (birdən-birə, heç bir hazırlıq görmədən. Red.) inqilab düzəltmək üçün İttifaqı qəsdçi təşkilata çevirmək cəhdlərinin edilməsi ilə nəticələnəndə, bu üzvlər İttifaqdan tez xaric edildilər.

Dünyada heç bir qanun bu cür İttisraqı qəsdçi təşkilat, dövlətə xəyanət məqsədi ilə yaradılmış gizli cəmiyyət adlandırmağa əsas verə bilməzdi. Bu hətta qəsd olsaydı da, mövcud hökumətə qarşı qəsd deyildi, onun yerini tutacağı ehtimal edilən xələfinə qarşı qəsd idi. Prussiya hökuməti bunu bilirdi. Məhz bu səbəbə görə idi ki, on bir nəfər müttəhimi on səkkiz ay təkadamlıq kameralarda həbsdə saxlamışdılar və hakimiyyət orqanları bu on səkkiz aydan ən əcayib yuridik kələklər qurmaq üçün istifadə etmişdi. Təsəvvür edin: dustaqlar səkkiz ay həbsdə qalandan sonra «onların hər hansı bir cinayətini sübuta yetirən dəlillər olmadığına görə» istintaqı davam etdirmək üçün bu adamları daha bir neçə ay zindanda saxlamışdılar! Müttəhimlər, nəhayət, andlı iclasçılar məhkəməsinə gətiriləndə isə, onları dövlətə qəsdən xəyanət etmək xarakteri daşıyan heç bir hərəkətdə ittiham edə bilmədilər. Lakin bununla belə onlar məhkum olundular onların necə məhkum olunduqlarını indi görəcəksiniz.

1851-ci ilin mayında İttifaqın emissarlarından biri (Notyunq. Red.) həbs olundu və ondan tapılan sənədlər əsasında həbslər davam etdirildi. Prussiyanın Ştiber adlı bir polis mə`muruna dərhal göstəriş verildi ki, bu uydurma qəsdin Londondakı şaxələrini izləsin. Ştiber, İttifaqdan xaric ediləndən sonra Parisdə və Londonda həqiqətən qəsd düzəldən və yuxarıda adı çəkilən dönüklərin bə`zi sənədlərini ələ keçirə bildi. Bu kağızlar ikiqat cinayətlə ələ keçirildi. Pul gücünə ələ alınan Röyter adlı bir nəfər bu cəmiyyət katibinin (O.Ditsin. Red.) yazı stolunu sındırıb oradan sənədləri oğurladı. Lakin bu hələ yalnız başlanğıc idi. Bu oğurluq Parisdə alman-fransız qəsdi192 deyilən qəsdin aşkara çıxarılmasına və onun

iştirakçılarının məhkum edilməsinə səbəb oldu, amma böyük Kommunistlər ittifaqına yol açmadı. Yeri gəlmişkən deyim ki, Paris qəsdinə Londonda bir neçə şöhrətpərəst axmaq və siyasi «chevaliers d`industrie» (fırıldaqçı. Red.), habelə saxtakarlığa görə keçmşidə məhkum edilib Parisdə polis casusu kimi fəadiyyət göstərən bir şəxs (Şerval. Red.) rəhbərlik edirdi. Onların aldadıb axmaq yerinə qoyduqları sarsaqlar özlərinin siyasi cəhətdən heçlikdən başqa bir şey olmadıqlarını qeyzli deklamasiyalarla, qan iyi gələn gurultulu ibarələrlə pərdələyirdilər. Beləliklə, Prussiya polisi yeni kəşflər axtarmalı oldu. Prussiya polisi Prussiyanın London səfirliyində əsl gizli polis şö`bəsi düzəltdi. Qreyf familiyalı bir polis agenti səfirliyin attaşesi adı altında gizlənib öz alçaq peşəsi ilə məşğul idi,–əslində bu üsul Prussiyanın bütün səfirliklərini beynəlxalq hüquqdan məhrum etmək üçün kifayət idi və belə bir üsula əl atmağa hələ heç avstriyalılar da cəsarət etməmişdilər. Qreyfin əli altında Londondakı Sitidən Flöri adlı bir tacir işləyirdi və onun bir qədər sərvəti və çox mö`təbər dairələrdə yaxın tanışları var idi; Fleri əclaflığa anadangəlmə mail olduqları üçün ən rəzil işlər törədən alçaq nacinslərdən idi. Başqa bir agent də Hirş adlı ticarət qulluqçusu idi ki, Londona gəlib çatdığı zaman ondan bir casus kimi şübhələnmişdilər. Hirş Londonda bir neçə nəfər mühacir alman kommunisti ilə yaxınlaşmışdı və onlar Hirşin həqiqətdə kim olduğunu yəqinləşdirmək üçün bir müddət dözüb onu öz aralarında saxlamışdılar. Çox keçmədən onun polislə əlaqəsini göstərən sübutlar əldə edildi və o vaxtdan c. Hirş gizləndi. Beləliklə, Hirş pula satdığı mə`lumatı toplamaq imkanını tamamilə itirmiş olsa da, hər halda fəaliyyətini dayandırmadı. O, yuxarıda adı çəkilən kommunistlərdən heç birinə bircə dəfə də rast gəlmədiyi Kensinqtondakı xəlvət guşəsində oturub məhz Prussiya polisinin heç cür tuta bilmədiyi qəsdçi təşkilatın uydurma mərkəzi komitəsinin uydurma iclasları haqqında hər həftə uydurma hesabatlar düzəldirdi. Bu hesabatlar son dərəcə cəfəng bir məzmunda idi. Çəkdiyi adların heç biri həqiqətə uyğun deyildi, familiyaların heç biri düz yazılmamışdı, bu və ya başqa bir şəxsin adına çıxılan sözlər həmin şəxsin deyə biləcəyi sözlərə əsla oxşamırdı. Hirşin müəllimi Flöri bu saxta sənədləri yazmaqda ona kömək edirdi; «attaşe» Qreyfin də bu alçaq işə əl qatmadığı əsla sübut olunmamışdır. Nə qədər ağlasığmaz olsa da, Prussiya hökuməti bu mə`nasız uydurmanı əsl həqiqət kimi qəbul etmişdi və təsəvvür etmək olar ki, bu növ şəhadətlər andlı iclaslılar məhkəməsinə

təqdim olunan ittiham materialını nə qədər dolaşdırmışdı. Mühakimə başlananda, yuxarıda adı çəkilən polis mə`muru c. Ştiber özü şahidlər kürsüsündə oturdu, and içib bütün bu mə`nasız uydurmaları təsdiq etdi və çox lovğalana-lovğalana inandırmaq istədi ki, onun gizli agentlərindən biri Londonda yaşayıb bu dəhşətli qəsdin əsas təşkilatçıları hesab edilmələri lazım gələn adamlarla ən yaxın əlaqə saxlayırmış. Bu gizli agent həqiqətən tamamilə gizli bir vəziyyətdə idi, çünki ən gizli niyyətləri, dedikləri söz və gördükləri işlər haqqında hər həftə uydurma mə`lumat verdiyi qəsd iştirakçılarından heç birinə rast gəlməsin deyə səkkiz aydan bəri qorxusundan Kensinqtondan kənara bir addım da atmırdı.
Lakin c. Hirşin və c. Flörinin ehtiyatda bir ixtirası daha var idi. Onlar nə qədər uydurma hesabat yazmışdılarsa hamısını yenidən işləyib, Prussiya polisinin israrla irəli sürdüyü iddiaya görə mövcud olan gizli ali komitə iclaslarının «əsil protokollar dəftəri» şəklinə salmışdılar. C-b Ştiber isə eyni şəxslərdən aldığı hesabatlarla bu dəftərin bir-birinə heyrət ediləcək dərəcədə uyğun gəldiyini gercək dəftəri andlı iclasçılara təqdim etdi və yenə and içib dedi ki, ciddi tədqiqatdan sonra bunun guya əsil protokol dəftəri olduğuna möhkəm qənaət gətirmişdir. Hirşin mə`lumat verdiyi cəfəng uydurmaların əksər hissəsi məhz o zaman e`lan olundu. Təsəvvür etmək olar ki, bu gizli komitənin uydurma üzvləri öz barələrində o vaxtadək heç ağıllarına da gətirmədikləri sözlər deyildiyini eşidəndə nə qədər heyrətlənmişdilər. Xaç suyuna salındığı zaman adı Vilhelm qoyulan adam burada dönüb Lüdviq və ya Karl olmuşdu; bə`zilərinin Londonda elə bir vaxtda nitq söylədiyi iddia edilirdi ki, bu zaman onlar İngiltərənin başqa yerində imişlər; bə`zilərinin elə məktublar oxuduğu bildirilirdi ki, onlar heç bir zaman bu cür məktub almamışdılar; göstərilirdi ki, onlar hər cümə axşamı müntəzəm yığıncaq düzəldirmişlər, halbuki onlar sadəcə həftənin hər çərşənbə günü dost kimi bir yerə yığışıb görüşməyə adət etmişdilər; yazı yazmağı güclə bacaran bir fəhlə protokolların tərtibçilərindən biri kimi qələmə verilirdi və guya tərtibçilərdən biri kimi də imza atırdı; onların hamısı elə bir dildə danışdırılırdı ki, bu dil əslində Prussiya polis məntəqəsində işlədilirdi, heç də öz vətənində yaxşı tanınmış ədiblərin əksəriyyət təşkil etdiyi bir cəmiyyətin dili deyildi. Ən nəhayət, qondarma mərkəzi komitənin uydurma katibinin guya protokol dəftərini verib müqabilində saxtakarlardan pul aldıqı haqqında yalançı bir qəbz də

düzəldilmişdi. Lakin bu uydurma katibin varlığı tamamilə, hansı bir hiyləgər kommunistinsə biçarə Hirşə qurduğu kələyə əsaslanırdı.
Bu kobud saxtakarlıq o qədər rüsvayçı saxtakarlıq idi ki, onun tə`siri istənilənin tamamilə əksinə olmaya bilməzdi. Müttəhimlərin Londondakı dostları andlı iclasçıları işin təfsilatı ilə tanış etmək imkanından tamamilə məhrum edilmiş olsalar da, müttəhimlərin müdafiəçilərə göndərdiyi məktublar poçtdan götürülürdüsə də onların bu vəkillərə bir təhər çatdıra bildiyi sənədlər və and içdirilib alınmış yazılı ifadələr məhkəmədə sübut kimi qəbul edilmədisə də, ümumi qəzəb o dərəcədə coşmuşdu ki, hətta dövlət ittihamçıları da, and içib protokollar dəftərinin həqiqi olduğuna zamin olmuş c. Ştiber özü də onun saxtalığını təsdiq etmək məcburiyyətində qaldılar.
Lakin bu saxtakarlıq polisin müqəssir olduğu yeganə saxtakarlıq deyildi. Mühakimə zamanı bu cür iki və ya üç fakt daha üzə çıxdı. Polis, Röyterin oğurladığı sənədlərə əlavələr etməklə bu sənədləri saxtalaşdırıb mə`nasını təhrif etmişdi. Ağlasığmaz hədyanla dolu bir sənəd d-r Marksın xəttinə oxşadılan saxta bir xətlə yazılmışdı və bir müddət məhz onun adına çıxılırdı, nəhayət, ittihamçı tərəf bu sənədin saxtalığını e`tiraf etməyə məcbur oldu. Lakin polis özünün ifşa edilən hər bir alçaq hərəkətinin əvəzində beş və ya altı yeni alçaq hərəkət edirdi və bunları dərhal ifşa etmək mümkün olmurdu, çünki müdafiəçiləri qəfildən yaxalamağa çalışırdılar, sübutları Londonda toplamaq lazım gəlirdi, Londondakı mühacir kommunistlərlə müdafiəçilərin hər bir yazışmasına isə məhkəmədə güman olunan qəsddə iştirak etmək nəzəri ilə baxılırdı!
C-b Ştiber şahid kimi verdiyi ifadədə təsdiq etdi ki, Qreyf və Flöri yuxarıda necə təsvir edilmişdilərsə, məhz o cürdürlər. Hirş isə Londonda polis məhkəməsinin hakimi qarşısında boynuna aldı ki, «protokollar dəftərini» Flörinin əmri və köməyi ilə saxtakarlıqla düzəltmişdi, sonra isə cinayət cəzasından yaxasını qurtarmaq üçün İngiltərədən qaçıb gizlənmişdi.
Mühakimə zamanı edilən bu qədər rüsvayçı ifşalar hökuməti son dərəcə çətin vəziyyətə saldı. Bu mühakimədə andlı iclasçıların tərkibi Reyn əyalətində hələ görünməmişdi: altı nəfər xalis mürtəce zadəgan, dörd nəfər pul maqnatı və iki nəfər hökumət mə`muru. Bu adamlar altı həftə ərzində öz qarşılarında qalaq-qalaq toplanan qarışıq ifadələr yığınını diqqətlə araşdırmağa o qədər də meyl göstərmirdilər, çünki onların qulaqlarında mütəmadiyən ucadan səslənən sözlərdə deyilirdi ki, müttəhimlər müqəddəs

nə varsa hər şeyi mülkiyyəti, ailəni, dini, quruluşu, hökuməti və qanunları devirmək məqsədini güdən qorxulu bir kommunist qəsdinin başçısıdırlar! Lakin bununla belə, hökumət bu mühakimədə bəraət hökmü verməyin andlı iclasçvşar məhkəməsini ləğv etmək üçün bir işarə olacağını, açıq bir siyasi nümayiş kimi, hətta ən ifrat inqilabçılarla ittifaq bağlamağa liberal burjua müxalifətinin hazır olduğuna bir sübut kimi qarşılanacağını imtiyazlı siniflərə elə bu zaman hiss etdirməsəydi, çıxarılacaq hökm hər halda bəraət hökmü olacaqdı. Hər halda hökumət Prussiyanın yeni cinayət məcəlləsini guya geriyə qüvvəsi olan bir qanun kimi tətbiq edərək, məhbuslardan yeddi nəfərinin məhkum edilməsinə nail oldu, bəraət hökmü isə yalnız dörd nəfərə verildi. Məhkum edilənlərə üç ildən altı ilədək, müxtəlif müddətli həbs cəzası kəsildi. Şəksiz ki, vaxtilə bu xəbər Sizə gəlib çatanda Siz bu barədə mə`lumat vermişdiniz.

1852-ci il noyabrın 29-da F.Engels yazmışdır.

1852-ci il dekabrın 22-də «New-York Daily Tribune» qəzetinin 3645-ci №-də çap edilmişdir.

İmza: Karl Marks.

K.MARKS

LUİ BONAPARTIN ON SƏKKİZ BRÜMERİ193

1869-cu İLDƏKİ İKİNCİ NƏŞRİNƏ K.MARKSIN MÜQƏDDİMƏSİ

Mənim vaxtından əvvəl vəfat edən dostum İosif Veydemeyer (Amerika vətəndaş müharibəsi zamanı Sent Luis mahalının hərbi rəisi vəzifəsində idi.) 1852-ci il yanvarın 1-dən e`tibarən Nyu-Yorkda həftəlik siyasi jurnal nəşr etmək fikrində idi. O həmin jurnal üçün «coup d`etat» (dövlət çevrilişinin. Red.) tarixini yazmağı məndən xahiş etmişdi. Bu xahişə görə mən fevralın ortalarınadək onun üçün hər həftə «Lui Bonapartın on səkkiz brümeri» sərlövhəli məqalələr yazırdım. Lakin bu müddət ərzində Veydemeyerin əvvəlki planı boşa çıxdı. Bunun əvəzində Veydemeyer 1852-ci ilin yazında «Die Revolution» adlı aylıq jurnal nəşr etməyə başladı ki, bunun da birinci buraxılışı məhz mənim «On səkkiz brümerimdən» ibarətdir. Bu əsərin bir neçə yüz nüsxəsi o zaman Almaniyaya keçirilmişdisə də, əsil kitab bazarına çıxmamışdı. Özünü ifrat radikal kimi göstərən bir alman kitab alverçisi bu əsərimin satılmasını öz üzərinə götürməsini ona təklif edəndə mənim bu təklifimi «vaxtsız iş» hesab edib açıq dəhşətlə rədd etdi.

Deyilənlərdən görünür ki, təqdim edilən əsər hadisələrin bilavasitə tə`siri altında yazılmışdır və burada işlənmiş tarixi material yalnız 1852-ci ilin fevralınadək olan dövrü əhatə edir. Bu əsərin indiki yeni nəşrinə səbəb qismən kitab bazarındakı tələb, qismən də Almaniyadakı dostlarımın tə`kididir.

Mənim əsərimlə, demək olar, bir zamanda çıxıb eyni məsələyə həsr edilmiş əsərlərdən yalnız ikisi diqqətəlayiqdir: Viktor Hüqonun «Kiçik Napoleonu» və Prudonun «Dövlət çevrilişi».

Viktor Hüqo dövlət çevrilişinin məs`ul naşiri üzərinə kəskin və tutarlı hücumlarla kifayətlənir. hadisənin özü onun əsərində aydın bir gündə qopan göy gurultusu kimi təsvir olunur. Hüqo həmin hadisəni yalnız bir fərdin zorakı hərəkəti hesab edir. O görmür ki, həmin fərdə ümumdünya tarixində misilsiz bir şəxsi təşəbbüs qüdrəti isnad verməklə, onu kiçik deyil, böyük bir şəxsiyyət kimi təsvir edir. Prudon dövlət çevrilişini əvvəlki tarixi inkişafın nəticəsi kimi göstərməyə çalışır. Lakin onun əsərində dövlət çevrilişi tarixinin təsviri nəzərə çarpmadan həmin çevriliş qəhrəmanının tarixi mədhinə çevrilir. Beləliklə, o bizim obyektiv tarixçi adlandırılanların səhvini təkrar edir. Mən, əksinə, göstərirəm ki, Fransada sinfi mübarizə adi və gülünc bir şəxsiyyətin qəhrəman rolu oynamasına imkan verən şərait və vəziyyəti necə yaratdı.

Təqdim edilən əsər yenidən işlənsəydi, öz xüsusi boyasını itirmiş olardı. Buna görə də mən mətbəə xətalarını düzəltmək və indi anlaşılmaz olan işarələri çıxarıb atmaqla kifayətləndim.

Əsərimin axırında yazdığım «Lakin imperator ləbbadəsi, nəhayət, Lui Bonapartın əyninə taxılmış olsa, Napoleonun tunc heykəli Vandom sütununun başından yıxılmış olacaqdır»194–sözləri artıq həqiqət olmuşdur. Polkovnik Şarras 1815-ci il yürüşü haqqındakı əsərində Napoleona pərəstiş edilməsinə qarşı hücuma keçmişdir. O zamandan e`tibarən, xüsusilə son illər ərzində, fransız ədəbiyyatı tarixi tədqiqat, tənqid, satira və məzhəkə silahı vasitəsi ilə Napoleon əfsanəsini həmişəlik aradan qaldırmışdır. Ən`ənəvi xalq e`tiqadı ilə əlaqənin belə kəskin şəkildə kəsilməsi, bu çox böyük mə`nəvi inqilab Fransadan xaricdə az diqqət cəlb etmiş və daha az başa düşülmüşdü.

Nəhayət mən ümid edirəm ki, mənim əsərim xüsusilə indi Almaniyada dillərə düşmüş bir məktəbli ibarəsinin–sezarçılıq ibarəsinin aradan qalxmasına kömək edəcəkdir. Bu səthi tarixi müqayisə zamanı belə bir

başlıca cəhəti yaddan çıxarırlar ki, Qədim Romada sinfi mübarizə yalnız imtiyazlı azlıq içərisində, azad varlılarla azad yoxsullar arasında gedirdi, halbuki əhalinin çox böyük məhsuldar kütləsi olan qullar bu mübarizlər üçün yalnız passiv bir zəmin olmuşdu. Sismondinin belə bir sərrast qeydini unudurlar: Roma proletariatı cəmiyyətin hesabına yaşayırdı, halbuki müasir cəmiyyət proletariatın hesabına yaşayır195. Siniflərin antik mübarizəsi ilə müasir mübarizəsinin maddi, iqtisadi şəraiti arasında belə əsaslı bir fərq olduğuna görə, həmin mübarizənin doğurduğu siyasi simalar arasında da ümumi cəhət Kenterberi arxiyepiskopu ilə baş keşiş Samuil arasındakından artıq ola bilməz.

Marl Marks. London, 23 iyun 1869-cu il.

K.Marksın 1869-cu ildə Hamburqda çıxan «Lui Bonapartın on səkkiz brümeri» əsərinin ikinci nəşrində çap edilmişdir.

1885-ci İL ALMANCA ÜÇÜNCÜ NƏŞRİNƏ F.ENGELSİN MÜQƏDDİMƏSİ

«On səkkiz brümer»in birinci çapından otuz üç il sonra onun yeni nəşrinə ehtiyac olması sübut edir ki, bu əsər indiyədək öz əhəmiyyətini qətiyyən itirməmişdir.

Doğrudan da, bu dahiyanə bir əsər idi. Aydın bir gündə qopan göy gurultusu kimi bütün siyasi aləmi heyrətləndirən bir hadisədən–bə`zilərinin mə`nəvi hiddət bağırtıları ilə lə`nət oxuduğu, bə`zilərinin isə inqilabdan nicat verəcək bir çarə və inqilabın səhvlərinin cəzası hesab etdiyi, lakin hamıda yalnız heyrət doğurub heç kəsin başa düşmədiyi bir hadisədən bilavasitə sonra,–bilavasitə bu hadisədən sonra Marks epiqram şəklində yazılmış öz qısa əsərini buraxdı, həmin əsərdə fevral günlərindən başlayaraq Fransa tarixinin bütün gedişini daxilən əlaqədar şəkildə şərh etdi və 2 dekabr mö`cüzəsində196 bu əlaqənin təbii, labüd nəticəsini aşkara çıxartdı, həm də bunun üçün dövlət çevrilişi qəhrəmanına onun tamamilə haqlı olaraq nifrətlə yanaşmaqdan başqa bir münasibət bəsləməsi lazım gəlmədi. Marks mənzərəni o qədər məharətlə təsvir etmişdi ki, sonralar edilən hər bir yeni ifşa həmin mənzərədə həqiqətin nə qədər düzgün əks olunduğunu ancaq bir daha sübut edirdi. Günün canlı tarixini bu qədər gözəl başa düşmək, hadisələr lap baş verdiyi zaman onların mə`nasını bu qədər aydın dərk etmək, doğrudan da, misilsizdir.

Bunun üçün isə Fransa tarixini məhz Marks kimi dərin bilmək lazım gəlirdi. Fransa elə bir ölkədir ki, orada siniflərin tarixi mübarizəsi hər dəfə

başqa ölkələrdəkinə nisbətən daha çox qəti sona çatırdı. Dəyişkən siyasi formalar, bunların daxilində gedən bu sinfi mübarizə və bu mübarizənin yenə həmin formalar daxilində öz ifadəsini tapan nəticələri Fransada ən kəskin şəkillərdə meydana çıxırdı. Orta əsrlərdə feodalizmin mərkəzi, Renessans zamanından vahid silk monarxiyası nümunəsi olan Fransa böyük inqilab zamanı feodalizmi darmadağın etdi və burjuaziyanın xalis hökmranlığını Avropanın başqa heç bir ölkəsində təsadüf edilməyən klassik aydınlıqla yaratdı. Baş qaldıran proletariatın hakim burjuaziyaya qarşı mübarizəsi də burada başqa ölkələrin görmədiyi kəskin formada meydana çıxır. Məhz buna görə dir ki, Marks Fransanın nəinki keçmiş tarixini xüsusi diqqətlə öyrənirdi, həmçinin onun cari tarixini də bütün təfərrüatı ilə izləyərək, gələcəkdə istifadə etmək üçün material toplayırdı. Buna görə də hadisələr onun üçün heç zaman gözlənilməz olmurdu.
Buna başqa bir cəhət də əlavə oldu. Tarixin böyük hərəkət qanununu ilk dəfə məhz Marks kəşf etdi; həmin qanuna görə, hər hansı bir tarixi mübarizə–istər siyasi, dini, fəlsəfi, istərsə də hər hansı başqa bir ideoloji sahədə olsun,–əslində ictimai siniflər mübarizəsinin yalnız az-çox aydın ifadəsidir, bu siniflərin varlığı və bununla birlikdə onların bir-biri ilə toqquşmaları isə onların iqtisadi vəziyyətinin inkişaf dərəcəsi ilə, istehsalın xarakteri və üsulu ilə, nəhayət, istehsalın müəyyən etdiyi mübadilənin xarakteri və üsulu ilə bağlıdır. Enerjinin çevrilməsi qanununun təbiiyyat üçün nə kimi əhəmiyyəti vardırsa, tarix üçün də eyni əhəmiyyəti olan həmin qanun Marks üçün bu halda İkinci Fransa respublikasının tarixini başa düşmək vasitəsi oldu. O kəşf etdiyi qanunu həmin tarixə əsaslanaraq bu əsərdə yoxladı, həm də hətta otuz üç il keçdikdən sonra yenə e`tiraf etmək lazım gəlir ki, bu yoxlama parlaq nəticə verdi.
F. E.
1885-ci ildə yazılmışdır.
Aşaqıdakı kitabda çap olunmuşdur:
KaN Maqx. «Der Achtzehnte Brumaire des Louis Bonaparte». Hamburg, 1885
LUİ BONAPARTIN ON SƏKKİZ BRÜMER İ193
I
Hegel harada isə qeyd edir ki, dünya miqyasındakı bütün böyük tarixi hadisə və şəxsiyyətlər, necə deyərlər, iki dəfə meydana çıxır. Hegel bu cəhəti əlavə etməyi unutmuşdur ki, birinci dəfə façiə şəklində, ikinci dəfə

isə məzhəkə şəklində. Dantonun əvəzində Kossidyer, Robespyerin əvəzində Lui Blan, 1793–1795-ci illərdəki Dağ əvəzində 1848–1851-ci illərdəki Dağ, əminin əvəzində qardaş oğlu. On səkkiz brümerin ikinci nəşri zamanında yaranmış şəraitdə də eyni karikatura görünür!197
İnsanlar öz tarixlərini özləri yaradırlar, lakin bu tarixi istədikləri kimi yaratmırlar, özlərinin seçdiyi şəraitdə deyil, bilavasitə meydanda olan, onlara verilən və keçmişdən qalmış şəraitdə yaradırlar. Bütün ölüb getmiş nəsillərin ən`ənələri bir kabus kimi canlıların zehnini məşğul edir. İnsanlar məhz özlərini və öz mühitini sanki yalnız dəyişdirmək və hələ misli görünməmiş bir şey yaratmaqla məşğul olduqları bir zamanda, məhz bu cür inqilabi böhran dövrlərində qorxa-qorxa ovsuna əl ataraq keçmişin ruhlarına müraciət edib onları köməyə çağırır, onlardan ad, döyüş şüarları, libas iqtibas edirlər ki, bu qədim müqəddəs libasda, kənardan qəbul edilən bu dildə dünya tarixinin yeni bir səhnəsini oynasınlar. Məsələn, Lüter apostol Pavelin cildinə girirdi, 1789–1814-cü illər inqilabı növbə ilə gah Roma respublikası libası, gah da Roma imperiyası libası geyirdi, 1848-ci il inqilabı isə gah 1789-cu ili, gah da 1793–1795-ci illərin inqilabi ən`ənələrini təqlid etməkdən yaxşı bir şey tapmamışdı.
Beləliklə də yenicə xarici dil öyrənmiş bir adam həmişə bu dili fikrində öz ana dilinə tərcümə edir və nə qədər ki, fikirdə tərcümə etmədən keçinə bilmir, yeni dildə öz ana dilini unutmur, yeni dilin ruhunu hələ başa düşməmişdir və bu dili sərbəst surətdə bilmir.
Ölülərin dünya miqyasındakı bu tarixi ovsunları nəzərdən keçiriləndə bunların arasındakı kəskin fərq dərhal gözə çarpır. Kamill Demulen, Danton, Robespyer, Sen-Jüst, Napoleon, köhnə Fransa inqilabının həm qəhrəmanları, həm də partiyaları və xalq kütlələri öz zəmanələrinin vəzifəsini–buxovlardan azad olmaq və müasir burjua cəmiyyəti qurmaq vəzifəsini Roma libasında və Roma ibarələri vasitəsi ilə yerinə yetirirdilər. Bunlardan bə`ziləri feodalizmin əsaslarını tamamilə dağıdıb onun zəmini üzərində meydana gələn feodal başlarını kəsib atdılar. Digəri Fransa daxilində elə bir şərait yaratdı ki, azad rəqabətin inkişafı, parsel torpaq mülkiyyətinin istismarı, millətin buxovlardan azad olmuş sənaye məhsuldar qüvvələrinin tətbiqi yalnız bu şəraitdə mümkün oldu; Fransadan kənarda isə o hər yerdə feodal formalarını o dərəcədə dağıdırdı ki, bu, Fransadakı burjua cəmiyyətindən ötrü Avropa kontinentində dövrün tələbatına uyğun bir mühit yaratmaq üçün lazım idi. Lakin yeni ictimai

formasiya yaranan kimi, qədim nəhənglər və onlarla birlikdə dirildilən bütün qədim Roma ölüləri–bütün bu Brutlar, Qrakxlar, Publikollar, tribunlar, senatorlar və Sezar özü aradan qalxdı. Gözüaçıq işgüzar burjua cəmiyyəti Söylər, Kuzenlər, Ruaye-Kollarlar, Benjamen Konstanlar və Gizoların simasında özünün əsil təfsirçi və carçılarını tapdı; onun əsil sərkərdələri ticarət kontorlarında əyləşmişdilər, onun siyasi başçısı boynuyoğun XVIII Lüdovik idi. Bütünlüklə sərvət yaratmaqla və dinc rəqabət mübarizəsi ilə məşğul olan bu cəmiyyət daha yadına gətirmirdi ki, onun beşiyini qədim Roma kabusları mühafizə etmişdilər. Lakin burjua cəmiyyəti nə qədər az qəhrəman bir cəmiyyət olsa da, onun meydana gəlməsi üçün qəhrəmanlıq, fədakarlıq, terror, vətəndaş müharibəsi və xalqların vuruşmaları lazım gəldi. Burjua cəmiyyətinin qladiatorları öz mübarizələrinin məhdud burjua məzmununu özlərindən gizlətmək üçün, özlərinin ruh yüksəkliyini böyük tarixi faciə səviyyəsində saxlamaq üçün, Roma respublikasının klassik ciddi ən`ənələrində özlərinə lazım olan ideal və bədii formalar, xəyallar tapdılar. Məsələn, bir əsr əvvəl, başqa bir inkişaf mərhələsində, Kromvel və ingilis xalqı Əhdi-ətiqdən götürülən dildən, ehtiras və xəyallardan öz burjua inqilabı üçün istifadə etdilər. Əsil məqsəd əldə ediləndən, İngiltərə cəmiyyəti burjua qaydası ilə yenidən qurulandan sonra isə, Avvakum peyğəmbəri Lokk sıxışdırıb aradan çıxartdı.

Beləliklə, həmin inqilablarda ölulərin yenidən dirildilməsi köhnə mübarizəni təqlid etməyə deyil, yeni mübarizəni yüksəltməyə xidmət edirdi, bu vəzifəni həqiqətdə yerinə yetirməkdən yaxa qurtarmağa deyil, xəyalda onun əhəmiyyətini yüksəltməyə xidmət edirdi,–inqilab kabusunu yenidən dolaşmağa məcbur etməyə deyil, inqilab ruhunu yenidən tapmağa xidmət edirdi.

1848–1851-ci illərdə köhnə Bayinin libasını geyinmiş «republicain en gants jaunes» (yumşaq dəridən əlcək taxan respublikaçı. Red.) Marrastdan başlayaraq, bayağı-iyrənc üzünü ölü Napoleonun dəmir maskası altında gizlədən avantüristə qədər ancaq köhnə inqilabın kabusu dolaşırdı. İnqilab vasitəsi ilə öz irəliləmə hərəkətini sür`ətləndirmiş olduğunu güman edən bütöv bir xalq birdən-birə geriyə, ölüb getmiş bir dövrə qaytarılmış olur. Bu barədə heç bir şübhə olmasın deyə çoxdan bəri əntiqəçi alimlərin malı olan köhnə tarixi günlər, köhnə tarix hesabı, köhnə adlar, köhnə fərmanlar və güman ki, çoxdan çürümüş köhnə jandarmlar yenidən canlanır. Millət

özünü Bedlama198 salınmış dəli bir ingilis kimi hiss edir ki, özünü fironların müasiri xəyal edən bu dəli ingilis Həbəşistanın qızıl mə`dənlərində, bu yeraltı həbsxanasında, əlində uzun qamçı qullara nəzarət edən gözətçinin və çıxacaq yollarında durub müxtəlif dillərdə danışdıqlarına görə nə bu katorqalıları, nə də bir-birini başa düşən barbar əsgərlərin nəzarəti altında, öz başına bağlanmış lampanın tutqun işığında hər gün gördüyü ağır işdən acı-acı şikayətlənir. Bu dəli ingilis ah-nalə ilə deyir: «Mən azad britt olaraq doğulduğum halda qədim fironlardan ötrü qızıl çıxarmaq üçün bütün bunlara dözməli oluram». Fransız milləti isə ah-nalə ilə deyir: «Bonapart ailəsinin borclarını vermək üçün bunlara dözməli oluram». İngilis Hələ ağlı başında olduğu zaman, qızıl əldə etmək fikri kimi onu rahat buraxmayan fikirdən yaxasını qurtara bilmirdi. Fransızlar, nə qədər ki, inqilabla məşğul idilər, 10 dekabr seçkilərinin199 sübut etdiyi kimi, Napoleon haqqındakı xatirələrdən yaxalarını qurtara bilmirdilər. İnqilab təhlükələri onları geriyə çəkib Misrin ət çölməklərini200 onlara xatırladırdı, bunun da cavabı 1851-ci il dekabrın 2-si oldu196. Onlara nəinki köhnə Napoleonun karikaturası çatdı,–onlara karikatura şəklində köhnə Napoleonun özü, həm də XIX əsrin ortalarında görünməli olduğu şəkildə çatdı.

XIX əsrin ictimai inqilabı öz poeziyasını keçmişdən deyil, yalnız gələcəkdən ala bilər. Bu inqilab keçmiş qarşısındakı hər cür mövhumatçı pərəstişi aradan qaldırmazdan əvvəl öz vəzifəsini yerinə yetirməyə başlaya bilməz. Əvvəlki inqilablar öz məzmunu barəsində özünü aldatmaq üçün keçmişin dünya miqyasında tarixi hadisələri haqqındakı xatirələrə əl atmalı idi. XIX əsr inqilabı öz məzmununu başa düşmək üçün ölülərə öz ölülərini dəfn etmək imkanı verməlidir. Orada ibarə məzmundan yüksək idi, burada məzmun ibarədən yüksəkdir.

Fevral inqilabı köhnə cəmiyyət üçün gözlənilməz idi, bu inqilab həmin cəmiyyət üçün qəflətən baş verdi, xalq da qəfildən vurulan bu zərbəni yeni dövr açan dünya miqyasında tarixi hadisə e`lan etdi. Fevral inqilabı dekabrın 2-də mahir bir fırıldaqçının əlində yox olur və nəticədə monarxiya özü məhv edilmək deyil, əsrlər boyu davam edən mübarizə vasitəsi ilə monarxiyadan qopardılıb alınan liberal güzəştlər məhv olur. Cəmiyyətin özü cəmiyyət üçün yeni məzmun əldə etmək əvəzində, yalnız dövlət özünün ən qədim formasına, qılınç və ləbbadənin ibtidai şəkildə həyasız hökmranlığına qayıtmış oldu. 1848-ci ilin fevralındakı «coup de main»a

(cəsarətli zərbə, qəti hərəkət. Red.) 1851-ci ilin dekabrındakı «coup de tete» (düşüncəsiz hərəkət, həyasızcasına hərəkət. Red.) cavab olur. Necə gəlmişdisə, elə də getdi. Lakin bu hadisələr arasında keçən vaxt hədər getmədi. 1848–1851-ci illər ərzində Fransa cəmiyyəti, inqilabi yol olan qısa yolla elə ibrət dərsi və təcrübə əldə etdi ki, bunlar düzgün, necə deyərlər, müntəzəm inkişaf gedişi şəraitində fevral inqilabından əvvəl gələrək, onu səthi, sadə bir sarsıntıdan daha ciddi bir şeyə çevirməli idi. İndi cəmiyyət öz başlanğıc nöqtəsindən sanki geridə qalmışdır; əslində cəmiyyət öz inqilabının başlanğıc nöqtəsini hələ yenicə yaratmalı olur, elə vəziyyət, münasibətlər və şərait yaratmalı olur ki, müasir inqilab yalnız bunlar mövcud olduqda ciddi bir xarakter ala bilər.

Məsələn, XVIII əsr inqilabları kimi burjua inqilabları böyük sür`ətlə müvəffəqiyyətlər qazanır, bu inqilablarda əldə edilən dramatik tə`sirlər bir-birindən daha parlaqdır, adamları və şeyləri sanki bir fişəng işıqlandırır, hər gündə bir coşqunluq nəfəsi var, lakin bunlar tez keçib gedir, tezliklə ən yüksək nöqtəyə çatır və cəmiyyət öz fırtına və təzyiq dövrünün nəticələrini ayıqlıqda hələ düzgün başa düşməzdən əvvəl uzun müddət xumarlanır. XIX əsrdəki inqilablar kimi proletar inqilabları, əksinə, daim öz-özünü tənqid edir, tez-tez yarı yolda dayanır, artıq yerinə yetirilmiş kimi görünən bir işə qayıdır ki, ona bir daha yenidən başlasın, özünün ilk təşəbbüslərinin yarımçıqlığını, zəif cəhətlərini və yararsızlığını amansız bir kəskinliklə lağa qoyur, öz əleyhdarını sanki yalnız ona görə vurub yıxır ki, o, torpaqdan yeni qüvvə alsın və əvvəlkindən daha artıq qüdrətlə yenə ayağa qalxsın, öz məqsədlərinin qeyri-müəyyən əzəməti qarşısında dəfələrlə geri çəkilir, nəhayət, geri çəkilmək yollarının hamısını kəsən bir vəziyyət yaranır və həyat özü amiranə bir səslə deyir:

Hic Rhodus, hic salta!

Bu qızıl gül, buyur oyna![201]

Lakin Fransadakı hadisələrin inkişafını hətta addım-addım izləməmiş az-çox müşahidəli hər bir adam da qabaqcadan hiss etməli idi ki, bu inqilab çox böyük bir rüsvayçılığa düçar olacaqdır. 1852-ci il mayın ikinci bazar günündən çox xoş nəticə gözləndiyi münasibəti ilə cənab demokratların bir-birini təbrik edirkən eşidilən lovğa qalibiyyət hürüşməsinə qulaq asmaq kifayət idi[202]. İsanın zühur edib ikinci dəfə dünyaya gəlməsi və xiliastların min illik səltənətinin başlanması günü[203] kimi, 1852-ci il mayın ikinci bazar günü də onların zehnini məşğul edən bir ideya, bir ehkam oldu.

Zəiflik, həmişə olduğu kimi, mö`cüzəyə inanmaqla özünə nicat tapırdı, düşməni öz xəyalında hər hansı bir ovsun vasitəsi ilə aradan qaldıra bilirdisə, onu məğlub edilmiş hesab edirdi və özünü gözləyən gələcəyi, göstərmək istədiyi, lakin hələlik bu barədə danışmağı vaxtsız hesab etdiyi igidlikləri fəaliyyətsizliklə tə`rifləyib göylərə qaldırmaq üzündən hər bir reallıq hissini itirirdi. Özlərinin açıq-aydın qabiliyyətsizliyi haqqındakı rə`yi bir-birinə rəğbət bəsləmək və ayrıca bir qrup halında birləşməklə rədd etməyə çalışan bu qəhrəmanlar artıq öz şələ-şülələrini yığışdırmışdılar və öz şərəf əklillərini bu başdan götürərək, özlərinin «in partibus»81 respublikalarını birjada işə verməyə hazırlaşırdılar və bu respublikalar üçün onlar əvvəlcədən xəlvəti və özlərinə məxsus təvazökarlıqla hökumət adamları ayırmışdılar. Dekabrın 2-si günü onları, aydın bir gündə qopan göy gurultusu kimi sarsıtdı. Həm də ruh düşgünlüyü dövrlərində öz daxili qorxularını boğmaq üçün ən ucadan bağıranlara həvəslə qulaq asan xalqlar bu dəfə, bəlkə də, yəqin etdilər ki, qazların qaqqıldamasının Kapitolini xilas edə bildiyi vaxtlar keçib getmişdir204.

Konstitusiya, Milli məclis, sülalə partiyaları, göy və qırmızı respublikaçılar, Afrika qəhrəmanları, tribuna hay-küyü, mətbuat şəfəqləri, bütün ədəbiyyat, siyasi adlar və elmi şərəf, mülki qanun və cinayət hüququ, «liberte, egalite, fraternite» (azadlıq, bərabərlik, qardaşlıq. Red.) və 1852-ci il mayın ikinci bazar günü–hər şey, hətta düşmənlərinin yanında cadugər sayılmayan bir adamın ovsunlu formulu qarşısında bir xəyal kimi yox olub getdi. Ümumi seçki hüququ, sanki bir an yalnız ona görə qaldı ki, bütün dünyanın gözü qarşısında öz əli ilə öz vəsiyyətini hazırlasın və xalqın öz adından desin «Yaranan hər şey məhv olmağa layiqdir» (Göte. «Faust», I hissə, üçüncü səhnə («Faustun kabineti»). Red.).

Fransızlar kimi, belə demək kifayət deyildir ki, onların milləti qəfildən yaxalanmışdı. Bir qadın üçün olduğu kimi, bir millət üçün də əfvedilməz bir səhvdir ki, özünə təsadüfən rast gələn bir macərapərəst tərəfindən zorlanmasına yol verən bir dəqiqəlik diqqətsizlik göstərmiş olsun. Bu cür ibarələr məsələni həll etmir, onu ancaq başqa cür ifadə edir. Bunu hələ izah etmək lazımdır ki, üç nəfər fırıldaqçı 36 milyonluq bir milləti necə qəflətən yaxalayıb müqavimətsiz əsir edə bilər.

Fransa inqilabının 1848-ci il fevralın 24-dən 1851-ci ilin dekabrınadək keçdiyi mərhələləri ümumi şəkildə yekunlaşdıraq.

Şübhəsiz, üç başlıca dövr bunlardır: fevral dövrü; 1848-ci il mayın 4-dən 1849-cu il mayın 28-dək: respublika, yaxud Milli müəssislər məclisi yaradılması dövrü; 1849-cu il mayın 28-dən 1851-ci il dekabrın 2-dək: konstitusiyalı respublika, yaxud Qanunverici milli məclis dövrü.
1848-ci il fevralın 24-dən, yə`ni Lui-Filippin yıxılmasından mayın 4-dək, yə`ni Müəssislər məclisi iclaslarının açıldığı vaxtadək olan birinci dövrü,–sözün əsil mə`nasında fevral dövrünü–inqilabın müqəddiməsi adlandırmaq olar. Bu dövrün xarakteri rəsmi surətdə bundan ibarət oldu ki, onun tələsik yaratdığı hökumət özü özünü müvəqqəti e`lan etdi. Hökumət kimi, bu dövrdə başlanan, təcrübə edilən və söylənilən hər şey özünü ancaq müvəqqəti bir şey kimi qələmə verirdi. Heç kəs və heç bir şey özünün daim yaşamaq və həqiqi iş görmək hüququ olduğunu söyləməyə cəsarət etmirdi. İnqilabı hazırlamış və ya müəyyən etmiş olan bütün ünsürlər sülalə müxalifəti, respublikaçı burjuaziya, demokratik-respublikaçı xırda burjuaziya, sosialist-demokrat fəhlələr–bütün bu ünsürlər fevral hökumətində müvəqqəti yer almışdılar.
Başqa cür ola da bilməzdi. Əvvəlcə fevral günlərindən məqsəd–varlı siniflərin öz içərisində siyasi cəhətdən imtiyazlı olanların sıralarını genişləndirəcək və maliyyə aristokratiyasının müstəsna hökmranlığını yıxacaq bir seçki islahatına nail olmaq idi. Lakin iş gəlib həqiqi toqquşmaya çatanda, xalq barrikadalara atılanda, milli qvardiya kənarda passiv durub gözləmək mövqeyi tutanda, ordu heç bir ciddi müqavimət göstərməyəndə və monarxiya qaçanda respublikanın tə`sis edilməsi sanki öz-özünə nəzərdə tutulurdu. Hər bir partiya bunu öz bildiyi kimi izah edirdi. Əldə silah respublika qazanmış olan proletariat ona öz tə`sirini göstərdi və onu ictimai respublika e`lan etdi. Müasir inqilabın ümumi məzmunu bu cür müəyyən edildi–bu məzmun dərhal, bilavasitə, əldə olan materialla, kütlənin çatdığı inkişaf pilləsində, mövcud şərait və münasibətlər daxilində həyata keçirilə biləcək hər şeyə ən qəribə şəkildə zidd idi. Digər tərəfdən, fevral inqilabının müvəffəqiyyətinə kömək etmiş bütün qalan ünsürlərin iddiaları onlara hökumətdə çox böyük yer verilməsi ilə tə`min olundu. Məhz buna görə də dəbdəbəli ibarələrlə əslində inamsızlıq və acizliyin, coşqun yenilik cəhdləri ilə köhnə vəziyyətin qəti hökmranlığının, bütövlükdə cəmiyyətin aldadıcı zahiri ahəngdarlığı ilə onun ünsürləri arasındakı dərin qarşılığlı biganəliyin daha rəngarəng qarışığını heç bir başqa dövrdə görmək olmaz. Paris proletariatı qarşısında

açılan böyük perspektivə hələ valeh olub ictimai problemlərin müzakirəsi ilə ciddi surətdə məşğul olduğu bir zamanda, köhnə ictimai qüvvələr qruplaşdılar, birləşdilər, ayıldılar və xalq kütləsi içərisində–İyul monarxiyası zamanında98 mövcud olan sədlər dağılandan dərhal sonra birdən siyasi səhnəyə can atan kəndlilər və xırda burjuaziya içərisində özlərinə gözlənilmədən dayaq tapdılar.

İkinci dövr–1848-ci il mayın 4-dən 1849-cu il mayın axırına qədər olan dövr–burjua respublikasının tə`sis edilməsi, qurulması dövrüdür. Bilavasitə fevral günlərindən sonra nəinki sülalə müxalifəti respublikaçılar tərəfindən, respublikaçılar isə sosialistlər tərəfindən qəflətən yaxalanmışdılar, həmçinin bütün Fransa Paris tərəfindən qəflətən yaxalanmışdı. Millət tərəfindən seçilib 1848-ci il mayın 4-də öz iclaslarına başlayan Milli məclis milləti təmsil edirdi. Bu Məclis fevral günlərində irəli sürülən tələblərə qarşı canlı bir protest idi və inqilabın nəticələrini burjua miqyası dərəcəsinə endirməli idi. Bu Milli məclisin xarakterini dərhal duymuş olan Paris proletariatı onun iclasları açılandan bir neçə gün sonra, mayın 15-də108 əbəs yerə cəhd etdi ki, onu zorla aradan qaldırsın, onu dağıtsın, millətin mürtəce şəkildə özünü göstərən ruhunun təhlükə doğuran üzvi formasını yenidən onun tərkib hissələrinə parçalasın. Mə`lum olduğuna görə, 15 may günü, nəzərdən keçirilən bütün dövrdə yalnız Blanki ilə onun həmfikirlərinin, yə`ni proletar partiyasının həqiqi başçılarının ictimai səhnədən uzaqlaşdırılmasına səbəb oldu.

Lui-Filippin burjua monarxiyası ardınca yalnız burjua respublikası gələ bilər, yə`ni kral adı pərdəsi altında burjuaziyanın cüz`i bir hissəsi hökm sürürdüsə, bundan sonra xalq adından ümumən bütün burjuaziya hökm sürəcəkdir. Paris proletariatının tələbləri boş xəyallardır və bunlara son qoyulmalıdır. Paris proletariatı Milli müəssislər məclisinin bu bəyanatına Avropa vətəndaş müharibələri tarixində ən böyük hadisə olan iyun üsyanı ilə cavab verdi. Qalib gələn burjua respublikası oldu. Maliyyə aristokratiyası, sənaye burjuaziyası, orta təbəqələr, xırda burjualar, ordu, çevik qvardiya halında təşkil olunmuş lümpen-proletariat, ziyalılar, keşişlər və kənd əhalisi onun tərəfində idi. Paris proletariatının tərəfində yalnız o özü idi. Paris proletariatı üzərində qələbədən sonra üç min nəfərdən çox üsyançı öldürüldü, on beş min nəfəri mühakiməsiz sürgün edildi. Bu məğlubiyyət zamanından e`tibarən proletariat inqilab səhnəsində arxa plana keçir. Hərəkatda yeni bir yüksəliş başlandığı zənn edilən zaman

proletariat hər dəfə irəli keçməyə təşəbbüs edir, lakin bu təşəbbüslər getdikcə daha zəif olur və daha az nəticə verir. Proletariatdan yuxarıda duran ictimai təbəqələrdən hər birində inqilabi həyəcan əmələ gələn kimi, proletariat onunla ittifaqa girir və beləliklə, müxtəlif partiyaların bir-birinin ardınca düçar olduğu bütün məğlubiyyətlərə şərik olur. Lakin bu sonrakı zərbələr cəmiyyətin getdikcə daha geniş dairəsini əhatə etdikcə, get-gedə zəifləyir. Proletariatın Məclisdə və mətbuatdakı çox görkəmli başçıları bir-birinin ardınca məhkəmənin qurbanı olur və onların yerini getdikcə daha şübhəli şəxslər tutur. Proletariatın bir hissəsi nəzəriyyəbazlıq təcrübəsinə, mübadilə bankları və fəhlə birlikləri yaratmağa əl atır,–başqa sözlə desək, hərəkatın elə formalarına əl atır ki, burada köhnə dunyanın özündəki bütün qüdrətli vasitələrdən istifadə edərək bu köhnə dünyada çevriliş yaratmaq fikrindən əl çəkir, cəmiyyətdən kənarda, ayrıca yolla, öz varlığının məhdud şəraiti çərçivəsində azad olmağa çalışır, buna görə də hökmən müvəffəqiyyətsizliyə uğrayır. Nə qədər ki, proletariatın iyunda mübarizə etdiyi bütün siniflər də onun özü kimi məğlub edilməmişlər, görünür, proletariat nə əvvəlki inqilabi əzəmətini əldə edə bilər, nə də yeni bağlanmış ittifaqlardan yeni bir enerji ala bilər. Lakin proletariat hər halda dünya miqyasında böyük tarixi mübarizəyə uyğun bir şərəflə məğlub olmuşdu; yalnız Fransa deyil,–bütün Avropa iyun zəlzələsindən titrəyir, halbuki yuxarıda duran siniflərin sonrakı məğlubiyyətləri o qədər ucuz başa gəlir ki, qalib gələn partiya bunlara ümumiyyətlə bir hadisə xarakteri vermək üçün bunları həyasızcasına şişirtməli olur, həm də məğlub edilmiş partiya proletar partiyasından nə qədər çox uzaq isə, bu məğlubiyyətlər də bir o qədər biabırçı olur.

İyun üsyançılarının məğlubiyyəti, doğrudur, burjua respublikası binası üçün zəmin hazırladı, bu zəmini təmizlədi, lakin bu məğlubiyyət eyni zamanda göstərdi ki, Avropada məsələ «respublika və ya monarxiya» mövzusundakı mübahisədə deyil, başqa bir şeydədir. Bu məğlubiyyət göstərdi ki, burada burjua respublikası bir sinfin başqa siniflər üzərində qeyri-məhdud müstəbid hökmranlığı deməkdir. O göstərdi ki, köhnə mədəniyyət ölkələrində, yə`ni siniflər bölgüsü inkişaf edib, müasir istehsal şəraiti olan və əsrlər boyu göstərilmiş fəaliyyət nəticəsində bütün ən`ənəvi ideyaları həzm etmiş mə`nəvi şüurun mövcud olduğu ölkələrdə, bu cür ölkələrdə respublika–burjua cəmiyyətini inqilabi şəkildə dəyişdirməyin ümumiyyətlə ancaq siyasi forması deməkdir, məsələn, Şimali Amerika

Birləşmiş Ştatlarında olduğu kimi, bu cəmiyyətin varlığının mühafizəkar forması demək deyildir, zira Şimali Amerika Birləşmiş Ştatlarında siniflər artıq mövcud olsa da, hələ büllurlaşmamışlar, arası kəsilməyən bir hərəkətdə öz tərkib hissələrini daim yeniləyib bir-birinə verirlər, orada müasir istehsal vasitələri nəinki daimi əhali artıqlığına uyğun gəlmir, əksinə, zehinlərin və əllərin nisbi çatışmazlığının yerini doldurur, nəhayət, bütün gənclik qüvvəsi ilə, qızğın surətdə davam edib yeni dünyanı mənimsəməli olan maddi istehsal hərəkəti köhnə xəyallar dünyasını aradan qaldırmağa nə vaxt, nə də fürsət vermişdir.
İyun günləri zamanı bütün siniflər və partiyalar fəhlə sinfinə qarşı– anarxiya, sosializm, kommunizm partiyasına qarşı qayda-qanun partiyası halında birləşdilər. Onlar cəmiyyəti «cəmiyyətin düşmənlərindən» «xilas etdilər». Onlar köhnə cəmiyyətin «Mülkiyyət, ailə, din, qayda-qanun» şüarını öz qoşunları üçün parol götürmüşdülər və əksinqilabçı səlibçiləri «Bununla qalib gələrsən!»205 sözləri ilə ürəkləndirirdilər. Bu bayraq altında iyun üsyançılarına qarşı birləşmiş çoxlu partiyalardan biri bu andan e`tibarən öz sinfinin xeyrinə inqilab səhnəsində qalmağa çalışan kimi, «Mülkiyyət, ailə, din, qayda-qanun!» şüarı ilə məğlub edilir. Hər dəfə cəmiyyətin hökmdarlıq edənlərinin sayı azalanda, daha məhdud mənafe daha ümumi mənafeyə üstün gələndə, cəmiyyət xilas edilmiş olur. Hər bir ən adi burjua maliyyə islahatı, ən adi liberalizm, ən formal respublikaçılıq, ən bayağı demokratizm tələbi eyni zamanda həm «cəmiyyət üzərinə qəsd» adlandırılıb bunun üstündə cəza verilir, həm də buna «sosializm» damğası vurulur. Nəhayət, «din və qayda-qanunun» baş kahinlərinin özlərini təpiklə vurub öz Pifiya qurbangahından yıxırlar, gecə yarısı yataqlarından çıxarıb aparırlar, dustaq arabasına salıb ağzını bağlayırlar, həbsxanaya atır və ya sürgün edirlər, onların ibadətgahlarını yerlə yeksan edirlər, onların ağzını yumub qələmlərini sındırırlar, onların qanununu tapdalayırlar və bunların hamısı din, mülkiyyət, ailə və qayda-qanun naminə edilir. Sərxoş əsgər dəstələri öz balkonlarında duran qayda-qanun pərəstişkarını–burjuaları güllələyirlər, onların ailə müqəddəsliyini pozurlar, əylənmək üçün onların evlərini topa tuturlar və bunların hamısı mülkiyyət, ailə, din və qayda-qanun naminə edilir. Ən nəhayət, burjua cəmiyyətinin tör-töküntüləri müqəddəs qayda-qanun dəstəsi düzəldirlər və qəhrəman Krapül (Lui Bonapart. Red.) «cəmiyyətin xilaskarı» kimi Tüilri sarayına daxil olur.
II

Şərhimizi kəsdiyimiz yerə qayıdaq.
İyun günlərindən e`tibarən Milli müəssislər məclisinin tarixi–burjuaziyanın respublikaçı fraksiyasının, üç rəngli respublikaçılar, xalis respublikaçılar, siyasi respublikaçılar, formal respublikaçılar və i.a. adı ilə məşhur olan fraksiyanın hökmranlığı və dağılması tarixidir.
Bu fraksiya Lui-Filippin burjua monarxiyası zamanı rəsmi respublikaçı müxalifət təşkil edirdi və belə bir müxalifət olduğuna görə o zamankı siyasi dünyanın ümumiyyətlə tanınmış tərkib hissəsi idi. Onun palatalarda öz nümayəndələri və mətbuatda xeyli nüfuzu var idi. Onun Parisdə çıxan «National»101 orqanı da «Journal des Debats»110 kimi, bir növ mö`təbər sayılırdı. Konstitusiyalı monarxiya şəraitində onun xarakteri də özünün bu vəziyyətinə uyğun gəlirdi. Bu fraksiya burjuaziyanın hər hansı bir böyük ümumi mənafeyi ilə birləşmiş və xüsusi istehsal şəraitinə görə ayrılmış fraksiyası deyildi. Bu fraksiya, respublikaçı kimi düşünən burjualardan, yazıçılardan, vəkillərdən, zabitlərdən və mə`murlardan ibarət bir güruh idi, onun nüfuzu Lui-Filippin şəxsiyyətinə qarşı ölkənin nifrətinə, birinci respublika haqqındakı xatirələrə, bir ovuc xəyalpərəstlərin respublikaçılıq inamına, başlıcası isə–fransız millətçiliyinə arxalanırdı və heç bir zaman bu millətçiliyin Vyana müqavilələrinə206 və İngiltərə ilə ittifaqa nifrətini soyumağa qoymurdu. Lui-Filipp zamanı «National» öz tərəfdarlarından xeyli hissəsinin həmin gizli imperializmə qoşulmasına minnətdar idi ki, məhz buna görə sonralar, respublika zamanı Lui Bonapartın şəxsində «National»a qarşı qalib bir rəqib kimi çıxa bilmişdi. Bütün qalan burjua müxalifəti kimi, «National» da maliyyə aristokratiyasına qarşı mübarizə edirdi. Büdcəyə qarşı mübahisə Fransada maliyyə aristokratiyası əleyhinə mübarizəyə tamamilə uyğun gəldiyinə görə puritan «leadinq articles» (baş məqalələri. Red.) üçün o qədər ucuz şöhrət və o qədər bol material verirdi ki, bundan istifadə etməmək olmazdı. Sənaye burjuaziyası «National»a ona görə minnətdar idi ki, Fransanın himayəçilik sistemini siyasi-iqtisadi mülahizələrdən daha çox milli mülahizələrə görə itaətkarlıqla müdafiə edirdi; ümumiyyətlə bütün burjuaziya isə ona kommunizm və sosializm haqqındakı həyasız böhtanları üçün minnətdar idi. Ümumiyyətlə «National» partiyası xalis respublikaçı partiya idi, yə`ni monarxiya forması əvəzinə burjua hökmranlığının respublika formasını tələb edirdi və hər şeydən əvvəl–bu hökmranlıqda iştirak etmək üçün özünə çox böyük pay verilməsini istəyirdi. Bu siyasi dəyişikliyin şəraiti haqqında onun çox

tutqun təsəvvürü var idi. Lakin ona gün kimi aydın idi–və Lui-Filippii krallığının axırlarına yaxın islahat xeyrinə keçirilən ziyafətlərdə tamamilə aşkar olmuşdu–ki, demokratik xırda burjualar arasında, xüsusilə inqilabçı proletariat arasında onun nüfuzu yoxdur. Fevral inqilabı baş verdiyi və xalis respublikaçıların ən görkəmli nümayəndələrinə müvəqqəti hökumətdə yer verildiyi zaman onlar xalis respublikaçılara layiq olduğu kimi əvvəlcə Orlean hersokinyasının naibliyi ilə kifayətlənməyə tamamilə hazır idilər. Əlbəttə, onlar lap əvvəldən burjuaziyanın e`timadını və Milli müəssislər məclisinin əksəriyyətini qazanmışdılar. Müvəqqəti hökumətin sosialist ünsürləri Milli məclis açılandan sonra yaradılmış İcraiyyə komissiyasından dərhal xaric edildilər; iyun üsyanı partlayışından isə «National» partiyası İcraiyyə komissiyasına da iste`fa verdirmək və beləliklə özünün ən yaxın rəqiblərindən, xırda burjua və ya demokratik respublikaçılardan (Ledrü-Rollen və başqalarından) yaxasını qurtarmaq üçün istifadə etdi. Burjua respublikaçı partiyasının generalı olub iyun qırğınına başçılıq edən Kavenyak İcraiyyə komissiyasının yerini tutdu və bir növ diktatorluq hakimiyyəti əldə etdi. «National»ın keçmiş baş redaktoru Marrast Milli müəssislər məclisinin daimi sədri oldu nazir vəzifələri, həmçinin bütün qalan ən mühüm vəzifələr xalis respublikaçıların əlinə keçdi.
Beləliklə, həqiqət, çoxdan bəri özünü İyul monarxiyasının qanuni varisi hesab edən burjua respublikaçıları fraksiyanın umduğu ən böyük arzusundan da irəli getdi. Lakin bu fraksiya hakimiyyətə heç də Lui-Filipp zamanı həsrətini çəkdiyi şəkildə deyil, yə`ni taxt-taca qarşı burjuaziyanın liberal qiyamı yolu ilə çatmaq deyil, kapitala qarşı proletariatın top güllələri ilə yatırdılmış üsyanı nəticəsində çatdı. Ona ən inqilabi bir hadisə kimi görünən şey həqiqətdə ən əksinqilabi bir hadisə oldu. Bəhrə onun ayaqlarına düşdü, lakin həyat ağacından deyil, idrak ağacından düşdü. Burjua respublikaçılarının müstəsna hökmranlığı ancaq 1848-ci il iyunun 24-dən dekabrın 10-dək davam etdi. Bunun nəticəsi respublikaçı konstitusiya düzəltməkdən və Parisi mühasirə vəziyyətində e`lan etməkdən ibarət oldu.
Yeni konstitusiya əslində 1830-cu il konstitusiya xartiyasının207 respublikaçılaşdırılmış şəklindən başqa bir şey deyildi. İyul monarxiyasının, hətta burjuaziyanın özünün xeyli hissəsini siyasi hakimiyyətdən uzaqlaşdıran yüksək seçki senzi burjua respublikasının varlığı ilə bir araya sığmırdı. Fevral inqilabı bu senz əvəzində dərhal

ümumi müstəqim seçki hüququ e`lan etdi. Burjua respublikaçıları bu hadisəni bir kənara ata bilmədilər. Onlar bu hüququ məhdudlaşdıran bir maddə əlavə etməklə kifayətlənməli oldular həmin maddəyə görə isə, seçicidən tələb olunurdu ki, seçdiyi yerdə 6 ay yaşamış olsun. İdarələrin, bələdiyyələrin, məhkəmənin, ordunun və i.a. köhnə quruluşu toxunulmamış halda qaldı konstitusiyada edilən bə`zi dəyişikliklər məzmuna deyil, mundəricata aid idi, şeylərə deyil, adlara aid idi. Şəxsiyyət, mətbuat, söz, ittifaq, yığıncaq, tədris, vicdan və i.a. azadlığı– 1848-ci il azadlıqlarının labüd baş qərargahı–bunlara toxunulmazlıq şəkli verən konstitusiya cildinə büründü. Bu azadlıqlardan hər biri Fransa vətəndaşının qəti hüququ e`lan edilir, lakin hökmən qeyd olunur: bu hüquq yalnız o dərəcədə hədsizdir ki, «başqalarının bərabər hüquqları və ictimai təhlükəsizliklə» yaxud fərdi azadlıqların bir-biri ilə və ictimai təhlükəsizliklə ahəngdarlığını məhz vasitəli şəkildə ifadə etməli olan «qanunlarla» məhdud edilmiş olmasın. Məsələn «Vətəndaşların ittifaqlarda birləşmək, dinc və silahsız toplaşmaq, müştərək ərizələr vermək, mətbuat vasitəsi ilə və ya hər hansı bir başqa yolla öz rə`ylərini bildirmək hüququ vardır. Bu hüquqlardan istifadə edilməsinə qarşı başqalarının eyni hüquqlarından və ictimai təhlükəsizlikdən başqa bir məhdudiyyət yoxdur». (Fransa konstitusiyasının II fəsli, maddə 8.)–«Tədris azaddır. Tədris azadlığından qanunun qoyduğu şərtlərlə və dövlətin ali nəzarəti altında istifadə edilə bilər». (Yenə orada, maddə 9.)–«Hər bir vətəndaşın mənzili toxunulmazdır. Bu toxunulmazlıq yalnız qanunda göstərilən formalara riayət edilməklə pozula bilər». (II fəsil, maddə 3.) Və ilaxir.–Buna görə də konstitusiya hər yerdə gələcək üzvi qanunlara istinad edir; həmin qanunlar isə bu qeyd-şərtləri ətraflı şərh etməli və bütün bu qeyri-məhdud azadlıqlardan istifadə olunmasını elə tənzim etməlidir ki, bunlar nə bir-biri ilə, nə də ictimai təhlükəsizliklə toqquşmasın. Sonralar bu üzvi qanunlar qayda-qanun dostları tərəfindən yaradıldı və bütün bu azadlıqlar elə tənzim edildi ki, burjuaziya başqa siniflərin bərabər hüquqlarında heç bir maneəyə rast gəlmədən həmin azadlıqlardan istifadə edə bildi. Burjuaziya «başqalarına» bu azadlıqları qətiyyən vermədiyi və ya hər biri bir polis tələsi olan şərtlərlə bu azadlıqlardan istifadə etməyə imkan verdiyi hallarda, bu, həmişə yalnız, konstitusiyada göstərildiyi kimi, «ictimai təhlükəsizlik», yə`ni burjuaziyanın təhlükəsizliyi xeyrinə edilirdi. Buna görə də sonralar hər iki tərəf; istər bütün bu azadlıqları aradan qaldıran

qayda-qanun dostları, istərsə də bütün bu azadlıqların qaytarılmasını tələb edən demokratlar tamamilə haqlı olaraq konstitusiyaya əsaslanırdılar. Konstitusiyanın hər bir paraqrafının özündə onun öz əksliyi, öz yuxarı və aşağı palatası vardır; ümumi ibarə şəklində azadlıq verilir, qeyd-şərtdə isə azadlıq aradan qaldırılır. Deməli, nə qədər ki, azadlıq adı şərəfli idi və yalnız onun həqiqətən həyata keçirilməsinə qarşı, əlbəttə, qanun əsasında, maneələr qoyulurdu, azadlığın gündəlik həyatda varlığı nə qədər əsaslı surətdə məhv edilmiş olsa da, konstitusiyada onun varlığı salamat, toxunulmaz qalırdı.

Lakin belə bir məharət və hiyləgərliklə toxunulmaz şəklə salınmış bu konstitusiyanın, Axilles kimi gücçatan zəif yeri var idi, amma onun bu yeri dabanında deyil, başında və ya daha doğru desək, iki başında idi ki, bütün binanı bunlar tamamlayırdı: bir tərəfdən–Qanunverici mdçlis və digər tərəfdən–prezident. Konstitusiyaya yalnız ötəri nəzər salan kimi, görmək olur ki, ancaq prezidentin Qanunverici məclisə münasibətini müəyyən edən paraqraflar qətidir, müsbət xarakterdədir, ziddiyyətsizdir, heç bir yanlış şərhə yol vermir. Axı burada burjua respublikaçıları üçün məsələ özlərinin e`tibarlı mövqeyini tə`min etməkdə idi. Konstitusiyanın 45–70-ci maddələri elə tərtib edilmişdir ki, Milli məclis prezidenti konstitusiya yolu ilə aradan qaldıra bilər, prezident isə Milli məclisi yalnız qeyrikonstitusiya yolu ilə, yalnız konstitusiyanın özünü ləğv etməklə aradan qaldıra bilər. Deməli, burada konstitusiya özü özünü zorakılıqla məhv etməyə çağırır. Konstitusiya hakimiyyətlərin bölüşdürülməsini nəinki 1830-cu il xartiyası kimi qanuniləşdirir, həmçinin bu bölgünü dözülməz bir ziddiyyət dərəcəsinə çatdırır. Qanunverici hakimiyyətlə icraiyyə hakimiyyəti arasındakı parlament didişməsi, Gizonun adlandırdığı kimi desək, konstitusiya qüvvələri oyunu 1848-ci il konstitusiyası əsasında həmişə böyük bir risklə gedir. Bir tərəfdən–ümumi səsvermə ilə seçilib yenidən seçilmək hüququ olan 750 xalq nümayəndəsi nəzarətsiz, dağıdılıb ləğv edilməyən və bölünməz Milli məclis təşkil edir, qeyri-məhdud qanunvericilik səlahiyyəti olan bu məclis müharibə, sülh və ticarət müqavilələri məsələlərini qəti həll edir, yalnız onun amnistiya vermək hüququ vardır və öz iclaslarının arası kəsilmədiyinə görə daim siyasi səhnədə ilk sırada durur. Digər tərəfdən–kral hakimiyyətinin bütün nişanələri əlində olan prezident, onun öz nazirlərini Milli məclisdən asılı olmadan tə`yin etmək və dəyişdirmək hüququ, icraiyyə hakimiyyətinin

bütün vasitələri vardır, bütün vəzifələri paylayır və beləliklə, Fransada azı milyon yarım adamın müqəddəratını əlində saxlayır, çünki məhz bu qədər adam maddi cəhətdən 500 min mə`mur və hər cür rütbəli zabitdən asılıdır. Bütün silahlı qüvvələr ona tabedir. Onun ayrı-ayrı cinayətkarları bağışlamaq, milli qvardiya hissələrini buraxmaq və vətəndaşların özləri tərəfindən seçilən ali şuraları, kanton və bələdiyyə şuralarını–Dövlət şurasının razılığı ilə–dəyişdirmək imtiyazı vardır. Xarici dövlətlərlə müqavilələr bağlanmasında da təşəbbüs göstərib rəhbər rol oynamaq yenə onun əlindədir. Məclis daim meydanda olub hər gün açıq tənqid edildiyi halda, prezident Yelisey meydanında nəzərlərdən uzaqda gizli həyat sürür, lakin konstitusiyanın 45-ci maddəsi onun gözü qarşısında və qəlbində olub hər gün onun yadına salır: «frire, il faut mourir!» («Qardaş, ölümə hazırlaş!»–katolik trappistlər rahib cəmiyyətinin üzvləri bir-birinə rast gələndə dedikləri təbrik sözləri. Red.). Sənin hakimiyyətin secildiyin günün dördüncü ilində, gözəl may ayının ikinci bazar günü qurtarır! Onda sənin əzəmətinin sonu çatır; bu pyesin ikinci tamaşası olmayacaqdır və əgər sənin borcun varsa və əlbəttə, sən gözəl may ayının ikinci bazar ertəsi günü Klişiyə208 göndərilmək istəmirsənsə, çalış öz borcunu konstitusiya ilə sənə tə`yin edilən 600 min frank maaşdan vaxtında ver. Beləliklə, konstitusiya əsil hakimiyyəti prezidentə verirsə, Milli məclisin də mə`nəvi qüvvəsi olmasını tə`min etməyə çalışır. Lakin qanunun paraqrafları ilə mə`nəvi qüvvə yaratmaq mümkun olmadığı hələ bir yana dursun, konstitusiya bu halda da öz-özünün əksinə çıxaraq göstərir ki, prezident bütün fransızlar tərəfindən müstəqim səsvermə yolu ilə seçilir. Bütün Fransanın səsi 750 nəfər Milli məclis üzvü arasında bölündüyü halda burada, əksinə, bir şəxsiyyətdə toplanır. Hər bir ayrıca deputat ancaq bu və ya başqa bir partiyanın, bu və ya başqa bir şəhərin, bu və ya başqa bir məntəqənin nümayəndəsi olduğu halda və ya hətta nə işin mahiyyətinə və nə də seçilənin şəxsiyyətinə xüsusi diqqət vermədən, ancaq 750 deputatdan birini seçmək zərurətini təmsil etdiyi halda,–prezident millətin seçdiyi adamdır və onun seçilməsi suveren xalqın dörd ildə bir dəfə işə saldığı böyük bir qüvvədir. Seçkili Milli məclis millətlə metafizik surətdə, seçkili prezident isə millətlə şəxsən bağlıdır. Doğrudur, bütövlükdə Milli məclis özünün ayrı-ayrı nümayəndələrinin şəxsində milli ruhun müxtəlif cəhətlərini əks etdirir, prezidentdə isə milli ruh onun cismində təcəssüm

edir. Milli məclisə nisbətən prezident sanki ilahi bir hüququ təmsil edir: o, xalqın mərhəməti ilə olan bir hakimdir.
Dəniz ilahəsi Fetida Axillesə gənc yaşlarında vaxtsız öləcəyini söyləmişdi. Axilles kimi gücçatan zəif yeri olan konstitusiya da, Axilles kimi, əvvəlcədən hiss edirdi ki, vaxtsız öləcəkdir. Fetidanın bu sirri respublikanın tə`sisçilərinə, xalis respublikaçılara açıb bildirməsi üçün öz dənizindən uzaqlaşmasına ehtiyac yox idi; onlar özlərinin ideal respublikasının səma yüksəkliklərindən günahkar yer üzünə yalnız bir nəzər salmaqla görə bilərdilər ki, onlar öz böyük qanunverici incəsənət əsərini başa çatdırmağa yaxınlaşdıqca, royalistlərin, bonapartist, demokrat və kommunistlərin ötkəmliyi və özlərinin nüfuzsuzluğu gündən-günə artırdı. Onlar taleyə konstitusiya hiyləgərliyi ilə, konstitusiyanın 111 maddəsi vasitəsi ilə kələk qurmağa çalışırdılar; həmin maddəyə əsasən konstitusiyanın gözdən keçirilib dəyişdirilməsinə dair hər bir təklif, bir-biri arasında tam bir ay fasilə ilə üç dəfə müzakirəyə qoyulmalı və hər dəfə səslərin azı dörddə üç hissəsi ilə qəbul edilməlidir, həm də səsvermədə Milli məclisin azı 500 üzvü iştirak etməlidir. Lakin bunların hamısı onların əvvəlcədən gördükləri kimi, parlamentdə azlıqda qalacaqları halda, özlərinə qüvvə tə`min etmək üçün ancaq aciz bir təşəbbüs idi,–bu qüvvə isə elə indidən, parlamentdə çoxluq təşkil etdikləri və bütün dövlət hakimiyyəti vasitələri öz əllərində olduğu bir zamanda gündən-günə onların zəif əllərindən çıxırdı.
Nəhayət, konstitusiya xüsusi bir melodramatik maddədə «bütün fransız xalqının və ayrılıqda hər bir fransızın sayıqlığı və vətənpərvərliyinə» sığınır, halbuki bundan qabaqkı maddələrdən birində «sayıq» və «vətənpərvər» fransızları bunun üçün qəsdən ixtira etdiyi Ali məhkəmənin, «haute cour» şəfqətli cinayət himayəsinə tapşırmışdır.
1848-ci il konstitusiyası belə idi və 1851-ci il dekabrın 2-də bir adamın başı deyil, yalnız şlyapası toxunmaqla devrildi; doğrudur, bu şlyapa Napoleonun üC-b ucaq şlyapası idi.
Burjua respublikaçıları Məclisdə bu konstitusiyanı uydurduqları, müzakirə etdikləri və səsə qoyduqları bir zamanda, Məclisdən kənarda Kavenyak Parisi mühasirə vəziyyətində saxlayırdı. Parisin mühasirə vəziyyəti Müəssisələr məclisi respublika doğanda onun doğum ağrısı tutduğu zaman onun maması idi. Əgər konstitusiya sonralar süngü gücünə o dünyaya göndərildisə, unudulmamalıdır ki, xalqa qarşı çevrilən süngülərin vəzifəsi

bu konstitusiyanı hələ ana bətnində qorumaq və dünyaya gəlməsinə kömək etmək idi. «Abırlı respublikaçıların» atababaları konstitusiya simvolu olan üçrəngli bayraqları103 ilə bütün Avropadan keçmişdilər. «Abırlı respublikaçılar» elə bir ixtira da etdilər ki, bu ixtira özü bütün kontinentdə özü üçün yol açdı, lakin sönməyən bir məhəbbətlə daim yenidən Fransaya qayıtdı və, nəhayət, Fransa departamentlərinin yarısında vətəndaşlıq hüququ qazandı. Bu ixtira mühasirə vəziyyətidir. Fransa inqilabının gedişində sonrakı böhranların hər birində vaxtaşırı tətbiq edilən gözəl bir ixtira. Lakin beləliklə Fransa cəmiyyətinin şüurunu boğmaq və onu sakitləşdirmək üçün vaxtaşırı bütün ağırlığı ilə bu cəmiyyət üzərinə salınan qışla və düşərgə; məhkəmə qurmaq və idarə etmək, himayə və senzorluq etmək, polis və gecə keşikçisi vəzifələrini yerinə yetirmək üçün vaxtaşırı işə salınan qılınc və tüfəng; vaxtaşırı cəmiyyətin ali zəkası və tərbiyəçisi e`lan edilən hərbi bığ və əsgər paltarı–necə ola bilərdi ki, qışla və düşərgə, qılınc və tüfəng, hərbi bığ və əsgər paltarı, nəhayət, belə bir nəticəyə gəlməsin: öz idarə üsulunu başlıca üsul e`lan edib burjua cəmiyyətini özünüidarə qayğısından tamamilə azad edərək, cəmiyyəti həmişəlik xilas etmək daha yaxşıdır! Qışla və düşərgə, qılınc və tüfəng, bığ və əsgər paltarı xüsusilə ona görə belə bir fikrə gəlməli idi ki, bu halda onlar özlərinin daha ciddi xidmətləri üçün nağd pulla daha yaxşı muzd alacaqlarına ümid edə bilərdilər, halbuki bu və ya başqa bir burjua fraksiyasının əmri ilə vaxtaşırı mühasirə vəziyyəti e`lan edildiyi və cəmiyyət müvəqqəti xilas olunduğu halda, onların payına bir neçə ölü və yaralıdan, habelə burjuaların bir neçə yalançı təbəssümündən başqa az bir şey düşürdü. Nəhayət, niyə də qoşun, öz mənafeyi və öz xeyri üçün mühasirə vəziyyəti oyunu oynamasın və eyni zamanda burjuaların pul kisələrini mühasirəyə almasın? Həm də–ötəri qeyd edək–unutmamaq lazımdır ki, Kavenyak zamanı 15000 üsyançını məhkəməsiz sürgün edən hərbi komissiyalar sədri polkovnik Bernar Parisdə işləyən hərbi komissiyalara bu dəqiqə yenə də başçılıq edir. Əgər «abırlı», xalis respublikaçılar Parisi mühasirə vəziyyətində e`lan etməklə sonralar 1851-ci il 2 dekabr pretorianlarını209 yetişdirən bir şitillik salmışdılarsa, onların başqa növ xidmətləri də vardır: onlar Lui-Filipp zamanı etdikləri kimi, milli hissi qızışdırmaq əvəzində, indi, millətin bütün qüvvəsi onların ixtiyarında olduğu bir zamanda, xarici dövlətlər qarşısında sürünürlər və İtaliyanı azad etmək əvəzində, avstriyalılara və neapollulara imkan verirlər ki, onu yenidən əsarət altına alsınlar. 1848-ci il

dekabrın 10-da Lui Bonapartın prezident seçilməsi Kavenyakın diktaturasına və Müəssislər məclisinəson qoydu.
Konstitusiyanın 44-cü maddəsində deyilir «Vaxtı ilə fransız vətəndaşı adını itirmiş olan bir adam Fransa respublikasının prezidenti ola bilməz». Fransa respublikasının birinci prezidenti Lui-Napoleon Bonapart nəinki fransız vətəndaşı adını itirmişdi, nəinki İngiltərədə xüsusi polis mə`muru olmuşdu, o həmçinin İsveçrə təbəəliyinə keçmişdi211.
10 dekabr seçkilərinin mə`nası haqqında başqa bir yerdə ətraflı danışmışam. Burada həmin məsələyə qayıtmayacağam. Bunu qeyd etmək kifayət edər ki, həmin seçkilər fevral inqilabının xərclərini çəkmiş kəndlilərin, millətin başqa siniflərinə qarşı göstərdiyi əks tə`siri,–kəndin şəhərə qarşı əkstə`sirini ifadə edirdi. Bu seçkilər «National» respublikaçılarının nə şərəf qazandırmadıqları, nə də maaşını artırmadıqları orduda, Bonapartı monarxiyaya keçid pilləsi kimi alqışlayan iri burjuaziya içərisində, Bonapartı Kavenyaka cəza kimi alqışlayan proletarlar və xırda burjualar içərisində böyük rəğbətlə qarşılanmışdı. Fransa inqilabına kəndlilərin münasibətindən aşağıda daha ətraflı bəhs etmək imkanım olacaqdır.
1848-ci il dekabrın 20-dən 1849-cu ilin mayında Müəssislər məclisi dağıdılıb ləğv edilənədək davam edən dövr burjua respublikaçılarının məhv olması tarixini əhatə edir. Onlar burjuaziya üçün respublika tə`sis etdikdən, inqilabçı proletariatı döyüş meydanından qovduqdan və demokratik xırda burjuaziyanın ağzını bir müddət yumduqdan sonra, burjuaziya kütləsi onların özlərini kənar edib tam haqlı olaraq bu respublikaya öz mülkiyyəti kimi yiyələndi. Lakin bu burjua kütləsi royalist idi. Onun bir hissəsi–iri torpaq sahibləri–Restavrasiya117 zamanı hökm sürürdü və buna görə də legitimist idi. Digər hissəsi–maliyyə maqnatları və iri sənayeçilər–İyul monarxiyası zamanı hökm sürürdü və buna görə də orleanist82 idi. Ordunun, universitetlərin, kilsənin, vəkillərin, akademiyanın və mətbuatın yüksək mənsəb sahibləri, müxtəlif nisbətdə olsa da, bunlar arasında bölünürdülər. Burjuaziyanın bu iki hissəsi burada, Burbonlar adını, Orleanlar adını deyil, Kapital adını daşıyan burjua respublikasında elə bir dövlət forması tapdı ki, bu zaman onlar birlikdə hökmranlıq edə bilirdilər. Artıq iyun üsyanı onları «qayda-qanun partiyasında»116 birləşdirmişdi. İndi, Milli məclisdə öz mövqelərini hələ mühafizə edən burjua respublikaçıları güruhunu aradan qaldırmaq vaxtı çatmışdı. Bu xalis

respublikaçılar xalqa qarşı fiziki qüvvədən nə qədər vəhşiliklə sui-istifadə etmişdilərsə, indi, öz respublikaçılığını və öz qanunvericilik hüquqlarını icraiyyə hakimiyyətinə və royalistlərə qarşı qoruyub saxlamaq lazım gəldiyi bir zamanda bir o qədər qorxaqlıq, cür`ətsizlik, iradəsizlik və acizlik göstərib mübarizədən çəkindilər, mübarizə etməyə qabil olmadıqlarını göstərdilər. Onların biabırçı pozulma tarixindən burada danışmağıma ehtiyac yoxdur. Onlar məhv olmaq deyil, aradan qalxdılar. Onlar öz rollarını həmişəlik oynamış oldular. Bundan sonrakı dövrdə onlar Məclisdə də, Məclisdən kənarda da yalnız keçmişin kölgəsi kimi görünürlər,–məsələ yenə respublikanın təkcə adı üzərinə gələn kimi və hər dəfə inqilabi münaqişə ən aşağı səviyyəyə enmək təhlükəsi doğuranda bu kölgələr, görünür, canlanmağa hazırdır. Ötəri qeyd edəcəyəm ki, öz adını həmin partiyaya vermiş olan «National» qəzeti bundan sonrakı dövrdə sosializmin tərəfinə keçir.

Bu dövrlə vidalaşmazdan əvvəl bir də, 1848-ci il dekabrın 20-dən Müəssislər məclisinin axırlarınadək ittifaq nigahı bağlamış və 1851-ci il dekabrın 2-də biri digərini məhv edən iki qüvvənin keçmişinə bir nəzər salmalıyıq. Mən bir tərəfdən Lui Bonapartı, bir tərəfdən də birləşmiş royalistlər partiyasını, qayda-qanun partiyasını, iri burjuaziya partiyasını nəzərdə tuturam. Bonapart prezident vəzifəsini yerinə yetirməyə başlayan kimi Odilon Barro başda olmaqla,–nəzərdə tutun ki, parlament burjuaziyasının ən liberal fraksiyasının köhnə rəhbəri başda olmaqla–qayda-qanun partiyasından hökumət düzəltdi. 1830-cu ildən nazirlik həsrətini çəkən c. Barro, nəhayət, nazir vəzifəsini, həm də bu hökumətdə baş nazir vəzifəsini ələ keçirtdi. Lakin Barro buna Lui-Filipp zamanı həsrətini çəkdiyi yolla deyil,–parlament müxalifətinin ən qabaqcıl başçısı kimi deyil, özünün bütün qəddar düşmənlərinin, yezuitlərin və legntimistlərin müttəfiqi sifəti ilə nail oldu, həm də onun vəzifəsi parlamenti qəbrə qoymaq idi. O, nəhayət, gəlini nigahlanmağa gətirdi, lakin gəlinin namusu artıq ləkələnmiş olandan sonra gətirdi. Bonapart özü sanki tamamilə kölgədə qadmışdı. Onun əvəzində qayda-qanun partiyası iş görürdü.

Nazirlər şurasının lap birinci iclasında Romaya hərbi səfər edilməsi qərara adındı, həm də bunu Milli məclisdən xəlvət etmək, bunun üçün lazım olan vəsaiti isə ondan yalan bir bəhanə ilə qoparmaq barəsində dilləşdilər. Beləliklə, hökumət öz fəaliyyətinə Milli məclisi aldatmaqdan və inqilabçı

Roma respublikasına qarşı xarici mütləqiyyətçi dövlətlərlə gizli qəsd düzəltməkdən başladı. Bonapart yenə eyni üsulla və eyni vasitələrlə royalist Qanunverici məclisə və onun konstitusiyalı respublikasına qarşı özünün 2 dekabr çevrilişini hazırladı. Unutmayaq ki, 1848-ci il dekabrın 20-də Bonapart hökumətini düzəldən partiya 1851-ci il dekabrın 2-də Qanunverici milli məclisdə çoxluq təşkil edirdi.

Avqustda Müəssislər məclisi konstitusiyanı tamamlayası tam bir sıra üzvi qanunlar hazırlanıb e`lan edilməyincə dağılmamağı qərara aldı. 1849-cu il yanvarın 6-da qayda-qanun partiyası deputat Ratonun dili ilə Məclisə təklif etdi ki, üzvi qanunları bir kənara qoyub daha yaxşısı özünün buraxılması haqqında qərar qəbul etsin. C-b Odilon Barro başda olmaqla yalnız hökumət deyil, Milli məclisin bütün royalist deputatları da indi qəti surətdə deyirdilər ki, e`tibarı bərpa etmək, qayda-qanunu möhkəmlətmək, qeyri-müəyyən müvəqqəti vəziyyətə son qoymaq və qəti bir şey yaratmaq üçün Məclisin buraxılması zəruridir; deyirdilər ki, Məclis yeni hökumətin səmərəli işləməsinə mane olur, özünün varlığını yalnız tərslik üzündən davam etdirmək istəyir və bütün ölkənin zəhləsini tökmüşdür. Bonapart qanunverici hakimiyyətə qarşı bu hücumları nəzərə alıb əzbərlədi və 1851-ci il dekabrın 2-də parlament royalistlərinə sübut etdi ki, onlardan bə`zi şeylər öyrənmişdir. Bonapart royalistlərin öz şüarlarını onların özlərinə qarşı çevirdi.

Barro hökuməti və qayda-qanun partiyası daha irəliyə getdilər. Onlar bütün Fransadan Milli məclisə müştərək ərizələr göndərmək işini düzəldərək, özünü buraxıb aradan qalxmağı bu ərizələrdə ondan lütfən xahiş etdilər. Beləliklə, onlar qeyri-mütəşəkkil xalq kütlələrini, xalqın iradəsinin mütəşəkkil konstitusiya ifadəsi olan Milli məclisə qarşı döyüşə apardılar. Onlar parlament iclasları əleyhinə xalqa müraciət etməyi Bonaparta öyrətdilər. Nəhayət, 1849-cu il yanvarın 29-da elə bir gün gəlib çatdı ki, Müəssislər məclisi öz-özünün buraxılması məsələsini həll etməli oldu. Həmin gün qoşun hissələri məclisin iclas keçirilən binasını tutdu; qayda-qanun partiyasının generalı, milli qvardiyanın və nizami qoşunların ümumi baş komandanı Şanqarnye, vuruşma ərəfəsində olduğu kimi, Parisdə böyük bir hərbi parad keçirdi, birləşmiş royalistlər isə, Məclis razılığa gəlməyəcəyi halda, qüvvə işlədəcəkləri ilə onu hədələdilər. Məclis özünə ancaq çox qısa bir möhlət əldə etməklə razılığa gəlmiş oldu. Yanvarın 29-u, 1851-ci il 2 dekabr tarixli «coup d`etat» (dövlət çevrilişi. Red.)

deyildisə, bəs nə idi ancaq bir fərqlə ki, bu, respublikaçı Milli məclisə qarşı royalistlər tərəfindən Bonapartla ittifaqda edilmişdi? Royalist cənablar görməmiş və ya görmək istəməmişlər ki, Bonapart 1849-cu il 29 yanvar hadisələrindən qoşunun bir hissəsini Tüilri sarayı qabağında onun qarşısında təntənəli yürüş keçirməyə məcbur etmək üçün istifadə etmiş və Kaliqulanı212 onlara xatırlatmaq məqsədi ilə, parlamentə qarşı hərbi qüvvədən birinci dəfə məhz belə açıq şəkildə istifadə etmək çağırışından bərk yapışmışdı. Onlar, əlbəttə, yalnız özlərinin Şanqarnyesini görürdülər. Qayda-qanun partiyasını Müəssislər məclisinin ömrünü zorakılıqla qısaltmağa sövq etdirən səbəblərdən biri konstitusiyanı tamamlayan üzvi qanunlardan–təhsil qanunundan, din haqqındakı qanundan və başqalarından ibarət idi. Birləşmiş royalistlər üçün son dərəcə mühüm idi ki, bu qanunları özləri hazırlasınlar və e`tibarsız respublikaçıların bu qanunları verməsinə yol verməsinlər. Lakin bu üzvi qanunlar sırasında respublika prezidentinin məs`uliyyəti haqqında qanun da var idi. 1851-ci ildə Qanunverici məclis məhz belə bir qanun hazırlamaqla məşğul idi, lakin Bonapart özünün 2 dekabr «coup»u (zərbə, qəti hərəkət. Red.) ilə həmin «coup»u qabaqladı. Birləşmiş royalistlər 1851-ci ilin qışında öz parlament kampaniyası zamanı nə verməzdilər ki, prezidentin məs`uliyyəti haqqında hazır bir qanun, həm də e`timadsız düşmən, respublikaçı Məclis tərəfindən hazırlanmış bir qanun olsun!

Müəssislər məclisi 1849-cu il yanvarın 29-da özünün son silahını sındırandan sonra, Barro hökuməti və qayda-qanun dostları onu amansız tə`qib etməyə başladılar. Onlar Müəssislər məclisini alçaltmaq üçün heç bir fürsəti əldən vermirdilər və özündən hər bir ümidini kəsən aciz Məclisi elə qanunlar verməyə məcbur etdilər ki, bu qanunlar Məclisi cəmiyyətin nəzərində tamamilə hörmətdən saldı. Özünün napoleonçuluq ideyası heç beynindən çıxmayan Bonapart, parlament hakimiyyətinin belə alçaldılmasından həyasızcasına açıq istifadə etdi. Doğrudan da, general Udinonun Çivita-Vekkiyanı tutması üstündə Milli məclis 1849-cu il mayın 8-də hökuməti məzəmmət edib Roma hərbi səfərini öz ilk məqsədinə qaytarmasını əmr etdiyi halda,–həmin, axşam Bonapart «Moniteur»104-də Udinoya bir məktub dərc etdirərək, generalı qəhrəman igidlikləri münasibəti ilə təbrik etdi və cızmaqaraçılıqla məşğul olan parlamentçilərin əksinə olaraq, artıq özünü ordunun alicənab hamisi kimi göstərdi. Royalistlər buna gülürdülər onlar əmin idilər ki, onu aldadıb axmaq

yerində qoyurlar. Nəhayət, Müəssislər məclisinin sədri Marrast Milli məclisin təhlükəsizliyindən bir dəqiqəlik şübhə edərək, konstitusiya əsasında bir nəfər polkovniki öz polku ilə birlikdə çağırtdıranda həmin polkovnik çağırışa gəlməkdən intizam bəhanəsi ilə boyun qaçırdı və Marrasta təklif etdi ki, Şanqarnyeyə müraciət etsin; Şanqariye isə Marrasta rədd. cavabı verib acı bir dillə dedi ki, o «baionnettes intelligentes»i (düşünən süngüləri. Red.) sevmir. 1841-ci ilin noyabrında birləşmiş royalistlər Bonaparta qarşı qəti mübarizəyə başlamağa hazırlaşaraq, özlərinin bədnam kvestor qanun layihəsində21 Milli məclis sədrinin bilavasitə qoşun çağırması prinsipini keçirməyə çalışırdılar. Onların generallarından biri olan Leflo qanun layihəsini imzaladı. Lakin əbəs yerə Şanqarnye ona səs verdi, əbəs yerə Tyer mərhum Müəssislər məclisinin ehtiyatlı uzaqgörənliyini tə`riflədi. Hərbi nazir Sent-Arno ona, Şanqarnyenin Marrasta verdiyi kimi cavab verdi və onun cavabı Dağın alqışları ilə qarşılandı!

Beləliklə də qayda-qanun partiyası Milli məclis deyil, hələ yalnız hökumət ikən özü parlament idarə üsulunu bədnam etdi. 1851-ci il 2 dekabr çevrilişi bu idarə üsulunu Fransadan qovduqda isə, hay-küy salan da yenə odur! Ona yaxşı yol arzu edək!

III

1849-cu il mayın 28-də Qanunverici milli məclis öz iclaslarına başladı, 1851-ci il dekabrın 2-də isə dağıdıldı. Bu dövr konstitusiyalı və ya parlamentli respublikanın yaşadığı vaxtı əhatə edir.

Birinci Fransa inqilabında konstitusiyaçıların hökmranlığından sonra jirondistlərin hökmranlığı, jirondistlərin hökmranlığından sonra yakobinlərin hökmranlığı gəlir. Bu partiyalardan hər biri daha qabaqcıl partiyaya arxalanır. Müəyyən bir partiya inqilabı o qədər irəliyə aparır ki, daha nə onun ardınca gedə bilir, nə də xüsusilə ona başçılıq edə bilir,–onda həmin partiyanın ardında duran daha cəsarətli muttəfiqi onu kənar edir və gilyotinə göndərir. Beləliklə, inqilab yüksələn xətlə hərəkət edir.

1848-ci il inqilabında bunun əksi olur. Proletar partiyası xırda burjua demokratik partiyasının bir əlavəsi kimi hərəkət edir. Bu partiya proletar partiyasına xəyanət edir və aprelin 16-da109, mayın 15-də və iyun günlərində onun məğlubiyyətinə kömək edir. Demokratik partiya da burjua respublikaçı partiyasının çiyninə söykənir. Burjua respublikaçıları hələ ayaq üstə möhkəm durmamış ikən zəhlə tökən yoldaşlarını öz çiyinlərindən

atıb qayda-qanun partiyasının çiyninə söykənir. Qayda-qanun partiyası çiyinlərini tərpədib burjua respublikaçılarını bir tərəfə atır və özü silahlı qüvvənin çiyninə minməyə tələsir. O hələ də hərbi qüvvənin çiynində əyləşdiyini güman etməkdə davam edir, lakin günlərin bir günündə başa düşür ki, bu çiyinlər dönüb sünku olmuşdur. Hər bir partiya arxadan ona güc gələn partiyaya təpik atır və onu geriyə itələyən partiyanın kürəyinə söykənir. Təəccüblü deyildir ki, o partiya bu gülünc vəziyyətdə müvazinəti itirib yıxılaraq, labüddən üz-gözünü turşudur və qəribə hərəkətlərlə şıllaq atır. Beləliklə, inqilab enən xətlə hərəkət edir. Hələ axırıncı fevral barrikadası aradan qaldırılmazdan və birinci inqilabi hakimiyyət qurulmazdan əvvəl inqilab belə geriyə hərəkət etməyə başlamışdır. Bəhs etdiyimiz dövr ən biabırçı ziddiyyətlərin mürəkkəb kələfini təşkil edir: konstitusiya əleyhinə açıq-açığına qəsdlər təşkil edən konstitusiyaçılar; konstitusiyalı hərəkətlərə tərəfdar olduqlarını açıq e`tkraf edən inqilabçılar tam qüdrətli olmağı arzulayıb daim parlamentsayağı hərəkət edən Milli məclis; öz vəzifəsini səbr etməkdə görüb özünün indiki məğlubiyyətlərinin yerini gələcəkdə qələbələr qazanacağını söyləməklə dolduran Dağ; respublikanın «patres conscripti» (senatorları. Red.) rolunu oynayaraq, öz vəziyyətləri üzündən, tərəfdarı olduqları və bir-biri ilə düşmənçilik edən kral sülalələrini xaricdə tutub saxlamağa, Fransada isə nifrət bəslədikləri respublikanı müdafiə etməyə məcbur olan royalistlər; öz zəifliyini qüvvə və doğurduğu nifrəti özü üçün e`tibar hesab edən icraiyyə hakimiyyəti; iki monarxiyanın, Restavrasiya ilə İyul monarxiyasının ən alçaq cəhətlərinin imperiya pərdəsi altında birləşməsindən başqa bir şey olmayan respublika; əsasını parçalanma təşkil edən ittifaqlar; əsas qanunu mübarizəni başa çatdırmamaqdan ibarət olan mübarizə; sakitlik naminə aparılan məzmunsuz qızğın təşviqat; inqilab naminə ən təntənəli surətdə təbliğ olunan sakitlik; həqiqətdən məhrum olan ehtiraslar; ehtirasdan məhrum olan həqiqətlər; igidlik göstərməmiş qəhrəmanlar; hadisələri olmayan tarix; yeganə hərəkətverici qüvvəsi, görünür, təqvimdən ibarət olub eyni gərginlik və boşalma hallarını yeknəsəq şəkildə daim təkrar etməklə adamı yoran inkişaf; elə bil həll olunmadığına görə ancaq kütləşib yox olmaq üçün vaxtaşırı ən yüksək nöqtəyə çatan əksliklər; dünyanın xilaskarları ən xırda intriqalara və saray hoqqabazlığına əl atıb bu qayğısızlıqla dəhşətli məhşər günündən daha çox Fronda214 günlərini xatırlatdıqları bir zamanda təşəxxüslə şişirdilib gözə çarpdırılan sə`ylər və

yaxınlaşmaqda olan qiyamət günü qarşısında duyulan meşşan qorxusu; bir adamın hiyləgər kütlüyü qarşısında bütün Fransanın rüsvay edilən ümumi dühası; millətin hər dəfə ümumi səsvermə yolu ilə ifadə olunduqda, özünün layiqli ifadəsini kütlələrin mənafeyinin qəddar düşmənlərində axtaran və, nəhayət, bunu təkcə bir fırıldaqçının özbaşınalığında tapan ümumi iradəsi. Tarixin başdan-başa bayağı yazılmış bir səhifəsi varsa, o da məhz bu səhifədir. Adamlar və hadisələr Şlemillərin astarı kimi–öz bədənini itirmiş kölgə kimi görünür. İnqilab özü öz ifadəçilərinin əl-qolunu bağlayır və yalnız öz düşmənlərinə qızğın bir zorakılıq qüvvəsi verir. Əgər əksinqilabçıların daim ovsunlayıb çağırdıqları «qırmızı kabus», nəhayət, meydana çıxırsa, başında heç də anarxist Frigiya papağı deyil, əynində qayda-qanun libası, qırmızı şalvarla gəlir.

Biz gördük ki, Bonapartın yüksəldiyi gün, 1848-ci il dekabrın 20-də yaratdığı hökumət, qayda-qanun partiyasının hökuməti, legitimistlər və orleanistlər koalisiyasının hökuməti idi. Respublikaçı Müəssislər məclisinin ömrünü az-çox zorakılıqla qısaldan bu Barro–Fallu hökuməti məclisdən çox yaşadı və hələ hakimiyyət başında idi. Birləşmiş royalistlərin generalı olan Şanqarnye həm birinci ordu diviziyasının, həm də Paris milli qvardiyasının baş komandanı vəzifəsini hələ də öz əlində saxlayırdı. Nəhayət, ümumi seçkilər qayda-qanun partiyasının Qanunverici məclisdə çox böyük əksəriyyətini tə`min etmişdi. Burada Lui-Filippin deputatları və perləri müqəddəs legitimistlər falanqası ilə qovuşmuşdular legitimistlər üçün isə millətin çoxlu seçki bülletenləri siyasi səhnəyə daxil olmaq biletinə çevrilmişdi. Bonapartist deputatlar müstəqil parlament partiyası yaratmaq üçün çox az idi. Onlar qayda-qanun partiyasının yalnız «mauvaise queue»si (acınacaqlı əlavəsi. Red.) idi. Beləliklə, qayda-qanun partiyasının əlində dövlət hakimiyyəti, ordu və qanunverici korpus var idi,– bir sözlə, onun hakimiyyətini xalq iradəsinin ifadəsi kimi göstərən ümumi seçkilərlə və bütün Avropa kontinentində əksinqilabın eyni zamanda qələbəsi ilə mə`nəvi cəhətdən möhkəmlənmiş bütün dövlət hakimiyyəti var idi.

Hələ heç bir zaman heç bir partiya bundan daha güclü vasitələrlə və umulan daha əlverişli şəraitdə mübarizəyə girişməmişdi.

Məğlub olmuş xalis respublikaçılardan Qanunverici milli məclisdə Afrika generalları Kavenyak, Lamorisyer və Bedo başda olmaqla yalnız 50 nəfərlik bir güruh salamat qalmışdı. Lakin Dağ böyük bir müxalifətçi

partiya idi–sosialist-demokrat partiyası özünə belə ad vermişdi. Milli məclisdəki 750 yerin iki yüzdən çoxu bu partiyanın əlində idi və beləliklə, bu partiya azı qayda-qanun partiyasının üç fraksiyasından ayrılıqda hər biri qədər güclü idi. Bütün royalistlər koalisiyasına nisbətən onun nisbi azlığı, sanki, xüsusi şərait nəticəsində tarazlaşırdı. Nəinki təkcə departament seçkiləri bu partiyanın kənd əhalisi arasında xeyli nüfuz qazandığını göstərmişdi; demək olar, bütün Paris deputatları onun sıralarında idi; ordu üç nəfər kiçik zabiti seçməklə öz demokratik əqidələrini göstərmişdi; Dağın başçısı Ledrü-Rollen isə, qayda-qanun partiyasının bütün nümayəndələrindən fərqli olaraq, ona səs vermiş beş departamentdən seçilməklə parlament ləyaqətini qazanmışdı. Beləliklə, 1849-cu il mayın 28-də Dağın–royalistlərin öz arasında və bütün qayda-qanun partiyası ilə Bonapart arasındakı labüd toqquşmalar şəraitində–müvəffəqiyyət qazanmaq üçün, sanki bütün imkanları var idi. İki həftə sonra Dağ hər şeyi, o cümlədən öz şərəfini də itirdi.

Nəzərdən keçirdiyimiz dövrün ümumi xarakterinə qiymət verilərkən adətən buraxılan səhvlərə yol verməmək üçün, parlament əhvalatının şərhini davam etdirməzdən əvvəl bə`zi qeydlər etmək lazımdır. Demokratların fikrincə, Müəssislər məclisi dövründə də, Qanunverici milli məclis dövründə də məsələ eyni bir şey: respublikaçılarla royalistlər arasındakı adi mübarizə üzərində idi. Hərəkatın özünə isə onlar bircə sözlə, «irtica»–gecə sözü ilə yekun vururdular,–zira gecə vaxtı ağ ilə qaranı bir-birindən seçmək olmur və demokratlar, gecə keşikçisi kimi, istədikləri ləyaqətsiz sözləri söyləyə bilərlər. Əlbəttə, ilk nəzərdə qayda-qanun partiyası müxtəlif royalist fraksiyalarının bir kələfi kimi görünür ki, bunlar da özlərinin taxt-tac iddiasında olan adamını taxta çıxarmaq və müqabil tərəfin adamını rədd etmək üçün nəinki bir-birinə qarşı fitnə düzəldirlər, həmçinin «respublikaya» qarşı ümumi nifrət və ona qarşı ümumi mübarizə onların hamısını birləşdirir. Bu royalist qəsdçilərin əksinə olaraq, Dağ «respublikanın» müdafiəçisi kimi görünür. Qayda-qanun partiyası daim «irtica» ilə məşğuldur ki, bu da–tamamilə Prussiyada olduğu kimi–mətbuata, ittifaqlara və s. qarşı yönəldilmişdir və–yenə Prussiyada olduğu kimi–bürokratiyanın, jandarmeriyanın və məhkəmənin kobud polis müdaxiləsi vasitəsi ilə həyata keçirilir. Xalq partiyası adlanan hər bir partiyanın son yüz əlli il ərzində az-çox dərəcədə etdiyi kimi, «Dağ» da eyni dərəcədə daim bu həmlələri dəf etməklə, «insanın əbədi hüquqlarını»

müdafiə etməklə məşğuldur. Lakin şərait və partiyalar daha diqqətlə təhlil ediləndə, həmin dövrün sinfi mübarizəsini və xüsusi simasını pərdələyən bu aldadıcı pərdə aradan qalxır.
Deyildiyi kimi, legitimistlər və orleanistlər qayda-qanun partiyasının iki böyük fraksiyasını təşkil edirdilər. Bəs bu fraksiyaları onların taxt-tac iddiasında olan nümayəndələrinə bağlayan və onları bir-birindən ayıran nə idi? Məgər yalnız zanbaq gülü113 və üçrəngli bayraq, Burbonlar xanədanı ilə Orleanlar xanədanı, royalizmin müxtəlif çalarları və ümumiyyətlə onların royalist əqidələrimi? Burbonlar zamanı öz keşiş və əlaltıları ilə birlikdə iri torpaq sahibliyi hökmranlıq edirdi, Orleanlar zamanı isə oz vəkilləri, professorları və boşboğazları ilə birlikdə maliyyə aristokratiyası, iri sənaye, iri ticarət, yə`ni kapital hökmranlıq edirdi. Legitim monarxiyası yalnız torpaq mülkiyyətçilərinin irsi hakimiyyətinin siyasi ifadəsi idi, necə ki, İyul monarxiyası yalnız burjua törəmələrinin qəsbkar hakimiyyətinin siyasi ifadəsi idi. Beləliklə, bu fraksiyaları heç də prinsip adlanan şeylər deyil, onların öz varlığının maddi şəraiti, iki müxtəlif mülkiyyət növü,– şəhərlə kənd arasındakı köhnə əkslik, kapitalla torpaq mülkiyyəti arasındakı rəqabət ayırırdı. Eyni zamanda onları bu və ya başqa bir sülaləyə köhnə xatirələrin, şəxsi düşmənçilik, ehtiyat və ümidlərin, yanlış fikir və xəyalların, rəğbət və nifrətin, əqidələrin, e`tiqad simvollarının və prinsiplərin bağladığını kim inkar edər? Müxtəlif mülkiyyət formaları üzərində, ictimai varlıq şəraiti üzərində müxtəlif və xüsusi duyğular, xəyallar, düşüncə və dünyagörüşü tərzlərindən ibarət tam bir üstqurum yüksəlir. Bunların hamısını bütün sinif öz maddi şəraiti və müvafiq ictimai münasibətlər zəminində yaradır və düzəldir. Öz duyğu və baxışlarını ən`ənə və tərbiyə vasitəsi ilə alan ayrıca bir fərd güman edə bilər ki, məhz bunlar onun fəaliyyətinin həqiqi səbəblərini və başlanğıc nöqtəsini təşkil edir. Əgər orleanistlər, legitimistlər, hər bir fraksiya, iki müxtəlif sülaləyə bağlılığın onları bir-birindən ayırdığına özlərini və başqalarını inandırmağa çalışırdılarsa, faktlar sonra sübut etdi ki, əksinə, onların mənafe əksliyi iki sülalənin birləşməsinə imkan vermirdi. Adi həyatda insanın özü barəsində nə düşünüb danışdığı ilə onun həqiqətdə nə olduğu və nə etdiyi arasında fərq qoyulduğu kimi, xüsusilə tarixi vuruşmalarda da partiyaların ibarə və xəyalları ilə onların həqiqi təbiəti, onların həqiqi mənafeyi arasında, onların özləri barəsindəki təsəvvürləri ilə onların real mahiyyəti arasında daha çox fərq qoymaq lazımdır. Orleanistlər və legitimistlər respublikada

yan-yana əyləşərək, eyni tələblər irəli sürürdülər. Tərəflərdən hər biri, digərinin əksinə olaraq, öz xüsusi sülaləsinin bərpa olunmasına çalışırdısa, bu yalnız o demək idi ki, burjuaziyanın bölündüyü iki böyük fraksiyadan hər biri,–torpaq mülkiyyəti və maliyyə kapitalı,–öz üstünlüyünü bərpa etməyə və digərini tabe vəziyyətə salmağa çalışırdı. Biz burjuaziyanın iki fraksiyasından danışırıq, çünki iri torpaq mülkiyyəti feodalizmlə işvəbazlığının və öz nəsli təkəbbürünün əksinə olaraq, muasir cəmiyyətin inkişafının tə`siri altında tamamilə burjualaşmışdır. Məsələn, ingilis toriləri uzun müddət belə xəyal edirdilər ki, onlar kral hakimiyyətinə, kilsəyə və köhnə ingilis konstitusiyasının məziyyətlərinə bənd olmuşlar, lakin, üz göstərən təhlükə dəqiqəsində e`tiraf etdilər ki, yalnız torpaq rentasına bənd olmuşlar.

Birləşmiş royalistlər mətbuatda, Emsdə126, Klermontda127, parlamentdən kənarda bir-birinə qarşı fitnə düzəldirdilər. Pərdə arxasında onlar yenidən öz köhnə orleanist və legitimist libaslarını geyir və yenidən öz köhnə əməllərini təkrar edirdilər. Lakin ictimai səhnədə, tülkülük edib göstərdikləri tamaşalarda, böyük parlament partiyası rolunda çıxış edərkən, öz sülalələrindən təkcə tə`zimlə yaxalarını qurtarır və monarxiyanın bərpasını «in infinitum» (sonsuz. Red.) tə`xirə salırdılar. Onlar özlərinin əsil işi ilə qayda-qanun partiyası sifətində, yə`ni siyasi bayraq deyil, ictimai bayraq altında məşğul olurdular, səyahət edən prinseslərin cəngavərləri kimi deyil, burjua quruluşunun nümayəndələri kimi məşğul olurdular, respublikaçıların əksinə olaraq royalistlər kimi deyil, başqa siniflərin əksinə olaraq burjua sinfi kimi məşğul olurdular. Həm də qayda-qanun partiyası olmaq e`tibarı ilə onlar başqa ictimai siniflər üzərində keçmişdəki hər hansı bir vaxtda, Restavrasiya və İyul monarxiyası zamanı olduğundan daha çox qeyri-məhdud və möhkəm hakimiyyətə malik idilər ümumiyyətlə belə bir hakimiyyət yalnız parlament respublikası formasında mümkün idi, çünki fransız burjuaziyasının hər iki böyük fraksiyası yalnız bu dövlət formasında birləşə bilərdi və bununla da öz sinfinin imtiyazlı olan bircə fraksiyasının hökmranlığı əvəzində bütün sinfin hökmranlığını irəli sürə bilərdi. Buna baxmayaraq, onlar qayda-qanun partiyası olmaq e`tibarı ilə də respublikanı pisləyirlərsə və ona qarşı öz nifrətlərini gizlətmirlərsə, buna səbəb heç də təkcə royalist xatirələri deyildir. İnstinkt onlara deyirdi ki, respublika onların siyasi hökmranlığının tacını təşkil etsə də, eyni zamanda bu hökmranlığın ictimai əsasını sarsıdır, çünki indi onlar əsarət altına

alınmış siniflərlə üz-üzə durub bilavasitə mübarizə etməli olur, taxt-tac arxasında gizlənməyə, bir-birinə və kral hakimiyyətinə qarşı ikinci dərəcəli mübarizə ilə millətin diqqətini yayındırmağa imkanları olmur. Məhz zəiflik hissi onları öz sinfi hökmranlığının xalis şəraiti qarşısında geri çəkilməyə və geriyə, sinfi hökmranlığın natamam, inkişaf etməmiş, lakin məhz buna görə də daha təhlükəsiz formalarına can atmağa məcbur edirdi. Birləşmiş royalistlər hər dəfə onlara düşmən olub taxt-tac iddiasında olan Bonapart ilə toqquşanda, hər dəfə onlar özlərinin parlamentdəki qüdrətinə icraiyyə hakimiyyətinin qəsd edəcəyindən ehtiyat edəndə, deməli, onlar öz hökmranlığının siyasi cəhətdən qanuniliyini birinci sıraya qoymalı olanda isə əksinə,–orleanist Tyerdən başlamış legitimist Beryeyə qədər bir royalist kimi deyil, respublikaçı kimi meydana çıxırlar; o Tyerdən ki, respublika məsələsində onların içərisində ən az fikir ayrılığı olduğunu Milli məclisə inandırmağa cəhd edir və o Beryeyə qədər ki, 1851-ci il dekabrın 2-də belinə üçrəngli qurşaq bağlayaraq, bir tribun kimi onuncu dairə mer idarəsi qarşısına toplaşan xalqa respublika adından müraciət edib nitq söyləyir. Doğrudur, ona gülünc bir əks-səda cavab deyir: Henri V! Henri V! (V Henrix! V Henrix! Red.)

Burjua koalisiyasının əksinə olaraq, xırda burjualarla fəhlələrin koalisiyası, sosialist-demokrat partiyası adlanan partiya düzəlmişdi. 1848-ci il iyun günlərindən sonra xırda burjuaziya gördü ki, onu nəzərə almamışlar, onun maddi mənafeyinə zərər vurulmuşdur, ona bu mənafeyi müdafiə etmək imkanı verməli olan demokratik tə`minatı isə əksinqilab təhlükə altına almışdır. Buna görə də xırda burjuaziya fəhlələrlə yaxınlaşdı. Digər tərəfdən, onun parlament nümayəndəliyi olub burjua respublikaçılarının diktaturası zamanı arxa sıraya oturdulan Dağ, itirmiş olduğu nüfuzu Müəssislər məclisinin varlığının ikinci yarısında Bonaparta və royalist nazirlərə qarşı mübarizə sayəsində yenidən qazandı. Dağ sosialist başçılarla ittifaq bağladı. Bu barışığı 1849-cu ilin fevralında ziyafət məclisləri düzəldib bayram etdilər. Ümumi proqram düzəltdilər, ümumi seçki komitələri yaratdılar və ümumi namizədlər irəli sürdülər. Proletariatın ictimai tələbləri öz inqilabi kəskinliyindən məhrum edildi və demokratik bir rəng aldı, xırda burjuaziyanın demokratik tələbləri isə, xalis siyasi formasını itirdi və sosialist rəngi aldı. Beləliklə də sosialist-demokrat partiya yarandı. Bu qarşılıqlı sazişin nəticəsi olan yeni Dağın tərkibinə, fəhlə sinfi içərisindən bir neçə statist və bir neçə sosialist təriqətçi nəzərə

alınmazsa, köhnə Dağın tərkibindəki eyni ünsürlər daxil idi, ancaq indi bunlar daha çox idi. Lakin zaman keçdikcə, onun təmsil etdiyi siniflə birlikdə özü də dəyişildi. Sosialist-demokrat partiyanın xüsusi xarakteri özünü bunda göstərir ki, bu partiya demokratik-respublikaçı orqanlar qurulmasını tələb edirsə, hər iki kənar nöqtədə duran kapital ilə muzdlu əməyi məhv etmək üçün deyil, onların arasındakı antaqonizmi zəiflədib bir ahəngdarlığa çevirmək üçün tələb edir. Bu məqsədə çatmaq üçün nə kimi tədbirlər təklif olunsa da, məqsədin özünə nə qədər az-çox inqilabi rəng verilsə də,–onun mahiyyəti olduğu kimi qalır bu da cəmiyyəti demokratik yolla dəyişdirmək, lakin xırda burjualıq çərçivəsi daxilində qalaraq dəyişdirməkdir. Lakin belə bir məhdud təsəvvürə qapılmaq lazım deyildir ki, guya xırda burjuaziya öz eqoist sinfi mənafeyini həyata keçirmək cəhdini bir prinsip kimi irəli sürür. Əksinə, xırda burjuaziya inanır ki, onun azadlığının xüsusi şəranti eyni zamanda elə ümumi şəraitdir ki, müasir çəmiyyət yalnız həmin şəraitdə xilas edilib sinfi mübarizə aradan qaldırıla bİlər. Həmçinin bedə düşünmək lazım deyildir ki, demokratiyanın bütün nümayəndələri dükançılardır və ya dukançnların pərəstişkarlarıdır. Onlar öz təhsilinə və fərdi vəziyyətlərinə görə dükançılardan yerlə göy qədər uzaq ola bilərlər. Bunlar ona görə xırda burjua nümayəndələri olurlar ki, xırda burjua həyatının aşmadığı sərhədi onların fikri də aşa bilmir və buna görə xırda burjuanın maddi mənafeyi və ictimai vəziyyəti onu əməli surətdə nə kimi vəzifə və qərarlara gətirib çıxarırsa, onlar da nəzəri cəhətdən eyni vəzifə və qərarlara gəlib çıxırlar. Ümumiyyətlə bir sinfin siyasi və ədəbi nümayəndələri ilə onların təmsil etdikləri sinif arasındakı münasibət də belədir.

Deynlənlərdən sonra öz-özünə aydın olur ki, bir ordunu tərksilah stmək istədikdə, onun müqavimət göstərib döyüşə girişməsindən məqsəd yalnız öz silahını saxlamaqdan ibarət olmadığı kimi, Dağ da respublika uğrunda və insan hüqutları deyilən hüquqlar uğrunda qayda-qanun partiyasına qarşı daim mübarizə edirkən onun son məqsədi nə respublika, nə də insan hüquqları deyildir.

Milli məclis açılan kimi, qayda-qanun partiyası Dağa qarşı fitnəkarlığa başladı: Burjuaziya bir il əvvəl inqilabçı proletariatın işini bitirmək lazım gəldiyini hiss etdiyi kimi, indi də demokratik xırda burjuaziyanın işini bitirmək lazım gəldiyini hiss edirdi. Ancaq bu dəfə əleyhdarın vəziyyəti başqa cür idi. Proletar partiyasının gücü küçədə, xırda burjuaziyanın gücü

isə Milli məclisin özündə idi. Deməli, xırda burjuaziyanı aldadıb Milli məclisdən küçəyə çəkmək və nə qədər ki, zaman və şərait onun parlamentdəki gücünü möhkəmlətməmişdi, onun özünü bu gücünü qırmağa məcbur etmək lazım idi. Dağ dəlicəsinə tələyə atıldI.
Fransız qoşunlarının Romanı topa tutması onu aldatmış oldu. Bu topa tutma konstitusiyanın V maddəsini pozurdu, çünki həmin maddə Fransa respublikasının öz hərbi qüvvələrindən başqa bir xalqın azadlığına qarşı istifadə etməsini qadağan edirdi. Bundan əlavə, 54-cü maddə Milli məclisin razılığı olmadan müharibə e`lan etməyi icraiyyə hakimiyyətinə qadağan edir, Müəssislər məclisi isə 8 may tarixli qərarı ilə Roma hərbi səfərini pisləmişdi. Buna əsasən Ledrü-Rollen 1849-cu il iyunun 11-də Bonaparta və onun nazirlərinə qarşı ittihamnamə verdi. O, Tyerin sancaq batırmasından hiddətə gələrək, konstitusiyanı hər vasitə ilə, hətta əldə silah müdafiə etməklə hədələməyə başladı. Dağ bir nəfər kimi ayağa qalxdı və silaha sarılmaq haqqındakı bu çağırışı təkrar etdi. İyunun 12-də Milli məclis ittihamnaməni rədd etdi, Dağ isə parlamenti tərk edib getdi. 13 iyun hadisələri mə`lumdur; Dağın bir hissəsinin Bonapartı və onun nazirlərini «konstitusiya xaricində» e`lan edən intibahnaməsi silahsız gələn demokratik milli qvardiyaçıların küçə nümayişi və Şanqarnyenin qoşunları ilə üz-üzə gəldikdə qaçıb dağılmaları və ilaxir. Dağın bir hissəsi xaricə qaçdı, digər hissəsi Burjda ali məhkəməyə verildi118, Dağın qalıqları isə, bir məktəbli kimi, parlamentin qaydasına görə Milli məclis sədrinin xırdaçı nəzarəti altına alındı. Paris yenidən muhasirə vəziyyətində e`lan edildi, Paris milli qvardiyasının demokratik hissəsi isə dağıdılıb ləğv edildi. Dağın parlamentdəki nüfuzu və xırda burjuaziyanın Parisdəki gücü belə məhv edildi.
Fəhlələrin qanlı üsyanı üçün 13 iyun hadisələrinin bir siqnal olduğu Lion da beş qonşu departamentlə birlikdə mühasirə vəziyyətində e`lan edildi. Orada mühasirə vəziyyəti indiyə qədər davam etməkdədir.
Dağın əksəriyyəti intibahnaməni imzalamaqdan imtina etməklə öz avanqardına xəyanət etdi. Mətbuat da fərarilik etdi; yalnız iki qəzet bu bəyannaməni dərc etməyə cəsarət etdi. Xırda burjualar öz nümayəndələrinə xəyanət etdilər, milli qvardiyaçılar mübarizə meydanında yox idilər, arabir görünsələr də, barrikadalar qurmağa mane olurdular. Nümayəndələr xırda burjuaları aldatdılar: ordudan olan saxta müttəfiqlər heç bir yerdə görünmurdülər. Nəhayət, demokratik partiya proletariatdan qüvvə almaq

əvəzində, ona öz zəifliyini sirayət etdirdi və, demokratların gördükləri butün böyük işlərdə olduğu kimi, başçılar özlərinə təsəlli vermək üçün öz «xalqını» xəyanətdə ittiham edə bildilər, xalq isə özünə təsəlli vermək üçün öz başçılarını aldadıcı olmaqda ittiham edə bildi.

Çətin ki, hər hansı bir başqa iş haqqında xəbər veriləndə Dağın qarşıdakı yürüşü haqqında xəbər verildiyi zaman qoparılan hay-küydən daha artıq hay-küy qoparılmış olsun; çətin ki, demokratiyanın labüd qələbə qazanacağı haqqında başqa bir zaman başqa bir hadisə haqqında bu haldakından daha böyük inamla və əvvəlcədən hay-küy salınmış olsun. Şübhə yoxdur ki, demokratlar İyerixon divardarını yıxan gur şeypur səslərinin gücünə inanırlar. Odur ki, onlar hər dəfə istibdad divarı qarşısında duranda, bu mö`cüzəni təkrar etməyə çalışırlar. Əgər Dağ parlamentdə qalib gəlmək istəyirdisə, silaha sarılmağa çağırmamalı idi. Əgər parlamentdə silaha sarılmağa çağırırdısa, küçədə parlament sayağı hərəkət etməməli idi. Əgər ciddi surətdə dinc nümayiş fikrində idisə, nümayişin hərbi qüvvə ilə qarşılanacağını əvvəlcədən görməmək axmaqlıq idi. Əgər həqiqi mübarizə fikrində idisə, mübarizə üçün lazım olan silahı bir kənara qoymaq qəribə idi. Lakin iş bundadır ki, xırda burjuaların və onların demokratik nümayəndələrinin inqilabi hədələri, əleyhdarı qorxutmaq cəhdindən başqa bir şey deyildi. Əgər onlar çıxılmaz vəziyyətə düşürlərsə, əgər onlar çox irəliyə getdiklərinə görə öz hədələrini yerinə yetirməyə başlamaq məcburiyyətində qalırlarsa,–bunu ikimə`nalı şəkildə edərək, məqsədə doğru aparan vasitələrdən ən çox qaçır və məğlubiyyət üçün bəhanə axtarırlar. Mübarizə başlanacağını xəbər verən gurultulu müqəddimə, iş gəlib mübarizəyə çatan kimi qorxaq bir deyinməyə çevrilir; aktyorlar daha özlərinə ciddi nəzərlə baxmırlar, tamaşa süstləşir və hava doldurulub iynə batırılan bir qovuq kimi yığılır.

Heç bir partiya öz vasitələrini demokratik partiya qədər şişirtmir, mövcud şəraitə onun qədər yüngüllüklə aldanmır. Əgər ordunun bir hissəsi Dağa səs vermişdisə, Dağ bu fikrə gəlmişdi ki, ordu onun dalınca qiyama da gedəcəkdir. Lakin nə münasibətlə? Ordunun nöqteyi-nəzərincə yalnız bir mə`nası olan bu münasibətlə ki, inqilabçılar fransız əsgərlərinə qarşı Roma əsgərlərinin tərəfinə keçmişdilər. Digər tərəfdən, 1848-ci il iyun günlərinin xatirələri hələ o qədər təzə idi ki, proletariat milli qvardiyaya dərin bir nifrət bəsləməyə bilməzdi və gizli cəmiyyətlərin başçıları demokratik başçılara qarşı böyük bir e`timadsızlıq bəsləməyə bilməzdilər. Bu

ziddiyyətləri zəiflətmək üçün, təhlükə qarşısında olan ciddi mənafeyin ümumiliyi tələb olunurdu. Konstitusiyanın mücərrəd bir paraqrafının pozulması belə bir mənafe yarada bilməzdi. Məgər konstitusiya, demokratların özlərinin dediklərinə görə, artıq dəfələrlə pozulmamışdı? Məgər ən populyar qəzetlər konstitusiyanı əksinqilabçıların düzəltdiyi bir şey kimi pisləməmişdilər? Lakin demokrat, xırda burjuaziyanı, yə`ni iki sinfin mənafeyinin qarşılıqlı surətdə kütləşdiyi bir keçid sinfini təmsil edərkən buna görə belə xəyal edir ki, o, ümumiyyətlə, sinfi antaqonizmdən yüksəkdə durur. Demokratlar belə güman edirlər ki, onlara qarşı imtiyazlı bir sinif durur, onlar isə millətin bütün qalan təbəqələri ilə birlikdə xalqı təşkil edirlər. Onlar xalq hüququnu müdafiə edirlər; onlar xalq mənafeyini təmsil edirlər. Buna görə də gözlənilən mübarizə qarşısında müxtəlif siniflərin mənafe və vəziyyətini tədqiq etməyə onların ehtiyacı yoxdur. Onların öz vasitələrini çox ciddi şəkildə ölçüb-biçmələrinə ehtiyac yoxdur. Çünki onlar ancaq bir işarə verən kimi, xalq bütün tükənməz vasitələri ilə zalımların üzərinə atılacaqdır. Lakin mə`lum olsa ki, demokratların mənafeyi maraq oyatmır, onların gücü güçsüzlükdən ibarətdir, onda burada ya vahid xalqı müxtəlif düşmən cəbhələrə parçalayan zərərli sofistlər müqəssirdirlər, ya ordu həddindən artıq vəhşiləşdiyinə və gözləri həddindən artıq tutulduğuna görə demokratiyanın saf məqsədlərində öz xeyrini görmür, ya icranın hər hansı bir kiçik təfərrüatı üzündən hər şey dağılmışdır, ya da, nəhayət, əvvəlcədən nəzərdə tutulmayan bir təsadüf bu dəfə müvəffəqiyyətsizliyə səbəb olmuşdur. Hər halda demokrat ən biabırçı məğlubiyyətə nə qədər mə`sum daxil olmuşdusa, oradan eyni dərəcədə ləkəsiz çıxır və oradan çıxarkən əqidəsi daha da möhkəmlənmiş olur ki, o qalib gəlməlidir, o özü və onun partiyası köhnə nöqteyi-nəzərdən əl çəkmək deyil, əksinə, vəziyyət gəlib onun dərəcəsinə çatmalıdır.
Buna görə də sıraları seyrəlmiş, sarsılmış və yeni parlament qaydası nəticəsində alçaldılmış Dağı o qədər də bədbəxt hesab etmək lazım deyildir. Əgər iyunun 13-ü günü onun başçılarını aradan qaldırdısa, yenə həmin gün, digər tərəfdən, bu yeni vəziyyətdən xoşlanan ikinci dərəcəli «iste`dadı olanlara» yol açdı. Əgər onların parlamentdəki acizliyinə daha şübhə etmək olmazdısa, indi onlar haqlı olaraq özlərinin fəaliyyətini mə`nəvi hiddət partlayışları və gurultulu çıxışlarla məhdudlaşdıra bilərdilər. Əgər qayda-qanun partiyası onları inqilabın son rəsmi nümayəndələri kimi, anarxiyanın bütün dəhşətlərinin təcəssümü kimi

göstərirdisə, onlar işdə bir o qədər daha bayağı və mülayim ola bilərdilər. 13 iyun məğlubiyyəti münasibəti ilə isə onlar özlərinə belə bir dərin mə`nalı ibarə ilə təsəlli verirdilər: «Qoy bircə cəsarət edib ümumi seçki hüququna toxunsunlar, qoy bircə cəsarət etsinlər! Onda biz kim olduğumuzu göstərərik! Nous verrons! (Baxaq görək! Red.)».
Xaricə qaçmış montanyarlara gəldikdə, burada onu qeyd etmək kifayətdir ki, başçılıq etdiyi qüdrətli partiyanı cəmi iki həftədə tamamilə məhv edən Ledrü-Rollen bundan sonra özünü «in partibus»81 Fransa hökuməti düzəltməli olan bir adam hesab etdi inqilabın səviyyəsi nə qədər aşağı düşürdüsə və rəsmi Fransanın rəsmi nümayəndələri nə qədər xırdalaşırdılarsa, uzaqlarda, hərəkət meydanından kənarda onun siması da sanki bir o qədər böyüyürdü; 1852-ci ildəki seçkilərdə o taxt-tac iddiasında olan bir respublikaçı kimi meydana çıxa bilərdi; o hərdənbir valaxlara və başqa xalqlara tə`mimnamələr göndərərək, kontinentdəki müstəbidləri öz igidlikləri və öz müttəfiqlərinin igidlikləri ilə hədələyirdi. Məgər Prudon bu cənablara müraciət edib «Vous n`etes que des blagueurs!» («Siz boşboğazsınız, vəssalam!» Red.) deyəndə tamamilə haqsızdımı?
İyunun 13-də qayda-qanun partiyası nəinki Dağın gücünü qırdı, eyni zamanda Milli məclis çoxluğunun qərarlarına konstitusiyanın tabe olması prinsipini də keçirtdi. Bu partiya respublikanı belə başa düşürdü: respublikada burjuaziya parlament formalarında hökmranlıq edir və heç də monarxiyadakı kimi nə icraiyyə hakimiyyətinin veto hüququ ilə, nə də onun parlamenti buraxmaq hüququ ilə məhdud edilməmişdir. Tyerin verdiyi tə`rifə görə, parlamentli respublika belədir. Lakin burjuaziya iyunun 13-də parlament divarları daxilində özünün qeyri-məhdud hakimiyyətini tə`min etmişdisə, ən məşhur deputatları parlamentdən kənar etməklə parlamentin özünə sarsıdıcı zərbə vuraraq, icraiyyə hakimiyyəti və xalq qarşısında onu zəiflətməmişdimi? Burjuaziya heç bir şeylə hesablaşmadan bir çox deputatları məhkəməyə cəlb etdirməklə öz parlament toxunulmazlığını ləğv etmiş oldu. Burjuaziya Dağın deputatlarını təhqiredici qaydaya tabe etməklə xalqın hər bir ayrıca nümayəndəsini nə dərəcədə alçaltdısa, respublika prezidentini bir o dərəcədə yüksəltdi. Burjuaziya, konstitusiyanı müdafiə etmək uğrundakı üsyanı cəmiyyəti yıxmağa cəhd edən bir anarxist hərəkəti adlandırıb damğalamaqla icraiyyə hakimiyyətinin konstitusiyanı burjuaziyaya qarşı pozmaq fikrinə düşəcəyi halda, üsyana çağırmaq imkanından özünü

məhrum etdi. İndi gəl, tarixin gərdişinə bax! 1851-ci il dekabrın 2-də qayda-qanun partiyası göz yaşları ilə, lakin hədər yerə xalqa təklif edir ki, general Udino, Bonapartın tapşırığı ilə Romanı topa tutmaqla 13 iyun konstitusiya qiyamına bilavasitə səbəb olan bu general, Bonaparta qarşı konstitusiyanın müdafiəçisi olsun. 13 iyunun başqa bir qəhrəmanı, maliyyə aristokratiyasına mənsub olan milli qvardiyaçılardan ibarət quldur dəstəsinin başında duraraq, demokratik qəzetlərin binalarında ədəbsiz hərəkətlər göstərdiyinə görə Milli məclisin tribunasında tə`rifə layiq görülən Viyeyra,–məhz bu Viyeyra Bonapartın düzəltdiyi qəsddən xəbərdar idi və Milli məclisin ömrünün son günlərində ona milli qvardiya tərəfindən heç bir kömək edilməməsinə xeyli yardım göstərmişdi.
13 iyunun başqa bir mə`nası da var idi. Dağ çalışırdı ki, Bonapart məhkəməyə verilsin. Deməli, onun məğlubiyyəti Bonapartın açıq qələbəsi demək idi, öz demokratik düşmənləri üzərində Bonapartın şəxsi təntənəsi demək idi. Qayda-qanun partiyası belə bir qələbə qazanmışdı–Bonaparta bu qələbəni ancaq öz hesabına yazmaq qalırdı. O belə də etdi. İyunun 14-də Paris divarlarında prezidentin belə bir intibahnaməsini oxumaq olardı ki, guya bütün bu işlərdə onun əli yoxdur, o öz monastır tənhalığından guya istəmədən, yalnız hadisələrin təzyiqi altında çıxır, sözü eşidilməyən xoşəməl bir adam dili ilə öz əleyhdarlarının böhtanından şikayətlənir və guya öz şəxsiyyətini qayda-qanun işi ilə eyniləşdirməklə əslində qayda-qanun işini öz şəxsiyyəti ilə eyniləşdirir. Həm də Milli məclis Roma hərbi səfərinə sonradan icazə vermişdisə də, bunun təşəbbüsçüsü Bonapart idi. Bonapart Vatikanda ali keşiş Samuilin hakimiyyətini bərpa edərək, Tüilriyə padşah Davud kimi daxil olmaq ümidi bəsləyə bilərdi215. O, keşişləri öz tərəfinə çəkmişdi.
Gördüyümüz kimi, 13 iyun qiyamı dinc kuçə nümayişi ilə məhdud oldu. Deməli, buna qarşı mübarizədə hərbi şöhrətdən danışıq da ola bilməzdi. Bununla belə, qəhrəman və hadisə cəhətdən yoxsul olan bu zamanda qayda-qanun partiyası həmin qansız vuruşmanı ikinci Austerlisə çevirdi216. Tribunadan və mətbuatda, anarxiyanın acizliyini təmsil edən xalq kütlələrinin əksinə olaraq, ordunu, qayda-qanun qüvvəsi kimi, Şanqarnyeni isə «cəmiyyətin dayağı» adlandırıb tə`rifləyirdilər–və bu yalana axırda o özü də inandı. Halbuki şübhəli görünən qoşun hissələri Parisdən gizlicə çıxarılmışdı; seçkilərdə ən guclü demokratik meyl göstərən polklar Fransadan uzaqlaşdırılıb Əlcəzairə göndərilmişdi; əsgərlər

içərisindəki narahat ünsürlər islah batalyonlarına verilmişdilər; nəhayət, mətbuat müntəzəm surətdə qışladan, qışla isə vətəndaşlar cəmiyyətindən ayrı salınmışdı.
İndi biz Fransa milli qvardiyasının tarixində qəti bir dönüş nöqtəsinə gəlib çatdıq. 1830-cu ildə milli qvardiya Restavrasiyanın müqəddəratını həll etdi. Lui-Filipp zamanı, milli qvardiya qoşunlarla əlbir hərəkət etdikdə, hər bir qiyam müvəffəqiyyətsizliklə nəticələnirdi: 1848-ci ilin fevral günlərində bu qvardiya üsyana qarşı passiv və Lui-Filippə qarşı ikimə`nalı bir mövqe tutanda, Lui-Filipp özunü məhv olmuş hesab etdi və doğrudan da belə oldu. Bu yolla da belə bir əqidə dərin kök salmış oldu ki, milli qvardiya olmadan inqilab qalib gələ bilməz, milli qvardiya orduya qarşı duranda isə, ordu qalib gələ bilməz. Ordu mülki əhalinin qüdrəti haqqında belə bir mövhum əqidədə idi. 1848-ci ilin iyun günlərində, bütün milli qvardiya nizami qoşunla birlikdə üsyanı yatıranda, bu mövhum əqidə daha da möhkəmləndi. Bonapart prezident olduğu zaman, konstitusiyaya zidd olaraq milli qvardiyanın komandanlığını birinci ordu diviziyasının komandanlığVI ilə Şanqarnyenin əlində birləşdirmək nəticəsində milli qvardiyanın əhəmiyyəti bir qədər aşağı düşdü.
Bu halda milli qvardiyanın komandanlığı baş hərbi komandanlığın bir növ əlaməti olduğu kimi, milli qvardiyanın özü də nizami qoşunların yalnız bir əlavəsi xarakterini aldı. Nəhayət, iyunun 13-də milli qvardiya tamamilə məğlub edildi–həm də təkcə ona görə deyil ki, həmin gündən e`tibarən onu Fransanın hər tərəfində tədricən hissə-hissə dağıdıb ləğv etməyə başlamışdılar və nəhayət, onun ancaq tör-töküntüsü qaldı. 13 iyun nümayişi hər şeydən əvvəl, milli qvardiyanın demokratik hissəsinin nümayişi idi. Doğrudur, milli qvardiya orduya qarşı öz silahı ilə deyil, yalnız hərbi paltarı ilə çıxmışdı; lakin məhz bu hərbi paltarda bir tilsim var idi. Ordu yəqin etdi ki, bu paltar da hər hansı başqa paltar kimi bir parça yun əskidir. Məftunluq aradan qalxdı. 1848-ci ilin iyun günlərində milli qvardiyanın şəxsində burjuaziya və xırda burjuaziya proletariata qarşı ordu ilə birləşmişdi. 1849-cu il iyunun 13-də burjuaziya ordunun köməyi ilə xırda burjua milli qvardiyasını dağıtdı; 1851-ci il dekabrın 2-də daha burjua milli qvardiyası yox idi və Bonapart onu ləğv etmək haqqında sonradan dekret imzalamaqla, yalnın olub bitən bir faktı qeyd etmiş oldu. Beləliklə, burjuaziya özü orduya qarşı axırıncı silahını sındırmış oldu, lakin burjuaziya bu silahı daha xırda burjuaziya onun dalında itaətkar bir vassal

kimi durmayıb, bir üsyançı kimi onun qarşısına çıxdığı vaxtdan sındırmalı idi. Ümumiyyətlə, burjuaziya özü mütləq hakim olan kimi, mütləqiyyətə qarşı özünün bütün müdafiə vasitələrini öz əli ilə sındırmağa məcbur idi. Bu zaman qayda-qanun partiyası hakimiyyətin təkrar öz əlinə keçməsini bayram etdi, bu hakimiyyəti o, 1848-ci ildə sanki yalnız ona görə itirmişdi ki, 1849-cu ildə hər cür buxovlardan azad şəkildə yenidən əldə etsin, yə`ni respublika və konstitusiyanı təhqir etməklə, bütün gələcək, indiki və keçmiş inqilablara, o cümlədən qayda-qanun partiyasının öz başçıları tərəfindən edilən inqilaba da lə`nət yağdırmaqla və, nəhayət, mətbuatı sıxışdıran, ittifaqlar azadlığını məhv edən və mühasirə vəziyyətini normal bir vəziyyət kimi təsdiq edən qanunlar verməklə əldə etsin. Sonra Milli məclis öz iclaslarına avqustun ortalarından oktyabrın ortalarına qədər fasilə verərək, özunün mövcud olmadığı müddətə daimi komissiya tə`yin etdi. Bu tə`til zamanı legitimistlər Ems ilə, orleanistlər–Klermontla intriqa edirdilər, Bonapart şahanə səfərlər düzəltməklə intriqa edirdi, departament şuraları isə konstitusiyanı yenidən nəzərdən keçirmək üçün çağırılan müşavirələrdə intriqalar edirdilər,–bu faktlar Milli məclisin vaxtaşırı tə`tilləri zamanı daim təkrar olunurdu. Həmin faktlar yalnız bir hadisə xarakteri alacağı zaman mən bunlardan ətraflı bəhs edəcəyəm. Burada yalnız onu qeyd etmək lazım gəlir ki, Milli məclis siyasətlə hərəkət etməyərək, uzun müddətə səhnədən çəkilir və hamının gözü qarşısında respublikanın başçılığını ancaq bir fərdə, miskin bir şəxs olsa da, yalnız Lui Bonaparta tapşırırdı, halbuki qayda-qanun partiyası monarxiyanı bərpa etmək məsələsində bir-birinə düşmən istəkləri olan öz royalist tərkib hissələrinə parçalanmaqla camaatı rüsvay edirdi. Parlamentin qulaq batıran gurultusu hər dəfə bu tə`tillər zamanı kəsiləndə və onun cismi millət içərisində əriyib gedəndə aydın olurdu ki, bu respublikanın öz əsil şəklində meydana çıxması üçün bircə şeyi çatışmır,–o da parlament tə`tillərini fasiləsiz etmək və özünün «Liberte, egalite, fraternite» (Azadlıq, bərabərlik, qardaşlıq. Red.) şüarını açıq-açığına «İnfanterie, Cavalerie, Artillerie!» (Piyada, Süvari, Artilleriya. Red.) kimi aydın sözlərlə əvəz etməkdir.

IV

1849-cu il oktyabrın ortalarında Milli məclis yenə öz iclaslarına başladı. Noyabrın 1-də Bonapart Barro–Fallu hökumətini istefa vermək məcburiyyətində qoyduğu və yeni hökumət təşkil edildiyi haqqvqadakı məktubu ilə Məclisi heyrətə saldı. Bonapart öz nazirlərini elə biabırçılıqla

qovdu ki, heç nökəri də xidmətdən belə qovmazlar. Milli məclis üçün nəzərdə tutulan təpiklər hələlik Barro və kompaniyasına dəydi. Gördüyümüz kimi, Barro hökuməti legitimist və orleanistlərdən təşkil edilmişdi. Bu, qayda-qanun partiyasının hökuməti idi. Bonaparta belə bir hökumət respublikaçı Müəssislər məclisini dağıtmaq, Romaya hərbi səfəri həyata keçirmək və demokrat partiyasının gücünü qırmaq üçün lazım idi. O zaman Bonapart, sanki, həmin hökumət arxasında gizlənərək, hökumət səlahiyyətini qayda-qanun partiyasına vermişdi və Lui-Filipp zamanı Parisdə qəzetlərin redaktorlarının taxdıqları sadə maska, tipik «homme de paille» (qondarma bir şəxsin. Red.) maskasını taxmış olacaqdı. İndi o həmin maskanı atmışdır, çünki bu maska ona öz simasını gizlətmək imkanı verən nazik bürüncəkdən dönüb özünün əsil simasını göstərməsinə mane olan dəmir maskaya çevrilmişdi. O, Barro hökumətini hakimiyyət başına çağırmışdı ki, qayda-qanun partiyası adından respublikaçı Milli məclisi qovsun; sonra bu hökuməti iste`fa verməyə məcbur etdi ki, həmin qayda-qanun partiyasının Milli məclisindən öz adının asılı olmadığını e`lan etsin. Bu iste`fa üçün münasib bəhanələr az deyildi. Barro hökuməti, Milli məclislə yanaşı hakimiyyət olan respublika prezidenti barəsində riayət edilməsi lazım olan hətta ədəb qaydalarına da e`tinasızlıq göstərirdi. Bonapart Müəssislər məclisinin əksinə olaraq, Roma respublikasına hücum etdiyinə görə Udinonu tə`rifləyən bir məktub dərc etdirdiyi kimi, parlament tə`tilləri zamanı da Edqar Neyə göndərdiyi və burada sanki, papannın (IX Piyin. Red.) liberal olmayan çıxışı haqqında mənfi rə`y irəli sürdüyü məktubu dərc etdirdi. Milli məclis Roma hərbi səfəri üçün vəsait buraxılmasını təsdiq edəndə Viktor Hüqo zahiri liberalizm üzündən bu məktub haqqında məsələ qaldırdı. Qayda-qanun partiyası guya Bonapartın axmaq hərəkətlərinin bir siyasi mə'nası ola biləcəyi fikrinin özünü də təhqiredici inamsızlıq gurultuları ilə boğdu. Həm də nazirlərdən heç kəs Bonaparta atılan əlcəyi qaldırmadı. Başqa bir dəfə Barro özünə məxsus boş bir coşqunluqla tribunadan, özünün dediyinə görə, prezidentin yaxın adamları arasındakı «iyrənc intriqalardan» hiddətlə danışdı. Nəhayət, dul qalan Orlean hersoginyası üçün Milli məclisdən pensiya qoparmış hökumət prezidentin maaşını artarmağı Məclisə təklif etməkdən qəti boyun qaçırdı. Bonapart isə, imperator taxt-tacı iddiasında olan adamla var-yoxdan çıxmış macərapərəsti öz varlığında o qədər sıx birləşdirmişdi ki, özünun imperiyanı bərpa etmək vəzifəsi haqqındakı böyük ideyasını onun zehnində

həmişə başqa bir böyük ideya tamamlayırdı, bu ideyaya görə onun borclarını vermək fransız xalqının vəzifəsi imiş.
Barro–Fallu hökuməti Bonapartın yaratdığı birinci və axırıncı parlament hökuməti idi. Buna görə də onun iste`fası qəti dönuş nöqtəsidir. Onunla birlikdə qayda-qanun partiyası parlament idarə üsulunu mühafizə edib saxlamaq üçün zəruri olan dayağı–icraiyyə hakimiyyətinə rəhbərliyi həmişəlik itirdi. Fransa kimi bir ölkə ki, orada iiraiyyə hakimiyyətinin ixtiyarında yarım milyondan çox mə`mur ordusu vardır, yə`ni bir çox mənafeyi və şəxsləri daim və ən qəti suratdə özündən asılı saxlayır, orada dövlət vətəndaşlar cəmiyyətini, onun ən böyük həyat təzahurlərindən başlamış ən kiçik təzahürlərinə qədər, ən ümumi yaşayış formalarından başlamış ayrı-ayrı fərdlərin xüsusi yaşayışına qədər hamısını bürüyur, nəzarət altında saxlayır, ona istiqamət verir, göz yetirir və qəyyumluq edir, orada bu tüfeyli orqanizm qeyri-adi bir mərkəzləşmə üzündən hər yerdə mövcuddur, hər şeydən xəbərdardır, yüksək bir elastiklik və çeviklik əldə etmişdir və bunların müqabilində həqiqi ictimai orqanizm yalnız aciz, asılı, zəif və iradəsiz halda qalır,–özlüyündə aydındır ki, belə bir ölkədə Milli məclis eyni zamanda dövlət idarəsini sadələşdirmirsə, mə`murlar ordusunu mümkün olduğu qədər azaltmırsa, nəhayət, vətəndaşlar cəmiyyətinə və ictimai rə`yə hökumətdən asılı olmayan öz orqanlarını yaratmaq imkanı vermirsə, nazir vəzifələrini paylamaq huququ ilə birlikdə hər cür həqiqi nüfuzunuda itirmiş olur. Lakin fransız burjuaziyasının maddi məiafeyi bu geniş, və çox yayılmış dövlət maşınını mühafizə edib saxlamaqla ən sıx surətdə birləşir. Burjuaziya öz artıq əhalisini buraya yeridir və mənfəət, faiz, renta və qonorar şəklində ala bilmədiyinin yerini rəsmi maaş şəklində doldurur. Digər tərəfdən, burjuaziyanın siyasi mənafeyi onu gündən-günə cəza tədbirlərini daha artıq şiddətləndirməyə, yə`ni dövlət hakimiyyətinin vəsaitini və şəxsi hey`ətini hər gün artırmağa, eyni zamanda da ictimai rə`yə qarşı arası kəsilmədən mübarizə etməyə və ictimai hərəkatın müstəqil orqanlarına inanmadığına görə bunları sadəcə aradan qaldıra bilməyəndə, bunları şikəst etməyə, pozmağa məcbur edir. Beləliklə, fransız burjuaziyasının sinfi vəziyyəti onu, bir tərəfdn hər cür hakimiyyətin və deməli, öz parlament hakimiyyətinin mövcud olmaq şəraitini məhv etməyə, digər tərəfdən isə, ona düşmən olan icraiyyə hakimiyyətini yenilməz bir şəklə salmağa məcbur edirdi.

Yeni hökumət d`Opul hökuməti adlanırdı. Bu heç də o, demək deyildir ki, general d`Opul baş nazir vəzisyzəsi almışdı. Barronun iste`fasından sonra Bonapart bü vəzifəni hətta ləğv etmişdi, çünki əslində bu vəzifə respublika prezidentini qanun əsasında çox cüz`i rol oynayan konstitusiyalı kral, taxt və tacı olmayan hökmdar, əsası və qılıncı olmayan, toxunulmazlıq imtiyazı olmayan, yüksək dövlət rütbəsinə irsən sahib olmayan və–ən pisi–padşah maaşı almayan konstitusiyalı kral rolu oynamağa məhkum edirdi. D`Opul hökumətinin tərkibində parlamentdən ancaq bircə adam var idi ki, bu da maliyyə aristokratiyasının ən çox biabır olmuş üzvlərindən sələmçi Fuld idi. Ona maliyyə naziri vəzifəsi çatdı. 1849-cu il noyabrın 1-dən e`tibarən fransız qiymətli kağızları məzənnəsinin Bonapartın səhmləri ilə birlikdə necə qalxıb-düşdüyünə yəqinlik hasil etmək üçün Paris birjasının məzənnə bülletenlərinə bir nəzər salmaq kifayətdir. Beləliklə, birjada özunə müttəfiq tapan Bonapart, eyni zamanda, Karlyeni Paris polisinin prefekti tə`yin etməklə polisi də öz əlinə aldı

Lakin hökumətin dəyişilməsinin nəticələri yalnız sonrakı inkişaf gedişində meydana çıxa bilərdi. Hələlik Bonapart irəliyə doğru yalnız bİrcə addım atmışdı ki, bu da onu bir o qədər aydın şəkildə geriyə atmış oldu. O, kobud məktubundan sonra Milli məclisə öz itaətkarlığını olduqca alçaq şəkildə bildirdi. Hər dəfə nazirlər onun şəxsi uydurmalarına cur`ət edib qanun layihəsi şəkli verməyə çox ehtiyatla təşəbbüs edəndə, baş tutmayacağına əvvəlcədən əmin olduqları bu gülünc tapşırıqları, sanki, istəmədən, yalnız öz mövqeləri üzündən yerinə yetirirdilər. Hər dəfə Bonapart nazirlərdən xəlvətdə öz niyyətlərini dilindən qaçıranda və özünün «idees napoleoniennes»217 oyununu oynayanda onun öz nazirləri Milli məclis tribunasında ondan üz döndərirdilər. O öz qəsbkarlıq arzularını sanki yalnız ona görə bildirirdi ki, əleyhdarları ondan kam alaraq gülməkdə davam etsinlər. O bir dahi kimi görünmək istəyirdisə də, bunu qəbul edən yox idi və bütün dünya onu səfeh hesab edirdi. O hələ heç bir zaman bütün siniflərdən bu dövrdəki qədər kəskin nifrət görməmişdi. Hələ heç bir zaman burjuaziya bu qədər qəti hökm sürməmişdi burjuaziya hələ heç bir zaman öz hökmranlıq əlamətlərini bu qədər böyük təkəbbürlə gözə soxub göstərməmişdi.

Burada burjuaziyanın qanunvericilik fəaliyyətinin tarixini yazmaq mənim vəzifəmə daxil deyildir; bu dövrdə onun bu fəaliyyəti iki qanundan: şərab vergisini bərpa edən qanundan və dinsizliyi ləğv edən təhsil haqqındakı

qanundan ibarətdir. Fransızların şərab içməsini çətinləşdirən burjuaziya onlara daha çox səxavətlə mö`min həyat suyu verirdi. Şərab vergisi vasitəsi ilə köhnə, mənfur vergi sistemini toxunulmaz e`lan edən burjuaziya təhsil haqqındakı qanun vasitəsi ilə kütlələrin zehnini həmin vergi sisteminə dözmək imkanı verən köhnə halında saxlamağa çalışırdı. Təəccüb edirlər ki, orleanistlər, liberal burjualar–volterçiliyin və eklektik fəlsəfənin bu köhnə təbliğçiləri–fransızlara mə`nəvi rəhbərliyi öz qəddar düşmənləri olan yezuitlərə tapşırırlar. Lakin orleanistlər də, legitimistlər də taxt-tac iddiasında olan şəxs məsələsində eyni fikirdə olmasalar da, başa düşürdülər ki, onların birgə hökmranlığı iki dövrün zülm alətlərinin birləşdirilməsini tələb edir və İyul monarxiyasının əsarət vasitələrini Restavrasiyanın əsarət vasitələri ilə tamamlamaq və qüvvətləndirmək lazımdır.
Bütün ümidləri boşa çıxıb aldadılan, bir tərəfdən, aşağı taxıl qiymətlərindən, digər tərəfdən isə vergilərin və hipotek borcunun getdikçə artan ağırlığından həmişəkindən daha çox əziyyət çəkən kəndlilər departamentlərdə hərəkətə gəldilər. Onlara məktəb müəllimlərini ruhanilərə tabe edib tə`qib etməklə, merləri prefektlərə tabe edib tə`qib etməklə, nəhayət, hamının tabe edildiyi casusluq sistemi ilə cavab verdilər. Parisdə və böyük şəhərlərdə irtica özü öz dövrünün damğasını öz üzərində daşıyır və əzməkdən daha çox əsəbilik törədir. Kənddə irtica bayağı, alçaq, xırdaçı, üzücü, zəhlətökən, bir sözlə–jandarm olur. Aydındır ki, keşiş idarə üsulu vasitəsi ilə müqəddəs şəklə salınan üçillik jandarm idarə üsulu yetkinləşməmiş kütlələri nə dərəcədə pozğunlaşdırmalı idi.
Qayda-qanun partiyasının Milli məclis tribunasından azlığa qarşı göstərdiyi bütün coşqunluq və ibarəçiliyə baxmayaraq, onun nitqi ancaq: hə-hə, yox-yox–deyən bir xristian nitqi kimi qısa idi! Tribunada da, mətbuatda da qısa idi; həlli əvvəlcədən mə`lum olan bir tapmaca kimi səthi idi. İstər müştərək ərizə vermək hüququndan və ya şərab vergisindən, istər mətbuat azadlığından və ya ticarət azadlığından, istər klublardan və ya bələdiyyə quruluşundan, istər şəxsiyyət azadlığını tə`min etməkdən və ya dövlət büdcəsini müəyyənləşdirməkdən bəhs olunsun,–həmişə eyni şuar eşidilirdi, daim eyni mövzudan bəhs olunurdu, hökm daim hazır olub həmişə belə idi: «Sosializm!». Hətta burjua liberalizmi də sosializm, burjua maarifi də–sosializm, burjua maliyyə islahatı da–sosializm e`lan edilirdi. Bir kanal olduğu yerdə dəmiryol çəkmək də sosializm idi, ğılıncla hücum edəndən özünü dəyənəklə müdafiə etmək də sosializm idi.

Bu, partiya mübarizəsində ancaq boş bir ibarə, bir dəb, bir üsul deyildi. Burjuaziya düzgün başa düşmüşdü ki, onun feodalizmə qarşı hazırladığı bütün silah növləri onun özünə qarşı çevrilirdi, onun yaratdığı bütün maarif vasitələri onun öz mədəniyyətinə qarşı üsyan edirdi, onun yaratdığı bütün allahlar ondan üz döndərmişdi. O başa düşmüşdü ki, mülki azadlıqlar və tərəqqi orqanları adını daşıyanların hamısı onun sınfi hökmranlığına qəsd edir və onun istər öz ictimai təməlini, istərsə də yuxarı siyasi təbəqələrini təhlükə altına alır, deməli, bunlar «sosialist» amilləri olmuşdur. Burjuaziya bu təhlükəni və bu qəsdi haqlı olaraq sosializmin sirri hesab edirdi, sosializmin mə`na və meylini sosializm adlananın öz-özünə verdiyi qiymətdən daha düzgün qiymətləndirirdi, sosializm isə bu üzdən başa düşə bilmir ki, sosializm, fərqi yoxdur, bəşəriyyətin çəkdiyi əzablar münasnbətilə sentimental göz yaşları axıtsın, min illik xristian səltənətnidən və ümumi qardaşlıq məhəbbətindən bəhs etsin və ya ruh, təhsil, azadlıq haqqında insanpərvərliklə boşboğazlıq etsin, yaxud bütün sinifləri barışdırmaq və salamatlığa çatdırmaq sistemini nəzəriyyəbazlıqla uydursun,–nəyə görə burjuaziya ondan qəti surətdə üz döndərir. Burjuaziya bir şeyi başa düşməmişdi ki, ardıcıl fikir yeritdikdə, onun özünün parlamentli idarə üsulu, ümumiyyətlə onun siyasi hökmranlığı da sosializmə aid bir şey kimi hamılıqla pislənməlidir. Nə qədər ki, burjuaziyanın hökmranlığı mükəmməl təşkil olunmamışdı, öz xalis siyasi ifadəsini tapmamışdı, başqa siniflərlə burjuaziya arasındakı antaqonizm də saf şəkildə meydana çıxa bilməzdi, bunun meydana çıxdığı yerdə isə dövlət hakimiyyətinə qarşı hər bir mübarizənin kapitala qarşı mübarizəyə çevrildiyi təhlükəli forma ala bilməzdi. Əgər burjuaziya ictimai həyatın hər bir təzahüründə «rahatlıq» üçün bir təhlükə görürdüsə, narahatlıq idarə üsulunu, öz idarə üsulunu,–öz natiqlərindən birinin dediyi kimi desək,–mübarizədə və mübarizə vasitəsi ilə yaşayan parlamentli idarə üsulunu cəmiyyətin başında mühafizə edib saxlamağı, bəs necə arzu edə bilərdi? Necə ola bilər ki, mübahisələrlə yaşayan parlamentli idarə üsulu mübahisəni qadağan etsin? Burada hər bir mənafe, hər bir ictimai tədbir ümumi bir ideyaya çevrilir və bir ideya hesab olunur,–bəs necə ola bilər ki, belə bir şəraitdə hər hansı bir mənafe, hər hansı bir tədbir düşüncədən yüksək tutulsun və e`tiqad simvolu kimi qəbul etdirilsin? Natiqlərin tribunadakı mübarizəsi qəzet cızmaqaraçılarının mübarizəsinə səbəb olur, parlamentin mübahisə klubunu labüddən salon və meyxanalardakı

mubahisə klubları tamamlayır; həmişə xalqın rə`yinə müraciət edən deputatlar bununla da xalqın rə`yinə ixtiyar verirlər ki, öz həqiqi rə`yini müştərək ərizələrdə bildirsin. Parlamentli idarə üsulu hər şey haqqında əksəriyyətlə qərar çıxarırsa,–bəs necə ola bilər ki, parlamentdən kənardakı çox böyük əksəriyyət də öz qərarlarını çıxarmaq istəməsin? Əgər siz dövlət başında durub skripka çalırsınızsa, aşağıda duranların oynadıqlarına təəccüb edə bilərsinizmi?

Beləliklə, burjuaziya əvvəllər «liberalizm» deyə göylərə qaldırdığı şeyi «sosializm» deyə pisləməklə e`tiraf edir ki, onun öz mənafeyi ondan özünün idarə təhlükəsindən xilas olmağı tələb edir; ölkədə rahatlığı bərpa etmək üçün hər şeydən əvvəl ölkənin burjua parlamentini sakitləşdirmək lazımdır; burjuaziyanın ictimai hakimiyyətini salamat saxlamaq üçün onun siyasi hakimiyyəti qıqrılmalıdır; ayrı-ayrı burjualar başqa sinifləri istismar etməkdə və mülkiyyət, ailə, din və qayda-qanun ne`mətlərindən utanmadan istifadə etməkdə yalnız bu şərtlə davam edə bilərlər ki, başqa siniflərlə yanaşı bir sinif olmaq e`tibarı ilə burjuaziya da onlar kimi, eyni siyasi miskinliyə məhkum edilmiş olsun; burjuaziyanın pul kisəsini xilas etmək üçün taxt-tac onun əlindən alınmalı və onu müdafiə edən qılınc Damokl qılıncı kimi onun öz başı üstündən sallanmalıdır.

Milli məclis burjuaziyanın ümumi mənafeyi sahəsində o qədər bacarıqsız oldu ki, məsələn, Parislə Avinyon arasında dəmiryol çəkilməsi haqqında 1850-ci ilin qışında başlanan mübahisələr 1851-ci il dekabın 2-də hələ başa çatdırılmamışdı. Məclis zülm etmədiyi, mürtəce hərəkət etmədiyi yerdə, onun əlacsız səmərəsizliyi özünü göstərirdi.

Bonapart hökuməti qismən qayda-qanun partiyası ruhundakı qanunların təşəbbüsçüsü olduğu, qismən də təcrübədə bu qanunların tətbiqinin təzyiqini hələ gücləndirdiyi bir zamanda,–Bonapart da öz tərəfindən uşaqcasına mə`nasız layihələr vasitəsi ilə şöhrət qazanmağa çalışaraq, Milli məclisə öz düşmənçiliyini nəzərə çarpdırır və nə isə bir gizli xəzinənin varlığına işarə edib göstərirdi ki, hələlik yalnız şərait onun bu xəzinədə gizlədilən ne`mətləri fransız xalqı üçün açmasına mane olur. Buraya kiçik zabitlərin maaşını gündə dörd su artırmaq təklifi və fəhlələrə borc pul buraxacaq «şərəf bankı» layihəsi daxildir. Bonapart kütlələrə sədəqə və borc pul verib onları aldatmaq istəyirdi. Adlı-sanlı olsun və olmasın lümpen-proletariatın bütün maliyyə məharəti sədəqə və borc pul verməkdən ibarətdir. Bonapart da yalnız bu vasitələri işə salmağı bacarırdı.

Taxt-tac iddiasında olan heç kəs hələ heç bir zaman qara camaatın bu bayağılığından belə bayağı istifadə etməmişdi.
Milli məclis hesabına şöhrət qazanmaq üçün Bonapartın göstərdiyi bu şəksiz cəhdlər məclisi dəfələrlə hiddətə gətirmişdi, xüsusilə ona görə ki, qorunması lazım gələn e`tibarı heç qazanmayan bu macərapərəstin öz borclarının təzyiqi altında nə isə böyük bir fırıldağa əl ata biləcəyi təhlükəsi getdikcə artırdı. Qayda-qanun partiyasvq ilə prezident arasındakı ixtilaflar təhlükəli bir xarakter almaqda idi ki, gözlənilməz bir hadisə onu yenidən tövbə edib həmin partiyanın qucağına atılmağa məcbur etdi. Biz 1850-ci il martın 10-dakı əlavə seçkiləri nəzərdə tuturuq. Bu seçki iyunun 13-dən sonra həbsxanaya salınan və ya didərgin düşən deputatları əvəz etmək üçün keçirllmişdi. Paris yalnız sosialist-demokrat partiyasının namizədlərini seçdi. Bundan əlavə: Paris 1848-ci il iyun üsyanı iştirakçısı Deflotta ən çox səs verdi. Beləliklə, proletariatla birləşmiş olan Paris xırda burjuaziyası 1849-cu il 13 iyun məğlubiyyətinin intiqamını aldı. Xırda burjuaziya təhlükə dəqiqəsində mübarizə meydanından elə bil məhz ona, görə yox olmuşdu ki, əlverişli şəraitdə daha böyük döyüş qüvvəsi və daha cəsarətli döyüş şüarı ilə yenidən meydana çıxsın. Sanki bir cəhət bu seçki qələbəsinin təhlükəli xarakterini daha dəhşətli edirdi: Parisdə ordu Bonapartın naziri Lantin əleyhinə olaraq, iyun üsyançısı lehinə, departamentlərdə isə ən çox montanyarların lehinə səs vermişdi və montanyarlar Parisdəki qədər qəti olmasa da, burada da əleyhdarlarına üstün gəlmişdilər.
Bonapart birdən-birə özünü yenə inqilab qarşısında gördü. 1849-cu il yanvarın 29-da və 1849-cu il iyunun 13-də olduğu kimi, 1850-ci il martın 10-da da qayda-qanun partiyasının arxasında gizləndi. O, itaətkar olmuşdu, qorxuya düşüb özünün bağışlanmasını xahiş edirdi, parlament çoxluğunun əmri ilə hər cür hökumət düzəltməyə hazır olduğunü bildirirdi, bundan əlavə orleanist və legitimist başçılarından,–Tyerlərdən, Beryelərdən, Brolyilərdən, Molelərdən, bir sözlə, burqqraf140 adlananlardan xahiş edirdi ki, şəxsən dövlət sükanının başına keçsinlər. Qayda-qanun partiyası bir daha ələ düşməz bu fürsətdən istifadə edə bilmədi. Bu partiya təklif edilən hakimiyyəti cəsarətlə ələ almaq əvəzinə hətta Bonanartı noyabrın 1-də hakimiyyətdən uzaqlaşdırdığı hökuməti geri qaytarmağa da məcbur etmədi; qayda-qanun partiyası onu bağışlayıb alçaltmaqla və c. Baroşu d`Opul hökumətinə daxil etməklə kifayətləndi. Vaxtilə Burjda Ali

məhkəmə yanında prokuror olan bu Baroş 15 may inqilabçılarına qarşı və sonra 13 iyun demokratlarına qarşı azğınlıq göstərərək, hər iki halda onları Milli məmlisə qəsd etməkdə təqsirləndirmişdi. Bonapart nazirlərindən heç biri sonralar Milli məclisi alçaltmaq üçün Baroş qədər iş germəmişdi; 1851-ci il dekabrın 2-dən sonra isə biz onu yenə senat prezidentinin müavini kimi şərəfli və yüksək maaş verilən vəzifədə görürük. O, inqilabçıların şorbasına tüpürmüşdü ki, Bonapart bunu yeyə bilsin. Sosnalist-demokrat partiyası isə, saiki, ancaq fürsət axtarırdı ki, öz qələbəsini yenidən təhlükə qarşısında qoysun və onun əhəmiyyətini azaltsın. Parisin yeni seçilmiş deputatlarından biri olan Vidal eyni zamanda Strasburqda da seçilmişdi. Onu inandırdılar ki, Strasburq mandatını saxlayıb Paris mandatından əl çəkmək daha munasibdir. Beləliklə, demokrat partiyası öz seçki qələbəsini qəti şəklə salmaq və bununla da qayda-qanun partiyasını parlamentdə dərhal mübarizəyə vadar etmək əvəzinə, xalq coşqunluğu və ordunun əlverişli əhvali-ruhiyyədə olduğu bir zamanda düşməni mübarizəyə məcbur etmək əvəzinə, mart və aprel ayları ərzində Parisi yeni seçki təşviqatı ilə yordu, xalqın coşan ehtirasını bu yeni müvəqqəti seçki oyununda tükətdi, inqilabi enerjini konstitusiya yolu ilə qazanılmış müvəffəqiyyətlərdə boğdu, onu xırda intriqalara, boş ibarəçiliyə və zahiri hərəkata sərf etdi, burjuaziyaya özünə gəlmək və öz tədbirlərini görmək imkanı verdi, nəhayət, əlavə aprel seçkilərini sentimental şəkildə şərh etməklə–Ejen Sünü seçməklə mart seçkilərinin əhəmiyyətini aşağı saldı. Bir sözlə, bu partiya 10 mart gününü bir aprel zarafatı ilə ələ saldı. Parlament əksəriyyəti öz əleyhdarının zəifliyini başa düşdü. Qayda-qanun partiyasının on yeddi burqqrafı–çünki Bonapart hücumun rəhbərlik və məs`uliyyətini bu partiya üzərinə qoymuşdu–yeni seçki qanunu hazırladı və c. Foşe bu qanun haqqında mə`ruzəçi olmaq şərəfinin ona verilməsini xahiş etdiyi üçün mə`ruzəçilik ona tapşırıldı. Mayın 8-də Foşe qanunu təqdim etdi bu qanun ümumi seçki hüququnu ləğv edir və seçdiyi yerdə üç il yaşamış olmasını seçicilərdən tələb edirdi, həm də fəhlələrin seçki yerində yaşadığı müddətin müəyyən edilməsi sahibkarların şahidliyindən asılı edilirdi.

Konstitusiya yolu ilə ednlən seçki mübarizəsi zamanı bu qədər inqilabi şəkildə həyəcan və coşqunluq göstərən demokratlar indi, özləriiin seçki qələbəsinin ciddi əhəmiyyətini əldə silah sübut etmək lazım gəldiyi bir zamanda, eyni dərəcədə konstitusiya yolu ilə qayda-qanun, əzəmətli

sakitlik (calme majestueux), qanuni hərəkət tərzi, yə`ni özünü qanun adlandıran əksinqilabın iradəsinə kor-koranə tabe olmağı təbliğ edirdilər. Mübahisələr zamanı Dağ qanun zəminində duran vicdanlı meşşanın mülayimliyini qayda-qanun partiyasının inqilabi coşqunluğuna qarşı qoyaraq və bu partiyanın inqilabi hərəkət tərzini dəhşətlə məzəmmət edib, onu utandırmağa çalışırdı. Hətta yeni seçilən deputatlar da ədəbli və düşüncəli hərəkət edərək, göstərməyə çalışırdılar ki, onları anarxist adlandırıb söymək və onların seçilməsini inqilabın qələbəsi kimi izah etmək nə qədər haqsızlıqdır. Mayın 31-də yeni seçki qanunu keçdi, Dağ, prezidentə xəlvətcə bir protest verməklə kifayətləndi. Seçki qanunundan sonra yeni mətbuat qanunu gəldi ki, bu da inqilabi mətbuatı tamamilə məhv etdi218. İnqilabi mətbuat öz qismətinə layiq idi. Bu tufandan sonra iki burjua orqanı: «National» və «Presse»125 inqilabın ən ifrat forpostları olaraq qaldı.

Biz gördük ki, demokratik başçılar, mayın 8-dən sonra Paris xalqını həqiqi mübarizədən qaçındırmaq üçün əllərindən gələni etdikləri kimi, martda və apreldə də Paris xalqını saxta bir mübarizəyə cəlb etmək üçün əllərindən gələni etdilər. Həm də unutmamaq lazımdır ki, 1850-ci il sənaye və ticarətin az-az görünən tərəqqisi zamanı idi, buna görə də Paris proletariatının kifayət qədər işi var idi. Lakin 1850-ci il 31 may tarixli seçki qanunu proletariatı siyasi hakimiyyətdə hər hansı bir şəkildə iştirak etməkdən uzaqlaşdırdı, onun hətta döyüş meydanına girməsi yolunu da kəsdi. Bu qanun, fəhlələri fevral inqilabından əvvəl tutduqları parilər vəziyyətinə qaytardı. Onlar bu kimi hadisələr zamanı bir dəqiqəlik rahatlıq üçün öz snifinin inqilabi mənafeyini unudub öz talelərini demokratik başçılara tapşırdılar, fəth edən mübariz qüvvə olmaq şərəfindən imtina etdilər, öz talelərinə tabe oldular və göstərdilər ki, 1848-ci il iyun məğlubiyyəti onları uzun illər boyu gücdən salmışdır və yaxın zamanlardakı tarixi proses yenə onlardan asılı olmayaraq davam etməlidir. İyunun 13-də «Qoy cəsarət edib ümumi seçki hüququna toxunsunlar, qoy toxunsunlar görək!»–deyə bağıran xırda burjua demokratiyasına gəldikdə, indi o özünə təsəlli verərək deyirdi ki, əksinqilabçıların xırda burjuaziyaya vurduğu zərbə heç də zərbə deyildir, 31 may qanunu isə heç də qanun deyildir. 1852-ci il mayın ikinci bazar günü hər bir fransız bir əlində seçki bülleteni, bir əlində isə qılınc seçki qutusunun yanına gələcəkdir. O belə bir peyğəmbərlik etməklə özünə təsəlli verirdi. Nəhayət, ordu başçıları ordunu

1849-cu il mayın 28-dəki seçki üstündə olduğu kimi, 1850-ci il mart və aprel seçkiləri üstündə də cəzalandırdılar. Lakin bu dəfə ordu öz-özünə qəti surətdə dedi: «Üçüncü dəfə biz inqilaba aldanmayacağıq!»
1850-ci il 31 may qanunu burjuaziyanın «coup d`etat»ı idi. Onun inqilab üzərindəki bütün əvvəlki qələbələri yalnız müvəqqəti xarakter daşıyırdı. Bu zaman mövcud olan Milli məclis səhnədən çəkilən kimi, həmin qələbələr də şübhəli olurdu. Bunlar yeni ümumi seçkilərdəki təsadüflərdən asılı olurdu, 1848-ci ildən e`tibarən isə seçkilərin tarixi qəti surətdə sübut etdi ki, burjuaziyanın əsl hakimiyyəti möhkəmləndikcə, xalq kütlələri üzərində onun mə`nəvi hakimiyyəti zəifləyirdi. Martın 10-da ümumi seçki huquğu burjuaziyanın hökmranlığı əleyhinə olduğunu qət`i göstərdi,–burjuaziya buna ümumi seçki hüququnu ləğv etməklə cavab verdi. Deməli, 31 may qanunu sinfi mübarizənin zəruri təzahürlərindən biri idi. Digər tərəfdən, respublika prezidenti seçkisini e`tibarlı hesab etmək üçün konstitusiya minimum iki milyon səs tələb edirdi. Namizədlərdən heç biri bu minimum səsi almadıqda, Milli məclisə ən çox səs alan beş namizəddən birini prezident seçmək hüququ verilirdi. Müəssislər məclisi bu qanunu tərtib etdiyn zaman seçki siyahılarında 10 milyon seçici var idi. Deməli, həmin qanunun mə`nasına görə, prezident seçkisini e`tibarlı heeab etmək üçün, seçki hüququndan istifadə edənlərin hamısının beşdə bir hissəsi kifayət idi. 31 may qanunu seçki siyahılarından azı 3 milyon səsi silib atdı, seçicilərin sayını 7 milyona endirdi, lakin buna baxmayaraq, prezident seçkisi üçün qanunda müəyyən edilən 2 milyonluq minimumu qüvvədə saxladı. Beləliklə, qanuni minimum butün seçici səslərinin beşdə birindən, demək olar, üçdə birinə qalxmış oldu. Başqa sözlə, həmin qanun prezident seçkisini gizli yolla xalqın əlindən alıb Milli məclisin ixtiyarına vermək üçün hər bir işi görmüş oldu. Deməli, qayda-qanun partiyası Milli məclis deputatları seçkisi ilə respublika prezidenti seçkisini cəmiyyətin mühafizəkar hissəsinin ixtiyarına verərək, 31 may seçki qanunu vasitəsi ilə öz hökmranlığını sanki ikiqat möhkəmlətdi.

V

İnqilabi böhran keçəndən və ümumi seçki hüququ ləğv ediləndən sonra Milli məclislə Bonapart arasında mübarizə dərhal yenidən qızışdı. Konstitusiya Bonaparta 600000 frank maaş tə`yin etmişdi. Bonapart prezident vəzifəsinə keçdiyi vaxtdan yarım il keçməmiş həmin məbləği ikiqat artıra bildi. Odilsa Barro Müəssislər məclisinin nümayəndəlik

xərcləri deyilən xərclərin məbləğini ildə 600000 frank artırmasına nail oldu. İyunun 13-dən sonra Bonapart da bu cür iddia irəli sürdü, lakin bu dəfə Barro buna cavab vermədi. İndi, mayın 31-dən sonra, Bonapart əlverişli fürsətdən dərhal istifadə edərək, öz nazirləri vasitəsi ilə Milli məclisdən ildə 3 milyon frank məbləğində maaş tələb etdi. Onun uzun müddətli sərsəri macərapərəst həyatı ona burjualardan pul qoparmaq mümkün olan böhranlı dəqiqələri müəyyən etməyi çox yaxşı öyrətmişdi. O, xalis şantajla məşğul olurdu. Milli məclis onun köməyi və xəbəri olmaqla, xalqın suverenliyini ləkələmişdi. Əgər Məclis cibini açmasa və onun susması üçün ildə 3 milyon frank verməsə, həmin cinayəti xalqa bildirəcəyi ilə hədələyirdi. Məclis 3 milyon fransızın səs vermək hüququnu əlindən almışdı,–Bonapart siyasi cəhətdən qiymətdən salınmış hər bir fransızın müqabilində tam qiyməti olan bir frank, cəmi 3 milyon frank tələb edirdi. 6 milyon nəfərin seçdiyi bu adam sonradan ondan alınmış səslərin əvəzini tələb edirdi. Milli məclis komissiyası bu həyasızın iddiasını rədd etdi. Bonapartçı mətbuat hədələməyə başladı. Milli məclis millətin kütləsi ilə əlaqəni prinsipcə və qəti surətdə kəsmiş olduğu bir zamanda prezidentlə əlaqəni kəsə bilərdimi? Doğrudur, Milli məclis onun illik maaşını rədd etdi, lakin ona əlavə olaraq birdəfəlik 2160000 frank məbləğində pul verilməsinə tərəfdar oldu. Məclis pul verməyə razı olmaqla və eyni zamanda öz istəyi əleyhinə güzəştə getdiyini öz hiddəti ilə büruzə verməklə, ikiqat zəiflik göstərmiş oldu. Bonaparta bu pulun nə üçün lazım olduğunu biz sonra görəcəyik. Ümumi seçki hüququ ləğv ediləndən bilavasitə sonra baş verən xoşagəlməz son hadisədən sonra, yə`ni Bonapart qəsbkar parlamentlə daha mart və aprel böhranı zamanında danışdığı yumşaq dillə deyil, məğrur-həyasız bir dillə danışandan sonra Milli məclis öz iclaslarına üç ay, avqustun 11-dən noyabrın 11-dək fasilə verdi. Milli məclis öz yerinə 28 üzvdən ibarət daimi bir komissiya qoydu; komissiya üzvləri arasında bircə nəfər də bonapartist yox idi, lakin bir neçə nəfər mö`tədil respublikaçı var idi. 1849-cu ilin daimi komissiyası yalnız qayda-qanun partiyası nümayəndələrindən və bonanartistlərdən ibarət idi. Lakin o zaman qayda-qanun partiyası özünü inqilabın daimi əleyhdarı e'lan etmişdi,–indi parlament respublikası özünü prezidentin daimi əleyhdarı e`lan etdi. 31 may qanunu keçiriləndən sonra qayda-qanun partiyası yalnız bu rəqiblə hesablaşmalı idi.

1850-ci ilin noyabrında Milli məclis yenidən çağırılanda, vəziyyət belə idi ki, parlamentlə prezident arasında keçmiş xırda toqquşmalar əvəzində iki hakimiyyətin, sanki hökmən böyük vuruşması, amansız ölüm-dirim mübarizəsi başlanmalı idi.
1849-cu ildə olduğu kimi, bu dəfə də parlament tə`tili zamanı qayda-qanun partiyası ayrı-ayrı fraksiyalara parçalandı və bunlardan hər biri Lui-Filippin ölümü nəticəsində yeni qida almış bərpaçılıq intriqaları ilə məşğul idi. Legitimistlərin kralı V Henrix hətta əsil bir hökumət tə`yin etdi ki, Parisdə olan bu hökumətin hey`ətinə daimi komissiyanın bə`zi üzvləri daxil idi. Deməli, Bonapart haqlı olaraq Fransa departamentlərini gəzir və özünün gəlməsi ilə şərəflənən şəhərin əhvali-ruhiyyəsinə baxıb özünün bərpaçılıq planlarını az-çox açıq söyləyir və özü üçün səs yığırdı. Bonapartın böyük rəsmi carçısı «Moniteur» və ayrı-ayrı kiçik carçıları tərəfindən, əlbəttə, zəfər yürüşü kimi tə`riflənən bu səfərlər zamanı 10 dekabr Cəmiyyəti üzvləri hər yerdə onun yanınca gəzirdilər. Bu cəmiyyət 1849-cu ildə meydana gəlmişdi. Paris lumpen-proletariatı xeyriyyə cəmiyyəti yaratmaq pərdəsi altında gizli bölmələrdə təşkil edilmişdi; bu bölmələrə Bonapartın agentləri rəhbərlik edirdilər, bütün cəmiyyətə isə bonapartist general başçılıq edirdi. Bu cəmiyyətdə nəsli şübhəli olub var-yoxdan çıxan və şübhəli vəsaitlə yaşayan əyyaşlarla, burjuaziya tör-töküntüsü içərisindən çıxmış xalis macərapərəstlərlə yanaşı sərsərilərə, keçmiş əsgərlərə, azad edilmiş canilərə, sürgündən qaçmış çinayətkarlara, fırıldaqçılara, hoqqabazlara, lassaronilərə106, cibgirlərə, oyunbazlara, qumarbazlara, oğraşlara, fahişəxana saxlayanlara, hamballara, cızmaqaraçılara, çalğıçılara, cır-cında yığanlara, bıçaq itiləyənlərə, qalayçılara, dilənçilərə– bir sözlə, vəziyyət üzündən bir yerdən başqa yerə atılan və fransızların «la boheme» (bohema, Red.) adlandırdıqları, butün qeyri-müəyyən, müxtəlif bir kütləyə rast gəlmək olurdu. Bonapart 10 dekabr Cəmiyyətinin, «xeyriyyə cəmiyyətinin» özəyini özünə qohum olan bu ünsürlərdən yaratmışdı, çünki onun bütün üzvləri də, Bonapart kimi, özlərini millətin zəhmətkeş kütləsi hesabına tə`min etməyə ehtiyac hiss edirdilər. Bonapart lümpen-proletariata başçılıq edir, öz şəxsi mənafeyinin kütləvi in`ikasını yalnız onda görür, bütün, siniflərin bu tör-töküntüsünü, bu zir-zibilini, bu kəfini şübhəsiz arxalana biləcəyi yeganə bir sinif hesab edir,–əsil Bonapart, «sans phrase» (boyasız. Red.) Bonanart belədir. Köhnə, qəddar əyyaş olan Bonapart xalqların tarixi həyatına və bu həyatın törətdiyi bütün dramlara ən

bayağı mə`nada bir komediya kimi, bir maskarad kimi baxır ki, burada da gözəl geyimlər, söz və ədalar yalnız ən xırda alçaqlıq üçün bir pərdədir. Məsələn, tə`lim görmüş İsveçrə quzğunu Strasburq hərbi səfərində Napoleon qartalı rolunu oynayırdı. O, Bulonda sahilə çıxarkən, bir neçə londonlu nökərinə fransız mundiri geydirmişdi; onlar ordunu təmsil edirdilər219. Şekspirin komediyasında toxucu Əriş şiri təmsil etdiyi kimi, onun 10 dekabr Cəmiyyətində yığdığı 10000 nəfər avara da xalqı təmsil etməli idi. Burjuaziya özü fransız dram ən`ənələrinin tələb etdiyi bütün xırdaçı qaydalarından heç birini pozmadan ciddi bir əda ilə xalis komediya oynadığı bir zamanda, qismən başını itirdiyi və qismən öz hiyləgərlik tamaşasının əzəmətinə inandığı bir zamanda,–belə bir zamanda komediyaya ancaq bir komediya kimi baxan macərapərəst qalib gəlməli idi. O yalnız, təmtəraqlı əleyhdarının öhdəsindən gələndən və öz imperator rolunu ciddi bir şey hesab edib Napoleon maskası altında özünü həqiqi Napoleon xəyal edəndən sonra,–yalnız bu zaman öz dünyagörüşünün qurbanı olur, indi bütün dünya tarixini daha bir komediya hesab etmək deyil, öz komediyasını ümumdünya tarixi hesab edən ciddi bir təlxəyə çevrilir. Sosialist fəhlələr üçün milli e`malatxanalar, burjua respublikaçıları üçün çevik qvardiya nə idisə, Bonapart üçün də 10 dekabr Cəmiyyəti, bir tək ona xas olan bu mübariz partiya qüvvəsi belə bir şey idi. Onun səfərləri zamanı həmnn Cəmiyyətin dəmiryol stansiyalarında dəstə-dəstə yerləşdirilən üzvləri onun üçün camaatı əvəz etməli, xalqın coşqunluğunu təsvir etməli, «Vive lEmpereur!» («Yaşasın imperator!» Red.) deyə bağırmalı, respublikaçıları təhqir etməli və döyməli idilər–həm də bütün bunlar, əlbəttə, polisin himayəsi ilə edilməli idi. Bonapart Parisə qayıdanda onlar avanqard vəzifəsini görməli, düşmənçilik nümayişlərinin qarşısını almalı və ya bu nümayişləri dağıtmalı idilər. 10 dekabr Cəmiyyəti ona məxsus idi, onun yaratdığı bir şey idi, xalis onun ideyası idi. Onun öz-özünə isnad verdiyi bütün qalan cəhətlər isə ona ancaq şərait üzündən qismət olmuşdu, onun gördüyü işi onun əvəzindən şərait görür və ya o, başqalarının əməllərini təkrar etməklə kifayətlənir; lakin aşkarda burjualar qarşısında qayda-qanun, din, ailə, mülkiyyət haqqında rəsmi ibarələr yağdırmağa, gizlində isə Şufterle və Şpigelberqlərin cəmiyyətinə, qaydasızlıq, fahişəlik və oğurluq cəmiyyətinə arxalanmağa gəldikdə,–burada Bonapart orijinal idi və 10 dekabr Cəmiyyətinin tarixi onun öz tarixidir. Hətta bir dəfə elə olmuşdu ki, qayda-qanun partiyasına mənsub

bir neçə deputat Cəmiyyət üzvlərinin kötəyi altına düşmuşdü. Bundan əlavə Milli məclisin təhlükəsizliyini mühafizə işinə baxan polis komissarı Yon, Ale adlı birisinin verdiyi ifadə əsasında daimi komissiyaya xəbər vermişdi ki, Cəmiyyət bölmələrindən biri general Şanqarnyeni və Milli məclisin sədri Düpeni öldurməyi qərara almış və bunları oldürmək üçün adamlar da tə`yin etmişdir. Təsəvvür etmək olar ki, c. Düpen nə qədər qorxuya düşmüşdü. 10 dekabr Cəmiyyətinin parlament tərəfindən yoxlanması, yə`ni Bonapartın gizli aləminin ifşa edilməsi labüd görünürdü. Lakin Milli məclisin lap açılması ərəfəsində Bonapart ehtiyatkarlıqla öz Cəmiyyətini dağıtdı, lakin, əlbəttə, yalnız kağız üzərində dağıtdı, çünki hələ 1851-ci ilin axırlarında polis prefekti Karlye öz ətraflı yazılı mə`ruzəsində əbəs yerə onu, Cəmiyyəti həqiqətən dağıtmağa sövq etmək istəyirdi.

Bonapart dövlət ordusunu 10 dekabr Cəmiyyətinə çevirməyə nail olacağı vaxta qədər 30 dekabr Cəmiyyəti Bonapartın xüsusi ordusu olaraq qalmalı idi. Bonapart bu yolda birinci təşəbbüsü Milli məclisin iclasları bağlandıqdan az sonra, həm də məhz onun özündən qoparılan pulla etdi. O, qəzavü-qədərə inanan bir adam olduğu uçun inanırdı ki, insanın, xüsusilə əsgərlərin qarşı dura bilməyəcəyi müəyyən yüksək qüvvələr vardır. O, hər şeydən əvvəl, siqar və şampan şərabını, soyuq quş əti və sarımsaqlı kolbası həmin qüvvələr cümləsindən hesab edirdi. Buna görə də Yelisey sarayı salonlarında zabitləri və kiçik zabitləri siqar və şampan şərabı ilə, soyuq quş əti və sarımsaqlı kolbasla qonaq etməkdən başladı. Oktyabrın 3-də həmin manevri Sen-Moredə keçirilən parad zamanı qoşunla təkrar etdi, oktyabrın 10-da isə Satoridəki baş paradda yenə də bu manevri daha Geniş miqyasda təkrarladı. Əmi, İsgəndərin Asiyadakı hərbi səfərlərini, qardaş oğlu isə–yenə həmin ölkədə Vakxın istilaçı səfərlərini xatırlayırdı. Doğrudur, İsgəndər yarımallah idi, amma Vakx isə əsil allah idi, həm də 10 dekabr Cəmiyyətinin himayəçisi olan allah idi.

3 oktyabr paradından sonra daimi komissiya hərbi nazir d`Opulu məs`uliyyətə cəlb etdi. O və`d etdi ki, intizamın belə pbzulması halı bir daha olmayacaqdır. D`Opulun verdiyi sözə oktyabrın 10-da Bonapartın necə əməl etdiyi mə`lumdur. Hər iki paradda, Paris qoşunlarının baş komandanı Şanqarnye komandanlıq edirdi. Eyni zamanda daimi komissiyanın üzvü, Milli qvardiyanın komandanı, 29 yanvar və 13 iyun «xilaskarı», «cəmiyyətin dayağı», qayda-qanun partiyasının prezidentliyə

namizədi, iki monarxiyanın nəzərdə tutulan Monku olan bu Şanqarnye o vaxta qədər heç bir zaman özünü hərbi nazirə tabe hesab etmirdi, respublika konstitusiyasını həmişə açıqca lağa qoyurdu, Bonapartı riyakar bir təkəbbürlü himayəçiliklə tə`qib edirdi. İndi isə hərbi nazirliyə qarşı intizamı və Bonanarta qarşı konstitusiyanı coşqunluqla müdafiəyə qalxışmışdı. Oktyabrın 10-da süvarilərin bir hissəsi «Vive Napoleon! Vivent les saucissons!» (Yaşasın Napoleon! Yaşasın kolbas!» Red.)–deyə bağırdığı halda, Şanqarnye elə sərəncam verə bilmişdi ki, heç olmazsa, öz dostu Neymeyerin komandası altında nümayişdə iştirak edən piyada qoşun tamamilə susurdu. Buna qarşı cəza olaraq, hərbi nazir, Bonapartın təhriki ilə, general Neymeyeri 14-cü və 15-ci diviziyaların komandanı tə`yin etmək bəhanəsi ilə Parisdəki vəzifəsindən məhrum etdi. Neymeyer vəzifəsini dəyişdirməkdən imtina etdi və buna görə də iste`fa verməli oldu. Şanqarnye də noyabrın 2-də bir əmr verərək sırada hər cür siyasi şüar və nümayişləri qoşuna qadağan etdi. Yelisey qəzetləri220 Şanqarnye üzərinə, qayda-qanun partiyasının qəzetləri Bonapart üzərinə hücum etdi, daimi komissiya bir-birinin ardınca qapalı iclaslar tə`yin edir və bu iclaslarda vətəni təhlükədə e`lan etmək haqqında tez-tez təklif verilirdi; ordu sanki bir-birinə duşmən iki cəbhəyə bölünmüşdü və bunların bir-birinə düşmən iki baş qərargahı vardı, biri Bonapartın iqamətgahı–Yelisey sarayında, digəri də Şanqarnyenin iqamətgahı–Tüilridə idi. Milli məclisin açılması labüd surətdə açıq mübarizə üçün, görünür, bir siqnal olmalı idi. Fransa camaatı Bonapartla Şanqarnye arasındakı bu toqquşmalar haqqında lap bir ingilis jurnalisti kimi fikir yeridirdi; həmnn jurnalist isə vəziyyəti belə təsvir etmişdi:

«Fransanın siyasi süpürgəçiləri inqilabın qızğın lavasını köhnə süpürgə ilə və birbiri ilə dalaşa-dalaşa süpürürlər».

Bu zaman Bonapart hərbi nazir d`Opula tələsik iste`fa verdirib onu dərhal Əlcəzairə göndərdi və onun yerinə general Şrammı hərbi naznr tə`yin etdi. Noyabrın 12-də Bonapart Milli məclisə amerikansayağı böyük bir məktub, xırda şeylərlə dolu, qayda-qanun iyi verən, barışıq arzu edən, konstitusiyaya itaətkarlıq ruhunda olan və günün «questions brulantes»dən (ən vacib məsələlərdən. Red.) başqa hər şeydən bəhs edən bir məktub göndərdi. O sanki ötəri qeyd edprdi ki, konstitusiyanın əsil mə`nasına görə, ordunun ixtiyarı ancaq prezidentdədir. Məktub aşağıdakı çox təmtəraqlı sözlərlə bitirdi:

«Fransa hər şeydən əvvəl rahatlıq tələb edir... Yalnız mən and içmişəm, mən həmin andın mənim üçün qoyduğu məhdud çərçivədən çıxmayacağam... Mənə gəldikdə, mən xalq tərəfindən secildiyimə və öz hakimiyyətimlə yalnız ona borclu olduğuma görə, onun qanuni şəkildə ifadə olunan iradəsinə həmişə tabe olacağam. Əgər siz bu sessiyada konstitusiyanın yenidən nəzardən keçirilməsi haqqında qərar qəbul etsəniz,–onda Milli məclis icraiyyə hakimiyyətinin mövqeyini nizama salar. Əgər belə etməsəniz,–1852-ci ildə xalq öz qərarını təntənəli surətdə bildirər. Lakin gələcəkdə nə kimi qərar qəbul edilirsə-edilsin, elə bir sazişə gələk ki, böyük bir millətin müqəddəratını heç bir zaman ehtiras, təsadüf və zorakılıq həll etməsin... Mən, hər şeydən əvvəl, 1852-ci ildə Fransanı kimin idarə edəcəyinə deyil, ona diqqət verirəm ki, öz ixtiyarımda olan vaxtı keçid dövründə iğtişaş və qarışıqlıq olmamasına sərf edim. Mən səmimiyyətlə ürəyimi açıb sizə bildirdim. Siz də mənim ürək açıqlığıma öz e`timadınızla, mənim xoş istəklərimə öz köməyinizlə cavab verərsiniz, qalanına isə allah kərimdir».

Burjuaziyanın ədəb-ərkanlı, riyakar-mülayim, xeyirxah-bayağı dili 10 dekabr Cəmiyyətinin mütləq hakiminin və Sen-More ilə Satoridəki kef məclisləri qəhrəmanının ifadəsində özünün ən dərin mə`nasını göstərir. Qayda-qanun partiyasının burqqrafları bu ürək sözlərinə nə kimi bir e`timad göstərilə biləcəyi barəsində bircə dəqiqə də yanılmırdılar. Andlar onları çoxdan çiyrəndirmişdi, onların öz sıralarında siyasi anda xəyanət veteranları, ustaları var idi, orduya aid sözlər isə onların nəzərindən qaçmadı. Onlar hiddətlə gördülər ki, yaxınlarda verilən qanunları uzun-uzadı şərh edən bu məktubda onların ən mühümü olan seçki qanunu üzərindən qəsdən sükutla keçilir; bundan əlavə konstitusiyanı yenidən gözdən keçirmək təklifi rədd edpldiyi halda, 1852-ci ildə prezident seçkisi xalqın ixtiyarına verilirdi. Seçki qanunu qayda-qanun partiyasının hərəkət etməsinə, xüsusilə də hücum etməsinə mane olan ağır bir cidar idi! Həm də Bonapart 10 dekabr Cəmiyyətini rəsmi surətdə dağıtmaq və hərbi nazir d`Onulu vəzifədən götürməklə, bu qapazaltıları öz əli ilə vətən yolunda qurban verdi. O, gözlənilən toqquşmanın ən kəskin nöqtəsini aradan qaldırdı. Nəhayət, qayda-qanun partiyasının özü qorxaqlıq göstərib icraiyyə hakimiyyəti ilə qəti toqquşmadan hər vasitə ilə yan keçməyə, bunu yumşaltmağa, pərdələməyə çalışırdı. Bu partiya inqilaba qarşı mübarizədə qazandıqlarını itirməkdən qorxaraq öz əleyhdarına imkan verdi ki, öz

nailiyyətlərinin bəhrəsini mənimsəsin. «Fransa hər şeydən əvvəl rahatlıq tələb edir»–fevraldan (1848-ci ilin fevralından. Red.) e`tibarən qayda-qanun partiyası inqilaba belə deyib bağırırdı, indi Bonanart da öz məktubunda qayda-qanun partiyasına müraciətlə bağırıb deyirdi: «Fransa hər şeydən əvvəl rahatlıq tələb edir». Bonapart qəsbkarlıqa doğru hərəkətlər edirdi, lakin qayda-qanun partiyası bu hərəkətlər üstündə hay-küy qaldırıb bunları ruh düşgünlüyü ilə şərh edəndə «narahatlığın» müqəssiri olurdu. Satori kolbasından heç kəs danışmayanda, bu kolbaslar balıq kimi lal olurdu. «Fransa hər şeydən əvvəl rahatlıq tələb edir». Buna görə də Bonapart tələb edirdi ki, ona öz işini rahat-rahat görmək imkanı versinlər, parlament partiyası isə ikiqat qorxuya düşmüşdü–həm yenə inqilabi narahatlıq doğurmaqdan, həm də öz sinfinin nəzərində, burjuaziyanın nəzərində narahatlığın müqəssiri kimi görünməkdən qorxurdu. Fransa hər şeydən əvvəl rahatlıq tələb etdiyinə görə, qayda-qanun partiyası Bonapartın məktubundakı «sülhə» «müharibə» ilə cavab verməyə cəsarət etmədi. Milli məclis açılanda böyük savaşma olacağını güman edən camaatın fikri boşa çıxdı. Oktyabr hadisələri haqqında daimi komissiyanın öz protokollarını təqdim etməsinə dair müxalifətçi deputatların tələbini əksəriyyət rədd etdi. Məclis həyəcana səbəb ola biləcək hər cür mübahisədən prinsipcə qaçınırdı. Milli məclisin 1850-ci il noyabr və dekabr aylarında gördüyü işlər maraqsız idi.

Yalnız dekabrın axırlarına yaxın parlamentin ayrı-ayrı səlahiyyətləri üstündə bir sıra xırda toqquşmalar başlandı. Burjuaziya ümumi seçki hüququnu ləğv etməklə ən yaxın müddət üçün sinfi mübarizədən yaxasını qurtardığı zamandan e`tibarən hərəkət kicildi, hər iki hakimiyyətin səlahiyyəti üstündə xırda çəkişmələrə çevrildi.

Bir deputatın, Mogenin borcları ustündə məhkəmə ona iş kəsmişdi. Məhkəmə sədrinin sorğusuna cavab olaraq, ədliyyə naziri Rue demişdi ki, daha heç bir şeylə hesablaşmadan, borclunun həbsə alınması haqqında əmr vermək lazımdır; beləliklə, Mogen borclular həbsxanasına salınmışdı. Milli məclis deputat toxunulmazlığının belə pozulmasını eşidib hiddətə gəldi. Məclis məhbusun nəinki dərhal azad edilməsini qərara aldı, hətta həmin axşam öz pristaVI vasitəsi ilə onu zorla Klişidən208 çıxartdı. Lakin, digər tərəfdən, Məclis xüsusi mülkiyyətin müqəddəsliyinə öz inamını sübut etmək üçün, həmçinin lazım gəldikdə, zəhlətökən montanyarlar üçün hazır sığınacaq əldə etmək kimi gizli niyyətlə deputatların əvvəlcə Məclisdən

razılıq istənildikdən sonra borc üstündə həbsə alınmasına icazə verildiyini e`lan etdi. Məclis belə bir dekret verməyi unutdu ki, prezident də borc üstündə həbsxanaya salına bilər. Məclis öz üzvlərinin toxunulmazlığının son əsər-əlamətini aradan qaldırdı.
Yuxarıda deyildiyi kimi, polis komissarı Yon, Ale adlı birisinin verdiyi ifadə əsasında mə`lumat vermişdi ki, 10 dekabr Cəmiyyəti bölmələrindən biri Düpen və Şanqarnyeni öldürmək fikrindədir. Buna görə də kvestorlar lap birinci iclasda təklif etdilər ki, Milli məclisin xüsusi büdcəsindəki vəsait hesabına saxlanıb polis prefektindən əsla asılı olmayan ayrıca bir parlament polisi düzəldilsin. Daxili işlər naziri Baroş onun səlahiyyətinə bu cür müdaxilə edilməsinə qarşı protest etdi. Onda acınacaqlı bir saziş bağlandı; bu sazişə görə parlamentin polis komissarı parlament büdcəsi hesabına saxlanmalı və parlament kvestorları tərəfindən tə`yin edilib vəzifədən götürülsə də, daxili işlər nazirinin buna əvvəlcədən razılığı olmalıdır. Bu zaman Ale hökumət tərəfindən məhkəmə məs`uliyyətinə alındı; daha onun ifadələrini saxta e`lan etmək və prokurorun dili ilə Düpeni, Şanqarnyeni, Yonu və bütün Milli məclisi gülünc bir vəziyyətdə göstərmək çətin deyildi. Bundan sonra, dekabrın 29-da nazir Baroş Düpenə məktub yazaraq, Yonun vəzifədən götürülməsini tələb edir. Milli məclis bürosu Yonu öz vəzifəsində saxlamağı qərara alır, lakin Mogenin işində öz zorakı hərəkətindən qorxan, icraiyyə hakimiyyətinə vurduğu hər zərbədən sonra ondan bunun əvəzində iki zərbə görməyə adət edən Məclis bu qərarı təsdiq etmir. Məclis Yona, vəzifəsində göstərdiyi sə`yə qarşı mükafat olaraq iste`fa verdirir və gündüz görəcəyi işi gecə fikirləşməyən, əksinə, gündüz fikirləşib gecələr öz planlarını həyata keçirən bir adam qarşısında tamamilə zəruri olan parlament səlahiyyətindən özünü məhrum edir.
Biz gördük ki, Milli məclis noyabr və dekabr ayları ərzində icraiyyə hakimiyyəti ilə mübarizə etmək üçün ciddi və vacib səbəblər olduğu bir zamanda bu mübarizədən necə çəkinir və boyun qaçırdırdı. İndi biz Milli məclisin ən cüz`i səbəb üstündə döyüşə girməyə necə məcbur olduğunu görürük. Mogenin işində Milli məclis deputatları borc üstündə həbsə almağa prinsipcə icazə verərək, bu prinsipi yalnız gözü götürmədiyi deputatlar haqqında tətbiq etmək imkanını öz əlində saxlamış və bu biabırçı imtiyaz üstündə ədliyyə naziri ilə mübahisəyə girişmişdi. Məclis, adam öldürmək üçün qəsd hazırlandığı haqqındakı xəbərdən istifadə edərək, 10 dekabr Cəmiyyətinin fəaliyyətini yoxlamağı tələb etmək, Fransa

və Avropa qarşısında Bonapartı tamamilə ifşa etmək, Paris lümpen-proletariatının başçısı sifəti ilə onun əsil simasını aşkara çıxarmaq əvəzinə, münaqişəni daxili işlər naziri ilə bir məsələ üstündə mübahisəyə çevirdi ki, polis komissarını tə`yin etmək və vəzifədən götürmək hüququna kim malikdir. Beləliklə, biz gördük ki, qayda-qanun partiyası bütün bu dövr ərzində özünün ikimə`nalı mövqeyi nəticəsində, icraiyyə hakimiyyətinə qarşı öz mübarizəsini boş gurultuya çevirməyə məcbur olub səlahiyyət dairəsi üstündə xırda çəkişməyə, öcəşməyə, məhkəməbazlığa, səlahiyyət həddini qoymaq haqqındakı mübahisələrə əl atır və boş rəsmiyyətçilik məsələlərini öz fəaliyyətinin məzmunu edirdi. Qayda-qanun partiyası mübarizənin prinsipial əhəmiyyəti olduğu bir zamanda, icraiyyə hakimiyyəti həqiqətən özünü hörmətdən saldığı bir zamanda, Milli məclisin işi milli işə çevrilə biləcəyi bir zamanda döyüşə girməyə cəsarət etmir; qayda-qanun partiyası belə hərəkət etsə idi, millətə çıxış etmək üçün siqnal vermiş olardı, halbuki bu partiya heç bir şeydən milləti hərəkətə gətirmək qədər qorxmur. Buna görə də belə hallarda qayda-qanun partiyası Dağın təkliflərini rədd edib növbəti işlərə keçir. Qayda-qanun partiyası böyük miqyasda mübarizədən qaçındıqdan sonra, icraiyyə hakimiyyəti sakit-sakit fürsət gözləyir ki, kiçik, cüz`i bir məsələ üstündə, məsələn, necə deyərlər, yalnız parlamenti maraqlandırdığı, yerli əhəmiyyətə malik olduğu zaman yenidən mübarizəyə başlasın. Onda qayda-qanun partiyasının gizli hiddəti aşkara çıxır, onda qayda-qanun partiyası pərdəni qaldırır, prezidentin maskasını yırtır, respublikanı təhlükədə e`lan edir, lakin bu zaman onun çoşqunluğu mə`nasız, mübarizə səbəbi–riyakar bir bəhanə və ya ümumiyyətlə mübarizəyə layiq olmayan bir bəhanə kimi görünür. Mə`lum olur ki, parlament fırtınası bir stəkan su içərisindəki fırtınadır, mübarizə–fitnəkarlıqdır, münaqişə–dava-dalaşdır. Məclisə ictimai azadlıqlar nə qədər toxunurdusa, Milli məclisin parlament səlahiyyəti də inqilabçı siniflərə bir o qədər toxunduğuna görə, onlar Milli məclisin alçalmasını izləyib bundan kam aldıqları bir zamanda, parlamentdən kənardakı burjuaziya başa düşmür ki, nəyə görə parlament daxilindəki burjuaziya bu qədər xırda çəkişmələrə vaxt sərf edə bilir, prezidentlə bu cür miskin bir rəqabətlə rahatlığı təhlükəyə ata bilir. Onu belə bir strategiya çaşdırmışdır ki, hamı müharibə gözlədiyi bir zamanda sülh bağlanır və hamı sülh bağlandığını düşünduyü bir zamanda hucum başlanır.

Dekabrın 20-də Paskal Düpra daxili işlər nazirinə külçə qızıl lotereyası haqqında bir sorğu verdi. Bu lotereya «Eliziumun qızı»221 idi. Bonapart öz əlaltıları ilə birlikdə onu dünyaya bağışlamış, polis prefekti Karlye isə öz rəsmi himayəsi altına almışdı, halbuki Fransa qanunları xeyriyyə məqsədi ilə olan lotereyalardan başqa hər cür lotereyanı qadağan edir. Hərəsi bir franklıq yeddi milyon bilet buraxılmışdı, xalis gəlir isə guya Paris avaralarını Kaliforniyaya göndərmək üçün ayrılırdı. Qismən Paris proletariatının sosializm xülyalarını qızıl xülyası ilə, nəzəri əmək hüququnu böyük uduş kimi cazibəli perspektivlə sıxışdırıb aradan qaldırmaq nəzərdə tutulurdu. Əlbəttə, Paris fəhlələri parlaq Kaliforniya qızıl külçələrinin onların öz cibindən çıxarılmış görkəmsiz franklar olduğunu güman etmədilər. Ümumiyyətlə bu lotereya adi bir fırıldaqçılıq idi. Parisdən kənara çıxmayaraq Kaliforniyada qızıl mə`dənləri tapmaq arzusunda olan avaralar–Bonapartın özü və onun borca düşmüş məiyyəti idi. Milli məclisin səs verdiyi 3 milyon xərclənib qurtarmışdı,–boşalan kassanı hər necə olsa yenidən doldurmaq lazım idi. Əbəs yerə Bonapart «cites ouvrieres» (fəhlə qəsəbələri. Red.) deyilən qəsəbələr düzəltmək üçün milli abunə açmış və özu böyük bir məbləğ verərək birinci abunəçi rolunu oynamışdı. Daşqəlbli burjualar Bonaparta inanmayıb onun yazıldığı məbləğin verilməsini gözləyirdilər və həmin məbləğ, əlbəttə, verilmədiyinə görə, xəyali sosialist qəsrləri ilə ehtikar ümidi sabun qovuğu kimi partlayıb boşa çıxdı. Qızıl külçə bundan əlverişli oldu. Bonapart və onun əlbirləri lotereyada oynanılacaq külçələrin dəyəri yeddi milyon frankdan çıxılandan sonra qalmış xalis gəlirin bir hissəsini öz ciblərinə qoymaqla kifayətlənmədilər: onlar eyni bir nömrə ilə on, on beş və hətta iyirmi bilet buraxmaqla saxta lotereya biletləri düzəldirdilər ki, bu da 10 dekabr Cəmiyyəti ruhunda olan bir maliyyə əməliyyatıdır! Burada Milli məclisin qarşısında respublikanın qondarma prezidenti deyil, əsil, canlı Bonapart dururdu. Burada Milli məclis onu cinayət başında, konstitusiyaya qarşı deyil, «Code penal»a (Cinayət məcəlləsinə. Red.) qarşı cinayət başında tuta bilərdi. Əgər Məclis Düpranın sorğusuna növbəti işlərə keçməklə cavab verdisə, bunu etməsinə səbəb yalnız o deyildi ki, özünü «qane» e`lan etmək haqqında Jirardenin təklifi qayda-qanun partiyasına onun öz sıralarında daşbaşçılığın daim hakim olduğunu xatırladırdı. Burjua, xüsusilə də dövlət xadimi dərəcəsinə qaldırılan burjua öz əməli alçaqlığını nəzəri ibarələrlə tamamlayır. Dövlət xadimi olmaq e`tibarı ilə burjua, həmçinin ona qarşı

duran dövlət hakimiyyəti, ali bir vücud olur və onunla yalnız yüksək, təntənəli surətdə mübarizə etmək olar.
Bohemanın oğlu və hökmdar lümpen-proletar olmaq e`tibarı ilə Bonapartın burjua fırıldaqçılarına nisbətən ustünlüyü alçaq vasitələrlə mübarizə edə bilməsində olduğu üçün o indi,–Məclis hərbi ziyafətlərin, paradların, 10 dekabr Cəmiyyətinin və, nəhayət, «Code penal»ın sürüşkən zəminindən salamat keçməkdə ona öz əli ilə kömək edəndən sonra,–elə bir dəqiqənin gəlib çatdığını gördü ki, saxta müdafiədən hücuma keçə bilər. Bu müddətdə ədliyyə nazirinin, hərbi nazirin, dəniz nazirinin, maliyyə nazirinin kiçik məğlubiyyətləri–Milli məclisin deyinib öz narazılığını bildirdiyi bu məğlubiyyətlər onu az narahat edirdi. O nəinki nazirlərin iste`fa verməsinə və beləliklə də icraiyyə hakimiyyətinin parlamentə tabe olduğunu e`tiraf etməsinə mane oldu. O, Milli məclis tə`tilləri zamanı başladığı işi–hərbi hakimiyyəti parlamentdən ayırmaq işini indi axıra çatdıra bilərdi; o Şanqarnyeni vəzifədən götürdü.
Bir Yelisey qəzeti guya birinci diviziyaya mayda verilən,–deməli, Şanqarnyenin verdiyi,–bir əmri dərc etdi. Həmin əmrdə zabitlərə tövsiyə edilirdi ki, qiyam baş verəcəyi halda öz sıralarında xainlərə aman verməsinlər, onları dərhal güllələsinlər və Milli məclisin tələbinə görə qoşun göndərməsinlər. Bu əmr münasibəti ilə 1851-ci il yanvarın 3-də nazirlər kabinetinə bir sorğu verildi. Nazirlər kabineti işi araşdırmaq üçün əvvəlcə üç ay, sonra bir həftə, nəhayət,–ancaq iyirmi dörd saat vaxt tələb edir. Məclis dərhal izahat verilməsi üzərində tə`kid edir. Şanqarnye qalxıb deyir ki, heç vaxt belə bir əmr verilməmişdir. O əlavə edib deyir ki, Milli məclisin tələbini hər vaxt yerinə yetirməyə hazırdır və münaqişə ola biləcəyi halda Milli məclis ona bel bağlaya bilər. Məclis bu bəyanatı uzun sürən alqışlarla qarşılayır və Şanqarnyeyə öz e`timadını bildirir. Parlament generalın xüsusi himayəsi altına girməklə hakimiyyətdən əl çəkir, öz acizliyini və ordunun gücünü e`tiraf edir; lakin general yalnız len şərtləri ilə istifadə üçün Bonapartdan aldığı qüvvəni yenə də Bonaparta qarşı parlamentin ixtiyarına verməkdə və özu həmin parlamentdən–özünün müdafiəyə ehtiyacı olan parlamentdən müdafiə gözləməkdə səhv edir. Lakin Şanqarnye 1849-cu il yanvarın 29-dan e`tibarən burjuaziyanın ona verdiyi əsrarəngiz qüvvəyə inanır. O özünü iki başqa dövlət hakimiyyəti ilə yanaşı üçüncü hakimiyyət hesab edir. Onun da aqibəti bu dövrün qalan qəhrəmanlarının və ya, daha yaxşı desək, müqəddəslərinin aqibəti kimidir;

bu müqəddəslərin əzəməti isə öz partiyalarının onlar haqqında qəsdən yaydığı yüksək rə`ydədir, çünki vəziyyət onlardan xariqələr tələb edəndə, onlar dərhal adi bir adam olurlar. Ümumiyyətlə inamsızlıq–bu saxta qəhrəmanların və əsil müqəddəslərin qəddar düşmənidir. Buna görə də onlar coşqunluğu olmayan hazırcavablara və məsxərəçilərə bu qədər nəcib mə`nəvi hiddət bəsləyirlər.

Həmin axşam nazirləri Yelisey sarayına də`vət edirlər. Bonapart Şanqarnyenin vəzifədən götrülməsi üzərində tə`kid edir, beş nazir buna qol çəkməkdən imtina edir. «Moniteur» hökumət böhranını e`lan edir, qayda-qanun partiyasının mətbuatı isə Şanqarnyenin başçılığı ilə parlament ordusu düzəldiləcəyi ilə hədələyir. Qayda-qanun partiyasının buna konstitusiya əsasında hüququ var idi. Ona ancaq lazım idi ki, Şanqarnyeni Milli məclisin sədri seçsin və öz təhlükəsizliyi üçün istənildiyi qədər qoşun çağırsın. Məclis bunu xüsusilə ona görə sakitliklə edə bilərdi ki, Şanqarnye doğrudan da hələ ordunun və Paris milli qvardiyasının başıada dururdu və ancaq özünün ordu ilə birlikdə Milli məclisin köməyinə çağırılmasını gözləyirdi. Bonapartçı mətbuat hətta Milli məclisin bilavasitə qoşun çağırmaq hüququna e`tiraz etməyə də hələ cəsarət etmirdi–o zamankı şəraitdə bu hüquqi şübhə heç bir müvəffəqiyyət qazana bilməzdi. Şanqarnyenin vəzifədən götürülməsi əmrini imzalamağa hazır olduqlarını bildirən iki general–Barage d`İlye ilə Sen-Jan d`Anjelini Parisdə axtarıb tapa bilmək üçün Bonaparta tam bir həftə vaxt lazım olduğu nəzərə alınarsa, Milli məclisin əmrlərinə ordunun tabe olacağına ehtimal çox idi. Lakin qayda-qanun partiyasının öz sıralarında və parlamentdə belə bir qərar üçün lazım gəldiyi qədər səs tapa biləcəyi çox şübhəli idi, çünki nəzərə almaq lazımdır ki, bir həftədən sonra 286 nəfər deputat bu partiyadan ayrıldı və Dağ belə bir təklifi hətta 1851-ci ilin dekabrında, son qəti dəqiqədə rədd etdi. Lakin o zaman burqqraflar öz partiya kütləsini bəlkə də belə bir qəhrəmanlıq rəşadətinə qaldıra bilərdilər ki, yığın-yığın süngü arxasında gizlənsinlər və onun tərəfinə qaçmış olan ordunun xidmətindən istifadə etsinlər. Lakin cənab burqqraflar bunun əvəzində, diplomatik üsul və dəlillərlə Şanqarnyeni vəzifədən götürmək qərarından Bonapartı əl çəkməyə razı salmaq ümidi ilə yanvarın 6-da axşam Yelisey sarayına getdilər. Kimi dilə tuturlarsa, onu vəziyyətin ağası hesab edirlər. Burqqrafların bu təşəbbüsündən ürəklənən Bonapart yanvarın 12-də yeni hökumət tə`yin edir və köhnə hökumətin başçıları–Fuld və Baroş yeni

hökumətdə qalır. Sen-Jan d`Anjeli hərbi nazir olur. «Moniteur» Şanqarnyenin vəzifədən götürülməsi haqqında dekret dərc edir, onun vəzifəsi birinci diviziyaya tə`yin olunan Barake d`İlye ilə milli qvardiyanın başçısı tə`yin edilən Perro arasında bölüşdürülür. «Cəmiyyətin dayağıaa» iste`fa verdirilir və bunun nəticəsində damdan heç bir daş düşmürsə də, birjada məzənnə qalxır.

Şanqarnyenin simasında özünü qayda-qanun partiyasının sərəncamına verən ordunu özündən uzaqlaşdırmaq və beləliklə, onu həmişəlik prezidentə verməklə qayda-qanun partiyası sübut etdi ki, burjuaziya hökmranlıq bacarığını itirmişdir. Daha parlament hökuməti yox idi. İndi, qayda-qanun partiyası ordu və milli qvardiya üzərində hakimiyyəti itirdikdən sonra,–onun əlində daha nə kimi bir qüvvə qalırdı ki, eyni zamanda xalq üzərində parlamentin qəsbkar hakimiyyətini və parlamentin konstitusiya əsasındakı hakimiyyətini prezidentin qəsdlərindən qoruyub saxlasın? Heç bir qüvvə. Ona ancaq qüvvəsiz prinsiplərə əl atmaq qalırdı, halbuki o özü həmişə bu prinsiplərə üçüncü bir şəxsə əmr etməklə özünün daha sərbəst hərəkət etməsinə imkan verən ümumi qaydalar kimi baxırdı. Nəzərdən keçirdiyimiz dövrün, qayda-qanun partiyasvq ilə icraiyyə hakimiyyəti arasındakı mübarizə dövrünün birinci hissəsi Şanqarnyenin iste`fası və hərbi hakimiyyətin Bonapartın əlinə keçməsi ilə bitir. Hər iki hakimiyyət arasındakı mübarizə indi e`lan edilib açıq aparılır, lakin qayda-qanun partiyası silahı da, əsgərləri də itirəndən sonra aparılır. Hökumətsiz, ordusuz xalqsız qalıb ictimai rə`ydən məhrum olan, 31 may seçki qanunundan sonra daha suveren millətin nümayəndəsi olmayan, gözsüz, qulaqsız, dişsiz qalıb heç bir şeyi olmayan Milli məclis yavaş-yavaş dönub işi hökumətin ixtiyarına verən, özü isə «rost festum» (bayramdan sonra, yə`ni iş-işdən keçəndən sonra. Red.) deyingən e`tirazlarla kifayətlənən köhnə Fransa parlamenti222 şəklini aldı.

Qayda-qanun partiyası yeni hökumətn qızğın hiddətlə qarşılayır. General Bedo tə`til müddətində daimi komissiyanın itaətkarlıq göstərdiyini və öz protokollarını e`lan etməkdən hədsiz nəzakətlə imtina etdiyini xatırladır. Burada daxili işlər nazirinin özü həmin protokolların dərc olunması üzərində tə`kid edir, lakin indi bu protokollar uzun müddət bir yerdə qalan su kimi, əlbəttə, hər bir dadını itirmişdir, heç bir yeni faktı ifşa etmir və doymuş camaata heç bir tə`sir göstərmir. Remüzün təklifi ilə, Milli məclis müxtəlif komissiyalardakı müzakirədən sonra «Fövqəl`adə tədbirlər

komitəsi» tə`yin edir. Paris xususilə ona görə öz adi qayda-qanun çərçivəsindən kənara çıxmır ki, bu zaman ticarət tərəqqi edir, sənaye müəssisələri işləyir, taxıl qiymətləri aşağıdır, ərzaq boldur, əmanət kassalarına hər gün yeni-yeni əmanət qoyulur. Parlamentin bu qədər hay-küylə e`lan etdiyi «fövqəl`adə tədbirlər» yanvarın 18-də nazirlərə e`timadsızlıq göstərilməsi ilə bitir, lakin general Şanqarnyennn heç adı da çəkilmir. Qayda-qanun partiyası öz səsverməsini elə ifadə etməyə məcbur idi ki, respublikaçıların səslərini özü üçün tə`min etsin, çünki respublikaçılar hökumətin bütün tədbirlərindən yalnız Şanqariyenin vəzifədən götürülməsini bəyənirdilər, halbuki qayda-qanun partiyası əslində özünün hökumətə qəbul etdirdiyi qalan tədbirləri pisləyə bilməzdi. E`timadsızlıq göstərmək qərarı yanvarın 18-də 286 səsə qarşı 415 səslə–deməli, yalnız ifrat legitimist və orleanistlərin xalis respublikaçılar və Dağ ilə koalisiyası sayəsində qəbul edildi. Bununla sübut edildi ki, qayda-qanun partiyası nəinki hökuməti, nəinki ordunu itirmişdir,–Bonapartla öz çəkişmələrində–parlamentdəki müstəqil çoxluğunu da itirmişdir; çünki deputatların bir hissəsi–sazişə hədsiz meyl göstərdiyinə görə, mübarizədən qorxduğuna görə, zəif olduğuna görə, doğma dövlət maaşlarına ailə bağlılığına görə, boşalan nazir vəzifələrində (Odilon Barro) gözü olduğuna görə, həmişə adi bir burjuanı bu və ya digər şəxsi səbəb üzündən öz sinfinin ümumi mənafeyini qurban verməklə nəticələnən bayağı eqoistliyinə görə–partiyanın cəbhəsindən qaçmışdı. Bonapartist deputatlar lap əvvəldən yalnız inqilaba qarşı mübarizədə qayda-qanun partiyası ilə əlbir hərəkət edirdilər. Katolik partiyasının başçısı Montalamber hələ o zaman öz şəxsi nüfuzunu Bonapartın xeyrinə vermişdi, çünki parlament partiyasının yaşamağa qabil olduğuna inamını itirmişdi. Nəhayət, bu partiyanın başçıları, orleanist Tyer və legitimist Berye özlərini açıqca respublikaçı e`lan edib e`tiraf etməyə məcbur olmuşdular ki, onlar qəlbən monarxist olsalar da, ağılca respublikaçıdırlar, çünki parlamentli respublika bütövlükdə burjuaziyanın hökmranlığının yeganə mümkün formasıdır. Bir sözlə, onlar parlamentdən gizlində yorulmaq bilmədən işləyib hazırladıqları bərpaçılıq planlarını burjuaziyanın öz nəzərində, mə`nasız olduğu qədər də təhlükəli bir fitnə kimi rüsvay etməyə məcbur idilər. E`timadsızlıq göstərmək haqqında yanvarın 18-də qəbul olunan qərar prezidentə deyil, hökumətə zərbə idi. Lakin Şanqariyeni vəzifədən hökumət deyil, prezident götürmüşdü. Məgər qayda-qanun partiyası

Bonapartın özünü onun bərpaçılıq niyyətləri üstündə məs`uliyyətə cəlb etməli deyildimi? Lakin bu niyyətlər qayda-qanun partiyasının özünün bərpaçılıq niyyətlərini tamamlayırdı. Onu hərbi paradlarda və 10 dekabr Cəmiyyətindəki qəsdçilik hərəkətləri üstündə məs`uliyyətə cəlb etməli deyildimi? Lakin qayda-qanun partiyası bu məsələləri çoxdan gündəlik növbəti işlər qalağı altında basdırmışdı. 29 yanvar və 13 iyun qəhrəmanının, qiyam olacağı halda Parisi dörd tərəfdən yandıracağı ilə 1850-ci ilin mayında hədələyən bir adamın vəzifədən götürülməsi üstündə Bonapartın özünü məs`uliyyətə cəlb etməli deyildimi? Lakin qayda-qanun partiyasının Dağ içərisindəki müttəfiqləri və Kavenyak bu partiyaya heç yol vermədilər ki, artıq yıxılmış olan «cəmiyyət dayağına» rəsmi rəğbət bildirməklə ona tərəfdar çıxsın. Generalları vəzifədən götürmək üçün konstitusiyanın prezidentə verdiyi hüquqa qayda-qanun partiyası özü e'tiraz edə bilmirdi. Qayda-qanun partiyası yalnız ona görə özündən çıxırdı ki, prezident özünün konstitusiya hüququndan parlamentə qarşı istifadə edirdi. Lakin qayda-qanun partiyasının özü özünün parlament səlahiyyətindən daim, xüsusilə ümumi seçki hüququ ləğv edildiyi zaman, konstitusiyaya qarşı istifadə etmirdimi? Deməli, qayda-qanun partiyasının tamamilə parlament çərçivəsi daxilində hərəkət etməkdən başqa çarəsi qalmırdı. 1848-ci ildən e`tibarən bütün kontinentdə hökm sürən yalnız xüsusi bir xəstəlik–bu xəstəliyə tutulanları xəyali bir aləmin əsarətində saxlayıb hər cür düşüncədən, hər cür hafizədən, kobud xarici aləmi hər hansı şəkildə başa düşməkdən məhrum edən parlament kretinizmi xəstəliyi–yalnız bu parlament kretinizmi nəticəsindədir ki, parlamentin gücünün bütün şərtlərini öz əli ilə məhv edən və başqa siniflərə qarşı mübarizədə məhv etməli olan qayda-qanun partiyası parlamentdəki qələbələrini hələ də qələbə hesab edir və belə güman edirdi ki, prezidentin nazirlərinə zərbələr vurmaqla prezidentin özünə zərbə vurur. Qayda-qanun partiyası bununla prezidentə yalnız Milli məclisi millətin nəzərində yenidən alçaltmaq fürsətini vermiş olurdu. Yanvarın 20-də «Moniteur» xəbər verdi ki, bütün hökumətin iste`fası qəbul olunmuşdur. Bonapart,–daha parlamentdə heç bir partiyanın əksəriyyət təşkil etmədiyini,–yanvarın 18-dəki səsvermə nəticəsində əmələ gələn əksəriyyətin Dağ ilə royalistlərin koalisiyasının səmərəsi olduğunu sübut etmişdi–və yeni əksəriyyət əmələ gəlməsini gözləmək lazım gəldiyini bəhanə edərək, keçid hökuməti deyilən bir hökumət tə`yin etdi; sıralarında heç bir parlament üzvü olmayan bu

hökumət başdan-başa tanınmamış və heç dərəcəsində olan şəxsiyyətlərdən,–təkcə prikazçiklərdən və mirzələrdən ibarət idi. İndi qayda-qanun partiyası öz qüvvələrini bu müqəvvalarla çəkişməyə sərf edə bilərdi,–icraiyyə hakimiyyəti isə Milli məclisdə ciddi bir nümayəndəliyin olmasına artıq heç bir əhəmiyyət vermirdi. Bonapartın nazirləri getdikcə daha çox adi bir statist olduqca, o özü bütün icraiyyə hakimiyyətini bir o qədər aşkar surətdə öz əlinə alır və bundan öz məqsədləri üçün bir o qədər asanlıqla istifadə edirdi.

Dağ ilə qayda-qanun partiyası koalisiya düzəldib, prezidentə 1800000 frank əlavə pul vermək təklifini, 10 dekabr Cəmiyyəti başçısının əmri ilə onun prikazçik nazirləri tərəfindən verilən təklifi bir intiqam olaraq, rədd etdi. Bu dəfə məsələ cəmi 102 səs çoxluğu ilə həll edildi,–deməli, yanvarın 18-dən qayda-qanun partiyası 27 səs daha itirmişdi partiya getdikcə daha çox pozulub dağılırdı. Eyni zamanda qayda-qanun partiyasının Dağ ilə koalisiyasının mə`nası haqqında heç bir şübhə oyanmasına yol verməməkdən ötrü bu partiya siyasi cinayətkarlar üçün ümumi amnistiya vermək haqqında Dağın 189 üzvü tərəfindən imzalanmış təklif barəsində heç müzakirə açmaq da istəmədi. Daxili işlər naziri Vais adlı birisi bəyanat verib deyəndə ki, sakitlik ancaq zahiridir, güclü gizli təşviqat genişlənir, hər yerə burnunu soxan gizli cəmiyyətlər təşkil olunur, demokratik qəzetlər yenidən meydana çıxmağa hazırlaşır, departamentlərdən xoşa gəlməyən xəbərlər alınır, Cenevrədəki mühacirlərin başçılıq etdiyi gizli qəsdin telləri Lion vasitəsi ilə bütün Cənubi Fransanı əhatə edir, Fransa sənaye və ticarət böhranı ərəfəsindədir, Rube şəhərinin fabrikçiləri iş vaxtını qısaltmışlar, Bel-İl223 məhbusları qiyam etmişlər,–hətta Vais adlı birisi bu qırmızı kabusu haraylayan kimi qayda-qanun partiyası dərhal elə bir təklifi müzakirəsiz rədd etdi ki, bu təklif qəbul ediləcəyi halda hökmən Milli məclisə çox böyük nüfuz qazandırardı və Bonapartı yenidən Milli məclisin qucağına atılmağa məcbur edərdi. Qayda-qanun partiyası icraiyyə hakimiyyətinin təsvir etdiyi yeni iğtişaş perspektivi qarşısında qorxuya düşmək əvəzində sinfi mübarizəyə bir qədər heç olmazsa, cüz`i meydan verməli və beləliklə, icraiyyə hakimiyyətini özündən asılı vəziyyətdə saxlamalı idi. Lakin qayda-qanun partiyası belə odla oynamaq vəzifəsinin öhdəsindən gəlmək üçün özündə qüvvə görmürdü.

Halbuki keçid hökuməti deyilən hökumət aprelin ortalarına qədər sürünməkdə davam edirdi. Bonapart Milli məclisi yeni-yeni hökumət

kombinasiyaları ilə yorur və ələ salırdı. O gah Lamartin və Biyo ilə respublikaçı həkumət, gah asanlıqla ələ salınan sadəlövh bir adam lazım gəldiyi yerdə mütləq adı çəkilən hökmən Odilon Barro ilə parlament hökuməti, gah Vatimenil və Benua d`Azi ilə legitimist hökuməti, gah da Malvil ilə orleanist hökuməti düzəltmək niyyətində olduğunu bildirirdi. Bonapart bu cür üsullarla qayda-qanun partiyasının müxtəlif fraksiyalarını bir-birinin üstünə saldırmaqla və bütün qayda-qanun partiyasını respublikaçı hökumət düzələ biləcəyi və bunun nəticəsində labüd surətdə ümumi seçki hüququnun bərpa olunacağı ilə qorxudaraq, eyni zamanda burjuaziyada belə bir əqidə əmələ gətirirdi ki, onun parlament hökuməti düzəltmək yolundakı səmimi sə`yi royalist fraksiyaların barışmazlığı qarşısında boşa çıxır. Yaxınlaşmaqda olan ümumi ticarət böhranı şəhərlərdə, son dərəcə aşağı taxıl qiymətləri isə kənddə sosializm üçün nə qədər çox tərəfdar toplayırdısa, burjuaziya bir o qədər ucadan «güclü hökumət» tələb edir, Fransanı «hökumətsiz» qoymağı bir o qədər bağışlanmaz səhv hesab edirdi. Ticarətdə durğunluq gündən-günə güclənirdi, işsizlərin sayı olduqca artırdı, Parisdə azı 10000 fəhlə çörəksiz qalmışdı, Ruanda, Mülhauzendə (Müluzda. Red.), Lion, Rube, Turkuen, Sent-Etyen, Elböf və başqa yerlərdə saysız-hesabsız fabriklər işi dayandırmışdı. Belə bir şəraitdə Bonapart aprelin 11-də c. Rue, Fuld, Baroş və başqalarına c. Leon Foşeni də qoşaraq, 18 yanvar hökumətini bərpa etməyə özündə cür`ət tapdı, halbuki Müəssislər məclisi c. Leon Foşeyə yalan teleqraf xəbərləri yaydığına görə özünün axırıncı iclaslarından birində, beş nazirin səsi istisna olaraq, yekdilliklə e`timadsızlıq göstərib onu pisləmişdi. Beləliklə, Milli məclis yanvarın 18-də hökumətə qalib gəlmişdi və üç ay ərzində Bonaparta qarşı yalnız ona görə mübarizə edirdi ki, aprelin 11-də Fuld və Baroş öz nazirlər ittifaqına, üçüncü şəxs olaraq, puritan Foşeni qəbul edə bilsinlər.

1849-cu ilin noyabrında Bonapart qeyri-parlament hökuməti ilə, 1851-ci ilin yanvarında parlamentdən kənar hökumətlə kifayətlənmişdi, aprelin 11 də isə o özünü kifayət qədər güclü hiss edərək, hər iki məclisin–Müəssislər məclisi və Qanunverici məclisin, respublikaçılar məclisi və royalistlər məclisinin e`timadsızlığını ahəngdar surətdə özündə birləşdirən antiparlament hökuməti yaratdı. Hökumətin bu dərəcələri parlamentin həyat temperaturunun tədricən necə aşağı düşdüyünü onun özünə göstərən termometr idi. Bu temperatur aprelin axırlarında o qədər aşağı düşdü ki,

Persinyi xüsusi bir söhbət zamanı prezidentin tərəfinə keçməyi Şanqarnyeyə təklif edə bildi. O inandırıb deyirdi ki, Bonapart Milli məclisin nüfuzunu tamamilə yox olmuş hesab edir və möhkəm düşünülmüş, lakin təsadüfən yenə tə`xirə salınmış «coup d`etat»dan sonra e`lan ediləcək hazır intibahnamə vardır. Şanqarnye bu ölüm hökmünü qayda-qanun partiyasının başçılarına xəbər verdi. Lakin taxtabitinin dişləməsindən adamın ölə biləcəyinə kim inanar? Parlament nə qədər zəif olsa da, nə qədər pozulmuş olsa da, az qala axır nəfəsi olsa da, hər halda 10 dekabr Cəmiyyətinin təlxək şefi ilə təkbətək vuruşmasını taxtabiti ilə vuruşmaqdan başqa bir şey hesab edə bilmirdi. Lakin Bonapart qayda-qanun partiyasına Agiselayın çar Agisə dediyi kimi cavab verdi: «Mən sənin gözünə qarışqa görünürəm, amma bir zaman gələcəkdir ki, mən şir olacağam»224.

VI

Hərbi hakimiyyəti öz əlində saxlamaq və icraiyyə hakimiyyəti üzərində itirdiyi rəhbərliyini yenidən əldə etmək üçün əbəs yerə sə`y göstərən qayda-qanun partiyasının Dağ və xalis respublikaçılarla girməyə məcbur olduğu koalisiya,–bu koalisiya qəti sübut etdi ki, qayda-qanun partiyası parlamentdə müstəqil əksəriyyəti itirmişdir. Təqvimin adi qüvvəsi, saatın əqrəbi mayın 28-də onun tamamilə dağılmasına siqnal verdi. Mayın 28-də Milli məclisin ömrünün son ili başlandı. İndi Milli məclis konstitusiyanı olduğu kimi saxlamaq və ya onu yenidən nəzərdən keçirmək məsələsini həll etməli olurdu. Lakin konstitusiyanı yenidən nəzərdən keçirmək yalnız burjuaziyanın hökmranlığı ilə xırda burjua demokratiyasının hökmranlığından, demokratiya ilə proletar anarxiyasından, parlamentli respublika ilə Bonapartdan birini seçmək demək deyildi: bu, həmçinin, Orlean ilə Burbondan birini seçmək demək idi! Beləliklə, parlamentin öz içərisinə nifaq düşmüşdü və qayda-qanun partiyasını bir-birinə düşmən fraksiyalara parçalamış mənafe mübarizəsi də bu nifaqa görə açıq qızışmalı idi. Qayda-qanun partiyası müxtəlif ictimai ünsürlərin birləşməsindən ibarət idi. Konstitusiyanı yenidən nəzərdən keçirmək məsələsi elə bir siyasi temperatur yaratdı ki, bu temperaturda həmin birləşmə öz ilk tərkib hissələrinə parçalandı.

Bonapartistlərin konstitusiyanı yenidən nəzərdən keçirmək istəmələri sadəcə izah olunur. Onlar hər şeydən əvvəl, Bonapartın ikinci dəfə seçilməsini və onun hakimiyyətinin uzadılmasını qadağan edən 45-ci

maddəni ləğv etmək istəyirdilər. Respublikaçıların da mövqeyi eyni dərəcədə sadəcə izah olunurdu. Onlar konstitusiyanın hər haisı şəkildə yenidən nəzərdən keçirilməsini respublikaya qarşı ümumi qəsd hesab edərək, bunu qəti surətdə rədd edirdilər. Milli məclisdə səslərin dörddə bir hissəsindən çoxu onların əlində olduğuna görə, konstitusiyanı yenidən nəzərdən keçirmək haqqında qanuni qərar qəbul etmək və bu barədə xüsusi məclis çağırmaq üçün isə konstitusiyaya əsasən bütün səslərin dörddə üç hissəsi lazım gəldiyinə görə, onlar ancaq öz səslərinin sayını nəzərə alaraq, qələbəyə əmin ola bilərdilər. Odur ki, onlar qələbəyə əmin idilər.
Bu aydın mövqelərin əksinə olaraq, qayda-qanun partiyası həlledilməz ziddiyyətlər içərisində dolaşıb qalmışdı. Qayda-qanun partiyası konstitusiyanı yenidən nəzərdən keçirməyi rədd etməklə, mövcud qaydanı təhlükə altına alırdı, çünki Bonapart üçün yalnız bir yol–zorakılıq yolu saxlayırdı və hakimiyyəti itirmiş prezidentlə, çoxdan hakimiyyəti olmayan parlamentlə, bu hakimiyyəti yenidən əldə etmək istəyən xalqla birlikdə Fransanı qəti bir zamanda, 1852-ci il mayın ikinci bazar günü inqilabi anarxiya özbaşınalığının ixtiyarına verirdi. Qayda-qanun partiyası konstitusiyanı yenidən nəzərdən keçirməyə konstitusiya əsasında səs verərkən, bilirdi ki, əbəs yerə səs verir, çünki onun səsverməsi, konstitusiyaya əsasən, respublikaçıların vetosu qarşısında boşa çıxmalıdır. Qayda-qanun partiyası konstitusiyanı pozaraq, səslərin sadəcə çoxluğunu kifayət e`lan edərkən, icraiyyə hakimiyyətinə yalnız tamamilə tabe olması şərti ilə inqilabın qarşısını almağı ümid edə bilərdi beləliklə bu partiya konstitusiyanı, konstitusiyanın yenidən nəzərdən keçirilməsini və özünü Bonapartın ixtiyarına verirdi. Prezidentin hakimiyyətini uzatmaq məqsədi ilə konstitusiyanı qismən yenidən nəzərdən keçirmək Bonapartın qəsbkarlığı üçün zəmin hazırlayırdı. Respublikanın ömrünü qısaltmaq məqsədi ilə konstitusiyanı ümumən yenidən nəzərdən keçirmək labüddən sülalə iddialarının toqquşmasına səbəb idi, çünki istər Burbonların, istərsə də orleanistlərin bərpaçılıq şərtləri nəinki müxtəlif idi, hətta bir-birini rədd edirdi.
Parlamentli respublika fransız burjuaziyasının hər iki fraksiyasının, legitimistlərlə orleanistlərin–iri torpaq mülkiyyəti ilə sənayenin–bərabər hüquqla yanaşı hökmranlıq edə bilməsi üçün bitərəf zəmindən artıq bir şey idi. Bu respublika onların birgə hökmranlığı üçün zəruri şərt olub elə bir yeganə dövlət forması idi ki, burada onların ümumi sinfi mənafeyi istər

burjuaziyanın ayrı-ayrı fraksiyalarının iddiaları üzərində, istərsə də cəmiyyətin bütün başqa sinifləri üzərində hökm sürürdü. Royalist olmaq e`tibarı ilə onlar yenidən köhnə antaqonizmə düşür, üstünlük uğrunda torpaq mülkiyyəti ilə pul arasındakı mübarizəyə qoşulurdular, bu antaqonizmin yüksək ifadəsi, onun təcəssümü isə, onların kralları, onların sülaləri idi. Burbonların qayıtmasına qayda-qanun partiyasının nəyə görə müqavimət göstərdiyi bununla izah olunur. Orleanist və deputat Kreton kral ailələrinin ölkədən qovulması haqqındakı dekretin ləğv edilməsini 1849, 1850 və 1851-ci illərdə müntəzəm surətdə təklif edirdi. Parlament də qovulmuş kralların vətənə qayıtması yolunu inadla kəsən royalist məclisdən ibarət olduğunu eyni dərəcə müntəzəm surətdə göstərirdi. III Riçard VI Henrixi öldürərkən demişdi ki, Henrix bu dünya üçün həddindən artıq yaxşıdır və onun yeri göylərdir. Royalistlər belə hesab edirdilər ki, Fransa qovulmuş kralları geri qaytarmağa layiq olmayıb çox pis ölkədir. Şərait onları respublikaçı olmağa və onların kralларını Fransadan qovan xalqın qərarını dəfələrlə təsdiq etməyə məcbur etmişdi.
Konstitusiyanı yenidən nəzərdən keçirmək,–şərait isə bu məsələni müzakirəyə qoymağa məcbur edirdi,–respublika llə birlikdə burjuaziyanın hər iki fraksiyasının birgə hökmranlığını da təhlükə altına alırdı və monarxiyanın mümkün olması ilə birlikdə, növbə ilə ən çox təmsil etdiyi mənafelərin rəqabətini yenidən canlandırırdı, burjuaziyanın hər iki fraksiyasi arasında üstünlük üstündə mübarizəni yenidən canlandırırdı. Qayda-qanun partiyasının diplomatları hər iki sülaləni birləşdirmək yolu ilə, royalist partiyalarla onların kral xanədanlarını, necə deyərlər, qovuşdurmaq yolu ilə mübarizəni yatırtmaq ümidində idilər. Parlamentli respublika–Restavrasiya ilə İyul monarxiyasının həqiqətən qovuşması idi, çünki burada orleanist rəngi ilə legitimist rəngi aradan qalxırdı və ümumiyyətlə burjua içərisində, burjua cinsi içərisində müxtəlif burjua növləri yox olurdu. İndi isə orleanist dönüb legitimist, legitimist də dönüb orleanist olmalıdır. Onların antaqonizmini təcəssüm etdirən monarxiya onların birliyinin təcəssümü olmalı idi; onların bir-birini rədd edən fraksiya mənafeyinin ifadəsi onların ümumi sinfi mənafeyinin ifadəsi olmalı idi; monarxiya yalnız hər iki monarxiyanı aradan qaldırmaqla, yalnız respublika şəklində yerinə yetirilə biləcək və yerinə yetirilən şeyi həyata keçirməli idi. Qayda-qanun partiyası kimyagərlərinin baş sındırıb tapmaq istədikləri iksir bundan ibarət idi. Guya ki, legitimist monarxiya bir zaman

sənaye burjuaları monarxiyası ola bilərmiş və ya burjua monarxiyası irsi torpaq aristokratiyasının monarxiyası ola bilərmiş. Guya ki, torpaq mülkiyyəti ilə sənaye eyni bir tac altında dinc yola gedə bilərmiş, halbuki tac yalnız bir başa, ya böyük, ya da kiçik qardaşın başına qoyula bilər. Guya ki, torpaq mülkiyyətinin özü hələ sənaye mülkiyyətinə çevrilmək qərarına gəlməzdən əvvəl ümumiyyətlə sənaye torpaq mülkiyyəti ilə barışa bilərmiş. Əgər sabah V Henrix ölsəydi, qraf Parisli hər halda legitimistlərin kralı olmazdı,–olsa-olsa ancaq bu şərtlə ola bilərdi ki, orleanistlərin krallığından çıxsın. Lakin konstitusiyanı yenidən nəzərdən keçirmək məsələsi birinci sıraya keçdikcə öz səslərini ucaldan, özlərinə «AssambIee nationale»141 qəzeti kimi rəsmi gündəlik orqan yaradan və hətta indiki dəqiqədə (1852-ci ilin fevralında) yenidən fəaliyyətdə gördüyümüz qovuşma filosofları,–bütün çətinlikləri hər iki sülalənin müqavimət və rəqabəti ilə izah edirdilər. Odur ki, Orleanlar xanədanını V Henrix ilə barışdırmaq üçün hələ Lui-Filippin vəfatı zamanından başlamış, lakin bütün başqa sülalə fitnələri kimi yalnız Milli məclisin tə`tilləri zamanı, tənəffüslərdə, pərdə arxasında özünü göstərib ciddi bir işdən daha çox köhnə mövhumatla sentimental şəkildə işvəbazlıq etməkdən ibarət olan təşəbbüslər indi, qayda-qanun partiyasının bu vaxta qədər olduğu kimi həvəskarlar tamaşası şəklində deyil, ümumi səhnədə oynadığı təntənəli tamaşaya çevrilirdi. Tez-tez Parisdən Venesiyaya225, Venesiyadan Klermonta, Klermontdan Parisə kuryerlər gedirdi. Qraf Şambor bir manifest verərək, «öz ailəsinin bütün üzvlərinin köməyi ilə» özünün bərpasından deyil, «milli» bərpadan bəhs edir. Orleanist Salvandi V Henrixin ayaqlarına düşür. Legitimist başçıları Berye, Benua d`Azi, Sen-Prist Orleanların razılığını əldə etmək üçün Klermonta gedir, lakin bu işdə müvəffəqiyyət qazanmırlar. Qovuşma tərəfdarları vaxtı keçdikdən sonra bu nəticəyə gəlirlər ki, burjuaziyanın hər iki fraksiyasının mənafeyi ailə mənafeyi formasında, iki kral xanədanının mənafeyi formasında kəskinləşərək, nə bir-birini aradan qaldırır, nə də daha çox güzəştə gedən şəkil alır. Fərz edək ki, V Henrix qraf Parislini öz xələfi hesab etdi,–qovuşma tərəfdarları isə ən yaxşı halda yalnız bu müvəffəqiyyət ümidində ola bilərdilər,–bunun nəticəsində Orleanlar xanədanı V Henrixin uşaqsızlığının bu xanədanı hər halda tə`min etdiyi hüquqdan artıq heç bir hüquq qazanmazdı, lakin iyul inqilabı nəticəsində qazandığı bütün hüquqları itirərdi. O öz köhnə iddialarından, demək olar, yüz illik

mübarizədə Burbonların yuxarı nəslindən qopardığı bütün hüquqlardan əl çəkərdi, nəsil şəcərəsinə əsaslanan imtiyazlar xatirinə öz tarixi imtiyazından, müasir monarxiya imtiyazından əl çəkərdi. Deməli, qovuşma Orleanlar xanədanının taxt-tacdan könüllü surətdə əl çəkməsindən, legitimizm xeyrinə bütün öz hüququndan əl çəkməsindən, tövbə edib bir dövlət kilsəsindən başqasına keçməsindən, protestantlıqdan dönüb katolikliyə keçməsindən başqa bir şey olmazdı,–bu çevrilmə isə Orleanlara hətta əldən çıxmış taxtı deyil, taxtın yalnız üzərində doğulduqları pilləsini verərdi. Qovuşma işini əvvəlcədən hazırlamaq üçün Klermonta gedən köhnə orleanist nazirlər, Gizo, Düşatel və başqaları işdə yalnız iyul inqilabından sonrakı keyliyin, burjua monarxiyası və burjualar monarxiyasının doğurduğu mə`yusluğun, anarxiyadan xilas edə biləcək axırıncı tilsim olan legitimlik qarşısında məvhum pərəstişin ifadəçisi idilər. Onlar özlərini Orleanlarla Burbonlar arasında vasitəçi hesab etdikləri halda, əslində dönük orleanistlərdən başqa bir şey deyildilər və prins Juanvil onları məhz belə də qəbul etmişdi. Lakin orleanistlərin yaşamağa qabil olan döyüşkən hissəsi, Tyer, Baz və başqaları Lui-Filipp ailəsini o qədər asanlıqla buna inandırdılar ki, hər hansı bir monarxiyanın bilavasitə bərpa edilməsi hər iki sülalənin birləşməsini tələb etdiyinə görə, hər bir belə birləşmə isə Orleanlar xanədanının öz hüquqlarından əl çəkməsini tələb etdiyinə görə,–respublikanı müvəqqəti olaraq tanımaq və hadisələr prezident kürsüsünü taxta çevirməyə imkan verəcəyi vaxta qədər gözləmək bu xanədanın ailə ən`ənələrinə tamamilə uyğun gəlir. Əvvəlcə respublika prezidentliyinə Juanvilin namizədliyinin irəli sürüldüyü haqqında şayiə yaydılar, camaatın marağı yüksəldi, bir neçə ay sonra, sentyabrda, konstitusiyanın yenidən nəzərdən keçirilməsi rədd ediləndə isə, bu namizəd açıq-aşkar irəli sürüldü.

Beləliklə, orleanistlərlə legitimistləri qovuşdurmaq üçün edilən royalist təşəbbüsü nəinki boşa çıxdı–bu təşəbbüs onların parlamentdəki qovuşmasını, onları birləşdirən respublika formasını da dağıtdı və qayda-qanun partiyasını yenidən öz əvvəlki tərkib ünsürlərinə parçaladı. Lakin Klermont ilə Venesiya arasındakı ayrılıq nə qədər artırdısa, onların əlaqələrinin kəsilməsi nə qədər yaxınlaşırdısa və Juanvilin xeyrinə təşviqat nə qədər güclənirdisə, Bonapartın naziri Foşe ilə legitimistlər arasındakı danışıqlar bir o qədər sə`ylə davam etdirilir, bir o qədər ciddiləşirdi.

Qayda-qanun partiyasının pozulması onun öz əsas ünsürlərinə parçalanması ilə bitmədi. İki böyük fraksiyadan hər biri də getdikcə dağılırdı. Adama elə gəlirdi ki, hər iki cəbhənin öz daxilində, həm legitimistlər cəbhəsində, həm də orleanistlər cəbhəsində, vaxtı ilə öz aralarında mübarizə edib bir-birini sıxışdıran bütün köhnə çalarlar, suya düşəndə cana gələn qurumuş infuzoriyalar kimi guya yenidən canlanmışdır; adama elə gəlirdi ki, onlar bir-birinə əks müstəqil mənafeyi olan ayrıca qruplar düzəltmək üçün yenidən kifayət qədər həyat qüvvəsi əldə etmişlər. Legitimistlər öz xəyallarında geriyə, Tüilri sarayı ilə Marsan pavilyonu arasında, Villel ilə Polinyak arasındakı mübahisələr zamanına qayıdırdılar226. Orleanistlər yenidən Gizo, Mole, Brolyi, Tyer və Odilon Barro arasındakı yarış dövrü kimi qiymətli bir dövr keçirirdilər. Qayda-qanun partiyasının bir hissəsi, konstitusiyanı yenidən nəzərdən keçirməyə tərəfdar olan, lakin onu yenidən nəzərdən keçirməyin hədləri haqqındakı baxışlarında bir-birindən ayrılan bir tərəfdən Berye və Fallunun, digər tərəfdən də olacaqlaroşjaklenin başçılığı ilə legitimistlərdən, həmçinin Mole, Brolyi, Montalamber və Odilon Barronun başçılıq etdikləri və mübarizədən yorulmuş orleanistlərdən ibarət hissəsi belə bir qeyri-müəyyən və çox geniş təklif əsasında bonapartist deputatlarla razılığa gəldi:

«Aşağıda imza edən deputatlar millətin öz suvereiliyini tamamilə həyata keçirmək imkanını ona qaytarmaq məqsədini öz qarşılarına qoyaraq, konstitusiyanı yenidən nəzərdən keçirmək təklifini irəli sürürlər».

Lakin eyni zamanda bu deputatlar özlərinin mə`ruzəçisi Tokvil vasitəsi ilə yekdilliklə bildirdilər ki, Milli məclisin respublikanı ləğv etmək haqqında təklif vermək hüququ yoxdur, bu hüquq yalnız, konstitusiyanı yenidən nəzərdən keçirmək üçün çağırılan palataya məxsusdur. Bundan başqa onlar deyirdilər ki, konstitusiyanı yalnız «qanuni» əsasla yenidən nəzərdən keçirmək olar, yə`ni konstitusiyada göstərildiyi kimi, səslərin dörddə üç hissəsindən ibarət çoxluq, onun yenidən nəzərdən keçirilməsinə tərəfdar olanda yenidən nəzərdən keçirilə bilər. Altı günlük qızğın mübahisələrdən sonra iyulun 19-da konstitusiyanı yenidən nəzərdən keçirmək təklifi rədd edildi ki, bunun məhz belə olacağını da gözləmək lazım gəlirdi. Konstitusiyanı yenidən nəzərdən keçirmək lehinə 446, əleyhinə isə 278 deputat səs verdi. İfrat orleanistlər, Tyer, Şanqarnye və başqaları respublikaçılar və Dağ ilə birlikdə səs verdilər.

Beləliklə, parlamentin çoxluğu konstitusiya əleyhinə oldu, konstitusiya özü isə azlığa, onun qərarının məcburi olmasına tərəfdar oldu. Lakin Məgər qayda-qanun partiyası 1850-ci il mayın 31-də də, 1849-cu il iyunun 13-də də parlamentdəki çoxluğu konstitusiyadan yüksək tutmamışdı? Məgər onun bütün əvvəlki siyasəti konstitusiyanın maddələrini parlamentdəki çoxluğun qərarlarına tabe etməyə əsaslanmırdı? Məgər bu partiya qanunun hərfinə əhdi-ətiq mövhumatında olduğu kimi kor-koranə pərəstişkarlıqla yanaşmağı demokratların öhdəsinə buraxmamış və məgər o bu pərəstişkarlıq üstündə demokratları cəzalandırmamışdı? Lakin indi konstitusiyanın yenidən nəzərdən keçirilməsi prezidentin hakimiyyət müddətini uzatmaqdan başqa bir şey deyildi, konstitusiyanın müddətini uzatmaq isə Bonapartın devrilməsindən başqa bir şey deyildi. Parlament Bonaparta tərəfdar oldu, konstitusiya isə parlamentin əleyhinə oldu. Deməli, Bonapart konstitusiyanı pozmaqla parlament ruhunda hərəkət edirdi və parlamenti qovmaqla konstitusiya ruhunda hərəkət edirdi. Parlament konstitusiyanı, onunla birlikdə də öz hökmranlığını «əksəriyyət xaricində» e`lan etdi o öz qərarı ilə konstitusiyanı ləğv etdi, prezidentin hakimiyyət müddətini uzatdı və bununla bərabər e`lan etdi ki, parlament özü yaşadıqca, nə konstitusiya ölə bilər, nə də prezident hakimiyyəti yaşaya bilər. Onun gələcək qəbir qazıyanları qapıda durmuşdular. Parlament konstitusiyanı yenidən nəzərdən keçirmək məsələsi ilə əlaqədar mübahisələrlə məşğul olduğu bir zamanda Bonapart, qətiyyətsizlik göstərmiş general Barake d`İlyeni birinci diviziyanın komandanı vəzifəsindən kənar etdi və onun yerinə öz əlaltılarından birini, Lion qalibi, dekabr günlərinin qəhrəmanı general Manyanı tə`yin etdi ki, bu da özünü hələ Lui-Filipp zamanı Bulon hərbi səfəri ilə əlaqədar olaraq, Bonapartın tərəfdarı kimi az-çox hörmətdən salmışdı.

Qayda-qanun partiyası konstitusiyanı yenidən nəzərdən keçirmək haqqındakı qərarı ilə göstərdi ki, o nə hökmranlıq edə bilir, nə də tabe ola bilir, nə yaşaya bilir, nə də ölə bilir, nə respublikanı mühafizə edə bilir, nə də onu yıxa bilir, nə konstitusiyanı toxunulmaz halda mühafizə edə bilir, nə də onu aradan qaldıra bilir, nə prezidentlə əməkdaşlıq edə bilir, nə də onunla əlaqəni kəsə bilir. Bəs bu partiya bütün ziddiyyətlərin həll olunmasını kimdən gözləyirdi? Təqvimdən, hadisələrin gedişindən. Bu partiya daha hadisələrə hökmran olduğunu söyləmirdi. Bununla da partiya özünü hadisələrin ixtiyarına verirdi, yə`ni o qüvvənin ixtiyarına verirdi ki,

xalq əleyhinə mübarizəsində hakimiyyət əlamətlərini bir-birinin ardınca ona güzəşt edirdi və nəhayət, özü bu qüvvə qarşısında hər bir hakimiyyətdən məhrum qaldı. İcraiyyə hakimiyyətinin başçısına qayda-qanun partiyası ilə mübarizə planını tamamilə maneəsiz düşünmək, özünün hücum vasitələrini gücləndirmək, öz silahlarını seçmək, öz mövqelərini möhkəmlətmək imkanı vermək üçün isə həmin partiya bu ağır zamanda səhnədən çəkilməyi və palatanın iclaslarına üç aylıq, avqustun 10-dan noyabrın 4-dək fasilə verməyi qərara aldı.

Parlament partiyasının özünün iki böyük fraksiyasına parçalanmasından və sonra bu fraksiyalardan hər birinin də parçalanmasından əlavə parlamentdəki qayda-qanun partiyası parlamentdən kənardakı qayda-qanun partiyasından da uzaqlaşdı. Burjuaziyanın natiq və müəllifləri, onun tribunası və mətbuatı,–bir sözlə, burjuaziyanın ideoloqları və burjuaziya özü nümayəndələr və təmsil olunanlar bir-birinə yad oldular, daha bir-birini başa düşmədilər. Əyalətə məhdud görüşlü və hədsiz dərəcədə coşqun legitimistlər öz parlament başçıları olan Berye və Fallunu onda təqsirləndirirdilər ki, onlar Bonapart cəbhəsinə keçib V Henrixə xəyanət etmişlər. Onların, Burbon zanbaqları kimi bakirə düşüncəsi diplomatiyaya deyil, günahkarlığa inanırdı.

Ticarət burjuaziyasının öz siyasətçiləri ilə əlaqəni kəsməsi daha fəlakətli və qəti idi. Legitimistlər öz siyasətçilərini prinsipə xəyanət etməkdə təqsirləndirdikləri halda ticarət burjuaziyası, əksinə, öz siyasətçilərini səmərəsiz olmuş prinsiplərə sədaqətdə təqsirləndirirdi.

Mən yuxarıda göstərmişdim ki, ticarət burjuaziyasının Lui-Filipp zamanı hakimiyyətdə çox böyük yer tutan hissəsi, maliyyə aristokratiyası, Fuld hökumətə daxil olduğu zamandan e`tibarən bonapartist olmuşdu. Fuld yalnız birjada Bonapartın mənafeyini müdafiə etmək deyil, Bonapartın qarşısında birjanın mənafeyini də mudafiə edirdi. Maliyyə aristokratiyasının mövqeyini onun Avropa orqanı olub Londonda çıxan «Economist»227-dən gətirilən bir parça çox gözəl göstərir. Bu jurnal 1851-ci il 1 fevral tarixli nömrəsində Parisdən alınan belə bir xəbər dərc edir:

«İndi hər tərəfdən xəbər alınır ki, Fransa hər şeydən əvvəl rahatlıq tələb edir. Prezident Qanunverici məclisə yazdığı məktubunda bunu deyir, milli natiqlər tribunasından da, bir əks-səda kimi, eyni şey eşidilir, qəzetlər də bunu söyləyir, kilsə kürsüsündən də eyni şey eşidilir, rahatlığı pozan ən cüz`i təhlükəyə qarşı dövlət kağızlarındakı həssaslıq, icraiyyə

hakimiyyətinin hər bir qələbəsi zamanı dövlət kağızlarındakı sabitlik də bunu sübut edir».
«Economist» 1851-ci il 29 noyabr tarixli nömrəsində öz adından belə deyir:
«Bütün Avropa birjalarında indi prezident qayda-qanunun keşikçisi hesab olunur».
Deməli, maliyyə aristokratiyası icraiyyə hakimiyyətinə qarşı qayda-qanun partiyasının parlamentdəki mübarizəsini qayda-qanunun pozulması hesab edib pisləmiş və onun sanki öz nümayəndələrinin üzərində prezidentin hər bir qələbəsini qayda-qanunun qələbəsi hesab edib alqışlamışdır. Həm də burada maliyyə aristokratiyası dedikdə təkcə dövlət istiqrazları buraxmaq işindəki iri vasitəçiləri və dövlət kağızları ilə ehtikar edənləri nəzərdə tutmaq olmaz, zira onların mənafeyi tamamilə aydın səbəblərə görə dövlət hakimiyyətinin mənafeyinə uyğun gəlir. Bütün müasir pul işi, butün bank təsərrüfatı dövlət krediti ilə ən sıx surətdə əlaqədardır. Bank kapitalının bir hissəsi zəruri surətdə, asanlıqla işə verilən faizli dövlət kağızlarına qoyulur. Bank əmanətləri, banklara verilən və onların tərəfindən tacirlərlə sənayeçilər arasında bölüşdürülən kapitalların bir hissəsinin mənbəyi dövlət kreditorlarının dividendləridir. Əgər bütün zamanlarda dövlət hakimiyyətinin sabitliyi bütün pul bazarı üçün və bu bazarın kahinləri üçün Əhdi-ətiq kimi müqəddəs bir şey idisə, indi, hər bir yeni tufanın köhnə dövlətlərlə birlikdə köhnə dövlət borclarını da yer üzündən silib aparmaq təhlükəsi doğurduğu bir zamanda, başqa cür necə ola bilərdi?
Qızğın surətdə qayda-qanun arzusunda olan sənaye burjuaziyası da parlamentdəki qayda-qanun partiyasının icraiyyə hakimiyyəti ilə savaşmasından əsəbiləşmişdi. Tyer, Anqles, Sent-Böv və başqaları Şanqarnyenin iste`fası ilə əlaqədar olaraq yanvarın 18-dəki səsvermədən sonra öz seçicilərindən, həm də məhz sənaye dairələrindən açıq bir töhmət aldılar; bu töhmətdə onların Dağ ilə ittifaqı qayda-qanun işinə xəyanət hesab edilib xüsusilə pislənirdi. Gördüyümüz kimi, əgər qayda-qanun partiyasının prezidentlə mübarizəsini təşkil edən lovğa öcəşmə, xırda intriqalar bundan yaxşı qarşılanmağa layiq deyildisə, digər tərəfdən, burjuaziyanın bu hissəsi, yə`ni hərbi qüvvəni öz parlamentindən danışıqsız alıb taxt-tac iddiasında olan macərapərəstə verməyi öz nümayəndələrindən tələb edən hissə hətta onun xeyrinə işlədilən intriqalara da layiq deyildi. Burjuaziyanın bu hissəsi göstərdi ki, onun ictimai mənafeyi üçün, onun öz

sinfi mənafeyi üçün, onun siyasi hakimiyyəti üçün edilən mübarizə onun xüsusi işlərinə mane olaraq, ona ancaq əziyyət verir və onu əsəbiləşdirir. Departament şəhərlərinin burjua ə`yanları, bələdiyyə məşvərətçiləri, ticarət məhkəmələrinin üzvləri və s. demək olar istisnasız olaraq hər yerdə Bonapartı öz səfərləri zamanı ən böyük itaətkarlıqla qarşılayırdılar,–hətta onun Milli məclis üzərinə və xüsusilə qayda-qanun partiyası üzərinə amansız hücum etdiyi Dijonda da belə qarşılamışdılar.
Nə qədər ki, ticarət yaxşı gedirdi,–hələ 1851-ci ilin əvvəllərində olduğu kimi,–ticarət burjuaziyası hər cür parlament mübarizəsinə qarşı qəzəblənirdi, çünki qorxurdu ki, bundan ticarət zərər çəksin. Ticarət pis gedəndə,–bu isə 1851-ci il fevralın axırlarından e`tibarən daimi bir hal olmuşdu,–ticarət burjuaziyası parlament mübarizəsini durğunluğun səbəbi hesab edərək şikayətlənir və ticarətin canlanması üçün bu mübarizənin kəsilməsini tələb edirdi. Konstitusiyanı yenidən nəzərdən keçirmək ətrafındakı mübahisələr məhz bu pis vaxtda gedirdi. Burada iş mövcud dövlət quruluşunun ölüm-dirim məsələsi üzərində olduğuna görə, burjuaziya öz nümayəndələrindən bu əziyyətli keçid vəziyyətini aradan qaldırmağı və eyni zamanda mövcud vəziyyəti mühafizə edib saxlamağı tələb etməyə özünü xüsusilə haqlı bilirdi. Bunda heç bir ziddiyyət yox idi. Burjuaziya keçid vəziyyətinin aradan qaldırılması dedikdə, bu vəziyyətin məhz uzadılmasını, məsələnin qəti həllinin uzun müddət yubadılmasını nəzərdə tuturdu. Mövcud vəziyyəti yalnız iki yolla: ya Bonapartın vəkalətini uzatmaq yolu ilə, ya da konstitusiyaya əsasən onun çıxıb getməsi və Kavenyakın seçilməsi yolu ilə saxlamaq olardı. Burjuaziyanın bir hissəsi məsələnin bu axırıncı yolla həll olunmasına meyl göstərirdi, lakin öz nümayəndələrinə bu çox kəskin məsələ haqqında susmaqdan daha yaxşı bir məsləhət verə bilmirdi. O güman edirdi ki, onun nümayəndələri danışmasalar, Bonapart da hərəkətə keçməz. O, istəyirdi ki, parlament gözə dəyməmək üçün başını gizlədən dəvəquşları parlamenti olsun.
Burjuaziyanın digər hissəsi, hər şeyi köhnə qaydasında saxlamaq üçün, onsuz da prezident kürsüsündə oturan Bonapartı bu yerində saxlamaq istəyirdi. O hiddətlənirdi ki, onun parlamenti konstitusiyanı açıqca pozmaq və çəkişməsiz hakimiyyətdən əl çəkmək istəmir.
Milli məclisin tə`tilləri zamanı, avqustun 25-dən e`tibarən iclas keçirən departament baş şuraları–iri burjuaziyanın bu əyalət nümayəndəliyi,–demək olar, yekdilliklə konstitusiyanı yenidən nəzərdən keçirməyə tərəfdar

oldu, yə`ni parlamentin əleyhinə və Bonapartın lehinə oldu! Burjuaziya öz ədəbi nümayəndələrinə və öz mətbuatına qarşı hiddətini, özünün parlament nümayəndələri ilə əlaqəni kəsdiyindən daha açıq nümayiş etdirdi. Təkcə Fransa deyil, bütün Avropa hədsiz pul cərimələrindən və biabırçı dərəcədə uzun həbs cəzalarından heyrətə gəlmişdi, zira bu cəza hökmlərini Bonapartın qəsbkarlıq niyyətlərinə burjua jurnalistlərinin hər bir hücumu üstündə, burjuaziyanın siyasi hüquqlarını icraiyyə hakimiyyətindən müdafiə etmək üçün mətbuatın göstərdiyi hər bir təşəbbüs üstündə burjua məhkəmələri verirdi.

Göstərdiyim kimi, parlament qayda-qanun partiyası rahatlığın zəruri olduğu haqqındakı bağırtıları ilə özünü fəaliyyətsizliyə məhkum etmişdisə, başqa ictimai siniflərə qarşı mübarizədə öz idarə üsulunun, parlamentli idarə üsulunun bütün şərtlərini öz əli ilə məhv etməklə, burjuaziyanın siyasi hökmranlığını burjuaziyanın təhlükəsizliyi və varlığı ilə bir araya sığmayan bir şey e`lan etmişdisə, burjuaziyanın parlamentdən kənar kütləsi prezidentə öz itaətkar münasibəti ilə, parlamenti rüsvay etməklə, öz mətbuatına qarşı vəhşicəsinə hərəkət etməklə Bonapartı burjuaziyanın danışan və yazan hissəsini, onun siyasətçilərini və ədiblərini, onun natiqlər tribunasını və mətbuatını əzməyə, məhv etməyə çağırırdı,–bunların hamısı onun üçün idi ki, burjuaziya güclü və qeyri-məhdud hökumətin himayəsi altında öz xüsusi işləri ilə rahatca məşğul ola bilsin. Burjuaziya qəti surətdə bildirirdi ki, hökmranlıqla əlaqədar olan zəhmət və təhlükələrdən yaxasını qurtarmaq üçün öz siyasi hökmranlığından yaxasını qurtarmağı qızğın arzu edir.

Parlamentdən kənar burjuaziya,–hətta öz sinfinin hökmranlığı uğrunda xalis parlament mübarizəsindən və ədəbi mübarizədən hiddətə gəlib bu mübarizənin başçılarına xəyanət edən bu burjuaziya indi, iş-işdən keçəndən sonra, cəsarət edib proletariatı təqsirləndirir ki, proletariat onun yolunda qanlı mübarizəyə, ölüm-dirim mübarizəsinə girməmişdir! Hər dəqiqə öz ümumsinfi, yə`ni öz siyasi mənafeyini ən məhdud, ən iyrənc xüsusi mənafeyə qurban verən və öz nümayəndələrindən də bu cür qurbanlar verməyi tələb edən burjuaziya indi fəryad qoparır ki, proletariat burjuaziyanın ideal siyasi mənafeyini öz maddi mənafeyinə qurban vermişdir. Burjuaziya özünü elə göstərir ki, guya o gözəl insan qəlbli bir məxluq olduğu halda, sosialistlərin aldatdığı proletariat onu anlamamış və qəti dəqiqədə tərk etmişdir. həm də onun fəryadı bütün burjua aləmində

əks-səda oyadır. Mən burada, əlbəttə, dayaz alman siyasətçiləri və kəmsavadlarından danışmıram. Mən, məsələn, yenə «Economist» jurnalını nəzərdə tuturam; çüiki bu jurnal hələ 1851-ci il noyabrın 29-da, yə`ni dövlət çevrilişindən dörd gün əvvəl Bonapartı «qayda-qanun keşikçisi», Tyerləri və Beryeləri isə «anarxist» e`lan etdiyi halda, 1851-ci il dekabrın 27-də, Bonapart bu «anarxistləri» sakitləşdirəndən sonra bağırır ki, «avam, küt, tərbiyəsiz proletar kütlələri cəmiyyətin orta və yüksək təbəqələrinin iste`dadına, biliyinə, intizamına, mə`nəvi tə`sirinə, əqli ehtiyat qüvvəsinə və mə`nəvi nüfuzuna» xəyanət etmişlər. Küt, avam və alçaq kütlə məhz burjua kütləsinin özü idi.

Doğrudur, 1851-ci ildə Fransada kiçik ticarət böhranı kimi bir şey olmuşdu. Fevralın axırlarında ixracatın 1850-ci ilə nisbətən azaldığı aşkar oldu, martda ticarət tənəzzül etdi və fabriklər bağlanmağa başladı, apreldə sənaye departamentlərinin vəziyyəti fevral günlərindən sonrakı kimi ağır görünürdü, mayda işlər hələ də düzəlməmişdi, hələ iyunun 28-də Fransa bankının ehtiyatı əmanətlərin çox artması və vekselləri skonto etmək əməliyyatının yeni dərəcədə çox azalması sənayedə durğunluq olduğunu göstərirdi və yalnız oktyabrın ortalarında işlər yavaş-yavaş düzəlməyə başladı. Fransız burjuaziyası bu ticarət durğunluğunu xalis siyasi səbəblərlə, parlamentlə icraiyyə hakimiyyəti arasındakı mübarizə ilə, müvəqqəti idarə formasının sabit olmaması ilə, 1852-ci il mayın ikinci bazar günü kimi dəhşətli perspektivin gözlənilməsi ilə izah edirdi. Mən inkar etmirəm ki, bütün bu vəziyyət Parisdə və departamentlərdə bə`zi sənaye sahələrinin tənəzzülünə tə`sir göstərmişdi. Lakin hər halda siyasi şəraitin bu tə`siri yalnız yerli və cüz`i bir tə`sir idi. Bunun ən yaxşı sübutu odur ki, ticarət məhz oktyabrın ortalarında, yə`ni məhz o zaman yaxşılaşmağa başlamışdı ki, siyasi vəziyyət pisləşmişdi, siyasi üfüqü qara buludlar bürümüşdü və hər dəqiqə Yelisey sarayından göy gurultusu qopacağını gözləmək olardı. «İste`dadı, biliyi, uzaqgörənliyi və əqli ehtiyat qüvvəsi» burnunun ucundan irəli getməyən fransız burjuası London sənaye sərgisinin228 davam etdiyi bütün müddətdə öz ticarət fəlakətlərinin səbəbini burnu ilə duya bilərdi. Fransada fabriklər bağlandığı bir zamanda İngiltərədə ticarət iflasları başlanmışdı. Fransada aprel və mayda sənaye çaxnaşması ən yüksək nöqtəyə çatmışdısa, İngiltərədə aprel və mayda ticarət çaxnaşması ən yüksək nöqtəyə çatmışdı. İstər Fransada, istərsə də İngiltərədə yun istehsalı, ipək sənayesi zərər çəkirdi. İikiltərə pambıq parça

fabrikləri işləməkdə davam etsə də, daha 1849 və 1850-ci illərdəki kimi mənfəət götürmürdü. Bütün fərq ancaq bunda idi ki, Fransada sənaye böhranı, İngiltərədə isə ticarət böhranı var idi, Fransada fabriklər bağlanırdı, İngiltərədə isə öz istehsalını genişləndirirdi, lakin əvvəlki illərə nisbətən daha az əlverişli şəraitdə genişləndirirdi, Fransada ən çox ixracat, İngiltərədə isə ən çox idxalat zərər çəkmişdi. Bunun gözə çarpan ümumi səbəbini, aydındır ki, Fransanın siyasi üfüqü dairəsində axtarmaq lazım gəlmir. 1849 və 1850-ci illər ən yüksək maddi tərəqqi və ifrat istehsal illəri idi ki, bunun da nəticələri yalnız 1851-ci ildə özünü göstərdi. Bu ilin əvvəllərində ifrat istehsal, qarşıdakı sənaye sərgisi üzündən xüsusilə gücləndi. Buna aşağıdakı xüsusi şərait də əlavə oldu: əvvəlcə 1850 və 1851-ci illərdə pambıq məhsulu qıt idi, sonra da pambıq məhsulunun gözlənildiyindən yaxşı olacağına yəqinlik hasil olmuşdu, pambığın qiyməti əvvəlcə yüksəlirdi, sonra qəflətən aşağı düşdü,–bir sözlə pambığın qiyməti qalxıb-düşürdü. Barama, hər halda Fransada, orta dərəcədən az yığılmışdı. Nəhayət, 1848-ci ildən e`tibarən yun sənayesi o qədər artmışdı ki, yun istehsalı onunla ayaqlaşa bilmirdi və xam yunun qiymətləri yun mə`mulatı qiymətlərinə nisbətən müqayisə edilməyəcək dərəcədə qalxmışdı. Beləliklə, biz görürük ki, dünya miqyasında üç sənaye sahəsinə lazım olan xammal vəziyyətində ticarət durğunluğu üçün üç cür əsas var idi. 1851-ci ilin zahiri böhranı, bu xüsusi şəraitdən əlavə ifrat istehsal və hədsiz ehtikardakı ilişikdən başqa bir şey deyildi ki, onlar bu ilişiklərdə sənaye dövranı ərzində bütün qüvvələri toplayıb tsiklin axırıncı hissəsini çaparaq keçməzdən və yenidən öz başlanğıc nöqtəsinə, ümumi ticarət böhranına qayıtmazdan əvvəl daim baş verir. Ticarət tarixinin belə fasilələri ərzində İngiltərədə ticarət iflasları baş verir, Fransada isə sənaye özü dayanır,–qismən ona görə ki, onu bütün bazarlardan ingilislərin rəqabəti sıxışdırıb çıxarır və Fransa sənayesi artıq o zaman bu rəqabətə davam gətirə bilmir, qismən də ona görə ki, Fransa sənayesi zinət şeyləri istehsal edən bir sənaye olduğuna görə, işlərdə baş verən hər bir durğunluq ona xüsusilə tə`sir edir. Beləliklə, Fransaya ümumi böhranlardan başqa, bir də öz xüsusi, milli ticarət böhranları üz verir, lakin bu böhranlar yerli Fransa şəraitindən daha çox dünya bazarının ümumi vəziyyəti ilə müəyyən olunur və ondan asılıdır. Fransız burjuasının yanlış düşüncəsinə ingilis burjuasının mühakiməsini qarşı qoymaq maraqsız olmaz. Çox iri Liverpul şirkətlərindən biri özünün 1851-ci il ticarət hesabatında yazır:

«Çox az il olmuşdur ki, ona əvvəlcə bəslənən ümidlər keçən ilki qədər boşa çıxsın. Hamının gözlədiyi güclü tərəqqi əvəzində bu il bütün axırıncı iyirmi beş ildə adamı ən çox çaşdırıb ruhdan salan illərdən biri oldu. Bu, əlbəttə, sənaye siniflərinə deyil, yalnız ticarət siniflərinə aiddir. Lakin bu ilin əvvəllərində, şübhəsiz, bunun əksini gözləmək üçün kifayət qədər əsas var idi: mal ehtiyatları az idi, kapital bol idi, ərzaq ucuz idi, bol məhsul götürüləcəyinə böyük ümid var idi; kontinentdə heç bir şeyin pozmayacağı sülh var idi və ölkədə heç bir siyasi çətinlik və ya maliyyə çətinliyi yox idi,–doğrudan da, zənn etmək olardı ki, ticarət öz qanadlarını həmişəkindən daha geniş açа bilərdi... Bəs bu əlverişsiz nəticəni nə ilə izah etməli? Bizim fikrimizcə,–istər idxalat, istərsə də ixracat şeyləri ticarətinin həddindən artıq artması ilə. Əgər bizim tacirlər özləri öz fəaliyyətlərini daha məhdud çərçivəyə salmasalar, hər üç ildən bir baş verə biləcək çaxnaşmadan başqa heç bir şey bizi müvazinətdə saxlaya bilməz».

İndi bu ticarət çaxnaşması içərisində fransız burjuasını və onun ticarətdən çaşıb qalmış beynini təsəvvür edək, zira onun beynini dövlət çevrilişləri və ümumi seçki hüququnun bərpa ediləcəyi haqqındakı şayiələr, parlamentlə icraiyyə hakimiyyəti arasındakı mübarizə, bir-birinin ziddinə gedən orleanistlərlə legitimistlərin intriqaları, Cənubi Fransada kommunist qəsdləri, Nyevr və Şer departamentlərindəki saxta kəndli üsyanları, prezidentliyə müxtəlif namizədlər haqqındakı reklamlar, qəzetlərin gurultulu şüarları, respublikaçıların konstitusiyanı və ümumi seçki hüququnu əldə silah müdafiə etmək hədələri, mühacirətdə olan «in partibus»81 qəhrəmanların 1852-ci il mayın ikinci bazar günü qiyamət qopacağını xəbər verən apostol məktubları daim gəmirir, təngə gətirir və sərsəm edir,–bunu təsəvvür edəndə biz başa düşərik ki, nəyə görə burjuaziya qovuşma, yenidən nəzərdən keçirmə, uzatma, konstitusiya, gizli fəaliyyət, koalisiya, mühacirət, qəsbkarlıq və inqilabdan ibarət təsvirəgəlməz, sarsıdıcı hərc-mərclik içərisində boğularaq, öz parlamentli respublikasına dəlicəsinə bağırıb deyir «Sonsuz dəhşətdənsə, dəhşətli son yaxşıdır!»

Bonapart bu bağırtını başa düşdü. Onun başa düşməsini kreditorların artmaqda olan səbrsizliyi gücləndirirdi, kreditorlara elə gəlirdi ki, günəş hər dəfə axşam batıb prezidentliyin axırıncı gününü, 1852-ci il mayın ikinci bazar gününü yaxınlaşdırdıqca, göy cisimlərinin hərəkəti onların yer üzündəki veksellərinə protest verir. Onlar əsil münəccim olmuşdular. Milli

məclis Bonapartı onun hakimiyyətinin konstitusiya yolu ilə uzadılacağı ümidindən məhrum etdi; prins Juanvilin namizədliyi daha tərəddüdə yol vermirdi.

Əgər bir zaman bir hadisə hələ baş verməzdən çox əvvəl öz kölgəsini irəliyə salmışdırsa, bu, məhz Bonapartın dövlət çevrilişi olmuşdur. Hələ 1849-cu il yanvarın 29-da Bonapart secildikdən ancaq bir ay sonra Şanqarnyeyə bu mə`nada bir təklif etmişdi. Onun öz baş naziri Odilon Barro 1849-cu ilin yayında üstüörtülü, Tyer isə 1850-ci ilin qışında tamamilə açıq-aşkar dövlət çevrilişi siyasətindən danışırdı. 1851-ci ilin mayında Persinyi bir daha təşəbbüs etdi ki, Şanqarnyenin dövlət çevrilişinə tərəfdar çıxmasını tə`min etsin, «Messager de l`Assemblee»229 isə onların danışıqlarını dərc etdi. Bonapartist qəzetlər hər dəfə parlament fırtınası qopanda, dövlət çevrilişi ilə hədələyirdilər; həm də böhran nə qədər çox yaxınlaşırdısa, onlar bir o qədər cəsarətlə danışırdılar. Bonapartın hər geçə hər iki cinsdən olan məşhur fırıldaqçılarla düzəltdiyi eyş-işrət məclislərində hər dəfə gecə yarısı yaxınlaşanda, arası kəsilməyən içki dilləri açanda və xəyalları çoşduranda, dövlət çevrilişi ertəsi gün səhərə tə`yin edilirdi. Qılınclar qından çıxır, badələr cingildəyirdi, deputatlar pəncərədən bayıra atılırdı, imperator libası Bonapartın əyninə taxılırdı, lakin səhər açılanda xəyal kabusu dağılıb gedirdi və heyrətə gələn Paris ağzını saxlaya bilməyən qızlardan və özünü çəkən pərəstişkarlardan eşidib öyrənirdi ki, bir daha təhlükədən salamat qurtarmışdır. «Coup d`etat» (dövlət çevrilişi. Red.) haqqındakı şayiələr sentyabr və oktyabrda bircə dəqiqə də kəsilmirdi. Rəngli dagerrotip kimi kölgə artıq rənglərə boyanırdı. Sentyabr və oktyabr aylarında çıxan Avropa qəzetlərini vərəqlədikdə, dərhal aşağıdakı məzmunda xəbərlər görmək olar: «Paris dövlət çevrilişi haqqında şayiələrlə doludur. Deyirlər ki, gecə qoşun paytaxtı tutacaq, səhər isə dekretlər verilib Milli məclis dağıdılacaq, Sena departamenti mühasirə vəziyyətində e`lan ediləcək, ümumi seçki hüququ bərpa ediləcək və xalqa müraciət olunacaqdır. Deyirlər ki, Bonapart bu qanunsuz dekretləri keçirmək üçün nazirlər axtarır». Bu xəbərlər daim belə bir məş`um ifadə ilə bitir: «Tə`xirə salınmışdır». Dövlət çevrilişi Bonapartın heç vaxt beynindən çıxmayan bir ideya idi. O, Fransaya bu ideya ilə qayıtmışdı. Bu ideyanın o qədər düşgünü idi ki, daim bunu bildirir, dilindən qaçırırdı. Bonapart o qədər zəif idi ki, öz ideyasından eyni dərəcədə tez-tez də imtina edirdi. Parislilər bu dövlət çevrilişinin kölgəsinə bir kabus kimi o qədər alışmışdılar ki, bu

çevriliş, nəhayət, canlı bir şəkildə meydana çıxanda, buna inanmaq istəmirdilər. Beləliklə, dövlət çevrilişinin baş tutmasının səbəbi heç də o deyildi ki, 10 dekabr Cəmiyyətinin başçısı çox gizli iş görürdü və Milli məclisi qəflətən yaxalamışdı. Bu çevriliş baş tutdusa, Bonapartın boşboğazlığına baxmayaraq və Məclis bundan tamamilə xəbərdar olduğu halda baş tutdu, çünki bundan əvvəlki hadisələrin gedişinin zəruri, labüd nəticəsi idi.

Oktyabrın 10-da Bonapart ümumi seçki hüququnu bərpa etmək qərarını nazirlərə bildirdi, oktyabrəqa 16-da nazirlər iste`fa verdilər, oktyabrın 26-da Paris Torinyi hökuməti düzəldildiyini öyrəndi. Eyni zamanda polis prefekti Karlyenin yerinə Mopa gətirildi, birinci diviziyanın rəisi Manyan isə ən e`tibarlı polkları paytaxta gətirdi. Noyabrın 4-də Milli məclis yenidən öz iclaslarına başladı. Məclisə, keçilmiş kursu qısa, yığcam konspektlə təkrar etməkdən və özünün ancaq öldükdən sonra dəfn olunduğunu qeyd etməkdən başqa bir şey qalmırdı.

İcraiyyə hakimiyyətinə qarşı mübarizədə Məclisin itirdiyi birinci mövqe hökumət idi. Məclis xalis saxta Torinyi hökumətini tamamilə tanıyıb qəbul etməklə bu itkiyə təntənəli surətdə qol çəkməli oldu. Daimi komissiya özünü yeni kabinet adından təqdim edən c. Jironu gülüşlə qarşıladı. Ümumi seçki hüququnu bərpa etmək kimi güclü bir tədbir üçün belə zəif bir hökumət! Lakin hər şey məhz ondan ibarət idi ki, parlament vasitəsi ilə heç bir iş görülməsin və hər bir iş parlamentin əksinə görülsün.

Milli məclis lap açıldığı gün Bonapartdan bir məktub aldı; bu məktubda Bonapart ümumi seçki hüququnun bərpa olunmasını və 1850-ci il 31 may qanununun ləğv edilməsini tələb edirdi. Həmin gün onun nazirləri bu mə`nada bir dekret irəli sürdülər. Məclis dekretin tə`xirə salınmaz olduğu haqqında nazirlərin təklifini dərhal, qanunun özünü isə noyabrın 13-də 348 səsə qarşı 355 səslə rədd etdi. Beləliklə, Məclis öz, mandatını bir daha cırdı, bir daha təsdiq etdi ki, xalqın azad seçilmiş nümayəndəliyindən bir sinfin qəsbkar parlamentinə çevrilmişdir, bir daha e`tiraf etdi ki, parlamentin başını millətin bədəni ilə birləşdirən əzələləri özü kəsmişdir. Əgər icraiyyə hakimiyyəti ümumi seçki hüququnu bərpa etmək təklifi ilə Milli məclisə qarşı xalqa müraciət edirdisə, qanunverici hakimiyyət kvestorların qanun layihəsi ilə xalqa qarşı orduya müraciət edirdi. Bu qanunla Milli məclis özünün bilavasitə qoşun çağırmaq, parlament ordusu yaratmaq hüququnu qəti surətdə möhkəmlətməyi nəzərdə tuturdu.

Beləliklə, Milli məclis ordunu özü ilə xalq arasında, özü ilə Bonapart arasında münsif tə`yin etməklə, ordunu dövlətdə həlledici qüvvə kimi tanımaqla, digər tərəfdən, təsdiq etməli idi ki, bu qüvvə üzərində öz hökmranlıq hüququndan artıq çoxdan əl çəkmişdir. Milli məclis dərhal qoşun çağırmaq əvəzində, özünün qoşun çağırmaq hüququnu müzakirəyə qoymaqla öz gücünə şübhə etdiyini göstərdi. Milli məclis kvestorların qanun layihəsini rədd etməklə, öz gücsüzlüyünü açıqca e`tiraf etdi. Bu qanun layihəsinə 108 səsdən ibarət azlıq səs verdiyinə görə layihə keçmədi; Dağ onun müqəddəratını həll etdi. Dağ Buridan eşşəyi vəziyyətində idi, ancaq belə bir fərqlə ki, az-çox cəlbedici iki çəngə otdan birini seçmək deyil, az-çox möhkəm iki kötəkdən birini seçməli olurdu. Bir tərəfdən Şanqarnyedən qorxur, digər tərəfdən də Bonapartdan qorxurdu: e`tiraf etmək lazımdır ki, bu vəziyyət heç də qəhrəman vəziyyətinə bənzəmirdi. Bələdiyyə seçkiləri haqqında qayda-qanun partiyasının özünün təklif etdiyi qanuna noyabrın 18-də düzəliş verildi, həmin düzəlişə görə, bələdiyyə seçicilərindən tələb olunurdu ki, onlar seçki yerində üç il deyil, cəmi bir il yaşamış olsunlar. Bu düzəliş cəmi bircə səs çoxluğu ilə rədd edildi, lakin dərhal aşkara çıxdığı kimi, bu səs də səhv hesablanmışdı. Düşmən fraksiyalara parçalanmış qayda-qanun partiyası öz müstəqil parlament əksəriyyətini artıq çoxdan itirmişdi. İndi mə`lum oldu ki, parlamentdə ümumiyyətlə artıq heç bir əksəriyyət yoxdur. Milli məclis qərar qəbul etmək bacarığını itirmişdi. Onun tərkibindəki atomlar artıq heç bir ilişmə qüvvəsi ilə bir-birinə bağlı deyildi, məclis son nəfəsini verdi, dönüb bir cəsəd oldu.

Nəhayət, fəlakətdən bir neçə gün əvvəl burjuaziyanın parlamentdən kənardakı kütləsi parlamentdəki burjuaziya ilə əlaqəni kəsdiyini bir daha təntənəli surətdə bildirməli oldu. Parlament qəhrəmanı olmaq e`tibarı ilə parlament kretinizmi kimi əlacsız xəstəliyə ən çox tutulmuş olanTyer, parlamentin vəfatından sonra Dövlət şurası ilə yeni bir parlament intriqası düşündü ki, bu da prezidenti konstitusiya çərçivəsində möhkəm saxlamaq məqsədi güdən məs`uliyyət qanunu idi. Sentyabrın 15-də, Parisdə yeni örtülü bazarın bünövrəsi qoyulması münasibəti ilə bazar xanımlarını, balıq satan qadınları Mazanyello qədər məftun edən Bonapart,–doğrudur, balıq satan bir qadın həqiqi gücünə görə on yeddi nəfər burqqrafa bərabər idi,– kvestorların qanun layihəsi veriləndən sonra Yelisey sarayında qonaq etdiyi leytenantları da eyni dərəcədə məftun edən Bonapart–indi, noyabrın

25-də, London sənaye sərgisinə görə onun əlindən medal almaq üçün sirkdə toplanan sənaye burjuaziyasını da öz ardınca apardı. Onun nitqinin xarakterik hissəsiki «Journal des Debats»dan götürürəm:
«Bu qədər gözlənilməz müvəffəqiyyətlər mənə ixtiyar verir təkrar edim ki, Fransa respublikasına, bir tərəfdən, demaqoqların, digər tərəfdən də monarxiya xəyallarının törətdiyi narahatlıqdan daim zərər görmək əvəzində, öz real mənafeyinin qeydinə qalmaq və öz idarələrini islah etmək imkanı verilsəydi, bu respublika nə qədər də əzəmətli olardı. (Amfiteatrın hər tərəfindən eşidilən gurultulu, coşqun və sürəkli alqışlar.) Monarxiya xəyalları hər cür tərəqqiyə və sənayenin bütün mühüm sahələrinə mane olur. Tərəqqi əvəzində ancaq mübarizə gedir. Biz görürük ki, əvvəllər kral hakimiyyətinin və kral imtiyazlarının ən qızğın müdafiəçisi olanlar ümumi seçki hüququndan doğan hakimiyyəti sadəcə zəiflətmək üçün, Konvent ruhunda hərəkət edirlər. (Gurultulu və sürəkli alqışlar.) Biz görürük ki, inqilabdan ən çox zərər çəkib ondan ən çox şikayətlənən adamlar yeni inqilab fitnəsi düzəldirlər və bunların hamısından məqsəd ancaq millətin iradəsini sıxmaqdır... Mən sizə gələcək üçün rahatlıq və`d edirəm» və sairə və sairə. («Afərin, afərin», «min afərin» səsləri eşidilir.)
Beləliklə, sənaye burjuaziyası 2 dekabr dövlət çevrilişinə, parlamentin aradan qaldırılmasına, öz hökmranlığının məhv edilməsinə, Bonapart diktaturasına itaətkarlıqla əl çalır. Noyabrın 25-dəki gurultulu alqışlara dekabrın 4-dəki top atəşinin gurultusu cavab verdi və ən çox sə`ylə əl çalan c. Sallandruzun evi top gülləsi ilə ən çox dağılmış oldu.
Kromvel Uzun parlamenti230 dağıtdığı zaman iclas salonuna tək gəlib, parlamentin müəyyən edilən vaxtdan bircə dəqiqə də artıq yaşamasına imkan verməmək üçün cibindən saatını çıxarmış və parlamentin hər üzvünü şən məzhəkəli istehzalarla yola salmışdı. Özünün bu ilk timsalından daha kiçik olan Napoleon hər halda brümerin 18-də Qanunverici məclisə getdi və ona, doğrudur, səsi boğula-boğula olsa da,– ölüm hökmünü oxudu. Həm də əlində Kromveldən və ya Napoleondan tamamilə fərqli bir icraiyyə hakimiyyəti olan ikinci Bonapart öz nümunəsini ümumdünya-tarixi salnamələrində deyil, 10 dekabr Cəmiyyəti salnamələrində, cinayət məhkəməsi salnamələrində axtarırdı. O, Fransa bankından 25 milyon frank oğurladı, general Manyanı bir milyona, əsgərlərin hər birini–ustəlik olaraq araq da verməklə 15 franka satın aldı, gecə oğrusu kimi gizlicə öz əlbirləri ilə görüşdü, parlamentin ən təhlükəli

başçılarının mənzillərinə soxulmağı, Kavenyakı, Lamorisyeri, Leflonu, Şanqarnyeni, Şarrası, Tyeri, Bazı və başqalarını yataqdan çıxarıb həbsxanaya aparmağı, Parisin başlıca yerlərini və parlament binasını qoşunla tutmağı, səhər tezdən bütün paytaxtın hər yerinə reklam lövhələri yapışdırılıb Milli məclisin və Dövlət şurasının dağıdıldığını, ümumi seçki hüququnun bərpa edildiyini və Sena departamentinin mühasirə vəziyyətində e`lan edildiyini bildirməyi əmr etdi. Bir qədər sonra isə «Moniteur»-də belə bir saxta sənəd dərc etdirdi ki, guya bir sıra nüfuzlu parlament xadimləri onun ətrafında toplaşaraq, fövqəl`adə Dövlət şurası təşkil etmişlər.

Parlamentin qalıqları, başlıca olaraq legitimist və orleanistlər onuncu dairə bələdiyyə idarəsində toplaşaraq, bir çox dəfə «Yaşasın respublika!» deyə bağırmaqla, Bonapartın vəzifəsindən götürülməsinə səs verirlər, binanın qarşısına toplaşıb boş-boş baxan camaata əbəs yerə müraciət edirlər, nəhayət, onları Afrika atıcılarının mühafizəsi altında Orse qışlasına, oradan da məhbus karetlərinə mindirib həbsxanaya–Mazasa, Ham və Vensenə aparırlar. Qayda-qanun partiyasının, Qanunverici məclisin və fevral inqilabının aqibəti belə oldu.

Nəticəyə keçməzdən əvvəl fevral inqilabı tarixinin qısa sxemini verək.

I. Birinci dövr. 1848-ci il fevralın 24-dən mayın 4-dək. Fevral dövrü. Başlanğıc. Ümumi qardaşlaşma komediyası.

II. İkinci dövr. Respublikanın və Milli müəssislər məclisinin tə`sis edilməsi dövrü.

1) 1848-ci il mayın 4-dən iyunun 25-dək. Bütün siniflərin proletariata qarşı mübarizəsi. İyun günlərində proletariatın məğlubiyyəti.

2) 1848-ci il iyunun 25-dən dekabrın 10-dək. Xalis burjua respublikaçılarının diktaturası. Konstitusiyanın hazırlanması. Parisin mühasirə vəziyyətində e`lan edilməsi. Dekabrın 10-da Bonapartın prezident seçilməsi ilə burjua diktaturasının aradan qaldırılması.

3) 1848-ci il dekabrın 20-dən 1849-cu il mayın 28-dək. Müəssislər məclisinin Bonaparta və onunla birləşmiş qayda-qanun partiyasına qarşı mübarizəsi. Müəssislər məclisinin məhv olması. Respublikaçı burjuaziyanın məğlubiyyəti.

III. Üçüncü dövr. Konstitusiyalı respublika və Qanunverici milli məclis dövrü.

1) 1849-cu il mayın 28-dən 1849-cu il iyunun 13~dək. Xırda burjuaziyanın burjuaziyaya və Bonaparta qarşı mübarizəsi. Xırda burjua demokratiyasının məğlubiyyəti.
2) 1849-cu il iyunun 13-dən 1850-ci il mayın 31-dək. Qayda-qanun partiyasının parlament diktaturası. Qayda-qanun partiyası ümumi seçki hüququnu ləğv etməklə öz hökmranlığını başa çatdırır, lakin parlament hökumətini itirir.
3) 1850-ci il mayın 31-dən 1851-ci il dekabrın 2-dək. Parlament burjuaziyası ilə Bonapart arasında mübarizə.
a) 1850-ci il mayın 31-dən 1851-ci il yanvarın 12-dək. Parlament ordunun baş komandanlığını itirir.
b) 1851-ci il yanvarın 12-dən aprelin11-dək. Parlament inzibati hakimiyyəti yenidən özünə tabe etmək təşəbbüslərində məğlubiyyətə uğrayır. Qayda-qanun partiyası müstəqil parlament əksəriyyətini itirir. Onun respublikaçılarla və Dağ ilə koalisiyası.
s) 1851-ci il aprelin 11-dən oktyabrın 9-dək. Yenidən nəzərdən keçirmə, qovuşma, vəkaləti uzatma təşəbbüsləri. Qayda-qanun partiyası özünün ayrı-ayrı tərkib hissələrinə parçalanır. Burjua parlamentinin və burjua mətbuatının burjuaziya kütləsi ilə əlaqəni qəti surətdə kəsməsi.
d) 1851-ci il oktyabrın 9-dan dekabrın 2-dək. Parlamentlə icraiyyə hakimiyyəti arasında əlaqənin açıqca kəsilməsi. Parlament ölür, öz sinfinin, ordunun, bütün başqa siniflərin tərk etdiyi parlament devrilir. Parlamentli idarə üsulunun və burjuaziya hakimiyyətinin məhv olması. Bonapartın qələbəsi. İmperiyanın bərpasının gülünc təqlidi.

VII

İctimai respublika fevral inqilabı ərəfəsində bir ibarə, gələcəkdən xəbər verən bir amil oldu. 1848-ci ilin iyun günlərində bu respublika Paris proletariatının qanı içərisində boğuldu, lakin dramın sonrakı səhnələrində bir kabus kimi meydana çıxdı. Demokratik respublika səhnəyə gəldi. Bu respublika 1849-cu il iyunun 13-də özünün qaçmış xırda burjuaları ilə birlikdə yox oldu, lakin qaçarkən öz arxasınca bir çox gurultulu reklamlar buraxdı. Burjuaziya ilə birlikdə parlamentli respublika bütün səhnəni ələ keçirdi, tamamilə genişləndi, lakin 1851-ci il 2 dekabr günü birləşmiş royalistlərin dəhşətli «Yaşasın respublika!» bağırtıları ilə onu dəfn etdi. Fransız burjuaziyası zəhmətkeş proletariatın hökmranlığına müqavimət göstərirdi, odur ki, hakimiyyəti 10 dekabr Cəmiyyətinin şefi başda olmaqla

lümpen-proletariata verdi. Burjuaziya Fransaya imkan vermirdi ki, qırmızı anarxiyanın gələcək dəhşətləri qarşısındakı qorxudan özünə gəlsin–Bonapart bu gələcəyi yaxınlaşdırdı və araqdan cuşa gələn qayda-qanun ordusu onun əmri ilə, dekabrın 4-də Monmartr bulvarı ilə İtaliya bulvarında öz pəncərələri qarşısında duran adlı-sanlı burjuaları güllələdilər. Burjuaziya qılıncı ilahiləşdirmişdi–qılınc onun üzərində hökmranlıq edir. O, inqilabi mətbuatı məhv etmişdi–onun öz mətbuatı məhv edilmişdir. O, xalq yığıncaqlarını polisin nəzarətinə tapşırmışdı–onun öz salonları polis nəzarəti altındadır. O, demokratik milli qvardiyanı dağıtmışdı–onun öz milli qvardiyası dağıdılmışdır. O, mühasirə vəziyyəti e`lan etmişdi–onun özünə qarşı mühasirə vəziyyəti e`lan edilmişdir. O, andlı iclasçılar məhkəməsini hərbi komissiyalarla əvəz etmişdi–onun öz andlı iclasçılar məhkəməsi hərbi komissiyalarla əvəz olunmuşdur. O, xalq məktəbini keşişlərin ixtiyarına vermişdi–onun öz məktəbi üzərində keşişlər hökmranlıq edirlər. O, məhkəməsiz sürgünə göndərirdi–onun özünü məhkəməsiz sürgünə göndərirlər. O, cəmiyyətin hər bir hərəkətini dövlət hakimiyyətinin köməyi ilə əzirdi–dövlət hakimiyyəti onun cəmiyyətinin hər bir hərəkətini əzir. O öz pul kisəsinə olan ehtirası üzündən öz siyasətçi və yazıçılarına qarşı qiyam edirdi–onun siyasətçi və yazıçıları aradan qaldırılmışdır, onun ağzını yumub qələmini sındırdıqdan sonra, pul kisəsini soyurlar. Müqəddəs Arseni xristianlara müraciətlə bağırıb dediyi kimi, burjuaziya da yorulmaq bilmədən inqilaba müraciətlə bağırıb deyirdi «Fuge, tase, quiesce!–Qaç, sus, sakit ol!»–Bonapart burjuaziyaya müraciətlə bağırıb deyir «Fuge, tase, quiesce!–Qaç, sus, sakit ol!» Fransız burjuaziyası Napoleonun «Dans cinquante ans, l`Europe sera republicaine ou cosaque» («50 ildən sonra Avropa respublikaçı və ya kazak Avropası olacaqdır». Red.) dilemmasını çoxdan həll etmişdir. Fransız burjuaziyası bunu «republique cosaque» («kazak respublikası». Red.) şəklində həll etmişdir. Burjua respublikasının şah əsərini iyrənc bir əjdahaya çevirmək üçün Sirseyanın caduları lazım deyildi. Bu respublika zahiri nəzakətindən başqa heç bir şey itirməmişdir. Bu günkü Fransa (yə`ni 1851-ci il dövlət çevrilişindən sonrakı Fransa. Red.) hazır şəkildə parlamentli respublikada var idi. Süngü ilə bircə dəfə sancmaq kifayət idi ki, qovuq partlasın və əjdaha aşkara çıxsın.

Nəyə görə Paris proletariatı dekabrın 2-dən sonra üsyan etmədi?

Burjuaziyanın devrilməsi haqqında hələlik ancaq dekret verilmişdi, dekret hələ yerinə yetirilməmişdi. Proletariatın hər hansı bir ciddi üsyanı dərhal burjuaziyanı yenidən canlandırar, onu ordu ilə barışdırar və fəhlələr üçün ikinci iyun məğlubiyyəti hazırlardı.
Dekabrın 4-də burjualar və dükançılar proletariatı qızışdırıb mübarizəyə təhrik edirdilər. Həmin gün axşam milli qvardiyanın bir neçə legionu silahlı və hərbi paltarda vuruşma meydanına gəlməyi və`d etmişdi. İş bundadır ki, burjualar və dükançılar bilmişdilər ki, Bonapart 2 dekabr tarixli dekretlərindən birində gizli səsverməni ləğv edib, özlərinin «hə» və ya «yox» cavabını seçicilərin rəsmi siyahılarında öz adlarının qabağında yazmağı əmr etmişdi. Dekabrın 4-dəki müqavimət Bonapartı qorxuya saldı. Onun əmri ilə, gecə Parisin hər yerində gizli səsvermənin bərpa olunduğunu e`lan edən lövhələr yapışdırıldı. Burjualar və dükançılar öz məqsədlərinə çatdıqlarını güman etdilər. Ertəsi gün səhər məhz dükançılar və burjualar evdə qaldılar.
Dekabrın 1-dən 2-nə keçən gecə Bonapart qəflətən hücum edərək, Paris proletariatını öz başçılarından, öz barrikada komandirlərindən məhrum etdi. Zabitsiz bir ordu olub 1848 və 1849-cu illərin iyun və 1850-ci ilin may günlərindən sonra Dağın bayrağı altında mübarizə etməyə heç bir həvəsi olmayan proletariat Parisin üsyançılıq şərəfini xilas etməyi öz avanqardına, gizli cəmiyyətlərə tapşırdı bu şərəfi burjuaziya o dərəcədə itaətkarlıqla hərbilərin özbaşınalığına vermişdi ki, sonralar Bonapart çox acı bir dəlil irəli sürüb milli qvardiyanı tərksilah etmiş və demişdi: mən qorxuram ki, birdən anarxistlər onun silahından onun ozünə qarşı istifadə edərlər!
«C`est le triomphe complet et definitif du socialisme» («Bu, sosializmin tam və qəti qələbəsidir!» Red.)–Gizo 2 dekabr çevrilişinə belə bir qiymət verdi. Lakin parlamentli respublikanın devrilməsində proletariat inqilabının qələbəsi rüşeym halında vardırsa, onun hiss edilən ən yaxın nəticəsi Bonapartın parlament üzərində qələbəsi, icraiyyə hakimiyyətinin qanunverici hakimiyyət üzərində qələbəsi, ibarə ilə pərdələnməyən qüvvənin ibarə qüvvəsi üzərində qələbəsi idi. Parlamentdə millət öz ümumi iradəsini qanun şəklinə salırdı, yə`ni hakim sinfin qanununu öz ümumi iradəsi şəklinə salırdı. İcraiyyə hakimiyyəti qarşısında millət özünün hər bir iradəsindən əl çəkir və özgə iradəsinin buyuruğuna, nüfuzuna tabe olur. Qanunverici hakimiyyətin əksinə olaraq, icraiyyə hakimiyyəti millətin

muxtariyyəti əksinə onun heteronomiyasını ifadə edir. Beləliklə, Fransa bütöv bir sinfin istibdadından sanki yalnız onun üçün xilas olmuşdu ki, bir fərdin istibdadına, həm də heç bir nüfuzu olmayan fərdin nüfuzuna tabe olsun. Mübarizə, elə bil, bununla bitmişdi ki, bütün siniflər eyni dərəcədə acizlik və eyni dərəcədə sükutla tüfəng qundağı qarşısında baş əymişdilər. Lakin inqilab əsaslı bir inqilabdır. O hələ qıl körpüdən keçir. O öz işini ardıcıl surətdə görür. 1851-ci il dekabrın 2-nə qədər inqilab öz hazırlıq işinin yarısını bitirmişdi, indi o biri yarısını bitirməkdədir. Əvvəlcə inqilab parlamentli hakimiyyəti təkmilləşdirir ki, onu yıxmağa imkanı olsun. İndi, inqilab buna nail olandan sonra, icraiyyə hakimiyyətini təkmilləşdirir, onu ən saf şəklinə salır, onu təkləyir, onu öz qarşısına yeganə bir hədəf kimi çıxarır ki, özünün bütün dağıdıcı qüvvələrini ona qarşı toplasın. İnqilab öz hazırlıq işinin bu ikinci yarısını başa çatdıranda, Avropa öz yerindən qalxacaq və təntənə ilə deyəcəkdir: Qoca köstəbək, yeri yaxşı qazırsan! (Şekspir. «Hamlet, I pərdə, 5-ci səhiə. Red.).

Bu icraiyyə hakimiyyəti, onun çox böyük bürokratik və hərbi təşkilatı, onun çox mürəkkəb və sün`i dövlət maşını, bu yarım milyonluq mə`murlar qoşunu və daha yarım milyonluq ordu, Fransa cəmiyyətinin bədənini sanki bir tor kimi bürüyüb onun bütün məsamələrini tutan bu dəhşətli tüfeyli orqanizm mütləqiyyətçi monarxiya dövründə, feodalizmin süqutu zamanı meydana gəlmişdi və bu süqutun sür`ətlənməsinə kömək edirdi. Torpaq mülkiyyətçilərinin və şəhərlərin senyor imtiyazları dövlət hakimiyyətinin eyni dərəcədə çox atributuna çevrildi, feodal ə`yanlar maaş alan mə`murlara çevrildilər, mal nümunələri yığını kimi alabəzək qarışıq orta əsr suveren hüquqlar xəritəsi isə dövlət hakimiyyətinin dürüst müəyyən edilən planına çevrildi ki, fabrikdə olduğu kimi, burada da eyni əmək bölgüsü və eyni mərkəzləşmə hökm sürür. Millətin mülki birliyini yaratmaq üçün bütün xüsusi yerli, ərazi, şəhər və əyalət hakimiyyət orqanlarını məhv etmək vəzifəsini öz qarşısına qoyan birinci Fransa inqilabı mütləqiyyətçi monarxiyanın başladığı mərkəzləşdirmə işini daha da inkişaf etdirməli idi, lakin bununla birlikdə həmin inqilab dövlət hakimiyyətinin həcmini, atributlarını və köməkçilərinin sayını da artırdı. Napoleon bu dövlət maşınını başa çatdırdı. Legitimist monarxiya ilə İyul monarxiyası daha böyük əmək bölgüsündən başqa heç bir yeni şey əlavə etmədi, bu əmək bölgüsü isə, burjua cəmiyyəti daxilindəki əmək bölgüsü yeni mənafe qrupları yaratdıqca, deməli, yeni dövlət idarəsi obyektləri

yaratdıqca artırdı. Hər bir ümumi mənafe dərhal cəmiyyətdən ayrılıb yüksək, ən ümumi mənafe kimi cəmiyyətə qarşı dururdu, cəmiyyət üzvlərinin özfəaliyyəti sahəsindən çıxıb hökumət fəaliyyətinə aid olurdu,– hər hansı bir kənd icmasının körpüsü, məktəb binası və kommunal əmlakından başlamış Fransanın dəmir yolları, milli əmlakı və dövlət universitetlərinə qədər hamısı belə idi. Nəhayət, parlamentli respublika inqilaba qarşı mübarizəsində cəza tədbirləri ilə birlikdə dövlət hakimiyyətinin vasitələrini və mərkəzləşməsini də gücləndirməyə məcbur oldu. Bütün çevrilişlər bu maşını sındırmaq əvəzində, onu təkmilləşdirirdi. Bir-birini əvəz edərək hökmranlıq üstündə mübarizə edən partiyalar bu böyük dövlət binasını ələ keçirməyi öz qələbəsi zamanı başlıca qənimət hesab edirdi.

Lakin mütləqiyyətçi monarxiya şəraitində, birinci inqilab zamanı, Napoleon zamanı bürokratiya burjuaziyanın sinfi hökmranlığını hazırlamaq üçün ancaq bir vasitə idi. Restavrasiya zamanı, Lui-Filipp vaxtı, parlamentli respublika vaxtı bürokratiya hakimiyyətə çatmağa nə qədər cəhd etsə də, hakim sinfin əlində bir alət idi.

Yalnız ikinci Bonapart zamanı dövlət sanki tamamilə müstəqil oldu. Dövlət maşını vətəndaş cəmiyyətinə qarşı öz mövqeyini o qədər möhkəmlətdi ki, indi bu dövlət maşınının başında 10 dekabr Cəmiyyətinin şefi və qürbətdən gəlmiş macərapərəstin biri dura bilir; araq və kolbasa satılmış sərxoş hərbilərin yüksəklərə qaldırdığı bu macərapərəst onları daim yenidən kolbas ilə razı salmalı olur. Buradan da qorxaq bir mə`yusluq, misilsiz bir həqarət, rüsvayçılıq hissi irəli gəlir, bu həqarət Fransanın sinəsini sıxıb onu azad nəfəs almağa qoymur. Fransa özünü sanki alçaldılmış hiss edir. Bununla belə, dövlət hakimiyyəti havadan asılı deyildir. Bonapart bir sinfin, həm də Fransa cəmiyyətində sayca ən çox olan sinfin nümayəndəsidir, parsel kəndlilərinin nümayəndəsidir.

Burbonlar iri torpaq mülkiyyətinin sülaləsi, Orleanlar isə pul sülaləsi olduğu kimi, Bonapartlar da kəndlilərin, yə`ni fransız xalq kütləsinin sülaləsidir. Kəndlilərin seçdiyi nümayəndə, burjua parlamentinə tabe olan Bonapart deyil, burjua parlamentini qovub dağıdan Bonapartdır. Şəhərlər 10 dekabr seçkilərinin mə`nasını üç il ərzində təhrif edə bilmiş və imperiyanın bərpa olunacağına kəndlilərin bəslədiyi ümidi boşa çıxarmışdılar. 1848-ci il 10 dekabr seçkiləri ancaq 1851-ci il 2 dekabr çevrilişində həyata keçirildi.

Parsel kəndliləri çox böyük bir kütlə təşkil edirlər, bu kütlənin üzvləri eyni şəraitdə yaşayır, lakin bir-biri ilə müxtəlif münasibətlərə girmirlər. Onların istehsal üsulu onların arasında qarşılıqlı əlaqə doğurmaq deyil, onları bir-birindən ayırır. Fransada yolların pis olması və kəndlilərin yoxsulluğu nəticəsində bu ayrılıq daha da güclənir. Onların istehsal sahəsi, parsel becərmə zamanı heç bir əmək bölgüsünə, elmin heç bir şəkildə tətbiqinə, deməli, heç bir inkişaf müxtəlifliyinə, heç bir iste`dad müxtəlifliyinə, ictimai münasibətlərin heç bir zənginliyinə yol vermir. Hər bir ayrıca kəndli ailəsi, demək olar, öz-öznə yaşayır, istehlak etdiyi şeylərin çox hissəsini bilavasitə özü istehsal edir, beləliklə də öz yaşayış vasitələrini cəmiyyətlə münasibətdən daha çox, təbiətlə mübadilədən əldə edir. Parsel, kəndli və ailə bunun yanında da başqa bir parsel, başqa bir kəndli və başqa bir ailə. Bu vahidlər yığını kənd, kəndlər yığını isə departament təşkil edir. Beləliklə, bir kisə kartof dənələri bir kisə kartof təşkil etdiyi kimi, fransız millətinin çox böyük kütləsi də ancaq eyni adlı kəmiyyətlərin sadəcə cəmlənməsi yolu ilə əmələ gəlir. Milyonlarla ailələr onların həyat tərzini, mənafe və təhsilini başqa siniflərin həyat tərzindən, mənafe və təhsilindən fərqləndirən və tamamilə bir-birinə qarşı qoyan iqtisadi şəraitdə yaşadıqlarına görə, onlar bir sinif təşkil edirlər. Parsel kəndliləri arasında yalnız yerli əlaqə olduğuna görə, onların mənafe eyniliyi onların arasında heç bir birlik, heç bir milli əlaqə, heç bir siyasi təşkilat yaratmadığına görə,–onlar bir sinif təşkil etmirlər. Buna görə də onlar öz sinfi məiafeyini istər parlament vasitəsi ilə, istərsə də konvent vasitəsi ilə özlərinin adından müdafiə edə bilmirlər. Onlar özlərini təmsil edə bilmirlər, onları başqaları təmsil etməlidirlər. Onların nümayəndəsi eyni zamanda onların ağası, onların üzərində duran bir avtoritet olmalıdır, bu avtoritet onları başqa siniflərdən qoruyan və onlara yuxarıdan yağış və gün işığı yollayan qeyri-məhdud dövlət hakimiyyəti şəklində olmalıdır. Deməli, parsel kəndlilərinin siyasi tə`siri nəticə e`tibarı ilə özünü bunda göstərir ki, icraiyyə hakimiyyəti cəmiyyəti özünə tabe edir.

Tarixi ən`ənə fransız kəndlilərində belə bir mistik əqidə doğurmuşdur ki, əllərindən çıxan bütün ne`mətləri Napoleon adlı bir adam onlara qaytaracaqdır. Budur, indi birisi tapılıb deyir ki, həmin adam onun özüdür və ancaq ona görə ki, «Code Napoleon»: «La recherche de la paternite est interdite» (Napoleon məcəlləsinin: «Ata axtarmaq qadağandır». Red.) maddəsinə əsasən onun adı Napoleondur. İyirmi illik sərsərilikdən və bir

sıra mə`nasız macəralardan sonra, əvvəlcədən deyilən söz həqiqət olur və bu adam fransızların imperatoru olur. Qardaş oğlunun beynindən çıxmayan ideya həyata keçir, çünki bu ideya fransız cəmiyyətinin sayca ən çox olan sinfinin beynindən çıxmayan ideyaya uyğun gəlirdi.

Lakin burada mənə e`tiraz edib deyə bilərlər: bəs Fransanın tamam yarısını bürüyən kəndli üsyanları, bəs kəndlilərin üzərinə ordunun hücumları, bəs kəndlilərin kütləvi surətdə həbsə alınması, kütləvi surətdə sürgün edilməsi? XIV Lüdovik zamanından bəri Fransada kəndlilər «demaqoqluq fitnələri üstündə» bu qədər tə`qib edilməmişdilər.

Lakin xahiş edirəm məni başa düşəsiniz. Bonapart sülaləsi inqilabçı kəndlinin deyil, mühafizəkar kəndlinin nümayəndəsidir; parsellə müəyyən edilən öz ictimai yaşayış şəraitindən xilas olmağa çalışan kəndlinin deyil, bu şəraiti və bu parseli möhkəmlətmək istəyən kəndlinin nümayəndəsidir; şəhərlərə qoşulmaq və öz gücü ilə köhnə qayda-qanunu yıxmaq istəyən kənd əhalisinin deyil, əksinə, öz kütlüyü üzündən bu köhnə qayda-qanun içərisində qapanıb qalan və imperiya kabusunun onu və onun parselini xilas edəcəyini, ona üstün vəziyyət yaradacağını gözləyən kənd əhalisinin nümayəndəsidir. Bonapart sülaləsi kəndli maarifinin deyil, onun mövhumatının nümayəndəsidir, onun düşüncəsinin deyil, düşüncəsizliyinin nümayəndəsidir, onun gələcəyinin deyil, onun keçmişinin nümayəndəsidir, onun müasir Sevennalarının231 deyil, onun müasir Vandeyasının187 nümayəndəsidir.

Parlamentli respublikanın üç illik şiddətli hökmranlığı fransız kəndlilərinin bir hissəsini, hələlik yalnız səthi şəkildə olsa da, Napoleon xülyalarından azad edib inqilabiləşdirmişdi; lakin onlar hər dəfə hərəkətə gələndə, burjuaziya zor gücünə onları geri atırdı. Parlamentli respublika zamanı fransız kəndlisinin şüurunda yeni ideyalarla ən`ənə arasında mübarizə gedirdi bu proses keşişlərə qarşı kənd müəllimlərinin arası kəsilməyən mübarizəsi şəklində davam edirdi,–burjuaziya müəllimləri sakitləşdirirdi. Kəndlilər birinci dəfə olaraq çalışırdılar ki, hökumət fəaliyyətinə qarşı müstəqil mövqe tutsunlar bu da özünü merlərlə prefektlər arasındakı daimi toqquşmalarda göstərirdi,–burjuaziya merləri vəzifədən götürürdü. Nəhayət, Fransanın müxtəlif yerlərində parlamentli respublika dövründə kəndlilər özlərinin doğurduğu orduya qarşı üsyan edirdilər,–burjuaziya onları mühasirə vəziyyəti e`lan etmək və divan tutmaqla cəzalandırırdı. İndi məhz həmin burjuaziya, guya burjuaziyanı Bonaparta satan kütlələrin,

bu «vile multitude»nin (mənfur camaatın. Red.) kütlüyündən fəryad edir. Burjuaziya özü kəndli sinfinin imperiyaya bağlılığını zorla möhkəmlədirdi, bu kəndli dininin meydana gəlməsi üçün zəmin təşkil edən vəziyyəti sə`ylə müdafiə edib qoruyurdu. Doğrudur, kütlələr mühafizəkar qaldıqca burjuaziya onların kütlüyündən və kütlələr inqilabçı olan kimi onların şüurundan eyni dərəcədə qorxmalıdır.

«Coup d`etat»dan (dövlət çevrilişindən. Red.) sonra başlanan üsyanlarda fransız kəndlilərinin bir hissəsi 1848-ci il dekabrın 10-dakı öz səsverməsinə qarşı əldə silah protest edirdi. 1848-ci ildən bəri onların keçdiyi həyat məktəbi onları ağıllandırmışdı. Lakin onlar öz qəlblərini tarixin cəhənnəminə satmışdılar, tarix onları sözdə tutmuşdu və onların əksəriyyəti hələ ö qədər çaşmış vəziyyətdə idi ki, məhz ən qırmızı departamentlərdə kəndli əhali açıqca Bonaparta səs verirdi. Onların fikrincə, Milli məclis Bonaparta bir iş görməkdə mane olurdu. Bonapart kəndin iradəsini məhdud edən şəhər buxovlarını yalnız indi qırmışdı. Bə`zi yerlərdə kəndlilər hətta Napoleonla yanaşı bir konvent yaratmaq kimi mə`nasız fikirdə idilər.

Birinci inqilab yarımtəhkimli kəndliləri azad torpaq mülkiyyətçilərinə çevirəndən sonra, Napoleon elə bir şəraiti möhkəmlədib qaydaya saldı ki, bu şəraitdə kəndlilər yenicə əllərinə keçmiş fransız torpağından maneəsiz istifadə edir və mülkiyyətə olan öz gənclik ehtiraslarını tə`min edə bilirdilər. Lakin fransız kəndlisinin indiki yoxsullaşmasının səbəbi məhz onun parselidir, torpaq sahibliyinin xırdalanmasıdır, Fransada Napoleonun möhkəmləndirmiş olduğu mülkiyyət formasıdır. Məhz bunlar, fransız feodal kəndlisini döndərib azad kəndli, parsel mülkiyyətçisi, Napoleonu isə imperator edən maddi şəraitdir. İkicə nəsil kifayət etdi ki, labüd nəticə meydana çıxıb əkiiçilik getdikcə daha çox pisləşsin və əkinçinin borcu getdikcə daha çox artsın. XIX əsrin əvvəllərində Fransada kənd əhalisinin azad olması və varlanması üçün şərt olan «napoleonsayağı» mülkiyyət forması həmin əsr ərzində onun köləliyi və yoxsulluğunu möhkəm qərarlaşdıran bir qanun oldu. «İdees napoleoniennes» (Napoleon ideyaları». Red.) içərisindən məhz bu qanun ikinci Bonapartın müdafiə etməli olduğu birinci ideyadır. Əgər kəndlilər kimi Bonapart da hələ belə xəyal edir ki, kəndlilərin var-ybxdan çıxmasının səbəbini parsel mülkiyyətinin özündə deyil, ondan kənarda, ikinci dərəcəli cəhətlərin

tə`sirində axtarmaq lazımdır,–onda onun təcrübələri istehsal münasibətləri qarşısında sabun qovuğu kimi partlayacaqdır.
Parsel mülkiyyətinin iqtisadi inkişafı kəndlilərin qalan ictimai siniflərə münasibətini tamamilə dəyişdirdi. Napoleon zamanı kənddə torpaq mülkiyyətinin parsellərə parcalanması azad rəqabəti və şəhərlərdə meydana gəlməkdə olan iri sənayeni tamamlayırdı. Kəndli sinfi yenicə devrilmiş torpaq aristokratiyasına qarşı hər yerdə mövcud olan protest idi. Parsel mülkiyyətinin Fransa torpağında saldığı kök feodalizmi hər cür qida şirələrindən məhrum etdi. Parselin mərz nişanları burjuaziyanın əvvəlki hökmdarları tərəfindən hər cür hücuma qarşı burjuaziyanın təbii dayağı idi. Lakin XIX əsr ərzində feodalın yerini şəhər sələmçisi tutdu, torpaq üzərindəki feodal mükəlləfiyyətlərinin yerini hipoteklər tutdu, aristokrat torpaq mülkiyyətinin yerini burjua kapitalı tutdu. Kəndli parseli kapitalistə torpaqdan mənfəət, faiz və renta götürmək imkanı verən ancaq bir bəhanədir, əkinçinin öz əmək haqqını öz bildiyi kimi əldə etməsini isə onun öz öhdəsinə buraxır. Fransa torpağındakı hipotek borcu fransız kəndliləri üzərinə elə faiz yükü qoyur ki, bu, İngiltərənin bütün dövlət borcunun illik faizləri məbləğinə bərabərdir. Kapital tərəfindən bu dərəcədə əsarət altına alınmış parsel mülkiyyəti,–bu mülkiyyətin inkişafı isə labüddən belə bir əsarətə doğru aparır,–fransız millətinin əksəriyyətini troqlodit halına salmışdır. 16 milyon kəndli (qadın və uşaqlar da daxil olmaqla) daxmalarda yaşayır ki, bunların da çox hissəsinin cəmi bir pəncərəsi, digər hissəsinin iki pəncərəsi, ən yaxşı halda isə üç pəncərəsi vardır. Baş üçün beş hiss orqanı nə deməkdirsə, evin pəncərəsi də o deməkdir. Həmin əsrin əvvəllərində dövləti yenicə meydana gələn parsel üçün bir keşikçi halına salan və parselə şöhrət qazandıran burjua quruluşu onun ürəyindən qanını və başından beynini soran, onu kapitalın kimyagər kürəsinə atan bir qaniçən olmuşdur. İndi «Code Napoleon» məhkəmə qərarlarını yerinə yetirmək, əmlak üzərinə həbs qoymaq və hərraca qoyub satmaq məcəlləsindən artıq bir şey deyildir. Rəsmi mə`lumatda göstərilən dörd milyon (uşaqlar və i.a. daxil olmaqla) dilənçi, avara, cinayətkar və fahişədən başqa, Fransada fəlakət qarşısında olan və ya kəndin özündə yaşayan, ya da arası kəsilmədən öz cır-cındırı və uşaqları ilə birlikdə kənddən şəhərə və şəhərdən kəndə keçən beş milyon adam vardır. Bir sözlə, kəndlilərin mənafeyi ilə burjuaziyanın mənafeyi, kapital arasında heç də Napoleon zamanı olduğu kimi ahəngdarlıq deyil, barışmaz ziddiyyət

vardır. Buna görə də kəndlilər özlərinin təbii müttəfiq və rəhbərini burjua qayda-qanununu yıxmalı olan şəhər proletariatında görürlər. Lakin güclü və qeyri-məhdud hökumət ki, bu da ikinci Napoleonun həyata keçirməli olduğu ikinci «idee napoleonienne»dir,–bu «maddi» qayda-qanunu zorla müdafiə etməlidir. Doğrudan da, qiyam edən kəndlilərə qarşı Bonapartın bütün intibahnamələrində bu «ordre materiel» («maddi qayda-qanun». Red.) başlıca yer tutur.

Kapitalistə hipotek borcundan əlavə, parselin üzərində vergi yükü də vardır. Vergi bürokratiya, ordu, keşişlər və saray üçün–bir söz lə, bütün icraiyyə hakimiyyəti aparatı üçün həyat mənbəyidir. Güclü hökumət və yüksək vergi eyni anlayışlardır. Parsel torpaq mülkiyyəti öz təbiətinə görə qüdrətli və saysız-hesabsız bürokratiya üçün əlverişli zəmindir. Bu mülkiyyət bütün ölkə boyunca münasibət və şəxslər arasında eyni bir səviyyə yaradır. Buna görə də həmin mülkiyyət bir ali mərkəzdən bu yekcins kütlənin bütün hissələrinə bir qaydada tə`sir göstərmək imkanı verir. Bu mülkiyyət xalq kütləsi ilə dövlət hakimiyyəti arasındakı aralıq aristokrat pillələrini məhv edir. Buna görə də həmin mülkiyyət dövlət hakimiyyətinin və onun bilavasitə orqanlarının hərtərəfli müdaxiləsinə səbəb olur. Nəhayət, bu mülkiyyət nə kənddə, nə də şəhərdə özünə yer tapmayan və buna görə də dövlət vəzifələrindən bir növ şərəfli sədəqə kimi yapışan işsiz artıq əhali yaradır və dövlət vəzifələrinin sayını artırmağa məcbur edir. Napoleon qoyduğu məcburi vergini süngü ilə ələ keçirdiyi yeni bazarlar vasitəsi ilə, kontinenti talan etmək vasitəsi ilə artıqlamasilə qaytarırdı. Napoleon vergisi kəndli peşələrini genişləndirmək vasitəsi idi, halbuki indi vergi kəndli peşələrini son vasitələrdən, yoxsullaşmaya müqavimət göstərmək üçün son imkandan məhrum edir. Paltarları küləbətinli, qarınları tox çoxlu bürokratiya olması isə, ikinci Bonapartın qəlbinə ən yaxın «idee napoleonienne»dir. Bir halda ki, Bonapart cəmiyyətin həqiqi sinifləri ilə yanaşı sün`i bir silk yaratmağa məcbur olmuşdur və onun idarə üsulunu mühafizə edib saxlamaq bu silk üçün bir parça çörək məsələsidir, başqa cür necə ola bilərdi? Buna görə də onun ilk maliyyə əməliyyatlarından biri mə`murların aşağı salınmış maaşlarını əvvəlki səviyyəsinə çatdırmaqdan və yeni, zəhmətsiz gəlir verən vəzifələr yaratmaqdan ibarət oldu.

Digər «idee napoleonienne» hökumət əlində bir alət olan keşişlərin hökmranlığıdır. Lakin yenicə meydana gəlib cəmiyyətlə ahəngdar və təbiət

qüvvələrindən asılı olan və özünü müdafiə etmiş ali hakimiyyətə itaətkarlıq göstərən parsel, təbii surətdə dindar idisə, borc içində batıb qalan, cəmiyyət və hakimiyyətlə əlaqəsini kəsən və öz məhdud çərçivəsindən kənara çıxmağa məcbur olan parsel, təbii surətdə din əleyhinə olur. Göy yenicə əldə edilmiş bir parça torpağa pis əlavə deyildi, xüsusən ona görə ki, havanı göy yaradır; lakin parsel əvəzinə güclə göy verilib qəbul etdiriləndə, göy dönüb təhqir olur. Onda keşiş dönüb yer üzündəki polisin müqəddəs axtarıcı köpəyi olur ki, bu da «idee napoleonienne»dir. Romaya qarşı hərbi səfər gələn dəfə Fransanın özündə, lakin c. Montalamberin düşündüyünə əks olan mə`nada başlanacaqdır.

Nəhayət, «idee napoleoniennes»in zirvəsi ordunun üstün əhəmiyyətə malik olmasıdır. Ordu parsel kəndliləri üçün «Point d`honneur» (şərəf işi, xüsusi iftixar işi. Red.) idi: ordu bu kəndlilərdən öz yeni mülkiyyətini xarici düşmənlərdən qoruyan, yenicə əldə etdikləri milli birliyi yüksəldən, dünyanı soyan və inqilabiləşdirən qəhrəmanlar yaradırdı. Hərbi paltar onların parad geyimi idi, müharibə onların poeziyası idi, xəyalən böyüdülüb bütövləşdirilən parsel–vətən idi, vətənpərvərlik isə mülkiyyət hissinin ideal forması idi. Lakin fransız kəndlisinin indi öz mülkiyyətini qorumalı olduğu düşmənlər–kazaklar deyil, məhkəmə pristavları və vergi yığanlardır. İndi parsel vətən deyilən şeydə deyildir, hipotek dəftərində girov qoyulmuşdur. İndi ordu özü daha kəndli gənclərin gülü deyil, kəndli lümpen-proletariatın bataqlıq çiçəyidir. İkinci Bonapart özü ancaq qondarma bir şəxs, Napoleonun əvəzliyi olduğu kimi, ordunun çox hissəsi də qondarma əsgərlərdən, əvəzliklərdən ibarətdir. Bu ordu indi kəndlilər üzərinə basqın və tuthatut zamanı, jandarm vəzifəsini yerinə yetirəndə qəhrəmanlıq nümunələri göstərir; işdir birdən, 10 dekabr Cəmiyyəti şefi sisteminin daxili ziddiyyətləri onu Fransadan xaricə qovsa, ordu bir neçə quldur hərəkətindən sonra şərəf qazanmaq deyil, kötək qazanacaqdır. Beləliklə, biz görürük ki, bütün «idee napoleoniennes» inkişaf etməmiş, bir gənc kimi şux olan parsel ideyalarıdır; vaxtı keçmiş parsel üçün bu ideyalar mə`nasızlıqdır, onun can çəkişirkən gözü qarşısına gələn xəyallardır, ibarəyə çevrilmiş sözdür, kabusa çevrilmiş ruhdur. Lakin imperiyanın gülünc təqlidi fransız milləti kütləsini ən`ənənin əsarətindən azad etmək və dövlət hakimiyyəti ilə cəmiyyət arasındakı əksliyi xalis şəklində meydana çıxarmaq üçün lazım idi. Xırda parsel mülkiyyətinin getdikcə daha çox pozulması ilə birlikdə, bu mülkiyyətə əsaslanan dövlət binası da dağılır.

Müasir cəmiyyətin ehtiyac hiss etdiyi dövlət mərkəzləşməsi yalnız, feodalizmə qarşı mübarizədə yaradılmış hərbi-bürokratik hökumət mexanizminin xərabələri üzərində meydana çıxa bilər (1852-ci il nəşrində həmin abzasın sonundakı iki cümlə əvəzində aşağıdakı sətirlər var idi: «Dövlət maşınının sındırılması mərkəzləşmə üçün heç bir təhlükə yaratmır. Bürokratiya, hələ öz əksi olan feodalizmin də ağırlığını çəkən mərkəzləşmənin ancaq aşağı və kobud formasıdır. Napoleon bərpaçılığından mə`yus olan fransız kəndlisi öz parselinə bağladığı ümidini də itirəcəkdir bu parsel üzərində qurulan bütün dövlət binası dağılacaq və proletar inqilabı elə bir xor əldə edəcəkdir ki, bunsuz onun bütun kəndli ölkələrində oxuduğu solo, sonalar mahnısına çevriləcəkdir». Red.). Fransız kəndlilərinin vəziyyəti ikinci Bonapartı qanunlar almaq üçün deyil, qanunlar vermək üçün Sina dağına çıxardan 20 və 21 dekabr ümumi seçkilərinin sirrini açır.

Yəqin ki, indi burjuaziyanın Bonapart lehinə səs verməkdən başqa bir çarəsi yox idi. Konstans kilsə yığıncağında232 ciddi əxlaq mübarizləri keşişlərin yaramaz həyat sürdüklərindən şikayətlənib əxlaq sahəsində islahat keçirmək lazım gəldiyindən fəryad edəndə, kardinal Pyer d`Ayi onlara nə`rə ilə cavab verdi: «Katolik kilsəsini hələ ancaq şeytan xilas edə bilər, siz isə mələk istəyirsiniz!». Fransız burjuaziyası da dövlət çevrilişindən sonra beləcə bağırıb deyirdi hələ yalnız 10 dekabr Cəmiyyətinin şefi burjua cəmiyyətini xilas edə bilər! Mülkiyyəti hələ ancaq oğurluq, dini–mürtədlik, ailəni–nigahsız uşaq doğmaq, qaydanı–qaydasızlıq xilas edə bilər.

Müstəqil bir qüvvəyə çevrilmiş icraiyyə hakimiyyəti olmaq e`tibarı ilə Bonapart belə hesab edir ki, onun vəzifəsi «burjua qanun-qaydasını» tə`min etməkdir. Bu burjua qanun-qaydasının gücü isə–orta sinifdədir. Buna görə də o özünü orta sinfin nümayəndəsi hesab edir və müvafiq dekretlər verir. Lakin, digər tərəfdən, o yalnız buna görə bir şey olmuşdur ki, həmin orta sinfin siyasi qüdrətini qırmışdır və hər gün yenə də qırır. Buna görə də o özünü orta sinfin siyasi və ədəbi qüvvəsinin əleyhdarı hesab edir. Lakin o, orta sinfin maddi qüvvəsini qorumaqla yenidən onun siyasi qüdrətini yaradır. Buna görə səbəbi qorumaq və nəticəni meydana çıxdığı hər yerdə yox etmək lazımdır. Lakin səbəblə nəticə bir-biri ilə bir qədər qarışmadan iş baş tuta bilməz, çünki səbəblə nəticə bir-birinə qarşılıqlı tə`sir göstərməklə öz fərqləndirici əlamətlərini itirir. Sərhəd

xəttini silib atan yeni dekretlər verilir. Eyni zamanda Bonapart özünü burjuaziyaya əks olaraq, kəndlilərin və ümumiyyətlə xalqın nümayəndəsi, burjua cəmiyyəti çərçivəsi daxilində xalqın aşağı siniflərini xoşbəxtliyə çıxarmaq istəyən nümayəndəsi hesab edir. «Həqiqi sosialistlərin» hökumət əlləməliyindən əvvəlcədən oğurlanmış yeni dekretlər verilir164. Lakin Bonapart özünü hər şeydən əvvəl 10 dekabr Cəmiyyətinin şefi, lümpen-proletariatın nümayəndəsi hesab edir, o özü də, onun yaxın adamları da, onun hökuməti və ordusu da bu lümpen-proletariata mənsubdur, lümpen-proletar üçün isə iş hər şeydən əvvəl ondan ibarətdir ki, yaşayıb kef çəksin və Kaliforniya uduşlarını dövlət sandığından çəkib çıxarsın. Buna görə də Bonapart özünün 10 dekabr Cəmiyyətinin şefi adını dekretlər vasitəsi ilə, dekretlərdən kənarda və dekretlərin əksinə olaraq doğruldur.

Bu adamın ziddiyyətlərlə dolu belə bir vəzifəsi onun hökumətinin ziddiyyətli fəaliyyətini izah edir heç fikirləşmədən, kor-koranə hərəkət edən bu hökumət gah bir sinfi, gah da digər sinfi gah cəlb etməyə, gah da alçaltmağa cəhd edir və bütün sinifləri eyni dərəcədə özünə qarşı qaldırır,– bu hökumətin əməli inamsızlığı ilə, əminin fərmanlarını itaətkarlıqla təqlid edən hökumət sənədlərində işlədilən qəti, amiranə üslub arasında çox gülməli bir əkslik vardır.

Sənaye və ticarət, yə`ni orta sinfin işləri güclü hökumət zamanı şitillik bitkiləri kimi tərəqqi etməlidir. Saysız-hesabsız dəmiryol konsessiyaları paylanır. Lakin bonapartist lümpen-proletariat varlanmalıdır. Dəmiryol konsessiyaları sirrini əvvəlcədən bilənlərin fırıldaqçı birja oyunu başlanır. Lakin dəmiryol üçün kapital tapılmır. Banka əmr edilir ki, dəmiryol səhmlərini girov götürüb borc pul versin. Lakin bank eyni zamanda şəxsən Bonapart tərəfindən istismar edilməlidir,–deməli, bankın başını sığallamaq lazımdır. Bank həftəlik hesabat e`lan etmək vəzifəsindən azad edilir və hökumətlə özunə çox böyük pay tə`min edən bir müqavilə bağlayır. Xalqın işi olmalıdır. Ümumi işlərə girişilir. Lakin bu işlər xalqın vergi yükünü artırır. Deməli, vergiləri azaldaraq, 5 faizli rentanı 41/2 faizli rentaya çevirmək yolu ilə rentaçıların gəlirinə əl atmaq lazım gəlir. Lakin burjuaziyaya veriləcək həbbə yenidən şəkər qatmaq lazımdır; buna görə də «en detail» (pərakəndə satış. Red.) şərab alan xalq üçün şərab vergisi ikiqat artırılır, «en gros» (topdan satış. Red.) içən orta sinif üçün yarıbayarı aşağı salınır. Mövcud fəhlə ittifaqları dağıdılıb ləğv edilir, lakin hökumət gələcək üçün ittifaqlar cəhətdən xariqələr olacağını və`d edir. Kəndlilərə kömək

etmək lazımdır. Kəndlilərin borcunu və mülkiyyətin təmərküzləşməsini gücləndirən hipotek bankları yaradılır. Bu banklardan isə Orleanların müsadirə olunmuş malikanələrindən pul qopartmaq üçün istifadə etmək lazımdır. Lakin heç bir kapitalist dekretdə göstərilməyən bu axırıncı şərtə razı olmur,–buna görə hipotek bankı ancaq bir dekret olaraq qalır və ilaxir. Bonapart istərdi ki, bütün siniflərin patriarxal xeyirxahı rolunu oynasın. Lakin o, başqa bir sinifdən bir şey almamış heç bir sinfə bir şey verə bilmir. Özünün bütün malikanələrini öz tərəfdarları üçün onların borc təəhhüdlərinə çevirdiyinə görə Fronda zamanı Fransada ən lazımlı adam heeab olunan hersoq Gizo kimi, Bonapart da istərdi ki, Fransada ən lazımlı adam olub Fransanın bütün mülkiyyətini, bütün əməyini şəxsən özü üçün borc təəhhüdünə çevirsin. O istərdi ki, bütün Fransanı oğurlasın, sonra onu Fransaya bağışlasın və ya, daha doğrusu, sonra Fransanı fransız pulu ilə satın alsın, çünki 10 dekabr Cəmiyyətinin şefi olmaq e`tibarı ilə o özünə çatmalı olan şeyi satın almağa məcburdur. Buna görə bütün dövlət idarələri senat, Dövlət şurası, Qanunverici korpus, Şərəfli legion ordeni, əsgər medalı, camaşırxanalar, ümumi işlər, dəmiryollar, əsgəri olmayan milli qvardiyanın baş qərargahı, Orleanlar xanədanının müsadirə olunmuş malikanələri alver obyekti olur. Orduda və hökumət maşınında hər bir vəzifə satın almaq vasitəsi olur. Lakin Fransanı onun özünə bağışlamaq üçün ələ keçirməkdən ibarət olan bu prosesdə ən mühüm cəhət–dövriyyə zamanı 10 dekabr Cəmiyyəti şefinin və üzvlərinin cibinə girən faizlərdir. Orlean malikanələrinin müsadirəsi münasibəti ilə c. de Morninin mə`şuqəsi qrafinya L.-in söylədiyi kəskin «C`est le premier vol de l`aigle» [«Bu, qartalın birinci uçuşudur»] («vol» sözü həm uçuş, həm də oğurluq deməkdir.) sözü, daha çox qarğaya bənzəyən bu qartalın hər bir uçuşu haqqında deyilə bilər. O və onun tərəfdarları bir italyan kartezian rahibinin hələ uzun illər xərcləyə biləcəyi sərvətini lovğa-lovğa sayıb hesablayan bir xəsisə dediyi aşağıdakı sözləri hər gün öz-özlərinə deyirlər: «Tu fai Conto sopra i beni, bisogna prima far il conto sopra gli anni» («Sən öz sərvətini hesablayırsan; ancaq əvvəlcə gərək öz yaşını hesablayaydın».). İllərin hesabını tutmaqda yanılmamaq üçün onlar dəqiqələri sayırlar. Saraya, nazirliklərə, inzibati idarələrdə və orduda yüksək vəzifələrə elə həriflər soxulur ki, onların ən yaxşısı haqqında demək lazım gəlir ki, onun haradan gəldiyi mə`lum deyildir,–Suluk ə`yanlarına məxsus gülünc bir əda ilə əyninə güləbətinli mundir taxmış hay-küyçü, şübhəli vəhşi bohema

haradan ortaya çıxmışdır. 10 dekabr Cəmiyyətinin bu ali təbəqəsi haqqında o zaman aydın təsəvvür əldə etmək olar ki, aşağıdakı cəhət nəzərə alınsın: Veron-Krevel (Balzak «Xala qızı Betta» adlı romanında «Constitutionnel» qəzetinin sahibi d-r Veronu nəzərdə tutub Parisin ən əxlaqsız filisteri olaraq Kreveli tə.svir edir.) bu təbəqənin əxlaq qoruqçusu, Qranye de Kassanyak isə onun mütəffəkkiridir. Gizo öz hökuməti zamanı şübhəli bir qəzetdə həmin Qraşedən sülalə müxalifətinə qarşı bir alət kimi istifadə edərək, adətən, onun haqqında belə tə`rifli bir rə`y verirdi: «C`est le roi des droles», «Bu, təlxəklər kralıdır». Lui Bonapartın saray və güruhunu hökumət naibliyi233 və ya XV Lüdovik zamanları ilə müqayisə etmək haqsızlıq olardı. Zira «Fransa mə`şuqələr idarə üsulunu dəfələrlə görmüşdür, lakin oynaşlar idarə üsulunu hələ heç vaxt görməmişdir» (Jirarden xanımın sözləridir.).

Öz mövqeyinin ziddiyyətli tələblərindən əzab çəkib gözlənilməz yeni-yeni hadisələrlə daim camaatın nəzərini Napoleonun əvəzliyi olmaq e`tibarı ilə özünə cəlb etmək, başqa sözlə–hər gün kiçik miqyasda dövlət çevrilişi yaratmaq məcburiyyətində qalmış bir hoqqabaz rolu oynayan Bonapart bütün burjua təsərrüfatını tam hərc-mərcliyə salır, 1848-ci il inqilabının toxunulmaz zənn etdiyi hər şeyə qəsd edir, bə`zilərinə inqilaba laqeyd yanaşmağı öyrədir, başqalarını isə qızışdırıb inqilab etməyə qaldırır, qayda-qanun naminə əsil hərc-mərclik yaradır və eyni zamanda dövlət maşını üzərindən onun müqəddəslik əlamətini qoparıb atır, onu bayağılaşdırır, onu eyni zamanda həm iyrənc, həm də gülünc bir şəklə salır. O, Trir müqəddəs ləbbadəsinə234 pərəstişin gülünc təqlidi olaraq, Parisdə Napoleonun imperatorluq ləbbadəsinə pərəstiş düzəldir. Lakin imperatorluq ləbbadəsi nəhayət, Lui Bonapartın əyninə taxılmış olsa, Napoleonun tunc heykəli Vandom sütununun194 başından yıxılmış olacaqdır.

K.Marks 1851-ci ilin dekabrında–1852-ci ilin martında yazmışdır.

«Die revolution» jurnalının birinci nəşrində çap edilmişdir, New-York, 1852-ci il.

İmza: Karl Marks.

K. M A R K S

HİNDİSTANDA BRİTANİYA HÖKMRANLIĞI235

...Hindistan–Asiya miqyasında İtaliyadır. Himalay dağları Alp dağlarına, Benqaliya düzənləri–Lombardiya düzənlərinə, Dekan sıra dağları–Apennin dağlarına, Seylon adası isə Siciliya adasına uyğun gəlir. Torpağının verdiyi

ne`mətlər eyni dərəcədə zəngin və müxtəlif olduğu kimi, siyasi quruluşunda da eyni dərəcədə dağınıqlıq vardır. İtaliyada bə`zən istilaçı qılıncı müxtəlif millətlərə mənsub kütlələri yalnız zorla birləşdirdiyi kimi, Hindistanda da bunun eynini görürük.–Hindistan müsəlmanların və ya moqolların236, ya da britaniyalıların zülmü altında olmadığı dövrlərdə biz onun, öz şəhərlərinin və ya hətta kəndlərinin sayı qədər müstəqil və bir-biri ilə düşmənçilik edən dövlətlərə parçalanmış olduğunu görürük. Lakin ictimai cəhətdən Hindistan Şərqin İtaliyası deyil, İrlandiyasıdır. Həm də İtaliya ilə İrlandiyanın, nəş`ə aləmi ilə kədər aləminin bu qəribə birləşməsi hələ Hindistan dininin qədim ən`ənələrində duyulur. Bu din eyni zamanda həm ifrat hisslər dini, həm də nəfsi öldürən zahidlik dinidir, Linqam dini237 və Caqgernaut238 dinidir, rahib dini və rəqqasə dinidir.
Mən Hindistanın qızıl əsri olduğuna inananların fikrinə şərik deyiləm, lakin öz baxışlarımı təsdiq etmək üçün, heç də ser Çarlz Vudun etdiyi kimi, Quluxanı sübut gətirməyəcəyəm. Amma misal üçün Övrəngzib zamanlarını götürün, yaxud moqolların şimala, portuqaliyalıların isə cənuba gəlib çıxdıqları dövrü; ya da Cənubi Hindistana müsəlmanların soxulması dövrünü və geptarxiya239 dövrünü götürün; ya da əgər geriyə, daha uzaq qədimlərə getmək istəyirsinizsə, brahmanların240 öz əfsanəvi tarixini götürün; bu tarixə görə Hindistanın fəlakətləri, hətta xristianlığa görə dünyanın yarandığı vaxtdan da qədim bir dövrdə başlanmışdır.
Lakin heç bir şübhə yoxdur ki, Hindistanı britaniyalıların düçar etdikləri fəlakətlər mahiyyət e`tibarı ilə başqa qəbildəndir və keçmişdə Hindistanın başına gələn bütün fəlakətlərdən ölçülməz dərəcədə dərindir. Burada mən Britaniya Ost-Hind kompaniyasının241 Asiya istibdadı zəminində yetişdirdiyi Avropa istibdadından bəhs etmirəm bunun nəticəsində əmələ gələn istibdadlar birləşməsi isə Salsetta242 mə`bədində bizi heyrətə salan müqəddəs əjdahalardan daha dəhşətlidir. Bu istibdadlar birləşməsi ingilislərin müstəmləkələri idarə sisteminin spesifik xüsusiyyəti deyildir, yalnız Hollandiya sisteminin təqlididir və bu fikir o qədər doğrudur ki, Britaniya Ost-Hind kompaniyasının fəaliyyətini qiymətləndirmək üçün, Yavanın ingilis qubernatoru ser Stamford Raflsın köhnə Hollandiya Ost-Hind kompaniyası haqqında dediyi sözləri eyni ilə təkrar etmək kifayətdir: «Hollandiya kompaniyası yalnız qazancını düşünərək, işləyir və öz təbəələrinə, vaxtilə Vest-Hind plantasiya sahibinin öz plantasiyasında işlətdiyi qullara verdiyi qədər aman vermir,–çünki plantasiya sahibi satın

aldığı adamların müqabilində pul verib onları öz mülkiyyəti etmişdi, Hollandiya kompaniyası isə heç bir şey verməmişdi–bu kompaniya əhalinin bütün var-yoxunu vergi vasitəsi ilə qoparıb almaq və büsbütün əldən duşənə qədər işlətmək üçün bütün mövcud istibdad aparatını işə salmışdı. Beləliklə, həmin kompaniya şıltaq və yarımbarbar hökumətin ölkəyə etdiyi pisliyi daha da dərinləşdirmiş, öz fəaliyyətində siyasətçinin bütün əməli məharətini tacirin bütün inhisarçı eqoizmi ilə birləşdirmişdi».
Vətəndaş müharibələri, işğallar, çevrilişlər, istilalar, aclıq illəri–bir-birini əvəz edən bütün bu fəlakətlərin Hindistana olan tə`siri nə qədər hədsiz mürəkkəb, sarsıdıcı və dağıdıcı görünsə də, Hindistana ancaq üzdən tə`sir göstərirdi, İngiltərə isə hind cəmiyyətinin lap əsasını sarsıtmış və onu dəyişdirmək üçün indiyədək heç bir təşəbbüs göstərməmişdir. Yeni bir aləm əldə etmədən köhnə aləmin itirilməsi Hindistan əhlinin indiki fəlakətlərini xüsusilə dözülməz edir və Britaniya tərəfindən idarə olunan Hindistanın bütün öz qədim ən`ənələri, bütün keçmiş tarixi ilə əlaqəsini kəsir.
Asiyada xatirə gəlməyən zamanlardan bəri, bir qayda olaraq, yalnız üç idarə sahəsi olmuşdur; maliyyə orqanı, yaxud öz xalqını soymaq orqanı, hərbi orqan, yaxud özgə xalqları soymaq orqanı və, nəhayət, ictimai işlər orqanı. İqlim şəraiti və yerin səthinin xüsusiyyəti və xüsusən Böyük səhradan başlanıb Ərəbistan, İran, Hindistan və Tatarıstandan keçərək Asiya yaylasının ən yüksək sahələrinə qədər uzanan çox böyük səhranın varlığı nəticəsindədir ki, kanallar və irriqasiya qurğuları vasitəsi ilə suvarma sistemi Şərq əkinçiliyinin əsasını təşkil edir. Misir və Hindistanda olduğu kimi Mesopotamiya, İran və başqa ölkələrdə su daşqınlarından tarlaları gübrələmək üçün istifadə edirlər: suyun səthinin qalxmasından suvarma kanallarını doldurmaq üçün istifadə edirlər. Sudan qənaətlə və birlikdə istifadə etmək kimi ibtidai zərurət–Flandriyada və İtaliyada olduğu kimi, Qərbdə xüsusi sahibkarları könüllü cəmiyyətlərdə birləşməyə məcbur edən bu zərurət–Şərqdə mədəniyyət çox aşağı səviyyədə olduğu və ərazi həddindən artıq geniş olduğu üçün könüllü ittifaqlar meydana gələ bilmədiyinə görə mərkəzləşdirici hökumət orqanının işə qarışmasını tə`kidlə tələb edirdi. Bütün Asiya hökumətlərinin yerinə yetirməyə məcbur olduğu iqtisadi vəzifə, məhz ictimai işləri təşkil etmək vəzifəsi buradan irəli gəlir. Torpağın münbitliyini belə sün`i surətdə yüksəltmək sisteminin mərkəzi hökumətdən asılı olması və hökumət suvarma və bataqlıqları

qurutma işlərinə səhlənkarlıqla yanaşanda bu sistemin dərhal pozulması başqa heç bir şeylə izah edilməyən belə bir faktı bizə izah edib göstərir ki, vaxtilə çox gözəl becərilən böyük sahələr nə səbəbə indi Palmira, Petra kimi, Yəmən xərabəlikləri, Misir, İran və Hindistanın geniş əyalətləri kimi bəhrəsiz və çılpaq səhralar halına düşmüşdür. Belə bir fakt da yenə bununla izah olunur ki, dağıdıcı bir müharibə ölkəni əsrlər boyu viran qoya bilir və bütün mədəniyyətindən məhrum edirdi.
Ost-Hindiyadakı britaniyalılar maliyyə orqanı ilə hərbi orqanı öz sələflərindən götürdükləri halda ictimai işlər orqanına tam e`tinasızlıq göstərmişlər. Bu səbəbdən də əkinçilik tənəzzül etmişdir, çünki britaniyalıların azad rəqabət prinsipinə–«laissez faire, laissez aller» (fəaliyyət sərbəstliyi verin (ticarət azadlığına və iqtisadi münasibətlər sahəsinə dövlətin qarışmamasına tərəfdar olan fritreder-burjua iqtisadçılarının formuludur). Red.) prinsipinə uyğun olaraq inkişaf edə bilmir. Lakin, adətən Asiya dövlətlərində olduğu kimi, bir hökumət zamanı tənəzzülə üz qoyan əkinçilik başqa bir hökumət zamanı yenidən dirçəlir. Avropada məhsul havanın yaxşı və ya pis olmasından asılı olduğu kimi, burada da məhsul hökumətin yaxşı və ya pis olmasından asılıdır. Buna görə, əkiiçiliyə vurulan zərər və ona e`tinasızlıqla yanaşmaq özlüyündə nə kimi bir bədbəxtlik olsa da, hər halda belə hesab etmək olmazdı ki, britaniyalı istilaçı hind cəmiyyətinə məhz bununla qəti zərbə vurmuşdur, çünki bütün bunlarla yanaşı olaraq daha muhüm hadisələr baş verdi ki, bunlar da bütün Asiya aləminin tarixində yeni bir şeydir. Hindistanın keçmişində baş verən siyasi dəyişikliklər nə qədər əhəmiyyətli olsa da, onun ictimai şəraiti ən qədim zamanlardan başlamış XIX əsrin birinci on ilinə qədər dəyişməz halda qalırdı. Saysız-hesabsız əyirici və toxucu ordusunun meydana gəlməsinə səbəb olan toxucu əl dəzgahı və əl cəhrəsi hind cəmiyyətinin quruluşunda başlıca vasitələr idi. Xatirə gəlməyən zamanlardan Avropa, hindli əməyinin məhsulu olan çox gözəl parça alır və bunun müqabilində öz qiymətli metallarını göndərərək, beləliklə hind cəmiyyətinin zəruri üzvü olan yerli zərgərləri materialla təchiz edirdi; hind cəmiyyətinin isə bəzək şeylərinə o qədər böyük həvəsi vardır ki, hətta ən aşağı sinfin nümayəndələrinin də, özləri, demək olar, tamamilə çılpaq gəzdikləri halda, adətən bir cüt qızıl sırğası və boyunlarında qızıldan bir bəzək şeyi vardır. Əl və ayaq barmaqlarına üzük taxmaq da ümumi bir adət idi. Qadınlar, habelə uşaqlar çox vaxt əl və ya ayaqlarına qızıldan və ya

gümüşdən qalın bilərzik taxırdılar, ev şeyləri arasında isə qızıldan və ya gümüşdən allahların xırda heykəllərinə təsadüf edilirdi. Britaniya istilaçısı hind toxucu əl dəzgahını məhv etdi və əl cəhrəsini dağıtdı. İngiltərə əvvəlcə hind pambıq parça mallarını Avropa bazarlarından sıxışdırıb çıxartdı, sonra Hindistana eşmə iplik gətirməyə və, nəhayət, pambıq parça mal ölkəsini pambıq parça malı ilə doldurmağa başladı. 1818-ci ildən 1836-cı ilədək olan dövrdə Böyük Britaniyadan Hindistana iplik ixracı 1-in 5200-ə nisbətində artdı. Hindistana gətirilən ingilis muslini 1824-cü ildə güclə 1000000 yarda çatdığı halda, 1837-ci ildə 64000000 yarddan da artıq oldu. Amma yenə həmin müddətdə Dəkkə əhalisinin sayı azalıb 150000-dən 20000-ə endi. Hindistanın keçmişdə öz sənayesi ilə şöhrət tapmış şəhərlərinin bu tənəzzülünü isə ingilis hökmranlığının ən pis nəticəsi hesab etmək olmaz. Britaniya buxarı və Britaniya elmi bütün Hindistan ərazisində kənd təsərrüfatı istehsalı ilə sənət istehsalı arasındakı əlaqəni qəti olaraq məhv etdi.

Bu cəhətlərin hər ikisi,–bir tərəfdən, bütün Şərq xalqları kimi, Hindistan əhalisinin də öz əkinçilik və ticarətinin əsas şərti olan böyük ictimai işlərin qayğısına qalmağı mərkəzi hökumətin öhdəsinə buraxması, digər tərəfdən də ölkənin bütün ərazisinə səpələnmiş Hindistan əhalisinin, əkinçilik əməyi ilə sənət əməyi arasındakı patriarxal əlaqə sayəsində xırda mərkəzlərə toplanmış olması,–bu iki cəhət ən qədim zamanlardan spesifik bir ictimai sistem–kənd icmaları sistemi deyilən sistemi yaratmışdır ki, bu da həmin xırda ittifaqlardan hər birinə müstəqil xarakter verir və onu ayrıca yaşamağa məcbur edirdi. İngiltərə nümayəndələr palatasının Hindistan işləri haqqında bir köhnə rəsmi hesabatında təsvir olunan aşağıdakı mənzərə bizi həmin sistemin spesifik xüsusiyyətləri ilə tanış edir:

«Kənd coğrafi cəhətcə, becərilən və boş qalan bir neçə yüz və ya bir neçə min akr torpaqdan ibarət bir sahədir; siyasi cəhətdən korporasiya və ya şəhər icmasına oxşayır. Kəndin vəzifəli şəxslər və qulluqçular ştatı adətən belədir: patel, yaxud kəndxuda bir qayda olaraq kəndin işlərinə ümumi nəzarət edir, kənd sakinləri arasında baş verən ixtilafları həll edir, polis vəzifələrini görür və kənd daxilində vergi toplayıcısı vəzifəsini yerinə yetirir,–şəxsi nüfuzuna və əhalinin vəziyyəti və işləri ilə ətraflı tanış olduğuna görə kəndxuda bu vəzifəni yerinə yetirmək üçün ən münasib şəxsdir; karnam əkinçiliyin vəziyyətinə fikir verir və buna aid hər şeyin uçotunu saxlayır. Sonra talyari və toti gəlir birincisinin vəzifəsi cinayətlər

və pis hərəkətlər haqqında mə`lumat toplamaq, habelə bir kənddən başqa kəndə köçən adamları yola salmaq və qorumaqdır; ikincisinin vəzifəsi isə, görünür, kəndin öz daxilində daha çox məhdud olub məhsulu qorumaqdan və onun uçota alınmasına kömək etməkdən ibarətdir. Sərhəd keşikçisi kəndin sərhədlərini qoruyur və ya ixtilaf baş verəndə bu barədə şahidlik edir. Su anbarlarına və arxlara nəzarət edən şəxs suyu əkinçiliyin ehtiyaclarına görə bölüşdürür. Kənddə din işlərinə xüsusi brahman baxır. Sonra kənddə qumun üstündə oturub uşaqlara oxumaq və yazmaq öyrədən məktəb müəllimi, təqvim saxlayan brahman və ya münəccim və qeyriləri gəlir. Kəndin inzibati işçiləri bu böyük və kiçik vəzifəli şəxslərdən ibarətdir, lakin ölkənin bə`zi yerlərində bunların sayı azdır, çünki yuxarıda göstərilən vəzifə və işlərdən bə`ziləri birləşdirilir və eyni bir şəxs tərəfindən icra olunur, başqa yerlərdə isə əksinə, bunların sayı yuxarıda göstərilən şəxslərin sayından artıq olur. Əhali xatirə gəlməyən vaxtlardan bəri həmin ibtidai icma idarə üsulu şəraitində yaşayırdı. Kəndlərin sərhədləri gec-gec dəyişilirdi və kəndlərin özləri müharibə, aclıq və xəstəliklər nəticəsində bə`zən bərk zərər çəkir və hətta tamam viran qalırdısa da–eyni adlar, eyni sərhədlər, eyni mənafe və hətta eyni ailələr əsrdən əsrə yaşamaqda davam edirdi. Bütöv monarxiyaların məhv olması və parçalanması bu kəndlərin sakinlərini əsla narahat etmirdi; nə qədər ki, onların kəndi sağ-salamat qalırdı, onun hansı dövlətin hakimiyyəti altına keçməsi və hansı hökmdara tabe olması onları az maraqlandırır, çünki onların daxili təsərrüfat həyatı dəyişilməz qalır. Patel icmanın kəndxudası olaraq qalır və konddə barışıq məhkəməsi hakimi və vergi toplayıcısı kimi iş görür».

İctimai orqanizmin bu kiçik stereotip formaları, Britaniya vergi toplayıcılarının və Britaniya əsgərlərinin kobud müdaxiləsindən daha çox, ingilis buxar maşını və ingilis ticarət azadlığının tə`siri nəticəsində əksəriyyət e`tibarı ilə dağılmışdır və həmişəlik yox olub gedir. Ailəsayağı təşkil olunmuş bu icmalar ev sənayesinə, əllə toxumanın, əllə əyirmənin və torpağı əllə becərmənin spesifik şəkildə birləşməsinə əsaslanırdı və bu birləşmə onlara müstəqillik xarakteri verirdi. Əyiricilərin Lankaşirə, toxucuların isə Benqaliyaya toplaşmasına, yaxud Hindistan əyiricilərinin də, Hindistan toxucularının da ümumiyyətlə yer üzündən yox edilməsinə səbəb olan ingilis müdaxiləsi bu kiçik yarıbarbar, yarımədəni icmaları dağıtmış, onların iqtisadi bazisini məhv etmiş və beləliklə də, böyük bir

inqilab, həm də doğrusunu demək lazımdır, Asiyada heç vaxt görünməmiş yeganə ictimai inqilab əmələ gətirmişdir.
Lakin bu saysız-hesabsız çalışqan, patriarxal, dinc ictimai təşkilatların öz tərkib ünsürlərinə parçalanıb dağılmasının mənzərəsi xalis insani duyğular nöqteyi-nəzərindən nə qədər kədərli olsa da, onların qəm dəryasına qərq edildiklərini, onların üzvlərindən hər birinin isə eyni zamanda həm öz qədim mədəniyyət formalarını, həm də əzəldən bəri davam edən öz yaşayış mənbələrini itirdiklərini görmək nə qədər acınacaqlı olsa da, biz yenə unutmamalıyıq ki, bu idillik kənd icmaları ilk baxışda nə qədər mə`sum görünsə də, həmişə Şərq istibdadının möhkəm əsası olmuşdur, insanın zəkasını ən dar çərçivə içərisinə alaraq məhdud edirdi, mövhumatın müti aləti halına salırdı, onun boynuna ən`ənəvi qaydaların köləlik zəncirini keçirir, onu hər bir əzəmətdən, hər bir tarixi təşəbbüsdən məhrum edirdi. Özlərinin bütün mənafeyini bir parça torpaq üzərində toplayan barbarların eqoizmini unutmamalıyıq; onlar bütöv imperiyaların necə dağıldığını, necə misilsiz rəhmsizliklər edildiyini, böyük şəhərlərin əhalisinin necə məhv edildiyini sakitcə müşahidə edirdilər,–bunların hamısını sakitcə müşahidə edib buna, təbiət hadisələrinə verdiklərindən artıq diqtət vermirdilər və özləri, onlara lütf edib nəzər salan hər bir işğalçının aciz şikarı olurdular. Biz unutmamalıyıq ki, bu ləyaqətsiz, hərəkətsiz həyat, bu bitki həyatı, bu passiv yaşayış forması, digər tərəfdən, özünün əksinə olaraq, vəhşi, kor və azğın dağıdıcı qüvvələrin meydana gəlməsinə səbəb olurdu və Hindistanda hətta adam öldürülməsinin özünü bir dini ayin etmişdir. Biz unutmamalıyıq ki, bu kiçik icmalar üzərində silk fərqləri və köləlik damğası var idi və onlar insanı xarici şəraitin ağası vəziyyətinə yüksəltmək əvəzinə, onu bu şəraitə tabe etdirirdi, insanın öz-özünə inkişaf edən ictimai vəziyyətini, təbiətin əvvəlcədən müəyyən etdiyi dəyişilməz taleyə çevirmiş və bununla kobud təbiət bütü yaratmışdır ki, bunun da alçaldıcı xarakteri belə bir faktda xüsusilə nəzərə çarpır ki, təbiətin hökmdarı olan insan meymun Xanumani və inək Sabala qarşısında səcdə edib diz çökür.
Doğrudur, İngiltərə Hindistanda ictimai inqilab əmələ gətirəndə ən alçaq məqsəd güdürdü və bu inqilabı Hindistana qəbul etdirmək üçün işlətdiyi üsulları cəhətdən kütlük göstərmişdir. Lakin iş bunda deyildir. Məsələ ondadır ki, Asiyanın ictimai vəziyyətində əsaslı inqilab olmadan bəşəriyyət öz vəzifəsini yerinə yetirə bilərmi. Əgər yerinə yetirə bilməzsə, onda İngiltərə, bütün öz cinayətlərinə baxmayaraq, bu inqilabı əmələ gətirməklə

tarix üçün şüursuz bir alət olmuşdur. İndi ki, belədir, onda qədim aləmin dağılması mənzərəsi bizim şəxsi duyğularımız üçün nə qədər kədərli olsa da, tarix nöqteyi-nəzərindən bizim haqqımız var Göte ilə birlikdə deyək:
«Sollte diese Qual uns qualen
Da sie unsre Lust vermehrt,
Hat nicht Muriaden Seelen
Timur`s Nerrschaft aufgezehrt?»
(Sevincin açarı olsaydı əzab,
Kim ona dünyada gətirməzdi tab?
Teymurləng minlərlə ömrü bir zaman
Məgər etmədimi yerlə-yeksan?
(«Züleyxaya» şe`rindən, «Qərb-Şərq Divanı»). Red.)
K.Marks 1853-cü il iyunun 10-da yazmışdır.
1853-cü il 25 iyun tarixli «New-York Daily Tribune» qəzetinin 3804-cü nömrəsində çap edilmişdir.
İmza: Karl Marks.

K.MARKS
HİNDİSTANDA BRİTANİYA HÖKMRANLIĞININ GƏLƏCƏK NƏTİCƏLƏRİ

London, cümə, 22 iyul 1853-cü il.
Bu məqaləmdə mən, Hindistan haqqındakı qeydlərimə yekun vurmaq fikrindəyəm.
Hindistanda ingilis hökmranlığı necə qurulmuşdur? Böyük Moqolun243 ali hakimiyyətini onun canişinləri devirmişdilər. Canişinlərin hökmranlığını maratxlar244 yıxmışdılar. Maratxların hökmranlığını əfqanlar yıxmışdılar və hamı hamıya qarşı vuruşduğu bir zamanda britaniyalı qəflətən ortaya çıxdı və hamını itaətə gətirə bildi. Bir ölkədə ki, yalnız müsəlmanlarla hindular arasında deyil, həmçinin bir tayfa ilə başqası və bir silk ilə başqası arasında ədavət vardır; bir cəmiyyətdə ki, onun bütün gövdəsi hamının bir-birini özündən uzaqlaşdırmasından və bütün cəmiyyət üzvlərinin üzvi şəkildə özünü kənara çəkməsindən doğan bir növ müvazinətə əsaslanır,– məgər belə bir ölkə və belə bir cəmiyyət istilaçının şikarı olmağa məhkum deyildi? Məgər biz Hindistanın keçmiş tarixi haqqında hətta heç bir şey bilməsəydik, yenə belə böyük və şəksiz bir fakt bizim üçün kifayət deyildimi ki, Hindistanı İngiltərə, hətta indi də onun öz hesabına saxlanılan hind ordusunun köməyi ilə köləlikdə saxlayır? Beləliklə, Hindistan istila

olunmaq qismətindən yaxasını qurtara bilmədi və, əgər onun bütün keçmiş tarixində qeyd ediləcək bir şey vardısa, bir-birinin ardınca ona üz verən istilalar tarixindən ibarətdir. Hind cəmiyyətinin tarixi yoxdur, hər halda bu tarix bizə mə`lum deyildir. Onun tarixi adlandırdığımız şey, yalnız bir-birini əvəz edən istilaçıların tarixidir ki, bunlar da öz imperiyalarını, heç bir müqavimət göstərməyən bu hərəkətsiz cəmiyyətin passiv bazisi üzərində qururdular. Buna görə də məsələ onda deyildir ki, İngiltərənin Hindistanı istila etməyə haqqı var idimi, ya yox; məsələ ondadır ki, biz Hindistanı britaniyalıların deyil, türklərin, iranlıların, rusların istila etməsini üstün tutardıqmı.

İngiltərə Hindistanda iki cür vəzifə yerinə yetirməlidir: dağıdıcılıq vəzifəsi və yaradıcılıq vəzifəsi,–bir tərəfdən, köhnə Asiya cəmiyyətini dağıdıb yox etmək, digər tərəfdən isə, Asiyada qərb cəmiyyətinin maddi əsasını qoymaq.

Hindistanı bir-birinin ardınca istila edən ərəblər, türklər, tatarlar, moqollar tez bir zamanda yerli əhali ilə qaynayıb qarışırdılar. Tarixin sarsılmaz qəti qanununa əsasən istilaçı barbarların özləri, itaət altına aldıqları xalqların daha yüksək mədəniyyəti tərəfindən istila edilmiş olurdular. Britaniyalılar daha yüksək inkişaf səviyyəsində duran ilk istilaçı olduqlarına görə, hind mədəniyyəti onlara tə`sir göstərə bilmədi. Onlar bu mədəniyyəti yox etdilər, yerli icmaları dağıtdılar, yerli sənayeni kökündən puç etdilər və hind cəmiyyətində ümumi səviyyədən yüksək nə var idisə, hamısını hamarladılar. İngilislərin Hindistanda hökmranlığı tarixinin səhifələri çətin ki, dağıdıcılıqdan başqa bir şey göstərsin onların yaradıcılıq işi xərabəliklərin arxasında çətinliklə görünür. Buna baxmayaraq həmin yaradıcılıq işi başlanmışdır.

Hindistanın Böyük Moqollar zamanındakından daha artıq mərkəzləşmə ilə fərqlənib daha geniş ərazi əhatə edən siyasi birliyi onun dirçəlməsi üçün ilk şərt idi. İngilis qılıncının yaratdığı bu birliyi indi elektrik teleqrafı sabitləşdirəcək və həmişəlik möhkəmləndirəcəkdir. Britaniyalı serjant tərəfindən təşkil olunub hərbi tə`limdən keçən hind ordusu Hindistanın öz qüvvəsi ilə azad olması və bir daha lap birinci yadelli işğalçının şikarı olmaq vəziyyətindən çıxması üçün «sine qua non» (Conditio sine qua non–vaçib şərt. Red.) oldu. Asiya cəmiyyətində ilk dəfə tətbiq edilən və başlıca olaraq avropalılarla hindlilərin bir-biri ilə evlənmələrindən törəmiş övladların rəhbərlik etdiyi azad mətbuat burada cəmiyyəti yenidən

qurmağın yeni və çox güclü amilidir. Hətta zəmindari və rəiyyətvari sistemləri245, nə qədər çirkin olsa da, yenə torpaq üzərində xüsusi mülkiyyətin, yə`ni Asiya cəmiyyətinin bu qədər çox arzuladığı şeyin iki müxtəlif formasıdır. Kəlkətədə ingilislərin nəzarəti altında həvəssiz və çox cüz`i təhsil verilən yerli hindlilərdən ölkəni idarə etmək üçün lazımi biliklə silahlanmış və Avropa elminə qovuşmuş yeni insanlar kateqoriyası yetişməkdədir. Buxar Hindistanla Avropa arasında müntəzəm və sür`ətli rabitə imkanı yaratdı, Hindistanın bütün əsas limanlarını cənub və şərq dənizlərinin bütün limanları ilə əlaqələndirdi və beləliklə Hindistanı orada hökm sürən durğunluğun başlıca əsasını təşkil edən təcrid olunmuş vəziyyətdən çıxartdı. İngiltərə ilə Hindistan arasında zamanla ölçülən məsafənin, dəmiryollar və dəniz yolları sistemini əlaqələndirmək vasitəsi ilə səkkiz günlük yola endiriləcəyi və vaxtı ilə əfsanəvi olan bu ölkənin həqiqətən qərb aləmi ilə birləşdiriləcəyi gün indi daha uzaq deyildir. Böyük Britaniyanın hakim sinifləri indiyədək Hindistanın inkişafı ilə yalnız arabir, müvəqqəti və müstəsna hallarda maraqlanırdılar. Aristokratiya onu itaətdə saxlamaq arzusunda idi, plutokratiya onu soymaq istəyirdi, sənaye burjuaziyası isə onu öz mallarının ucuzluğu ilə tabe etməyə çalışırdı. Lakin indi vəziyyət dəyişilmişdir. Sənaye burjuaziyası yəqin etmişdir ki, onun həyat mənafeyi Hindistanı istehsaledici ölkəyə çevirməyi tələb edir və bu məqsəd üçün onu hər şeydən əvvəl irriqasiya qurğuları və daxili rabitə yolları ilə tə`min etmək lazımdır. İndi sənayeçilər Hindistanı dəmiryol şəbəkəsi ilə bürümək fikrindədirlər. Onlar bunu edəcəklər ki, bu da çox böyük nəticələr verməlidir.

Mə`lumdur ki, Hindistanın müxtəlif məhsullarının daşınması və mübadiləsi üçün lazım olan nəqliyyat vasitələrinin yoxluğu onun məhsuldar qüvvələrinin gücdən tamamilə düşməsinə səbəb olmuşdur. Dünyanın heç bir yerində Hindistandakı təbii ne`mətlərin bolluğu içərisində cəmiyyətin buradakı qədər yoxsul vəziyyətinə təsadüf etmək olmaz bu yoxsul vəziyyətə səbəb kifayət qədər mübadilə vasitələrinin olmamasıdır. 1848-ci ildə İngiltərə nümayəndələr palatası komitəsində müəyyən edilmişdi ki: «Handeşdə buğdanın kvarteri 6 şillinqdən 8 şillinqə qədər satıldığı halda, Punda kvarteri 64 şillinqdən 70 şillinqə qədər satılırdı və orada adamlar acından küçələrdə ölüb qalırdılar, çünki palçıq yollar keçilməz olduğuna görə Handeşdən yeyinti gətirə bilmirdilər».

Dəmiryollar çəkilməsindən kənd təsərrüfatı məqsədləri üçün, məsələn, çəkilən dəmiryol xəttinə töküləcək torpağın çıxarılması lazım gələn yerlərdə su anbarları düzəltmək üçün, habelə dəmiryol xətləri boyundakı yerləri su ilə təchiz etmək üçün asanlıqla istifadə etmək olar. Beləliklə, Şərqdə əkinçilik üçün «sine qua non» olan sün`i suvarma sistemini xeyli genişləndirmək və su azlığı üzündən tez-tez təkrar olunan yerli məhsul qıtlığının qarşısını almaq olar. Bu nöqteyi-nəzərdən dəmiryolların böyük əhəmiyyətini aydın görmək üçün bu cəhəti xatırlamaq kifayətdir ki, hətta Qat sıra dağlarına bitişik olan rayonlarda suvarılan torpaq üçün üç qat artıq vergi verirlər, bu torpaqlarda on və on iki dəfə artıq adam işləyir və bu torpaqlar, eyni sahəsi olub suvarılmayan torpaqlardan on iki və ya on beş qat artıq mənfəət verir.

Dəmiryollar hərbi aparatı və onun saxlanmasına çəkilən xərci azaltmağa imkan verər. Fort-Uilyamın rəisi polkovnik Uorren nümayəndələr palatasının xüsusi komitəsində belə demişdir:

«Ölkənin uzaq hissələrindən indi bir neçə günə və hətta bir neçə həftəyə gələn mə`lumatı bir o qədər saatdan sonra ala bilmək, qoşun hissələri və sursatla birlikdə ən qısa müddət ərzində tə`limat göndərə bilmək–bu mühüm cəhətlərin çətin ki, son dərəcə böyük əhəmiyyəti olmasın. Qarnizonlar bir-birindən daha uzaq məsafələrdə və indikindən daha sağlam yerlərdə yerləşdirilə bilər və bununla indi xəstəliklərdən həlak olan bir çox adamın həyatı qorunmuş olardı. Habelə muxtəlif anbarlara bu qədər çox sursat yığıb saxlamaq lazım gəlməzdi, bununla da onun çürüməsinə yol verilməz və iqlimin məhvedici tə`siri nəticəsində baş verən itkinin qarşısı alınardı. Qoşunun sayını ondan səmərəli şəkildə istifadə sür`ətinin artacağı nisbətdə azaltmaq olardı».

Mə`lumdur ki, kənd icmalarının özünüidarə üzərində qurulan təşkilatı və iqtisadi əsası dağılmışdı, lakin onların ən pis xüsusiyyəti, yə`ni cəmiyyətin bir-biri ilə əlaqədar olmayan yekcins atomlara parçalanması onlardan sonra da qalmaqda idi. Kənd icmalarının bir-birindən ayrılığı Hindistanda yolsuzluğa səbəb olmuş, yolsuzluq isə icmaların bir-birindən ayrılığını əbədiləşdirmişdi. Bu vəziyyət daxilində icma mövcud aşağı həyat səviyyəsində yaşayaraq başqa icmalarla, demək olar, heç bir əlaqəyə girmir, heç bir ictimai tərəqqi meyli göstərmir və bu yolda heç bir lazımi sə`y etmirdi. İndi, britaniyalılar kənd icmalarının bu daxili ətalətihi

dağıtdıqları bir zamanda, dəmiryollar rabitə və mübadiləyə yeni tələbat yaradacaqdır. Bundan əlavə,
«dəmiryol sisteminin nəticələrindən biri ondan ibarət olacaqdır ki, bu sistem dəmiryolun keçdiyi hər kəndə, başqa ölkələrdə tətbiq olunan təkmilləşdirmələr və əməli ixtiralar haqqında bilik yayacaq və bunların öyrənilməsini o qədər asanlaşdıracaqdır ki, Hindistanın kənd icmalarından muzd alan nəsilbənəsil sənətkarlarına, əvvələn, öz qabiliyyətini tamamilə göstərə bilmək və, ikincisi, öz qüsurlarını düzəltmək imkanı verəcəkdir». (Çampen. «Hindistan pambığı və ticarəti»).
Mən bilirəm ki, ingilis sənaye maqnatları Hindistanda dəmiryollar çəkməyə sə`y edərkən, yalnız öz fabrikləri üçün lazım olan pambığın və başqa xammalın daşınmasını ucuzlaşdırmaq arzusunu rəhbər tutur. Lakin bir halda ki, siz dəmiri və kömürü olan bir ölkəyə nəqliyyat vasitəsi olaraq maşın gətirmişsiniz, onda həmin ölkənin özünün belə maşın istehsal etməsinə mane ola bilməzsiniz. Siz böyük bir ölkədə dəmiryol nəqliyyatının bilavasitə və cari tələbatını ödəmək üçün zəruri olan istehsal proseslərini təşkil etmədən, həmin ölkədə dəmiryol şəbəkəsini mühafizə edib saxlaya bilməzsiniz; bu istehsal proseslərinin təşkil edilməsi isə dəmiryol nəqliyyatı ilə bilavasitə əlaqədar olmayan sənaye sahələrində də maşın tətbiq edilməsinə səbəb olacaqdır. Buna görə də Hindistanda dəmiryollar müasir sənayenin həqiqi müjdəçisi olacaqdır. Bu, xususən ona görə doğrudur ki, ingilis hökumət adamlarının öz e`tirafına görə, Hindistan əhalisi tamamilə yeni əmək şəraitinə uyğunlaşmaqda və maşın işlətmək üçün lazım olan biliyi mənimsəməkdə çox mahirdir. Kəlkətə sikkəxanasında bir çox ildən bəri buxar maşını işlədən hindli mexaniklərin işdə göstərdikləri məharət və bilik, habelə müxtəlif buxar maşınları işlədilən Xardvar kömür rayonlarında yerli əhalinin əməyi və başqa misallar bu faktı qəti təsdiq edir. C-b Kempbell özü Ost-Hind kompaniyasının yanlış fikirlərinə nə qədər mübtəla isə də, e`tiraf etməyə məcburdur ki,
«Hind xalqının geniş kütlələrində böyük sənaye enerjisi vardır; onlar kapital yığmaqda çox qabiliyyətlidirlər, riyaziyyatçı zəkasına sahib olan bu hind kütlələrində hesablamağa və dəqiq elmləri öyrənməyə böyük qabiliyyət vardır». Kempbell deyir: «Onların zehni çox gözəldir»248.
Dəmiryol çəkilməsi nəticəsində Hindistana gələn müasir sənaye, bu ölkənin tərəqqi etməsi və qüdrətli olması yolunda başlıca manea təşkil edən

hind silklərinin əsaslandığı irsi əmək bölgüsü sisteminin dağılmasına səbəb olacaqdır.
İngilis burjuaziyasının Hindistanda həyata keçirməyə, yəqin ki, məcbur olacağı bütün tədbirlər xalq kütlələrini azad etməyəcək və onların ictimai vəziyyətini əhəmiyyətli dərəcədə yaxşılaşdırmayacaqdır, çünki bunların hər ikisi yalnız məhsuldar qüvvələrin inkişafından deyil, həmçinin xalqın bu qüvvələrə sahib olub-olmamasından da asılıdır. Lakin burjuaziya bir işi hökmən görəcəkdir ki, bu da həmin vəzifələrin hər ikisini yerinə yetirmək üçün maddi əsaslar yaratmaqdan ibarətdir. Məgər burjuaziya hər hansı bir vaxtda bundan artıq bir şey etmişdir? Məgər burjuaziya hər hansı bir vaxtda istər ayrı-ayrı adamları, istərsə də bütöv xalqları ağır qanlı və çirkli yolla, səfalət və alçalmalar yolu ilə getməyə məcbur etmədən tərəqqiyə nail olmuşdur?
Nə qədər ki, Böyük Britaniyanın özündə sənaye proletariatı indi hökmranlıq edən sinifləri sıxışdırıb aradan çıxarmamışdır və ya nə qədər ki, hindlilərin özləri kifayət dərəcədə qüvvətli olub ingilis boyunduruğunu öz üzərlərindən həmişəlik atmamışlar, Hindistan əhalisi Britaniya burjuaziyasının hindlilər arasına səpdiyi yeni cəmiyyət ünsürləri toxumundan yetişəcək bəhrədən faydalana bilməyəcəkdir. Hər halda biz inamla gözləyə bilərik ki, bu böyük və gözəl ölkə az-çox uzaq gələcəkdə dirçələcəkdir; zira bu ölkənin nəcib əhalisinin hətta ən aşağı sinifləri knyaz Saltıkovun dediyi kimi «sont plus fins et plus adroits que les italiens» («italyanlardan daha zərif və daha mahirdir»247. Red.), bu ölkənin əhalisi hətta öz itaətkarlığını da sakit bir nəcibliklə tənləşdirir və təbiəti e`tibarı ilə çox ləng olmasına baxmayaraq, öz igidliyi ilə ingilis zabitlərini heyran etmişdir bu ölkə bizim dillərimizin, bizim dinlərimizin beşiyidir və Catın248 şəxsində bizə qədim germanın, brahmanın240 şəxsində isə qədim yunanın tipini verir.
Mən nəticədə bir neçə qeyd etmədən Hindistan mövzusundan əl çəkə bilmərəm.
Burjua mədəniyyətini öz yurdunda, onun vüqarlı şəkillərə girdiyi yerdə deyil, mustəmləkələrdə, özünü tam pərdəsiz şəkildə göstərdiyi yerdə müşahidə edəndə onun dərin ikiüzlülüyü və ona xas olan barbarlıq çılpaq şəkildə qarşımıza çıxır. Burjuaziya özünü mülkiyyətin müdafiəçisi kimi qələmə verir, lakin hansı bir inqilabi partiya və nə zaman Benqaliya, Mədrəs və Bombayda edildiyi kimi aqrar inqilablar etmişdir? Məgər

burjuaziya Hindistanda öz soyğunçu məqsədlərinə çatmaq üçün sadəcə pulla tovlayıb ələ almaq üsulu kifayət etmədiyi yerdə–böyük yırtıcı lord KlayVIn özünün dediyi kimi–amansız zorakılığa əl atmırdı? Məgər burjuaziya Avropada dövlət borcunun pozulmaz müqəddəsliyi haqqında boşboğazlıq etdiyi bir zamanda Hindistanda pul yığıb bununla Kompaniyanın özünün qiymətli kağızlarını satın alan racələrin dividendlərini müsadirə etmədi? Məgər burjuaziya «müqəddəs dinimizi» müdafiə bəhanəsi ilə Fransa inqilabına qarşı müharibə etdiyi zaman, Hindistanda xristianlığın yayılmasını qadağan etməmişdi və Orissa, Benqaliya mə`bədlərinə gələn zəvvarların ziyarətindən mədaxil götürmək məqsədi ilə Caqgernaut238 mə`bədində qətl və fahişəliyi peşəyə döndərməmişdi? «Mülkiyyət, qayda-qanun, ailə və din» müdafiəçiləri bax belədirlər!

Öz böyüklüyü e`tibarı ilə Avropadan kiçik olmayıb 150 milyon akr ərazisi olan Hindistana ingilis sənayesinin dağıdıcı tə`siri tamamilə aydın və dəhşətlidir. Lakkn biz unutmamalıyıq ki, bu tə`sir indi mövcud olan bütün istehsal sisteminin yalnız üzvi nəticəsidir. Bu istehsal kapitalın tam hökmranlığına əsaslanır. Kapitalın mərkəzləşməsi onun müstəqil bir qüvvə kimi yaşaması üçün tamamilə zəruridir. Bütün ölkələrin bazarlarına bu mərkəzləşmənin dağıdıcı tə`siri siyasi iqtisadın indi hər bir mədəni şəhərdə fəaliyyətdə olan daxili üzvi qanunlarını yalnız çox böyük ölçüdə aşkara çıxarır. Tarixin burjua dövrü yeni dünyanın maddi bazisini yaratmalıdır: bir tərəfdən,–bütün bəşəriyyətin bir-birindən asılı olmasına əsaslanan dünya əlaqələrini, habelə bu əlaqə vasitələrini inkişaf etdirməlidir; digər tərəfdən,–insanın məhsuldar qüvvələrini inkişaf etdirməli və maddi istehsalın elm vasitəsi ilə təbiət qüvvələri üzərində hökmranlığa çevrilməsini tə`min etməlidir. Geoloji inqilablar yerin səthini yaratdığı kimi, burjua sənaye və ticarəti də yeni dünyanın bu maddi şəraitini yaradır. Yalnız böyük ictimai inqilab burjua dövrünün nailiyyətlərinə, dünya bazarına və müasir məhsuldar qüvvələrə yiyələndikdən və onları ən qabaqcıl xalqların ümumi nəzarətinə tabe etdikdən sonra,–yalnız o zaman bəşəriyyətin tərəqqisi öldürulmüş adamın kəlləsindən başqa bir qabda abihəyat içmək istəməyən iyrənc bütpərəstlik bütünə daha bənzəməyəcək.

K.Marks 1853-cü il iyulun 22-də yazmışdır.

1853-cü il 8 avqust tarixli «New-York Daily Tribune» qəzetinin 3840-cı nömrəsində çap edilmişdir.

İmza: Karl Marks.

K.MARKS
«THE PEOPLE`S PAPER»İN YUBİLEYİNDƏ NİTQ
1856-cı İL APRELİN 14-də LONDONDA SÖYLƏNMİŞDİR249

1848-ci il inqilabları deyilən inqilablar yalnız kiçik hadisələr idi, Avropa cəmiyyətinin möhkəm qabığında cüz`i çatlaq və yarıqlar idi. Lakin bu inqilablar qabığın altında dərin bir uçurum olduğunu aşkara çıxartdı. Möhkəm görünən səthin altında tərpənib yırğalanan elə bir okean aşkara çıxdı ki, bunun hərəkətə gəlməsi möhkəm qayalardan ibarət bütöv qit`ələri parçalamaq üçün kifayətdir. Bu inqilablar proletariatın azadlığını–XIX əsrin və bu əsr inqilabının sirrini gurultu ilə və dolaşıq şəkildə hamıya bildirdi.

Doğrudur, bu ictimai inqilab 1848-ci ilin icad etdiyi yeni bir şey deyildi. Buxar, elektrik və avtomat dəzgah hətta vətəndaş Barbes, Raspayl və Blankidən də müqayisə edilməyəcək dərəcədə təhlükəli inqilabçılar idi. Lakin içərisində yaşadığımız atmosfer hər birimizə 20000 funt ağırlığında təzyiq göstərirsə də, siz bu ağırlığı hiss edirsinizmi? Avropa cəmiyyəti özünü əhatə edib ona hər tərəfdən təzyiq göstərən inqilabi şəraiti 1848-ci ilədək az hiss etdiyi kimi, siz də bunu az hiss edirsiniz.

Bizim XIX əsr üçün xarakterik olan böyük bir fakt göz, qabağındadır və heç bir partiya bu faktı inkar edə bilməz. Bir tərəfdən elə sənaye qüvvələri və elə elmi qüvvələr oyanıb həyata qədəm qoymuşdur ki, bəşər tarixinin keçmiş dövrlərindən heç birində bəşəriyyət bu qüvvələrin varlığını heç güman etməmişdi. Digər tərəfdən isə Roma imperiyasının son zamanlarının tarixdən mə`lum olan bütün dəhşətlərini çox ötüb keçən düşgünlük əlamətləri aşkara çıxmışdır.

Bizim zəmanədə hər şeyin özündə sanki öz əksliyi vardır. Biz görürük ki, insanın əməyini azaldıb daha səmərəli etməkdə çox qəribə qüvvəyə malik olan maşın aclığa gətirib çıxarır və insanı taqətdən salır. İndiyədək mə`lum olmayan yeni sərvət mənbələri qəribə, anlaşılmaz ovsun üzündən yoxsulluq mənbəyi olur. Texnika sahəsindəki qələbələr, görünür, mə`nəvi tənəzzül bahasına əldə edilmişdir. Adama elə gəlir ki, bəşəriyyət təbiəti özünə tabe etdikcə insan başqa adamların və ya öz şəxsi alçaqlığının köləsi olur. Görünür, hətta elmin saf işığı da ancaq zülmətli avamlıq zəminində işıq saça bilər. Bizim butün kəşflərimiz və bütün tərəqqimiz sanki belə bir nəticəyə gətirib çıxarır ki, maddi qüvvələrə zehni həyat verilir, öz zehni

cəhətindən məhrum olan insan həyatı isə sadəcə maddi qüvvə dərəcəsinə endirilir. Müasir sənaye və elm ilə müasir yoxsulluq və düşgünlük arasındakı bu antaqonizm, dövrümüzün məhsuldar qüvvələri ilə ictimai münasibətləri arasındakı bu antaqonizm hiss olunan, labüd və şəksiz bir faktdır. Bə`zi partiyalar bundan gileylənirlər, bə`ziləri də məhz hazırkı münaqişələrdən xilas ola bilmək xatirinə texnikanın hazırkı müvəffəqiyyətlərindən xilas olmaq istəyirlər; bə`zi partiyalar da belə xəyal edirlər ki, sənayedəki bu qədər böyük tərəqqini hökmən siyasətdə yenə eyni dərəcədə böyük tənəzzül tamamlamalıdır. Biz isə bütün bu ziddiyyətlərdə daim təzahür edən hiyləgər ruhun təbiəti haqqında yanlış fikrə düşmürük. Biz bilirik ki, cəmiyyətin yeni qüvvələri lazımi qaydada işləyə bilmək üçün ancaq bir şeyə möhtacdır: həmin qüvvələrə yeni adamlar sahib olmalıdır, bu yeni adamlar isə fəhlələrdir. Fəhlələr də maşının özü kimi, indiki zamanın ixtirasıdır. Burjuaziyanı, aristokratiyanı və uğursuz tənəzzül peyğəmbərlərini təşvişə salan hadisələrdə biz mehriban dostumuz Robin Qudfellonu, yerin altında torpağı bu qədər sür`ətlə qazıya bilən köhnə köstəbəyi, minadüzən şanlı istehkamçını– inqilabı görürük. İngilis fəhlələri müasir sənayenin ilkidirlər. Əlbəttə, onlar bu sənayenin doğurduğu ictimai inqilabın köməyinə axırıncı olaraq gəlməyəcəklər, zira bu inqilab onların öz sinfinin bütün dünyada azad edilməsi deməkdir, kapitalın hökmranlığı və muzdlu köləlik kimi, bu inqilab da ümumi xarakter daşıyır. Mən keçən əsrin ortalarından bəri ingilis fəhlələrinin etdiyi mübarizəyə, burjua tarixçilərinin kölgədə buraxıb üzərindən sükutla keçdiyinə baxmayaraq, öz şöhrətini itirməyən qəhrəmanlıq mübarizəsinə bələdəm. Orta əsrlərdə Almaniyada, hakim siniflərin pis hərəkətlərinin intiqamını almaq üçün «Vehmgericht» («Fema məhkəməsi». Red.) adlı gizli bir məhkəmə var idi. Əgər bir evin divarına qırmızı xaç çəkilmiş olurdusa, hamı başa düşürdü ki, bu evin sahibi «Vehm» tərəfindən məhkum edilmişdir. İndi Avropanın butün evlərinin divarlarında əsrarəngiz qırmızı xaç şəkli çəkilmişdir. İndi tarix özü hakimdir, onun hökmünü isə proletariat icra edir.

« The Peoples Paper»də çap edilmişdir, № 207, 19 aprel 1856-cı il.

K.MARKS

«SİYASİ İQTİSADIN TƏNQİDİNƏ DAİR»230

MÜQƏDDİMƏ

Mən burjua iqtisadi sistemini aşağıdakı sıra ilə nəzərdən keçirirəm kapital, torpaq mülkiyyəti, muzdlu əmək, dövlət, xarici ticarət, dünya bazarı. Birinci üç hissədə, muasir burjua cəmiyyətinin bölündüyü üç böyük sinfin iqtisadi həyat şəraitini tədqiq edirəm digər üç hissənin qarşılıqlı əlaqəsi aydındır. Kapitaldan bəhs edən birinci kitabın birinci bölməsi aşağıdakı fəsillərdən ibarətdir: 1) əmtəə, 2) pul, yaxud bəsit tədavül, 3) ümumiyyətlə kapital. Birinci iki fəsil həmin buraxılışın məzmununu təşkil edir. Bütün material, mətbuat üçün deyil, məsələləri özümə aydınlaşdırmaq üçün müxtəlif dövrlərdə böyük fasilələrlə yazılmış monoqrafiyalar şəklində qarşımda durur; həmin monoqrafiyaların göstərilən planda bir-birinin ardınca işlənməsi kənar səbəblərdən asılı olacaqdır.

Qarasını tökdüyüm ümumi girişi251 atıram, çünki daha əsaslı düşünüb bu qərara gəldim ki, hələ yalnız sübut ediləsi nəticələrin hər hansı şəkildə əvvəlcədən göstərilməsi mane ola bilər; ümumiyyətlə mənim ardımca getmək istəyən oxucu isə xüsusidən ümumiyə doğru yüksəlmək qərarına gəlməlidir. Lakin mənim öz siyasi iqtisad məşğələlərimin gedişi haqqında bə`zi mə`lumatı burada qeyd etmək, zənnimcə, yerində olar.

Mənim ixtisas fənlərim hüquqşünaslıq idi, lakin mən bunu fəlsəfə və tarixlə yanaşı yalnız əlavə bir fənn kimi öyrənirdim. 1842–1843-cü illərdə «Rheinische Zeitunq»16un redaktoru olduğuma görə, mən maddi mənafe deyilən şey haqqında ilk dəfə öz fikrimi bildirməli oldum ki, bu da məni çətin vəziyyətə saldı. Meşə oğurluğu və torpaq mülkiyyətinin parçalanması məsələlərinin Reyn landtaqında müzakirə edilməsi, Reyn əyalətinin o zamankı baş prezidenti c. Fon Şaperin Mozel kəndlilərinin vəziyyəti haqqında «Rheinische Zeitunq» ilə rəsmi mübahisəyə girişməsi, nəhayət, ticarət azadlığı və himayə gömrükləri haqqındakı mübahisələr mənim iqtisadi məsələlərlə məşğul olmağım üçün ilk təkan oldu. Digər tərəfdən, «irəli getmək» arzusu kimi xoş bir arzunun mövzunun özünü bilməkdən qat-qat yüksək olduğu həmin vaxtda «Rheinische Zeitunq»da zəif bir fəlsəfə çalarlı fransız sosializmi və kommunizminin əks-sədaları eşidildi. Mən bu diletantlığa qarşı çıxdım, lakin eyni zamanda Auqsburqda çıxan «Allgemeine Zeitunq»252 ilə mübahisədə açıqca e`tiraf etdim ki, mənim o zamankı biliyim fransız cərəyanları məzmununun özü haqqında cəsarət edib hər hansı bir fikir yeritməyimə imkan vermirdi. Buna görə də mən, qəzeti daha mülayim şəkildə buraxmaqla, onun haqqında verilən ölüm hökmünü aradan qaldırmaq ümidində olan «Rheinische Zeitunq»

rəhbərlərinin bu xam xəyalından böyük bir həvəslə istifadə edib ictimai sahədən dərs otağına çəkildim.
Zehnimi bürüyən şübhələri aradan qaldırmaq üçün girişdiyim birinci iş Hegelin hüquq fəlsəfəsini (K.Marks. «Hegelin hüquq fəlsəfəsinin tənqidinə dair» (bax: K.Marks və F.Engels. Əsərləri, 2-ci nəşri, 1-ci cild, səh. 219–368). Red.) tənqidi surətdə nəzərdən keçirməkdən ibarət oldu; bu əsərin girişi («Hegelin hüquq fəlsəfəsinin tənqidinə dair. Giriş». (bax: K.Marks və F.Engels. Əsərlərçi, 2-ci nəşri, 1-ci cild,, səh. 414–429). Red.) 1844-cü ildə Parisdə nəşr edilən «Deutsch-Französische Jahrbücher»12-də çap olundu. Tədqiqatım məni bu nəticəyə gətirdi ki, hüquqi münasibətlər, habelə dövlət formaları nə özlüyündə, nə də insan ruhunun ümumi inkişafı deyilən şey vasitəsi ilə anlaşıla bilməz, əksinə, bunların kökü maddi həyat münasibətlərindədir ki, Hegel bu münasibətlərin məcmusunu XVIII əsrdəki ingilis və fransız müəllifləri kimi «vətəndaş cəmiyyəti» adlandırır və vətəndaş cəmiyyətinin anatomiyasını siyasi iqtisadda axtarmaq lazım gəlir. Parisdə öyrənməyə başladığım siyasi iqtisadı, c. Gizonun məni Parisdən sürgün etmək haqqındakı əmri üzündən köçdüyüm Brüsseldə öyrənməkdə davam etdim. Mənim çıxardığım və sonra bütün gələcək tədqiqatımda rəhbər yer tutan ümumi nəticəni qısaca belə ifadə etmək olar. İnsanlar öz həyatlarının ictimai istehsalında öz iradələrindən asılı olmayan müəyyən, zəruri münasibətlərə–öz maddi məhsuldar quvvələrinin müəyyən inkişaf pilləsinə uyğun olan istehsal munasibətlərinə girirlər. Bu istehsal münasibətlərinin məcmusu cəmiyyətin iqtisadi quruluşunu, real bazisi təşkil edir, huquqi və siyasi üstqurum bu bazis üzərində yüksəlir və muəyyən ictimai şüur formaları bu bazisə uyğun olur. Maddi həyatın istehsal üsulu ümumiyyətlə həyatın ictimai, siyasi və mə`nəvi prosesləri üçün şərt olur. İnsanların varlığını onların şüuru müəyyən etmir, əksinə, insanların ictimai varlığı onların şüurunu müəyyən edir. Cəmiyyətin maddi məhsuldar qüvvələri öz inkişafının muəyyən pilləsində mövcud istehsal münasibətlərinə, yaxud bu münasibətlərin ancaq huquqi ifadəsi olub məhsuldar qüvvələri indiyədək öz daxilində inkişaf etdirən mülkiyyət münasibətlərinə zidd gəlir. Bu münasibətlər məhsuldar qüvvələrin inkişaf formalarından dönüb onlar üçün buxov olur. Onda ictimai inqilab dövru başlanır. İqtisadi əsas dəyişildikdə, bütün böyük üstqurumda çox və ya az sür`ətlə çevriliş əmələ gəlir. Belə çevrilişləri tədqiq edirkən, istehsalın iqtisadi şəraitində baş verib təbii-elmi bir dürustlüklə muəyyən edilən

maddi çevrilişi həmişə hüquqi, siyasi, dini, bədii və ya fəlsəfi formalardan, qısası insanların bu toqquşmanı dərk etdikləri və onu həll etmək üçün mübarizə apardıqları ideoloji formalardan ayırd edib fərqləndirmək lazımdır. Ayrıca bir adam haqqında onun özünün öz barəsində nə duşündüyünə əsasən fikir yeritmək mümkün olmadığı kimi, belə bir çevriliş dövrü haqqında da həmin dövrün şüuruna görə fikir yeritmək olmaz. Əksinə, bu şuuru maddi həyatın ziddiyyətləri ilə, ictimai məhsuldar qüvvələrlə istehsal münasibətləri arasındakı toqquşma ilə izah etmək lazımdır. Heç bir ictimai formasiya, onun kifayət qədər meydan verdiyi butün məhsuldar qüvvələr inkişaf etmədikcə məhv olmur və daha yuksək yeni istehsal münasibətləri, köhnə səmiyyətin öz içərisində bu münasibətlərin mövcud olması üçün lazım gələn maddi şərait yetişmədikcə meydana gəlmir. Buna görə həmişə bəşəriyyət öz qarşısına ancaq yerinə yetirə biləcəyi vəzifələr qoyur, çünki yaxından baxanda həmişə mə`lum olur ki, vəzifə özü yalnız, onu yerinə yetirməyin maddi şəraiti mövcud olanda və ya, heç olmazsa, bu şərait qərarlaşma prosesində olduğu zaman meydana gəlir. Asiya, antik, feodal və müasir burjua istehsal üsullarını ümumiyyətlə, iqtisadi-ictimai formasiyanın mutərəqqi dövrləri kimi qeyd etmək olar. Burjua istehsal münasibətləri,–ictimai istehsal prosesinin son antaqonist formasıdır, həm də fərdi antaqonizm mə`nasında deyil, fərdlərin ictimai həyat şəraitindən meydana gələn antaqonizm mə`nasında antaqonist formasıdır; lakin burjua cəmiyyətinin öz içərisində inkişaf edən məhsuldar qüvvələr eyni zamanda bu antaqonizmi həll etmək üçün maddi şərait yaradır. Buna görə də insan cəmiyyətinin tarixdən əvvəlki dövrü burjua ictimai formasiyası ilə başa çatır.

İqtisadi kateqoriyaların tənqidinə dair dahiyanə oçerki (F.Engels. «Siyasi iqtisadın tənqidinə dair ilk qeydlər» (bax: K.Marks və F.Engels. Əsərləri, 2-ci nəşri, 1-ci cild, səh. 544–571). Red.) çap edildiyi («Deutsch-Französische Jahrbücher»də) zamandan bəri daim məktublaşma vasitəsi ilə fikir mübadiləsi etdiyim Fridrix Engels mənim gəldiyim eyni nəticəyə başqa bir yolla gəlmişdi (onun «İngiltərədə fəhlə sinfinin vəziyyəti» (K.Marks və F.Engels. Əsərləri, 2-ci nəşri, 2-ci cild, səh. 231–517). Red.) əsəri ilə müqayisə et); odur ki, 1845-ci ilin yazında o da Brüsselə köçəndə, biz alman fəlsəfəsinin ideoloji baxışlarının əksinə olaraq, öz baxışlarımızı birlikdə işləyib hazırlamağı, əslində öz əvvəlki fəlsəfi vicdanımızla haqq-hesabı bitirməyi qərara aldıq. Bu niyyətimiz Hegeldən sonrakı fəlsəfənin

tənqidi şəklində yerinə yetirildi (K.Marks və F.Engels. «Alman ideologiyası» (Bax: K.Marks və F.Engels. Əsərləri, 2-ci nəşri, 3-cü cild, səh. 7–544). Red.). Vərəqin səkkizdə bir hissəsi şəklində iki qalın cild həcmində olan əlyazması nəşr edilmək üçün Vestfaliyaya gəlib çatandan çox sonra bizə xəbər verdilər ki, vəziyyət dəyişildiyinə görə bunu çap etmək mümkün olmur. Biz öz başlıca məqsədimizə çatıb məsələni özümüzə aydınlaşdırmış olduğumuza görə, böyük bir həvəslə əlyazmasını siçanların çeynəmə tənqidinə verdik. O zaman öz baxışlarımızı camaata bu və ya başqa cəhətdən şərh etdiyimiz ayrı-ayrı əsərlərdən mən yalnız Engels ilə birlikdə yazmış olduğum «Kommunist Partiyasının manifestini» (Bax: həmin cild, səh. 110–143. Red.) və mənim nəşr etdirdiyim «Ticarət azadlığı haqqında nitqi» (Bax: K.Marks və F.Engels. Əsərləri, 2-ci nəşri, 4-cü cild, səh. 404–418. Red.) göstərəcəyəm. Bizim baxışlarımızın həlledici nöqtələri, yalnız mübahisə şəklində olsa da, mənim ilk dəfə 1847-ci ildə çap edilib Prudona qarşı çevrilən «Fəlsəfə yoxsulluğu» (Bax: K.Marks və F.Engels. Əsərləri, 2-ci nəşri, 4-cü cild, səh. 65–185. Re.d.) əsərimdə elmi şəkildə şərh edilmişdir. Brüsseldəki alman fəhlələri ittifaqında63 oxuduğum mühazirələri toplayaraq «Muzdlu əmək» haqqında almanca yazdığım əsərin (Bax: həmin cild, səh. 153–184. Red.) çapı fevral inqilabı nəticəsində və bununla əlaqədar olaraq mənim zorla Belçikadan çıxarılmağım nəticəsində dayandırıldı. 1848 və 1849-cu illərdə «Neue Rheinische Zeitunq»62un nəşri və sonrakı hadisələr mənim iqtisad məşğələlərimin arasını kəsdi və mən bu məşğələlərimə yalnız 1850-ci ildə Londonda yenidən başlaya bildim. Britaniya muzeyində siyasi iqtisad tarixinə dair toplanmış çox böyük material, burjua cəmiyyətini öyrənmək üçün Londonun əlverişli bir müşahidə məntəqəsi olması, nəhayət, Kaliforniya və Avstraliya qızılının kəşfi ilə əlaqədar olaraq burjua cəmiyyətinin sanki yeni bir inkişaf mərhələsinə daxil olması,–bunların hamısı məni işə yenə də lap əvvəldən başlamağa və yeni materialı tənqidi surətdə işləməyə vadar etdi. Bu məşğələlərim qismən özlüyündə elə məsələlərə gətirib çıxarırdı ki, bunlar fənnin özünə sanki tamamilə aid deyil idi, lakin mən bu məsələlərə az-çox uzun vaxt sərf etməli olurdum. Lakin mənim ixtiyarımda olan vaxt güzəran pulu qazanmaq üçün işləmək kimi qəti bir zərurət üzündən xüsusilə azalırdı. Birinci ingilis-amerikan qəzeti olan «New-York Daily Tribune»149-də mənim indi səkkiz illik əməkdaşlığım (əslində qəzet məqalələrini mən yalnız bir istisna olaraq

yazıram) elmi məşğələlərimin çox tez-tez arasını kəsməyi zəruri edirdi. Lakin İngiltərədə və kontinentdə çox böyük iqtisadi hadisələr haqqındakı məqalələr qəzet üçün gördüyüm işin o qədər əhəmiyyətli hissəsini təşkil edirdi ki, mən sözün əsil mə`nasında siyasi iqtisad elmindən kənara çıxan əməli təfərruatla daha yaxından tanış olmağa məcbur idim.
Siyasi iqtisad sahəsindəki məşğələlərimin gedişi haqqındakı bu qeydlər yalnız onu göstərməlidir ki, mənim baxışlarım haqqında necə fikir yeridilsə də və bunlar hakim siniflərin eqoist yanlış fikirlərinə nə qədər az uyğun gəlsə də, uzun illər boyu vicdanla keçirdiyim tədqiqatın nəticəsidir.
Cəhənnəmin qapısında olduğu kimi, elmin də qapısında belə bir tələb yazılmalıdır:
«Qui si convien lasciare ogni sospetto;
Ogni vilta convien che qui sia morta»
(«Burada gərəkdir qəlbdə mətanət;
Burada qorxudan alma məsləhət»
(Dante. «İlahi komediya»). Red.)
Karl Marks. London, yanvar 1859-cu il.
İlk dəfə aşağıdakı kitabda çap edilmişdir:
«Zur Krtik der politisch n O konomie von Karl Marx». Erstes Neft, Berlin, 1859
F.ENGELS
KARL MARKS. «SİYASİ İQTİSADIN TƏNQİDİNƏ DAİR» BİBRİNCİ BURAXILIŞ, BERLİN, FRANS DUNKER, 1859253
I
Almanlar artıq çoxdan sübut etmişlər ki, bütün elm sahələrində başqa mədəni millətlərə bərabərdirlər, bu sahələrin çox hissəsində isə hətta onlardan üstündürlər. Yalnız bir elmin–siyasi iqtisad elminin çox böyük nümayəndələri arasında heç bir alman adı yox idi. Bunun səbəbi aydındır. Siyasi iqtisad müasir burjua cəmiyyətinin nəzəri təhlilidir və buna görə də inkişaf etmiş burjua münasibətlərinin olmasını tələb edir, Almaniyada isə bu münasibətlər Reformasiya müharibələri ilə kəndli müharibələri zamanından, xüsusilə Otuz illik müharibə254 zamanından e`tibarən yüz illər ərzində meydana gələ bilməmişdi. Hollandiyanın imperiyadan ayrılması255 Almaniyanı dünya ticarətindən sıxışdırıb çıxartmış və lap əvvəldən onun sənaye inkişafını ən cüz`i bir çərçivəyə salmışdı həm də almanlar vətəndaş müharibələrinin dağıntılarından özlərini çox çətinliklə

və çox yavaş-yavaş düzəltdikləri bir zamanda, heç vaxt çox da böyük olmayan bütün öz mülki enerjilərini, hər bir xırda knyaz və imperiya baronunun öz təbəələrinin sənayesi üçün qoyduğu gömrük sərhədlərinə və sarsaq ticarət qaydalarına qarşı səmərəsiz mübarizədə israf etdikləri bir zamanda, imperiyanın şəhərləri xırda sexçilik və patrisi lovğalığı içərisində tənəzzül etdiyi bir zamanda,–belə bir vaxtda Hollandiya, İngiltərə və Fransa dünya ticarətində birinci yerləri tuturdular, bir-birinin ardınca yeni müstəmləkələr salır və manufaktura sənayesini yüksək dərəcədə inkişaf etdirirdilər, nəhayət, İngiltərə öz kömür və dəmir yataqlarına ilk dəfə sərvət qiymətini verən buxar sayəsində müasir burjua inkişafının başında durdu. Lakin nə qədər ki, 1830-cu ilədək Almaniyanın maddi burjua inkişafını sıxışdıran gülünc dərəcədə köhnəlmiş orta əsr qalıqlarına qarşı mübarizə etmək lazım gəlirdi, alman siyasi iqtisadı mümkün deyildi. Yalnız Gömrük ittifaqı151 yaradılandan sonra almanlar elə bir vəziyyətə çatdılar ki, ümumiyyətlə siyasi iqtisadı ancaq anlaya bilərdilər. Bu zamandan e`tibarən alman burjuaziyasının ehtiyacları üçün ingilis və fransız siyasi iqtisadı həqiqətən idxal edilməyə başlandı. Aradan çox keçmədən alim adamlar və bürokratiya idxal edilən materiala yiyələndilər və onu elə bir şəklə saldılar ki, bu da «alman ruhuna» o qədər də şərəf qazandırmır. O zaman cızmaqaraçı fırıldaqçılar, tacirlər, məktəb tərbiyəçiləri və bürokratlardan ibarət alabəzək bir kompaniya alman iqtisad ədəbiyyatını meydana gətirdi ki, bu da öz bayağılığı, səthiliyi, ideyasızlığı, cəfəngiyatla dolu olması və başqalarının fikrini oğurlaması cəhətdən yalnız alman romanı ilə müqayisə edilə bilər. Əməli istiqamət adamları içərisində əvvəlcə himayəçi-sənayeçilər məktəbi əmələ gəldi; bu məktəbin ən nüfuzlu nümayəndəsi olan List alman burjua iqtisad ədəbiyyatının törəmələri içərisində hələ də ən yaxşısıdır, halbuki onun bütün tə`rifli əsəri kontinent sisteminin14 nəzəri banisi olan fransız Feryedən köçürülmüşdür. Bu istiqamətin əksinə olaraq, 40-cı illərdə Baltik əyalətləri tacirlərindən ibarət azad ticarət məktəbi meydana gəldi ki, onların da uşaq qədər sadəlövh, lakin mənfəətpərəst əqidəsində ingilis fritrederlərinin183 dəlillərinin əks-sədaları özünü göstərirdi. Nəhayət, elmi nəzəri cəhətdən təhlilə girişən məktəb tərbiyəçiləri və bürokratlar arasında faktları tənqid etmədən səmərəsiz yığıb toplayan c. Rau kimilərinə, və əcnəbi müəlliflərin müddəalarını başa düşmədikləri Hegel dilinə tərcümə edən c. Şteyn kimi əllamələk göstərən spekulyativ filosoflara, yaxud «mədəniyyət tarixi» sahəsində belletristikaya

uyan c. Ril kimi əfəllərə təsadüf edilirdi. Bütün bunlardan, ən nəhayət, kameralistika256, yə`ni hər şeyin qatışığından bişirilib üstünə eklektik-iqtisad sousu tökülən elə xəşil əmələ gəldi ki, bunu bilmək hökumət mə`muru vəzifəsinə keçmək istəyənlərin dövlət imtahanında onlardan tələb olunur.

Almaniyada burjuaziya, məktəb tərbiyəçiləri və bürokraqiya, ingilis-fransız siyasi iqtisadının prinsiplərinə toxunulmaz bir ehkam kimi yanaşaraq, bunları hələ əzbərləməyə və az-çox başa düşməyə çalışdıqları bir zamanda, alman proletar partiyası meydana gəldi. Bu partiyanın nəzəriyyəsinin bütün məzmunu siyasi iqtisadın öyrənilməsi əsasında yarandı; almanlar arasında müstəqil elmi siyasi iqtisad da bu partiyanın meydana çıxdığı zamandan başlanır. Bu alman siyasi iqtisadı əslində tarixin materialist anlayışına əsaslanır, bu anlayışın da əsas cəhətləri, təhlil etdiyimiz bu əsərin müqəddiməsində qısaca izah edilmişdir. Həmin müqəddimə əsasən «Das Volk»257 qəzetində çap edilmişdi, buna görə də biz oraya müraciət etməyi oxucuya məsləhət görürük. Təkcə siyasi iqtisad üçün deyil, bütün tarix elmləri üçün (tarix elmləri isə təbiət haqqında olmayan elmlərdir) belə bir müddəa inqilabiləşdirici bir kəşf oldu ki, «maddi həyatın istehsal üsulu ümumiyyətlə həyatın ictimai, siyasi və mə`nəvi prosesləri üçün şərt olur», tarixdə meydana gələn bütün ictimai münasibətlər və dövlət münasibətləri, bütün dini və hüquqi sistemlər, bütün nəzəri baxışlar yalnız o zaman anlaşıla bilər ki, hər bir müvafiq dövrün maddi həyat şəraiti anlaşılsın və bütün qalanları həmin maddi şəraitdən hasil edilsin. «İnsanların varlığını onların şüuru müəyyən etmir, əksinə, insanların ictimai varlığı onların şüurunu müəyyən edir». Bu müddəa o qədər sadədir ki, idealist baş aldatması içərisində donub qalmayan hər kəs üçün özlüyündə aydın olmalı idi. Lakin bundan təkcə nəzəriyyə üçün deyil, təcrübə üçün də son dərəcə inqilabi nəticələr çıxır: «Cəmiyyətin maddi məhsuldar qüvvələri öz inkişafının müəyyən pilləsində mövcud istehsal münasibətlərinə, yaxud bu münasibətlərin ancaq hüquqi ifadəsi olub məhsuldar qüvvələri indiyədək öz daxilində inkişaf etdirən mülkiyyət münasibətlərinə zidd gəlir. Bu münasibətlər məhsuldar qüvvələrin inkişaf formalarından dönüb onlar üçün buxov olur. Onda ictimai inqilab dövrü başlanır. İqtisadi əsas dəyişildikdə, bütün böyük üstqurumda çox və ya az sür`ətlə çevriliş əmələ gəlir... Burjua istehsal münasibətləri ictimai istehsal prosesinin son antaqonist formasıdır, həm də fərdi antaqonizm mə`nasında deyil, fərdlərin ictimai həyat

şəraitindən meydana gələn antaqonizm mə`nasında antaqonist formasıdır; lakin burjua cəmiyyətinin öz içərisində inkişaf edən məhsuldar qüvvələr eyni zamanda bu antaqonizmi həll etmək üçün maddi şərait yaradır». Beləliklə, bizim materialist tezisimiz daha da inkişaf etdirilib zəmanəmizə tətbiq ediləndə, dərhal qarşımızda bütün zəmanələrin böyük, ən böyük inqilabının perspektivi açılmış olur.

İnsanların varlığı onların şüurundan asılı olmaq deyil, əksinə, insanların şüuru onların varlığından asılı olduğu müddəası sadə görünür; lakin yaxından nəzər saldıqda dərhal mə`lum olur ki, bu müddəanın ilk nəticələrinin özü hər cür idealizmə, hətta ən gizli idealizmə də ölüm zərbəsi vurur. Bu müddəa tarixi olan hər şey haqqında irsi və adət edilmiş baxışların hamısını inkar edir. Bütün ən`ənəvi siyasi təfəkkür tərzi dağılıb gedir; vətənpərvərlik nazikqəlbliyi bunca günah bir baxışa qarşı hiddətlə üsyan edir. Buna görə də yeni dünyabaxışı təkcə burjuaziya nümayəndələri tərəfindən deyil, həmçinin «liberte, egalite, fraternite» (azadlıq, bərabərlik, qardaşlıq. Red.) kimi e`cazkar formul vasitəsi ilə dünyanı al-tüst etmək istəyən yığın-yığın fransız sosialistləri tərəfindən də müqavimətə rast gəlir. Lakin bu nəzəriyyə alman vulqar-demokratik çığırqanları arasında xüsusilə böyük qəzəblə qarşılanmışdır. Bununla belə onlar yeni ideyaları, doğrudur, az təsadüf ediləcək dərəcədə anlamadıqları halda bu ideyalardan oğurluq yolu ilə istifadə etməyə böyük sə`y göstərirdilər.

Heç olmazsa yeganə bir tarixi misal əsasında materialist anlayışını inkişaf etdirmək illər boyu sakit məşğələ tələb edən bir elmi iş idi, zira aydındır ki, burada təkcə ibarə ilə heç bir şey etmək olmaz və yalnız tənqidi surətdə yoxlanmış, mükəmməl mənimsənilmiş geniş tarixi material belə bir vəzifəni yerinə yetirməyə imkan verir. Fevral inqilabı isə bizim partiyamızı siyasi səhnəyə çıxartdı və bununla da onun xalis elmi məqsədlər güdməsinə imkan vermədi. Buna baxmayaraq, həmin əsas baxış partiyanın bütün ədəbi əsərlərində ana xətt təşkil edir. Həmin əsərlərin hər yerində, hər bir ayrıca halda göstərilir ki, hər dəfə siyasi hərəkət bilavasitə hərəkətverici maddi səbəblərlə yanaşı işlədilən ibarələrdən deyil, həmin səbəblər nəticəsində necə meydana gəlmişdir və əksinə necə, siyasi hərəkət və onun nəticələri kimi siyasi və hüquqi ibarələr də eyni ilə hərəkətverici maddi səbəblərdən törəyir. 1848–1849-cu illər inqilabının məğlubiyyətindən sonra elə bir məqam gəlib çatdı ki, xaricdən Almaniyaya tə`sir göstərmək getdikcə daha az mümkün olurdu; onda bizim partiyamız mühacirlər

arasındakı didişmələr meydanını vulqar demokratiyaya verdi, çünki didişmələr mümkün olan yeganə fəaliyyət idi. Həm də vulqar demokratiya didişmə ilə məşğul olub bundan zövq alanda, bu gün dava salıb sabah qardaşlaşmağa, o biri gün isə bütün dünya qarşısında öz çirkli alt paltarını yenidən yumağa başlayanda, bu vulqar demokratiya bütün Amerikada özü üçün pul dilənib, əldə edilən bir neçə taleri bölüşdürmək üstündə dərhal yenidən savaşmağa başlayanda,–bizim partiyamız elmi məşğələlər üçün yenə bir qədər sakitlik əldə etdiyindən şad olurdu. Bizim partiyanın çox böyük üstünlüyü bunda idi ki, onun nəzəri əsası yeni elmi dünyagörüşündən ibarət idi və bu dünyagörüşünün hazırlanması ondan xeyli çox məşğul olmağı tələb etmişdi. Bir tək buna görə həmin partiya mühacirətin «böyük adamları» kimi alçala bilməzdi.

Həmin tədqiqatın birinci səmərəsi qarşımızdakı kitabdan ibarətdir.

II

Qarşımızda duran əsər kimi bir əsərdə siyasi iqtisadın bir-birindən ayrılıqda götürülən ayrı-ayrı müddəalarının sadəcə tənqidindən, bu və ya başqa mübahisəli iqtisad məsələlərini əlaqəsiz şəkildə nəzərdən keçirməkdən bəhs edilə bilməz. Əksinə, bu əsər lap əvvəldən iqtisad elmlərinin bütün kompleksini müntəzəm surətdə əhatə etmək, burjua istehsalı və burjua mübadiləsi qanunlarını əlaqəli şəkildə şərh etmək əsasında qurulmuşdur. İqtisadçılar isə həmin qanunların izahçıları və məddahlarından başqa bir şey olmadıqlarına görə, bu şərh eyni zamanda bütün iqtisad ədəbiyyatının tənqididir.

Hegelin vəfatından bəri heç olmazsa hər hansı bir elmi, onun özünə xas olan daxili əlaqəsi halında götürüb inkişaf etdirmək üçün, çətin ki, bir təşəbbüs edilmişdir. Rəsmi Hegel məktəbi öz müəlliminin dialektikasından yalnız ən bəsit üsullar işlətməyi öyrənib bu üsulları hər yerdə işlədir, həm də çox zaman gülünc dərəcədə yöndəmsiz işlədirdi. Hegelin bütün irsi bu məktəb üçün hər hansı bir mövzunun qurulmasında istifadə edilən sadə bir qəlibdən, yalnız fikir və müsbət bilik çatışmadığı yerdə vaxtında işlədilməyə yarayan söz və ibarələr siyahısından ibarət olurdu. Beləliklə, bir nəfər Bonn professorunun dediyi kimi, belə bir vəziyyət yaranmışdı ki, həmin hegelçilər «heç şeydə» bə`zi şeylər başa düşürdülər, amma «hər şeydən» yaza bilirdilər. Bu, əlbəttə, həqiqətdə də belə idi. Lakin bu cənabların bütün təkəbbürünə baxmayaraq, onlar öz zəifliklərini o qədər möhkəm başa düşürdülər ki, böyük vəzifələrdən mümkün qədər uzaqda

durmağa çalışırdılar; mühafizəkar, köhnəlmiş elm öz mövqelərini müsbət biliklər sahəsindəki üstünlüyü sayəsində mühafizə edib saxlayırdı. Ancaq Feyerbax abstrakt ideyanı əsassız e`lan edəndan sonra hegelçilik yavaş-yavaş söndü və elə görünməyə başladı ki, köhnə metafizika və onun hərəkətsiz kateqoriyaları elmdə yenidən hökmranlığa başlamışdır.
Bu halın öz təbii səbəbi var idi. Boş ibarənin hökmranlığına gətirib çıxaran Hegel diadoxları258 rejimindən sonra təbii surətdə elə bir dövr başlandı ki, bu zaman elmin müsbət məzmunu yenə onun formal cəhətindən üstün oldu. Eyni zamanda Almaniya tamamilə müstəsna bir qüvvə ilə təbiət elmləri üzərinə atıldı ki, bu da 1848-ci ildən e`tibarən onun coşqun burjua inkişafına uyğun idi; həm də spekulyativ cəhətin heç vaxt az-çox böyük əhəmiyyət qazanmadığı bu elmlər dəbə düşdükcə, bütün köhnə metafizik təfəkkür tərzi Volf bayağılığının hətta ən ifrat dərəcələrinə qədər yenidən yayıldı. Hegel unuduldu, yeni təbii-elmi materializm inkişaf etdi ki, bu da XVIII əsr materializmindən nəzəri cəhətcə, demək olar, heç bir şeylə fərqlənmir; onun əksəriyyətlə yalnız belə bir üstünlüyü vardır ki, bu yeni materializmin daha zəngin təbii-elmi, xüsusilə kimya və fiziologiya materialı vardır. Biz Kantdan əvvəlki dövrün bu məhdud filister təfəkkür üsulunun ən böyük bayağılıq dərəcəsinə çatdırılan şəkildə yenidən canlandığını Büxner və Foqtda görürük; hətta Feyerbaxa and içən Moleşott da hər dəqiqə ən sadə kateqoriyalarda çox qəribə şəkildə dolaşıb qalır. Adi burjua düşüncəsinin yöndəmsiz ağır araba atı, əlbəttə, mahiyyəti təzahürdən, səbəbi nəticədən ayıran bir xəndək qarşısında çətin vəziyyətə düşüb dayanır. Lakin abstrakt təfəkkürün son dərəcə kələ-kötür yerlərində tula ilə ova çıxmağa hazırlaşanda, məhz ağır araba atına minmək olmaz. Beləliklə, burada əsil siyasi iqtisada dəxli olmayan başqa bir məsələni həll etmək lazım idi. Elmi tədqiqatda hansı metodu seçməli? Bir tərəfdən Hegelin özündən sonra qoyub getdiyi tamamilə abstrakt, «spekulyativ» şəkildə Hegel dialektikası var idi; digər tərəfdən, indi yenidən dəb olmuş, mahiyyətcə Volfun metafizik metodundan ibarət adi metod var idi ki, burjua iqtisadçıları bu metoda əsaslanıb öz rabitəsiz qalın kitablarını yazırdılar. Bu sonuncu metod nəzəri cəhətdən Kant və xüsusən Hegel tərəfindən o qədər darmadağın edilmişdi ki, yalnız ətalət və başqa bir sadə metodun yoxluğu onun əməli surətdə mövcud olmasına imkan verirdi. Digər tərəfdən, Hegel metodu meydanda olduğu şəklində tamamilə yararsız idi. Bu metod mahiyyətcə idealist metod idi, burada isə bütün

əvvəlkilərə nisbətən daha çox materialist olan bir dünyagörüşünü inkişaf etdirmək tələb olunurdu. Hegelin metodu xalis təfəkkürə əsaslanırdı, burada isə ən sərt faktlara əsaslanmaq lazım gəlirdi. Hegelin öz e`tirafına görə, «heçdən heç vasitəsi ilə heçə gəlib çıxan»259 bir metod bu şəklində burada tamamilə yersiz idi. Bununla belə, meydanda olan bütün məntiq materialı içərisində bu metod hər halda istifadə edilə biləcək yeganə material idi. Bu metod tənqid edilməmişdi, heç kəs onu rədd etməmişdi böyük dialektikin əleyhdarlarından heç kəs həmin metodun məğrur binasını yara bilməmişdi; bu metod ona görə unuduldu ki, Hegel məktəbi bilmirdi bunu nə etsin. Buna görə də birinci növbədə Hegel metodunu əsaslı surətdə tənqid etmək lazım idi.

Hegelin təfəkkür üsulu bütün başqa filosofların təfəkkür üsulundan öz əsasında çox böyük tarixi duyğu olması ilə fərqlənirdi. Forması son dərəcə abstrakt və idealist olsa da, hər halda onun fikirlərinin inkişafı həmişə dünya tarixinin inkişafı ilə paralel gedirdi və dünya tarixi, əslində ancaq onun təsdiqi olmalı idi. Əgər bunun nəticəsində həqiqi nisbət çevrilib başı üstə qoyulmuşdusa, bununla belə hər yerdə fəlsəfəyə real məzmun daxil olurdu, xüsusən ona görə ki, Hegel öz şagirdlərindən fərqli olaraq, onlar kimi nadanlıqda bir yaxşılıq görmürdü, bütün zəmanələrin ən mə`lumatlı adamlarından biri idi. O, tarixin inkişafını və daxili əlaqəsini birinci olaraq göstərməyə çalışmışdır və onun tarix fəlsəfəsində bir çox şey indi bizə nə qədər qəribə görünsə də, onun əsas baxışlarının möhtəşəmliyi hətta hazırkı zamanda hələ yenə də təəccübə layiqdir, xüsusən onun sələfləri və ya ondan sonra tarix haqqında ümumi mülahizələr söyləmək cəsarətində olanlar onunla müqayisə ediləndə, bu təəccüb özünü aydın hiss etdirir. Onun «Fenomenologiya», «Estetika» və «Fəlsəfə tarixi» əsərlərində,–hər yerdə tarixin bu möhtəşəm anlayışı ana xətti təşkil edir və material hər yerdə tarixən nəzərdən keçirilir, təhrif olunmuş abstrakt əlaqədə olsa da, tarixlə müəyyən bir əlaqədə nəzərdən keçirilir.

Tam bir dövr təşkil edən bu tarix anlayışı yeni materialist baxışın bilavasitə nəzəri başlanğıc nöqtəsi idi və bunun sayəsində məntiqi metod üçün də başlanğıc nöqtəsi verilmiş oldu. Əgər bu unudulmuş dialektika, hətta «xalis təfəkkür» nöqteyi-nəzərindən belə nəticələrə gətirib çıxarmışdırsa, əgər bu dialektika eyni zamanda bütün əvvəlki məntiqi və metafizikanı belə asanlıqla aradan qaldırmışdısa, deməli, bunda sadəcə sofistikadan və sxolastik uydurmalardan hər halda artıq bir şey var idi. Lakin bu metodu

tənqid etmək asan bir vəzifə deyildi; bütün rəsmi fəlsəfə bu işə girişməkdən qorxurdu və hələ indi də qorxur.
Marks Hegelin məntiq sahəsindəki həqiqi kəşflərini təşkil edən özəyi onun məntiqi içərisindən çıxardıb azad etmək və idealist qabıqlarından azad olunmuş dialektik metodu öz sadə şəklində, yə`ni fikrin yeganə düzgün inkişaf forması olduğu şəklində bərpa etmək zəhmətini öz üzərinə götürə bilən yeganə insan olmuş və belə bir insan olaraq qalır. Biz belə hesab edirik ki, siyasi iqtisadın Marks tərəfindən tənqidinin əsasını təşkil edən metodun hazırlanması öz əhəmiyyəti e`tibarı ilə əsas materialist anlayışdan heç də geri qalmayan bir nəticədir.
Siyasi iqtisadı hətta hazır metoda uyğun şəkildə iki cür: ya tarixi yolla, ya da məntiqi yolla tənqid etmək olardı. Tarixdə, habelə onun ədəbiyyatdakı in`ikasında inkişaf ümumiyyətlə ən bəsit münasibətlərdən daha mürəkkəb münasibətlərə doğru getdiyinə görə, siyasi iqtisad ədəbiyyatının tarixi inkişafı, tənqidin əsas tuta biləcəyi təbii rəhbər xətti verirdi; həm də ümumiyyətlə iqtisadi kateqoriyalar məntiqi inkişafdakı eyni ardıcıllıqla meydana gələ bilərdi. Bu forma ilk nəzərdə daha aydın olması cəhətdən üstündür, çünki burada həqiqi inkişaf nəzərdən keçirilir, lakin həqiqətdə belə bir forma ən yaxşı halda yalnız daha populyar bir forma olardı. Tarix çox zaman sıçrayışlar və dolanbac yollarla irəliləyir və əgər onu hər yerdə izləmək məcburi olsaydı, onda nəinki az əhəmiyyətli olan bir çox materialı nəzərə almaq, habelə çox zaman fikir cərəyanının arasını kəsmək də lazım gələrdi. Həm də burjua cəmiyyətinin tarixini yazmadan siyasi iqtisadın tarixini yazmaq olmaz, bu isə həmin işi sonsuz bir işə çevirərdi, çünki heç bir hazırlıq işi görülməmişdir. Beləliklə, məntiqi tədqiq metodu yeganə münasib metod idi. Lakin mahiyyətcə bu metod yenə həmin tarixi metoddan başqa bir şey deyildi, ancaq tarixi formadan və ona mane olan təsadüfi hallardan azad edilmişdir. Tarix nədən başlayırsa, fikir cərəyanı da bundan başlanmalıdır və onun sonrakı hərəkəti tarixi prosesin abstrakt və nəzəri cəhətcə ardıcıl formada in`ikasından başqa bir şey olmaz; bu in`ikas duzəldilmiş olar, lakin həqiqi tarixi prosesin özünün verdiyi qanunlara uyğun surətdə düzəldilmiş olar, həm də hər bir an onun elə inkişaf nöqtəsində nəzərdən keçirilə bilər ki, bu nöqtədə proses tamamilə yetkinləşir, öz klassik formasını alır.
Bu metodda biz tarixən, həqiqətən qarşımızda olan birinci və ən bəsit münasibəti, deməli, təsadüf etdiyimiz birinci iqtisadi münasibəti əsas

götürürük. Biz bu münasibəti təhlil edirik. Bunun bir münasibət olması faktı özü göstərir ki, onda bir-birinə münasibətdə olan iki tərəf vardır. Biz bu tərəflərdən hər birini ayrılıqda araşdırırıq bundan da onların bir-birinə münasibətinin xarakteri, onların qarşılıqlı tə`siri irəli gəlir. Bu zaman, həll edilməsi lazım gələn ziddiyyətlər meydana çıxır. Lakin biz burada yalnız zehnimizdə baş verən abstrakt fikir prosesini deyil, vaxtilə baş vermiş və ya hələ də baş verən həqiqi prosesi nəzərdən keçirdiyimizə görə, bu ziddiyyətlər də təcrübədə inkişaf edir və ehtimal ki, öz həllini tapmışdır. Biz onların necə həll edildiyini izləyib görərik ki, bu, yeni münasibət yaranması yolu ilə əldə edilmişdir və indi biz bu yeni münasibətin, bir-birinə əks olan iki tərəfini inkişaf etdirməliyik və i.a.

Siyasi iqtisad əmtəədən başlayır, elə bir andan başlayır ki, o zaman ayrı-ayrı şəxslər və ya ibtidai icmalar müxtəlif məhsulları bir-biri ilə mübadilə edirlər. Mübadilə olunan məhsul əmtəədir. Lakin bu məhsul yalnız ona görə əmtəədir ki, iki şəxs və ya icma arasındakı münasibət, burada daha eyni bir şəxsin simasında birləşmiş olmayan istehsalçı ilə istehlakçı arasındakı münasibət bu şeydə, bu məhsulda bağlanıb əmələ gəlir. Burada biz bütün siyasi iqtisadda özünü göstərib burjua iqtisadçılarının zehnində dəhşətli dolaşıqlıq törədən spesifik bir faktın misalını dərhal qarşımızda görürük siyasi iqtisad şeylərlə deyil, insanlar arasındakı və nəticə e`tibarı ilə siniflər arasındakı münasibətlərlə məşğul olur, lakin bu münasibətlər həmişə şeylərlə əlaqədardır və şey şəklində təzahür edir. Ayrı-ayrı hallarda bu və ya başqa bir iqtisadçının, əlbəttə, yalnız duyduğu bu əlaqəni və bütün siyasi iqtisad üçün onun bütün əhəmiyyətini birinci dəfə olaraq Marks aşkara çıxarmış və bunun sayəsində ən çətin məsələləri o qədər sadə və aydın şəklə salmışdır ki, indi bunları hətta burjua iqtisadçıları da anlaya bilərlər.

Əgər biz əmtəəni öz müxtəlif cəhətlərindən nəzərdən keçiririksə, həm də onu hələ iki ibtidai icma arasındakı ibtidai mübadilə ticarətində çətinliklə inkişaf etdiyi halında deyil, tamamilə inkişaf etmiş halında nəzərdən keçiririksə, əmtəə qarşımıza iki nöqteyi-nəzərdən istehlak dəyəri və mübadilə dəyəri cəhətdən çıxır. Burada biz dərhal iqtisadi mübahisələr sahəsinə daxil oluruq. Dəmiryollar orta əsrlərdəki nəqliyyat vasitələrindən nə qədər yüksəkdirsə, alman dialektik metodunun da özünün indiki inkişaf pilləsində köhnə, bayağı-uzunçu metafizik metoddan ən azı bir o qədər yüksək olduğuna dair kim parlaq bir misal əldə etmək istəyirsə, qoy Adam

Smitin və ya hər hansı başqa bir tanınmış rəsmi iqtisadçının əsərlərində oxuyub: mübadilə dəyəri ilə istehlak dəyərinin bu cənablara nə qədər əziyyət verdiyini, bunları bir-birindən dürüst ayırmağın və hər birinin öz spesifik müəyyənliyini anlamağın onlar üçün nə qədər çətin olduğunu orada görsün və sonra həmin məsələyə Marksın verdiyi aydın, sadə şərhi bununla müqayisə etsin.

İstehlak və mübadilə dəyərinin mahiyyəti aydınlaşdırılandan sonra, əmtəə bunların hər ikisinin bilavasitə vəhdəti kimi, mübadilə prosesinə daxil olduğu şəkildə qarşımıza çıxır. Burada nə kimi ziddiyyətlər meydana çıxdığını oxucu 20–21 səhifələrdə (K.Marks. «Siyasi iqtisadın tənqidinə dair» (Bax: K.Marks və F.Engels. Əsərləri, 2-ci nəşri. 13-cü cild, səh. 29–31). Red.) tapa bilər. Ancaq bunu qeyd edək ki, bu ziddiyyətlər təkcə abstrakt, nəzəri cəhətdən maraqlı olmaqla qalmır, eyni zamanda bilavasitə mübadilə münasibətinin təbiətindən, bəsit mübadilə ticarətindən irəli gələn çətinlikləri də əks etdirir, mübadilənin bu birinci kobud formasının labüd surəqdə rast gəldiyi imkansızlıqları da əks etdirir. Bu imkansızlıqların həll edilməsi ondan ibarətdir ki, bütün başqa əmtəələrin mübadilə dəyərini təmsil etmək xassəsi xüsusi bir əmtəə olan pula keçirilir. Pul və ya bəsit tədavül sonra ikinci fəsildə və məhz belə nəzərdən keçirilir: 1) pul dəyər ölçüsüdür, həm də pulla ölçülən dəyərə, qiymətə buradaca ən yaxın tə`rif verilir, 2) pul tədavül vasitəsidir və 3) pul hər iki tə`rifin vəhdətidir, real puldur, bütün maddi burjua sərvətinin nümayəndəsidir. Birinci buraxılışın şərhi bununla bitir, pulun kapitala keçməsi isə ikinci buraxılışa saxlanır. Biz görürük ki, bu metodda məntiqi inkişaf heç də yalnız xalis abstrakt sahədə qalmağa məcbur deyildir. Əksinə, onun tarixi misallara, gerçəkliklə daim əlaqəsi olmağa ehtiyacı vardır. Buna görə də burada istər ictimai inkişafın müxtəlif pillələrində hadisələrin həqiqi tarixi gedişini göstərmək şəklində, istərsə iqtisadi ədəbiyyatı göstərmək şəklində bu qədər müxtəlif misallar verilir ki, bundan da məqsəd iqtisadi münasibətlərin aydın tə`riflərinin necə əmələ gəldiyi prosesini lap əvvəldən izləməkdir. Az-çox birtərəfli və ya dolaşıq olan ayrı-ayrı baxışların tənqidi əsasən məntiqi inkişafın özündə verilmişdir, odur ki, qısaca şərh edilə bilər.

Üçüncu məqalədə biz kitabın özünün iqtisadi məzmununa keçəcəyik253.

F. Engels 1859-cu il avqustun 3–15-də yazmışdır.

1859-cu il avqustun 6-da və 20-də «Das Volk» qəzetinin 14 və 16-cı nömrələrində çap edilmişdir.

K.MARKS
MƏKTUBLAR
MARKS–PAVEL VASİLYEVİÇ ANNENKOVA
PARİSDƏ
Brüssel, 28 dekabr [1846-cı il]
Əziz c. Annenkov!
Mənim kitab satıcım, c. Prudonun «Yoxsulluq fəlsəfəsi» kitabını mənə göndərməyi keçən həftəyə qədər ləngitməsəydi, Sizin 1 noyabr tarixli məktubunuza cavabımı çoxdan almış olardınız. Mən bu kitabı iki gündə nəzərdən keçirdim ki, öz rə`yimi dərhal Sizə bildirməyə imkanım olsun. Kitabı çox ötəri oxuduğuma görə, təfərrüat üzərində dayana bilmərəm. Ancaq bu kitabın mənə bağışladığı ümumi tə`sirdən danışa bilərəm. Əgər istəsəniz, gələn məktubumda bu kitab haqqında daha ətrafdı yaza bilərəm. Açıq e`tiraf edirəm ki, bu kitabı ümumiyyətlə pis, çox pis kitab hesab edirəm. Siz özünüz məktubunuzda c. Prudonun bu yöndəmsiz və iddialı əsərdə «alman fəlsəfəsi guşəsi» ilə özünü göstərdiyini zarafatyana lağa qoyursunuz, lakin belə güman edirsiniz ki, fəlsəfə zəhəri onun iqtisadi tədqiqlərini zəhərləməmişdir. Mən də c. Prudonun iqtisadi tədqiqlərindəki səhvlərinin səbəbini onun fəlsəfəsində görməkdən uzağam. C-b Prudonun bizə siyasi iqtisadın yanlış tənqidini verməsinə səbəb onun gülünc bir fəlsəfə sahibi olması deyildir, onun bizə gülünc bir fəlsəfə təqdim etməsinə səbəb, müasir ictimai quruluşu, c. Prudonun, bir çox başqa şeylər kimi Furyedən götürüb işlətdiyi sözlə desək, ilişik şəkildə [engrenement] başa düşməməsidir.
Nəyə görə c. Prudon, heç bir zaman səhv etməyib həmişə özü özünə bərabər olan və həqiqətə çatmaq üçün ancaq düzgün təsəvvür edilməsi kifayət edən allahdan, ümumi zəkadan, bəşəriyyətin şəxsiyyətsiz zəkasından danışır? Nəyə görə o özünü dərin bir mütəfəkkir kimi göstərmək üçün, səthi öyrəndiyi hegelçiliyə əl atır?
Onun özü bu tapmacanın həlli yolunu bizə göstərir. C-b Prudon tarixə müəyyən ictimai təkamüllər sırası kimi baxır. O belə hesab edir ki, tarixdə tərəqqi həyata keçir. Nəhayət, o belə hesab edir ki, ayrı-ayrı şəxslər kimi götürülən adamlar nə etdiklərini bilmirdilər, özlərinin hərəkətini yanlış təsəvvür edirdilər, yə`ni ilk baxışda onların ictimai inkişafı onların fərdi inkişafından asılı olmayan, bundan ayrı, fərqli bir şey kimi görünür. O, həmin faktları izah edə bilmir, odur ki, təzahür edən ümumi zəka hipotezi

də məhz burada meydana çıxır. Sağlam düşüncə çatışmadığı hallarda mistik səbəblər, yə`ni ibarələr uydurmaqdan asan bir şey yoxdur.
Lakin c. Prudon bəşəriyyətin tarixi inkişafını əsla başa düşmədiyini e`tiraf etməklə,–o isə bunu ümumi zəka, allah və s. haqqındakı gurultulu sözlərə əl atdığı zaman e`tiraf edir,–labüddən bunu da e`tiraf etmiş olmurmu ki, iqtisadi inkişafı da başa düşə bilmir?
Hər hansı bir formada olursa-olsun, cəmiyyət nədir? İnsanların qarşılıqlı fəaliyyətinin məhsuludur. İnsanlar bu və ya başqa ictimai formanı seçməkdə sərbəstdirlərmi? Əsla yox. İnsanların məhsuldar qüvvələrinin müəyyən bir inkişaf pilləsini götürün, orada siz müəyyən bir mübadilə [commerce] və istehlak forması görərsiniz. İstehsal, mübadilə və istehlakın müəyyən bir inkişaf pilləsini götürün, orada siz müəyyən bir ictimai quruluş, müəyyən ailə, silklər və ya siniflər təşkilini, bir sözlə, müəyyən vətəndaş cəmiyyəti görərsiniz. Müəyyən bir vətəndaş cəmiyyəti götürün, orada siz vətəndaş cəmiyyətinin ancaq rəsmi ifadəsi olan müəyyən bir siyasi quruluş olduğunu görərsiniz. Cənab Prudon məhz bunu heç bir zaman başa düşməyəcəkdir, çünki belə güman edir ki, dövlətdən vətəndaş cəmiyyətinə, yə`ni cəmiyyətin rəsmi xülasəsindən rəsmi cəmiyyətə müraciət edirkən böyük bir iş görür.
Buna əlavə etmək artıqdır ki, insanlar bütün öz tarixlərinin əsasını təşkil edən öz məhsuldar qüvvələrini seçməkdə sərbəst deyildirlər, çünki hər bir məhsuldar qüvvə, əldə edilmiş qüvvədir, keçmiş fəaliyyətin məhsuludur. Beləliklə, məhsuldar qüvvələr insanların əməli sə`yinin nəticəsidir, bu sə`yin özünü isə insanların yaşadığı şərait, hələ əvvəllər əldə edilmiş məhsuldar qüvvələr, bu insanlardan qabaq mövcud olan, bu insanlar tərəfindən deyil, əvvəlki nəsillər tərəfindən yaradılmış olan ictimai forma müəyyən edir. Sonra meydana gələn hər nəsil əvvəlki iəsillərin əldə etdiyi məhsuldar qüvvələrə təsadüf edir və bu məhsuldar qüvvələr həmin nəslin əlində yeni istehsal üçün xammal olur,–belə bir sadə fakt sayəsində bəşər tarixində əlaqə yaranır, bəşəriyyətin tarixi yaranır və insanların məhsuldar qüvvələri, deməli, həmçinin onların ictimai munasibətləri nə qədər çox inkişaf etmiş olursa, bu tarix də bir o qədər mükəmməl bir bəşər tarixi olur. Buradan zəruri olaraq belə bir nəticə çıxır: insanların ictimai tarixi həmişə onların ancaq fərdi inkişafının tarixidir və bunu onların dərk edib-etməməsinin fərqi yoxdur. Onların maddi münasibətləri onların bütün

münasibətlərinin əsasını təşkil edir. Bu maddi münasibətlər ancaq, insanların maddi və fərdi fəaliyyətinin tətbiq olunduğu zəruri formalardır. C-b Prudon ideyalarla şeyləri qarışdırır. İnsanlar əldə etdikləri şeylərdən heç bir zaman əl çəkmirlər, lakin bu o demək deyildir ki, onlar müəyyən məhsuldar qüvvələri hansı ictimai forma şəraitində əldə etmişlərsə, həmin ictimai formadan əl çəkməzlər. Əksinə, insanlar əldə edilən nəticədən məhrum olmamaq və mədəniyyət bəhrələrini itirməmək üçün öz aralarındakı əlaqə üsulu [commerce] əldə edilmiş məhsuldar qüvvələrə daha uyğun gəlmədikdə, irs almış olduqları bütün ictimai formaları dəyişdirməyə məcburdurlar.–Mən burada «commerce» sözünü ən geniş mə`nada, almanca «Verkehr» sözünün işləndiyi mə`nada işlədirəm.– Məsələn: imtiyazlar, sex və korporasiyaların tə`sis olunması, orta əsrlərdəki bütün tənzimat qaydaları, əldə edilmiş məhsuldar qüvvələrə və bu tə`sisatları meydana çıxarmış ictimai quruluşun əvvəlki vəziyyətinə yeganə uyğun olan ictimai münasibətlər idi. Sex tənzimatı qaydalarının müdafiəsi ilə kapitallar yığılırdı, dəniz ticarəti inkişaf edirdi, müstəmləkələr yaradılırdı və əgər insanlar bu bəhrələrin yetişməsinə kömək etmiş formaları saxlamaq istəsəydilər, bütün bu bəhrələrdən məhrum olardılar. Buna görə iki şimşək çaxdı–1640-cı və 1688-ci illərdəki inqilablar oldu. Bütün köhnə iqtisadi formalar, bunlara uyğun olan ictimai münasibətlər, köhna vətəndaş cəmiyyətinin rəsmi ifadəsi olan siyasi quruluş,–bunların hamısı İngiltərədə dağıdıldı. Beləliklə, insanların istehsal, istehlak və mübadilə ilə məşğul olmaları şəraitini yaradan iqtisadi formalar keçici və tarixi formalardır. Yeni məhsuldar qüvvələr əldə edildikdə, insanlar öz istehsal üsulunu dəyişdirir, istehsal üsulu ilə birlikdə isə, yalnız mövcud, müəyyən istehsal üsulu üçün zəruri olan bütün iqtisadi münasibətləri də dəyişdirirlər.

C-b Prudon bunu anlamamışdır, daha az dərəcədə isə sübut etmişdir. Tarixin həqiqi gedişini izləyə bilmədiyinə görə, c. Prudon bunun əvəzində bizə elə bir fantasmaqoriya təqdim edir ki, bu da dialektik fantasmaqoriya olmaq iddiasındadır. O, XVII, XVIII və XIX əsrlər haqqında danışmağa ehtiyac hiss etmir, çünki onun bəhs etdiyi tarix xəyal buludlarının üstündəki yüksəkliklərdə cərəyan edir, zaman və məkan çərçivəsindən yüksəklərdə dolaşır. Bir sözlə, bu, Hegel zirzibilidir; bu tarix deyildir, adi bir tarix–insanların tarixi deyildir, müqəddəs bir tarix–ideyalar tarixidir. Onun nöqteyi-nəzərincə, insan ancaq elə bir alətdir ki, ideya və ya əbədi

zəka öz inkişafı üçün bundan istifadə edir. C-b Prudonun bəhs etdiyi təkamüllər mütləq ideyanın mistik ağuşunda baş verən təkamüllərdir. Əgər siz bu mistik ibarəçiliyin pərdəsini yırtsanız, görərsiniz ki, c. Prudon sizə iqtisadi kateqoriyaların onun öz beynində yerləşdiyi sıranı təsvir edir. Bunun çox dolaşıq bir beyinin sırası olduğunu sübut etmək məndən o qədər də zəhmət tələb etməyəcəkdir.

C-b Prudon öz kitabını çox sevdiyi bir mövzu olan dəyər haqqındakı düşüncələri ilə başlayır. Mən bu dəfə həmin düşüncələri təhlil etməyəcəyəm.

Əbədi zəkanın bir sıra iqtisadi təkamülləri əmək bölgüsündən başlanır. C-b Prudonun fikrincə əmək bölgüsü tamamilə sadə bir şeydir. Məgər silk quruluşu əmək bölgüsünün müəyyən bir növü deyildi? Məgər sex quruluşu əmək bölgüsünün başqa bir növü deyildi? Məgər İngiltərədə XVII əsrin ortalarından başlayıb XVIII əsrin axırlarında bitən manufaktura dövründəki əmək bölgüsü müasir iri sənayedəki əmək bölgüsündən qəti surətdə fərqlənmirmi?

C-b Prudon məsələnin mahiyyətini o qədər pis başa düşür ki, hətta adi iqtisadçıların unutmadıqları bir şeyi nəzərdən qaçırır. O, əmək bölgüsündən danışarkən, dünya bazarından danışmağa heç bir ehtiyac hiss etmir. Bəs belə! Lakin hələ müstəmləkələrin olmadığı, hələ Amerikanın varlığından Avropanın xəbərdar olmadığı, Şərqi Asiya ilə yalnız Konstantinopol vasitəsi ilə əlaqə saxlandığı XIV və XV əsrlərdə əmək bölgüsü, artıq tamamilə inkişaf etmiş müstəmləkələrin mövcud olduğu XVII əsrdəki əmək bölgüsündən əsaslı surətdə fərqlənməli deyildimi?

Lakin bu hələ heç də hamısı deyildir. Məgər xalqların bütün daxili təşkilatı, onların bütün beynəlxalq münasibətləri əmək bölgüsünün müəyyən bir növünün ifadəsi deyildir? Məgər əmək bölgüsünün dəyişilməsi ilə birlikdə bunların hamısı dəyişilməməlidir?

C-b Prudon əmək bölgüsü məsələsini anlamaqdan o qədər uzaqdır ki, hətta, məsələn, IX–XII əsrlərdə Almaniyada baş verdiyi kimi, şəhərin kənddən ayrılmasından danışmır. Buna görə də c. Prudonun fikrincə bu ayrılma əbədi, dəyişilməz bir qanundur, çünki o bunun nə mənşəyini bilir, nə də inkişafını. O öz kitabının əvvəlindən axırına qədər elə mühakimə yeridir ki, müəyyən istehsal üsulunun bu məhsulu guya dünyanın axırınadək mövcud olacaqdır. Əmək bölgüsü haqqında c. Prudonun söylədiklərinin hamısı ondan əvvəl Adam Smit və bir çox başqaları tərəfindən deyilənlərin

xülasəsindən, həm də çox səthi, natamam xülasəsindən başqa bir şey deyildir.
İkinci təkamül maşınlardır. C-b Prudonda əmək bölgüsü ilə maşınlar arasındakı əlaqə tamamilə mistik bir əlaqədir. Əmək bölgüsünün hər bir növündə öz spesifik istehsal alətləri olmuşdur. Məsələn, XVII əsrin ortalarından XVIII əsrin ortalarınadək insanlar heç də hər işi əllə görmürdülər. Onların alətləri, hətta dəzgah, gəmi, ling və i.a. və s. kimi çox mürəkkəb alətləri var idi.
Beləliklə, maşının meydana gəlməsini ümumiyyətlə əmək bölgüsünün nəticəsi hesab etmək tamamilə mə`nasızdır.
Ötəri qeyd edim ki, c. Prudon maşının əmələ gəlməsi tarixi kimi, inkişafı tarixini də az başa düşmüşdür. Demək olar ki, birinci ümumi böhran dövrü olan 1825-ci ilədak ümumiyyətlə istehlak ehtiyacları istehsaldan daha sür`ətlə artırdı və maşınların inkişafı bazarın tələbatının labüd nəticəsi idi. 1825-ci ildən e`tibarən maşınların ixtira və tətbiq edilməsi ancaq sahibkarlarla fəhlələr arasındakı mübarizənin nəticəsi idi. Lakin bu ancaq İngiltərə haqqında doğrudur. Avropa millətlərinə gəldikdə, onları maşın tətbiq etməyə istər onların öz daxili bazarında, istərsə dünya bazarında İngiltərənin rəqabəti məcbur etdi. Nəhayət, Şimali Amerikada maşın tətbiq edilməsinə səbəb həm başqa xalqlarla olan rəqabət, həm də işlək əllərin çatışmaması idi, yə`ni Şimali Amerikanın sənaye tələbatı ilə əhalisi arasındakı uyğunsuzluq idi. Siz bu faktlardan görə bilərsiniz ki, c. Prudon rəqabət kabusuna üçüncü bir təkamül kimi, maşının antitezi kimi əl atmaqla nə qədər fərasət göstərir!
Nəhayət, əmək bölgüsü, rəqabət, kredit və i.a. ilə yanaşı olaraq maşını iqtisadi kateqoriya etmək ümumiyyətlə mə`nasız bir işdir.
Kotan çəkən öküz kimi, maşın da eyni dərəcədə iqtisadi kateqoriya deyildir. Maşının indiki tətbiqi bizim müasir iqtisadi quruluşumuzun münasibətlərindən biridir, lakin maşını işlətmək üsulu heç də maşının özü deyildir. Barıtdan istər adamı yaralamaq üçün, istərsə həmin adamın yaralarını sağaltmaq üçün istifadə edilsin, barıt barıtlığında qalır.
C-b Prudon öz beynində rəqabəti, inhisarı, vergini və ya polisi, ticarət balansını, kredit və mülkiyyəti məhz hazırda göstərdiyim sıra ilə yaratmaqla, özü özünü ötüb keçir. İngiltərədə demək olar bütün kredit idarələri XVIII əsrin əvvəllərində, hələ maşının ixtirasından əvvəl inkişaf etmişdi. Dövlət krediti vergiləri artırmaq və burjuaziyanın hakimiyyət

başına gəlməsi ilə yaranmış yeni tələbatı ödəmək üçün yalnız yeni bir üsul idi.
Nəhayət, mülkiyyət c. Prudonun sistemində axırıncı kateqoriya təşkil edir. Gerçək aləmdə, əksinə, əmək bölgüsü və c. Prudonun bütün başqa kateqoriyaları elə ictimai münasibətlərdən ibarətdir ki, bunların məcmusu indi mülkiyyət adlandırılan şeyi təşkil edir; bu münasibətlərdən kənarda burjua mülkiyyəti metafizik və yuridik xəyaldan başqa bir şey deyildir. Başqa bir dövrün mülkiyyəti, feodal mülkiyyəti tamamilə ayrı ictimai münasibətlər şəraitində inkişaf edir. C-b Prudon mülkiyyəti müstəqil bir münasibət kimi müəyyən etməklə, metodoloji səhvdən daha pis bir iş görmüş olur: o, burjua istehsalının bütün formalarını birləşdirən əlaqəni anlamadığını aşkar edir; o, müəyyən dövrün istehsal formalarının tarixi və keçici xarakterini anlamadığını göstərir. C-b Prudon bizim ictimai tə`sisatın tarixi inkişaf məhsulu olduğunu görmədiyinə, bunların nə mənşəyini, nə də inkişafını anlamadığına görə bunları ancaq doqmatik şəkildə tənqid edə bilər. İnkişafı izah etmək üçün c. Prudon uydurmaya əl atmağa məcburdur. O belə güman edir ki, əmək bölgüsü, kredit, maşın və i.a. ona rahatlıq verməyən bərabərlik ideyasına xidmət etmək üçün ixtira edilmişdir. Onun verdiyi izahat son dərəcə sadəlövh izahatdır. Bütün bu şeylər bərabərlik xatirinə düşünülüb düzəldilmişdir, lakin, bədbəxtlikdən, bunlar bərabərliyin əleyhinə çevrilmişdir. Onun bütün mühakiməsi də bundan ibarətdir, yə`ni o əsassız bir hipotez götürür, lakin həqiqi inkişaf hər addımda onun uydurmasına zidd olduğuna görə, buradan belə bir nəticə çıxarır ki, burada ziddiyyət vardır. O gizlədir ki, ziddiyyət əslində, ancaq, ona rahatlıq verməyən ideyalarla həqiqi hərəkət arasındadır.
Beləliklə, c. Prudon, hər şeydən əvvəl tarixi mə`lumatı olmadığına görə anlamamışdır ki, insanlar öz məhsuldar qüvvələrini inkişaf etdirməklə, yə`ni yaşamaqla bir-birlərinə qarşı müəyyən münasibətləri inkişaf etdirirlər və bu münasibətlərin xarakteri labüd olaraq həmin məhsuldar qüvvələrin dəyişilməsi və artması ilə birlikdə dəyniyşlir. O anlamamışdır ki, iqtisadi kateqoriyalar həmin həqiqi münasibətlərin yalnız abstraksiyalarıdır və yalnız həmin münasibətlər mövcud olduğuna görə həqiqətdir. Beləliklə, o, burjua iqtisadçılarının buraxdığı səhvi təkrar edir; burjua iqtisadçıları isə həmin iqtisadi kateqoriyaları, tarixi inkişafın yalnız müəyyən mərhələsi üçün, məhsuldar qüvvələrin müəyyən inkişaf mərhələsi üçün qüvvədə olan tarixi qanun deyil, əbədi qanun hesab edirlər. Deməli, c. Prudon siyasi

iqtisad kateqoriyalarını həqiqi, keçici tarixi ictimai münasibətlərin abstraksiyaları hesab etmək əvəzinə, məsələni mistik şəkildə təhrif edərək, həqiqi münasibətlərdə yalnız bu abstraksiyaların təcəssümünü görür. Bu abstraksiyalar özü dünya yaranan vaxtdan e`tibarən allah-taalanın sinəsində mürgüləmiş formullar imiş.
Burada bizim mərhəmətli c. Prudonun ağır əqli əzabları başlanır. Əgər bütün bu iqtisadi kateqoriyalar allahın sinəsində törəmiş şeylərdirsə, əgər bunlar insanların gizli və əbədi həyatıdırsa, onda, əvvələn, necə olur ki, inkişaf vardır və ikincisi, necə olur ki, c. Prudon mühafizəkar deyildir? O həmin aşkar ziddiyyətləri bütöv bir antaqonizmlər sistemi ilə izah edir.
Bu antaqonizmlər sistemini aydınlaşdırmaq üçün bir misal götürək. İnhisar yaxşı şeydir, çünki bu–iqtisadi kateqoriyadır və deməli, allahın törətdiyi şeydir. Rəqabət yaxşı şeydir, çünki o da iqtisadi kateqoriyadır. Lakin yaxşı olmayan şey, inhisarın gerçəkliyi və rəqabətin gerçəkliyidir. Daha pisi budur ki, inhisarla rəqabət bir-birini udub heçə çıxarır. Bəs nə etməli? Allahın bu iki əbədi fikri bir-birinə zidd olduğuna görə, c. Prudonun zənnincə aşkardır ki, allahın sinəsində bu iki fikrin sintezi də vardır və burada inhisar bəlasını rəqabət tarazlaşdırır və «vice versa» (əksinə. Red.). Hər iki ideya arasındakı mübarizənin nəticəsi bundan ibarət olacaqdır ki, bunların yalnız yaxşı tərəfi üzə çıxacaqdır. Allahdan bu gizli fikri qoparmaq, sonra da onu tətbiq etmək lazımdır, onda hər şey çox gözəl olar. Bəşəriyyətin şəxsiyyətsiz zəkası zülmətində gizlənən sintetik formulu tapmaq lazımdır. C-b Prudon, bircə dəqiqə tərəddüd etmədən, həmin sirri aşkara çıxaran bir adam kimi meydana atılır.
Lakin bir anlığa gerçək həyata nəzər salaq. Müasir iqtisadi həyatda siz təkcə rəqabət və inhisar deyil, həmçinin bunların sintezini də taparsınız, bu isə formul deyil, hərəkətdir. İnhisar rəqabət doğurur, rəqabət inhisar doğurur. Lakin bu tənlik indiki vəziyyətin çətinliklərini, burjua iqtisadçılarının zənn etdikləri kimi, aradan qaldırmır və nəticədə daha çətin, daha dolaşıq bir vəziyyət yaradır. Beləliklə, siz müasir iqtisadi münasibətlərin arxalandığı əsası dəyişdirməklə, müasir istehsal üsulunu məhv etməklə, təkcə rəqabəti, inhisarı və bunların antaqonizmini məhv etmək deyil, həmçinin bunların vəhdətini, bunların sintezini, yə`ni elə bir hərəkəti də məhv etmiş olursunuz ki, rəqabətlə inhisar həqiqətdə bu hərəkətdə tarazlaşır.
İndi mən Sizə c. Prudonun dialektikasından bir nümunə göstərəcəyəm.

Azadlıq və köləlik antaqonizm təşkil edir. Azadlığın nə yaxşı, nə də pis cəhətlərindən danışmağıma ehtiyac yoxdur. Köləliyə gəldikdə, onun pis cəhətlərindən danışmaq artıqdır. İzah ediləsi yeganə şey köləliyin yaxşı cəhətidir. Burada bəhs olunan köləlik dolayı köləlik deyildir, proletarın köləliyi deyildir. Burada əsil kölələlikdən, Surinamada, Braziliyada, Şimali Amerikanın cənub vilayətlərində zəncilərin köləliyindən bəhs olunur. Əsil kölələlik də bizim müasir sənayenin maşın, kredit və i.a. kimi bir əsasıdır. Kölələlik olmadan pambıq olmaz, pambıq olmadan müasir sənaye olmaz. Kölələlik sayəsində müstəmləkələr qiymətli olmuşdur, müstəmləkələr dünya ticarətini yaratmışdır, dünya ticarəti isə maşınlı iri sənaye üçün zəruri şərtdir. Zənci alveri meydana çıxana qədər müstəmləkələr Köhnə Dünyaya az məhsul verirdi və yer üzünün simasını az-çox nəzərə çarpacaq dərəcədə dəyişdirmirdi. Beləliklə, kölələlik çox böyük əhəmiyyəti olan iqtisadi kateqoriyadır. Ən mütərəqqi ölkə olan Şimali Amerika kölələlik olmadan patriarxal bir ölkəyə çevrilərdi. Dünya xəritəsindən bircə Şimali Amerikanı silib atın, onda siz hərc-mərclik, ticarətin və müasir mədəniyyətin tam tənəzzülünü əldə edərsiniz. Lakin köləliyin məhv edilməsi dünya xəritəsindən Amerikanın silinməsi demək olardı. Beləliklə, kölələlik məhz iqtisadi kateqoriya olduğuna görə, dünya yaranan vaxtdan bütün xalqlarda ona təsadüf olunur. Müasir xalqlar öz içərilərində köləliyi ancaq pərdələyə bilmiş və Yeni Düiyada onu açıq tətbiq edə bilmişlər. Bəs çox mərhəmətli c. Prudon kölələlik haqqındakı bu mülahizələrdən sonra nə edəcəkdir? O, azadlıqla köləliyin sintezini, əsil orta bir nöqtə axtaracaqdır, başqa sözlə desək, köləliklə azadlıq arasında müvazinət axtaracaqdır.
C-b Prudon çox yaxşı başa düşmüşdur ki, insanlar mahud, kətan, ipək parça istehsal edirlər, bu cür xırda şeyləri başa düşmək isə böyük bir xidmət deyildir! Lakin c. Prudonun başa düşmədiyi budur ki, insanlar öz məhsuldar qüvvələrinə uyğun olaraq elə ictimai münasibətlər də istehsal edirlər ki, mahud və kətan bu ictimai münasibətlər daxilində istehsal olunur. C-b Prudonun daha az başa düşdüyü bir cəhət odur ki, öz maddi istehsalına uyğun ictimai münasibətlər istehsal edən insanlar ideyalar da, kateqoriyalar da yaradırlar, yə`ni həmin ictimai münasibətlərin mücərrəd, ideal ifadələrini də yaradırlar. Beləliklə, kateqoriyaların ifadə etdiyi münasibətlər kimi, kateqoriyaların özü də əbədi deyildir. Bunlar tarixi və keçici məhsullardır. C-b Prudonun fikrincə isə, tamamilə əksinədir, ilk səbəb abstraksiyalardır, kateqoriyalardır. Onun fikrincə, tarixi insanlar

deyil, həmin abstraksiyalar, kateqoriyalar yaradır. Özlüyündə götürülən, yə`ni insanlardan və onların maddi fəaliyyətindən ayrılıqda götürülən abstraksiya, kateqoriya, əlbəttə, ölməzdir, dəyişilməz və hərəkətsizdir. Bu ancaq xalis zəkanın məhsuludur, bu isə ancaq o deməkdir ki, özlüyündə götürülən abstraksiya abstraktdır. Əcəb cəfəngiyatdır!
Beləliklə, kateqoriyalar şəklində nəzərdən keçirilən iqtisadi münasibətlər, c. Prudonun fikrincə, mənşəyi olmayyan və inkişaf etməyən əbədi formullardır.
Başqa sözlə desək, c. Prudon açıqca iddia etmir ki, onun fikrincə burjua həyatı əbədi həqiqətdir. O, bunu dolayı yolla iddia edərək, burjua münasibətlərini ideyalar şəklində ifadə edən kateqoriyaları ilahiləşdirir. Burjua cəmiyyətinin məhsulları ona kateqoriyalar, ideyalar şəklində göründüyü üçün o, bunları öz-özünə meydana gələn, öz həyatı olan əbədi mövcudat hesab edir. Beləliklə, o, burjua üfüqü dairəsindən kənara çıxmır. O, əbədi həqiqət hesab etdiyi burjua ideyaları ilə məşğul olduğuna görə, bu ideyaların sintezini, onların müvazinətini axtarır və görmür ki, onları tarazlaşdırmağın müasir üsulu mümkün olan yeganə üsuldur.
Əslində o da bütün mərhəmətli burjualar kimi hərəkət edir. Onların hamısı sizə deyir ki, rəqabət, inhisar və i.a. prinsip e`tibarı ilə, yə`ni mücərrəd məfhumlar kimi götürüldükdə, həyatın yeganə əsaslarıdır, təcrübədə isə onların hələ böyük islahata ehtiyacı vardır. Onların hamısı rəqabət istəyir, amma rəqabətin doğurduğu acı nəticələri istəmir. Onların hamısı mümkün olmayan bir şeyi istəyir, yə`ni burjua həyat şəraitini istəyib bu şəraitin zəruri nəticələrini istəmir. Onların hamısı başa düşmür ki, feodalizm forması tarixi və keçici olduğu kimi, burjua istehsal üsulu da tarixi və keçici bir formadır. Bu səhv ondan irəli gəlir ki, onların fikrincə, burjua-insan hər bir cəmiyyətin yeganə əsasıdır; ondan irəli gəlir ki, onlar ınsanın daha burjua olmayacağı bir ictimai quruluşu təsəvvür etmirlər.
Buna görə də C-b Prudon labüddən doktrinaçıdır. Müasir dünyada çevriliş yaradan tarixi hərəkat, onun nəzərincə iki burjua fikrinin düzgün müvazinətini, sintezini tapmaq vəzifəsindən ibarətdir. Beləliklə, bu qoçaq hiylə işlədib allahın gizli fikrini, yə`ni iki ayrıca fikrin vəhdətini aşkara çıxarır, həm də bu fikirlər ancaq ona görə bir-birindən ayrıdır ki, c. Prudon bunları əməli həyatdan, bu fikirlərin ifadə etdiyi reallıqların birləşməsi olan müasir istehsaldan ayırmışdır. C-b Prudon öz beynindən doğan primitiv hərəkəti [mouvement cacadauphin] insanların artıq əldə edilmiş məhsuldar

qüvvələri ilə onların bu məhsuldar qüvvələrə daha uyğun gəlməyən ictimai münasibətləri arasındakı toqquşmadan doğan böyük tarixi hərəkatın yerinə qoyur, bir millətin müxtəlif sinifləri və müxtəlif millətlər arasında hazırlanan dəhşətli müharibələrin yerinə qoyur, kütlələrin bu toqquşmaları yeganə həll edə biləcək əməli və inqilabi fəaliyyətinin yerinə qoyur,–uzun zaman davam edən bu geniş və mürəkkəb hərəkatın yerinə qoyur. Deməli, tarixi yaradanlar, allahın gizli fikrini oğurlayıb ələ keçirə bilən adamlardır, alimlərdir. Adi xalq isə ancaq, onların kəşf etdiyi həqiqətləri işdə həyata keçirməlidir.

İndi siz, c. Prudonun nə səbəbə hər cür siyasi hərəkata qəddar düşmən olduğunu başa düşürsünüz. Onun fikrincə, müasir məsələlər ictimai fəaliyyət yolu ilə deyil, onun öz beynindəki dialektik hərlənmələr vasitəsi ilə həll olunur. Onun fikrincə kateqoriyalar hərəkət verən qüvvə olduğuna görə, bu kateqoriyaları dəyişdirmək üçün əməli həyatı dəyişdirməyə ehtiyac yoxdur. Tamamilə əksinə. Kateqoriyaları dəyişdirmək lazımdır, bunun nəticəsində isə mövcud cəmiyyət dəyişiləcəkdir.

C-b Prudon ziddiyyətləri barışdırmaq istəyərək, belə bir məsələnin üstündən tamamilə keçir: bəs bu ziddiyyətlərin lap təməlini dağıtmaq lazım deyilmi? O hər şeydə elə bir siyasi doktrinaçıya bənzəyir ki, ictimai həyatın tərkib hissələri olaraq kralı da, nümayəndələr palatasını da, yuxarı palatanı da əbədi kateqoriyalar kimi hifz edib saxlamaq istəyir. O həmin qüvvələri tarazlaşdırmaq üçün ancaq yeni bir formul axtarır, halbuki bu qüvvələrin müvazinəti onların məhz müasir hərəkətindən ibarətdir və burada bu qüvvələrdən biri gah o birinə qalib gəlir, gah da onun qulu olur. Məsələn, XVIII əsrdə bir çox səthi düşünən beyinlər ictimai silkləri, zadəganları, kralı, parlamentləri və i.a. tarazlaşdırmaq üçün həqiqi formul tapmağa çalışırdı, ertəsi gün isə nə kral, nə parlament, nə də zadəganlar qalmamışdı. Həmin antaqonizmi tarazlaşdırmağın əsil üsulu isə bu feodalizm tə`sisatının əsasını və bu tə`sisatdakı antaqonizmin əsasını təşkil edən bütün ictimai münasibətləri dağıtmaqdan ibarət idi.

C-b Prudon əbədi ideyaları, xalis zəka kateqoriyalarını bir yana, insanları və c. Prudonun fikrincə, onların bu kateqoriyaları tətbiq etməkdən ibarət olan əməli həyatlarını isə o biri yana qoyduğuna görə, siz onun dediklərində lan əvvəldən, həyatla ideyalar arasında, ruhla cisim arasında müxtəlif formalarda təkrar olunan bir dualizm olduğunu görərsiniz. İndi siz görürsünüz ki, bu antaqonizm ancaq c. Prudonun idahiləşdirdiyi

kateqoriyaların mənşəyini və adi tarixini başa düşə bilməməsindən ibarətdir.
Məktubum çox uzandı, odur ki, mən daha c. Prudonun kommunizmə qarşı gülünc hücumları üzərində dayana bilməyəcəyəm. Hələlik Siz mənimlə şərik olun ki, cəmiyyətin indiki vəziyyətini başa düşməmiş bir adam həmin cəmiyyəti dağıtmağa çalışan hərəkatı və bu inqilabi hərəkatın ədəbi ifadələrini daha az başa düşə bilər.
C-b Prudonla tamamilə şərik olduğum yeganə nöqtə–sosialist sentimentallığına onun nifrətidir. Ondan əvvəl mən özüm, qoyun sosializmi, sentimental, utopik sosializm haqqındakı istehzalarımla özümə qarşı çox kin doğurmuşam. Lakin, məgər c. Prudon özü öz xırda burjua sentimentallığını,–mən ailə ocağı, ər-arvad məhəbbəti haqqında onun ibarələrini və bütün bayağı fikirlərini nəzərdə tuturam,–sosialist sentimentallığına qarşı qoymaqla özü üçün qəribə xəyallar yaratmırmı, zira sosialist sentimentallığı, məsələn, Furyedə bizim mərhəmətli c. Prudonun iddialı bayağı fikirlərindən xeyli dərindir. O özü öz dəlillərinin bütün heçliyini, bütün bu şeylər haqqında danışmaqda tamamilə aciz olduğunu o qədər yaxşı hiss edir ki, birdən-birə özünü unudub qəzəblənir, «irae həminsi probi» (nəcabətli hiddətə gəlir. Red.), bağırmağa başlayır, qızışıb özündən çıxır, söyüş söyür, ifşa edir, təqsirləndirir, lə`nət yağdırır, döşünə döyür, allahın da, camaatın da qarşısında öyünür ki, onda sosialist əclaflıqları yoxdur! O, sosialist sentimentallığını və ya özünün sentimentallıq hesab etdiyi şeyi tənqid etmir, O bir müqəddəs kimi, bir papa kimi biçarə günahkarlara lə`nət yağdırır və xırda burjuaziyanı, ailə ocağının miskin məhəbbət və patriarxal xülyalarını şöhrətləndirir. Bu isə təsadüfi deyildir. C-b Prudon başdan ayağa xırda burjuaziyanın filosofu, iqtisadçısıdır. İnkişaf etmiş cəmiyyətdə xırda burjua, öz vəziyyətinə görə, bir tərəfdən sosialist, digər tərəfdən isə iqtisadçı olur, yə`ni iri burjuaziyanın dəbdəbəsinə məftun olur və xalqın əzablarına canı yanır. O eyni zamanda həm burjua, həmdə xalqdır. O öz qəlbinin dərinliklərində fəxr edir ki, qərəzsizdir, orta nöqtədən fərqlənmək iddiasında olan əsil muvazinət tapmışdır. Belə bir xırda burjua ziddiyyəti ilahiləşdirir, çünki ziddiyyət onun varlığının əsasıdır. O özü təcəssüm etmiş ictimai ziddiyyətdən başqa bir şey deyildir. O təcrübədə nədirsə, nəzəriyyədə buna haqq qazandırmalıdır, odur ki, fransız xırda burjuaziyasının elmi ifadəçisi

olmaq xidməti c. Prudona aiddir; bu həqiqətən bir xidmətdir, çünki xırda burjuaziya bütün gələcək ictimai inqilabların tərkib hissəsi olacaqdır.
İstərdim ki, bu məktubla birlikdə siyasi iqtisad haqqındakı kitabımı260 da Sizə göndərə biləydim, lakin bu vaxtadək nə bu əsəri, nə də alman filosofları və sosialistləri hağqında yazıb Brüsseldə Sizə söylədiyim tənqidi nəşr etdirə bilməmişəm (K.Marks və F.Engels. «Alman ideologiyası» (Bax: K.Marks və F.Engels. Əsərləri, 2-ci nəşri, 3-cü cild, səh. 7–544). Red.). Siz belə bir əsərin nəşr olunmasının Almaniyada nə kimi çətinliklərə rast gəldiyini təsəvvür edə bilməzsiniz; bu çətinlikləri, əvvələn, polis, ikincisi də, mənim hücum etdiyim bütün cərəyanların tərəfini saxlayıb onların nümayəndələri olan naşirlər törədirlər. Bizim öz partiyamıza gəldikdə, bu partiya nəinki yoxsuldur, bundan əlavə, alman kommunist partiyası üzvlərinin xeyli hissəsi, onların utopiyaları və gurultulu ibarələrinə qarşı çıxdığıma görə məndən incimişdir...
K. Marks və F.Engelsin Əsərlərinin mətnindən çap olunur, 2-ci nəşri, 27-ci cild, səh. 401–412.

MARKS–İOSİF VEYDEMEYERƏ
NYU-YORKDA

London, 5 mart 1852-ci il

...Mənə gəldikdə nə müasir cəmiyyətdə siniflər mövcud olduğunu açmaq, nə də bunların arasında mübarizə getdiyini kəşf etmək mənim xidmətim deyildir. Burjua tarixçiləri bu siniflər mübarizəsinin tarixi inkişafını, burjua iqtisadçıları isə siniflərin iqtisadi anatomiyasını məndən çox əvvəl şərh etmişlər. Mənim gördüyüm yeni iş bunu sübut etməkdən ibarət olmuşdur ki: 1) siniflərin mövcud olması ancaq, istehsalın inkişafındakı müəyyən tarixi mərhələlərlə əlaqədardır, 2) sinfi mübarizə hökmən proletariat diktaturasına doğru aparır, 3) bu diktaturanın özü, bütün siniflərin məhv edilməsinə və sinifsiz cəmiyyətə doğru yalnız bir keçiddir...
K.Marks və F.Engelsin Əsərlərinin mətnindən çap olunur, 2-ci nəşri, 28-ci cild, səh. 424–427.

MARKS–ENGELSƏ
MANÇESTERDƏ

London, 16 aprel [1856-cı il]

...Srağa gün «People`s PaPer»249in ildönümu münasibəti ilə kiçik bir ziyafət var idi. Bu dəfə mən də`vəti qəbul etdim, çünki mənə elə gəldi ki, bu vaxtında olan bir şeydir, xususilə ona görə ki, bütün mühacirlər

arasından təkcə mən də`vət edilmişdim (bu barədə «Paper»də e`lan verilmişdi) və birinci sağlıq sözü söyləmək də mənim öhdəmə düşdü. Mən bütün ölkələrdə proletariatın hökmranlığı şərəfinə sağlıq deməli idim. Mən ingiliscə kiçik bir nitq söylədim, lakin onu mətbuata verməyəcəyəm. Mən qarşıma qoyduğum məqsədə çatmışdım. Giriş bileti üçün 21/2 şillinq verməli olan c. Talandye və bütün qalan fransız və sair mühacirlər güruhu yəqin etdi ki, biz çartistlərin yeganə «yaxın» müttəfiqləriyik və əgər biz camaat qarşısında açıq hərəkətlərə keçmiriksə, fransızların çartistlərlə açıqca dilxoşluq etməsinə yol veririksə, hər halda tarixən bizim olan mövqeyi hər an yenidən tutmaq bizim öz əlimizdədir. Bu xüsusilə ona görə lazım idi ki, fevralın 25-də Pianın sədrliyi ilə keçirilən mitinqdə çıxıb danışan alman nadanı (köhnə kələkbaz) Şertser alman «alimlərini», «əqli əmək işçilərini» həqiqətən dəhşətli bir sex məhdudluğu ruhunda təqsirləndirmişdir və demişdir ki, onlar bu nadanlardan uzaqlaşmış və başqa millətlər qarşısında rüsvay olmağa vadar etmişlər. Sən Şertseri, əlbəttə, hələ Parisdən tanıyırsan. Mən dostum Şapperlə bir neçə dəfə görüşdüm və gördüm ki, o, tövbə edən bir günahkara bənzəyir. Son iki il ərzində onun keçirdiyi tənhalıq həyatı onun əqli qabiliyyətinə, görünür, çox gözəl tə`sir etmişdir. Sən başa düşürsən ki, hər ehtimala qarşı bu adamı əlimizdə saxlamaq həmişə yaxşıdır, onu Villixin əlindən qoparmaq isə daha vacibdir. İndi Şapper U[indmilldəki]261 nadanlara qarşı çox hiddətlənmişdir.

Sənin Şteffenə məktubunu çatdıraram. L.-in (Levi. Red.) məktubunu sən özündə saxlamalı idin. Qaytarılmasını xahiş etmədiyim bütün məktubları ümumiyyətlə özündə saxla. Bunlar poçtdan nə qədər az keçsə, bir o qədər yaxşıdır. Reyn əyaləti haqqında sənin fikrinlə tamamilə şərikəm. Bizim xoşumuza gəlməyəcək şey budur ki, mən gələcəyə nəzər salanda orada «vətənə xəyanət» iyi verəcək bir şey görürəm. Köhnə inqilabda Maynts klubçularının262 düşdüyü vəziyyətə bizim də düşüb-düşməyəcəyimiz, işlərin Berlində nə kimi bir şəkil alacağından asılı olacaqdır. Bu asan olmayacaqdır. Biz ki Reynin o tayındakı qoçaq qardaşlarımıza yaxşı bələdik! Almaniyada bütün iş kəndli müharibəsinin hər hansı bir şəkildə ikinci nəşri vasitəsi ilə proletar inqilabına yardım göstərmək imkanından asılı olacaqdır. Onda işlər çox yaxşı gedər.

K.Marks və F.Engelsin Əsərlərinin mətnindən çap olunur, 2-ci nəşri, 29-cu cild, səh. 34–37.

MARKS–ENGELSƏ
RAYDDA
[London], 25 sentyabr 1857-ci il.
...Sənin «Ordun» (Bax: K.Marks və F.Engels. Əsərləri, 2-ci nəşri, 14-cü cild, səh. 5–50). Red.) çox yaxşıdır; ancaq onun həcmi məni heyrətə saldı, çünki bu qədər çox işləmək sənin üçün zərərdir. Əgər mən bilsəydim ki, sən gecələr işləməyə başlayacaqsan, bütün bu həngaməni rədd edərdim. Ordunun tarixi məhsuldar qüvvələrlə ictimai munasibətlərin əlaqəsinə olan görüşümüzün doğruluğunu ən aydın şəkildə sübut edir. Ümumiyyətlə, iqtisadi inkişafda ordu mühüm rol oynayır. Məsələn, əmək haqqı ilk dəfə qədimdəki insanların ordusunda tamam inkişaf etmişdi. Habelə romalılarda «peculium castrense» (düşərgə əmlakı (qədim romalılarda düşərgədə əsgərin şəxsi əmlakı deməkdir). Red.) elə bir ilk hüquq forması olmuşdur ki, burada daşınar mülkiyyət sahibi olmaq hüququ ailə atası vəziyyətində olmayan şəxslərə verilir. Eləcə də sex qaydası ilk dəfə «fabri» (qoşun yanındakı fəhlə komandası, qədim romalılarda qoşun yanındakı sənətkarlar. Red.) korporasiyalarında meydana gəlmişdir. Habelə burada ilk dəfə olaraq geniş miqyasda maşın tətbiq olunur. Hətta metalların xüsusilə qiymətli olması və pul yerində işlədilməsi, yəqin ki, Qrimm daş dövrü keçdikdən sonra, ilk dəfə metalın hərbi əhəmiyyəti əsasında meydana çıxmışdır. Bir istehsal sahəsi daxilində əmək bölgüsü də həmçinin ilk dəfə ordularda həyata keçirilmişdir. Bundan əlavə, vətəndaş cəmiyyətinin bütün tarixi ordunun tarixində son dərəcə aydın xülasə edilmişdir. Bir zaman vaxtın olsa, gərək məsələni bu nöqteyi-nəzərdən təhlil edəsən.
Sənin yazında, mənim fikrimcə, nəzərdən qaçırılan yeganə cəhətlər bunlardır: 1) muzdlu qoşunun birinci dəfə karfagenlilərdə və birdən-birə necə meydana gəlməsi (mən Karfagen qoşunu haqqında bir nəfər berlinlinin (V.Bettixerin. Red.) yazdığı və ancaq bu yaxınlarda xəbər tutduğum əsərini özümüz üçün nəzərdən keçirirəm) 2) XV əsrdə və XVI əsrin əvvəllərində İtaliyada hərbi işin inkişafı. Hər halda taktika üsulları burada hazırlanmışdı. Yeri gəlmişkən deməliyəm ki, Makiavellinin Florensiya tarixində kondotyerlərin263 necə vuruşduqlarının çox qəribə təsviri vardır (mən bunu sənin üçün yazıb götürərəm). (Braytona sənin yanına gəlsəm–nə vaxt?–yaxşısı budur ki, Makiavellinin cildini özümlə gətirərəm. Onun Florensiya tarixi bir şah əsərdir). Nəhayət, 3) Asiya hərbi

sisteminin birinci dəfə iranlılarda necə meydana gəldiyi; sonralar bu sistemə çox dəyişikliklərlə monqollarda, türklərdə təsadüf olunur...
K.Marks və F.Engelsin Əsərlərinin mətnindən çap olunur, 2-ci nəşri, 29-cu cild, səh. 154.

QEYDLƏR

1 «Feyerbax haqqında tezislər»i K.Marks 1845-ci ilin baharında Brüsseldə yazmışdır. Bu zaman Marks tarixə aid öz materialist nəzəriyyəsinin inkişafını əsasən başa çatdırmış, materializmi bəşər cəmiyyətinin izahına şamil etmişdi. Engelsin verdiyi tə`rifə görə, tezislər «yeni dünyabaxışının dahiyanə rüşeymini verən ilk sənəddir» (Bax: bu nəşrin 3-cü cildi, «Lüdviq Feyerbax» kitabına müqəddimə).

K.Marks «Feyerbax haqqında tezislər»də həm Feyerbax materializminin, həm də bütün əvvəlki materializmin əsas nöqsanını–onun passiv seyrçi xarakterini, insanın inqilabi, «əməli-tənqidi» fəaliyyətinin əhəmiyyətini başa düşmədiyini açıb göstərir. Marks dünyanı dərk etməkdə və onun simasını dəyişdirməkdə inqilabi təcrübənin həlledici rolu olduğunu qeyd edir.

«Feyerbax haqqında tezislər» Marksın 1844–1847-ci illərə aid «Qeyd dəftərçəsi»ndədir və «Feyerbaxa dair» adlanır. Engels 1888-ci ildə «Tezislər»i nəşr edərkən, Marksın çap üçün nəzərdə tutmadığı həmin sənədi oxucunun daha yaxşı başa düşməsi üçün tezislərdə bə`zi redaktə dəyişiklikləri etmişdir. K.Marksın və F.Engelsin əsərlərinin 2-ci nəşrində olduğu kimi, həmin nəşrdə də «Tezislər» Engelsin nəşr etdiyi şəkildə verilib, 1888-ci il nəşrində olmayan kursivlər və olacaq dırnaqlar Marksın əlyazması əsasında əlavə edilir. «Feyerbax haqqında tezislər» adı Marksizm-Leninizm İnstitutu tərəfindən verilmişdir.

2 «Alman ideologiyası. Feyerbax, B.Bauer və Ştirner kimi nümayəndələrinin şəxsində ən yeni alman fəlsəfəsinin və müxtəlif peyğəmbərlərinin şəxsində alman sosializminin tənqidi»–K.Marks ilə F.Engelsin 1845–1846-cı illərdə Brüsseldə birlikdə yazdıqları əsərdir. «Alman ideologiyası»nda Marks və Engels elmi kommunizm nəzəriyyəsinin fəlsəfi əsası olmaq e`tibarı ilə tarixin materialist anlayışını ilk dəfə hərtərəfli işləmişlər.

«Alman ideologiyası»nın əlyazması iki cilddən ibarət idi; birinci cilddə Hegeldən sonrakı fəlsəfənin tənqidi, ikinci cilddə «həqiqi sosializm»in tənqidi verilmişdir.

Birinci cildin I fəslində bütün əsərin başlıca müsbət məzmunu şərh olunmuşdur. Buna görə də «Alman ideologiyası»nın I fəsli bütün əsərin ən mühüm fəslidir və onun müstəqil əhəmiyyəti vardır.
Birinci fəslin əlyazması üç hissə qaralama əlyazmasından və fəslin əvvəlinin üzü ağardılmış iki hissədən ibarətdir. Buna uyğun olaraq, fəslin mətni dörd hissəyə bölünür.
Fəslin I hissəsi üzü ağardılmış əlyazmasının ikinci variantından ibarətdir və birinci variantın ikinci variantda istifadə olunmayan hissəsi buraya əlavə edilmişdir. II hissə bütün fəslin ilk özəyidir. III və IV hissələr Ştirner haqqındakı fəsildən (1-ci cildin III fəsli) götürülmüş nəzəri haşiyələrdir.
Dörd hissədən hər birinin ümumi məzmunu belə ifadə edilə bilər. I hissə: Giriş, Hegeldən sonrakı alman fəlsəfəsi idealizminin ümumi xarakteristikası. Tarixin materialist anlayışının müqəddəm şərtləri, mahiyyəti və ümumi konturları. II hissə: Tarixi prosesin materialist konsepsiyası və tarixin materialist anlayışından çıxan nəticələr. Ümumiyyətlə tarixin idealist anlayışının tənqidi, xüsusilə gənc hegelçilərin və Feyerbaxın tənqidi. III hissə: Tarixin idealist anlayışı necə əmələ gəlmişdir? IV hissə: Məhsuldar qüvvələrin inkişafı, əmək bölgüsü və mülkiyyət formaları. Cəmiyyətin sinfi quruluşu. Siyasi üstqurum. İctimai şüur formaları.
Redaksiyanın verdiyi bütun başlıqlar və lazım bildiyi əlavələr kvadrat mö`tərizəyə alınmışdır. Əlyazması səhifələrinin nömrələri də kvadrat mö`tərizədə göstərilmişdir. Üzü ağardılmış əlyazmasının ikinci, əsas variantının Marks və Engels tərəfindən nömrələnmiş vərəqləri «v» hərfi ilə və rəqəmlə: [v. 1] göstərilir və i.a. Üzü ağardılmış əlyazmasının birinci variantının səhifələri müəlliflər tərəfindən nömrələnməmişdir, odur ki, bu səhifələr «s» hərfi ilə və rəqəmlə [s. 1] göstərilir və i.a. Əlyazmasının Marks tərəfindən nömrələnmiş üç qaralama hissəsinin səhifələri sadəcə rəqəmlə [1] göstərilir və i.a.
3 D.F.Ştrausun «İsanın həyatı» adlı əsas əsəri nəzərdə tutulur (D.F.Ştraus. «Das Leben Jusu». Bd. 1–2, Tübingen, 1835–1836). Bu əsər dinin fəlsəfi tənqidinin və Hegel məktəbinin köhnə və gənc hegelçilərə parçalanmasının təməlini qoymuşdur.
4 Diadoxlar–Makedoniyalı İsgəndər öləndən sonra onun hakimiyyət üstundə bir-biri ilə şiddətli mübarizəyə başlayan sərkərdələri. İsgəndərin çox da möhkəm olmayan hərbi-inzibati monarxiyası bu mübarizənin

gedişində (eramızdan əvvəl IV əsrin axırı–III əsrin əvvəli) bir neçə ayrı-ayrı dövlətə parçalandı.
5 «Dünyanı sarsıdan fikirlər»–«Wigand`s Vierteljahrsschrift» jurnalında dərc olunmuş imzasız bir məqalədən götürülmüş ifadə, 1845-ci il, IV cild, səh. 327. Bax: K.Marks və F.Engels. Əsərləri, 2-ci nəşri, 3-cü cild, səh. 86. «Wigand`s Vierieljahrsschftir» («Viqandın üç aylıq jurnalı»)–gənc hegelçilərin fəlsəfi jurnalı idi; 1844–1845-ci illərdə Leypsiqdə O.Viqand tərəfindən nəşr olunmuşdur. Jurnalda B.Bauer, M.Ştirner, L.Feyerbax və başqaları iştirak edirdilər.
6 «Alman ideologiyası»nda «Verkehr» termininin çox geniş məzmunu vardır. Bu terminə ayrı-ayrı fərdlərin, ictimai qrupların və bütöv ölkələrin maddi və mə`nəvi ünsiyyəti daxildir. Marks və Engels özlərinin əsərində göstərirlər ki, maddi ünsiyyət, hər şeydən əvvəl, istehsal prosesində insanların ünsiyyəti hər cür başqa ünsiyyətin əsasıdır. «Alman ideologiyası»nda işlədilən «Verkehrsform», «Verkehrsweise», «Verkehrsverhaltnisse», «Produktions- und Verkehrsverhaltnisse» («ünsiyyət forması», «ünsiyyət üsulu», «ünsiyyət münasibətləri», «istehsal və ünsiyyət münasibətləri») terminlərində o zaman Marks və Engelsdə müəyyən forma alan istehsal münasnbətləri anlayışı öz ifadəsini tapmışdır.
7 «Alman ideologiyasında» «tayfa» kimi tərcümə edilən «Stamm» termininin XIX əsrin 40-cı illərində tarix elmində indikinə nisbətən daha geniş mə`nası var idi. Bu termin eyni bir əcdaddan törəyən insanların məcmusu demək olub, müasir «qəbilə» (Gens) və «tayfa» (Stamm) anlayışlarını əhatə edirdi. Bu anlayışların dürüst tə`rifi və bir-birindən fərqi ilk dəfə L.Q.Morqanın «Qədim cəmiyyət» kitabında (1877) verilmişdir. Görkəmli Amerika etnoqrafı və tarixçisi L.Q.Morqanın bu əsas əsərində ibtidai icma quruluşunun başlıca özəyi olmaq e`tibarı ilə qəbilənin əhəmiyyəti ilk dəfə aydınlaşdırılmış, beləliklə də, bütün ibtidai cəmiyyət tarixinin elmi əsası qoyulmuşdur. Engels Morqanın etdiyi tədqiqatın nəticələrini ümumiləşdirərək, «Ailənin, xüsusi mülkiyyətin və dövlətin mənşəyi» əsərində (1884-cü il) (bax: bu nəşr, 3-cü cild) «qəbilə» və «tayfa» anlayışlarının məzmununu hərtərəfli açmışdır.
8 Roma xalq tribunları Litsini və Sekstinin aqrar qanunu–eramızdan əvvəl 367-ci ildə plebeylərin patrisilərə qarşı mübarizəsi nəticəsində qəbul olunan bu qanun, dövlət torpaq fondundan (ager publicus) 500 yukerdən

(təqribən 125 hektar) artıq torpaq sahibi olmağı Roma vətəndaşlarına qadağan edirdi.
9 B.Bauerin 1845-ci ildə «Wigand`s Vierteljahrsschrift» jurnalında dərc olunmuş «Lüdviq Feyerbaxın xarakteristikası» məqaləsi nəzərdə tutulur III cild, səh. 86–146.
10 Bax: Hegel. «Tarix fəlsəfəsi», Giriş, Dünya tarixinin coğrafi əsası.
11 «Lüdviq Feyerbaxın xarakteristikası» məqaləsində B.Bauerin söylədiyi fikir nəzərdə tutulur («Wigand`s Vierteljahrsschrift», 1845-ci il, III cild, səh. 130.) Bax: K.Marks və F.Engels. Əsərləri, 2-ci nəşri, 3-cü cild, səh. 79 və 89.
12 «Deutsch-Französische Jahrbücher» («Alman-fransız illik jurnalı») Parisdə K.Marksın və A.Rugenin redaktorluğu ilə alman dilində nəşr edilirdi. 1844-cü ilin fevralında yalnız birinci, qoşa buraxılışı çapdan çıxmışdı. Jurnalda K.Marksın «Yəhudi məsələsinə dair» və «Hegelin hüquq fəlsəfəsinin tənqidinə dair. Giriş» əsərləri, habelə F.Engelsin «Siyasi iqtisadın tənqidinə dair ilk qeydlər» və «İngiltərənin vəziyyəti. Tomas Karleyl. «Keçmiş və hazırkı vəziyyət»» əsərləri dərc olunmuşdu (bax: K.Marks və F.Engels. Əsərləri, 2-ci nəşri, 1-ci cild, səh. 382–413, 414–429, 544–571, 572–597). Bu əsərlərində Marks və Engels tamamilə materializm və kommunizm mövqelərinə keçirlər. Jurnalın nəşrinin dayandırılmasına başlıca səbəb Marks ilə burjua radikalı Ruge arasındakı prinsipial ixtilaflar idi.
13 Proletar inqilabının qabaqcıl kapitalist ölkələrində yalnız eyni zamanda qələbə çala biləcəyi və, deməli, inqilabın bir ölkədə qələbə çalmasının mümkün olmadığı haqqında Engelsin «Kommunizm prinsnpləri» əsərində (1847-ci il) ən bitkin şəkildə ifadə edilən bu nəticə inhisarçı kapitalizmdən əvvəlki dövr üçün doğru idi. Yeni tarixi şəraitdə, inhisarçı kapitalizm dövründə V.İ.Lenin imperializm zamanı kapitalizmin iqtisadi və siyasi inkişafının bərabər olmadığı haqqında kəşf etdiyi qanuna əsasən belə bir yeni nəticəyə gəldi ki, sosialist inqilabının əvvəlcə bir neçə və ya hətta ayrılıqda götürülmüş bir ölkədə qələbə çalması mümkündür, inqilabın bütün ölkələrdə və ya əksər ölkələrdə eyni zamanda qələbə çalması isə mümkün deyildir. Bu yeni nəticə ilk dəfə V.İ.Leninin «Avropa Birləşmiş Ştatları şüarı haqqında» (1915) məqaləsində müəyyən formada ifadə edilmişdir.

14 Kontinental sistem və ya kontinental blokada–1806-cı ildə Avropa qit`əsi ölkələrinin İngiltərə ilə ticarətini qadağan edən I Napoleonun qoyduğu sistem. Napoleon Rusiyada məğlub olandan sonra kontnnental blokada aradan qalxdı.
15 «Marselyoza», «Karmanyola», «Ça ira»–XVIII əsrin axırında fransız burjua inqilabı dövrünün inqilabi mahnılarıdır. Axırıncı mahnıda belə bir nəqarat var idi: «Ah! ça ira, ça ira, ça ira. Les aristocrates a la lanterne!» («İşlər düzələcək. Aristokratlar çarmıxa çəkiləcək!»).
16 Bu ifadələr M.Ştirnerin «Yeganə və onun mülkiyyəti» kitabından götürülmüşdür (M.Ştirner. «Der Einzige und sein Eigenthum». Leipzig, 1845). Bax: K.Marks və F.Engels. Əsərləri, 2-ci nəşri, 3-cü cild, səh. 143–149.
17 Bu ifadə B.Bauerin «Lüdviq Feyerbaxın xarakteristikası» məqaləsindən götürülmüşdür (bax: «Wigand`s Vierteljahrsschrift» jurnalı, 1845-ci il, III cild, səh. 139).
18 Bu ifadə M.Ştirnerin «Yeganə və onun mülkiyyəti» kitabından götürülmüşdür. Bax: K.Marks və F.Engels. Əsərləri, 2-ci nəşri, 3-cü cild, səh. 115–121 və 150–157.
19 «Hallische Jahrbücher» və «Deutsche Jahrbücher»–gənc hegelçilərin ədəbi-fəlsəfi jurnalının qısaldılmış adı; bu jurnal 1838-ci ilin yanvarından 1841-ci ilin iyun ayınadək Leypsiqdə «Hallische Jahrbücher für deutsche Wissenschaft und Kunst» («Alman elmi və incəsənəti məsələlərinə dair Halle illik məcmuəsi») adı ilə, 1841-ci ilin iyunundan 1843-cü ilin yanvar ayınadək «Deutsche Jahrbücher für Wissenschaft und Kunst» («Elm və incəsənət məsələlərinə dair alman illik məcmuəsi») adı ilə gündəlik vərəqə şəklində nəşr olunurdu. 1843-cü ilin yanvarında hökumət jurnalı qadağan etdi.
20 B.Bauer. «Geschichte der Politik, Cultur und Aufklarung des achtzehnten jahrhunderst». Bd. 1–2, Charlottenburq, 1843–1845 (B.Bauer. «On səkkizinci əsrin siyasət, mədəniyyət və maarif tarixi». 1–2-ci cildlər, Şarlottenburq, 1843–1845).
21 Reyn mahnısı–alman xırda burjua şairi N.Bekkerin millətçilər tərəfindən geniş istifadə edilən «Alman Reyni» şe`ri; 1840-cı iddə yazılan bu şe`rə dəfələrlə musiqi bəstələnmişdi.
22 «Wigand`s Vierteljahrsschrift» jurnalında çıxan (1845-ci il, II cild, səh. 193–205) L.Feyerbaxın «Yeganə və onun mülkiyyəti» ilə əlaqədar olaraq,

«Xristianlığın mahiyyəti haqqında» məqaləsi nəzərdə tutulur; məqalə bu sözlərlə qurtarır: «Deməli F[eyerbaxı] nə materialist, nə idealist, nə də eynilik filosofu adlandırmaq olmaz. Bəs o nədir? Həqiqətdə nədirsə, fikirlərində də odur, çismən nədirsə, hissi varlığında da, ruhən də odur: o, insandır və ya daha doğrusu, ictimai insandır, kommunistdir, zira F. insanın mahiyyətini yalnız ictimailikdə görür» (L.Feyerbax. Seçilmiş fəlsəfi əsərləri, II cild, M., 1955, səh. 420).

23 L.Feuerbach. «Grundsatze der Philosophie der Zukunft». Zürich und Winterthur, 1843. S. 47 (L.Feyerbax. «Gələcəyin fəlsəfəsinin əsas müddəaları». Sürix və Vintertur, 1843, səh. 47).

«Feyerbax» adlanan və görünür, «Alman ideologiyası»nın birinci cildinin I fəsli üçün nəzərdə tutulan qeydlərində Engels Feyerbaxın kitabının göstərilən yerini sitat gətirir və şərh edir:

«Varlıq əşyadan ayrıla bilən ümumi anlayış deyildir. Varlıq mövcud olan şeylə vəhdət təşkil edir... Varlıq mahiyyətin ehtimal olunmasıdır. Mənim mahiyyətim necədirsə, varlığım da elədir. Balıq suda yaşayır, lakin onun mahiyyətini bu varlıqdan ayırmaq olmaz. Dil varlıq ilə mahiyyəti eyniləşdirir. Yalnız insan həyatında, özu də qeyr-inormal, bədbəxt hadisələr zamanı varlıq mahiyyətdən ayrılır; elə olur ki, insanın mahiyyəti onun özünün mövcud olduğu yerdə əldə edilmir. Lakin məhz bu ayrılma üzündən insan öz cisminin həqiqətən olduğu yerdə öz ruhu ilə həqiqi mə`nada əldə edilmir. Sənin qəlbin haradadırsa, Sən də ancaq oradasan. Lakin qeyri-təbii hallar istisna olmaqla hər şey mövcud olduğu yerdə asanlıqla əldə edilir və nə isə yenə də asanlıqla həmin şey olur» (səh. 47). Mövcud olanın üstün apologiyası. Qeyri-təbii hallar, bir neçə qeyri-normal hallar istisna olmaqla, Sən həyatının yeddinci ilində kömür şaxtasında qapıçıya çevrilir, on dörd saat zülmət içərisində tənha qalırsan, madam ki, sənin varlığın belədir, deməli, Sənin mahiyyətin də elədir. Əyirici maşında işləyən əyirici fəhlə də belə. Sənin «mahiyyətin» elədir ki, Sən hər hansı əmək sahəsinə tabe olmalısan» (K.Marks və F.Engels. «Alman ideologiyası», M., 1956, səh. 577).

24 Marks və Engels «Alman ideologiyası»nın birinci cildinin III fəslini nəzərdə tuturlar (bax: K.Marks və F.Engels. Əsərləri, 2-ci nəşri, 3-cü cild, səh. 161–163). Feyerbax haqqındakı fəslin həmin hissəsi əvvəlcə III fəslin tərkibinə daxil idi və Marks ilə Engelsin burada isnad etdikləri mətndən

bilavasitə sonra gəlirdi. III fəslin göstərilən yerində Marks və Engels Hegelin «Tarix fəlsəfəsi»ndən və başqa əsərlərindən sitat gətirirlər.
25 Taxıl qanunlarına qarşı liqa–ingilis sənaye burjuaziyasının təşkilatı; 1838-ci ildə Mançester fabrikçiləri Kobden və Brayt tərəfindən tə`sis edilmişdi. Xaricdən taxıl gətirilməsini məhdudlaşdırmağa və ya qadağan etməyə doğru yönəldilən taxıl qanunları İngiltərədə iri torpaq sahibi olan lendlordların xeyrinə verilmişdi. Tam ticarət azadlığı tələbini irəli sürən bu təşkilat fəhlələrin əmək haqqını aşağı salmaq, torpaq aristokratiyasının iqtisadi və siyasi mövqelərini zəiflətmək məqsədi ilə taxıl qanunlarının ləğv edilməsinə çalışırdı. Bu mübarizə nəticəsində 1846-cı ildə taxıl qanunlarının ləğv olunması haqqında qanun layihəsi qəbul edildi ki, bu da torpaq aristokratiyası üzərində sənaye burjuaziyasının qələbəsi demək idi.
26 «İtifaq» («Verein») Ştirnerə görə xudpəsəndlərin könüllü birliyi (bax: K.Marks və F.Engels. Əsərləri, 2-ci nəşri, 3-cü cild, səh. 387–418).
27 J.Aikin. «A Description of the Country from thirty to forty Miles round Manchester». London, 1795 (C.Eykin, «Otuz-qırx mil sahədə Mançester şəhəri həndəvərinin təsviri». London, 1795).
28 İ.Pintonun «Traite de la Circulation et du Credit». Amsterdam, 1771» («Tədavül və kredit haqqında traktat». Amsterdam, 1771) kitabındakı «Letter sur la Jalousie du Commerce» («Ticarətdə rəqabət haqqında məktub») sitat gətirilir, səh. 234 və 283.
29 A.Smith. «An İquiry into the Nature and Causes of the Wealth of Nations». London, 1776 (A.Smit. «Xalqların sərvətinin təbiəti və səbəbləri haqqında tədqiqat». London, 1776).
30 Bax: J.J.Russonun 1762-ci ildə Amsterdamda buraxılan «Du Contract social; ou, Principes du droit politique» («İctimai müqavilə haqqında və ya siyasi hüquq prinsipləri») kitabı.
31 M.Ştirnerin «Ştirnerin resenziyaçıları» məqaləsindəki mühakiməsi nəzərdə tutulur. Məqalə 1845-ci ildə «Wigand`s Vierteljahrsschrift» jurnalının III cildində dərc edilmişdir, səh. 187. Bax: K.Marks vəF.Engels. Əsərləri, 2-ci nəşri, 3-cü cild, səh. 80–81.
32 İngiltərə normanlar tərəfindən 1066-cı ildə, Neapol 1130-cu ildə istila edilmişdi.
33 Şərqi Roma imperiyası–395-ci ildə quldar Roma imperiyasından ayrılıb mərkəzi Konstantinopol şəhərində olan dövlət. Sonralar Bizans adlanmağa başlanan bu dövlət 1453-cü ildəki türk istilasına qədər mövcud olmuşdur.

34 İtaliyanın Amalfi şəhəri X–XI əsrlərdə tərəqqi edən ticarət mərkəzi idi. Amalfi şəhərinin dənizçilik hüququ (Tabula Amalphitana) İtaliyanın hər yerində qüvvədə olub Aralıq dənizi ölkələrində geniş yayılmışdı.
35 «Kommunizmin prinsipləri» əsəri Kommunistlər ittifaqı proqramının layihəsidir; bu layihəni F.Engels Parisdə İttifaqın mahal komitəsinin tapşırığı ilə yazmışdır. Engels «Kommunizmin prinsipləri»ni ilk layihə hesab edərək, Marksa yazdığı 1847-ci il 23–24 noyabr tarixli məktubunda sual-cavablı formadan əl çəkib Kommunistlər ittifaqının proqramının «Kommunist manifesti» şəklində tərtib olunmasını təklif edir. Kommunistlər ittifaqının ikinci konqresində (29 noyabr–8 dekabr) Marks və Engelsin bu fikri tamamilə bəyənildi; İttifaqın proqramını–«Kommunist Partiyasının manifesti»ni işləyib hazırlamaq onlara tapşırıldı. Marksizm baniləri «Manifest»i yazarkən, «Kommunizmin prinsipləri»ndə irəli sürülən bir sıra müddəalardan istifadə etmişlər.
«Kommunizmin prinsipləri» əsərində Engels proletar partiyasının bə`zi ən muhüm proqram və taktika prinsiplərini nəzəri cəhətdən əsaslandırmış və bir sıra tədbirlər göstərmişdir ki, hakimiyyəti ələ alan proletariat həmin tədbirləri həyata keçirməklə kapitalizmdən sosializmə keçilməsini hazırlayacaqdır.
36 Əlyazmasında 22-ci, habelə sonrakı, 23-cü sual:a veriləsi cavabın yerində «qalır» sözü yazılmışdır. Görünür, bunun mə`nası o deməkdir ki, cavab Kommunistlər ittifaqı proqramının bizə gəlib çatmamış ilkin layihələrindən birində ifadə edildiyi şəkildə qalmalıdır.
37 «Kommunist Partiyasının manifesti»–elmi kommunizmin ilk proqram sənədidir. Bu əsərdə Marks və Engelsin böyük tə`liminin tam və müntəzəm şərhi verilmişdir. «Bu əsərdə yeni bir dünyagörüşü, ictimai həyat sahəsini də əhatə edən ardıcıl materializm, inkişaf haqqında ən ətraflı və dərin tə`lim olan dialektika, sinfi mübarizə haqqında və yeni cəmiyyətin, kommunizm cəmiyyətinin yaradıcısı olan proletariatın ümumdünya-tarixi inqilabi rolu haqqında nəzəriyyə dahiyanə bir aydınlıq və parlaqlıqla şərh edilmişdir» (V.İ.Lenin. Əsərləri, 4-cü nəşri, 21-ci cild, səh. 36). «Kommunist Partiyasının manifesti» proletariatı, kapitalizmin iflasının və proletar inqilabının təntənəsinin labüd olduğunu göstərən elmi sübutla silahlandırmış, inqilabi proletar hərəkatının vəzifə və məqsədlərini müəyyənləşdirmişdir.

Kommunistlər ittifaqının proqramı kimi Marks və Engels tərəfindən yazılan «Mannfest» ilk dəfə 1848-ci ilin fevralında Londonda nəşr olunmuşdur. Bu nəşrə əsərin özü ilə yanaşı, «Manifest»in 1888-ci il ingiliscə nəşri istisna olmaqla bütün nəşrlərinin müqəddimələri də daxil edilmişdir, zira ingiliscə nəşrinin müqəddiməsindəki fikirlər başqa müqəddimələrdə və 1890-cı il almanca nəşrinin müqəddiməsində təkrar olunur. Bax: ingiliscə nəşrinə müqəddimə. K.Marks və F.Engels. Əsərləri, 2-ci nəşri, 21-ci cild, səh. 362–369.

38 Kommunistlər ittifaqı–proletariatın Marks və Engels tərəfindən yaradılmış birinci beynəlxalq kommunist təşkilatıdır, 1847–1852-ci illərdə fəaliyyət göstərmişdir. Bax: F.Engelsin «Kommunistlər ittifaqının tarixinə dair» məqaləsi (bu nəşr, 3-cü cild).

39 Fransada 1848-ci il fevral inqilabı nəzərdə tutulur.

40 «The Red Repubilikan» («Qırmızı respublikaçı»)–çartistlərin həftəlik jurnalı. Bu jurnalı 1850-ci ilin iyun–noyabr aylarında Londonda C.Qarni nəşr etmişdir. «Manifest» qısaldılmış şəkildə 1850-ci ilin noyabrında 21–24-cü nömrələrdə dərc olunmuşdu.

41 İyun üsyanı–1848-ci il iyunun 23–26-da Paris fəhlələrinin qəhrəmancasına üsyanı; fransız burjuaziyasının amansızcasına yatırdığı bu usyan proletariat ilə burjuaziya arasında tarixdə ilk böyük vətəndaş müharibəsi oldu.

42 «Le Socialiste» («Sosialist»)–1871-ci ilin oktyabrından 1873-cü ilin may ayınadək Nyu-Yorkda fransız dilində nəşr edilmiş həftəlik qəzet; İnternasionalın Şimali Amerika Federasiyasında fransız bölmələrinin orqanı idi; Haaqa konqresindən sonra bu bölmələr İnternasional ilə əlaqəni kəsmişdi.

«Kommunist Partiyasının manifesti»nin yuxarıda qeyd edilən fransızca tərcüməsi 1872-ci ilin yanvar–mart aylarında «Le Socialiste» qəzetində dərc edilmişdi.

43 «Kommunist Partiyasının manifesti»nin 1869-cu ildə Cenevrədə rusca birinci nəşrindən bəhs edilir. «Manifest»i Bakunin tərcümə etmişdi. Bakunin tərcümə zamanı bir sıra yerdə «Maiifest»in məzmununu təhrif etmişdi. Birinci nəşrin nöqsanları 1882-ci ildə Cenevredə Plexanovun tərcüməsi ilə buraxılan nəşrdə aradan qaldırıldı. Plexanovun tərcüməsi «Manifest» ideyalarının Rusiyada geniş yayılmasının başlanğıcını qoydu.

44 A.İ.Gertsenin və N.P.Oqaryovun nəşr etdikləri inqilabi-demokratik «Kolokol» qəzetinin çap olunduğu «Azad rus mətbəəsi» nəzərdə tutulur. Gertsenin düzəltdiyi mətbəə 1865-ci ilədək Londonda idi, sonra Cenevrəyə köçürüldü. «Manifest»in yuxarıda qeyd edilən nəşri 1869-cu ildə həmin mətbəədə çap edilmişdir.
45 Marks və Engels 1881-ci il martın 1-də imperator II Aleksandr xalqçılar tərəfindən öldürüldükdən sonra yaranmış şəraiti nəzərdə tuturlar; o zaman taxta çıxan III Aleksandr «Narodnaya volya»nın gizli icraiyyə komitəsinin yeni terrorçu hərəkətlərinə əl atacağından qorxaraq, Qatcinadan kənara çıxmırdı.
46 Kommunistlərin Köln mühakiməsi (4 oktyabr–12 noyabr 1852-ci il)– Kommunistlər ittifaqının 11 üzvünə qarşı Prussiya hökumətinin təşkil etdiyi fitnəkar mühakimə. Onların yeddi nəfəri saxta sənədlər və yalan ifadələr əsasında dövlətə xəyanətdə ittiham edilərək, 3 ildən 6 ilədək həbs cəzasına məhkum olundu və qalaya salındı. Marks və Engels Prussiya polis dövlətinin beynəlxalq fəhlə hərəkatına qarşı işə saldığı alçaq və fitnəkar metodları ifşa etdilər (bax: Engels. «Bu yaxınlarda Kölndə olmuş mühakimə». Bu cild, səh. 425–431. Marksın «Kommunistlərin Köln mühakiməsi haqqında ifşalar» pamfleti. K.Marks və F.Engels. Əsərləri, 2-ci nəşri, 8-ci cild, səh. 423–491).
47 Marks və Engels XIX əsrin 40-cı illərindən başlayaraq, bu nəzəri müddəanı özlərinin bir sıra əsərlərində irəli sürmüşlər; həmin müddəa buradakı şəkildə Beynəlxalq Fəhlə Birliyinin Nizamnaməsində ifadə edilmişdir (bax: bu nəşr, 2-ci cild, səh. 14).
48 Həmin müqəddiməni Engels 1890-cı il mayın 1-də yazmışdır; o gün II İnternasionalın Paris konqresinin qərarı ilə (iyul 1889-cu il) Avropa və Amerikanın bir sıra ölkələrində fəhlələr kütləvi nümayişlər, tə`tillər və mitinqlər keçirərək, 8 saatlıq iş günü tətbiq olunmasını və konqresin digər qərarlarının yerinə yetirilməsini tələb edirdilər. O vaxtdan e`tibarən bütün ölkələrin fəhlələri hər il 1 May gününü inqilabi qüvvələrə mübariz baxış və proletariatın beynəlxalq həmrə`ylik günü kimi qeyd etməyə başladılar.
49 Konqresli Polşa–Polşanın o hissəsinin adıdır ki, 1814–1815-ci illərdəki Vyana konqresinin qərarı ilə Polşa çarlığı rəsmi adı ilə Rusiyanın ixtiyarına keçmişdi.
50 Engels bu qeydi «Kommunist Partiyasının manifesti»nin 1890-cı il almanca nəşrinə də daxil etmiş, yalnız son ifadəni atmışdır.

51 Sonrakı əsərlərində Marks və Engels «əməyin dəyəri», «əməyin qiyməti» anlayışları əvəzinə Marksın tətbiq etdiyi daha dəqiq anlayışları– «iş qüvvəsinin dəyəri», «iş qüvvəsinin qnyməti» anlayışlarını işlətmişlər (bu barədə bax: Marksın «Muzdlu əmək və kapital» əsərinə Engelsin giriş məqaləsi).
52 Seçki hüququ islahatı uğrundakı hərəkatdan söhbət gedir; İngiltərənin numayəndələr palatası xalq kütlələrinin təzyiqi altında bu islahatı 1831-ci ildə qəbul etdi və 1832-ci ilin iyununda lordlar palatası bunu qəti təsdiq etdi. Torpaq və maliyyə aristokratiyasının siyasi inhisarına qarşı yönəldilən bu islahat sənaye burjuaziyasının nümayəndələri üçün parlamentə yol açdı. Liberal burjuaziya bu islahat uğrundakı mübarizədə başlıca qüvvə olan proletariatı və xırda burjuaziyanı aldatdığına görə onlar seçki hüququ əldə etmədilər.
53 Legitimistlər–iri, irsi torpaq sahibliyinin mənafeyini təmsil edib 1830-cu ildə devrilən «legitim» («qanuni») Burbonlar sülaləsinin tərəfdarları. Maliyyə aristokratiyasına və iri burjuaziyaya arxalanan hakim Orleanlar sülaləsinə (1830–1848) qarşı mübarizədə legitimistlərin bir qismi çox vaxt ictimai demaqogiyaya əl atıb, özlərini elə qələmə verirdilər ki, guya onlar zəhmətkeşləri istismarçı burjualardan müdafiə edirlər.
54 « Gənc İngiltərə»–Tori partiyasına mənsub olan ingilis siyasi xadimləri və ədibləri qrupu; XIX əsrin 40-cı illərinin əvvəlində yaranmışdı. «Gənc İngiltərə» xadimləri burjuaziyanın iqtisadi və siyasi qüdrətinin güclənməsindən torpaq aristokratiyasının narazılığını ifadə edərək, fəhlə sinfini özlərinin tə`siri altına almaq və burjuaziyaya qarşı mübarizədə bu sinifdən istifadə etmək üçün demaqogiya üsullarına əl atırdılar.
55 Fransada «Reforma» («La Reforme») qəzetinin tərəfdarları olan xırda burjua demokrat-respublikaçılarından və xırda burjua sosialistlərindən söhbət gedir (qəzet 1843-cü ildən 1850-ci ilədək Parisdə nəşr edilmişdir); onlar respublika qurmaq, demokratik və ictimai islahatlar keçirmək istədiklərini bildirirdilər.
56 «La Reforme» qəzeti haqqında 55-ci qeydə bax.
57 1846-cı ilin fevralında Polşanın milli azadlığına nail olmaq məqsədi ilə polyak torpaqlarında üsyan hazırlanırdı. Üsyanın əsas təşəbbüsçüləri polyak inqilabçı-demokratları (Dembovski və başqaları) idi. Lakin şlyaxta ünsürlərinin xəyanəti və üsyanın rəhbərlərini Prussiya polisinin həbsə alması nəticəsində ümumi üsyan baş tutmadı və yalnız ayrı-ayrı inqilabi

partlayışlar oldu. Yalnız 1815-ci ildən Avstriya, Rusiya və Prussiyanın birgə nəzarətinə tabe edilən Krakovda üsyançılar fevralın 22-də qələbə çalıb feodal mukəlləfiyyətinin ləğv edildiyi haqqında manifest buraxan Milli hökumət yarada bildilər. Krakov üsyanı 1846-cı il martın əvvəlində yatırıldı. 1846-cı ilin noyabrında Avstriya, Prussiya və Rusiya Krakovun Avstriya imperiyası ərazisinə qatılması haqqında müqavilə imzaladılar.
58 Bu məqalə K.Marksın 1848-ci ilin dekabrında yazdığı «Burjuaziya və əksinqilab» əsərinin bir hissəsidir. Həmin əsərində Marks Prussiyada əksinqilabın qələbə çalmasının səbəblərini tarixi materializm nöqteyi-nəzərindən araşdırır, Almaniyada mart inqilabının xarakternni və xüsusiyyətlərini açıb göstərir.
59 Prussiyanın bütün əyalət landtaqlarının nümayəndələrindən ibarət silki orqandan söhbət gedir. Bu halda Marks 1848-ci il aprelin 2-də Kamphauzen hökuməti dövründə çağırılan İkinci Birləşmiş landtaqı nazərda tutur. Bu landtaq Prussiya Milli məclisinə seçki qaıununu qəbul etdi və borc almağa razılıq verdi, halbuki 1847-ci il Birləşmiş landtaqı hökumətin borc almasına razılıq verməmişdi. Bundap sonra landtaq 1848-ci il aprelin 10-da buraxıldı.
60 İspaniya dövlətinin tərkibinə daxil olan Niderlandda (indiki Belçika və Hollandiya) 1566–1609-cu illərdəki burjua inqilabı nəzərdə tutulur; bu inqilab burjuaziyanın və xalq kütlələrinin feodalizmə qarşı mübarizəsini İspaniyanın ağalığı əleyhinə milli azadlıq müharibəsi ilə birləşdirirdi. Bir sıra məğlubiyyətlərdən sonra İspaniya 1609-cu ildə Hollandiya burjua respublikasının istiqlaliyyətini təsdiq etməyə vadar oldu. XVI əsrin Niderland burjua inqilabı Avropada qalibiyyətli burjua inqilabları dövrünü açdı. İndiki Belçikanın ərazisi 1714-cü ilədək ispanların əlində qalmışdı.
61 «Muzdlu əmək və kapital» əsərini çap etdirərkən Marks kapitalizm cəmiyyətində sinfi mübarizənin maddi əsasını təşkil edən iqtisadi münasibətlər haqqında populyar şəkildə mə`lumat vermək vəzifəsini qarşıya qoymuşdu. Marks proletariatı nəzəri cəhətdən silahlandırmağa çalışaraq, kapitalizm cəmiyyətində burjuaziyanın sinfi hökmranlığının, habelə fəhlələrin muzdlu köləliyinin nəyə istinad etdiyi haqqında dərin elmi anlayış verirdi. Marks özünün izafi dəyər nəzəriyyəsinin ilk müddəalarını inkişaf etdirərək, kapitalizmdə fəhlə sinfinin nisbi və mütləq yoxsullaşması tezisini ümumi şəkildə ifadə edir.

Əsər bu cilddə K.Marksın və F.Engelsin əsərlərinin ikinci nəşrinin (6-cı cild) mətinnə əsasən, yə`ni 1891-ci il nəşrində Engelsin düzəlişləri nəzərə alınaraq dərc edilir.
62 «Neue Rheinsche Zeitunq. Organ der Demokratie» («Yeni Reyn qəzeti. Demokratiyanın orqanı»)–1848-ci il iyunun 1-dən 1849-cu il mayın 19-dək Kölndə Marksın redaktorluğu ilə çıxmışdır; Engels redaksiyanın tərkibinə daxil idi.
63 Brüsseldə Alman fəhlə cəmiyyətini Marks və Engels Belçikada yaşayan alman fəhlələrini siyasi cəhətdən maarifləndirmək və onların içərisində elmi kommunizm ideyalarını təbliğ etmək məqsədi ilə 1847-ci il avqustun axırında tə`sis etmişdilər. Marks ilə Engelsin və onların silahdaşlarının rəhbərliyi altında bu cəmiyyət Belçikadakı alman inqilabçı proletarlarını birləşdirən leqal mərkəz olmuşdu. Cəmiyyətin ən yaxşı ünsürləri Kommunistlər ittifaqının Brüssel icmasına daxil idilər. Brüsseldəki alman fəhlə cəmiyyəti Fransada 1848-ci il fevral burjua inqilabından az sonra Belçika polisinin bu cəmiyyət üzvlərini həbs və sürgün etməsi nəticəsində daha fəaliyyət göstərmədi.
64 1849-cu ildə Macarıstan burjua inqilabını boğmaq və Avstriyada Habsburqlar sülaləsinin hakimiyyətini bərpa etmək məqsədi ilə çar qoşunlarının Macarıstana müdaxiləsi nəzərdə tutulur.
65 1849-cu ilin may–iyul aylarında Almaniyada xalq kütlələrinin imperiya konstitusiyasını (1849-cu il martın 28-də Frankfurt Milli məclisi tərəfindən qəbul olunub bir sıra alman dövlətlərinin rədd etdiyi konstitusiyanı) müdafiə edən üsyanlardan söhbət gedir. Dağınıq, kortabii xarakter daşıyan bu üsyanlar 1849-cu il iyulun ortalarında yatırıldı.
66 Marksın muzdlu əmək və kapital mövzusunda oxuduğu son mühazirə və ya bir sıra axırıncı mühazirələr üçün əlyazması şəklində hazırladığı ilk qeydlər sonralar Marksın əlyazmaları içərisində tapılmışdır «Əmək haqqı» adlanan bu əlyazmasının cildində «Brüssel, dekabr 1847-ci il» yazılmışdı. (bax: K.Marks və F.Engels. Əsərləri, 2-ci nəşri, 6-cı cild, səh. 579–602). Məzmununa görə bu əlyazması Marksın yarımçıq qalmış «Muzdlu əmək və kapital» əsərini qismən tamamlayır. Lakin «Muzdlu əmək və kapital» əsərinin çap üçün hazırlanmış son hissələri Marksın əlyazmaları arasında tapılmamışdır.
67 Marks «Kapital»da yazır: «Mən klassik siyasi iqtisad dedikdə, U.Petti ilə başlayan və burjua istehsal münasibətlərinin daxili asılılıqlarını tədqiq

edən bütün siyasi iqtisadı nəzərdə tuturam» (Bax: K.Marks. «Kapital», I cild, səh. 91). İngiltərədə klassik siyasi iqtisadın ən böyük nümayəndələri A.Smit ilə D.Rikardo olmuşlar.

68 F.Engels «Anti-Dürinq» əsərində yazır ki, «daha məhdud mə`nada siyasi iqtisad XVII əsrin axırlarında dahi insanların zehnində yaranmışsa da, fiziokratların və Adam Smitin ona verdiyi öz müsbət ifadəsində mahiyyətcə XVIII əsrin yetişdirməsidir» (bax: F.Engels. «Anti-Dürinq», səh. 150).

69 Engels 1891-ci ildə Bir mayın bayram edilməsini nəzərdə tutur. Bə`zi ölkələrdə (İngiltərədə, Almaniyada) Bir may bayramı mayın 1-dən sonra gələn birinci bazar günü qeyd edilirdi ki, bu da 1891-ci ildə mayın 3-nə düşmüşdü.

70 Engelsin göstərdiyinə görə əsər yarımçıq qalmışdır. Marks Kölndən müvəqqəti getdiyinə, sonra isə Almaniyada siyasi şərait kəskinləşdiyinə və «Neue Rheinische Zeitunq» qəzetinin nəşri dayandırıldığına görə məqalələrin dərc edilməsinə ara verilmişdi. 66-cı qeydə də bax.

71 «Mərkəzi Komitənin Kommunistlər ittifaqına müraciəti»ni Marks və Engels 1850-ci il martın axırında, inqilabın yeni yüksəlişinə hələ ümid bəslədikləri zaman yazmışdılar. Qarşıdakı inqilabda proletariatın nəzəriyyə və taktikasını hazırlayan Marks və Engels müstəqil proletar partiyası yaratmaq, xırda burjua demokratlarından ayrılmaq zərurətini «Müraciət»də xüsusi qeyd edirlər. «Müraciət»də marksizm banilərinin ifadə etdikləri başlıca rəhbər ideya fasiləsiz inqilab ideyasıdır, bu inqilab xüsusi mülkiyyətin, siniflərin məhv olmasına, yeni cəmiyyət yaranmasına gətirib çıxarmalıdır.

«Mərkəzi Komitənin müraciəti» Kommunistlər ittifaqının üzvləri arasında gizli yayılırdı. Kommunistlər ittifaqının həbs edilmiş bə`zi üzvlərindən Prussiya polisinin 1851-ci ildə tapdığı həmin sənəd alman burjua qəzetlərində və polis mə`murları Vermut və Ştiberin kitabında dərc olunmuşdu.

72 Müqəddəs ittifaq–ayrı-ayrı ölkələrdə inqilabi hərəkatı boğmaq və feodal-monarxiya rejimlərini qoruyub saxlamaq üçün 1815-ci ildə çar Rusiyası, Avstriya və Prussiya tərəfindən tə`sis edilən Avropa monarxlarının mürtəce birliyi.

73 Fransanın paytaxtı–XVIII əsrin axırlarındakı fransız burjua inqilabı dövründən başlayaraq, inqilab ocağı sayılan Paris şəhəri nəzərdə tutulur.

74 Frankfurt məclisinin sol cinahı–Almaniyadakı mart inqilabından sonra çağırılıb 1848-ci il mayın 18-də Frankfurt-Maynda öz iclaslarına başlamış Milli məclisin xırda burjua sol cinahı. Məclisin başlıca vəzifəsi Almaniyanın siyasi cəhətdən parçalanmış olmasını ləğv etməkdən və Ümumalmaniya konstitusiyasını işləyib hazırlamaqdan ibarət idi. Lakin liberal əksəriyyətin qorxaqlığı və tərəddüdü, sol cinahın qətiyyətli və ardıcıl hərəkət etməməsi üzündən Məclis ölkədə ali hakimiyyəti öz əlinə almaqdan ehtiyat etdi və 1848–!849-cu illərdəki alman inqilabının əsas məsələlərində möhkəm mövqe tutmağı bacarmadı. 1849-cu il mayın 30-da Məclis Ştutqarta köçməyə məcbur oldu. 1849-cu il iyunun 18-də qoşun məclisi dağıtdı.
75 «Neue Oder-Zeitunq» («Yeni Oder qəzeti»)–gundəlik alman burjua demokratik qəzeti. Bu ad altında 1849–1855-ci illərdə Breslavlda (Vrotslav) çıxmışdır. 1855-ci ildə Marks həmin qəzetin London müxbiri idi.
76 Aqrar məsələsi barəsində burada irəli sürülən baxışlar 40–50-ci illərdə inqilabın inkişaf perspektivlərinə Marks və Engelsin verdikləri ümumi qiymətlə sıx bağlıdır. V.İ.Leninin göstərdiyi kimi, marksizmin baniləri o zaman belə hesab edirdilər ki, kapitalizm kaftarlaşmışdır, sosializm isə artıq yaxındır. Bunu əsas götürərək, Marks və Engels «Müraciət»də mülkədarlardan müsadirə edilən torpaqdarı kəndlilərə vermək əleyhinə çıxıb, torpağı dövlət mülkiyyəti etməyə və birləşmiş kənd proletariatı, fəhlə koloniyalarının sərəncamına verməyə tərəfdar olduqlarını bildirirlər. Lenin Rusiyada Böyük Oktyabr sosialist inqilabının təcrübəsinə, həmçinin başqa ölkələrdəki lnqilabi hərəkatın təcrübəsinə istinad edərək, aqrar məsələsinə marksist baxışlarını inkişaf etdirdi. O, qabaqcıl kapitalist ölkələrində proletar inqilabından sonra iri kənd təsərrüfatı müəssisələrini əsasən saxlamağın məqsədə uyğun olduğunu qeyd edərək yazırdı: «Lakin bu qaydanı şişirtmək və ya bir şablon şəklinə salmaq və əmlakdan məhrum edilmiş qəsbkarların torpaqlarının bir hissəsinin əvəzsiz olaraq ətrafdakı xırda kəndlilərə, bə`zən habelə orta kəndlilərə verilməsinə heç zaman yol verməmək çox böyük bir səhv olardı» (V.İ.Lenin. Əsərləri, 4-cü nəşri, 31-ci cild, səh. 152).
77 K.Marksın 1848-ci ildən 1850-ci ilə qədər Farnsada sinfi mübarizə» əsəri «1848-ci ildən 1849-cu ilə qədər» ümumi başlığı altında nəşr edilən məqalələr seriyasından ibarətdir. Bu əsərdə Fransa tariximin bütöv bir

dövrünün materialist izahı verilmiş və proletariatın inqilabi taktikasının ən mühüm müddəaları işlənib hazırlanmışdır. Marks kütlələrin inqilabi mübarizəsinin əməli təcrübəsi əsasında «Fransada sinfi mübarizə» əsərində özünün inqilab və proletariat diktaturası nəzəriyyəsini inkişaf etdirmişdir. Marks fəhlə sinfinin siyasi hakimiyyəti ələ almasının zəruriliyini sübut edərək, həmin əsərində ilk dəfə «proletariat diktaturası» terminini işlədir və bu diktaturanın siyasi, iqtisadi və ideoloji vəzifələrini göstərir. Marks öz əsərində fəhlə sinfinin rəhbər rolu şəraitində bu sinfin kəndlilərlə ittifaqı ideyasını irəli sürür. «Fransada sinfi mübarizə» əsərinin ilk, planı 4 məqaləni: «1848-ci il iyun məğlubiyyəti», «13 iyun 1849-cu il», «13 iyunun qit`ədə nəticələri» və «İngiltərədə müasir vəziyyət» məqalələrini əhatə edirdi. Lakin yalnız üç məqalə çıxdı. 1849-cu il iyun hadisələrinin qit`ədə tə`siri və İngiltərədə vəziyyət məsələləri jurnalın başqa materiallarında, o cümlədən Marks və Engelsin birlikdə yazdıqları beynəlxalq icmallarda işıqlandırıldı. 1895-ci ildə Marksın əsərini nəşr edirkən Engels əlavə olaraq dördüncü fəsli daxil etdi; bu fəsil isə «Üçüncü beynəlxalq icmal»ın Fransa hadisələrinə həsr edilmiş bölmələrindən ibarət idi (bax: K.Marks və F.Engels. Əsərləri,_2-ci nəşri, 7-ci cild, səh. 464–467 və 473–483). Engels bu fəsli «1850-ci ildə ümumi seçki hüququnun ləğv edilməsi» adlandırmışdı. Əsərlərdə olduğu kimi, bu cilddə də birinci üç fəslin başlığı jurnalın mətninə, dördüncü fəslin başlığı isə 1895-ci il nəşrinə uyğun olaraq verilir.

78 Engels, Marksın «1848-ci ildən 1850-ci ilə qədər Fransada sinfi mübarizə» əsərinə giriş məqaləsini əsərin 1895-ci ildə Berlində buraxılan ayrıca nəşri üçün yazmışdır.

Marksın əsərində 1848–1849-cu illər inqilabının gedişinə və dərslərinə verilmiş təhlilin əhəmiyyətini göstərən Engels öz giriş məqaləsinin xeyli hissəsini xüsusən Almaniyada proletariatın sinfi mübarizəsinin sonrakı təcrübəsini ümumiləşdirməyə həsr edir. Engels giriş məqaləsində proletariatı sosialist inqilabına hazırlamaq, demokratiya uğrunda mübarizəni sosialist inqilabı uğrunda mübarizə ilə bacarıqla əlaqələndirmək, birinci vəzifəni ikincisinə tabe etdirmək üçün bütün leqal vasitələrdən inqilabi tərzdə istifadə etməyin zəruriliyini qeyd edir. Giriş məqaləsində Engels mübarizənin taktiki metod və formalarını seçməyin konkret tarixi şəraitdən asılı olduğu və mürtəce hakim siniflər zor işlədəcəyi təqdirdə inqilabi fəaliyyətin proletariat üçün əlverişli olan dinc

formalarını dinc olmayan mübarizə formaları ilə əvəz etməyin zəruri olduğu haqqında marksizmin çox mühüm müddəasını yenidən əsaslandırır. Giriş məqaləsi çap olunarkən Almaniya Sosial-demokrat partiyasının İdarə hey`əti Engelsdən tə`kidlə xahiş etmişdi ki, İdarə hey`ətinin fikrincə, əsərin çox güclü inqilabi ruhunu yumşaldıb, ona daha üsullu bir forma versin. Engels partiya rəhbərliyinin qətiyyətsiz mövqeyini, onun «yalnız qanun çərçivəsində hərəkət etmək» cəhdini tənqid etmişdi. Lakin İdarə hey`ətinin fikri ilə hesablaşmağa məcbur olan Engels təshih zamanı bir sıra yerləri atmağa və bə`zi ifadələri dəyişməyə razılıq verdi. (Bu dəyişiklik və ixtisarlar sətir altında qeyd olunmuşdur. Bu dəyişikliklərin edildiyi və mühafizə olunan mətbəə səhifələri və giriş məqaləsinin əlyazması ilk mətni tamamilə bərpa etməyə imkan verir.)

Eyni zamanda sosial-demokratiyanın ayrı-ayrı rəhbərləri bu əsər əsasında istəmişdilər Engelsi hər çur şəraitdə hakimiyyətin fəhlə sinfinin əlinə yalnız dinc yolla keçməsinə tərəfdar kimi qələmə versinlər. Guya Engels «necə olursa-olsun qanunçuluğun» müdafiəçisi imiş. Engels bundan bərk qəzəblənərək, tə`kidlə tələb etdi ki, giriş məqaləsi «Neue Zeit» jurnalında dərc olunsun. Lakin jurnalda da giriş məqaləsi yuxarıda adı çəkilən ayrıca nəşrdə muəllifin etdiyi ixtisarlarla dərc olundu. Amma giriş məqaləsi ixtisarla dərc olunsa da, öz inqilabi xarakterini hifz etdi.

Engelsin giriş məqaləsinin tam mətni ilk dəfə SSRİdə 1930-cu ildə aşağıdakı kitabda dərc olunmuşdur: K.Marks. «1848–1950-ci illərdə Fransada sinfi mübarizə».

79 «Neue Rheinsche Zeitunq Politisch-ökonomische Revue» («Yeni Reyn qəzeti. Siyasi-iqtisadi icmal»)–1849-cu ilin dekabrında Marks və Engelsin tə`sis etdikləri jurnal; onlar bu jurnalı 1850-ci ilin noyabrınadək nəşr etmişlər. Jurnal Kommunistlər ittifaqının nəzəri və siyasi orqanı idi. Hamburqda çap olunurdu. Jurnalın 6 nömrəsi çıxmışdır. Almaniyada polis tə`qibləri nəticəsində və maddi vəsait yoxluğu üzündən jurnalın nəşri dayandırılmışdı.

80 Hökumət dotasiyaları nəzərdə tutulur; Engels istehza ilə bu dotasiyaları I Vilhelmin Hamburq yaxınlığındakı Saksenvaldda (Saksoniya meşəsi) Bismarka bağışladığı malikanənin adı ilə adlandırır.

81 İn partibus infidedium (hərfiyyən «dinsizlər ölkəsində»)–xristian olmayan ölkələrdə ancaq adı olan yepiskop vəzifələrinə tə`yin edilən katolik yepiskoplarının tituluna əlavədir. Marks və Engelsin əsərlərində bu

ifadəyə tez-tez təsadüf edilir; onlar həmin ifadəni ölkənin real şəraiti qəti nəzərə alınmadan xaricdə təşkil edilən müxtəlif mühacir hökumətləri barəsində işlədirlər.

82 XIX əsrin birinci yarısında fransız burjuaziyasının iki monarxist partiyasından–legitimistlərdən (bax: 53-cü qeyd) və orleanistlərdən söhbət gedir.

Orleanistlər–1830-cu ilin İyul inqilabı zamanından hakimiyyət başında durub, 1848-ci il inqilabının devirdiyi Burbonlar sülaləsinin kiçik şaxəsi Orlean hersoqlarının tərəfdarları; maliyyə aristokratiyasının və iri burjuaziyanın mənafeyini təmsil edirdilər.

İkinci respublika dövründə (1848–1851) hər iki monarxist qruplaşma birləşmiş mühafizəkar «qayda-qanun partiyası»nın özəyini təşkil edirdi.

83 III Napoleon dövründə Fransa Krım müharibəsində iştirak edir (1854–1855), İtaliya üstündə Avstriya ilə müharibə edir (1859), İngiltərə ilə birlikdə Çinə qarşı müharibələrdə iştirak edir (1856–1858 və 1860), Hind-Çini istila etməyə başlayır (1860–1861), Suriyaya (1860–1861) və Meksikaya (1862–1867) silahlı müdaxilə təşkil edir, nəhayət, Prussiya ilə müharibə edirdi (1870–1871).

84 F.Engels bonapartist İkinci imperiyanın (1852–1870) hakim dairələrinin yeritdiyi xarici siyasət prinsiplərindən birini ifadə edən termini işlədir. Böyük dövlətlərin hakim sinifləri «millətlər prinsipi» deyilən bu prinsipdən, özlərinin istilaçılıq planlarını və xarici siyasət macəralarını ideoloji cəhətdən pərdələmək üçün istifadə edirdilər. Millətlərin öz müqəddəratını tə`yin etmək hüququnun təsdiq edilməsi ilə heç bir əlaqəsi olmayan «millətlər prinsipi», milli ədavəti qızışdırmağa, milli hərəkatı, xüsusən kiçik xalqların hərəkatını bir-biri ilə rəqabət edən böyük dövlətlərin əksinqilabi siyasəti üçün alət etməyə doğru yönəldilmişdi.

85 1815-ci il iyunun 8-də Vyana konqresində yaradılan Almaniya ittifaqı feodal-mütləqiyyətçi alman dövlətlərinin birliyi olub, Almaniyanın siyasi və iqtisadi cəhətdən parçalanmasını təsbit edirdi.

86 Fransa-Prussiya müharibəsində (1870–1871) Fransa üzərində çalınan qələbə nəticəsində Almaniya imperiyası yaradıldı, lakin Avstriya bu imperiyadan çıxarıldı. «Kiçik Almaniya imperiyası» adı da buradan əmələ gəlmişdir. III Napoleonun məğlubiyyəti Fransada inqilaba təkan verdi. Bu inqilab nəticəsində Lui Bonapart devrildi və 1870-ci il sentyabrın 4-də respublika e`lan edildi.

87 Milli qvardiya–Fransada və Qərbi Avropanın bə`zi başqa ölkələrində seçkili komandanlığı olan silahlı mülki könullü qoşun, Fransada ilk dəfə milli qvardiya 1789-cu ildə burjua inqilabının əvvəlində yaradılmışdı; fasilələrlə 1871-ci ilədək mövcud oldu. Fransa-Prussiya müharibəsi dövründə geniş demokratik kütlələri birləşdirən Paris milli qvardiyası 1870–1871-ci illərdə böyük inqilabi rol oynadı, milli qvardiyanın 1871-ci ilin fevralında təşkil edilən Mərkəzi Komitəsi 1871-ci ilin 18 mart proletar üsyanına başçılıq etdi və 1871-ci il Paris Kommunasının ilk çağlarında tarixdə birinci proletar hökuməti vəzifəsini (martın 28-dək) yerinə yetirdi. Paris kommunası məğlub ediləndən sonra milli qvardiya buraxıldı.
88 Fransa 1870–1871-ci illərdəki Fransa-Prussiya müharibəsində uğradığı məğlubiyyətdən sonra Almaniyaya 5 milyard frank məbləğində təzminat vermişdi.
89 Sosialistlərə qarşı müstəsna qanun Almaniyada 1878-ci il oktyabrın 21 də tətbiq olunmuşdu. Həmin qanuna əsasən sosial-demokrat partiyasının bütün təşkilatları, kütləvi fəhlə təşkilatları, fəhlə mətbuatı qadağan edilir, sosialist ədəbiyyatı müsadirə edilir, sosial-demokratlar cəza tədbirlərinə mə`ruz qalırdılar. Bu qanun kütləvi fəhlə hərəkatının təzyiqi altında 1890-cı il oktyabrın 1-də ləğv edildi.
90 Bismark ümumi seçki hüququnu 1866-cı ildə Şimali Almaniya reyxstaqı seçkilərində, 1871-ci ildə isə birləşmiş Almaniya imperiyasının reyxstaqı seçkilərində tətbiq etmişdi.
91 Engels Fransa fəhlə partiyasının 1880-ci ildə Havrda keçirilmiş qurultayında qəbul edilən proqramına Marks tərəfindən yazılmış nəzəri girişdən sitat gətirir (bax: K.Marks və F.Engels. Əsərləri, 2-ci nəşri, 19-cu cild, səh. 246)–208.
92 1870-ci il sentyabrın 4-də Fransada xalq kütlələrinin inqilabi çıxışı sayəsində Lui Bonapart hökuməti devrildi və respublika e`lan edildi. 1870-ci il oktyabrın 31-də blankistlər milli müdafiə hökumətinə qarşı üsyan qaldırmağa müvəffəqiyyətsiz təşəbbüs göstərdilər.
93 Vaqram vuruşması Avstriya-Fransa müharibəsi zamanı 1809-cu il iyunun 5–6-da olmuşdur. Bu vuruşmada I Napoleonun komandanlığı altında olan fransız qoşunu ershersoq Karlın Avstriya ordusunu məğlubiyyətə uğratdı.
Vaterloo (Belçika) vuruşması 1815-ci il iyunun 18-də olmuşdur. Bu vuruşmada Napoleonun ordusu darmadağın edildi. Vaterloo vuruşması

1815-ci il kampaniyasında həlledici rol oynayaraq, Napoleon əleyhinə Avropa dövlətləri ittifaqının qəti qələbəsini və I Napoleon imperiyasının süqutunu əvvəlcədən müəyyən etdi.
94 Engels Meklenburq-Şverin və Meklenburq-Strelis hersoqluqlarında hersoq hakimiyyəti ilə zadəganlar arasında uzun müddət davam edən mübarizəni nəzərdə tutur. Bu mübarizə nəticəsində 1755-ci ildə Rostokda zadəganların vərəsəlik hüquqları haqqında konstitusiya müqaviləsi imzalanmışdı. Müqavilə onların əvvəlki sərbəstlik və imtiyazlarını təsdiq edərək, silki landtaqlarda rəhbər mövqeyini möhkəmləndirdi, zadəgan torpaqlarının yarısını vergidən azad etdi, ticarət və peşələr üçün alınan verginin qədərini, habelə dövlət xərclərində onların payını muəyyənləşdirdi.
95 1894-cü il dekabrın 5-də sosialistlər əleyhinə yeni qanun layihəsi Almaniya reyxstaqına verildi və 1895-ci il mayın 11 də bu layihə rədd edildi.
96 Orlean hersoqu fransız taxtına Lui Filipp adı ilə oturdu.
37 1832-ci il iyunun 5–6-da Parisdə üsyan baş verdi. Üsyanda iştirak edən fəhlələr bir neçə barrikada düzəldərək, özlərini böyük mərdlik və mətanətlə müdafiə edirdilər.
1834-cü ilin aprelində Lion fəhlələri üsyan etdilər. Bu üsyan fransız proletariatının ilk kütləvi çıxışlarındaı biri idi. Bir sıra şəhərlərdə, xüsusən Parisdə respublikaçıların müdafiə etdikləri bu üsyan amansızcasına yatırıldı.
1839-cu il mayın 12-də Parisdə baş verən və inqilabçı fəhlələrin başlıca rol oynadıqları üsyanı O.Blanki və A.Barbesin rəhbərliyi ilə ilin fəsilləri adlı gizli respublikaçı-sosialist cəmiyyəti hazırlamışdı; qoşun və milli qvardiya bu usyanı yatırtdı.
98 İyul monarxiyası–Lui Filippin hakimiyyət (1830–1848) dövrü; bu dövrün adı iyul inqilabından götürülmüşdur.
99 Zonderbund–İsveçrənin iqtisadi cəhətdən geri qalmış yeddi katolik kantonu arasında 1843-cü ildə ayrılıqda bağlanan ittifaq. Bu ittifaqın məqsədi İsveçrədə mütərəqqi burjua islahatlarına müqavimət göstərmək, kilsənin və yezuitlərin imtiyazlarını müdafiə etmək idi. Zonderbundu buraxıb dağıtmaq haqqında İsveçrə seyminin 1847-ci ilin iyulunda qəbul etdiyi qərar, noyabrın əvvəlində Zonderbundun digər kantonlara qarşı hərbi əməliyyata başlaması üçün bir bəhanə oldu. 1847-ci il noyabrın 23-də

federal hökumətinin qoşunları Zonderbund ordusunu darmadağın etdi. Zonderbund müharibə etdiyi dövrdə Qərbi Avropanın əvvəllər Müqəddəs ittifaqa daxil olan irticaçı dövlətlərindən Avstriya və Prussiya Zonderbundun xeyrinə İsveçrənin işlərinə müdaxilə etməyə cəhd göstərirdilər. Gizo Zonderbundun tərəfini saxlamaqla əslində bu dövlətləri mudafiə etmək yolunu tutdu.

100 1847-ci ilin yazında Büzansda (Endr departamenti) aclıq çəkən fəhlələrin, ətraf kəndlərin sakinlərinin təşəbbüsü ilə möhtəkirlərin ərzaq anbarlarına basqın edilmişdi; bu basqın əhali ilə qoşun arasında qanlı toqquşmaya səbəb olmuşdu. Büzans hadisələri hökumətin şiddətli cəza tədbirlərinə əl atması ilə nəticələndi: hadisələrin bilavasitə iştirakçısı olan dörd nəfər 1847-ci il aprelin 16-da e`dam edildi, bir çox başqaları katorqa cəzasına məhkum olundu.

101 «Le National» («Milli qəzet»)–1830-cu ildən 1851-ci ilədək Parisdə çıxan gündəlik fransız qəzeti mö`tədil burjua respublikaçılarının orqanı idi. Marrast, Bastid və Qarnye-Pajes müvəqqəti hökumətin tərkibində bu istiqamətin ən görkəmli nümayəndələri idilər.

102 «La Gazette de France» («Fransanın qəzeti»)–1631-ci ildən Parisdə çıxan gündəlik fransız qəzeti; XIX əsrin 40-cı illərində legitimistlərin, Burbonlar sülaləsini bərpa etmək tərəfdarlarının orqanı idi.

103 Fransa respublikasının mövcud olduğu ilk günlərdə dövlət bayrağı seçmək məsələsi ortaya çıxmışdı. Parisin inqilabçı fəhlələri qırmızı bayrağın dövlət bayrağı e`lan olunmasını tələb edirdilər, çünki bu bayraq 1832-ci ilin iyun üsyanı zamanı Parisin fəhlə qəsəbələrində ucaldılmışdı. Burjuaziyanın nümayəndələri XVIII əsrin axırında burjua inqilabı dövründə Fransanın və I Napoleon imperiyasının bayrağı olan üç rəngli (göy-ağ-qırmızı) bayraq üzərində tə`kid edirdilər. Bu bayraq hələ 1848-ci il inqilabından əvvəl «National» qəzetinin ətrafında qruplaşmış burjua respublikaçılarının emblemi idi. Fəhlələrin nümayəndələri üç rəngli bayrağın Fransa respublikasının dövlət bayrağı e`lan edilməsinə razılıq verməyə məcbur oldular. Lakin bayrağın ağacına qırmızı bant bağlandı.

104 «Le Moniteur universel» («Ümumi əxbar»)–gündəlik fransız qəzeti, rəsmi hökumət orqanı, 1789-cu ildən 1901-ci ilədək Parisdə çıxmışdır. «Moniteur» qəzetinin səhifələrində hökumətin sənədləri, parlamentin hesabatları və başqa rəsmi materiallar məcburi olaraq dərc edilirdi 1848-ci

ildə qəzetdə Lüksemburq komissiyasının iclasları haqqında hesabatlar da çap olunurdu.
105 XVIII əsrin axırında Fransada burjua inqilabı zamanı müsadirə olunmuş əmlak müqabilində kral hakimiyyətinin 1825-ci ildə aristokratlara verdiyi məbləğdən söhbət gedir.
106 Lassaronilər–İtaliyada sinfi simasını itirmiş lümpen-proletar ünsürlərinə verilən addır; mürtəçe monarxist dairələr liberal və demokratik hərəkata qarşı mübarizədə lassaronilərdən dəfələrlə istifadə etmişdilər.
107 İngiltərədə 1834-cü ildə qəbul olunan «yoxsullar haqqında qanun»a görə, yoxsullara ancaq bir şəkildə yardım göstərməyə yol verilirdi: onları həbsxana-katorqa rejimli iş evlərində yerləşdirirdilər; orada fəhlələr qeyri-məhsuldar, yeknəsəq və üzücü işlə məşğul olurdular, xalq bu iş evlərini «yoxsullar üçün Bastiliya» adlandırmışdı.
108 1848-ci il mayın 15-dəki xalq nümayişi zamanı Paris fəhlələri və sənətkarları Müəssislər məclisinin iclas salonuna girib məclisin buraxıldığını bildirdilər və inqilabi hökumət təşkil etdilər. Lakin çox keçmədən özünü yetirən milli qvardiya və qoşun nümayişçiləri dağıtdılar. Fəhlələrin rəhbərləri (Blanki, Barbes, Alber, Raspayl, Sobriye və başqaları) həbsə alındılar.
109 1848-ci il aprelin 16-da Parisdə «əməyin təşkili» və «insanın insan tərəfindən istismarının ləğv olunması» haqqında müvəqqəti hökumətə kollektiv ərizə təqdim etmək istəyən fəhlələrin dinc nümayişi xüsusi olaraq səfərbərliyə alınan burjua milli qvardiyası tərəfindən dayandırılmışdı.
110 «Journal des Debats» qəzetinin 1848-ci il 28 avqust tarixli baş məqaləsi nəzərdə tutulur.
«Journal des Debats politiques et litteraires» («Siyasi və ədəbi müzakirələr qəzeti»)–1789-cu ildə Parisdə tə`sis edilən gündəlik fransız burjua qəzeti. İyul monarxiyası dövründə hökumət qəzeti, orleanist burjuaziyanın orqanı, 1848-ci il inqilabı zamanı bu qəzet əksinqilabçı burjuaziyanın, qayda-qanun partiyası deyilən partiyanın baxışlarını ifadə edirdi.
111 Konstitusiyanın ilk layihəsi Milli məclisə 1848-ci il iyunun 19-da təqdim edilmişdi.
112 Tövrat əfsanəsinə görə yəhudi padşahlığının birinci şahı Saul filistimlilərə qarşı mübarizədə minlərlə düşməni, Saulun himayə etdiyi silahdaşıyanı Davud isə on minlərlə düşməni həlak etmişdi. Saulun ölümündən sonra Davud yəhudl padşahlığının şahı olmuşdu.

113 Zanbaq–Burbonlar monarxiyasının gerb nişanı. Bənövşə–bonapartistlərin emblemidir.
114 Marks dekabrın 18-də Parisdən göndərilib 1848-ci il dekabrın 21-də «Neue Rheinische Zeitunq» qəzetinin 174-cü nömrəsində dərc edilən və Ferdinand Volfun muxbir nişanı ilə imzalanan xəbəri nəzərdə tutur. Göstərilən sözlər çox güman ki, Marksın özünə məxsusdur, çünki Marks qəzetin bütün materiallarını diqqətlə redaktə edirdi.
115 Midasın qulaqları–Qədim rəvayətə görə Apollon Frikiya padşahı Midasa eşşək qulağı kimi uzun qulaqlar vermişdi.
116 Qayda-qanun partiyası–mühafizəkar iri burjuaziyanın 1848-ci ildə yaratdığı partiya; Fransanın iki motarxist fraksiyasını: legitimist və orleanistlərin koalisiyasını təmsil edirdi (bax: 53-cü və 82-ci qeydlər) 1849-cu ildən 1851-ci il dekabrın 2-dəki dövlət çevrilişinədək İkinci imperiyanın Qanunverici məclisində rəhbər mövqe tuturdu.
117 Restavrasiya–Fransada Burbonlar sülaləsinin 1814–1830-cu illərdəki ikinci hakimiyyət dövrü. Zadəgan və klerikalların mənafeyini təmsil edən Burbonların mürtəce rejimi 1830-cu ilin iyul inqilabı zamanı devrildi.
118 1848-ci il 15 may hadisələri iştirakçılarının (bax: 108-ci qeyd) mühakiməsi 1849-cu il martın 7-dən aprelin 3-dək Burjda oldu. Barbes ömürlük həbs cəzasına, Blanki 10 il həbs cəzasına məhkum olundular, Alber, Deflott, Sobriye, Raspayl və başqaları muxtəlif müddətlərə həbs cəzasına və müstəmləkələrə sürgünə məhkum edildilər.
119 Paris proletariatının iyun üsyanı yatırılarkən, qoşun hissəsinə komandanlıq etmiş general Brea 1848-ci il iyunun 25-də Fontenblo qarovulxanası yaxınlığında üsyançılar tərəfindən öldürülmüşdü. Bununla əlaqədar olaraq, üsyan iştirakçılarından iki nəfəri e`dam edildi.
120 «La Democratie pacifique» («Dinc demokratiya»)–furyeçilərin gündəlik qəzeti; 1843–1851-ci illərdə V.Konsideranın redaktorluğu ilə Parisdə çıxmışdır.
1849-cu il iyunun 12-də axşam bu qəzet redaksiyasının binasında Dağ partiyası deputatlarının yığıncağı keçirildi. Yığınçağın iştirakçıları silaha əl atmaqdan imtina etdilər və dinc nümayişlə kifayətlənməyi qərara aldılar.
121 «Le Peuple» («Xalq») qəzetinin 1849-cu il 13 iyun tarixli 206-cı nömrəsində dərc olunmuş manifestdə «Konstitusiya dostlarının demokratik cəmiyyəti» Paris vətəndaşlarını icraiyyə hakimiyyətinin «qaba iddialarına» qarşı e`tiraz etmək üçün dinc nümayişə çıxmağa çağırırdı.

122 Dağ partiyasının intibahnaməsi 1849-cu il iyunun 13-də «Reforme» və «Democratie pacifique»də, habelə Prudonun «Peuple» qəzetində dərc edilmişdi.
123 Marks papa IX Piyin üç kardinaldan ibarət komissiyasını nəzərdə tutur. Komissiya fransız ordusunun köməyinə arxalanaraq, Roma respublikası devrildikdən sonra Romada murtəce rejimi bərpa etmişdi. Kardinallar qırmızı paltar geyərdilər.
124 «Le Siecle» («Əsr»)–1836-cı ildən 1939-cu ilədək Parisdə çıxan gündəlik fransız qəzeti. XIX əsrin 40-cı illərində xırda burjuaziyanın mö`tədil konstitusiya islahatı tələb etməklə kifayətlənən hissəsinin baxışlarını əks etdirirdi; 50-ci illərdə mö`tədil respublikaçı qəzet idi.
125 «La Presse» («Mətbuat»)–1836-cı ildən Parisdə çıxan gündəlik qəzet; İyul monarxiyası dövrundə müxalifətçi xarakter daşıyırdı; 1848–1849-cu illərdə burjua respublikaçılarının, sonralar bonapartistlərin orqanı idi.
126 Burbonlar sülaləsinin yuxarı şaxəsindən olub Fransa taxt-tacı iddiasında olan qraf Şambor (özünü V Henrix adlandırırdı) nəzərdə tutulur. Qərbi Almaniyada Visbaden şəhəri ilə yanaşı, Ems şəhəri də Şamborun daimi iqamətgahı idi.
127 1848-ci il fevral inqilabından sonra Fransadan qaçan Lui Filipp Londonun həndənərindəki Klermontda yaşayırdı.
128 «Motuproprio» («Öz iltifatımızla») kardinallar ilə razılaşdırılmadan qəbul olunub, adətən, papa vilayətinin daxili siyasət və inzibati işlərinə aid xüsusi növ papa məktublarının ilk sözləridir. Burada papa IX Piyin 1849-cu il 12 sentyabr tarixli müraciətindən söhbət gedir.
129 Yekun düz gəlmir: 538000000 deyil, 578178000 olmalıdır; güman etmək olar ki, rəqəmlərdə səhv getmişdir. Lakin bu səhv ümumi nəticəni dəyişdirmir: hər iki halda adambaşına 25 frankdan da az xalis gəlir düşür.
130 Legitimist deputat de Bonun vəfatı ilə əlaqədar olaraq, Qar departamentində əlavə seçki keçirilmişdi. Dağ partiyası tərəfdarlarının namizədi Favon səs çoxluğu ilə, 36 min nəfərdən 20 min nəfərin səsi ilə deputat seçilmişdi.
131 1850-ci ildə hökumət Fransa ərazisini beş iri hərbi dairəyə bölmüşdü; bunun nəticəsində Paris və ona bitişik departamentlər ən qəddar irticaçıların başçılıq etdiyi digər dörd dairənin əhatəsinə düşmüşdü. Respublikaçı mətbuat bu mürtəce generalların hədsiz hakimiyyəti ilə türk

paşalarının müstəbid hökmranlığı arasında oxşarlıq olduğunu qeyd edərək, həmin dairələri paşalıq adlandırmışdı.
132 Prezident Lui Bonapartın Qanunverici məclisə 1849-cu il 31 oktyabr tarixli məktubu nəzərdə tutulur; prezident bu məktubunda yazırdı ki, Barro hökumətinə iste`fa vermiş və yeni nazirlər hey`əti təşkil etmişdir.
133 Yenidən Parisin polis prefekti tə`yin edilən Karlye 1849-cu il 10 noyabr tarixli məktubunda «dini, əməyi, ailəni, mülkiyyəti xoş niyyəti» müdafiə üçün «sosializm əleyhinə ictimai birlik» yaratmağa çağırırdı.
134 «Le Napoleon» («Napoleon»)–1850-ci il yanvarın 6-dan mayın 19-dək Parisdə çıxan həftəlik qəzet.
135 1848-ci il fevral inqilabı qələbə çaldıqdan sonra Paris küçələrində azadlıq ağaçları əkilmişdi. Azadlıq ağaclarının–palıd və ya qovaq–əkilməsi hələ XVIII əsrin axırındakı burjua inqilabı dövründə ən`ənə şəklini almış və vaxtilə Konventin qərarı ilə təsbit edilmişdi.
136 1830-cu ilin iyul inqilabı zamanı həlak olanların şərəfinə 1840-cı ildə Parisin Bastiliya meydanında ucaldılan İyul sütunu 1848-ci ilin fevral inqilabı dövründən solmaz çiçək əklilləri ilə bəzədilirdi.
137 Blankinin tərəfdarı və Parisin inqilabçı proletariatının nümayəndəsi Deflott 1850-ci il martın 15-də keçirilən seçkidə 126643 səs toplamışdı.
138 Koblents–Qərbi Almaniyada şəhər; XVIII əsrin axırında fransız burjua inqilabı zamanı əksinqilabçı mühacirlərin mərkəzi idi.
139 1797-ci ildə İngiltərə hökuməti bankın səlahiyyətini məhdudlaşdıran xüsusi qərar çıxarmışdı; bu qərara əsasən, banknot üçün məcburi məzənnə tə`yin edilmiş və banknotun qızıla dəyişdirilməsi ləğv olunmuşdu. Banknotun qızıla dəyişdirilməsi yalnız 1819-cu ildə yenidən bərpa edilmişdi.
140 Qanunverici məclisdə yeni seçki qanunu layihəsini hazırlayan komissiyanın tərkibinə daxil olan 17 nəfər orleanist və legitimist başçısını əsassız hakimiyyət iddiasında olduqlarına və mürtəce cəhdlərinə görə burqqraf adlandırırdılar. Bu ad Viktor Hüqonun orta əsr Almaniyasının həyatından bəhs edən eyni adlı tarixi dramasından götürülmüşdür. Almaniyada imperator tərəfindən tə`yin edilən şəhər və mahal hakimlərinə burqqraf deyirdilər.
141 «L`Acsemble`e nationale» («Milli məclis»)–1848-ci ildən 1857-ci ilədək Parisdə çıxan monarxist-legitimist məsləkli gündəlik fransız qəzeti.

1848–1851-ci illərdə hər iki sülalə partiyasının–legitimist və orleanistlərin birləşməsi tərəfdarlarının baxışlarını təmsil edirdi.
142 «Le Gonstitutionnel» («Konstitusiyaçı qəzeti»)–gündəlik fransız burjua qəzeti; 1815-ci ildən 1870-ci ilədək Parisdə çıxmışdır; 40-cı illərdə orleanistlərin mö`tədil cinahının orqanı; 1848-ci il inqilabı dövründə Tyerin ətrafında qruplaşan əksinqilabçı burjuaziyanın baxışlarını ifadə edirdi; 1851-ci ilin dekabrındakı dövlət çevrilişindən sonra bonapartist qəzeti.
143 «Baiser Lamourette» («Lamuret busəsi»)–XVIII əsrin axırında baş vermiş Fransa burjua inqilabı dövrünə aid məşhur bir epizoda işarədir. 1792-ci il iyulun 7-də Qanunverici məclisin deputatı Lamuret təklif etmişdi ki, bütün partiya çəkişmələrinə mehribancasına öpüşməklə son qoyulsun. Bir-biri ilə düşmənçilik edən partiyaların nümayəndələri Lamuretin çağırışına qulaq asıb, qol-boyun olmuşdularsa da, gözlənildiyi kimi, bu riyakar «qardaşlıq busəsi» ertəsi günü unudulmuşdu.
144 «Le Pouvoir» («Hakimiyyət»)–1849-cu ildə Parisdə tə`sis edilən bonapartist qəzeti; 1850-ci ilin iyunundan 1851-ci ilin yanvarınadək həmin adla çıxmışdır.
145 Fransa respublikası konstitusiyasının 32-ci maddəsinə görə Qanunverici məclisin iclaslarına fasilə verilən zaman üçün 25 nəfər seçkili üzvdən və Məclisin bürosundan ibarət daimi komissiya yaradılması nəzərdə tutulurdu. Komissiyanın lazım gəldikdə Qanunverici məclisi çağırmaq hüququ vardı. 1850-ci ildə həmin komissiya əslində 39 nəfərdən: 11 buro üzvündən, 3 kvestordan və 25 seçilmiş üzvdən ibarət idi.
146 Qraf Şamborun hakimiyyət başına gələcəyi halda legitimistlərin təşkil edəcəkləri nazirlər kabinetindən söhbət gedir. Bu nazirlər kabinetinə de Levis, Sen-Prist, Berye, Pastore və D`Eskar daxil olmalı idilər.
147 Qanunverici məclisdə legitimist fraksiyasının katibi De Barteleminin 1850-ci il avqustun 30-da Visbadendə qraf Şamborun tapşırığı ilə tərtib etdiyi «Visbadan manifesti» adlı tə`mim nəzərdə tutulur. Bu tə`mimdə legitimistlərin hakimiyyət başına gələcəkləri təqdirdə yeridəcəkləri siyasət müəyyənləşdirilmişdi; qraf Şambor bildirirdi ki, «xalqa hər hansı şəkildə müraciət etməyin rəsmi və qəti surətdə əleyhinədir, çünki belə bir müraciət böyük milli prinsipdən–irsi monarxiyadan imtina etmək deməkdir». Bu bəyanat deputat olacaqlaroşjaklen başda olmaqla bir sıra monarxistlərin e`tirazı ilə əlaqədar olaraq, mətbuatda mübahisə doğurmuşdu.

148 Engelsin «Almaniyada inqilab və əksinqilab» əsərində 1848–1849-cu illərdəki Almaniya inqilabına yekun vurulmuş və inqilabın müqəddəm şərtləri, başlıca inkişaf mərhələləri, müxtəlif sinif və partiyaların mövqeləri tarixi materializm nöqteyi-nəzərindən dərin təhlil edilmişdir. Əsərdə proletariatın inqilabi mübarizəsinin taktiki prinsipləri inkişaf etdirilmiş və silahlı üsyan haqqında marksizm tə`liminin bünövrəsi qoyulmuşdur.
1851–1855-ci illərdə «New-York Daily Tribune»də dərc ednlən «Almaniyada inqilab və əksinqilab» məqalələr silsiləsini Engels o zaman iqtisadi tədqiqatla məşğul olan Marksın xahişi ilə yazmışdı. «Tribune»də bu əsər qəzetin rəsmi müxbiri olan Marksın imzası ilə dərc edilmişdi, yalnız 1913-cü ildə Marks ilə Engels arasındakı yazışma nəşr edildiyi zaman aydın olmuşdu ki, həmin əsərin müəllifi Engelsdir.
149 «Tribune»–1841-ci ildən 1924-cü ilədək nəşr edilən «New-York Daily Tribune» («Nyu-York gündəlik tribunası») mütərəqqi burjua qəzetinin qısaldılmış adı. Marks və Engels 1851-ci ilin avqustundan 1862-ci ilkn martınadək bu qəzetdə əməkdaşlıq etmişdilər.
150 1818-ci ilin himayəçilik tarifi–Prussiya ərazisində daxili rüsumların ləğv edilməsi.
151 Gömrük ittifaqı–1834-cü ildə Prussiyanın başçılığı ilə yaradılan bu ittifaq, demək olar bütun alman dövlətlərini birləşdirirdi. Ümumi gömrük sərhədini müəyyənləşdirən bu gömrük ittifaqı sonralar Almaniyanın siyasi cəhətdən birləşməsinə kömək etdi.
152 1844-cü il iyunun 4–6-da Sileziya toxucularının üsyanı Almaniyada proletariat ilə burjuaziya arasında birinci böyük sinfi çarpışma idi, bu üsyanı, həmçinin 1844-cü il iyunun ikinci yarısında çex fəhlələrinin üsyanını hökumət qoşunları amansızcasına yatırtdı.
153 İttifaq seymi–Almaniya ittifaqının Frankfurt-Maynda iclas edən mərkəzi orqanı Almaniya hökumətlərinin yeritdiyi mürtəce siyasətin aləti idi.
154 Rüsum ittifaqı (Steuerverein)–1834-cü ilin mayında təşkil edilən bu ittifaqın tərkibinə İngiltərə ilə ticarətdə maraqlı olan alman dövlətləri Hannover, Braunşveyq, Oldenburq və Şaumburq-Lippe daxil idi. Ayrılıqda təşkil edilən bu ittifaq 1854-cü ilə yaxın parçalandı və onun iştirakçıları Gömrük ittifaqına qoşuldular (bax: 351-ci qeyd).
155 Avropada irticaya başçılıq edən Avstriya, İngiltərə və çar Rusiyası 1814–1815-ci illərdəki Vyana konqresində legitim monarxiyalarını bərpa

etmək məqsədi ilə xalqların milli birliyi və istiqlaliyyəti mənafeyinə zidd olaraq, Avropanın xəritəsini yenidən biçib dəyişdirdilər.
156 1830-cu ilin iyulunda Fransada burjua inqilabı baş verdi bu inqilabın ardınca Avropanın bir sıra ölkələrində Belçika, Polşa, Almaniya və İtaliyada üsyanlar oldu.
157 «Gənc Almaniya»–30-cu illərdə yaranmış ədəbi qrup öz bədii və publisistik əsərlərində xırda burjuaziyanın müxalifətçi əhvali-ruhiyyəsini əks etdirir, viçdan və mətbuat azadlığına tərəfdar çıxırdı.
158 «Berliner politisches Wochenblatt» («Berlin həftəlik siyasi jurnalı»)–ifrat mürtəce orqan tarixi hüquq məktəbinin bir sıra nümayəndələrinin iştirakı ilə 1831-ci ildən 1841-ci ilədək nəşr edilmişdir.
159 Tarixi hüquq məktəbi–XVIII əsrin axırlarında Almaniyada tarix və hüquq elmində yaranmış mürtəce cərəyan.
160 «Rheinische Zeitunq für Politik, Handel und Gewerbe» («Siyasət, ticarət və sənaye məsələlərinə dair Reyn qəzeti»)–1842-ci il yanvarın 1-dən 1843-cü il martın 31-dək Kölndə çıxan gündəlik qəzet. Marks 1842-ci ilin aprelindən bu qəzetdə əməkdaşlıq edirdi, həmin ilin oktyabrından isə qəzetin redaktorlarından biri oldu.
161 Birləşmiş komissiyalar–Prussiyada əyalət landtaqlarının öz tərkibindən seçdiyi məşvərətçi silki orqanlar.
162 Seehandlung (Dəniz ticarəti)–1772-ci ildə Prussiyada yaradılan ticarət-kredit cəmiyyəti bir sıra mühüm dövlət imtiyazlarından istifadə edir və hökumətə böyük məbləğdə borc verirdi.
163 Birləşmiş landtaq–kralın xaricdən borc almasını tə`min etmək üçün silki əyalət landtaqlarının 1847-ci ilin aprelində Berlində çağırılan birləşmiş məclisi. Kral landtaqda əksəriyyət təşkil edən burjuaziyanın ən cüzi siyasi tələblərini yerinə yetirməkdən boyun qaçırdığı üçün landtaq xaricdən borc alınmasını tə`min etməkdən imtina etdi. Buna görə də kral həmin ilin iyununda landtaqı buraxıb dağıtdı.
164 Alman sosializmi və ya «həqiqi» sosializm–XIX əsrin 40-cı illərində Almaniyada əsasən xırda burjua ziyalıları arasında yayılmış mürtəce cərəyanın nümayəndələrinin əsərlərinə işarədir.
165 Qota partiyası–1849-cu ilin iyununda əksinqilabçı iri burjuaziyanın nümayəndələri olan sağ liberalların təşkil etdiyi bu partiya Avstriya istisna olmaqla bütün Almaniyanı hogensollernlər Prussiyasının başçılığı altında birləşdirmək məqsədini qarşıya qoymuşdu.

166 «Alman katolisizmi»–1844-cü ildə əmələ gəlib orta və xırda burjuaziyanın bir çox təbəqələrini əhatə edən dini hərəkat katolik kilsəsində ifrat mistisizm və riyakarlıq təzahürlərinə qarşı yönəldilmişdi. Roma papasının başçılığını və katolik kilsəsinin bir çox ehkam və ayinlərini rədd edən «alman katolikləri» katolisizmi alman burjuaziyasının ehtiyaclarına uyğunlaşdırmağa çalışırdılar.
«Azad icmalar»–1846-cı ildə rəsmi protestant kilsəsindən ayrılan icmalar. Bu dini müxalifət XIX əsrin 40-cı illərində Almaniyadakı mürtəce qaydalardan alman burjuaziyasının narazılığının təzahür formalarından biri idi. 1859-cu ildə «Azad icmalar» «alman katoliklərinin» icmaları ilə birləşdilər.
167 Unitarilər və ya antitrinitarilər–XVI əsrdə Almaniyada meydana gəlib feodal quruluşuna və feodal kilsəsinə qarşı xalq kütlələrinin və burjuaziyanın radikal hissəsinin mübarizəsini əks etdirən dini cərəyanın nümayəndələri. Unitarizm İngiltərə və Amerikaya XVII əsrdən keçməyə başladı. XIX əsrdə unitarizm doktrinası dində mə`nəvi-əxlaqi cəhətləri ön plana çəkir, onun zahiri, mərasim cəhətinə qarşı çıxırdı.
168 Almaniya 1806-cı ilin avqustunadək alman millətinin Müqəddəs Roma imperiyası deyilən imperiyaya daxil idi; X əsrdə yaradılan bu imperiya imperatorun ali hakimiyyətini tanıyan feodal knyazlıqlarının və azad şəhərlərin birliyindən ibarət idi.
169 Vahid və bölünməz Almaniya respublikası şüarını Marks və Engels hələ inqilab ərəfəsində irəli sürmüşdülər (bax: K.Marks və F.Engels. Əsərləri, 2-ci nəşri, 4-cü cild, səh. 316 və 5-ci cild, səh. 1).
170 İngiltərənin Çinə qarşı işğalçı müharibəsi olub birinci tiryək müharibəsi adlanan müharibədən (1839–1842) söhbət gedir. Bu müharibə Çinin yarımmüstəmləkə ölkəsinə çevrilməsinin əsasını qoydu.
171 1846-cı ilin fevral–mart aylarında Krakovda milli azadlıq üsyanı ilə bir vaxtda Qalisiyada böyük kəndli üsyanı baş vermişdi. Avstriya hökumət orqanları bu usyandan şlyaxtanın üsyan hərəkatını boğmaq üçün istifadə etdilər. Avstriya hökuməti Krakov üsyanını boğandan sonra Qalisiya kəndli üsyanını da yatırtdı.
172 1848–1849-cu illərdə Avstriyanın hökmranlığına qarşı italyan xalqının milli azadlıq müharibəsi nəzərdə tutulur. Avstriya ilə mübarizə, İtaliyaIIn inqilabi yolla birləşəcəyindən qorxan italyan hakim siniflərinin xəyanətkarlığı nəticəsində məğlubiyyətə uğradı.

173 1848-ci il avqustun 26-da Malmyödə Danimarka ilə Prussiya arasında barışıq bağlanmışdı. Prussiya isə xalq kütlələrinin təzyiqi altında qalıb, Almaniya ilə birləşmək üçün Danimarkanın hökmranlığına qarşı mübarizə edən Şlezviq və Holşteyn usyançılarının tərəfində müharibədə iştirak etməyə vadar olmuşdu. Danimarkaya qarşı zahirdə müharibə edən Prussiya onunla 7 ay müddətinə biabırçı barışıq bağlamış və Frankfurt milli məclisi sentyabrda bu barışığı təsdiq etmişdi. 1849-cu ilin martında müharibə yenidən başlandı. Lakin 1850-ci ilin iyulunda Prussiya Danimarka ilə sülh müqaviləsi bağladı ki, bu da Danimarkaya üsyançıları darmadağın etmək imkanı verdi.

174 Qus müharibələri–çex xalqının 1419–1437-ci illərdə alman feodallarına və katolik kilsəsinə qarşı milli azadlıq müharibələri. Bu ad çex Reformasiyasının rəhbəri Yan Qusun (1369–1415) adından götürülmuşdür.

175 Bu məqalədə Engels o zaman Avstriya imperiyasının tərkibinə daxil olan xalqların (çexlərin, slovakların, xorvatların və başqalarının) milli hərəkatı məsələsinə toxunur. Milli məsələyə həmişə inqilabın mənafeyi nöqteyi-nəzərindən yanaşan Marks və Engels həmin xalqların mübarizəsində inqilabi-demokratik meyllər güclü olduğu zamanlarda bu mübarizəyə dərin rəğbət bəsləyirdilər. Bu hərəkatda sağ burjua-mülkədar ünsürləri üstün gəldiyi və mürtəce monarxist qüvvələr bu xalqların milli hərəkatından alman və macar inqilablarına qarşı istifadə etməyə müvəffəq olduqları zaman isə Marks və Engels həmin hərəkata öz münasibətlərini dəyişdilər. V.İ.Lenin yazırdı: «Buna görə və ancaq buna görə Marks və Engels çexlərin və cənubi slavyanların milli hərəkatının əleyhinə idilər» (Əsərləri, 4-cü nəşri, 22-ci cild, səh. 362).

Engelsin əsərində 1848–1849-cu illərin konkret şəraitində Avstriyadakı slavyan xalqları milli hərəkatının obyektiv roluna düzgün qiymət verilməklə yanaşı, həmin xalqların tarixi müqəddəratı barəsində bə`zi səhv fikirlər də vardır. Engels belə bir fikir yeridir ki, bu xalqlar bir millət kimi müstəqil yaşamağa daha qabil deyillər, buna görə də onlar daha güclü bir qonşu millət içərisində labüddən əriyib gedəcəklər. Engelsin belə bir nəticəyə gəlməsinin səbəbi o zaman kiçik xalqların tarixi müqəddəratı haqqında onda əmələ gələn ümumi təsəvvürdür. Engels bu fikirdə idi ki, kapitalizm şəraitində əsas meyli mərkəzləşmədən ibarət olan tarixi inkişafın gedişi və iri dövlətlərin yaranması kiçik xalqların daha böyük millətlər içərisində əriyib getməsinə səbəb olacaqdır. Engels kapitalizmə

xas olan mərkəzləşmə və iri dövlətlər qurmaq meylini düzgün qeyd etməklə bərabər başqa bir meyli nəzərə almamışdır ki, bu da kiçik xalqların öz istiqlaliyyəti uğrunda, milli zülmə qarşı mübarizəsi və öz dövlətlərini qurmaq arzusudur. Geniş xalq kütlələri milli azadlıq mübarizəsinə cəlb olunduqca, onların şüuru və mütəşəkkilliyi artdıqca kiçik xalqların, o cümlədən Avstriyadakı slavyan xalqlarının milli azadlıq hərəkatı daha demokratik, mütərəqqi xarakter alır və inqilabi mübarizə cəbhəsini genişləndirirdi. Tarix göstərdi ki, əvvəllər Avstriya imperiyasının tərkibinə daxil olan kiçik slavyan xalqları nəinki müstəqil milli inkişafa, öz dövlətlərini qurmağa qadir oldular, hətta ən qabaqcıl ictimai quruluş yaradanlar sırasına keçdilər.

176 1848-ci il iyunun 2-də Praqada toplaşan slavyan qurultayı Habsburqlar imperiyasının zülmü altında olan slavyan xalqlarının milli hərəkatında iki cərəyan olduğunu göstərdi. Qurultay milli məsələnnn həlli üçün vahid nöqteyi-nəzər işləyib hazırlaya bilmədi. Qurultay nümayəndələrinin radikal cinaha mənsub olub 1848-ci ilin iyununda Praqa üsyanında fəal iştirak edən hissəsi şiddətli cəza tədbirlərinə mə`ruz qaldı. Mö`tədil liberal cinahın Praqada qalan nümayəndələri iyunun 16-da e`lan etdilər ki, qurultayın iclasları qeyri-müəyyan müddətə tə`xirə salınır.

177 Xalq xartiyasını qəbul etmək haqqında parlamentə kollektiv ərizə vermək üçün çartistlərin Londonda 1848-ci il aprelin 10-na tə`yin etdikləri kütləvi nümayiş onun təşkilatçılarının qətiyyətsizliyi və tərəddüdü üzündən baş tutmadı. İrtica qüvvələri fəhlələr üzərinə hücuma keçmək və çartistlərə qarşı cəza tədbirlərinə əl atmaq üçün nümayişin baş tutmamasından istifadə etdilər.

178 1848-ci il mayın 15-də Neapol kralı II Ferdinand xalq üsyanını boğdu, milli qvardiyanı buraxıb dağıtdı, parlamenti qovdu və 1848-ci ilin fevralında xalq kütlələrinin təzyiqi altında həyata keçirilən islahatları ləğv etdi.

179 1848-ci il aprelin 1-də Avstriya hökumətinin mətbuat haqqında e`lan etdiyi müvəqqəti qaydalarda qəzet nəşrinə icazə almaq üçün böyük məbləğdə girov tələb olunurdu.

180 1848-ci il 25 aprel konstitueiyası reyxstaq seçkilərində yüksək əmlak senzi ilə oturaqlıq senzi müəyyən edir, iki palata–aşağı palata ilə senat tə`sis edir, əyalətlərdəki silki nümayəndəlik idarələrini saxlayır və imperatora, palataların qəbul etdiyi qanunları rədd etmək hüququ verirdi.

181 1848-ci il 8 may seçki qanunu fəhlələri, günəmuzd işləyənləri və xidmətçiləri seçki hüququndan məhrum edirdi. Senatorların bir qismini imperator tə`yin edir, digər qismi isə böyük məbləğdə vergi verən şəxslər arasından iki dərəcəli seçki əsasında seçilirdi. Aşağı palata seçkiləri də iki dərəcəli idi.
182 Akademik legion–Vyana universitetinin radikal əhvali-ruhiyyəli tələbələrindən ibarət hərbiləşdirilmiş mülki təşkilat.
183 Fritrederlər–ticarət azadlığına və dövlətin iqtisadi həyata müdaxilə etməməsinə tərəfdar olanlara deyilir. XIX əsrin 40–50-ci illərində fritrederlər xüsusi siyasi qruplaşma təşkil edirdilər. Sonralar bu qruplaşma liberal partiyasına daxil oldu.
184 Kerkeyin komandanlıq etdiyi macar ordusu, 1849-cu il avqustun 13-də Vilaqoş yaxınlığında Macarıstanda üsyanı boğmaq üçün göndərilən çar qoşununa təslim oldu.
185 Lankaster məktəbləri–yoxsul valideynlərin uşaqları üçün açılmış ibtidai məktəblər. İngilis pedaqoqu Cozef Lankasterin (1778–1831) adını daşıyan bu məktəblərdə qarşılıqlı tə`lim sistemi tətbiq edilirdi.
186 Sonralar, XVII əsr İngiltərə burjua inqilabının görkəmli xadimlərindən biri olan Con Gempden 1636-cı ildə nümayəndələr palatasının təsdiq etmədiyi «gəmi pulu» vergisini verməkdən imtina etmişdi. C. Gempdenin mühakiməsi ingilis cəmiyyətində mütləqiyyət əleyhinə müxalifətin artmasına kömək etdi.
1766-cı ildə İngiltərə hökumətinin qoyduğu gerb rusumunu ödəməkdən amerikalıların boyun qaçırması və XVIII əsrin 70-ci illərinin əvvəlində ingilis mallarını boykot etmək taktikası İngiltərənin Şimali Amerikadakı müstəmləkələrinin istiqlaliyyət uğrunda müharibəsi (1775–1783) üçün başlanğıc oldu.
187 1793-cü ildə fransız royalistlərinin Vandeyada (Fransanın qərb əyaləti) qaldırdıqları əksinqilabi qiyama işarədir. Fransız royalistləri həmin əyalətin geridə qalmış kəndlilərindən Fransa inqilabına qarşı mübarizə üçün istifadə etmişdilər.
188 1848-ci il martın 21-də Prussiya burjua nazirlərinin təşəbbüsü ilə Berlində kralın təntənəli gəzintisi düzəldilmişdi; bu gəzinti zamanı Almaniyanı birləşdirmək xeyrinə nümayişlər olmuşdu. IV Fridrix-Vilhelm qoluna vahid Almaniyanın rəmzi olan qara-qırmızı-qızılı sarğı bağlayıb Berlinin küçələrindən keçir və saxta vətənpərvərlik nitqləri söyləyirdi.

189 İmperiya konstitusiyası deyilən konstitusiyanı nəzərdən keçirib dəyişdirmək üçün çağırılan konfrans nəzərdə tutulur. Konfrans nəticəsində 1849-cu il mayın 26-da Prussiya, Saksoniya və Hannover kralları arasında saziş («Üç kralın birliyi») bağlanmışdı. Bu «birlik» Prussiya monarxiyasının Almaniyada hegemonluğuna nail olmaq cəhdindən başqa bir şey deyildi, çünki Prussiya kralı imperiyanın regenti olmalı idi. Lakin Avstriya və Rusiyanın təzyiqi altında Prussiya geri çəkilib, 1850-ci ilin noyabrında, «birlik»dən əl çəkməyə məcbur oldu.
190 1848-ci il mayın 18-dən 1849-cu il mayın 30-dək Ümumalmaniya milli məclisinin iclasları Frankfurt-Maynın müqəddəs Pavel kilsəsində keçirilmişdi.
191 «New-York DailyTribune»də bu seriyadan axırıncı məqalə dərc edilmədi. Marksın qızı Eleonora Marks-Evelinqin hazırlayıb 1896-cı ildə çap etdirdiyi ingilis nəşrində, habelə bir sıra sonrakı nəşrlərdə Engelsin həmin seriyaya daxil olmayan «Bu yaxınlarda Kölndə olmuş mühakimə» əsəri (bax: bu cild, səh. 425–431) axırıncı məqalə kimn verilmişdi.
192 Fransada 1850-ci ilin sentyabrında Kommunistlər ittifaqından ayrılmış Villix–Şapper fraksiyasına mənsub olan yerli icmaların üzvləri arasında 1851-ci ilin sentyabrında həbslər edildi. Bu fraksiyanın qəbul etdiyi xırda burjua qəsdçi taktikası Fransa və Prussiya polisinə imkan verdi ki, Paris icmalarından birinə başçılıq edən fitnəkar Şervalın köməyi ilə alman-fransız qəsdi haqqında uydurma iş düzəltsin. Həbsə alınanlar dövlət çevrilişi hazırlamaqda təqsirləndirilib, 1852-ci ilin fevralında məhkum edildilər. Marks və Engelsin rəhbərlik etdikləri Kommunistlər ittifaqını alman-fransız qəsdində iştirak etməkdə təqsirləndirmək istəyən Prussiya polisinin bu cəhdi tamamilə boşa çıxdı.
193 1848–1851-ci illərdə Fransadakı inqilabi hadisələrin konkret təhlili əsasında Marksın yazdığı «Lui Bonapartın on səkkiz brümeri» əsəri marksizmin ən mühüm əsərlərindən biridir. Tarixi materializmin bütün ən mühüm müddəaları sinfi mübarizə və proletar inqilabı nəzəriyyəsi, dövlət və proletariat diktaturası haqqında tə`lim bu əsərdə daha da inkişaf etdirilmişdir. Burjua dövlətinə proletariatın münasibəti məsələsində Marksın çıxardığı nəticə son dərəcə böyük əhəmiyyətə malikdir. O yazır; «Bütün çevrilişlər bu maşını sındırmaq əvəzində, təkmilləşdirirdi». Lenin bu nəticəni marksizmin dövlət ta`limində başlıca və əsas cəhət adlandırmışdır.

«Lui Bonapartın on səkkiz brümeri» əsərində qarşıdakı inqilabda fəhlə sinfinin müttəfiqi olmaq e`tibarı ilə kəndlilər məsələsi daha da təkmilləşdirilmiş, ictimai həyatda siyasi partiyaların rolu aydınlaşdırılmış, bonapartizmin mahiyyətinin dərin xarakteristikası verilmişdir.
194 Napoleon Fransasının qələbələri şərəfinə 1806–1810-cu illərdə Parisdə ucaldılan Vandom sütunu düşmənin tunc toplarından tökülmuş və sütunun başına Napoleonun heykəli qoyulmuşdu. 1871-ci il mayın 16-da Paris Kommunasının qərarı ilə Vandom sütunu sökülüb yığılmışdı. 1875-ci ildə irticaçılar bu sütunu bərpa etdilər.
195 J.S.L.Simonde de Sismondi. «Etudes sur l`economie politique». T. I, Paris, 1837, p. 35 (J.Ş.L.Simond de Sismondi. «Siyasi iqtisadın oçerkləri». I cild, Paris, 1837, səh. 35).
196 1851-ci il 2 dekabr–Fransada Lui Bonapartın və onun tərəfdarlarının əksinqilabi dövlət çevrilişini həyata keçirdikləri gündür.
197 Brümer–Fransa respublika təqvimində bir ayın adıdır. 1799-cu il 18 brümerdə (9 noyabrda) Napoleon Bonapart dövlət çevrilişi düzəldib hərbi diktatura qurmuşdu. «On səkkiz brümerin ikinci nəşri» dedikdə Marks 1851-ci il dekabrın 2-dəki dövlət çevrilişini nəzərdə tutur.
198 Bedlam–Londonda dəlixana.
199 1848-ci il dekabrın 10-da Lui Bonapart ümumi səsvermə nəticəsində Fransa respublikasının prezidenti seçilmişdi.
200 «Misirin ət qazanları üçün heyfsilənmək» ifadəsi tövrat əfsanəsindən götürülmüşdür: yəhudilər Misir əsarətindən qaçarkən, onların arasında olan zəif iradəlilər yolun çətinliyi və aclığın tə`siri altında heyfsilənib əsarətdə keçirdikləri günlərin həsrətini çəkirdilər, çunki orada onlar heç olmazsa, doyunca yeyirdilər.
201 Hic Rhodus, hic salta!(Bu Rodos, buyur tullan!)–sözləri Ezopun lovğa bir adamdan bəhs edən təmsilindən götürulmüşdü; həmin adam şahidlərə isnad edib deyirdi ki, bir dəfə Rodosda çox gözəl tullanmışdır; cavabında ona demişdilər: «Şahid nəyə lazımdır, bu Rodos, buyur tullan». Məcazi mə`nada öz baçarığını bizim yanımızda göstər.
Bu qızıl gül, buyur oyna!–bundan əvvəlki sitatın başqa sözlə ifadəsidir ki, bunu Hegel «Hüquq fəlsəfəsi» kitabına giriş sözündə vermişdir (Rodos–yunanca bir adanın adıdır, həm də «qızıl gül» deməkdir).

202 1848-ci il Fransa konstitusiyasına görə, yeni prezident seçkisi dörd ildən bir may ayının ikinci bazar günündə keçirilməli idi. Lui Bonapartın prezidentlik səlahiyyətinin müddəti 1852-ci ilin mayında qurtarırdı.
203 Xiliastlar (yunanca min mə`nasında olan «xilias» sözündəndir)–İsanın ikinci dəfə dünyaya gələcəyi və yer üzündə «min illik» ədalət, ümumi bərabərlik və səadət «səltənətinin» bərqərar olacağı haqqında dini-mistik tə`limin mübəlliğləri.
204 Kapitoli–Romada möhkəmləndirilmiş qala yerləşən təpədir. Bu təpədə Yupiter, Yunona mə`bədləri və başqa mə`bədlər tikilmişdi. Rəvayətə görə, eramızdan əvvəl 390-cı ildə qalların basqını zamanı ancaq Yunona mə`bədində qazların qaqqıldaması Kapitolinin keşikçilərini yuxudan oyatmış və Roma xilas edilmişdi.
205 Roma tarixçisi Y.Kesariyskinin dediyinə görə, 312-ci ildə imperator I Konstantin Maksensi üzərində çaldığı qələbə ərəfəsində guya səmada üzərinə «Bununla qalib gələrsən» sözləri yazılmış xaç görübmüş.
206 Vyana traktatları–Napoleon müharibələrinin iştirakçısı olan dövlətlər arasında 1815-ci ilin may–iyun aylarında bağlanmış müqavilələr (bax: 155-ci qeyd).
207 Fransada 1830-cu ilin burjua inqilabından sonra qəbul edilən konstitusiya xartiyası İyul monarxiyasının əsas qanunu idi. Xartiya millətin suveren hüquqlarını zahirən e`lan edir, kralın hakimiyyətini bir qədər məhdudlaşdırırdı.
208 Klişi–1826–1867-ci illərdə Parisdə borc həbsxanası.
209 Pretorlar–Qədim Romada sərkərdənin və ya imperatorun imtiyazlı şəxsi qvardiyasına deyilirdi; onlar daxili çaxnaşmalarda daim iştirak edirdi və çox vaxt öz adamlarını taxta çıxarırdılar. Burada 10 dekabr cəmiyyəti nəzərdə tutulur.
210 1849-cu ilin may–iyun aylarında Roma respublikasına qarşı müdaxilədə Neapol krallığı ilə Avstriyanın birgə iştirakı nəzərdə tutulur.
211 Marks, Lui Bonapartın tərcümeyi-halından aşağıdakı faktları nəzərdə tutur: 1832-ci ildə Lui Bonapart Turqau kantonunda İsveçrə vətəndaşlığını qəbul etmişdi 1848-ci ildə İngiltərədə olarkən Lui Bonapart könullü surətdə xüsusi konstebllər (İngiltərədə mülki şəxslərdən ibarət polis ehtiyat qüvvəsi) sırasına daxil olmuşdu.
212 Roma imperatoru Kaliqulanı (37–41) pretorlar qvardiyası taxta çıxartmışdı.

213 Qanunverici məclisdə təsərrüfatı, maliyyəni idarə edən və onun təhlükəsnzliyini qoruyan müvəkkilləri kvestor adlandırırdılar (Qədim Roma kvestorlarına bənzədilərək). Milli məclisin sədrinə qoşun çağırmaq hüququ verən qanun layihəsini 1851-ci il noyabrın 6-da royalist kvestorlardan Leflo, Baz və Pana irəli sürmüşdülər, lakin bu qanun layihəsi kəskin müzakirələrdən sonra noyabrın 17-də rədd edildi.
214 Fronda–1648–1653-cü illərdə Fransada mütləqiyyətə qarşı zadəgan-burjua hərəkatı. Hərəkatın zadəgan rəhbərləri öz məiyyətlərinə və yadelli qoşuna arxalanaraq o zaman baş vermiş kəndli üsyanlarından və şəhərlərdəki demokratik hərəkatdan öz xeyirlərinə istifadə etdilər.
215 Fransa taxt-tacını Roma papası IX Piyin xeyir-duası ilə almaq ümidində olan Lui Bonapartın planlarına işarədir. Tövrat rəvayətinə görə, qədim yəhudi padşahı Davud hökmdarlığa Samuil peyğəmbərin xeyir-duası ilə keçmişdi.
216 Austerlis (Moraviya) yaxınlığındakı vuruşma 1805-ci il dekabrın 2-də (noyabrın 20-də) Rusiya-Avstriya qoşunları üzərində I Napoleonun qələbəsi ilə qurtarmışdı.
217 Lui Bonapartın 1839-cu ildə Parisdə nəşr olunmuş «Napoleon ideyaları» («Des idees napoleoniennes») kitabına işarədir.
218 1850-ci ilin iyununda Qanunverici məclisin qəbul etdiyi mətbuat qanununa görə, qəzet naşirlərindən pulla alınan girov məbləği xeyli artırılmış və kitabçalara da şamil edilən ştempel rüsumu tətbiq olunmuşdu.
219 Lui Bonapartın tərcümeyi-halından iki fakta işarədir: 1836-cı il oktyabrın 30-da o, iki artilleriya polkunun köməyi ilə Strasburqda qiyam qaldırmağa cəhd etmişdi. Qiyamçılar tərksilah edildilər, Lui Bonapartın özü isə həbsə alınıb Amerikaya sürgün olundu. 1840-cı il avqustun 6-da o, Bulonda yerli qarnizon qoşunu arasında qiyam düzəltməyə yenidən cəhd göstərdi, qiyam müvəffəqnyyətsizliyə uğradıqdan sonra ömürlük həbs cəzasına məhkum edildi, lakin 1846-cı ildə İngiltərəyə qaçdı.
220 Bonapartist məsləkli qəzetlər nəzərdə tutulur; həmin ad Lui Bonapart prezident olarkən onun Parisdəki iqamətgahı olan Yelisey sarayının adı ilə əlaqədardır.
221 Marks burada Şillerin «Sevincə doğru» şe`rinin bir misrasından cinas məqsədi ilə istifadə edir. Şair həmin şe`rində sevinci–Eliziumun və ya Yelisey meydanının qızını (qədim müəlliflərdə cənnətin sinonimi)

tərənnüm edir. Həmçinin, Yelisey meydanı Parisdə bir prospektin adıdır ki, Lui Bonapartın iqamətgahı bu prospektdə yerləşirdi.
222 Parlamentlər–XVIII əsrin axırındakı burjua inqilabına qədər Fransada ali məhkəmə idarələri. Kral fərmanlarını qeydə alan parlamentlər remonstrasiya hüququna, yə`ni ölkənin adət və qanunlarına uyğun gəlməyən fərmanlar əleyhinə e`tiraz etmək hüququna malik idi.
223 Bel-İl–Biskay körfəzində ada; siyasi məhbusların saxlandığı yer.
224 Marks burada antik yazıçı Ateneyin (II–III əsrlər) «Elm xadimlərinin süfrə başındakı söhbətləri» («Deipnosophistae») kitabında nağıl etdiyi aşağıdakı epizoddan istifadə edib, onun məzmununu təxmini şəkildə verir. Misir fir`onu Taxos öz qoşunu ilə ona köməyə gələn Sparta padşahı Akesilayın boyunun balacalığına işarə edib demişdi «Dağ hamilə idi. Zevs qorxdu. Lakin dağ siçan doğdu». Akesilay belə cavab vermişdi: «Mən sənin gözünə siçan kimi görünürəm, amma bir zaman gələr ki, sənə şir kimi görünərəm».
225 Fransa taxt-tacına çıxmaq iddiasında olan legitimist qraf Şambor XIX əsrin 50-ci illərində Venesiyada yaşayırdı.
226 Restavrasiya dövründə legitimistlər arasındakı taktika ixtilafları nəzərdə tutulur. Villel (XVIII Lüdovikin tərəfdarı) mürtəce tədbirlərin ehtiyatla həyata keçirilməsini məsləhət görürdü: Polinyak (qraf d`Artuanın tərəfdarı, 1824-cü ildən kral X Karl) inqilabdan əvvəlki qaydaları tamamilə bərpa etməyə tərəfdar çıxırdı.
Parisdə Tüilri sarayı–XVIII Lüdovikin iqamətgahı; Mars pavilyonu–saray binalarından biri, Restavrasiya dövründə qraf d`Artuanın iqamətgahı idi.
227 «The Economist» («İqtisadçı»)–İngiltərədə iqtisadiyyat və siyasət məsələlərinə dair həftəlik jurnal; iri sənaye burjuaziyasının orqanı olan bu jurnal 1843-cü ildən Londonda çıxır.
228 London sənaye sərgisi–birinci dunya ticarət-sənaye sərgisi; 1851-ci ilin may–oktyabr aylarında düzəldilmişdi.
229 «Le Messager de l`Assembee» («Məclis xəbərləri»)–Fransada antibonapartist məsləkli gündəlik qəzet 1851-ci il fevralın 16-dan dekabrın 2-dək Parisdə çıxmışdır.
230 Uzun parlament (1640–1653)–burjua inqilabının başlandığı şəraitdə kral 1 Karl tərəfindən çağırılıb inqilabın qanunverici orqanına çevrilən İngiltərə parlamenti. 1649-cu ildə parlament I Karlı e`dam cəzasına

məhkum edərək İngiltərəni respublika e`lan etdi; uzun parlament 1653-cü ildə Kromvel tərəfindən dağıdılıb qovuldu.
231 Sevenna–Fransanın Langedok əyalətində dağlıq rayon. Protestantların tə`qib edilməsi nəticəsində 1702–1705-ci illərdə bu rayonda başlanan kəndli üsyanı açıq-aşkar anti-feodal xarakteri daşıyırdı.
232 Konstansa yığıncağı (1414–1418) reformasiya hərəkatının başlandığı şəraitdə katolik kilsəsinin sarsılmış vəziyyətini möhkəmlətmək məqsədi ilə çağırılmışdı.
233 1715–1723-cü illərdə Fransada XV Lüdovikin uşaqlıq dövründə Orleanlı Filippin regentliyi (naibliyi) nəzərdə tutulur.
234 Trir müqəddəs xitonu–Trir kilsəsində saxlanan katolik təbərrükü; guya İsa e`dam edilən zaman onun əynindən çıxarılan geyim. Buraya ziyarətə gəlib Trir müqəddəs xitonuna sitayiş edirdilər.
235 Maksın «Hindistanda Britaniya hökmranlığı» və «Hindistanda Britaniya hökmranlığının gələcək nəticələri» məqalələri Marksın milli-müstəmləkə məsələsindən bəhs edən ən yaxşı əsərlərindəndir. Bu məqalələrdə Marks çox zəngin təbii sərvətlərə və qədim mədəniyyətə malik olan Hindistanda Britaniyanın hökmranlığı timsalında Şərqin iqtisadi cəhətdən geri qalmış ölkələri üzərində kapitalist dövlətlərinin müstəmləkə ağalığı sisteminin xarakterik xüsusiyyətlərini açıb göstərir. Marks Hindistanın ingilislər tərəfindən istila edilib, müstəmləkə əsarəti altına alınmasının ən mühüm mərhələlərini izləyərək, göstərir ki, müstəmləkəçilərin Hindistanda soyğunçuluğu və qəsbkarlığı İngiltərənin özündə torpaq maqnatları və pul sahibləri oliqarxiyasının varlanması və güclənməsi üçün mənbə idi. Marks belə bir inqilabi nəticəyə gəlir ki, Hindistanın azadlığına İngiltərədə proletar inqilabı yolu ilə və ya müstəmləkəçilərin ağalığına qarşı hind xalqının özünün azadlıq mübarizəsi yolu ilə nail olmaq mümkündür.
236 Moğollar–XVI əsrin əvvəlində Orta Asiyanın şərq hissəsindən Hindistana soxulub 1526-cı ildə Şimali Hindistanda Böyük Moğollar imperiyasının (bu imperiyanın hakim sülaləsini belə adlandırırdılar) əsasını qoyan türk mənşəli istilaçılar. Böyük Moğollar imperiyası daimi çəkişmələr və feodal-ayrılma meyllərinin güclənməsi nətncəsində XVIII əsrin birinci yarısında parçalanıb dağıldı.
537 Linqam dini–allah Şivaya pərəstiş. Cənubi Hindistanda linqayidlər (Şivanın emblemi–«Linqa» sözündən) təriqətinə mənsub olanlar arasında

yayılmışdır; silk fərqlərini qəbul etmir, pəhrizi, qurban verilməsini, ziyarəti inkar edir.
238 Caqgernaut (Cahannath)–hind allahı Vişnunun təcəssümlərindən biridir. Caqgernaut mə`bədinin kahinləri kütləvi ziyarətdən böyük gəlir əldə edirdilər (rəqqasə adlanıb mə`bəddə yaşayan qadınlar fahişəliyə həvəsləndirilirdi). Caqgernaut ayini təmtəraqlı mərasimlə, habelə ifrat dini fanatizmlə fərqlənirdi. Dindarlar özlərinə işgəncə verir, intihar edirdilər. Böyük bayram günlərində bə`zi dindarlar özlərini Vişnu-Caqgernautun şəkli qoyulub gəzdirilən arabanın altına atırdılar.
239 Geptarxiya (yeddi hakimiyyətlik)–orta əsrlərin ilk dövrlərində İngiltərə yeddi anqlosakson krallığına (VI–VIII əsrlər) bölüidüyü zaman ölkənin siyasi quruluşunu bildirmək üçün ingilis tarixşünaslığında qəbul edilmiş termindir; Marks da burada həmin termini Dekan (Mərkəzi və Cənubi Hindistan) müsəlmanlar tərəfindən istila edilənə qədər onun feodal dağınıqlığını bildirmək üçün işlədir.
240 Brahmanlar–Hindistanın dörd ən qədim silkindən biridir. Əvvəllər əsasən imtiyazlı kahinlər təbəqəsi bu silkə mənsub idi; sonralar Hindistanın digər silkləri kimi brahmanlar silki də kahinlərlə yanaşı, peşələri və ictimai mövqeləri müxtəlif olan adamları, habelə yoxsullaşmış kəndli və sənətkarları da əhatə edirdi.
241 Ost-Hind kompaniyası–ingilis ticarət şirkəti Hindistanda, Çində və başqa Asiya ölkələrində ingilis müstəmləkəçilik siyasətinin aləti idi; 1600-cü ildə tə`sis olunmuşdu. 1853-cü ildə qəbul edilən Xartiya qanunu Hindistanın idarə olunmasında şirkətin inhisarçı hüququnu məhdudlaşdırırdı. Şirkət 1858-ci ildə tamamilə ləğv edildi.
242 Salsetta adası–Bombeyin şimalında yerləşir. Mağaralarda yerləşən 109 budda mə`bədi ilə məşhurdur.
243 Böyük Moğol–özlərini padşah adlandıran Moğol imperiyası hökmdarlarına (bax: 236-cı qeyd) avropalılar tərəfindən verilmiş titul.
244 Marathlar–Dekanın şimal-qərb hissəsindəki ərazidə yaşayan hind xalqı. XVII əsrin ortalarında marathlar Böyük Moğollar imperiyasına ciddi zərbə vuraraq onun parçalanıb dağılmasına səbəb oldular və müstəqil dövlət yaratdılar. Bu dövlətin feodal hakim dairələri tezliklə istilaçı müharibələr yoluna qədəm qoydular. XVII əsrin axırlarında marathlar dövləti daxili feodal çəkişmələri nəticəsində zəiflədi. Hiidistan üzərində ağalıq üstundəki mübarizədə və daxili çəkişmələrdə taqətdən düşmüş

marath knyazlıqları Ost-Hind kompaniyasının əlinə keçdi. Bu kompaniya 1803–1805-ci illərdəki ingilis-marath müharibəsi nəticəsivdə həmin knyazlıqları özunə tabe etdi.
245 Zəmindari və rəiyyətvari sistemləri–XVIII əsrin axırlarında və XIX əsrin əvvəllərində ingilis orqanlarının Hindistanda tətbiq etdikləri iki torpaq-vergi sistemi.
246 G.Campbell. «Modern İndia: a Sketch of the Sistem of Civil Govarnment». London, 1852, p. 59–60 («C.Kempbell. «Müasir Hindistan. Mülki idarə sisteminin oçerki». London, 1852, səh. 59–60).
247 Marks A.D.Saltıkovun «Letters sur l`İnde». Paris, 1848, p. 61 («Hindistan haqqında məktublar». Paris, 1848, səh. 61) kitabından sitat gətirir. Bu kitabın ruscası 1851-ci ildə Moskvada nəşr edilmişdir.
248 Catlar–Şimali Hindistanda silk qrupu; əsas hissəsini əkinçi kəndlilər təşkil edirdilər, hərbi-feodal təbəqəsinin nümayəndələri də həmin silkə mənsub idilər.
249 1856-cı il aprelin 14-də çartist «People`s Paper» qəzetinin dördüncü ildönumü şərəfinə keçirilən ziyafətdə Marks birinci olaraq, çıxıb danışmaq imkanından istifadə edərək, proletariatın ümumdünya-tarixi rolu haqqında nitq söyləmişdi. «People's Paper» qəzetinin yubileyində Marksın iştirakı elmi kommunizm baniləri ilə ingilis çartistləri arasındakı əlaqənin, Marks və Engelsin ingilis proletariatına ideya tə'siri göstərmək və İngiltərədə fəhlə hərəkatını yeni zəmin üzərində, sosializm zəmini üzərində dirçəltmək üçün çartizm rəhbərlərinə kömək etmək arzusunun ən parlaq timsallarından biri oldu.
«The People's Paper» («Xalq qəzeti»)–həftəlik çartist qəzeti, 1852-ci ilin mayından 1858-ci ilin iyununadək Londonda çıxmışdır; Marks və Engels 1852-ci ilin oktyabrından 1856-cı ilin dekabrınadək qəzetdə əməkdaşlıq etmiş, habelə qəzetin redaktə olunmasına yardım göstərmişlər. 1858-ci ilin iyununda qəzet burjua işbazlarının əlinə keçdi.
250 K.Marksın Siyasi iqtisadın tənqidinə dair» əsəri marksist siyasi iqtisadın yaranmasında mühüm mərhələdir. Həmin kitabı yazmamışdan əvvəl Marks on beş il elmi-tədqiqat işi aparmış və bu işin gedişində külli miqdarda ədəbiyyatı öyrənib öz iqtisadi tə`liminin əsaslarını hazırlamışdı. Marks öz tədqiqatının nəticələrini böyük bir iqtisad əsərində şərh etmək fikrində idi. 1857-ci ilin avqust–sentyabr aylarında Marks topladığı materialı sistemləşdirməyə başlayır və əsərin planının ilk qeydini yazır.

Sonrakı bir neçə ay ərzində Marks öz planını ətraflı dürüstləşdirir və nəzərdə tutduğu əsəri hissə-hissə, ayrı-ayrı buraxılışlar şəklində nəşr etməyi qərara alır. Marks əvvəlcə Berlin naşiri F.Dunker ilə müqavilə bağlayaraq, birinci buraxılış üzərində işləyir ki, bu da 1859-cu ilin iyununda çapdan çıxır.
Birinci buraxılışdan sonra Marks dərhal ikinci buraxılışı nəşr etmək istəyirdi və kapital problemləri öz əksini bu buraxılışda tapmalı idi. Lakin sonrakı tədqiqat nəticəsində Marks öz böyük əsərinin ilk planını dəyişdi. Marks ikinci və sonrakı buraxılışların əvəzinə «Kapital»ı hazırladı və «Siyasi iqtisadın tənqidinə dair» kitabının əsas müddəalarını yenidən işlənmiş şəkildə «Kapital»a daxil etdi.
251 Yarımçıq qalmış «Giriş» nəzərdə tutulur Marks bu «Girişi» böyük iqtisadi əsər üçün yazırdı (bax: K.Marks və F.Engels. Əsərləri, 2-ci nəşri, 12-ci cild, səh. 709–738).
252 «Allgemeine Zeitung» («Ümumi qəzet»)–Almaniyada gündəlik mürtəce qəzet, 1798-ci ildən nəşr edilirdi; 1810-cu ildən 1882-ci ilədək Auqsburqda çıxmışdır. 1842-ci ildə utopik kommunizm və sosializm ideyalarını saxtalaşdıran yazılar dərc etmişdi. Marks «Kommunizm və Auqsburq» «Allgemeine Zeitung» qəzeti» məqaləsində qəzetin bu hərəkətini ifşa etmişdir (bax: K.Marks və F.Engels. Əsərləri, 2-ci nəşri, 1-ci cild, səh. 114–118).
253 Engelsin bu məqaləsi K.Marksın «Siyasi iqtisadın tənqidinə dair» kitabına resenziyadır. Engels K.Marksın əsərini proletar partiyasının görkəmli elmi nailiyyəti və proletariatın elmi dünyabaxışını hazırlamaq işində mühüm mərhələ kimi qiymətləndirir. Resenziya yarımçıq qalmış, yalnız birinci iki hissəsi dərc edilmişdir. Qəzetin nəşri dayandığı üçün üçüncü hissə çap olunmamışdır. Üçüncü hissədə Engels kitabın iqtisadi məzmununun təhlilini vermək fikrində idi. Əlyazması tapılmamışdır.
254 Otuzillik müharibə (1618–1648)–protestantlar ilə katoliklər arasındakı mübarizə nəticəsində baş verən Ümumavropa müharibəsi. Almaniya bu mübarizənin başlıca meydanı, hərbi soyğunçuluq obyekti və müharibə iştirakçılarının qəsbkarlıq iddiaları üçün obyekt olmuşdu.
255 1477-ci ildən 1555-ci ilədək Hollandiya alman millətinin Müqəddəs Roma imperiyası tərkibinə daxil idi, imperiya parçalandıqdan sonra isə İspaniyanın hökmdarlığı altına keçdi. XVI əsrdəki burjua inqilabının

axırında Hollandiya İspaniyanın ağalığından xilas olub müstəqil burjua respublikası oldu.
256 Kameralistika (və ya kameral elmlğr)–Qərbi Avropanın bir sıra ölkələrindəki orta əsr universitetlərində, sonralar isə burjua universitetlərində tədris edilən inzibati, maliyyə, iqtisadi və başqa elmlərdən ibarət vahid fənn.
257 «Das Volk» («Xalq»)–1859-cu il mayın 7-dən avqustun 20-dək Marksın yaxından iştirakı ilə Londonda alman dilində nəşr edilən həftəlik qəzet; iyunun əvvəlindən Marks qəzetin fe`lən redaktoru oldu.
258 XIX əsrin 30–40-cı illərində Almaniya universitetlərində bir çox kafedraları tutan və öz mövqelərindən fəlsəfədə daha radikal istiqamət nümayəndələrinə hücum çəkmək üçün istifadə edən sağ hegelçilərə istehzalı işarə. Diadoxlar haqqında bax: 4-cü qeyd.
259 Bax: G.V.F.Hegel. «Məntiq elmi», I hissə, 2-ci şö`bə.
260 Marksın yazmaq fikrində olduğu «Siyasətin və siyasi iqtisadın tənqidi» əsərindən söhbət gedir.
261 Alman fəhlələrinin Londondakı Maarif Cəmiyyəti nəzərdə tutulur; XIX əsrin 50-ci illərində Qreyt-Uindmill-stritdə yerləşən bu cəmiyyət 1840-cı ilin fevralında K.Şapper, İ.Moll və Ədalətlilər ittifaqının digər xadimləri tərəfindən yaradılmışdı. 1849–1850-ci illərdə Marks və Engels cəmiyyətin işində fəal iştirak edirdilər. Cəmiyyətin çox hissəsi Villix–Şapperin təriqətçi-macərapərəst fraksiyasının tərəfinə keçdiyi üçün 1850-ci il sentyabrın 17-də Marks, Engels və onların bir sıra tərəfdarları cəmiyyətdən çıxdılar. 1864-cü ildə İnternasional tə`sis edildikdən sonra cəmiyyət Londonda Beynəlxalq Birliyin alman bölməsi oldu. London Maarif Cəmiyyəti 1918-ci ilədək fəaliyyət göstərdi və həmin ildə İngiltərə hökuməti tərəfindən bağlandı.
262 İnqilabçı fransız ordusu Maynsı aldıqdan sonra alman demokratik respublikaçıları 1792-ci ilin oktyabrında şəhərdə Bərabərlik və qardaşlıq dostları klubu tə`sis etmişdilər. Mayns klubçuları köhnə feodal qaydalarını məhv etmək, respublika quruluşu yaratmaq və Reynin sol sahilini inqilabçı Fransa ilə birləşdirmək uğrunda təşviqat aparırdılar. Nə şənər əhalisi, nə də kəndlilər klubçuların baxışlarına rəğbət göstərmirdilər. 1793-cü ilin iyulunda prussiyalılar Maynsı aldıqdan sonra Mayns klubçularının fəaliyyətinə son qoyuldu,

263 Kondotyerlər–XIV-XV əsrlərdə İtaliyada muzdlu hərbi dəstələrin başçıları.

ADLAR GÖSTƏRİCİSİ

A

Avqust (eramızdan əvvəl 63-cü il–eramızın 14-cü ili)–Romanın birinci imperatoru (eramızdan əvvəl 27-ci il–eramızın 14-cü ili).

Agesilay (eramızdan əvvəl təxminən 442–təxminən 358)–Sparta çarı (eramızdan əvvəl təxminən 399–təxminən 358).

Agis I (eramızdan əvvəl təxminən 399-cu ildə vəfat etmişdir)–Sparta çarı (eramızdan əvvəl təxminən 426–təxminən 399).

Ayi (Ailly), Pyer d` (1350–1420 və ya 1425-ci ildə vəfat etmişdir)–fransız kardinalı; Konstans məclisində görkəmli rol oynamışdır.

Ale (Allais), Lui Pyer Konstan (təxminən 1821-ci ildə anadan olmuşdur)–fransız polis agenti.

Aleksandr I (1777–1825)–Rusiya imperatoru (1801–1825).

Aleksandr III (1845–1894)–Rusiya imperatoru (1881–1894).

Alber (Albert) (əsil adı Aleksandr Marten) (1815–1895)–fransız fəhləsi, sosialist; 1848-ci ildə müvəqqəti hökumətin üzvü.

Anqles (Angles), Fransua Ernest (1807–1861)–fransız torpaq sahibi, Qanunverici məclisin deputatı (1850–1851), qayda-qanun partiyasının nümayəndəsi.

Annenkov, Pavel Vasilyeviç (1812–1887)–rus liberal mülkədarı, ədəbiyyatçı.

Auersvald (Auerswald), Rudolf (1795–1866)–Prussiya dövlət xadimi, nazir-prezident və xarici işlər naziri (iyun–sentyabr 1848-ci il).

B

Baböf (Babeuf) Qrakx (əsil adı Fransua Noel) (1760–1797)–Fransa inqilabçısı, utopik bərabərçilik kommunizminin görkəmli nümayəndəsi, «bərabərlər» qəsdinin təşkilatçısı.

Baz (Baze), Jan Didye (1800–1881)–fransız vəkili və siyasi xadimi, orleançı.

Bayi (Bailly), Jan Silven (1736–1793)–XVIII əsrin sonunda olmuş fransız burjua inqilabının xadimi, liberal konstitusiyaçı burjuaziyanın rəhbərlərindən biri.

Bakunin, Mixail Aleksandroviç (1814–1876)–rus demokratı, publisist; Almaniyada 1848–1849-cu illər inqilabının iştirakçısı; anarxizmin

ideoloqlarından biri, I İnternasionalda marksizmin qatı düşməni kimi çıxış etmişdir; 1872-ci ildə Haaqa konqresində təfriqəçilik fəaliyyətinə görə I İnternasionaldan kənar edilmişdir.
Balzak (Balzac), Onore de (1799–1850)–böyük fransız realist yazıçısı.
Barage d`İlye (Baraguay d`Hilliers), Aşil (1795–1878)–fransız generalı; İkinci respublika vaxtında Müəssislər məclisinin və Qanunverici məclisin depuğatı, 1851-ci ildə Paris qarnizonunun komandanı, bonapartçı.
Barbes (Barbes), Arman (1809–1870)–fransız inqilabçısı, xırda burjua demokratı 1848-ci il inqilabının fəal xadimi, 1848-ci il 15 may hadisələrində iştirak etdiyinə görə ömürlük həbs cəzasına məhkum edilmiş, 1854-cü ildə amnistiyaya duşmüşdür.
Baroş (Baroche), Pyer Jül (1802–1870)–fransız siyasi və dövlət xadimi, qayda-qanun partiyasının nümayəndəsi, sonra bonanartçı, 1849-cu ildə appelyasiya məhkəməsinin baş prokuroru.
Barro (Barrot), Odilon (1791–1873)–fransız burjua siyasi xadimi, 1848-ci ilin fevralından əvvəl liberal sülalə müxalifətinin başçısı, 1848-ci ilin dekabrı–1849-cu ilin oktyabrında qayda-qanun partiyasına arxalanan hökumətin rəhbəri.
Basserman (Bassermann), Fridrix Daniyel (1811–1855)–alman burjua siyasi xadimi, Frank-furt Milli məclisinin deputatı, sağ mərkəzə mənsub idi.
Bastia (Bastiat), Frederik (1801–1850)–fradsız vulqar iqtisadçısı.
Bastid (Bastide), Jül (1800–1879)–fransız burjua siyasi xadimi və publisisti; «National» qəzetinin redaktorlarından biri (1836–1846), xarici işlər naziri (may–dekabr 1848-ci il).
Bauer (Bauer), Bruno (1809–1882)–alman idealist filbsofu, ən görkəmli gənc hegelçilərdən biri, burjua radikalı, 1866-cı ildən sonra millətçi-liberal.
Bebel (Bebel), Avqust (1840–1913)–beynəlxalq və alman fəhlə hərəkatının görkəmli xadimi, 1867-ci ildən alman fəhlə cəmiyyətləri İttifaqının rəhbəri. I İnternasionalın üzvü, 1867-ci ildən reyxstaqın deputatı, alman sosial-demokratiyasının banilərindən və rəhbərlərindən biri, Marks və Engelsin dostu və silahdaşı; II İnternasionalın xadimi.
Bedo (Bedeau), Mari Alfons (1804–1863)–fransız generalı və siyasi xadimi, mö`tədil burjua respublikaçısı, İkinci respublika vaxtında Müəssislər məclisi və Qanunverici məclisin prezidentinin müavini.

Bem (Bem), Yuzef (1795–1850)–Polşa generalı, 1830–1831-ci illər üsyanının iştirakçısı, 1848-ci ildə Vyanada inqilabi mübarizədə iştirak etmişdir; Macarıstanda inqilabi ordunun rəhbərlərindən biri.
Benua d`Azi (Benoit d`Azy), Deni (1796–1880)–fransız siyasi xadimi, maliyyəçi; Qanunverici məclisin prezidentinin müavini (1849–1851), legitimist.
Bernar (Bernard)–fransız polkovniki, Parisdə 1848-ci il iyun üsyanının iştirakçılarına divan tutan hərbi komissiyaya başçılıq etmişdir; 1851-ci il dekabrın 2-də dövlət çevrilişindən sonra respublikaçı-antibonapartçıların məhkəməyə cəlb edilməsinin təşkilatçılarından biri.
Berye (Berryer), Pyer Antuan (1790–1868)–fransız vəkili və siyasi xadimi, legitimist.
Böttixer (Boetticher), Karl Vilhelm (1868-ci ildə vəfat etmişdir)–Prussiya mə`muru, 30-cu illərdə Prussiya əyalətində baş prezident.
Biven (Bevan), U.–Suonsi şəhəri Tred-yunionlar şurasının sədri, 1887-ci ildə tred-yunionların bu şəhərdə keçirilən konqresinin sədri olmuşdur.
Biyo (Billault), Ogüst Adolf Mari (1805–1863)–fransız siyasi xadimi, orleançı, 1849-cu ildən bonapartçı, Müəssislər məclisinin üzvü (1848–1849); daxili pşlər naziri (1854–1858).
Bismark (Bismarck), Otto, knyaz (1815–1898)–Prussiya və Almaniya dövlət xadimi və diplomatı, Prussiya yunkerlərinin nümayəndəsi; Prussiyanın nazir-prezidenti (1862–1871), Almaniya imperiyasının kansleri (1871–1890).
Blan (Blanc), Lui (1811–1882)–fransız xırda burjua sosialisti, tarixçi; 1848-ci ildə müvəqqəti hökumətin üzvü və Lüksemburq komissiyasının sədri 1848-ci ilin avqustundan Londonda xırda burjua mühacirlərinin rəhbərlərindən biri.
Blanki (Blanqui), Lui Ogüst (1805–1881)–fransız inqilabçısı, utopist-kommunist, 1848-ci il inqilabı vaxtı Fransada demokratiya və proletar hərəkatının ifrat sol cinahında dururdu; dəfələrlə həbs cəzasına məhkum edilmişdir.
Blüm (Blum), Robert (1807–1848)–alman xırda burjua demokratı, Frankfurt Milli məclisində sol qanada başçılıq edirdi; 1848-ci ilin oktyabrında Vyananın müdafiəsində iştirak etmiş, şəhər əksinqilabi ordu tərəfindən alındıqdan sonra güllələnmişdir.

Boquslavski (Bogulawski), Albert (1834–1905)–alman generalı və hərbi yazıçı.
Bomarşe (Beaumarchais), Pyer Ogüsten (1732–1799)–görkəmli fransız dramaturqu.
Bonald (Bonald), Lui Qabriyel Ambruaz (1754–1840)–fransız siyasi xadimi və publisisti, monarxist.
Bonapart–bax: Napoleon III.
Bonapart (Bonaparte) Jerom (1784–1860)–I Napoleonun kiçik qardaşı, Vestfaliya kralı; (1807–1813).
Bonapart (Bonaparte), Napoleon Jozef Şarl Pol (1822–1891)–Jerom Bonapartın oğlu, Lui Bonapartın əmisi oğlu, İkinci respublika vaxtında Müəssislər məclisinin və Qanunverici məclisin deputatı.
Bonapartlar–Fransada imperator sülaləsi (1804–1814, 1815, 1852–1870).
Böyük Karl (təxminən 742–814)–Fransa kralı (768–800) və imperatoru (800–514).
Brayt (Bright), Con (1811–1889)–ingilis fabrikçisi, taxıl qanunları əleyhinə Cəmiyyətin banilərindən biri; 60-cı illərin axırlarından e`tibarən liberallar partiyasının liderlərindən biri; liberal hökumətlərində bir sıra nazir vəzifələri daşımışdır.
Brandenburq (Brandenburg), Fridrix Vilhelm, qraf (1792–1850)–Prussiya generalı və dövlət xadimi, əksinqilabi hökumətin başçısı (noyabr 1848-ci il–noyabr 1850-ci il).
Brea (Brea) Jan Batist Fidel (1790–1848)–fransız generalı, irticaçı, 1848-ci il iyun üsyanının yatırılmasında iştirak etmiş, üsyançılar tərəfindən güllələnmişdir.
Brentano (Brentano), Lorents (1813–1891)–Baden xırda burjua demokratı; 1848-ci ildə Frankfurt Milli məclisinin deputatı, sol qanada mənsub idi; 1849-cu ildə Baden müvəqqəti hökumətinə başçılıq etmiş, üsyan məğlub edildikdən sonra mühacirət etmişdir.
Brolyi (Broglie), Aşil Şarl (1785–1870)–fransız dövlət xadimi, baş nazir (1835–1836), Qanunverici məclisin deputatı (1849–1851), orleançı.
Brut (Mark Yuni Brut) (eramızdan əvvəl təxminən 85–42)–Roma siyasi xadimi, Yuli Sezara qarşı qəsdin başçısı.
Buagilber (Boisguillebert), Pyer (1646–1714)–fransız iqtisadçısı, fiziokratların sələfi, Fransada klassik burjua siyasi iqtisadının banisi.
Burbonlar–Fransada kral sülaləsi (1589–1792, 1814–1815 və 1815–1830).

Büjo de la Pikonri (Bugeaud de la Riconnerie), Toma Rober (1784–1849)–fransız marşalı; İyul monarxiyası dövründə deputatlar palatasının üzvü, orleançı, 1848–1849-cu illərdə Alp ordusunun baş komandanı, Qanunverici məclisin deputatı.
Büxner (Büchner), Lüdviq (1824–1899)–alman burjua fizioloqu və filosofu, vulqar materializmin nümayəndəsi.
V
Vais (Vaisse), Klod Marius (1799–1864)–fransız dövlət xadimi, bonapartçı, daxili işlər naziri (yanvar–aprel 1851-ci il).
Vatimenil (İatimesnil), Antuan (1789–1860)–fransız siyasi xadimi, legitimist, Qanunverici məclisin deputatı (1849–1851).
Veydemeyer (Weydemeyer), İosif (1818–1866)–Almaniya və Amerika fəhlə hərəkatının xadimi, Kommunistlər ittifaqının üzvü, Almaniyada 1848–1849-cu illər inqilabının və ABŞ-da şimallılar tərəfində Vətəndaş müharibəsinin iştirakçısı, ABŞ-da marksizm təbliğinin əsasını qoymuşdur; Marks və Engelsin dostu və silahdaşı.
Veytlinq (Weitling), Vilhelm (1808–1871)–Almaniyada fəhlə hərəkatının meydana gəlməsi dövründə bu hərəkatın görkəmli xadimi, utopik bərabərçilik kommunizmi nəzəriyyəçilərindən biri.
Velker (Welcker), Karl Teodor (1790–1869)–alman hüquqçusu, 1848–1849-cu illərdə Frankfurt Milli məclisinin deputatı, sağ mərkəzə mənsub idi.
Venedey (Venedey), Yakob (1805–1871)–alman radikal publisisti və siyasi xadimi, liberal.
Vergili (Publi Verqili Maron) (eramızdan əvvəl 70–19)–görkəmli Roma şairi.
Veron (Veron), Lui Dezire (1798–1867)–fransız jurnalisti və siyasi xadimi, bonapartçı, «Constitutionnel» qəzetinin sahibi.
Vivyen (Vivien), Aleksandr Fransua (1799–1854)–fransız vəkili və siyasi xadimi, orleançı 1848-ci ildə Kavenyak hökumətində ictimai işlər naziri.
Vidal (Vidal), Fransua (1814–1872)–fransız iqtisadçısı, xırda burjua sosialisti, 1848-ci ildə Lüksemburq komissiyasının katibi, Qanunverici məclisin deputatı (1850–1851).
Viyeyra (Vieyra)–fransız polkovnnki, bonapartçı, 1851-ci il 2 dekabr dövlət çevrilişinin fəal iştirakçısı.

Villel (Villele) Jan Batist Serafen Jozef (1773–1854)–fransız dövlət xadimi, legitimist, baş nazir (1822–1828).
Villix (Willich), Avqust (1810–1878)–Prussiya zabiti, Kommunistlər ittifaqının üzvü, 1849-cu il Baden-Pfalts üsyanının iştirakçısı; 1850-ci ildə Kommunistlər ittifaqından parçalanıb ayrılan təriqətçi-fitnəkar fraksiyanın liderlərindən biri 1853-cü ildə ABŞ-a mühacirət etmiş, şimallıların tərəfində Vətəndaş müharibəsinin iştirakçısı olmuşdur.
Vilhelm I (1781–1864)–Vürtemberq kralı (1816–1864).
Vilhelm I (1797–1888)–Prussiya şahzadəsi, Prussiya kralı (1861–1888), Almaniya imperatoru (1871–1888).
Vindişkrets (Windischgrats), Alfred, knyaz (1787–1862)–Avstriya feldmarşalı; 1848–1849-cu illərdə Praqada, Vyanada usyanların və Macarıstanda inqilabın yatırılmasına rəhbərlik etmişdir.
Voban (Vauban), Sebastyen le Pretr (1633–1707)–fransız marşalı, hərbi mühəndis və yazıçı.
Volter (Voltaire), Fransua Mari (əsil familiyası Arue) (1694–1778)–görkəmli fransız maarifçisi, deist filosofu, satirik yazıçısı, tarixçisi.
Volf (Wolff), Vilhelm (1809–1864)–alman proletar inqilabçısı, 1848-ci ilin martından e`tibarən Kommunistlər ittifaqı Mərkəzi Komitəsinin üzvü, 1848–1849-cu illərdə «Neue Rheinische Zeitung»un redaktorlarından biri, Frankfurt Milli məclisinin deputatı; İngiltərədə mühacir, Marks və Engelsin dostu və silahdaşı.
Volf (Wolff), Xristian (1679–1754)–alman idealist filosofu, metafizik.
Vrangel (Wrangel), Fridrix Henrix Ernst (1784–1877)–Prussiya generalı.
Vud (Wood) Çarlz (1800–1885)–İngilis dövlət xadimi, viq, Hindistan İşləri uzrə nəzarət şurasının sədri (1852–1855) və Hindistan işləri üzrə nazir (1859–1866).
Q
Qrakxlar, Qay Semproni (eramızdan əvvəl 153–121) və Tiberi Semproni (eramızdan əvvəl 163–133) qardaşları.–Qədim Romanın xalq tribunları, kəndlilərin mənafeyinə uyğun olaraq aqrar qanunlarının həyata keçirilməsi uğrunda mübarizə aparmışlar.
Qranden (Grandin), Viktor (1797–1849)–fransız fabrikçisi, deputatlar palatasının üzvü (1839–1848); İkinci respublika dövründə Müəssislər məclisinin və Qanunverici məclisin deputatı, ifrat mühafizəkar mövqe tuturdu.

Qranye de Kassanyak (Granier de Cassagnac), Adolf (1806–1880)–fransız jurnalisti, prinsipsiz siyasətçi, 1848-ci ilə qədər orleançı, sonra bonapartçı; İkinci imperiya dövründə Qanunverici korpusun deputatı.
Qreyf (Greif)–Prussiya polis zabiti, XIX əsrin 50-ci illərinin əvvəllərində Londonda Prussiya agentliyinin rəhbərlərindən biri.
Qrün (Grün), Karl (1817–1887)–alman xırda burjua publisisti, 40-cı illərin ortalarında «həqiqi sosializmin» başlıca nümayəndələrindən biri.
Qudşo (Goudchaux), Mişel (1797–1862)–fransız bankiri, burjua respublikaçısı, 1848-ci ildə müvəqqəti hökumətdə maliyyə naziri.
Quluxan–bax: Nadir şah.

D

Dalman (Dahlmann), Fridrix Xristov (1785–1860)–alman tarixçisi və siyasi xadimi, liberal, 1848–1849-cu illərdə Frankfurt Milli məclisinin deputatı, sağ mərkəzə məxsus idi.
Dante Aliqyeri (Dante Alighieri) (1265–1321)–böyük italyan şairi.
Danton (Danton), Jorj Jak (1759–1794)–XVIII əsrin sonunda olmuş Fransa burjua inqilabının görkəmli xadimlərindən biri, yakobinçilərin sağ qanadının başçısı.
Darvin (Darwin), Çarlz Robert (1809–1882)–böyük ingilis təbiətşünası, elmi təkamül biologiyasının banisi.
De Mestr (De Maistre), Jozef (1753–1821)–fransız yazıçısı, aristokrat və klerikal irticasının ideoloqlarından biri, XVIII əsrin sonunda olmuş Fransa burjua inqilabının qatı düşməni.
Demosfen (eramızdan əvvəl 384–322)–Qədim Yunanıstanın görkəmli natiqi və siyasi xadimi.
Demulen (Desmoulins), Kamill (1760–1794)–fransız publisisti, XVIII əsrin sonunda olmuş burjua inqilabının xadimi, sağ yakobinçi.
Deflott (De Flotte), Pol (1817–1860)–fransız dənizçi zabiti, Blankinin ardıcılı, Parisdə 1848-ci il 15 may hadisələrinin və iyun üsyanının fəal iştirakçısı, Qanunverici məclisin deputatı (1850–1851).
Diokletian (təxminən 245–313)–Roma imperatoru (284–305).
Dits (Deitz), Osvald (təxminən 1824–1864)–alman me`marı, 1848–1849-cu illər inqilabının iştirakçısı; Londonda mühacir, Kommunistlər ittifaqı Mərkəzi Komitəsinin üzvü, İttifaq parçalandıqdan sonra Villix–Şapperin təriqətçi fitnəkar fraksiyasına mənsub idi, sonralar ABŞ-da şimallıların tərəfində Vətəndaş müharibəsinin iştirakçısı.

Doblhoff (Doblhoff), Anton (1800–1872)–Avstriya dövlət xadimi, mö`tədil liberal, 1848-ci ildə ticarət naziri (may) və daxili işlər naziri (iyul–oktyabr).
Dunker (Duncker), Frans (1822–1888)–alman burjua siyasi xadimi və naşiri.
Dükler (Duclerc), Şarl Teodor Ejen (1812–1888)–fransız siyasi xadimi, «Nationall» qəzeti redaksiyasının üzvü (1840–1846).
Düpen (Dupin), Andre Mari Jan Jak (1783–1865)–fransız hüquqşünası və siyasi xadimi, orleançı, Qanunverici məclisin sədri (1849–1851); sonra bonapartçı.
Düpon de l`Er (Dupont de L`Eure), Jak Şarl (1767–1855)–fransız siyasi xadimi, liberal; XVIII əsrin sonunda olmuş burjua inqilabının və 1830-cu il inqilabının iştirakçısı; 1848-ci ildə müvəqqəti hökumətin sədri.
Düpra (Duprat), Paskal (1815–1885)–fransız jurnalisti, burjua respublikaçısı; İkinci respublika dövründə Müəssislər məclisinin və Qanunverici məclisin deputatı, Lui Bonapartın əleyhinə çıxış edirdi.
Düfor (Dufaure), Jül Arman Stanisla (1798–1881)–fransız burjua siyasi xadimi, orleançı 1848-ci ildə Müəssislər məclisinin deputatı, 1848-ci ilin oktyabr–dekabrında Kavenyak hökumətində daxili işlər naziri.
Düşatel (Duchatel), Şarl (1803–1867)–fransız dövlət xadimi orleançı, daxili işlər naziri (1839–1840, 1840–fevral 1848-ci il).

E

Eyzenman (Eisenmann) Qotfrid (1795–1867)–alman publisisti, Frankfurt Milli məclisinin deputatı, mərkəzə, sonra sol qanada mənsub idi.
Eykin (Aikin), Con (1747–1822),–ingilis həkimi, radikal publisisti.
Eyxhorn (Eichhorn), İohann Albrext Fridrix (1779–1856)–Prussiya dövlət xadimi, Prussiyada din, maarif və tibb işləri üzrə nazir (1840–1848).
Engels (Engels), Fridrix (1820–1895)–(tərcümeyi-halına dair mə`lumat).

J

Jirarden (Girardin), Delfina de (1804–1855) fransız yazıçısı, Emil de Jirardenin arvadı.
Jirarden (Girardin), Emil de (1806–1881)–fransız burjua publisisti və siyasi xadimi, «Presse» qəzetinin redaktoru. 1848-ci il inqilabından əvvəl Gizo hökumətinə müxalifətdə idi, inqilab dövründə burjua respublikaçısı, Qanunverici məclisin deputatı (1850–1851); sonralar bonapartçı.
Jiro (Giraud) Şarl Jozef Bartelemi (1802–1881)–fransız hüquqşünası, monarxiyaçı, maarif naziri (1851).

Juanvil (Joinville), Fransua Ferdinan Filipp Lui Mari, Orlean hersoqu, şahzadə (1818–1900)–Lui Filippin oğlu, 1848-ci il fevral inqilabı qələbə çaldıqdan sonra İngiltərəyə mühacirət etmişdir.

Z

Zixel (Sigel) Frans (1824–1902)–Baden zabiti, xırda burjua demokratı, 1849-cu il Baden-Pfalts üsyanı zamanı Baden inqilab ordusunda baş komandan, sonra baş komandanın müavini; 1852-ci ildə ABŞ-a köçmüşdür. Vətəndaş müharibəsində şimallıların tərəfində fəal iştirak etmişdir.

İ

İohann (1782–1859)–Avstriya ershersoqu, 1848-ci ilin iyunundan 1849-cu ilin dekabrınadək Almaniyanın imperiya naibi.

İosif II (1741–1790)–müqəddəs Roma imperiyası deyilən imperiyanın imperatoru (1765–1790).

İsgəndər Makedəniyalı (eramızdan əvvəl 356–323)–qədim dünyanın məşhur sərkzrdəsi və dövlət xadimi.

Y

Yelaçin (Jelacic), İosip, qraf (1801–1859)–Avstriya generalı, Xorvatiya, Dalmasiya və Slavoniya banı (1848–1859), 1848–1849-cu illərdə Macarıstanda və Avstriyada inqilabın yatırılmasında iştirak etmişdir.

Yon (Yon)–1850-ci ildə Qanunverici məclisin mühafizə dəstəsinə başçılıq edən fransız polis komissarı.

Yordan (Jordan), Silvestr (1792–1861)–alman hüquqşünası və siyasi xadimi, 1848–1849-cu illərdə Frankfurt Milli məclisinin deputatı.

Yuvenal (Desim Yuni Yuvenal) (təxminən 60-cı ildə anadan olmuş–127-ci ildən sonra vəfat etmişdir)–məşhur Roma satirik şairi.

K

Kabe (Cabet), Etyen (1788–1856)–fransız publisisti, 30–40-cı illərdə proletariatın siyasi hərəkatının iştirakçısı, dinc utopik kommunizmin görkəmli numayəndəsi, «İkariyaya səyahət» kitabının müəllifi.

Kavenyak (Cavaignac), Lui Ejen (1802–1857)–fransız generalı və siyasi xadimi, mö`tədil burjua respublikaçısı; 1848-ci ilin mayından e`tibarən hərbi nazir; Paris fəhlələrinin iyun üsyanını amansız bir qəddarlıqla yatırmışdır; icraiyyə hakimiyyətinin başçısı (iyun–dekabr 1848-ci il).

Kaliqula (12–41)–Roma imperatoru (37–41).

Kamphauzen (Camphausen), Lüdolf (1803–1890)–alman bankiri, Reyn liberal burjuaziyasının liderlərindən biri; 1848-ci ilin mart–iyununda Prussiyanın nazir-prezidenti.
Kant (Kant), İmmanuil (1724–1804)–görkəmli alman filosofu, XVIII əsrin sonu–XIX əsrin əvvəllərində alman idealizminin banisi.
Kapfiq (Capefigue), Jan Batist Onore Remon (1802–1872)–fransız publisisti və tarixçisi, monarxiyaçı.
Karl X (1757–1836)–Fransa kralı (1824–1830).
Karl-Albert (1798–1849)–Pyemont kralı (1831–1849).
Karlye (Carlier), Pyer (1799–1858)–Parisin polis prefekti (1849–1851), bonapartçı.
Karno (Carnot), Lazar İppolit (1801–1888)–fransız publisisti və siyasi xadimi, burjua respublikaçısı, müvəqqəti hökumətin üzvü (1848); İkinci respublika dövründə Müəssislər məclisinin və Qanunverici məclisin deputatı, 1851-ci ildən sonra Bonapart rejiminə qarşı respublikaçı müxalifətin liderlərindən biri.
Karno (Carnot), Lazar Nikola (1753–1823)–Fransa riyaziyyatçısı və fizikşünası, siyasi və hərbi xadim; burjua respublikaçısı. XVIII əsrin axırında Fransa burjua inqilabı dövründə. yakobinlərə qoşulmuşdu; Avropa dövlətləri koalisiyasına qarşı Fransanın müdafiəsinin təşkilatçılarından biri.
Katon (Mark Porsi Böyük Katon) (eramızdan əvvəl 234–149). Roma siyasi xadimi və yazıçısı.
Kempbell (Campbell), Corc (1824–1892)–Hindistanda ingilis müstəmləkə mə`muru, Hindistan haqqında bir sıra əsərlərin müəllifi, parlament üzvü, liberal.
Köller (Köller), Erist Mattias (1841–1928)–alman irticaçı dövlət xadimi, reyxstaqın deputatı (1881–1888), 1894–1895-ci illərdə Prussiyanın daxili işlər naziri; sosial-demokrat partiyasını tə`qib etmək siyasəti yeridirdi.
Klayv (Clive), Robert (1725–1774)–Benqaliya qubernatoru (1757–1760 və 1765–1767), Britaniya vəhşi mustəmləkə hökmranlığı üsullarının Hindistanda geniş tətbiq edilməsinin əsasını qoymuşdur.
Kobden (Cobden), Riçard (1804–1865)–İngilis fabrikçisi, burjua siyasi xadimi, fritrederlərin liderlərindən və Taxıl qanunlarına qarşı cəmiyyətin banilərindən biri.
Konstan (Constant), Bencamen (1767–1830)–fransız yazıçısı, liberal siyasi xadim.

Konstantin (təxminən 274–337)–Roma imperatoru (306–337).
Kossidyer (Caussidiere), Mark (1808–1861)–fransız xırda burjua demokratı; 1834-cü il Lion üsyanının iştirakçısı, 1848-ci ilin fevral–iyununda Parisdə polis prefekti, Müəssislər məclisinin deputatı, 1848-ci ilin iyununda İngiltərəyə mühacirət etmişdir.
Kremyö (Cremieux), Adolf (1796–1880)–fransız vəkili və siyasi xadimi, 40-cı illərdə burjua liberalı.
Kreton (Creton), Nikola Jozef (1798–1864)–fransız vəkili; İkinci respublika dövründə Muəssislər məclisinin və Qanunverici məclisin deputatı, orleançı.
Kromvel (Cromwell), Oliver (1599–1658)–XVII əer ingilis burjua inqilabı dövründə burjuaziyanın və burjualaşmış zadəganların başçısı, 1653-cü ildən e`tibarən İngiltərənin, Şotlandiyanın və İrlandiyanın lord-protektoru.
Kuzen (Cousin), Viktor (1792–1867)–fransız idealist filosofu, eklektik.
Kübyer (Cubieres) Amede Lui (1786–1853)–fransız generalı və dövlət xadimi, orleançı; 1847-ci ildə rüşvətxorluğuna və vəzifəsindən sui-istifadə etdiyinə görə rütbəsi aşağı salınmışdır.
G
Gervinus (Gervinus), Georq Hotfrid (1805–1871)–Alman burjua tarixçisi, liberal; 1848-ci ildə Frankfurt Milli məclisinin deputatı.
Giz, hersoq–bax: II Henrix Lotarinqski.
Gizo (Guizot), Fransua Pyer Giyom (1787–1874)–Fransa burjua tarixçisi və dövlət xadimi, 1840-cı ildən 1848-ci ilədək Fransanın daxili və xarici siyasətinə fe`lən rəhbərlik etmişdir.
Ginar (Guinard), Ogüst Jozef (1799–1874)–fransız xırda burjua demokratı, Dağ partiyasının 1849-cu ilin 13 iyununda olmuş çıxışlarının fəal iştirakçısı.
Görgey (Görgey), Artur (1818–1916)–1848–1849-cu illərdə Macarıstan inqilabının hərbi xadimi, macar ordusunun baş komandanı (aprel–iyun 1849-cu il).
Göte (Goethe), İohann Volfhanq (1749–1832)–böyük alman yazıçısı və mütəfəkkiri.
L
Laut (La Hitte), Jan Ernest (1789–1878)–fransız generalı, bonapartçı, Qanunverici məclisin deputatı (1850–1851), xarici işlər naziri (1849–1851).

Lakros (Lacrosse), Bertran Teobald-Jozef (1796–1865)–fransız siyasi xadimi, orleançı, ictimai işlər naziri, 1850-ci ildən e`tibarən bonapartçı.
Lamartin (Lamartine), Alfons (1790–1869)–fransız şairi, tarixçisi və siyasi xadimi; 1848-ci ildə xarici işlər naziri və fe`lən müvəqqəti hökumətin başçısı.
Lamorisyer (Lamoriciere), Kristof Lui Leon (1806–1865)–fransız generalı, mö`tədil burjua respublikaçısı, 1848-ci il iyun üsyanının yatırılmasında fəal iştirak etmişdir, sonra Kavenyak hökumətində hərbi nazir (iyun–dekabr).
Laroşjaklen (La Rochejaquelein), Hanri Ogüst Jorj, markiz (1805–1867)–fransız siyasi xadimi, legitimist partiyası rəhbərlərindən biri, İkinci respublika dövründə Müəssislər məclisinin və Qanunverici məclisin deputatı.
Lassal (Lassalle), Ferdinand (1825–1864)–alman xırda burjua publisisti, vəkil, 1848–1849-cu illərdə Reyn əyalətində demokratik hərəkatda iştirak etmişdir; 60-cı illərin əvvəllərində fəhlə hərəkatına qoşulmuşdur, Ümumalman fəhlə ittifaqının (1863) banilərindən biri; Prussiyanın hegemonluğu altında Almaniyanın «yuxarıdan» birləşdirilməsi siyasətini müdafiə edirdi, alman fəhlə hərəkatında opportunist cərəyanın başlanğıcını qoymuşdur.
Latur (Latour), Teodor, qraf (1780–1848)–Avstriya dövlət xadimi, monarxiyaçı; 1848-ci ildə hərbi nazir; 1848-ci ilin oktyabrında Vyana üsyançıları tərəfindən öldürülmüşdür.
Laffit (Laffite), Jak (1767–1844)–iri fransız bankiri və siyasi xadimi, orleançı.
Levi (Lewy), Qustav–alman sosialisti, Ümumalman fəhlə ittifaqının fəal xadimlərindən biri.
Ledrü-Rollen (Ledru-Rollin), Aleksandr Ogüst (1807–1874)–fransız publisisti, xırda burjua demokratlarının rəhbərlərindən biri, «Reforme» qəzetinin redaktoru Müəssislər məclisinin və Qanunverici məclisin deputatı, orada Dağ partiyasına başçılıq etmişdir, sonra mühacir.
Lekler (Leclerc), Aleksandr–Paris taciri, qayda-qanun partiyasının tərəfdarı, 1848-ci ildə fəhlələrin iyun üsyanının yatırılmasında iştirak etmişdir.
Lemuan (Lemoinne), Con (1814–1892)–«Journal des Debats» qəzetinin ingilis müxbiri.
Leopold (1790–1852)–Badenin böyük hersoqu (1830–1852).

Lerminye (Lerminier), Jan Lui Ejen (1803–1857)–fransız publisisti, orleançı, «College de France»də müqayisəli hüquq professoru; (1831–1839) tələbələrin e`tirazı nəticəsində kafedranı tərk etmişdir.
Leflo (Le Flo), Adolf Emmanuel Şarl (1804–1887)–fransız generalı və siyasi xadimi; qayda-qanun partiyasının nümayəndəsi, İkinci respublika vaxtında Müəssislər məclisinin və Qanunverici məclisin deputatı.
List (List), Fridrix (1789–1846)–alman vulqar burjua iqtisadçısı, ifrat proteksionizmin təbliğatçısı.
Litsini (Qay Litsini Stolon)–eramızdan əvvəl IV əsrin birinci yarısında Roma dövlət xadimi; xalq tribunu olub Sekstiye ilə birlikdə plebeylərin mənafelərini güdən qanunlar qəbul etdirirdi.
Lokk (Locke), Con (1632–1704)–görkəmli ingilis dualist-filosofu, sensualist.
Lui Bonapart–bax: Napoleon III.
Lui-Napoleon–bax: Napoleon III.
Lui-Filipp (1773–1850)–Hersoq Orleanski, Fransa kralı (1830–1848).
Lui-Filipp-Alber Orleanski–Paris qrafı (1838–1894)–kral Lui-Filippin nəvəsi, Fransa taxt-tacının iddiaçısı.
Lüdovik IX «Muqəddəs» (1215–1270)–fransız kralı (1226–1270).
Lüdovik XIV (1638–1715)–fransız kralı (1643–1715).
Lüdovik XV (1710–1774)–fransız kralı (1715–1774).
Lüdovik XVI (1754–1793)–fransız kralı (1774–1792), XVIII əsrin sonunda fransız burjua inqilabı zamanı e`dam edilmişdir.
Lüdovik XVIII (1755–1824)–fransız kralı (1814–1815 və 1815–1824).
Lüter (Luther), Martin (1483–1546)–reformasiyanın görkəmli xadimi, Almaniyada protestantlığın (lüterançılığın) banisi, alman bürkerlərinin ideoloqu.

M

Mazanyello (Masaniello) (təxəl. Tomazo Anyello) (1620–1647)–balıqçı, 1647-ci ildə Neapolda ispan hökmranlığına qarşı xalq üsyanının başçısı.
Makiavelli (Machiavelli), Nikkolo (1469–1527)–İtaliya siyasi xadimi, tarixçi və yazıçı.
Mak-Mahon (Mac-Mahon), Mari Edm Patris Moris (1808–1893)–fransız irticaçı hərbi və siyasi xadimi, bonapartçı; Paris Kommunası cəlladlarından biri; Üçüncü respublikanın prezidenti (1873–1879).
Maksimilian II (1811–1861)–Bavariya kralı (1848–1864).

Makfarlin (Masfarlane), Elen–1849–1850-ci illərdə çartist qəzetlərinin fəal əməkdaşı, «Kommunist Partiyası manifesti»nin ingilis dplinə tərcüməçisi.
Malvil (Maleville), Leon (1803–1879)–fransız siyasi xadimi, orleançı, İkinci respublika dövrundə Muəssislər məclisinin və Qanunverici məclisin deputatı, daxili işlər naziri (1848-ci il dekabrın ikinci yarısı).
Manteyfel (Manteuffel), Otto Teodor, baron (1805–1882)–Prussiya dövlət xadimi, daxili işlər naziri (1848–1850), nazir-prezident (1850–1858).
Manyan (Magnan) Bernar Pyer (1791–1865)–fransız marşalı, bonapartçı, 1851-ci il 2 dekabr dövlət çevrilişinin təşkilatçılarından biri.
Mari (Marie), Aleksandr (1795–1870)–fransız siyasi xadimi; mö`tədil burjua respublikaçısı; 1848-ci ildə ictimai işlər naziri, sonra Kavenyak hökumətində ədliyyə naziri.
Marks (Marx) Karl (1818–1883) (tərcümeyi halına aid mə`lumat).
Marrast (Marrast), Arman (1801–1852)–fransız publisisti, mö`tədil burjua respublikaçılarının liderlərindən biri, «National» qəzetinin redaktoru. 1848-ci ildə müvəqqəti hökumət üzvü və Parisin bələdiyyə rəisi. Müəssislər məclisinin sədri (1848–1849).
Marş (Marche)–1848-ci ildə müvəqqəti hökumətdən əmək hüququnu e`lan etməsini xalqın adından tələb edən fransız fəhləsi.
Matye de la Drom (Mathieu de la Drome), Filipp Antuan (1808–1865)–fransız xırda burjua demokratı, İkinci respublika dövründə Müəssislər məclisinin və Qanunverici məclisin deputatı; burada Dağ partiyasına qoşulmuşdu, 1851-ci ildən mühacir.
Maurer (Maurer), Georq Lüdviq (1790–1872)–görkəmli alman burjua tarixçisi, qədim və orta əsr Almaniyasının ictimai quruluşunun tədqiqatçısı.
Meysner (Meissner), Otto Karl (1819–1902)–Hamburq kitab naşiri, «Kapital»ı, Marksın və Engelsin bir sıra başqa əsərlərini nəşr etmişdir.
Meroslavski (Mieroslawski), Lüdvik (1814–1878)–Polşa siyasi və hərbi xadimi, 1830–1831-ci illər Polşa üsyanının iştirakçısı; 1848-ci ildə Poznan üsyanına başçılıq etmişdir, sonra Siciliya usyançılarının mübarizəsinə başçılıq etmişdir; 1849-cu il Baden-Pfalts usyanı zamanı inqilabi orduya komandanlıq etmişdir; 1863-cü il Polşa üsyanı zamanı diktator e`lan edilmişdir, üsyanın məğlubiyyətindən sonra Fransaya mühacirət etmişdir.
Messenhauzer (Messenhauser), Sezar Ventsel (1813–1848)–Avstriya zabiti, milli qvardiya komandiri və 1848-ci il oktyabr üsyanı zamanı

Vyananın komendantı; əksinqilabçı ordular tərəfindən şəhər alındıqdan sonra güllələnmişdir.
Metternix (Metternich), Klemens, knyaz (1773–1859)–Avstriya irticaçı dövlət xadimi; xarici işlər naziri (1809–1821) və kansler (1821–1848), Müqəddəs İttifaqın təşkilatçılarından biri.
Mogen (Mauguin), Fransua (1785–1854)–fransız hüquqşunası, 1848-ci ilə qədər liberal sülalə müxalifətinin başçılarından biri; İkinci respublika dövründə Müəssislər məclisinin və Qanunverici məclisin deputatı.
Mole (Mole), Lui Matyö, ğraf (1781–1885)–fransız dövlət xadimi, orleançı, baş nazir (1836–1837, 1837–1839), İkinci respublika dövründə Müəssislər məclisinin və Qanunverici məclisin deputatı.
Moleşott (Moleschott), Yakob (1822–1893)–burjua fizioloqu və filosofu, vulqar materializmin nümayəndəsi; Almaniya, İsveçrə və İtaliya məktəblərində dərs demişdir.
Moll (Moll), İosif (1813–1849)–Almaniya və beynəlxalq fəhlə hərəkatının görkəmli xadimi, Ədalətlilər ittifaqının rəhbərlərindən biri, Kommunistlər ittifaqı Mərkəzi Komitəsinin üzvü, 1849-cu il Baden-Pfalts üsyanının iştirakçısı, Murq yaxınlığında vuruşmada öldürülmüşdür.
Molyer (Moliere), Jan Batist (əsil familyası Poklen) (1622–1673)–böyük fransız dramaturqu.
Monk (Monk), Corc (1608–1670)–ingilis generalı; 1660-cı ildə İngiltərədə monarxiya quruluşunun bərpa edilməsinə fəal kömək göstərmişdir.
Montalamber (Montalembert), Şarl (1810–1870)–fransız publisisti, İkinci respublika dövründə Müəssislər məclisinin və Qanunverici məclisiv deputatı, orleançı, katolik partiyanın başçısı.
Mopa (Maupas), Şarleman Emil (1818–1888) fransız vəkili» bonapartçı, Parisin polis prefekti (1851), 1851-ci il dekabrın 2-də dövlət çevrilişinin təşkilatçılarından biri, polis naziri (1852–1853).
Morqan (Morgan), Luis Henri (1818–1881)–görkəmli Amerika alimi, ibtidai cəmiyyət tarixçisi, kortəbii materialist.
Morni (Morny), Şarl Ogüst Lui Jozef, qraf de (1811–1865)–fransız siyasi xadimi, bonalartçı, Qanunverici məclisin deputatı (1849–1851), 1851-ci il dekabrın 2-də dövlət çevrilişinin təşkilatçılarından biri, daxili işlər naziri (dekabr 1851–yanvar 1852).
Mosle (Mosle) İohann Ludviq (1794–1877)–alman zabiti 1848-ci ildə imperiya komissarı sifəti ilə Vyanaya göndərilmişdir.

N

Nadir şah (Qulu xan) (1688–1747)–İran şahı (1736–1747)–1738–1739-cu illərdə Hindistana istilaçılıq səfəri etmişdir.

Napoleon I Bonapart (1769–1821)–Fransa imperatoru; (1804–1814 və 1815).

Napoleon III (Lui-Napoleon Bonapart) (1808–1873)–I Napoleonun qardaşı oğlu, İkinci respublikanın prezidenti (1848–1851), Fransa imperatoru (1852–1870).

Ney (Ney), Edqar (1812–1882)–fransız zabiti, bonapartçı, prezident Lui Bonapartın adyutantı.

Neymeyer (Neumayer), Maksimilyen Jorj Jozef (1789–1866)–fransız generalı, qayda-qanun partiyasının tərəfdarı.

Nikolay II (1868–1918)–Rusiya imperatoru (1894–1917).

Notyunq (Nuthjung), Peter (1821–1866)–alman dərzisi, Köln Fəhlə ittifaqının üzvü, Kommunistlər ittifaqının üzvü, kommunistlərin 1852-ci il Köln mühakiməsində müttəhimlərdən biri.

Nüton (Newton), İsaak (1642–1727)–böyük ingilis fiziki, astronomu və riyaziyyatçısı, klassik mexanikanın banisi.

O

Opul (Hautpoul), Alfons Anri (1789–1865)–fransız generalı, legitimist, sonra bonapartçı hərbi nazir (1849–1850).

Orleanskaya, Yelena, qızlıq familiyası Meklenburq, hersoginya (1814–1858)–Lui Filippin böyük oğlu Ferdinandın dul qalmış arvadı.

Orleanski, hersoq–bax: Lui Filipp.

Orleanlar–Fransada kral sülaləsi (1830–1848).

Osse (Haussez), Şarl (1778–1854)–fransız siyasi xadimi, irticaçı, 1829-cu ildə dəniz naziri.

Ouen (Owen), Robert (1771–1858)–böyük ingilis utopist sosialisti.

Ö

Övrəngzib (1618–1707)–Hindistanda Böyük Moqollar sülaləsindən padşah (1658–1707).

P

Palatski (Palacky), Frantişek (1798–1876)–məşhur çex tarixçisi, burjua siyasi xadimi, liberal; Habsburq monarxiyasının saxlanması siyasətini yeridirdi.

Panyer (Pagnerre), Loran Antuan (1805–1854)–fransız naşiri, burjua respublikaçısı, 1848-ci ildə Müəssislər məclisinin deputatı.
Parisli, qraf–bax: Lui Filipp-Alber.
Passi (Passy), İppolit Filiber (1793–1880)–fransız iqtisadçısı, orleançı, İyul monarxiyası dövründə dəfələrlə hökumətin tərkibində olmuşdur, İkinci respublika zamanı maliyyə naziri.
Perro (Perrot), Benjamen Pyer (1791–1865)–fransız generalı, 1848-ci il iyun usyanının yatırılmasında iştirak etmişdir. 1849-cu ildə Parisdə milli qvardiyaya komandanlıq etmişdir.
Persini (Persigny), Jan Jilber Viktor, qraf (1808–1872)–fransız dövlət xadimi, bonapartçı, Qanunverici məclisin deputatı (1849–1851), 1851-ci il 2 dekabr dövlət çevrilişinin təşkilatçılarından biri, daxili işlər naziri (1852–1854 və 1860–1863).
Pertsel (Perczel), Morits (1811–1899)–macar generalı, Macarıstanda 1848–1849-cu illər inqilabının iştirakçısı; inqilabın məğlubiyyətindən sonra Türkiyəyə, sonra İngiltərəyə mühacirət etmişdir.
Pia (Pyat), Feliks (1810–1889)–fransız publisisti, xırda burjua demokratı, 1848-ci il inqilabının iştirakçısı, 1849-cu ildən mühacir; Londonda olan fransız bölməsindən istifadə edərək bir sıra illər ərzində Marksa və İnternasionala qarşı böhtan dolu mübarizə aparmışdır. Paris Kommunasının üzvü.
Piy IX (1792–1878)–Roma papasıdır (1846–1878).
Pinto (Pinto), İsaak (1715–1787)–Hollandiyanın iri birja işbazı, iqtisadçı.
Platon (eramızdan əvvəl təqribən. 427–təqribən 347)–qədnm yunan idealist filosofu.
Polinyak (Polignac), Ogüst Jül Arman Mari, knyaz (1780–1847)–fransız dövlət xadimi, legitimist və klerikal, xarici işlər naziri və nazirlər kabinetinin başçısı (1829–1830).
Prudon (Proudhon), Pyer Jozef (1809–1865)–fransız publisisti, iqtisadçı və sosioloqu, xırda burjuaziya ideoloqu, anarxizmin banilərindən biri, 1848-ci ildə Müəssislər məclisinin deputatı.
Publikola (Publi Valeri Publikola) (eramızdan əvvəl 503-cü ildə vəfat etmişdir)–Roma respublikasının yarıməfsanəvi dövlət xadimi.
R
Radetski (Rodetzky), Yozef, qraf (1766–1858)–Avstriya feldmarşalı, 1831-ci ildən Şimali İtaliyada Avstriya qoşunlarına komandanlıq etmiş, 1848–

1849-cu illərdo İtaliyada inqilabi və milli azadlıq hərəkatlarını amansızcasına yatırmışdır.
Raspayl (Raspail), Fransua (1794–1878)–görkəmli fransız təbiətşünas alimi, sosialist, inqilabi proletariata yaxın olmuş, 1830 və 1848-ci il inqilablarının iştirakçısı Müəssislər məclisinin deputatı.
Rato (Rateau), Jan Pyer (1800 1887)–Fransız vəkili, İkinci respublika dövründə Müəssislər məclisinin və Qanunverici məclisin deputatı, bonapartçı.
Rau (Rau), Karl Henrix (1792–1870)–alman vulqar burjua iqtisadçısı.
Rafls (Raffles), Tomas Stamfərd (1781–1826)–ingilis müstəmləkə mə`muru, 1811–1816-cı illərdə Yavanın qubernatoru, «Yavanın tarixi» kitabının müəllifi.
Röyter (Reuter), Maks–XIX əsrin 50-ci illərinin əvvəllərində Londonda Prussiyanın polis casusu.
Römer (Roemer), Fridrix (1794–1864)–Vürtemberq dövlət xadimi, 1848–1849-cu illərdə ədliyyə naziri və baş nazir, Frankfurt Milli məclisinin üzvü.
Remuza (Remusat), Şarl Fransua Mari, qraf (1797–1875)–fransız dövlət xadimi və yazıçısı, orleançı, daxili işlər naziri (1840), xarici işlər naziri (1871–1873).
Reno de Sen-Jan d`Anjeli (Regnault de Saint-Jean d`Angely), Ogüst Mişel Etyen, qraf (1794–1870)–fransız generalı, bonapartçı, hərbi nazir (yanvar 1851).
Rikardo (Ricardo), David (1772–1823)–ingilis iqtisadçısı, klassik burjua siyasi iqtisadının ən böyük nümayəndəsi.
Ril (Riehl), Vilhelm Henrix (1823–1897)–alman mürtəce ədəbiyyat tarixçisi.
Riçard III (1452–1485)–ingilis kralı (1483–1485).
Robespyer (Robespierre), Maksimilian (1758–1794)–XVIII əsrin sonunda olmuş fransız burjua inqilabının görkəmli xadimi, yakobinçilərin başçısı, inqilabi hökumətin rəhbəri (1793–1794).
Rösler (Roesler), Qustav Adolf (1818–1855)–alman jurnalisti, 1848–1849-cu illərdə Frankfurt Milli məclisinin üzvü, 1850-ci ildən Amerikaya mühacirət etmişdir.
Rösler (Roesler), Konstantin (1820–1896)–alman publisisti, Berlində yarımrəsmi ədəbi büronun rəhbəri kimi (1877–1892) Bismark siyasətini müdafiə edirdi.

Rottek (Rotteck), Karl (1775–1840)–alman burjua tarixçisi və siyasi xadimi, liberal.
Rotşild (Rothschild), Anselm (1773–1855)–Frankfurt Maynda Rotşildlər bankının başçısı.
Rotşild (Rothschild), Cems (1792–1868)–Parisdə Rotşildlər bankının başçısı.
Rotşildlər–Avropanın bir sıra ölkələrində bankları olan bankirlər sülaləsi.
Ruaye-Kollar (Rouer-Collard), Pyer Pol (1763–1845)–fransız filosofu və siyasi xadimi, monarxiyaçı.
Russo (Rousseau), Jan Jak (1712–1778)–görkəmli fransız maarifçisi, demokrat, xırda burjua ideoloqu.
Rue (Rouher), Ejen (1814–1884)–fransız dövlət xadimi, bonapartçı, ədliyyə naziri (1849–1852–fasilələrlə).
S
Sallandruz (Sallandrouze), Şarl Jan (1803–1867)–fransız sənayeçisi, Müəssislər məclisinin deputatı (1848–1849) bonapartçı.
Saltıkov, Aleksey Dmitriyeviç, knyaz (1806–1859)–rus səyyahı, yazıçısı və rəssamı.
Salvandi (Salvandy), Narsis Aşil, qraf (1795–1856)–fransız yazıçısı və davlət xadimi, orleançı, maarif naziri (1837–1839 və 1845–1848).
Sebastiani (Sebastiani), Oras, qraf (1772–1851)–fransız marşalı, xarici işlər naziri (1830–1832), Londonda səfir (1835–1840).
Sezar (Qay Yuli Sezar) (eramızdan əvvəl təxminən 100-cü il–44-cü il) məşhur Roma sərkərdəsi və dövlət xadimi.
Segür d`Agesso (Segur d`Aguesseau), Remon Pol (1803–1889)–fransız siyasi xadimi, hakimiyyət başında duran bütün partiyalara növbə ilə qoşulurdu.
Sen-Jan d`Anjeli–bax: Reno de Sen-Jan d`Anjeli, Ogüst Mişel Etyen.
Sen-Jüst (Saint-Just), Lui Antuan (1767–1794)–XVIII əsrin sonunda olan fransız burjua inqilabının görkəmli xadimi, yakobinçilərin başçılarından biri.
Sen-Prist (Saint-Priest), Emmanüel Lui Mari, vikont (1789–1381)–fransız generalı və diplomatı, legitimist, Müəssislər məclisinin deputatı (1849–1851).
Sen-Simon (Saint-Simon), Anri (1760–1825)–böyük fransız utopist sosialisti.

Sent-Arno (Saint-Arnaud), Arman Jak Aşil Lerua de (1801–1854)–fransız marşalı, bonapartçı 1851-ci il 2 dekabr dövlət çevrilişinin təşkilatçılarından biri, hərbi nazir (1851–1854).
Sent-Böv (Sainte-Beuve), Pyer Anri (1819–1855)–fransız fabrikçisi və torpaq sahibi, İkinci respublika dövründə Müəssislər məclisinin və Qanunverici məclisin deputatı, qayda-qanun partiyasının nümayəndəsi.
Sismondi (Sismondi), Jan Şarl Leonar Simond de (1773–1842)–İsveçrə iqtisadçısı, kapitalizmin xırda burjua tənqidçisi.
Smit (Smith), Adam (1723–1790)–ingilis iqtisadçısı, klassik burjua siyasi iqtisadının ən böyük nümayəndələrindən biri.
Stadion (Stadion), Frans, qraf (1806–1853)–Avstriya dövlət xadimi, Qalisiya və Çexiyada millia-zadlıq hərəkatına qarşı mübarizənin təşkilatçılarından biri, daxili işlər naziri (1848–1849).
Suluk (Soulouque), Faustin (təqribən 1782–1867)–Haiti zənci respublikasının 1849-cu ildə özünü I Faustin adı ilə imperator e`lan etmiş prezidenti.
Sey (Say), Jan Batist (1767–1832)–fransız burjua iqtisadçısı, vulqar siyasi iqtisadın nümayəndəsi.
Syu (Sue), Ejen (1804–1857)–fransız yazıçısı, Qanunverici məclisin deputatı (1850–1851).
T
Talandye (Talandier), Pyer Teodor Alfred (1822–1890)–fransız jurnalisti, xırda burjua demokratı, 1848-ci il inqilabının iştirakçısı, 1851-ci ildən mühacir; İnternasionalın Baş Şurasının üzvü (1864); fransız parlamentinin deputatı (1876–1880, 1881–1885).
Teymurləng (Teymur) (1336–1405)–Orta Asiya sərkərdəsi və işğalçısı.
Test (Teste), Jan Batist (1780–1852)–fransız dövlət xadimi, orleançı, İyul monarxiyası dövründə ticarət, ədliyyə və ictimai işlər naziri, rüşvətxorluğu və vəzifəsindən sui-istifadə etdiyi üçün məhkəməyə cəlb edilmişdir.
Tyer (Thiers), Adolf (1797–1877)–fransız burjua tarixçisi və dövlət xadimi, Qanunverici məclisin deputatı (1849–1851), orleançı, respublika prezidenti (1871–1873), Paris Kommunasının cəlladı.
Tokvil (Tocqueville), Aleksis (1805–1859)–fransız burjua tarixçisi və siyasi xadimi, legitimist, İkinci respublika dövründə Müəssislər məclisinin və Qanunverici məclisin deputatı, xarici işlər naziri (1849-cu il iyun–oktyabr).

Torinyi (Thorigny), Pyer Fransua Elizabet (1798–1869)–fransız hüquqşünası, 1834-cü ildə Lionda aprel üsyanı iştirakçılarının işi üzrə istintaq aparmışdır; bonapartçı, daxili işlər naziri (1851).
Trela (Trelat), Ulis (1795–1879)–fransız siyasi xadimi, burjua respublikaçısı, ictimai işlər naziri (may–iyun 1848-ci il).
Tussen-Luvertür (Louverture, dit Toussaint), Fransua Dominik (1743–1803)–XVIII əsrin sonunda ispan və ingilis ağalığına qarşı Haiti zəncilərinin inqilabi hərəkatının başçısı.
U
Udino (Oudinot), Nikola Şarl Viktor (1791–1863)–fransız generalı, orleançı; 1849-cu ildə Roma respublikasına qarşı göndərilən qoşuna komandanlıq etmişdir; 1851-ci il 2 dekabr dövlət çevrnlişinə müqavimət təşkil etmək təşəbbüsündə olmuşdur.
Uorren (Warrent), Çarlz (1798–1866)–İngilis zabiti, 1858-ci ildən e`tibarən general, 1816–1819 və 1830–1838-ci illərdə Hindistanda qulluq etmişdir, Krım müharibəsinin iştirakçısı.
F
Fallu (Falloux), Alfred (1811–1886)–fransız dövlət xadimi, legitimist və klerikal, 1848-ci ildə milli e`malatxanaların dağıdılmasının fitvaçısı və Parisdə iyun üsyanının yatırılmasının ilhamçısı, maarif naziri (1848–1849).
Feyerbax (Feuerbach), Lüdviq (1804–1872)–Marksdan əvvəlki dövrün böyük alman materialist filosofu.
Ferdinand I (1793–1875)–Avstriya imperatoru (1835–1848).
Ferdinand II (1810–1859)–Neapol kralı (1830–1859), 1848-ci ildə Messininin bombardman edilməsinə görə Bomba kralı adlandırılmışdır.
Ferye (Ferrier), Fransua Lui Ogüst (1777–1861)–fransız vulqar burjua iqtisadçısı.
Flöri (Fleury), Çarlz (əsil adı Karl Fridrix Avqust Krauze) (1824-cü ildə anadan olmuşdur).–Londonda tacir, Prussiya casusu və polis agenti.
Flokon (Flocon), Ferdinan (1800–1866)–fransız siyasi xadimi, xırda burjua demokratı, «Reforme» qəzetinin redaktorlarından biri; 1848-ci ildə müvəqqəti hökumətin üzvü.
Foqt (Vogt), Karl (1817–1895)–alman təbiətşunası, vulqar materialist, xırda burjua demokratı; 1848–1849-cu illərdə Frankfurt Milli məclisinin deputatı, sol qanada mənsub idi.

Foşe (Faucher), Leon (1803–1854)–fransız burjua siyasi xadimi, orleançı, maltusçu-iqtisadçı, daxili işlər naziri (dekabr 1848–may 1849, 1851), sonra bonapartçı.
Frans I (1768–1835)–Avstriya imperatoru (1804–1835).
Frans-İosif I (1830–1916)–Avstriya imperatoru (1848–1916).
Fröbel (Fröbel), Yulius (1805–1893)–alman publisisti və mütərəqqi ədəbiyyat naşiri,, xırda burjua radikalı, sonralar liberal, Almaniyada 1848–1849-cu illər inqilabının iştirakçısı, Frankfurt Milli məclisinin deputatı, sol qanada mənsub idi.
Fridrix II («Böyük» ləqəbi verilmişdir) (1712–1786)–Prussiya kralı (1740–1786).
Fridrix-Avqust II (1797–1854)–Saksoniya kralı (1836–1854).
Fridrix-Vilhelm III (1770–1840)–Prussiya kralı (1797–1840).
Fridrix-Vilhelm IV (1795–1861)–Prussiya kralı (1840–1861).
Fukye-Tenvil (Fouquier-Tinville), Antuan Kanten (1746–1795)–XVIII əsrnn sonunda olmuş Fransa burjua inqilabının görkəmli xadimi, 1793-cü ildə İnqilabi tribunalın ictimai ittihamçısı.
Fuld (Fould), Aşil (1800–I 1867)–fransız bankiri, orleançı, sonra bonapartçı; 1849–1867-ci illərdə dəfələrlə maliyyə naziri vəzifəsində olmuşdur.
Furye (Fourier), Şarl (1772–1837)–böyük fransız utopist sosialisti.
Fuşe (Fouche), Jozef (1759–1820)–XVIII əsrin sonunda olmuş fransız burjua inqilabının xadimi, yakobinçi, I Napoleon dövründə polis naziri; son dərəcə prinsipsiz olması ilə fərqlənirdi.
H
Haynau (Haynau), Yulius Yakob (1786–1853)–1848–1849-cu illərdə İtaliyada və Macarıstanda inqilabi hərəkatı amansızcasına yatırdan Avstriya generalı.
Haksthauzen (Haxthausen), Avqust (1792–1866)–Prussiya mə`muru və yazıçısı, Rusiyanım torpaq münasibətlərində icma quruluşu qalıqlarını təsvir edən əsərin müəllifi.
Hanzeman (Hansemann), David. (1790–1864)–iri kapitalist, Reyn liberal burjuaziyasının liderlərindən biri; 1848-ci ilin mart–sentyabrında Prussiyanın maliyyə naziri.
Hegel (Hegel), Georq Vilhelm Fridrix (1770–1831)–klassik alman fəlsəfəsinin ən görkəmli nümayəndəsi, obyektiv idealist.

Heydt (Heudt), Avqust, baron fon der (1801–1874)–Prussiya dövlət xadimi, ticarət, sənaye və ictimai işlər naziri (1848–1858).
Heyne (Heine), Henrix (1797–1856)–böyük alman inqilabçı-şairi.
Helvetsi (Helvetius), Klod Adrian (1715–1771)–görkəmli fransız filosofu, mexanistik materializmin nümayəndəsi, ateist.
Hempden (Hampden), Con (1594–1643)–XVII əsr ingilis burjua inqilabının görkəmli xadimi, burjuaziyanın və burjualaşmış zadəganların mənafeyini ifadə edirdi.
Henrix II Lotarinqski, hersoq Giz (1614–1664)–Fronda xadimlərindən biri.
Henrix V–bax: Şambor, Anri Şarl.
Henrix VI (1421–1471)–İngilis kralı (1422–1461).
Henrix VIII (1491–1547)–İikilis kralı (1509–1547).
Henrix LXXII Reys-Lobenşteyn-Ebersdorf (1797–1853)–alman təzə nəsil Reys cırtdan dövlətinin mülkədar knyazı (1822–1848).
Herveq (Herwegh), Georq (1817–1875)–məşhur alman şairi, xırda burjua demokratı.
Hirş (Hirsch), Vilhelm–Hamburqda prikazçik, XIX əsriv 50-ci illərinin əvvəllərində Londonda Prussiyanın polis agenti.
Hüqo (Hugo), Viktor (1802–1885)–dahi fransız yazıçısı, İkinci respublika dövründə Müəssislər məclisinin və Qanunverici məclisin deputatı.

Ç

Çapmen (Chapman), Con (1801–1854)–ingilis publisisti, burjua radikalı, Hindistanda islahat keçirilməsi tərəfdarı.

Ş

Şambor (Chambord), Anri Şarl, qraf (1820–1883)–Burbonların köhnə nəslinin son nümayəndəsi, X Karlın nəvəsi, V Henrix adı ilə fransız taxt-tacının iddiaçısı.
Şanqarnye (Changarnier), Nikola Ann Teodül (1793–1877)–fransız generalı və burjua siyasi xadimi, monarxiyaçı 1848-ci ilin iyunundan sonra Paris qarnizonunun və milli qvardiyasının komandanı, Parisdə 1849-cu il 13 iyun nümayişinin dağıdılmasında iştirak etmişdir.
Şaper (Schaper), fon–Prussiya irticaçı bürokratiyasının nümayəndələrindən biri; Reyn əyalətinin oberprezidenti (1842–1845).
Şapper (Schapper), Karl (1812–1870)–Almaniya və beynəlxalq fəhlə hərəkatının görkəmli xadimi, Ədalətlilər ittifaqının rəhbərlərindən biri, Kommunistlər ittifaqı Mərkəzi Komitəsinin üzvü Almaniyada 1848–1849-

cu illər inqilabının iştirakçısı; 1850-ci ildə Kommunistlər ittifaqı parçalandığı zaman təriqətçi-fitnəkar fraksiyanın liderlərindən biri; 1856-cı ildən yenidən Marksa yaxınlaşmışdır; I İnternasionalın Baş Şurasının üzvü.
Şarras (Charras), Jan Batist Adolf (1810–1865)–fransız hərbi və siyasi xadimi, mö`tədil burjua respublikaçısı; 1848-ci ildə Paris fəhlələrinin iyun üsyanının yatırılmasında fəal iştirak etmişdir; Lui Bonaparta qarşı çıxırdı; Fransadan sürgün edilmişdi.
Şvartsenberq (Schwarzenberg), Feliks, knyaz (1800–1852)–Avstriya irticaçı dövlət xadimi və diplomatı; 1848-ci il Vyana inqilabı yatırıldıqdan sonra baş nazir və xarici işlər naziri olmuşdur.
Şvartser (Schwarzer), Ernst (1808–1860)–Avstriya mə`muru və publisisti, ictimai işlər naziri (iyul–sentyabr 1848-ci il).
Şekspir (Shakespeare), Vilyam (1564–1616)–böyük ingilis yazıçısı.
Şerbülye (Cherbuliez), Antuan Elize (1797–1869)–İsveçrə iqtisadçısı, Sismondinin ardıcılı.
Şerval (Cherval), Jülyen (əsil adı Yozef Kremer)–Kommunistlər ittifaqı sıralarına yol tapmış Prussiya polisinin fitnəkar-casusu; 1852-ci ilin fevralında Parisdə alman-fransız qəsdi adlanan işin müqəssirlərindən biri; polisin köməyi ilə həbsxanadan qaçmışdır.
Şertser (Scherzer), Andreae (1807–1879)–alman dərzisi, 1850-ci ildə Kommunistlər ittifaqı parçalandıqdan sonra Villix–Şapperin təriqətçi-fitnəkar fraksiyasına mənsub olan Paris icmalarından birinin üzvü, 1852-ci ilin fevralında Parisdə alman-fransız qəsdi adlanan işdə müqəssirlərdən biri, sonralar İngiltərəyə mühacirət etmişdir.
Şramm (Schramm), Jan Pol Adam (1789–1884)–fransız generalı və siyasi xadimi, bonapartçı, hərbi nazir (1850–1851).
Şteyn (Stein), Lorents (1815–1890)–alman huquqşünası, vulqar iqtisadçı.
Şteffen (Steffen), Vilhelm–keçmiş Prussiya zabiti, Köln mühakiməsində kommunistlərin müdafiəsinin şahidi (1852); 1853-cü ildə İngiltərəyə, sonra ABŞ-a mühacirət etmişdir 50-ci illərdə Marks və Engelsə yaxın olmuşdur.
Ştiber (Stiber), Vilhelm (1818–1882)–Prussiya polis mə`muru, Prussiya siyasi polisinin rəisi (1850–1860), Kommunistlər ittifaqının üzvlərinə qarşı Köln mühakiməsinin təşkilatçılarından biri və bu prosesdə əsas şahid.
Ştirner (Stirener). Maks (Kaspar Şmidtin ədəbi təxəllüsü) (1806–1856)–alman filosofu, gənc hegelçi, burjua fərdiyyətçiliyinin və anarxizminin ideoloqlarından biri.

Ştraus (Strau), David Fridrix (1808–1874)–alman filosofu, görkəmli gənc hegelçilərdən biri; 1866-cı ildən sonra nasional-liberal.
Ştüve (Stüve), İohan Karl Bertram (1798–1872)–alman siyasi xadimi, liberal; Hannoverdə daxili işlər naziri (1848–1850).

ƏDƏBİ VƏ MİFOLOJİ PERSONAJLAR

Avvakum–bibliya peyğəmbəri.
Antey–Qədim yunan mifologiyasında, ona yeni qüvvə verən anası yerlə təmasda olduğu müddətdə məğlubedilməz sayılan qəhrəman.
Axill və ya Axilles–qədim yunan mifologiyasında Troyanı mühasirəyə alan yunan qəhrəmanlarından ən cəsuru, Homerin «İlliada» əsərinin əsas qəhrəmanlarından biri.
Vakx (və ya Baxus)–qədim Romalılarda şərab və şənlik allahı.
Varfolomey–Bibliya əfsanəsinə görə İsanın 12 apostolundan biri.
Qordi–Frikiya padşahı; əfsanəyə görə Qordi öz döyüş arabasının boyunduruğunu dişləyə son dərəcə dolaşıq bir düyunlə bağlamışdı (Qordi düyünü ifadəsi də buradan əmələ gəlib. Məcazi mə`nada çox dolaşıq iş, məsələ); rəmmalların irəlicədən dediyinə görə bu dolaşıq düyünü açan adam Asiyanın hökmdarı dı. Makedoniyalı İsgəndər bu düyünü açmadan qılıncı ilə vurub kəsmişdi.
Damokl–qədim yunan əfsanəsinə görə Sirakuz hökmdarı Dionisinin (eramızdan əvvəl IV əsr) yaxın adamlarından biri. Damokl Dionisinin ziyafət məclisinə də`vət edilir, məclisdə Dionisi ona qibtə edən Damokla bəşəri xoşbəxtliyin müvəqqəti bir şey olduğunu sübut etmək üçün onu öz taxtına əyləşdirir və başının üstündə at tükü ilə iti bir qılınc asdırır. «Damokl qılınçı» ifadəsi daim gözlənilən dəhşətli təhlükənin sinonimi kimi işlənir.
Don-Kixot–Servantesin eyni adlı romanının baş qəhrəmanı.
İsa (İisus Xristos)–xristianlığın əfsanəvi banisi.
Yanus–qədim Roma allahı, müxtəlif səmtlərə baxan ikiüzlu şəklində təsvir edilir; məcazi mə`nada ikiüzlü adam.
Yusif–qədim yəhudi əfsanəsinə görə patriarx Yə`qubun oğlu, qardaşları tərəfindən Misirə satılmış və orada yüksək vəzifə sahibi olmuşdur.
Krapül–Heynenin «İki cəngavər» şe`rinin qəhrəmanı; var-yoxdan çıxmış Polşa zadəganı Krapyulinski familiyası fransız sözü «crapule»–qarınqulu, acgözluk, sərxoşluq, habelə avara, pozğun sözündən əmələ gəlmişdir. Marks Lui Bonapartı Krapül adlandırırdı.

Krevel–Balzakın «Dayıqızı Betta» əsərində əxlaqsız, tamahkar, bambılı obrazı.
Midas–Frikiya padşahı; qədim rəvayətə görə Apollon ona eşşək qulaqları verib cəzalandırmışdı.
Moisey (Musa)–bibliya rəvayətinə görə peyğəmbər, qədim yəhudiləri Misir fir`onlarının tə`qibindən azad etmişdir.
Nemezida–Qədim yunan mifologiyasında qisas ilahəsi.
Orlando (yaxud Roland) Qəzəbli–Ariostonun poemasında əfsanəvi qəhrəman.
Orfey–yunan mifologiyasına görə şair və müğənni, o öz mahnıları ilə guya vəhşi heyvanları r`am edir və hətta daşları da heyran qoyurmuş.
Osnova–Şekspirin «Yay gecəsi yuxusu» komediyasının personajı.
Pavel–bibliya rəvayətinə görə xristian apostollarından biri.
Pentefri (Potifar)–qədim yəhudi rəvayətinə görə patriarx Yə`qubun oğlu Yusifin satıldığı Misir ə`yanı.
Rober Maker–məşhur fransız artisti Frederik Lemetrin yaratdığı və Onore Domyenin karikaturalarında əbədiləşdirilmiş mahir fırıldaqçı surəti.
Robin Qudfellou–ingilis xadq əfsanələrinə görə insanların həyatında hami və köməkçi rolu oynayan xəyali bir varlıq; Şekspirin «Yay gecəsi yuxusu» komediyasında əsas personajlardan biri.
Sabala–hindu dinində inək şəklində təsvir edilən allah.
Samson–guya misilsiz fiziki qüvvəyə malik bibliya qəhrəmanı.
Samuil–bibliya əfsanəsinə əsasən qədim yəhudi peyğəmbəri.
Sanço Pansa–Servantesin «Don-Kixot» romanının personajı.
Sirseya (Kirka)–qədim yunan mifologiyasına görə Eya adasında cadugər qadın Ulisin yoldaşlarını donuza döndərmiş, Ulisi isə bir il ərzində öz adasında saxlamışdır, məcazi mə`nada füsunkar gözəl.
Fetida–yunan mifologiyasında dəniz ilahəsi, Axillin anası, o, oğluna xəbərdarlıq edib demişdi ki, Troya yanında sahilə birinci olaraq çıxmasın (birinci olaraq sahilə çıxanı ölüm gözləyirdi).
Xanumani, yaxud Xanuman–hindu dinində meymun şəklində təsvir edilən allah; külək və pilunq-meymunun oğlu, qədim hind əfsanəsinə görə o, Vişnu allahını təcəssüm etdirən əfsanəvi padşah və hind əfsanəsinin qəhrəmanı Rama mühüm xidmət göstərmişdir. Meymun Xanumana sitayiş edilməsi Hindistanda indi də çox yayılmış ayinlərdən biridir.

Caqgernaut (Cahannətha)–qədim hind mifologiyasında allah Vişnunu təcəssüm etdirənlərdən biri.
Şlemil, Peter–Şamissonun «Peter Şlemilin qəribə əhvalatı» povestinin öz kölgəsini sehirli pul kisəsinə dəyişən qəhrəman.
Şufterle və Şpigelberq–Şillerin «Qaçaqlar» dramında personajlar, hər cür mə`nəvi keyfiyyətlərdən məhrum olan soyğunçu və qatil surətləri.